AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu

AZƏRBAYCAN ƏDƏBİYYATI TARİXİ
(1960-1980-ci illər)

ON CİLDDƏ, YEDDİNCİ CİLD

II HİSSƏ

Bakı - "Elm" - 2025

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu

AZƏRBAYCAN ƏDƏBİYYATI TARİXİ
(1960-1980-ci illər)

ON CİLDDƏ, YEDDİNCİ CİLD

II HİSSƏ

Akademik İsa Həbibbəylinin
ümumi redaktəsi ilə nəşr olunur.

REDAKSİYA ŞURASI

İsa Həbibbəyli (*baş redaktor*)
Asif Rüstəmli (*məsul redaktor*), Günay Qarayeva (*məsul katib*),
Mehman Həsənli, Əlizadə Əsgərli, Aygün Bağırlı, Sara Osmanlı,
Safurə Quliyeva, İlham Məmmədli

AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu Elmi Şurasının
30 iyun 2025-ci il, 5 saylı qərarı ilə nəşrə tövsiyə olunmuşdur.

Azərbaycan ədəbiyyatı tarixi (1960-1980-ci illər). On cilddə, VII cild, II hissə. Sovet dövrü Azərbaycan ədəbiyyatında "Aralıq ədəbi nəsil" və sərt realizm-modernizm mərhələsi. Bakı, "Elm", 2025, 950 səh.

On cildlik Azərbaycan ədəbiyyatı tarixinin VII cildi üç hissədən ibarətdir. Sovet dövrünün konkret bir dövrünü əhatə edən VII cildin ikinci hissəsinə 1960-1980-ci illər Azərbaycan ədəbiyyatının poeziyası, nəsri və bu sahənin görkəmli ədəbi şəxsiyyətləri haqqında portret-oçerklər daxildir. Kitabda işıqlandırılan mövzular dövrlər, istiqamətlər üzrə araşdırılmış və tədqiq edilmişdir.

Akademik nəşrdə XX əsr Azərbaycan ədəbiyyatının 1960-1980-ci illər dövrü ilə bağlı poeziya və nəsr haqqında icmal, şair və yazıçılar haqqında elmi oçerklər yer almışdır.

Fundamental elmi-tədqiqat işində ədəbi-tarixi proses geniş, əhatəli təqdim olunmuş, ədəbi şəxsiyyətlər haqqında yazılar son illərin araşdırmaları, yeni mənbələr, məxəzlər əsasında işlənib hazırlanmış və təqdim edilmişdir.

ISBN _____

© "Elm" nəşriyyatı, 2025

AZƏRBAYCAN ƏDƏBİYYATINDA “ARALIQ ƏDƏBİ NƏSİL” VƏ “ALTMIŞINCILAR” MƏRHƏLƏSİ, YAXUD SƏRT REALİZM – MODERNİZM DÖVRÜ

(1960-1980-ci illər)

XX əsrin əvvəllərində sovet hakimiyyətinin qurulması ilə əlaqədar olaraq Azərbaycan ədəbiyyatı ideologiyalaşdırma prosesləri yaşamalı olmuşdur və bu da ədəbi-tarixi prosesdə tədricən özünün sinfi xarakterli ədəbiyyatını yaratmışdır. Doğrudur, sosializm idealları üstündə köklənmiş sovet ədəbiyyatı çərçivəsində, nə qədər çətin olsa da, əsl ədəbiyyat nümunələri də meydana çıxmışdır. Böyük istedad sahibi olmuş Səməd Vurğun, Mikayıl Müşfiq, Mirzə İbrahimov, Rəsul Rza, Mir Cəlal, Mehdi Hüseyn, İlyas Əfəndiyev, Ənvər Məmmədxanlı və başqaları kimi yazıçı və şairlər sovet ideologiyasının əleyhinə çıxmadan, gerçək həyat və əsl insan haqqında ciddi ədəbiyyat yaratmağın yollarını tapmış, xalqın ictimai-mənəvi inkişafına kömək edən bədii əsərlər yazaraq, cəmiyyətdə obyektiv ictimai fikrin və yeni nəsillərin formalaşmasına xidmət göstərmişlər. Ana dilinin qorunub saxlanılmasında, milli adət-ənənələrin yaşadılmasında, vətənpərvərlik ideyalarının genişləndirilməsində sovet dövrü Azərbaycan ədəbiyyatının rolunu ayrıca qeyd etmək lazımdır. Bu mənada XX əsrdə sosializm dövrünün ideoloji meyillərə üstünlük verən Azərbaycan sovet ədəbiyyatı ilə yanaşı, mənsub olduğu xalqa və vətənin tərəqqisinə xidmət edən sovet dövrü Azərbaycan ədəbiyyatı da yaranmış və inkişaf etmişdir. Doğrudur, sovet rejiminin əsasən milli ruhlu yaradıcı ziyalılara qarşı tətbiq etdiyi qanlı 1937-ci ilin repressiya hadisəsi Azərbaycan yazıçılarını da qarsmış, Hüseyn Cavid, Mikayıl Müşfiq, Əhməd Cavad, Hacıbaba Nəzərli, Seyfulla Şamilov kimi yazıçı və şairlərin ən ağır cəzalara məhkum edilməsi və ya Sibirə sürgün olunması ilə ədəbiyyatda milli düşüncənin bədii inikası bir müddət arxa plana keçirilmiş, yaxud da çox örtülü şəkildə ifadə olunmuşdur. Lakin həmin proses əsasən, 1941-1945-ci illər müharibəsi ilə sanki bir qədər unudulmuş, yaxud xeyli dərəcədə zəifləmişdir. Azərbaycan yazıçıları İkinci Dünya müharibəsinin ön mövqeyə çıxardığı vətənpərvərlik duyğularının təsvir və tərənnüm edilməsi tələbindən həm müharibə dövrünün təbliğatını aparmaq və həm də ümumiyyətlə, xalqımızın milli ruhunu dirçəltmək, azərbaycançılıq ideyalarını canlandırmaq baxımından bacarıqla istifadə etmişlər.

Partiyanın 14 fevral 1956-cı ildə çağırılmış XX Qurultayı sovet ədəbiyyatı və incəsənətinin yeniləşdirilməsində həlledici əhəmiyyətə malik olan “Xruşşov istiləşməsi”ni meydana çıxarmaqla, bütün sahələrdə olduğu kimi, bədii yaradıcılıq istiqamətində də əsaslı dəyişikliklərin hərəkətverici qüvvəsinə çevrilmişdir. İlya Erenburqun böyük ustalıqla elan etdiyi “Mülayimləşmə” prosesi Sovetlər İttifaqının hər yerində, o cümlədən də

Azərbaycan ədəbiyyatında da gerçək həyata və real insana doğru əhəmiyyətli bir prosesin yaranmasına ciddi təkan vermişdir. Bu zəmində meydana çıxan Azərbaycan ədəbiyyatının əllincilər nəsli: Bəxtiyar Vahabzadə, İsmayıl Şıxlı, İsa Hüseynov, İmran Qasımov, Məmməd Araz, Xəlil Rza Ulutürk, Nəbi Xəzri, Qabil, Balaş Azəroğlu, Nəriman Həsənzadə, Həsən Seyidbəyli, İslam Səfərli, Əlfi Qasımov, Gülhüseyn Hüseynoğlu, Qasım Qasımzadə, Salam Qədirzadə, Hüseyn Abbaszadə, Hüseyn İbrahimov, Hüseyn Razi, Cəmşid Əmirov, Tofiq Mahmud, İlyas Tapdıq, Rüfət Əhmədzadə, Hikmət Ziya və başqaları ədəbiyyatda sovet ideologiyasından ayrılma proseslərinin başlanması yolunda ilk ciddi addımlarını atmışlar. "Əllincilər" ədəbi nəsli özündən əvvəlki ideoloji xarakterli ədəbiyyatla tam gerçəkçi xarakterə malik olan "Altmışıncılar" ədəbiyyatı arasında körpü funksiyasını yerinə yetirmişdir. Bu mənada "əllincilər" ədəbi nəsli Azərbaycan ədəbiyyatının "Aralıq ədəbi nəsil" missiyasını həyata keçirmişdir. Daha doğrusu, Azərbaycan ədəbiyyatının "Əllincilər" ədəbi nəsli yazdıqları bədii əsərləri ilə ədəbiyyatda sovet ideologiyasının buzlarını əritməyə, tilsimlərini sındırmağa başlamışlar. Məhz bu illərdə cəmiyyətdə və ədəbiyyatda İosif Stalin xofunun çəkilməsi prosesi yaşanmışdır. Nikita Xruşşovun XX Qurultayın tribunasından Stalinin şəxsiyyətinə pərəstişin aradan qaldırması haqqında dörd saat ayaqüstə etdiyi kəskin tənqidi ruhlu məruzə və qəbul edilmiş qərarlar cəmiyyət həyatının bütün sahələrində, o cümlədən ədəbiyyat cəbhəsində də siyasi iqlimin mülayimləşdirilməsinə yol açmışdır. Bu isə öz növbəsində sovet ədəbiyyatının vahid yaradıcılıq metodu olan sosialist realizmi metodunun təkhakimiyyətli hökmranlığına ilk zərbə vurmuşdur. Nəticədə, siyasi-ideoloji mühitə daxil olmağa başlayan ilıq ab-hava ədəbiyyatda da özünün əks-sədasını tapmışdır ki, bu da öz növbəsində ədəbiyyatda hələlik fərqli bədii metodun olmasına, yeni ədəbi nəslin meydana çıxmasına səbəb olmuşdur. "Əllincilər" ədəbi nəsli məhz həmin siyasi-ideoloji şəraitdə yetişib formalaşmış yazıçı və şairlərdən ibarətdir. Bu ədəbi nəsil Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra formalaşdırılmış sosialist məzmunlu ədəbiyyatla XX əsrin altmışıncı illərində yaranmış milli ruhu, gerçəkliyi ifadə edən "Altmışıncılar" arasında meydana çıxmış "Aralıq ədəbi nəsil"in təzahürü demək idi. "Aralıq ədəbi nəsil"i təmsil edən yazıçı və şairlərin həyat həqiqətlərini və insanın mənəvi aləmini əks etdirən bədii əsərləri "formaca milli, məzmunca sosialist" mahiyyəti daşıyan sosialist realizmi ədəbiyyatının ideoloji prinsiplərini sındırmış, həyat həqiqətlərinə doğru yeni toplu bir ədəbiyyatın ön mövqeyə çıxmasına meydan açmışdır. "Aralıq ədəbi nəsil" nümayiş etdirdiyi davamlı və dayanıqlı ədəbi-ictimai mövqe ilə tədricən sovet ədəbiyyatının vahid yaradıcılıq metodu olan sosialist realizminin ideoloji buzlarının əridilməsinə, bu yaradıcılıq metodunun nisbətən arxa plana keçirilməsinə və ya ən azı, zəifləndirilməsinə nail ola bilmişlər. Bu proses son

nəticədə sosialist realizminin zahiri fon kimi saxlanılması şəraitində formaca da, məzmunca da milli ədəbiyyatın yaradılmasına müəyyən üfüqlər açmışdır. Xalq şairi Rəsul Rzanın şeirlər silsiləsini "Pəncərəmə düşən işıq" adı ilə təqdim etməsi və Nəbi Xəzrinin yeni sosialist şəhəri olan Sumqayıt sənaye şəhərinin salınması və inkişafına həsr edilmiş poemasını "Üfüqlərdən-üfüqlərə" adlandırması yalnız sosializm quruculuğu prosesləri ilə bağlı olmayıb, həm də bəlkə də daha çox sovetlər ittifaqı miqyasında "Xruşşov mülayimləşməsi" prosesinin açdığı yeni imkanların ədəbiyyatdakı əks-səsi idi.

Doğrudur, "Əllincilər" adlanan "Aralıq ədəbi nəsil" yazıçılarının yaradıcılığında, xüsusən nəsr əsərlərində sovet quruluşuna aid "kolxoz", "partkom", "komsomol", "pioner" və sair kimi sözlər tam aradan qaldırılmamışdır. Lakin bədii əsərlərdə həmin ifadələrdən əksər hallarda hadisələrin cərəyan etdiyi yeri, obrazların daşıdıqları rəsmi vəzifələrin adlarını, yaxud yaş həddini göstərmək üçün istifadə olunmuşdur. Bəzən isə yazıçı və şairlər sovet siyasi rejiminə aid olan bəzi sözlərdən istifadə etməklə əsərlərin də təsvir etdikləri həyat həqiqətlərini senzuranın diqqətindən yayındırmaq məqsədilə faydalanmışlar. "Əllincilər"in – "Aralıq ədəbi nəsil"in yaradıcılığında adları çəkilmiş siyasi terminlərin heç biri təbliğ olunmamışdır. "Əllincilər"in yaradıcılığında kommunist partiyasını kolxoz təsərrüat sistemini mədh edən komsomol və ya pioner hərəkatından müsbət və ya mənfi mənada söz açan konkret bədii əsərlər yox dərəcəsindədir. Bu ədəbi nəsil sovet dövlətinə loyal münasibət bəsləməklə, diqqəti siyasi proseslərdən yayındırmaqla, həyata və insana doğru ədəbi yürüşə çıxmağa istiqamətləndirilən hərəkatı mümkün olduqca genişləndirməyə və dərinləşdirməyə çalışmışdır.

"Əllincilər" ədəbi nəsli özünü ən çox poeziyada büruzə vermişdir. Şair Bəxtiyar Vahabzadənin (1925-2009) elan etdiyi "əgər sevirsənsə, ayaq səsimdən, gərək biləsən ki, Bəxtiyar gəlir" – misralarında ifadə olunan çağırışın yalnız sevgiliyə yox, daha çox mövcud cəmiyyətə, ədəbi mühitə həyat nəfəsli və vətənpərvər ruhlu yaradıcı qüvvələrin gəlməsinin parolu kimi səslənmişdir. Bütövlükdə sovet ədəbiyyatında, o cümlədən də Azərbaycan ədəbiyyatında dövrün özünün hazırlayıb yetişdirdiyi yeni ədəbi nəslin – "Əllincilər"in ayaq səsləri eşidilməyə başlamışdır. Bəxtiyar Vahabzadənin İosif Stalinin ölümündən bir az sonra, XX Qurultaydan azca əvvəl yazıb regionda – "Şəki fəhləsi" qəzetində çap etdirdiyi məşhur "Gülüstan" poeması və bunun ardınca səsləndirilmiş "Ana dili" şeiri dövrün ədəbiyyatını təmsil edənlərin hansı cəsarətin sahibi olduqlarını cəmiyyətə çatdırmışdır. Xəlil Rzanın (1932-1994) "Afrikanın səsi" şeiri ilə qoca qitə bəhanə edilərək, Sovetlər İttifaqında azadlıq ideyalarının olmaması tezisi ədəbi mühitin gündəminə gətirilmişdir. Məmməd İbrahimin – Məmməd Arazın böyük oxucu mühitində sürətlə yayılmış "Araz axır" poeması Azərbaycan

ədəbiyyatında ayrılıq və bütövlük ideyalarının genişləndirilməkdə olduğunu təsdiq etmişdir. Nəriman Həsənzadənin (1931) zahirən sakit görünən misralarının alt qatındakı köz mühitin soyuq ab-havasının tədricən istiləşdirilməsinə təkan verə bilmişdir. Əhməd Cəmilin (1913-1977) şeir kitablarının birinin "Mənim azad torpağım" adlandırılmasının dərin qatlarında milli-mənəvi azadlıq düşüncəsi ifadə olunmuşdur. Eyni zamanda Zeynal Cabbarzadənin (1920-1977) "Bahar gəlir" kitabı da təkcə təbiət hadisəsi olan yaz fəslinin gəlməsini yox, həm də ictimai-ədəbi mühitə ilıq bir ab-havanın gəlməsi fikrinin ifadə edirdi.

Beləliklə, XX əsrin əllinci illərinin poeziyası sovet dövrü Azərbaycan ədəbiyyatının aydın vətəndaşlıq mövqeyinin, həyata doğru proseslərin genişləndirilməsi ədəbi mərhələsinə çevrilmişdir. Məhz bu dövrdən etibarən tədricən Azərbaycan ədəbiyyatından (1925-2009) Stalin xofunu çıxarılmış, həyatı və insan mənəviyyatını təbii şəkildə əks etdirən yeni tipli ədəbiyyata yol açılmışdır. Bəxtiyar Vahabzadənin "Bahar" (1950), "Çinar" (1956), "Sadə adamlar" (1956), "Aylı gecə" (1958), "Şəbi-hicran" (1959), Məmməd Arazın (1933-2004) "Sevgi nəğməsi", "Anamdan yadigar nəğmələr", Xəlil Rzanın "Bahar gəlir" (1957), "Sevən gözlər" (1959), Cabir Novruzun (1933-2002) "İnsan məhəbbəti", Qabilin (1926-2007) "Səhər açılır", "Sahil işıqları", "Məhparə", "Mənim mavi Xəzərim", "Küləkli havalarda", Qasım Qasımzadənin (1923-1993) "Bizim kənd", "Bizim səhər", "Bizim dağlar", "Ürək döyüntüləri" kitabları, Xanımana Əlibəylinin (1920-2007) səmimi uşaq şeirləri və başqa şairlərin onlarla bədii əsərləri Azərbaycanda "Mülayimləşmə" dövründə ideologiyadan uzaqlaşmaq proseslərinin yaratdığı ədəbiyyatın canlı təzahürləri idi. "Əllincilər"in poeziyasında çox işlənən "Bahar gəlir", "Küləkli havalarda", "Səhər açılır" kimi adlar və ifadələr təbiət hadisəsindən çox cəmiyyətdə gedən mülayimləşmə proseslərinin poetik ifadəsi demək idi. Eyni zamanda şairlərin kitablarının adları kimi təqdim etdikləri "İnsan məhəbbəti", "Sadə adamlar", "Sevgi nəğməsi", "Ürək döyüntüləri" kimi ifadələr isə "Əllincilər"in insan mənəviyyatına doğru dönüşünü ifadə edirdi. Beləliklə, "Aralıq ədəbi nəslin" poeziyası Azərbaycan şeirini XX əsrin otuz-qırxıncı illərin ideologiyayönlü poeziyasından "Altmışıncılar"ın adi həyat hadisələrinin və sadə adamların mənəvi aləminin şeiriyyətinə doğru aparmaq funksiyasını böyük şərəflə daşımışdır.

Bədii nəsr sahəsində də XX əsrin əllinci illərində Azərbaycan ədəbiyyatının yeni nəsli ədəbi mühitin qapılarını döyməyə başlamışdır. İkinci Dünya müharibəsinə və kolxoz kəndinə birmənalı baxmayan bu yeni ədəbi nəslin əsərləri ədəbiyyatda və mətbuatda ideologiya və gerçəklik münasibətlərində balansın dəyişməsinə öz təsirini göstərmişdir. İsa Hüseynovun (1928-2015) "Bizim qızlar" (1953), "Dan ulduzu" (1955), "Yanar ürək" (1960) povestlə-

rində kolxoz quruluşu şəraitində sosializm yarışından deyil, insan taleləri-ndən, mənəvi münasibətlərdən, çətinliklərdən və hətta problemlərdən də söz açılması dövrün ədəbi tənqidini çaşdırmışdır. Qırğız ədəbiyyatında Çingiz Aytmatovun (1928-2008) "Cəmilə", "İlk müəllim", "Əlvida, Gülsarı", "Ana tarla" kimi povestlərində əks etdirilən adi həyat materialı və sadə insanların mənəvi dünyasının təqdimatı Azərbaycan ədəbiyyatında İsa Hüseynovun ilk hekayələri və povestlərində qabarıq şəkildə ifadə olunmuşdur. Bu yazıçılar: Çingiz Aytmatov və İsa Hüseynov bir-birilərinin əsərlərindən yox, hər ikisi, həm də onların mənsub olduqları ədəbi nəsil bütövlükdə sovet cəmiyyətində baş vermiş gözlənilməz siyasi-ideoloji dönüşdən təsirlənərək, yaradıcı şəkildə faydalanaraq, fərqli coğrafiyalarda həyata və insana münasibətdə oxşar bədii yanaşma ilə gerçəkliyi, həyat həqiqətlərini əks etdirən orijinal nəsr əsərləri yaratmışdır. İsmayıl Şıxlının (1919-1995) "Kerç sularında" (1950), "Ayrılan yollar" (1957) romanlarında da İkinci Dünya müharibəsinin əhvalatları vəsf edilmək tonu ilə yox, müəyyən dərəcədə təftiş olunmaq intonasiyası ilə təqdim edilmişdir.

Həsən Seyidbəylinin (1920-1980) "Kənd həkimi" (1950), "Kür sahil-lərində" (1953), "Telefonçu qız" (1960), "Cəbhədən-cəbhəyə" (1961) və sair nəsr əsərlərində də, həqiqətən, Azərbaycan ədəbiyyatının cəbhədən-cəbhəyə, yəni ideoloji sxemlər əsasında yaradılan ədəbiyyat cəbhəsindən həyat həqiqətlərinin təsvir edilməsi cəbhəsinə keçdiyini real şəkildə ifadə edən aydın gerçəkçi mövqe ifadə olunmuş, canlı və təsirli səhnələr, yaddaqalan bədii obrazlar yaradılmışdır. Əlfi Qasımovun (1927-1985) qış nağılına, Salam Qədirzadənin (1923-1987) lətifələrə bənzəyən, oxuculara çox yaxın dildə və ovqatda yazılmış nəsr əsərləri ədəbiyyatda yeni axının mövqelərinin möhkəmləndirilməsinə təkan vermişdir.

Nəhayət, geniş mənada sovet ədəbiyyatında, o cümlədən də Azər-baycan ədəbiyyatında uzun sürən fasilədən sonra satirik əsərlər mətbuatda daha davamlı şəkildə gözə dəymişdir. Salam Qədirzadə ilə yanaşı, Rüfət Əhmədzadə (1933-1988), Hikmət Ziya (1929-1995), Rüfət Zəbioğlu (1932-1983) və başqalarının müxtəlif satira janrlarında yaratdıqları əsərlərdə sovet cəmiyyətində baş verən "bəzi" nöqsanlardan bəhs edilmişdir. Hətta Cəmşid Əmirovun (1918-1982) "Sahil əməliyyatı", "Brilyant məsələsi", "Qara Volqa" kimi romanları ilə Azərbaycan ədəbiyyatında detektiv ədəbiyyatın ilk yaddaqalan nümunələrinin meydana çıxmasında da XX əsrin əllinci illərində sovet cəmiyyətində gedən ictimai-ədəbi proseslər mühüm rol oynamışdır. Satirik və detektiv ədəbiyyatın meydanının genişləndirilməsi ədəbiyyatın həyatın və cəmiyyətin dərinliklərinə, kəskin ictimai problemlərə nüfuz etməsinə yol açmışdır. Bundan başqa, Azərbaycan ədəbiyyatında fantastik ədəbiyyatın da ilk yaradıcıları "Aralıq ədəbi nəslin" nümayəndələri olmuşlar. Emin Mahmudovun (1925-2000) "Muğanda qütb parıltısı", "Kainat gəmisi",

“Veneranın göyləri od içində”, “Qeyb olmuş səhər” və sair fantastik əsərləri Azərbaycan ədəbiyyatının hüdudlarını, necə deyərlər, yerdən-göyə qədər genişləndirmişdir.

Detektiv və fantastik ədəbiyyat kimi, məhz əllinci illərdə meydana çıxmış mənsur şeir də “Mülayimləşmə” dövrünün əks-sədasında doğulmuş yeni tipli ədəbiyyat nümunəsi idi. XX əsrin əvvəllərində Azərbaycan ədəbiyyatında mənsur şeir nümunələri yaradılsa da, sovet hakimiyyəti illərində, xüsusən, əllinci illərə qədər bu janrda bədii əsərlər yox dərəcəsində idi. Bu mənada Gülhüseyn Hüseynoğlunun (1923-2013) mənsur şeirləri “Aralıq ədəbi nəsil”in Azərbaycan ədəbiyyatına gətirdiyi yeniliklərdən idi. Doğrudur, Gülhüseyn Hüseynoğlu “Bənövşə əfsanəsi” adlı ilk mənsur şeirini 1946-cı ildə yazıb dövri mətbuatda çap etdirmişdi.[1] Lakin o əsl mənsur şeir ustası kimi XX əsrin əllinci illərində tanınmışdır. Gülhüseyn Hüseynoğlunun “Xəzərin qoynunda” (1957), “Bir ömrün çıraqları” (1958) kitablarındakı hekayələri və povestləri Azərbaycan ədəbiyyatında lirik-psixoloji nəsrin mükəmməl örnəkləri idi. Onun əsasən əllinci illərdə yazdığı mənsur şeirlərdən ibarət olan “Etiraf” adlı kitabında (1961) toplanmış mənsur şeirlər Azərbaycan ədəbiyyatında açılmış “yeni nəfəs”in orijinal bədii təzahürləri idi. Gülhüseyn Hüseynoğlunun mənsur şeirləri həyatın adi görünən canlı lövhələrinin, insanın mənəvi aləminin təbii və ritmik, ahəngdar təqdimatından ibarət idi. Şair ürəkli yazıçının az sonra, 1963-cü ildə çap olunmuş “Nigarançılığın sonu” kitabındakı mənsur şeirlər Azərbaycan ədəbiyyatında bu bu janra tam vətəndaşlıq hüququ qazandırmışdır. Bu mənada kitabın adındakı “Nigarançılığın sonu” ifadəsi sadəcə olaraq bir janrın deyil, bütövlüklə mənsur şeirlər də daxil olmaqla, artıq Azərbaycan ədəbiyyatının bütün janrlarında yaranan bədii əsərlərin ideoloji buxovlardan azad edildiyinə qəti inamın təsdiqi demək idi.

İmran Qasımovun (1918-1981), Əfqanın (1929-2022), Əlfi Qasımovun, Hüseyn İbrahimovun (1919-2008), Çingiz Hüseynovun (1929-2024), Hüseyn Abbaszadənin (1922-2007), Əbülfəz Abbasquliyevin (1914-1985), Ələviyyə Babayevanın (1921-2014), Gəray Fəzlinin (1925-1995), Xalidə Hasilovanın (1920-1996) və başqalarının nəsr əsərləri ideologiyadan uzaqlaşma və gerçəkliyə doğru ədəbiyyat dövrünün reallıqlarını əks etdirir. Bütün bunlar XX əsrin əllinci illərində artıq Azərbaycan ədəbiyyatına yeni bir ədəbi dalğanın gəldiyini de-fakto nümayiş etdirirdi. Bu, İkinci Dünya müharibəsi nəticəsində bir qədər yumşalmış siyasi rejimdən sonra əllinci illərdə Sovetlər İttifaqında baş vermiş dəyişikliklər dalğasında ədəbiyyata və incəsənətə gələn yeni axının təzahürləri idi. Bu mənada “Əllincilər”

[1] Teymur Əhmədov. Azərbaycan yazıçıları XX-XXI yüzilliklərdə. – Bakı: Nurlar, 2011, s.366

ədəbiyyatı özündən əvvəlki ideoloji xarakterli ədəbi istiqamətin yeni siyasi ab-havada keçmişə çevrilməkdə olduğunu ortaya qoymuşdur. İkincisi, "Əllincilər" ədəbi nəsli ədəbiyyatda həyata və insanın mənəvi dünyasına doğru ciddi bir dönüş etmişdir. Üçüncüsü isə məhz "Əllincilər"in yaradıcılığı ilə onlardan sonra Azərbaycan ədəbiyyatına "Altmışıncılar" adlı yeni ədəbi nəslin gəlməsi üçün zəmin hazırlanmışdır. Bu mənada Azərbaycan ədəbiyyatının "Əllincilər" ədəbi nəsli özlərindən əvvəlki ideologiyanın təsiri ilə yaranan ədəbiyyatla onlardan sonra ədəbiyyata gələn ideologiyadan uzaq olan ədəbiyyatın yaradıcıları – "Altmışıncılar" arasında olub, ağsaqqal nəsillə cavan ədəbi nəslin münasibətlərində keçid funksiyasını yerinə yetirmişdir. Bu baxımdan "Əllincilər" funksiyalarına görə mahiyyət etibarilə Azərbaycan ədəbiyyatında "Aralıq ədəbi nəsil" missiyasını həyata keçirmişlər. "Aralıq ədəbi nəsil" sovet cəmiyyətinin sərt ideoloji prinsiplərinin ilk buzqıranları missiyasını yerinə yetirmişlər. İdeoloji baryerlərin tədricən aradan qaldırılması prosesi incəsənətin ayrı-ayrı sahələri ilə müqayisədə ədəbiyyatda daha çox müşahidə edilmişdir. Bu cəhətdən Azərbaycan yazıçı və şairləri keçmiş Sovetlər İttifaqında təmsil olunan digər müttəfiq respublikalarda yaşayıb-yaratmış yaradıcı qüvvələrdən qabaqda olmuşlar. Azərbaycanın Xalq şairi, akademik Səməd Vurğunun 1954-cü ildə çağırılmış Sovet Yazıçılarının II Qurultayında məruzə ilə çıxış etməsi də Azərbaycan ədəbiyyatının həmin dövrdə yeni ədəbiyyata doğru mübarizədə qazandığı özünəməxsus böyük nüfuzun göstəricilərindən biri idi.

Beləliklə, Azərbaycan ədəbiyyatında sovet ideologiyasından aralanma, uzaqlaşma proseslərini yaşayan və həyata, gerçəkliyə, insana, mənəviyyata doğru dönüş etməkdə olan "Aralıq ədəbi nəsil" meydana çıxmış və ədəbiyyatın inkişafında yeni tarixi dövr başlanmışdır. Bu prosesi Azərbaycan ədəbiyyatının tarixi dönüş dövrü də adlandırmaq olar. Özlərindən sonra gələn Azərbaycan "altmışıncılar" ədəbi nəsli üçün ədəbiyyatda zəmin və meydan hazırlamaları da "Əllincilər"in – "Aralıq ədəbi nəsil" yazıçı və şairlərinin xidməti idi.

Bununla belə, Azərbaycan ədəbiyyatşünaslıq elmində "altmışıncılar"dan kifayət qədər yazılsa da, "Aralıq ədəbi nəsil" anlayışı hələlik yeni nəzəri baxış kimi elmi-ədəbi mühitə ilk addımlarını atmaqdadır. XX əsr Azərbaycan ədəbiyyatında da, sovet dövrü Azərbaycan ədəbiyyatında da "Əllincilər"in – "Aralıq ədəbi nəslin" mühüm yeri və rolu olmuşdur. Ədəbi-tarix dönüş proseslərini, "Aralıq ədəbi nəsli"n fəaliyyətini və xidmətlərini elmi surətdə araşdırıb dəyərləndirmədən son yüzilliyin ədəbiyyatına obyektiv qiymət vermək çətin olar. "Aralıq ədəbi nəsil" anlayışı və bu ədəbi nəslin özünəməxsus xidmətləri, Azərbaycan ədəbiyyatındakı yeri və mövqeyi haqqında geniş və sistemli tədqiqatların aparılmasına ehtiyac vardır.

***

Məlum olduğu kimi, geniş mənada sovet ədəbiyyatında, o cümlədən də Azərbaycan ədəbiyyatında sosialist realizmi yaradıcılıq metodunun təsir dairəsinin aradan qaldırılmasında "Altmışıncılar" ədəbi nəsli həlledici rol oynamışdır. Yaxşı mənada Sovetlər İttifaqının ayrı-ayrı müttəfiq respublikalarında "peyda olan" bu yeni ədəbi nəsil ədəbiyyatın inkişafında xüsusi bir mərhələnin açılmasını qaçılmaz bir hala gətirmişdir. Sovet ədəbiyyatının yeni nəsli kimi bədii yaradıcılıq meydanına qədəm qoymuş Aleksandr Qaliç, Boris Pasternak, Vladimir Vısotski, Yevgeni Yevtuşenko, Andrey Voznesenski, Bella Axmadulina, İosif Brodski, Bulat Okucava, Boris Slutski, Fazil İskəndər, Valentin Rasputin, Vasili Şukşin və onlarla başqalarının çap etdirdikləri əsərlərlə ədəbiyyatda kommunist ideologiyasının təbliğinə birdəfəlik fatihə oxunmuşdur. Azərbaycanda da ədəbi fikrin sovet ideologiyasından ayrılması üzərində tam və qəti qələbəni qazanmaq missiyasını bizim ölkənin altmışıncıları – Anar, Elçin, Əli Kərim, Fikrət Qoca, Sabir Əhmədli, Yusif Səmədoğlu, İsi Məlikzadə, Ələkbər Salahzadə, Fikrət Sadıq, İsa İsmayılzadə, Çingiz Ələkbərzadə, Vaqif Səmədoğlu və başqaları həyata keçirmişlər. Azərbaycan altmışıncıları ölkəmizdə real azərbaycançı və əsl gerçəkçi ədəbiyyatın yeni tarixi mərhələsini yaratmağa nail oldular. Bu ədəbi nəslin nümayəndələrindən hər birinin Azərbaycan ədəbiyyatının və ictimai fikrinin inkişafında mühüm xidmətləri vardır.

Xalq yazıçısı Anarın 1960-cı ildə "Azərbaycan" jurnalının on ikinci sayında çap olunmuş iki hekayəsi – "Bayram həsrətində" və "Keçən ilin son gecəsi" ilə Azərbaycanda altmışıncılığın ilk təməlləri atılmış oldu. Bu hekayələr 1960-cı ilin dekabr ayında Moskvada çap olunan "Yunost" jurnalının on ikinci sayında Stanislav Rassadin adlı Moskva Dövlət Universitetinin məzunu olan bir müəllifin "Altmışıncılar: gənc müasirimiz haqqında kitab" adlı məqaləsi ilə eyni vaxtda baş vermiş yeni hadisə idi. "Altmışıncılar" sözünün ilk dəfə mətbuatda elan olunduğu həmin anlarda Azərbaycan ədəbiyyatı Anarın hekayələri vasitəsilə yeni "eksiztensialist insan modelini özünəməxsus şəkildə əks etdirən"[1] yeni ədəbi nəslin artıq meydanda olmasının parolunu vermişdir.

"Azərbaycan" jurnalının təqdim etdiyi "Bayram həsrətində" və "Keçən ilin son gecəsi" hekayələri gerçək həqiqətləri və sadə insanların adi həyatını və mənəvi dünyasını oxuculara çatdırmaqla "Altmışıncılar" ədəbi nəslinin yeni tipli ədəbiyyatının anonsunu vermişdir. "Bayram həsrətində" hekayəsi Azərbaycan ədəbiyyatında ideoloji sxemlərdən uzaq olan, "kiçik adam"lara aid sadə əhvalatlar vasitəsilə gerçək mətləbləri təsvir edən yeni tipli ədəbiyyatın yaranması həsrətinə son qoyan yaddaqalan bədii nümunə oldu.

[1] Tehran Əlişanoğlu. Realizmdən modernizmə. Bax: Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı. İki cilddə, I c. – Bakı: Elm və və təhsil, 2016, s.283

Azərbaycan oxucuları Anarın "Bayram həsrətində" hekayəsi ilə oxucuların həsrətlə gözlədikləri sadə dildə yazılmış gerçək bir həyat hekayəsi ilə tanış ola bildilər. "Keçən ilin son gecəsi" hekayəsi də, obrazlı şəkildə desək, sosialist realizmi ədəbiyyatının özünün sonuncu gecəsini yaşamaqda olduğunu nəzərə çarpdırdı.

Keçən altmış ildən artıq bir dövr ərzində Xalq yazıçısı Anar (1938) Azərbaycan hekayəsinin mükəmməl örnəklərini yaratmışdır. Heç tərəddüd etmədən, bu hekayələrdən bir çoxunu və əslində onların mütləq əksəriyyətini ümumiyyətlə Azərbaycan və dünya hekayəçiliyinin mükəmməl örnəkləri kimi qiymətləndirmək olar. Anarın "Yaxşı padşahın nağılı" (1970) hekayəsi keçmiş sovet cəmiyyətinin alleqoriyası kimi meydana çıxmış sərt tənqidi realist əsərdir. Böyük cəsarətlə və uzaqgörənliklə yazılmış bu hekayədə sovet cəmiyyətinin mənəvi-siyasi çöküşü və iflasının reallıqları məharətlə əks etdirilmişdir. Türk Ədəbiyyatı Vəqfinin "Yaxşı padşahın nağılı" hekayəsini 2018-ci ildə İstanbulda türk, rus, özbək, qazax, türkmən, qırğız, tatar, başqırd, qaqauz dillərində ayrıca kitab kimi nəşr edib geniş dairədə yayması, heç şübhəsiz, bu hekayədə qaldırılan problemlərin aktuallığı və müasirliyinə verilmiş yüksək qiymətin ifadəsidir. Həqiqətən də "Yaxşı padşahın nağılı" bir hekayədə ciddi bir roman mövzusunu əks etdirən mükəmməl bədii əsərdir.

Anarın XX əsrin altmış-səksəninci illərində çap olunmuş digər hekayələri də dərin ictimai məzmununa və özünəməxsus sənətkarlıq xüsusiyyətlərinə görə böyük ənənələri olan Azərbaycan hekayəçiliyinin qızıl fonduna vəsiqə almış kamil sənət örnəkləridir. "Mən, sən, o və telefon" hekayəsi cəmiyyətdəki tənhalaşma və eyniləşmə proseslərinin zahirən adi görünən düşündürücü hadisələr vasitəsilə təqdim olunmasının təkrarsız-bənzərsiz nümunəsidir. "Asılqanda işləyən qadın" hekayəsi də, adından göründüyü kimi, sadə adamların hekayəti kimi yaradılmışdır. Məşhur "Gürcü familiyası" hekayəsi məcazi mənada yeni dövr Azərbaycan hekayəsinin soyadı kimi ümumiləşdirilməyə layiq olan yaddaqalan, təsirli nəsr əsəridir. Anarın "Molla Nəsrəddin – 66" və "Molla Nəsrəddin – 86" satirik hekayələr silsiləsi tənqidi realist və modernist hekayəçiliyin orijinal təzahürləri kimi kiçik janrın böyük örnəkləri olaraq Azərbaycan hekayəsinin tarixində yeni hadisə idi.

Cəlil Məmmədquluzadənin "Molla Nəsrəddin"indən Anarın "Molla Nəsrəddin – 66"sına keçid Azərbaycan ədəbiyyatının özünəqayıdışının və yeni rakursda inkişaf etdirilməsinin mümkünlüyünün isbatı idi. Anarın "Zarafatsız" adlandırdığı hekayədə təsvir edilən ciddi hadisələri o zaman zarafatyana şəkildə də demək risk tələb edirdi. Anar isə sadə və dönməz bir ədəbi təmkinlə "Gülməşəkər kəndinin sabahı"ndakı xalqdan uzaq planları – filanları, "Biz tənqid edəndən sonra" hekayəsi ilə üstü açılan yalanları cəmiyyətə çatdırmaqda davam etdirmişdir. Anarın hekayə kimi təqdim etdiyi

“Bildiriş”, “Elanlar”, “Düzəliş”, “Bizim müsahibə”, “Biz tənqid edəndən sonra” əslində, həm də yeni tarixi mərhələnin satirik ədəbiyyatının orijinal janrları olaraq nəzərə çarpdırılmışdır. Beləliklə, Anar Azərbaycan ədəbiyyatının ideya-məzmunca olduğu kimi, sənətkarlıq baxımından da yeniləşdirilməsinə nail olmuşdur.

“Molla Nəsrəddin – 86” satirik hekayələr silsiləsi təkcə Anarın yaradıcılığında deyil, geniş mənada Azərbaycan cəmiyyəti və ədəbiyyatının həyatında mühüm bir hadisə kimi qarşılanmışdır. Belə ki, “Molla Nəsrəddin – 66”da mövcud cəmiyyətin “təmiri” məsələlərini qələmə alan yazıçı “Molla Nəsrəddin – 86” ilə sovet siyasi sisteminin öz oxu ətrafından çıxarılması məsələlərini yüksək vətəndaşlıq mövqeyindən təsvir etmişdir. “Molla Nəsrəddin – 86”dakı aşağıdakı sözlər dövlət müstəqilliyi ərəfəsində cəmiyyətin dəyişdirilməsinə təsir göstərən yüksək vətəndaşlıq ruhunda əsərlərin yazılması zərurətinin gəlib çatdığını ədəbi-siyasi mühitin gündəminə gətirir: “Salam, Molla Nəsrəddin babam!.. Bu dəm – əsrin qurtar-qurtarında papağımızı qabağımıza qoyub fikirləşəndə, götür-qoy edəndə, ... görürük ki, sənsiz işimiz aşmayacaq. Çünki gülmüşük də, sevinmişik də, fərəhlənmişik də... Amma bəzən nəyə güldüyümüzü əməlli-başlı başa düşməmişik. ...Hələ baxaq, gözləyək, görək axırı necə olur? Nə deyirəm, babam, baxaq, görək, amma gözləməyək. Bu yolda iş gərəkdir, qurmalını qurmalıyıq, vurmalını vurmalıyıq, gülməliyə gülməliyik. Qolumuzu çırmalayıb işi dəyişməsək, doğrudan da, heç nə dəyişməyəcək – köhnə hamam, köhnə tas...”[1]

Anarın yaradıcılığında ilk ən böyük hadisə olan “Ağ liman” povesti – ədəbiyyatda adi əhvalatlara və sadə insanlara doğru dönüşün manifesti sayıla bilər. “Ağ liman” – Məmməd Nəsirin hekayəsi, Nemətin povesti, Təhminə ilə Zaurun romanıdır. Əslində, “Ağ liman” Azərbaycan ədəbiyyatının mövcud epoxada yan aldığı yeni və fərqli bir “liman” idi. Nəhayət, “Ağ liman” – Anarın fərqli bir yazıçı kimi özünütəsdiqinin möhürüdür. Azərbaycan “Altmışıncılar”ının da yeni yaradıcı bir nəsil kimi özünütəsdiqində Anarın əsərlərinin, xüsusən “Ağ liman” povestinin mühüm rolu olmuşdur. Bundan sonra Anarın “Beşmərtəbəli evin altıncı mərtəbəsi” romanı ilə Azərbaycan ədəbiyyatı öz inkişaf yolunda yeni bir “mərtəbə” qazanmış oldu. Doğrudur, “Beşmərtəbəli evin altıncı mərtəbəsi” əslində “Ağ liman”ın üzərində ucaldılmış bir mərtəbədir. Anar bu çoxmərtəbəli mühitə Spartak, Zivər xanım, rejissor Muxtar, restoran müdiri Nadir və başqaları kimi yeni obrazları da daxil etməklə, dairəni xeyli dərəcədə genişləndirmişdir. Bakıda Beşmərtəbə adı ilə tanınan adi bir bina bu romanda darıxan, tənha, mənəvi

[1] Anar. Molla Nəsrəddin – dünən, bu gün. – Bakı: Nurlan, 2011, s.284-285

çırpıntılar içərisində yaşayan insanların gündəlik qayğılarının, narahatlıqlarının geniş planda hekayəti, yazıçının isə estetik idealının romanıdır. Anarın Təhminə və Zaur kimi qəhrəmanları ilə "əllincilərin" – "Aralıq ədəbi nəslin" Azərbaycan ədəbiyyatına gətirdikləri həyat nəfəsli obrazlar inkişaf edərək, həyatın adiliklərinin daşıyıcısı olan obrazlara çevrilmiş və prosesi dərinləşdirmiş və tamamlamışdır. Anar isə hər yeni əsəri ilə yaradıcılığındakı adi əhvalatlar və sadə adamlar silsiləsini genişləndirmiş və dərinləşdirmişdir. Onun "Dantenin yubileyi" povesti, "Şəhərin yay günləri" pyesi kimi əsərlər və dövlət müstəqilliyi dövrünə qədər yazdığı hekayələri "Aralıq ədəbi nəsil"lə başlanan proseslər yeni ədəbi mərhələ səviyyəsinə qaldırılmışdır. Anarın "Ağ qoç, qara qoç" romanı Azərbaycan cəmiyyətində və həm də ədəbiyyatda keçid proseslərinin güzgüsüdür. Anarın simasında yalnız bir yazıçı yox, bütövlükdə Azərbaycan ədəbiyyatı və xalqımız "Ağ qoç, qara qoç" əsəri ilə keçid proseslərini adlayaraq, müstəqillik epoxasına qədəm qoymuşdur. "Ağ qoç, qara qoç" Azərbaycanın parçalanması təhlükəsinin həyəcan təbili, ölkəmizdə birlik və bütövlüyə çağırışın uvertürasıdır. Anar "Göz muncuğu" povesti ilə dövlət müstəqilliyinin göz bəbəyi kimi qoruyub saxlanılmasının hər kəsin ən müqəddəs vəzifəsi olması haqqında vətəndaşlıq çağırışını ifadə etmişdir. Son vaxtlarda 2024-cü ilin hekayəsi kimi meydana çıxmış "Qatardan qalan adam" hekayəsində Anar müstəqillik dövründə dünyaya açılan Azərbaycanın yeni münasibətlər sistemində xalqımızın əldə etdiyi imkanları və həm də milli-mənəvi dəyərlərdən uzaqlaşma proseslərinin gətirə biləcəyi təhlükələri diqqət mərkəzinə çəkməklə oxucunu müasir dövrün çağırışlarına hazırlamaq missiyasını həyata keçirmişdir.

Azərbaycan ədəbiyyatının "Altmışıncılar" hərəkatında Xalq yazıçısı Elçinin (1943-2025) əsərlərinin də xüsusi yeri və əhəmiyyəti vardır. Yazıçının 1966-cı ildə çap etdirdiyi "Min gecədən biri" kitabında toplanan hekayələr ədəbiyyatda adi adamların sadə və aydın süjet əsasında təqdim olunmuş orijinal və təsirli hekayəti idi. Kitabın adındakı "Min gecədən biri" anlayışı da Elçinin əslində "Altmışıncılar" ədəbi nəslinin yaradıcılığı üçün səciyyəvi olan adi günlərin və sıravi adamların hekayəsini yaratmaq qayəsinin ifadəsidir. Elçin bu prosesin miqyasını "Sos" və "Açıq pəncərə" prosesləri ilə daha da genişləndirmişdir. "Sos" povesti Elçinin yaradıcılığının başlanğıc mərhələsində sovet ədəbiyyatı anlayışının süquta məruz qalmasının nidası idi. Obrazlı mənada "Açıq pəncərə" povesti Elçinin yeni ədəbiyyata, müasir insana və yeni həyata açdığı pəncərəni də simvollaşdırır. Əlbəttə, Elçinin "Altmışıncı"lar ədəbiyyatındakı əsas yeri və mövqeyi tam halda yazıçının 1973-cü ildə çap etdirdiyi "Gümüşü, narıncı, məxməri" kitabı ilə qəti şəkildə təsdiq olunmuşdur. Bu hekayələr artıq Azərbaycan altmışıncılarının sözün əsl mənasında yeni ədəbiyyat yaratmaq sahəsindəki böyük istedadının göstəricisi kimi diqqəti cəlb edirdi. Elçinin "Bu dünyadan

qatarlar keçər" kitabındakı hekayələr sadəcə, Elçinin yaradıcılığında deyil, bütövlükdə Azərbaycan ədəbiyyatının yeni tarixi dövrünün hadisəsi idi. Elçin artıq ədəbiyyata həyatın "Gümüşü, narıncı, məxməri" çalarlarını gətirmiş, Abşeron silsiləsində olan bənzərsiz obrazları ilə özünün möhürünü vurmuş istedadlı bir yazıçı olduğunu isbat etmişdir. "Baladadaşın ilk məhəbbəti", "Baladadaşın toy hamamı" hekayələri ədəbiyyatın mirvarisi sayılan hekayə janrının Azərbaycan ədəbiyyatındakı nadir sənət örnəkləridir. Baladadaş obrazı zahirən satirik tiplər kimi görünən adi insanların daxili-mənəvi dünyasının işığını tapıb üzə çıxaran Elçinin ədəbiyyatdakı bədii kəşfidir.

Elçinin XX əsrin yetmiş-səksəninci illərində yazdığı "Bir görüşün tarixçəsi" romanı detektiv ədəbiyyatın yeni təzahürü kimi meydana çıxmışdır. Yazıçı bu əsərlə cəmiyyətdəki ictimai problemləri detektiv ədəbiyyat vasitəsilə ifadə etməklə daha cəlbedici bədii formada xalqa çatdırmağı bacarmışdır. Elçinin "Mahmud və Məryəm" (1983), "Ağ dəvə" (1985), "Ölüm hökmü" (1989) romanları həyatın adiliklərindən çox, cəmiyyətin dərinliklərini əks etdirən, görünməyən qatlara nüfuz edən, beləliklə, Azərbaycan ədəbiyyatının qarşısında yeni səhifələr, geniş üfüqlər açan əsərlər kimi "Altmışıncılar" ədəbiyyatına yeni yaradıcılıq imkanları qazandırmışdır. Elçin məşhur "Baş" tarixi romanında (2016) Azərbaycan xalqının tarixi taleyi ilə əlaqədar mühüm ictimai-siyasi prosesləri böyük istedadla əks etdirmiş, XIX əsrin böyük bir dövrünün hadisələri və şəxsiyyətlərinin timsalında müstəmləkəçilik siyasətinin ağır və mürəkkəb təzahürlərini nəzərə çatdırmışdır. Elçinin çətin və mürəkkəb bir dövrdə Azərbaycana rəhbərlik etmiş bir şəxsə həsr edilmiş "Mir Cəfər Bağırov kim idi? Şəxsiyyəti, əməli və taleyi" (2024) adlı siyasi-tarixi əsərində XX əsrdə həm sovet dövlətinin və həm də Azərbaycanın faciəsi öz əksini tapmışdır. Cəmiyyətdə gedən proseslərə sərt tənqidi münasibət, psixologizm və bədii ümumiləşdirmə Elçinin yaradıcılığının mahiyyətini təşkil etmişdir.

"Altmışıncılar" ədəbi nəslinin nəsr qolunun inkişafında Sabir Əhmədlinin (1930-2009) də xidmətləri ayrıca qeyd edilməyə layiqdir. "Arabaçı" hekayəsi ilə ədəbiyyata gələn Sabir Əhmədli, hekayənin adından da göründüyü kimi, kiçik adamın bədii obrazını yaratmaq baxımından "Altmışıncılar"ın sənət kredosu olan prinsiplərlə səsləşən əsərlər yazmaqla yaradıcılığa başlamışdır. "Bir payız axşamı" kitabındakı hekayələr təhkiyə tərzi, nağılvari üslubu, adi əhvalatların təsviri ilə həyat həqiqətlərini, insan mənəviyyatını əks etdirən istedadlı qələm sahibi olduğunu nümayiş etdirmişdir. "Aran" və "Görünməz dalğa" romanlarında ədəbiyyatda cəmiyyət həyatının sərt problemlərinə doğru ciddi gedişlər etməsi ilə diqqəti cəlb etmişdir. "Dünyanın arşını" romanı isə yazıçının həyatın dərinliklərinə doğru baxışlarının cəmiyyətin ciddi problemlərinə işıq saldığı üçün siyasi dövrlərdə narahatlıq doğurmuşdur. "Dünyanın arşını" romanının Azərbaycan

kommunistlərinin plenumunda tənqid edilməsi böyük rezonansa səbəb olmuş və yazıçı çətinliklərlə üzləşmişdir. Nəhayət, Sabir Əhmədli 1973-cü ildə nəşr etdirdiyi "Yamacda nişanə" povesti ilə siyasi mühitdəki havanın gərginliklərini özünə qarşı aradan qaldırmışdır. Doğrudur, "Yamacda nişanə" povesti də ədəbi tənqid tərəfindən birmənalı qarşılanmamışdır. Ədəbi tənqid bu əsərdə də cəmiyyət həyatındakı neqativ halların təsvirinə aid sərt meyilləri bir qədər qabartmağa çalışsa da, ümumən belə təsvirlərin "Altmışıncılar"ın yaradıcılığı üçün səciyyəvi olması nəzərə alınmaqla, "Yamacda nişanə" povesti haqlı olaraq, müasir Azərbaycan nəsrinin mühüm nailiyyətlərindən biri hesab edilmişdir. Həqiqətən, "Yamacda nişanə" povesti yeni nəsrin keyfiyyət dəyişiklərinin bütün tələblərinə və xüsusiyyətlərinə yüksək bədii səviyyədə cavab verən mükəmməl povestdir.

Sabir Əhmədli XX əsrin yetmiş-səksəninci illərində nəşr etdirdiyi "Toğana" (1981), "Yasamal gölündə qayıqlar üzür" (1984), "Mavi günbəz" (1984), "Gedənlərin qayıtmağı" (1985), "Yasaq edilmiş oyun", "Gülmalı kişinin axırı" (1988) və sair kimi əsərləri ilə əslində yaradıcılığının zirvəsinə çatmışdır. Şəhər həyatından alınmış mövzularda yazdığı əsərləri ilə həmin vaxta qədər təmsil olunduğu kənd nəsri arasındakı fərqi aradan qaldırmışdır. Sabir Əhmədli daha çox ədəbiyyatda müasir dövrün sərt və kəskin problemlərini qaldıran yazıçı kimi fərqlənmişdir. Beləliklə, onun bədii əsərləri həyatın dibində olan, cəmiyyətin nəbzində döyünən problemləri yüksək bədii səviyyədə əks etdirməsi ilə ədəbiyyatda özünün fərqli yerini müəyyən etmişdir. Sabir Əhmədli Azərbaycanda dövlət müstəqilliyi uğrunda gedən mübarizənin ədəbiyyatdakı əsas müdafiəçilərindən biri idi. Övladı da Qarabağ döyüşlərində həlak olmuş yazıçı müstəqillik qazanmağın məsuliyyətini və şərəfini özünün "İyirmi Yanvar hekayələri" silsiləsində realist boyalarla əks etdirmişdir. Keçid dövrünün kütlə psixologiyasının xalqa və ölkəyə gətirə biləcəyi fəlakətləri təsvir etməklə o, sel kimi aşıb-daşan el gücünün yalnız ağlın gücü ilə xalqı arzuolunan limana çıxara biləcəyini təsvir etdiyi "Kütlə" romanı (1999) ilə Sabir Əhmədli müstəqillik epoxasının romanını yaratmışdır. Yazıçının "Axirət sevdası" trilogiyası (2003) da müstəqillik dövrünün başlanğıc dövrlərinin çətinliklərini sərt həyat həqiqətləri vasitəsilə əks etdirən möhtəşəm nəsr əsəridir. "Şəhid ruhu" povesti (2004) bir qədər avtobioqrafik xarakter daşısa da, həyatın və cəmiyyətin dərin qatlarına, ağrılı problemlərinə müdaxilə edən dövrün ruhunu təqdim edir.

Yazıçı İsi Məlikzadə (1934-1995) "Altmışıncılar" ədəbiyyatının nəsr qolunun aparıcı simalarındandır. Azərbaycan Sənaye İnstitutunun məzunu kimi mühəndis olmasına baxmayaraq, İsi Məlikzadə ədəbiyyat təhsilli istedadlı yazıçılar səviyyəsində ideya-bədii cəhətdən qiymətli əsərlər yazmışdır. Onun əsərlərində Azərbaycan kəndində baş verən yeni münasibətlərin doğurduğu əhvalatlar və yaşadığı dövrün insanlarının mənəvi aləminin

təsviri ön mövqeyə çıxarılmışdır. O, "Altmışıncılar"ın yaratdığı Azərbaycan ədəbiyyatında – lirik-psixoloji nəsrin tanınmış nümayəndələrindən biri kimi qəbul olunur. İsi Məlikzadənin "Həsrətin sonu" (1964), "Özgə anası" (1969), "Kövrək qanadlar", "Küçələrə su səpmişəm" (1977), "Yaşıl gecə" (1979), "Günəşli payız" (1982) kitablarında oxuculara təqdim olunan hekayələri və povestləri Azərbaycan lirik-psixoloji nəsrinin qiymətli örnəkləridir. "Dədə palıd" povesti İsi Məlikzadənin proobrazı olaraq səslənən müasir tipli əsər kimi əhəmiyyətlidir. "Gümüşgöl əfsanəsi" (1987), "Şehli çəmənlərin işığı" (1991), "Dolaşaların payız bayramı" əsərlərində yüksək sənətkarlıq səviyyəsində elə bədii parçalar vardır ki, həmin mətnləri mənsur şeir də adlandırmaq olar. Beləliklə, İsi Məlikzadənin yaradıcılığı ilə bütövlükdə "Altmışıncılar"ın ədəbiyyatında yeni lirik-psixoloji nəsr anlayışı daha da möhkəmləndirilərək, mühüm bir ədəbi istiqamətə çevrilmişdir.

Dövrün poeziyası da bədii nəsri kimi İosif Stalinin vəfatından sonrakı tarixi mərhələnin ümumi ab-havasında yeniləşmiş poeziyanın inkişafında xüsusi mərhələ təşkil etmişdir. "Altmışıncılar"ın poeziya qanadının görkəmli yaradıcılarından olan Əli Kərimin (1931-1969) şeirləri bu ədəbi nəslin yaradıcılığına istiqamət verən poetik nümunələrdən ibarətdir. Çox az yaşamasına baxmayaraq, Əli Kərim dövrün ədəbi hadisəsi olan bədii əsərlər yazmağa nail ola bilmişdir. "İki sevgi" kitabında təqdim olunan şeirlər həyatın bağrından qopması, təbiiliyi, insan mənəviyyatının ən incə duyğularını əks etdirməsi ilə Azərbaycan ədəbiyyatında dərin iz salmışdır. Əli Kərimin dillər əzbəri olmuş "Qaytar ana borcunu" şeiri və eyniadlı kitabındakı bir çox şeirlər yeni dövr Azərbaycan şeirinin şedevrləri kimi qəbul olunur. Əli Kərimin əsərləri ilə "Altmışıncılar"ın şeir yaradıcılığının fərqli bir ədəbi istiqamət olduğu təsdiq edilmişdir.

Bədii üslub etibarilə Əli Kərimin şeirlərinə yaxın olsa da, Fikrət Qocanın şeir yaradıcılığı poeziyada həyati proseslərin daha da dərinləşdirilməsi, mənəviyyat aləminin həyatın aynasına çevrilməsi və nəğmə təsiri bağışlayan şeiriyyəti ilə fərqlənmişdir. Fikrət Qocanın (1935-2021) sadə, adi, zəngin mənəvi aləmi olan lirik qəhrəmanı "Altmışıncılar"ın nəsrindəki kiçik insanların şeirdəki əkiz qardaşıdır. Fikrət Qoca poeziyada kiçik insan haqqında böyük ədəbiyyatın əsas yaradıcılarından biridir. O, Azərbaycan şeirində lirik-psixoloji üslubu xüsusi bir ədəbi istiqamətə çevirən şairlərimizdəndir. Azərbaycan nəsri üçün daha çox xarakterik olan lirik-psixoloji üslubu Fikrət Qoca şeirdə də doğmalaşdırmışdır. O, lirik ovqatda yazılmış dərin və səmimi düşüncələrin şairidir. Fikrət Qocanın poeziyasında insan, obrazlı təqdimatı və lirik düşüncəsi ilə oxucuya çatdırılır. Yarım əsrdən çox həyatı və insanı lirika güzgüsündə əks etdirən şair hər şeirində yeni bir poetik səhifə açmışdır. Fikrət Qoca azərbaycanlı xarakterinin bitib-tükənməz

və təkrarsız poeziyasını yaratmışdır. Bu mənada Fikrət Qocanın şeir yaradıcılığı insan mənəviyyatının çoxcildlik poetik külliyyatıdır.

"Qağayı" (1963), "Hamıya borcluyam" (1965), "Dənizdə ay çimməndə" (1967), "Yatmadığım gecələrdə" (1970), "Günlərin bir günü" (1972), "İnsanlar arasında" (1974), "Gül ömrü" (1976), "Ulduzlu düşüncələr" (1978) kimi kitablarının adında belə, Fikrət Qocanın şeirlərinin ideya-məzmunu, poetik ovqatı ifadə olunmuşdur. Həyatı və yaradıcılığının bütün mərhələlərində Fikrət Qoca həmişə zamanı oyadan və zamandan qabaqda olan şeirlər yazmışdır.

Səksən-doxsanıncı illərdə çap edilmiş "İnsan xasiyyəti" (1980), "Özümə məktub" (1983), "Ömürdən səhifələr" (1984), "Yollar ayrıcında" (1985), "Ömürdən bir damla" (1991) kitablarında toplanan şeirləri və poemaları Fikrət Qocanın lirik-psixoloji üslubunu daha da yetkinləşdirmişdir. Müstəqillik dövründə oxuculara təqdim olunmuş "Mavi dünyanın adamları" (1998), "Ömürdən damlalar" (2000), "Hələlik qiyamətsən" (2001) əsərlərində lirik-psixoloji ovqat bir qədər ictimai məzmunla zənginləşdirilmişdir. Fikrət Qocanın "Dayanacaqda görüş" kitabı (2009) ilə onun yaradıcılığında yeni mərhələ başlanmışdır. Bu dövrdən etibarən Fikrət Qocanın yaradıcılığında lirik-psixoloji düşüncələrlə ictimai motivlərin üzvi sintezi, harmoniyası yaranmışdır. "Könlümdən keçənlər" (2009), "Taleyin ağır taleyi" (2009), "Azdır, sözdür, düzdür" (2009) kitablarında və sonrakı şeirlərində Fikrət Qoca daha çox obrazlı düşüncələrlə ifadə olunmuş ictimai lirikası ilə poeziyada təmsil olunmuşdur. Yaradıcılığının son dövrünün şeirləri insan və zaman haqqında poetik monoloqlardan ibarətdir. Bununla belə, lirik-psixoloji şeir Fikrət Qocanın Azərbaycan poeziyasındakı bədii möhürüdür. Aşağıdakı şeir nümunəsi lirik-psixoloji ovqatda köklənmiş şairin yaradıcılığının ana xətlərini özündə cəmləşdirir:

İşıqlı pəncərələr
Göz yumub qaralanda
Ay işığı sərilib
Damlar üstə qalanda
Dəniz nağıl danışır
Elə bil ulduzlara.

Mən yatıram, unudub
Düşüncəmi, fikrimi,
Soyunub yorğunluğu
Öz iş paltarım kimi, –
Özüm də heç bilmirəm
Tullayıram mən hara.

Bəzən axır yuxuma
Bir cır xoruzun banı.
Hürküdür kirpiyimdə
Mürgüləyən zamanı.
Durub ayaq izimi
Düzürəm mən yollara.[1]

Fikrət Sadıq (1930-2016) da həyatdan gələn poeziyanın istedadlı nümayəndəsi kimi yeni dövr Azərbaycan şeirinin mükəmməl örnəklərini yaratmışdır. İlk şeir kitabını "Cığır" adlandıran Fikrət Sadıq "Altmışıncılar" poeziyasında fərdi bədii üslub baxımından yeni cığır açan şairlərdən biri idi. Onun şeirləri həm də müəyyən dərəcədə intellektual xüsusiyyətləri ilə səciyyələnir. "Məndən soruşsalar" (1985) kitabının adı Fikrət Sadığın fərdi üslubundakı sual-cavab, aydınlaşdırma, poetik şərh kimi xüsusiyyətləri önə çıxarır. "Ömrün bir günü" (1965), "Dəniz küçəmizə gəlir" (1968), "Sevgi yağışı" (1970), "İşığın yaşı" (1974), "Yerdən göyə ümid" (1981), "Gəlin yuyaq dənizi" (1988) şeir kitabları Fikrət Sadığın lirikası ilə fikir dünyasının poetik tərcümanıdır. Azərbaycan Sovet Ensiklopediyasında çalışmış Fikrət Sadığın şeirlərindəki intellektuallıq onun lirikasında dövrün ictimai mətləblərinin mənalandırılmasına, zamanın irəli sürdüyü suallara cavab axtarılmasına, bir sözlə, düşündürən şeirlərin meydana çıxmasına imkan yaratmışdır. Bu baxımdan, "Dünya öz işindədir" (1989), "Bir parça Vətən" (1988), "Ömrün bir günü" (2002) adlı kitablarındakı şeirlər və poemalar Fikrət Sadığın yaradıcılığında artıq insanın mənəvi dünyasını və həyatın adiliklərinin tərənnümündən müasir cəmiyyətin meydana çıxardığı suallara cavab axtarmağa doğru keçidi əks etdirir. "Gözlədiyim ömür" (2003) Fikrət Sadığın ictimai lirikasının ilk poetik toplusu kimi meydana çıxmışdır. Onun "Bugünnamə" (2007-2008) adlı iki kitabdan ibarət olan şeirlərində ictimai mətləblər, sərt həqiqətlər, fəlsəfi fikirlər özünə yer almışdır. "Ağlı-qaralı şeirlər" kitabında Fikrət Sadığın vaxtilə insana ünvanlanmış poetik sualları-nın artıq cəmiyyətə və mürəkkəb dünyaya istiqamət almış müraciətlərə çevril-diyini göstərir. Bütün məqamlarda Fikrət Sadıq "Altmışıncılar" poeziyasının intellektual daşıyıcı kimi daxili təkamül proseslərində olmuş və özünü təsdiq etmişdir.

Poeziyada "Altmışıncılar"ı təmsil edən Ələkbər Salahzadə (1941-2013) və İsa İsmayılzadə (1941-1997) Azərbaycan sərbəst şeirinin yeni və parlaq səhifələrini yaratmışdırlar. "Altmışıncılar"ın sərbəst şeiri özünəməxsus fikir yükü və lirizmi ilə səciyyələnir. Ələkbər Salahzadə fikir poeziyası, İsa İsmayılzadə isə poetik düşüncələri ilə poeziyamızı zənginləşdirmişlər.

[1] Fikrət Qoca. Seçilmiş əsərləri. – Bakı: Şərq-Qərb, 2004, s.35-36

***

Bütövlükdə, Azərbaycan ədəbiyyatında "Altmışıncılar" adlanan yeni ədəbi nəsil ədəbiyyatımızın XX əsrin əvvəllərindəki realist-romantik ənənələrini yenidən dirçəltmiş, ədəbiyyatın, həyatın və insan mənəviyyatının təbii əks-sədası kimi gerçəkliyin bədii ifadəsi üstündə köklənməsini təmin etmiş, adiliklərin ədəbiyyatını yaratmaq missiyasını həyata keçirmişdir. İdeoloji xarakterli ədəbiyyatdan gerçəkliyin bədii ifadəsi olan ədəbiyyata keçid də öz növbəsində Azərbaycan ədəbiyyatında sosialist realizmi yaradıcılıq metodunun mövqelərini sarsıtmış, sovet ədəbiyyatı anlayışını demək olar ki, aradan qaldırmışdır. Beləliklə, sinfi mübarizə konfliktləri, xalqlar dostluğu mövzusu və tarixi nikbinlik prinsipi əsasında sosializm cəmiyyətinin təsviri və təbliği üstündə köklənmiş Azərbaycan ədəbiyyatı həyatın və cəmiyyətin, habelə insan mənəviyyatının təsviri və tərənnümü missiyasını həyata keçirməyə başlamışdır. Bu, sosialist realizmi yaradıcılıq metodu ilə heç bir əlaqəsi olmayan modern bir ədəbiyyat idi. Bu gerçək, həyat həqiqətlərində əks edilən sərt realizmin ədəbiyyatda yaranması və möhkəmləndirilməsi demək idi. Yeni xarakterli bu gerçəkçi ədəbiyyat sərt realizm-modernizm ədəbiyyatının təzahürlərindən ibarət idi. Digər xalqların ədəbiyyatında da "ədəbi prosesə gerçəkliyin daşınması"[1] modernizmin təməl prinsiplərindən biri hesab olunmuşdur.

Klassik tənqidi realizmdə olduğu kimi, yeni tarixi epoxanın modern ədəbiyyatını yaradan sərt realizm ədəbiyyatında da gerçəkliyin təsviri həyatın adiliklərinin təqdim olunmasından cəmiyyətdə baş verən mürəkkəb hadisələrin və bütün yönləri ilə insana obyektiv münasibətin çatdırılmasına qədərki prosesləri özündə birləşdirir. Anarın "Molla Nəsrəddin – 66" hekayələr silsiləsində mətləblər müəyyən dərəcədə yumoristik şəkildə deyildiyi halda, müəllifin "Molla Nəsrəddin – 86"da ictimai xarakterə malik "Yaxşı padşahın nağılı", "Qəmli məzxərə" miqyasında bədii ifadəsi artıq klassik tənqidi realizm funksiyalarının sərt realizm formatında təzahür etdirildiyini əyani şəkildə göstərir. Anarın "Molla Nəsrəddin – 86" hekayələr silsiləsində bədii sözün əsas məqsədinin "düzə düz, əyriyə əyri" deməkdən, "haqq sözü gizlədib, nahaq sözü danışmamaq"dan[2] ibarət olduğunu göstərməsi də bu gerçəkliyi qabarıq şəkildə əks etdirir. Yazıçının gerçəkliyi "Ağ liman" povestində hadisələrin daha çox insan mənəviyyatındakı ziddiyyətlərin fonunda təsvir edilməsindən "Otel otağı"nda şəxsiyyət və cəmiyyət səviyyəsində, "Ağ qoç, qara qoç"da Azərbaycan xalqının siyasi taleyi miyqasında çatdırılması sosialist realizminin tarixi nikbinlik prinsipi üzrə təqdim etdiyi

[1] Mustafa Kurt. Çağdaş türk şeirində modernizmin imgələri. – Ankara: Çolpan kitab, 2018, s.91

[2] Anar. Molla Nəsrəddin – dünən, bu gün. – Bakı: Nurlan, 2011, s.286-287

yumşaq tənqidin sərt realizm səviyyəsinə yüksəldildiyini nümayiş etdirir. Poeziyada bu proses şeirimizin XX əsrin altmış-yetmişinci illərində təqdim olunan Fikrət Qocanın "Günlərin bir günü" kimi nağılvari təqdimatlarından Fikrət Sadığın XXI əsrin əvvəllərində çap etdirdiyi "Ağlı-qaralı şeirlər"ə qədər inkişaf etmişdir. Göründüyü kimi, ədəbiyyat XX əsrin əllinci illərindəki həyata, insana doğru meyillərdən altmışıncı illərdə gerçəkliyin açıq və aydın təsvir edilməsinə, sonrakı mərhələlərdə isə "ağlı-qaralı şeirlərə" qədər məsuliyyətli yol keçmişdir. Xarakterinə görə, "XX əsrin əllinci illərindəki tənqid təsviri xarakteri daşıdığı halda, artıq altmışıncı illərdə Anarın "Zarafatsız" hekayələrinə, səksəninci illərdə isə Fikrət Qocanın "Yollar ayrıcında"kı baxışlarına qədər dərinləşməkdə davam etmiş, Fikrət Sadığın "Bugünnamə"si kimi sərt realizm miqyasına, səviyyəsinə qaldırılmışdır.

XX əsrin yeni ədəbi dalğası olan "Altmışıncılar"ın, yəni yeni tənqidi realizmin, mövcud adı ilə desək, sərt realizmin Azərbaycan ədəbiyyatındakı xidmətlərindən biri də sovet dövrü şəraitində Azərbaycan ədəbiyyatında yenidən kiçik adamın bədii obrazının dirçəldilməsi olmuşdur. Anarın, Elçinin və Sabir Əhmədlinin nəsr əsərindəki adi adamların təqdimatını həmin dövrün şairlərinin sadə adamların: çoban, pinəçi, işıqçı surətlərində yaratmaları tamamlamışdır. Bundan başqa, satirik ədəbiyyatın meydanının bütün janrlar üzrə genişləndirilməsi, bədii dilin sadəliyi, xalq danışıq dilinə yaxınlaşdırılması, daxili imkanlar hesabına zənginləşdirilməsi, ədəbiyyatda neologizmlərə marağın artması da yeni tənqidi realizmin, yəni sərt realizminin əsas təzahürlərindən biri idi. Bütün bunlar, eyni zamanda altmışıncıların xidmətlərindəndir. Bu isə həm də XX əsrin əllinci illərində "Aralıq ədəbi nəsil" yazıçılarının başladığı böyük işin yaradıcı şəkildə davamı olub, yeni bir ədəbiyyat epoxasının, sərt realizmin – modernizmin formalaşdırılması demək idi. "Yetmişincilər"in missiyası isə öz əsərləri ilə mövcud ənənəni daha da möhkəmləndirməkdən və ədəbi fikri milli azadlıq idealına doğru yönləndirməkdən ibarət idi. Şeirdə Sabir Rüstəmxanlı (1946), Hidayət (1944), Zəlimxan Yaqub (1950-2016), Nurəngiz Gün (1938-2014), nəsrdə Kamal Abdulla (1950), Mövlud Süleymanlı (1943-2024), Aqil Abbas (1953), Seyran Səxavət (1946), Afaq Məsud (1957), Səyyad Aran (1952) və başqalarının əsərlərində tarixə və müasir dövrə yüksək vətəndaşlıq mövqeyindən yanaşma, ictimai problemlərin ədəbiyyatının yaradılması, milli azadlıq ideyasının ədəbiyyatın açıq gündəminə gətirilməsi və ədəbiyyatda dekonstruksiya meyillərinin başlanması vəzifələri həyata keçirilmişdir. Milli istiqlal uğrunda mübarizə idealı ilə ədəbiyyata gələn səksənincilərə həm də müstəqil dövlətçilik ideyalarının həyata keçirildiyi dövrün də canlı ədəbiyyatını yaratmaq nəsib olmuşdur. Ədəbi estafet müstəqillik illərində əvvəlcə ayrı-ayrı ədəbi qruplar, sonra isə həmin qrupların birləşərək yaratdıqları ədəbi cərəyanlar üzrə bədii yaradıcılıqlarını davam etdirən yeni

nəsilləri də meydana çıxarmışdır. Bununla belə, XX əsrin əllinci illərində meydana çıxmış "Aralıq ədəbi nəsil"in bədii əsərləri və "Altmışıncılar" ədəbi nəslinin yaradıcılığı bir-birini davam etdirərək, Azərbaycan ədəbiyyatının altmışıncıların simasında xüsusi bir mərhələsi səviyyəsinə qalxmış, ədəbiyyatda yeni ideya-estetik prinsiplərinin və ayrı-ayrı üslublarının formalaşmasında mühüm rol oynamışdır. Azərbaycanda təkmetodlu ədəbiyyatdan tədricən çoxmetodlu ədəbiyyata keçidin əsasları bu dövrdə yaradılmışdır. Azərbaycan ədəbiyyatı altmışıncıların simasında sosialist realizmi yaradıcılıq metodu ilə paralel olaraq yeni tənqidi realizmə (sərt realizmə – İ.H.) və ekzistensializmə də istinad etməklə təkmetodlu ədəbiyyatdan çoxmetodlu ədəbiyyata keçid mərhələsinə qədəm qoymuşdur. Sosialist realizmindən modernizmə keçid prosesində klassik tənqidi realizmin yenidən canlandırılması ilə yanaşı, Qərbdən gələn ekzistental ədəbi cərəyan da müəyyən rol oynamışdır. Bu baxımdan, tənqidi realizm və ekzistensializm modernizm ədəbi cərəyanının yaranması üçün ədəbi körpü xarakteri daşımışdır.

Məlum olduğu kimi, XX əsrin altmışıncı illərində Sovet İttifaqı miqyasında keçirilmiş ümumittifaq realizm müşavirələrində sosialist realizmi yaradıcılıq metodunun inkişaf edərək öz içində yeni meyilləri və təmayülləri meydana çıxarması tezisləri ilə ədəbiyyatda sosialist tənqidi realizmi yaradıcılıq metodunun formalaşdığı müddəası irəli sürülmüşdür. Bir qrup yazıçı və ədəbiyyatşünaslar isə sosialist realizmi yaradıcılıq metodunun tərkib hissəsi kimi qəbul edilmiş inqilabi romantikanın da müstəqil yaradıcılıq metoduna çevrildiyi ideyasını səsləndirmişlər. Bu proses Sovetlər İttifaqının yüksək siyasi eşalonunda artıq səsləndirməkdə olan inkişaf etmiş sosializm cəmiyyətinin fonunda ədəbiyyatda meydana çıxmış yeni təmayüllər kimi təqdim edilərək, sovet ədəbiyyatının inkişafının daxili qanunauyğunluqlarından yaranan reallıqlar olaraq bəyan edildiyinə görə təkmetodlu ədəbiyyatdan çoxmetodlu ədəbiyyata keçid üçün real şans yaratmışdır. Lakin radikal sovet ədəbiyyatı ideoloqları tənqidi realizmin tarixi nikbinlik prinsipi üzərində qurulmuş sosialist realizmi yaradıcılıq metodunun prinsipləri ilə üst-üstə düşmədiyini əsas götürməklə, inkişaf etmiş sosializm cəmiyyətinin tənqidinə və təftişinə yol açacağından ehtiyat edərək, "sosialist tənqidi realizmi" yaradıcılıq metodu haqqındakı fikirləri birmənalı şəkildə rədd etmişlər. Eyni zamanda "sosialist-romantizmi" metodu ideyası da sosialist realizmini üstələyərək, onun üzərinə kölgə sala biləcək ədəbi axına çevriləcəyi ehtimal olunduğu üçün qəbul edilməmişdir. Real həqiqətdə isə XX əsrin əllinci illərində "Aralıq ədəbi nəsil" nə qədər ədəbiyyatı həyata və insana yaxınlaşdırsa da, hələ də sovet ədəbiyyatında, o cümlədən də Azərbaycan ədəbiyyatında sosialist realizmi yaradıcılıq metodu anlayışının tam aradan qaldırılması ağlasığmaz bir ideya ola bilərdi. Bu dövrdə sovet ədəbiyyatında sadəcə sosialist realizminin hökmü, diktəsi yumşaldılmış,

ədəbiyyatda proseslərə totalitar yanaşmalardan analitik ədəbi təhlilə və həyatın real təqdiminə doğru meyillər başlanılmışdır. XX əsrin altmışıncı illərində isə artıq "Altmışıncılar" adlanan yeni ədəbi nəsil sözdə sosialist realizmini tənqid və ya inkar etməsələr də, bu yaradıcılıq metodunun tarixi nikbinlik prinsipinin tam əksinə olan tənqidi xarakterli əsərlər yazmaqda inadla davam edirdilər. "Altmışıncılar"ın yaradıcılığında sosialist realizmi ədəbiyyatının əsas prinsiplərindən olan "formaca milli, məzmunca sosialist" ədəbiyyatı yaratmaq tələbindən fərqli olaraq, formaca da, məzmunca da milli ruhlu əsərlərin yaradılması prosesi dərinləşməyə doğru inkişaf etmişdir. "Altmışıncılar" ədəbi hərəkatına ayrılıqda götürülmüş bir müttəfiq respublikanın ədəbiyyatını deyil, geniş mənada Sovetlər İttifaqının bütün respublikalarının ədəbiyyatını əhatə etməsi, ədəbi tənqid tərəfindən bir qədər müqavimət və təzyiq göstərilsə də, bu ədəbi hərəkat de-fakto qəbul olunmuşdur. Beləliklə, əslində sovet ədəbiyyatındakı təkmetodlu ədəbiyyat epoxasına son qoyulmuş, yeni tənqidi realizm və ekzistensializm elan edilməmiş yaradıcılıq metodları kimi ədəbi prosesə daxil olmuşdur. Üstəlik, Azərbaycan "Altmışıncılar"ı XX əsrin əvvəllərində klassik tənqidi realizmin əsaslarını yaratmış Cəlil Məmmədquluzadənin və mollanəsrəddinçilərin yaradıcılıq ənənələrini ustad sözü, müəllimlik andı kimi qəbul etdiklərini açıq şəkildə büruzə verməklə, məntiqli mənada tam olaraq sosialist realizmdən uzaqlaşdıqlarını, tənqidi realizmə üz tutduqlarını bəyan etmişlər. Lakin avtoritar sovet ideoloji rejimi sosialist tənqidi realizmindənsə, "Altmışıncılar" ədəbi nəsli formatının işlədilməsinə daha dözümlü münasibət bəsləmişlər. Çünki "Altmışıncılar" anlayışı zahirən sovet ədəbiyyatının konkret bir dövründə – altmışıncı illərdə yaranmış ədəbi nəsil və ya "Altmışıncılar" ədəbi nəslinin yaratdığı ədəbiyyat mənasını ifadə edə bilərdi. Sosialist tənqidi realizmi termininin əvvəlindəki "sosialist" sözü isə tənqidi realizmlə bir araya sığmayan və əksər məqamlarda ona zidd olan bir baxış olduğu üçün mövcud sovet rejiminin "tarixi nikbinlik" prinsipi üstündə qurduğu kommunist ideologiyasının dağılması demək idi. Bununla belə, necə adlandırılmasından asılı olmayaraq, "Altmışıncılar" ədəbi nəsli ədəbiyyatda "Altmışıncılar" ədəbi hərəkatına çevrilərək, yeni tənqidi realizmin görə biləcəyi işi qətiyyətlə həyata keçirmişdir.

Azərbaycanda "Altmışıncılar"ın sonrakı dövrlərdə ədəbi fəaliyyətlərini qətiyyətlə davam etdirməsində 1969-1982-ci illərdə respublikaya rəhbərlik etmiş görkəmli dövlət xadimi Heydər Əliyevin ədəbiyyat və incəsənətə, yeni nəsil yazıçı və şairlərin yaradıcılığına xüsusi diqqət və qayğı ilə yanaşması mühüm əhəmiyyətə malik olmuşdur. Ulu Öndər Heydər Əliyevin yeni tənqidi realizmi – sərt realizm – modernizm ədəbiyyatını öz ətrafında birləşdirən "Qobustan" jurnalını haqsız danoslardan qoruyaraq fəaliyyətini davam

etdirməsinə açdığı yol, nəticə etibarilə gerçəkçi ədəbiyyatın, "Altmışıncılar"ın ədəbi-ictimai mövqeyinin yüksək səviyyədə dəstəklənməsi demək idi. Azərbaycan Sovet Respublikasının rəhbərinin "Literaturnaya qazeta"ya verdiyi sərt müsahibənin "Qoy ədalət zəfər çalsın" adı ilə çap edilməsi məntiqi mənada yazıçı və şairlərə həyat həqiqətlərini real surətdə əks etdirməkdə cəsarət vermişdir.

Təbii olaraq buradan belə bir sual meydana çıxır: "Altmışıncıların istinad etdikləri və ya yaratdıqları (formalaşdırdıqları) bədii metodun, yaxud ədəbi cərəyanın adı nə idi? Axı dünya ədəbiyyatında konkret olaraq hər hansı bir ədəbi nəslin adı ilə adlandırılan bədii metoda, yaxud ədəbi cərəyana rast gəlinməmişdir. XX əsrin əvvəllərində meydana çıxmış "Molla Nəsrəddin" və "Füyuzat" ədəbi məktəbləri də ədəbi cərəyan anlayışı ilə bağlı olsa da, tam olaraq ədəbi cərəyan deyildi. Çünki Azərbaycan ədəbiyyatındakı Nizami, Füzuli, Vaqif, Mirzə Fətəli Axundzadə ədəbi məktəbləri kimi "Molla Nəsrəddin" və "Füyuzat" ədəbi məktəbləri də aid olduqları, formalaşdırdıqları tənqidi realizm və romantizm anlayışlarından daha geniş mənaları daşıyır. Nizami, Füzuli məktəbləri kimi, "Molla Nəsrəddin" və "Füyuzat" ədəbi məktəbləri ənənələri də Azərbaycan ədəbiyyatında tənqidi realizm və romantizm ədəbi cərəyanının mövcudluğunun başa çatmasından sonra da davam etdirilmişdir. Aradan birəsrlik vaxt keçməsinə, ideologiyaların xarakterinin dəyişməsinə baxmayaraq, Azərbaycan ədəbiyyatında bu gün də "Molla Nəsrəddin" və "Füyuzat" ədəbi məktəblərinin ənənələrinin yaradıcı şəkildə davam etdirilməsi konkret tarixi dövrlə bağlı olan ədəbi cərəyanla hər hansı bir ənənənin davam etdirilməsinə əsaslanan ədəbi məktəbin fərqini meydana qoyur.

Bu, gerçəkdə real şəkildə belə olduğu halda, "Altmışıncılar" ədəbi nəslinin, yaxud ədəbi hərəkatının yaradıcılıq metodu və ya onların formalaşdırdıqları ədəbi cərəyan necə adlandırılmalıdır? Müşahidələr göstərir ki, keçmiş sovet incəsənətində bunun münasib yolu tapılmışdır. Sovet sənətşünasları XX əsrin əlli-altmışıncı illərində əsərlərində tənqidi meyillər əks etdirilən rəssamların yaradıcılığını "sərt realizm" kimi səciyyələndirmişlər. Sosialist realizmi nəzəriyyəçiləri tənqidi realizmlə müqayisədə adında tənqid, ifşa anlayışları olmadığı üçün, sərt realizm anlayışına barışdırıcı münasibət bəsləmişlər. Sosialist sənət nəzəriyyəsində sərt realizm sosialist realizmi yaradıcılıq metodunun inkişaf etmiş sosializm cəmiyyəti mərhələsindəki təzahür formalarından biri hesab edilmişdir. Belə bir təsəvvür formalaşdırılmışdır ki, sərt realizm inkişaf etməkdə olan sosializm cəmiyyətinin yüksəlişinə mane olan meyillərlə mübarizə aparan ədəbiyyatın xarakterini müəyyən edir. Görkəmli Azərbaycan rəssamı Tahir Salahov keçmiş Sovetlər İttifaqı miqyasında sərt realizmin əsas yaradıcılarından biri hesab olunmuşdur. Sərt realizm tənqidi realizm qədər zahirən sosialist realizmini inkar

etmirdi. Əslində isə sərt realizm qətiyyən sosialist realizminin təzahür formalarından biri, yaxud bu yaradıcılıq metodunun sinonimi deyildir. Sərt realizm ya yeni tənqidi realizmin sinonimi, yaxud da modernizə olunmuş tənqidi realizm demək idi. Sərt realizm XX əsrin əllinci illərində başlanan, altmışıncı illərdə ədəbi hərəkata çevrilmiş yeni tipli modern ədəbiyyatın izmi idi.

Əslində, sərt realizm anlayışı tənqidi realizmdən də kəskin realizm deməkdir. Sovet imperiyası kimi qüdrətli bir derjavanın ideologiyasını dəyişmək, ən azı, mövcud siyasi rejimin buxovlarını dağıtmaq missiyasını həyata keçirmək üçün tənqidi realizmdən də kəsərli olan sərt realizmə ehtiyac var idi. Azərbaycan "Altmışıncılar"ı sosialist realizm ədəbiyyatını sərt tənqidi realizm ədəbiyyatı ilə modernləşdirərək, həmin vəzifəni həyata keçirmişlər. Beləliklə, ədəbiyyatda sosialist realizminin illərdən bəri inadla təbliğ etdiyi proletar beynəlmiləlçiliyi prinsipi əvəzinə, azərbaycançılıq ideyası əmələ gəlmişdir. Azərbaycançılıq ideyası yaxın gələcəyin müstəqil dövlətçilik ideyasının əsasını, təməlini, nüvəsini təşkil etmişdir. Beləliklə, "Altmışıncılar" ədəbi hərəkatının yaranması və inkişafı ilə Azərbaycanda sovet ideologiyası ilə səsləşməyən daha fərqli müasir həyat tərzi və modernist ədəbiyyat yaranmışdır. Bu proses də öz növbəsində keçid ədəbi cərəyanını: sərt realizm-modernizm ədəbi cərəyanını yaratmışdır. Sərt realizm sosialist realizminin modernizə edilmiş fərqli təzahür forması idi. Sərt realizm təmayülünün qəbul edilməsi isə sərt realizm adı ilə ifadə olunan modernizm ədəbi cərəyanının yaranmasının etiraf olunması mənasını daşıyırdı.

Azərbaycan ədəbiyyatında sərt realizm-modernizm digər ədəbi cərəyanlar kimi özünəməxsus manifesti, ədəbi mərkəzi və cəbhəsi olan bir cərəyan olaraq fəaliyyət göstərmişdir. Anarın rəhbərlik etdiyi "Qobustan" jurnalı modernizm ədəbi cərəyanının əsas ideya mərkəzi funksiyasını yerinə yetirmişdir. Qeyd edilməlidir ki, Anarın "Nəsrin fəzası" ədəbi-tənqidi essesi mahiyyətinə görə, manifest tipli əsər kimi Azərbaycan modernizminin – sərt realizmin ideya-estetik prinsiplərini və poetikasını meydana qoymuşdur. Azərbaycan ədəbiyyatının altmışıncı illər ədəbi nəsli sərt realizm – modernizm ədəbi cərəyanının aparıcı simaları olmuşlar. Beləliklə, Azərbaycan ədəbiyyatında "Aralıq ədəbi nəsil"in yaradıcılığı sərt realizm – modernizminin hazırlıq dövrü funksiyasını həyata keçirmişdir. "Altmışıncılar" isə bu ədəbi cərəyanın yaradıcıları və əsas hərəkətverici qüvvələri olmuşlar. Sərt realizm – modernizm XX əsrin altmışıncı illərində formalaşmış, "Altmışıncılar"ın aparıcılığı ilə yetmiş-səksəninci illərdə də fəaliyyətini davam etdirmişdir. Bu mənada sərt realizm – modernizm ədəbi cərəyanı zaman etibarilə "Aralıq ədəbi nəsil"lə müstəqillik dövrü arasında fəaliyyət göstərmiş ədəbi cərəyandır. Bu baxımdan, Sərt realizm – modernizm keçid ədəbi cərəyanı da adlandırıla bilər. Sərt realizm – modernizm ədəbi cərəyanının əsas vəzifəsi sovet ədəbiyyatının vahid yaradıcılıq metodu sayılan sosialist

realizmini ədəbi prosesdən çıxarmaq və çoxmetodlu ədəbiyyata keçid prosesini hazırlamaqdan ibarət olmuşdur. Obyektiv şəkildə etiraf edilməlidir ki, "Altmışıncılar" həm Sovet İttifaqı miqyasında və həm də Azərbaycan ədəbiyyatında bu məsuliyyətli vəzifəni çətinliklə olsa da, məsuliyyətlə həyata keçirmişlər. Bununla belə, artıq qeyd edildiyi kimi, ədəbiyyatşünaslıqda "modernizmi heç cür Azərbaycan cəmiyyətindəki 1991-1995-ci illərdə yaşanmış "keçid dövrü" ilə eyniləşdirmək olmaz. Əksinə, Azərbaycan ədəbiyyatında modernizm, ədəbi cərəyan olaraq 1991-1995-ci illərin keçid dövründə fəaliyyətini başa vurmuşdur. Modernizm "keçid dövrünün deyil, keçid ədəbiyyatının ədəbi cərəyanı idi".[1] XX əsrin altmış-səksəninci illərindən mövcud olmuş sərt realizm-modernizm ədəbi cərəyanı təkmetodlu sosialist realizm yaradıcılıq metodu ədəbiyyatından müstəqillik dövrünün çoxmetodlu ədəbiyyatına keçid funksiyasını yerinə yetirmişdir. Bu, yeni tipli sərt realizm-modernizm anlayışları sovet hakimiyyəti illərində mövcud ideoloji baryerlərə görə bəyan edilməsi mümkün olmayan, ədəbiyyatda gedən yeniləşmə axtarışlarının təbii axarından meydana çıxan, elan olunmamış yeni tipli ədəbi cərəyan idi.

Bütün bunlara baxmayaraq, keçmiş sovet cəmiyyətində modernizm müstəqil bir ədəbi cərəyan və yaxud yeni yaradıcılıq metodu kimi etiraf olunmamışdır. Bunun aşağıdakı səbəbləri var idi:

1. Sovet ədəbiyyatı vahid yaradıcılıq metodu olan sosialist realizmi metoduna istinad edən təkmetodlu ədəbiyyat kimi qəbul edilmişdi. Sərt realizm-modernizmin yaradıcılıq metodu, yaxud ədəbi cərəyan kimi bəyan edilməsi ilə təkmetodlu ədəbiyyat prinsipi aradan qalxmış olardı. Ona görə də təkcə modernizm yox, XX əsrin altmış-yetmişinci illərində geniş müzakirələrdən sonra irəli sürülmüş sosialist tənqidi realizmi və sosialist romantizmi yaradıcılıq metodları haqqındakı təkliflər və müddəalar da siyasi rəhbərlik, SSRİ Yazıçılar İttifaqı miqyasında və digər elmi-ədəbi dairələr tərəfindən qəbul edilməmişdi. Çünki belə hesab edilirdi ki, bu, ölkədəki təkmetodlu ədəbiyyat prinsipinin aradan qaldırılmasına səbəb ola bilər, ədəbi mühitdə anarxiya yaradar.

2. Modernizmin heç cür qəbul edilməməsinin, dilə gətirilməməsinin daha bir mühüm səbəbi də sovet dövründə bu ədəbi cərəyana bəslənilən mənfi münasibətlə əlaqədar idi. Sovet ideologiyası və sovet ədəbi tənqidi modernizmi Qərb burjua ədəbi cərəyanı adlandıraraq, onu rədd etmişdir. Sovet ədəbi tənqidi modernizmə mücərrəd və bayağı ədəbiyyat damğası vurmaqla bu ədəbi axını yad bir baxış kimi tənqid atəşinə tutmuşdur.

Geniş mənada keçmiş sovet ədəbiyyatında gedən proseslərin təcrübəsi və

[1] İsa Həbibbəyli. Azərbaycan ədəbiyyatında keçid ədəbi cərəyanı. Modernizm. Bax: "Ədəbiyyat qəzeti", 25 iyul 2025-ci il

Azərbaycan ədəbiyyatının XX əsrin altmışıncı-səksəninci illərindəki gedişatı göstərdi ki, Azərbaycan ədəbiyyatında sərt realizm – modernizm ədəbi cərəyanı olmuşdur. Hər biri ayrı-ayrılıqda meydana çıxmış və konkret yanaşı ədəbi istiqamətlər kimi fəaliyyət göstərmiş "Aralıq ədəbi nəsil"in hazırladığı zəmin əsasında "Altmışıncılar"ın yaratdıqları ədəbiyyat ana hadisələri, xarakteri, mahiyyəti, hədəfləri etibarilə sərt realizm-modernizm ədəbi cərəyanını meydana gətirmiş və inkişaf etdirmişdir.

Ümumiyyətlə, "Altmışıncılar" ədəbi hərəkatı, yəni sərt realizm-modernizm ədəbi cərəyanı Azərbaycan ədəbiyyatında xüsusi bir ədəbi mərhələ təşkil etmişdir. Bu ədəbi mərhələ sosialist realizmi ədəbiyyatının süqutu və yekunu, müstəqillik dövrü ədəbiyyatının isə start nöqtəsi və möhtəşəm başlanğıcıdır.

POEZİYA*
(1960-1980-ci illər)

Poeziya özündə həmişə yeni düşüncəni ehtiva edir, dəyişir və yeniləşir. Bu dövrdə yenilikçiliyin əsası 50-ci illərdən qoyulur; poeziya da digər janrlar kimi yeni mərhələyə birdən-birə yox, tədricən daxil olmağa başlayır. Əvvəlki mərhələdə poeziyanın inkişaf yoluna nəzər salarkən, bir tendensiyanı xüsusi qeyd etmək lazım gəlir; poeziyanın üzdə olan inkişaf yolu ilə yanaşı, daxilində gedən proseslər onu yeni mərhələyə çıxaran amillərdən olur. Lakin bu mərhələni nə ədəbi tənqid, nə də sonrakı ədəbiyyatşünaslıq geniş təhlilə cəlb etməmişdir; ona görə ki, bu proseslər sosrealizm metodunun prinsiplərinə uyğun gəlmirdi. Buna görə də ədəbi tənqid poeziyanın daxilində gedən və onun gələcək inkişaf yolunu müəyyənləşdirən prosesləri ya görə bilməmiş, ya da onu görməkdə gecikmişdir. Bir şey aydındır, sosializm sistemi özünün ideoloji təbliğatı üçün ən çox poeziyadan yararlanırdı; poetik nümunələrin tez yaranması, çevikliyi, funksionallığı, kütləviliyi, ictimai fikrə təsir imkanları və s. onun ədəbi formalar və janrlar içərisində çəkisini artırır. Ancaq 60-cı illərdən sonra poeziyanın ictimai fikrə təsirliliyi və təbliğat vasitəsinə çevrilməsi funksiyası zəifləyir. Şəxsiyyətə pərəstişin təzyiqindən azad olan poeziya mövzu seçməkdə bir qədər sərbəstlik qazanır. Poetik dərketmədə epiklik və süjetlilik geri çəkilərək öz yerini saf, təmiz lirikaya, subyektivizmə verir. Ritorika və mədhiyyəçilik əvvəlki kimi poeziyanın mövzusu ola bilmir; cəmiyyətin dəyişməsi ilə poeziyanın da mövzu və məzmunu dəyişir. Poeziyanın dəyişməyə doğru getdiyini ilk dərk edənlər həm də yeni şeirin yaradıcıları olurlar. 40-cı illərdə S.Vurğunun "Mən tələsmirəm...", "Şair, nə tez qocaldın sən!", "Unudulmuş tək məzar" və s. şeirləri ilə poeziyaya lirik, fəlsəfi və estetik vüsət daxil olur. Publisistikaya meyil poeziyanı yavaş-yavaş tərk edir. Lakin onun ideoloji meyillərdən təmizlənməsi üçün zaman lazım olur, siyasi hadisələr ədəbi dövriyyədən dərhal çıxa bilmir. Otuz illik poetik ənənə, müəyyən mənada öz varlığını qoruyub saxlayır. Bu mərhələdə poeziyanın qazandığı yeni keyfiyyətlərdən biri, şübhəsiz, poetik fikrin ümumidən xüsusiyə doğru yol izləməsidir. Bu yolda poeziya yalnız mövzu, obraz baxımından yenilənmir, həm də detalların, ifadələrin, təsvirlərin konkretləşməsi ilə şərtlənir. Müxtəlif nəsillərin iştirak etdiyi ədəbi prosesdə poetik axtarışlar da məhz bu istiqamətdə gedir. Poeziyada novatorluğun əsasını bu proseslərdə yaxından iştirak edən və müəyyən poetik yol keçib gələn şairlər qoyurlar. Bununla belə, poeziyaya yeni qüvvələrin gəlişi ona üslub müxtəlifliyini qazandırır. Bu dövrün poetik mühitində bir neçə şair nəsli

* Oçerkin poeziya paraqrafını filologiya elmləri doktoru , professor Bədirxan Əhmədli yazmışdır.

yeni şeirin formalaşmasında eyni dərəcədə fəal iştirak edir. Rəsul Rza, Süleyman Rüstəm, Osman Sarıvəlli, Məmməd Rahim, Mirvarid Dilbazi, Nigar Rəfibəyli kimi yeni şeirin inşasında rolu olan köhnə yenilikçilər mövcud poetik ənənəni qoruyub saxlamağa çalışır. Poeziya qatarına bir qədər sonra qoşulan Əhməd Cəmil, Adil Babayev, Zeynal Xəlil, Ənvər Əlibəyli və b. süjetli lirikanın təmsilçiləri olaraq çıxış edirlər. Yaradıcılığında lirikaya daha çox üstünlük verən bu şairlərin şeirlərinə çoxlu lirik mahnılar bəstələnir.

Azərbaycan poeziyasında yeniləşməni zaman-zaman sənətə gələn yeni düşüncə tərzi və yenilikçi qüvvələr təmin edib. Rəsul Rza və Əli Kərim ilə başlayan fikir poeziyası, Bəxtiyar Vahabzadə şeirləri ilə fəlsəfi axara düşür. İnsan və zaman amili təkcə Bəxtiyar Vahabzadə şeirlərinin deyil, onun müasirlərinin də əsas təsvir obyektlərindən olur. Poeziyada müasirlik, zamanla ayaqlaşmaq, zamana baxış lirik qəhrəmanların kredosunun əsasını təşkil edirdi. Poeziyaya yeni gələn qüvvələrin yaradıcılıq fərdiyyəti fərqli poetik üslubların formalaşmasına imkan verdi. Poeziyada yeniləşmə, modernləşmə meyilləri yalnız üslubda və poetik fərdiyyətdə deyil, həm də fikirdə, misraların fəlsəfi dərinliyində, orijinal bədii təsvir və ifadə vasitələrində, təsvir olunan obyektin tale yaşantılarının önə çıxmasında özünü göstərirdi. Məhz bu gənc qüvvələrin yaradıcılığı ilə poeziya getdikcə ideoloji yükdən azad olaraq saf sənət, poetik ruh halına gəldi. Yeni poeziyada dünya və cəmiyyət hadisələri yeni rakursdan təsvir edilir, şair özünün varlığı ilə dünyaya və cəmiyyətə qarşı sanki üsyan edir, özünün də içində olduğu axına qarşı dayanmalı olur. Azərbaycan şeiri sevgi, məhəbbət, tənhalıq poeziyasından tərcümeyi-hal yaşantılarına doğru poetik bir yol gəlir. Yaradıcılığa 40-cı illərin sonu, 50-ci illərin əvvəlləri başlayan Bəxtiyar Vahabzadə, Nəbi Xəzri, Hüseyn Hüseynzadə (Arif), Qasım Qasımzadə, Xəlil Rza, Hüseyn Kürdoğlu, Əli Kərim, Sərdar Əsəd, Əliağa Kürçaylı, Məmməd İbrahim (Araz), Nəriman Həsənzadə, Cabir Novruz, Balaş Azəroğlu, Qabil, Fikrət Qoca, Əli Tudə, Hökumə Billuri, Mədinə Gülgün, İslam Səfərli poeziyada öz üslubunu və yolunu müəyyənləşdirir. Bu natamam siyahının özü belə poeziyanın çoxsəsliliyini göstərir.

Bu illərin poetik xəritəsi bir neçə dəfə dəyişikliyə məruz qalır; poeziyaya yeni qüvvələrin gəlişi onun məzmun və forma mənzərəsini də dəyişir. Musa Yaqub, Tofiq Bayram, Arif Abdullazadə, Fikrət Sadıq, Vaqif Səmədoğlu, Ramiz Rövşən, Ələkbər Salahzadə, İsa İsmayılzadə, Məmməd Aslan, Ağa Laçınlı, Məmməd İsmayıl, İlyas Tapdıq, Famil Mehdi, Eyvaz Borçalı, Məstan Əliyev, Vaqif Nəsib, Səyavuş Sərxanlı poeziyanın inkişaf yolunda poetik fərdiyyətlərini təsdiq edirlər. Bunun ardınca gələn Sabir Rüstəmxanlı, Zəlimxan Yaqub, Nüsrət Kəsəmənli, Vaqif Cəbrayılzadə, Vaqif Bəhmənli, Eldar Baxış, Ağamalı Sadiq, Çingiz Əlioğlu və b. poetik palitranı bir qədər də zənginləşdirirlər. Bu dövrdə poeziyanın inkişaf yolunda bir neçə

ədəbi nəsil iştirak edərək, onu məna, məzmun, üslub baxımından dolğunlaşdırır. Bu poetik yolda sosrealizmin ictimai, siyasi ehtiyaclarını ödəyən poetik nümunələrdən tutmuş, dünya poeziyası ilə səsləşən saf, təmiz poetik nümunələr də yaranır. Cəmiyyətin yeni mərhələyə daxil olması və poeziyanın informativ çəkisinin artması ilə ideoloji yükü bir qədər zəifləyir və onun diqqəti daha çox mənəvi-əxlaqi problemlərə, təbiət-cəmiyyət harmoniyasının vəhdətinə, intellektuallığın dərkinə yönəlir. Əgər 20-30-cu illərin ədəbi prosesində barmaqla sayılacaq qədər şairlər iştirak edirdisə, 60-80-ci illərdə otuzdan çox şairin fərdi poetik axtarışlarını bir metod daxilində, lap sosrealizm olsa belə, tutmaq, qəlibə salmaq mümkün olmadığından, yeni mərhələdə poeziyanın hərəkəti və yeni inkişaf yolu inzibati yolla yox, təbii inkişaf xətti ilə gedir, poetik arenada bir neçə nəslin iştirakı onun polifonizmini təmin etmiş olur. Bu mərhələdə poeziya əsaslı şəkildə dəyişir; insanın mənəvi inkişafına diqqət artır, insan və onun taleyi önə çəkilir, bədii forma cəhətdən zənginləşir. Həm də bu meyillər keçici xarakter daşımır, bütün hadisələrə "İnsan" konsepsiyasının işığında nəzər salınır. Poeziyada ictimai funksionallığın azalması, ritorika və pafosun çəkilməsini şərtləndirir. Poeziyada emosionallıq artır, lirika və intellektuallıq, poetik intertekstuallıq, ahəng, ritm dəyişir və zənginləşir, dil, üslub cəhətdən yeniləşir.

Azərbaycan poeziyasının bu mərhələsinin əsas mövzularından biri də Cənub mövzusu idi. İkinci Dünya müharibəsi bitdikdən sonra Cənubda baş verən ictimai-siyasi proseslərin qarşısının hərbi yolla alınması, azadlıq və demokratiya uğrunda mübarizənin qanla boğulması Cənubi Azərbaycanda yeni bir mənzərə yaratmış oldu. Balaş Azəroğlu, Söhrab Tahir, Mədinə Gülgün, Əli Tudə, İsmayıl Cəfərpur, Hökumə Billuri kimi inqilab fədailəri mübarizəni Şimali Azərbaycanda poeziya cəbhəsində aparmalı oldular. S.Rüstəmin qırx illik yaradıcılıq yolunda sabit mövzu olan Cənub hadisələri yeni poetik təfəkkür işığında yenidən ədəbi gündəmi məşğul edir. "Cənub şeirləri" silsiləsinin müəllifi özünün lirik "mən"inə sadiq qalaraq nəinki problemi gündəmdə tutur, həm də böyük bir nikbinliklə poetik avanqardçılığını qoruyub saxlayır. "Şair qardaşıma məktub", "Şair Səhəndə cavab", "Yalandır", "Görsəm", "Təbrizlilərin" və s. şeirlərində həsr etdiyi problematikaya sadiqliyini nümayiş etdirir. *"Bir zamanlar qoca Təbrizdə şeirlər yazdım, / Doğma qardaş kimi min-min evə mehman oldum"*, – deyən şair Cənub nisgilini, kədərini çatdırır, yaralı Təbrizi görmək arzusu ilə yaradır, bu gün "gözlərindən qan-yaş axıdan əzablı-cəfalı Təbrizi" görmək arzusu ilə yaşayır. Lakin şair sadəcə, ayrılıq və nisgilini poetik ifadəyə çevirmir, Təbrizin və təbrizlilərin azadlığının bir gün baş tutacağına inanır. M.Şəhriyara birinci poetik məktubunda yazırdı:

Kim deyir ki, ünvanımız ayrıdır,
Nə adımız, nə sanımız ayrıdır,
Nə canımız, nə qanımız ayrıdır,
Ürək birdir, bədən birdir, Şəhriyar,
Vətən birdir, vətən birdir, Şəhriyar.[1]

B.Vahabzadə, B.Azəroğlu, S.Tahir, H.Billuri, M.Gülgün, M.Araz, M.İsmayıl, S.Rüstəmxanlı, N.Kəsəmənli və b. yaradıcılığında ikiyə bölünmüş xalqın taleyi əks olunur. Bu mövzuda yazılan şeir və poemalarda Araz bir obraz, bədii simvol səviyyəsinə yüksəlmişdi. Araza yazılan saysız-hesabsız şeirlər içərisində N.Həsənzadənin, M.Arazın yaratdığı obrazlar orijinallığı ilə seçilir. N.Həsənzadə yazırdı:

Arazdan içmək olmur,
Arazı keçmək olmur.
Baxırsan yana-yana,
Qalırsan baxa-baxa.
Arazsa gəlib keçir
Qanından axa-axa!
Söz demək istəyirsən,
Yanır dil, yanır dodaq,
Qardaş, biz də yazmasaq,
Bəs bunu kim yazacaq.[2]

Cənubda M.Şəhriyarın ana dilində yazdığı "Heydərbabaya salam" poeması və qarşılıqlı təmaslar, məktublaşmalar sosrealizmdə Cənub mövzusuna yeni rəng qatır, hərəkətlilik gətirir. Bu dövrdə yazıb-yaradan bütün şairlərin yaradıcılığından Cənub mövzusu bir xətt kimi keçir. Araz çayı, Vətənin ikiyə bölünməsi haqqında B.Vahabzadə "Gülüstan" poeması və bir neçə şeirində də bu ağrının anatomiyasını poetik şəkildə ifadə edib. "Vətəndən Vətənə" (1962) kiçik şeirində isə şair problemə başqa bir aspektdən yanaşır. Vətən adlanan yerin üzünü görməməsi şairi dərindən narahat etdiyindəndir ki, "Bu necə vətəndir?", – poetik sualını verir:

Görmədim üzünü
Çatsam da bu yaşa
Ömründə bir dəfə.
Bəs salam verməzmi
Qardaş da qardaşa?
Bu qəmim, bu dərdim dağlardan ağırdı

[1] Süleyman Rüstəm. Seçilmiş əsərləri. Üç cilddə, II c. – Bakı: Şərq-Qərb, 2005, s.84
[2] Nəriman Həsənzadə. Seçilmiş əsərləri. Yeddi cilddə, I c. – Bakı: Prometey, 2010, s.234

Arazın suyuna qarışıb axıram.
Füzuli həsrətlə qürbətdən Vətənə baxırdı,
Mən isə...
Vətəndən-Vətənə baxıram.[1]

Araz adını özünə təxəllüs götürən Məmməd Arazı həm də "Araz şairi" hesab edirlər və bu adı o ləyaqətlə daşıyaraq qardaş ayrılığının yaddaşını yazmağa, obrazını yaratmağa nail olmuşdur. Şair bütün şeirlərində siyasi ayrılıqdan daha çox, mənəvi bütövlük haqqında yazaraq Araz dərdinin poeziyamızda ən yaxşı ifadəçilərindən biri olur. Bu mövzuya şair onlarla şeir ("Arazın nəğməsi", "Araz üstə çinar gördüm", "Göyərdi" və s.) və "Araz axır" poemasını həsr etmişdir:

Araz üstə çinar gördüm.
Qoşa çinar.
Budaqları bir-birinə dolaşan çinar.
Yarpaqları bir-biriylə öpüşən çinar.
İki titrək, iki güləş,
İki şən çinar.[2]

60-cı illərdə poeziya iki – ənənəvi və novator istiqamətdə inkişaf edir, bu istiqamətlər o qədər nəzərə çarpır ki, hətta ideya-estetik mövqelərilə bir-birinə qarşı da durur. S.Vurğunun vəfatından sonra epik poeziyanın mövqeyinin zəifləməsi və dünya poeziyasının milli ədəbi prosesə inteqrasiyası sərbəst şeir və onun nümayəndələrini önə çıxarır. Bəziləri ənənəvi, bəziləri isə sərbəst şeiri müdafiə edirlər. R.Rzanın gəncləri başına toplayaraq onlara dəstək olması sərbəst şeirin müdafiəsi kimi başa düşülür. Bu illərdə sərbəst şeirin başında duran R.Rza 30-cu illərin sonlarından heca vəzninə keçmiş və bu formada şeirlər yazmışdı. Repressiyanın tüğyanı və müharibənin başlaması ilə sərbəst şeir geri çəkilmiş, sıraları seyrəlmiş, çox az nümunələri yaranmışdı. 50-ci illərin əvvəllərindən başlayaraq sərbəst şeir ("Lenin" poeması) yenidən gündəmə gəlir. Sərbəst şeirin 60-cı illərdə yenidən müzakirə obyektinə çevrilməsinin müəyyən səbəbləri vardı. Sərbəst şeirə ənənəçiliyi inkar edən forma kimi baxanlar da və ya əksinə, onu çoxəsrlik poetik forma olan hecadan üstün tutanlar da var idi. İstər yenilikçilər, istərsə də ənənəçilər arasında novatorluğu formada, xarici görünüşdə görənlər yanılırdı və bu fikirlərin əsassızlığı mübahisələrdə dərhal üzə çıxırdı. Ədəbiyyatşünaslığımızda nəzəri cəhətdən ənənə və novatorluq problemi tam işlənmədiyindən, onun dəyərləndirilməsində də səhvlərə yol verilirdi. Gənclərin sətirləri yerli-yersiz qıraraq, pillə-pillə düzmələrini novatorluq kimi başa düşmələri bu səhv

[1] Bəxtiyar Vahabzadə. Seçilmiş əsərləri. İki cilddə, I c. – Bakı: Şərq-Qərb, s.16
[2] Məmməd Araz. Araz axır. – Bakı: Azərnəşr, 1964, s.72

yanaşmanın nəticəsi idi. Ənənəçilərin də konservatizmə əsassız qarşı çıxmaları problemə üzdən yanaşmanın nəticəsi olaraq ədəbi prosesdə səthi mübahisələrə səbəb olurdu. Əslində, novatorluq vəzndə, xarici formada deyil, bədii idrakda, həyat hadisələrinə orijinal münasibətdə və onun ifadə tərzindədir və onu məhz burada axtarmaq lazım gəlirdi. Bütün hallarda vəzndən asılı olmayaraq, bədii fikir, duyğu və onun ifadə tərzi, ifadə vasitələri yeni və orijinal olmalıdır. İstər hecada olsun, istərsə də sərbəstdə forma ilə məzmun vəhdətdə olmalı, hadisələrə orijinal yanaşma, bədii təsvir və ifadə vasitələri yeni olmalıdır. Bu müzakirə və mübahisələr yeni şeir və onun gələcək inkişaf istiqamətlərinin müəyyənləşməsində müəyyən rol oynayır.

Yenilikçiliyin poeziyada təzahür formalarından biri də dildə baş verir, yəni bu zamandan poeziyanın dili, semantik quruluşu dəyişməyə başlayır. Ə.Kərim, B.Vahabzadə, H.Arif, N.Xəzri, S.Əsəd, N.Həsənzadə, V.Səməd-oğlu, İ.İsmayılzadə, R.Rövşən, A.Abdullazadə, F.Qoca, Ə.Salahzadə, İ.İsmayılzadə şeirinin dili və semantik strukturu ənənəvi poeziyadan fərqlənirdi. Bu mərhələnin poeziyasının novatorluğunu təmin edən komponentlə bağlı professor T.Hacıyevin fikirləri təsdiqləyir: "Ədəbiyyatda novatorluq – bədii təfəkkürün müasir mühitlə, mədəni-zehni səviyyə ilə ahəngdarlığıdır, ictimai-sosioloji tələbatla, dəb-zövq çağırışı ilə zaman-zaman yeniləşməsidir. Bu, bədii əsərin janrı, üslubu, obrazlar sistemi, kompozisiya-tərkib elementləri ilə yanaşı və bəlkə də birinci növbədə, dilində üzə çıxır".[1] Bu yenilikçilik R.Rza və Ə.Kərim yaradıcılığında ilk olaraq özünü açıq-aydın göstərir. Əgər R.Rzanın 30 ildən çox yaradıcılıq yolunda eyni dil və təşbeh, bədii təsvir və ifadə vasitələrindən istifadə etdiyini nəzərə almış olsaq, Ə.Kərimin bu dövrdə yenilikçi hərəkatın öncüllərindən biri olduğunun şahidi oluruq. Bu illərdə R.Rza yaradıcılığındakı ikinci nəfəs həm də poeziyanın yeni mərhələsini müəyyənləşdirir. R.Rza ilə paralel olaraq Ə.Kərimin də yaradıcılığı ümumən poeziyanın inkişaf istiqamətlərini stimullaşdırır. B.Vahabzadə, H.Arif, N.Xəzri ilə ənənəvi şeirə yeni elementlər gəlir. R.Rza və B.Vahabzadənin şeirlərindəki fəlsəfi düşüncə paralel olaraq ənənəvi və novator şeirdə poetik axtarışları özündə birləşdirir. R.Rzanın bu dövr poeziyasının əsas obyektini insan və bəşəri duyğular təşkil edir. Şairin yaradıcılığında sovet realizmindən daha çox yer planetinin müxtəlif guşələri, insan və onun hiss və duyğuları təsvir edilir. Onun "Qızılgül olmayaydı", "Bir gün də insan ömrüdür", "Günlərin bir günü", "Dana və balaca qız", "Mən torpağam" və s. şeirlərində lirik qəhrəmanın düşüncələri gündəlik həyatla deyil, bəşəri hisslərlə yaşayır, fikir və düşüncələri ümumbəşəri mahiyyət daşıyır. Bu baxımdan "Dana və balaca qız" şeiri dövrün mahiyyətini əks etdirir. Sovet siyasi sistemində insanın ideologiyanın ruporuna çevrildiyi

[1] Tofiq Hacıyev. Yenilikçi poeziya / Əli Kərim. Qayıt. – Bakı: Yazıçı, 1983, s.12

zaman şair “Bir gün də insan ömrüdür” və “Dana və balaca qız” şeirlərində dövrün mahiyyətini açmağa çalışır. İlk baxışdan hər iki şeir real həyatla bağlıdır və dövrün ideologiyasına xidmət edir, lakin hər iki şeirdən çıxan nəticə insan amilini ortaya qoyur. “Bir gün də insan ömrüdür” şeirində insanın dövlət planını yerinə yetirməsi, ancaq bunun müqabilində onlara qayğının olmaması, “Dana və balaca qız” şeirində isə kolxoz danasının insan həyatından üstün tutulması təsvir edilir. Gülxaranın danalara olan qayğısı uşağına olan baxımsızlıqla kompensasiya edilir və nəticədə gəlinlik şalını buzovun qarnına bağlayaraq, ona qayğı göstərən kolxozçunun qızdırma içində yanan qızına biganəliyi uşağı öldürür. Poetik nəticə belədir:

Quyruğunu qoyub belinə,
Qaçır, tullanır sarı dana indi.
Ancaq soruşan yoxdur
Yaşıl otlar içindəki
O balaca qəbir kimindi?[1]

Şeirdə dananın sarı rəngdə verilməsi də təsadüfi deyildi, bununla şair dövrə və siyasi siyasi fikrə işarə vururdu. “Qızılgül olmayaydı” poemasında ilk dəfə olaraq sistemin 30-cu illərdə törətdiyi analoqu olmayan repressiyaya bədii münasibət bildirilir. Poema repressiyaya məruz qalmış M.Müşfiqin taleyinə həsr olunsa da, ümumən “1937 sunamisi”nin qurbanlarının müəlliflərinə ittiham aktı kimi səslənir. İnsanlıq tarixinə silinməz bir qara ləkə olaraq düşmüş bu tarix onlarla şair, yazıçı və ziyalıların taleyini yarımçıq qoydu. Poema Müşfiq yadigarı Dilbərin kəfənə bürünərək bir xəyal kimi şairin qapısına gəlişi ilə baş vermiş hadisələrin xatirələr işığında təsvirilə başlayır. Bütövlükdə götürdükdə, R.Rzanın bu mərhələdə yazdığı şeirlərinin mərkəzində insan dayanırdı və bu şeirlərdən çıxan nəticədə mövcud ideologiyaya, yaşadığı dövrə və keçilmiş yola bir etiraz var idi. R.Rza poeziyasının lirik qəhrəmanı müasirlərinin fikir və düşüncələrini, çağdaş dünyanın hiss və həyəcanlarını yaşayır, insanın diqqətini həyat və dünya problemlərinə yönəldir, onun qəlbi dünyanın ritmi ilə bir yerdə çırpınır: *“Məni yatmağa qoymur / dünyanın dərdi, / torpağın ağrısı”.* R.Rzanın lirik qəhrəmanı özünü bu dünyanın bir parçası hesab edir, özünü bu dünyadan ayırmır. “Mən-torpağam, mən-küləyəm, buludam, işığam, baharam”, – deyə Nəsimi fəlsəfəsinə yaxınlaşan şairin şeirlərində daim mübarizə, gərginlik, dramatizm hiss edilir. Əslində onun lirik qəhrəmanı mənsub olduğu xalqın bir məqamının tərcümanı xarakterini daşıyır:

[1] Rəsul Rza. Seçilmiş əsərləri. Beş cilddə, III c. – Bakı: Öndər, 2005, s.234

...Mən insanam,
ülfətsiz-ölərəm,
məhəbbətsiz,
nifrətsiz-ölərəm.
Mən torpağam,
nemətimi, varımı
zəhmət sevən insanlarla bölərəm;
Mən ürəyəm,
döyünməsəm ölərəm.[1]

"İnsan" leytmotivi şairin yaradıcılığının son mərhələsinin mövzu və problematikasının əsasını təşkil edir. Tənqidçi A.Əfəndiyevin qeyd etdiyi kimi: "R.Rzanın lirik qəhrəmanı öz kiçik subyektiv aləminə qapılıb, keçici ehtirasların təhlilində səadət tapan naşı deyil, qəlbini dünyanın arzularına, sevincinə, qəminə geniş açan müdrik bir şəxsiyyətdir".[2] Şair dünyada gedən proseslərə özünəməxsus qiymət verərək yazır:

Mən istəyirəm buludlar ağlasın,
insanlar ağlamasın
analı, ya anasız.
Mən istəyirəm
güllər açılsın,
güllələr açılmasın
amanlı, ya amansız.[3]

Bu zaman R.Rzanın adı dünya poeziyasında mühüm yer tutan Nezval, Pablo Neruda, Nazim Hikmət, Eduardas Mejalaytis kimi şairlərlə bir sırada çəkilir. R.Rzanın "Rənglər" silsiləsi poetik yaradıcılığında novatorçuluğun ən yaxşı nümunəsinə çevrilir, şairin poeziyası forma və məzmun baxımından dünya poeziyasına bir qədər də yaxınlaşır. Poeziyasına bəşəri motivlər, insanın mənəvi-daxili aləminə diqqət, fəal humanizm və bədii-fəlsəfi vüsət kimi elementlər daxil olur. Səməd Mənsurun "Rəngidir" şeirindən sonra yenidən rənglərin çalarlarına müraciət edən şair "Rənglər" silsiləsilə həyata, hadisələrə yeni rakursdan baxır. "Ağ rəng"i poetik rənglərə bürüyən şair yazır:

Yuxulu körpənin təbəssümü.
Ümid Təmənnasız yaxşılıq.
"Sizdə xərçəng yoxdur!" sözlərinin
deyildiyi dəqiqə.

[1] Rəsul Rza. Seçilmiş əsərləri. Beş cilddə, I c. – Bakı: Öndər, 2005, s.28
[2] Asif Əfəndiyev. Müdriklik səlahiyyəti. – Bakı: Gənclik, 1976, s.23
[3] Rəsul Rza. Seçilmiş əsərləri. Beş cilddə, I c. – Bakı: Öndər, 2005, s.28

İnsan səadətinə səbəb olan hər şey,
hətta təsəlli üçün deyilmiş yalan...[1]

Şairin yaradıcılığında ağ rəng bir deyil, bir neçə çaları ifadə edir; ağın sevinc və məhəbbət çaları təsvir edilir. "Rənglər" silsiləsində göy qurşağının yeddi rəngi, eləcə də "gümüşü", "boz", "püstəyi", "kürən", "narıncı", "qızılı", "xurmayı", "badımcanı" və s. çalarlar poetik ifadəsini tapır. "Rənglər" R.Rza şeirinin palitrasını zənginləşdirməklə yanaşı, poeziyaya bir cəsarət, yenilikçi ruh gətirmiş oldu. "Gümüşü" rəng şairin poetik dərkində bu cür ifadə edilir:

Yarpaqların yararsızlığı
Dəbdən düşmüş kişi bığı.
Bizə ilkin əlifba öyrədən müəllimin
zaman arxasında qalmış surəti.
Köpüklü ləpələr.
Baba-nənə haqqında xatirələr.
Dumanlarda oyanan şəhər.
Şeyx Şamil və onun toqqasından asılmış,
qəbzəsi dualı yazılı xəncər.[2]

Bu illərdə bir çox nəsillərin (istər hecada, istərsə də sərbəstdə!) fərdi poetik üslubu, özünəməxsus obrazlı dili, deyim tərzi, poetik məcazlar sistemi formalaşır, poeziyanın mövzu və məzmun dairəsi genişlənir, poetik məsuliyyət hissi artır. Şairləri düşündürən ayrı-ayrı lokal mövzu və problematika deyil, İnsan, Vətən, Yer kürəsi, onun bu günü və gələcəyi olur. Bu şeirlərdə assosiativlik, obrazlılıq, emosionallıq və intellektuallıq artır, romantik və rasional poetik fəlsəfi bədii ümumiləşdirməyə meyil aydın hiss olunur. Əli Kərimin "Daş" şeiri bu cəhətdən səciyyəvidir. Şair bir detala poetik fəlsəfi məna verərək bəşəriyyətin keçdiyi yolda daşın daşıdığı funksiyanı təsvir etməyə nail olur. Aydındır ki, bəşəriyyətin keçib gəldiyi tarixdə bir daş dövrü olmuşdur və bu dövrdə yaşayan insanlar daşdan bir silah kimi də istifadə etmişlər. Şair "daş" poetik detalında bəşəriyyətin keçib gəldiyi mərhələləri izləyir, məlum olur ki, yarıçılpaq qədim bir insanın düşməninə atdığı o daş yerə düşməyib, üfüqlərdən üfüqlərə uçub gedərək formasını dəyişib, məzmun isə olduğu kimi qalıb:

Deməyin ki, daş yox oldu
Daş çevrilib bir ox oldu.
Oldu qılınc, güllə, mərmi.
Dayanmadı fikir kimi.

[1] Rəsul Rza. Seçilmiş əsərləri. Beş cilddə, III c. – Bakı: Öndər, 2005, s.228
[2] Yenə orada, s.234

Atom oldu.
Meridianı qırıq-qırıq,
Arzuları zərrə-zərrə,
Okeanı para-para
Edib keçdi...[1]

Şair burada müasir insanın yarıvəhşi əcdadından əslində fərqlənmədiyini obrazlı dillə çatdırır, bəşər tarixini tərk etməyən müharibələrin yalnız ölüm gətirdiyini ifadə edir. Burada daşın daşıdığı məcazi yük poetik olduğu qədər də tarixi və fəlsəfidir. Kiçik bir detaldan istifadə edən şair bu detala böyük, fəlsəfi bir məna yükü verir və öz həməsrinə müraciət edərək qədim insanın atdığı bu daşı dayandırmağa səsləyir:

Ey həməsrim,
Həqiqətin qan qardaşı,
Dayandırmaq olmazmı, de,
Yarıçılpaq, yarıvəhşi,
Qədim insan atan daşı?!

Ə.Kərimin "Babəkin qolları" şeirində tarixiliklə müasirliyin vəhdəti obrazlı şəkildə təsvir olunur. Tarixən oxucuya bir qəhrəman kimi tanış olan Babək burada yeni baxış bucağından tanıdılır. Əsasən Babəkin həyatının son günlərini təsvir edən şair kiçik bir şeirdə adlıq haldan istifadə edərək, detallarla apardığı mübarizənin həyat amalını və fəlsəfəsini açmağa nail olur. Şeirin məzmunundakı çevrilmə, yaxud semantik metamarfoz Babəkin qəhrəmanlıq salnaməsinə yeni yanaşma sərgiləyir.

B.Vahabzadə, N.Xəzri, H.Arif poeziyasının başlıca xüsusiyyətlərindən biri yeni poetik fikir və düşüncə stereotipi formalaşdırmaqdan ibarət olmuş və demək lazımdır ki, onlar buna müvəffəq olmuşlar. Onlar 60-cı illərdən başlayan poetik milli düşüncənin əsasını qoyan və onu sonadək inkişaf etdirənlərdən olurlar. Başqa sözlə, sovet poeziyasının milli poeziyaya keçidində bu üçlüyün xidmətləri danılmazdır. B.Vahabzadənin "Gülüstan" poemasında, qadağan olunmasına rəğmən, Azərbaycan xalqının işğal tarixi poemanın mövzu və problematikası edilmiş və milli azadlıq mübarizəsinin poetik əksi verilmişdir. B.Vahabzadənin "Ana dili" şeiri isə sovet siyasi sistemində şairin poetik manifesti kimi səslənir:

Dil açanda ilk dəfə ana söyləmişik biz,
"Ana dili" adlanır bizim ilk dərsliyimiz.
İlk mahnımız laylanı anamız öz südüylə
İçirir ruhumuza bu dildə gilə-gilə.

[1] Əli Kərim. Seçilmiş əsərləri. – Bakı: Lider, 2004, s.51

Bu dil, – bizim ruhumuz, eşqimiz, canımızdır,
Bu dil, – bir-birimizlə əhdi-peymanımızdır.
Bu dil, – tanıtmış bizə bu dünyada hər şeyi.
Bu dil, – əcdadımızın bizə qoyub getdiyi
Ən qiymətli mirasdır, onu gözlərimiz tək
Qoruyub, nəsillərə biz də hədiyyə verək.[1]

Onun poeziyası hiss ilə fikrin, fəlsəfi düşüncənin vəhdətindən yaranmış, həyat, ömür haqqında poetik qənaətlər həyat həqiqəti kimi səslənir. Şairin lirik Məni daim düşünür, həyata səsləyir, dünyanı dərk etməyə çağırır:

Yaşamaq yanmaqdır, yanasan gərək,
Həyatın mənası yalnız ondadır.
Şam əgər yanmırsa, yaşamır demək,
Onun da həyatı yanmağındadır![2]

B.Vahabzadə sənətinin xarakterini və mahiyyətini yüksək qiymətləndirən böyük yazıçı Çingiz Aytmatov onun sənətinin həmişə yaşarlılığını, həqiqi sənətin həmişəyaşar varlığa çevrilməsini belə ifadə edirdi: "Bəxtiyar Vahabzadənin "Bir gəminin yolçusuyuq" (1983) kitabında toplanan əsərlərinin, demək olar ki, hamısında mən qüdrət, aydınlıq və müdriklik görürəm. Şairin təlatümü, inkar və təsdiqi söz oyununda deyil, ali ehtirasdan, "əks-sədalıqdan", qəlb inamından doğur: "Bizi əhatə edən aləmdə hər nə varsa, şairi dərindən-dərinə düşündürür; xeyirlə şəri, gözəlliklə eybəcərliyi, böyüklüklə kiçikliyi, bir sözlə, insan ruhunun ali və xırda duyğularını poeziya səviyyəsinə qaldırmaq ehtirası Bəxtiyarın fitrətindədir"[3]. B.Vahabzadənin poetik təfəkkür mədəniyyəti təbiətcə milli, fəlsəfi, melodik olduğu kimi, həm də düşündürücüdür. Onun obrazları da milli olmaqla yanaşı, bəşəriyyəti düşünür, dünyada gedən proseslərə narahatlığını ifadə edir. Bu hər şeydən əvvəl, şairin özünün narahat təbiətindən irəli gəlir. Şairin poetik təfəkkürü şeirlərində bir qədər də publisistik tonda səslənir, üstün mahiyyət kəsb edir, bir sözlə o nədən yazır yazsın, böyük Vətəndaşlıq nümunəsi göstərir. Lirizm, vətənpərvərlik, fəlsəfi düşüncə onun şeirlərinin əsasını təşkil edir.

B.Vahabzadənin "Muğam" poeması epik poeziyanın ən yaxşı nümunəsi olmaqla yanaşı, milli-mənəvi dəyərlərin poetik ifadəsi kimi də əhəmiyyətlidir. Muğam şair üçün xalqın milli-mənəvi sərvətidir. Şair poema boyu muğamı analitik poetik şərh edir və onu xalqın mübarizə, mücadilə simvolu olaraq təsvir edir. Çünki Muğamda xalq taleyi, xalqın həyatı, məişəti, arzu və

[1] Bəxtiyar Vahabzadə. Seçilmiş əsərləri. İki cilddə, I c. – Bakı: Şərq-Qərb, 2005, s.8
[2] Yenə orada, s.127
[3] Çingiz Aytmatov. Yaradıbdır inam məni... / Bəxtiyar Vahabzadə. Seçilmiş əsərləri. İki cilddə, II c. – Bakı: Öndər, 2004, s.4

istəkləri əks olunur. Muğam xalqın mənəvi yaddaşıdır, ülvi arzuları, bəşəri düşüncəsidir:

Daş ürəklərdə yanıb daşları sındırdı muğam.
Haqqa düşmən olanı haqqa tapındırdı muğam.
Nə güman eyləmisən ondakı tilsimləri sən,
"Kürü ahıyla qurutdu", "Salı yandırdı" muğam.
Onun hər guşəsi bir xatirə, bir canlı kitab,
Keçilən yolları hərdən bizə andırdı muğam...
Dəfn edin siz məni Zabul segahın mayəsinə,
Deyirəm, bəlkə, məni bir gün oyandırdı muğam.[1]

Nəbi Xəzrinin təbiət lirikasında estetik gözəlliklə yanaşı, mənəvi dəyərlərin təsviri də ictimai məzmun qazanır. Bu şeirlər sadəcə təbiətin bir parçasının mənzərəsini əks etdirmir, insan-təbiət vəhdətinin qarşılıqlı münasibətlərini əks etdirir. Bu mənada N.Xəzri yaradıcılığının baş mövzularından biri Azərbaycan, onun təbiəti, tarixi keçmişi və gələcəyidir. Bəzən onu ömrün mənası və anası hesab edir: *"Ömrümün mənasısan, / Qardaşlıq dünyasısan, Anamın anasısan, / Azərbaycan!"* O, təbiətə də Azərbaycanın gözü ilə baxır, yaxud təbiətin gözü ilə Azərbaycana baxır. Hara gedirsə, harada olursa, Azərbaycanı görür; bu zaman onun poeziyasında incə və zərif lirika, mənalı təbiət mənzərələri, fəlsəfi düşüncələr, vətəndaşlıq pafosu birləşir, yeni məna kəsb edir. Onun yaradıcılığında Azərbaycanın zəngin və bütöv poetik obrazı canlanır, bədii panoramı yaradılır. Nədən yazırsa-yazsın, şeirinin ruhu və mayası Azərbaycan olur. Şair bütün varlığı ilə ana torpağa, vətənə bağlıdır və bunu yalnız ona həsr etdiyi şeirlərində yox, bütün əsərlərində görmək olar. Hər dəfə Azərbaycanı yeni bir ritm və intonasiyada təsvir edir:

Dünyalar içində bir ayrı dünyam Azərbaycan!
Yuxusuz ömrümdə bir sirli röyam Azərbaycan!
Sonsuz kainatda təkcəm, yeganəm Azərbaycan![2]

Azərbaycan şair üçün müqəddəs bir varlıqdır, mövzusundan asılı olmayaraq, bütün şeirlərindən boylanır. *"Sən günəş, mən isə bir zərrə kimi / Diriykən oğlunam, ölsəm-torpağın. / Sən ki döyündürdün mənim qəlbimi / Sən uca çinarsan, mənsə yarpağın / Mənəm sənin özün, ey eşqim-canım, / Sənsən özüm mənim Azərbaycanım!"*[3]

[1] Bəxtiyar Vahabzadə. Seçilmiş əsərləri. İki cilddə, II c. – Bakı: Öndər, 2004, s.190
[2] Nəbi Xəzri. Seçilmiş əsərləri. İki cilddə, I c. – Bakı: Lider, 2004, s.126
[3] Yenə orada, s.126

X.Rza, F.Qoca, C.Novruz, F.Sadıq, A.Abdullazadə və başqalarının yaradıcılığında isə müharibə mövzusu və dünyada baş verən proseslərə poetik münasibət bildirilir. Əsasən epik poema janrında olan bu münasibət dünya xalqlarının azadlığı uğrunda mübarizəyə həsr olunurdu; Qarsiya Lorka, Viktor Xara, Ancela Devis, Çe Qevara kimi inqilabçı mübarizlərin həyatı örnək kimi göstərilir və onların haqq-ədalət uğrunda dramatik mübarizəsi şeir və poemaların obyekti olurdu. Xəlil Rza (Ulutürk) yaradıcılığında üç xüsusiyyət daha qabarıq görünür; **birincisi**, şeirlərində milli hiss və duyğunun təcəssümü; **ikincisi,** dünyanın müxtəlif xalqlarının azadlıq mübarizəsinə həsr etdiyi şeirlərində sətiraltı rəmzlər və simvollarla milli istiqlal duyğusunu yaşatması; **üçüncüsü,** dünyanın tanınmış şairlərinin milli konseptdən yazılmış şeirlərinin tərcüməsi ilə milli hissin tərbiyəsi. "Afrikanın səsi" (1960) şeirini "Azadlıq" adı ilə çap etdirməyə çalışsa da, senzura buna icazə verməmişdi. Əslində isə şair bu azadlıq çağırısında Afrika ilə birlikdə öz vətəninin də azadlığını istəyirdi. Şeirdə öz azadlığı uğrunda mübarizə aparan və hər cür müstəmləkəçiliyə qarşı çıxan xalqın və imperializm buxovundan qurtulmağa çalışan xalqların azadlıq eşqi ifadə olunur:

Azadlığı istəmirəm
zərrə-zərrə, qram-qram!
Qolumdakı zəncirləri
qıram gərək, qıram, qıram!
Azadlığı istəmirəm
bir həb kimi, dərman kimi
İstəyirəm Səma kimi,
Günəş kimi, Cahan kimi!
Çəkil, çəkil, ey qəsbkar,
Mən bu əsrin gur səsiyəm!
Gərək deyil sısqa bulaq,
Mən ümmanlar təşnəsiyəm!!![1]

Xəlil Rzanın "Mənim şeirim", "Bahar", "Doğma ev", "Bir dəstə çiçək", "Həyat düşüncələri", "Dağlara qalxıram", "Ağ yağış", "Düzlük" və s. onlarla şeirlərində Vətən nidasına tez-tez rast gəlmək olur. "Sağlıq-yaxud vəsiyyət" şeirində badələri qaldıraraq unuda bilmədiyi Azərbaycan və Arazın sağlığına içir. Bir başqa şeirində isə müqəddəsliyini, saflığını qoruduğu *"O sahili, bu sahilə birləşdirən, / Polad körpüm qılıncımdır, günəşimdir / Mənim dilim!!!"*, – deyə Ana dilinin müdafiəsinə qalxır:

X.Rzanın yaradıcılığında Vətən, Dil, Yurd, Araz nidaları çoxalmaqla yanaşı, həm də yeni siyasi mahiyyət qazanır; "Cəsarət", "Qəhrəmanlıq",

[1] Xəlil Rza Ulutürk. Seçilmiş əsərləri. İki cilddə, I c. – Bakı: Şərq-Qərb, 2005, s.270

“Yurdum, sənin sağlığına”, “Sənə minnətdaram”, “Qorxaq”, “Yaşamaq”, “Avtoportret” və s. şeirlərinin ana xətti yenə də vətən və onun insanlarıdır. Şairin bu illərdə yazdığı “Müstəqillik bağımsızlıq” şeiri maraqlı bir mövzuya həsr edilib; eyni mənanı daşıyan bu iki sözdən ikincisini ilk dəfə poetik leksikona gətirən də X.Rza olur. Şeir bağda işləyən ata-oğulun poetik dialoqundan ibarətdir; ata bağda oğluna qayçı gətirməyi tapşırır. Atanın fikrincə, kölgə altında qalan tənək müstəqilliyə-günəşə həsrətdir, onu azadlığa çıxarmaq üçün çalışmaq, işləmək lazımdır; gərək onun “yağış payı”, “külək payı”, “günəş payı” vaxtında verilsin, o zaman azadlığa çıxa bilər. Sonra ata oğluna müstəqilliyin – bağımsızlığın həqiqi mənasını anladır:

Müstəqillik-bağımsızlıq
Yəni əlin, qolun bağlı olmasın.
Qucağa, qoltuğa qısılmayasan,
Kiminsə boynundan asılmayasan.
Oğlum, yadda saxla, bu sözümü haqdır:
Qoltuqda yaşamaq-yaşamamaqdır.[1]

80-ci illərdə şairin yaradıcılığında milli mənlik şüuru bir qədər də formalaşır, siyasi düşüncəyə üstünlük verilir. Şairin bədii düşüncə məkanında müstəqillik, azadlıq, Təbrizlə Bakının birləşməsi, Ana dilinin qorunması kimi detallar dolğunlaşır, intensivləşir. “Mənlik”, “Xudafərin körpüsü”, “Özbəkistan”, “Saz”, “Satqın”, “Ehkamçılara qarşı”, “Mində bir”, “Sonra”, “Həqiqət”, “Səadət zəngi” və s. şeirlərində yaxınlaşan milli düşüncənin siyasi qəlb çırpıntıları eşidilməkdədir. Bu şeirlərin hər biri “senzor” filtrindən keçsə də, hiss olunacaq qədər ictimai prosesləri özündə ehtiva etmək gücünü göstərirdi. “Mənlik” şeirində şair insanda milli mənlik şüurunun fomalaşması problemlərini təsvir edir. Hər bir şeirində “mən”, “mən” deyən şairə redaktor məsləhət görür ki, sənin hər şeirindən bir “mən” boylanır, bəs sənin şeirlərində “el, oba yoxdurmu”. Mənliyə böyük ictimai, fəlsəfi məna verən şair hər şeyin bir mənliyinin olması düşüncəsini müdafiə edərək yazır:

...Vətənmi deyirsən, elmi deyirsən,
Kişi Mənliyindən başlanır Vətən.
Mənlik ləyaqəti yetişməyibsə,
Millət yox, qarşında tayfa görərsən.[2]

Yaradıcılığının yeni dövrü millilik, üsyankarlıq, sözün birbaşa deyimi, bəşəri məsələlərə söykənmək kimi keyfiyyətlərə malik olur. Bu şeirləri məzmun etibarilə Cümhuriyyət dövrü poeziyasına yaxınlaşır, formaca milli,

[1] Xəlil Rza Ulutürk. Seçilmiş əsərləri. İki cilddə, I c. – Bakı: Şərq-Qərb, 2005, s.150
[2] Yenə orada, s.170

hərbi marş kontekstində yazılır. Şair bu şeirlərində düşmənə od püskürür, milləti öz azadlığı uğrunda mübarizəyə səsləyir, yüz minlərlə insanların toplaşdığı meydanlarda oxucusu ilə üzbəüz qalaraq, xalqın azadlıq arzularının gerçəkləşməsi naminə birliyə səsləyirdi.

Fikrət Qocanın "Ünvansız məktub" poeması azadlıq uğrunda yaşamaq və ölmək üçün mübarizə aparan Çe Qevaraya həsr olunmuşdu. Çe Qevaranın dramatik həyatı və dramatik ölümü əsərin süjet xəttinin əsasını təşkil edir. Çe Qevara keşməkeşli və mübariz bir ömür sürüb; Argentinada doğulub, Meksikada yaşayıb, Kubada inqilab edərək Boliviyada qəhrəmanlıqla həlak olub. Bu prototip şairə idealları uğrunda mübarizə apararaq qəhrəmanlıqla həlak olan bir obrazın yaradılmasına imkan verir. Şair Çe Qevaranın ölümünü bioloji olaraq deyil, idealları və xalqın azadlığı uğrunda şüurlu şəkildə ölümə gedən insan iradəsinin maksimum həddini təsvir edir. Ölüm haqdır, lakin ölüm də var, ölüm də... Çe Qevaranın ölümü əsərdə Prometey ölümü kimi mənalanır. Çe Qevara isə özü belə deyir: "Məni unudardınız Astmadan, ya vərəmdən Evdə ölsəydim əyər. Bu ölüm deyil, işdi..." F.Qocanın "Ünvansız məktub" poeması həyat, mübarizə, ölüm və ölməzlik haqqında poetik akt kimi diqqət çəkir. Əsəri yüksək qiymətləndirən Y.Qarayev yazır: "Poemada dil, ibarə və ifadələr sistemi də yenidir, qeyri-standartdır. Lakin gur poetik nəfəs burada poetik ünsürlərdən çox, poetik ehtiras və təfəkkürə məxsusdur. F.Qocanın poetik duyumu, qavrayış və düşüncə tərzi də maraqlıdır".[1] S.Rüstəmxanlının "Bütövlük" poeması Vyetnam xalqının milli birlik və bütövlük uğrunda apardığı mübarizəyə həsr olunub. Bu dövrdə siyasi lirikanın ən yaxşı nümunələrindən biri kimi, əsərin əsas ideya xəttinin şairin mənsub olduğu xalqın milli mübarizə idealları ilə üst-üstə düşməsidir. Vyetnam xalqının "millətlərə örnək olan" bu mübarizəsinin qətiyyətlə təqdir olunması şairin vətəndaşlıq hissindən doğduğu kimi *"Müstəqillik! İlk inamım, ilk həsrətim. / Müstəqillik! Xalqın məslək bayrağıdır",* – deyə oxucunu da bu mübarizəyə hazırlayırdı.

N.Xəzri, C.Novruz, Ə.Kürçaylı, N.Həsənzadə, F.Sadıq, M.Araz, B.Azəroğlu, M.İsmayıl və başqalarının şeirlərində Xatın harayı, müharibə lövhələri başlıca yer tutur. C.Novruzun "Qərbi Berlin", N.Xəzrinin "Şəhidlər və şahidlər", B.Azəroğlunun "Əsrimizin həqiqəti" və s. əsərlərində müharibə yaraları, qardaş qəbirləri, Yuqoslaviya və Yaponiya şəhidlərinin faciəsi təsvir edilir və bəşəriyyətə qarşı törədilən bu faciələrə poetik ittiham aktı oxunur. C.Novruzun "Qərbi Berlin" panoram-poemasında faşizmin törətdiyi faciələr "yaddaş" və "unutqanlığın faciəsi" müstəvisində təsvir edilir. Faşizmin törətdiyi faciələrin üzərindən artıq neçə illər keçsə də, unudulmayaraq yaddaşlarda yaşayır. Şairin Qərbi Berlinə getməsi bu yaddaşı təzələyir; şair

[1] Yaşar Qarayev. Poeziya və nəsr. – Bakı: Yazıçı, 1979, s.57

faşizmi insanlığa qarşı törədilmiş bir akt kimi təsvir edir. Ə.Salahzadənin şeirlərində isə müharibənin mənəvi-əxlaqi problemlərinə nüfuz edilir, onun gətirdiyi fəlakətlərin mənəvi tərəfinin təsvirinə diqqət yetirilir. "Ulduzların nağılı" poemasında hər bir ağrı-acılarına mətanətlə sinə gərmiş, oğlunu, qardaşını və yaxud ərini müharibədə itirmiş qadınların sədaqəti ilə bağlı təsvirlər özünəməxsus yer tutur.

Atasını müharibədə itirmiş gənc şair Məmməd İsmayılın yaddaşında müharibə ata itkisi olaraq poetik mətnə çevrilir: "Qəlbimi göynədən qəfil bir istək Ərzin yaxasından yapışmaq istər. Bir zaman əlimdən aldığınıztək, Özümə qaytarın atamı, yollar, Özümə qaytarın anamı, yollar".[1]

H.Arif, N.Xəzri, M.Araz, M.Yaqub, Q.Qasımzadə, H.Kürdoğlu, M.Aslan, M.İsmayılın şeirlərində ənənəvi poeziyanın təbiət və peyzaj lirikası başlıca yer tutur. 60-70-ci illərdə poeziyanın böyük bir qolunun təbiət və peyzaj lirikasına müraciət etməsinin başlıca səbəblərindən biri siyasi, ideoloji, istehsalat poeziyasından yaxa qurtarmaq, yeni mövzu və problematika axtarmaq istəyindən doğurdu; ideoloji basqılardan yorulan lirik "mən" səmimi hiss və duyğularını təbiətlə həmahənglikdə görür, təbiəti tərənnüm obyekti seçir və yeni, orijinal obrazlar üçün bu məkana müraciət edir. H.Arif poeziyası təbiiliyi, səmimiliyi, daxili bitkinliyi və poetik ümumiləşdirmələri ilə diqqəti cəlb edir, hər sətrindən, şeirindən bahar nəfəsi gəlir. Onun obraz, ifadə vasitələri, bənzətmələri ənənədən gəlsə də, tamamilə yeni mahiyyətdə çıxış edir, uğurlu forma və müdrik ümumiləşdirmə üzvi şəkildə birləşir. Onun təbiəti təsviri rəssam fırçasına bənzəyir, təsvir etdiyi, "şəklini çəkdiyi" təbiət mənzərəsini fəlsəfi düşüncə ilə tamamlayır. Zirvədə yaralanmış dağ kəlinin ölümqabağı keçirdiyi halı belə ifadə edir:

...Ağır-ağır dartıb bükdü dizini.
Muncuqladı kirpiklərdə donan tər.
İndən belə toz basacaq izini,
İndən belə nə yürüş var, nə səfər.
Birdən-birə elə çırpdı özünü,
Sağ buynuzu qopub qaldı qayada.
Ey Hüseyn, müxtəsər et sözünü
Bu qan səni tutasıydı, tutdu da.[2]

Təbiətə münasibət, poeziyada peyzaj təsvirlərinə müraciətdə getdikcə yeniləşmə baş verir; bədii təfəkkürün təbiətlə ünsiyyətində hərəkətlilik artır, yeni obrazlar yaranır, ifadə vasitələri dəyişir. M.Yaqub, H.Kürdoğlu, M.İsmayıl, A.Laçınlı, Z.Yaqub və başqalarının şeirlərində insan-təbiət ikiliyi dominantlığını qoruyub saxlayır. M.Yaqubun "Burda hər meşənin..." şeirində bir

[1] Məmməd İsmayıl. Qoymayın dünyanı adiləşməyə. – Bakı: Gənclik, 1978, s.64
[2] Hüseyn Arif. Seçilmiş əsərləri. İki cilddə, I c. – Bakı: Yazıçı, 1985, s.168

detalın, fikrin poetik çalarları deyil, təbiətin özünün harmoniyası təsvir edilir:

Burda hər meşənin min bir ağacı,
Burda hər ağacın yamyaşıl tacı,
Burda hər tac üstə sarmaşıq saçı,
Hər saçın küləkdən darağı vardır.
Burda hər yamacın çiçəkdir daşı…
Burda hər bulağın qonağı vardır.
Harda bu saydığım gözəllik olsa,
Orda Azərbaycan torpağı vardır.

Nəriman Həsənzadənin poetik yaradıcılığında sevgi, məhəbbət mövzusu başlıca yer tutur; bu mövzu bütün şairlər tərəfindən işlənsə də, onun sevgi şeirləri özünəməxsus çalarları, hisslərin səmimi təsviri, ironiyaqarışıq yanaşma və s. xüsusiyyətləri ilə fərqlənir. Şair qadın gözəlliyini zahirdə yox, onun mənəvi-daxili aləmində axtarır, ən saf, təmiz hisslərlə tərənnüm edir. O, Qadına müqəddəs bir varlıq kimi baxır, onu daim uca yerlərdə təsvir edir. Onun şeirlərində Qadın "üz döndərsə, məhəbbət sönər", "nəğmələr yayılmaz", qadınsız "həyatı sevmək çətindi", "sevgisiz həyat da bir həyat deyil". Qadın elə bir böyük varlıqdır ki, hətta Vətən "qadından başlayır": Qoy yeri gəlmişkən deyim bir sözü, nə var yer üzündə anadan əziz? Sənin yastığına baş qoymaq özü cəmiyyət içində borcdu şübhəsiz. N.Həsənzadə yaradıcılığında 70-ci illərdən başlayan milli ideal 80-ci illərdə yeni mərhələyə daxil olur və mövzu və problematikasında dəyişiklik edir. Bu dəyişiklik millət, tarix, müstəqillik kimi məsələlərdə özünü daha çox göstərir. Tarixi mövzulara müraciətlə yanaşı, tarixi təftiş etmək cəhdi göstərir, tariximizin düzgün yazılmadığını etiraf edirdi. Tarix sözünün çoxçalarlı semantikasından istifadə edən şair tarix və biz tezisini bu şəkildə ifadə edirdi: *"Tarix bizim olubdur, / Tarix yazan özgələr. / Tarixə düşməyibdir, / Bizim tarixi hünər, / Bizim tarixi zəfər!.." P*oeziyasında milli azadlıq mücadiləsini əks etdirən şair, həm də müstəqil respublikanın ilk demokratik millət vəkillərindən biri oldu və Müstəqillik aktına qol çəkərək tarixdə imzasını qoydu. Bu barədə yazırdı: *"...Qol çək Müstəqillik Aktına, şair, / Zaman güzgü tutdu baxtına, şair, / Əlimdən gələni əsirgəmədim, / Sinəmdən gələni varaqda yazdım".*[1]

Poeziyanın yeni inkişaf mərhələsində yeniləşmə tədricən deyil, sürətlə baş verirdi; əgər 20-50-ci illərdə bu yeniləşmə ləng həyata keçirilirdisə, 60-cı illərdən başlayaraq, bu proses sürətlənir və bir qədər də daimi prosesə çevrilir. Əslində sənət daim inkişaf edən bir proses olduğundan statik olmaqdan qurtulur və dinamik bir prosesə daxil olur. Poeziya yeni, orijinal axtarışlar aparır; stereotip poetik təfəkkür gənclərin gətirdiyi bir neçə istiqamət və

[1] Nəriman Həsənzadə. Seçilmiş əsərləri. Yeddi cilddə, IV c. – Bakı: Prometey, 2004, s.234

üslubda bir-birini əvəz edir. Bu nəslin aparıcı nümayəndələrindən əsl poeziya ilə nəzm arasındakı fərqi daha aydın anlamağa başlayır. Ə.Salahzadə, A.Abdullazadə, V.Səmədoğlu, İ.İsmayılzadə, N.Kəsəmənli, E.Baxış, R.Rövşən, V.Cəbrayılzadə, V.Bəhmənli və b. poeziyaya məhz belə bir əhval-ruhiyyə ilə gəldilər və yaradıcılıqlarının ilk mərhələsində forma orijinallığına daha çox fikir verir, məzmunu formadan aşağı tutmağa meyil edirdilər. Bu, bir tərəfdən poetik təcrübəsizlikdən, yaxud gənclik illərindən irəli gəlirdisə, digər tərəfdən onların öz yolunu, üslubunu axtarmasından, yeni, orijinal yolla getmək istəyindən qaynaqlanırdı. Lakin gənc şairlər fikir, ideya, məzmun ilə forma harmoniyasının vacibliyini çox tez dərk edir, poetik axtarışlarında bu tandemin bərabərhüquqluluğunu qorumağa çalışırdılar. Yeni poeziyanın özünəməxsusluqları duyduqları, yaşadıqları hiss və həyəcanların poetik ifadə edilməsində idi. Onlar başa düşürdülər ki, çoxüslublu Azərbaycan poeziyasında onların öz səsi, nəfəsi, yolu olmalıdır, ona görə də şeirlərində patetika və pafosa deyil, sakit, təmkinli üsluba üstünlük verir və mənsub olduqları nəslin taleyini, arzu və istəklərini təbii boyalarla, detallarla, işlənməmiş obrazlarla təsvir etməyə nail olmağa çalışırdılar. Bu nəsil şairlər isə müharibə dövrünün uşaqları idi; o uşaqlar ki, ataları müharibəyə gedib qayıtmamışdı, uşaq ikən həyatın hər üzünü görmüş, cəbhəyə gedib qayıtmayan atalarının, qardaşların həsrətini çəkmişdilər. Onlar şeirlərində öz dünyasını, obrazların fərqli bir dünyasını yaratmaq istəyini nümayiş etdirirdilər. Onların şeirləri yalnız sərbəst formada olması ilə fərqlənmirdi, həm də ifadə azadlığı, yeni təsvirlər, mövzu və problematika orijinallığı ilə seçilirdi. Hələ sosrealizmin ədəbiyyat üzərində təsirinin güclü olduğu bir zamanda dəbdə olan mövzularda deyil, özünün poetik məkanındakı problematikaya müraciət edən gənc şairlərin, demək olar ki, heç biri partiyaya, yaxud onun liderlərinə şeir həsr etmədi.

60-cı illərdən başlayaraq poeziyada şairin yaradıcılıq fərdiyyəti önə çıxır, ümumi mövzuları şəxsi duyğular, pafosu (biz hələ yalançı pafosu demirik!) fəlsəfi dərinlik, orijinal deyim tərzi əvəz edir. Humanizm, vətəndaşlıq, beynəlmiləlçilik kimi meyarlar çağdaş poeziyanın malı ola bilmir. Poeziyanın təsvir obyekti sosializm quruculuğunun qəhrəmanları yox, şairi narahat edən insan taleyi və duyğuları olur. Bu zaman "lirik mən" poeziyanın daimi və sabit obrazlarından birinə çevrilir. Ritorik nikbinlik, şüarçılıq, bəşəri və milli əxlaq normalarının təsviri bir qədər geri çəkilir. Şairlərin eyni qəlibdə yazmasını azad söz, duyğuların ifadəsi əvəz edir. Lakin demək lazımdır ki, bu proses çox ağrılı keçirdi. Ədəbi jurnal və qəzetlərin azlığı və inzibati nəzarət, senzuranın mövcudluğu bu şeirlərin mətbuata ayaq açmasına imkan vermirdi. Mətbuatda dərc olunan şeirlər isə redaktorlar tərəfindən dil, üslub, fikir "əməliyyat"larına məruz qalırdı. Bu "əməliyyat"ı qəbul etməyən şairlər isə ədəbi prosesdən şüurlu şəkildə imtina edir, şeirlərini çapa vermirdi. Onlardan biri də Vaqif Səmədoğlu idi. Onun 60-cı illərin

sonlarında “Yoldan teleqramlar” (1969) adlı kiçik şeirlər kitabı ilə “Mən burdayam, İlahi” (1996) adlı ikinci kitabı arasında böyük bir zaman məsafəsi var idi. Bunun səbəblərindən biri şairin ədəbi prosesdən çəkilməsi olmuşdu. İkinci səbəb isə V.Səmədoğlunun şeirlərinin forma və məzmunca yeni düşüncəni ifadə etməsi, mövcud rejimin sənətlə bağlı kriteriyalarına uyğun gəlməməsindən ibarət idi. Anar V.Səmədoğlunun bu cür şeirlərindən danışarkən yazırdı: “Sovet rejiminin sərt illərində bu sayaq şeirləri nəinki çap etmək, kimlərəsə oxumaq da təhlükəli idi. Hələ belə şeirlər yazmağın nə qədər təhlükəli olduğunu demirəm”.[1] V.Səmədoğlunun şeirlərinin adı yoxdur; yəni bu şeirlərin adı onun məzmunundan, yaxud məntiqi nəticəsindən məlum olur. Əlbəttə, şeirlərin adının olmaması əsas şərt deyil (bu cəhətdən şeirlər klassik Şərq rübailərini xatırladır!), bu şeirlər həyat, dünya, dünyadakı və insandakı işıqlı-işıqsız, qalib-məğlub, kədərli-sevincli, əhvali-ruhiyyəli günlər, saatlar, anlar haqqında poetik assosiasiyalardan ibarətdir. *“Pəncərə önünə daha gəlmirəm, / Daha buludlara baxa bilmirəm. / Buludlar nağıla oxşamır indi, / Buludlar bilmirəm indi kimindir. / Min doğma insana bənzəmir onlar, / İçimi-çölümü bəzərdi onlar. / Buludlar ömrümün sağ əli idi, / Buludlar bir zaman təsəlli idi”.* V.Səmədoğlunun assosiasiyaları içərisində atası S.Vurğunla bağlı poetik düşüncələri xüsusi yer tutur. Ata və sənətkar yoxluğunun ağırlığı heç vaxt şairin yadından çıxmır, bu ağırlığı ağır yük kimi çiyinlərində daşıyır, bəzən isə həyatdakı subyektiv hadisələr birbaşa atasını xatırlamağa məcbur edir, belə vaxtlarda: “Atamı səslədim dara düşəndə, gördüm ki, arada qəbir dayanıb”, – deyir. Şair bu qüssəni, kədəri, ağırlığı şeirə köçürür; xəyali model-həyat qurur, bu həyatda... bağda... şam ağacları arasında “gərək atası oturaydı və yetmiş üç yaşı olaydı”. O, “iynəli budaqlar arasından” atasının üzünə düşən gün işığını axtarır: *“Ancaq ot qoxuyan torpaq var, / şam ağacları var / gün işığı da var, ancaq / Düşmür o işıq atamın üzünə”.* Başqa bir şeirində isə “göylərə baş çəkən Göyəzən dağı”nın (S.Vurğun) tək bir xüsusiyyəti – “bir dağ çiyni görməməsi” şairdə dərin assosiativ fikirlər yaratmış, onu tamamilə yeni əhvali-ruhiyyədə “dağların ən kimsəsizi”, “ən yetimi”, “tənhalıq heykəli” kimi təqdim etmişdir. V.Səmədoğlu şeirlərində əhvali-ruhiyyənin təsviri və ona uyğun ritm uyarlılığı forma və məzmunun vəhdəti kimi çıxış edir. Bəzən bu poetik forma bir detalla əvəz olunur; belə şeirlərin ilkin mənbəyi detal, yaxud predmetdən doğan assosiasiya olur və bu detal-assosiasiya əsasında obraz yaranır. Beləliklə, detal-assosiasiya obraz inkişafı V.Səmədoğlu şeirlərinin bədii strukturunu təşkil edir.

Assosiativlik R.Rövşən yaradıcılığında bir qədər fərqli şəkildə ortaya çıxır; zahirən assosiativlik nəzərə çarpmasa da, semantika, fikir və ideya

[1] Anar. Allahla söhbət. / Vaqif Səmədoğlu. Mən burdayam, ilahi. – Bakı: Gənclik, 1996, s.4

baxımından onun şeirləri assosiativ poeziyanın ən yaxşı nümunələridir. Onun şeirləri çoxqatlı və çoxsəslidir. R.Rövşən poeziyası bu cəhətdən avanqardçılığı öz üzərinə götürür; o, adi şeirlərinə belə ictimai-siyasi məna verir. Onun şeirləri yalnız poetika məsələləri ilə deyil, fikir, ideya, bədii təsvir və ifadə vasitələri baxımından da fərqlənir. Onun poetik mətnlərində vəzn və ritm harmonik şəkildə uyğunlaşır; şeir texnologiyası tamamilə yenidir, bəndlərarası əlaqə mövcuddur, onlar bir-birini tamamlayır:

Bulud kimi ölmək
Bir yaz yağışında.
Ümid kimi ölmək
Bir qız baxışında.
Bir yel qanadında
Yarpaq kimi ölmək.
Bir qəbir altında
Torpaq kimi ölmək.[1]

R.Rövşənin "Ay işığı", "Başı kəsik gözəl kötük", "İlan balası", "Mənim bu dünyayla bir alverim var" və s. onlarla şeirləri fikir, məna, metafora, ritm baxımından ümumən poeziyaya yenilik gətirdiyi kimi, ədəbi prosesə də öz təsirini göstərmişdir*: "Başı kəsik gözəl kötük, / Bu dağı sənə kim çəkdi?! / Baltanı sənə kim vurdu, / Bıçağı sənə kim çəkdi?! / İpək-ipək yarpaqların / Küləklərlə talandımı? / Bilək-bilək budaqların / Ocaqlarda qalandımı? / Küsdünmü taleyin acılığından? / Zalımlar keçmədi qocalığından, / Yıxıldın ucalığından, / Başı kəsik gözəl kötük..."*[2] Vaxtilə xoşbəxt olmaq haqqında düşünən iki gəncin ayrılıqdan sonra üz-üzə gəlmələri lirik qəhrəmanda assosiativ düşüncə oyadır; bu düşüncəyə görə şair ayrılıq və xoşbəxtlik barədə poetik fikirlərini orijinal şəkildə ifadə edir:

Yenə bu şəhərdə üz-üzə gəldik,
Neyləyək, ayrıca şəhərimiz yox.
Bəlkə də biz xoşbəxt ola bilərdik,
Bəlkə də xoşbəxtik, xəbərimiz yox.
Aradan nə qədər il keçib görən,
Tanıya bilmədim, Məni bağışla.
Mən elə bilirdim, sənsiz ölərəm,
Mən sənsiz ölmədim, Məni bağışla![3]

Assosiativ poeziyanın nümayəndələrindən biri olan İsa İsmayılzadə "1941", "Həsrət" (1963), "Yağış yağsın üstümə", "Anam mənə qonaq gəlib"

[1] Ramiz Rövşən . Nəfəs. Kitablar kitabı (şeir, nəsr, esse). – Bakı: Qanun, 2006, s.363
[2] Yenə orada, s.11
[3] Yenə orada, s.413

(1965), “Ulduzların ad günü” (1966), “Oyuncaqsız uşaqlığım” (1967) və s. şeirləri ilə poeziyanın mövcud xəritəsinə gətirdiyi cəsarətli addımları və yeni poetik baxışı ilə özünü təsdiq edir.

İsa İsmayılzadənin poetik yaradıcılığında xüsusi yer tutan poema janrını ənənəvi poemadan fərqləndirən amillər çoxdur. Bunlardan “1937” poemasının taleyi buradakı qəhrəmanların taleyi ilə oxşarlıq yaşaya bilərdi, şair yazdığı zaman repressiya dəhşətlərindən yazmaq qadağan idi. 37-ci il dəhşətlərinə otuz illik bir məsafədən baxan şair bu ilin gətirdiyi fəlakətləri Hitler və Xunvey bin Çini, amerikanın Hirosimaya atdığı atom bombası ilə müqayisə edərək, bəşəriyyətə vurduğu zərbəni bütün ictimai mahiyyətilə açır və insanları ayıq olmağa səsləyir. Poemanın sonu 37 varisi indiki cəmiyyət üçün əsl ittihamdır: *“Başımın üstündə “1937”. / Rəqəmlər ayaq üstündə, / Qranit təpikli, cəllad çəkməli”.*

Arif Abdullazadə poeziyası forması, məzmunu, ritmi, intonasiyası, fəlsəfi məna tutumu ilə yeni və orijinal səslənir; onun poeziyası başdan-başa poetik obrazlardan ibarətdir. Nədən yazırsa yazsın, poetik obrazlarla düşünür və düşüncələrini obrazlı şəkildə ifadə edir. Onun poeziyası hiss ilə təfəkkürün, duyğu ilə ağılın, ehtimal ilə məntiqin vəhdətindən yaranır. A.Abdullazadənin assosiativ düşüncələrində fikrin, detalın zahiri təsvirinə yox, psixoloji çalarlarına, daxili məntiqinə və mahiyyətinə varılır. “Zamanın boyu” şeirində olduğu kimi:

Torpağımız həmsərhəddi torpağımızla,
Torpağımız həm də səddi torpağımıza,
Torpağımız həm də dərddi torpağımıza,
Qoca dünya özbaşına fırlanır hələ.
Hələ günün dan yerinə çatan çağıdır,
Dan yerinin öz qanına batan çağıdır.
Azadlığım hələ bazar azadlığıdır,
Qoca dünya öz xoşuna fırlanır hələ.[1]

A.Abdullazadə poeziyası həm dərin mənalar poeziyasıdır; onun təbiətindəki yüksək vətəndaşlıq mövqeyi şeirlərinə də hopub. Buna görə də “Bəxtimizin kitabı” silsiləsindən Mirzə Cəlil qəhrəmanlarının taleyini izləyir və onların poetik obrazını yaradır. “Qurbanəli bəy”, “Usta Zeynal”, “Şeyx Nəsrullah”, “İsgəndər”, “Hacı Həsən ağa”, “Molla Abbas”, “Anamın kitabı” şeirlərində bir obraz ömrü yaşayanlara ikinci ömür vermişdir. Formaca R.Rzanın “Rənglər” silsiləsi ilə səsləşən bu şeirlərdə verilən assosiativ düşüncə yeni obrazların yaranmasına səbəb olur:

[1] Arif Abdullazadə. Tövbə duaları. – Bakı: Çaşıoğlu, 2003, s.89

Bircə sözlə, kim nə deyir-desin,
ev yıxanı olmamışdı
bu Quranlı, bu namazlı,
çoxlu-azlı dünyasında
usta Zeynal heç vaxt, heç kimin.
Amma yazıq neyləsin ki,
bircə divarını da hörə bilmədi
Akopun allahından,
icazəsiz, arxayın, əmin.[1]

70-ci illərdə assosiativ poeziyanın məkanı genişləndiyi kimi, imkanları da artır. Ə.Kərim, A.Abdullazadə, F.Qoca, V.Səmədoğludan sonra V.Cəbrayılzadənin, V.Bəhmənlinin şeirləri poeziyanın bu qoluna yeni nəfəs verir. V.Cəbrayılzadənin "Nə var, nə var bu dünyada, bir bala sərçənin bir dam üstündəki göyündən böyük?!" misralı "Dağlardan da güclü" şeiri ilə ədəbi prosesdə daha çox tanınan şair yeni duyğu və düşüncələrini poeziyaya gətirməyə çalışdı. Baxmayaraq ki, assosiativ poeziya artıq özünü təsdiq etmiş, onun nümayəndələri getdikcə üstünlük təşkil edirdi, V.Cəbrayılzadə tamamilə yeni poetik stereotiplərlə poeziyaya gəldi və qısa bir müddətdə poetik üslubunu formalaşdırmağa nail oldu. Bu üslub ənənəvi poetik düşüncə tərzinə uyğun gəlmədiyi kimi, bədii təsvir və ifadə vasitələri, fikirlər də fərqli idi. Onun şeirlərində birbaşa fikirlər yer almırdı, hər bir fikir obrazlı ifadə olunur və obrazlaşırdı. Obrazlılıq onun poeziyasının canı idi. Bəzən bu obraz cəmi bir-iki misrada yaranır, bəzən də şeirin ümumi mahiyyətindən doğurdu. V.Cəbrayılzadə poeziyası həm də fərdi azadlığın təzahürü olaraq meydana gəlirdi; onun bu şeirlərində qətiyyən dövrün, mühitin, sistemin, yaxud yaşadığı günün ruhu hiss olunmurdu, sanki o, başqa bir dünyanın adamı idi və təsvir etdiyi hadisə və obrazlar da başqa bir dünyanı ifadə edirdi. Hətta bu şeirlərinə görə onu "göy üzünün şairi" də adlandırmaq olar. "Göy üzü" onun şeirlərinin yalnız obrazı deyil, həm də yeni dünya kimi təsvir etdiyi və oxuculara da sevdirdiyi bir məkandır. "Bir yarpaq göy üzü", "dəniz göy üzünə qalxır", "gözlərində solan o göy üzü", "kirpiklər böyük göy üzünün ulduzları tək titrəyib parlayırdı", "Göyləri bir şairlər", "bir yarpaq göy üzü yaşar" və s. onlarla məcazlar onun poeziyasının yalnız məcazlar sistemini, obrazlar aləmini dəyişmir, həm də poetik üslubunu formalaşdırırdı. Beləliklə, 60-cı illərin ikinci yarısından formalaşmağa başlayan assosiativ poeziya getdikcə əhatə dairəsini daha da genişləndirir; forma və məzmun vəhdətinə nail olur, poetik səviyyəsi, üslub yeniliyilə bir qədər də möhkəmlənir. Poeziya ritm, forma, üslub cəhətdən zənginləşir, məzmun baxımından dəyişməyə məruz

[1] Arif Abdullazadə. Bəxtimizin kitabı. – Bakı: Yazıçı, 1988, s.68

qalır; assosiativ şeirin məzmunu fərdi hiss və duyğularla bəşəri dünyagörüşün vəhdətini ifadə edir.

Qabil, Tofiq Bayram, Eldar Baxış, Məmməd İsmayıl, Nüsrət Kəsəmənli, Sabir Rüstəmxanlı və b. şeirlərində lirik-epik lövhələr, fəlsəfi məzmun, gerçəklik kontekstində verilirdi. Qabilin "İki şar" şeirində dünyada gedən ictimai proseslər poetik şəkildə əks etdirilirdi:

Bilyard stolunda iki şar qalıb,
Bütün azarkeşlər intizar qalıb.
Mənzərə belədir, həqiqət belə,
Görəsən kimi kimi? Bilinmir hələ.[1]

M.İsmayıl "Hələ yaşamağa dəyər bir az da", "Ay baba dərviş", "Bir adam yol gedir bizdən qabaqda", "Ağacdələn, döy qapımı, döy görüm", "Kimi aldadırsan, a zalım oğlu" şeirləri, "Bu mənəm, a kəndim, tanımadınmı?" silsiləsi ilə poeziyaya yeni ritm, yeni intonasiya və bunlarla birgə yeni məzmun gətirmiş oldu. "Ağacdələn, döy qapımı, döy görüm" şeirində kimsəsiz qalmış ata yurduna gedərkən müşahidəsini əks etdirir. Ağacdələnə xitabla yazdığı şeirdə təbiətlə dialoqunda həyatın bir fəlsəfəsi təsvir olunur, bu payızın çənində qapısını döyməsindən rəncidə olaraq, qapısını az döyməsini istəyir. Çox məhrumiyyətlər görmüş, atasız qalmış şairin lirik məni (müəllifin özü), qapısını döyən ağacdələnə *"bu cığırı bu qara kim bürüyüb, / burda kimin yanan qəlbi kiriyib, / həyətini qara yellər kürüyüb, / başımıza nələr gəlir qoy görüm"*, – deyə üz tutur və onunla həmsöhbət olur. Ağacdələnin ata yurduna gəlməsi onda bəzi assosiativ fikirlər oyadır: *"Haçanacan gözləməyə gəlmisən? / Yoxsa mənə söz deməyə gəlmisən? /Ya borcunu istəməyə gəlmisən? / Öz dilində ünvanımı söy görüm"* suallarını verir. Şeirin sonluğu fəlsəfi ümumiləşdirmə ilə bitir:

Yavaş-yavaş çürümədə taxta, bax.
O taxtada ovxam olan vaxta bax.
İnad olub nə döyürsən baxta-baxt,
Açılmayan düyünləri düy, görüm.
Elə yanır döyüşlərin yanğısı,
Nə təsəlli söndürəcək, nə də su.
Mənim qapım yer üzünün qapısı,
Ağacdələn, döy qapımı, döy görüm,
Başımıza nələr gəlir, qoy görüm...[2]

M.İsmayılın lirik qəhrəmanı Vətənini çox sevir, hətta qürbətdə olsa belə, vətəndən ayrı dura bilmir, onu daim qəlbində gəzdirir və deyir: *"Vətənin*

[1] Qabil. Seçilmiş əsərləri. – Bakı: Şərq-Qərb, 2004, s.119
[2] Məmməd İsmayıl. Seçilmiş əsərləri. – Bakı: Azərnəşr, 1992, s.65

yolunda candan keçərlər, / Keçilməz qaladır, Vətən keçilməz" poetik fikirlərində Vətənə münasibətdə yeni Vətəndaşlıq profili cızır. "Hələ yaşamağa dəyər bir az da" şeirində isə insanı yaşadan ən kiçik ümidi belə yüksək qiymətləndirir və lirik qəhrəmanın yaşamaq fəlsəfəsini bəyan edir:

Təkliyi keçmişə ötürməliydim,
Ömrümə bir yoldaş götürməliydim.
Bacım arzudaydı, anam murazda,
Hardasa, hardasa məni sevən var,
Hələ yaşamağa dəyər bir az da.[1]

Nüsrət Kəsəmənli poeziyası forma və məzmunca ənənəvi və yenilikçi poeziyanı birləşdirir. Onun şeirlərində insan, həyat, sevgi, cəmiyyət problemləri son dərəcə poetik və nağılvari şəkildə təsvir olunur. Onun şeirləri sanki şəxsi sevgisinin, həyatının, yaşantılarının səmimi bir ifadəsidir. Bu şeirlər sanki şairin şəxsi taleyinin, səmimiyyətinin kardioqramıdır. N.Kəsəmənli ən ağır mətləbləri belə poetik dilə gətirə və fikrini ifadə edə bilirdi. Məlumdur ki, həyat min illərdi davam edir; günəş çıxır, fəsillər dəyişir, çiçəklər açır və solur, bu, həyatın, təbiətin ən adi qanunudur. Dünyanı, onun gedişatını duymaq, hiss etmək şairin poetik düşüncəsində özünəməxsus şəkildə belə ifadə olunurdu:

Hələ çiçəklər açacaq,
Dərilib, qoxlanıb solacaq.
Boynubükük bənövşələrə,
Qəmli xatirələr qalacaq...
İllərin əlçatmaz uzaqlığında,
Nə vaxtsa aldadılmış gözəlin
Gözləri dolacaq.
Ağarmış saçların xatirələri
Yaddaşda ilişib qalmış
Qara saçlarını yolacaq.[2]

N.Kəsəmənli şeirləri səmimi olduğu qədər də emosionaldır, hiss ilə həyəcanın sintezindən ibarətdir. Sevgi, məhəbbət hisslərini ən adi sözlərlə emosional şəkildə çatdıra bilir, sevgi ilə yanaşı, nifrəti də poetik mövzuya çevirir.

70-ci illərin sonlarında ədəbiyyata gələn Vaqif Bəhmənli şeirlərindəki söz düzümü, fikrin ifadə imkanları, səmimiliyi, yeni düşüncə stereotiplərinin formalaşmasından xəbər verdiyi kimi, gənc şairin poetik potensialının gücünü də ortaya qoymuş oldu. Onun ilk şeirlərində özünəməxsus poetik ifadə və

[1] Məmməd İsmayıl. Seçilmiş əsərləri. – Bakı: Azərnəşr, 1992, s.198
[2] Nüsrət Kəsəmənli. Seçilmiş əsərləri. – Bakı: Şərq-Qərb, 2004, s.204

məzmun paradoksları yeni bədii münasibətlərin tənzimlənməsində həlledici faktora çevrilir. *"Bu gün küçədən keçir, / Dünən qəlbimdən keçən", "Sevgi alın yazısıdı, / Məzarda da qalır, qalır", "Ürəyimi köksümdən qoparıb, / vuracağam badə kimi", "Ürəyim gül parçasıdı, / Hər nə edib, dilim edib", "Səndən gələn məktub / xoşbəxtlik quşu, Uçurt, / gəlib qonsun qolumun üstə", "Gör haçandı yellədirəm, / Əldə həsrət yaylığımı", "Şəklim düşən gözlərindən, / özgə, hər yan qürbət mənə", "Gündə min xəyanət yazılır, /Bu torpağın daşına", "Ölək! Bizi bağışlasın, / Gözüm Vətən... / Canım Millət", "Tanrı xalis dən verdi, / Onu un edə bilmədim", "Təmənnam budur sizdən; / mərhəmət, mərhəmət, dostlar, mərhəmət!"* və s. misralar şairin tale yaşantılarının iç mənzərəsini bütün incəliklərilə təsvir edir. V.Bəhmənli poeziyası yeni poetik düşüncə ilə keçmişin, bu günün və gələcəyin poetik sistemini özündə birləşdirir. Forma baxımından çağdaş poetik stereotiplərə yenilik gətirirsə, məzmun baxımından daha çox klassik və modern mahiyyəti əks etdirir.

Poeziyaya yeni qüvvələrin gəlişi və özünü təsdiq etməsi ilə keyfiyyət dəyişikliyi baş verir; şeirin lirik-mənəvi məkanı dəyişir. Ağamalı Sadiq, Rüstəm Behrudi yaradıcılığında milli düşüncə aparıcı olur. Onlar öz şeirlərində mümkün qədər səmimi olmağa, daxili aləmini, mənsub olduğu xalqın keçmiş və bu gününü təsvir etməyə çalışır və xalqın bu günü və sabahı üçün narahatlıq hissi keçirirdilər. A.Sadiqin poeziyasında xalqın dərdləri, ictimai problemləri qabardılır, onun gələcəyindən, sabahından narahatlıq ifadə olunur. Bu zaman onun şeirlərinin əsas mövzusunu dünya, bəşəriyyət və onun gələcəyi təşkil edir. "Mənə ümid verin" (1982) kitabında daha çox daxili, mənəvi aləmini təsvir etməyə çalışırdısa, "Əyil, səndən keçim dünya" (1982) kitabındakı şeirlərində dünyanın, xalqın və fərdlərin tərcümanı kimi çıxış edir. O, siyasi düşüncəsinə görə sovet sisteminin əleyhinə olduğundan poetik düşüncələrində də bəzən radikallıq nəzərə çarpırdı. "Dünya bu imiş deməli" şeirində həyatın, dünyanın mövcudluğuna özünəməxsus şəkildə yanaşaraq, *"Başı saxlamağa verdi, / Gözü ağlamağa verdi, / Köksü dağlamağa verdi, / Dünya bu imiş deməli.* Bu illərdə poeziyada milli özünüdərk prosesində yeni bir mərhələ yaşanır". Onun sovet siyasi sisteminin başdan çürüməsi ilə bağlı yazdığı "Baş" povestində də məsələyə prozaik yanaşma ən yaxşı şəkildə ifadə edilir.

S.Rüstəmxanlı poeziyasında Azərbaycan yaralarına toxunur və rəsmi ideologiyanın imkan vermədiyi milli problemlərdən söz açırdı. "Sağ ol, Ana dilim!" şeirində bu dilin başına gələn fəlakətlərdən sonra belə öz varlığını qoruyub saxlamasını, dünyanın hər yerində işlənməsini yad edir və ona minnətdarlığını bildirir:

Yollarım sınandı yad ölkələrdə,
Neçə yad dodaqda səsləndi adım.

Sağ ol, ana dilim, məni heç yerdə
Köməksiz qoymadın, yalqız qoymadın.[1]

S.Rüstəmxanlının poetik dərketməsində Vətən anlayışı bir başqa məna qazanır. Vətən onun üçün tarixdir, qan yaddaşıdır, milli taledir və mücadilə simvoludur. Vətən hər şeydən əvvəl:

...Bir əlçim buluddu,
Bir ömür umuddu,
Bir içim sudu.
Yandıqca odlanan ocaqdı,
Daddıqca dadlanan arzudu.
Bir dərə bahar leysanıdı,
Azərin qanıdı,
Cavad xanın qətl yeridi,
Sabirin "Fəxriyyə" şeiridi,
Dağları dumanda itən Vətən... Vətən![2]

80-ci illərin ortalarında əsrin əvvəllərində olduğu kimi, türkçülük, turançılıq ideyaları poeziyanın mövzu və problematikasını təşkil edir. R.Behrudi poeziyasının zaman və məkan koordinatlarında "bozqurd", "tanrı", "ruh", "ölüm" kimi istilahlar tez-tez işlənirdi. Şeirinin coğrafiyası da kifayət qədər geniş idi; 80-ci illərdə "Yaddaşlara yazın", "Şaman duası" kitablarında müəllif üzünü bütün Türk dünyasına tutur, xalqının və Türk dünyasının azadlıq ideyasını pıçıldayırdı. Bəzən isə şair mövcud vəziyyətlə barışmayaraq, "dar ağacına salam" vermək məcburiyyətində qalırdı. Onun "Salam, dar ağacı" şeirindəki ruh arzusunda olduğu azadlıq ideyalarından rişələnir. Atilla ruhu ilə nəfəs alan şair qədim əcdadlarını anır, onların şərəf və şöhrətini yaşatmaq eşqilə yazıb-yaradır. "Turan qalxıb ayağa", "İntiqama gəlmişəm mən", "Boz qurd", "Qara dəniz", "Vida türküsü", "Şaman daştəkinin sonuncu duası", "Mənəm qəriblər qəribi" və s. onlarla şeirində şair dərviş kimi gəzdiyi yerlərin dərdlərini anlatmağa çalışır. Oljas Süleymenova yazdığı "Hər şey ayrılıqdan başladı" şeirində bir kökdən olan xalqların fərqliliklərinin nədənlərini aydınlaşdırmağa çalışır: *"...Hər şey ayrılıqdan başladı / Olum da, ölüm də, doğum da. / Elə bu ayrılıqdan başladı. / Mənim şeir adlı yolçuluğum da. / Bu yolda büdrəsəm, / çığırsam eşidərsinizmi? / Ağlasam-duyarsınızmı? / Ürəyimi görə bilərsinizmi... / Göz yaşlarımın parıltısında?!"* – deyə poetik yola çıxan, Turan yolunda, azadlıq uğrunda yatan ruhları oyanmağa, ayağa durmağa çağıran şair hər səhər-axşam yolunu gözləyən dar ağacına belə getməyə hazırdır. Yüz ada bölünən, taleyi hələ də

[1] Sabir Rüstəmxanlı. Seçilmiş əsərləri. – Bakı: Şərq-Qərb, 2004, s.85
[2] Yenə orada, s.33

sirr olan bir millətin gələcəyi uğrunda dar ağacına gedən şairin taleyi Turan yolçularının taleyinə bənzəyir. Şeir sovet dövründə yazıldığından milli azadlıq mübarizəsinin poetik simvoluna, vətəndaşlıq mücadiləsinin proloquna çevrilir:

O hansı millətidir taleyi sirdir?
Yüz adla bölündü, yenə də birdir!
Məni hüzuruna bu dərd gətirdi,
Salam Dar ağacı!
Əleyküm-salam!
Xəzəri, Baykalı, Aralı gördüm,
Gördüm can üstədir, yaralı gördüm.
Tanrını bəndədən aralı gördüm,
Salam, Dar ağacı!
Əleyküm-salam![1]

Poeziyada getdikcə yeni ictimai münasibətlərin poetik ifadə sistemi formalaşmağa başlayır, vətəndaşlıq, milli düşüncə aspektləri önə çəkilir. İnsan-təbiət harmoniyası lirik-epik şeirin əsas mövzularından biri kimi poetik ifadə vasitələrini zənginləşdirir.

Poemalar*

XX əsr Azərbaycan poeziyasının bir qolunu da poemalar təşkil edir. Azərbaycan poemalarının tipologiyası belə müəyyənləşib: lirik, epik, dramatik, lirik-epik, lirik-dramatik, epik-lirik, epik-dramatik və dramatik-epik mətnlər.

Poema janrına ədəbi-tənqidi münasibət 1950-ci illərdən başlayıb və 1960-cı illərdə genişlənib. Belə müzakirələrdən biri "Literaturnaya qazeta"da olub. Adelina Adalisin "Poema nə olan şeydir?" məqaləsi ilə bağlı ciddi müzakirələr getmişdir. Tələb də bu olub ki, poema janrı inkişaf etdirilməlidir. M.Arif "Azərbaycan sovet şeiri" məqaləsində yazırdı ki, "poema janrı həyatı daha geniş planda, mühüm ictimai-siyasi hadisələri, insan xarakterlərini daha dolğun təsvir etmək baxımından geniş imkanlara malikdir. Bu janr inkişaf etdirilməli, poeziyada özünəlayiq mövqe tutmalıdır".[2]

XX əsr poemalarımızın tarixi 1920-ci illərdən başlayır. İlk sıraya H.Cavidin "Azər", C.Cabbarlının "Qız qalası" əsərləri aid edilir. Sonra S.Vurğunun "Komsomol", "Aygün" kimi epik poemaları gəlir. Bu sıranı

[1] Rüstəm Behrudi. Salam, Dar ağacı. – Bakı: Gənclik, 1992, s.8

* Oçerkin poemalar paraqrafını filologiya elmləri doktoru Əlizadə Əsgərli yazmışdır.

[2] Məmməd Arif. Seçilmiş əsərləri. Üç cilddə, I c. – Bakı: Azərbaycan SSR Elmlər Akademiyası Nəşriyyatı, 1967, s.534

S.Vurğunun “Bakının dastanı”, “Muğan”, “Zəncinin arzuları”, “Zamanın bayraqdarı”, R.Rzanın “Füzuli”, “Nəsimi”, S.Rüstəmin “12-ci tüfəng”, B.Vahabzadənin “Əbədi heykəl”, “İztirabın sonu”, “Etiraf”, “Şəbi-hicran”, “Uçun nəğmələrim”, H.Hüseynzadənin “Yolda”, “Dilqəm”, Ə.Kərimin “İlk simfoniya”, “Üçüncü atlı”, “Qardaşın heykəli”, Ə.Kürçaylının “Durnalar Cənuba uçur”, C.Novruzun “Kəndimizin antik heykəli”, “Qərbi Berlin”, S.Tahirin “Cavab versin tarix mənə”, N.Həsənzadənin “Nəriman”, “Zümrüd quşu”, M.Arazın “Üç oğul anası”, “Atamın kitabı”, X.Rzanın “Atalar-oğullar”, “Bayatı-Şiraz”, “Şuşa”, F.Qocanın “Ulduzlu düşüncələr” və s. poemalarına qədər davam etdirmək olar.

1920-1950-ci illərin poetik təcrübəsi göstərir ki, poemalar əsasən təsviri xarakterdə, epik süjet məcrasında olub. 1940-cı illərin axırlarından başlayaraq poemalarımızda epik material yığılmağa, fəlsəfi-epik məğz dinamik olaraq güclənməyə başlayıb. 1950-ci illərin sonuna qədərki poemalarda həyat və dünya, əsasən, epik süjet daxilində, geniş təsvir və təhkiyədə təqdim olunub. 1960-cı illərdən başlayaraq poeziyada olduğu kimi, poemalarda da mənəvi-psixoloji təbəddülat başlanıb, ölkə və dünya lirik müəllif təhkiyəsindən, müəllif “mən”indən keçib, epik material, konflikt və xarakter, dramatizm və konflikt, süjetlilik müəllif mövqeyinə, onun ruhi aləminə, lirik başlanğıca tabe tutulub, əxlaq və mənəviyyat, ədalət və həqiqət mövzuları, subyektiv motivlər dəyər qazanıb, lirik təəssürat, ovqat, düşüncə, qavrayış, mühakimə, fəlsəfi-əxlaqi və etik-estetik məğz əsas olub.

1960-cı illərin lirik poemalarında lirika ilə insan vəhdətdə təqdim edilib. R.Rzanın “Bir gün də insan ömrüdür”, “Qızılgül olmayaydı” poemaları retrospektivdir. Fraqmentallıq, keçmişə və bu günə qayıdış, ümumiləşdirmə və fərdiləşdirmə, həyatın sosial pozası, dramatizm və xarakter poema üçün səciyyəvidir. Bu əsərlərdə insan dramatik keyfiyyətləri, konflikt və təzad məziyyətləri, lirik-psixoloji fikir və düşüncə zənginliyi ilə birlikdədir.

1960-cı illərin poemalarında B.Vahabzadənin bədii yaradıcılığı xüsusilə diqqəti cəlb eləyir. “Etiraf”, “İztirabın sonu”, “Yollar və oğullar”, “Hər baharın öz qaranquşu”, “Həyat-ölüm” kimi poemaların müəllifi olan sənətkar əməyin mənəviyyatda doğurduğu təsiri, faşizmin acizliyi, insanların mənəvi keyfiyyətləri, onların azad ruhu və milli simasızlığa qarşı etirazı, həyat və ölümün fəlsəfəsini 1960-cı illər poemalarında yüksək sənətkarlıqla ifadə edib.

1960-80-ci illər poemalarımızın səciyyəvi xüsusiyyətindən biri janrın məzmununa fəlsəfi-etik və lirik-psixoloji mündəricənin gəlməsidir. B.Vahabzadə “Sadə adamlar”, “İztirabın sonu”, “Etiraf”, “Leninlə söhbət”, “Muğam” poemalarında həm fəlsəfiliyə, həm də psixologizmə varıb.

B.Vahabzadənin, xüsusilə, "Muğam" poeması üçün idrak zənginliyi, vətəndaş qüruru, xalqa, millətə və tarixə münasibət, milli-tarixi şüur yanğısı səciyyəvidir.

Şair milli muğamlarımızın doğurduğu ehtizazları, fəlsəfi-etik və estetik məzmunu oxucuya çatdırıb. Əsər bizi mənəvi ucalığa səsləyir, kökümüzə, milli muğamlarımıza sahib olmağa çağırır.

Dəfn edin siz məni Zabul-segahın mayəsinə,
Deyirəm bəlkə məni bir gün oyandırdı, muğam.

B.Vahabzadənin "Muğam" poeması kimi "Təzadlar"ı da fəlsəfi planda olub, dünya ölkələrindəki insan aləminin təzadlarını fəlsəfi boyalarla əks etdirir. "İztirabın sonu"nda ailə-məişət planında saf məhəbbətin fəlsəfəsi, "Etiraf"da dostunu xilas edə bilməyən həkimin psixoloji iztirabları, "Uçun, nəğmələrim"də faşist zindanında əsir edilmiş Musa Cəlilin mənəvi-ruhi əzabları, həyat eşqi, "416"da azərbaycanlı döyüşçülərin, Taqanroq diviziyasının İkinci Dünya müharibəsindəki rəşadəti, "Vyetnam balladası"nda Vyetnam xalqının yadelli işğalçılara – amerikanlara qarşı qəsbkarlıq müharibəsinə etiraz, "Oğullar və yollar"da Əlcəzair xalqının Fransa işğalçılarına qarşı mübarizəsi işıqlandırılıb.

Milli-tarixi özünüdərk B.Vahabzadə poemalarının ideya yüküdür. Bu ideya S.Rüstəmxanlının 1960-70-ci illər poemalarına da aiddir. Onun "Tanımaq istəsən" (1969), "Sevgim, sevincim" (1974), "Xəbər gözləyirəm" (1979) əsərlərində insan və məhəbbət, insan və mənəviyyat, tənqid və təbliğ, öyüd və çağırış, göstərmək və təqdim etmək birliyi səciyyəvidir.

Məmməd İsmayılın "Elçilər qayıtdı" (1963), "Axmaq adam axtaran adam" (1981), "Od" (1983) poemalarında fəlsəfi, avtobioqrafik cizgilər canlandırılıb, Ənvər Əhmədin "Şəhriyara salam" (1968) poeması "Heydər babaya salam" poemasına nəzirə olub, Şəhriyarın uşaqlıq, gənclik illəri fonunda şairin kövrək xatirələrini poetikləşdirir. "Vətən" (1968) də lirik poemadır, vətənpərvərliyin, məhəbbətin ifadəsidir. Adil Cəmilin "İşıq şəhəri" (1980) lirik poeması Mingəçevir şəhəri haqqındadır. "Kölgəsiz şəhər" (1984) poeması lirik-epik formada olub etibarsız insanların xarakterik xüsusiyyətləri haqqındadır. Şairin "Qan borcu" (1990) adlı süjetli poeması isə 20 Yanvar faciəsinə həsr olunub.

Əliağa Kürçaylının "Cakondanın təbəssümü", "Qəzəb", "Sən kimsən", "Məhəbbət" kimi əsərlərində insan ruhunun gözəlliyi, sevinci, sədaqəti, faşizmə qarşı nifrəti, cəmiyyətin qüsurlu cəhətləri, məhəbbət yolunda ağrı-acıların labüdlüyü lirik duyğularla, düşüncələrlə ifadə olunub. C.Novruzun "Əli Kərim xatirəsi" (1973), "İtmiş kəndin nağılları" (1972-1974), "İnsan məhəbbəti", "Kəndimizin antik heykəli", "Qərbi Berlin" poemaları da lirikdir. İ.İsmayılzadənin "Böyüdülmüş şəkillər" (1976) poeması İkinci Dünya

müharibəsindən qayıtmayan ataların, qardaşların xatirəsinə həsr olunub. "Torpağın nəbzi vurur" (1978-1979) poeması isə müharibə illərində Riqa yaxınlığındakı Salaspils ölüm düşərgəsində həlak olanların xatirəsinə ithaf edilib.

1960-1980-ci illərdə Ə.Kərim, B.Vahabzadə, N.Xəzri, X.Rza, N.Həsənzadə, M.Araz, S.Tahir və başqaları janr tipi kimi epik-lirik poemaların da dəyərli nümunələrini yaradıb. Əli Kərimin "Qələbə simfoniyası", "İlk simfoniya", "Üçüncü atlı", "O mənə danışdı ki", "Ölülər ordusu" poemalarında adi konkret insanlar, epik qəhrəmanlar yaşayır, mübarizə edir. Əli Kərimdə həyatın geniş lövhələri, sosial-siyasi həyat konkret cizgilərlə təqdim olunub. Onun lirik duyğuları, fikir və düşüncələri daha güclü təsir bağışlayır. "İlk simfoniya"da II Dünya müharibəsini başlamış faşizmin anti-bəşəri mahiyyəti ifşa olunub, sülh və demokratiya, azadlıq və müstəqillik əldə etmiş məmləkətlərin cəmiyyətdə əsas qüvvəyə çevrilməsi, hər bir millətin öz mənini çəkilməsi və mübarizəsi əks etdirilib. "Ölülər ordusu"nda faşist qüvvələrin maskası yırtılıb. Əli Kərim poemalarında tarixi-ədəbi şəxsiyyətlərin obrazını da yaradıb. M.Y.Lermontova həsr edilmiş "Üçüncü atlı"da psixoloji düşüncə dərindir, ancaq təsvirçilik, hadisəçilik də bir o qədər sıxışdırılmamış, epik material poemaya yeni temp-sürət vermişdir. Xəlil Rza Əli Kərimə həsr etdiyi məqalələrində bu keyfiyyəti nəzərə alaraq yazırdı ki, Əli Kərimin "dərin psixoloji qüvvəyə, lirik həyəcan coşqunluğuna, orijinal xarakterlər silsiləsinə, epik gözəlliyə malik olan Azərbaycan poemaları bədii imkanlarını artırmışdır. Təsvirçiliyə, hadisəçiliyə, dayazlığa qarşı mübarizədə bu poemalar bizə hələ çox yardım edəcək, poeziyamızın yeni bir inkişaf mərhələsi kimi uzun müddət yaşayacaqdır".[1]

1960-1980-ci illər poemalarının epik-lirik növlərindən danışarkən Söhrab Tahirin 1960-cı illər poemaları da diqqəti cəlb edir. Şair 1960-cı illərdən başlayaraq "Həyat şirindir", "Yenə səhər açıldı", "Qatar gəlir", "Ana ağcaqayın", "Atamın məktubları", "Məhbus heykəltaraş", "Məryəmin hekayəsi" (1962), "Naməlum şairin şeir dəftəri" (1963), "Ədalət" (1964) poemalarını yazıb, epik materiala üstünlük verib, təsvir-təhkiyə poemalar üçün əsas olub, bununla belə bu poemalar lirik duyğular, düşüncələr selindədir. Həmin səbəbdən onlar epik-lirik poemalar təəssüratı doğurur. Onu da qeyd edək ki, həmin əsərlər lirik poemalar kimi də təhlil olunub.[2] Bu poemaların əksəriyyəti Cənubi Azərbaycan və İran həyatı mövzusundadır, onlarda insan surətləri, xarakterləri daha canlı və əhatəlidir. Nəriman Həsən-zadənin "Nəriman" poemasında yazıçı və dövlət xadimi N.Nərimanovun surəti yaradılıb.

[1] Xəlil Rza Ulutürk. Əli Kərimin ikinci həyatı. / Ədəbi tənqid. – Bakı: Mütərcim, 2003, s.139
[2] Xəlil Rza Ulutürk. Söhrab Tahir Azər haqqında. – Bakı: Naksuana, 2011

1960-1980-ci illər poemalarının bir vacib xüsusiyyəti də tarix və şəxsiyyət amili ilə bağlı olmasındadır. Bu baxımdan həmin illərin uğurlu əsərlərindən biri Qabilin "Nəsimi" poemasıdır. Əsərin mürəkkəb mövzusu və məzmunu, dramatik xarakter və konflikt, süjet və kompozisiya, İ.Nəsiminin psixoloji xarakteri poemanın "Heyrət", "Şahi", "Xəndan", "Hüseyni", "Ənəlhəqq", "Çaharsu", "Mən bu cahana sığmazam", "Ayrılıqlar", "Mənim bəyaz səltənətim" kimi fəsillərində daha ardıcıl təzahür edib. Bu fəsillərdə epik material lirizmi kifayət qədər üstələyib. Poema vəznə münasibət baxımından da fərqlənir. Əsərdə əruz vəznindən, müxtəlif ölçülü hecalardan və sərbəst nəzmdən geniş istifadə edilib.

1960-1980-ci illər poemalarının bir janr tipi də poema-nəğmədir. S.Vurğunun bədii ənənəsindən sonra gələn sənətkarlar tərəfindən davam etdirilib. Məstan Günərin "Ata çəkici haqqında nəğmə", "İlyana haqqında nəğmə" poemalarında fəhlə atanın əmək fəaliyyəti şeirləşdirilib. "İlyana haqqında nəğmə"də moldovalı qız ərindən gələn qara kağıza inanmayıb, onu on il gözlədiyinə baxmayaraq, başqa kəndə köçür. Əsər qadın dəyanəti və sədaqətindən bəhs edir. Musa Yaqubun "İki qəlb, iki dünya", "Bu məhəbbət yaşadır məni", "Un işığı" əsərləri də lirik-epik poemalardır.

1960-1980-ci illərin poemaları sırasında epik-dramatik səciyyəli janr tipi də özünü göstərir. Fikrimizcə, M.Arazın poemaları, əsasən, lirik-epik səciyyəli olsa da, bəziləri epik-dramatik poema təsiri bağışlayır. "Paslı qılınc" əsərində gənc Musaxan arvadını və iki uşağını atıb Gülsura adlı qadının arxasınca düşür, sənət eşqilə yaşayan Gülsura pullu Musaxanı özünə ər etmək istəyir. Şair Gülsuranın iyrənc mənəviyyatını oxucusuna çatdırır. Xalq hakiminin Musaxanı ayıltmasından sonra əhvalat müsbət yönə doğru dəyişir. Fikrimizcə, əsər epik-dramatikdir ona görə ki, şairin epik materiala münasibəti, müdaxilələri dramatik konflikti daha çox gərginləşdirib, təzadların psixologizmindəki kəskinliyi və dərinliyi artırıb.

1960-1980-ci illər poemalarının monoloq-poema, məktub-poema, əfsanə-poema, xatirə-poema, alleqoriya-poema, nağıl-poema, rəvayət-poema şəkillərinə da rast gəlirik ki, bunların bədii nümunələri azdır.

1960-1980-ci illərin poema ənənələri, onun janr tipləri və xüsusiyyətləri müstəqillik dövrü Azərbaycan ədəbiyyatında davam etdirilməkdədir.

BƏXTİYAR VAHABZADƏ
(1925-2009)

XX-XXI əsrlər Azərbaycan ədəbiyyatının nadir simalarından biri olan Xalq şairi Bəxtiyar Vahabzadə görkəmli şair, dramaturq, publisist, tərcüməçi, ədəbiyyatşünas-alim, pedaqoq və ictimai xadimdir.

Həyatı. Bəxtiyar Mahmud oğlu Vahabzadə 1925-ci il avqust ayının 16-da Azərbaycan Respublikasının Şəki şəhərində dünyaya gəlmişdir. 1934-cü ildə doğulduğu şəhərdə 3-cü sinfi başa vurmuş və həmin ildə ailəsi ilə birlikdə Bakıya köçmüşdür.

Bəxtiyar Vahabzadə 1942-ci ildə Bakıda 172 saylı məktəbi bitirmiş, 1942-1947-ci illərdə Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) Filologiya fakültəsində oxumuş, 1947-ci ildə BDU-nun aspiranturasına daxil olmuşdur. O, 1950-ci ildə BDU-nun Azərbaycan ədəbiyyatı tarixi kafedrasında müəllim, baş müəllim, dosent, 1966-cı ildə professor, 1970-ci ildə kafedra müdiri vəzifələrində çalışmışdır.

Şair 1951-ci ildə "Səməd Vurğunun poeziyası: lirikası və poemaları" mövzusunda namizədlik, 1964-cü ildə "Səməd Vurğunun həyatı və yaradıcılıq yolu" mövzusunda doktorluq dissertasiyalarını müdafiə etmişdir. O, 1980-ci ildə Azərbaycan EA-nın müxbir üzvü, 2000-ci ildə Azərbaycan MEA-nın həqiqi üzvü seçilmişdir.

1943-cü ildə şairin "Ana və şəkil" adlı ilk şeiri "Ədəbiyyat qəzeti"ndə dərc edilmişdir. B.Vahabzadə1944-1945-ci illərdə "Ədəbiyyat qəzeti"ndə, 1945-1946-cı illərdə "Azərbaycan gəncləri" qəzetində şöbə müdiri, 1949-cu ildə "Uşaqgəncnəşr"də Müasir ədəbiyyat şöbəsinin redaktoru vəzifələrində işləmiş, "Mənim dostlarım" adlı ilk kitabı "Azərnəşr"də çap edilmişdir.

Bəxtiyar Vahabzadə 1967-ci ildə XI çağırış Bakı Şəhər Soveti, 1980-ci ildə X çağırış Azərbaycan Ali Sovetinin deputatı, 1990-1995, 1995-2000 və 2000-2005-ci illərdə Azərbaycan Respublikası Milli Məclisinin deputatı seçilmişdir.

1985-ci və 2003-cü illərdə Bakıda, 1991-ci ildə Ankarada "Bəxtiyar Vahabzadə" adlı sənədli filmlər çəkilmişdir.

Bəxtiyar Vahabzadə 1945-ci ildə Azərbaycan Yazıçılar Birliyi, 1991-ci ildə AYB Ağsaqqallar Şurası, 1995-ci ildə Ankara Dövlət Universitetinin fəxri doktorluğuna üzv qəbul edilmişdir. Şair 1954 və 1959-cu illərdə "Əməkdə fərqlənməyə görə", 1974-cü ildə Azərbaycanın "Əməkdar incəsənət xadimi", 1975-ci ildə Qırmızı Əmək Bayrağı ordeni, 1976-cı ildə Azərbaycan Dövlət mükafatı laureatı, 1984-cü ildə Azərbaycanın Xalq şairi və SSRİ Dövlət mükafatı laureatı, "Oktyabr inqilabı" ordeni, 1988-ci ildə M.F.Axundov adına ədəbi mükafat, 1995-ci ildə "İstiqlal" ordeni, Y.Məmmədəliyev adına müka-

fat, 1999-cu ildə "Türk dünyası – Türk Dili Şərəf Ödülü, 2002-ci ildə Rumıniyanın "Komandor dərəcəli Ləyaqət", 2001-ci ildə Türkiyədə "Dünyada ilin ən başarılı şairi" adlı orden və medallara layiq görülmüşdür.

Bəxtiyar Vahabzadə 2009-cu il fevral ayının 13-də Bakı şəhərində vəfat etmiş, I Fəxri Xiyabanda dəfn olunmuşdur. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2009-cu il 19 fevral tarixli "B.M.Vahabzadənin xatirəsinin əbədiləşdirilməsi haqqında", şairin 2015-ci ildə 90 illik, 2025-ci ildə 100 illik yubileylərinin keçirilməsi haqqında Sərəncamlar imzalamışdır.

Yaradıcılığı. Bəxtiyar Vahabzadə 1940-cı illərdə ədəbiyyata gəlmiş,[1] 1949-cu ildə ilk şeir toplusunu çap etdirmişdir.[2] Kitabda Bəxtiyar Vahabzadənin lirik düşüncələri ilə predmetin təsviri, təfərrüat və müşahidənin birliyi 1940-cı illərin şeirləri üçün səciyyəvi olmuşdur. "Böyük insan", "Mənim dostlarım", "Yaşıl çəmən", "Sabahınız xeyir olsun", "Ağ saçlar", "Təzə şəhər", "Məktəb şeirləri" və s.[3]

Şair 1950-ci ildə "Bahar", "Dostluq nəğməsi" (1953), "Əbədi heykəl" (1954), "Çinar" (1956), "Ceyran" (1957), "Aylı gecələr" (1958) kitablarında da eyni poetik axtarışlarını davam etdirmişdir.

Bəxtiyar Vahabzadənin məhəbbət şeirləri 1950-ci illərdən başlanmışdır. Şair məhəbbət şeirlərində də haldan-hala düşmüş, bəzən sərt, bəzən mülayim, bəzən məmnun, bəzən inkarçı, bəzən müdrik, bəzən adi, bəzən filosof, bəzən sadəlövh olmuşdur ("Yağma, yağış", "Gülüş", "İlk məhəbbət", "Gəlir", "Ceyran", "Günəşdən gen düşəndə", "İtirilmiş məhəbbət", "Heyranın olsun", "Bir mənəm, bir də sükut", "Səni görəndə", "Səndə qəlb olsaydı", "Şeirimin ahəngi", "Gecikmiş məhəbbət", "Sənin surətin" və s.). Bəxtiyar Vahabzadənin məhəbbət şeirləri kifayət qədər fikir və düşüncə, fəlsəfə və əxlaq şeirləridir. Bu məhəbbətin ifadəsi təbiətlə, insan mənəviyyatı, fəlsəfəsi və əxlaqı ilə birlikdədir.

Bəxtiyar Vahabzadə məhəbbət şeirlərini 1980-ci illərə qədər davam etdirmiş, lakin 1990-cı illərdə bu mövzuya demək olar ki, müraciət etməmiş, onu, əsasən, milli-bəşəri və ideoloji-siyasi mövzular maraqlandırmışdır.

1960-cı illərin poeziyasında Bəxtiyar Vahabzadənin ideyalılıq, sənətkarlıq axtarışları güclənmişdir... Şairin "Dodaqda gəz" (1964), "Gözəllik bəxşişdir" (1964), "Sən getdin" (1967), 1970-ci illərdə "Sənsiz bu yerlər" (1973), "Unut görüm" (1974), "Maral" (1976), "Sən hardan biləsən" (1978), "Çiçəklərin baxışında" (1979), 1980-ci illərdə "Qəzəl" (1980), "Mənə iztirab ver" (1981), "Həqiqəti yaşadan" (1985), "Sənə çatmaq üçün qalxdım göylərə"

[1] Bəxtiyar Vahabzadə. Ana və şəkil. – Bakı: "Ədəbiyyat qəzeti", 1943, 25 may
[2] Bəxtiyar Vahabzadə. Mənim dostlarım. – Bakı: Azərnəşr, 1949
[3] Yaşar Qarayev, Şamil Salmanov. Poeziyanın kamilliyi. – Bakı: Yazıçı, 1985, s.33

(1985), "Həsrətin hökm etdi gözündən əvvəl" (1986) və başqa seçmə nümunələrində fərdi məhəbbət duyğuları ifadə edilmişdir.

Bəxtiyar Vahabzadə poeziyasında canlı harmoniya olan insan və cəmiyyət birliyinin önəmi doğma təbiətdir. Sənətkarın təbiət şeirlərinin öz ahəngi, öz ritmi, obrazlar və rənglər aləmi vardır. Təbiət sənətkar təfəkküründə düşüncə, fikir və məna məkanıdır. Fəqət "Bəxtiyar poeziyasında "saf" halda təbiət təsviri, demək olar ki, yoxdur. Azərbaycan burada heç yerdə xalis "peyzaj" şəklində deyildir. Hətta vətən də şair üçün hər şeydən əvvəl Zamanı təmsil edən surət və simvol – ədəbi-əxlaqi yaddaş və mənəvi-tarixi bir vicdandır".[1]

B.Vahabzadənin təbiət şeirlərində dialektikanın bədii təzahürü güclüdür. Sənətkar dörd fəslin insan duyğularını ehtizaza gətirən sirli hallarına tərcüman olmuş, daha çox insanın hüdudsuz lirik-psixoloji və mənəvi aləmini üzə çıxarmaq istəyində qalmışdır. Təbiət Bəxtiyar Vahabzadə üçün qüdrət, ruhun və cismin qidalandığı, cilalandığı məkandır. Onun bədii obrazları, əsasən, dağ, qaya, çinar və ağacdır: "Sənsiz də yaşadar bu dağlar məni" /1950/, "İlk cığır" /1950/, "Bizim yurdun" /1950/, "Yay" /1950/, "Çinar" /1956/, "Qövsi-qüzeh" /1956/, "Ceyran" /1957/, "Göygöl" /1957/, "Qaranquş və sərçə" /1958/, "Ey ana təbiət" /1958/ və b. 1950-ci illərin bədii məhsulu olub, B.Vahabzadənin konkret predmetlərə yazdığı şeirlərindəndir.

O, poetik gözlənilməzliklərin şairidir! Şairin təbiətdən cəmiyyətə, lirikadan sosial-siyasi mövzu və motivlərə keçidlərinin həmişə bir "bağ"ı, bir ilgəyi olur. Sənətkar təbiət şeirlərində xırda duyğularla yaşamağın əleyhinə olduğundan tələbkar oxucusuna öyüd və nəsihət də verir:

Hüsnünü bir yerə yığıb kainat,
Elə bil göylərdən yerə enibdir.
Yanan buludlardan dənizə qat-qat,
Payız yarpaqları səpələnibdir.
Gəlin, gözəllikdən ilham alaq biz,
Yalnız bu eşq ilə baxaq hər şeyə.
Uçaq, uçaq göyə, hey ucalaq biz
Kiçilib enməyək eybəcərliyə.[2]

Bəxtiyar Vahabzadənin 1960-cı illərdə "Durnalar" /1960/, "Bahar və mən" /1961/, "Qağayılar" /1961/ "Dağda şəlalə kimi" /1961/, "Payız" /1963/, "Təyyarədən yerə baxanda /1963/, "Ucalıq" /1964/, "Payız lövhələri" /1964/, "Bir ürəkdə dörd fəsil" /1966/ kimi şeirlərində təbiət lirik "mən"ə tabe halındadır, əsasən, onun doğurduğu emosiya və titrəyişləri üzə çıxarır:

[1] Yaşar Qarayev. Düşündürən poeziya / Bəxtiyar Vahabzadə. Seçilmiş əsərləri. On iki cilddə, IV c. – Bakı, 2002, s.6-14

[2] Bəxtiyar Vahabzadə. Şeirlər. – Bakı: Azərnəşr, 1961, s.106

Çıxdım dağ başına bir səhər çağı,
Ayağım altında daşlar da dindi.
Mənə göz elədi hər gül yarpağı,
Ürək təzələndi, can təzələndi.
Qəlbin min sevdalı boş səsi deyil,
Özündən göyərən sözü gözəldi.
Oxşarı, təşbehi, kölgəsi deyil,
Dünyada hər şeyin özü gözəldi.[1]

Bəxtiyar Vahabzadə şeirlərində, adətən, obyekt (predmet) və müşahidədən, həyat təcrübəsindən çıxış etmişdir, – başlanğıc, mənəvi təkan xəyal və təxəyyül qidasını, qaynağını bu cür almışdır. Yəni əvvəl real obyekt, sonra romantik, subyektiv düşüncə birliyi gəlmişdir. Fəqət Bəxtiyar Vahabzadə poetik təfəkküründə obyektlə subyektin birliyi olan empirik sənətkardır!

B.Vahabzadə 1980-1990-cı illərdə də təbiət şeirləri yazmışdır. "Bahar həsrəti" /1980/, "Torpaq" /1980/, "Vətən torpağı" /1980/, "Buludlar-xatirələr" /1982/, "Dağ nə qədər uca olsa" /1984/, "Qarabağ atı" /1985/, "Payızda" /1985/, "Yaylaqda" /1986/, "Yazda qışı gözləyirik" /1986/, "Sərçələr" /1988/, "Həyat, sən nə şirinsən" /1989/, "Körpü çaydan uzaq düşüb" /1993/, "Oxuma, bülbül" /1994/, "Novruz gəlir" /1996/, "Qapılar" /1998/ kimi poetik nümunələrdə şair epik başlanğıcdan, predmetli müşahidədən çıxış edərək lirik-psixoloji, etik-estetik və əxlaqi-mənəvi duyğu və düşüncələrinə uçuş vermiş, təbiətlə insan ruhunun təmasını qurmuş, onun ehtizazlı, əsrarlı hallarına reallıq aşılamışdır.

Bəxtiyar Vahabzadə ana dili, millilik, milli ideya, milli birlik, bütöv Azərbaycan və istiqlal mövzuları, onların ifadə olunduğu "Gülüstan", "Köklər, budaqlar" kitablarına görə incidilmiş, hətta, dissident olmaq həddinə çatdırılmışdır. Bəxtiyar Vahabzadə Azərbaycanın ictimai-siyasi və mədəniyyət həyatında fəal iştirak etmişdir. Qiymətli əsərlər yaratmışdır.

Sənətkarın fəal təsvir obyektlərindən biri Cənubi Azərbaycan, bütöv Vətən məfkurəsi olmuşdur. Şair bu mövzunu 1950-ci illərdən başlamış və yaradıcılığının bütün mərhələlərində davam etdirmişdir. Onun *Cənub mövzularının* ("Sökün çəpərləri" /1965/, "Şəhriyara" /1965/, "Şair-vətən" /1967/, "Həsrət" (Ustad Şəhriyara) /1980/, "Ustad Şəhriyarın S.Rüstəmə göndərdiyi məktubuna cavab" /1980/, "Sahirə cavab" /1990/, "Həsrət" (Bəxtiyardan Şəhriyara) /1992/, "Səhəndə məktub" /1968/ və s.) konkret qaynaqları vardır.

Sənətkar "Dilimiz – ədəbiyyatımız" (1982) məqaləsində yazmışdır: "Mən Bakı radiosunun Cənubi azərbaycanlı dinləyicilərindən bir neçəsinin

[1] Bəxtiyar Vahabzadə. Dan yeri ağarır / Bir ürəkdə dörd fəsil. – Bakı: Azərnəşr, 1966, s.27

məktubu ilə tanış oldum. Məktubların hamısı böyük məhəbbət və ürək döyüntüsü ilə yazılmışdır. Məktub müəllifləri bizim ölkə ilə, onun təhsil sistemi və həyat tərzi ilə maraqlandıqlarını yazır və bu məsələlərə dair maraqlı suallar verirlər".[1]

Sənətkarın poeziyasının bir hissəsi Şəhriyar, Səhənd, Sönməz kimi şöhrətli sənətkarların adı ilə bağlıdır. "Səhəndə məktub" (1968) şeirində vətən, ayrılıq fəlsəfəsinin ağrıları xatırlatma motivində ifadə edilmişdir:

Deyirsən yarıya bölünənlərin
Dərdini dünyada bir bilməyən yox.
Biz də bölünmüşük, ancaq bu dərdi
Uca kürsülərdən heç bir deyən yox.
Mən dizimə döyüb zar-zar ağladım,
Çöllər göz yaşımdan gölmə-gölmədir.
Qranit dağları dələn fəryadım
Tək Araz çayını aşa bilmədi.[2]

"Tarixin qanunu" (1979) şeiri İranda Azərbaycan dilində qəzet və jurnalların nəşri, "Cavab" (1984) şeiri "İranda Azərbaycan xalqının milli varlığını danan, xalqımızı farslardandönmə hesab edən "alimlər"ə etiraz münasibətilə yazılmış, "Ölümə gedəndə" şeiri isə Siqqətül-islama, Məşrutə hərəkatının görkəmli mücahidinə həsr olunmuşdur.

Bəxtiyar Vahabzadə Cənub mövzusunu şəxsiyyətlərlə (Şəhriyar, Səhənd, Sönməz və s.), vətənlə (tarixi, coğrafi), dillə (Türk-Azərbaycan), torpaqla (Bütöv Azərbaycan) bağlamışdır. Ümumiyyətlə, şair hər şeyi bütöv görmək istədiyi kimi, Azərbaycanı da bütövlük gerçəkliyində təcəssüm etdirmişdir.

Bəxtiyar Vahabzadənin insanı vahid Azərbaycanı səs-söz, ifadə, motiv, təsvir-təhkiyə qəlibindən tutmuş, torpaq, vətən, dünya genişliyinə qədər ifadə etmişdir. Sənətkarın soy-kökü, od-ocağı, gen yaddaşı "Ata yurdu"ndan (1974) başlamışdır. Yurd onun üçün həm uşaqlıq, həm də ona yetməyin həsrət qoynudur:

Çıxdı ahıllığım o evdən çölə,
Amma uşaqlığım yuxarı başda.
İndi mən həsrətəm ata yurduma,
Odu ürəkdədir, buxarı başda.[3]

---

[1] Bəxtiyar Vahabzadə. Vətən ocağının istisi / Dilimiz – ədəbiyyatımız. – Bakı: Gənclik, 1982, s.101

[2] Bəxtiyar Vahabzadə. Səhəndə məktub / Seçilmiş əsərləri. İki cilddə, I c. – Bakı: Öndər, 2004, s.73

[3] Bəxtiyar Vahabzadə. Ata yurdu / Seçilmiş əsərləri. – Bakı: Azərnəşr, 1974, s.136

Ata yurdundan başlayan söz-ruh, ürək-ağıl, sonra küçə, ağac, qaya, bulaq, dağ, meşə, kənd, şəhər, ölkə boyu davam etdirilmişdir.

1957-1960-cı illərdə erməni məkri baş qaldıranda, Naxçıvana, Qarabağa mənfur əllər uzanmaq istəyəndə, Bəxtiyar Vahabzadə *"Torpaqdan pay olmaz"* (1962) şeirini yazmışdır. Bədxah qonşunu ittiham etmişdir:

Sən məni bu qədər axmaq bilirsən?
İsa bulağının zümzüməsini,
Cabbarın, Seyidin, Xanın səsini,
Dalğalı Qarabağ şikəstəsini,
Babək türbəsini necə pay verim?[1]

"Bəlkə ayıldım" (1984) şeiri Zori Balayanın "Ocaq" əsərinə etiraz cavabıdır. Şeir Azərbaycanın Şərqə və Qərbə qol-budaq atmış tarixini xatırladır. "Biz tarix yazmadıq, tarix yaratdıq!" Torpaq sənətkar üçün sərvət, şöhrət, qürur və sirr mənbəyidir:

Bağrında min nemət, min bar yetirdi
İnsan övladına bu ana torpaq.
Bəs, bu nə möcüzə, bəs bu, nə sirdir?
Sirrini vermədi insana torpaq.[2]

Bəxtiyar Vahabzadə torpaq, vətən və millət dərdindən daha çox yazan şairimizdir. O, yaradıcılığında sosial-siyasi mövzulara geniş yer vermişdir. Şairin "Sərhəd ağacları" (1955), "Haqq, zorakılıq" (1985), "Xalq deputatına açıq məktub" (1989), "Haqqa haqsız dedilər", "Hörmət – rüşvət", "Şam", "İman təməli" (1991), "Həm oğul, həm ata" (1992), "Cəllad Yazov" (1991), "Yenilənmiş ittifaq" (1992), "İkibaşlı qartal" (1995) və başqa əsərlərində torpaq, vətən və millət mövzusunun əlvan bədii ifadəsini görürük.

"Sərhəd ağacları" (1955) mühakiməli şeirdir. Şair "Sərhəd ağacları"nı danışdırır. Psixoloji-mənəvi və məntiqi mühakimələr mətn boyu şeiri müşayiət edir. Mənalandırma və dəyərləndirmə bədii mətnin cövhəridir. Şeir iqrari hökmlə sona yetir:

O vaxt nə bilsin ki, ötəcək zaman,
Özü azadlığa sərhəd olacaq.
Taleyi başqa şey göstərdi ona,
Sədd oldu insanın arzularına.
Bir çəpər oldunuz əsrlərlə siz
Önündə hər eşqin, hər xoş niyyətin.

[1] Bəxtiyar Vahabzadə. Torpaqdan pay olmaz / Nağıl–Həyat. – Bakı: Yazıçı, 1991, s.37
[2] Bəxtiyar Vahabzadə. Bəlkə ayıldım / Seçilmiş əsərləri. İki cilddə, II c. – Bakı: Yazıçı, 1984, s.191

Sizin alovunuz qurudar ancaq
Gözünün yaşını bəşəriyyətin.[1]

Bəxtiyar Vahabzadə 1990-cı il hadisələrinə də konkret münasibət bildirmişdir. "Cəllad Yazov" (1991) şeirində qaniçən generalın Azərbaycanı qan gölündə boğduğunu şeirə gətirmişdir. "Yenilənmiş ittifaq" (1991) şeirində şair MDB-ni yeni ittifaq kimi lağa qoymuşdur. Şairin 1990-cı illərdəki şeirləri birbaşa ictimai-siyasi, torpaq, yurd və azadlıq şeirləridir...

Bəxtiyar Vahabzadə səfərlərdə olduğu xarici ölkələrin sosial-siyasi və mədəniyyət həyatına aid şeirlər yazmışdır. Beynəlxalq mövzulu şeirlər onun bədii yaradıcılığında mühüm yer tutur.

Bəxtiyar Vahabzadənin "Latın dili" (1971), "Pompey xərabələri önündə", "Tabut gedir" (1972), "İki yol" (1972), "Helmuta" (1973), "Portuqaliya lövhələri" (1975), "Daşda şeir", "Dəniz", "Kişi qəbiristanı", "Topqapı sarayı" (1977), "Kaman nalə çəkir" (1984) və s. şeirləri 1970-1980-ci illərə aiddir. Bunlar onun Almaniya, Türkiyə, Portuqaliya, İngiltərə səfərlərinin nəticəsidir. Bəxtiyar Vahabzadənin bir sıra şeirləri Şərq və Qərb ölkələrinə səfər təəssüratlarının nəticəsi (1961) olub ("Ələddinin çırağı", "Özünə yalvarsana", "Ehramların önündə", "Dəclə sahilində", "Təsbih", "Taqi-Kəsra önündə", "Baba gur-gür", "Rafaelin qəbri üstündə", "Mumiya", "İstiqlal", "Mikelancellonun "kədəri" önündə", "İstanbul", "Açıq şəhər" və s.) epik təsvirdən çox, lirik-psixoloji və əxlaqi-mənəvi keyfiyyətləri ifadə edir. Şairin xarici ölkələrə səfərləri demək olar ki, ölkələrarası mədəniyyət ongünlüklərinin keçirilməsi ilə bağlı olmuşdur. Sənətkarın 1960-cı illərdə yazılmış "Gözlərim", "Atılmayan toplar", "Günahsız müqəssirlər", "Bir üzdə iki dünya", "Fəryad", "Ağlayan pəri", "Panteonda" və sair şeirləri də bu cür meydana gəlmişdir.

1970-ci illərin səyahət şeirlərində də epik material şairin lirik duyğular aləminə tabe edilmiş, milli ideyaların, bütöv Azərbaycan ideyasının ifadəsi həmin şeirlərin cövhərində dayanmışdır. Şair 1970-ci illərdə "Miz arxasında", "Tərki-silah", "Dan yeri", "Kölgələr", "Şairi öldürürlər", "Dünyanın sərhəddi", "Portuqaliya lövhələri" və sair şeirlərini yazmışdır.

Qərb və Avropa Şərq üçün həmişə təsir mənbəyi olmuşdur. Etnosun, dilin, dinin və mədəniyyətin, sosial-siyasi üstqurumun təsir mənbəyi! Bəxtiyar Vahabzadə də bütün bunların mahiyyətini poetikləşdirmişdir.

Bəxtiyar Vahabzadə lirik "mən"ində daha çox ifadə olunan sənətkardır. Professor Yaşar Qarayev yazmışdır: "Bəxtiyar Vahabzadənin bütün şeirlərini bir "Mən"in düşüncələri hesab etmək olar. Onların əsasında həmişə ömrün dolaylarında özünü, qəlbini gəzən bir şairin axtarışları durur. Hər şey – təbiət

[1] Bəxtiyar Vahabzadə. Sərhəd ağacları / Seçilmiş əsərləri. – Bakı: Gənclik, 1967, s.26

də, dünya da burada şair xəyalının güzgüsündə görünür. Özü də "Mən"in dərki burada kainatın dərkindən daha çətin elan edilir:

Bilək bu dünyada dünya yaradan
Ömürlər dünyanı niyə tərk edir?
Göyləri, yerləri dərk edən insan
Bəs niyə özünü çətin dərk edir?[1]

Şairin lirik "mən"i – insanın körpəlik, uşaqlıq illərindən başlanmışdır. Beşik lirik "mən" üçün ilkinlikdir, ata, ana və babanın yatdığı, ümidlərin, arzuların, diləklərin çiçəkləndiyi, Sabirlərin, Nəbilərin, Babəklərin dərdə, qəmə qılınc çaldığı, Üzeyir nəğməsi, Füzuli şeirinin kök atdığı yerdir. Beşik uzaq səfərlərin, böyük yolların başlanğıcı, fəqət bir beşiyə sığan Nəsimilərin cahan qədər böyüyən məkanıdır:

Bu torpaqdan qüvvət alıb boy atdıq,
Vətən üçün biz yaşadıq, yaratdıq.
Bülbül ötməz gülüstansız, çəmənsiz,
Biz də köksüz budaqlarıq vətənsiz.[2]

Şair lirik "Mən"ini ilk əvvəl arzularında axtarmışdır. "Arzularım qədər ömrüm olaydı" (1956) deyən lirik "mən"in təhkiyəsi sonra lirik "o", "mən" və "onlar"la bağlanır. Arzuların yuvası ürəklərdir. Lirik "mən"in arzuları hüdudsuz olduğu kimi, ürəyinin də min bir halı vardır. Bu ruhi hallar "Bir ürəyin min duyğusu" şeirində də ifadə edilmişdir. Şeirdə duyğu, qavrayış, təsəvvürlə bərabər, anlayış, mühakimə və əqli nəticələrin əlamətləri duyumludur. Şair ürəyinin min bir halından halbahal olur:

Ey rəssam, dünyada yeddicə rəng var!
Arzular rəngbərəng, diləklər zəngin.
Hər ürəkdə yatır min cür duyğular,
Onları çəkməyə çatarmı rəngin?![3]

Bəxtiyar Vahabzadə "mən"inin –insanın beşikdən, ana laylasından sonra tərbiyə ocağı məktəbdir. Şair "Mən"i atası, anası, müəllimləri, məktəbi və zəhmətkeşliyi ilə qürurlanır. "Məktəb yolları" (1947), "Tələbə – müəllim", "Müəllim" (1955), "Qiymət", "Kitab" – Bəxtiyar Vahabzadənin pedaqoji mövzuda yazdığı şeirlərindəndir. "Məktəb yolları" lirika ilə epikanın ortaq başlanğıcıdır. "Qızıl medal" isə təmiz lirik şeirdir."Müəllim" (1955) şeiri şairin müəllimi Səidə İmanzadəyə həsr olunmuş xatirə, təəssürat, ovqat

[1] Yaşar Qarayev. Düşündürən poeziya / Bəxtiyar Vahabzadə. Seçilmiş əsərləri. – Bakı: Azərnəşr, 1974, s.13
[2] Bəxtiyar Vahabzadə. Beşik / Dan yeri. – Bakı: Gənclik, 1973, s.107
[3] Bəxtiyar Vahabzadə. Bir ürəyin min duyğusu / Çinar. – Bakı: Uşaqgəncnəşr, 1956, s.33

şeiridir. “Qiymət” isə lirik “mən”lə lirik “o”nun şeiridir. Qiymətləndirmə və dəyərləndirmə şeir üçün səciyyəvidir. “Əlifba” (1956) isə lirik “mən”lə lirik “sən” şeiridir. Bəxtiyar Vahabzadə pedaqoji mövzuda “Qiymət” adlı poemada da yazmış, özü də professor, akademik kimi BDU-nun auditoriyalarında dərs demişdir.

Bəxtiyar Vahabzadə 1963-cü ildə anasının ruhuna elegiya olaraq “Anam haqqında şeirlər” silsiləsini yazmışdır. “An – min il”, “Başdaşı”, “Zaman”, “Bu gün yeddin oldu” şeirlərində sənətkarın lirik, psixoloji-mənəvi düşüncələri ifadə olunmuşdur:

Məni boya-başa yetirdin, ana,
Bizə borclu bildik hər zaman səni.
Sən məni dünyaya gətirdin, ana,
Mənsə yola saldım dünyadan səni.[1]

Ana və ana dili mövzusu Bəxtiyar Vahabzadə yaradıcılığında əhəmiyyətli yer tutur. Müəllif ana və ana dili mövzusunda çoxlu şeirlər yazmışdır: “Ana türbəsi” (1946), “Ana” (1954), “Körpə nəfəsi” (1954), “Lay-lay” (1954), “Ana dili” (1956), “Ana hədiyyəsi” (1963), “Mənim anam” (1968, 1980), “Ana və balalar” (1973), “Anama giley” (1983), “Şəhid anası” (1996), “Ana birsə” (1999), “Mənim ana dilim” (2001), “Anam öldümü” (2005), “Ana dili” (2005), “Ana dedim, qarşımda gözəl səhnə açıldı” və başqaları. Şair bu əsərlərində müqəddəs anaların elə ana yaşında, gənclik, bahar yaşında olmaları və qalmalarının poetik ehtizazını vermiş, ana-övlad məhəbbətinin ifadəsinə tərcümanlıq etmişdir:

Beşik başı ana xeyir-duası,
Dahiləri analara baş əydi.
Sərt qanunlar, sərt fərmanlar, hökmlər
Anaların qucağından keçəydi.[2]

Bəxtiyar Vahabzadə 1950-ci illərin sonunda Mərakeşdə olanda görmüşdür ki, onlar ana dilində yox, fransızca danışırlar... Geri qayıdandan sonra “Latın dili” adlı şeirini yazmışdır...

Doğma ana dili haqqında olan “Riyakar” (1967) şeirində şair ana dilini tərənnüm etmişdir. Necə? Vətən, vətən deyənlər öz övladını əcnəbi dildə oxudur. Özgələrə dilini öyrən deyənlərin özü isə öz dilini bəyənmir, riyakarlıq edirlər...

[1] Bəxtiyar Vahabzadə. Bu gün yeddin oldu / Seçilmiş əsərləri. İki cilddə, I c. (1944-1965). – Bakı: Yazıçı, 1983, s.23

[2] Bəxtiyar Vahabzadə. Ana / Seçilmiş əsərləri. İki cilddə, I c. (1944-1965). – Bakı: Yazıçı, 1983, s.27

O, “Şair” (1999) şeirində bir daha səsləndirmişdir ki, xalqın dili onun ruhudur və xalqın ruhu onun dilidir. Dil mövcudluqdur. Şeirdə vətənsizlik ifşa olunmuş, əcdadların vətənə mehri isə tərənnüm edilmişdir:

Sənin̂çün nə vətən, nə millət, nə din,
Xalqın hesabına kefini çəkdin.
Alışa bilmədin halal zəhmətə,
Haram bulağından sən su içmisən.
Ananın dilinə, yurda, millətə,
Anadan olalı özgələşmisən.[1]

Bəxtiyar Vahabzadə yalnız ana deyil, həm də baba, nənə, ata, övlad, xala, bibi, qardaş münasibətlərinə dair şeirlər də yazmışdır: “Babamdan qocayam mən” (1965), “Anam təzədən böyüyür”, “Babam, atam, mən” (1970), “Ana və balalar” (1973), “Mənim xalam” (1977), “Qızıma” (1978), “Oğul toyu” (1981), “Nənələr” (1982), “Nənə-nəvə” (1983), “Dil açır nəvəm” (1988), “Həm oğul, həm ata” (1992), “Babamın koması” (2005), “Ata yurdu” (2005) və s.

***

Bəxtiyar Vahabzadə psixologizminin min bir poetik halı vardır. Onun təzahürlərindən biri ithaflarla bağlıdır. Şair ithaflarını ədəbiyyat və incəsənət adamları, şəxsiyyətlər, qəhrəmanlar, məkanlar və əşyalara aid etmişdir. Bu ithaflar həm də klassik və müasir (çağdaş) ədəbi şəxsiyyətlər haqqındadır. “Qorqud obrazı və tarixi, ictimai hadisələr”, “Gəncəli Nizami”, “Salam, Nəsimi” (1980), “Fikir bahadırı”, “Yunus İmrə” (1987), “İki zirvə haqqında düşüncələr”, “Qəlb şairi”, “Yer oğlu, yer şairi”, “Füzuli əzəməti”, “Füzuli və Şekspir”, “Heyrət, ey büt...”, “Böyük Füzuliyə” (1960), “Karvan gedir”, “Aşıq Ələsgər”, “Əslimiz, kökümüz” və “Cəfər Cabbarlıya” (1960), “Mirzə Cəlilə” (1960), “Mirzə Cəlil” (1967), “Anamın kitabı”, “Sabir, yenə Sabir”, “Sabir və Tukay”, “Sənətkarın faciəsi”, “Hüseyn Cavid”, “Əhməd Cavad”, “Folklor və Səməd Vurğun”, “Ayrılır” (1956), “Əziz şairimiz” (1956), “Qocalarmı” (1956), “Səməd Vurğuna” (1976), “Ey şair, sən haqlısan”, “Kamil əsərlər”, “Çingiz Aytmatova məktub”, “Türküstan, Türküstan”, “İstiqlal nəğməkarı”, “Dostum Cavad Heyət”, “Ağır illər nəğməkarı”, “Adlar, ləqəblər” (1967), “Əli Kərim”, “Xəlil Rza” (1976), “Vətən məcnunluğu” (1992), “İstiqlal şairi” (1998), “Bir qəlbin yükünü qatara yığsan” (1982), “Nəriman Həsənzadə” (1982) adlı şeir və məqalələrin müəllifidir...

[1] Bəxtiyar Vahabzadə. Şair / İstiqlal.– Bakı: Gənclik, 1999, s.46

Bəxtiyar Vahabzadənin ithafları həm poetik, həm də ədəbi-nəzəri və publisistik səciyyəli olub, əsasən, yubileylərin, ya da şəxsiyyətlərin, qəhrəmanların doğurduğu psixoloji-fəlsəfi qənaətlərlə bağlı yazılmışdır.

Bəxtiyar Vahabzadə insanının bir səciyyəvi xüsusiyyəti də etiraflarla bağlıdır. Bunlar həm təsdiq, həm də inkar məzmunundadır. Lirik monoloq, daxili dialoq, lirik etiraf sənətkarın şeirləri üçün səciyyəvidir. Şair lirik etiraflarını psixoloji-fəlsəfi və əxlaqi-estetik şeirlərində daha geniş ifadə etmişdir.

Şairin etiraflarının məzmunu onun psixoloji, mənəvi-əxlaqi şeirlərində də özünə yer almışdır. Psixologizm Bəxtiyar Vahabzadə poeziyasında əxlaq və fəlsəfədir, məna və mahiyyətdir!

Psixologizm – duyğu, qavrayış, təsəvvür və təxəyyül Bəxtiyar Vahabzadənin poetik idrakının hissi mərhələsini təşkil edir. "İllərə nə var ki" (1964) – psixoloji şeirdir. İllər yox, biz tələsirik. Zaman – qocalığın, arzu və qəlbin səsinə baxmır. Əməllərimiz çərçivəsinə sığmır. Onun ağrısını çəkən insandır. Qoca dünya *"Bir yandan boşalır, bir yandan dolur"...* Zəmanəmiz ilbəil öz mənasını dəyişir:

İllərin ömrünü təqvimlə deyil,
Ölçək arzularla, əməllərlə biz.

Zaman hər kəsin özüylə yaşıddır. İnsan arzusu hüdudsuzdur. Dünən bildiklərimiz bu gün kifayət etmir. "Əqlin təşnəliyi özü bir aləmdir. Həmişə yaşayır gələcək zaman". Ən gözəl günün ömrü hələ yaşanmayıb, onu əməllərimiz uzadır:

Dünyamız qocamı?
Bu, ola bilməz.
Necə ki dövr edir, dolanır zaman.
O, qocala bilməz, qocala bilməz,
Hər kəsin özüylə yaşıddır cahan.[1]

"Vaxtında" şeirində mahiyyət budur: həyatda gərəkli olmaq (gərək bilirlərsə dünyada səni, bir göz qırpımında ötüşər illər), dünyanın yükünü çəkmək, ölmək (dünyanın yükünü çəkirkən ölmək), zirvəyə can atmaq (zirvəyə ucalsın həyatın yolu), əməl sahibi olmaq (barama qurduna çox həsədim var, ölür öz işini qurtaran kimi), həyat eşqi (min il də yaşasan doyammazsan), ölümün qaçılmazlığı (vaxtında öləsən gərək, eşqində əbədi yaşamaq üçün), vaxtın dəyəri mənalandırılmışdır (gün var ki ildən də uzundur, il var ki gündən də qısadır): "Gün var, min ayə dəyər":

Kim deyir, gün ömrü günə bərabər?
Kim deyir, həftə də elə həftədir.

[1] Bəxtiyar Vahabzadə. İllərə nə var ki / Bir ürəkdə dörd fəsil. – Bakı: Azərnəşr, 1966, s.106

Kim deyir, günəşin doğuşu səhər –
Gecənin ömrünə sondur, nöqtədir.[1]

"Ay gidi dünya" şeirində dünyanın obrazı canlandırılmışdır. Dünya şair üçün insanı udan təşnəlik, xilqəti üyüdən dəyirman, atomun zərbəsi – iniltidir:

İndi də insanı dinlədi dünya.
Bəs indi necəsən, ay gidi dünya?[2]

Bəxtiyar Vahabzadə poeziyasında *yaşamaq üçün təşnəlik* vardır. Şair *vaxtı* tutub saxlamaq istəmişdir. Vaxt onun üçün illəri dən kimi üyüdən zaman, ömrün iztirablı qışı, azalmayan həyat eşqidir.

Bəxtiyar Vahabzadə zaman və sürət fəlsəfəsinin mahiyyətinə, zamanla, sürətlə ayaqlaşmağın həm poetik, həm də publisistik mənasına varmışdır. O, "Sadəlikdə böyüklük" məqaləsində yazmışdır: "Zaman və müasir insan, bu gün poeziyanın baş mövzusuna çevrilmişdir. Bu haqda bütün şairlər fikir söyləməyə çalışır. Burada çoxları daha artıq zaman haqqında fikir söyləməyə, zamanı pis və ya yaxşı tərəfindən mühakimə etməyə səy göstərir. Lakin məncə, biz zamandan çox, müasir insandan, onun duyğularından danışmalıyıq. Çünki əslində dəyişən zaman deyil, insandır. Onun bu günkü hisləridir".[3] Professor Yaşar Qarayev yazmışdır: "Bəxtiyar Vahabzadəni ən çox cəlb edən mövzular sırasına bir də zaman və sürət, zaman və kosmos haqqında düşüncələrini daxil etmək olar. Bəxtiyarın kosmos şeirləri çoxdur. Həm də o, kosmosdan yalnız mövzu götürmür, bəlkə kosmosun bir sıra göstəricilərində – onun əzəmət, sonsuzluq və intəhasızlıq ölçülərində öz arzularının və duyğularının ölçülərini axtarır".[4]

Bu mənada Bəxtiyar Vahabzadənin insan və zaman fəlsəfəsinin tutumlu ifadəsi həm də onun "Vətəndaş" (1980) şeirində verilmişdir**.** Bu şeirdə kökdən xeyli gövdə, budaq ayrılır, uzanıb boy atır. Müncəri olaraq Vətəndaşlıqda vətənin övladı, qardaşlıq, bir-birinə arxa və kömək olmaqlıq, vətəndaşlıqda birgəlik, "candan bir olmaqlıq vardır". Təklik heçlikdir! Vətəndaşlıqda vətənə güvənməklik vardır. "Mənim ürəyimi qanatsın gərək, Sənin dırnağına dəyən cırtma daş". Vətəndaşlıqda iqlim ortaqlığı vardır. Səni də, məni də vətən böyüdüb, sənə də anadır, mənə də ana! "Sən də cavabdehsən, mən də hər zaman, vahid anamızın xoşbəxtliyinə". Vətəndaşlıqda bir kökdən, ürəkdən, qaynaqdan su içməklik vardır. Yəni qəlbimiz bir qandan coşdu, qaynadı, bizi

[1] Bəxtiyar Vahabzadə. Vaxtında / Vətəndaş. – Bakı: Gənclik, 1994, s.96
[2] Bəxtiyar Vahabzadə. Ay gidi dünya / Açılan səhərlərə salam. – Bakı: Yazıçı, 1979, s.73
[3] Bəxtiyar Vahabzadə. Sadəlikdə böyüklük. – Bakı: Yazıçı, 1978, s.179
[4] Yaşar Qarayev. Düşündürən poeziya / Bəxtiyar Vahabzadə. Seçilmiş əsərləri. İki cilddə, I cild. – Bakı: Azərnəşr, 1974, s.12

eyni bir ad ilə tanıtdı. "Vətənin ünvanı, vətənin adı, bizə xatırlatdı vəzifəmizi". Vətəndaşlıqda vətənin əbədiyyəti, bizim gəncliyimiz vardır. Biz kökümüzlə, vətənimizlə qüdrətliyik. "Bilirik dünyaya biz niyə gəldik":

Vətəndaş! Nə gözəl səslənir bu söz,
Yəni bir vətənin övladıyıq biz.[1]

Bəxtiyar Vahabzadə insan pxisologiyasının elə bir halı yoxdur ki, onu poeziyasında ifadə etməmiş olsun. Sözün həqiqi mənasında o, şair-filosofdur. Akademik Nizami Cəfərovun təbiri ilə desək: "Bəxtiyar Vahabzadə müasir dövrün böyük filosoflarından biridir. Həm də burada söhbət "şairin filosofluğu"ndan getmir, Bəxtiyar Vahabzadənin filosofluğu müstəqil filosofluqdur... Onun, ümumən, cəmiyyət, xüsusən, Azərbaycan cəmiyyəti barəsindəki mülahizələri bir qayda olaraq mükəmməl fəlsəfi təfəkkürün təzahürüdür. Cəmiyyətin iqtisadi, ictimai-siyasi, sosial, hüquqi, mənəvi özünü təşkili, dövrün, zamanın cəmiyyət qarşısına çıxardığı mürəkkəb problemlər, onların həlli, bəşəriyyətin təkamülü, etnik milli münasibətlər, müxtəlif millətlərin taleyi və sair məsələlər Bəxtiyar Vahabzadəni uzun illər düşündürmüş, onun filosof mövqeyinin müəyyənləşməsi üçün başlıca amillər olmuşdur".[2]

"Dağda şəlalə kimi" (1967), "Uçmaq istəyirəm" (1980) şeirləri də psixolojidir. Yüksəliş Bəxtiyar Vahabzadə poeziyasının ruhunda, fitrətindədir. "Ucalmaq eşqilə yaşayanların məsləki düzlükdən od götürməli", – deyən sənətkar hüdudsuz ruhi hallar keçirmiş, zirvələrə çatmaq, həyatı həyat kimi yaşamaq istəmişdir. Şair oxucularını zirvələrə səsləmişdir:

Yaşamaq istəmirəm sürünüb dizin-dizin,
İstəyirəm ən uca zirvələrə mən qonum.
Xəfif sakitliyini neyləyirəm dənizin,
Onun qasırğasına, dalğasına vurğunam.
Bir rəngi yox, göylərin min rəngini sevirəm,
Bir gülü yox, güllərin çələngini sevirəm.
Mən çıxmağa təpə yox, uca dağ istəyirəm,
Həyatı həyat kimi yaşamaq istəyirəm.[3]

"Uçmaq istəyirəm" şeirində məhəbbət yüksəlişin əlacıdır. Məhəbbət qandadır. Məhəbbət – görünməyən dərinlikləri gözlərimizə göstərir. Məhəbbət özünü dərk et, – deyə bizi yerdən alıb göyə qaldırır! Şair məhəbbətin qanadında o qədər uçmaq istəyir ki, yerdəki xırdalıqları görməsin. Məhəbbət arzuların, xəyalların, romantikanın uçuşudur. "Xəyaldan o taya mən ucalınca,

[1] Bəxtiyar Vahabzadə. Vətəndaş / Seçilmiş əsərləri. İki cilddə, II c. (1966-1981). – Bakı: Yazıçı, 1984, s.9
[2] Nizami Cəfərov. Bəxtiyar Vahabzadə. – Bakı: Azərnəşr, 1996, s.37
[3] Bəxtiyar Vahabzadə. Dağda şəlalə kimi / Seçilmiş əsərləri. – Bakı: Gənclik, 1967, s.46

yer mənə dar gəlir, göy verin mənə". Şairin əsəbləri əsrin köksündə tarıma çəkilib – dərd-sər əlindən nağıllar dünyasına – ona dərman olan nağıllarına uçmaq istəmişdir.

"Yaxşı bax dünyaya" (1980) şeirində Bəxtiyar Vahabzadə öyüd-nəsihət etmişdir. Dünya mənimdir, dünyanı özümə heyran qoymasam, bu dünyada yaşamaram,– deyənlərin işi təkəbbürdür. Əslində insan dünyanı gəzdikcə, hər ötən çağa həsrətlə boylandıqca, dünyaya elə heyran olur ki, onu özünə heyran qoymağa macal tapmır... Dünyanı özünə heyran edincə, mən özüm dünyaya heyran kəsildim. Çalış bu dünyada yaşa, dünyanı özünə heyran qoymağa çalışma. Dünya düşüncəsi dünya iradəsinə tabedir!

Bəxtiyar Vahabzadə poeziyasında konkret və mücərrəd insan surətləri yaratmışdır. Bu insan bütün rənglərivlədir. "Çəkisizlik" (1980) şeirində bu insan həmişə uçmağa can atır. İmkan olmayanda belə yuxularında uçmaq, ucalmaq arzusundadır. Şair demişkən: "Bəlkə qurtarmaq üçün ağırlığından düşmək istəmişdir çəkisizliyə. Ucalıqda dərd, qayğı fikrən, mənən sanki azalır. İnsan aludə olanda sanki kəpənək kimi havada uçur. Yaşamaq ona xoş olur. "Hər şey mahnı kimi, gül-çiçək kimi füsunkar görünür gözlərimizə", – deyir.

Bəxtiyar Vahabzadə "Özümlə söhbət" (1981) şeirində şair çoxlu fəlsəfi suallar etmişdir. Şair dünyadan gileylidir:

Mən canı yaratdım, ya bu can məni?
Bu giley nədir?
Nədir bu şikayət?
Nədir bu danlaq?
Bəlkə bu dünyanın borcu var mənə?
Günün doğuşuna bir dəfə baxmaq
Dəyər bu dünyanın hər möhnətinə.[1]

Sənətkar oxucuya da xitab etmiş, hisslə ağrını təzada çəkmiş, onun psixoloji hallarını dilləndirmiş, poetik vasitələr, ilmələr tapmışdır. Bu şeirlərin hər biri bir ixtiradır. Gülün ləçəyində od varaq-varaqdır. Bu rəng, bu ətir hardandır? Gül də iztirabdan doğur! Rəngi, ətri yanğıdan gəlir! Ocaq qarşısındayıq! Alışan oda qızışırıq. Fəqət, bu od ağacın can ağrısıdır. Oxucum, düşün! Sənin ürəyinə istilik verən bu duyğu, bu alov candadır – ətrimi iylədin, rəngimi gördün, gözəldir, – dedin. Ancaq bilmədin o rəng, o ətir böyük bir yanğıdan bircə qətrədir. "Duysan bilərsən ki, bu şeirin ləzzəti sənindir, ağrısı mənim!" Ümumiyyətlə, "Bəxtiyar Vahabzadə şeirinin ana xəttini hissin müdrikliyi təşkil edir. O, oxucunu həmişə xeyirxahlığa, nəcibliyə, insanpərvərliyə çağırır. Şairin "Payız dü-

[1] Bəxtiyar Vahabzadə. Özümlə söhbət. – Bakı: Azərnəşr, 1985, s.107

şüncələri" kitabında toplanmış şeirlər sözün əsl mənasında düşündürən şeirlərdir. Bu şeirlər şairlə oxucu arasında fəlsəfi mükaliməyə bənzəyir. Şeirlərdə insanın böyüklüyü və məğrurluğu təqdir olunur".[1]

Bəxtiyar Vahabzadə poeziyasının psixoloji mövcudluğundan onunla birlikdə mənəvi-əxlaqi və fəlsəfi-estetik dəyərlər də doğulmuşdur. Sənətkarın poeziyasının mənəvi-əxlaqi dəyərləri çox zəngindir. Ümumən, insanın daxili aləminə nüfuz AMEA-nın müxbir üzvü Yaşar Qarayev demişkən, Bəxtiyar Vahabzadənin uğurlu səyahətidir: "Belə bir hazırlıq şairin üçüncü planetə – insanın daxili aləminə daha uğurlu səyahəti üçün də ən yaxşı zəmin olur. Bəxtiyar Vahabzadənin yaradıcılığında üçüncü mərhələ – yetmişinci illər məhz bu üçüncü planetin əsas bədii təsvir və təhlil predmetinə çevrildiyi dövrdür. Onun bu illərdə yazdığı əsərlərdə poetik dialoqun ən əsas forması artıq "mən və dünya", "mən və zaman" deyil, bəlkə "özümlə özüm", "mənlə mən", "Bəxtiyarla Bəxtiyardır". "Dağda şəlalə kimi", "Sürət", "Özümü axtarıram", "Özümüzdən öyrənək", "Özümdən narazıyam", "Nəsənsə, özün ol", "İkinci səs", "Şəhidlər" – bu əsərlərin adlarının özü də dediyimiz mərhələnin xüsusiyyətlərini yaxşı ifadə edir".[2]

Şairin poeziyasının mənəvi-əxlaqi dəyərlərinin ifadəsi daha yaxın məsafədən, deyək ki, ailə-məişət, qohum-qonşu münasibətlərindən başlanmışdır. Böyümüş və dünyəvilik mahiyyəti kəsb etmişdir. "Mənim bir qonşum var" (1956), "Üzük", "Qeyrət" və "Qonaq" şeirləri bu baxımdan səciyyəvidir.

Bəxtiyar Vahabzadə poeziyasında insan obrazı mühüm yer tutur. Məsud Əlioğlu "Şair ləyaqəti, şair sevgisi" məqaləsində yazır: "İnsan mənəvi ləyaqətin rəmzidir və bu ləyaqəti qiymətləndirən həlledici qayə – Vətənə, xalqa və ümumən, bəşəriyyətə insanın nə dərəcədə və nəyə görə gərəkli olmasıdır. İnsan öz-özünə lazım olmalıdır ki, cəmiyyət ondan faydalansın. Yox əgər insan yalnız özünə lazımdırsa, bax bu, doğrudan da, müdhiş faciədir. Şairin yandırıcı və qəzəbli bir dillə Vətənin karına gəlməyən miskin, yaramaz insanları yerində lənətləndirməsi də, bu cəhətdən diqqətəlayiqdir. Müəllifin son illərdə yazdığı "Təzadlar", "Baş", "Zərrə-dünya", "Siqnallar", "Kor", "Uzaqlarda-yaxınlarda", "Ölüm-həyat" şeirlərində yaşadığımız əsrin mürəkkəb və ziddiyyətli məsələlərini, düyünlü-anlaşılmaz, hikmətli və hələ də dərkedilməz bir planet olan insanın mənəvi fikir aləmini müasir, ayıq və düşüncəli vətəndaşın nəzərləri baxımından araşdırmaq meyli xeyli qüvvətlidir".[3]

Bəxtiyar Vahabzadə bütün yaradıcılığı boyu insan mövzusunu davam etdirmişdir, onun mühakiməsini qurmuş, qeyri-adiliyi, zəkanı, zəifliyi, aciz-

[1] Maarifə Hacıyeva. Bəxtiyar taleli şairimiz. "Sovet kəndi", 17 avqust 1985
[2] Yaşar Qarayev, Şamil Salmanov. Poeziyanın kamilliyi. – Bakı: Yazıçı, 1985, s.97
[3] Məsud Əlioğlu. Şair ləyaqəti, şair sevgisi. "Ədəbiyyat və incəsənət", 26 fevral 1972

liyi, hünəri, qeyrəti, qəhrəmanlığı göstərmişdir. Fəqət hamısı təzadlı həyat kimi, işıqda kölgə, ayrılıqda vüsal kimi! Başqa sözlə, İnsanda Zaman, İnsanda Fəlsəfə, Fəlsəfədə İnsan və Zaman kimi! Filosof Rahid Ulusel deyir: "Sənətkarın diqqətində dayanan İnsan və Zaman – onun yaradıcılığında ümumi, mücərrəd anlayışlar kimi deyil, konkret, realist təhlilini tapan obrazlar kimi səciyyələnə bilər. Bəxtiyar Vahabzadə ən dolğun şeirlərində cəmiyyətin sosial ab-havasını, bu günün əxlaq və mənəviyyat qatlarını, bəşəri-sual-problemləri, tarixin və çağdaşlığın ortağı kimi – cilalanmış, sınanmış səviyyələrdən dəyərləndirir. Onun lirik-fəlsəfi yaradıcılığına mövqe və dünyagörüşü aydınlığı, konsepsiya tamlığı, poetik-həyati əqidənin dəyişməzliyi xasdır".[1]

Bəxtiyar Vahabzadə insanın altruist keyfiyyətlərinin tərcümanı kimi çıxış etmişdir. Qeyrət torpağı göyərdən iki qüvvədən, məhəbbətdən biridir. İnsanın məhəbbətindən insan doğular. "Fitrəti, mayası, cövhəri qeyrət." Qeyrətsiz insanda insanlıq olmaz. Ürək qeyrətdən od almayırsa, torpaq, yağış və günəşdən güc götürməyirsə, qeyrət deyil.

"Yaxın uzaq oldu" (1980) şeiri buqələmunları, mənəviyyatsızları tənqid edən şeirdir. Şair tənqidi, ifşanı yaxın məsafədən birbaşa hədəfə, nifrətlə yox, qayğıyla, mühakiməli, düşündürücü tuşlayır. Məntiqin qanunları, eyniyyət, ziddiyyət, üçüncünü istisna və kafi əsas qanunları obrazlı olaraq öz işini görür:

Oynama qarşımda "mədəniyyət"i,
Çölün bir söz deyir, için ayrı söz.
Zahirdə axtarma sən ləyaqəti,
Divar tez uçular axı təməlsiz.[2]

Bəxtiyar Vahabzadə fəlsəfəsinin əsasında dünya və insan dayanır. Professor Yaşar Qarayev demişkən: "Şair həm tarix, həm də dünya adlı iki planetə eyni vaxtda səyahətə çıxır. İnsanı da iki qoşa planetdə –zaman və bəşər laylarında təsvir edən şeir və poemalarını yazır. Onun "İnsan və zaman", "Mən və dünya" silsilələri tarix etibarilə bu vaxtdan başlayır".[3]

Vətən, torpaq, tarix, Azərbaycan, millilik və bəşərilik Bəxtiyar Vahabzadə vətənpərvərliyinin, humanizminin cövhəridir. Onun İnsanı yanar ürəyə, sevən qəlbə, ehtiraslı ruha malikdir.

Bəxtiyar Vahabzadənin insanı özündən, oxucularından, məhəbbətdən, təbiətdən, torpaqdan, vətəndən, ölkələrdən, dünyadan keçmişdir. Şairin ülfət

---

[1] Rahid Ulusel. Ayağından daş asılmış həqiqətlər. Azərbaycanın Bəxtiyarı (Bəxtiyar Vahabzadənin həyatı, yaradıcılığı və ictimai fəaliyyəti haqqında məqalələr toplusu). – Bakı, 1995, s.160

[2] Bəxtiyar Vahabzadə. Yaxın uzaq oldu / Seçilmiş əsərləri. İki cilddə, II c. (1966-1981). – Bakı: Yazıçı, 1984, s.302

[3] Yaşar Qarayev. Düşündürən poeziya / Bəxtiyar Vahabzadə. Seçilmiş əsərləri. İki cilddə, I cild. – Bakı: Azərnəşr, 1974, s.5

və ünsiyyəti oxucusundan başlamışdır. Bu oxucu onun üçün qiymətləndirmə, dəyərləndirmə meyarıdır. Çünki sənətkarın poeziyası çoxmilyonlu oxucularına görədir. "Bəxtiyar Vahabzadənin poeziyasında oxucunu düşünmək, onu daim ayıq vəziyyətdə saxlamaq, həyata və fəaliyyətə səsləmək keyfiyyəti vardır və bu, onun poetik üslubunun ali məziyyətlərindəndir".[1] Bəxtiyar Vahabzadə "Müasirlik və şeirimiz haqqında" adlı məqaləsində oxucularından aldığı məktubları 3 yerə bölürdü: 1. Yeni yaranmış bəzi əsərlər haqqında tənqidi qeydlər. 2. Şeir, sənət haqqında maraqlı və mənalı suallar. 3. Yenicə çapdan çıxmış əsərlərimiz haqqında tərifnamələr.[2]

"Oxucu məktubu"nda Bəxtiyar Vahabzadə də Xəlil Rza və Məmməd Araz kimi oxucularını dilləndirmişdir. Bu məktublar nurla, təşəkkürlə doludur. Bu məktublar şairə bələdçilik də etmiş, yön də göstərmişdir. Bu məktublar şairin könlünə dayaqdır. Bəzən tənqidçilərin deyə bilmədiklərini həmin məktublar şairə söyləmişdir. Sənətkar özünü oxucu məktublarına ehtiyaclı bilmişdir. Şair "mən"i bəzən şübhələrə qapılmış, ümidsizləşmişdir də. Onda bu məktublar şair qəlbində inama dönmüşdür. Bu oxucu məktublarında düşünən beyinlərin həyəcanları, könül ağrıları, hıçqırıqları da olmuşdur. Bu məktublar şairin nəğmə və şeirlərinin sonrakı əks-sədası da ola bilmişdir.

Sənətkarın məqsədi oxucusuna dərs vermək deyil, onların qəlbinə alışan oddan atəş çiləməkdir. Bu od Nəsimilərdən əmanətdir. Bu odun nuruyla hər xalq, hər vətən həqiqətin, haqqın yolunu açıb. Bu od bizi yaşadıb, mənliyimizi zülmətlərdən keçirib. Şair şeiri od, güllə qaynağı hesab edib. Şairə görə öz şeiri olmayan bir xalq kütlədir, "amalsız bir kütlə xalq ola bilməz". Şairin kağızlar üstündə şırım-şırım olan ürək sözləri oxucularına ünvanlanan məktublardır.

Bəxtiyar Vahabzadə "Layiqəmmi mən?" (1974) şeirində xalq haqqında qənaətlərini söyləmişdir. Onun dərkində xalq – dostları, düşmənləri isə öz düşmənləridir. Şair özünü xalqın zərrəsi bilmişdir. Hesab etmişdir ki, heç bir zərrə kütlədən ayrı yaşaya bilməz. "Ayrı yaşamaz sünbüldən düşən dən". Xalq şairin sətirlərinə gələn qüvvədir. Onun əməyinə dəryalar qədər qiymət verən xalqdır. Şair hara ayaq qoyubsa, alqışlar başına gül-çiçək kimi səpilib. Xalq məhəbbəti şairi böyüdüb, onun şeiri ilə öyünüb. Fəqət sənətkar düşünüb: O, bu hörmətə layiqdirmi? Şair gücünü, səadətini onda bilmiş, yaxşını yamandan seçməyi ondan öyrənmişdir. Dəyanətdə ona bənzəməyi arzulamışdır. Xalq həmişə sənətkarın fikrində, ürəyindədir. Şeirləri onlara yazdıran xalqdır:

Xalqa arxalanan xalqsevərlərin
Özü də xalq üçün arxaya döndü.

[1] Əkbər Ağayev. Poeziyanın qələbəsi. Bakı, 7 noyabr 1984
[2] Bəxtiyar Vahabzadə. Sənətkar və zaman. – Bakı: Gənclik, 1976, s.267

Xalqa arxasını çevirənlərin
Arxası həmişə yerdə göründü.[1]

Bəxtiyar Vahabzadə insana vətəni sevməyi təlqin etmişdir. Professor Rahid Ulusel yazır: "Kiçik şeirlərindən tutmuş, monumental mənzum dramaturgiyasına qədər Bəxtiyar Vahabzadənin bütün yaratdıqlarına çıraq olan amal – Vətən təəssübkeşliyi, Vətən uğrunda mücahidlik, haqq savaşıdır... Bu günkü Milli Dirçəlişi namuslu və doğru sözün yasaq edildiyi, azad fikrin məhbəsə salındığı çağlarda yetişdirən, hazırlayan kəslərdən biri də məğrur gənc – Bəxtiyar Vahabzadə idi. Ömrünü Vətən intibahı üçün əridən dünyagörmüş, zülm çəkmiş Bəxtiyar Vahabzadə bu gün öz mübariz gəncliyini gənclərin sırasında birgə yaşayır".[2] Şair elinə, dilinə biganə olanları nifrətlə pisləmişdir. Özü "Bir qəlbin yükünü qatara yığsan" məqaləsində yazmışdır: "Eşq və ağıl! Bu ikisi birləşmədən sənət zirvəyə çata bilməz, onu yaradan sənətkar isə tövşüyüb yarı yolda qalar. Vətənini dəlicəsinə sevməyən, xalqına vurulmayan adamın nə dərdinə qalıb ki, vaxtilə Nobel adlı bir inhisarçı bu vətənin sərvətlərini sorub aparıb... Lakin ürəkdə vətənə böyük eşq olanda o eşq sənə bu Vətənin dostunu və düşmənini yaxşı tanıtdırır. Onda sən Nobel milyonlarının haradan toplandığını da, o pulların kimlərə paylandığını da yaxşı görəcəksən. Bu görmədə isə ağıl şairin bəsirət gözünü açır, ona həqiqəti göstərir. Eşq gözü ilə axtaran, ağıl gözü ilə görən sənətkarların atı çox yüyürək, sözü çox kəsərli olur... Budur Məmməd Araz sənətinin qüdrət qaynağı!"[3]

Bəxtiyar Vahabzadə şeirlərində mühacir insanın da obrazını yaratmışdır. "İki mühacir" şeirində iki cür mühacir ilə tanış oluruq. Vətən üçün burnunun ucu göynəyən mühacirlər var. Onlar hər gecə yuxularında, düşüncələrində vətənə uçur. Qəriblik çəkilmək bilməyən ağır dərddir. "Türbə qəbirləri əcdadımızın torpağa işləyən kökləridir". Bir insan üçün vətən torpağı ilə qürbət torpağı eyni deyildir. İnsan vətən torpağı üstündə olanda min dəfə güclü olur. Vətənsiz yaşamaq isə yaşamaq deyil. Vətəndən kənarda yaşayanlar isə mühacirlərdir":

Fəqət vətənin içində yaşayıb, ancaq
Özünü vətənə yad sayanlara,
Özgə məbədinə baş qoyanlara
Nə ad verək biz?[4]

---

[1] Bəxtiyar Vahabzadə. Layiqəmmi mən? / Axı, dünya fırlanır. – Bakı: Yazıçı, 1987, s.197, 208 s.
[2] Rahid Ulusel. Ayağından daş asılmış həqiqətlər. "Ədəbiyyat qəzeti", 1991, 24 may; Bir qalanın bürcləri. – Bakı: Elm və təhsil, 2017, s.8-33
[3] Bəxtiyar Vahabzadə. Vətən ocağının istisi. – Bakı, 1982, s.83
[4] Bəxtiyar Vahabzadə. İki mühacir / Axı, dünya fırlanır. – Bakı: Yazıçı, 1987, s.101

Vətənpərvərlik və humanizm Xəlil Rza və Məmməd Araz kimi Bəxtiyar Vahabzadənin də yaradıcılığından qırmızı xətlə keçmişdir. Şairin vətənpərvər insanının yolu, məkanı ana qucağından, laylalardan, beşikdən başlamışdır. Sonra həyət-baca, od-ocaqla tanış olmuş, bərkə-boşa düşmüş, küçəsində, yolunda, kəndində, şəhərində qərar tutmuş, təbiətindən güc-qüdrət almış, dərs götürmüş, dünyaya üz tutmuşdur. Bu vətənpərvər insan hər cür gözəlliyi gözünə, könlünə yığmış, düşünmüş, düşündürmüş, arayıb-axtarmış, suallarına cavab almaq istəmişdir.

Bəxtiyar Vahabzadənin poeziyada gözəllik nədir – sualını cavablandırarkən "Əslimiz, kökümüz" məqaləsi də köməyimizə gəlir. Şair yazmışdır: "Ali məktəbdə oxuduğum vaxt professor Əli Sultanlının Qərb ədəbiyyatından dediyi şairanə mühazirələri məni gözəllik dünyasına daha çox bağladı. Şahzadə Hamletin, qoca Lirin, qısqanc Otellonun, namus mücəssəməsi Karl Moorun faciəsini şəxsi faciəm kimi yaşayır, bu böyük qəhrəmanların haqsızlığa, riyakarlığa və zorakılığa qarşı üsyanına şərik çıxdım. Axı, bu adamlar uca duyğularla, yüksək amallarla yaşayır, şər qüvvələrlə ədalətli mübarizə aparır, gözəllik və təmizlik dünyasına can atırlar". "Əslimiz, kökümüz" ("Anamın kitabı" haqqında). Bəxtiyar Vahabzadə gözəlliyinin fitrətində dayanan zahiri effekt yox, həm də təmizlik, böyüklük və ucalıqdır!

Gözəllik Bəxtiyar Vahabzadə üçün kosmik fəza, Kosmos isə heyrətdir! "Heyrət" psixoloji "Mən" şeiri olub şairin kosmik "Mən"ini ifadə edir:

Heyrət qurtarıbsa, demək cahandan
Gözəllik köçübdür, xəbərimiz yox...

Bəxtiyar Vahabzadənin insanı vətənpərvər olduğu qədər vətəndaşdır. Gözəllik aşiqinin fikir və düşüncələrində vətəndaş birlikdir, vətənə, torpağa, dünyaya cavabdehlik məsuliyyətidir. Hər kəs vətənpərvər ola bilər, vətəndaşlıq isə əqidə bütövlüyü, məqsəd və məram aydınlığıdır. Bu mənada Bəxtiyar Vahabzadənin insan və zaman fəlsəfəsinin tutumlu ifadəsi həm də onun nadir poeziya nümunəsi olan "Vətəndaş" (1980) şeirində verilmişdir. Akademik Nizami Cəfərovun dürüst qeyd etdiyi kimi: "Bəxtiyar Vahabzadə Vətən olan şəxsiyyətdir – sözün böyük mənasında Vətəndaşdır, onun dərin inamına görə, Vətəni sevməyən şəxs vətəndaş deyil, "mənəvi mühacir"dir. Və xüsusi qeyd etmək lazımdır ki, Bəxtiyar Vahabzadənin vətəndaşlığı onun şairliyindən tutmuş, ictimai xadimliyinə qədər bütün fəaliyyətini müəyyən etməklə şəxsiyyətinin ən mühüm atributuna çevrilir. Onun həm bədii-estetik, həm elmi-fəlsəfi, həm də ictimai-publisist idrakı, müasir Azərbaycan tənqidinin patriarxlarından Məmməd Cəfərin qeyd etdiyi kimi, "bir nəfərin, yəni təkcə şairin

deyil, mənsub olduğu xalqın özünün vətəndaşlıq, insanlıq vəzifəsinin intibahını, intellektual kamilliyini dərk etməsidir".[1]

AMEA-nın müxbir üzvü, professor Yaşar Qarayev yazmışdır: "Bəxtiyar Vahabzadənin vətəndaşlıq lirikası – siyasi və estetik sentensiyaların yox, hər şeydən əvvəl canlı, narahat, axtarıcı fikrin və hissin lirikasıdır. Bu xüsusiyyət şeirdən şeirə daha da dərinləşmişdir. Bəxtiyar Vahabzadənin vətəndaşlıq lirikası, əlbəttə, ancaq vətənin tərənnümü ilə məhdudlaşmır; ümumxalq miqyaslı və dəyərli problemlər, əxlaqi və mənəvi düşüncələr də onun vətəndaşlıq lirikasının məzmun və ideyasını təşkil edir".[2]

Sənətkarın vətəndaş insanı həyat və dünya kimi təzadlarıyla olub, ölkəyə və dünyaya doğmalıq, ucalıq təlqin edir! Bəxtiyar Vahabzadə vətənimizin, xalqımızın çox şəxsiyyətləri haqqında yazmış, onlara çoxlu ithaflar həsr etmişdir. Professor Y.Qarayev yazmışdır: "Bəxtiyar şəxsiyyəti yaradıcılığında qabarıq təzahür edən şairlərdəndir. Onun poetik "Mən"i, fərdi üslubu, lirik qəhrəmanı poeziyamızın mənzərəsində aydın cizgiləri ilə seçilir. Şairin əksər şeirləri arasında bədii-fəlsəfi cəhətdən dərindən qavranılan daxili poetik vəhdət duyulmaqdadır. Bu vəhdətin ahəngi və aydınlığı həmin əsərlərə tamlıq və bütövlük, ideya, mövzu və məqsəd ümumiliyi, vahid proqram istiqaməti və məqsədəuyğunluğu verir".[3]

Sənətkar poetik fəlsəfəsində subyektiv materialistdir. Onun fəlsəfəsini hasilə gətirən psixologizm və mənəvi-əxlaqi keyfiyyətlərdir. Şairin sənət fəlsəfəsi insan fəlsəfəsidir. Fəlsəfi dərketmə Bəxtiyar Vahabzadənin intellektual poeziyasından nəşət almışdır. M.İbrahimov "Uca fikirlər, coşğun ehtiraslar poeziyası" məqaləsində yazmışdır: "Şairin bədii təfəkkürü həmişə fəlsəfi ümumiləşdirmələrə meyil edir. O, bir çox əsərində bütün bəşəriyyəti düşündürmüş və düşündürən böyük fəlsəfi məsələlərin poetik ifadəsini yaradır. Məlumdur ki, insan tarixinin böhranlı dövrlərində bir sıra ölkələrdə dini fanatizm güclənir. İndi bunu biz həm xristianlığın, həm islamın, həm də başqa dinlərin hakim olduğu ölkələrdə müşahidə edirik. Bəxtiyar Vahabzadə yeni şeirlərində orta əsr fanatizmini diriltmək istəyənlərin bu "fəlsəfəsini" puç edir".[4]

Bəxtiyar Vahabzadə "Baş" (1968) şeirində "Yaşamaq xətrinə fikri dəyişmək, Məsləki dəyişmək yaşamaqmıdır", – deməklə insan üçün fikir mövqeyinin olmasını, məslək və əqidənin vəhdətini vacib bilmişdir. İnsanın öz

[1] Nizami Cəfərov. Bəxtiyar Vahabzadə. – Bakı: Azərnəşr, 1996, s.68
[2] Yenə orada, s.69
[3] Yaşar Qarayev. Düşündürən poeziya / Bəxtiyar Vahabzadə. Seçilmiş əsərləri. – Bakı: Azərnəşr, 1974, s.5
[4] Mirzə İbrahimov. Uca fikirlər, coşğun ehtiraslar poeziyası / Azərbaycanın Bəxtiyarı (Bəxtiyar Vahabzadənin həyatı, yaradıcılığı və ictimai fəaliyyəti haqqında məqalələr toplusu). – Bakı: Azərbaycan, 1995, s.14

fərdiyyəti, fikir və düşüncəsi olanda o yaşayır! Sənətkar "Gözəl duyğular, dərin fikirlər şairi" məqaləsində yazmışdır: "Məslək eşqi! Budur hər cür qəhrəmanlığın mayası! Ölümün qapıdan içəri girdiyini görə-görə yazmaq, ölümə meydan oxumaq, ölümə qalib gəlmək deməkdir. Nə ilə? Ürəkdə çırpınan əqidənin ölməzliyinə inamla, inam hissi ilə! İnsan öz əqidəsinin böyüklüyünə, ölməzliyinə inanırkən ölüm onun qarşısında kiçilir, ölür. Axı, insanı yaşadan arzudur, fikirdir, əqidədir! Əqidəsiz insan sükansız gəmiyə bənzər".[1]

Bəxtiyar Vahabzadə fəlsəfi məntiqini, mühakimələrini həm konkret və fərdi, həm də mücərrəd və ümumi səviyyədə ifadə etmişdir. "Zaman-məkan" (1980), "Mənə iztirab ver", "Qoy bir az yatım", "Dərinsən, zirvəsən" (1980), "Səsin işığında" (1982) kimi şeirlərində şair hissi idrak səvviyyəsini: duyğu, qavrayış və təsəvvürü ifadə etmişdir. Şair hər bir predmeti, hal-hərəkəti mənalandırmış, ona fəlsəfi-estetik məna vermək istəmişdir. Məsələn, ayrılıq lirik "mən" üçün anın, vaxtın dayanmasıdır. "Zaman-məkan" şeirində lirik "mən"in sevgilisindən ayrıldığı an – yaddaşın anına, koduna çevrilir.

...Bəxtiyar Vahabzadənin fəlsəfəsi subyektiv başlanğıcla bərabər, obyektiv predmetlərdə doğulmuş, onlardan qaynaq götürmüşdür. Belə baxanda şairin fəlsəfi düşüncələrini, fikirlərini adi faktlar, predmetlər hərəkətə gətirmişdir. Lakin şairin bütün fəlsəfi görüşlərinin əsasında an, vaxt, zaman, hərəkət, həyat və ölüm dayanmışdır. Şair adiliklərdən istifadə etməklə qeyri-adi olanları, həqiqət və heyrəti ifadə etmişdir! "Baş daşında saat" (1986) şeirində sənətkar üçün vaxt və zaman əvəzsiz nemətdir.

Şeirdə ölüm və zamanın təzadı – fəlsəfəsi əks olunmuşdur. Şair başdaşına yerləşdirilmiş saat faktından çıxış edərək nə qədər mühakimələr irəli sürmüşdür. Ölüm və zamanın hikmətini əslində dərk etdiyi, mənalandırdığı sirləri, ehtizazları səsləndirmişdir. Yaşamaq (həyat) keçmiş zamanın doğumu, gələcək zamanın ölümüdür. Ölüm insan üçün (yaşamaq, həyat) gümandır. Ölümün gerçəkliyində zaman dayanır. Dünyadan köç, əslində, keçmişə (vaxta) gömülməkdir. Vaxt, zaman donanda (qəbir daşlarında susan saat əqrəbləri) nə qədər qəribə görünür saat! Şair daha dərin fəlsəfi-psixoloji hallara dalır. Şairin hissi, duyğusu köz kimidir, içərisi daha odlu, daha hərarətlidir. Bu isə məntiq, məna və mahiyyətdədir. Ölümlə həyat da ikilidir. Üst qat (həyat) vaxta və zamana – alt qata (ölüm) sığmır. Həyat – vaxta, anlara sığır. Ölüm isə zamana, saata sığmır. Necə ki həmişə gələcək zaman öndə, genişlikdədir. Keçmiş zaman isə "yatır qəbirdə".

Vaxt – yerin üstündə keçəridirsə,
Əbədiyyət olur yer altında an.

[1] Bəxtiyar Vahabzadə. Gözəl duyğular, dərin fikirlər şairi / Sənətkar və zaman. – Bakı: Gənclik, 1976, s.58

Yerin üst qatında o dövr edirsə,
Yerin alt qatında nüvədir zaman.[1]

Bəxtiyar Vahabzadə həyatla bərabər, ölüm mövzusunda da yazmışdır. "Nəhayət, şairi zaman və yoxluq, zaman və ölüm səltənəti arasında əlaqə və təzadlar mövzusu narahat etmişdir ("Nekroloq", "Baş daşı"). Maraqlıdır: qəbiristanlıq, adətən, zamansızlıq assosiasiyası doğurur. Çünkü ölülər üçün vaxt anlayışı yoxdur. Ölən üçün saat və ürək eyni vaxtda dayanır. Lakin zamanın bu yoxluq səltənətində də şair mənalı zaman və an ölçüləri tapır: burada zaman vahidi – məzarlardır! Qəbiristanda şair zamanın məzar-məzar hərəkətini cisimləşdirmiş və əyaniləşdirmişdir. Şairə görə zamanın başqa bir qəribə vahidi də vardır – Nekroloq! Ona ömrün sərhədlərini göstərən rəqəmlər həkk edilir. Lakin şair nekroloqda rəqəmlərin yox, əməllərin, arzuların ifadəsini görmək istəyir.[2]

"Ölüm haqqında düşüncələr" (1986) şeirində ölümün fəlsəfəsi belədir: şeirdə güman, şübhə, inam, hökm, sual, cavab, təskinlik və heyrət ölüm düşüncəsindən alınıb poetikləşdirilmişdir. Ölüm – yox və var birgəliyidir. Yox olanın yenidən doğulması arzudur, istəkdir: – Bu, bəşəriyyətin ulu niyyətidir. Fəqət varlıq əbədiyyətdir! Ölüm də yoxluğun əbədiyyətidir! Şair var olanın fəlsəfi antitezasını yox anlayışında düşünmüşdür.

Bəxtiyar Vahabzadə ölümlə həyatın, anla əbədiyyətin, məkanla aləmin antitezasını yaratmışdır. Kəmiyyət və keyfiyyət dəyişmələrini – poetik hərəkəti, əksliklərin vəhdəti və mübarizəsini – poetik mövcudluğu, inkarı inkar – obyektiv tarixi zərurəti, zamanı göstərmişdir. Bu baxımdan mütəfəkkir sənətkarın "Tarix" şeirində tarix haqqında fəlsəfi məntiqi dərindir:

Hələ unuduldu Quran da, din də,
Keçib gəldiyimiz yollar anıldı.
Əridik özgələr, yadlar içində,
Hünərli, zəfərli illər danıldı.
Tarixdir hər daşın, qayanın yaşı,
Tarixlə bağlıdır insan yurduna.
Yox isə bir xalqın tarix yaddaşı,
Vətən də quruca torpaqdır ona.[3]

"Nəyinsə ilkidir, nəyinsə sonu" (1985) şeirində hərəkət yaşamağın, əbədiyyətin meyarı kimi mənalandırılmışdır: Dünya fırlanır ki, zamanı önləyib

[1] Bəxtiyar Vahabzadə. Baş daşında saat / Axı, dünya fırlanır. – Bakı: Yazıçı, 1987, s.186
[2] Yaşar Qarayev. Düşündürən poeziya / Bəxtiyar Vahabzadə. Seçilmiş əsərləri. İki cilddə, I c. – Bakı: Azərnəşr, 1974.
[3] Bəxtiyar Vahabzadə. Ümidə heykəl qoyun / Tarix.– Bakı: Yazıçı, 1993, s.47

ötən olmasın. Dünya fırlanır ki, ələ keçməsin, ətəyindən tutan olmasın. Dünya fırlanır ki, an idrakın önündə əyilməsin. Dünya fırlanır ki, insan ölməmiş dünyadan dünyaya keçə bilməsin. Dünya fırlanmasa, həyat, yer təzələnməz. Dünya nəyinsə ilki, nəyinsə sonudur. Dünya fırlanmasa, son ilkə dönməz. Şair iqrari hökm etmişdir:

Dünya fırlanır ki, biz də onun tək,
Fırlanıb qanmayaq min bir felini.
Dünya fırlanır ki, tapa bilməyək,
Onun nə sonunu, nə əvvəlini.[1]

...Bəxtiyar Vahabzadənin qiymətli poema və pyeslərində də insan konseptinin dərin psixoloji və fəlsəfi qatları ifadə olunmuşdur. Xalq şairi Bəxtiyar Vahabzadə *psixoloji-fəlsəfi poemaların* müəllifidir.

"Atılmışlar"[2] (1976-78) poemasını şair anasının xatirəsinə həsr etmişdir. Əsər yarım bölmələr şəklindədir, lirik-epik təhkiyə formasındadır. Süjetlidir. Bir ana körpəsini atmaq istəyir. Nədən? Bu ana bir vaxt sevilib, sonra atılıb. O da balasını atmaq niyyətindədir. Fəqət tərəddüddədir. İçini alov qarsımışdır. Bu ana kənddən şəhərə gəlmiş, dərs oxumuş, sənət öyrənmişdir. Fəqət məhəbbət dərsindən kəsilmişdir. Bu "körpə"si də onun qiymətidir... 20 yaşlı bu qadın səhvindən əzab çəkir... Dövlət, hökumət atılmış uşağa sahib çıxır...

"Ağlar – güləyən"[3] (1962) poemasında da Bəxtiyar Vahabzadə təsvirlərini lirika üzərində kökləmişdir. Ona görə də bu poema da bölmələr üzərində qurulmuşdur. Poemanın təhkiyəsi konkret adlardan ibarət olan bölmələrdən ibarətdir. Poema M.Ə.Sabirə həsr edilmişdir.

"Yollar və oğullar"[4] (1962-63) poeması sənətkarın "Etiraf" əsəri quruluşundadır. Proloq, epiloq və fəsillərdən ibarətdir.

Epiloqda şair bildirmişdir ki, səkkiz il fransızlar tərəfindən Əlcəzairdə işğal qanı axıdılır. Tarix bir millətlə oyun oynayır. B.Vahabzadə epiqrafda verdiyi ilk beyti epiloqda təkrar etmişdir: "İnsan azadlığı ilk arzu sanmış"... Bayraq qalxır, Parisdən Əlcəzairə uzanan əllər kəsilir. Bayraq qalxır, əsarətdən xilas olanlar vətəndaşlıq hüququ qazanır...

"Hər baharın öz qaranquşu"[5] (1963) yığcam, lirik poemadır, bölmələrdən ibarət deyil. Həsrətin (Zülfüqarın dostu) oğlu Əvəz, nəvəsi Eldardır. Atası

---

[1] Bəxtiyar Vahabzadə. Nəyinsə ilkidir, nəyinsə sonu / Axı, dünya fırlanır.– Bakı: Yazıçı, 1987, s.79

[2] Bəxtiyar Vahabzadə. Açılan səhərlərə salam / Atılmışlar. – Bakı: Yazıçı, 1979

[3] Bəxtiyar Vahabzadə. Ağlar – güləyən / İnsan və zaman. – Bakı: Azərnəşr, 1967

[4] Bəxtiyar Vahabzadə. İnsan və zaman / Yollar və oğullar. – Bakı: Azərnəşr, 1967

[5] Bəxtiyar Vahabzadə. Hər baharın öz qaranquşu / Bir ürəkdə dörd fəsil. – Bakı: Azərnəşr, 1966

ona təzə radio alıb. Bu səbəbdən köhnəsini atıb. Bu köhnə sözünə babası etiraz edir, – hər köhnəni atarlarmı? – deyə bildirir.

Sonra Bəxtiyar Vahabzadə Həsrəti təsvir edir.O, bu bahar çağında təkdir, qocadır. Hər şey – çiçək, ot, çinar, cavanlar sevinir, təkcə Həsrət yox. Həsrət evin çardağına qalxır. Bura bir muzeydir. Burnuna sanki naftalin iyi gəlir. Bu qəribə yerdə gördüyü hər şey ona ötən tarixlərdən söz açır. Həsrət yan otağa keçib təzə radionu açır. Təzə radioda isə tələbəsi oxuyur, sanki onun öz səsidir. O, bu səsi dinlədikcə birdən görür ki, Eldar çarpayısından qalxıb ona sarı boylanır... Qocalıq – gənclik, nəsillərin bir-birini əvəz etməsi, ənənənin davamı pozulmaz qanundur.

"Həyat – ölüm"[1] (1964-65) poeması proloq, ayrı-ayrı parçalar və epiloqdan ibarətdir. Fəsillərsizdir. Ayrı-ayrı adlarladır. Poema H.Caviddən epiqrafla başlamışdır.

"Uçun, nəğmələrim"[2] (1966) yığcam lirik əsərdir. Qəhrəman tatar şairi Musa Cəlilin xatirəsinə həsr edilmişdir.

"Qəm içində sevinc"[3] (1966)"Uçun, nəğmələrim" kimi rəqəmlərlə hissələrə ayrılmış poemadır. Lakin bu poema fərqli olaraq birinci, ikinci, üçüncü, dördüncü, beşinci söhbəti əhatə etmişdir. Poema nəqletmə təhkiyəsi ilə başlanmışdır. Təhkiyə üçün epik material üstünlük təşkil etmişdir.

"Vaxt, sürət, fikir" /Fikir haqqında fikirlər/[4] (1966) də "Qəm içində sevinc", "Uçun, nəğmələrim" kimi kiçik lirik poemadır, poema-monoloqdur. Parçalar rəqəmlərlə göstərilmişdir. Fəlsəfi mühakiməlidir.

"Dörd yüz on altı"[5] poeması şairin qardaşı İsfəndiyarın xatirəsinə həsr edilmişdir. "Etiraf", "Yollar, oğullar", "Həyat – ölüm", "Təzadlar", "Dörd yüz on altı" poemaları proloqla başlamışdır. "Dörd yüz on altı" – diviziyanın döyüş yollarından bəhs edən fraqmentlərdən ibarətdir. Şair dörd ilin bəlalarına ağrımışdır. Poema adlı hissələrdən ibarətdir. B.Vahabzadə hər adlı bölmədən sonra demək olar ki, rücu vermişdir. Şair Almaniyanın birincilik iddiasını qınamışdır. Sanki onun üçün torpaq, hava, su çatışmır. Halbuki "bir qarış torpaqda yüz qarış yerin gülünü dərməyə idrakın çatar".

"Amerika gözəli"[6] (1982) poeması 1973-cü il müsabiqəsində Amerika gözəli adını almış Emma Naytın dilindən yazılmışdır. Bu qadın yoxsul ailədə doğulmuşdur. Taleyindən gileylidir. Heç olmasa müğənni olmaq istəyir. Fəqət musiqi təhsili, sənədi yoxdur. Gözəl oxumaq istəyir. Meri adlı rəfiqəsi

[1] Bəxtiyar Vahabzadə. Həyat – ölüm / Bir ürəkdə dörd fəsil. – Bakı: Azərnəşr, 1966
[2] Bəxtiyar Vahabzadə. Uçun, nəğmələrim. – Bakı: Gənclik, 1967
[3] Bəxtiyar Vahabzadə. Qəm içində sevinc. – Bakı: Gənclik, 1967
[4] Bəxtiyar Vahabzadə. Fikir haqqında fikirlər / Vaxt, sürət, fikir. – Bakı: Gənclik, 1967
[5] Bəxtiyar Vahabzadə. Dörd yüz on altı / Köklər, budaqlar. – Bakı, 1968
[6] Bəxtiyar Vahabzadə. Amerika gözəli / Özümlə söhbət. – Bakı: Azərnəşr, 1985

var. Qeybətdən uzaqdır. Giley, yalan bilmir. Meri onun səsinə, bu isə Merinin gözəlliyinə qibtə edir…

"Mərziyyə"[1] (1984) poeması proloqla başlamışdır. Epiloqu yoxdur. 4 fəsildən ibarət tərənnüm poemasıdır. B.Vahabzadə nağıl, əfsanə, bayatı, xəyal, təsəvvür, təəssürat, folklor motivlərindən faydalanmışdır.

"Mərziyyə"də Bəxtiyar Vahabzadə Mərziyyənin xatirat dəftərini ("Xatirat dəftəri"ndən 12 fərvərdin, 1348-ci il. Şəmsi (Miladi) 1969, 22 mart) varaqlamışdır. Mərziyyə Üskü qəsəbəsində müəllimdir. Ona dil verən öz qəlbinin səsidir. Mərziyyə bir vaxt Siphahidaneşdə oxumuşdur. İndi tələbələr içərisində çıxışlar edir, tətillərə çıxır. SAVAK qəzəblidir. Mərziyyə tutulub zindana atılır.

Mərziyyə millətini azad görmək istəyir. Tehranda Çerik (partizan) hərəkatı başlanmışdır. Mərziyyə də peşəkar inqilabçı kimi Tehrana gəlmişdir. "Dalğa" adlı şeirlər yazır. Tutulub zindana salınır.

"Bağışlayın, səhv olub"[2] (1985) əsəri janrına görə poema-pamfletdir. Poema epiloqla bitmişdir. Proloqu yoxdur. Səlim adlı şəxs məhkəməsiz edam edilmişdir. Həqiqət, ədalət dara çəkilmişdir. Şair qorxunu ittiham etmişdir...

"Ləyaqət"[3] (1986) poeması proloq və epiloqdan ibarətdir. Əsərdə adlı bölmələr verilmişdir. Poema ləyaqəti həyatından üstün tutan 13 yaşlı Saşa Loqvinovun xatirəsinə həsr olunmuşdur.

"İki qorxu"[4] (1988) poeması bəstəkar Qəmbər Hüseynlinin xatirəsinə ithafdır.

"Gülüstan"[5] (1959) poeması Azərbaycanın birliyi və istiqlalı uğrunda mübarizə aparmış Səttar xan, Şeyx Məhəmməd Xiyabani və Seyid Cəfər Pişəvərinin xatirəsinə həsr olunmuşdur.

Bəxtiyar Vahabzadə 40 il sonra "Gülüstan" poemasının ikinci hissəsi olan "İstiqlal"[6] (noyabr, 1999) poemasını yazmışdır. Əsəri Güney Azərbaycanı Milli Oyanış Hərəkatının liderı, professor Mahmudəli Çöhrəqanlıya həsr etmişdir. Poema rəqəmlərlə bölmələrə ayrılmışdır. Proloqu, epiloqu yoxdur. "Gülüstan" poemasının davamıdır.

"Şəhidlər"[7] (mart-iyun 1990) poeması proloqla,14-lüklə, mürəbbe ilə başlanmışdır. Epiloqla, "Son" adlı bölmə ilə bitmişdir. "Şəhidlər" poeması 1990-cı ilin 20 Yanvar şəhidlərinə, ümumən, tarixi şəhidliyə himndir.

---

[1] Bəxtiyar Vahabzadə. Mərziyyə / Özümlə söhbət. – Bakı: Azərnəşr, 1985
[2] Bəxtiyar Vahabzadə. Bağışlayın, səhv olub / Fəryad. – Bakı: Azərbaycan, 1995
[3] Bəxtiyar Vahabzadə. Ləyaqət / Axı, dünya fırlanır. – Bakı: Yazıçı, 1987
[4] Bəxtiyar Vahabzadə. Nağıl / İki qorxu.– Həyat. – Bakı: Yazıçı, 1991
[5] Bəxtiyar Vahabzadə. Nağıl / Gülüstan. – Həyat. – Bakı: Yazıçı, 1991
[6] Bəxtiyar Vahabzadə. İstiqlal / Seçilmiş əsərləri. – Bakı: Çaşıoğlu, 2005
[7] Bəxtiyar Vahabzadə. Şəhidlər. – Bakı: Elm, 1990

Bəxtiyar Vahabzadə mənzum pyeslərin də müəllifidir. Dramaturqun "İkinci səs"[1] (1968-1969) adlı pyesi üç məclis, doqquz səhnəli dramdır. Sənətkarın insanda ikinci "mən" planını elə birinci pyesindən müşahidə edirik. Bu ideya birinci məclisin birinci səhnəsində sanki epiloq kimi ifadə edilmiş, mənən ikilik mahiyyətinin göstəricisi olmuşdur.

"Dar ağacı"[2] (2000) pyesi Cəfər Cabbarlının xatirəsinə həsr edilmişdir. On üç şəkilli faciədir.

"Hara gedir bu dünya"[3] pyesi altı şəkilli dramdır. B.Vahabzadə dramda təzahürdə gizlənən mahiyyəti açmaq istəmişdir. Şair pyesin əvvəlində üç kişinin dialoqunu vermişdir. Onlar ölüm faktından söz açırlar. Sənətkar bunu proloqun dramatik sonunda da təkrar etmiş, yəni əsəri faktla başlayıb mahiyyətlə qurtarmışdır. Mahiyyət də budur ki, dünya əzəlindən, özülündən əyri qoyulmuşdur. Allahı tanıyan yox, haqq-ədalət yox...

"Özümüzü kəsən qılınc"[4] ("Göytürklər") pyesi böyük türk yazarı Nihal Atsızın xatirəsinə həsr edilmişdir. Üçpərdəli, 12 şəkilli dramdır. Bu pyes eramızın 630-cu ilində Çinin dağıtdığı I Göytürk xaqanlığının mübarizə tarixindən bəhs edir. Əsər tarixi sənədlər əsasında yazılmışdır.

"Atamın kitabı"[5] (may-iyun 1999) beş şəkilli dramdır. C.Məmmədquluzadəyə həsr edilmiş, proloqla başlanmışdır.

Əsər Mirzə Cəlilin "Anamın kitabı" pyesinin dekonstruksiyası olub tamamilə müasir planda yazılmışdır. "Atamın kitabı" dramdır, "Anamın kitabı" isə tragikomediya, yaxud melodramdır.

Pyes atanın ölüm ərəfəsi ilə başlamışdır. Ata qadını Zəhrabəyimə vəsiyyət edir. Vəsiyyət edir ki, ana övladlarına tərbiyə verməyi və təhsillərini davam etdirsin. Beləliklə, oğullar atalarının yolu ilə getməlidir. Ata onu da qeyd edir ki, zülm və zor üzərində qurulan bu rejim məhvə məhkumdur. Dağılmalıdır. Fəqət bu gələcək necə olacaqdır? Gələcəyin bizə nə gətirəcəyini ulu Tanrıdan başqa kim bilər? Ana ayıq-sayıq olmalı, uşaqları haqq yoluna yönəltməlidir. Zəhrabəyim müəllimədir.

Ata ömrünü "Dədəm Qorqud" kitabına həsr etmişdir. Kitab həbs olunmuşdur. Atanı da, "millətin milli ruhunu, kimliyini özünə göstərən, milli pasportumuz olan "Ana" kitabını millətdən gizlətmişlər". Böyük Mirzə Cəlil də anamın kitabı deyəndə milli ruhumuzun güzgüsü, ana kitabımız "Dədə Qorqud"u nəzərdə tutmuşdur. O, əsərində həmin kitabı "Bəyaz" adlandırmışdır.

---

[1] Bəxtiyar Vahabzadə. İkinci səs (Vicdan). Pyeslər. – Bakı: Gənclik, 1980

[2] Bəxtiyar Vahabzadə. Dar ağacı. Pyeslər. – Bakı: Gənclik, 1980

[3] Bəxtiyar Vahabzadə. Hara gedir bu dünya? / Hara gedir bu dünya. – Bakı: Azərbaycan, 2001

[4] Yenə orada

[5] Bəxtiyar Vahabzadə. Atamın kitabı / Hara gedir bu dünya. – Bakı: Azərbaycan, 2001

Böyük ədib bu kitabı ilə ananın, yəni vətənin doğma dili vasitəsilə vətən övladlarını kökə, birliyə çağırmışdır.

Ata övladları dünyaya gəldikcə, onların adlarını və doğum günlərini Dədəm Qorqud kitabının son səhifəsinə yazmışdır. Məqsədi-məramı bu olmuşdur ki, övladları harada olsa, inam və əqidələri vətənin timsalı olan ana kitabın ətrafında dolansın. Ata Anaya da bunu vəsiyyət etmişdir.

Qardaşlar bir-birinə müxalifdir. Lakin analarının müalicəsi işində birləşmək istəyirlər. Bu işdə belə, onlar arasında ixtilaf yaranır. Çünki ana əməliyyat olunduğu vaxtın özündə belə onlar öz aralarında mübahisəni davam etdirirlər. Hər qardaş təhsil aldığı, nüfuzlu bildiyi partiyasının, əlaqədə olduğu məmləkətlərin adını çəkir. Yenə də bu dəfə vətənin bölgüsü, regionçuluq söhbəti baş alıb gedir. Burada da qardaşlar arasında gedən söhbətlərdən məlum olur ki, onlar Avropanı yamsılayırlar. Gülbahar buna dözə bilmir. Onsuz da bəhanə edib hərənin öz partiyasına çəkiləcəyini bilən Gülbahar onları qovur. Ana isə südünə, atalarının ruhuna və əlində tutduğu kitaba and içir ki, onlar dalaşmasın... Üçüncü şəkildə oxucu, tamaşaçı Ananı evində görür. O, qızı Gülbahara xoşbəxt olmağa xeyir-dua verir... Ana xəstəxanadan evinə qayıtmışdır...

Beşinci şəkildə oğulların anasını incitdiyindən, ananın isə onları bağışladığından danışılır. Qardaşlar arasında gedən dedi-qodu isə ev-eşik, malmülk davası yox, əqidə davasıdır.

Bəxtiyar Vahabzadənin ustadlığı bundadır ki, bu qardaşları əqidə müxtəlifliyi, partiya prinsiplərinə görə axıra qədər diqqətdə saxlamışdır. Və bütün konflikt boyu, süjetin təkamül axarında onların mövqeyini ifadə etmişdir.

Gülbahar qardaşlarına qarşı sərtlik göstərir. Hesab edir ki, qardaşların "evini yıxan" onların qabaqlarına yığdığı kitablardır, masa üstünə qat-qat yığdıqları riya, yalan, çirkab dolu qəzetlərdir. Bacı qardaşlarını birliyə çağırır. Anası da eyni çağırışdadır.

Əsərin sonunda məlum olur ki, ana zəmanəsindən qorxub onların adlarını dəyişdirmişdir: Qorqud olub Rüstəm. Beyrək olub Vahid, Bayandır olub İxtiyar, Salur olub Məmmədəli, Banuçiçək olub Gülbahar. Ana hesab edir ki, daha o adları qaytarmaq olmaz. Sovet quruluşu, zəmanə dəyişməsinə baxmayaraq, daha o adları qaytarmaq olmaz. Bu, o zaman mümkün ola bilər ki, qardaşlar o adlara layiq olsunlar. Ay-ulduz günəş ətrafında dolaşdığı kimi, oğullar da anaları Zəhrabəyimin ətrafında dolanmalıdırlar. Ana hesab edir ki, daha dünyadan rahat köçə bilər. Çünki kürəkəni tapdığı ulduza "Dədə Qorqud" adı qoymaqla ana, vətəninə səssiz-küysüz, haray-həşirsiz xidmət etmiş oldu. Övladlar ananın ətrafına toplaşarkən pərdə enir... Əsərdə epiloq yoxdur.

"Fəryad"[1] (1981-1984) yeddi şəkilli mənzum dramdır. Pyes filosof şair İmadəddin Nəsimiyə həsr edilmişdir. Bəxtiyar Vahabzadə bu əsərində Allahı dərk etməyin zərurətini ifadə etmişdir.

Sənətkarın "Alim olmaq asandır", "Yollara iz düşür", "Qızıl alma (Artıq adam)" adlı pyesləri, habelə, ssenari və novellaları ("Qisas", "Duz", "Atılmamış güllə", "Yaxşılıq") da 1980-ci ildə nəşr olunmuşdur.[2]

Xalq şairi, mütəfəkkir şəxsiyyət Bəxtiyar Vahabzadə dəyərli mənzum pyesləri ilə Hüseyn Cavid və Səməd Vurğunla gələn mənzum dramaturgiyamızı ideya-fəlsəfi və sənətkarlıq baxımından xeyli zənginləşdirmişdir.

Bəxtiyar Vahabzadənin alim, publisist və ictimai xadim kimi fəaliyyəti də nümunəvi olmuşdur. Sənətkarın publisistik yazıları 12 cildlik "Seçilmiş əsərləri"nin XI və XII cildlərində toplanmışdır.

Şairin "Sənətkar və zaman"[3] (1976), "Sadəlikdə böyüklük"[4] (1978), "Vətən ocağının istisi"[5] (1982), "Dərin qatlara işıq"[6] (1986), "Gəlin açıq danışaq"[7] (1988), "Ləyaqət"[8] (1998) adlı kitablarında Vətən və istiqlal, sənətkar və cəmiyyət barəsində görüşləri, müsahibə və məktubları verilmişdir.

Bəxtiyar Vahabzadə, eyni zamanda "Səməd Vurğunun poeziyası"[9] (1951), "Xalq şairi Səməd Vurğun"[10] (həyatı və yaradıcılığı) (1956), "Səməd Vurğun"[11] (1961), "Səməd Vurğunun yaradıcılıq yolu"[12] (1964), "Səməd Vurğun"[13] (1968), "Səməd Vurğun"[14] (1984) adlı elmi əsərlərin müəllifidir.

Şairin türk, özbək, rus, Ukrayna, gürcü, tacik, Litva, ingilis, İran, alman, yuqoslav, bolqar poeziyasından tərcümələri[15] vardır.

---

[1] Bəxtiyar Vahabzadə. Fəryad. Özümlə söhbət. – Bakı: Azərnəşr, 1985
[2] Bəxtiyar Vahabzadə. Pyeslər. – Bakı: Gənclik, 1980
[3] Bəxtiyar Vahabzadə. Sənətkar və zaman. – Bakı: Gənclik, 1976
[4] Bəxtiyar Vahabzadə. Sadəlikdə böyüklük. – Bakı: Yazıçı, 1978
[5] Bəxtiyar Vahabzadə. Vətən ocağının istisi. – Bakı: Gənclik, 1982
[6] Bəxtiyar Vahabzadə. Dərin qatlara işıq. – Bakı: Yazıçı, 1986
[7] Bəxtiyar Vahabzadə. Gəlin açıq danışaq. – Bakı: Azərnəşr, 1988, 214 s.; ikinci nəşri. – Bakı: Azərnəşr, 1989
[8] Bəxtiyar Vahabzadə. Ləyaqət. – Bakı: Azərbaycan, 1998
[9] Bəxtiyar Vahabzadə. Səməd Vurğunun poeziyası. – Bakı: S.M.Kirov adına ADU, 1951
[10] Bəxtiyar Vahabzadə. Xalq şairi Səməd Vurğun (həyatı və yaradıcılığı). – Bakı: S.M.Kirov adına ADU, 1956
[11] Bəxtiyar Vahabzadə. Səməd Vurğun. – Bakı: Azərnəşr, 1968
[12] Bəxtiyar Vahabzadə. Səməd Vurğunun yaradıcılıq yolu. – Bakı: S.M.Kirov adına ADU, 1964
[13] Bəxtiyar Vahabzadə. Səməd Vurğun. – Bakı: Azərnəşr, 1968
[14] Bəxtiyar Vahabzadə. Səməd Vurğun. – Bakı: Gənclik, 1984
[15] Bəxtiyar Vahabzadə. Hər çiçəkdən bir ləçək. – Bakı: Yazıçı, 1987, 247 s.; Axı, dünya fırlanır. – Bakı: Yazıçı, 1987

***

Bəxtiyar Vahabzadə 3 hecadan tutmuş, 16 hecaya qədər lirik şeirin əlvan nümunələrini yaratmışdır. O, folklor, xalq-aşıq şeiri və klassik poeziyanın bədii qaynaqlarından yaradıcılıqla istifadə etmişdir. Bəxtiyar Vahabzadənin müstəqil mətnli 2-liyi (müfrədləri), 3-lüyü (terset və ya müsəlləsləri) yoxdur. Lakin 4-lükləri (birbəndlik katren, mürəbbe, bayatı və rübailəri), çoxbəndli qoşma, gəraylı, ustadnamə, müxəmməs, müsəddəs, qəzəl, qitə, fəxriyyə və müsəmmələri vardır. Lakin şair daha çox janr və forma keçidləri və onların verdiyi geniş bədii imkanlardan faydalanan sənətkardır.

Bəxtiyar Vahabzadə, əsasən, heca, əruz, sinkretik vəzn, ölçülü sərbəstlik, hipostasa və anaklaza formalı əsərlər yazmışdır. O, heca vəzni və onun 11-lik şəkli, əruz vəzni və onun həzəc, rəməl bəhrlərindən geniş istifadə etmişdir.

Bəxtiyar Vahabzadə əruz vəzninin də geniş imkanlarından yararlanmışdır. O, əruz vəznində qəzəl, qitə, mürəbbe, rübai və fəxriyyələr yazmışdır. Bunların içərisində qəzəlləri üstünlük təşkil etmişdir. Onun əruz vəznli şeirləri heca vəznlilər qədər siqlətli və əruzun tələbləri baxımından mükəmməldir. Şairin qəzəlləri məhəbbət, sosial və fəlsəfi-əxlaqi mövzulardadır. Şair 1950-ci illərin əvvəllərindən ömrünün sonuna qədər qəzəllər yazmışdır. Bunlar adlı və adsızdır. "Pərvaz olanda", "O axşam", "Oyanmasın", "Heyranın olsun", "Bir mənəm, bir də sükut", "Düşə bilməz", "Vardır", "Nəsən sən?", "Din", "Bütövlük", "İşıq", "Allah", "Əsgər – Şair", "Tabut gedir", "Yunis İmrəyə", "Abdulla Tukaya", "Şeirim" və başqaları şairin adlı qəzəlləri sırasındadır. Onun adsız qəzəlləri də çoxdur. Bunların əksəriyyəti məhəbbət mövzusundadır, rədifinə görədir.

Bəxtiyar Vahabzadə həm fikir, həm də bədii forma olaraq klassik Şərq (habelə Azərbaycan) ədəbiyyatının ənənələrindən bacarıqla istifadə etmiş, novator sənətkar kimi yetişmişdir.

Bəxtiyar Vahabzadə adsız şeirin, sinkretik şeirin (əruz-bəhr və hecabölgü qarışığı, müxtəlifliyi) də nümunələrini yaratmışdır ("Axtaran tapar", "Həqiqəti yaşadan", "Barıt qoxusu var", "İşıq", "Ümid, yaşa", "Yazıq vətən", "Qürbət – Vətən", "Vətən tarixi", "Bir macal ver", "Haqqa heykəl qoyuldu", "Göz, ya qulaq", "Biganəlik korluğumuz", "Sən dünyanın işinə bax", "Xəyalpərəst", "Biz nələri itirdik" və b.).

Bəxtiyar Vahabzadə lirik-epik, epik-lirik, satirik və yumoristik şeirlər də yazmışdır ("Rəisin masası", "Göz yaşı", "Özünə xəyanət", "Sərnişin", "Piyada", "Getməz söz yarası", "Ədabaz", "Təsadüf saxlayır" və b.).

Şair əsasən çarpaz dördlükdə yazsa da, bəzən yarımçarpaz qafiyəli 4-lüklər üzərində də mətn qurmuşdur. Bəzən rədifli bəndlər işlətmişdir. Sonra

çarpaz qafiyəli bəndlərlə mətni davam etdirmişdir. Daha sonra rədifli bəndlərə qayıtmış, qoşmasayağı hərəkət etmişdir və s.

***

Bəxtiyar Vahabzadə poeziyası insanın qəlb və əql aləmi, mənəvi-psixoloji və fəlsəfi-əxlaqi təbiəti ilə möhkəm bağlıdır. Bu poeziya bütün ruhunu folklor, klassik ədəbiyyat və bəşər bədii təfəkkürünün qaynaqlarından götürmüşdür. Onun poeziyası hissi idrakla məntiqi idrakın poeziyasıdır! Şair poetik idrakının bütün vüsətini duyğu, qavrayış və təsəvvürlə qidalandırmışdır. Onun bədii fikir və düşüncə fəlsəfəsi kifayət qədər intellektualdır. Bu baxımdan Bəxtiyar Vahabzadə poeziyasının anlayış, mühakimə və əqli nəticə deyilən hüdudsuz imkanları vardır. Bəxtiyar Vahabzadə poeziyamıza intellektual yaradıcılıq üslubu gətirmişdir. Onun poeziyası həyat, cəmiyyət və dünyanın dialektik qanunları, əksliklərin vəhdəti və mübarizəsi, inkarı inkar, kəmiyyət və keyfiyyət dəyişmələrinin əsrarəngiz poetik halları, habelə, məntiqin: eyniyyət, ziddiyyət, üçüncünü istisna və kafi əsas qanunauyğunluqları ilə qidalanmış, bədii təzadların poeziyası kimi fərdilik qazanmışdır.

Bəxtiyar Vahabzadə əsrarlı duyğularını, həyəcanlarını yanğı bağlayaraq ifadə etmişdir. Sənət məramına çatmaq təşnəsi ilə poetik axtarışlar aparmış və hər dəfə nail olduğu yerdən – hər uğurlu poetik mətndən yeni nəfəs, yeni sürət götürmüşdür. Bu mənada Bəxtiyar Vahabzadə poeziyası dinclik bilməyən, daim yürüşdə olan əzəmətli poeziyadır!

HÜSEYN ARİF
(1924-1992)

İkinci Dünya müharibəsindən sonra ədəbiyyatın bütün janrlarını əhatə edən yeni poetik nəsil formalaşmağa başladı. 1920-1930-cu illər bütün yaradıcılıq uğurları, ədəbi axtarışları ilə yanaşı, böyük faciələr, bütöv nəsillərin fiziki məhvi ilə nəticələnən mürəkkəb bir dövr kimi tarixə düşdü, ədəbi yaddaşın gedişatında ləngimələr, tələtümlərlə yanaşı, milli bədii yaddaşın gen yaddaşına söykənən poetik meyillər dövriyyəyə gəldi. XX əsr Azərbaycan poeziyasının S.Rüstəm, S.Vurğun, R.Rza, O.Sarıvəlli, M.Dilbazi, Ə.Cəmil kimi yaşlı və B.Vahabzadə, N.Xəzri, H.Arif, Q.Qasımzadə, Qabil, Ə.Kürçaylı, A.Babayev və İ.Səfərlinin imzaları ilə fərdiləşdirilən adlar poetik fikrin bədii təkamülündəki iki mərhələnin yaş həddini deyil, onların poeziyaya gətirdikləri bədii təsvir imkanlarının hüdudları ilə müəyyən olunur. Yeni nəsil 1930-40-cı illər şeirində hakim olan Səməd Vurğun poeziya meyarı və nüfuzu qarşısında özlərini itirmədilər, əksinə bu imzaların hər biri Səməd Vurğun qayğısının, diqqətinin sayəsində ədəbi fikir tariximizdə öz istedad hüdudları müqabilində, bəzən bundan da yuxarı dəyərlər müstəvisində yaradıcılıq yolu keçdilər, şeirimizin poetik sistem təkamülündə layiqli rol oynadılar. Bu adların yaşlı nəsillə eyni ədəbi gedişatda yaradıcılıq əlaqələri onların poetik fərdiyyəti, ayrı-ayrı üslubi təmayüllər daha səmərəli bədii təmas şəraitində formalaşmışdır.

Hüseyn Arif poeziyası uzun illərdir oxunur, bu poeziyanın yeni tərəfləri üzə çıxır, əbədi sənət meyarları səviyyəsində durmayan şeirləri böyük yaradıcılıq yolu keçmiş şairin axtarışları, "nəfəs dərmə", "təngimə" kimi qəbul olunur. Bu gün də xalqın təsəvvüründəki Hüseyn Arif obrazı onun poeziyasının diktə etdiyi ədəbi dəyərlərin, sadə, səmimi və müdrik bir şəxsiyyətin həyat dərsləri zəminində formalaşmışdır.

Həyatı. Azərbaycanın Xalq şairi, Dövlət mükafatı laureatı Hüseyn Arif (Hüseyn Camal oğlu Hüseynzadə) 1924-cü il iyunun 15-də Ağstafa rayonunun Yenigün kəndində anadan olmuşdur. Doğma kənddə yeddiillik məktəbi bitirdikdən sonra Bakı Pedaqoji Məktəbində təhsil almışdır. Əmək fəaliyyətinə müəllim kimi başlamış, II Dünya müharibəsində iştirak etmişdir. Müharibədə yaralanmış, müalicədən sonra bölük komandiri olmuşdur. Ordudan tərxis olunandan sonra Bakı Dövlət Universitetinin Şərqşünaslıq fakültəsində təhsil almışdır. Müxtəlif nəşriyyatlarda şöbə müdiri, baş redaktor işləmiş, 1982-ci ildən Azərbaycan Aşıqlar Birliyinin sədri olmuşdur.

O, bir müddət sonra M.Qorki adına Dünya Ədəbiyyatı İnstitutunda oxumuş (1951-1952), müxtəlif nəşriyyatlarda şöbə müdiri, baş redaktor işləmiş, Xarici Ölkələrlə Dostluq və Mədəni Əlaqələr Cəmiyyətində şöbə müdiri (1957-1959) vəzifəsində çalışmış, Mədəniyyət Nazirliyinin Kollegiya

üzvü olmuş, Azərbaycan Aşıqlar Birliyinin sədri (1982-1992) vəzifələrində şərəflə fəaliyyət göstərmişdir. Azərbaycan Yazıçılar Birliyinin üzvü (1949), Dövlət mükafatı laureatı (1978), Azərbaycanın Xalq şairi (1989) fəxri adına layiq görülmüşdür.

Hüseyn Arif 14 sentyabr 1992-ci ildə Bakı şəhərində dünyasını dəyişmiş, vəsiyyətinə əsasən doğma Yenigün kəndində dəfn edilmişdir.

Yaradıcılığı. 1950-ci ildə ilk şeirlər kitabı olan "Yeni həyat yollarında" nəşr edilmişdir. Ədəbi prosesin aparıcı simalarından biri olmuş, ədəbiyyat tarixində görkəmli lirik şair kimi tanınmaqla yanaşı, poema janrının da inkişafında öz yeri vardır. Azərbaycan folklorunun, xüsusən aşıq yaradıcılığının toplanması, nəşri və təbliğində müstəsna rol oynamışdır.

Hüseyn Arifin 2014-cü ildə nəşr olunmuş səkkiz cildlik əsərləri onun yaradıcılıq yolu, ədəbi-bədii camiənin onun poeziyasına verdiyi dəyər haqqında tam təsəvvür yaradır. O, poeziyaya gəldiyi gündən ictimaiyyətin diqqət mərkəzində olmuş, "bala Səməd Vurğun" statusu qazanmışdır. O, XX əsr lirik şeirinin öndə gedən nümunələrini yaratmış, 40-dan çox lirik, epik-lirik poema yazmış, müxtəlif poetik nəsillər, onların nümayəndələri haqqında yığcam söz demiş, dünya xalqları ədəbiyyatından, xüsusən də M.Lermontovdan tərcümələr etmişdir.

Hüseyn Arif poeziya tariximizə lirik bir şair kimi həkk olunub. Kitablarından birinin böyük bir hissəsi "Azərbaycan simfoniyası" adlanır. H.Arif şeiri əslində Azərbaycanın tarixi, mənəvi dünyası, milli əxlaqi dəyərləri haqqında poetik simfoniyadır. Səməd Vurğunun "Azərbaycan" şeiri H.Arif poeziyasının ideya-estetik prinsiplərini təyin edən sənət meyarı, ilham çeşməsi idi:

Göz dikmədik özgələrin
aranına, yaylağına
Aranımız, yaylağımız ola-ola.
Göz dikmədik özgələrin
torpağına, daşına biz,
Öz daşımız, torpağımız ola-ola.
Bir ürəyi iki yerə parçalayıb,
Bir ölkəni iki yerə bölməmişik.
Bir şərbətinə qonşunun
Acı qatıb,
bir kimsənin kədərinə
gülməmişik.[1]

[1] Hüseyn Arif. Azərbaycan simfoniyası. Seçilmiş əsərləri. – Bakı: Şərq-Qərb, 2004, s.16

Hüseyn Arif öz yaşıdları kimi Səməd Vurğun "poeziya tilsiminin" hüdudlarını bədii təsvirin daha konkret detallarına enməklə, həyatın adi elementlərinə poetik məna verməklə adlaya bilir. Hüseyn Arif şeirindəki sadəliyi bəzən ucuzlaşdırır, onu primitivliyə qədər endirirlər. Əslində isə, "Sadəliyin həqiqətlə birləşməsi hissin də, ifadənin də ən yüksək gözəlliyini təşkil edir" (B.Belinski).

H.Arifə poeziya aləmində qol-qanad verən, onun poetik istedadını kəşf edən Səməd Vurğun olmuşdur. "...Hüseynin "Sən dərsə gəlməyəndə" şeiri üstündə fikirlər haçalanmışdı. Bəzi tənqidçilər bu şeirin anti-pedaqoji təmayülə malik olduğunu bildirirdilər. Böyük Xalq şairimiz Səməd Vurğunun çıxışı mübahisələrə son qoydu:

– Mən Hüseynin bu şeirində, hər şeydən əvvəl böyük məhəbbət görürəm:

Mən də dərsdən qaçardım,
Sən dərsə gəlməyəndə.[1]

...Bulud kimi gur və ağımtıl saçlarını iki əli ilə geriyə doğru daraqlayan böyük şairin – o gün fasilə zamanı foyedə gənc şairə dediyi bir cümlə də yaddan çıxmadı: - Anan şair doğub səni, Hüseyn".[2]

Çoxlarının əzbər bildiyi, olduqca "sadə" poetik dildə yazılmış və Hüseyn Arif sənətinin ruhunu, köklərini, mayasını göstərən "Ay Mirzə dayı" şeirinə nəzər salaq. Bu üç bəndlik şeirdə məşhur aşığın bədii portreti fonunda şairin öz dünyaduyumu, onun poetik dünyagörüşünü formalaşdıran mənəvi məkan vaxt hüdudu tanımır, Hüseyn Arifi ömrü boyu müşayiət edir.

Sənət meydanında imtahan olur,
Hüseynin əhvalı pərişan olur.
Səsin tutulanda könlüm qan olur,
Sən niyə qocaldın, ay Mirzə dayı?[3]

Bu son misraların poetik yükü onun ifa olunduğu hava qədər mənalıdır. Mirzə dayının qocalığına şair sanki ağı deyir, öz poetik yaddaşını "beşiyə qaytarır". Bu bədii sualın fonunda bir dünya dayanır. Bu dünyanın sirlərini duymadan, şeirin ruhunu, intonasiyasını təyin edən ovqatı yaşamadan çətin ki, şairi yandırıb-yaxan səbəbin kökünü dərk edəsən. Bu şeirin yaranma prosesi, poetik bir yaddaşın başlanğıcını və sonunu Hüseyn Arif digər bir şeirində sərrast ifadə etmişdir.

Xoşladım şənliyi, meyi, məzəni,
Sevmədim sənətə ağız büzəni.

[1] Hüseyn Arif. Sən dərsə gəlməyəndə. Seçilmiş əsərləri. – Bakı: Şərq-Qərb, 2004, s.64
[2] Xəlil Rza. Anan şair doğub səni! / H.Arif. Seçilmiş əsərləri, VIII cild, s.135
[3] Hüseyn Arif. Ay Mirzə dayı. Seçilmiş əsərləri. – Bakı: Şərq-Qərb, 2004, s.128

Aşkara dinləyib Aşıq Mirzəni,
Xəlvəti ötdüyüm günlər olaydı.[1]

Bu şeirlər Hüseyn Arifin bəhrələndiyi poetik qaynaqların təcəssümüdür. Xalqın min illərin yaddaşından süzülüb gələn həyat, düşüncə vərdişlərinin dərin qatlarından gələn folklor sənəti, Vaqif, Ələsgər, Vurğun poeziyası, müdrik aşıq şeiri H.Arif poetik üslubunu təyin edən qaynaqlardır.

Hüseyn Arifi yetişdirən ədəbi mühiti, bağlı olduğu ədəbi ənənəni professor Pənah Xəlilov belə müəyyənləşdirir: "Sən (H.Arif – Ş.A.) folklorumuzu, aşıq şeirini, Vaqif və S.Vurğun poeziyasının ruhunu duymuş, onların dilini tapıb "sirrini" başa düşmüşdün. Bu mənəvi sərvətimiz elə ana laylası ilə birlikdə lap körpəlikdən sənin qulağında xoş bir sədaya dönmüş, ana südü kimi halal nemətə çevrilmişdir".[2]

Hüseyn Arif poetik qida mənbəyi olan folklor, aşıq sənəti ilə həmahəng təbiətlə ünsiyyətin lirik qəhrəman obrazını yaratmaqda harmoniyasına nail olur. Öz ilham mənbələrini ümumiləşdirib poetik manifestini bəyan edir:

Məndən təzə şeir xəbər alan dost,
Bəs yazın gəlməsi şeir deyilmi?!
Gəzməyə çıxanda çölün, çəmənin
Üzünə gülməsi şeir deyilmi?!

...Kim deyir şeirin meydanı dardır?
Sonu görünməyən bir ilk bahardır.
Neçə ki, həyat var, şeir də vardır,
Həyatın nəfəsi şeir deyilmi?![3]

H.Arif adiliyin poeziyasını yaradır. Başqa sözlə, adi oxucu üçün adi görünən əhvalat və detallarda xüsusi poetik məna görür. Bu onun şeirlərinin yaranma prosesində də hiss olunur. H.Arifin şeirlərində müəyyən süjet, əhvalat və hadisə ilə yanaşı, təbiət lövhələrinin, adi həyati müşahidələrin vəhdətini görürük. "Təbiət Höte üçün onun qarşısında açılmış ideyalar kitabı idi, amma Puşkin üçün ifadə olunmayacaq dərəcədə dilsiz füsunkarlıqla dolu canlı lövhə idi" (V.Belinski). "Təbiət düşünür", "Şeir deyilmi", "Meşəbəyi", "Bulaq", "Bənövşələr", "Bahar nəğməsi" kimi şeirlərdə poetik ovqat təbiət fonunda yaranır. Rəngarəng naxışlar bitkin lövhəyə çevrilir və təlqin olunan fikir şeirin ümumi ahəngindən doğur.

Nə əlim yetişir, nə ünüm çatır,
Möhnət sınağından keçə bilmirəm,

[1] Hüseyn Arif. Günlər olaydı. Seçilmiş əsərləri. – Bakı: Şərq-Qərb, 2004, s.152
[2] Pənah Xəlilov. Dindirir şeir məni. – Bakı: "Ulduz" jurnalı, 1973, №4, s.55
[3] Hüseyn Arif. Seçilmiş əsərləri. – Bakı, 2004, s.55-56

Bir anlıq yuxu da mənə naz satır,
Dağlarsız neyləsin dağlar həmdəmi.
Dağlarsız nə yaman qəribsəmişəm,
Görən dağlar mənsiz qəribsəyibmi?[1]

"Dağ" obrazı poeziyamızda milli ovqat, milli düşüncə yaddaşının daşıyıcısı kimi istedadlı qələm əhli tərəfindən yeni poetik tutumu ilə mənalıdır. Obrazın yaddaşı ilə şair fərdiyyəti qovuşur, poeziya tarixinə yeni ilmələr həkk olunur. "Görən dağlar mənsiz qəribsəyibmi?" – bu məhrəm nigarançılığın poeziyası obası köçmüş, duman-çən basmış, ocaq daşları qaralanan yurd yerinin ovqatını xatırladır. "Yuxunun naz satmağı" da gözlənilməzdir, yenidir. Dilin poetik imkanlarının sonsuzluğunu təsdiq edir.

Ənənəyə bağlılığın səciyyəvi, əsas cizgiləri H.Arif poeziyasının bədii ifadəsində daha ahəngdar hiss olunur. Sadəlik, səmimilik, təbiilik və rəvanlıq kimi bədii keyfiyyətlər bağlı olduğu ədəbi ənənədən süzülüb gələrək şair üçün bir növ "yaradıcılıq instinktinə" çevrilmişdir.

H.Arifin ilhamı məhz milli ruh, milli kolorit və ənənə üzərində köklənmişdir. Lakin eyni kökdə yeni havalar yaratmaq, təzə xallar vurmaq bu şeirdə ənənəyə sədaqətin yaradıcı xarakterini şərtləndirir. H.Arif poeziyasında bu keyfiyyət, hər şeydən əvvəl, şairin orijinal poetik təfəkküründə və bununla əlaqədar şeirlərinin quruluşunda, yaranma üsulunda özünü göstərir.

1950-ci illər poeziyasında əsas fikrin bədii sonluqda ifadə olunduğu şeir forması dəbdə idi. Bu forma bəzi məqamlarda özünü doğrultmur. Şeirin əvvəli və sonu arasında poetik məntiq qırılırdı. H.Arifin şeirləri isə adətən yığcamdır və ilk bəndlərlə sonuncu arasında psixoloji – anım düzümü var. "Sən mənimlə get", "Sən dərsə gəlməyəndə", "Dərələr çəkir", "Deyil", "Soruş", "Söylə yadındamı" kimi şeirlərdə poetik dialoq və bədii müqayisələr davam etdirilir və lakonik, yığcam şeirin özündə belə, müəyyən süjet, hadisə və əhvalat göz önünə gəlir.

Haranı bəyənib seçəsi olsam,
Oraya ey sənəm, sən mənimlə get,
Bir gün bu dünyadan köçəsi olsam,
Tək onda demərəm sən mənimlə get.[2]

H.Arifin poeziyasında şeirin quruluşu müəyyən süjet, əhvalat və hadisədən daha çox təbiət lövhələrinin, adi həyati müşahidələrin güclü vəhdəti ilə şərtlənir. Burada təzad, bədii müqayisə, dramatizm və romantik elementlər ümumi təəssüratın, fikir və hissin vahid axarında birləşir. Rəngarəng naxışlar bitkin lövhəyə çevrilir və təlqin olunan fikir şeirin ümumi ahəngindən doğur.

[1] Hüseyn Arif. Seçilmiş əsərləri. – Bakı, 2004, s.60
[2] Hüseyn Arif. Sən mənimlə get. Seçilmiş əsərləri. – Bakı: Şərq-Qərb, 2004, s.65

Hissi bütövlük, təbii axın, mühakimələrin qırılmaz vəhdəti şeirlərdə bədii məntiqi qüvvətləndirir.

Bu ümumi cəhətlər şairin əksər əsərlərinə aiddir. Lakin onun poeziyasında fikrin ifadəsi zamanı az fərqlənən bir neçə kompozisiya çaları müşahidə olunur. Hüseyn Arif poeziyası üçün daha xarakterik nümunələr dediyimiz yaradıcılıq xüsusiyyətlərini özündə tam birləşdirir. "Yetişməmiş", "Təbiət düşünür", "Günlər olaydı", "Deyirlər Göyçədə bir gözəl olub", "Uşaqlıq" və s. kimi şeirlərdə fikir və hiss şeirin ümumi ruhundan və məntiqindən doğur.

"Görünməz", "Söyüd payası", "Deyil", "Dərələr çəkir", "İnsan" kimi şeirlərdə əsas fikir qüvvətli bədii sonluqda ifadə olunur. Klassik şeir şəkillərindən rübai və bayatılarda olduğu kimi, burada da əvvəlki bəndlər və ya misralar bir növ hazırlıq rolu oynayır və şeirin ümumi mahiyyəti ilə psixoloji-assosiativ cəhətdən əlaqələndirilir.

Bilir, sovuşduqca illər, fəsillər
Bir çıraq başacan işıq salmayıb,
Bilir yer üzündə bu vaxta qədər
Heç kəs bu dünyanı tutub qalmayıb.
Çalışır, düşünür hər gün, hər saat
İnsanda eşqə bax, təbiətə bax.
İnanır, əbədi deyildir həyat,
İnanmır ölümə, inanmır ancaq.[1]

Gerçəkliyin dramatik elementləri və kolliziyaları ilə lirik qəhrəmanın bir sıra psixoloji məqamlarda yaxından təmasda olması Hüseyn Arifin bəzi şeirlərinə daxili dramatizm, bədii təzad və müqayisələr zənginliyi gətirir. Poetik dialoq və bədii müqayisələr elə davam etdirilir ki, yığcam, lakonik şeirin özündə belə, müəyyən süjet, inkişaf etdirilən hadisə və əhvalatlar göz önünə gəlir. "Sən dərsə gəlməyəndə", "Şeir deyilmi?", "Soruş", "Söylə yadındamı", "Unudarmı?" və s. kimi şeirlərdə kompozisiya bütövlüyünü belə keyfiyyətlər tamamlayır.

Şair varlığın əşya və hadisələri ilə mövzunun ümumi ruhu arasındakı əlaqəni psixoloji-assosiativ cəhətdən əsaslandırarkən, daha çox təbiətə müraciət edir. Bu zaman konkret mövzunun özünəməxsus xüsusiyyətləri ilə bağlı təbiətin ona müvafiq ən tipik oxşar cəhətləri seçilir. "Biz ayrı düşəli" şeiri bu cəhətdən daha səciyyəvidir. Bir ilin hicranı, həsrəti, sevgisi elə bil hər fəsildə təzə rəng alırmış:

Bulaqlar qoynunda üşüdü yarpız,
Yarpaqlar budaqdan endi aramsız.

[1] Hüseyn Arif. İnsan. Seçilmiş əsərləri. – Bakı: Şərq-Qərb, 2004, s.95

Biz ayrı düşəli bir yorğun payız
Sarı çuxasını sürüdü getdi.[1]

Hər misrada ümumi ahənglə bağlı bir hadisə, lövhə verilir. Yarpaqlar budaqdan ayrılır, gözəllər bulaqdan, yarpız da bu həsrətin soyuqluğuna tab gətirmir. Şeirin rədif qafiyələri və misraların ifadə etdiyi lövhələr arasındakı üzvi vəhdət ümumi təəssüratı xeyli zənginləşdirir:

Axdı damcı-damcı buz salxımları,
Sellər yaraladı bürcü, hasarı,
Biz ayrı düşəli bir qışın qarı
Gözümün içində əridi getdi.[2]

Göründüyü kimi, şeirdə assosiasiyalar məzmunun öz ahəngindən, ruhundan, hadisənin öz mahiyyətindən irəli gəlir. Təbiət Hüseyn Arif poeziyasında lirik qəhrəmanın əxlaqi-mənəvi qənaətlərindən tutmuş, şeirlərinin ən kiçik detallarına qədər dərin kök salmışdır.

Ümumilikdə təbiət və insan harmoniyası Hüseyn Arif poeziyasının əsas problematikasıdır. Peyzaj bu poeziyada müstəqil obraza çevrilir. Onun öz qayğıları və problemləri mövcuddur. Bir şey aydındır ki, şair təbiətin taleyi naminə narahatdır və ona qarşı məhəbbət və mərhəmət duyğuları oyatmaq üçün poeziyanın bütün bədii imkanlarından istifadə etməyə çalışır və birinci növbədə bunu konkret məqsədə yönəldir: "Dağlarda meşəyə düşən yanğının, Tüstüsü evimdə başımdan çıxıb".

Digər tərəfdən isə təbiət şair üçün müəyyən ictimai-siyasi fikrin ifadəsində bədii vasitəyə çevrilir. Təbiət ilə ictimai hadisələr arasında bədii cəhətdən əlaqə yaratmaqda dəqiq müşahidələrin rolu özünü qabarıq göstərir. Adi hadisəyə məntiqi cəhətdən ictimai çalar vermək şeirin bədii təsirini qüvvətləndirir, müqayisələrin təbiiliyi, reallığı fikrin obrazlı və yığcam ifadəsini təmin edərək onu aforizmə çevirir: "... Ağactək böyümək istəyənləri, Payatək çəpərdə saxlamaq olmaz".

Hüseyn Arif poeziyasının orijinal cəhətləri həm də müraciət etdiyi janrın poetik imkanları ilə bağlıdır. Tarixən şifahi və yazılı ədəbiyyatımız arasında əlaqənin, qarşılıqlı bəhrələnməyin inkarolunmaz göstəricisi kimi bayatı, qoşma, gəraylı, təcnis, müxəmməs və s. formalar müasir poeziyamızda da özünə vətəndaşlıq hüququ qazanmışdır. Forma etibarilə ənənəviliyi H. Arif poeziyasında klassik şeirimizin Vaqif, Ələsgər irsi ilə bağlı götürmək daha düzgün olar. Onun ənənəyə fəal, yaradıcı münasibəti klassik formaların yeni poetik imkanlarının kəşfi ilə nəticələnir.

[1] Hüseyn Arif. Biz ayrı düşəli. Seçilmiş əsərləri. – Bakı: Şərq-Qərb, 2004, s.115
[2] Yenə orada, s.115

Hüseyn Arifin həyata estetik münasibəti realdır. İnsan münasibətlərinin, onun mənəvi tələtüm və dramatizminin, hiss və düşüncələrinin ifadəsində o son dərəcə əyani və tipik lövhə, hadisə və detalları seçir. Onun realist üslubunda kövrəklik, həzinlik, ürəkdən ağlamaq və yanmaq hissi sentimental səviyyəyə endirilmir. Əksinə, belə şeirlərdə kövrəkliyə qovuşmuş xəfif romantika oxucuda qüvvətli həsrət hissi oyatmaqla yanaşı, ona böyük həyat eşqi də verir. Bu poeziyada romantika fəlsəfi vüsətli və qanadlı yox, xəfif və kövrəkdir. Belə romantik çalar daha çox təbiətin, gözəlliyin, ilk gəncliyin əlçatmazlığının bədii ifadəsində hiss olunur.

Hüseyn Arif bütün yaradıcılığı boyu, hətta məhəbbət lirikasında belə, xeyirlə şəri, müsbətlə mənfini, işıqla zülməti, gözəlliklə çirkinliyi üz-üzə qoyur. Öz poetik imkanları müqabilində klassik ədəbi fikrin əbədi və əzəli mövzularına gözlənilməz, çox yığcam bədii yozum verir.

XX əsr poeziyasının nadir incilərindən olan "Gecələr" şeiri H.Arifin bir çoxlarının düşündüyü "sadə təfəkkür sahibi" qənaətini heçə döndərir. Böyük klassiklərimizə məxsus humanizmin gözlənilməz poetik gedişlə ifadəsi bu şeirə əbədi yaşamaq haqqı verir.

Günəş dağlar arxasına keçəndə
Seçilməzdi yollar, izlər, küçələr.
Düşünərdi yolçu yola düşəndə:
Belə vaxtda gedib harda gecələr?

Yanğına bax qaranlığın canında
Nə kənd onu yaxın qoyur, nə şəhər.
Düşünürəm işıqlara baxanda;
Görən harda gecələyər gecələr.[1]

"Məlumdur ki, poeziya öz humanizmini həmişə qaranlığa və gecəyə qarşı, səhər və işıq xeyrinə səfərbər etmişdir.... Təbiətin gecəsi üçün də poeziya "təbii qoruğa" çevrilir! Təbii gecəni də süni işıqlardan şair qoruyur".[2]

H.Arifin bütün yaradıcılığının və şəxsiyyətinin mənəvi-fəlsəfi, əxlaqi tutumu burada poetik ifadəsini tapır. Çünki Hüseyn Arif nəcib duyğular şairidir. Burada yüksək ton, boş hayqırtı yoxdur. Gözlənilməz poetik təzadlar, müqayisələr məntiqindən doğan çarəsiz, çıxılmaz mənəvi durumun yaşantıları əks olunmuşdu. Oğlu Arifin faciəli taleyi onun yaradıcılığının son mərhələsinin ovqatını, fəlsəfi tutumunu müəyyən etdi, poetik kəşf səviyyəsində deyilmiş misralarla tamamladı.

[1] Hüseyn Arif. Seçilmiş əsərləri. İki cilddə, I c. – Bakı: Yazıçı, 1985, s.216
[2] Yaşar Qarayev. Poeziyanın illəri və yolları. Seçilmiş əsərləri. Beş cilddə, II c. – Bakı: Elm, 2015, s.81

Dağ sökülüb, – dedilər,
Bel bükülüb – dedilər,
Arif ölüb, – dedilər,
Ölümə qurban olum.[1]

"Ölümə qurban olum" – poeziya tariximizdə nadir poetik ifadələrdəndir. Dərdin belə dəyəri, dərdin belə ağrısı yenidir, yalnız Hüseyn Arifə məxsusdur. "Ölümə qurban olum" – klassik şeir formasına yeni təravət gətirən bu şah misra şairi yandırıb-yaxan övlad acısına, ölümünə üsyandır, ölümə "acıq verməkdir", şəxsiyyətin psixoloji durumunun heyrətamiz təcəssümüdür.

Poeziya tariximizdə bir çox klassiklərimizin bəxtinə yazılmış övlad faciəsini bəşəri kədər səviyyəsinə qaldırmış Hüseyn Arifin bu mövzudakı şeirləri məhz klassikadır.

...Arifin ayağı altında yatsam,
O zaman zirvədən zirvədəyəm mən.[2]

...Yaxşı ki, həsrətin tüstüsü yoxdur,
Göz-gözü görməzdi Yer kürəsinin.

H.Arifin lirikasında xəfif bir romantika, bəşəri, əbədi sevginin poetik yozumunda çılğınlıqdan müdrik gileyə, "qayğıya" doğru həyati qənaətlərin yekununu və zirvəsini görürük.

Həyat haqqında çox zaman lirik bir ovqatda danışan Hüseyn Arif bəzən ömrü nağıla bənzədir, özü də onun yaradıcılığında az rast gəldiyimiz təhkiyə, intonasiya fonunda. Yenə də heç kimə bənzəməyən sadə, lakin müdrik bir ironiya ilə.

Dost dostdan halidir, – dedin,
Həyat səfalıdır, – dedin
Dünya vəfalıdır, – dedin,
Yalan olar,
bu boyda yox.

Ana haqqında minlərcə, yüzlərcə əsər yazılıb. Bədii sözün əksər formalarında elə Hüseyn Arif də bu mövzuya dəfələrlə qayıdıb. Müxtəlif ovqat və yaddaş, xatirə zəminində. Ona görə biri digərini təkrar etmir. Aşağıdakı misralar Hüseyn Arifin poetik düşüncəsinin dərin fəlsəfi mahiyyətini ortaya qoyur:

Torpaqmı anasız qalmasın deyə
Torpağın qoynuna köçür analar.[3]

[1] Hüseyn Arif. "Ölümə qurban olum". Seçilmiş əsərləri. – Bakı: Şərq-Qərb, 2004, s.38
[2] Hüseyn Arif. Seçilmiş əsərləri. İki cilddə, I c. – Bakı: Yazıçı, 1985, s.310
[3] Hüseyn Arif. Analar. Seçilmiş əsərləri. – Bakı: Şərq-Qərb, 2004, s.124

H.Arif poeziyasında ifadə zənginliyi həm də bədii intonasiyanın çalar zənginliyi ilə müəyyənləşir. Məsələn, qoşma formasında yazılmış onlarca şeirin özünəməxsusluğu şairin poetik üslubunu müəyyənləşdirən belə xüsusiyyətlərin üzərinə düşür. Ənənəvi formaya müasir məzmunun ifadəsi zamanı yeni bədii intonasiya aşılanır. Onun şeirlərində dilin bütün leksik vahidləri müəyyən poetik keyfiyyət əxz edir. Canlı danışıq dilinə son dərəcə yaxınlıq və fikrin yığcam ifadəsi onun bir sıra misralarını aforizmə çevirir.

Təsvirin konkretliyi və əyaniliyi öz ifadəsini yığcam dildə tapır. Onun şeir dilində bənzədilən predmetlə bənzəyən arasında uyarlıq təbii biçimdədir. Söz oynatmaq, onun yeni məna çalarlarını üzə çıxarmaq baxımından H.Arifin şeir dili müasir poeziyamızda görkəmli hadisədir:

Ürəksiz görmədim səni heç zaman,
Danışdın ürəkdən, güldün ürəkdən,
Ürək də apardı səni dünyadan,
Yıxıldın ürəkdən, öldün ürəkdən.

Canlı danışıq dilində "ürəkdən danışmaq", "ürəkdən gülmək" kimi idiomlar geniş işlənir. "Ürəkdən yıxılmaq", "ürəkdən ölmək" kimi ifadələr isə yenidir və ilk baxışda süni görünə bilər. Əlbəttə, müstəqil mənada "ürəkdən ölmək" qeyri-təbii ifadədir. Ancaq bu şeirdə yerində, özü də təbii şəkildə işlədilmişdir. Danışıq dilindən gələn ifadələrin yerli-yerində işlədilməsi bu poeziyanın bədii ləyaqətini qat-qat artırır. Bu poeziyada bədii müqayisə, bədii təzad və bədii sorğular psixoloji dəyişmələrin və münasibətlərin ifadəsinə yönəlir. Ümumi əhvali-ruhiyyənin təbii ifadəsi konkretlik və əyaniliyin, emosionallıq və musiqiliyin poetik incəlikləri ilə birləşir. Belə şəraitdə şeirin dilində poetik tutum artır, samitlərin düzülüşü misralar və bəndlər arasında alliterasiya yaradır:

... Gözümün işığı, gözümün nuru,
Gözümün önündə əriyib gedir.
***
... Düzülür boynuna inci damcılar,
Düzülür muncuqlar düzülən kimi.[1]

"q", "d", "g" səslərinin üslubi imkanlarından istifadə yaradıcılıq prosesində konkret məqsəd kimi qarşıya qoyulmur. Bu, fərdi poetik üslubun müəyyən keyfiyyəti kimi onun şeir dilinin daxili ahənginə əsaslanır.

Hüseyn Arifin poeziyasında xəfif lirizmlə yanaşı, yumşaq bir yumor, ironik bir gülüş də var. Adi danışıqda işlədilən ifadələr onun poeziyasında

[1] Hüseyn Arif. Zirvədə buz üstə ölür dağ kəli. Seçilmiş əsərləri. – Bakı: Şərq-Qərb, 2004, s.59

gözlənilməz sosial tutum aşılayır.

Hüseyn Arif lirik şairdir və onun satirik şeirləri də gözəlliyə, "lirikliyə" olan sonsuz marağından doğur. Özlüyündə həyatın neqativ tərəflərinin tənqidi də gözəlliyə xidmət edir və bu mənada H.Arif poeziyasında satirik şeirlər ictimai kəsəri etibarilə lirik şeirlərindən geri qalmır. Ancaq bu şeirlərin də ifadə tərzi, obrazları, ahəngi onun müəllifinin güclü lirik hisslərlə yaşadığından soraq gətirir. Onun bu tipli şeirlərində Ələsgər, Zakir poeziyasının və xüsusən xalq satirasının poetik xüsusiyyətləri hiss olunmaqdadır. Müəllifin seçdiyi tənqid hədəfləri tipikdir və nəticədə bu şeirlər daha geniş ümumilik qazanır:

..."Volqa" keçib, qulluğunda "Zil" durur,
Müavinlər qolu bağlı, mil durur.
Hər duranda elə bil ki, fil durur,
Sağı solun, solu sağın içində.

Müasir poeziyamızda satirik şeirlər əksərən əruzda və çox halda Sabir poeziyasının güclü təsiri ilə yazılır. Lakin H. Arifin bir sıra əsərləri göstərir ki, ümumilikdə heca və sərbəst vəzn satirada da əruzun bir çox əsrlər icra etdiyi vəzifəni öz çiyinlərinə götürmüşdür.

Hüseyn Arifin istər lirik, istərsə də satirik şeirlərində incə bir yumor və kinayə var. Bu hissi çalarlar bəzən obrazların öz səciyyəsindən, bəzən də ədəbi ənənədən doğur:

...Lehimli çənəsi, qalaylı üzü
Sürtülmüş mis kimi yanıb bərq vurur.
***
Qınama təbiəti
Bu sirri, bu hikməti
Yaş ötüb, yaşdan soruş.[1]

Birinci iki misrada yumor hissi obrazların özü, ikinci nümunədə isə daha çox ədəbi ənənə ilə bağlıdır. H.Arif cəmiyyətin kəsirlərinə də özümlü yumor müstəvisində yanaşır.

Minnətçi olmadım həyatımda mən,
Oldumsa, üzümə aşkara deyin.
Bircə xahişim var, pələngi sirkdən,
Hüseyni iclasdan azad eyləyin.[2]

Başqa misralarında isə qətiyyət var, şair mövqeyi birbaşa ifadə olunur.

[1] Hüseyn Arif. Soruş. Seçilmiş əsərləri. – Bakı: Şərq-Qərb, 2004, s.146
[2] Hüseyn Arif. Qartalla söhbət. Seçilmiş əsərləri. – Bakı: Şərq-Qərb, 2004, s.89

Xalq təfəkküründən və ədasından gələn bir tonda danışmaq H.Arifin bədii psixoloji ovqatından gəlir:

Uçuruq şan-şöhrət havasına biz,
Baxmayıb ağına qarasına biz.
Elə haram qatdıq mayasına biz,
Bu dünya düzəlsə, atama lənət. [1]

Müharibədən sonra poema janrının inkişafında ədəbiyyata yeni gələn nəslin, o cümlədən Hüseyn Arifin də müəyyən rolu olmuşdur. Onun 2014-cü ildə çap olunmuş səkkiz cildlik əsərlərinə (bu cildlərdən biri – VIII cild onun haqqında mətbuatda dərc olunmuş məqalələrdən ibarətdir) 44 poeması daxil edilmişdir. Bu poemalar 50-60-cı illərdə bu janrın məzmun və bədii keyfiyyət baxımından inkişafını özündə ehtiva edir. Poema janrının daxili tiplərinin hər birinə H.Arifin poeziyasında təsadüf edilir. "İbrahim körpüsü", "Daşkəsən", "Mileyla", "O qayıtmadı" kimi yığcam lirik poemalarından başlayaraq "Yolda", "Dilqəm", "Aşıq Alı" kimi epik poemalarda Səməd Vurğun sənətinin güclü təsiri hiss olunur. Kənddə gedən quruculuq işləri, həyatda baş verən sosial inkişafın fonunda yeni insan, yeni şəxsiyyət axtarışları bir sıra poemalarda aparıcı mövzu idi.

Lakin H.Arif lirikasındakı fəlsəfi tutumlu poetik üslubun hüdudları poema janrının tələbləri ilə həmişə üst-üstə düşmür. Geniş epik lövhələr yaratmaq istərkən şairin lirikasında gördüyümüz və sevdiyimiz parlaq poetik rənglər sanki solğunlaşır. Hüseyn Arif poeziyasında dramatik və romantik elementlər, fəlsəfi vüsət və ümumiləşdirmə tipi həyatın daha geniş lövhələrinin təsvirinə şairin zəngin imkanları müqabilində zəmin yaratmır. Bizcə, "Dağkəndi", "Yolda", "Məhəbbət poeması" kimi əsərlərin geniş şöhrət qazanması belə keyfiyyətlərdən daha çox, həmin əsərlərdəki dərin səmimiyyət, lirizm və poetik dilin fərdi gözəlliyi ilə bağlıdır. Lirik şeirlərindəki bədii keyfiyyətlər daha çox lirik-dramatik poemaların bədii zəminə çevrilir və şairin yaradıcılığında belə janr əlaqəsi qanunauyğun haldır. "Dilqəm", "Yolda", "Aşıq Alı", "Sona xanım" kimi poemalar tarixi hadisə və real şəxsiyyətin ömür yolu fonunda xalqın mənəvi sərvətləri haqqında lirik-epik səpgidə bədii mühakimələrlə xüsusi bədii dəyər kəsb etmişdir. H.Arif öz ustadının poetik obrazını yaratmaq üçün gərgin yaradıcılıq axtarışları aparmış, poema sahəsində Səməd Vurğun əməlinə söykənmişdir. Səməd Vurğunun Azərbaycan xalqının qəlbində elə möhtəşəm obrazı var ki, xalqın təsəvvürünü zənginləşdirmək üçün qüdrətli əsər ortaya gəlməli idi. Ədəbiyyatımızda hələ bu boşluq var, lakin H.Arifin bu əsərinin də tarixi ədəbi prosesdə öz yeri vardı. Ömrünün beş ilini bu əsərin yazılışına həsr etmiş H.Arif Səməd Vurğunun ömür yolunun, yaradıcılıq prosesindəki haqsız

[1] Hüseyn Arif. Bu dünya düzəlsə... Seçilmiş əsərləri. – Bakı: Şərq-Qərb, 2004, s.85

təpkilərin bir çoxuna nəzər salır, öz qəhrəmanının möhtəşəm, sənət məbədi qarşısında ehtiramını poetik bir pafosla ifadə edir:

Çoxdur açılmamış incə nöqtələr,
Xalq əziz oğlunu hey anacaqdır.
Vurğunun haqqında ən böyük əsər,
Hələ bundan belə yaranacaqdır.[1]

Ədəbi-ictimai mühitdə formalaşmış yekdil bir rəy aşağıdakı mülahizələrdə öz təsdiqini tapır. "Hüseyn Arif fitrətən lirik şairdir. O hətta epik səpgili poemalarında da lirik şair olaraq qalır. Onun lirik ricətləri, təbiət və insan psixologiyasının təsvirindəki lirizm təsdiq edir ki, bu cəhət şairin yaradıcılığında əsas aparıcı amildir və onun bütün əsərlərinin ruhuna hopmuşdur".[2]

Hüseyn Arifin poetik təfəkküründəki lirik başlanğıc onun ədəbi-bədii publisistikasında və dünya ədəbiyyatından etdiyi tərcümə seçimlərində də görünür. Hüseyn Arifin vətəndaş kimi ədəbi-ictimai mövqeyi patetikadan, süni tərənnümdən uzaqdır, bu onun bədii publisist yazılarında da aparıcı yer tutur. Onun yığcam, sadə, səlis bir dildə yazılmış məqalələri öz yaşıdları, gənc ədəbi qüvvələr haqqında ürək sözləridir. O, poeziyada təbiiliyin keşiyində duran qələm əhlidir. S.Vurğun haqqında xatirələri bu böyük şairin bizə yeni olan mənəvi keyfiyyətləri ilə yanaşı, siyasi rejimin onun ruhunu didib parçalayan məqamları həssas şair duyumu ilə nəql edir. Onun B.Vahabzadə, A.Babayev, Ə.Kərim, İ.Tapdıq, T.Elçin, A.Vəfalı və digər gənc şairlər haqqındakı məqalələri bu gün ustad bir şairin təəssüratları kimi maraqlıdır. Həm də 50-60-cı illərin bədii ab-havası haqqında təsəvvürlərin hüdudlarını genişləndirir. Klassiklər haqqında, xüsusən M.P.Vaqif, A.Ələsgər, Aşıq Alı sənətinin yaradıcılıq sirlərindən danışarkən poetik dil, xalq deyim tərzi ilə qovuşma məqamları üzərində düşünür, poeziyasındakı kimi yığcam, mənalı qənaətə gəlir: "Vaqif dili xalq dili, xalq dili Vaqif dilidir".[3]

Aşıq ədəbiyyatının, aşıq musiqisinin tədqiqi ilə bağlı elmi-təşkilati məsələlər onu daim məşğul etmişdir. Rəhbərlik etdiyi Aşıqlar Birliyi xətti ilə apardığı tədqiqat işləri ilə yanaşı, aşıqlar haqqında onlarca məqalə yazmışdır. Bu məqalələr göstərilən mövzunu mükəmməl bilən qələm əhlinin məhsuludur. "Aşıq Ələsgər haqqında", "Aşıqlarımız haqqında", "Aşıq Alı haqqında", "Bir daha Aşıq Alı haqqında", "Üç telli saz" və onlarca belə yazılar xalq sənətinə dərindən vurğun bir şairin mətbuat orqanlarında ardıcıl çıxışlarının az bir sayıdır.

---

[1] Hüseyn Arif. Seçilmiş əsərləri. İki cilddə, II c. – Bakı: Yazıçı, 1985, s.251

[2] İsmayıl Şıxlı. Elə bağlı sənətkar / Hüseyn Arifə həsr olunmuş məqalələr. VIII cild. – Bakı: MBM, 2014, s.8

[3] Hüseyn Arif. Məqalələr, xatirələr, məktublar. Doqquz cilddə, VI c. – Bakı: MBM, 2014, s.31

H.Arif poetik gedişatı daim izləyən şair idi. Öz sənət kredosunu prinsipial şəkildə müdafiə edir, qələm dostlarının yaradıcılığını da öz ədəbi-estetik meyarları fonunda dəyərləndirirdi. Uşaqlar üçün sevilib-seçilən əsərlər yazan Teymur Elçin haqqında bir neçə məqalə yazmış və bu məqalələrdə onun uğurlarını haqlı olaraq sənətkarlıq elementləri ilə bağlamışdır: "Teymur Elçini fərqləndirən cəhət uşaqlar haqqında düşünərək əl çatıb, ün yetməz uşaqlıq zirvələrinə baş vurub, böyüklərə məxsus bir bitkinliklə bu incəlikləri müasirlik baxımından təsvir, tərənnüm etməyi bacarmaqdır".[1]

H.Arif ruhuna, zövqünə yaxın olmayanlardan yazmadığı kimi, onun sənət görüşlərinə cavab verməyən şairləri də tərcümə etməmişdir. Onun poetik tərcümələrinin əksəri böyük rus şairi M.Lermontovdandır. Lermontov şeiri onun üçün dərin lirizmi, lakonikliyi, üsyankarlığı ilə, azadlıq ideallarının carçısı kimi cazibədar idi. "Azadlıq tərəfdarı, humanist sənətkar bütün xalqlara öz yurdunda, yuvasında azadlıq, müstəqillik, xoş güzəran arzulamışdır".[2]

H.Arifin Lermontovdan tərcümələri poetik tərcümənin ən sərt tələblərinə cavab verən nümunələrdir. Hər iki şairin yaradıcılığında bir-biri ilə kəsişən sənət sirləri var. Abbas Səhhət ənənələrini davam etdirən H.Arif Lermontov poeziyasının tərcümədə yeni qatlarını üzə çıxardır. "Hüseyn Hüseynzadənin (Arifin – Ş.A.) tərcümələri ona görə yaxşı təsir bağışlayır ki, o, A.Səhhət ənənəsinə sadiq qalaraq, Lermontov poeziyasının sirlərinə bələd olmuş, şairi duymuş, Azərbaycan dilinin poetik imkanlarından bacarıqla istifadə edərək gözəl tərcümə nümunələri yaratmışdır".[3]

M.Lermontovdan başqa Mixayil İsakovski, Aleksey Surkov, Qaysın Quliyev, Rəsul Həmzətov, İrakli Abaşidze, Nikolay Qorbaçov və digərlərindən etdiyi tərcümələr Azərbaycan poeziyasının beynəlxalq əlaqələrinin genişlənməsinə təkan vermişdir.

Azərbaycan xalqına əbədi mənəvi qida olan poeziya sərvətinin sahibi kimi Hüseyn Arif Azərbaycanın hər guşəsini canı, qanı qədər sevirdi. Xalq şairinin əsərləri çağdaş poeziyasevərlərin dilində və yaddaşında əbədi yaşamağa haqq etmişdir.

---

[1] Teymur Elçin. Biblioqrafiya. Bakı: Azərbaycan Milli Kitabxanası, 2014, s.34

[2] Hüseyn Arif. Məqalələr, xatirələr, məktublar. Doqquz cilddə, VI c. – Bakı: MBM, 2014, s.394

[3] Şamil Qurbanov. Müqəddimə / M.Y.Lermontov. Sevirəm Qafqazı mən (tərcümə edəni H.Arif). – Bakı: Gənclik, 1977, s.7

NƏBİ XƏZRİ
(1924-2007)

Yarım əsrdən çox yaradıcılıq yolu keçmiş, dövrünün yüksək ali mükafatlarına və fəxri adlarına layiq görülmüş Xalq şairi Nəbi Xəzri XX əsr poeziyamızın tarixində lirik şeirin və poema janrının inkişafındakı xidmətləri ilə əbədiyaşarlıq qazanmışdır. Onun lirikasının səmimi, kövrək duyğular aləmi, intonasiya fərdiliyi poeziya və musiqinin təbii uyarlığını ehtiva edən nəğmələr silsiləsi ilə tamamlanmışdır. Nəbi Xəzri ədəbiyyatın müxtəlif janrlarında əsərlər yazmış, poetik tərcümə ilə də məşğul olmuşdur.

Həyatı. Nəbi Xəzri (Nəbi Ələkbər oğlu Babayev) 1924-cü il dekabrın 10-da Bakının Xırdalan qəsəbəsində anadan olmuş, 92 saylı orta məktəbi bitirib, Bakı Dövlət Universitetinin Filologiya fakültəsinə qəbul olunmuşdur. Orduya çağrılmış, xəstəliyinə görə tərxis olunduqdan sonra bir müddət ədəbi orqanlarda çalışmış, 1947-1952-ci illərdə əvvəlcə Leninqrad Dövlət Universitetində, sonra isə M.Qorki adına Ədəbiyyat İnstitutunda təhsilini davam etdirmişdir. Azərbaycan Yazıçılar İttifaqında məsləhətçi, "Ədəbiyyat və incəsənət" qəzetində ədəbi işçi, 1958-1965-ci illərdə Azərbaycan Yazıçılar İttifaqının katibi olmuşdur. Sonralar ədəbi və dövlət təşkilatlarında yüksək vəzifələrdə çalışmış, uzun illər (1974-1992) Azərbaycanın Xarici Ölkələrlə Dostluq və Mədəni Əlaqələr Cəmiyyəti rəyasət heyətinin sədri vəzifəsində işləmiş, bir sıra Dövlət mükafatları, fəxri adlar, orden və medallarla təltif edilmişdir.

Nəbi Xəzri 2007-ci il yanvarın 15-də vəfat etmiş, Fəxri Xiyabanda dəfn olunmuşdur.

Yaradıcılığı. Nəbi Xəzri poeziyasının ideya-bədii prinsipləri II Dünya Müharibəsindən sonra ədəbiyyata gəlmiş ədəbi nəslin yaradıcılıq axtarışları zəminində formalaşmışdır. S.Vurğun, M.Müşfiq, S.Rüstəm, Məmməd Rahim kimi şairlərin meydana qoyduğu sənət kredosu bu nəslin hər biri üçün sınaq meydanı idi. Orta nəsil kimi qəbul edilmiş bu nəsil ədəbiyyata gələndə şeirimizin sabitləşmiş, poetik fikir tariximizdə xüsusi estetik mövqe qazanmış üslubları mövcud idi. 1950-1960-cı illər poetik nəslini fərqləndirən ümumi sənətkarlıq amilləri bu üslubları özündən əvvəlki ədəbi təcrübədə formalaşmış meyilləri sinkretik şəkildə dərk etməkdən yaranırdı.

Nəbi Xəzri ilə eyni dövrdə poeziyaya gələn şairlərdən B.Vahabzadə, H.Arif, Ə.Kürçaylı, Qabil, Q.Qasımzadə və digərlərinin lirik mühakiməyə meyli səmərəli və perspektivli idi. Həyatın bədii dərkində analitik tərənnüm, poetik ümumiləşdirmə bu üslubi təmayül ilə izah oluna bilər. Belə səciyyəvi xüsusiyyətlər B.Vahabzadənin şeirlərində bədii-fəlsəfi tərənnüm, bəzən də özünü təhlil, H.Arif poeziyasında təbiət hadisələrini mənalandırmaq,

Q.Qasımzadə şeirində təmkinli təhkiyə ilə müşayiət olunan süjet üstünlüyü, Nəbi Xəzri poeziyasında daha çox lirik-psixoloji anımlar şəklində üzə çıxır.

Nəbi Xəzri öz poetik manifestini belə bəyan edir:

Şeir mənim üçün bir kainatdır,
Onun ulduzları, günəşləri var.
Şeir mənim üçün sirli həyatdır,
Onun öz sevinci, öz kədəri var.[1]

Öz ilhamının poetik tutumu etibarilə daha çox təbiətə bağlı olan Nəbi Xəzrinin poeziyasında təbiətə bəslənən kövrək duyğuların, tükənməz məhəbbətin, onun taleyi naminə yüksək vətəndaşlıq hissinin ifadəsi şaqraq, həzin nəğmələri xatırladır.

Bu poeziyada təbiət daxili narahatlığı ilə çırpınan şairin mənəvi aləmində yetkinləşən obrazdır. Peyzaj bu şeirlərin estetik, emosional tərəfini yüksəltməklə yanaşı, həm də şairin hadisələrə, insan mənəviyyatının ifadəsinə münasibətinin məntiqi axarında müstəqil obraz səviyyəsinə yüksəlir. Zamanın qaynar ruhundan doğan daxili tələtüm bu obrazın səciyyəvi keyfiyyətinə çevrilir:

Gəlsin qulağına qovağın səsi,
Onlar ki, mənalı bir nəğməkardır.
Hər sınan budağın öz ah-naləsi,
Hər solan yarpağın öz dərdi vardır.[2]

Bu misralarda peyzaj bilavasitə poetik çalar və yaxud yaradıcılıq prosesində hadisələrin gedişi, qəhrəmanın psixoloji vəziyyəti ilə bağlı olub, təkcə estetik vasitə rolunu oynamır. Burada təbiət "öz ah-naləsi", "öz dərdi" ilə vətəndaş-şair narahatlığına çevrilən "canlı obrazdır". Çinar da, qovaq da, söyüd də poetik təsvirlərdə ümumiləşir, oxucuya canlı, yüksək varlıq kimi təqdim olunur. Başqa sözlə, peyzaj insanlaşır.

Ümumiyyətlə, Nəbi Xəzri poeziyasında lirik qəhrəmanın həyata, yaşamağa olan məhəbbəti, eyni zamanda təbiətə olan sevgisi kimi üzə çıxır. Bu isə vətəndaşlığın poetik ifadəsinə çevrilir. Təbiətin gözəlliyi və füsunkarlığının səmimi tərənnümü dərin vətənpərvərlik hissi ilə qovuşur.

Gör mənim qəlbimdə nə diləyim var:
Bir də gen düzlərə çıxa biləydim!
Ay əyilən söyüd, titrəyən çinar,
Sizi öz sinəmə sıxa biləydim![3]

---

[1] Nəbi Xəzri. Seçilmiş əsərləri. İki cilddə, I c. – Bakı: Gənclik, 1973, s.375
[2] Yenə orada, s.15
[3] Nəbi Xəzri. Göstərilən cildi, s.17

Burada lirik qəhrəmanın əxlaqi-mənəvi ucalığı onun təbiətə, təbii sərvətlərə münasibətinin xarakteri ilə bağlıdır. Təbiətə bəslənən sevgi hissinin həqiqi sənət yolu ilə ifadəsi təlqin olunan fikrin emosional təsirini tamamlayır. Şairin fərdi duyğuları ilə təbiətin ona uyğun ahəngi birləşib həyati nəğməyə dönür.

Susur həzin-həzin danışan söyüd,
Yarpaqlar yer ilə sürünür bu gün.
Onsuz da binadan pərişan söyüd,
Daha da pərişan görünür bu gün.[1]

Nəbi Xəzri poeziyasında çinar vətəndaşlığın, vətənpərvərlik hissinin simvoluna çevrilir. Çinarla bağlı şeirlər poetik istedadın səciyyəsində emosional və rasional tutumun genişliyini, möhkəm vəhdətini təsdiq edən real faktdır. Çinara qarşı aşıb-daşan sevgi duyğuları, ümumilikdə doğma torpağa, onun zəngin təbiətinə tükənməz məhəbbətin ifadəsidir. Lirik qəhrəmanın estetik zövqünün, duyumunun ilk göstəricisi çinardır. Onun mənəvi dünyası, gənclik duyğuları təbiətin bu gözəl sərvəti ilə vəhdətdədir. Millilik, pərvazlandığı torpağa doğmalıq çinarla bağlı duyğular axarında poetik ifadəsini tapır. Qürbət eldə də çinar onun üçün doğmalaşır, ana təbiətə qayğıkeş övlad münasibəti bu məqamda daha yüksək ifadəsini tapır:

Ayağın altında axıb çay gedir,
Gündüz günəş gedir, gecə ay gedir,
Üstündən buludlar laybalay gedir.
Sular nəğməkardır, sən də bəstəkar,
Ay bizim çinara bənzəyən çinar![2]

Təbiətə, gözəlliyə qarşı kövrək duyğularla qovuşmuş, qüvvətli hisslərin məntiqindən doğan poetik sonluq çox mənalıdır. Bu poeziyada təbiətin əksi sərhəd məhdudluğu tanımır. Şair Göygölü sevdiyi kimi İlmeni də sevir. Tatra dağları da Qafqaz kimi ona əzizdir. Eyni zamanda təbiətə qarşı vətəndaşlıq duyğuları konkret məkanın hüdudları ilə bağlıdır:

...Gözlərim görməsə Göygölü verin,
Mən onun gözüylə cahana baxım.[3]

Təbiətin poetik dərki bu poeziyada elmi-texniki tərəqqi əsrinin müəyyən qayğıları ilə bağlıdır. Həyatın tükənməz mənbəyi kimi təbiət öz gözəlliyinin poetik əksini insan, onun hiss və düşüncələri ilə vəhdətdə tapır. O öz həyat çeşməsinə amansız olanda vətəndaş-şair narahatlığı ön xəttə keçir.

[1] Nəbi Xəzri. Seçilmiş əsərləri. İki cilddə, I c. – Bakı: Gənclik, 1973, s.111
[2] Yenə orada, s.223
[3] Yenə orada, s.137

Şair oxucu qəlbinin ən incə, ən zərif tellərinə toxunur, onu şeiriyyətin gücü ilə sehirləyir. Qeyri-humanist duyğular poeziya qarşısında məğlub olur. Məhz təbiəti mühafizədə şairin və şeirin rolu belə müəyyənləşir. Bu cür poetik nümunələr başqa keyfiyyətləri ilə yanaşı, insanın təbiətə bir övlad kimi borclu olduğunu bir daha ona təlqin edir.

Qoysan lap yanına gələrəm sənin,
Oxşayıb qədrini bilərəm sənin.
Nədir üzündəki sual, ay maral?
Mən ovçu deyiləm maral, ay maral.[1]

Bu misralar şairin bir növ müasirlərinə çağırışı kimi səslənir. Təbiəti "göz bəbəyi kimi qorumağ"ı zamanın məntiqindən doğan zərurət kimi mənalandırır. Çinar məlum olduğu kimi, Nəbi Xəzri poeziyasında təbiətin, doğma Azərbaycanın rəmzi – poetik obrazıdır. Onun vətənin taleyi haqqında düşüncələri sanki zamanı qabaqlayır. Təbriz yollarında çinar görmək həsrəti də həmin düşüncələrin məntiqi davamı kimi səslənir:

Qəbrimdən
Bir ovuc torpaq alın siz,
Təbriz yollarına səpin, dostlarım!
Mən qalxım ayağa, Yer kürəsindən
Görüm ki, həsrətlər yox olmuş artıq,
Səpilən torpağın hər zərrəsindən
Bir çinar
Göyərib ucalmış artıq.[2]

Öz yaşıdları kimi N.Xəzri də Cənub mövzusunda lirik səpkili şeirlər yazmışdır. Cənub həsrəti elə dərddir ki, onun ağrı-acısı hər dəfə yeni görünən misraların ruhuna çökür. N.Xəzrinin "Təbriz bayatıları"nın da səmimi hissi başlanğıcı öz mayasını bu ağrıdan götürür:

Qar yağıbdır dizəcən,
Bu düzdən o düzəcən,
Qəlblərdə körpü olum
Uzanan Təbrizəcən.[3]

"Savalanım", "Sönməzim", xüsusən "Yandı" şeirində lirik qəhrəmanı düşündürən, ağrıdan sosial tarixi ədalətsizliyin yaralarıdır. Şair bu ağrıları öz poetik üslubuna məxsus bir tərzdə ifadə edir:

[1] Nəbi Xəzri. Seçilmiş əsərləri. İki cilddə, I c. – Bakı: Gənclik, 1973, s.106
[2] Nəbi Xəzri. Sərhədsiz göylərə baxıram. "Azərbaycan" jurnalı, 1977, №5
[3] Nəbi Xəzri. Təbriz bayatıları. "Ulduz" jurnalı, 1983, №8, s.2

Qəbrdə də gözlərəm mən,
Gəlib bir gün deyin erkən:
Vətənimə qılınc çəkən
Hicran keçdi,
Ölüm yandı.[1]

Nəbi Xəzrinin Cənubi Azərbaycanla dərin vətəndaşlıq səviyyəsində bağlılığının şahidi olan R.Həmzətov yazırdı: "Nəbinin adı İran Azərbaycanındakı qardaş-bacıları üçün də əzizdir. Belə ki, İran səfərində bu məhəbbətin mən şahidi oldum və qələm dostumun əvəzinə ürəyimdə iftixar hissləri baş qaldırdı".[2] Cənub dərdi artıq əsrlərdir poeziyanın ruhuna hopub, vətəndaşlıq meyarına çevrilib ümumən şeirimizdə, o cümlədən N.Xəzrinin də yaradıcılığında Cənub şeirlərində təkrar kimi səslənən məqamlara da təsadüf olunur. İstər-istəməz Araz obrazı, cənublu qardaşlara məktub-müraciət formaları əvvəlki estetik məzmundan, ictimai pafosdan irəli getmir.

Nigaran görüşdüm
Mehribanımla.
İllər yaşamışam
Mərd dözümlə mən!
Elə ucaldım ki,
Savalanımla,
Elə parladım ki,
Sönməzimlə mən!
Ağlaşaq, gülüşək, dostum, əzizim,
Sən ey Savalanım, sən ey Sönməzim.[3]

Nəbi Xəzrinin "səyahət dəftəri" silsiləsindən şeirlərinin hüdudları dünyanın çeşidli ölkələrinin ictimai-siyasi həyatı, tarixi, şəxsiyyətləri, təbiəti ilə bağlı mövzularda yazılıb. Avropa, Yaxın və Uzaq Şərq ölkələrinə səfər təəssüratı əsasında yazılmış "Çexoslovakiya xalqına məktub", "Qızıl payız", "Ovçu və maral", "Bethoven eşidir", "Tatra dağları", "Dunay gözəli" kimi şeirlərdə də N.Xəzri siyasi ritorikadan uzaqdır. Adətən "Xarici səfər dəftərindən" şeirlərdə siyasi motivlər daha üstün yer alır. Lakin N.Xəzrini xarici ölkələrdə insani mətləblər düşündürür. Karlovı-Varıda Bethovenin heykəli qarşısındakı poetik düşüncələr lirik şair təfəkkürünün səmimi əks-sədasıdır. Bethoven şəxsiyyəti, sənəti yenə də təbiətlə poetik bir məkanda, paraleldə dərk edilir.

---

[1] Nəbi Xəzri. Təbriz bayatıları. "Ulduz" jurnalı, 1983, №8
[2] Rəsul Həmzətov. Dostum Nəbi Xəzri haqqında söz / N.Xəzri. Seçilmiş əsərləri. İki cilddə, II c. Bakı: Gənclik, 1974, s.244
[3] Nəbi Xəzri. Savalanım, Sönməzim. "Ulduz" jurnalı, 1983, №8, s.13

Sanki asta-asta o addımlayır,
Qəlbində çağlayır məhəbbət özü.
Onu təbiət də bir Allah sayır,
Gedir arxasınca təbiət özü.

Nəbi Xəzri haqqında yazan tənqidçi və yazıçılar yekdil olaraq onu lirik bir şair kimi fərqləndirirlər. M.Arif, Y.Qarayev, Q.Xəlilov, B.Vahabzadə və digərləri onun epik səpkili əsərlərində də uğurlu sənət başlanğıcını lirizmin üstünlüyü ilə əlaqələndirirlər.

N.Xəzrinin fərdi poetik üslubunun formalaşmasında M.Müşfiq poeziyasının xüsusi yeri vardır. "Dəniz, göy, məhəbbət" şeiri ilə "Yenə o bağ olaydı"nı doğmalaşdıran gənclik eşqi, saf mənəvi duyğuların dəniz, səma məkanında qovuşmasıdır. M.Müşfiqdə xatirə işığında dəniz obrazı ilə mənəvi-estetik gözəlliyin harmoniyası vasitəsilə nadir sənət incisi yaradır. N.Xəzrinin dörd hissəyə bölünmüş şeirində isə lirik qəhrəmanın ədaları, məhəbbət haqqında qənaətləri bədii intonasiyanın çalar dəyişməsinə, təkrarsız musiqiliyinə səbəb olur:

İstəsən yuxuna gələrəm sənin,
gələrəm dəniz kimi.
Üzünə incilər çilərəm sənin,
çilərəm dəniz kimi.
Yoluna şəfəqlər səpərəm hərdən,
səpərəm dəniz kimi.
İstəsən üzündən öpərəm hərdən,
öpərəm dəniz kimi.
Adımı qəlbimin sahillərinə
yazaram dəniz kimi.
"Sevmirəm" söyləsən bir axşam mənə,
susaram dəniz kimi,
susaram dəniz kimi.

"Mən Azərbaycan şeirinin bütün dövrləri ilə tanışam. Bu xalqın istər keçmişi, istərsə də müasir poeziyasında dəniz mövzusuna Nəbi Xəzridə olduğu qədər yer verilməyib desəm, məncə, yanılmaram".[1] Məşhur rus şairinin bu müşahidələrinə onu da artırardıq ki, dəniz fenomeni milli-mənəvi yaddaşın daşıyıcısı kimi N.Xəzri poeziyasının bədii simvoludur, poetik himnidir.

"Sən doğulan gün", "Ağ çiçək", "Mavidir", "Sən danışanda", "Dağ və dəniz", "Ayrı sahillərin eyni dalğası", "Şən görünürsən", "Sən getdin" kimi

[1] Yeqor İsayev. Böyük məhəbbət poeziyası. N.Xəzri. Seçilmiş əsərləri. Dörd cilddə, IV c. – Bakı: Yazıçı, 1984, s.258

poetik nümunələrin populyarlığı musiqi ilə sözün uğurlu vəhdətinin nəticəsidir. Bu şeirlərin öz daxili ahəngindən doğan musiqi tutumu var. Ona görə də Nəbi Xəzri şeirinə yazılan musiqi mətnlərində poetik sözün yeri və rolu dərhal hiss olunur.

Nəbi Xəzrinin "Arzunun arzuları" silsiləsindən uşaqlar üçün yazdığı şeirlər təbiəti, xalqın tarixini, onun əxlaqi dəyərlərini balacalara sevdirməyin uğurlu nümunələridir. "Ana xalısı", "Ağıllı gəmi", "Günəş mənə nə dedi", "Dan yeri qızaranda", "Ana dilim" və s. şeirlər onun məramını dəqiq ifadə edir və təsirləndirirdi:

Ana gözlərindən süzən nur kimi
Hopdun ürəyimə sən gülə-gülə,
Hər kəlmən, hər sözün bəzənməyib –
Mehriban ananın təbəssümüyləmi?![1]

Nəbi Xəzri bütün yaradıcılığı boyu poema janrına müraciət etmiş, bu janrın bütün formalarında müxtəlif mövzularda əsərlər yazmışdır. Tamam fərqli mövzularda yazdığı lirik, epik-lirik poemalarında ricət müəllifin ideya-bədii məramının ifadəçisi kimi çıxış edir. "Şəhidlər və şahidlər", "Mənim babam baxan dağlar", "Ana", "İnam" kimi poemalarda poetik müraciət, monoloq və dialoqlar, lirik ricət əsas forma elementləri, əsas estetik funksiya daşıyıcıları kimi üzə çıxır. Bu əsərlərin N.Xəzrinin poema yaradıcılığına gətirdiyi yeni bədii keyfiyyət yeni poetik çalarlarla bağlıdır. Birinci əsərdə Xirosima faciəsinin şəhidləri və şahidlərinin daxili səsi onları real obraz kimi səciyyələndirir. Onların mənəvi etirazları ayrı-ayrılıqda emosional çalarlarla zəngindir. Poemada gerçəkliyin tarixən tragik bir lövhəsinin rəng çalarlarının faciəvi dərki müxtəlif mənəvi səslərlə təmsil olunur, lirik qəhrəmanın faktlara münasibəti bu səsləri müasirlərimizin dünyada sülh, əmin-amanlıq ideyaları və arzuları ilə qovuşdurur.

Poemalarında şairin müxtəlif bədii vasitələrə müraciət etməsi əsərin hisslər palitrasının müxtəlif rəng çalarları ilə bağlıdır. Belə məqamlarda lirik ahəng, romantik düşüncə gerçəkliyin oxşarlığında fərdi hisslərin, vətəndaşlıq duyğularının emosional təsirini tamamlayan əsas amilə çevrilir. Nəsimi taleyinə, Nəsimi sənətinə xitabən söylənilən "Mənim babam baxan dağlar" poemasında da çinar əsrlərdən bəri ayrı düşən dahi Vətən oğlunun taleyinə işarədir.

Bir çinar görürəm
Mehriban çinar,
Kədər pıçıldayır dodaqlarıyla
Elə kövrəkdir ki, yel vursa sınar

[1] Nəbi Xəzri. Seçilmiş əsərləri. İki cilddə, I c. – Bakı: Gənclik, 1973, s.329

Ana torpağından ayrılan
Ayrılan çinar!
Nəğməli dünyada
susar nəğməsi
Bitməmiş quru yaz
təzə pöhrəsi
Alovsuz, atəşsiz,
Odlanar, yanar.
Ana torpağından
Ayrılan çinar![1]

"Sumqayıt səhifələri", "Günəşin bacısı", "İki Xəzər" poemaları dövrün dəbdə olan əmək adamları, quruculuq işləri kimi ictimai-sosial mövzulara həsr olunmuşdur. Ancaq Nəbi Xəzrinin özünəxas bədii üslubu, lirik duyum və düşüncələri, poetik sənətkarlığı bu əsərlərin yaşarlığının təminatçısıdır. "Günəşin bacısı" əmək qəhrəmanı Sevil Qazıyevanın tragik taleyinə həsr olunub. "...Günəşin bacısı" adını ancaq Sevilə vermək olardı. Bu yığcam, təsirli, xatirə-heykəl poemanı yalnız və yalnız Sevilə həsr etmək olardı. Çünki Sevil öz adının, öz hünərinin qəhrəmanıdır".[2] Əsərin qəhrəmanının Mil torpağı ilə dialoqu poemaya dramatik bir ton verir. Şair qəhrəmanının portretini öz ənənəsinə sadiq olaraq yenə təbiətlə ünsiyyətin məcrasında yaradır:

...Dağ sükut içində, ümman düşünür,
Səni görürəm.
Mil xiffət eyləyir, Muğan düşünür,
Günəş torpaqların silir tərini,
Darayır söyüdlər hörüklərini,
Səni görürəm.

Nəbi Xəzri yaradıcılığının son dövründə dini və ədəbi dəyərlərimizə, xalqın tarix boyu qoruyub yaşatdığı milli adət-ənənələrə müstəqil bir ölkənin vətəndaşı kimi yeni meyarlarla müraciət etdi. "Atillanın atlıları", "Peyğəmbər" kimi poemaları böyük həyat təcrübəsi olan, həyat barədə xalqın tarixi və bu günü haqqında öz qənaətləri olan şair mövqeyinin ifadəsidir. "Atillanın atlıları" milli tarixi keçmişin günümüzə qədər məlum səbəblərdən qələmə alınmamış bir mövzuda yazılmışdır. Ümumiyyətlə, ötən əsrin 90-cı illərində dini dəyərlərə qayıdış islam tarixi ilə bağlı ədəbi əsərlərin də yazılmasına meydan verdi. Bir çox həmkarları kimi N.Xəzri də Məhəmməd Peyğəmbər haqqında əsər yazdı. Bu tipli əsərlərin müsbət tərəfi onda idi ki,

[1] Nəbi Xəzri. Seçilmiş əsərləri. Dörd cilddə, IV c. – Bakı: Yazıçı, 1984, s.133-134
[2] Yavuz Axundlu. Ədəbi portretlər. – Bakı: Elm, 2009, s.274

xalqın uzun illər həsrətində olduğu bir mövzunun işlənməsi üçün ədəbi-ictimai reallıq yaranmışdı. N.Xəzri də bu reallıqdan bəhrələndi və Quran motivləri, Peyğəmbərin şəxsiyyəti haqqında tarixi məlumatları yüksək mənəvi-əxlaqi dəyərlərin poetik ifadəsinə yönəltdi.

N.Xəzrinin bədii yaradıcılığında dram janrında yazılmış əsərlər də yer almaqdadır. Onun xalqın tarixi keçmişindən və müasir mövzularda "Əks-səda", "Sən yanmasan", "Mirzə Şəfi Vazeh", "Torpağa sancılan qılınc" pyesləri tamaşaya qoyulmuşdur. Mənsub olduğu poetik nəslin digər nümayəndələri kimi N.Xəzrinin də dramları bu janrın klassik poetik ölçüləri səviyyəsində olmasa da, milli-mənəvi dəyərlər ifadə edir, xalqın azadlıq idealları tərənnüm olunurdu.

N.Xəzri yaradıcılığının mühüm qollarından biri onun müxtəlif şairlərdən tərcümələridir. A.S.Puşkin, M.Lermontov, A.Tvardovski, B.Oleynik kimi rus şairlərinin, həmçinin Mişel Süleyman, Ş.Petefi, Georgi Çagarov, Ə.N.Qasim, F.Faiz kimi ayrı-ayrı xalqların ədəbiyyatından seçmə tərcümələr dünya xalqlarının mədəniyyəti ilə ünsiyyətin real nümunələri kimi dəyərlidir. N.Xəzrinin tərcümə üçün seçdiyi poetik nümunələr onun bədii dünyagörüşünə yaxın olan əsərlərdir. Onun tərcümələri səlis Azərbaycan dilindədir, bu şeirlərin tərcümə olduğu duyulmur, şair onlara yeni milli düşüncə məkanında yaşamaq haqqı verir.

N.Xəzri XX əsr Azərbaycan ədəbi prosesində bir şair, publisist, dramaturq, tərcüməçi, ictimai xadim kimi fəaliyyət göstərmiş, onun bədii irsi ədəbi tənqidin diqqət mərkəzində olmuşdur.

QABİL
(1926-2007)

XX əsrin 40-cı illərinin ikinci yarısı ədəbiyyata gələn Xalq şairi, əməkdar incəsənət xadimi, "Şöhrət", "İstiqlal" ordenli, Respublika Dövlət mükafatı laureatı Qabilin yaradıcılığında vətənpərvərlik duyğuları xüsusilə, milli azadlıq uğrunda mübarizənin və müstəqilliyin tərənnümü əsas yer tutur. O, yaradıcılığı boyu Vətənin təbiətini, cəmiyyətin, insanların fəlsəfi ruhunu əks etdirən bənzərsiz sənət əsərləri yaratmışdır. Ömrünün və yaradıcılığının son iyirmi ili Müstəqillik uğrunda mübarizə dövrünə və Müstəqillik illərinə düşən şairin bu mövzuda yazdığı yetərincə poetik nümunələri əbədiyaşarlıq qazanmışdır. Öz ədəbi yeri, mövqeyi, dəst-xəti, özünəməxsus ifadə tərzi olan Qabilin ümumi yaradıcılığı XX əsrin ikinci yarısı, XXI əsrin birinci rübü üçün Azərbaycan poeziyasının inkişafında mühüm rol oynamışdır.

Həyatı. Qabil Allahverdi oğlu İmamverdiyev 12 avqust 1926-cı ildə Bakıda anadan olmuşdur. Bakının 1 saylı məktəbində orta təhsilini bitirdikdən sonra 1944-1948-ci illərdə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Dil və ədəbiyyat fakültəsində ali təhsil almışdır. Təyinatla Yardımlıya gedən Qabil burada az bir müddət ixtisası üzrə müəllim işləmiş, Bakıya qayıdaraq "Azərbaycan müəllimi", "Ədəbiyyat və İncəsənət" qəzetlərində şöbə müdiri vəzifəsində çalışmışdır. 1954-1956-cı illərdə Moskvada M.Qorki adına Ədəbiyyat İnstitutunda ikiillik Ali Ədəbiyyat kursunu bitirmiş, 1975-1979-cu illərdə "Azərbaycan" jurnalında ədəbi işçi, baş redaktorun müavini işləmiş, ömrünün son on ilində Azərbaycan Yazıçılar Birliyində Ağsaqqallar Şurasının sədri kimi fəaliyyət göstərmişdir.

1976-cı ildə "Nəsimi" poemasına görə şair Azərbaycanın Dövlət Mükafatına layiq görülmüş, 1984-cü ildə Əməkdar incəsənət xadimi, 1992-ci ildə Azərbaycanın Xalq şairi fəxri adlarını almış, 1996-cı ildə "Şöhrət", 2006-cı ildə isə "İstiqlal" ordeni ilə təltif edilmişdir. 2001-ci ildə haqqında "Qabil" adlı film çəkilmişdir.

Qabil 4 aprel 2007-ci ildə Bakıda vəfat etmiş, I Fəxri Xiyabanda dəfn olunmuşdur.

Yaradıcılığı. Qabilin "Gəl baharım" adlı ilk şeiri 1944-cü ildə dərc olunmuş, "Səhər açılır" adlı ilk kitabı isə 1950-ci ildə çap edilmişdir. Hər iki addan göründüyü kimi, şairin ilk qələm təcrübələri təbiətin tərənnümünə həsr olunmuşdur. Lakin 1955-ci ildə "Azərnəşr"də çap olunan "Sahil işıqları" kitabının "Stalinqrad şeirləri" adlı birinci bölümü bütövlükdə müharibə və sülh mövzusuna həsr edilmişdir. Kitabda gənc şairin vətənpərvərlik duyğularını əks etdirən orijinal misraları vardır.

Qabilin şeirlərində təbiətin vəsfi, tərənnümü özünəməxsus yer tutur. Çünki onun üçün bu təbiət bir enerji, ideya, ilham mənbəyidir. Bu mənada

Qabilin ilk qələm təcrübələrindən tutmuş ömrünün müdrik çağlarına qədər yazdığı təbiət şeirlərində onun təbiətə vurğunluğu aydın görünür. Şair təbiətə insan kimi müraciət edir və təbiəti daha çox insaniləşdirir. Onun bu tip şeirlərində Vətən – Təbiət – İnsan vəhdət halındadır. Bir arada vəsf olunur. Onun poetik nümunələri həm təbiətin, həm də insan ömrünün fəsillərinə hesablanıb. "Yarpaqlar tökülür" şeirində şair Təbiət-İnsan-Gün faktorunu bəzən yan-yana, bəzən də üz-üzə əks etdirir. Qabilin "Dənizlər mavidir, meşələr yaşıl" adlı şeir toplusu bu cür şeirlərlə zəngindir.

Şair üçün mövzu qıtlığı yoxdur. O, ən adi təbiət hadisəsindən, onun küləyindən, yağışından, gülündən, çiçəyindən bənzərsiz şeir nümunəsi yarada bilmişdir. Amma bu şeirlər təkcə təbiətlə məhdudlaşmır, orada mütləq insan obrazı da var və bu poetik lövhələr insana xidmət edir. Ümumiyyətlə, Qabilin poeziyasında – ayrı-ayrılıqda bir çox şeirlərində real, təbii lövhələr çoxdur. "Suqovuşanda" əsərində Kürlə Arazın qovuşduğu məkanda şairin lirik qəhrəmanı təbiətdən, vətəndən, məhəbbətdən bəhs edir. "Dünya" şeirində təbiətlə yanaşı, kainat da baş qəhrəmandır. "Dünya məndən doyub, mən dünyadan doymamışam" misralarında fəlsəfi fikir yükü ağır olsa da, şeir təbiətlə bağlıdır. Qabil həmişə ümumi sözçülükdən qaçmış, həyat həqiqətinin real təsvirinə, təbiiliyinə və seçib yerləşdirilməsinə xüsusi tələbkarlıqla yanaşmışdır. "Qoy danışsın təbiət", "Quba bağları", "Adsız bulaqlar", "Göy-göl" və s. şeirlərində olduğu kimi. Həmçinin, şairin müxtəlif vaxtlarda qələmə aldığı "Göylərin ürəyi", "Hind okeanı", "Axşam qəribliyi", "Heç nə", "Üzr istə", "Bal gətir" kimi şeirləri təbiətin müxtəlif anlarının, zamanlarının əks-sədasıdır.

Qabilin "Dənizlər mavidir, meşələr yaşıl" adlı şeiri bir körpəyə həsr edilib. Şair hələ bələkdə olan körpəyə müraciətlə həyatın sərt üzündən, döngəsindən, ağrı-acısından danışır. Dünyanın yazı ilə yanaşı, qarlı, tufanlı qışının da olduğunu xəbər verir.

Şairin "Ulduzlar" şeiri Yardımlıya səyahətdən sonra yaranıb. Yardımlı dağlarından göy üzünü seyr edən şair tabaq-tabaq ulduzları görür, əvvəl onlara alimlərin gözü ilə baxır:

Oxumuşam neçə yol, eşitmişəm min kərə,
Ulduzun ən xırdası dünyamızdan böyükdür.
Şüası da torpağa çatır milyon illərə,
Sığmır kiçik ağlıma, şəkkim yaman böyükdür.[1]

Lakin güclə sezilən, görünən bu nöqtə ulduzların Yerdən böyük olacağına şair inanmır. Sonra bu ulduzları yerdəki "ulduzlarla" – böyük

[1] Qabil. Ulduzlar. Dənizlər mavidir, meşələr yaşıl. – Bakı: Şirvannəşr, 2003, s.26

şəxsiyyətlərlə, mütəfəkkir şairlərlə, siyasətçilərlə, sərkərdələrlə müqayisə edir:

Rafaelin fırçası, Magellanın yelkəni,
Nəsiminin inadı, Füzulinin fəryadı –
Min ulduzdan birində olubmu, varmı yəni?
Tək bizim planetin Dünya çağrılır adı![1]

Gürşad döyən, sel-sularının axıb getdiyi Yardımlı dağları bəlkə o ulduzlardan daha böyükdür, daha gözəldir.

Dörd bənddən ibarət olan "Küləkli havalarda, yağışlı havalarda" şeiri bir xatirə formasında yazılıb, məhəbbət şeiridir, lakin təbiət hadisələri – onun yağışı, küləyi daha çox göz önündədir. Burada da təbiət və insan bir arada təsvir, tərənnüm olunur:

Külək əsir, titrəyir qapı-pəncərə...
Yağış yağır, şırhaşır düşür şəhərə.
Dalda yerə çəkilir bir qız, bir oğlan
Qorxub yağışdan...Biz də belə edərdik,
Küləkli havalarda, yağışlı havalarda...[2]

Nostalji ovqatın lirik qəhrəmanda doğurduğu hisslərin səmimiliyi, reallığı, təmizliyi, müqəddəsliyi baxımından şeir çox təbii və dolğundur.

"Qoy danışsın təbiət" şeiri İsmayıllının təbii gözəlliklərindən bəhs edir. Hər bəndi səkkiz misra olmaqla on beş bəndlik şeiri mini poema da adlandırmaq olar. Hər bənddə təbiətin bir özəlliyindən söhbət açılır. Meşənin, dağların, taladakı dizə qalxan yaşıl otların, hardasa budanmış ağacın, ağlayan budağın, meşə kənarındakı aynabəndli bir evin... təsviri, şairin yaratdığı füsunkar peyzajlardır.

"İki dağ" şeirində şair təbiətdəki dağla insan qəlbinə çəkilmiş dağı qarşılaşdırıb müqayisə edir. Adları omonim olsa da yerləri, ağırlıqları, ölçüləri, təsirləri çox fərqlidir.

Beləliklə, Qabilin təbiət şeirləri həm təbiətin, onun gözəlliklərinin, həm də insaniləşmiş təbiətin təsviri baxımından çox zəngindir. Təbiət lirikası Qabil poeziyasında xüsusi önəm daşıyır. Şairin yaratdığı lirik lövhələr, poetik təfəkkürün süzgəcindən keçən, ruhu oxşar misralar insanı həyata, təbiətə, məhəbbətə səsləyir.

Qabilin məhəbbət şeirlərində mənəvi təmizlik, gözəllik, kövrəklik, səmimiyyət ehtiva olunur. Şairin sırf məhəbbət şeirləri kəmiyyət etibarilə çox

[1] Qabil. Ulduzlar. Dənizlər mavidir, meşələr yaşıl. – Bakı: Şirvannəşr, 2003, s.27
[2] Qabil. Küləkli havalarda, yağışlı havalarda. "Dənizlər mavidir, meşələr yaşıl". – Bakı: Şirvannəşr, 2003, s.87

deyil. Lakin keyfiyyətcə yetərlidir. Şairin gəncliyində yazdığı məhəbbət şeirlərinin əsas xəttini sevgi və ayrılıqlar, həsrət və hicran, qarşılıqsız sevgi duyğuları və xəyal qırıqlığı təşkil edir. "O qız məndən uzaqdır", "İlk bahar, son bahar", "Tufan səsi", "Dəniz yandırdı məni", "Sənsiz", "Hələ", "Nədir", "Saçların" kimi şeirləri bu qəbildəndir. Qabil realist və romantik duyğuları yeni məzmunda, yeni vəhdətdə şeirlərində əks etdirə bilmişdir.

"O qız məndən uzaqdır" şeirində lirik qəhrəmanın sevib-seçdiyi qızın iki obrazı göz önündə canlanır. Birinci obrazda şair xəyalının məhsulu olan zirvədə qar misallı, qüsursuz, göz oxşayan, mehriban, fədakar, sevgisinə sədaqətli bir gözəl qız təsvir olunub. İkincidə isə sevgini duymayan, qiymətləndirməyən, onun yaratdığı əzabı, iztirabı, möhnəti görməyən adi bir qız canlanır.

Qabilin məhəbbət şeirlərində bir Dəniz obrazı da var. Bütün görüşlər, sevgilər, ayrılıqlar Xəzərin sahilində baş tutur. Sevgi xatirələri də Gilavar ətirli ləpələr qədər həzindi, kövrəkdi, duyğuludur. "Tufan səsi" şeirində Xəzərin tufanı da məhəbbət hisslərinin tüğyanı kimidir. Lakin bir fərq var. Dalğaların tüğyanı həmişə olacaq. Məhəbbətin tufanı isə getdikcə öləziyib sönəcək. Çünki qız Dənizdən də, onun həyatından da çıxıb getməkdədir.

"Gecə keçir", "Sənsiz", "Həsrətin", "Saçların", "Hələ", "Nədir", "Dəniz yandırdı məni" kimi şeirləri də dənizli xatirələrdi. "Sənsiz dənizə çıxdım, dəniz yandırdı məni..." deyir lirik qəhrəman.

Qabil bir də ömrünün son baharında lirik şeirlər yazıb. Lakin bu şeirlər əvvəlkilərdən xeyli fərqlənir. Bu səpkili şeirlərdə bir az yumor var, bir az fəlsəfə, bir az xatirə, hüzn, həzinlik, şirinlik və s. "Məhəbbətdən savayı" şeirində şair hər cür şan-şöhrəti, vəzifəni, var-dövləti məhəbbətlə müqayisə edir və təbii ki, üstünlüyü məhəbbətə, eşqə, sevgiyə verir: "Məhəbbətdən başqa, hər şey hədər, havayı"...

Şairin bu dönəmdə yazdığı və dillər əzbəri olan bir şeiri də var: "Məhəbbət deyil". Lirik qəhrəman insana, onun duyğularına xas olan bütün müsbət keyfiyyətləri bir-bir sadalayır və göstərir ki, bunlar məhəbbət deyil:

Mən səni görməyə adət etmişəm,
Adət məhəbbət deyil!
Səni görməyəndə xiffət etmişəm,
Xiffət məhəbbət deyil![1]

Əslində isə bunlar məhəbbətin atributlarıdır. Çünki hörmətsiz, heyrətsiz, xiffətsiz məhəbbət də olmaz.

Şairin məşhur şeirlərindən biri son baharın – payızın xatirəsi olan "Gətirmə" şeiridir. "Onsuz da ömrümün xəzan çağıdır, // Xəzanın üstünə

[1] Qabil. Məhəbbət deyil. "İlahi qisməti". – Bakı: Gənclik, 2001, s.272

xəzan gətirmə...” Şeirdə təbiətin də payız vaxtıdır, aşiq olan insanın da. Təbiətin payızı ilə insan ömrünün payızı qarşılaşdırılaraq elə təsvir, təqdim olunur ki, sanki rəssam fırçasından çıxmış bir təbiət lövhəsinə baxırsan:

Ürəyim mehə bənd gül yarpağıdır,
Onu qoparmağa tufan gətirmə!
... Tutqun göylərimin yoxdur hüdudu,
Tutqun göylərimə duman gətirmə![1]

Şairin bir çox şeirləri var ki, onlarda həm təbiət, həm də məhəbbət bir arada, bir məcrada təsvir olunur ki, onları ayırmaq, fərqləndirmək müşkül məsələdir.

“Tramvay parka gedir” süjetli şeirinin qəhrəmanları da sevən cütlükdür. Gecə saat birə kimi işləyən tramvayın sürücüsü və onun pul yığan konduktorunun sadə, amma möhkəm sevgisi bir sağlam ailənin təməlidir. Müxtəlif peşə sahibi olan sadə adamların: taksi sürücüsü, tramvay konduktoru, bank xəzinadarı, uzaq səfərlər kapitanı – yaradılmış silsilə surətlərini şeirimizə ilk dəfə Qabil gətirib.

Qabilin müstəqillik illərində çap olunan kitabları içərisində dörd kitabı xüsusilə diqqəti çəkir: “İlahi qisməti”, “Dostlarım, tanışlarım”, “Dənizlər mavidir, meşələr yaşıl” və “Ömrün gecə qatarı”. Ardıcıllıqla çap olunan bu kitablarda şairin həm sovet dönəmində yazmış olduğu məşhur əsərləri, həm də müstəqillik illərində yazılmış şeirləri yer almışdır.

1990-2007-ci illər, yəni ömrünün son on yeddi ili şairin müdrik çağlarına düşdüyündən yaradıcılığının çox hissəsini fəlsəfi yönümlü şeirlər, həyatın fəlsəfi dərkini özündə ehtiva edən poetik parçalar təşkil edir. Bu dönəmdə onun yaradıcılığında lirik-fəlsəfi-əxlaqi dəyərli şeirlər xüsusi önəm daşıyır. Orjinallığı, təbiiliyi, saflığı ilə seçilən bu nümunələr oxucusunu mütləq təsir dairəsində saxlaya bilir. Qabilin bu illərdə yazdığı “Qarışdırma”, “Əslində”, “Yedəkdə gələn qayıq”, “İstəmirəm”, “Üç nöqtə”, “İlahi qisməti”, “Borc”, “Bilmirəm”, “Pərdə”, “Zarafat eləmə” kimi şeirləri həyat hadisələrinə fəlsəfi yanaşmanı əks etdirən poetik nümunələrdir:

Kobudluqla cəsarəti qarışdırma!
Yaltaqlıqla nəzakəti qarışdırma!..
... Tülkülüklə fərasəti qarışdırma!
Düşmənliklə rəqabəti qarışdırma!..[2]

Oğluna müraciətlə yazdığı bu nəsihətvari şeirində şair göstərir ki, bir-birinə bənzəsə də, əslində, bunlar insanların çox fərqli keyfiyyətləri,

[1] Qabil. Gətirmə. “İlahi qisməti”. – Bakı: Gənclik, 2001, s.271
[2] Yenə orada, s.246

xarakterik xüsusiyyətləridir. Bu fərqliliyi bilmək, duymaq üçün mütləq arif olmaq gərəkdir. Şair mənfi keyfiyyətlərlə müsbət xarakteri qarşılıqlı, yanaşı təsvir edir. Bir var cəsarət, nəzakət, sədaqət, ləyaqət, fərasət – bütün bu hisslər insanda yüksək mənəvi keyfiyyətlərdir. Bir də var bunların tam əksi – kobudluq, yaltaqlıq, lovğalıq, dəlibaşlıq, xəsislik və s. Şair bu qənaətə gəlir ki, əgər bu şəxsi keyfiyyətlərin yerini bilsən, onları qarışdırmasan insanlara olan münasibətlərini tənzimləyə bilərsən və hər kəsi yaxşı tanıyarsan, onda haqqı nahaqqa, yaxşını pisə qurban verməzsən.

Qabilin "Qarışdırma" əsərinin ideya davamı olaraq Yaradana müraciətlə yazdığı, lakin özünə ünvanladığı bir şeiri də var: "Məni qoru". Hər bir insanın xətası, səhvi, çatışmazlıqları ola bilər. Oğluna məsləhət gördüyü "Xəta ilə cinayəti qarışdırma" fikrini özünə də, öz "Mən"inə də şamil eləyir. Lirik qəhrəman qorxur ki, o da nəsə bir cinayət edə bilər. Axı insan bəzən öz nəfsinin quluna çevrilir.

Şairin "Əslində" şeiri də bu baxımdan çox xarakterikdir. Müəllif burada üzdə bir, əməlində başqa cür olanları sözlə qamçılayır. Həyatda adı "loğman" olan nə qədər nadanlar var. Ziyarətə gedib özünü mömin, dindar, əməlisaleh adamlar kimi təqdim edənlərin əksəriyyəti xalqına, elinə, obasına yabançı, yad olan insanlardır. Başqalarının – əlilin, zəlilin haqqını mənimsəyənlər, elin sərvətini talayanlar ziyarətgaha gedib xalqı aldatmasa yaxşıdır, – düşünür şair.

Şairin "Yedəkdə gələn qayıq", "İstəmirəm", "Üç nöqtə" şeirləri də onun fəlsəfi dünyasından ayrı-ayrı yarpaqlardır. Kimlərisə cana-boğaza yığacaq uzun ömrü, acı sözü, qaşqabaqlı üzü görmək istəməyən lirik qəhrəman düşünür ki:

Yeyib-içib gəzə-gəzə,
Söz qoşuram təzə-təzə,
İstəmirəm çatam yüzə,
Uzun ömrüm xalqı üzə.
...İstəmirəm bu dünyanı
Ölə-ölə tərk eləyim...[1]

Duyğulu anların məhsulu olan "Yaxşı adamların həsrətindəyik", "Mənim ürəyimdə sirlər yatır", "Avtoportret" kimi nümunələrin hər birində bir dünyalıq fəlsəfi duyğular yaşayır. Bu dünyanın öz ayı, günəşi, ulduzları və insanları var. Bu insanlar fərqlidir, yaxşısı, pisi var, alçaqboylusu, hündürü var, kifiri, gözəli var, öküzü, tülküsü var… Şairin lirik qəhrəmanı bu dünyada minlərlə insanın içində yaxşı adamların həsrətindədir. Hər şeyin nisbi olduğu

[1] Qabil. İstəmirəm. "İlahi qisməti". – Bakı: Gənclik, 2001, s.269

bu həyatda dəmir, mislə yanaşı xalis, təmiz, qızıl külçəsi də var. Çox vaxt biz yaxşı insanları o qızılın xalisi, əsli, təmizi ilə müqayisə edirik.

Maraqlıdır ki, şair millətinin, xalqının qızıl övladları olan bu yaxşı adamları tapır, sonra onların hərəsinə bir şeir həsr edərək poeziyanın qəhrəmanına çevirir.

Qabilin öz müasiri olan alim, şair-yazarlara həsr etdiyi şeirləri yetərincədir: Bəxtiyar Vahabzadəyə, Balaş Azəroğluna, Xəlil Rza Ulutürkə, Gülhüseynə, Fikrət Sadığa, Anara, Sabir Rüstəmxanlıya, Vaqif Səmədoğluna və b. Şairin "Dostlarım, tanışlarım" kitabının birinci hissəsi məhz bu dostlara həsr olunmuş ithaflardır ki, onların da sayı yüzdən çoxdur.

Qabilin "İlahi qisməti", "Səhv düşəndə yerimiz", "Hörmətimiz", "Borc", "Əbəsdir", "Saat", "Bilmirəm", "Pərdə", "Birini elə, birini belə", "Zarafat eləmə" kimi şeirlərinin hər biri həyat həqiqətlərinin əks-sədasıdır, bir şair ömrünün tərcümanıdır, yaşanmışlardan süzülüb gələn təcrübədir, nəsihətdir, məsləhətdir. Bir sözlə, fəlsəfi dünyasının çalarları, çeşniləri, ilmələri, milləridir!

Toxucu olmaq istəsən,
Millə zarafat eləmə!
... Yazıçı olmaq istəsən,
Dillə zarafat eləmə![1]

Müstəqillik uğrunda gedən mübarizədə Xalq şairi Sabir Rüstəmxanlı da öz sözləri, şeirləri ilə meydanda, xalqının yanında idi. Ancaq meydana təkcə Vətənini sevənlər gəlmirdi. Onların arasında yalançılar, talançılar, düşmənin dəyirmanına su tökənlər də vardı. Qabilin bu dövr üçün xarakterik olan "Çaxmağı çək" şeiri Sabir Rüstəmxanlıya müraciətlə yazılsa da, əslində bu, qəlbi qaralar, niyyəti düz olmayanlar üçün bir məsləhət, göstəriş rolunu da oynamışdır:

Çaxmağı çək,
Yansın ürəklərin qurdu,
Qaradan-quradan
Təmizləyək ana yurdu![2]

Şairin qənaətincə, insan mərd, mübariz, döyüşkən, çalışqan, haqqa tapınan, ədalətə sığınan biri olmalıdır. Bu insani keyfiyyətləri yaşatmağın özü, həm də bəşəriyyətin mənfi qüvvələrdən xilasına xidmət deməkdir.

"Avtoportret" şeiri bütün insani keyfiyyətlərin bir adamda cəmləşdiyini əks etdirən poetik parçadır. Burada şair öz düşüncəsində öz xarakterini açıb

[1] Qabil. Zarafat eləmə. "İlahi qisməti". – Bakı: Gənclik, 2001, s.332
[2] Yenə orada, s.164

göstərmək istəyir: “Qibləgahım – həqiqət // Səcdəgahım – sədaqət, // Daş tərəzim – ədalət // Qətiyyətim – cəsarət, // Riyadan, xəyanətdən // Uzağam yeddi iqlim”.

Hələ 1969-cu ildə yazdığı “Səhv düşəndə yerimiz” şeiri şairin mənəvi pasportuna çevrilmişdir. Təbiət hadisələri ilə insani münasibətləri müqayisəli şəkildə poetikləşdirən şair maraqlı detalları açıqlayır:

Duman dağı dolanar, qiyamət olar!
Duman yola sallanar, müsibət olar!
Müsibət oluruq biz, səhv düşəndə yerimiz![1]

Dağların başında duman gözəllikdir, göz oxşayan mənzərədir. Lakin o duman qatı şəkildə sallanıb yolu kəsərsə müsibət olar, yollarda gediş-gəliş çətinləşər. Şeir boyu maraqlı analoji müqayisələr gətirməklə şair diqqəti cəlb edir ki, insanın yerinin, işinin, vəzifəsinin səhv düşməsi, öz yerində olmaması, öz işini bilməməsi, bacarmaması, kiminsə yerini tutması həyatdakı ən böyük müsibətlərdən biridir. Çünki bundan nə qədər insanlar əziyyət çəkəcək.

2004-cü ildə Qabilin “Seçilmiş əsərləri” çap olunub. Kitabın “Sözün qısası” adlı bir fəslini yumoristik – fəlsəfi şeirlər qisminə aid etmək olar. İki misralıq və ya bir bəndlik şeirdə Qabil çox düşündürücü məsələləri poetikləşdirib:

Söz qan salar araya,
Söz məlhəmdir yaraya…
Qısa söz – kəsər,
Uzun söz hədər,
Söz şərbət, şəkər,
Söz zəqqum, zəhər…[2]

Xalq şairinin yaradıcılığında rübailər də özünəməxsus yer tutur. Uzun illər şair bu yığcam şeir növündən geniş istifadə edərək bütün mövzularda lakonik fikirlərini ustalıqla ifadə edə bilmişdir. Qabil bu dörd misralıq şeirdə insanın mənəvi aləmini, onun naqis və ya kamil olduğunu, kainatı, onun əbədi, sonsuzluğunu, təbiəti, onun əsrarəngizliyini və s. məsələləri poetik bir şəkildə açа bilmişdir.

“Xal” şeirində şair xal sözü ilə təbiəti, insanları, onların mənəviyyatını və cəmiyyəti bir araya gətirib müqayisə edir. Adı da, özü də kiçik olan xal bir gözəlin yanağında gözəldisə, burnunda xəcalətdi. Payızda yarpaqlara düşən xal da rəngarəngdir, göz oxşayandır. Tufandan qabaq üfüqlərə düşən xal isə

[1] Qabil. Səhv düşəndə yerimiz. Seçilmiş əsərləri. – Bakı: Şərq-Qərb, 2004, s.88
[2] Qabil. Seçilmiş əsərləri. – Bakı: Şərq-Qərb, 2004, s.209

müsibətdir. Tufanın gələcəyini xəbər verir. Bir də var qəlbə, sevgiyə, ürəyə düşən xal. Bu, bir məhəbbətin nifrətə çevrilməsidir, bir həyatın, taleyin qaralması, gizli-gizli, gorun-gorun yanmasıdır.

"Bilmirəm" şeiri bir az duzlu-məzəli, yumoristik dillə yazılsa da sətiraltı ifadələri, cəmiyyətə mesajları çoxdur. Şeirdə təbiət də, məhəbbət də var. Amma əsas fikir yükü cəmiyyətin üzərinə düşür.

"Hələlik" şeirinin fəlsəfi fikir yükü çox ağırdır. "Hələlik dağların zirvəsində qar, // Elə ki yaz gəldi əriyəcəkdir…" – deyən şair həyatda hər şeyin ötəri, hələlik olduğunu göstərir. Böyük qitələrin, millətlərin itib-batdığı bu dünyada mala-mülkə, təm-tarağa uymamağı məsləhət görür. Yalnız əbədi olan bəşər – kainatdır. O da hələlik əbədidir. Qabil sovet dönəmində başladığı fəlsəfi-lirik şeirlərinin davamını Müstəqillik illərində – ömrünün müdrik çağlarında da ədəbiyyata gətirmiş, öz ədəbi-bədii irsini xeyli zənginləş-dirmişdir.

XX əsrin 80-ci illərinin sonundan başlayaraq xalqımızın azadlıq, müstəqillik uğrunda mübarizəsində şair həm poetik əsərləri ilə, həm də xalq qarşısında fəal çıxışları ilə iştirak etmişdir.

Qabilin Müstəqillik illərində qələmə aldığı əsərlərini mövzusuna görə şərti olaraq iki yerə bölmək olar. 1. Müstəqilliyi təsvir, tərənnüm edən əsərləri. "Müstəqillik", "Bayrağımız", "Vətən", "Mərsiyyə", "Qərənfillərdən uzaq" kimi şeirlər. 2. Sovet dönəmində yazılması çətin olan fakt və hadisələrin müstəqillik dövründə ədəbiyyata gətirib təsvir edən şeirləri. Məsələn, "Sümüklər", "Təndir", "Otuz yeddidə", "Türkün qəbri" və s.

Qabilin "Vətən" adlı bir neçə şeiri var. Bu şeirlərin hər birində əsl vətəndaş ürəyi döyünür. Şair göstərir ki, hər kəs bir-birindən küsüb, inciyə bilər. Lakin Vətəndən küsəni, bezəni görmədim. Dünyada qiyamət ölkələr çoxdur. Lakin müqəddəs vətəndən yoxdur. Şair digər "Vətən" şeirində isə belə yazır:

"*Bu yerdədir rişələrim, köklərim,*
Ulu babam bu torpaqda uyuyur,
Vətən mənim al şəfəqli səhərim,
Onsuz günəş gözlərimdə soyuyur,
Vətənsizin nə günəşi, nə ayı?
Vətən yoxsa – hər şey hədər, havayı..."[1]

Bu zaman kəsiyində, yəni vətənin azadlığına, birliyinə, bütövlüyünə qəsd olunduğu bir dönəmdə bu cür şeirlərin dərhal yazılması və xalq qarşısında oxunmasının, vətənpərvərlik baxımından, necə böyük əhəmiyyəti olduğu aydındır.

[1] Qabil. Vətən. "İlahi qisməti". – Bakı: Gənclik, 2001, s.27

Şair dünyanın ədalətsizliklərlə, haqsızlıqlarla dolu olduğunu bildiyi, gördüyü üçün müstəqil dövlətimizin banilərindən biri M.Ə.Rəsulzadənin məşhur "Bir dəfə yüksələn bayraq, bir daha enməz!" şüarına burada səmimi şəkildə cavab verir. Haqdan yanan çırağı nahaqdan söndürənlər də var. Eləcə də xalqın öz gücünə, qanı bahasına qaldırdığı bayrağı da endirmək istəyənlər az deyil. Odur ki, şair bir daha üzünü xalqına tutaraq vurğulayır:

Bayrağımız qoy qalmasın,
Boş-boş şüar ümidinə.
Enən deyil, əgər qalsa,
Qeyrət, vüqar ümidinə![1]

Müstəqillik dövründə baş verən bütün hadisələr Qabil yaradıcılığında öz bədii ifadəsini, bədii həllini, inikasını tapmışdır. Aydın və qətiyyətlə yazılmış bu əsərlərdə şairin şəxsi inamı güclü, dönməz və sarsılmazdır.

Qabil mübariz şairdir. Şairin "Müstəqillik" şeirində real tarixi faktlar yer alıb. 1988-1990-cı illərdə baş verən hadisələrin şahidi olan şair öz şeirində həmin anları təsvir etmişdir.

1990-cı ilin 20 yanvarında işğalçı Qırmızı Ordunun Bakını gülləbaran etməsi görünməmiş bir hadisə idi. Şair bu Qanlı Şənbə gecəsini əks etdirən ilk "Mərsiyə"sini yazdı. Əsər tək Qabil yaradıcılığında deyil, həm də müasir poeziyamızda yeni idi. Sələflərinin mərsiyyələri ilə səsləşən bu əsər, həm də Qabilin öz fikir tutumu ilə zənginləşmiş, püxtələşmiş, cilalanmışdır:

Gecəni atəş ilə qırmızı dan eylədilər,
Xalqımı, millətimi gülləbaran eylədilər...[2]

Əruz vəznində yazılmış bu poetik parçada şair öz sözünü çox cəsarətlə və birbaşa söyləmişdir.

Ulu Öndər Heydər Əliyev şairin 1996-cı il yanvarın 7-də keçirilmiş 70 illik yubileyində onu təbrik edərkən bu şeirə də toxunaraq demişdir: "Yubiley gecəsində çıxış edənlərdən biri dedi ki, Qabil siyasətlə məşğul olmayıbdır. Bu fikir doğru deyil, Qabilin həmin yanvar faciəsinə həsr etdiyi şeirin özü siyasətdir... Ona görə də Qabilin həm fəaliyyəti, həm də yaradıcılığı, şeiri böyük mənəviyyat kəsb edir, yenə də deyirəm, onun vətəndaşlıq mövqeyini əks etdirir və siyasi xarakter daşıyır".[3]

Qabilin şeirləri tarixi fakta, real həyat həqiqətinə söykənir, həyat gerçəkliyini əks etdirir. Bu da, heç şübhəsiz, onun müşahidə qabiliyyətinin dəqiq və güclü olduğundan, mənəviyyatının zənginliyindən xəbər verir. Hər

[1] Qabil. İlahi qisməti. – Bakı: Gənclik, 2001, s.308
[2] Qabil. Mərsiyə. "İlahi qisməti". – Bakı: Gənclik, 2001, s.93
[3] Heydər Əliyev. Müasir poeziyamızın görkəmli nümayəndəsi/ Qabil. Dostlarım, tanışlarım. – Bakı: Şirvannəşr, 2002, s.437

bir şeirin öz tərcümeyi-halı var. Şair gördüyü, duyduğu hadisələri, poetik şəkildə, bütöv, bədii biçimdə çatdıra bilir. Onun məşhur şeirlərindən biri də Qanlı Şənbə gecəsində öz qanlarında boğulan şəhidlərin üstünü xalqın əllərilə bəzəyib örtən qərənfillər haqqındadır. Bu şeir "Qərənfillərdən uzaq" adlanır. Qərənfillər həmişə görüşə gedən, sevən gənclərin sevgi rəmzi olmuşdu. Lakin 20 Yanvar müsibətindən sonra bu güllər məzar çiçəklərinə çevrilmişdi.

Güclü müşahidə qabiliyyəti, yaradıcılıq stixiyası, axtarışları, daima xalqının yanında olması və onların dərdinə şərik çıxması imkan verirdi ki, Qabil bu səpkili şeirlərdən yetərincə yaza bilsin. Onun "Sümüklər", "Şahi-şahidan", "Təndir", "Çalsın Azərbaycan haray zəngini" şeirləri də Müstəqillik illərində yazılıb və hər biri real gerçəkliyi əks etdirir. Bu şeirlərin yazılma tarixi və öz tərcümeyi-halı var.

Azərbaycanın İstiqlal uğrunda mübarizə illərində ağır itkiləri, müsibətli günləri çox olub. Son yüz ildə baş verənlər: 1918-ci ilin mart soyqırımı, 37-nin vətəndaş qırğını, 1990-cı ilin 20 yanvar qırğını, 1992-ci ilin fevralında Xocalı soyqırımı... Şair bu günlərin hər biri haqqında öz poetik sözünü deyib. Çünki Qabil həm də vətənini sevən müdrik şair idi.

Şairin müstəqillik illərində qələmə aldığı şeirlər içərisində "Təndir" xüsusi yer tutur. Akademik Ziya Bünyadova həsr etdiyi bu şeirində Qabil divarlarında tikanlar, kollar bitmiş, üzü-çölü yaşlı adamların siması kimi qırış-qırış olmuş bir təndirdən danışır. Bu təndir 37-dən qalıb. 1937-1938-ci illərdə baş verən hadisələrin şahidi, həm də şəhidi olub. Şairin gözündə, təsvirində bu təndir sanki qəbir daşlarından hörülüb. Təndir cəza evindən çıxmış müqəssirə də bənzəyir. Beli bükülüb, rəngi qaralıb. Kül olub gedənləri, şil olub qalanları da xatırladır. Çünki bu təndir 37-dən çıxıb.

Sovet rejimi ərəb əlifbası ilə yazılan bütün kitabları "Qurandır!" – deyib təndirlərdə yandırır, sahibinisə tutub sürgünə göndərirdi. Bunu görən xalqın özü çox vaxt Qurani-Kərimi də, neçə-neçə dühanın, dahinin mənəvi sərvətini, xəzinəsini də bu təndirdə yandırıb məhv eləmişdir.

"Otuz yeddidə" şeirində şair yenə 37-ci il hadisələrindən bəhs edir. O, göstərir ki, bu illərdə nə qədər ömür yarımçıq qaldı. Çünki üzə duranlar, kəmfürsətlər, satqınlar, naxələflər cəlladlardan çox idi. Şair düşünür ki, görəsən "Otuz yeddidə kəmfürsətim nə qədər, cəlladım nə qədərdi?" Eyni zamanda bu illər insanlığın, mənəviyyatın, kişiliyin, comərdliyin sınaq ili də olub.

"Çalsın Azərbaycan haray zəngini" şeiri Qabil yaradıcılığında önəmli yer tutur. Müstəqilliyin ilk illərinin çətinliyi, 20 Yanvar faciəsi, Qarabağ müharibəsinin başlanması, təkcə milli deyil, sinfi mübarizənin də önə çıxması, tez-tez baş verən dövlət çevrilişləri xalqın inamını, ümidini qırmışdı, itirmişdi. Millət üzünü həmişə xalqın yanında olan şairlərə, alimlərə tuturdu.

Yazıçıların X qurultayında Heydər Əliyev ədəbiyyatın xalq qarşısındakı xidmətlərinə toxunaraq demişdir: "Bizim ədəbiyyatımızın xalqımıza etdiyi ən böyük xidmət ondan ibarətdir ki, şairlərimiz, yazıçılarımız öz əsərləri ilə Azərbaycanda, xalqımızda, millətimizdə daim milli hissiyyatları oyatmağa çalışmışlar. Milli özünüdərk, milli oyanış, dirçəliş prosesi xalqımıza birinci növbədə ədəbiyyatdan keçir. Bəzi əsərlər var ki, onlar xalqımıza milli dirçəliş, oyanış hissiyyatları çatdırıblar".[1]

Qabilin müstəqillik illəri poeziyası sovet dönəmindəki sosialist realizmini tərənnümündən köklü surətdə fərqlənir. Əvvəla, müstəqillik uğrunda mübarizə sovet rejiminə qarşı idi. Onun, xüsusilə, əsrin sonuna doğru ölkəni xalqlar həbsxanasına çevirməsi, ordusunun Bakıya hücumu, Qarabağın işğalında iştirakı və s. məsələlər şairin yaradıcılığının, ədəbi fəaliyyətinin yönünü, istiqamətini bütövlükdə dəyişdirdi. Daha çox milliləşdirdi. Milli oyanışın, Milli təəssübkeşliyin, Milli Azadlığın, Milli birliyin tərənnümü, həmçinin Milli faciələrin təsviri ön plana çıxdı. Şairin bu illərdəki yaradıcılığı, bu mənada, çox böyük əhəmiyyətə malikdir. Onun "37-də", "Təndir", "Sümüklər", "Türkün qəbri" və s. şeirləri sovet rejimi dövründə qadağan olunmuş mövzulara həsr edilmişdir.

Poemaları. Qabilin çap olunmuş yeddi poeması var. Şairin poemalarından bəhs edərkən, birinci növbədə onun "Nəsimi" epopeyasından danışmaq lazımdır. Poema on dördüncü əsrdə yaşamış filosof-şair İmadəddin Nəsiminin həyat və yaradıcılığından, fəaliyyətindən bəhs edir. Əsər hissə-hissə üç cilddə yazılmışdır. Birinci cild 1970-ci ildə, ikinci cild 1972-ci ildə, üçüncü cild 1974-cü ildə çap olunmuşdur. Poema bütövlükdə 1980-ci ildə "Yazıçı" nəşriyyatında çap olunaraq ədəbi ictimaiyyətə təqdim edilmişdi. Bu əsərə görə Qabil 1976-cı ildə Azərbaycanın Dövlət mükafatına layiq görülmüşdür. Əsər 2002 ci ildə "Şirvannəşrdə" təkrar çap olunmuş, 2018-ci ildə isə şairin çap olunan yeddi cildliyinin birinci cildində yer almışdır.

Poema üç hissədən və altmış səkkiz başlıqdan ibarətdir. Əsər "Heyrət" adı ilə başlayır. Bu, on dördüncü əsr şairinin iyirminci əsr şairinə müraciətidir:

Tarixin tilsimli yollarıynan sən,
De görüm yanıma necə gəlmisən?
Həmişə irəli gedirsə bəşər,
Geri qayıtmağın deyilmi hədər?[2]

Akademik Bəkir Nəbiyev Qabilə həsr etdiyi məqalədə yazmışdır: "Qabilin Nəsimisi xalqın həyatı, ənənə və arzuları ilə qırılmaz tellərlə bağlı

[1] Ədəbiyyatımız xalqımızın milli sərvətidir. – Bakı: Nurlan, 2003, s.95
[2] Qabil. Nəsimi. – Bakı: Şirvannəşr, 2002, s.9

olan mütəfəkkir, ana dilli şeirimizi yüksək mərhələyə qaldıran bənzərsiz sənətkardır. Mənzum romanda o, insanları maddi və mənəvi buxovlardan azad görmək uğrunda həyatını qurban verən bir əqidə adamı, dostluqda və sevgidə dəyanətilə ürəkləri riqqətə gətirən fədakar bir aşiq kimi canlanır... Qabilin Nəsimisi dünyanın əşrəfi kimi qəbul etdiyi insanları onun layiq olduğu yüksəklikdə görmək istəyən, elə bununla da orta əsr vandalizminə meydan oxuyan, bu qənaətində ömrünün fəci qürubuna qədər ardıcıl və sabitqədəm olan bir fədakardır".[1]

Qabilin ilk poeması 1949-cu ildə yazılıb, "Dostlar" adlanır. Poemada böyük rus şairi Puşkinlə azərbaycanlı alim, tərcüməçi, şair, Qüdsi təxəllüsü ilə şeirlər yazan Abbasqulu ağa Bakıxanovun dostluğundan bəhs edilir. Qüdsi Puşkin poeziyasının çox dəyərli, xalqına xeyirli, mənəvi dayaq olduğunu söyləyir. Puşkin də öz növbəsində dostu Qüdsinin əsərlərinin nə qədər təbii, dolğun olduğunu etiraf edir. Qüdsi özünün məşhur "Gülüstani-İrəm" əsərini Puşkinə, Puşkin isə yeni yazdığı şeirini Qüdsiyə hədiyyə edir. Əsərdə Puşkinin ölümünə elegiya da yer almışdır.

"Bağça" poeması 1951-ci ildə yazılmışdır. Şair bu əsərini lirik poema adlandırmışdır. Əsər müharibə və qələbə mövzusundadır. Bakıda hər il keçirilən 9 may – Qələbə gününün təsvir və tərənnümündən bəhs olunur.

Qabilin "Mehparə" poeması 1954-1957-ci illərdə yazılmışdır. Məhəbbət mövzusundadır. Əsərin əsas qəhrəmanları üç gəncdir – Mehparə, Heydər, Məharət. Ali məktəbdə təhsil alan və işləyən bu gənclərin arasında bir məhəbbət üçbucağı təsvir olunur. Mehparə onu sevən kasıb gənci yox, imkanlı şəxsi seçir. Təbii ki, sonunda peşman olur.

Şairin "Birinci addım, birinci sevinc" əsərində (1960) C.Cabbarlının ilk əsəri olan "Bahar"ın qəzetdə dərc olunması və gənc şairin ilk, böyük sevincindən bəhs edilir.

"Yanardağ" lirik poemasında (1976) Bakının Digah-Məhəmmədi kəndləri arasında yerləşən Yanardağdan, onun əbədi məşələ çevrilməsindən danışılır:

Ərənlərin ürəyidir yanardağlarım,
Oğulların şərəfinə əbədi məşəl![2]

Rəvayətə görə, bu dağa çobanın çaxmağından bir qığılcım düşmüş və dağ alovlanaraq əbədi məşələ çevrilmişdir.

...Nəsimilər inadının rəmzi Yanardağ!
Füzulilər fəryadının əksi Yanardağ.[3]

---

[1] Bəkir Nəbiyev. Mən onu belə tanıyırdım. Seçilmiş əsərləri, IV c. – Bakı: Çinar-Çap, 2009, s.499

[2] Qabil. Seçilmiş əsərləri. – Bakı: Azərnəşr, 1988, s.43

[3] Yenə orada, s.42

Şair Yanardağın əbədi alovunu Odlar yurdunun odlu ürəyi ilə, Nizami, Füzuli, Nəsimi kimi övladlarının daima yanar qəlbi ilə müqayisə edir.

Qabilin "Ağ libasda" (1978) adlı fransız rəvayəti əsasında yazılmış kiçik poeması da vardır. Həyat dolu düşüncələri ilə diqqəti çəkir. Ölümün özünü susduracaq, ürək dağlayan bir əfsanədir. Amma əslində elə həyat gerçəkliyidir. Ölüm hökmü verilmiş oğlunu dar ağacından qurtarmaq üçün ana çox insanlara yalvarır, xahiş edir. Lakin kimsə kömək etmir. Ana zindanda qorxudan dodaqları partlamış oğlu ilə görüşür, söz verir ki, onu ölümdən mütləq xilas edəcək. Gərək o da ölümdən qorxmasın. Əgər anası bütöv ağ libasda meydana gələrsə, demək oğlunu ölümdən son anda qurtaracaq. Heç kimə müqavimət göstərməsin, yalvarmasın, çəkinməsin. Əksinə, başını dik tutsun, lap ölümün gözünə dik baxsın. Ana dediyi kimi meydana ağ libasda gəlir, ürəyi qan ağlasa da qürurla oğluna baxıb gülümsəyir və düşünür ki:

- Saldıra bilməsəniz balanızı ölümdən,
Eybi yox, heç olmasa xilas edin zülümdən.[1]

Qabilin çap olunmuş nəsr əsərləri azdır. "Dənizin cazibə qüvvəsi" əsərini XXI əsrin əvvəllərində yazmışdır. Müəllif əsəri "dramatik povest" adlandırsa da, əslində o yumoristik bir səpkidə yazılmışdır.

"Ömür həbləri", "Həmid", "Necəsən" əsərləri maraqlı həyat hadisələrinin, müəllifin arzu-düşüncələrinin əks-sədasıdır.

Qabilin "Səməd Vurğun", "Koroğlu romanda", "Qeyrət a vətəndaşlar", "Yadımdadır o nadir insan", "Böyükağa qəlbimdədir", "Hörmətli "Şirvannəşr" və onun naşiri Qəşəm müəllim İsabəyli", "Çinar nəğmələrində" kimi publisist məqalələri müxtəlif yaradıcı şəxsiyyətlərə həsr olunmuşdur.

Beləliklə, yaradıcılığının ilk qırx ilini sovet dönəmində yaşayıb-yaratmış şairin poemaları tarixi şəxsiyyətlərə həsr olunmuşdur. Onun poemalarının hər biri zəngin bədii təxəyüllə yanaşı, həm də zəngin həyat gerçəkliyini əks etdirir. Eyni zamanda, bu əsərlər şairin dolğun həyat təcrübəsi, insani keyfiyyəti, mərhəməti, böyük məhəbbəti ilə yoğrularaq araya-ərsəyə gəlmişdir.

Qabilin sovet dövrü poeziyası ilə müstəqillik illərinin poeziyası müqayisə olunsa, fərqli və oxşar cəhətləri aydın görünər. Əvvəla, sovet dönəmində şairin seçib işlədiyi mövzular tarixi həqiqətlər və faktlardır. Burada ictimai-siyasi quruluşun önəmi azdır. İstər "Nəsimi"ni, "Bağça"nı, "Dostlar"ı, istərsə də digər əsərlərini şair istədiyi formada, biçimdə qələmə ala bilmişdir. Bu əsərlər indi də oxunaqlıdır. Amma bu əsərlərdə dövrünə görə, təbii olaraq, dolayısı ilə SSRİ də təsvir, tərənnüm olunur. Bu ölkəyə –

[1] Qabil. Təmizlik. – Bakı: Yazıçı, 1983, s.21

onun təbiətinə, insanlarına, hətta onun Qırmızı ordusuna qarşı böyük inam, rəğbət, hörmət, məhəbbət vardı. Lakin Müstəqillik dövründə yazılmış əsərlər bu düşüncələrin tam əksidir. Təkcə "Mərsiyə"nin adını çəkmək kifayətdir ki, fərqin mənzərəsi bilinsin.

Qabilin hər bir şeirini tarixi hadisələri, faktları təsvir etmək baxımından, öz siqlətinə, mövzu dairəsinə, fikir yükünə görə kiçik həcmli poema da adlandırmaq olar. Qabil əqidə şairidir. O, bütün əsərlərində insan faktorunu, şəxsiyyəti bəlli bir zaman içində önə çəkərək tərənnüm edir. Hansı cəmiyyətdə, ictimai-siyasi quruluşda yaşamasından asılı olmayaraq insan azad, müstəqil, kamil, şəxsiyyəti bütöv olmalıdır. Qabilin, demək olar, bütün yaradıcılığı həyat hadisələrini, gerçəkliyi, reallığı əks etdirmək baxımından diqqəti çəkir. Onun təkcə Qarabağ müharibəsi haqqında, müstəqillik uğrunda gedən mübarizə illərində yazdığı şeirlər bir poetik haraydır, üsyandır, çağırışdır. Müstəqil ədəbiyyatımızın yaranmasında, formalaşmasında da bu şeirlər kifayət qədər böyük və mühüm rol oynamışdır.

XƏLİL RZA ULUTÜRK
(1932-1994)

Xəlil Rza Ulutürk[*] XX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, istiqlal şairi, ədəbiyyatşünas-alim, tərcüməçi, publisist, memuarist və ictimai xadimdir. O, milli-demokratik hərəkatın usanmaz mücahidi, istiqlalçılıq, azərbaycançılıq, türkçülük və turançılıq məfkurəsinin davamçısı, təbliğatçısıdır. Azərbaycanın istiqlal poeziyasında Xəlil Rzanın mühüm xidmətləri vardır.

Həyatı. Xəlil Rza 21 oktyabr 1932-ci ildə[**] Salyan qəzasının Pirəbbə kəndində (hazırda Neftçala inzibati ərazi bölgüsü) dünyaya gəlmişdir. O, 1949-1954-cü illərdə Azərbaycan Dövlət Universitetinin Filologiya fakültəsində, 1957-1959-cu illərdə Moskvanın M.Qorki adına Dünya Ədəbiyyatı İnstitutunda təhsil almışdır. X.Rza 1963-cü ildə "Müharibədən sonrakı Azərbaycan sovet ədəbiyyatında poema janrı (1945-1950)"[***] mövzusunda namizədlik, 1985-ci ildə "Maqsud Şeyxzadənin bədii yaradıcılığı və Azərbaycan – özbək ədəbi əlaqələrinin aktual problemləri" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir.

Xəlil Rza 1959-1969-cu illərdə Azərbaycan Dövlət Pedaqoji İnstitutunda (hazırda Universitetində) müəllim, dosent işləmişdir. O, 1969-1994-cü illərdə AEA-nın Nizami adına Ədəbiyyat İnstitutunda (indiki AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu) çalışmışdır. Şairin ilk şeiri "Abşeron" 1948-ci il,[****] ilk şeir kitabı"Bahar gəlir"[1] 1957-ci ildə nəşr edilmişdir. O, 1954-cü ildən Azərbaycan və SSRİ Yazıçılar İttifaqının üzvü olmuşdur.

Xəlil Rza 1986-cı ildə Əməkdar incəsənət xadimi, 1992-ci ildə Xalq şairi, 1995-ci ildə Türkiyə Cümhuriyyətinin Milli şairi adlarına layiq görülmüşdür. 1995-ci ildə "İstiqlal ordeni" ilə təltif edilmiş, 1995-ci ildə anadan olmasının 60 illiyi, 2004-cü ildə 70 illiyi, 2012-ci ildə 80 illiyi dövlət səviyyəsində keçirilmişdir. Respublika Prezidentinin Sərəncamı əsasında 5 cildlik seçilmiş əsərləri nəşr edilmişdir. O, bəzi təkrar nəşrləri ilə birlikdə 41 bədii,

---

[*] Şair 1949-cu ildən 1975-ci ilədək "Xəlil Xəlilov", "Xəlil Xəlilzadə", "X.Xəlilbəyli", "X.R.", "Xəlil Rza Od", "Xəlil Rza Odsevər", "Xəlil Rza Odbasar", "Xəlil Rza Alpamış", 1975-ci ildən 1990-cı ilədək "Xəlil Rza", 1990-cı ildən 1994-cü ilədək "Xəlil Rza Ulutürk" imzalarından istifadə etmişdir.

[**] Bəzən X.R.Ulutürkün təvəllüd tarixi 1933-cü il də göstərilir. Şairin pasportu, hərbi biletində də 1933-cü il göstərilmişdir. Lakin Xəlil Rzanın özü bunu 1932-ci il kimi vurğulamışdır… "Təşviqatçı" jurnalını özü ilə yaşıd bilmişdir (yəni nəşr ili – 1932-ci il)

[***] Dissertasiya Azərbaycan Dövlət Pedaqoji İnstitutunun kitabxanasında saxlanılır. 1963-cü il

[****] Şairin arxiv sənədlərində ilk mətbu əsəri 1948-ci il, "Kitab" şeiri ("Pioner" qəzeti) göstərilmişdir. Lakin həmin ildə "Pioner" qəzetində şairin "Abşeron" şeiri dərc edilmişdir.

[1] Xəlil Rza Ulutürk. Bahar gəlir. – Bakı: Uşaqgəncnəşr, 1957

15 tərcümə, 14 elmi, 11 memuar kitabın müəllifidir. Haqqında 10-dan çox elmi kitab çap olunmuşdur.

Azadlıq mücahidi Xəlil Rza Azərbaycanın milli azadlıq hərəkatında fəal iştirakına görə 26 yanvar 1990-cı ildə SSRİ Dövlət Təhlükəsizlik Komitəsi tərəfindən həbs edilmiş, Bakı, Rostov, Voronej və Moskvadakı Lefertovo zindanında 8 ay 13 gün həbsdə saxlanılmışdır. Şair 22 iyun 1994-cü ildə vəfat etmiş, I Fəxri Xiyabanda dəfn olunmuşdur.

X.Rzanın babaları 1920-1930-cu illərdə bolşeviklər tərəfindən güllələnmiş, torpaq sahələri əllərindən alınmışdır. Atası Rza kişi İkinci Dünya müharibəsində Moskvaaltı döyüşlərdə ağır yaralanmış, 1947-ci ildə vəfat etmişdir. Xəlil Rza Salyan rayonundakı "Sosializm yolu" qəzeti redaksiyası nəzdindəki poeziya dərnəyi, Mirzə İbrahimovun 1948-ci ildə təşkil etdiyi "Gənclər günündə" dərnəyi, Cəfər Xəndanın və Bəxtiyar Vahabzadənin təşkil etdiyi dərnəklərdə iştirak etmişdir. N.Xəzri, M.Araz, Qabil, S.Tahir, Ə.Kürçaylı, F.Qoca kimi X.Rza da 1950-ci illərdə M.Qorki adına Ali Ədəbiyyat İnstitutunun kurslarında oxumuşdur. Atası yeniyetmə oğluna Füzuli, Raci, Dəxil, Dilsuz, Sabir, Tofiq Fikrət, Nəvai, Rustaveli, Əlibəy Hüseynzadə, Ziya Göyalp, Qumri, Yunus İmrədən söhbətlər etmiş, bunlar onun mənliyinə, psixologiyasına təsir göstərmişdir. Bakıdakı, Moskvadakı təhsil illəri Xəlil Rzanın şüur və məfkurəsini oyandırmışdır. Şair Moskvada, Rusiyanın dissident gənclər nəsli əhatəsində oxumuş, Lev Ozerov, Pavel Antokolski onun müəllimləri olmuşdur. K.Simonovun "Novıy mir" jurnalından qovulması, A.Tvardovskinin təqib olunması, B.Pasternakın "Doktor Jivaqo" əsərinə görə SSRİ Ədəbiyyat Fondu üzvlüyündən çıxarılması, Soljenitsının dissidentliyi... onun "gözləri qarşısında" baş vermişdir. Xarici ölkələrin görkəmli yazıçıları Pablo Neruda, Romen Rollan, Mixail Şoloxov, Nazim Hikmət və başqaları ilə görüşlər, Moskva ədəbi mühiti, Ç.Aytmatov, R.Həmzətov, Y.Yevtuşenko, D.Kuqultinov kimi tələbə dostların əhatəsi, bütün bunlar Xəlil Rzanın dünyagörüşünə ciddi təsir göstərmişdir. Sənətkar ali məktəbdə Nizami, Nəsimi, Füzuli, Sabir, Səməd Vurğun və başqalarından mühazirələr oxuyanda, gəncləri ayağa qaldıranda, "Şəbi-hicran yanar canım, tökər qan çeşmi-giryanım, oyadar xəlqi əfğanım o sahildə, bu sahildə" – deyib, iki yerə parçalanmış torpağın, insanların dərdini ifadə edəndə izlənməyə başlanılmışdır. Xəlil Rza 1961-ci ildən 1975-ci ilədək Azərbaycan KP MK, DTK və Yazıçılar İttifaqı səviyyəsində təqib olunmuşdur. "Ana dili", "Dəlidağ", "Məftillə sarınmış yaralar", "İki qardaşın söhbəti", "Gələcəksən baharda", "Adımız, soyadımız", "Qalx ayağa, Vətənim" adlı poema və şeirlərini vaxtında çap etdirə bilməmişdir. Xəlil Rza Azərbaycan Pedaqoji İnstitutundan xaric edilmiş (1969), uzun müddət işsiz qalmış, Azərbaycan KP MK-nın birinci katibi Vəli Axundova, şöbə müdiri Cəfər Cəfərova, Teymur Elçinə (Əliyevə) ərizələrlə müraciət etmişdir.

İctimai-ədəbi mühitdən mümkün qədər təcrid edilən sənətkar dissident həddinə gəlmişdir. Şair yazmışdır: "Məni hər addımbaşı təhlükə gözləyir – dərrakəsi, vətən eşqi, partiya əqidəsi olmayan miskin adamlar tərəfindən olan təhlükə... Mən Naxçıvan, Ordubad, Şahbuz görüşlərimdəki çıxışlarımda ehkamçılara, dargözlərə, partiya deyə-deyə, partiyaya zərbə vurmağa hazır olanlara qarşı nifrətimi gur səslə elan etmişəm. Mən hələ də o yerlərdən məktub almaqdayam. O məktublar belə bəd ayaqda mənə qüvvət verir. Tutduğum yolun doğruluğuna məni inandırır. Bəzən belə bir axmaq fikrə düşürəm ki, bir halda ki Azərbaycanda qüdrətli adamların sayı bu qədər azdır, baş götürüb Özbəkistana, yaxud qeyri yerə getməliyəm. Məni bundan sonra da sıxışdırsalar, çap imkanı verməsələr, başqa çarəm qalmayacaqdır".*

Ulu öndər Heydər Əliyev demişdir: "O illər, 60-70-ci illərdə Azərbaycanda dissident axtarsaydıq, onlar çox idi. Ən böyük dissident Bəxtiyar Vahabzadə idi. Hətta mənim xatirimdədir, mən Təhlükəsizlik Nazirliyində işləyən zaman onun həbs olunması məsələsi qoyulmuşdu. Yaxud da ki, Xəlil Rza ən böyük dissidentlərdən biri idi. Çünki onun əsərləri, o cümlədən Bəxtiyar Vahabzadənin əsərləri həqiqəti deyirdi. Amma bu həqiqət o vaxtkı kommunist ideologiyasına zidd idi və buna görə də onlar dissident idilər. Ancaq biz Xəlil Rzanı da qoruduq, saxladıq".[1] "...Xəlil Rzanı da həbs etmək məsələsini qoymuşdular. Onu da mən qoymadım, xilas etdim, neçə-neçə belələrini xilas etdim".[2] Şair Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyevə ünvanladığı məktubunda yazmışdır: "Azərbaycan dilinin təsir dairəsini genişləndirmək, milli simasını itirmişlərə qarşı amansız olmaq, qənimətçilərə, rüşvətxorlara qarşı mübarizədə əsla güzəştə getmədən döyüşmək sizinlə birlikdə mənim də məramımdır".*

X.Rzanın milli şüur və məfkurəsinin ilk təzahürü ana dilinə münasibətilə bağlıdır. Zəngin folklordan, klassik poeziyadan (ədəbiyyatdan), "Əkinçi", "Kəşkül", "Molla Nəsrəddin"dən üzü bəri dil məsələsi həmişə vacib problemlərdən olmuşdur. Milli mənlik şüurunun təzahürü vətəndaşlıqdır. X.R.Ulutürkdə vətəndaş ideyasının mənbəyi Vətən və xalqdır. Bu ideya milli ideal (istiqlal, müstəqillik) və xalq taleyinin daşıyıcısıdır. Şairin yaradıcılığında milli azadlıq hərəkatının doğuluşunda həmin ideyanın tarixi rolu olmuşdur. Milli ruh ötən əsrin 30-cu illərində S.Vurğunun "Azərbaycan" (1935), 1940-cı illərdə O.Sarıvəllinin "Gətir oğlum, gətir" (1943), 1950-1960-cı illərdə B.Vahabzadənin "Gülüstan" (1958), "Ana dili" (1960),

* 2 mart 1962-ci il tarixli gündəliyindən.

[1] Heydər Əliyevin Rüstəm İbrahimbəyovun 60 illik yubileyinə həsr edilmiş tədbirdəki çıxışından. "Ədəbiyyat qəzeti", 12 fevral 1999-cu il; MTN-in yubiley tədbirindəki rəsmi çıxışından. "Xalq qəzeti", 6 iyul 1997

[2] Yenə orada

* 1969-cu il 9 oktyabr tarixli məktubundan

M.Şəhriyarın “Heydər baba” (1954), S.Tahirin “Ana dili” (1959), H.Savalanın “Türkcə təranələr” (1962), B.Səhəndin “Sazımın sözü” (1965), X.Rzanın “Ana dili” (1959), “Dilim mənim, nərəm mənim” (1962) kimi şeirlərində təzahür etmişdir.

İstiqlal məfkurəsi B.Vahabzadə, X.R.Ulutürk, M.Araz və S.Tahir özünüdərkinin mənbələrindən olmuşdur. Xəlil Rzanın yaradıcılığında 1950-1980-ci illər boyunca bu məfkurənin doğuluşunu və inkişafını aydın müşahidə edirik. Şairin 1950-1960-cı illərdən başlayan istiqlal məfkurəsində (“Afrikanın səsi” /1960/, “Gözün aydın, Azərbaycan” /1968/, “Yetkinləş, Xəlil” /1968/, “Gedər”) milli və bəşəri səviyyədə azadlıq düşüncələri ilə bərabər, Quzeylə Güneyin birləşdirilməsi – bütöv Azərbaycan ideyası ifadə olunmuşdur. Şairin azadlıq məfkurəsi 1950-1960-cı illərdə mücərrəd məna, ideya daşımış, əsasən, romantika, təxəyyül məhsulu olmuşdur. Sənətkar 1970-ci illərdə beynəlxalq mövzuda yazdığı şeirlərində də milli ruhunu canlandırmış, bəşəridə milli, millidə bəşəri ideya axtarmışdır. 1960-1970-ci illərdə yazdığı şeirlərində Xəlil Rzanın istiqlal düşüncələri “sızmalar” şəklindədir. 1970-ci illərin axırları, 1980-ci illərdəki şeirlərində isə bu “sızmalar” güclü olmuş, şairin milli məramını aydın nişan vermişdir. Şairin 1980-ci illərdəki əsərləri imperiyanın kəskin ifşası, yəni mübarizə pafosu, Azərbaycan xalqının müstəqilliyi, suverenliyi, yəni milli istiqlaliyyəti ilə bağlı olmuşdur. Bu illərin şeirlərində qüdrətli çağırış ruhu şairin qayə və məramını aydın göstərmişdir. Xəlil Rzanın millilik uğrunda mübarizəsi ilk əvvəl özü ilə mübarizəsindən başlamışdır. “Əyilmək qorxusu” (1973), “Gücüm, gücsüzlüyüm” (1978), “Çılğınlıqdan dözümə keçid” (1984), “Dözümlü ol, dəli könül” (1984). “Məndən başlanır Vətən” (1983), “Heç bir ehtiyat” (1986), “Heç olmasa bircə nəfər” (1986) şeirlərində Xəlil Rzanın tərəddüdləri yox olmuş, şair qətiyyətli hökmü, andı ilə məqamlaşmışdır. Sənətkarın həyat mövqeyində səbatın, qətiyyətin rəhni xalqın sarsılmaz gücü olmuşdur (“Xalq qüdrəti” (1986).

X.R.Ulutürkün yaradıcılığının mənbələrindən biri də türkçülük məfkurəsidir. Türkçülük şüuruna qayıdış imperiya siyasətçilərini, xristianlığı həmişə narahat etmişdir. Onlar “pantürkist”, “panislamist” istilahları uydurmuş, türkləşmək ideologiyasını, dövlət və millət varlığını inkar etməyə çalışmışdır. Ötən əsrin 1980-ci illərində Azərbaycanda milli-demokratik hərəkatın başlanması, müstəqil dövlətçiliyin bərpasından sonra (1991) türkçülük məfkurəsi ideoloji-mədəni əhəmiyyət kəsb etmiş və Xəlil Rza Ulutürkün yaradıcılığında daha poetik qüvvətlə səslənmişdir. Şairin “Xəlil, bir az səbr elə”, “Qalx ayağa, Azərbaycan”, “Yalnız pasportunda”, “Boz qurda öygü”, “Yıxın, sökün, dağıdın”, “Türk”, “Nə yaxşı ki”, “Azərbaycan türkcəsi”, “Mən günəş ürəkli Xəlil Rzayam”, “Yaşasın od yurdu, qardaş Türkiyə” və s. şeirlərində türkçülük milli müəyyənlik kimi dəyərləndirilmişdir.

X.R.Ulutürk turançılıq idealında ("Yaşasın od yurdu, qardaş Türkiyə", "Nə yaxşı ki...", "Xəlil, bir az səbr elə") Türkiyəni "köksümüzə səngər" bilmişdir. Onun nəzərində türkçülük, turançılıq fatehlik, mənəmlik olmamışdır. Xəlil Rza türk birliyini ona görə tərənnüm etmişdir ki, türk zəif olanların xilaskarıdır. Xəlil Rza şeirlərində yalnız Azərbaycan türk dilini fərdiləşdirməmiş, türk dilləri birliyindən ehtirasla danışmış, türk, özbək, qırğız, qazax, türkmən dillərinə də poetik nümunələr həsr etmişdir. Xəlil Rzanın türkçülüyü təbliği məqsəd daşımışdır. O, türk qövmlərini iqtisadi-mədəni birliyə çağırmışdır. Şair şeirləri ilə bərabər, elmi-tarixi memuarlarında[1] və məqalələrində[2] də türkçülük ideyalarından geniş bəhs etmiş, bir sıra türk şairinin şeirlərini dilimizə uyğunlaşdırmışdır.[3] O, ədəbiyyatşünas-alim kimi "Maqsud Şeyxzadənin bədii yaradıcılığı və Azərbaycan-özbək ədəbi əlaqələrinin aktual problemləri" mövzusunda doktorluq dissertasiyası yazmış, monoqrafiyalar[4] çap etdirmişdir. Xəlil Rzanın arxivində "Türküstan divanı",[5] "Özbəkistan poeziyası",[6] "Şeyxzadə dəftəri"[7] adlı əlyazma qovluqları saxlanılmaqdadır. Ə.Hüseynzadə, Z.Göyalp və M.Ə.Rəsulzadənin ideya-məfkurə davamçılarından olan X.R.Ulutürk Vətən deyəndə bütün türk dünyasını nəzərdə tutmuşdur: "Biz türkləriz.../ Vətənimiz başdan-başa Yer kürəsi, / Bayrağımız al günəşdir, çadırımız göy qübbəsi!" – deyə türkü öymüşdür. Azərbaycan şairləri Vətən dedikdə həm də Azərbaycanın o tayını – Güneyi nəzərdə tutmuş, Vətəni bütöv görüb tərənnüm etmişlər.

Azərbaycan poeziyasında Vətənçilik məfkurəsi güclü olmuşdur. Osman Sarıvəllinin "Panamalı dilənçi", "Dəvə karvanı", "Təbriz gözəli", Məmməd Arazın "Dünyadan bir Araz axır", "Astaraçay", "Haçadağ", "Yenə Arazı gördüm", "Arazın işıqları", Cabir Novruzun "İran qadınlarına heyrət məktubu", "Yuxumda o taya keçdim bu gecə", "Mən sərhəd görmüşəm", Bəxtiyar Vahabzadənin "Neytral zona", "Qəribədir", "İki yol", Nəriman Həsənzadənin "İran şahına məktub", Söhrab Tahirin "Təbrizi gəzirəm", "Ədalət mücəssəməsi", "Cavab versin tarix mənə", Sabir Rüstəmxanlının "Tarixi yaradanlar" və başqa şeirlər Cənub (Güney) mövzusunda olmuşdur. Xəlil Rza da 1960-cı illərdən başlayaraq Güney mövzusuna müraciət etmişdir. Sənətkarın "Sağlıq, yaxud vəsiyyət" (1962), "Oğlum Təbrizə"

[1] Xəlil Rza Ulutürk. Yaşasın od yurdu, qardaş Türkiyə. – Bakı: İdeal-Print, 2013, s.32-154
[2] Yenə orada, s.157-186
[3] Yenə orada, s.217-275
[4] Maqsud Şeyxzadə. – Bakı: Elm, 1978; Maqsud Şeyxzadənin bədii yaradıcılığı. – Bakı: Elm, 1980; Dramaturgiyada ədəbi əlaqələr. – Bakı: Elm, 1987; Dünyanın ədəbi xəritəsi. – Bakı: Çinar-Çap, 2008, s.73-224
[5] Əlizadə Əsgərli. Sırdəryada gülən şair taleyi. "Azərbaycan" qəzeti, 9 noyabr 2003-cü il
[6] Yenə orada
[7] Maqsud Şeyxzadə və "Azərbaycan dəftəri". – Bakı: Apostrof, 2014

(1964), “Mən nəyəm ki, ey Vətən” (1962), “Təbrizim mənim” (1965-75), “Anam layla çalır” (1966), “Gözün aydın, Azərbaycan” (1969), “Xiyabani yurdunda” (1975), “Qatar gedər”, “Səsin gəlsin, Təbrizim” (1980), “Xudafərin körpüsü” (1980), “Yaşasın həyat” kimi şeirlərində ideya Vətən birliyi və xalq taleyidir. “Oğlum Təbrizə” (1964) şeirində ata-şairlə bala-Təbriz Azərbaycanın cüt qanadları – o tay, bu tay kimi mənalandırılmışdır. O, “Təbrizim mənim” (1965-1975) şeirində oğluna bildirir ki, Təbrizə gedən yollar təkcə sərhəddən yox, həm də mənim gözümdən-könlümdən keçir:

Soruş, cavab verim mən, hardan başlanır Vətən:
Vicdanın öz səsindən.
Zülmətdə bir cüt gözün ildırım qüvvəsindən!
Min haqsıza baş əyməz bir haqlının əzmindən!

“Səsin gəlsin, Təbrizim” (1980) şeirində sənətkar radio dalğalarında Təbrizi axtarır, onun səsini eşitmək istəyir. Radionun mili sanki “kirpiyin ucu boyda ümidinin telidir”. Ümid alışanda şair doğma səsi, doğma dili yox, “ruhu candan aparan yaddilli bir marş dinləyir: “...Ey şəhid, ey şəhid. Xuni tu iftixar...” Şair Təbrizi öz dərdləri ilə danışdırır:

Səsin gəlsin, Təbrizim, öz avazın, öz səsin!
Yandırsın daş qəfəsi, söksün beton məhbəsi
Haqq, ədalət uğrunda alov tutan nəfəsin!
Bərkdən danış, əzizim, səsinin möhtacıyam.
Yurdu vahid görməyin,
yurdu xoşbəxt görməyin təşnəsiyəm, acıyam![1]

“Xudafərin körpüsü” (1980) əsərinin mövzu və məzmunu isə iki sahili birləşdirən tarixi körpünün rəmzi mənası ilə bağlıdır. X.R.Ulutürkün “Həsrət”, “Təbrizli şairin düşüncələri”, “İki qardaşın söhbəti”, “Qalx ayağa, Vətənim”, “O gün gələcək” poemaları da Cənub (Güney) mövzusunda olub milli ideallarla, Vətən taleyi ilə əlaqəlidir.

Xəlil Rzanın xalqçılığı azərbaycançılığın, vətənçiliyin tərkib hissəsidir. Şairin xalqçılığında Azərbaycanın ərazi və mənəvi birliyi ifadə olunmuşdur. Azərbaycançılıq Azərbaycan Respublikasının müstəqil dövlətçiliyi ilə möhkəm bağlıdır. Ümummilli lider Heydər Əliyev demişdir: “Azərbaycan dövlətinin milli ideologiyasının özəyini, əsasını təşkil edən azərbaycançılıqdır. Dövlətçilik, milli-mənəvi dəyərlər, ümumbəşəri dəyərlər – bunların hamısı azərbaycançılıq anlayışının tərkib hissəsidir... Bu məfkurə təkcə Azərbaycan Respublikasında yaşayan azərbaycanlıların, təkcə Azərbaycan dövlətinin maraqlarını deyil, həm də bütün dünyada yaşayan azərbaycanlıların milli-

[1] Xəlil Rza Ulutürk. Səsin gəlsin, Təbrizim. Seçilmiş əsərləri. Şeir və poemalar. – Bakı: Təhsil, 2012, s.198

mənəvi maraqlarını ifadə edir".[1] Azərbaycançılığın, milli ideologiyanın, milli ruhun əsasında dövlətçilik, Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü, milli vətənpərvərlik və vətəndaşlıq hissi dayanır. Onun mənəvi potensiyası fasiləsiz mədəni irsimizdir. Heydər Əliyev Dünya Azərbaycanlılarının Birinci Qurultayındakı çıxışında demişdir: "Azərbaycan xalqının milli-mənəvi dəyərlərinin ən əsası bizim müqəddəs kitabımız Qurani-Kərimdə öz əksini tapıbdır. Ancaq bununla yanaşı, Azərbaycanın mütərəqqi insanları, Azərbaycanın böyük şəxsiyyətləri, Azərbaycanın hörmətli siyasi və dövlət xadimləri, böyük elm, mədəniyyət xadimləri Azərbaycan xalqının milli-mənəvi dəyərlərini yaradıblar. Bu, bizim adət-ənənəmizdir. Bu, bizim milli-əxlaqi mentalitetimizdir".[2] Milli ziyalılarımız içərisində Xəlil Rza Ulutürk istiqlal şairləri Məhəmməd Hadi, Əhməd Cavad və Məhəmməd Biriya kimi ədəbi, ictimai fəaliyyəti ilə tarixi vətənçiliyi, turançılığı, azərbaycançılığı, Azərbaycanın dövlət müstəqilliyini təcəssüm etdirmişdir. Xəlil Rzanın poeziyasında Azərbaycanın ümumiləşmiş obrazı milli dil, tarix, ənənə, psixologiya və mənəviyyatla möhkəm bağlı olmuşdur.

Azərbaycan, vətən və xalq məfhumlarının bədii ifadəsi Xəlil Rza yaradıcılığında XX əsrin 50-ci illərindən görünməyə başlamışdır. 1960-cı illərin şeirlərində ideya-estetik məzmun genişlənmiş, 1970-ci illərin əsərlərində lirik polifoniya, ideya-bədii mündəricə zənginləşmişdir. Milli dil, tarixi reallıq, ənənə, psixologiya və mənəviyyat 1980-ci illərin şeirlərində bədii siqlətilə seçilmiş, şair "Mən"i 1980-1990-cı illərin əsərlərində milli xarakter konkretliyi kəsb etmişdir. 1950-ci illərin şeirlərində Xəlil Rzanın təbiətə münasibəti onun arzu və duyğularını qidalandırmışdırsa, 1960-cı illərin şeirlərində (1960-1964) poetik obrazlarda, əsasən, təşbeh və metaforalarda təzahür etmişdir. Bu şeirlərdə Azərbaycanın (xalqın) ifadəsi məcazlar şəklində, motiv, duyğu halında müəyyənləşmişdir:

Bir Muğam zilidir – ox çinarların,
Meh dəyən budaqlar – incə kamanım.
Sən – Zərdüşt zəkalı, Babək nəzərli,
Üzeyir nəfəsli Azərbaycanım![3]

Xəlil Rzanın 1950-1980-ci illər şeirlərində Azərbaycan ideyası *(dil və reallıq)* tərənnüm, etiraf halındadır. "Tamam doğmayan günəş" (1962), "Vətən", "Yanardağ" (1975), "Yaxşı ki, bu yurdun balasıyam mən" (1978), "Mən bu gecə oyağam" (1978), "Mən Azərbaycanam" (1979), "Yurdum,

[1] Heydər Əliyevin Yeni Azərbaycan Partiyası yaradılmasının altıncı ildönümünə həsr olunmuş yığıncağındakı nitqindən

[2] Heydər Əliyevin Dünya Azərbaycanlılarının Birinci Qurultayındakı çıxışından. "Azərbaycan" qəzeti, 10 noyabr 2001-ci il

[3] Xəlil Rza Ulutürk. Vətən düşüncələri. Doğmalıq və ucalıq. – Bakı: Apostrof, 2015, s.94

sənin sağlığına" (1979), "Yaxşı ki" (1980), "Səməndər quşu kimi" (1970), "Şeirimizin Babəki" (1978-1980), "Məmməd Araza" (1982), "Xudu müəllim" (1983), "Məndən başlanır Vətən" (1983), "Sənin cavabın" (1984) əsərlərində Azərbaycanın tarixi şəxsiyyətləri xalq psixologiyası və mənəviyyatının təcəssümü kimi qiymətləndirilir. Belə əsərlərin ideyasında xalqla sənətkarın, kütlə ilə şəxsiyyətin birliyi əsas xüsusiyyət olmuşdur:

– Oddur, – dedim – bu nəfəs.
Zəlzələ dağı yerdən bəlkə qopara bilər,
Sənətkarı xalqından heç nə ayıra bilməz.

Xəlil Rzanın poeziyasında xalqın həyat və məişəti (reallıq), psixologiya və mənəviyyatı epik təsvir, təhkiyəsindən çox, psixoloji-mənəvi məqamların ifadəsində daha artıq konkretlik kəsb etmişdir. 1980-ci illərin əsərləri içərisində "Məndən başlanır Vətən" (1983), "Azərbaycan" (1988), "Gəlir böyük Azərbaycan" (1986-1990) əsərləri azərbaycançılığın poetik ifadəsi kimi xüsusi yer tutur. "Gəlir böyük Azərbaycan" əsəri respublikanın müstəqil dövlətçilik ideyası, xalqın gücü və səbatının poetik təcəssümüdür. Xəlil Rzanın lirik-epik, hissi-romantik təsvirlərində mənəvi birlik ideyası bütün millətlərə, hər bir vətəndaşa ünvanlanır, milli şüur və məfkurəyə doğru yönəlir. X.R.Ulutürk hələ "Afrikanın səsi" /1960/ (sonralar "Azərbaycanın səsi", "Mənim səsim") şeirində azadlıq ideyası ilə hayqırırdı:

Azadlığı istəmirəm zərrə-zərrə, qram-qram!
Qolumdakı zəncirləri qıram gərək, qıram, qıram!
Azadlığı istəmirəm bir həb kimi, dərman kimi!
İstəyirəm səma kimi, günəş kimi, cahan kimi!
Çəkil, çəkil, ey qəsbkar! Mən bu əsrin gur səsiyəm!
Gərək deyil sısqa bulaq! Mən ümmanlar təşnəsiyəm![1]

B.Vahabzadə yazmışdır ki, "Afrikanın səsi" yalnız Afrika xalqlarının deyil, öz azadlığı və istiqlalı uğrunda ayağa qalxan və müstəmləkəçiliyin, faşizmin hər cür təzahürünə qarşı barışmaz mövqe tutan, imperializmin buxovlarını qıran bir sıra ölkələrin mübarizə əzmi, üsyankar ruhu çox sərrast və qüvvətli ifadə olunmuşdur".[2]

X.R.Ulutürk 1980-ci illərə qədərki əsərlərində sosial-siyasi quruluşa, əsasən, lirik-epik üslubda diqqət yetirmişdir. 1980-ci illərin əsərlərində isə şairin cəmiyyətə qarşı üsyankar, inkarçı mövqeyi başlanmışdır. Bu səbəbdən onun bədii yaradıcılığı güclü publisistika xüsusiyyətləri patetik intonasiya doğurmuşdur. Sənətkarın ictimai etirazları 1980-ci illərin poeziyasında, əsasən, rus sovet imperiyasına, beynəlxalq imperializmə qarşı tuşlanmışdır.

[1] Xəlil Rza Ulutürk. Seçilmiş əsərləri. Şeir və poemalar. – Bakı: Təhsil, 2012, s.67
[2] Bəxtiyar Vahabzadə. Poeziya alovu. Xəlil Rza. Doğmalıq. – Bakı: Azərnəşr, 1977, s.3

Humanizm və vətənpərvərlik X.R.Ulutürk poeziyasının tərkib hissəsidir. Onun şeirlərinin kökü, mayası Vətən eşqi, Torpaq və Dünya ilə bağlıdır. Xəlil Rzanın humanist görüşləri milli məkanla hüdudlanmamış, sərhədləri aşaraq bəşəri məzmun qazanmışdır. Şair yazmışdır: "Bizim birinci borcumuz Yer kürəsini qorumaqdır. Yer üzündəki sonsuz gözəllikləri, yer üzünün bütün Ermitaj və Luvr xəzinələrini, Titsian Veçellionun fırçasından çıxmış sənət mirvarilərini, Füzulinin və Şekspirin yaratdığı poeziya kəhkəşanlarını, İbn Sinanı qorumaqdır. Bütün təfəkkür korifeylərinin ürəyindən, gözlərindən süzülən əbədi işığı qorumaq bizim borcumuzdur... Biz öz qüdrətli əllərimizi sərhədlər, okeanlar, mərzlər üzərindən uzadıb bir-birimizi salamlamalı, öz qəlbimizin qərarını qəti bildirməliyik: – Yaşasın xalqların Azadlıq idealı!"[1]

X.R.Ulutürkün şəxsiyyət və yaradıcılığında "vətənpərvərlik kamil formada əqidədir, elmi dünyagörüşün bir sahəsi, tərkib hissəsidir. Lakin o, eyni zamanda hissi həyatla bağlayır, vətənə məhəbbət, sözün geniş mənasında mütərəqqi milli mədəniyyətə məhəbbət, ana dilinə məhəbbət və s. kimi nəcib hisslər şəklində təzahür edən mənəvi-əxlaqi keyfiyyətdir. Buna görə də həm hissi, həm də əqli idrakla bağlı olub, şəxsiyyətin hərtərəfli mənəvi zənginliyi, kamilliyidir".[2] 1980-ci illərin şeirlərindəki humanizm və vətənpərvərliyin ideya qaynaqları şəxsiyyət və tale mövqeyidir.

X.R.Ulutürk vətəndaş şair və şəxsiyyət kimi 1980-ci illərin şeirlərində milli idealını aydın ifadə etmişdir. İstiqlal və onun uğrunda mübarizə!

İlk Allahım, son Allahım – mübarizə! Mənə bənzə!
Doğransam da xıncım-xıncım, zərrə-zərrə, rizə-rizə,
Məramımdır mübarizə! Mənə bənzə![3]

"Səngər azuqəsi" (1980), "Şəhriyarım" (1980), "Çətin yol" (1981), "Mənə bənzə" (1981) şeirlərində milli idealdan, Vətən taleyindən danışan şair 1980-1990-cı illərin poeziyasında özünün milli xarakterini canlandırmışdır. Şairin mövqeyi yalnız sovet antipodları ilə mübarizədə deyil, həm də "onun köksünün ümmanları" "haqqı tapdanan xalqlardır". Buna görə də Xəlil Rza Ulutürkün humanizmi milli və bəşəri humanizmdir:

Bir şair köksündə Azərbaycan var!
Bir şair qəlbinin şah damarında
Bütün asiman var, bütün cahan var![4]

[1] Şairin arxivindən. Bütün bəşəriyyəti qucaqlaya bilsəydim. 1964, s.4
[2] Məmməd Cəfər. Həmişə bizimlə. – Bakı: Yazıçı, 1980, s.42
[3] Xəlil Rza Ulutürk. Mənə bənzə. Seçilmiş əsərləri. Şeir və poemalar. – Bakı: Təhsil, 2012, s.207-208
[4] Xəlil Rza Ulutürk. Mərdləş, ürəyim / Seçilmiş əsərləri. Şeir və poemalar. – Bakı: Təhsil, 2012, s.211

X.Rzanın "Məndən başlanır Vətən" (1983), "Gözəl yaşamaqdan əl çəkmək olmaz" (1984), "Dözümlü ol, dəli könlüm" (1984) kimi şeirlərində başlıca bəşəri məzmun insanın öz içinə baxışı, cəsurluq, cəsarət, ləyaqət, məslək, amal və əqidəsindədir. Bunlar dərk ediləndə insanın mənəvi mübarizəsi doğulur. Mənəvi mübarizə X.Rzanı milli azadlığa, hərəkata doğru aparan başlanğıcdır.

X.R.Ulutürkün 1980-ci illər şeirlərinin satirik ifşa və pafosu kəskin olmuşdur. Şair belə şeirləri "Ələkbər Sabir işığında" və "Mayakovski işığında" adları altında toplamışdır. Bu illərin şeirlərində Sabiranə realizm, həyat hadisələrinin təfərrüatları, ictimai yaraları göstərmək cəsarəti, xəlqilik, humanizm və vətənpərvərlik keyfiyyətləri güclü olmuşdur. Şairin nifrəti, kin-küdurəti güclü olduğundan şeirlərinin publisistik-ritorik intonasiyası da qüvvətlidir ("Bilmirsən, deyim, öyrən" (1980), "Verin mənim haqqımı", "Çılğınlıqdan dözümə keçid", "Sənin ölümünü gözləyənlər var" (1986), "Sən inanma məddahlara" (1986), "Türk sözündən qorxan gəda" (1986).

Xəlil Rza Ulutürkün 1988-1990-cı illər poeziyasında siyasi çağırış, təbliğat güclüdür ("Azərbaycan-türk salamı", "Azadlığım", "Sarsılmazdır qüdrətimiz", "Silahlan"(1988), "Tonqallar meydanı", "Azərbaycan", "Qalx ayağa, Azərbaycan", "Azadlıq meydanı", "Tanklar Bakıya girən gecə", "Şuşam"(1989), "Yaşasın Xalq Cəbhəsi" (1989), "Müstəqillik" (1989), "Qanlı cəllada" (1990), "Qovacağız" (1990) və b.).

X.Rza 50-dən çox poemanın[1] müəllifidir. "Məhəbbət dastanı" poemasında şair bəşəri düşüncələrini Səməd Vurğun kimi lirik ricətlərdə vermiş, Çin, Polşa, Almaniya, Afrika, Macarıstan, Misir, Koreya, Cənubi Azərbaycanın inqilabi hərəkatını xatırlamışdır. Xirosima dəhşətlərinə etiraz etmişdir. "Atalar-oğullar" poeması müharibə mövzusundadır, milli-bəşəri ideyaları, taleləri ifadə edir. Lirik poema olan "Bayatı-Şiraz"da (1964-1972) şair insan və dünyanı milli-bəşəri dəyərlərdə mənalandırmışdır. Xəlil Rza "Əfsanəli bir ölkə" poemasında siyasi-ekoloji məsələlərdən danışmışdır. "Həsrət" (1971) poemasının mövzusu Güneydir. Təbrizə, onun tarixi keçmişinə lirik münasibət bildirilən əsərdə yadelliliyin, Təbrizə qənimliyin ifadəsi də təsirlidir. Şairə görə, nə qədər ki səngərlər var, o qədər də azadlıq eşqi olmalıdır. 1980-ci illərdə X.R.Ulutürk "Hara gedir bu dünya", "İki qardaşın söhbəti", "Qalx ayağa, Vətənim" poemalarını çap etdirmişdir. "Hara gedir bu dünya" poeması dünyanın ictimai-siyasi hadisələrinə etirazın ifadəsidir. Sənətkar insan və mühit, tarix və cəmiyyət arasında olan təzadları göstərməyə çalışmışdır. "İki qardaşın söhbəti" poeması Güney mövzusunda lirik əsərdir. Poema Xalq şairi Söhrab Tahirə müraciətlə yazılmışdır. Şairin tarixə siyasi müraciəti xalqın taleyinə vətəndaş yanğısından irəli gəlmişdir. X.R.Ulutürk azadlıq hərəkatına

[1] Xəlil Rza Ulutürk. Seçilmiş əsərləri. Beş cilddə, II c. – Bakı: Elm, 2011

qoşulduqdan sonra 1990-cı illərin sosial-siyasi hadisələri fonunda "Məftillə sarınmış yaralar" poemasını yazmışdır. "Qanım bayrağımdadır" poeması milli azadlıq mövzusundadır, 20 Yanvar şəhidlərinə həsr olunmuş, 1991-1994-cü illərdə yazılmış lirik parçalardan ibarətdir. Şair şəhidliyi 1918-ci ilin Azadlıq şəhidliyinin davamı kimi dəyərləndirmişdir.

X.R.Ulutürk zəngin mədəniyyət və mental təfəkkür sahibidir. Şair sosial-siyasi ziddiyyətləri dərk etdikcə onun azadfikirlilik ideyaları da güclənmişdir. Alim Azərbaycan Pedaqoji İnstitutunda müəllim, Akademiyada elmi işçi vəzifələrində çalışanda gənclərin siyasi tərbiyəsi, onlarda azadfikirlilik ruhunun formalaşması üçün gizli təbliğat aparmışdır. O, "Çənlibel" siyasi dərnəyinin iştirakçısı olanda da gəncliyi sosial haqsızlıqlara, imperiyaya qarşı mübarizələrə səsləmişdir. Xəlil Rza 1988-ci ildən erməni şovinizmi və sovet imperiyasına qarşı mübarizəyə başlamışdır. Azərbaycanın bütün bölgələrində siyasi çıxışlar etmiş, xalqı mütəşəkkil səfərbərliyə çağırmışdır. Onun qüdrətli çıxışlarının məğzində Azərbaycanın siyasi müstəqilliyi və demokratiya yolu ilə inkişafı ideyası dayanmışdır. Belə mövqe şairi "qara siyahıya" salmış, imperiyanın zindanlarına doğru aparıb çıxarmışdır. Xəlil Rza 26 yanvar 1990-cı ildən 9 oktyabr 1990-cı ilə qədər, 8 ay 13 gün Lefortovo zindanının hücrəsində (kamerasında) saxlanılmışdır.[1] O, "milli ədavəti qızışdırmağa görə" SSRİ Baş Prokurorunun müavini İ.Abramovun əmrinə əsasən həbs olunmuş, ona 3 aydan 10 ilədək həbs müddəti verilmişdir. Şair 27 yanvar 1990-cı ildə Moskvanın Lefortovo zindanına gətirilmişdir. İlk mühakiməsi 30 yanvar 1990-cı ildə başlanmış, ilk cinayət işi 20 yanvar 1990-cı ildə Bakı Şəhər Prokurorluğu tərəfindən kütləvi iğtişaşla əlaqədar olaraq qaldırılmışdır. Xəlil Rza "noyabr 1989 – yanvar 1990-cı il tarixlərində Bakı şəhərində guya şəxsən və bir dəstə adamla mitinqlərdə şəhərin mərkəzi meydanında qəsdən millətlərarası düşmənçiliyə, ayrı-seçkiliyə, erməni millətinin şəxsiyyətini, ləyaqətini alçaldan və onların millətindən asılı olaraq konstitusiya hüquqlarını məhdudlaşdıran hərəkətlər etdiyinə"[2] görə ittiham edilmişdir. Azərbaycanda 20 aprel 1990-cı ildə "Xəlil Rzanı müdafiə komitəsi" yaradılmış, Xalq yazıçıları İsmayıl Şıxlı və Anarın rəhbərliyi ilə Azərbaycanın ictimai xadimləri, şair, ədibləri, mədəniyyət və elm nümayəndələri, bütün ictimaiyyət "Xəlil Rzaya azadlıq!" tələb etmişdir. Xəlil Rzanın azad olunması üçün xalqın topladığı kütləvi imzadan ibarət olan qovluqlar hazırda Azərbaycan Milli Arxivində saxlanılır.[3] Şair Lefortovo zindanında 2000 səhifədən çox əsər yazmışdır. Bundan 197 şeiri azadlığa

[1] Əlizadə Əsgərli. Milli ideal mücahidi. – Bakı: Elm, 2005, s.269-287
[2] Əlizadə Əsgərli. Milli ideal mücahidi / İttihamnamə. – Bakı: Elm, 2005, s.270-278
[3] Salman Mümtaz adına Azərbaycan Dövlət Ədəbiyyat və İncəsənət arxivi. Fond 30. Xəlil Rza. Siyahı 2

buraxıldıqdan sonra "Qıfılı o üzdən olan qapılar" adı altında "Davam edir 37" kitabına daxil edilmişdir. Həmin əsərlər içərisində A.S.Puşkin, M.Y.Lermontov, A.Blokdan tərcümələri və həyat yoldaşı Firəngiz xanıma həsr etdiyi şeirləri vardır. Xəlil Rzanın zindan əsərləri Azərbaycan ədəbiyyatında Xaqani və Fələkinin "Həbsiyyə" adı altında tanınmış şeir ənənələrinin XX əsrdə davamı idi.

Xəlil Rza "Qardaşlıq çələngi"[1] adlı tərcümə kitabında (1982) 111 şairin əsərini dilimizə çevirmişdir. Həmin əsərlərin ideyası, motivləri milli, bəşəri ideallarla, xalq mənəviyyatı məsələləri ilə bağlıdır. Milli və bəşəri tərəqqi uğrunda mübarizə, vətənpərvərlik, humanizm və müstəmləkəçiliyə qarşı istiqlal əzmi həmin əsərlərin başlıca leytmotivi olmuşdur. 1984-cü ildə çap etdirdiyi "Dünyaya pəncərə"[2] kitabında şair sülh, azadlıq, demokratiya, istiqlaliyyət, vətənpərvərlik və humanizm ideyalarını əks etdirən əsərləri dilimizə çevirmişdir. Şairin "Turan çələngi" (1992; 2005) kitabında[3] Azərbaycan, türk, özbək, qazax, qırğız, tatar, Krım türklərinin ədəbi örnəkləri dilimizə uyğunlaşdırılmışdır, Turan dünyası, onun mədəniyyət qaynaqları bir məcrada birləşdirilmişdir. Xəlil Rza 53 türk sənətkarından qəzəl, qəsidə, rübai, qitə, radiopyes, faciə və başqalarını dilimizə çevirmişdir. Şair bunları ortaq dil, ortaq məkan təfəkkürü və ideya-nəzəri qaynaqları kimi dəyərləndirmişdir. İlya Selvinski 1940-cı ildə "Babək" ("Çiynində qartal gəzdirən") faciəsini yazmış və 1946-cı ildə "Sovetski pisatel" nəşriyyatında çap etdirmişdir. Əsərin azadlıq ideyası, yüksək romantikası, xarakter mükəmməlliyi Xəlil Rzanın xüsusi marağına səbəb olmuş və o, 1970-ci ildə həmin əsəri əruzla dilimizə çevirmiş və çap etdirmişdir.[4] Şairin Robert Rojdestvenskidən etdiyi tərcümələrin səbəbi də azadlıq ideyasına görədir. 1984-cü ildə nəşr olunmuş "Otuzuncu əsrə məktub"[5] kitabı da Xəlil Rza və Rojdestvenskinin oxşar ruhunun poetik nailiyyəti kimi qiymətlidir. Musa Cəlilin "Moabit dəftəri" adlı şeirlər silsiləsinin dilimizə tərcüməsi tatarcadandır.[6] Xəlil Rza Musa Cəlil vətənpərvərliyindən, onun azadlıq eşqindən ruhlanaraq əsərlərini dilimizə çevirmişdir. X.R.Ulutürkün uğurlu tərcümələrindən olan Y.Balasaqunlunun "Qutadqu bilik" (1998; 2003) poeması türkdilli xalqların ortaq sərvətidir.[7] Həmin poema elmin və dövlətçiliyin təbliği baxımından əhəmiyyətlidir. Poemanın siyasi-ideoloji fikir məzmunu Ulutürkün diqqətini cəlb etmişdir. Əsərin bəşəri ideyası ideal cəmiyyət quruculuğu ilə əlaqəlidir. Xəlil

[1] Xəlil Rza. Qardaşlıq çələngi. – Bakı: Maarif, 1982
[2] Xəlil Rza. Dünyaya pəncərə. – Bakı: Maarif, 1984
[3] Xəlil Rza Ulutürk. Turan çələngi. – Bakı: Elm, 1992; 2005
[4] İlya Selvinski."Babək" (tərcüməçi Xəlil Rza). – Bakı: Gənclik, 1975
[5] Robert Rojdestvenski. Otuzuncu əsrə məktub (tərcüməçi Xəlil Rza). – Bakı: Gənclik, 1984
[6] Musa Cəlil. Moabit dəftəri (tərcüməçi Xəlil Rza). – Bakı: Yazıçı, 1979
[7] Yusif Balasaqunlu. Qutadqu bilik (tərcüməçi Xəlil Rza). – Bakı: Gənclik, 1998; 2003

Rza Ə.Xaqani, N.Gəncəvi, Q.Təbrizi, M.N.Tusi, S.Təbrizi və M.Ş.Vazehin bir sıra əsərlərini farscadan dilimizə çevirmişdir. Nizaminin "Sirlər xəzinəsi", "Yeddi gözəl" və "İskəndərnamə" poemalarının dilimizə son tərcüməsi[1] də Xəlil Rzaya məxsusdur. Şairin "Qardaşlıq çələngi" və "Dünyaya pəncərə" adlı tərcümə kitabları 2012-ci ildə həyat yoldaşı Firəngiz xanım Ulutürk tərəfindən "Dünyaya pəncərə" adı ilə yenidən nəşr edilmişdir.[2]

X.R.Ulutürk publisistik fəaliyyəti keçən əsrin 50-ci illərindən başlamışdır. 1960-cı illərdən başlayaraq Azərbaycanın milli-mənəvi dəyərlərini daha çox təbliğ etmişdir. "Sumqayıtın günəşi", "Rüstəmin dilindən", "Nəğmə kimi ötən günlər", "Gözəlliyin keşiyində", "Bahar-bahar", "Qızıl gül kimi" məqalələri Sumqayıt, Lənkəran, Astara və Ordubad bölgələri haqqındadır. Xəlil Rzanın 1960-cı illər məqalələrinin mövzusu müxtəlifdir. Şair insan mənəviyyatından yazmış, konkret insanları oçerkləşdirmiş, təbiətdən, tarixi şəxsiyyətlərdən söz açmışdır. "Göygöl kimi saf, gözəl", "Bir salxım üzüm", "Qoşqarçay axan yerdə", "Oğurlanmış dahi", "Qayalar kimi qüdrətli" məqalələri təbiət və insan barəsindədir. Xəlil Rza publisistik məqalələrinə geniş şərh, izah səciyyəsi verməmiş, daha çox qarşı tərəfi danışdırmış, informasiyanı özündən və qarşı tərəfdən ötürmüş, obyektivliyi, elmiliyi və tarixiliyi gözləmişdir. Onun 1960-cı illərin ikinci yarısında yazdığı ədəbi-publisistik məqalələri məşhur insanlar və tarixi şəxsiyyətlərlə bağlıdır. "Professor Əkrəm Cəfər danışır" (1969), "Qızıl gül düşür yada" (1969), "Yusif Ziya Şirvanlı" (1969), "Səngərdə doğulmuş sətirlər" (1967), "Unudulmaz saatlar" (1968), "Ənənə qol-budaq atır" (1968), "Vaqif sənətinə yaraşan fırça" (1968), "Öləndən sonra da yaşayır insan" (1969), "Şairin sevgilisi" (1969) məqalələri 1960-cı illərin bədii publisistikası, memuar xüsusiyyətləri ilə zəngin və səciyyəvidir.

X.Rzanın yazılarında milli-bəşəri dəyərlər güclüdür. "Qardaşım Əli Mahmud" (1971), "Türkana doğru" (1971), "Zaqatala muzeyində", "Alimin qayğıları" (1973), "Böyük Axuminin sorağında" (1975), "Əziz, sevimli Siyumə xanım" (1975) məqalələri həmin illərin ədəbi-publisistik yazılarındandır.

X.R.Ulutürkün 1980-ci illərin sonlarından yazdığı publisistik məqalələri, əsasən, siyasi mövzudadır. Siyasi publisistika onun yaradıcılığında xüsusi kəsər və bədii siqlət kəsb etmişdir. Xəlil Rza bu illərdə bütün gücünü siyasi hadisələrin qələmə alınmasına, tarixləşdirilməsi və xronologiyalaşdırılmasına doğru yönəltmişdir. Həmin yazılarda həm də Azərbaycanın milli azadlıq hərəkatının salnaməsi yaşayır.

---

[1] Xəlil Rza Ulutürk. Nizami Gəncəvi. Sirlər xəzinəsi. Lirikası. – Bakı: Yazıçı, 1988; "Yeddi gözəl". – Bakı: Ensiklopediya, 2000; "İskəndərnamə". – Bakı: Gənclik, 2002

[2] Xəlil Rza Ulutürk. Dünyaya pəncərə ("Qardaşlıq çələngi" və "Dünyaya pəncərə" bir yerdə). – Bakı: Şərq-Qərb, 2012

Xəlil Rza memuar yaradıcılığına 1960-cı illərdə başlamışdır. O, 1962-1963-cü il tarixli gündəliyində bu barədə məlumat vermişdir. "Gündəlik – ürəyimin tərcümeyi-halıdır. Buna görə də hər kəsin, xüsusilə də işi-peşəsi xalqın taleyi ilə bağlı olan adamların gündəlik yazması, zənnimcə, bir işdir. Amma düz yazasan. Hər halda buna mümkün qədər səy etmək lazımdır. Çoxdan gündəlik yazmaq fikrindəydim. Ətalət imkan vermirdi. Axır vaxtlar deyirdim: "Qoy dissertasiyanı bitirim, sonra başlaram. Bu vədimə əməl edirəm".[1] Xəlil Rza 1962-ci ildən ömrünün sonunadək gündəlik (elmi-tarixi memuar) yazmışdır. Memuarlardan 1960-1990-cı illərin sosial-tarixi şəraiti, mənəvi-psixoloji və elmi-nəzəri səviyyəsi aydın görünür. Professor Əkrəm Cəfər yazmışdır: "Xəlil Rza 300 cilddən artıq gündəliyin müəllifidir. Hərəsi bir dissertasiya həcmində olan bu üç yüz cild, heç şübhəsiz, elmi-tarixi memuarlar kimi qiymətləndiriləcək və ən yüksək mükafata layiq görüləcəkdir".[2] 2004-cü ildə "Gəl, ey səhər", 2005-ci ildə "Ustadım Əkrəm Cəfər", 2006-cı ildə "Lefortovo zindanında", 2007-ci ildə "Bir odlu gözləri, bir də xoş səsi", 2009-cu ildə "Həyat, həyat deyə çırpınan könül" və "Mənim Tanrım gözəllikdir" (2009) adları ilə X.R.Ulutürkün elmi-tarixi memuarlarının az bir qismi çap edilmişdir.

Xəlil Rza yaradıcılığında mental təfəkkür milli-məfkurəvi şüur, milli ideologiya ilə möhkəm bağlıdır. O, güclü vətənpərvər, milliyətçi və beynəlmiləlçi mütəfəkkir olmuşdur. Xəlil Rza ana dilinin işləkliyi, təbliği, qorunması və təmizliyi uğrunda ardıcıl mübarizə aparmışdır. O, dilə münasibəti təkcə Azərbaycan dili kimi yox, həm də türkçülük siyasəti, ideoloji-mədəni münasibətin üzvi hissəsi kimi ifadə etmişdir. Xəlil Rza Ulutürk Qarabağ hadisələri başlayanda bir ideoloq, mücahid və azadxah olmuşdur. Onun siyasi-ideoloji fəaliyyətinin əsasları "Lefortovo zindanında" adlı elmi-tarixi memuarında ifadə edilmişdir.[3] Kitab şairin 1988-1993-cü illər həyatının tarixi əksidir.

Xəlil Rza Ulutürkün qüdrətli ictimai-siyasi poeziyası, ədəbi-tənqidi görüşləri, bədii tərcümə və publisistikası, elmi-tarixi memuarları ədəbiyyatımızda, ictimai fikir tariximizdə orijinal ədəbi hadisə olub, milli-bəşəri idealları, Azərbaycan dövlətçiliyi və xalq taleyi problemlərini daha yüksək səviyyədə təcəssüm etdirmiş, görkəmli şair, mütəfəkkir şəxsiyyət, ictimai xadim və milli azadlıq hərəkatının mücahidi olan sənətkarı daha çox fərdiləşdirmişdir.

[1] Xəlil Rza Ulutürkün şəxsi arxivindən. "Bakı" qəzeti, 14 noyabr 1962-ci il
[2] Yenə orada
[3] Xəlil Rza Ulutürk. Lefertovo zindanında. – Bakı: Azərnəşr, 1998; – Bakı: Çinar-Çap, 2006

MƏMMƏD ARAZ
(1933-2004)

Görkəmli Xalq şairi Məmməd Araz mənalı, keşməkeşli və şərəfli, bütövlüklə Vətənə və sənətə həsr olunmuş əsl şair-vətəndaş ömrü yaşamışdır. Sənətkarın tərcümeyi-halı, taleyi və dünyagörüşü də daha çox onun əsərlərində öz əksini tapmışdır:

Məni şeirimdə gəz bir insan kimi,
Qəlbimdə nə varsa, ona demişəm.
Anadan-bacıdan gizlətdiyimi
Kağızdan, qələmdən gizlətməmişəm.[1]

Məmməd Arazın şeirləri isə nəinki onun özünün və hətta mənsub olduğu xalqın da qeyri-adi poetik tərcümeyi-halının bədii ifadəsidir. Məmməd Arazın tərcümeyi-halı və əsərləri xalqımızın XX əsrin əllinci illərindən sonrakı çətin, keşməkeşli, işıqlı və ibrətamiz həyat yolunun üzvi tərkib hissəsi, əks-sədasıdır.

Həyatı. Məmməd Araz (Məmməd İnfil oğlu İbrahimov) 14 oktyabr 1933-cü ildə Naxçıvan Muxtar Respublikası Şahbuz rayonunun Nursu kəndində anadan olmuşdur. O, 1940-cı ildə – Şahbuz rayonunun Nursu kənd orta məktəbinin birinci sinfində təhsilə başlamışdır. Atası İnfil kişi 1945-ci ildə dini təşkilatlarla əlaqədar olması bəhanə gətirilərək həbs edilmiş, 1955-ci ilədək Qazaxıstanda sürgündə olmuşdur.

Şahbuz rayonunun Kənd Şahbuz orta məktəbini bitirdikdən sonra Məmməd İbrahimov 1950-1954-cü illərdə Azərbaycan Pedaqoji İnstitutunun (indiki Azərbaycan Dövlət Pedaqoji Universiteti) Coğrafiya fakültəsində təhsil almış, yazıçı İsmayıl Şıxlının institutda təşkil etdiyi ədəbiyyat dərnəyinin iştirakçısı olmuş, burada Xalq şairi Səməd Vurğun və yazıçı Əli Vəliyevlə keçirilən görüşdə çıxış etmişdir. Tələbə ikən 1952-ci ildə "İnqilab və mədəniyyət" jurnalında dərc olunmuş "Yanın, işıqlarım" şeiri ilə ədəbiyyat aləminə qədəm qoymuşdur. Azərbaycan Pedaqoji İnstitutunda keçirilən təntənəli buraxılış gecəsində "Ayrılıq" adlı şeirini oxumuşdur.

Məmməd İbrahimov 1955-1956-cı illərdə Şahbuz rayonunda müəllimlik etmişdir. Burada o, "Bulaq başında", "O baxışlar", "Kəklik", "Qonşu gəlin" və başqa şeirlərini yazmışdır. Ədəbi mühitdə daha yaxından iştirak etmək məqsədilə 1957-ci ildə Bakıya köçən Məmməd İbrahimov Azərbaycan Nazirlər Soveti yanındakı Baş Mətbuat İdarəsində müvəkkil vəzifəsinə təyinat almışdır. Dövri mətbuatda şeirlərlə çıxış edən Məmməd İbrahimov Azərbaycan Yazıçılar İttifaqının üzvlüyünə qəbul edilmişdir.

[1] Məmməd Araz. Seçilmiş əsərləri. Dörd cilddə, I c. – Bakı: Ozan, 2003, s.117

Gənc şairin "Sevgi nəğməsi" adlı ilk şeirlər kitabı 1959-cu ildə Bakıda "Azərnəşr" tərəfindən çap edilmişdir. Məmməd İbrahim həmin il Moskvada SSRİ Yazıçılar İttifaqı nəzdindəki Ali Ədəbiyyat Kursuna daxil olmuşdur. Ali Ədəbiyyat Kursunda 1961-ci ildə təhsilini başa çatdırmış, Bakıda "Maarif" nəşriyyatında redaktor vəzifəsində işə başlamışdır. Dərhal "Üç oğul anası" adlı şeirlər kitabı "Uşaqgəncnəşr" tərəfindən çap edilmişdir.

Qısa müddət ərzində ədəbiyyat cəbhəsində istedadlı bir şair kimi tanınan Məmməd İbrahim 1963-cü ildə Azərbaycan Dövlət Nəşriyyatında Bədii ədəbiyyat redaksiyasının müdiri vəzifəsinə irəli çəkilmişdir. Yeni nəşr edilmiş "Mən səni tapıram" adlı şeir kitabı onu Azərbaycan şeirinin yeni mərhələsini yaradan şairlərin sıralarına çıxarmışdır.

Məmməd Arazın "Araz axır" adlı poemalar kitabı 1964-cü ildə çapdan çıxmış və şairə böyük nüfuz qazandırmışdır. Eyni zamanda 1966-cı ildə çap olunmuş "Anamdan yadigar nəğmələr" adlı şeir kitabı ilə o, ədəbi mühitdə özünü əsl istedadlı bir şair kimi təsdiq etmişdir.

Məmməd Araz 1967-ci ildə "Ulduz" jurnalında məsul katib kimi fəaliyyətə başlamışdır. Sonra o, 1970-ci ildə "Ədəbiyyat və incəsənət" qəzetində baş redaktorun müavini vəzifəsinə təyin edilmişdir. Azərbaycan nümayəndə heyətinin tərkibində Fransada səfərdə olmuş professor Abbas Zamanovun təşəbbüsü ilə burada mühacirətdə yaşayan rəssam Səlim Turan Hüseynzadə ilə görüşmüşdür.

"Ədəbiyyat və incəsənət" qəzetində 1972-ci ildə Nəriman Nərimanovun anadan olmasının 100 illiyi münasibətilə hazırlanmış xüsusi buraxılışda verilmiş materiallara, xüsusən, "Nərimanovun heykəlinin şəklinin iri panoramada birinci səhifədə verilməsinə"[1] görə Məmməd Araz millətçi kimi baş redaktorun müavini vəzifəsindən uzaqlaşdırılmış, ona töhmət verilmişdir. Bundan sonra o, 1973-cü ildən Azərbaycan Dövlət Nəşriyyatı Baş redaktorunun müavini kimi fəaliyyətini davam etdirmişdir. Nəhayət, Məmməd Araz 1974-cü ildə Yeni nəşrə başlayan "Azərbaycan təbiəti" jurnalının baş redaktoru olmuş və ömrünün sonuna qədər bu vəzifədə çalışmışdır.

XX əsrin yetmiş-səksəninci illərində Məmməd Arazın "Atamın kitabı", "Qanadlı qayalar", "Daş harayı", "Aylarım, illərim", "Dünya sənin, dünya mənim" kitabları nəşr edilmiş, bununla da Məmməd Araz ədəbiyyatdakı yüksək yerini bir daha təsdiq etmişdir.

Azərbaycan Dövlət Mükafatı almaq üçün "Dünya sənin, dünya mənim" adlı şeirlər kitabı 1984-cü ildə təqdim olunmuş, lakin mükafat verilən əsərlərin sırasına vəsiqə ala bilməmişdir. Nəhayət, Məmməd Araz 1988-ci ildə Azərbaycan və "Ulduz" jurnallarında çap olunmuş şeirlər silsiləsinə görə Azərbaycan Respublikasının Dövlət Mükafatını almışdır.

[1] Vaqif Yusifli. Məmməd Araz dünyası. – Bakı: Elm və təhsil, 2024, s.23

Tərcüməçilik fəaliyyəti ilə də məşğul olan Məmməd Arazın ayrı-ayrı xalqlara məxsus əsərlərdən etdiyi tərcümələr "Yazıçı" nəşriyyatı tərəfindən çap olunan "Ocaq başında" adlı kitaba daxil edilmişdir.

Məmməd Araz 1991-ci ildə Azərbaycan Respublikasının Xalq şairi fəxri adına layiq görülmüşdür. O, 1984-cü ildə Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi fəxri adını almış, Azərbaycan Respublikası Ali Sovetinin Fəxri Fərmanına layiq görülmüşdür. Bundan başqa, Türkiyədə Məhəmməd peyğəmbərin mövlud günü münasibətilə keçirilən poeziya müsabiqəsində "Ya rəbbim, bu dünya sən quran deyil" adlı şeirinə görə xüsusi mükafatla təltif olunmuşdur (iyul). "Dədə Qorqud" Assosiasiyası XX əsrin doxsanıncı illərində Məmməd Araz mükafatı təsis etmişdir.

Xalq şairi Məmməd Arazın 1993-cü ildə anadan olmasının 60 illiyi münasibətilə Müslüm Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında şair Sabir Rüstəmxanlının aparıcılığı ilə yubiley gecəsi keçirilmişdir. Şairin anadan olmasının 60 illiyi Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında və Naxçıvan Dövlət Universitetində də qeyd edilmişdir.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Fərmanı ilə Məmməd Araz 1995-ci ildə "İstiqlal" ordeni ilə təltif olunmuşdur.

Xalq şairi Məmməd Araz 1 dekabr 2004-cü ildə Bakı şəhərində vəfat etmiş və I Fəxri Xiyabanda dəfn olunmuşdur.

***

Yaradıcılığı. Göründüyü kimi, Xalq şairi Məmməd Arazın uşaqlığı və ilk gənclik illəri qədim Naxçıvan diyarında keçmişdir. Şahbuz dağlarının saf ab-havası, səfalı Batabat yaylağının, Salvartının, Çadırdaş ətəyindəki obaların axar-baxarı Məmməd Arazın ruhuna hopmuşdur. O, "bütün aləmə" – Vətənə və dünyaya yayda günəşi, qışda qarı bol olan, ürəyinin bir parçası adlandırdığı Naxçıvandan baxmışdır. Naxçıvan Məmməd Arazın təkcə tərcümeyi-halının – həyatının deyil, sənətinin də start nöqtəsi olmuşdur. Məmməd Araz həyatının sonrakı çətin dövrlərini, sənətin eniş-yoxuşlarını daim sinəsində hifz etdiyi həmin "dağ havası" ilə uğurla keçə bilmişdir:

Sinəmdə o yerin dağ havasıdır,
Qaynar bulaqları qaynar qanımda.
Mənim ürəyimin bir parçasıdır,
Doğma Şahbuzum da, Naxçıvanım da.

Bir bağban əli var təbiətində –
Dağda çiçəyi bol, bağda barı bol.
O, yaxın dostudur təbiətin də
Yayda günəşi bol, qışda qarı bol.

Mən burdan baxıram bütün aləmə.
Bu yerin qışı da yazımdır mənim.
Axan çaylarına lal sudur, demə
Onlar min nəğməli sazımdır mənim.[1]

Böyük rus yazıçısı Mixail Şoloxov üçün Sakit Don, Xalq şairi Səməd Vurğunun yaradıcılığında Kür qırağı, Qarayazı..., Şərqi Avropa yazıçılarına görə Mavi Dunay, rus ədəbiyyatının böyük bir nəslinin təsəvvüründə Volqa çayı hansı əhəmiyyətə malikdirsə, Məmməd Arazdan ötrü də Naxçıvan – xan Araz həmin mənaları daşıyır. Məmməd Arazın yaradıcılığında Çadırdaş ətəyindən, Nursu bulağından başlanan poetik təəssüratlar, kövrək notlar xan Arazın tərənnümü timsalında yüksək vətəndaşlıq mahiyyəti ilə zənginləşərək tamamlanır. Bu mənada Məmməd Arazın şeirlərində Araz mövzusu bütövlükdə Vətən anlayışını diqqətə çatdırır. Məmməd Arazın var gücü ilə "Mən Araz şairiyəm" deməsi əslində Vətənin, məmləkətin, xalqın milli-mənəvi bütövlüyünün şairi olmaq mənasını ifadə edir.

Məmməd Arazı əhatə edən ana təbiətdəki saflıqla ata ocağı mühitindəki halallıq, yüksək mənəviyyat, təmizlik, mənəvi saflıq və zəhmətkeşlik həmişə vəhdət təşkil etmişdir. Atası İnfil kişinin halal zəhməti, yorulmaz zəhməti, bütün ömrü boyu yalnız alın təri ilə yaşamağın qovğalarına qatlaşması Məmməd Arazın dünyagörüşünün, gələcək mərdanə poeziyasının formalaşmasında mühüm rol oynamışdır.

Azərbaycan ədəbiyyatında özünəməxsus yer tutmuş Məmməd Araz ulu babalardan qoruna-qoruna gəlmiş, həmişə "çırpısı tətikdə, odunu dəmdə" olan, əli qabarlı tipik bir azərbaycanlı ailəsində böyüyüb tərbiyə almışdır. Onun milli ruhlu şair-vətəndaş kimi formalaşmasında "Çadırdaş ətəyi, Nursu bulağı"ndan başlamış "qaynar bulaqları qanında qaynayan" səfalı Şahbuz, "ürəyinin bir parçası" saydığı doğma Naxçıvan, "Dağları titrədən", "Hər telimin havalı", "Araz həsrəti", habelə bütün Azərbaycanı əhatə edən ictimai-coğrafi və ədəbi mühit fəal iştirakçı olmuşdur. Bununla belə, Məmməd Arazın ata ocağı sözün həqiqi mənasında bütöv bir xalqı və böyük bir vətəni təmsil edən ümumiləşmiş Azərbaycan ocağıdır. Məmməd Araz şeiri Ata ocağının – Vətənin həmişəyaşar odu, közü, çırpısı-odunu, alovu, od qoruyanıdır.

Çırpısı tətikdə, odunu dəmdə,
Şəhərin gözündən od alıb ocaq.
Yanır aram-aram, odu sinəmdə,
Sonra kim söndürüb, kim yandıracaq?..

[1] Məmməd Araz. Seçilmiş əsərləri. Dörd cilddə, I c. – Bakı: Ozan, 2003, s.287

Babandan qalıbdır bu ocaq bizə,
Bir ocaq sönəndə bir tifaq itir.
Bir ocaq söngüsü qeyrətimizə
Bir düşmən nəslinin qəhqəhəsidir;

Apar bu oçağı evində yandır,
O gözdən qor alır, gözdən odlanır.
Kişi yer üzündə od qoruyandır,
Kişi ona görə kişi adlanır".[1]

Şeirlərindən aydın görünür ki, İkinci Cahan müharibəsi illərinin bütün uşaqları ilə birlikdə Nursu kəndinin balaca sakini, "axşam məktəbli, gündüz çoban" olan Məmməd İbrahimov da dərslərdə verilmiş məsələ-misallar, sual-cavablar kimi ilk qələm təcrübələrini obrazlı şəkildə "tapşırıq dəftəri" adlandırdığı "sal daşlar üstündə" yazmalı olmuşdur. Bu, o zaman idi ki, müharibə aparan ölkədə hər məktəbdə bir kitabın, hər sinifdə bir dəftərin olması ancaq mümkün idi. Bu mənada Çadırdaş ətəyində, Şahbulaq yaylağı ətrafındakı yazı masasına bənzəyən sal daşlar Məmməd Arazın ilk şeir dəftərinin daşlaşmış səhifələridir. Bəlkə də ilkin başlanğıcı daşla bağlı olan bu poeziyada daş motivinin sonralar əsas aparıcı mövzulardan birinə çevrilməsinin mühüm səbəblərindən biri də budur.

Daş mövzusu, filosofların fikrincə, dünyanın əsasını təşkil edən dörd ünsürdən birinə – ana torpağa olan inamın ifadəsidir. Məmməd Araz poeziyasında isə daş bütövlük, Vətənə, torpağa bağlılıq, gərəkli olmaq, əsl vətəndaşlıq mənalarını ifadə edir. Şair hətta özünü də milli şeirimizin "daş əsgəri" hesab edir. Xalq şairi Məmməd Arazın qələmindən çıxmış və məşhur zərbi-məsələ çevrilmiş "vətən daşı olmayandan olmaz ölkə vətəndaşı" misrası daşla Vətən və vətəndaşlıq arasında bərabərlik işarəsi qoymağa gətirib çıxarmışdır. Sözün geniş mənasında Məmməd Araz özü də ana torpağın, Vətən daşlarının vətəndə ilhamlı tərənnümçüsüdür. Şeirlərində deyildiyi kimi, Məmməd Araz "daş ayaqlı-daş əlli" bir insan-qaya obrazı səviyyəsinə yüksəlmişdir. İlk şeir dəftəri sal daşlar olan Məmməd Araz milli şeirimizin möhtəşəm, uca məğrur "Vətən daşıdır".

Burası da maraqlıdır ki, Məmməd Arazın yaradıcılığında Daş obrazı və ya mövzusu digər şairlərlə müqayisədə daha çox və rəngarəng mənalar daşıyır, çeşidli mətləbləri ifadə etməyə xidmət göstərir. Məmməd Arazın şeir dünyası sanki poeziyamızın "daş zəmisidir". Bu məqamda onun yaradıcılığında "daş olmaq… möhkəm olmaq, əzəmətli olmaq, mətin olmaq anlamında işlədilmişdir".[2] Təsadüfi deyildir ki, şairin kitablarından biri də

[1] Məmməd Araz. Seçilmiş əsərləri. Üç cilddə, II c. – Bakı: Ozan, 2003, s.81
[2] Nizami Muradoğlu. Sözün Məmməd Araz zirvəsi. – Bakı: Elm və təhsil, 2013, s.50

“Daş harayı” (1992) adlanır. Ədəbiyyatımızda “Vətən qayaları, Vətən daşları” şeirlər silsiləsini də Məmməd Araz yaratmışdır.

Məmməd Araza məxsus olan “İnsan – qayalar”, “Şair, qayalara, dağlara söykən”, “Əlvida, dağlar” şeirləri Azərbaycan poeziyasında həmin mövzuda meydana çıxmış ən yaxşı şeirlər sırasında şah əsərlər olaraq dağ kimi əzəmətlə durur. Bu, ilhamlı şeirlər Məmməd Arazın möhkəm iradəsinin, poeziyanın keşiyində əsgər kimi mətin dayanmasının poetik təzahürləri kimi meydana çıxır.

Məmməd Araz şeirinin əsas ilham qaynaqlarından biri də Xalq şairi Səməd Vurğunun yaradıcılığı olmuşdur. Ümumiyyətlə, XX əsrin 30-60-cı illər poeziyasının əksər nümayəndələrinin şeirləri Səməd Vurğunun poetik rübabı üstündə köklənmişdir. Məmməd Araz da hələ təhsil aldığı kənd məktəblərində ikən Səməd Vurğunun şeirlərini həvəslə mütaliə etmiş, Bakıda, Azərbaycan Pedaqoji İnstitutunun Coğrafiya fakültəsində oxuyarkən tələbələrlə görüşə gələn Xalq şairi ilə şəxsən tanış olmaq imkanı qazanmışdır. Hətta onun ilk mətbu əsəri olan “Yanın, işıqlarım” şeiri də həmin görüşün iştirakçılarının – Səməd Vurğun və Əli Vəliyevin sınağından çıxdıqdan sonra mətbuata yol tapmışdır. Az sonra, 1950-ci illərin ortalarında Şahbuz rayonunda müəllimlik etdiyi illərdə Səməd Vurğuna həsr olunmuş silsilə şeirlər yazması onun bu ədəbi məktəbə bağlılığını, sədaqətini açıq-aşkar nəzərə çarpdırır. 1966-cı ildə yazılmış “Səməd Vurğunla söhbət” şeiri isə artıq təkcə ustad-şagird münasibətlərinin ifadəsi deyil, Xalq şairinin vəfatından keçən on il ərzində “şeirin xidmətçisi”, “yiyəsi” olmaq səlahiyyətlərini öz üzərinə götürməyə səy göstərən yetkin bir qələm və böyük, təbii ilham sahibinin müstəqil poetik düşüncələridir. Hətta bundan da on il sonra – 1976-cı ildə tamamlanmış “Qayalara yazılan səs” poemasında da o, “Vurğun bulağından” su içdiyini səmimiyyətlə etiraf etməyi özünə borc bilmişdir. Bütün bu məqamlarda Məmməd Araz təkcə “çırpısı tətikdə, odunu dəmdə” olan ata ocağının deyil, həm də Xalq şairi Səməd Vurğunun adı ilə bağlı sənət ocağının od qoruyanı, keşikçisidir.

Bununla belə, 1960-cı illərin ikinci yarısından etibarən Məmməd Araz özü də Səməd Vurğundan sonra şeirimizin xəritəsinin təzələşməsindən, “şeirimizə təzə-təzə yollar” gəldiyindən bəhs etmişdir. Bu təkamül prosesi Məmməd Arazın yaradıcılığında da qabarıq şəkildə nəzərə çarpmaqdadır. Yəni 1930-1950-ci illərin poeziyasındakı zamanın tələblərindən doğan poetik dəbdəbə, ritorika, zahiri təntənə, parıltı, tərənnüm, ideoloji xəttə meyil kimi qəlibləşmiş ənənələrin buzu Məmməd Araz və onun mənsub olduğu ədəbi nəslin istedadlı nümayəndələrinin səyi, cəsarəti ilə sındırılmışdır. Əgər Səməd Vurğun yaşadığı dövrün sərt qanunları çərçivəsində daha çox zəfər yürüşlərini, nikbin əhvali-ruhiyyəni quruculuq rəşadətlərini yazmağa məcbur idisə, Məmməd Araz və onun təmsil etdiyi ədəbi nəsil yeni şəraitdə insan

mənəviyyatının dərinliklərini, ana Vətənin dərd-sərini, incə duyğuları, məhəbbəti və kədəri, ağrı-acıları qələmə almağa dərin ehtiyac hiss etmişdir. Bu mənada şairin "Ürəyimsiz kəlmə kəsən deyiləm" misrası tərənnüm poeziyasından düşüncə lirikasına qəti keçidi dolğun ifadə edir. Bununla belə, bütövlükdə ədəbiyyatda həmin prosesin asanlıqla getdiyini düşünmək də sadəlövhlük olardı. Müşahidələr göstərir ki, sərt zamanın diqtə etdiyi ideoloji xarakterə malik ümumi təsvir və tərənnümdən insan mənəviyyatının kəşfinə keçid senzor-naşir, müəllif-redaktor, oxucu-yazıçı münasibətlərini əhatə edən çətin mübarizələrdən sonra baş tutmuşdur. Məmməd Arazın şeirlərindən birində həmin dilemma öz əksini aşağıdakı kimi tapmışdır:

Qaytardı redaktor lirik şeirimi,
Qaytardı: – Zavod yox, fəhlə yox, – deyə.
Zavoddan yazdığım kiçik şeirimi,
Oxudum bu axşam qonşum fəhləyə.

Fəhlə də qınağa tutdu ki, məni,
Bəs hanı məhəbbət, lirika hanı?
Gəl indi inandır çap eləyəni,
Gəl indi sevindir sən oxuyanı.[1]

Məmməd Araz kitablarını çap edənləri çətin vəziyyətdə qoysa da, oxucunu sevindirən şeirlər yazmağın nümunəsini göstərmişdir.

***

Düşüncə lirikası, mənəviyyat ədəbiyyatı, lirik-psixoloji şeir: Xalq şairi Məmməd Arazın yaradıcılığı belə çətin labirintlərdən keçib gəlmiş, nəhayət, ədəbi mühitdə özünü təsdiq etmişdir. Şair hələ 1961-ci ildə yazdığı bir şeirində sənətdə bu yolu tutmağın zəruriliyini bütövlükdə "əsri duymaq" tələbi kimi irəli sürmüşdür:

Uzaqdan-uzağa xoşuna gəlsəm,
Məni dindirməyə tələsmə hələ.
Tanımaq istəsən məni əgər sən,
Tanış ol bu kiçik nəğmələrimlə.

Onda məhəbbətim, onda nifrətim,
Əldə varaqlanar, gözlə oxunar.
Orda həm ürəkdən gülmək adətim,
Həm üzdən kədərli görünməyim var.

[1] Məmməd Araz. Seçilmiş əsərləri. Dörd cilddə, II c. – Bakı: Ozan, 2003, s.183

...Bu mənim ilk sözüm, son sözüm deyil,
Əsri necə duydum, elə yazım qoy...
Gözəllər qəlbini qaş-gözüm deyil,
Sadə sətirlərim oğurlasın qoy.[1]

İlhamlı poeziya, həqiqi şeir-sənət Məmməd Araz yaradıcılığının tale yüküdür. Müqəddəs qələmi "söz qardaşı" hesab edən şair cismani ömründən sonrakı taleyini də kağızsız-qələmsiz təsəvvür edə bilmir:

Nə düz deməmisən, düzünü de ki,
Bu torpaq ağartsın üzünü, de ki,
Dünyaya sonuncu sözünü de ki,
Ey qardaş qələmim, desəm, deməsəm,
Mən səni özümlə aparasıyam.[2]

Poetik ənənədən, yaradıcı şəkildə faydalanma baxımından Xalq şairi Məmməd Arazın istinad etdiyi, öyrəndiyi daha iki böyük məktəb də vardır: Məhəmməd Füzuli və Mirzə Ələkbər Sabir. Şair Füzulidən sözün məsuliyyətini dərindən dərk etməyi, bədii sənətin qüdrətini yaşatmağı bacarmağı bir estafet kimi qəbul etmişdir. Onun hələ 1958-ci ildə ustad Füzulinin "Nə yanar kimsə mənə atəşi-dildən özgə, Nə açar kimsə qapım badi-səbadan qeyri" kimi şah beytinə yazdığı "Səba yeli" şeirindəki aşağıdakı səmimi etiraf söz mülkünün sultanına böyük ehtiramı, dərin məhəbbəti və əbədiyyət qazanmağı ondan öyrənməyin zərurətini qabarıq şəkildə dilə gətirir:

Sözün sehrinə bax, qüdrətinə bax!
Bir heykələ döndüm öz yerimdə mən;
Beləcə bir misra yazaydım ancaq,
Yüz il yazacağım əsərimdə mən.

...Qəlbimdə bir nəğmə dil açdı yenə,
Ay ellər, bir sevda nəğməsidir o.
Açın qapıları səba yelinə,
Açın, Füzulinin nəfəsidir o...[3]

Məmməd Araz aradan təxminən qırx ilə yaxın bir müddət keçəndən sonra yazdığı "Artıran söz qədrini" (1994) şeirində yenidən həmin mövzuya qayıtmış, bədii sözün siqləti, çəkisi, sənət yükü kimi ciddi məsələlər "ətrafında" böyük ustadla dərdləşmişdir. Ölkəmizin sərhədlərində müharibə şəraitinin, dövlət müstəqilliyimizin möhkəmləndirilməsi qayğılarının əbədi

[1] Məmməd Araz. Seçilmiş əsərləri. Dörd cilddə, I c. – Bakı: Ozan, 2003, s.117-118
[2] Məmməd Araz. Seçilmiş əsərləri. İki cilddə, I c. – Bakı: Lider nəşriyyat, 2004, s.130
[3] Yenə orada, s.11-13

mühitdə şair sözündən çox publisist sözünü ön mövqeyə çıxardığı bir dövrdə təsadüf edən bu şeirdə Məmməd Araz bədii "sözün qədrini artırmağa" ehtiyac yarandığı üçün sanki ustad Füzulini köməyə çağırmışdır:

Biz artıra bilmədik sözün qədrini, ustad!
Əydik də qamış kimi sözün qəddini, ustad!
...Beş-on çır-çırpı yığdıq "söz çələngi" adında,
Əlimizlə uçurtduq sözün səddini, ustad!
Qoca kimi sızladı, uşaq kimi bağırdı,
Sözün bayramı sandıq sözün dərdini, ustad!
Sözə əhya vermədik, sözü şeypur eylədik;
Biz düzəldə bilmədik sözün qəddini, ustad![1]

Belə ərzi-gileylərinə baxmayaraq, Azərbaycan ədəbiyyatında ən çətin məqamlarda bədii sözün qüdrəti Bəxtiyar Vahabzadə, Məmməd Araz, Xəlil Rza, Sabir Rüstəmxanlı, Zəlimxan Yaqub kimi şairlərin timsalında öz gücü və enerjisini, sənət səviyyəsini qoruyub saxlaya bilmişdir. Məhəmməd Füzuli ənənələri Məmməd Araz şeirinə müdriklik və məsuliyyət bəxş etmişdir.

Mirzə Ələkbər Sabirin zəngin və ötkəm şeirləri, ən böyük insan haqları şeirnaməsi olan həmişəyaşar satirası Məmməd Araz üçün sözün geniş mənasında əvəzsiz vətəndaşlıq məktəbidir:

Ən uzaq uçuşlara
Sabir – sürət deməkdir.
Ən çətin vuruşlara
Sabir – cürət deməkdir.
Sabir – müdrik atalardır,
Ağıl dolu, nağıl dolu kitablardır.
Sabirin hər misrasında
Yazılmamış kitab vardır.

...Mən sənət dünyasında
Yeni dünya gördüm onu
Şeirimizin Magellanı
Koperniki, Nyutonu
Gördüm onu.[2]

Beləliklə, ustad Məhəmməd Füzulinin müdriklik və məsuliyyəti, Sabir sənətinin vətəndaşlıq cəsarəti, Səməd Vurğun şeirinin yüksək ilhamı və milliliyi özünəməxsus şəkildə Məmməd Araz poeziyasında cəmləşmiş, yeni

[1] Məmməd Araz. Seçilmiş əsərləri. İki cilddə, II c. – Bakı: Lider nəşriyyat, 2004, s.164
[2] Məmməd Araz. Seçilmiş əsərləri. Dörd cilddə, IV c. (Poemalar, tərcümələr) – Bakı: Ozan, 2003, s.85-86

keyfiyyətlərlə zənginləşmişdir. Məmməd Araz adları çəkilən ustad sənətkarlardan yaradıcılıqla öyrənmiş, onların heç birini təkrar etməmişdir. Nəticə etibarilə klassik, poetik, ənənə zəminində millilik və müasirlik, dərin və incə lirizm, fəal vətəndaşlıq mövqeyi və bəşərilik Məmməd Araz şeirinin özünəməxsusluğunu müəyyən edir.

***

Xalq şairi Məmməd Arazın "qardaş qələmi" ilk növbədə öz ömrünü yazmışdır. Şairin keşməkeşli taleyi kimi, şeirləri də bənzərsizdir. Ədəbiyyatımızın özündə əvvəlki qüdrətli sələflərindən – Məhəmməd Füzulidən, Mirzə Ələkbər Sabirdən və Səməd Vurğundan yaradıcılıqla öyrənib öz sözünü və üslubunu yarada bilən Məmməd Arazın şeirləri həm də özündən sonrakı ədəbi nəslin bədii mayakı olmaq funksiyasını həyata keçirir. Daha doğrusu, poetik dəbdə, ritorika, təntənə, zahiri əksetdirmə, ideoloji xəttə üstünlük verilməsi kimi, "sənət xəstəliklərindən" xilas olmaq kimi mühüm sənət vəzifələri Məmməd Araz və onun mənsub olduğu yaradıcı nəsillə əsasən başa çatmışdır. Məmməd Araz sənəti əsrin birinci yarısındakı Səməd Vurğun məktəbi ilə sonrakı dövrün şeir üslubu və ənənələri sırasında çox etibarlı və möhkəm varislik körpüsüdür. Poeziyamızın artıq bir neçə nəsli böyük sənət meydanına həmin poetik körpüdən keçərək gəlmişdir. Artıq Azərbaycan şeirində özünəməxsus ənənələri olan məxsusi bir Məmməd Araz ədəbi məktəbi də formalaşmışdır.

Məmməd Araz XX əsr Azərbaycan şeirinin görkəmli nümayəndəsidir. Ədəbiyyatşünaslıqda doğru olaraq qeyd edildiyi kimi, "onun şeirləri və poemaları, bədii publisistikası yalnız öz yaradıcısının deyil, mənsub olduğu xalqın da tərcümeyi-halının əsas hissəsidir, orijinal əks-sədasıdır".[1] İkinci Dünya müharibəsindən sonrakı yarım əsrdən artıq bir tarixi dövrün bədii, mənəvi tərcümeyi-halı Məmməd Araz sənətində özünün aydın və dolğun bədii əksini tapmışdır. Bu müdrik, ağır siqlətli, uzaqgörən, kövrək və ağıllı, düşünən və düşündürən poeziya mənalı bir ədəbi-tarixi salnamədir.

Müharibədən sonrakı Azərbaycan kəndi, davadan qayıtmış kəndli kişilər, onların əsgərdən də sədaqətli olan ömür-gün yoldaşları, ana torpaq kimi halal, bulaq suyu qədər saf olan kənd uşaqları, uzaq dağların arxasından geniş üfüqlərə, daha işıqlı sabahlara dikilən böyük ümidlər Məmməd Araz poeziyasının poetik yükündə üstünlük təşkil edir. Yetmişinci illərdə təzədən canlanan şəhər də, kənd də, Azərbaycanın əkinçisi də, neftçisi də xalq şairinin əsərlərində özünəmünasib şəkildə poetik baxımdan mənalandırılmışdır. Heç bir tərəddüd etmədən demək olar ki, səksəninci illərin sonlarından başlanan milli azadlıq hərəkatını illərdən bəri hazırlayan, yetişdirən şairlərin

[1] İsa Həbibbəyli: Məmməd Arazın sənət dünyası və sənətkarlığı. "Poetika.izm". – Bakı, 2023, №2, s.10

cərgəsində Məmməd Araz ön sırada durur. Millilik və müstəqillik, azadlıq düşüncəsinin, ayıq, fəal vətəndaşlıq mövqeyinin şeirlə bənzərsiz ifadəsi Məmməd Araz sənətinin mayasını, cövhərini təşkil edir. O, sözün həqiqi mənasında böyük İstiqlal şairidir. Yaxın və uzaq tariximizlə yanaşı, bu günümüzün və hətta sabahımızın da böyük, ciddi həqiqətləri "Məmməd Araz karandaşından" göyərir:

...Od yurdunun odasını qoru, qardaş!
Gürşad olub göydən ələn – mən bilmirəm.
Qara bələn, buza bələn – mən bilmirəm.
Harda şirləş, harda filləş – mən bilmirəm.
Mən bilmirəm: geriyə yol yoxdu, atam!
Öncül oğul dönüb geri baxmır, atam!

...Bu torpağın son nəfəri olsan belə,
Son dirisi, son əsgəri olsan belə,
Geri dönmə sən qələbə xəttindəsən,
Son qələbə həddindəsən, səddindəsən![1]

Məmməd Araz şeiri qaynar, ilhamlı həyat seli, sehrli mənəvi dirilik çeşməsidir. Dünənimizdən ibrət dərsi almaq, müasir həyatımızın çətin, məsuliyyətli ab-havasında ləyaqətlə yaşamaq, sabahın üfüqünü ayın-şayın görməyi bacarmaq və oxucusuna – xalqına ən doğru yolun keçidlərini və üfüqlərini göstərmək Məmməd Araz sənətinin başlıca mahiyyətini təşkil edir. Bu dərin mənalı və məzmunlu poeziya dünənin düşündürücü ibrətnaməsi, bu günün aydın poetik milli fəlsəfəsi və keşikçisi, sabahın mahir bələdçisidir.

Xalq şairi Məmməd Araz poeziyasında Vətən – ata ocağı, doğma yurd, el-oba, Kür-Araz deməkdir. İxtisasca coğrafiya müəllimi olan Məmməd Araz ədəbiyyatda bütöv Azərbaycanın ən kamil, bitkin, dolğun poetik coğrafiyasını yaratmağa nail olmuşdur. Ana vətənə və şəxsiyyətə aid olan bütövlük amilini hər iki məqamda örnək səviyyəsində bütün ucalığı ilə yaşatmağı bacarmaq Məmməd Arazın həyatda da, sənətdə də çox mühüm nailiyyətidir. Azərbaycan ədəbiyyatında Əhməd Cavaddan və Səməd Vurğundan sonra müqəddəs Azərbaycan – Vətənimiz haqqında ən sanballı, yaddaqalan, ilhamlı və təsirli şeirləri Məmməd Araz yaratmışdır. Yetmişinci illərdə Azərbaycan adlı vətənimizdə Azərbaycan haqqında ən çox və geniş yayılmış şeir – "Azərbaycan – dünyam mənim" şeiri Məmməd Araza məxsus idi. Xalq şairi Səməd Vurğunun məşhur "Azərbaycan" şeirindən sonra ölkəmiz haqqında yazılmış ən populyar şeir Məmməd Arazın "Azərbaycan – dünyam mənim" şeiridir.

[1] Məmməd Araz. Seçilmiş əsərləri. İki cilddə, II c. – Bakı: Lider nəşriyyat, 2004, s.131

Azərbaycan – qayalarda bitən bir çiçək,
Azərbaycan – çiçəklərin içində qaya.
Mənim könlüm bu torpağı vəsf eləyərək,
Azərbaycan dünyasından baxar dünyaya.

Azərbaycan – mayası nur, qayəsi nur ki...
Hər daşından alov dili ox ola bilər,
Azərbaycan – deyiləndə ayağa dur ki,
Ana yurdun ürəyinə toxuna bilər.

...Min illərdir zülmətlərə yollar açıqdı,
Dalğalandı Sabirlərin ümman dünyası.
Azərbaycan qatarı da yollara çıxdı,
Dalğalandı Qoca Şərqin duman dünyası.[1]

Müxtəlif illərdə Məmməd Arazın qələmindən çıxmış "Ana yurdum, hər daşına üz qoyum", "Vətən mənə oğul desə", "Məndən ötdü, qardaşıma dəydi", "İnsan-qayalar", "Mənim Naxçıvanım", "Göygöl", "Muğanın şikayəti", "Şahdağı", "Oxuyan Təbriz", "İstisu lövhələri", "Şuşada bir gecə", "Arazın işıqları", "Salamat qal", "Ata ocağı", "Əlvida dağlar" və s. şeirlər Vətən mövzusunda ən yaxşı əsərlər kimi ürəklərə axmış, xalqımızın dillər əzbəri olmuşdur.

XX əsrin doxsanıncı illərində yenicə dövlət müstəqilliyi qazanmış Azərbaycan da sanki körpə uşaq kimi Məmməd Arazın şeirində boy atmışdır. Xalq şairi Azərbaycanı düçar edildiyi bəlalardan qorumaq, xilas etmək və yaşatmaq üçün hamıdan qabaq Azərbaycanın özünü var gücü ilə haraya və köməyə çağırmışdır:

Nə yatmısan, qoca vulkan, səninləyəm!
Ayağa dur, Azərbaycan, səninləyəm!
Səndən qeyri biz hər şeyi bölə billik!
Səndən qeyri biz hamımız ölə billik!
...Hanı sənin tufan yıxan, gürşad boğan
Yurda oğul oğulların?!
Qara Çoban, Dəli Domrul oğulların!
Çək sinənə – qayaları yamaq elə,
Haq yolunu ayağına dolaq elə,
Bayrağını Xəzər boyda bayraq elə.
Ayağa dur, Azərbaycan![2]

Sözün həqiqi mənasında "Ayağa dur, Azərbaycan!" şeiri İstiqlal şairinin yeni dövrdəki qüvvətli səfərbərlik marşı kimi səslənir, Məmməd Araz

[1] Məmməd Araz. Seçilmiş əsərləri. Dörd cilddə, II c. – Bakı: Ozan, 2003, s.61-62
[2] Məmməd Araz. Seçilmiş əsərləri. Dörd cilddə, III c. – Bakı: Ozan, 2003, s.261

bütöv, böyük Vətənin nəğməkarıdır. "Araz axır" poemasında, "Oxuyan Təbriz", "Şəhriyar gəlmədi", "Bu gecə yuxuda Arazı gördüm", "Araz dili", "Araz üstə çinar gördüm", "Qalır hələ", "Araz yadıma düşüb", "Sərhəd çəpərləri" şeirlərində bütöv Vətən duyğusu mənalandırılmışdır. Məmməd Arazın qələmindən çıxmış "Oxuyan Təbriz" şeiri (1969) Azərbaycan poeziyasında Cənub mövzusunda yazılmış ən dəyərli və təsirli şeirlərdən biridir:

Qarı nənə, nehrən dolu çatmada,
Gizli ahın fələklərə çatmada.
Həcər ana, Həcər ana, çat dada...
Təbriz oxuyurdu dağlar başında!

...Gərək dil susanda əllər danışa,
Əllər bağlananda dillər danışa.
Elə danışalar – ellər danışa...
Dəli gülüşlərim ağlar başımda,
Təbriz oxuyurdu dağlar başında![1]

Bütün bunlara görə, Azərbaycan ədəbiyyatına çox məsuliyyətli olan Araz təxəllüsünü daşımaq haqqını qazanmaq və yaşatmaq məhz Məmməd Araza nəsib olmuşdur.

Milli birlik, daxili saflıq və bütövlük, mənəvi və ictimai azadlıq Məmməd Araz şeirinin əsas ilham pərisidir. Şair hələ 1956-cı ildə yazdığı "Bizim gənclik" şeirində özünü və sənətini "xalqımızın müqəddəs, mübariz çağırışına" həsr edəcəyini bəyan etmişdir. Məmməd Araz keçdiyi yaradıcılıq yolunun bütün keşməkeşli mərhələlərində bu anda axıradək sadiq qalmışdır. O, Azərbaycan ədəbiyyatında hamıdan əvvəl "Məndən, səndən ötən zərbə, Vətən, Vətən – sənə dəydi" nidasını milli şeirin böyük enerjisi ilə, var gücü ilə səsləndirə bilmişdir. Vaxtilə Xəzərin ekologiyası barədə ən kəskin poetik həyəcan təbilini də Məmməd Araz səsləndirmişdir. Müxtəlif dövrlərin Azərbaycan gerçəkliyini mənalı və münasib şəkildə əks etdirən "Vətən mənə oğul desə", "Yenə Arazı gördüm", "Dağlara çağırış", "Sərhəd çəpərləri", "Dünya düzəlmir", "Bu millətə nə verdik ki", "Əsgər oğul", "Ağlama", "Kəlbəcər qaçqınlarına", "Qalx ayağa, Azərbaycan" kimi ittiham və səfərbərlik ruhlu şeirləri Məmməd Araz qələmindən törənmişdir. Məhz Məmməd Araz hələ XX əsrin yetmişinci illərində əsarətə və müstəmləkəçiliyə etiraz səsini ucaldaraq yaza bilmişdi ki:

Bir ölkənin caynağından ölkə saldırıb,
Neçə-neçə bölünənlə bölünməliyəm.

[1] Məmməd Araz. Seçilmiş əsərləri. İki cilddə, I c. – Bakı: Lider nəşriyyat, 2004, s.103

Bir ölkənin sağlığına badə qaldırıb,
Bir ölkənin göz yaşına bələnməliyəm.

Tamahlar var, məqam tapıb orbitə çıxsa,
Qitələrin gözlərinə qor atacaqdır.
Yer şarını bir nar kimi ovcunda sıxsa,
Tamahsıyıb, ulduzlara tor atacaqdır.[1]

Məmməd Arazın "Nobel mükafatı" şeirində də (1960) müstəmləkəçilik, sömürgəçilik tənqid olunmuş, xalqın öz sərvətlərinin sahibi olması duyğuları cəsarətlə irəli sürülmüşdür.

XX əsrin əvvəllərində Mirzə Ələkbər Sabirin, böyük Hop-hopun bağrından qopmuş "nişançı özümüz, hədəf özümüz" kəlamını yüzilliyin sonunda bədii sənətin uzaqvuran top lüləsinə qoyub yeni hədəflərə məharətlə, sərrast atmağı bacaran da Məmməd Araz idi.

Ustad Mirzə Cəlil Məmmədquluzadədən üzü bu yana çözələnən ümummilli dərd-sərlərimiz Məmməd Arazın bir çox şeirlərində, xüsusən, "Dünya düzəlmir" şeirində sadəcə dil açıb danışmır, Xalq şairi Səməd Vurğunun sözləri ilə desək, "pələng kimi nərə çəkib hayqırır":

...Kiminsə dünəni qəbirsiz qalıb,
Kotançı babası dəmirsiz qalıb,
Kömürçü atası kömürsüz qalıb,
Xəmrəsi, urvası xəmirsiz qalıb.
Dünya düzəlmir ki, düzəlmir, baba.

Hələ bu dünyanın qeylü-qalı çox,
Bilməm zəhəri çox, yoxsa balı çox,
Çox verdim özümə bu sualı, çox:
Ərzin nadanından ağsaqqalı çox.
Bəs niyə bu dünya düzəlmir, baba?![2]

Məmməd Araz böyük ustadların təkcə söz-sənət sahəsində yox, həm də Vətən, milli mücadilə savaşında hələ də davam etməkdə olan yürüşünün fəal iştirakçısı, keşikçisi və hətta ağıllı, tədbirli sənətkar sərkərdələrindən biri idi. O, lazım gələndə böyük cəsarətlə vətəndaş "qələmini – hərbi nazirə", "yazı masasını – paytaxta", "kağızını – bayrağa", sevgisini, nifrətini "ən nizamlı qoşuna" çevirməyi bacaran şairdir. Məmməd Araz şeiri 40 ildən çox müqəddəs Vətən səngərində mübariz keşikdə dayanmışdır. Bu şeirin atəş sədaları mənəviyyatımızdan tutmuş, ictimai mühitimizə, hətta sərhəd xətləri və cəbhə bölgələrimizə qədər hər yerdə əks-səda tapmaqda, eşidilməkdədir. Yaşının,

[1] Məmməd Araz. Seçilmiş əsərləri. İki cilddə, I c. – Bakı: Lider nəşriyyat, 2004, s.135
[2] Məmməd Araz. Seçilmiş əsərləri. İki cilddə, II c. – Bakı: Lider nəşriyyat, 2004, s.99-100

səhhətinin ən məsuliyyətli çağlarında sərvaxtlıq və qürurla Murovdağ ətəklərinə baş çəkib gəlməsi, digər cəbhə bölgələrində əsgərlərimizlə görüşməsi onun tutduğu yolda nə qədər sabitqədəm, qərarlı olduğunu bir daha təsdiq edən səciyyəvi dəlil-sübutlardandır. Şair buna qəti əmin idi ki, Murov dağına yağan qarı nəhayət mərd, sayıq Azərbaycan əsgərinin nəfəsi, hərarəti əridəcək, çətinliklər, mürəkkəbliklər içində çaş-baş qalan, "çox döyüşü döyüşmədən uduzan" yurddaşlarımız mütləq doğma yurd-yuvalarına qayıdacaqlar.

Beləliklə, hələ yetmişinci illərdə özünü şeirimizin "Daş əsgəri" adlandıran şair ədəbiyyatımızın qaya-sərkərdələrindən birinə çevrilmişdir. Və "Vətən daşı olmayandan olmaz ölkə vətəndaşı" kimi milli yüklü sərrast poetik zərbi-məsəl də xalq şairinin özünün tərcümeyi-halı ilə təsdiq olunmuşdur. Xalq şairi Məmməd Araz Azərbaycan adlı məmləkətin həm öz yerində gərəkli olan "Vətən daşı", həm də ayıq-sayıq, milli dəyanətli, layiqli, bütöv vətəndaşıdır. Qələm dostlarından birinin – şair Musa Yaqubun ona üz tutaraq dediyi "bu dünyanın qara daşı göyərməz" – sözlərinə şairin məhz "Göyərdi" rədifli dörd-beş bəndlik şeirlə cavab verməsi də Məmməd Arazın poetik nikbinliyini ifadə etməklə bərabər, həm də onun özünün "vətən daşı"ndan – vətəndaşlığa qədər keçdiyi çətin, lakin şərəfli yolu dolğun şəkildə mənalandırır. Şair keşməkeşli, çətin, məsuliyyətli sənət və həyat yollarından ürəkdən bağlı olduğu elinə-obasına arxalanaraq, dağlara-qayalara söykənə-söykənə keçmişdir. O, belə dərin səbri, böyük dəyanəti və dözümü də "ərköyünlər atası" olmayan "dağ əmisi"ndən öyrənmişdir. Hətta Vətən dağlarının əhatəsində arabir onun da başı üstə çaxan "ildırımları" da şair müdrikcəsinə "dağların çibini" saymışdır. Məmməd Arazın dağlara çağırışı onun Vətənə-məmləkətə milli bütövlüyə, əbədi dəyərlərə tapınmasının poetik ifadəsidir:

Ən ağır anında dağlarla danış,
Ən ali loğmandır o müdrik qoca.
Nə qədər, nə qədər qaysaqlanmamış,
Dərdlər tullansan da dərə boyunca,
Dağ çayı çökdürüb çay daşlarına,
Duruldub bənzədər göz yaşlarına.
Dağlar öz hökmündə güzəştsiz, ötkəm,
Şair, qayalara, dağlara söykən![1]

***

Xalq şairi Məmməd Arazın yaradıcılığında millilik bəşəriliklə vəhdət təşkil edir. Şairin insan haqqındakı düşüncələrində milli və bəşəri duyğular

[1] Məmməd Araz. Seçilmiş əsərləri. İki cilddə, I c. – Bakı: Lider nəşriyyat, 2004, s.122

üz-üzədir. Bundan başqa, onun poetik rübabında dünya məsələlərinə, bəşəriyyəti düşündürən vacib problemlərə dair fikir və qayğılar da sıx-sıx öz əksini tapır. Lakin bütün məqamlarda Məmməd Araz özünün elan etdiyi kimi "Azərbaycan dünyasından baxır dünyaya". Şairin sırf, xalis bəşəri-fəlsəfi səpkidə alıb, yüksək bədii səviyyədə təqdim etdiyi dünya mövzusu isə ilk növbədə Vətən övladlarını "gəlimli-gedimli" dünyanın bənzərsiz "ömür-gün naxışı"nın mahiyyəti ətrafında düşündürməyə yön alır. Məmməd Arazın "Dünya sənin, dünya mənim" şeiri Azərbaycan ədəbiyyatında dünya mövzusunda yazılmış ən poetik əsərdir. Bu, Azərbaycan fəlsəfi lirikasının zirvəsini fəth etmiş, dərin bədii ümumiləşdirmə əsasında yazılmış klassik şeir nümunəsidir:

Bir taleyin oyununda cütlənmiş zərik,
Yüz il qoşa atılsaq da, qoşa düşmərik
Bir zərrənin işığında milyonlar şərik,
Dünya sənin,
Dünya mənim
Dünya heç kimin…

Bu get-gəllər bazarına dəvədi dünya.
Bu ömür-gün naxışına həvədi dünya,
Əbədiyə qəh-qəh çəkir ədəbi dünya.
Dünya sənin,
Dünya mənim,
Dünya heç kəsin.[1]

Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyev ümumən Məmməd Arazın yaradıcılığına, xüsusən də "Dünya sənin, dünya mənim" şeirinə yüksək qiymət vermişdir: "Məmməd Araz poeziyası… Azərbaycanın mədəniyyəti tarixində, mədəni həyatında, ictimai həyatında böyük, görkəmli bir hadisədir... Mən şeirə də, mahnıya da çox hissiyyatlı adamam. O misraları, o sözləri (Məmməd Arazın şeirlərini – İ.H.) həyəcansız dinləyə bilmirdim. Xüsusən də, "Dünya mənim" mahnısının sözlərini də, musiqisini də.

Məmməd Arazın şeirləri, şübhəsiz ki, çoxdur. Amma "Dünya sənin, dünya mənim" kimisi yoxdur".[2]

Azərbaycan şeirinin ən kamil, yaddaqalan, təsirli və dəyərli, bir neçə nəslin əzbər öyrəndiyi nümunələrini yaratmaq xoşbəxtliyi Məmməd Araza da nəsib olmuşdur. Ustad şairin "Məndən ötdü, qardaşıma dəydi", "Nobel mükafatı", "Dünya sənin, dünya mənim", "Oxuyan Təbriz", "Əlvida dağlar", "Bu millətin dərdi-səri", "Dünya düzəlmir", "Ya rəbbim, bu dünya sən quran

[1] Məmməd Araz. Seçilmiş əsərləri. Dörd cilddə, III c. – Bakı: Ozan, 2003, s.103
[2] Əmirxan Xəlilov. Məmməd Araz dühası. – Bakı: Azərbaycan Universiteti, 2002, s.104

deyil", "Ağlama", "Bu millətə nə verdik ki", "Çeçen faciəsi", "Sərhəd çəpərləri", "Ayağa dur, Azərbaycan", "Azəri qızı", "Dağlara çağırış", "Belə dünyanın", "İnsan ürəyi", "Nişançı özümüz, nişan özümüz" və sair şeirləri müəyyən mənada Məmməd Arazın qələm sərvəti olmaqdan çıxıb, Azərbaycan ədəbiyyatının ümummilli dəyəri olmaq haqqı qazanmışdır.

Xalqımızın başına müsibətlər gəldiyi, güllələr yağdığı keçən əsrin doxsanıncı illərində ən gümrah, sağlam düşüncəli, səfərbərlik və dəyanət aşılayan şeirlər yazmaq bəlkə hamıdan çox Məmməd Araza nəsib olmuşdur:

Bu döyüşdü, əzilən var, əzən var,
Ölüm hökmü qoltuğunda gəzən var,
Burda bizik, nə sən vardır, nə mən var,
Yox, ağlama, ana, millət, ağlama,
Qorxuram ki, sına millət, ağlama!

Hayqır könül, bundan betər çağ hanı,
İnsan yanır, torpaq yanır, dağ yanır,
Bacım, indi ağlamağa vaxt hanı?
Qardaş deyib, yurddaş deyib, ağlama,
Ağlamağın yeri deyil, ağlama![1]

Bu adi şeir deyil, ümidsizlikdən, bədbinlikdən xilas olmağa, mənəvi dirçəlişə, böyük qələbəyə çağırış himnidir.

***

Xalq şairi Məmməd Araz milli şeirdə lirik-romantik və lirik-psixoloji üslubun ən fədakar daşıyıcılarından biri idi. Səksəninci illərdən etibarən isə Azərbaycan şeirində Məmməd Arazın müstəqil poetik məktəbi formalaşmışdır. Azərbaycan ədəbiyyatında özünəməxsus yeri olan yetmişinci illər nəsli öz ilhamını həm də Məmməd Araz sənətindən almışdır. Məmməd Arazla bağlı əhvalatlardan və onun şeirlərindən təşkil olunmuş rəvayət-dastan tipli nümunələr meydana çıxmışdır. Şairin "Əlvida, dağlar" şeiri az qala aşıq ədəbiyyatına keçmişdir. Məmməd Araz sənəti özünün milli-xəlqi ruhu, ahəngdarlıq və müasirliyi ilə çox asanlıqla xalqın təbii mənəvi sərvətinə çevrilmişdir.

Məmməd Araz – tale şairidir. Onun yaradıcılığı ilk növbədə özünüifadənin tərcümanıdır. Əsl sənətin təbiəti belədir. Şair özü dərindən yaşadığı duyğu və düşüncələri, fikir və iztirabları yazanda daha təbii və səmimi olur. Məmməd Araz da ötən yarım əsr ərzində hər şeydən çox ömür köynəyindən keçirdiklərini qələmə almışdır. Ona görə də şeirləri də taleyi kimi bənzərsizdir:

[1] Məmməd Araz. Seçilmiş əsərləri. Dörd cilddə, III c. – Bakı: Ozan, 2003, s.256

Öz ömrümü şum elədi öz əlim,
Yazımda gül, payızımda xəzəlim.
Gündoğandan günbatana mənzilim,
Bu da belə bir ömürdü, yaşadım.

Zarımağa ömür deyib ağlama,
Hər ölənə ölüm deyib, ağlama,
Tale döyüb, haqlı döyüb, ağlama,
Bu da belə bir ömürdü, yaşadım.[1]

Şairin fərdi taleyi mənsub olduğu xalqın milli tarixi taleyinin üzvi hissəsidir. Məmməd Araz öz ömrünü yaza-yaza övladı olduğu xalqın və Vətənin taleyinin də poetik tərcümanı olmuşdur. Hətta milli ədəbiyyatın taleyi, yüksəliş və çətinlikləri ədəbi proseslə ahəngdar şəkildə həm də "Məmməd Araz karandaşından" göyərir. O, haqlı olaraq özünü şeirin taleyi üçün cavabdeh saymışdır. Ona görə də poeziya barədə proqram xarakterli tezislər irəli sürür:

Söz gərək ox keçməz qayadan keçə,
Yoxdursa sözünün kəsəri, yazma!
Özün sevməyincə-sevilməyincə,
Özgədən məhəbbət əsəri yazma.

Məmməd Araz – ürək şairidir. Ürək – şairin "söz süfrəsi"dir. Onu "ayaqlara palaz kimi" atmaq olmaz. Ürəklə yaşamaq, səmimi, kövrək, həssas və mərd olmaq insan və şair kimi Məmməd Arazın taleyidir. Buna görədir ki, şairin "qəlbinin yükü" bir qatarın yükündən ağırdır. Burada da ümumiləşdirmə vardır. Çünki həssas, duyğulu bir ürəklə yaşamaq həqiqətən sənətkarın yeganə həyat meyarı, böyük sənətin isə başlıca hərəkətverici qüvvəsidir:

Eh, ürək... Yox, onun nə təqsiri var,
Əsəblər üstündə yer salır insan.
Yolla silkələnər, relslər qırılar,
Bir qəlbin yükünü qatara yığsan.

Sən həkim, adını soruşmamışdan,
Öyrən ki, bir xəstən kimdir, nəçidir.
Elə bil sənətkar hər şeydən əvvəl,
Ürək ağrısına abunəçidir.

Sev ürək, duy ürək, ağla, gül ürək!
Şairin gözü də ürəkdir bəzən.

[1] Məmməd Araz. Seçilmiş əsərləri. Dörd cilddə, III c. – Bakı: Ozan, 2003, s.314

Ulduzlar göz olsun nəyinə gərək
Dünyanı ürəklə görə bilməsən.[1]

Xalq şairi Məmməd Arazın poeziyası bütövlükdə "ürək imtahanından" keçib uğurla sınaqdan çıxmış, necə deyərlər, yüksək "keyfiyyət nişanı"na layiq görülmüş kamil sənət nümunəsidir. Şeir yaradıcılığında olduğu kimi, poemaları ilə də Məmməd Araz bənzərsizdir.

***

Poemaları. Azərbaycan ədəbiyyatında poema janrı da Məmməd Arazın poemaları ilə yeni mərhələyə çatmışdır. İnsan mənəviyyatının dərin qatlarının poetik kəşfi, fəal vətəndaşlıq mövqeyi və müasirlik, milli taleyimizin əhatəli təqdimi bu poemaların ana xəttini səciyyələndirir. Məmməd Arazın "Üç oğul anası" (1957) poeması Xalq yazıçısı İsa Hüseynovun lirik-psixoloji nəsrinin milli poeziyadakı yol yoldaşıdır. Bu əsər bəlkə də Azərbaycan ədəbiyyatında ilk lirik-psixoloji poemadır. Əsərdə İkinci Dünya müharibəsində üç oğlunu itirmiş Azərbaycan qadınının – Ananın bədii obrazı uğurla canlandırılmışdır. "Araz axır" (1960) poemasında tarixi və milli taleyimizlə bağlı zamanın sözü zamanı qabaqlayaraq Məmməd Arazın təqdimatı əsasında özünün yüksək bədii-fəlsəfi əksini tapmışdır. Şairin Məmməd İbrahim imzasından Məmməd Araz təxəllüsünə keçidi də bu əsərlə bağlıdır. Çünki Araz mövzusunun az qala qadağan olduğu illərdə Arazdan poema yazmaqla o həm də sanki "Araz" təxəllüsünü qəbul etməyin mümkünlüyünü də sınaqdan keçirmişdir. Tədqiqatçıların doğru müşahidə etdiyi kimi "Araz axır" poeması ilə Cənub mövzusunda yazan şairlərin sırasına "Mən Araz şairiyəm" deyən, Məmməd İbrahimin də səsi qoşulmuşdur".[2] Şairə görə Araz böyük mənada Vətənin rəmzidir.

Poemadakı Ayrıgül obrazı adında ifadə olduğu kim bütövlük həsrətinin, vüsalın daşıyıcısıdır. Müharibə illərinə, ondan sonrakı bərpa və yeni quruculuq mərhələsinə təsadüf edən hadisələr o vaxtın gerçəkliyinə uyğun olaraq Arazın hər iki tərəfinin hadisələri və düşüncələrini ifadə etməyə imkan yaratmışdır. Arazın üzərində inşa edilən su-elektrik stansiyası hər iki sahilə işıq salacaq, bir vasitə kimi mənalandırılmışdır.

"Araz axır" poemasında Məmməd Araz milli məzmuna malik olan mövzuya həm də ciddi, bəşəri motivlər də əlavə etmişdir. Onun Araz sahilindəki müharibə əleyhinə yönəldilmiş düşüncələri təkcə bir xalqın deyil, bütün bəşəriyyətin arzusunun poetik ifadəsidir:

Əridib silahları
Biz marten sobasında,

[1] Məmməd Araz. Seçilmiş əsərləri. İki cilddə, I c. – Bakı: Lider nəşriyyat, 2004, s.31-32
[2] Hikmət Mehdiyev. Çağdaş poema və gerçəklik. – Bakı: Elm, 2000, s.92-93

Körpü yarada billik
Yerlə Mars arasında, –
Müharibə olmasa!

Bəşərin qapısından
Vaxtsız ölüm gen düşər,
İnsanın saçlarına
Yüz yaşında dən düşər, –
Müharibə olmasa!

Sevənlər aləmində
Nə qəm, nə həsrət olar.
Bəşərin gülləsi – söz,
Sözü – məhəbbət olar, –
Müharibə olmasa![1]

Təxminən altmış il əvvəl yazılmış bu misralarda ifadə edilən fikirlər indi də həm Azərbaycan, həm də dünyanın digər ölkələri üçün çox aktual səslənir.

Məmməd Arazın sonralar yazılmış "Arazın işıqları", "Bu gecə yuxuda Arazı gördüm", "Oxuyan Təbriz", "Araz üstə çinar" kimi şeirləri "Araz axır" poemasından doğulmuşdur. Bu şairlər Məmməd Arazın Vətən şeirləri silsiləsində mühüm yer tutur.

"Paslı qılınc" (1964) poeması sanki yazıldığı dövrün yeni tipli "Aygün"üdür. Bu əsərlə, ümumiyyətlə, poema bir janr kimi uca, möhtəşəm mövzulardan adi, sadə bu qədər mürəkkəb həyati mətləblərin ifadəsi səviyyəsinə enmişdir. "Əsgər qəbri haqqında ballada" poemasında (1968) ustad Səməd Vurğunun "Avropa xatirələri" şeirləri silsiləsinin, "Qayalara yazılan səs" (1976) poemasında məşhur "Muğan" poemasının ənənələri yaxşı mənada yaradıcılıqla davam etdirilmiş, məharətlə yeni səviyyəyə çatdırılmışdır. Lakin hər iki poemada oxşarlıq sadəcə mövzu yaxınlığı ilə bağlıdır. Məmməd Araz həmin ənənəvi mövzularda tamamilə yeni mətləbləri ifadə edə bilmişdir. Məmməd Arazın "Atamın kitabı" poeması isə Azərbaycan ədəbiyyatında böyük Mirzə Cəlil Məmmədquluzadənin "Anamın kitabı" əsərindən sonra milli birlik, Vətən təəssübkeşliyi və mənəvi ucalıq haqqında yazılmış ən kamil poetik dastandır. Bütövlükdə özünün şeir yaradıcılığı ilə yanaşı, poemaları ilə də Məmməd Araz sözün geniş mənasında "Azərbaycan dünyasının" bənzərsiz "bir dəli Məcnunu" olduğunu qəti şəkildə təsdiq etmişdir. Ədəbiyyatımız bu əsərlərlə zənginləşmiş, nəzərə çarpacaq səviyyədə irəliyə doğru boy atmışdır. Bu mənada ədəbiyyatımızda poema

[1] Məmməd Araz. Seçilmiş əsərləri. Dörd cilddə, IV c. (Poemalar, tərcümələr) – Bakı: Ozan, 2003, s.61-62

janrının inkişafında da Məmməd Arazın özünəməxsus xidmətləri vardır.

Xalq şairi Məmməd Arazın poemalarında lirizmin üstünlüyü nəzərə çarpır. Şair təsvir olunan vəziyyət və hadisələrin emosional səviyyəsini artırmaq, obrazların xarakterini, daxili dünyasını açmaqdan ötrü düşünülmüş lirik ricət, bədii haşiyə və daxili monoloqdan bacarıqla istifadə etmişdir. Onun poemaları liro-epik poemalardır. "Üç oğul anası" poemasında qanlı-qadalı müharibədə üç oğlunu itirmiş Gülsənəm qarının taleyi hadisələrdən çox lirik elementlər vasitəsilə açılmışdır. Şair lirik düşüncələr hesabına bu əzabkeş ananın əzəmətli ədəbi heykəlini ucaltmışdır. Poemada anaya ehtiram yaddaqalan lirik misralarla ifadə olunmuşdur:

Bir ana ürəyi layla deyəndə,
Laylı buludlar da yerə enəydi.
Bir ana ürəyi hökm eyləyəndə,
Qranit qayalar muma dönəydi.[1]

Böyük Sabirə həsr olunmuş "Mən də insan oldum" (1962) poeması da sanki qüdrətli ustad qarşısında ciddi poetik hesabat kimi səslənir. Məmməd Araz düşünülmüş poetik hesabatın imkanlarından ağılla istifadə edərək o zamankı sərt rejimə baxmayaraq, örtülü vasitələrlə mənsub olduğu xalqın azadlığı və müstəqilliyi haqqındakı arzularını da mənalandıra bilmişdir:

Yox, çörək davası deyildi davam.
Məramım, şərəfim tapdalanmasa,
İnsan ləyaqətim ayaqlanmasa,
Yüz il də yarımac, çılpaq yaşaram.
Mənə ana dilli millət gərəkdi,
Dövləti özümün dövlət gərəkdi.
Üstündə öz adım – bayraq istədim,
Məhsulu özümün – torpaq istədim.
Tikilən binalar – tikənin olsun.
Azad səs, azad söz, gülüş gərəkdi,
Bir sözlə, bir sözlə, dönüş gərəkdi![2]

Məlum olduğu kimi, poemada Məmməd Arazın arzu etdiyi əslində milli azadlıq mənasını ifadə edən dönüş keçmiş Sovet Azərbaycanında deyil, yalnız çox illər keçəndən sonra dövlət müstəqilliyi qazanmış müstəqil Azərbaycan Respublikasında gerçəkləşmişdir.

Adından göründüyü kimi, "Əsgər qəbri haqqında ballada" poemasında

[1] Məmməd Araz. Seçilmiş əsərləri. Dörd cilddə, IV c. (Poemalar, tərcümələr) – Bakı: Ozan, 2003, s.17-18
[2] Yenə orada, s.80

lirik başlanğıc aparıcıdır. Əslində bu əsər poema-monoloqdur. "Qayalara yazılan səs" isə tam halda lirik poema formasında düşünülmüşdür. Bu əsər poemadan çox süjetli lirik şeiri xatırladır.

"Qayalara yazılan səs" poemasında orijinal təbiət mənzərələri canlandırılmış, peyzaj lirikasının yaddaşlara həkk olunan nümunələri yaradılmışdır. Poema üçün proloq funksiyasını yerinə yetirən, sonrakı hadisələr üçün zəmin hazırlamağa xidmət edən "bədii müqəddimə" – burada təqdim edilən əsrarəngiz təbiət lövhəsi obrazlılığı, bənzərsizliyi, qeyri-adiliyi və yeniliyi ilə daha çox seçilir, fərdiləşir:

Bir qayanın şiş ucuna qonmuşdu qartal –
Bir az sivri vəziyyətdə: top gülləsidək.
Elə bil ki, caynağında qayanı dartıb
Bu saatca üstümüzə hücum çəkəcək.

***

Bizə yanıq verir kimi qalxdı havaya;
Süzüb getdi hara isə arın-arxayın.
Kölgəsində çoban iti hürdü havayı,
O qartaldı – qaya məskən, qaya arxalı.

***

Sürünü də, çobanı da beləcə sanki
Bir tabloya rəsm etməyə saxlamışdılar.
Alaseyrək qara xallı bir palaz kimi
Ağ sürünü boz yamaca mıxlamışdılar.[1]

Bu qeyri-adi ecazkar təbiət lövhəsində sanki şair ilhamı ilə rəssam fırçası çuğlaşmışdır.

"Atamın kitabı" poemasında dastanlarda olduğu kimi, lirika ilə epik əlamətlər növbələşir. Poemadakı bir çox lirik ricət və haşiyələr müstəqil şeir təsiri bağışlayır. Şair ricətlərində xalq şeirinin layla, oxşama, holavar formalarından bacarıqla, yaradıcı şəkildə istifadə etmişdir:

Ala öküz hərəkətim,
Arpa yeri nə bərk idi.
Göy ağladı – yer güləcək,
Dəhnə çevir, bərə gətir.

Yeri-yeri, xışım, yeri,
Yenir dağdan qışım, yeri.

[1] Məmməd Araz. Seçilmiş əsərləri. Dörd cilddə, IV c. (Poemalar, tərcümələr) – Bakı: Ozan, 2003, s.195

Yazmaqdan heç yorulmadım,
Kağızımdı – bu şum yeri.[1]

***

Məmməd Arazın çoxcəhətli yaradıcılığında publisistikanın da özünəməxsus yeri vardır. Məmməd Arazın publisistikası şair qələmindən çıxmış bədii publisistikadır. Şeirin ölçülərinə sığmayan ciddi həyati mətləbləri, aktual məsələləri Məmməd Araz publisistika nümunələrində əks etdirmişdir. Bu publisist yazılarda keçən əsrin 60-70-ci illərinin Azərbaycanı əsas qayğıları və problemləri birlikdə ilə öz əksini tapmışdır. Məmməd Araz publisistika janrlarının hüdudları daxilində canlı, dinamik, inkişaf edən həyatın əsas, ana rənglərini, təbii, həyati obrazlarını, xarakterlərini sadəcə qəzet dünyasına deyil, geniş mənada ədəbiyyata gətirmişdir. "Yer üzünün Qarabağ düzü", "Naxçıvan albomu", "Kür qovuşur Salyana", "Torpaqdan göyərən ucalıq", "Arpaçayın aşıb-daşan nəğməsi", "İyirmi üç ildən sonra yazılmış cavab" və s. kimi publisist yazılar həm də aradan illər keçsə də, əhəmiyyətini və dəyərini itirməyən bədii publisistika nümunələridir.

"Ədəbiyyat qəzeti"ndə, "Ulduz" jurnalında və "Azərbaycan təbiəti" jurnalında, habelə "Vaxt" qəzetindəki naşirlik və publisistik fəaliyyəti ilə Məmməd Araz bənzərsiz, görkəmli publisist olduğunu da sübuta çatdırmışdır.

Məmməd Arazın publisistikası onun "Həyatın və sözün rəngləri", "Naxçıvan albomu", "Sənətdə son mənzil olmur" adlı kitablarında toplanmışdır. Məmməd Arazın publisistikası mükəmməl bədii publisistika nümunələridir. Onun təbiətə həsr olunmuş bəzi publisistika nümunələri mənsur şeir təsiri bağışlayır. Məmməd Araz şeirdə olduğu kimi, publisistikaya da həqiqətən "həyatın və sözün rənglərini" gətirmişdir.[2]

Publisistika ilə bütün yaradıcılıq fəaliyyəti boyu ardıcıl şəkildə məşğul olmuş Məmməd Araz ədəbiyyatın bu sahəsinin də inkişafına mühüm töhfələr vermişdir.

***

Bədii yaradıcılıqla yanaşı, tərcümə sahəsində də Məmməd Araz uğurla fəaliyyət göstərmişdir. Şair dostu Abbas Abdullanın vaxtilə yazdığı kimi o, "ürəyindən keçənləri başqa millətdən olan sənət dostlarının şeirlərində görəndə sevinən, onları ana dilimizdə oxuculara çatdırmağı özünə borc bilən şairdir". Buna görədir ki, onun tərcümələrinin böyük əksəriyyəti Məmməd

[1] Məmməd Araz. Seçilmiş əsərləri. Dörd cilddə, IV c. (Poemalar, tərcümələr) – Bakı: Ozan, 2003, s.144

[2] Məmməd Araz. Həyatın və sözün rəngləri. – Bakı: Gənclik, 1975, s.135

Arazın şair ürəyindən qopan öz şeirləri kimi səmimi və poetikdir. Xüsusən, şairin Taras Şevçenko, Qaysın Quliyev, Mustay Kərim, Oljas Süleymenov, Mixail Svetlov, Sergey Vasilyev, Oleq Şestinski və başqalarından etdiyi tərcümələr daha uğurludur. Məmməd Araz tərcümə prosesində orijinalın əsas ruhunu və bədiilik prinsiplərini qoruyub saxlamağa üstünlük vermişdir. Azərbaycan oxucusu Xalq şairi Məmməd Arazın tərcüməsində Mixail Lermontovun "Dəniz qulduru", Mixail Lukoninin "Şair və evlər müdiri", Maqsud Şeyxzadənin "Onbirlər", Sergey Vasilyevin "Anna Denisovna" poemalarını ana dilində oxumaq imkanı qazanmışdır.

Məmməd Arazın öz şeirləri də dünya dillərinə tərcümə olunmuşdur.

***

XX əsrin doxsanıncı illərindən etibarən Xalq şairi Məmməd Arazın yaradıcılığında yeni mərhələ başlamışdır. Şairin bu dövrdə oxuculara təqdim edilmiş "Daş harayı" (1992), "Dünya düzəlmir" (1992), "Qayalara yazılan səs" (1994), "Yol ayrıcında söhbət" (1997) kitablarındakı şeirlərində lirik-fəlsəfi ovqat daha da dərinləşmiş, fədakarlığa, səfərbərliyə, vətəndaşlıq fəallığına, milli-mənəvi özünüdərkə, milli mücadiləyə, azadlıq uğrunda mübarizəyə çağırış qüvvətlənmişdir. Yaxşı cəhətdir ki, Məmməd Arazın çağırışları ənənəvi şüarçılıq, təbliğat ruhundan uzaqdır. Şair Vətənin çətin günündə ictimai məzmunlu, səfərbərlik ruhunda şeirlər yazarkən öz oxucusu ilə təmiz və səmimi obrazları və hikmətamiz, müdrik poeziya dilində danışmağı bacarır. "Ya rəbbim, bu dünya sən quran deyil" şeiri milli lirik-fəlsəfi poeziyanın yeni mərhələdəki nailiyyətidir. "Ağlama" şeirinə dərhal musiqi bəstələnməsi, bu poetik nümunənin mahnıya çevrilməsi lirikanın ictimai şeirin cövhərində bulaq kimi çağladığını aydın şəkildə nümayiş etdirir. Yüksək vətəndaşlıq ruhunda yazılmış "Belə dünyanın", "Dünya düzəlmir ki, düzəlmir, baba", "Bu millətə nə verdik ki", "Çeçen faciəsi", "Bizi Vətən çağırır" şeirləri müasir mərhələdə ciddi şeirin yeni inkişafının əsas göstəricisidir. Bunlar həm də Məmməd Araz sənətində "Dünya sənin, dünya mənim" xəttinin daha da dərinləşdiyini göstərən mühüm ədəbi faktlardır. Yeni mərhələnin şah əsəri olan "Ayağa dur, Azərbaycan" şeiri mənalı və müasir poetik oratoriya təsiri bağışlayır. "Bizi Vətən çağırır" şeiri isə Azərbaycanın sınaq dövrü olan XXI əsrin astanasındakı qüvvətli səfərbərlik himnidir:

Bu ölüm – qan yoludur,
Ölümdən, qandan keçir.
Bir qolu da qıvrılıb
Azərbaycandan keçir.
Dövran bizdən bac alır,
Şöhrət bizdən yan keçir.

Qılınc qap, Vətən oğlu,
Bizi Vətən çağırır!

Bu yolda əyilənə
"Ölüm haqdı" – deyirik.
Əbədi məzarımız
Bu torpaqdı deyirik.
Vətən göyü dəyişməz,
Göy – bayraqdı deyirik.
Qılınc qap, Vətən oğlu,
Bizi Vətən çağırır![1]

Göründüyü kimi, Xalq şairi Məmməd Araz Azərbaycan ədəbiyyatında görkəmli, sanballı xidmətləri olan qüdrətli milli şairdir. Azərbaycan xalqının tarixi taleyi, milli özünəməxsusluğu, keşməkeşli mübarizəsi, milli dirçəlişimizin bu günü və sabahı onun yaradıcılığının əsas nüvəsini təşkil edir. Vətən, millət, ana torpaq milli müstəqillik və yurd sevgisinə həsr olunmuş ən uzunömürlü və yaddaqalan şeirlərin "Məmməd Araz karandaşından" göyərməsi şairin bütün varlığı ilə Ata ocağı – Azərbaycan duyğusu üstündə köklənməsindən irəli gəlir. Və Məmməd Arazın dilindən çıxmış "Vətən daşı olmayandan olmaz ölkə vətəndaşı" kimi milli dəyərli sərrast poetik aforizm də birinci növbədə xalq şairinin özünün timsalında sınaqdan çıxmış, sonra ümummilli dəyərlərin meyarı kimi səslənmişdir. Məmməd Araz bütün ömür yolu ilə, qırx ildən artıq davam edən böyük sənəti ilə, həmişə Vətən səngərində keşikdə olmuşdur. Xalq şairi Məmməd Arazın vətəndaşlıq poeziyası indiki müstəqillik mərhələsində də millət və milli dövlət yolunda mübariz keşikdədir. Və burası çox mənalı, qiymətli və ibrətamizdir ki, Məmməd Arazın poetik sözü bütün xalq üçün keçərlidir. O, XXI əsrin astanasında təkcə şeirimizin yox, sözün geniş mənasında ədəbiyyatımızın və mədəniyyətimizin layiqli ağsaqqalı nüfuzunu qazandı. Hər zaman "Ayağa dur, Azərbaycan!" – deyə poetik hökm verməyə Xalq şairi Məmməd Araz sənətinin qüdrəti çatır. Buna görədir ki, xalq bir sal daşa "Məmməd Araz kürsüsü" adı verib onun adını həmişəlik əbədiləşdirmişdir. Şeirimizin "Daş əsgəri" kimi ədəbiyyata gələn sənətkarın indi "qaya-sərkərdə" səviyyəsində yaşamaq və söz demək səlahiyyəti qazanması ömrün də, sənətin də çoxillik və çətin imtahanlarından alınan yekun qiymətidir.

Yarıməsrlik çoxcəhətli və mənalı yaradıcılığı ilə Məmməd Araz bütövlükdə mənsub olduğu xalqın ürəyində, düşüncəsində məskən saldığını, əbədi yaşamaq haqqı qazandığını təsdiq etmişdir:

[1] Məmməd Araz. Seçilmiş əsərləri. Dörd cilddə, III c. – Bakı: Ozan, 2003, s.257-258

...Bütün keçilməzliyi Vətən, adınla keçdim...
Haqqın var Məmməd Araz,
Haqqın var yaşamağa![1]

Məmməd Araz rəsmi təltiflərini – Xalq şairi fəxri adını, "İstiqlal" ordenini, Əməkdar incəsənət xadimliyini, Dövlət mükafatını böyük halallıq və qürurla qazanmışdır. Bununla bərabər, Məmməd Araz ümumxalq məhəbbəti qazanmaq kimi ali bir mükafatın da sahibi olmuşdur.

***

Xalq şairi Məmməd Arazın əsərləri orijinal sənətkarlıq xüsusiyyətlərinə malikdir. Məlum olduğu kimi, o, şeirlərini əsasən heca vəznində yazmışdır. Lakin onun ilhamlı sərbəst şeirləri də vardır. Poemalarında da az da olsa, sərbəst şeir kimi yazılmış parçalara rast gəlmək olur. Məmməd Arazın "El üçün ağlayan", "Raketlər", "Göy arxalıq", "İtə daş atma", "Bu tarixə inansan", "Nağıl" və başqa şeirləri sərbəst şeirin orijinal nümunələridir. Sərbəst şeirlərində tarazlı bir sərbəstlik vardır, yəni onun sərbəst şeirlərində misraların ölçüsü və bölgüsündəki sərbəstlik və qafiyələndirmə heca vəznli şeirlərdən kəskin şəkildə fərqlənmir. Məmməd Arazın sərbəst şeirləri heca vəzninə yaxın olan poetik nümunələrdir:

Səni tanımadım
Adicə libasda,
Adicə yerişdə,
Sənlikdən çıxmışdın,
Bəs sabah?
Bu adi yerişdən doysan,
Gündüzü başına qoysan,
Belinə bağlasan gecəni…
Beləcə saxlasan gündüzü,
Beləcə saxlasan gecəni…
Ey həyat, sən bizi.
Mənəmlik tozundan saxla…
Məst olan başları
Arabir hövkələ, hövkələ, torpaqla.[2]

Məmməd Arazın bəzi şeirləri vəznli sərbəst şeirlərdir. Şairin "Məndən ötdü, sənə dəydi", "Ayağa dur, Azərbaycan" şeirləri Azərbaycan poeziyasında vəznli sərbəst şeirin mükəmməl nümunələridir.

Bütövlükdə isə Məmməd Araz Azərbaycan poeziyasında heca vəznli

[1] Məmməd Araz. Seçilmiş əsərləri. Dörd cilddə, III c. – Bakı: Ozan, 2003, s.97
[2] Məmməd Araz. Seçilmiş əsərləri. Dörd cilddə, II c. – Bakı: Ozan, 2003, s.208

şeir ənənələrini yaradıcılıqla davam və inkişaf etdirmişdir. Bununla belə, o, heca vəznli şeirə də müəyyən yeniliklər gətirmişdir. Tədqiqatçılar "fərqli heca ölçülərinə malik misralarının müəyyən bir sistem halında bənd strukturu yaratmasını"[1] Məmməd Arazın yaradıcılığında poetik novatorluq kimi qiymətləndirmişlər. Həqiqətən də, şairin yaradıcılığında on bir hecaya malik üç misradan sonra dördüncü misranın yeddi və səkkiz hecadan ibarət olması ilə bəndlərin yaradılması geniş yer tutur. "Qayıt dedim" şeirində on bir hecalı üç misralı bəndin sonuncu-dördüncü səkkiz hecalı misrası tamamlanmışdır.

Yazımın son bənövşəsi – küsənim,
Günəş sənin, torpaq sənin, su sənin
"Ay ətrindən doymadığım süsənim,"
Qayıt dedim, qayıtmadı...

Daş ayıltdı, su kiritdi bu havar:
Qocalığa nə tələsək, bu ha var
Gəncliyimi harayladı bu hava:
Qayıt dedim, qayıtmadı…[2]

Belə məqamlarda Məmməd Araz sanki qoşma ilə bayatı və ya gəraylıların sintezi əsasında yeni bənd sistemi formalaşdırır.

Janr baxımından Məmməd Arazın yaradıcılığı zəngindir. Heca vəzninə üstünlük verdiyi üçün onun yaradıcılığında xalq-aşıq şeirindən gələn qoşma və gəraylı janrları daha geniş yer tutur. Məmməd Arazın bəzi qoşma və gəraylıları aşıq şeiri təsiri bağışlayır. "Salamat qal" qoşmasının aşıqlar tərəfindən ifa edilməsi bu şeirin bədii forma və məzmun etibarilə xalq poeziyası ruhunda yazılmış mükəmməl sənət nümunəsi olduğunu göstərir. Müəllif göstərilməsə, "Salamat qal" şeirinin açıq şeirinə, yaxud yazılı şeirə aid olduğunu ayırd etmək çətindir.

Bundan başqa, Məmməd Araz Azərbaycan poeziyasında "Naməlum qadına məktublar" və "Bacım Gülsümə məktub" adlı şeir silsilələri yaratmışdır. Onun yaradıcılığında "Anamdan yadigar nəğmələr" adlı şeir silsiləsi də mühüm ter tutur. O, Xalq şairi Səməd Vurğuna müraciətlə yazılmış şeirlər silsiləsinin də müəllifidir. Məmməd Araz poeziyamızda silsilə şeirlər yaratmaq ustası kimi qəbul olunur.

Məmməd Arazın "Professor Gülə məktub" şeiri geniş populyarlıq qazanmışdır. Məktub janrı Məmməd Arazın şeirdə insan qəlbinin ən incə, dərin hisslərini və həyəcanlarını poetik baxımdan mənalandırmasına, əsl lirika nümunələri yaratmasına geniş meydan açmışdır. Müstəqillik illərində yazılmış

[1] Hüseyn Həşimli. Məmməd Arazın lirikasında poetik novatorluq. Bax: Məmməd Araz: taleyi və sənəti. – Naxçıvan: Əcəmi, 2014, s.50
[2] Məmməd Araz. Seçilmiş əsərləri. Dörd cilddə, II c. – Bakı: Ozan, 2003, s.323

“Bacım Gülsümə məktub”, “Dağ çayına oxunmuş məktub”, “Naməlum qadına məktublar”, “Bir dağa açıq məktub”, “Özümdən şikayət məktubu”, “Səbrimdən inadıma məktub”, “General kəndinə məktub”, “Okeanın o tayına məktub” və sair kimi şeirlər Məmməd Arazın yaradıcılığında məktubun poetik forma şəkli aldığını göstərir. Azərbaycan poeziyasında ara-sıra müraciət olunan məktub ənənəsini Məmməd Araz məktub janrına çevirmişdir.

Bununla belə, o həm də “Bir axşamın balladası” şeirini, “Babək qılıncı” balladasını, yazmışdır. “Əsgər qəbri haqqında ballada” şeiri ədəbiyyatşünaslıqda həm də “poema-ballada” adlandırılmışdır.[1] Bundan başqa, Məmməd Araz “Əsgər monoloqu”, “İnsan monoloqu” və sair kimi monoloq tipli poetik nümunələri ilə də Azərbaycan poeziyasını janr baxımından zənginləşdirmişdir. Həmçinin, Məmməd Arazın müasirləri Məmməd Aslana, Musa Yaquba müraciətlə yazdığı şeirlər “deyişmə” janrını xatırladır. Eyni zamanda, Məmməd Arazın yaradıcılığında “söhbət” formasında yazılmış daxili monoloqu əks etdirən orijinal bədii forma da vardır. Şair “xatirə” şəklini də poetik formaya çevirmişdir.

Poeziyada sənətkarlıqdan danışanda Məmməd Arazın süjetli lirikanın kamil nümunələrini yaratması da ayrıca qeyd edilməlidir. Hətta Məmməd Araz “Bir ömrün qonaqları” adlı çox orijinal “dram-zarafat” janrında yazılmış poetik formanı da ilk dəfə Azərbaycan şeirinə gətirmişdir.[2]

Eyni zamanda Şairin yaradıcılığı orijinal bədii təsvir və ifadə vasitələri ilə və qafiyələrlə də zəngindir. Xüsusən, təbiətlə əlaqədar detallardan bənzərsiz məcazlar yaratması onun şeirlərinin fərqli simasını müəyyən edir. Hətta yeni qafiyələr yaratmaq baxımından da Məmməd Arazın şeirləri orijinaldır. “Köhnə qafiyələr – çaylaq daşları” şeiri Məmməd Arazın sənətə novator münasibətlərini əyani şəkildə nümayiş etdirir:

Məlum qafiyələr ekiztay quzu;
Kərəsi, kürəsi, təpəli birdir.
Şığıyıb birini apardı quzğun...
Hansını?.. çobanın özü də bilmir.

...Gözlər torlananda, çənə əsəndə
Gəlin çaş salmayaq sözlə əsanı.
Şairlər, bu “can-can” çeynəməsindən
Canını qurtaraq “Azərbaycanın...”[3]

[1] Rafik Yusifoğlu. Azərbaycan poemasının sənətkarlıq xüsusiyyətləri. – Bakı: ADPU-nun nəşri, 2010, s.64

[2] İsa Həbibbəyli. Məmməd Arazın sənət dünyası və sənətkarlığı. “Poetika.izm” jurnalı, 2023, №2, s.11

[3] Məmməd Araz. Seçilmiş əsərləri. İki cilddə, I c. – Bakı: Lider nəşriyyat, 2004, s.168

Məmməd Arazın "Vətən mənə oğul desə", "Ayağa dur, Azərbaycan", "Dünya sənin, dünya mənim", "Oxuyan Təbriz", "Dünya düzəlmir", "Salamat qal", "Ağlama", "Belə dünyanın" kimi şeirləri Azərbaycan poeziyasının brendi kimi qəbul olunur.

Poema janrı da Məmməd Arazın poemaları ilə yeni sənətkarlıq xüsusiyyətləri qazanmışdır. İnsan mənəviyyatının dərin qatlarının poetik kəşfi, fəal vətəndaşlıq mövqeyi və müasirlik, milli taleyimizin əhatəli təqdimi bu poemaların ana xəttini səciyyələndirir. Məmməd Arazın "Üç oğul anası" (1957) poeması Azərbaycan ədəbiyyatında ilk lirik-psixoloji poemalardan biridir. Əsərdə İkinci Cahan hərbində üç oğlunu itirmiş Azərbaycan qadınının bədii obrazı uğurla canlandırılmışdır. "Araz axır" (1960) poemasında tarixi və milli taleyimizlə bağlı zamanın sözü Məmməd Arazın təqdimatı əsasında özünün yüksək bədii-fəlsəfi əksini tapmışdır. Tədqiqatçıların doğru müşahidə etdiyi kimi "Araz axır" poeması ilə Cənub mövzusunda yazan şairlərin sırasına: "Mən Araz şairiyəm", – deyən Məmməd İbrahimin də səsi qoşulmuşdur".[1] Şairə görə Araz böyük mənada Vətənin rəmzidir. Məmməd Araz əsərlərinin orijinal ideya-sənətkarlıq xüsusiyyətləri ilə Azərbaycan ədəbiyyatında yeni mərhələ yaratmışdır.

***

Böyük ədəbiyyat, həqiqi şeir-sənət Məmməd Arazın tale ortağıdır. Bu böyük və müdrik sənətin şərəfli məsuliyyətli yükünü – ədəbiyyatımızın böyük idealları ilə səsləşən Məmməd Araz ideallarını ayrılıqda bir şair deyil və ya ümumiyyətlə, qələm əhli yox, sözün geniş mənasında bütöv Vətən əhli çəkib daşıyır. Bu isə öz növbəsində Xalq şairi Məmməd Arazın mənəvi zənginliyə, daxili saflığa, millilik və vətəndaşlığa, habelə dövlət müstəqilliyimizin daha da möhkəmləndirilməsinə aparan böyük, magistral yolun əsas, güclü poetik lokomotivi olması deməkdir. Milli yüklü həmin şeir-sənət, ədəbiyyat qatarı təkcə öz müəllifini yaşatmaqla qalmır, bütövlükdə xalqımızı XXI əsrdə də böyük ideallar uğrunda mübarizəyə səfərbər edir.

Xalq şairi Məmməd Araz ümumxalq məhəbbəti ilə yanaşı, müstəqil dövlətimizin də yüksək diqqət və qayğısı ilə əhatə olunmuşdur. Görkəmli dövlət xadimi Heydər Əliyev Xalq şairi Məmməd Arazın sənətinə və şəxsiyyətinə böyük ehtiram bəsləmişdir. Məmməd Arazın anadan olmasının 60 illik yubileyinin dövlət səviyyəsində geniş qeyd olunması, şairin "İstiqlal" ordeni ilə təltif edilməsi, Almaniyaya xüsusi müalicəyə göndərilməsi tədbirləri Məmməd Arazın yaradıcılığının inkişafına və fiziki sağlamlaşmasına müsbət təsir göstərmiş, böyük təkan vermişdir. Məmməd Araz həqiqi İstiqlal şairi kimi yaşayıb-yaratmaqda davam etmişdir.

[1] Hikmət Mehdiyev. Çağdaş poema və gerçəklik. – Bakı: Elm, 2000, s.92-93

Xalq şairi Məmməd Arazın yaradıcılığının qiymətləndirilməsi və təbliğində Bakıda "Qorqud" Assosiasiyasının 1993-1995-ci illərdə keçirdiyi ədəbi müsabiqə də mühüm əhəmiyyətə malik olmuşdur. Ustad şairə həsr olunmuş ilk monoqrafiya, bir çox qiymətli elmi məqalələr, rəsm əsərləri, şeirləri əsasında bəstələnmiş mahnılar həmin müsabiqənin əks-sədası ilə meydana çıxmışdır.

Artıq Məmməd Arazın qiymətli bədii irsi kimi bənzərsiz obrazı da ürəkləri fəth edə bilmişdir. Şairin əsərləri doğma xalqının dilində qürur və əzəmətlə səslənməkdə davam edir. Məmməd Arazın şeirlərindən müxtəlif xalqların dillərinə çevrilmiş nümunələr də hər yerdə rəğbətlə qarşılanır.

Məmməd Araz XX əsrin aşırımından XXI əsri aydın şəkildə görürdü. Bütövlükdə Azərbaycan ədəbiyyatı XXI əsrə bir çox görkəmli sənətkarlarımızla birlikdə həm də "şeirimizin xan çinarı"[1] adlandırılan, "çox cavan ikən kamilləşən"[2] Xalq şairi Məmməd Arazın çiyinləri üstündə gəlmişdir.

Məmməd Arazın mübariz və müdrik sənəti yaşayır və xalqımızın yeni üfüqlərə doğru inkişafına uğurla xidmət edir.

[1] Bəkir Nəbiyev. Şeirimizin xan çinarı. "Millət" qəzeti, 16 sentyabr 1999
[2] Tofiq Hacıyev. Üç Məmməddən biri Araz... – Bakı: "Ulduz" jurnalı, 1985, № 1 (215)

CABİR NOVRUZ
(1933-2002)

XX əsr Azərbaycan poeziyasının tanınmış nümayəndələrindən, sevilən simalarından biri də Cabir Novruzdur. O, əsasən, mətbuat sahəsində çalışmış, Azərbaycan Yazıçılar Birliyində katib və Milli Məclisin üzvü olmuş, Xalq şairi adına layiq görülmüşdür.

Həyatı. Cabir Novruz (Cabir Mirzəbəy oğlu Novruzov) 12 mart 1933-cü ildə Xızı rayonunun Upa kəndində dünyaya gəlmişdir. 1947-ci ildə M.Ə.Sabir adına Pedaqoji Texnikuma daxil olmuş, 1951-ci ildə oranı bitirmişdir. O, Azərbaycan Dövlət Universitetində bir il oxuduqdan sonra, M.Qorki adına Ədəbiyyat İnstitutunda (1952-1957) təhsilini davam etdirmişdir.

Cabir Novruz ədəbi-publisistik fəaliyyətə 1950-ci illərdə gəlmişdir. O, 1958-1964-cü illərdə "Bakı" qəzetində ədəbi işçi, 1964-1967-ci illərdə "Azərbaycan" jurnalında şöbə müdiri, 1984-1987-ci illərdə baş redaktor, 1967-1970-ci illərdə "Ulduz" jurnalında, 1991-1993-cü illərdə "Ədəbiyyat qəzeti"ndə baş redaktor olmuşdur.

Şair 1970-1995-ci illərdə Azərbaycan Yazıçılar Birliyində katib vəzifəsində çalışmış, 1995-2000-ci illərdə Azərbaycan Respublikasının deputatı kimi fəaliyyət göstərmişdir. O, 1986-cı ildə SSRİ Yazıçılarının qurultaylarına nümayəndə və SSRİ Yazıçılar İttifaqı İdarə Heyətinin üzvü seçilmişdir.

Cabir Novruz 12 dekabr 2002-ci ildə vəfat etmiş, Fəxri Xiyabanda dəfn olunmuşdur.[1]

Yaradıcılığı. Cabir Novruz poeziyaya XX əsrin 50-ci illərində gəlmiş və bədii yaradıcılığını əsrin sonunadək davam etdirmişdir. "Görüş" adlı ilk şeiri 1952-ci ildə "İnqilab və mədəniyyət" jurnalında[2] çap olunmuşdur. "Mənim muğmatım"[3] adlı ilk şeir kitabı 1959-cu ildə çapdan çıxmışdır. Kitab haqqında ilk söz deyənlərdən biri Xəlil Rza olmuş, o, şairin səsindəki poetik səmimiyyəti, onun mənəvi yanğısını yüksək dəyərləndirmiş, ədəbiyyata sağlam və bənzərsiz bir istedadın gəlişini xəbər vermişdir.[4]

Cabir Novruzun bədii yaradıcılığı haqqında Məmməd Cəfər Cəfərov, Bəkir Nəbiyev, Bəxtiyar Vahabzadə, Yaşar Qarayev, Asif Əfəndiyev, Xəlil Rza, Anar, Elçin, Nəriman Həsənzadə və digər müasirləri ədəbi-elmi fikir bildirmişlər.

---

[1] Teymur Əhmədov. Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə) / Ensiklopedik məlumat kitabı. – Bakı: Nurlar, 2011, s.142-143

[2] Cabir Novruz. Görüş. "İnqilab və mədəniyyət", 1952, №2, s.37

[3] Cabir Novruz. Mənim muğamatım. – Bakı: Uşaqgəncnəşr, 1959

[4] Xəlil Rza Ulutürk. Şair hünəri. Mənə bənzə. – Bakı: Gənclik, 2000, s.295

Cabir Novruz poeziyası məzmun və formaca xalq yaradıcılığından, klassik poeziyadan, bəşər bədii təfəkküründən qidalanmışdır. Şairin özü etiraf etmişdir ki, "yüzlərlə şeir kitablarını mütaliə etsəm də, qüdrətli poeziyanı dönə-dönə oxusam da, dünya ədəbiyyatının sirlərinə az-çox bələd olsam da, hələ də məni ən çox məftun edən anamdan, nənəmdən eşitdiyim laylalar, mərsiyələr, bayatılar, tapmacalar və hikmətlər dünyasıdır".[1]

Şair Məhəmməd Füzulini, Mirzə Ələkbər Sabiri, habelə, Səməd Vurğunu, Mikayıl Müşfiqi, Rəsul Rzanı da sevmiş, onların poetik ənənələrindən öyrənmişdir.

Cabir Novruz qüdrətli lirik "mən"ə malik sənətkardır. Onun orijinal poeziyası üçün, əsasən, orta intonasiyalı lirik "mən" səciyyəvidir. Şairin "lirik qəhrəmanı mükəmməl poetik obraz olub", "vətənpərvərlik, qurub-yaratmaq eşqi, həyat gözəlliklərinə sonsuz məhəbbət, müstəmləkə və müharibə hərislərinə odlu nifrət onun başlıca sifətləridir".[2]

Cabir Novruz səmimiyyət və ünsiyyət şairidir. Onun poetik sözünün həyəcanı barəsində tənqidçi-filosof Asif Əfəndiyev dürüst yazmışdır: "Cabir Novruzun coşqun, təbii duyğulu, narahat şeiri oxucunu ana nəfəsinin, torpağın, uşaqlığın, ilk addımın, ümidin, yolların, sevginin, mehrin ilkin mənasına qaytarır və bu mənanın əvəzsizliyini, müqəddəsliyini, hədsiz zəruriliyini, şairanəliyini, insaniliyini təsdiq edir".[3]

Cabir Novruz avtoportret şairidir. Özünüetiraf şairin poetik insanı üçün səciyyəvi keyfiyyətdir. Bunu onun şeirlərinin adları, lirik ideya-məzmunu və birinci şəxsə aid təsvir və təhkiyəsi aydın göstərir. "Mənim nəslim", "Haçan ki dönərəm o doğma kəndə", "Qalxdım dağlara", "Onda külçə idim, şeir külçəsi", "Dəyişdirmərəm" və başqa bədii nümunələrdə sənətkarın tərcümeyi-halı konkret ifadəsini tapmışdır.

Xatirə, etiraf və ithaf mövzusu Cabir Novruz poeziyasında yetərlidir. Şair uşaqlıq, gənclik və kənd həyatının xatirələrini şeirlərində canlandırmışdır. "Mənim xatirələr pedməktəbim var", – deyən şair pedaqoji texnikumda oxuduğu çağlara qayıtmış, gəncliyini xatırlamış, qəmlənmiş, sevinmiş, arzulara, xəyallara dalmışdır. Şairin xəyalı o Pedməktəbdə tələbə yoldaşları, müəllimləri və ilk sevgisini xatırlamışdır.

Cabir Novruz "Gecə qatarlar keçər" (1956), "Poza bilmərəm" (1954), "Sənin məhəbbətin" (1954), "23 yaşım" (1956), "Füzuli" (1958), "Təki dava olmasın" (1958), "Deməyin nə sözdü, nə söhbətdi bu" (1959), "Şair dostlarıma" (1959) adlı şeirlərini 1950-ci illərdə qələmə almış, həmin

[1] "Ədəbiyyat və incəsənət", 18 mart 1983-cü il

[2] Xəlil Rza Ulutürk. Kiçik, lakin gözəl kitabça. Mənə bənzə. – Bakı: Gənclik, 2000, s.284

[3] Asif Əfəndiyev. Müqəddəsliyin vəsfi / Cabir Novruz. İnsan himnləri (Şeirlər və poemalar). – Bakı: Yazıçı, 1978, s.5

əsərlərin ideya-məzmunu üçün bədii xəyal, təəssürat bolluğu səciyyəvi olmuşdur. "Füzuli" şeirindən:

Uçdu Kərbəlaya xəyal atımız,
Keçdi ocağımız, söndü odumuz,
Yanıb nalə çəkdi muğamatımız,
Tellərin sədası düşdü hər yana:
Gətirin şairi Azərbaycana!

Bütün söz qoşanlar, bütün əsərlər,
Nəğmələr, qoşmalar, sözlər, qəzəllər,
Füzuli şeirinin şahı – gözəllər
Dedilər nə vaxtdır həsrətik ona,
Gətirin şairi Azərbaycana![1]

Cabir Novruz epik süjet və təhkiyədən uzaq şairdir, başdan-başa hissiyyatlı lirikdir. Onun səmimi poeziyasında ümumən bir insan obrazı vardır. Bu insan onun öz "Mən"indən başlamış, lirik-psixoloji ovqatda körpə, uşaq, gənc, qoca, müdrik, kəndli, əkinçi, fəhlə, alim, müəllim, həkim, neftçi, mühəndis və başqa obrazlarında davam etmiş, onların real həyat təsvirindən çox, onların lirik-psixoloji, mənəvi-ruhi aləmini canlandırmışdır. Sənətkarın "Ürək", "O insanlar hardadır", "Qoruyun", "Çətindir, asandır", "Mənim qoca babam belə deyərdi", "Mənim nəslim", "İnsan... İnsan" (1969), "Gəlib-gedir insanlar" (1986), "Tələsin insanlar, gecikin insanlar", "Hər yerdə insanlar sevinirdilər", "Dənizdə insanlar gözəl görünər", "Dünyanın", "Gələnlər, gedənlər, qalanlar", "İstəyirəm milyonlara gərək olum", "Taleyin töhfələri", "Sağlığında qiymət verin insanlara", "Yandırır məni", "Bir şəkil var", "Bir dünyam var", "Bizim əsr" adlı şeirləri ümumən insan obrazının ehtizazlı nümunələridir. "İnsan... İnsan" şeirindən:

Gözlərimdə hara getsəm,
hara baxsam insanlaşır,
Daşa baxsam insanlaşır,
Qara baxsam insanlaşır.
Onun quru nəfəsini
Yüz canlıya, yüz həyata
dəyişmərəm.
Məzarının bir daşını
Planetə, kainata dəyişmərəm.[2]

[1] Cabir Novruz. Füzuli. Seçilmiş əsərləri. İki cilddə, I c. – Bakı: Yazıçı, 1982, s.145
[2] Cabir Novruz. İnsan... İnsan. Seçilmiş əsərləri. İki cilddə, I c. – Bakı: Yazıçı, 1982, s.204

Cabir Novruz 1960-ci illərdə "İnsan məhəbbəti"[1] (1963), "İllərin ömrü"[2] (1965), "Bizim əsr"[3] (1968), "Adi həqiqətlər"[4] (1969) adlı kitablarını çap etdirmişdir. Bu kitablarda şair mənəvi-psixoloji düşüncələrini, vətənpərvərlik və insanpərvərlik duyğularını ifadə etmişdir.

Şairin 1960-cı illərə aid olan şeirlərində dünyaya baxış Azərbaycandan, – millilikdən başlamışdır. Şair Azərbaycan (xalq) mövzusu və obrazını 1960-cı illərdən işlətmişdir. O, doğma torpağını şeir qədər müqəddəs bilmiş, onu tərənnüm etmişdir. Cahan şair üçün Azərbaycandan başlamışdır. Şair ondan beşcə qarış torpaq istəmişdir: "Nə malının, sərvətinin acıyam, beşcə qarış torpağında gözüm var", – demişdir. "Vətən", "Sevin Azərbaycanı", "Yenə sizi gördüm", "O yerlər", "Mənə böyük təsəllidir", "Azərbaycan ötəcəyəm adını", "Yer üzündə bir ölkə var" kimi şeirlər gənc şairin lirik qəhrəmanını bizə yaxından tanıdır. Şeirlərin hər biri Vətənə, doğma yerlərə, ata yurduna məhəbbət duyğuları ilə nəfəs alır:

Ey mənim sevimli Azərbaycanım!
Ey mənim şöhrətim, ey mənim şanım!
Söylə, səndən özgə nəyim var mənim?
Səndə kamanım var, neyim var mənim.
Səndə göy Xəzərim coşur, çağlayır,
Səndə cavanlarım ülfət bağlayır.
Bu, mənim dərəmdir, mənim düzümdür,
Orda lalələrim düzüm-düzümdür.[5]

Azərbaycan şair üçün vətənpərvərliyin beşiyi, dil, musiqi, saz və sözdür, Xəzər, Kür, Arazdır, anasının cavanlığı, atasının soyuq məzarıdır, Mil, Muğan, Şirvandır. Azərbaycan şair üçün "yer üzündə bir ölkədir" – mənalı rəssamlıq əsəri, adını tarixlərə nəqş etmiş şəxsiyyət, rəssam qəlbli təbiətin özüdür. "Mənim muğamatım", "Dəryaları yavaş-yavaş quruyan dünyam", "Beşmərtəbə", "Mən göz açdım adın ilə", "Nə qədər ki sağam", "Batan buruğun xatirəsinə" adlı şeirləri doğma vətən mövzusundadır. "Mən göz açdım adın ilə" şeirindən:

Azərbaycan! Ana yurdum!
Nadir gövhər, nadir inci...
Mən göz açdım bu dünyaya
eşqin ilə, adın ilə...

[1] Cabir Novruz. İnsan məhəbbəti. – Bakı: Azərnəşr, 1963
[2] Cabir Novruz. İllərin ömrü. – Bakı: Azərnəşr, 1965
[3] Cabir Novruz. Bizim əsr. – Bakı: Azərnəşr, 1968
[4] Cabir Novruz. Adi həqiqətlər. – Bakı: Gənclik, 1969
[5] Cabir Novruz. Sevin, Azərbaycanı. Seçilmiş əsərləri. İki cilddə, II c. – Bakı: Yazıçı, 1983, s.31

...Ölməz dilin damarıma
axdı şəhdi, şirəsiylə,
Mənə mərdlik dərsi dedi
nağılların, dastanların.[1]

Cabir Novruz 1950-1980-ci illərdə məhəbbət mövzusunda qiymətli şeirlər yazmışdır. O, "Səni gördüm", "Gecikmiş məhəbbət mahnısı", "Bir arzum var", "Deyirsən ki, sevirəm", "Məhəbbət", "Dəyişər birbəbir aylar, fəsillər", "Cavanlığım", "Bir zamanlar mən o qızı sevərdim" və başqa poetik nümunələrdə insan qəlbinin ehtizazlı rübabını dilləndirmişdir: "Bu şeirlərdə əsrin bütün mürəkkəbliyinə, dünyamızın fəryadlarına baxmayaraq, insana inam, məhəbbət konsepsiyasının həyati əsasları özünün poetik təsdiqini tapmışdır":[2]

O, bu boyda bir cahanı yaradıb,
Yeri, göyü, asimanı yaradıb,
İnsan onu, o, insanı yaradıb,
Bu həyatın əlifbası – məhəbbət.
Ən ilk nəğmə, ən ilk yazı – məhəbbət.[3]

Cabir Novruzun yaradıcılığında ana-övlad məhəbbəti mövzusu mühüm yer tutur. Şair 1950-1980-ci illərdə çap edilmiş kitablarında bu doğma mövzuya müraciət etmiş, "Mən bizim anaları günəşlə tən tuturam", "Anam Qızılgülə", "O kiçik kəndinə sığışan anam", "Gözüm görə-görə qocalır anam", "Ana muzeyləri yaradaq gəlin", "Ən əziz, ən şirin, ən acı günlər", "Qətran kimi qara saçlar ağarıb tamam", "Həmidə xalanın xatirəsinə", "Bilmirəm", "Bir ana qucağında bir körpə aparırdı", "Mənim ölməz şeirlərim", "İnana bilmirəm", "Mənim nəyim çatışmır", "Qara gözlüm" (1986), "Anam can vermə, can vermə" (1987), "Bundan belə" (1987), "Onun təki" (1987) kimi şeirlərində ana-övlad məhəbbətinin təsirli bədii ifadəsini vermişdir. "Anam Qızılgülə" şeirində "öz ev-eşiyini, öz övladlarını böyük məhəbbətlə sevən, ərinin xatirəsinə sadiq qalaraq kişi kimi işləyən, həyatın keşməkeşləri önündə sarsılmayan vüqarlı, zəhmətkeş və böyük bir ananın kamil bədii surətini görürük".[4]

*"*Mən bizim anaları günəşlə tən tuturam*"* şeirində sənətkar ana-övlad sevgisini sanki tribunadan ifadə etmiş, yüksək intonasiya ahəngi şeiri

[1] Cabir Novruz. Mən göz açdım adın ilə. İnsan himnləri. – Bakı: Yazıçı, 1978, s.21
[2] Bəkir Nəbiyev. Yenidənqurma və poeziyamız. Seçilmiş əsərləri. Çətin yollarda. Beş cilddə, V c. – Bakı: Çinar-Çap, 2009, s.104
[3] Cabir Novruz. Məhəbbət. Seçilmiş əsərləri. İki cilddə, I c. – Bakı: Yazıçı, 1982, s.317
[4] Xəlil Rza Ulutürk. Şair hünəri. Mənə bənzə. – Bakı: Gənclik, 2000, s.296

süsləmişdir. Şair əyilməz analara, qadın adlı xilqətə əyilmək, ana adlı bəşərə sevgi dolu mahnılar oxumaq istəyir:

Mən bizim analara həyat səsi deyirəm,
Bir ümman dərinliyi, dağ zirvəsi deyirəm.
Hər əzaba tab edən, hər zəhmətə qatlaşan,
Torpaq ilə döyüşdə tunclaşan, poladlaşan,
Qabarlı əllərilə bizə şöhrət gətirən,
Qızıl bayraq gətirən, qızıl hörmət gətirən
O əlləri qızıla mən tutmaq istəyirəm,
Onların heykəlini yaratmaq istəyirəm.[1]

Sənətkarın "O kiçik kəndinə sığmayan anam", "Gözüm görə-görə qocalır anam", "Ana muzeyləri yaradaq gəlin" adlı şeirlərində fədakar analarımızın həyati obrazı yaradılmışdır. Xalq şairi Nəriman Həsənzadə yazmışdır: "Ana– Cabirin ilahi bir qüvvə ilə sevdiyi əvəzsiz bir varlıqdır, daimi və sanki yeganə olan elə bir məbədgahdır ki, onun üçün ilham mənbəyi, təmizlik və təbiilik mücəssəməsidir".[2]

Cabir Novruzun "Bir ana qucağında bir körpə aparırdı" adlı şeiri lirik-epik başlanğıcdadır. Şeirdə səmimi bir lövhə yaradılmışdır. Bir ana qucağında körpəsini aparır. Ətrafdakılar ona diqqət kəsilmiş, bütün şəhər sanki bu lövhəyə dalmışdır. Şair bu halı riqqətlə, duyğu və düşüncələrinin bütün rəngləri, hərarəti ilə müşahidə etmişdir. Bu körpəyə ad gəzirlər, beşik axtarırlar, başına dönüb qadasını alırlar. Nənə yorğanını bərk-bərk qucaqlayıb, xalası bələyinə gözmuncuğu bağlayıb, əmisi də əsgər kimi dalınca yeriməkdədir. Şair dünyaya gələn insan övladını əziz tutur. Bu körpə nə qədər arzu və istəklərin təzəliyidir! Bu körpə bir ordudur:

Demə balaca idi, demə ki, kiçik idi,
O mənim yurdum üçün lap əsil kişi idi,
Böyük bir nəsil idi o mənim xalqım üçün,
Əsil bünövrə idi yeddi min arxam üçün,
O bir bərəkət idi süfrəmdə, ocağımda,
Mənə elə gəlirdi o ana qucağında
Bir ordu aparırdı, bir ölkə aparırdı,
Bir ana qucağında bir körpə apardı.[3]

---

[1] Cabir Novruz. Mən bizim anaları günəşlə tən tuturam. İnsan himnləri. – Bakı: Yazıçı, 1978, s.24

[2] Nəriman Həsənzadə. Ön söz / Cabir Novruz. Seçilmiş əsərləri. İki cilddə, I c. – Bakı: Yazıçı, 1982, s.5

[3] Cabir Novruz. Bir ana qucağında bir körpə aparırdı / Seçilmiş əsərləri. İki cilddə, I c. – Bakı: Yazıçı, 1982, s.164

Lirik şairin şeirləri romantikasız deyil. Bu şeirlərdə də onun güclü romantikası uyumuşdur. Sənətkar romantik xəyallara dalmış, sanki dünya nəğməyə başlamışdır. Hər tərəfdən süd qoxusu gəlir, yetimxanalar muzeyə dönmüş, nankor ata-analar peşman olmuşlar. Bütün dillər elə bil bir həzin layla çalır, bir ana qucağında bir körpə aparır. Hər an artan ordular azalır, hərbi bazalar yumşalır, ölənlər, itənlər tapılır, çünki bir ana qucağında bir körpə aparır...

Xalq şairi Cabir Novruz 1960-1990-cı illərin şeirlərində həm özünün uşaqlıq çağlarını şeirə gətirmiş, həm də xüsusi olaraq uşaqlar üçün yazmışdır. Şairin "Bir yaşım", "Adım gəldi bu dünyaya", "Verin mənə o uşaqlıq illərimi siz", "Firuzə", "Uşaqlara borcluyam", "Xoş gəlmisən", "Ramilə", "Laylay", "Bapbalaca bir gəlinsən" və "Böyüməyə tələsmə" kimi şeirlərində uşaq həyatının ovqatı, vərdişləri, duyğu və düşüncələri təbii ifadə olunmuşdur. Xüsusilə, "Yenə sizi gördüm" şeirində ata torpağına oğul məhəbbətinin güclü ifadəsini görürük:

Azmı mən azmışam bir quzu kimi
Kəndin tufanında, dağın yelində?
Apardı uşaqlıq gülüşlərimi
Quşlar qanadında, çaylar selində.
Bəzən də qış gəldi, qar səpə-səpə,
Gah payız, gah da yay dolandı getdi.
Bir qıza rast gəldim burda ilk dəfə
O gün uşaqlığım utandı getdi.[1]

"O yerlər" şeirində lirik qəhrəman üçün doğma kənd cığırları, dağ yolları getdikcə uzanaraq vətən yolları ilə birləşir. Lirik qəhrəman kənd yolundan geniş və böyük el yoluna çıxır:

Günəşin arxasınca çıxdım mən gəzə-gəzə
Bir deyil, yüz-yüz günəş gətirdim kəndimizə.
İşıqlandı otaqlar, işıqlandı küçələr,
Günəş çayda yatırmış, sən demə ki gecələr.[2]

Ata-övlad məhəbbətinin səmimi inikası "Mənim ölməz şeirlərim" üçün səciyyəvidir. Müşfiq, Vüqar, Mirzə – şair oğulları onun nəzərində bir şeir, bir nəğmədir. Məsnəvi qafiyəli şeirdə yüksək ahəng, səmimiyyət, güclü ata-övlad məhəbbəti təsirli ifadəsini tapmışdır.

[1] Cabir Novruz. Yenə sizi gördüm. Seçilmiş əsərləri. İki cilddə, II c. – Bakı: Yazıçı, 1983, s.39
[2] Cabir Novruz. O yerlər. Seçilmiş əsərləri. İki cilddə, II c. – Bakı: Yazıçı, 1983, s.107

Sənətkar 1950-1980-ci illərdə təbiət mövzusunda çoxlu şeirlər yazmışdır. "Kəlbəcərin dağlarında turac gördüm", "Ceyranbatan gölünə", "Xəzərindir" (1956), "Dağlar sizdə nəyim qaldı", "Maralgöl sükutu" (1972), "Qalxdım dağlara" (1973), "Yaşasın insan", "Getdim dağlardan, gəldim dağlara", "Bulaq suyu, dağ havası", "Üfüqlər qızaranda" və başqa şeirlərində müəllif gəzib-gördüyü yerləri kitab-kitab vərəqləmiş, Ceyranbatan gölünü Xəzərin nəvəsi bilmiş, Maralgölün sükutuna dalmış, Xəzərin heyranı olmuşdur və s... Cabir Novruzun təbiət şeirləri şairin lirik-psixoloji hallarının bədii ifadəsidir. O, "Dağlar, sizdə nəyim qaldı" misrası ilə başlayan bir şeirində dağlar, yollar, çaylar, quşlar, meşələr, güllər və kənd adamlarına xitab etmiş, onlardan heyranlıq duyğusu ilə danışmışdır:

Dağlar, sizdə nəyim qaldı? Gəncliyim,
Gəncliyimi bir də mənə qaytarın.
Bulaq başı, ağac altı dincliyim,
O dincliyi yiyəsinə qaytarın.[1]

Cabir Novruz kənd, şəhər, ölkə mövzusunu 1950-1980-ci illərdə çap etdirdiyi kitabları – əlvan şeirləri boyu əks etdirmiş, onların surətini rəsmləşdirmişdir. Bu həyati obyektlər sənətkarın bədii portreti üçün zəmin olmuşdur. Şairin təsəvvürü, xəyal və ovqatı köməyə gəlmiş, o, bacı, qardaş, ata, ana, nənə, baba, nəsil kimi real-psixoloji varlıqları təsvir-təhkiyə predmeti götürmüş, etnoqrafik cizgilər şeirlərin lirik mündəricəsini təmin etmişdir ("Dumanların arasında", "Haçan ki gedirəm o doğma kəndə", "Unudulmuş kənd", "Almaniyada səsim qaldı", "İngiltərə mənə kiçik göründün", "Londonun şəkil bazarı" və başqaları).

Müharibə mövzusu Cabir Novruzun xəyalından keçmişdir, çünki müharibə başlayanda onun 7-8 yaşı olmuşdur. Atasının cəbhəyə yola düşməsi, ayrılığın çətin anları, ağlayan qoca qarı, sakit-sakit yağan qar şairin xəyalını ləpələndirmişdir...

Oğul cəbhəyə getmiş, paravoz səslənmiş, hicran başlanmış, uzaqda yox olan ağ ləçəkli qız, sanki əriyən qar danəsi olmuşdur. Vaxt ötmüş, indi şairin "mən"i kəndinə qayıtmışdır. Fəqət, nə sevgilisi qarşısına çıxır, nə də o qardan nişanə var. Çöldə qar yağır, indi bu qar xeyli zamandır ki, şair ürəyindən xəbərsiz yağır ("Qar yağır").

"Zoya", "Dava", "Naqasaki... Xirosima... Sakit okean", "Zamanın səsi" kimi şeirlər də şairin xəyal və təəssüratlarının enerjisi olaraq, müharibəyə, ölümə etiraz ifadə etmişdir.

[1] Cabir Novruz. Dağlar, sizdə nəyim qaldı. Seçilmiş əsərləri. İki cilddə, I c. – Bakı: Yazıçı, 1982, s.121

Cabir Novruzun poetik yaddaşında tarixi və sosial mövzu bütün rəngləri, olayları ilədir. AMEA-nın müxbir üzvü, professor Yaşar Qarayev yazmışdır: "Müasir poema yalnız xalis müasir mövzu ilə kifayətlənmir, yaxın illərin müharibə mövzusu ilə ("Ana" / O.Sarıvəlli, "Bir min dörd yüz on səkkiz" / R.Rza, "İtmiş kəndin nağılları" / C.Novruz), tarixlə və təbiətlə ("Əfsanəli yuxular" / N.Xəzri, "Muğam" / B.Vahabadə, "Dilqəm" / H.Arif, "Atamın kitabı" / M.Araz) ünsiyyətinin sərhədlərini böyütmək istəyir. Bu poemalarda tarix müasirlik kimi, baba ocağı, "ata kitabı", ana laylası və muğamı kimi tərənnüm olunur".[1] Bu tarixdə Cənubi Azərbaycanımızın, bütöv Vətənimizin taleyi də görünür. Bu baxımdan şairin 1960-1980-ci illərin kitablarındakı Cənub şeirləri: "İran qadınlarına heyrət məktubu", "Yuxumda o taya keçdim bu gecə", "Mən sərhəd görmüşəm", "Şairlər, uşaqlar, sərhədlər" (1978) kimi poetik nümunələri də əhəmiyyətlidir.

Sənətkar 1960-1980-ci illərin beynəlxalq şeirlərində dünyadakı haqsızlıqlara güclü etiraz etmiş, o, dünyanın silahlarla yüklənməsindən qeyzə gəlmişdir. Bu baxımdan şair "Ulu dünya, hayıfsan", "Sərt üzündən tanıdım", "Dəryaları yavaş-yavaş quruyan dünyam", "Bir dünyam var", "Planetdə güllə dindi", "Şairi öldürdülər" və başqa şeirlərində dünyadakı silahlanmaya, terrora, vəfasızlığa, müəmmalara, fərdi münasibət bildirmişdir ki, bu bədii nümunələr çağımızda da əhəmiyyətlidir:

Ulu dünya, gözəl dünya, hayıfsan,
Nə yaxşı ki hələ sağsan, dirisən...
Heç nə qədər raketin var, sayıbsan?
Heç nə qədər silahın var, bilirsən?[2]

Cabir Novruz 1980-ci illərdə Qərbi Berlin, İngiltərə, İrlandiya, Suriya, İran və İraq ölkələrində səfərlərdə olmuş və "Qürbət bayatıları"na qədər yazmışdır. Professor Yaşar Qarayev: "Cabir Novruzun "Qərbi Berlin" panoram-poeması "səyahət poeziyasının" ümumi fonunda yalnız öz epik, "panoram" miqyası və ölçüləri ilə seçilmir, "yaddaşın müqəddəsliyi" mövzusu burada həm də tamamilə yeni bir qütbdən görünür – "unutqanlığın faciəsi" baxımından açıla və mənalana bilir",[3] – deyə şairin beynəlxalq mövzulu şeirlərini dəyərləndirmişdir.

Cabir Novruzun 1960-1980-ci illərdəki qəriblik mövzusunda şeirləri şairin xarici ölkələrə səfər təəssüratlarının nəticəsidir. Sənətkar bunları "Qürbət şeirləri" adı altında çap etdirmişdir. Buraya "Qərbi Berlin",

[1] Yaşar Qarayev. Poeziyanın illəri və yolları / Seçilmiş əsərləri. Beş cilddə, II c. – Bakı: Elm, 2015, s.97
[2] Cabir Novruz. Ulu dünya, hayıfsan. – Bakı: Yazıçı, 1987, s.136
[3] Yaşar Qarayev. Poeziyanın illəri və yolları / Seçilmiş əsərləri. Beş cilddə, II c. – Bakı: Elm, 2015, s.69

“Almaniyada səsim qaldı”, “Qəriblik”, “Qürbət bayatıları”, “Mən Marksın məzarını xatırlayıram”, “Şekspirin evində”, “Qərbi Berlin... Bir musiqi salonu”, “Zənci qızın mahnısı”, “Londonun tablo bazarı”, habelə, “Nyu-Yorkda alatoran”, “Göylərin amanında”, “Mən öz Amerikamı kəşf edəm gərək” (1981), “Vaşinqtonun kosmonavtlar muzeyində düşüncələr” (1981), “Brodveyin axşam lövhələrindən”, “Qoy dinləsin Amerika” (1981) adlı beynəlxalq mövzuda yazılmış şeirləri də “Amerika dəftəri” silsiləsinə daxil edilmişdir.

Sənətkar 1970-1978-ci illərin “Həyat, sən nə qəribəsən”[1] (1971), “Taleyin töhfələri”[2] (1972), “Bir dünyam var”[3] (1974), “İnsan himnləri”[4] (1978) adlı kitablarında həyat, təbiət, məhəbbət, torpaq, kainat, dünya, insan və insanlıq haqqında düşüncələrini poetikləşdirmişdir.

Cabir Novruzun 1970-ci illərdəki şeirləri: “Bir dünyam var”, “Qalxdım dağlara”, “Mömin dostum, dağlarınız ucadır”, “Mən bilməmişəm”, “Burada 5000 əsgər yatır”, “Gör harda dinirdi qədim tarımız”, “Qürbət bayatıları”, “İngiltərə, mənə kiçik göründün”, “Zənci qızın mahnısı”, “Londonun şəkil bazarı”, “Füzulinin hüzurunda” və başqaları mövzu və motivlərinə görə müxtəlif olub predmetin özünü yox, onun doğurduğu lirikanı, emosional-psixoloji duyğuları, mənəvi-əxlaqi dəyərləri davamlı olaraq təcəssüm etdirmişdir.

“Nə qədər ki sağam”[5] (1980), “Seçilmiş əsərləri”[6] (1982, 1983), “Ömür keçir karvan kimi”[7] (1985), “Ulu dünya, hayıfsan”[8] (1987), “Anam vardı, dünyam vardı”[9] (1989) adlı kitabları Cabir Novruzun 1980-ci illərdə nəşr edilmiş toplularıdır.

Sənətkar bu kitablarında da fərdi poetik üslubuna, orijinal bədii dilinə sadiq qalmış, əsasən, doğma mövzularını (Vətən, məhəbbət, ana-övlad, yurd, təbiət, bəşəri), səmimi ideya-məzmunu (vətənpərvərlik, humanizm), dil-üslub xüsusiyyətlərini (obrazlılıq, canlılıq, daxili azadlıq, sərbəstlik, gözəllik) inkişaf etdirmişdir.

1990-cı illərdə Cabir Novruzun “Vətən əbədi qoruqdur”[10] (1992), “Özünü qoru, xalqım”[11] (1996) adlı kitabları çap olunmuşdur. Vətəndaş şair

[1] Cabir Novruz. Həyat, sən nə qəribəsən. – Bakı: Azərnəşr, 1971
[2] Cabir Novruz. Taleyin töhfələri. – Bakı: Gənclik, 1972
[3] Cabir Novruz. Bir dünyam var. – Bakı: Gənclik, 1974
[4] Cabir Novruz. İnsan himnləri. – Bakı: Yazıçı, 1978
[5] Cabir Novruz. Nə qədər ki sağam. – Bakı: Gənclik, 1980
[6] Cabir Novruz. Seçilmiş əsərləri. İki cilddə, I c. – Bakı: Yazıçı, 1982; II c. – Bakı: Yazıçı, 1983
[7] Cabir Novruz. Ömür keçir karvan kimi. – Bakı: Yazıçı, 1985
[8] Cabir Novruz. Ulu dünya, hayıfsan. – Bakı: Yazıçı, 1985
[9] Cabir Novruz. Anam vardı, dünyam vardı. – Bakı: Gənclik, 1989
[10] Cabir Novruz. Vətən əbədi qoruqdur. – Bakı: Yazıçı, 1992
[11] Cabir Novruz. Özünü qoru, xalqım. – Bakı: Şirvannəşr, 1996

Milli Məclisin üzvü kimi 20 Yanvar, Xocalı hadisələrinə etiraz səsini ucaltmış, xalqın faciəli həyatını bütün hissiyyatları ilə canlandırmışdır. O, "Özünü qoru, xalqım", "Azərbaycanı sevin, sevin Azərbaycanı" adlı şeirlərində xalqı birliyə çağırmışdır. Onun "Kaş, millətdə ruh yaşasın" şeirində milli ruh, milli şüur yanğısı təsirli ifadə edilmişdir.

Cabir Novruzun şeirlərində əslə, soy-kökə, mənəvi-əxlaqi dəyərlərə, bütövlüyə bağlılıq həmişə güclü olmuşdur. Şairin "Məni taparsınız şeirlərimdə", "Məni tonqalda yandırın" adlı bədii nümunələrində Qarabağ dərdlərinin ifadəsi təsirlidir. O, millətə və dövlətə etinasızlarla, xalq malını talayanlarla barışmamışdır ("Nədir bu millətin günahı, Allah", "Dözmək olmur daha, xalqım" və s.).

Sənətkarın "Xalq", "Vətəni qorudun, sənindir", "Olum, ölüm vaxtı gəlib", "Haray, məmləkətim", "Yurduna ağlayan ana", "Şəhidlik", "Azərbaycan dərdi", "Qarabağ", "Ana, qurban olum dualarına" adlı şeirlərində Qarabağın azadlığı, torpaq-ərazi birliyi yanğı ilə ifadə edilmişdir.

Cabir Novruz "Əli Kərim xatirəsi", "Qərbi Berlin", "İnsan himnləri", "İtmiş kəndin nağılları", "Azərbaycan", "İnsan məhəbbəti", "Cəfərlə görüş" adlı epik süjet planında olmayan lirik poemaları vətənpərvərlik, humanizm və beynəlmiləlçilik, tarix, müharibə və təbiət mövzularındadır. X.R.Ulutürk yazmışdır ki, şairin "İnsan məhəbbəti" adlı poemasının geniş şöhrət qazanmasının ümdə səbəbi insan taleyinə biganəliyin, hətta ən kiçik təzahürünə qarşı mövqeyinin aydınlığında, qızğın humanizmindədir".[1]

2001-ci illərdə Cabir Novruzun "İnsanı tanımaq olmur",[2] 2005-ci ildə "İtmiş əlyazmalar"[3] adlı kitabları, habelə, 2004-cü ildə Prezident Sərəncamı əsasında Seçilmiş əsərləri[4] çapdan çıxmışdır. Bu kitablarda təkrar bədii nümunələrlə yanaşı, şairin bəzi arxiv şeirləri də üzə çıxarılmış və çap edilmişdir.

Cabir Novruz tərcüməçiliklə də məşğul olmuşdur. Onun Y.Bukovdan ("Səməd"), Y.İsayevdən ("Yaddaşın məhkəməsi", "Yaddaşın üfüqləri" 1984), S.Marşakdan ("Yekə cib" 1964), B.Oleynikdən ("Torpaq üstə dayanmışam" 1980), R.Rojdestvenskidən ("Sizin üçün yaşayıram", "Mənim şair dostum"), O.Süleymenovdan ("Şəhriyarın nəfəsi") tərcümələri vardır. "Cabir Novruz yalnız orijinal yaradıcılığında deyil, tərcümələrində də öz üslub parlaqlığını, deyim tərzindəki xəlqiliyi qoruyub saxlamışdır".[5]

Cabir Novruzun bədii yaradıcılığında xəyal, təsəvvür, xatirə, təəssürat, qavrayış – hissi idrak səviyyəsi daha geniş təzahür etmiş, onun poetik

[1] Xəlil Rza Ulutürk. Şair hünəri. Mənə bənzə. – Bakı: Gənclik, 2000, s.296
[2] Cabir Novruz. İnsanı tanımaq olmur. – Bakı: Azərbaycan, 2001
[3] Cabir Novruz. İtmiş əlyazmalar. – Bakı: Çaşıoğlu, 2005
[4] Cabir Novruz. Seçilmiş əsərləri. – Bakı: Lider, 2004
[5] Xəlil Rza Ulutürk. Şair hünəri. Mənə bənzə. – Bakı: Gənclik, 2000, s.295

mətnləri üçün birinci şəxsin təhkiyəsinə (əsasən, birinci şəxsin təkində, bəzən birinci şəxsin cəmində) bağlılıq, münasibət, xitab, dialoji monoloq və lirizm bolluğu səciyyəvi olmuşdur.

Şairin şeirlərində mövzu, təsvir və təhkiyə, əsasən, bir predmetlə bağlı olmuş, mətn həmişə bir poetik məkana köklənmiş, lakin psixoloji fikir və məna kifayət qədər əlvanlıq ifadə etmişdir. Cabir Novruzun şeirlərinin nəqletmə, mühakimə təhkiyəsində fəlsəfi-əxlaqi məziyyətdən çox, psixologizm keyfiyyəti güclü görünür. Cabir Novruz poeziyasının gözəlliyi, həm də onun heyrətamiz səmimiyyəti və təbiiliyindədir. Tənqidçi-filosof Asif Əfəndiyev yazmışdır: "Cabir Novruzun şeiri müasir şeirdir, çünki insanı sevən, ucaldan, müqəddəsliyi təsdiq edən, ilkinliyə çağıran təbii, hərarətli, səmimi, inamlı, qanadlı sənətdir".[1]

Cabir Novruz, əsasən, heca vəznində, ənənəvi şeir formalarında (bayatı, qoşma, gəraylı, məsnəvi, rübai, müxəmməs, fəxriyyə, tərcibənd, ağı, qəzəl, qitə) yazmışdır. Onun şeirlərində əruz vəzninin nümunələrinə də rast gəlirik ("Görəcəklər ki, zühur eyləmişəm", "Bir yekə tənhalıq içində", "Məhəbbətsiz necə ömür eylər insanlar" və s.). Şairin ölçülü sərbəstlikdə, sinkretik formalarda ("Ən çox", "Mənim ömrüm", "Sona çatan əsrimizin mən sonuncu şairiyəm", "Altmış illiyimə", "Əzildikcə, danıldıqca" və s.) şeirləri də az deyil.

Cabir Novruzun poeziyası üçün leksik və sintaktik təkrirlər, lirik-psixoloji ovqat, fikir və düşüncə, leksik-ritmik sıralanma (həmcins üzvlü sadalamalar), xəbər (feil) fəallığı, xüsusi danışıq təhkiyəsi, kifayət qədər səs və söz təkrarları, alliterasiya və assonanslardan güclü istifadə, emfatik vurğular (xitab, nida, nəqli və əmr intonasiyası), qafiyə tezliyi və dəyişkənliyi səciyyəvi xüsusiyyətdir.

Cabir Novruzun şeir mətnlərində çarpaz, məsnəvi və qurşaq qafiyələr aparıcıdır. Şair az hallarda bayatı qafiyələrdən (a-a-b-a) istifadə etmişdir. Onun yarımçarpaz (a-b-c-b), dövrəvi (a-b-c-a) qafiyələri demək olar ki, yoxdur. O, həmişə çarpaz qafiyəyə (a-b-a-b) üstünlük vermişdir.

Xalq şairi Cabir Novruzun bədii yaradıcılığı tədqiqat predmeti olmuş, sənətkar haqqında məqalələr və monoqrafiya yazılmış, dissertasiya müdafiə edilmişdir. Onun XX əsr Azərbaycan ədəbiyyatında özünəməxsus yeri və mövqeyi vardır.

[1] Asif Əfəndiyev. Müqəddəsliyin vəsfi / Cabir Novruz. İnsan himnləri (Şeirlər və poemalar). – Bakı: Yazıçı, 1978, s.5

MÜZƏFFƏR NƏSİRLİ
(1911-1980)

Azərbaycan ədəbiyyatında ictimai məzmunlu poeziyanın inkişafında Müzəffər Nəsirlinin mühüm xidmətləri vardır. O, ədəbiyyat cəbhəsi ilə yanaşı, təşkilatçılıq sahəsində də səmərəli fəaliyyət göstərərək Naxçıvanda ədəbi mühitin formalaşdırılması və inkişafı yollarında çalışmışdır.

Həyatı. Müzəffər Nəsirli (Müzəffər Qasım oğlu Nəsirli) 14 sentyabr 1911-ci ildə Naxçıvan qəzasının Şahbuz bölgəsindəki Sələsüz kəndində anadan olmuşdur. O, ibtidai təhsilini Naxçıvan şəhərində almışdır. Sonra 1926-1929-cu illərdə Naxçıvan Pedaqoji Texnikumunda oxuyub müəllimlik ixtisası qazanmışdır. Təyinatla 1929-cu ildə Vənəd kəndinə göndərilən Müzəffər Nəsirli burada bir il kəndli-gənclər məktəbində 1931-1932-ci illərdə Şərur rayonunun (keçmiş Noraşen rayonu) Qıvraq kənd məktəbində, 1931-1932-ci illərdə isə İrəvan şəhərində yaradılmış fəhlə fakültəsində və Kooperativ Texnikumunda müəllimlik etmişdir. Sonrakı dövrdə Naxçıvanda yaşayıb-yaradan və ilk şeirlərini çap etdirən Müzəffər Nəsirli 1927-ci ildə Naxçıvanda "Qızıl qələmlər" cəmiyyətinin təşkilatlanmasında fəal iştirak etmişdir. Azərbaycan Proletar Yazıçılar Cəmiyyətinin katibi Süleyman Rüstəm Naxçıvana gələrək, Muxtar Respublikada Proletar Yazıçılar Cəmiyyətini təsis etmiş, ədəbi mühitdə fərqlənən Müzəffər Nəsirlini həmin yaradıcılıq təşkilatının katibi seçmişdir. Müzəffər Nəsirli 1932-1936-cı illərdə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Ədəbiyyat fakültəsində ali təhsil almışdır. Bu illərdə o, həm Azərbaycan mətbuatında, həm də Naxçıvan Muxtar Respublikasında çıxan "Şərq qapısı" qəzetində şeirlər və məqalələrlə çıxış etmişdir.

Həyatı və fəaliyyətinin 1936-1941-ci illər mərhələsi Qərbi Azərbaycanla bağlı olan Müzəffər Nəsirli əvvəlcə İrəvan Pedaqoji Texnikumunda dərs demiş, sonra isə Kommunist Universitetində və Pedaqoji İnstitutunda müəllim kimi pedaqoji fəaliyyətlə məşğul olmuşdur. O, Ermənistan Yazıçılar İttifaqının Azərbaycan bölməsinin təşkilində yaxından iştirak etmişdir.

Müzəffər Nəsirli İkinci Dünya müharibəsinin iştirakçısı olmuşdur. O, 1941-1945-ci illərdə Şimali Qafqaz, Ukrayna, Krım cəbhələrində döyüşmüş, ağır yaralanmış, sonra yenə döyüş yolunu axıradək davam etmişdir. O, müharibə illərində də qələmi yerə qoymayaraq şeirlər yazmışdır. Müharibədən qayıtdıqdan sonra Müzəffər Nəsirli Naxçıvan Dövlət Qiyabi İnstitutunda Dil Ədəbiyyat fakültəsinin dekanı, tədris və elmi işlər üzrə direktor müavini vəzifələrində işləmişdir. Müzəffər Nəsirli 1954-1961-ci illərdə Naxçıvan şəhərindəki 4 saylı məktəbdə dərs hissə müdiri vəzifəsində çalışmışdır.

Yaradıcılıqla ardıcıl məşğul olan Müzəffər Nəsirli 1961-ci ildən ömrünün sonuna qədər Azərbaycan Yazıçılar İttifaqı Naxçıvan Bölməsinin

sədri vəzifəsində çalışaraq, Muxtar Respublikada ədəbi mühitin inkişaf etdirilməsinə, yeni yaradıcı qüvvələrin formalaşdırılmasına xidmət etmişdir. Müzəffər Nəsirli bir neçə dəfə Naxçıvan Muxtar Respublikası Ali Sovetinə deputat seçilmiş, Maarif və Mədəniyyət Komissiyasına sədrlik etmişdir. O, şair və deputat kimi Naxçıvan Muxtar Respublikasında ictimai-mədəni mühitin inkişafına xidmət göstərmişdir.

Azərbaycan Yazıçılarının qurultaylarında və yaradıcılıq müşavirələrində iştirak edən Müzəffər Nəsirli 1971-ci ildə SSRİ Yazıçılarının qurultayının da iştirakçısı olmuşdur.

Müzəffər Nəsirli 1969-1971-ci illərdə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Naxçıvan filialında Rus ədəbiyyatından dərs demişdir.

Gənclik illərindən bədii yaradıcılıq yolunu davam etdirən Müzəffər Nəsirlinin "Mənim respublikam" adlı ilk şeirlər kitabı 1958-ci ildə çap olunmuşdur. Bundan sonra onun "Yanar üfüqlər" (1968), "Əsgər toqqası" (1973), "İki ürək" (1974), "Qaynar bulaq" (1978), rus dilində "Arazın işıqları" (1974) kitabları nəşr edilmişdir.

Ədəbiyyat sahəsindəki çoxillik fəaliyyətinə görə Müzəffər Nəsirli Azərbaycan Respublikası Ali Soveti Rəyasət Heyəti və Naxçıvan Muxtar Respublikası Ali Soveti Rəyasət Heyətinin Fəxri fərmanları ilə təltif olunmuşdur.

Müzəffər Nəsirli 1 yanvar 1980-ci ildə Naxçıvan şəhərində vəfat etmişdir.

Anadan olmasının 100 illiyi Naxçıvanda qeyd edilmiş, bu münasibətlə vaxtilə yazıb Naxçıvan Dövlət Musiqili Dram Teatrına təqdim etdiyi, lakin səhnədə göstərilməmiş "Gönçəbəyimin nəğməsi" adlı pyesi tamaşaya qoyulmuşdur.

Yaradıcılığı. Bədii yaradıcılığa şeirlə başlayan və bütün ömrünü şair olaraq davam etdirmiş Müzəffər Nəsirlinin "İndi" adlı ilk şeiri 1927-ci ildə Naxçıvan Pedaqoji Texnikumunun çapdan buraxdığı ədəbi topluya daxil edilmiş poeziya nümunəsidir. O, gənc "Qızıl qələm"çi kimi dövri mətbuatda şeirlərini çap etdirmiş, ədəbi mühitdə tanınmışdır. Şair ilk şeirlərini "Asim" imzası ilə çap etdirmiş, lakin, bu təxəllüsə görə "pantürkist" kimi tənqid edildiyindən "Müzəffər Nəsirli" imzası ilə yazıb-yaratmışdır.

Bədii yaradıcılığı mövzu etibarilə çoxcəhətli olsa da, Vətən mövzusu və müharibəyə həsr edilmiş şeirlər Müzəffər Nəsirlinin yaradıcılığında xüsusi yer tutur. Azərbaycan poeziyasında vətən mövzusunda yazılmış şeirlər arasında Müzəffər Nəsirlinin də həmin mövzuya həsr edilmiş ilhamlı və təsirli şeirləri vardır. Şairin "Pərvanəsiyəm" şeiri səmimiyyəti və obrazlı ifadə vasitələri ilə vətən mövzusunda yazılmış çoxsaylı şeirlər arasında seçilən uğurlu poetik nümunələrdən biridir.

Mən vətən oğluyam, eldir həmdəmim,
Elə məhəbbətlə keçir hər dəmim.
Yoxdur ürəyimdə nisgilim, qəmim,
Ellərin susmayan tərənəsiyəm.

Vüqarım bənzəyir uca dağlara,
İlhamım oxşayır gur bulaqlara,
Əhdimə sadiqəm, düzəm ilqara,
Cəlilin, Cavidin nişanəsiyəm.

...Vətənim gözüdür bizim dövranın,
Ən gözəl yeridir bütün cahanın,
Başına döndüyüm Azərbaycanın
Sönməyən odunun pərvanəsiyəm.[1]

Müzəffər Nəsirlinin yaradıcılığında iştirakçısı və döyüşçüsü olduğu müharibəyə həsr olunmuş şeirlər çoxluq təşkil edir. Hələ müharibə dövründə səngərdə ikən şeirlər yazıb cəbhə yoldaşlarına oxuyan şair sonralar bütün yaradıcılığı boyu bu mövzuda şeirlər yazmaqda davam etmişdir. Müzəffər Nəsirlinin cəbhə şeirləri Azərbaycan ədəbiyyatında bu mövzuda yazılmış şeirlərin içərisində təbiiliyi və ibrətamiz canlı səhnələri təsvir və tərənnüm etməsi ilə fərqlənir. O, "Cəbhəyə məktub", "Səhra xəstəxanasında", "Şineli sal üstümə", "O, Qafqazdan gəlmişdir" adlı şeirlərində döyüş səhnələrini, səngər həyatını bacarıqla nəzmə çəkmişdir. Əsgər həyatının nəbzinin döyündüyü bu şeirlərdə cəbhə mühitinin yaddaqalan poetik mənzərəsi canlandırılmışdır. Müzəffər Nəsirlinin "Sapundağ haqqında ballada" və "Partizan Əfruz" poemalarında da cəbhənin barıt qoxusu gələn səhnələri məharətlə poetikləşdirilmişdir. Müharibəyə həsr etdiyi nümunələr Müzəffər Nəsirlinin vətənpərvərlik mövzusunda yazdığı şeirlərlə ideya baxımından səsləşir və bir-birini tamamlayır.

Müzəffər Nəsirlinin yaradıcılığında ömrü boyu yaşadığı Naxçıvan mövzusunda qələmə alınmış şeirlər geniş yer tutur. Naxçıvan diyarının Azərbaycanın tarixində və taleyindəki yerini və mövqeyini Müzəffər Nəsirli şeir vasitəsilə mənalandıraraq, obyektiv qənaətlərini oxuculara çatdırmışdır. Ənənəvi olaraq Naxçıvanın ölkəmizə görkəmli elm və siyasət xadimləri, ədəbiyyat və incəsənət sahəsində tanınmış böyük şəxsiyyətlər bəxş etməsinin poetik cəhətdən mənalandırılması ilə bərabər, Müzəffər Nəsirli bu mövzunu ölkəmizin ərazi bütövlüyünün keşiyində dayanmaq, torpaqlarımıza göz dikənlərə sərt poetik cavablar vermək motivləri ilə daha da zənginləş-dirmişdir. "Mənim doğma Naxçıvanım" şeiri tarixdəki böyük simaları və bu

[1] Müzəffər Nəsirli: Arazın işıqları. – Bakı: Gənclik, 1974, s.38

gün torpaqlarımızın mərd keşikçiləri ilə fəxr etməyə haqqı çatan Naxçıvan diyarının Vətən qarşısındakı xidmətlərinin şeir dili ilə canlandırılmasından və mənalandırılmasından ibarət olan mükəmməl poeziya nümunəsidir:

Qoca Şərqin qapısında
Al günəşli bir diyarsan,
Dildən-dilə gəzir adın,
Sən nə qədər bəxtiyarsan,
Mənim doğma Naxçıvanım!

Sərvətlidir, yenilməzdir
Qoynundakı qəlbi dağlar.
Səfalıdır yaylaqların
Öz büsatın, cəlalın var,
Mənim doğma Naxçıvanım!

"Araz üstündə bahar" şeirində də Naxçıvanın qədim abidələri, görkəmli şəxsiyyətləri xoş ovqat ilə bu ecazkar torpağın, bahar fəslinin gözəllikləri vəhdətdə tərənnüm olunmuşdur:

...Memar Əcəmidən qalan məqbərə,
Elə bil düşünür, fikrə dalıbdır.
Yaşı bilinməyən neçə abidə,
Sonsuz nəsilləri yola salıbdır.

Əlincə qalası – mərdlik zirvəsi,
İgid babaların hünər səsidir;
"Qızlar bulağı"nın gur şəlaləsi,
Heyranın, Göncənin tərənəsidir.

Şair Xətaiyə oxşar olubdur,
Düşmənlə döyüşdə Şərur düzləri.
Hər qarış torpaqda həkk olunubdur
Cəlilin, Cavidin ayaq səsləri.

...Yurdumun şöhrəti bir dastan kimi
Düşübdür dillərə xeyli zamandır.
Söyləyir odur ki, gələn qonaqlar:
- Doğrudan bu torpaq Nəqşi-cahandır!

Ədəbi tənqid Müzəffər Nəsirlinin "Araz üstə bahar" şeirinə də yüksək qiymət vermişdir. Akademik Bəkir Nəbiyev bu orijinal şeirdə Naxçıvanın tarixi-mədəni ənənələri ilə bənzərsiz təbiətinin bir-birilə əlaqəli mənalandırılmasını şairin yaradıcılıq nailiyyəti hesab etmişdir: "Müzəffər Nəsirli Naxçıvana həsr olunmuş "Araz üstə bahar" şeirində doğma yurdun tarixinə,

təbiətinə, ədəbi-mədəni ənənələrinə dair qiymətli faktları… mənalandırmışdır. Bu müxtəsər şeirdə memar Əcəmi, şairə Heyran xanım, Qönçə (Qönçəbəyim – İ.H.) Mirzə Cəlil, Hüseyn Cavid, Əlincə qalası, Şərur düzü muxtar respublikanın bugünkü büsatı ilə üzvi əlaqədə tərənnüm edilmiş, bu torpağın doğrudan da "Nəqşi-Cahan" olduğu poetik cəhətdən əsaslandırılmışdır".[1]

Müzəffər Nəsirli Naxçıvan diyarının əlvan poeziya çələngini yaratmışdır. Şairin "Mənim respublikam", "Naxçıvan duzu", "Qızlar bulağı", "Laləli dağlar", "Şahbuz dağlarında" şeirlərində Naxçıvanın özünəməxsus təbii gözəllikləri poetik dillə vətənpərvərlik duyğularının işığında mənalandırılmışdır. "Qızlar bulağı" şeiri onun yaradıcılığının bu xüsusiyyətini dolğun şəkildə ifadə edir:

Kim sənə ad qoyubdur, söylə görüm, ay bulaq,
Görməmişəm dünyada hüsnünə mən tay, bulaq.
Qayalardan süzülən mərcan gözlü saf sular,
Özün söylə, haçandan qalıb belə yadigar?
Danış, Qızlar bulağı.
Mən ki, özgə deyiləm, bu torpağın oğluyam,
Yurdumun nəfəsidir sinəmdəki bu ilham.
Bəlkə gözəl bir qızın nəğməsidir çağlayan,
Məhəbbətdən söz açıb pıçıldayır hər zaman?
Danış, Qızlar bulağı.[2]

Müzəffər Nəsirlinin poema janrında yazdığı əsərlər də əhəmiyyətli sənət nümunələridir. Şairin "Atam haqqında ballada", "Arpaçayın dastanı", "Partizan Əfruz", "Sapundağ haqqında ballada" poemalarının mövzusu onun yaxından bələd olduğu həyat materialından alınıb sadə süjet əsasında dövrün mühüm mətləblərini əks etdirdiyi poetik əsərlərdir. Əsasən liro-epik poemalar olan bu əsərlərdəki bədii haşiyələr, təbiət mənzərələri, tərənnüm xarakterli lirik parçalar həmin əsərlərin sənətkarlıq cəhətdən də uğurlu alınmasına kömək etmişdir.

Şair kimi tanınan Müzəffər Nəsirli dramaturgiya sahəsində də fəaliyyət göstərmişdir. Onun "Azadlıq günəşi", "Qanlı qanunlar" dramları tarixi mövzuda qələmə alınmışdır. Eyni zamanda, XIX əsrdə Naxçıvanın hakimi olmuş Ehsan xan Kəngərlinin gənc qızı, şairə Qönçəbəyimin kədərli taleyindən və sənət dünyasına baxışından bəhs edən "Qönçəbəyimin nəğməsi" adlı dramında tarix və tale məsələsi öz əksini tapmışdır. Əsərdə

[1] Müzəffər Nəsirli. Taleyi və sənəti. – Naxçıvan: Əcəmi, 2022, s.45
[2] Müzəffər Nəsirli. İki ürək. – Bakı: Azərnəşr, 1974, s.98

tanınmış gürcü şairi Nikoloz Barataşvilinin də yaddaqalan obrazı yaradılmışdır.

Müzəffər Nəsirli müasir mövzularda da dramatik əsərlər yazmışdır. Onun "Qırmızı geyimli qız", "Məhəbbət qocalmır", "Dürdanə" kimi pyeslərində şairin müasirlərini düşündürən problemlərdən söz açılmışdır.

Müzəffər Nəsirli tənqid və ədəbiyyatşünaslıq fəaliyyəti və publisistika ilə də məşğul olmuşdur. Onun Azərbaycan və rus ədəbiyyatı klassikləri haqqında dövri mətbuatda çap etdirdiyi məqalələrində görkəmli sənətkarların həyatı və yaradıcılığının ən əhəmiyyətli məqamları oxuculara çatdırılmışdır. Bununla yanaşı, Müzəffər Nəsirlinin şairə Qönçəbəyim, maarifçi ziyalı Mirzə Cəlil Şürbi, yazıçı-publisist Eynəli bəy Sultanov, "Şərq qapısı" qəzetinin fəaliyyəti, Naxçıvan ədəbi mühiti haqqındakı məqalələri elmi-tədqiqat xarakterli araşdırmalardan ibarətdir. Eyni zamanda Müzəffər Nəsirlinin şəxsi arxivində 1973-1974-cü illərdə yazdığı 150 makina səhifəsindən ibarət olan "Sovet hakimiyyəti illərində Naxçıvanda ədəbi həyat" adlı tədqiqat xarakterli araşdırma materialı da saxlanılır. Bundan başqa, Müzəffər Nəsirli müasirləri olan yazıçı və şairlər, xüsusən onların yeni çap olunmuş kitabları haqqında da məqalələr yazıb mətbuat vasitəsi ilə oxuculara çatdırmışdır. Şairin əsasən "Şərq qapısı" qəzetində çap etdirdiyi publisistika nümunələrində muxtar respublikada yaşayıb-yaradan əmək adamlarının və ziyalıların fəaliyyəti işıqlandırılmışdır.

Müzəffər Nəsirlinin çoxcəhətli ədəbi-ictimai fəaliyyəti və elmi-publisist axtarışları Azərbaycan ədəbiyyatının yaddaqalan səhifələrini təşkil edir.

ZEYNAL XƏLİL
(1914-1973)

XX əsr Azərbaycan poeziyasının tanınmış nümayəndələrindən olan Zeynal Xəlilin yaradıcılıq politrası rəngarəng və çoxşaxəlidir. O, gənc yaşlarından ədəbiyyata gəlmiş, şeir, poema, mənzum roman, dram əsərləri, ədəbi tənqid və s. yönümdə dolğun, təbii, səmimi, bu gün də aktuallığını qoruyub saxlayan zəngin ədəbi irs, sənət əsərləri yaratmışdır. Z.Xəlil milli ədəbiyyatımıza süjetli lirika, poetik deyim tərzi, romantik düşüncələr silsiləsi, ənənəvi milli ruh gətirmişdir.

Həyatı. Zeynal Rza oğlu Xəlil 1914-cü il aprel ayının 1-də Gəncə şəhərində anadan olmuşdur. Altı yaşında olarkən atası Rza Xəlili itirmiş, böyük qardaşının himayəsində böyümüşdür. Gəncə şəhər 7 illik məktəbini bitirdikdən sonra, 1932-1936-cı illərdə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Dil və ədəbiyyat fakültəsində ali təhsil almış, tələbəlik illərində "Ədəbiyyat qəzeti" kimi nüfuzlu mətbuat orqanında "Buludlar" (1934, 5 noyabr), "Taxıl biçini" (1935, 21 fevral), "Xəzər" (1935, 23 aprel), "Böyük itki" (1935, 9 avqust), "Hacıkənd" (1935, 23 dekabr) və digər şeirlərini çap etdirmiş, incə ruhlu, coşqun təbli şair kimi tanınmış və rəğbət qazanmışdır.

Z.Xəlil ali pedaqoji institutu bitirərək təyinatla Goranboy kənd orta məktəbinə müdir (1936-1938) vəzifəsinə göndərilmiş, iki il bu məktəbdə çalışdıqdan, əmək təcrübəsinə yiyələndikdən sonra Bakı şəhərinə, yeni vəzifəyə dəvət almışdır. O, fəaliyyətini R.Mustafayev adına Milli İncəsənət Muzeyinin direktoru (1938-1939) vəzifəsində davam etdirmiş, mədəniyyətin, incəsənətin bu nəcib, unikal sahəsinə diqqət və qayğının artırılmasına, muzeyin dəyərli təsviri sənət əsərləri ilə zənginləşdirilməsinə nail olmuşdur.

İkinci Dünya müharibəsi illərində (1939-1945) Azərbaycan Yazıçılar Birliyi İdarə Heyətinin məsul katibi vəzifəsini icra edən Zeynal Xəlil ideoloji işin ağırlığını, müharibə ədəbiyyatının təşəkkülü və formalaşması prosesinin məsuliyyətini öz üzərində birbaşa hiss etmişdir. O, müharibə illərində döyüşçülərin mübarizə əzmini yüksəltmək üçün "Yəhərləyin atları", "416", "Döyüşçünün vəsiyyəti", "Bir qarının töhfəsi" və s. şeirlərini, "Qatır Məmməd" (1941), "Tatyana" (1942), "İntiqam" (1942) poemalarını yazmış, "Gəncə qartalı" mənzum pyesi Azərbaycan Dövlət Akademik Dram Teatrında tamaşaya qoyulmuşdur. Onun özü müharibə dövrü ədəbiyyatına köklənməklə yanaşı, Yazıçılar Birliyinin məsul katibi olaraq ədiblərin dövrün aparıcı mövzusuna istiqamətlənməsində, bu sahədə təbliğat və təşviqat işlərinin səmərəli aparılmasında mühüm rol oynamışdır.

Müharibədən sonrakı illərdə də Z.Xəlil Azərbaycanın ədəbiyyatı, mədəniyyəti, incəsənəti sahəsində yorulmaq bilmədən fəaliyyət göstərmiş, yaradıcı əmək sərf etmiş, milli düşüncənin dirçəlməsində, yeni nəslin

tərbiyələnməsində bilik və bacarığını əsirgəməmişdir. M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasının rəhbəri (1945-1948), Xarici Ölkələrlə Mədəni Əlaqələr Cəmiyyətinin sədr müavini (1948-1950), Siyasi və Elmi Bilikləri Yayan Cəmiyyətin elmi katibi, Radio Komitəsində məsləhətçi (1951-1956) və Mədəniyyət Nazirliyində İncəsənət İdarəsinin rəisi (1960-1963) vəzifələrində işlədiyi illərdə də vətənə, xalqa vicdanla, sədaqətlə, yüksək entuziazm ilə xidmət göstərmişdir. O, Azərbaycan mədəniyyət və incəsənət xadimləri ilə birlikdə – nümayəndə heyətinin tərkibində 1960-cı ildə Fransada, 1962-ci ildə Almaniyada səfərdə olmuş, müşahidələri əsasında yol qeydlərini, təəssüratlarını, xatirələrini yazaraq mətbuatda dərc etdirmişdir.

Z.Xəlil 1963-cü ildə Respublikanın Mədəniyyət Nazirliyi tərəfindən Kinematoqrafiya Komitəsinə baş redaktor vəzifəsinə təyin olunduğu gündən ömrünün sonunadək taleyini milli kinematoqrafiya ilə bağlamış, böyük həvəs və zövq ilə ekran əsərləri üçün ssenarilərin seçilməsi və təkmilləşdirilməsi işi üzərində çalışmışdır.

İctimai xadim, şair, dramaturq, tərcüməçi Zeynal Xəlilin əməyi layiqincə dəyərləndirilmiş, "Əməkdar incəsənət xadimi" fəxri adı, "Şərəf nişanı" ordeni, "Qafqazın müdafiəsinə görə", "İkinci Dünya müharibəsində fədakar əməyə görə", "İkinci dünya müharibəsində Almaniya üzərində qələbəyə görə" medalları və Azərbaycan Ali Soveti RH-nin Fəxri fərmanları ilə təltif olunmuşdur.

Zeynal Rza oğlu Xəlil 1973-cü il 10 avqust tarixində Bakı şəhərində vəfat etmişdir.

Yaradıcılığı. Z.Xəlilin "Yeni kənd" adlı ilk şeiri 1932-ci ildə "Hücum" jurnalının 7-8-ci sayında dərc olunmuş, şair on beytlik bu şeiri ilə cəmiyyətin yeniləşməsini, kənddə quruculuq işlərinin vüsət almasını tərənnüm etmişdir. İnsan, zaman, təbiət mövzusunda yazdığı ilk qələm təcrübələri "Gənc işçi", "Ədəbiyyat qəzeti" səhifələrində dərc olunurdu. O, 1936-cı ildə isə istedadlı tənqidçi, yazıçı Mehdi Hüseynin xeyir-duası və duyğusal, doğal bir "İstək"[1] ilə böyük Azərbaycan ədəbiyyatı səltənətinə qədəm qoymuşdur. Gənc şairin ilk kitabında toplanmış "Bir payız axşamında", "Buludlar", "Hacıkənd", "Vətən sevgisi", "İstək", "C.Cabbarlıya", "Xəzər", "Gülər" və s. şeirləri vətən sevdalı bir gəncin poetik ürək çırpıntıları idi.

Zeynal Xəlilin 1938-1939-cu ildə yazdığı və nəşr etdirdiyi ikinci kitabı Azərbaycan kəndinin qaynar həyatından, sinfi mübarizəsindən, kolxoz

[1] Zeynal Xəlil. İstək (şeirlər) (Redaktoru: H.Mehdi). – Bakı: Azərnəşr, 1936, s.92

quruculuğunun çətinliklərindən, insani münasibətlərdən bəhs edən yığcam-həcmli "Qılınc"[1] poemasıdır. Əsər məsnəvi biçimində qələmə alınmış, giriş və dörd bölümdən ibarətdir. Müəllif "Qılınc"ı Goranboyda müəllim işlədiyi dönəmdə yazmağa başlamış, əsərini Bakıda tamamlamışdır. Poemada hadisələr Goranda cərəyan edir, yaxın qohumlar arasında yaranmış süni konfliktlər üçün sinfi boyalar, ideoloji yanaşmalar siyasi fon olaraq seçilmişdir. Kəndin köhnə qüvvələri (Çal Paşa, Kar Nadir, Civə) ilə yenilikçi gənc mübarizləri (Çoban, Qılınc, Qəşəng) üz-üzə gəlir, şəxsi mənafe ilə xalq mənafeyi tərəfdarları toqquşur...

Əsərdə Qılınc və Qəşəng bir-birini sevən iki gənc, bibioğlu-dayıqızı olaraq yaxın qohum, lirik səpkidə təqdim olunmuş romantik obrazlardır. Şair Qılıncı yenilik eşqilə çırpınan, şux, zarafatcıl, xalq mahnılarını, bayatıları oxumağı sevən, çağdaş düşüncəli, elini-obasını quldur-qaçaqlardan qoruyan gənc kimi at belində təqdim edir:

Qılınc məhmizləyir arabir atı,
Qaldırıb səsini, deyir bayatı:
Əzizim haray çəmən,
Göy çəmən, haray çəmən.
Məmələrin dalaşanda,
Olaydım harayçı mən...[2]

Qılınc həyatı, insanları çılğın bir məhəbbətlə sevir, amma onun xoşbəxt yaşamasına mane olanlar var. Sürüləri, ilxıları, var-dövləti əlindən alınmış, "bəlkə də qaytardılar" ümidi ilə yaşayan Çal Paşa bacısı oğlu, yoxsul Qılıncı qızı Qəşəngə layiq görmür. Eşidəndə ki, qızı Qılınc tərəfindən qaçırılıb, evə hücum çəkir, doğma bacısı Gülyanağı qapının kandarında güllələyir. Faciə gənc ailənin dağılması üçün əsasa çevrilmir, möhkəmliyinə əminlik yaradan sınaq təəssüratı yaradır. Çal Paşanın cinayətləri, qəddarlığı əhali tərəfindən qınanır və o dəstəsi ilə Üçqayaya çəkilir. Çobanın başçılığı ilə Gorandan Üçqayaya könüllü dəstə göndərilir. Qılınc quldurlarla ilk döyüşdə Çal Paşanı məhv edir və təəssüf ki, özü də həlak olur. Əsərdə Qılıncın igidliyi, qətiyyəti, xalqyönlü mövqeyi, sevgisi və el yolunda canından keçməsi yaşıdlarına nümunə olaraq təqdim edilmişdir.

Zeynal Xəlilin nəşr etdirdiyi növbəti poeması məsnəvi biçimində yazılmış, XX yüzilliyin əvvəllərində haqsızlığa, ədalətsizliyə qarşı mücadilənin ön sırasında dayanan, igidliyi, mərdliyi ilə bütün Gəncəbasar

[1] Zeynal Xəlil. Qılınc (Redaktoru: Məmməd Rahim). – Bakı: Uşaq və gənclər ədəbiyyatı nəşriyyatı, 1940
[2] Yenə orada, s.16

mahalında tanınan xalq qəhrəmanına həsr olunmuş "Qatır Məmməd"[1] adlanır. Poemadakı dinamikanın energetikasına güvənən müəllif onu daha da genişləndirərək mənzum pyesə çevirmiş, əsər Azərbaycan Dövlət Akademik Dram Teatrında 1945-ci il 3 may tarixində rejissorlar Səftər Turabov və Əliheydər Ələkbərovun quruluşunda səhnələşdirilmişdir. Z.Xəlilin 1950-ci ildə "Uşaqgəncnəşr"də çap olunan "Qatır Məmməd" mənzum pyesinin motivləri əsasında 1974-cü ildə Rasim Ocaqovun rejissorluğu ilə C.Cabbarlı adına Azərbaycanfilm kinostudiyası eyniadlı bədii film çəkmişdir.

"Qatır Məmməd" poemasında hadisələr Goranboy, Xan Qərvənd, Naftalan, Şadılı, Orta kənd, Kəpəzin qaşı, Kür sahili və digər yerlərdə cərəyan edir. Əsərin qəhrəmanı xalq arasında "Qatır Məmməd" adı ilə məşhurlaşan Məmməd Əli oğludur. O, haqsızlığa, ədalətsizliyə qarşı mübarizədə Göyüş, Gülcamal, Allahverdi kimi mərd, mübariz insanlara arxalanır. Əks cəbhədə isə Hacı, pristav, yüzbaşı, Quşbaz oğlu Hüseyn, Şeytan Mustafa, Sarı Ələkbər və b. qoşun ilə dayanmışlar... Döyüşdə Əzizin xəyanəti nəticəsində Qatır Məmməd qətlə yetirilmişdir.

Poemada Qatır Məmmədin həyat yoldaşı Gülcamal obrazının xüsusilə qabardılması əsərə təravət, emosional əhval-ruhiyyə bəxş edir. Şair böyük zövq ilə sevimli obrazının canlı, real portretini yaradır:

Fəqət ölü o düzlər yetirmişdir bir çiçək,
Goranboyun döşündə qara gözlü bir mələk.
Boy ataraq böyümüş çatıb on səkkiz yaşa,
Onun zərif görkəmi şeirdir başdan-başa.
Rəng almışdır gecədən dalğalanan saçları,
Bəyaz, geniş sinəsi utandırır baharı.
Uşaqlıqdan dinləmiş "Şah İsmayıl" nağlını,
Bəzən almış göylərdən "Məlik Məmməd" ağlını.
Sadə kəndli qızıdır bizim əziz Gülcamal,
Həyatında görməmiş nə gurultu, nə cəlal.[2]

Ondördlük hecada yazılmış poemanın dili sadə, obrazlı və axıcıdır. İstinad olunan nümunədə Gülcamalın daxili və xarici gözəlliyi, polifonik, çoxçalarlı bədii portreti ustalıqla yaradılmışdır. Müəllif sovet ideologiyasının təsiri altında əsərində dinə, sinfi mübarizəyə və "Müsavat quruluşu"na aid solğun cizgilər daxil etsə də, bütövlükdə Qatır Məmmədin və onun dəstəsinin mücadiləsi demokratik hüquqlar, haqq, ədalət, ləyaqət, namus və torpaqların kəndlilərə verilməsi uğrundadır. Feodal-patriarxal dövrünün kəndində Çal

[1] Zeynal Xəlil. Qılınc (Redaktoru: Məmməd Rahim). – Bakı: Uşaq və gənclər ədəbiyyatı nəşriyyatı, 1940, s.76
[2] Zeynal Xəlil. Qatır Məmməd / Redaktoru: Məmməd Rahim. – Bakı: Uşaqgəncnəşr, 1941, s.5

Paşa, Kar Nadir, Civə, Quşbaz oğlu Hüseyn, Şeytan Mustafa, Sarı Ələkbər, Hacı, pristav, yüzbaşı və b. dərəbəylik, özbaşınalıq mühitində, xaotik cəmiyyətdə zəncirvarı törədilən cinayətlərin qarşısında qanunun aciz, mağmın duruma düşməsi müqabilində Qatır Məmməd kimi igid, cəsur oğulların çirkab axınına – "Dur!" – deməsi, xalqın mənafeyinə zidd qüvvələrin qarşısına çıxması gözlənilən və labüd idi.

"Qatır Məmməd" poemasında mübarizənin uğursuzluqla nəticələnməsi təəssüf doğursa da, əsərdə haqqa, ədalətə çağırış, xalq, torpaq uğrunda savaşa səsləniş güclü və ibrətamizdir.

Z.Xəlilin böyük Azərbaycan mütəfəkkiri, söz ustadı Nizami Gəncəviyə həsr etdiyi "Şairin yuxusu" pyesi, "Ulduzlar" (1961) mənzum romanı, "Tatyana" (1942), "Koroğlunun qocalığı" (1945), "Şah və qarışqa" (1946), "Komuna kəndi" (1949) və b. poemaları çağdaşlığı, aktuallığı və bəşəri ruhu ilə ədəbi-bədii düşüncə tariximizdə yaşayacaqdır.

Şairin həyat və yaradıcılığının tədqiqatçısı Nərgiz Məmmədzadə onun bədii-estetik fikrimizə bəxş etdiyi zəngin ədəbi irsini elmi müstəvidə nəzərdən keçirərək yazırdı: "Zeynal Xəlil həm də on dörd poema, beş dram əsəri və bir mənzum roman müəllifidir. "Ulduzlar", "İki dost" adlı poemanın yeni variantıdır. Lakin şair burada təkrara yol vermir, hadisələri yeni formada işləyir, əsərə yeni obrazlar gətirir və mövzuya yeni süjet xətləri əlavə edir. Burada yenə də insanlar, onların arzu və istəkləri, müharibənin İnsan taleyində qoyduğu izlərdən bəhs edilir. Poemanın əsas xətti – İnsan və müharibədir. Əsərin dili çox axıcıdır, müəllif dialoqların təbii və səmimi alınmasına çalışıb, atalar sözü və məsəllərdən istifadə edib".[1]

Zeynal Xəlilin bədii yaradıcılığında lirik şeirləri mühüm yer tutur. Onun mövzuları birbaşa həyatdan qaynaqlanır, çoxşaxəli və rəngarəngdir. Şairin insan, zaman, təbiət haqqında yaratdığı əsərləri təbiiliyi, səmimiliyi, canlılığı, həyat həqiqətlərinə sadiqliyi ilə seçilir. Bədii təsvir vasitələrindən bəhrələnmiş beytlərində, bəndlərində gerçəklik, həqiqət bəlağətli ifadələrlə, pafosla pərdələnmir... O öz həyatını, atasının taleyini nəzmə çəkəndə də çox səmimi idi:

Atam mənim papaqçıydı...
Varı-yoxu bir qəlibdi, bir də iynə.
Gecə-gündüz bunlar oldu,
Çatan onun köməyinə...
Amma yazıq heç etmədi,
Taleyindən bir şikayət.

[1] Nərgiz Məmmədzadə. Zeynal Xəlil: həyat və yaradıcılığı. – Bakı: Risalə. Elmi araşdırmalar jurnalı, 2019, № 1, s.154-158

Dedi: Tanrı belə yazıb,
Bəxtimizi bizim, əlbət![1]

Büllur bulaq suyu kimi axıcı misralar incə cizgilərlə poetik mənzərəni tamamladıqca göz önündə halallığa, zəhmətə bağlı cəfakeş bir insanın – papaqçının obrazı canlanır. Z.Xəlilin Papaqçısı mənəvi-etik cəhətdən öz sələfi, Nizami Gəncəvinin Kərpickəsənindən o qədər də fərqlənmir. Hər iki sənətkar əllərini zəhmətə ona görə öyrədib ki, gözükölgəli yaşamasın, çətin məqamda özgələrə əl açmasın. Kərpickəsən və papaqçı peşələri ən qədim, cəmiyyət üçün önəmli sənət sahəsi olmaqla yanaşı, insan həyatında həm də rəmzi mənalar daşıyır.

Akademik Kamal Talıbzadə şair Zeynal Xəlilin məhəbbət mövzusunda yazdığı şeirləri nəzərdən keçirərək qeyd etmişdir: "O, insanı ülviləşdirən, yüksəldən, mənən təmizləyən bir hiss kimi təqdim edilir. Şair oxucunu məhəbbətin vüsal və hicran dolu yollarından keçirir, bu yolda zövq və səfa ilə, vəfa və sevgi ilə yanaşı, əziyyət də, iztirab da vardır. Məhəbbətin intim, subyektiv keyfiyyəti burada etibar, sədaqət, vəfa, ilqar kimi məna çalarları ilə zənginləşir. Məhəbbət özü kimi Z.Xəlil şeirlərində də bu mövzu "qocalmır", həmişə cavan və təravətlidir, həmişə coşqun və vüqarlıdır".[2]

Zeynal Xəlil məhəbbət mövzusunda yazdığı şeirlərində bəzən romantik mühitə, əhval-ruhiyyəyə xüsusi önəm verir, olmuşlara mistik qüdrətin nəticəsi kimi yanaşır. Yanlışlıqların etirafını sirli-sehirli duyğular selinin və xəyali ucalığın işığından, səssiz sükutundan umur. Çünki işıq sükutunda sevənlər bir-birinin qəlbinin dərinliklərini görə və ən incə hisslərini duya bilirlər, etirafa ehtiyac qalmır. Uzun onilliklərdən bəri həzin bir nəğməyə çevrilib sevgi hissləri ilə köksümüzü qabardan "Ay işığında" şeirində olduğu kimi:

Mən səni gördüm,
ay işığında.
Könlümü verdim,
ay işığında.
Tez gəldi hicran,
Ayrıldıq haman
ay işığında.
Qov bu möhnəti,
Dağıt zülməti,
ay işığında.
Yenə gəl bizə,

[1] Zeynal Xəlil. Ata və oğul. Seçilmiş əsərləri. Tərtibçi: Zəkiyyə Xəlil. – Bakı: Öndər, 2004, s.9
[2] Kamal Talıbzadə. Şair və şeir haqqında söz. Sənətkarın şəxsiyyəti. – Bakı: Yazıçı, 1978, s.138

Duraq üz-üzə,
ay işığında.[1]

Bu yığcam və dərin məzmunlu şeirdə "ay işığı" bədii obraz kimi sevən romantik gənclərin taleyində, vüsal və hicran anlarında, ayrılığa, möhnətə səbəb olan ehtimal, güman zülmətinin dağıdılmasında mühüm rol oynayan ülviyyət rəmzidir. "Duraq üz-üzə, ay işığında" – deyimi barışığa çağırış, səmimi, səssiz etirafa dəvət, tərəflərin bir-birini yaxından duymaq, ürək döyüntülərini dinləmək, sabaha – günəş işığına boylanmaq xülyasının ifadəsidir.

Zeynal Xəlilin yaradıcılığını araşdıran tədqiqatçılar onu həm də nəğməkar şair adlandırmışdır. Bu fikir yalnız ona görə deyilməmişdir ki, onun şeirlərində musiqililik güclüdür – həm də ona görə vurğulanmışdır ki, dövrün görkəmli bəstəkarları Z.Xəlilin sözlərinə ölməz musiqilər bəstələmişlər. Onun "Kimlər gəldi, kimlər getdi" (bəstə: Soltan Hacıbəyov), "Bu gecə" (bəstə: Emin Sabitoğlu), "Ay işığında" (bəstə: Qənbər Hüseynli) və digər şeirlərinə bəstələnmiş həzin mahnılar bu gün də heyranlıqla oxunur və dinlənilir.

Şairin həyatının və yaradıcılığının işıqlı yönlərindən yazan onun həmkarı Taleh Həmid xüsusi vurğulayırdı: "Zeynal Xəlil... lirikasındakı kövrəklik, həzinlik isə ömrə və taleyə güzgü tutmuş işıqdan, nurdan üz tutub gəlirdi. Bu işığın yağdanı isə onun alovlu ürəyində idi. Yalnız o işıq qurtaranda şair ömrü qurtarır. İşıqlar heç zaman sönmür. O bir rəngdən başqa rəngə çevrilir, digər bir rəngə üz tutur. Elə buna görə də şairin yaradıcılığı öz əyilməz müvazinətilə bugünkü sənətimizlə, ədəbiyyatımızla birgə addımlamaqdadır".[2]

Z.Xəlilin əsərlərində işıq həyat nuru, həqiqət rəmzidir. Həqiqətə sadiqlik mənəvi güvənc və inanc yeri, dürüstlük isə nurun enerji mənbəyidir. Həqiqətin bəzən acı və sərt olması yalan qədər qorxulu deyildir, əksinə işıq selinə açılan haqq qapısıdır. Şair mənəvi müstəvidə bir-biri ilə antaqonist ziddiyyətlər təşkil edən "həqiqət" – "yalan" anlayışlarının ictimai-sosial həyatda, eləcə də bəşəri müstəvidə kəsb etdiyi mahiyyətinin incəliklərini vurğulayaraq yazırdı:

Qılınc tək kəssə də səni həqiqət,
Sən onun gözünün içinə dik bax!
Heç zaman, heç kimdən götürmə minnət,

[1] Zeynal Xəlil. Ay işığında. Seçilmiş əsərləri. Tərtibçi: Zəkiyyə Xəlil. – Bakı: Öndər, 2004, s.123

[2] Taleh Həmid. Ön söz. Z.Xəlil. Seçilmiş əsərləri. Tərtibçi: Zəkiyyə Xəlil. – Bakı: Öndər, 2004, s.6

Özünü yalandan qoru sən ancaq.
Nələr törətmədi dünyada yalan?!
Onun övladıdır "xəyanət" sözü.
Bəzən o iblisə uysa da insan,
Onu məhv edəcək insanın özü.[1]

Şairin narahat poetik düşüncələri deməyə əsas verir ki, lirik "mən" özü ləyaqətsiz kəslərin əsassız yalanına, böhtanına, şərinə məruz qalmış, mənəvi naqisliyin törətdiyi psixoloji fəsadların ağrı-acısını yaşamağa və daşımağa məcbur olmuşdur. O, əslində bu şeiri ilə həm də həyəcan təbili çalır, insanlara var səsi ilə xatırladırdı: "Nələr törətmədi dünyada yalan?!" – Bu misra ilə Zeynal Xəlil "yalan"ın törətdiyi fəlakətin miqyasını, təsir dairəsini adi fərddən böyük dövlətlərin məkrli siyasətinə qədər genişləndirir. Təəssüf ki, XXI yüzillikdə də bəşəriyyət təcavüzkar rejimlərin müharibələr, soyqırımlar, dağıntılar törətməsi üçün apardıqları "yalan, böhtan" kampaniyalarının "əsaslandırıcı" missiyasının canlı şahidləri və şəhidləridir. Yalan (fake) qığılcımından fəlakətlər törənsə də, şair nikbindir və insanın həqiqətə sadiqliyinə, müdrikliyinə və qüdrətinə inanır.

Zeynal Xəlilin görkəmli şairlərindən Nizami Gəncəvi, Mirzə Şəfi Vazeh, Cəfər Cabbarlı, Səməd Vurğun, Mikayıl Müşfiq, Nazim Hikmət, Taras Şevçenko, Rəsul Həmzətov və b. haqqında yazdığı əsərləri incə deyim və duyum stilistikası, orijinal ifadə tərzi, fərqli poetik cizgilər, bədii-estetik cazibədarlıq və sənətkarlıq baxımından dəyərli ədəbi nümunələrdir.

Z.Xəlil xüsusilə ədəbi-tənqidi yaradıcılığında da davamlı, məhsuldar fəaliyyət göstərmiş, bir qərinəyə yaxın müddətdə (1940-1973-cü illər) Azərbaycanın görkəmli şair, yazıçı və dramaturqların əsərləri haqqında sanballı məqalələr çap etdirmişdir. Onun Ənvər Əlibəylinin "Qaranquş" (1947), Əhməd Cəmilin "Şeirlər" (1947), Mirzə İbrahimovun "Cənub hekayələri" (1947), Süleyman Rəhimovun "Yanan buludlar" (1948), Ə.Əbülhəsənin "Müharibə" (1948), Mir Cəlalın "Yeni kəndin adamları" (1948), Əli Vəliyevin "Gülşən" (1949), Hüseyn Abbaszadənin "Sınaq illəri" (1949), İmran Qasımovun "Xəzər üzərində şəfəq" (1950) və b. ədiblərin əsərləri haqqında yazdığı dəyərli resenziyalar, məqalələr ədəbiyyatşünaslıq sahəsində aktuallığını qoruyub saxlamaqdadır.

Görkəmli şair, dramaturq Zeynal Xəlil ədəbiyyatımızın tanınmış söz ustadı, Səməd Vurğun ədəbi məktəbinin istedadlı nümayəndəsi, bədii yaradıcılığı isə şəxsi müşahidələrindən və həyat həqiqətlərindən qaynaqlanan yüksək peşəkarlığa malik dəyərli sənət əsərləridir.

[1] Zeynal Xəlil. Dünya, ey gözəl dünya. – Bakı: Gənclik, 1975, s.32

ƏNVƏR ƏLİBƏYLİ
(1916-1968)

İkinci Dünya müharibəsi illərindən ədəbi mühitdə tanınan Ənvər Əlibəyli poeziyamızda ilk döyüşçü şairlərdən olmuşdur. Onun ön cəbhə şeirlərindəki mübarizlik, mərdlik ruhu müharibədən sonra dinc quruculuq dövrünün vətənpərvərlik, sülh, məhəbbət motivləri ilə əvəz edilmiş, lirik "mən"in həssas, səmimi duyğuları ilə təravətlənən zəngin lirik irsin bənzərsiz üslubunda ehtiva olunmuşdur.

Həyatı. Ənvər Əliverdi oğlu Əlibəyli 1916-cı il aprelin 1-də Bakı şəhərində anadan olmuşdur. Orta məktəbi bitirəndən sonra əvvəl Tibb Texnikumunda, ADU-nun Fəhlə fakültəsində təhsil almışdır. 1933-cü ildən Azərbaycan Pedaqoji İnstitutunun Filologiya fakültəsində oxumuş, 1938-ci ildən isə Azərbaycan Dövlət Radiosunda əmək fəaliyyətinə başlamışdır.

Gənc jurnalist İkinci Dünya müharibəsi başlarkən könüllü olaraq hərbi sahədə ixtisaslaşmaq üçün Tbilisidə Topçular məktəbində hazırlıq keçmiş, sonra leytenant rütbəsində ön cəbhəyə göndərilmişdir. Cəbhədə qanlı vuruşmalarda fədakarlıqla döyüşmüş, artilleriya batalyonunun komandiri vəzifəsində böyük qəhrəmanlıqlar göstərmişdir. Azərbaycanlı döyüşçülərdən ibarət 416-cı Taqanroq diviziyasında ön cəbhə həyatının bütün ağrı-acılarını yaşamış, dəfələrlə yaralanmışdır. 1944-cü ilin yanvarında Azərbaycan Yazıçıları İttifaqına cəbhədən göndərilən məktubda yazılmışdı: "Baş leytenant Ənvər Əlibəyli bizim hissənin ən qabaqcıl mübariz zabitlərindən biridir. Əlibəyli yoldaş rəşadət göstərdiyinə görə, "Qırmızı Ulduz", "İkinci dərəcəli Vətən müharibəsi" ordenləri ilə təltif edilmişdir. Komandanlıq Ə.Əlibəylinin simasında özünün ən bacarıqlı, döyüşkən zabitini tanıyır. Sizin qəhrəman şairinizlə fəxr etməyə haqqınız var".[1]

Ə.Əlibəyli 1944-cü ilin aprelində hospitalda müalicə olunduqdan sonra Bakıya qayıtmış, milli mətbuatda hərbi jurnalist kimi fəaliyyət göstərməyə başlamışdır. O, əvvəl "Vətən yolunda" jurnalında məsul katib, sonra "İnqilab və mədəniyyət", "Təbliğatçı" jurnallarında işləmişdir. Ədəbi mühitdə ahəngdar, səmimi şeir və poemaları ilə tanınıb sevildiyi üçün 1948-52-ci illərdə "Ədəbiyyat qəzeti"ndə redaktor, 1952-ci ildən isə Dövlət Radio Komitəsində fəaliyyət göstərmişdir. 1956-cı ilin fevralında Azərbaycanda Televiziya Komitəsi yaradılmış və ilk sədr Ənvər Əlibəyli təyin edilmişdir. Akademik R.Hüseynov yazırdı: "Mərkəzi Komitədəki hansısa qatı mühafizəkar buyurmuşdu ki, filan-filan xalq mahnıları və təsniflər efirdən yığışdırılsın, sözləri kommunist mənəviyyatına tən gəlmir… Ənvər müəllim gecədən xeyli

[1] Şəfəq Əlibəyli. Atamın gözü ilə. Ənvər Əlibəyli – 100. Nəğmələr. – Bakı: NAT MMC, 2016, s.11

keçənədək oturub mahnıların mətnində "cərrahiyyə" aparırmış ki, səslənişinə yasaq qoyulmuş mahnıların radioya, televiziyaya yolu açılsın. Deyirmiş ki, onsuz da bu dəyişmələr müvəqqətidir, vaxt ötəcək, məcburən ixtisara salınan, dəyişdirilən bu tarixi sözlər öz yerini təzədən tutacaq, əsas odur bu mahnıları bu gün qoruyaq, onları dustaqlıqdan qurtaraq".[1] Lakin az sonra sədrin mütləq partiya rəhbərliyində təcrübəli şəxslərdən olması tələbinə görə o, müvəqqəti başqa işə keçirilmiş və 1965-ci ildən yenidən sədrlik vəzifəsi ona həvalə olunmuşdur.

Ənvər Əlibəyli təməlini qoyduğu Azərbaycan Televiziyasında bir çox yeniliyə ilk imza atanlardan olmuş, fitri yaradıcılıq qabiliyyəti, təşkilatçılıq bacarığı, insanlarla həssas, qayğılı münasibəti barədə əməkdaşlarının çoxsaylı xatirələrini Ümummilli liderimiz Heydər Əliyevin verdiyi səmimi dəyərlə ümumiləşdirmək olar: "Mən Ənvər Əlibəylini çox böyük hörmətlə xatırlayıram. O, həm yaxşı jurnalist, həm yaxşı şair idi, həm də televiziyaya yaxşı rəhbərlik edirdi".[2]

Ənvər Əlibəyli 1968-ci il mayın 7-də vəfat etmiş və Fəxri Xiyabanda dəfn olunmuşdur.

Yaradıcılığı. Ənvər Əlibəylinin qələmə aldığı zərif duyğulu lirik şeirləri 1930-cu illərin ikinci yarısından mətbuatda tez-tez görünür və 1939-cu ildə 23 yaşında Azərbaycan Yazıçılar İttifaqının üzvlüyünə qəbul edilir. "Qaranquş" adlı ilk şeirlər kitabı 1947-ci ildə nəşr olunmuşdur. Onun şeir və poemaları – "Sənin adınla" (1950), "İlk məhəbbət" (1956), "Elə xoşbəxtəm ki" (1964), "Nəğmələr" (1968) kitablarında toplanmışdır. Şairin 2005-ci ildə latın qrafikası ilə çap olunan "Seçilmiş əsərləri", "Əbədi sevgi", "Cəbhə şeirləri", "Keçilən günlərə baxıram bu gün", "Ləpələr", "Nəğmələr", "Poemalar" başlıqlı bölmələrlə təqdim edilmişdir.

Şair "Əbədi sevgi" adlı şeirində ömür yolunu xatirində canlandırır, hər keçidin məzmununu konkret tipik cizgilərlə mənalandırırdı: "Mən dünən bir uşaqdım, başı açıq, ayaqyalın. Bir gəncəm bu gün artıq, alnım açıq, üzüm ağ. Sabah da qumral saçım ağaracaq qar kimi…"

Dəyişəcəyəm belə… lakin dəyişilməyən
Bir ürəyim olacaq, bir də eşqim, ey Vətən!
Dünən sevirdim səni, bu gün sevirəm yenə,
Sabah bu gündən artıq sevgim olacaq sənə![3]

[1] Rafael Hüseynov. Məşhur nəğmənin oxunmayan üçüncü bəndi. "525-ci qəzet", 18 yanvar 2024

[2] Şəfəq Əlibəyli. Atamın gözü ilə. Ənvər Əlibəyli – 100. Nəğmələr. – Bakı: NAT MMC, 2016, s.21

[3] Ənvər Əlibəyli. Seçilmiş əsərləri. – Bakı: Şərq-Qərb, 2005, s.14

Səməd Vurğunun 1935-ci ildə məşhurlaşan "Azərbaycan" şeirindən sonra çox şairlər poeziyamızda Vətənin tərənnümünə şeirlər həsr etsələr də, onun ideya-bədii təsir qüvvəsi müqabilində kölgədə qalırdı. Qəlbində çağlayan Vətən məhəbbətini nəğməyə çevirmək istərkən gənc şair ustadına dərin rəğbətlə onun şeirindəki şah misralardan bəhrələnmiş, klassik poeziyanın təxmis janrına bənzər hər bəndin sonundakı nəqəratı daha qüvvətli səsləndirməyə müvəffəq olmuşdur. Görkəmli bəstəkar Rauf Hacıyevin Ə.Əlibəylinin sözlərinə bəstələdiyi "Azərbaycanım" mahnısı dünyaşöhrətli Azərbaycan müğənnisi, Xalq artisti Rəşid Behbudovun misilsiz ifasında mahnı xəzinəmizin qiymətli incilərindən biri kimi məşhurlaşmışdır:

Özün kimi vüqarlıdır uca dağların,
Hüsnünə bir yaraşıqdır yaşıl bağların,
Bizimlə bir başlamışdır gözəl çağların,
"Yurdum, yuvam, məskənimsəm", Azərbaycanım,
"Anam doğma vətənimsən", Azərbaycanım![1]

Mahnıya yasaq qoyulmaması naminə Ə.Əlibəyli bu şeirindən də bir bəndi ixtisar etməli olmuşdu. Müstəqillik illərində əlyazmaları içərisindən tapılan həmin bəndin sayəsində son nəşrdə şeiri bütöv halda təqdim etmək mümkün oldu. Mahnıdan çıxarılmış bəndin məzmunundan ixtisarın səbəbi aydın dərk olunur:

Sənə şirin arzum deyim, diləyim deyim,
Havam deyim, suyum deyim, çörəyim deyim,
İki yerə parçalanmış ürəyim deyim,
Al bayraqlı Vətənimsən, Azərbaycanım,
"Anam doğma Vətənimsən", Azərbaycanım.

Ə.Əlibəylinin Vətənə həsr etdiyi şeirlərində onun ecazkar təbiətindən söz açarkən hər çətinliyə "sinə gərib zəfərlər çalan Bakı fəhləsinə", quru torpaqlara su gətirib "bol məhsul götürən əkinçilərə" də güc, qüvvət verən bərəkətli "ana torpağa" məhəbbət tələqin olunurdu. O, "Ana torpaq" adlı şeirində yazırdı:

Torpaq alıb qoynuna məni bir anam kimi,
Qoruyur hər bəladan vəfalı adam kimi.[2]

Vətənpərvər şair 1941-ci ildə müharibə başlar-başlamaz, dərhal könüllü ön cəbhəyə getdiyi üçün xalqımızın həmin tarixi dövrdəki yaşantılarının, demək olar ki, lirik salnaməsini yaratmışdır. Şeirlərində bilavasitə iştirakçısı

[1] Ənvər Əlibəyli. Seçilmiş əsərləri. – Bakı: Şərq-Qərb, 2005, s.11
[2] Yenə orada, s.26

olduğu hadisələrin, məqamların yığcam süjetlərdə təsirli lövhələrini inikas etmiş, əzablı günlər yaşayan insanların canlı obrazlarını yaratmışdır. "Özüdür" şeirində yazırdı:

Mən bu şeiri topların əjdaha nəfəsindən,
Mərmilərin havanı yaran nəriltisindən,
Vətən yolunda gedən qızğın vuruşmalardan
Ruhlanaraq yaratdım səngərdə yatan zaman.[1]

Ə.Əlibəylinin cəbhə şeirlərində lirik "mən"in müvəqqəti sığınmalı olduğu "torpaq qazma" az qala, Vətənin bir parçasını təmsil edirdi. "Əzəllər sarı sünbül əkilən yerlərdə" bu gün xəndək qazılmasından məyus olsa da, "ana qucağıtək" isti qazmasında o təkcə amansız düşmən topundan, gülləsindən, sərt iqlimin şaxtasından, soyuğundan qorunmur, həm də əzizlərindən aldığı "bir vərəq kağız", balaca bir şəkillə təskinlik tapıb xoş xəyallara dalır, yaxud keçmişin unudulmaz xatirələri ilə gələcək arzularını pərvazlandırırdı. Müharibə dövrü ədəbiyyatının görkəmli tədqiqatçısı akademik Bəkir Nəbiyevin müşahidəsinə görə "...təsadüfən sədası qulağa gələn bir qaranquşun uçuşu, torpaq qazmada titrək alovla yanan hisli çıraq Ənvər Əlibəylinin şair təxəyyülünü qanadlandırmış, o, az sözlə çox mətləb ifadə etməyə, xırdaca bir detalı ümumiləşdirməklə böyük məna verməyə, qələbə əzmini, qəhrəmanlıq və vətənpərvərlik duyğularını əks etdirməyə müvəffəq olmuşdur".[2] Şairin müharibə illərində qələmə aldığı "Vur, qardaşım, vur azadlıq eşqinə", "Hücumdan sonra", "Torpaq qazma", "İgid oğlan", "Möhkəm saxla, sevgilim" və s. şeirlərində gənc döyüşçünün hiss-həyəcanı mübariz bir intonasiya ilə ifadə olunmuşdur. O, hər şeirində qələbəyə böyük inamla həm ön, həm də arxa cəbhədəkiləri igid, cəsur, dözümlü olmağa səsləyir, nikbin ovqatla hücum ruhu təlqin edirdi. Bu lirik parçalarda müharibənin dağıdıcı xisləti dinc həyatın işıqlı, xoş məqamları ilə qarşılaşdırılır, qələbənin necə zəruri olduğu mübariz intonasiya ilə aşılanırdı. Birbaşa torpaq səngərlərdən sədalanan bu şeirlərdə şair insanlara fəlakət gətirən ölüm, qan nəfəsli, od, alov saçan barıt qoxulu müharibəni törədənlərə kəskin nifrət oyadırdı:

Güllər bitən, bülbül ötən bu yerdə
Bu gün toplar guruldayır nər kimi.
Dünən sakit dəryaz tutan igidlər
At belində qılınc çalır ər kimi.

[1] Ənvər Əlibəyli. Seçilmiş əsərləri. – Bakı: Şərq-Qərb, 2005, s.16
[2] Bəkir Nəbiyev. Sətirlərdə döyünən ürək / Ənvər Əlibəyli. Seçilmiş əsərləri (ön söz). – Bakı: Şərq-Qərb, 2005, s.5

Vur, əzizim, vur səadət eşqinə,
Ölsün yadlar, bizim olsun bu torpaq.
Məhsul verən bağçaları, bağları
Düşmənlərin tapdağından qurtaraq.[1]

Ə.Əlibəyli "İgid oğlan" şeirində döyüş səhnəsinin ən təsirli lövhələrindən birini canlandırmışdır. Özü yaralanmış olsa da, ölümcül vəziyyətdə olan dostunu top atəşləri altında sürüyə-sürüyə aparıb arxadakı tibb bacısına təhvil verən əsgərə şair minnətdarlıq dolu alqış deyir. Bu alqış lirik "mən"in səmimi yaşantıları ilə bağlı olduğuna görə, dərin rəğbət oyadır. Başqa bir şeirində şairin təsvir etdiyi döyüş lövhəsi faciəviliyi ilə daha riqqətlidir; poetik ifadə və təsvir vasitələri işlədilməsə də, sadə deyimlər və adi təhkiyə intonasiyası ilə yaşanılan hissin, duyğunun sirayətediciliyi qəlbi həm kövrəldir, həm də qəzəblə doldururdu. Dördcə misrada müharibənin insan həyatı üçün təhlükəliyi, əvəzsiz itkilərin ağrı-acıları, iztirabları bir daha şüuru təsirləndirirdi:

Yaralı yoldaşım həsrət içində
Dikib gözlərini qızaran göyə
Bu zaman can verir dizimin üstdə
Məhəbbətim deyə, vətənim deyə.[2]

Bənddəki təkcə məcazilik yükü olan "qızaran göylər" ifadəsi hadisənin zaman məqamını tamamlamaqla yanaşı, həm də baş verənlərdən göylərin belə keçirdiyi həyəcanları özündə ehtiva edirdi. Obyektə həssas, duyğulu yanaşma Ə.Əlibəylinin üslub fərdiliyinin bariz təzahürlərindən idi. Şairin böyük qızı Şəfəq Əlibəyli atasına həsr etdiyi "Nəğmə kimi" məqaləsində yazır: "Müharibə illəri, həyatla ölüm arasında olan məqamlar gənc şairə yalnız qəhrəmanlıq, şairlik deyil, bir sıra yüksək məsuliyyət hissi, həqiqət və ədalət naminə obyektivlik, təvazökarlıq, sadəlik bəxş etmişdi. Məhz bu nəcib keyfiyyətlərinə görə, çoxları onu özünə dost, müəllim, qardaş sayırdılar".[3]

Nisbətən genişhəcmli olan "Kimin qanıdır bu qan" şeirinin süjet xətti maraqlı və ideya-məzmunu təlqinedici səciyyəlidir. Qəhrəmanın döyüş meydanında ölümcül yaralanması ilə başlayan girişdən sonra hadisə əsgər yoldaşının sürünə-sürünə onu top mərmiləri altından çıxararaq səngərdə tibb bacısına çatdırması ilə inkişaf etdirilir. Qəhrəman gözünü açanda özünü hərbi

[1] Ənvər Əlibəyli. Vur, qardaşım, vur azadlıq eşqinə / Seçilmiş əsərləri. – Bakı: Şərq-Qərb, 2005, s.20
[2] Ənvər Əlibəyli. Seçilmiş əsərləri. – Bakı: Şərq-Qərb, 2005, s.29
[3] Şəfəq Əlibəyli. Atamın gözü ilə. Ənvər Əlibəyli–100. Nəğmələr. – Bakı: NAT MMC, 2016, s.7

hospitalda qayğı ilə əhatə olunmuş görür və öyrənir ki, çoxlu qan itirdiyi üçün özündə deyilmiş. Xoşbəxtlikdən arxa cəbhədən verilən qanlardan biri onun qan qrupuna uyğun gəldiyinə görə, həyatını xilas etmək mümkün olub. O, təkidlə xilaskarının kimliyini bilmək istəyir. Tibb bacısının ona verdiyi şüşə bankasındakı yazıdan qan sahibinin kimliyi haqqında öyrəndiyi məlumat süjeti yüksək notlarla sonuclayır:

Sarsılıram içimdən, bürüyür heyrət məni,
Siz zamanın hökmünə, fərmanına baxın bir…
Heç bu olan işdimi? Əsirəm yarpaq kimi,
Sonra da boş şüşəni bələkli uşaq kimi
Bir həyəcan içində bağrıma basıram mən.
Ürək quş tək çırpınır gördüyüm macəradan,
Öz anamın qanıdır mənə həyat verən qan![1]

Bu novellavari final arxa cəbhənin bu yönümlü köməyinin ölüm-dirim vuruşunda olanlar üçün həyati əhəmiyyətini vurğulamaqla yanaşı, həm də xalqın düşmənə qarşı vahid cəbhədə birləşməsinin inikası idi. Ə.Əlibəylinin cəbhə şeirlərindəki reallıq, dərin səmimiyyət bilavasitə lirik "mən"in gerçək yaşantıları olduğu üçün güclü enerjiyə malik idi. Liriklik, bədii-estetik təsirlilik, hər şeydən əvvəl, məhz şairin mənəvi aləminin – hissinin, duyğusunun təbiiliyi təzahürü idi. Onun odlu-alovlu, qanlı-qadalı döyüşdən sonra səngərdə – "torpaq qazmasında" sursat dolu çantasını dizləri üstə qoyub yazdığı şeirlərdə məcaz və təşbehlərdən çox, bədii nidalar və suallar təsirlilik yaradırdı. Döyüşçünun arxadan – əzizlərindən aldığı məktuba reaksiyasını əks etdirən "Bir vərəq kağız" şeirində olduğu kimi:

Özün söylə, nə vardır səndən əziz, sevimli,
Səngərdə yatanların fikrində, əməlində?..
Odur ki, nəzərimdə bu gün belə əzizsən,
Sən bir vərəq deyilsən, qüvvə dolu dənizsən![2]

Xalq şairi Bəxtiyar Vahabzadə İkinci Dünya müharibəsində azərbaycanlılardan ibarət 416-cı atıcı diviziyanın döyüş yoluna həsr etdiyi "416" adlı poemasında batalyon komandiri Ənvər Əlibəylinin portret cizgilərini belə təqdim etmişdir:

Yumşaq təbiətli bu həlim insan
Deyərdin quşa da daş ata bilməz.
Ancaq... top dalına keçdiyi zaman
O, yalnız əsgərdir,

[1] Ənvər Əlibəyli. Seçilmiş əsərləri. – Bakı: Şərq-Qərb, 2005, s.23
[2] Yenə orada, s.26

– Ölər, yenilməz!
Döyüşdə əsgərdir, adicə əsgər,
Döyüş qurtardımı, şairdir Ənvər![1]

Ə.Əlibəylinin lirikasındakı mübarizlik, döyüşkənlik ruhu müharibədən sonra dinc quruculuq dövrünün vətənpərvərlik, sülh, məhəbbət motivləri ilə əvəzlənmişdir. Lirik "mən"in yaşamaq, yaratmaq – sevmək həvəsi zərif, həssas, nəcib duyğularla poetik intonasiyanı təravətləndirirdi. Ölkədəki quruculuq işlərinin tərənnümünə ruh yüksəkliyi ilə qoşulan şairin "Kəndimiz", "Çoban", "Mingəçevir lövhələri", "Ocaqçılar", "Təzə şəhər", "Möhtəşəm bir yolun yolçusuyuq biz", "Gənclik küçəsi" və s. şeirlərində xalq həyatının yeni bir dövrünün mənzərəsi əks olunurdu. Xüsusilə, 1946-cı ildən Mingəçevir su-elektrik stansiyasının inşa edilməsi məqsədilə orada geniş tikinti işlərinin vüsət tapması şairi riqqətə gətirmiş, bir sıra şeirlərinin ilham mənbəyi olmuşdur. Şair nəhəng tikinti meydanına çevrilən bu şəhərdə görülən işlərin gələcəyindən dərin inamla, fərəhlə bəhs edirdi:

Bu şəhərdə yaşayan zəhmət pəhləvanları,
əmək qəhrəmanları
Ölkəmizin böyük bir tikintisini qurur.
Burda sadə adamlar öz alın tərlərilə,
böyük hünərlərilə
Min xariqə yaradır: dağ çapır, torpaq qazır,
Deyir: Kürü kəməndə salacayıq burda biz,
Onun hər damlasından bir çıraq yanacaqdır.
Susuz qalan çöllərə geniş arx çəkiləcək,
Kimsəsiz səhralarda ağ pambıq əkiləcək![2]

"Möhtəşəm bir yolun yolçusuyuq biz" şeirində şair bugünkü həyata keçilən yolların heç də hamar olmadığını, "ölümün üstünə atılıb" qayadan, daşdan keçdiyini yada salır. "Mingəçevirdə" vətən oğlunun alın təri ilə dəyişdirilən susuz səhraların güllü-çiçəkli, yamyaşıl "çıraqban bir şəhər" olmasından qürurla, iftixarla bəhs edir. Təbiət gözəlliklərinə vurğun olan keçmiş döyüşçü-şair şəhər ətrafındakı Kür çayının "yaz ayları gələndə köpürən aşan-daşan" dalğalarının kəməndə salınmasını, bu gün sinəsindən yollar salınan başı qarlı Boz dağın ətəklərinin işığa qərq olmasını fərəhlə tərənnüm edir.

Xəzərin sahilindəki kiçik bir kənddə dünyaya göz açan Ə.Əlibəylinin yaradıcılığında "Dəniz və mən", "Dənizə alqış", "Qayalar", "Sahildə", "Ləpələr", "Mənim göygöz Xəzərim" və s. şeirlərin poetik toxumasında

[1] Bəxtiyar Vahabzadə. Əsərləri. On iki cilddə, III c. – Bakı: Elm, 2008, s.526
[2] Ənvər Əlibəyli. Seçilmiş əsərləri. – Bakı: Şərq-Qərb, 2005, s.45

şairin bədii üslubu daha bariz görünürdü. Təbiətən çox mehriban, həssas, mülayim olması onun obrazlı ifadələrində, poetik intonasiyasında əks olunurdu. "Hər dalğası bir nəğmə", "Mənim göygöz Xəzərim", – deyən şair şeirlərində onun ləpələrini "döyünən ürək", "əngin, mavi, mehriban", "suları xırçın-xırçın", "qayaları yalçın-yalçın", – deyə əzizləyib oxşayır. Dənizə həsr olunmuş şeirlərin əksəriyyətində o ürəyə bənzədilir: "Dəniz də ürək kimi çırpınır yaşamaqçın"; "Oxşarlığın" şeirində şair "gövhərtək saf, aynatək təmiz" olan dənizin suları ilə öz ürəyinin fərqini yalnız onun həmişə "buz kimi soyuq" olmasında, könlünün isə "bir ulduz kimi" məhəbbətlə alovlanıb yanmasında görür; "Yaxın və uzaq" şeirində sevgilisi ilə özünü dənizdəki iki dalğaya təşbeh edən şair heç vaxt ona çata bilmədiyinə görə təəssüflənir; "Qayalar" şeirində də təşbehin əsas komponentləri dəniz – dalğa – qayadır.

Mənim dərya könlümün
Qanadlı dalğaları
Gəlib səndə bənd olur...
Lakin sənin də qəlbin
Qaya kimi sərt qalır.
Nə gələn ləpələri
Vurub qaytarır geri,
Nə də özü yumşalır.[1]

Ə.Əlibəylinin təbiət şeirlərində "bahar" obrazı da çox işlənən poetik fiqurdur. Hələ ilk cəbhə şeirləri içərisində yer alan "Qaranquş" şeirində sevə-sevə tərənnüm etdiyi quşla özünü yanaşı qoyub "Sən bahar xəbərçisi, mən azadlıq carçısı" kimi mükəmməl təşbeh yaratmışdır. "Döyüşçünün ölümü" şeirində isə bahar təbii gurşadlığına, şaqraqlığına rəğmən lirik "mən"in yaddaşında hüznlə yer alan təzadlı duyğusallıqla təsvir edilir. Cəmi 6 misralıq, 7 hecalı miniatür bir şeirdə həm baharın tipik lövhələrinin təsviri, həm də qanlı vuruşmalardan yaddaşda yuva salmış hüznlü bir xatirə həkk olunmuşdur:

Sən öləndə bahardı,
Çöllərdə, çəmənlərdə
Min cürə çiçək vardı.
Səni dəfn etdik səhər,
Matəm bayrağı kimi
Əyilmişdi lalələr.[2]

Şairin "Gəldi bahar, gəldi bahar", "Ay bahar", "Sənin vurğununam, bahar" kimi şeirlərdə sevimli fəslin gəlişinə bilavasitə xoş ovqat, ruh

[1] Ənvər Əlibəyli. Seçilmiş əsərləri. – Bakı: Şərq-Qərb, 2005, s.78
[2] Ənvər Əlibəyli. Döyüşçünün ölümü / Seçilmiş əsərləri. – Bakı: Şərq-Qərb, 2005, s.27

yüksəkliyi təlqin olunursa, “İstək”, “Demə”, “İlk baharın nəfəsi”, “Mən baharı sevirəm”, “Bağ, xəzan və mən” və s. şeirlərdə bahar fərqli lirik süjetin bir komponenti kimi çıxış edir. Məsələn, “Gözəldir” şeirində bahar obrazı Vətən təbiətinin gözəlliklərini vəsf etməyə bir başlanğıcdır: “Nazlı bahar qucağında səhərlər Sərin-sərin əsən yellər gözəldir”; sevdiyi qıza müraciətlə yazdığı başqa bir şeirdə isə bahar aşiqə vüsal vəd olunan zamanın ünvanıdır. Sonralar nəğmə mətni kimi məşhurlaşan şeirin birinci bəndi belə başlayır:

Demişdin yaz gəlsin, yaz gəldi, ay qız,
Söyüdlər bağçaya kölgələr saldı.
Çiçəklər açıldı, göyərdi yarpız,
Verdiyin vədələr nə vaxta qaldı?[1]

Bəlkə də ömrünün bahar çağında – gənc yaşlarında qismətinə düşən ağır müharibə həyatının sarsıntıları təsiri idi ki, Ə.Əlibəylinin müxtəlif mövzulu şeirlərində ara-sıra vaxtsız ölümdən, həyatın qısalığından (“Söyləyin təbiətin varmıdır ədaləti, Ölüm həmişəlikdir, yaşamaq müvəqqəti?”), cəmiyyətdə insanın işindən, əməllərindən, mənəvi-əxlaqi keyfiyyətlərindən bəhs olunurdu. Hətta adı çox nikbin məzmunlu “Mən baharı sevirəm” şeirinin “Bir gün dayanacaq ömrün karvanı... Mənim üçün artıq nə qış olacaq, nə bahar, Əbədi tərk edəcəyəm insanları…” kimi bədbin notlarla başlanan süjeti lirik “mən”in unudulacağı həyəcanlar ilə davam edir. Ancaq o, nəslinin davamında adı verilən nəvəsinin onun qəbrinin üstünə “gül daşıyacağı” və “O güllərdən duyacağam səni, bahar, səni, bahar!”, – deyə təsəlli tapır. “Dünya insanlara qalacaq” miniatür şeirində də bu motiv daha ümumiləşmiş, fəlsəfi məzmunda inikas olunurdu.

Süleymana qalmayan dünya
Sənə də qalmayacaq –
Deyilən bir məsəl var,
Dolaşır dodaq-dodaq.
Bu, düzdür, biz gedəcəyik,
Ancaq dünya yenə də
İnsanlara qalacaq.[2]

Ümumiyyətlə, ölüm və həyat, ömrün vəfasızlığı, mənası, insanın amalı, mənəvi-əxlaqi görüşlərdə zidd məqamlar, gözəlliyə vurğunluq və s. kimi lirik-fəlsəfi düşüncələr “Dünya qatar odası”, “Məsəl”, “Həqiqət”, “Qürur və peşmançılıq”, “Kaş ölməzlik deyilən bir ölümlə ölsəydim”, “Ömür” və s. şeirlərin ideya-məzmununu təşkil edirdi. Şairin “Yaşamaq istəyirəm o qədər – Nə qədər ki insanlara lazımam” amalı onun yaradıcılığının özəyində yer

[1] Ənvər Əlibəyli. Nə vaxta qaldı / Seçilmiş əsərləri. – Bakı: Şərq-Qərb, 2005, s.82
[2] Yenə orada, s.82

almışdır. Bəzən həcmcə çox yığcam lirik parçalarda mənalı-məzmunlu fikir öz dolğunluğu ilə düşündürür, təsirləndirirdi. Məsələn, həmişə insana yüksək dəyər verən şair "Sual" şeirində bunu belə vurğulayırdı:

Əgər qara neft qızılsa,
Onda, dostlar, deyin görək:
Onu yerin qatlarından
Çıxarana nə ad verək?[1]

Yaradıcılığının belə çoxşaxəli məna məzmunluğu onun şeirlərinin janr, vəzn-ahəng, obrazlılıq, bədii ifadə rəngarəngliyində harmonik ifadəsini tapmışdır. Çünki hər dəfə şair onu ilhama gətirən lirik həyəcanına təkanverici həyat həqiqətini özünəməxsus görümü, duyumu, qəlbinin ehtizazı ilə həmahəng səmimi bədii ifadəsini yarada bilirdi. Görkəmli dövlət xadimi Cəlal Məmmədov yazırdı: "Ənvər Əlibəyli insan simasında canlı nəğmə idi. Bu nəğmədə ən zərif, ən incə, lirik notlar da, el həyatı və mübarizəsi ilə bağlı şən və gümrah təranələr də, cəngi səsdaları, döyüş çağırışları da var idi. Bahar selitək çağlayan… sevinc, həzin şikəstənin iniltisi, bayatı qüssəsitək məhzun kədər də var idi…"[2] Məhz bu xüsusiyyətinə görə, bəstəkarlar mahnı mətni kimi tez-tez onun şeirlərindən istifadə etmiş, qızıl fondumuzun gözəl nümunələrini yaratmışlar. Onun sözlərinə Azərbaycanın adlı-sanlı bəstəkarları – Qara Qarayev, Cahangir Cahangirov, Tofiq Quliyev, Səid Rüstəmov, Rauf Hacıyev, İbrahim Topçubaşov, Vasif Adıgözəlov, Qənbər Hüseynli, Asif Babayev, Ələkbər Tağıyev və başqalarının bəstələdikləri mahnılar məşhur müğənnilərin ifasında geniş yayılmış, xalqın dilində əzbər olmuşdur. "Niyə sevdim mən səni", "Sevgilim", "Söz olmasaydı", "İlk məhəbbət", "Yar incidi", "Bu bağçadan keçmisən", "Ürəyimdəsən", "Layla", "Bakı axşamları", "Bakı", "Özünə qurbanam", "Subaylar mahnısı" və s. kimi heç vaxt unudulmayan nəğmələrdən savayı kinomuzun qızıl fondunun "Bəxtiyar", "Qızmar günəş altında", "Qara daşlar", "Bir məhəlləli iki oğlan" kimi gözəl bədii filmlərindəki onlarla mahnıların mətnləri Ənvər Əlibəylinindir. Əsasən gənc oğlan-qız arasındakı saf sevgi münasibətlərindən bəhs olunan səmimi, lirik-romantik səpkidə, bəzən bir qədər də yumor çalarlı şeirlər şirin ifadə tərzi, bədii nidalı-suallı ahəngdar intonasiyası ilə musiqisiz də çox oxunaqlıdır:

Niyə sevdim mən səni,
Niyə vuruldum sənə?
Özüm də bilmirəm heç
Nəyin xoş gəldi mənə?[3]

[1] Ənvər Əlibəyli. Sual. Seçilmiş əsərləri. – Bakı: Şərq-Qərb, 2005, s.73
[2] Ənvər Əlibəyli. Biblioqrafiya. – Bakı: NAT MMC, 2019
[3] Ənvər Əlibəyli. Seçilmiş əsərləri. – Bakı: Şərq-Qərb, 2005, s.74

Ə.Əlibəylinin nəğmələrinin ən başlıca bədii-estetik dəyəri məhz lirik "mən"in mənəvi-əxlaqi varlığının, xarakterinin ürəyəyatımlı, müsbət enerjili olmasıdır. Şeirlərdə təmiz qəlbli, nəcib duyğulu-düşüncəli, xeyirxah bir insanın poetik dünyasında hər kəsin qəlbini işıqlandırıb ruhunu qidalandıran gözəlliklərin tərənnümü onun lirikasının başlıca xüsusiyyətidir.

***

Sülh şəraitində yaranan dinc həyata alışdıqca Ə.Əlibəyli unuda bilmədiyi keçmiş yaşantılarından daha ətraflı bəhs açmağa ehtiyac duyurdu. Onun "Bacı", "Gözlər, ürəklər, əməllər" poemaları məhz bu zərurətdən meydana gəlmişdir. Konkret cəbhə yaşantılarından fərqli olaraq bu əsərlərdə şair faşistlər tərəfindən işğal olunmuş ərazilərdə, yaxud əsir düşərgələrində ağlasığmaz işgəncələrə məruz qalmış insanları önə çəkmişdir. Döyüş yolunda xaraba qoyulmuş kəndlərdən, şəhərlərdən keçdikcə oradakı yerli əhalinin çəkdiyi ağrı-acıları, faciələri yaxından müşahidə etmiş, onların ruhi-psixoloji durumlarına qəlbən şərik olmuşdur. Yaddaşında dərin iz qoymuş canlı müşahidələr onun təsvirində öz bədiiliyi ilə yanaşı, həm də reallığı ilə təsirli idi. "Bacı" poemasında əsərin qəhrəmanı ukraynalı gənc qadının əri cəbhədə həlak olmuş, evinə soxulmuş faşistlərin oyuncaq kimi əyləndikləri körpəsi isə onların əlində qətlə yetirilmiş, özü çox ağır sarsıntılara məruz qalmışdır. Bir müddət sonra o, qəzəb, intiqam hissi ilə əlinə silah götürərək ön cəbhədə vuruşanlara qoşulmuşdur. Əsgərlərə hər cür qayğı, xidmət göstərdiyi üçün adını soruşmadan hamı ona "bacı" deyə müraciət edir. Poemanın başlanğıcından Ə.Əlibəyli üslubuna xas gümrah, şəfqətli, mülayim ahəngli təbiət təsviri süjetin tüstü-alov saçan mərhələlərindəki ağırlığa bir xoş ümid işığı yayır. Həm də bu girişdə sübh doğuşunun poetik təsviri şeirimizdə orijinal və bənzərsizdir:

Bir gül qönçəsitək açılır səhər,
Çəhrayı rəng alır göydə buludlar.
Günəşdən nur alıb gülür üfüqlər,
Yerdən baş qaldırır çiçəklər, otlar.
Mərmərə bürünüb elə bil hər dik,
Koldan-kola qonur xınalı kəklik.[1]

Müharibə mövzusunda yazılan "Gözlər, ürəklər, əməllər" adlı lirik-epik poemanın da ideya-məzmunu çox maraqlı bir əsirlik həyatını əhatə edir. Şeirdə müxtəlif şəhərlərdə, hətta müxtəlif ölkələrdə qayğısız xoşbəxt gəncliyini yaşayan bir oğlan və bir qızın qəfil kəskin dəyişən taleyindən bəhs olunur. Müharibənin alovlu tufanı onları bir əsir düşərgəsində qarşılaşdırır.

[1] Ənvər Əlibəyli. Seçilmiş əsərləri. – Bakı: Şərq-Qərb, 2005, s.116

İlk misralarda “bir cüt ürək, iki cüt göz” deyən şairin tanış etməyə çalışdığı qəhrəmanların taleyində rəqəmlərin mühümlüyünə işarə olunur. Onlar əsir düşərgəsində ilk dəfə bir-birinin yanından keçərkən gözləri qarşılaşır və oğlanın yadında qızın 215, qızın yadında isə oğlanın 107 rəqəmi qalır. Süjet boyu bir-biri ilə danışmağın qadağan olunduğu bir yerdə bu iki gəncin uzun müddət gözləri ilə sözsüz anlaşmaları, imkan düşən kimi birləşib əsirlikdən qaçmaları, çox çətinlikləri bir-birinə köməklə dəf etmələri poetik dillə, ricətlərlə təsvir olunur. Qəhrəmanların gizlənmək üçün meşənin yaxınlığındakı kənddə bir alman qarısından sığınacaq istəmələri və onunla dialoqları poemada ən təsirli və düşündürücü parça konfliktin zirvəsidir. Qarının yeganə oğlu döyüş meydanında öldürüldüyü üçün o, sovet adamlarına nifrət edir. Ancaq yurdu-yuvası dağılmış, ata-anası, iki bacısı dar ağacından asılmış, özü də əsirlikdə çox zülm görmüş Oksana: “Kim kimin dincliyini pozdu əvvəlcə deyin? Kimlər oldu baisi, Deyin müharibənin? Kim kimə etdi hücum”, – deyə qarını düşünməyə, ədalətli olmağa təhrik edir. Onların dialoqunda müharibə törədənlərin xalqlar tərəfindən ifşası və lənətlənməsi mühüm məqamdır. İllər sonra bu iki gənc xoşbəxt ailə qurub, ali təhsilli, bacarıqlı mühəndis kimi tanınırlar. Beş qız, beş oğlan olan övladlarının xoşbəxt böyümələri üçün bir daha müharibə olmaması uğrunda ictimai fəallıq göstərirlər. Müəllif poemasının sonunda fərəhlə bildirir ki, qəhrəmanları “Yenə əvvəlki kimi, Bir baxışdan anlayır, Gözlər gözləri, Ürək ürəyi. Axı, ilk gündən Gözlər öyrədib, Ürək öyrədib “Sevdim” deməyi...”[1]

Dinc quruculuq illərində ədəbiyyatda istehsalat tematikası dövlət tərəfindən təbliğ olunan mövzulardan olmuşdur. Ə.Əlibəyli “Polad” adlı poemasında zavodda işləyən bir gəncin əmək fəaliyyətindən, oradakı problemlərdən əhatəli bəhs açmış, mənzum povestə bənzər bir əsər yaratmışdır. “Dalğalar qoynunda” poemasının poetik fonu şairə çox doğma və əziz olduğu üçün dənizin müxtəlif hava durumundakı təsvirlərinə, lirik parçalara nisbətən əhatəli yer verilmişdir. Əsas konflikt də məhz şiddətli küləyin, tufanın dəniz buruqlarında işləyən neftçilərin fəaliyyəti üçün yaratdığı çətinliklərdən irəli gəlir. Digər tərəfdən, hər iki istehsalat əsərinin qəhrəmanları gənclər olduğu üçün onların şəxsi həyatları, könül aləmləri ilə bağlı təsvirlər də süjet xəttini şaxələndirmiş, əsərin daha maraqlı olmasına yönləndirmişdir. Ənənəvi məhəbbət üçbucağı ilə kəskin konflikt şəraiti yaranmasa da, oxunaqlığı təmin edən uğurlu bədii vasitələrdir.

Ənvər Əlibəyli uşaqlar üçün yazdığı lirik, epik əsərlərinin mövzusunu gerçək həyatla yanaşı, həm də xalq yaradıcılığından almış, “İlan və qurbağa”, “Qurd nağılı” mini poemalarında azyaşlılara nəcib mənəvi-əxlaqi dəyərlər təlqin etmişdir. “Vətən nəğməsi”, “Balaca bağbanlar” əsərlərində isə məqsəd

[1] Ənvər Əlibəyli. Seçilmiş əsərləri. – Bakı: Şərq-Qərb, 2005, s.218

doğma təbiətimizin daha yaxından öyrənilməsi, qorunması və daha da zənginləşməsi naminə gələcək vətəndaşlarda flora və faunaya qarşı həssaslıq, qayğı hissini oyatmaq və ayıq saxlamaqdır. Bu əsərlər milli uşaq ədəbiyyatımızda məktəblilərdə ictimai şüurun məqsədyönlü və bədii-estetik inkişafına görə hər zaman əhəmiyyətli və gərəklidir.

Ənvər Əlibəyli yeri gəldikcə digər xalqların ədəbiyyatından özünün ideya-bədii zövqünə uyğun olan şeir və poemaları doğma dilimizdə oxucuya çatdırmaq üçün tərcümələr etmiş, rus şairləri A.Krılovun, N.A.Nekrasovun, M.İsakovskinin, A.Surkovun və b. əsərlərini Azərbaycan dilinə tərcümə etmişdir. Həmçinin XII əsrin klassik şairi Ə.Xaqaninin qəzəllərini fars dilindən doğma dilimizə çevirmişdir.

Ənvər Əlibəyli ədəbiyyatımıza alovlu-atəşli müharibə dövrünün döyüşkən, mübariz ruhlu, həm də ağrılı-əzablı mövzuları ilə daxil olmasına baxmayaraq, sonralar həssas, həyatsevər, humanist, nəcib lirik "mən"i ilə nəğməkar şair kimi poeziyamızda əbədi yer almışdır.

İBRAHİM KƏBİRLİ
(1918-2001)

XX əsr Azərbaycan poeziyasının 50-ci illər nəslinə mənsub olan İbrahim Kəbirli milli şeirimizin bir sıra forma və məzmun xüsusiyyətlərini özünün bədii sənət nümunələrində əks etdirən şairlərimizdən biri kimi ədəbiyyatımızda özünəməxsus yer tutur. Onun ədəbi irsində folklora, klassik ədəbiyyata, ədəbi-bədii ənənələrə diqqət və həssaslıq ilə yanaşı, müasir həyatın aktual problemlərinə də geniş yer verilmişdir. Şairin zəngin yaradıcılığı Azərbaycan milli poeziyasının yarım əsrə yaxın bir mərhələsini əhatə edir. İbrahim Kəbirli İkinci Dünya müharibəsindən sonra ədəbiyyata gələn, həyatın inkişaf axınını ardıcıl izləyən, ictimai-siyasi və sosial münasibətlər içərisində formalaşan insanın əmək, zəhmət, arzu və düşüncələr aləmini sənətə gətirən və tərənnüm edən, özünü yaradıcı insanlar içərisində axtaran bir sənətkardır. Şairin poeziyasında insan və zaman, insan və təbiət, insan və kainat kimi aktual problemlərə fəlsəfi-estetik münasibətlər bədii ifadəsini tapmışdır.

Həyatı. İbrahim Kəbirli (İbrahim İsmayıl oğlu İbrahimov) 1918-ci il dekabr ayının 28-də Ağcabədi rayonunun Kəbirli kəndində dünyaya göz açmışdır. Burada ibtidai təhsil aldıqdan sonra 1937-ci ildə Ağdam Kənd Təsərrüfatı Texnikumunu bitirmişdir. Təhsilini davam etdirərək Azərbaycan Dövlət Universitetinin Tarix fakültəsinə qəbul olan İbrahim Kəbirli birinci kursu bitirdikdən sonra ordu sıralarına çağırılmışdır. 1939-1947-ci illərdə hərbi xidmətdə olarkən zabit kimi əks-kəşfiyyatda çalışmış, uzun müddət, xüsusən müharibə dövründə banditizmə-terrorizmə qarşı mübarizə aparmışdır. O, 1947-1950-ci illərdə Baş mətbuat idarəsində şöbə rəisi, 1950-1954-cü illərdə M.Qorki adına Ədəbiyyat İnstitutunda təhsil almış, 1957-1962-ci illərdə "Sovetski pisatel" nəşriyyatında redaktor olmuş, bir neçə il M. Qorki adına Ədəbiyyat İnstitutunun Tərcümə fakültəsində dərs demişdir.

İbrahim Kəbirli 1950-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü idi. 2001-ci ildə Moskva şəhərində vəfat etmiş, orada da dəfn olunmuşdur.

Yaradıcılığı. Şair ədəbi fəaliyyətə 1937-ci ildə "Ədəbiyyat qəzeti"ndə çıxan "Rəhbərə" şeiri ilə başlamışdır. Sonra "Gənc işçi", "Yeni yol", "Kommunist" qəzetində, "İnqilab və mədəniyyət" jurnalının səhifələrində müntəzəm çıxış etmişdir. O, bədii tərcümə ilə də məşğul olmuş, SSRİ xalqlarının poeziyasından bədii tərcümələr etmişdir. Əsərləri dünya xalqlarının dillərinə çevrilmiş, 1988-ci ildə "Unuda bilmirəm" şeirlər kitabına görə SSRİ Müdafiə Nazirliyinin mükafatına layiq görülmüşdür.

İbrahim Kəbirlinin müxtəlif dövrlərdə "Gəncliyim",[1] "Səadət nəğməsi",[2] "Özümə dost gəzdim",[3] "Ürəyimə düşən izlər",[4] "Ürək pünhan sevinmir",[5] "Açıq ürək",[6] "Ürəyimlə görürəm",[7] "Sənə arxayınam"[8] və başqa şeir və poemalar kitabı çapdan çıxmışdır.

Xalq şairi Məmməd Araz "Ürəkdən başlanan cığırlar" adlı məqaləsində İbrahim Kəbirli yaradıcılığının lirik mahiyyətindən bəhs edərək yazır: "Ədəbi təcrübə, xüsusilə poeziya yüz illərdir ki, öz monoloqunu deyir. Ədəbiyyatşünaslıq, tarix, fəlsəfə isə çoxdan bəri ilk müəllifi xalq olan bu fikri müxtəlif şəkildə təsdiqləyir. İbrahim Kəbirlinin yeni kitabını vərəqlərkən bir daha məlum deyilişləri fikrimdə dolandırdım və bu şairin mövzu obyektini, şair-sənətkar rənglərini təyin etməyə çalışdım. Yeni kitab "Ürəyinə yatırammı..." adlanır. İ.Kəbirli dalbadal çap olunan seriya kitablara ayrı ad qoymayıb, məhz "Ürək pünhan sevinmir", "Ürəyə düşən izlər", "Açıq ürək" və nəhayət, "Ürəyinə yatırammı..." adlarını qoyur. Sanki müəllif bu son kitabı ilə öz oxucusuna sual verir: bütün bu ürək haqqında yazılan kitablarım, ürəyimin parçası olan bu nəğmələrim xoşuna gəlirmi? Xoşuna gəlirmi ürəyimdən qopan sözləri kitab şəklinə salır, üstünə "ürəyimi həkk eləyib", oxuculara töhfə göndərirəm?!"[9]

İbrahim Kəbirlinin çoxşaxəli yaradıcılığının əsas istiqamətini Azərbaycan, onun ictimai, sosial həyatı, qurub yaradan əmək adamlarının tərənnümü, doğma vətənin ecazkar təbiətinin vəsfi, ana yurdun uca qayalarının, əzəmətli dağlarının, min bir rayihəli vətən çiçəklərinin ətri hopmuş əsərlər təşkil edir.

"Nə gözəldir Azərbaycan", – deyən şairin poetik dünyasının baş qəhrəmanı da Azərbaycandır:

Yolumuza günəş yağır,
Yolumuza dünya baxır.
Elə çalış, səda gəlsin
Uzaqlardan:
Nə gözəldir Azərbaycan![10]

---

[1] İbrahim Kəbirli. Gəncliyim. – Bakı: Azərnəşr, 1946
[2] İbrahim Kəbirli. Səadət nəğməsi. – Bakı: Uşaqgəncnəşr, 1949
[3] İbrahim Kəbirli. Özümə dost gəzirəm. – Bakı: Azərnəşr, 1960
[4] İbrahim Kəbirli. Ürəyimə düşən izlər. – Bakı: Azərnəşr, 1965
[5] İbrahim Kəbirli. Ürək pünhan sevinmir. – Bakı: Azərnəşr, 1967
[6] İbrahim Kəbirli. Açıq ürək. – Bakı: Azərnəşr, 1970
[7] İbrahim Kəbirli. Ürəyimlə görürəm. – Bakı: Yazıçı, 1981
[8] İbrahim Kəbirli. Sənə arxayınam. – Bakı: Yazıçı, 1984
[9] Məmməd Araz. Ürəkdən başlanan cığırlar... Sənətdə son mənzil olmur. I kitab. Publisistika. – Bakı: Adiloğlu, 2001, s.75
[10] İbrahim Kəbirli. İnsan sevinir. Şeirlər və poemalar. – Bakı: Azərnəşr, 1977, s.3

Şairin zəngin yaradıcılığının əsasında Azərbaycanın mübarizələrlə dolu tarixi keçmişi, bu günü və gələcəyi ilə bağlı taleyüklü məsələlər dayanır. Onun vətən sevgisi sonu görünməyən bir ümman kimidir, bitib-tükənmir. Uşaqlıqdan üzərində boy atdığı, gəzdiyi, havasını udduğu vətən torpağı yaddaşında incə və həzin duyğulara çevrilərək həyat yoluna nur çiləyir:

Azərbaycan
Çəməninin boyaları
Hopub mənim
Günlərimə, illərimə,
Azərbaycan
Torpağının şüaları
Hopub mənim əllərimə.[1]

Vətən sevgisinin müqəddəsliyini, əvəzolunmazlığını, insanı yaşadan, ona ruh verən böyük bir nemət olduğunu deyən şair həyatda qazandığı, əldə etdiyi uğurların, bir sənətkar kimi yetişməsinin əsasında vətən məhəbbətinin dayandığını səmimi bir şəkildə, poetik misraların gücü ilə etiraf edir:

Mənə səsi vətən verib,
Rəngin dilli səslər ilə,
Həm bəxtəvər, həm tən verib![2]

İbrahim Kəbirli yaradıcılığını səciyyələndirən ümdə xüsusiyyətlərdən biri də şairin gecəli-gündüzlü yazıb-yaratması və çəkdiyi zəhmətin nəticəsindən yüksək zövq almasıdır:

Məndən sual etsələr...
Hansı rahat bir guşə
Xəyalını ovlayır,
Yer üzündə hansı yer,
Hansı nadir gözəllik
Ürəyini tovlayır?

Deyərəm-ən gözəl yer
Şəfəqli qələmimlə
Sözlər əkdiyim yerdir,
Dünyanın ən işıqlı,
Yaraşıqlı guşəsi
Zəhmət çəkdiyim yerdir!..[3]

[1] İbrahim Kəbirli. Borc sayıram. Açıq ürək. – Bakı: Azərnəşr, 1970, s.50
[2] İbrahim Kəbirli. Mənim qismətim. – Bakı: Gənclik, 1979, s.73
[3] İbrahim Kəbirli. Deyərəm. Açıq ürək. – Bakı: Azərnəşr, 1970, s.38

“Hər tərəfdə işıldasın, Mənim odum, mənim közüm!..”, – deyən şairin poeziyası həyatla ayaqlaşan, daim inkişafa, tərəqqiyə can atan, günün nəbzini tutan dinamik bir fəaliyyətin nəticəsi kimi diqqət çəkir:

Yeri, şeirim,
Budağa qon,
Pıçıldaşan yarpağa qon.
Bir nöqtədə donub qalma,
Bir ürəyə qonub qalma.[1]

İbrahim Kəbirli lirikasında yenilik duyğusu insana, cəmiyyətə, həyata münasibətdə, qurub-yaratmaq həvəsində, dünyada gedən bütün proseslərə, dostlara və düşmənlərə münasibətdə də özünü göstərir.

Şairin lirik qəhrəmanı şəxsi həyatını, yalnız öz ailəsini düşünən bir fərdiyyətçi deyil, sevincini bütün insanlarla bölüşən, bəşəriyyətə nur paylayan xeyirxah və humanist bir insandır:

Nəyimə gərəkdir dərya sevincim
Zərrəcə bir kəsi sevindirməsəm!

İbrahim Kəbirlinin istedad və zəhmətdən yaranan poeziyasının əsas məqsəd və məramı sözün əsl mənasında insana xidmət etməkdir. Öz kövrək duyğularını poetik misralara çevirən şair oxucu qəlbini sevindirə biləcək, onların zövqünü oxşayacaq, bəşəriyyəti xeyirxahlığa, humanizmə, doğruluğa və ədalətə səsləyəcək poeziyanın gücünə inanır:

Hər yanan
Külə dönmür...
İnsan üçün yanan kəs
Yanır, sönmür ki, sönmür.[2]

Şair dərin müşahidələri, həyat təcrübələri əsasında cəmiyyətdə gördüyü, tanıdığı insanların psixologiyasına dərindən bələd olur və fikir süzgəcindən keçirə bilir. Bəzən həyatda rastlaşdığı “kəsəkdən hoppanıb, dağ aşdım deyənlər”i, “torpaq üstə bir addım atdığı üçün torpaqdan yazılı təşəkkürnamələr umanlar”ı, öz yolu üzərindən kiçik daşı kənara yuvarlatmağı qəhrəmanlıq hesab edənləri şair “ürəklərindən duyğusu perikənlər” adlandırır. O özündən razı olan, ancaq şəxsi mənafeyini güdən belə insanlara “Yaxşı ki, əynimə paxıllıq geymirəm” misrası ilə cavab verir. Şair göstərir ki, əsl istedada malik olanlar heç vaxt xırda hisslərlə yaşamırlar. Onlar daim axtarışda, yazıb-yaratmaqda, vətən və xalq naminə qələm çalmaqdadırlar:

[1] İbrahim Kəbirli. Mənim odum, mənim közüm. Açıq ürək. – Bakı: Azərnəşr, 1970, s.46
[2] İbrahim Kəbirli. Ürəyinə yatırammı. – Bakı: Gənclik, 1971, s.19

Qoymayıram – qəzəbləri
Ürəyimdə gecələyə,
Qoymayıram –
Taqət kəsən döyüntülər
Biləyimdə gecələyə.[1]

İbrahim Kəbirlinin səmimiyyət və xeyirxahlıqdan güc alan poeziyasında insan insanın dostu olmalı, əl uzatmalı, çətin məqamda öz mənəvi dəstəyini əsirgəməməli, doğru yol göstərməli kimi humanist fikirlər tələqin edilir və həmişə ön plana çəkilir. Buna görə də şair "Hamının köməyə ehtiyacı var..., Köməksiz insanı meh uçundurar" misraları ilə insanları bir-birinə arxa, dayaq olmağa, mənəvi birliyə və həmrəyliyə səsləyir:

Toxmaq hərlənsə də, dili sussa da,
Gözləri dost gəzər, hayan axtarar...
Qəhər dünyasında ömrü bir ada,
Adaya yanaşan insan axtarar...
Hamının köməyə ehtiyacı var:
Kim isə kiməsə ümid bəsləyir.
Səsə göz yummayın, bilin, adamlar,
Hardasa kim isə kömək gözləyir.[2]

"Səsə göz yummayın" fəlsəfi deyimində şairin insanlığa çağırış nidası, daxili hiss və həyəcanları, narahat bir insanın ürək çırpıntıları yüksək poetikliklə səsləndirilir.

"İnsanlıq zirvədir, sirli bir zirvə" aforizmində şair insanı cəmiyyətin fəal bir vətəndaşı kimi ən yüksək zirvədə görür, onu ətraf aləmdən təcrid etmir, çünki kamillik, insanlıq məqamına təkbaşına gedib çatmaq mümkün deyildir.

Şairin lirik məni həyatın enişli-yoxuşlu yollarında inamla addımlayan, çətin sınaqlardan alnıaçıq, üzüağ çıxan, sevincin və kədərin içərisindən keçərək istədiyi mövqeyə çatan mətin və yenilməz bir insandır:

Sevinc nə deməkdir, yaxşı bilirəm,
Mən onun yolunda yol ağartmışam,
Daşıyıb çiynimdə dağdan ağır qəm,
Ağ günə ağ saçla gəlib çatmışam![3]

İbrahim Kəbirlini bir şair kimi geniş oxucu auditoriyasına tanıtdıran həm də onun incə ruhlu, həzin pıçıltıtək qəlbləri titrədən, ülvi məhəbbət hisslərinin tərənnümünə həsr etdiyi sevgi şeirləridir. Xüsusilə şairin gənclik

[1] İbrahim Kəbirli. Ürəyinə yatırammı. – Bakı: Gənclik, 1971, s.41
[2] Yenə orada, s.53
[3] Yenə orada, s.65

illərinin, kövrək duyğularının saflığında durulan, həzin bir xatirənin işığında uyuyan, qəlbində əbədi yaşayan məhəbbət lirikası hər bir oxucuda xoş hisslər oyadır və insan xəyalən o əlçatmaz günlərə qayıdır. Şair gəncliyində itirdiyi, həsrətində olduğu məhəbbət cığırının qəlbində yaşadığını, qorunun, közünün öləzimədiyini yanıqlı bir dillə izhar edir:

O üzü dönmüşü bura çağırın,
Qoy insaf eləsin, ömür-gün gedir.
Əvvəli çəməndə itən cığırın
Deyin ki, axırı ürəyimdədir.[1]

İbrahim Kəbirlinin lirikasında fəlsəfi düşüncələr mühüm yer tutur, dünyanın sevinc və kədəri, yaxşılıqla pisliyi, xeyirlə şəri ağ-qara rənglərin paradoksallığında əksini tapır. Şair ömrünü insanlara pislik etməklə, şər işlərlə məşğul olmaqla keçirən, bəd əməllər daşıyıcısı olan insanların xarakterini çox sərrast ifadə edir:

Bədbəxt adam
Deyir ki, əl
İnsanların
Ağ gününə,
Sevincinə,
Sürünərək
Sinə-sinə
Zəhər qatmaq
Üçündür.[2]

Lakin yaxşı insanlar pislərin əksinə olaraq xeyirxahlıqla ömür sürür, insanlara əl tutur, zəhmətlə yaşayır, amalı, məqsədi qurub-yaratmaqdır:

Xoşbəxt insan
Hər baxanda
Əllərinə
Deyir ki, əl
Yeri, yurdu
Məchul olan,
Harda isə
Darda qalan
Sirrə çatmaq
Üçündür.[3]

[1] İbrahim Kəbirli. Ürəyinə yatırammı. – Bakı: Gənclik, 1971, s.73
[2] İbrahim Kəbirli. Öz havam var. Açıq ürək. – Bakı: Azərnəşr, 1970, s.35
[3] Yenə orada, s.36

İbrahim Kəbirli Azərbaycan dilinin incəliklərindən yerli-yerində istifadə edən, xalq dilinin zənginliyindən, çoxçalarlığından sənətkarlıqla yararlanan, sözlərin, misraların axıcılığına, rəvanlığına, ahəngdarlığına, məna tutumuna diqqətlə yanaşan məsuliyyətli bir sənətkardır:

Səhərimiz o dağdan da
O tərəfdə – qayalarda
Çimir rəngin boyalarda.
Amma gərək
Şimşəklərdən
Yapışaraq yoxuş qalxaq,
Şimşəklərə qarışaraq,
Gözümüzə alov sağaq.[1]

İbrahim Kəbirli xalqın minilliklər boyu qoruyub saxladığı zəngin folklor nümunələrini, atalar sözlərini, bayatıları, məsəlləri poetik misralara çevirərək ona orijinal forma və məzmun verməyi bacaran novator şairlərimizdən biridir. Müdriklərimizin söz haqqında söylədiyi məşhur deyimdə belə bir fikir səsləndirilir: "Neçə ki söz ağzından çıxmayıb o, sənin qulundur, ağzından çıxdıqdan sonra sən onun qulusan". İbrahim Kəbirli bu məşhur kəlamı belə poetikləşdirir:

Qanad açıb uçan səsi
Qovmaq çətin, tutmaq çətin,
Dildən qopub düşən sözü
Geri alıb udmaq çətin.[2]

Məşhur bir xalq bayatısında səsləndirilən, "Gəzməyə qərib ölkə, Ölməyə vətən yaxşı" kimi dillər əzbəri olub aforizmə çevrilən misraların həzinliyi, kövrəkliyi, müqəddəs vətən torpağına bağlılıq, son məqamda insanın tapındığı, sığındığı, qibləgahı sandığı ana yurda sevgi hissinin təlqin etdiyi ideya İbrahim Kəbirli poeziyasına da işıq salır:

Doğma eldən ayrı düşən
Gülməz, ağlayar-ağlayar,
Sevinmək heç huşuna da
Gəlməz, ağlayar-ağlayar!

Gündən qəm içər, qəm içər,
Taya-taya qüssə biçər,

[1] İbrahim Kəbirli. Öz havam var. Açıq ürək. – Bakı: Azərnəşr, 1970, s.14
[2] Yenə orada, s.126

Ömür necə gəlib, keçər
Bilməz, ağlayar-ağlayar!..[1]

İbrahim Kəbirlinin şeirlərini oxuduqca sanki insan vətən torpağının bitirdiyi min bir gülün-çiçəyin xoş ətrini duyur, göz oxşayan geniş tarlalarını, ləçək-ləçək tellənən sarı sünbüllərini seyr edir, əzəmətli dağların sıldırım qayalarının zirvəsinə qalxır, ucu-bucağı görünməyən yamyaşıl dərələrin şehli çəmənində gəzir, büllur bulaqlarından ovuc-ovuc içir, kükrəyən dağ çaylarının təmizliyində, saflığında arınır, doğma vətənin bənzərsiz ecazkarlığı qarşısında heyrətlənir. İnsan qəlbini ovsunlayan bu gözəlliyin arxasınca bütövlükdə ana yurdun hər guşəsini bitib-tükənməyən bir sevinc və fərəh hissi ilə addım-addım gəzirsən. Nəhayət, insan qəlbini xoş ovqata kökləyən bu gözəl məkanın əbədi və əzəli sakini olmağınla fəxr edirsən. Şairin söz palitrasının saysız-hesabsız rəngarəngliyində yaradılan bu qeyri-adi geopolitik diyarın Azərbaycan olduğunu bütün varlığınla dərk edir və sonsuz bir qürur duyursan. Bu məqamda şairin təbiət sevgisi vətən sevgisi anlamına yüksələrək bütövlükdə Azərbaycan zirvəsində qərarlaşır:

Çəmənlər dolanıb, düzlər gəzərək,
Çiçəklər görmüşəm ətirli, göyçək.
Bütün yer üzündə ən gözəl çiçək
Vətən çiçəyidir, vətən çiçəyi![2]

İbrahim Kəbirli yaradıcılığının gücü onun minilliyə dayanan Azərbaycan şeirinin ən mütərəqqi ənənələrindən yaradıcılıqla bəhrələnməsindədir. Şairin poeziyası insanı müdrikliyə, daxili bütövlüyə, milli-mənəvi dəyərləri qorumağa, kamilliyə, ucalığa, dinamik bir həyat yaşamağa səsləyən poeziyadır. Bu mənada şairin bir həqiqət yolçusu olmasını, insanları doğruluğa, düzgünlüyə, saflığa səsləməsini onun xoşbəxtlik haqqında düşüncələri ilə ekvivalent olmasında dərin müşahidə etmək olar:

Ömrü boyu doğru yolla yeriyən,
Vaxtlı dinib, vədəsində kiriyən,
İnsanlarla bir cərgədə durub tən,
İnsanlarla fəxr eləyən-xoşbəxtdi!
Min dəryanı bir damlaya döndərən,
Bir damlanı bəhr eləyən- xoşbəxtdi![3]

İ.Kəbirli bu dərin fəlsəfi ümumiləşdirmələrində illərlə gəldiyi qənaətlərə əsaslanaraq xoşbəxtliyin mahiyyətini bütünlüklə açmağa müvəffəq olur.

[1] İbrahim Kəbirli. Mənim qismətim. – Bakı: Gənclik, 1979, s.74
[2] Yenə orada, s.51
[3] Yenə orada, s.16

Şair insanın xoşbəxtliyini onun həyatda doğru yolda olmasında, qurub-yaratmaq əzmində, cəmiyyət üçün faydalı bir vətəndaşa çevrilməsində görür.

Təəssüf ki, cəmiyyətdə bu xoşbəxtliyi görmək istəməyən, dar düşüncəli, qara fikirli, başqasının uğurlarına qısqanclıqla yanaşan paxıl insanlar da var. Şair belə cılız, xırda hisslərlə, bəd əməllərlə yaşayanları tutduqları yanlış yoldan çəkindirməyə çalışır:

Əsillərdən yaxşı yapış,
Əsil insan paxıl olmaz,
paxıl olmaz.
İbrahiməm, ağlım kəsən
Mənalara inandım mən.
Paxıllıqdan uzaq gəzən
Yüz il yaşar, ahıl olmaz,
ahıl olmaz!..[1]

İbrahim Kəbirlinin yaradıcılığında onun müxtəlif mövzuda qələmə aldığı poemaları da özünəməxsus yer tutur. Şairin "İmtahan" (1956), "Adsız adam" (1963) "Çingiz İldırım" (1977), "Xoş gördük, Mil səhrası" (1977) poemalarında xalqımızın tarixi keçmişinə, dövrün sosial problemlərinə, qurub-yaradan zəhmət adamlarının tərənnümünə geniş yer verilir.

"Adsız adam" poemasında şair vətəndaş müharibəsinin iştirakçısı Dərgahın timsalında neft sənayesinin inkişafında böyük xidmətləri olan əmək adamlarının parlaq obrazını yaratmışdır. O, öz vətəninə şərəflə, ləyaqətlə xidmət edən əsl zəhmət adamlarının ümumiləşmiş obrazı kimi diqqəti cəlb edir. Dərgah öz əqidəsinə sadiq qalan prinsipial, mübariz bir qəhrəmandır. Hətta uşaqlıqdan oğulluğa götürdüyü Muxtarla münasibətində də onu əsl vətəndaş, öz peşəsinə qəlbən bağlı olan bir insan kimi görürük.

Şairin Kəbirli kəndinin pambıqçılarına ithaf etdiyi "Xoş gördük, Mil səhrası" poeması mövzu və ideya baxımından "Adsız adam" poeması ilə yaxından səsləşir. Əgər birincidə neft sahəsində çalışan əmək adamından söhbət açılırsa, ikincidə pambıq tarlasında çalışan zəhmətkeş insanların qəhrəmanlığından bəhs olunur:

Poemada şairin doğulub boya-başa çatdığı kəndin əmək qəhrəmanlarının tərənnümünə geniş yer verilir. Əsərdə Mil düzünün qəhrəmanları – Əşrəf, Bəhmən, Şahmar, Turan, Əmiraslan, Nuru, Ənvər, İbad, Vahid, Ələsgər və başqa kənd zəhmətkeşlərinin pambıqçılığın inkişafındakı müstəsna xidmətləri və qazandığı uğurlar poetik bir dillə izhar olunur:

[1] İbrahim Kəbirli. Ahıl olmaz. Açıq ürək. – Bakı: Azərnəşr, 1970, s.257

Fərəhlən Mil səhrası,
Sən bu günün aynası!
Al bəzən Mil səhrası,
Əsrin saralmaz yazı![1]

Azərbaycan poeziyasına 1960-1980-ci illərin ictimai-siyasi, fəlsəfi məzmunlu poetik xüsusiyyətlərini gətirən, cəmiyyəti narahat edən ən müxtəlif problemlərə diqqət çəkərək şeirlərinin mövzusuna çevirən, millətin ağrı və yaşantılarını yaradıcılıq kredosuna çevirən, rəngarəng söz palitrası, fərdi üslubu, ifadə tərzi və yaradıcılıq manerası ilə seçilən İbrahim Kəbirlinin zəngin və çoxəsrlik ədəbiyyatımızın inkişafında özünəməxsus yeri vardır.

[1] İbrahim Kəbirli. İnsan sevinir... Şeirlər və poemalar. – Bakı: Azərnəşr, 1977, s.174

ZEYNAL CABBARZADƏ
(1920-1977)

Azərbaycanın sevilən nəğməkar şairi, əməkdar mədəniyyət işçisi Zeynal Cabbarzadə lirik peyzajları, poetik miniatürləri, vətəni tərənnüm edən şərqiləri ilə Vurğun ədəbi məktəbinin müqtədir müdavimi olduğunu təsdiqləmişdir. Onun şeirlərindəki dil-üslub cazibədarlığı, poetik düşüncələrin harmoniyası, axıcılıq, ahəngdarlıq, metaforik bənzərsizlik xalq poeziyası ənənələrindən bəhrələnməklə çağdaş ədəbiyyatımıza yeni naxışlar, cizgilər, çalarlar bəxş etmişdir.

Həyatı. Zeynal Əliabbas oğlu Cabbarzadə 31 dekabr 1920-ci ildə Bakı şəhərinin Bilgəh qəsəbəsində, balıqçı Əliabbas kişinin ailəsində dünyaya göz açmışdır. Onun uşaqlıq və gənclik illəri Sovet rejiminin iqtisadi böhran, tənəzzül, xaos, siyasi repressiyalar dövrünə təsadüf etmişdir. Gənc Zeynal Cabbarzadə doğma kəndində orta məktəbi bitirdikdən sonra 1934-1937-ci illərdə fəhlə fakültəsində oxumuş, 1937-1941-ci illərdə isə ADPU-nun (keçmiş APİ-nin) Dil-ədəbiyyat fakültəsində təhsil almışdır. O, oxumaqla yanaşı "Balıq cəbhəsi" (1938-1939) və "Qızıl kürçaylı" (1939-1940) qəzetlərinin redaksiya heyətində çalışmış, müəyyən müddət Şamaxının Mədrəsə kənd orta məktəbində dil və ədəbiyyat fənnini tədris etmişdir.

1941-1945-ci illər müharibəsinin tələtümlü qasırğası Azərbaycandan çoxsaylı ziyalı-gənclər kimi Zeynal Cabbarzadədən də yan keçməmiş, o, müəllimlik peşəsini tərk etmək məcburiyyətində qalmış və könüllü səfərbərliyə cəlb edilmişdir. Z.Cabbarzadə öncə hərbi piyada məktəbinin kursantı olmuş (1941-1942), kiçik leytenant rütbəsi ilə azərbaycanlı əsgər və zabitlərdən ibarət 416-cı Taqanroq atıcı diviziyasının tərkibində hərbi xidmətini davam etdirmişdir. Burada diviziyanın artilleriya batareyasının komandiri, şair Ənvər Əlibəyli ilə görüşmüş, onun məsləhətlərindən faydalanmış, Qafqazın, Ukraynanın faşistlərdən azad edilməsi uğrunda mübarizədə "416"-nın sıralarında cəbhə yoldaşları ilə birgə fəaliyyət göstərmişlər.

O, Çeçenistanın şimal-qərb hissəsində yerləşən Naurski rayonunda keçirilən hərbi əməliyyat zamanı ağır yaralanmış, aldığı zərbədən görmə və eşitmə qabiliyyətini müvəqqəti itirmişdir. Uzunmüddətli müalicədən sonra 1943-cü ildə ehtiyatda olan baş leytenant rütbəsi ilə ordudan tərxis edilmiş, çəkdiyi bütün əzablara, məşəqqətlərə baxmayaraq Bakıya qayıtmış, müalicəsini davam etdirməklə yanaşı, beş il Azərbaycan Yazıçılar Birliyi Natəvan klubunun müdiri vəzifəsində fəaliyyət göstərmişdir.

Zeynal Cabbarzadə həyatının sonrakı dönəmlərində "Ədəbiyyat qəzeti"ndə ədəbi işçi, məsul katib, "Pioner" jurnalı redaksiyasında məsul katib və 1950-ci ildən ömrünün sonunadək həmin dərginin baş redaktoru vəzifələrində çalışmışdır.

Azərbaycan Yazıçılar Birliyinin 1943-cü ildən üzvü seçilmiş gənc Zeynal xidmətlərinə görə medallar və Fəxri fərmanlarla təltif edilmiş, 1970-ci ildə Azərbaycanın əməkdar mədəniyyət işçisi fəxri adına layiq görülmüşdür.

Zeynal Cabbarzadə müharibədə aldığı kontuziya və yaralarının ağrı-acılarını ömrü boyu mərdi-mərdanə daşımış, 20 yanvar 1977-ci ildə, 56 yaşında Bakı şəhərində dünyasını dəyişmişdir.

Yaradıcılığı. Zeynal Cabbarzadə 1937-ci ildə "rus poeziyasının gövhəri" adlandırılan Aleksandr Sergeyeviç Puşkin haqqında yazdığı "Puşkin" və gürcü ədəbiyyatının dahi şəxsiyyəti, mütəfəkkir şair Şota Rustaveliyə həsr etdiyi "Şota"[1] adlı ilk mətbu şeirləri ilə poeziya aləminə qədəm qoymuşdur. Müharibə illərində şeir yaradıcılığı ilə mütəmadi məşğul olsa da, "Xanıman"[2] adlı ilk kitabı II Dünya müharibəsindən sonra – 1946-cı ildə Azərbaycan Dövlət Nəşriyyatında yığcam kitabça şəklində çap olunmuşdur. Toplu ilə eyniadlı şeir[3] iki il əvvəl "Ədəbiyyat qəzeti"ndə dərc edilmişdir. Xanıman (xaniman) kəlməsi fars mənşəli olsa da, mahiyyətində, məna yükündə dədə-baba yurdu, ata ocağı, yaşayış məskəni, doğulub boya-başa çatdığın ev-eşik, müqəddəs vətən anlamını özündə əks etdirir. Zeynal Cabbarzadənin ilk şeirlər kitabçasını üzv olduğu yazarlar birliyinin müddətsiz vəsiqəsi, şairlik pasportu da adlandırmaq olar. Onun əhatəli yaradıcılığında vətənpərvərlik mövzusu, haqq, ədalət duyğusu, yurda-yuvaya, od-ocağa sevgi, məhəbbət hissləri ali və sabit mövqe daşımışdır. Müəyyən fasilələrlə nəşr olunan "Əfzələddin və şah" (1947), "Çinar" (1952), "Bahar gəlir" (1954), "Arzular" (1958), "Sizin səsiniz" (1963), "Məni bağışlayın" (1965), "Güllər" (1974), "Uca dağlar başında" (1980), "Seçilmiş əsərləri" (2005) adlı kitabları və digər mətbu əsərləri yüksək tirajla yayımlanmış, xüsusilə məktəbli-gənclər arasında geniş təbliğ olunmuş, poeziya mütəxəssislərinin, ədəbi ictimaiyyətin diqqətini cəlb etmişdir.

Zeynal Cabbarzadə lirik şair olmaqla yanaşı, çoxsaylı uşaq şeirlərinin, satirik nəzm nümunələrinin, kiçikhəcmli poemaların, şaqraq, şux mahnı mətnlərinin də müəllifidir. Onun poeziya yaradıcılığında vətən, yurd, od-ocaq mövzusu, Azərbaycanın əsrarəngiz təbiəti, cənnət misallı guşələri, laləzar bölgələri böyük vurğunluqla tərənnüm olunmuşdur. Şair çox sadə, ürək oxşayan, rəvan, poetik dil ilə yaratdığı vətən obrazını yalnız təriflərlə süslənmiş bir rəngdə təqdim etmir. Onun gözəl, qiymətli olmasının təməlində "azadlıq vuruşu"nun dayandığına işarə etmişdir. "Azərbaycan" şeirində olduğu kimi...

[1] Zeynal Cabbarzadə. Şota. – Bakı: "Ədəbiyyat qəzeti", 1937, 29 dekabr
[2] Zeynal Cabbarzadə. Xanıman. – Bakı: Azərnəşr, 1946
[3] Zeynal Cabbarzadə. Xanıman. – Bakı: "Ədəbiyyat qəzeti", 1944, 27 iyul

Sinəsində güllər açan,
Odlar yurdu Azərbaycan!
Gözümüzdən qiymətlidir,
Bizim üçün hər qarışın.
Dağların tək ucalmışdır,
Səmalara məğrur başın.
Sən azadlıq vuruşuna,
Meydan oldun dönə-dönə...[1]

Təqdim edilən bu misralarda müqayisəli dəyərləndirmə xüsusilə diqqəti özünə çəkir. Şair Odlar yurdu Azərbaycanın hər qarışını "gözümüzdən qiymətli" hesab edərək yüksək dəyər verir. Görmə qabiliyyətinin məhdudluğu ilə üzləşmiş şairin vətənin "hər qarışı"nı "gözümüzdən" də yüksək qiymətləndirməsi müqayisəyəgəlməz, bənzərsiz yanaşmadır, meyardır. Vətən torpağının hər qarışının, hər çərəyinin işıqdan, nurdan da üstün tutulması, əzizlənməsi Zeynal Cabbarzadə poeziyasının özünəməxsusluğu, içdən gələn səmimiyyət qatı, sevgi çələngidir.

Azərbaycanın sovet dövrü poeziyasına tətbiq olunan senzuranın, ideoloji nəzarətin sərtliyinə, təqib və təpkisinə baxmayaraq milli sənətkarlarımızın bu dönəmdə yazdıqları şeirlərdə sətiraltı mənalara üstünlük verməsi, az sözlə müəyyən tarixi hadisənin lakonik mənzərəsinin təsəvvürdə canlandırılması örtülü ədəbi fəndlərdən hesab edilirdi. Demək olar ki, Zeynal Cabbarzadənin yaradıcılığında da sətiraltı məqamlara, örtülü mətləblərə üstünlük verilmişdir. Şair bəzən də vətənpərvərlik mövzusunda yazdığı şeirlərində Azərbaycanın mənəvi zənginliyindən, humanistliyindən, tolerantlığından, dünyəviliyindən bəhs edir. O, milli dəyərin, mənəvi qüdrətin ucalığını, monumentallığını xalqın yüz illər boyu yaratdığı və yaşatdığı sənətdə, klassikada, əbədiyaşarlıqda, "öz Azərbaycan"ında arayırdı.

Mənə elə gəlir ki,
Suların şır-şır səsi,
Bülbüllərin nəğməsi,
Böyük sənətkarların,
Qəlb açan təranəsi
Mənim mahnılarımdır.
Bu mahnılar içində,
Şurum, Rastım, Segahım,
Min tərənə varımdır.
Bunlar mənim öz səsim,

[1] Zeynal Cabbarzadə. Bahar gəlir. – Bakı: Azərnəşr, 1954, s.3

Ürəyimdir, canımdır,
Öz Azərbaycanımdır![1]

"Öz Azərbaycanımdır" rədifli "Mənə belə gəlir ki..." adlı şeirində şair "Şur"un, "Rast"ın, "Segah"ın, bütövlükdə Muğamlarımızın, mənəvi mədəniyyətimizin səsini Azərbaycanın səsi, imzası kimi qəbul edir, dünyada tanıdır.

Zeynal Cabbarzadənin yaradıcılığında Azərbaycanın şəhərlərinə, bölgələrinə həsr edilmiş, tərənnüm yönümlü lirik örnəklərin müəyyən qismi nəğmələrə, çevrilərək dillər əzbəridir. Onlardan "Azərbaycanımız", "Vətənimiz", "Kəndimiz", "Əziz vətən", "Quba", "Lənkəran", "Sumqayıt", "Bakı", "Şəhərim" və b. əsərləri yığcamlığı, axıcılığı, emosionallığı, yaddaqalanlığı, obrazlılığı, səciyyəvi cizgiləri ilə sevilir və seçilir. Onun "Bakı" şeiri ecazkar təbiət lövhələri ilə insanı heyran edir:

Göy sularda yelkən açan gəmilər,
Ağ göyərçin ləpələrlə öpüşər.
Duman qalxar Xəzərimdən hər səhər,
Qatar-qatar qağayılar ötüşər,
Üfüq yanar,
Al boyanar Bakımız!

Bakıya bax, başdan-başa yaraşıq,
Qurban olum alovuna, oduna.
Öz Bakıma aləm aşiq, mən aşiq,
Odlar yurdu çox yaraşır adına,
Qəbim qoca,
Başı uca Bakımız![2]

Şair Bakı səhərini, dan üzünü, yelkən açan gəmilərlə ağ göyərçinə bənzəyən ləpələrin öpüşünü, qağayıların ötüşünü, dumana bürünüşünü, üfüqlərin yanğısını o qədər təbii, real vəsf edir ki, elə bil Xəzərin sahilində dayanıb hilala bənzəyən Bakının peyzajını yaradan şair yox, marinistdir.

Müəllifin şeir üçün seçdiyi qəlib, biçim də ənənəvi deyildir. Xüsusilə bütün bəndlərin son misrasında daxili qafiyədən məharətlə istifadə olunması şeirin şirinliyini, işığını, nurunu daha da artırmışdır.

Respublikanın Xalq şairi, dövlət mükafatı laureatı Rəsul Rza həmkarının yaradıcılığına nəzər salaraq yazmışdır: "Zeynalın elə şeirləri vardır ki, fikir, ifadə tərzi, obraz silsiləsi etibarilə təzə deyil. Lakin səmimi, sadə,

[1] Zeynal Cabbarzadə. Mənə belə gəlir ki.... / Seçilmiş əsərləri. – Bakı: Avrasiya Press, 2005, s.13
[2] Zeynal Cabbarzadə. Seçilmiş əsərləri. – Bakı: Avrasiya Press, 2005, s.16

ürəyəyatandır. Məlum hissləri xüsusi bir riqqət və mehribanlıqla yenidən oyadır. "Arzular" belə şeirlərdəndir. İntimdir, çərçivəsi məhduddur. Şeirdə ifadə olunan hiss, fikir bizə tanışdır. Lakin burada Zeynal qələmi, məhz şairə məxsus intonasiya da vardır ki, o, şeiri adilik və ümumilik qəlibindən çıxarır. Burada insan səadətinin qırılmaz tellərlə bir-birinə bağlılığı, lokal xoşbəxtliyin harada isə, kimin qəlbində isə bir ağrı, bir incik, bir göynək şəklində əks-səda verəcəyi fikri, geniş mənada insan səadətinin insanlıq səadətindən ayrı ola bilməyəcəyi fikri yeni olmasa da, hər dəfə əsl sənətkar qələmi altında yeni ifadəsini tapa bilir.

Zeynal Cabbarzadənin şairlik mövqeyini müəyyən edən, onun həqiqi ilham, yaradıcılıq pafosu, poetik həyəcanla yazılmış kəskin ümumiləşdirici fikirlər ifadə edən şeirlərdir".[1]

Görkəmli şair Rəsul Rzanın yalnız "Arzular" şeiri haqqında söylədiyi mənfi çalarları şübhəsiz ki, Zeynal Cabbarzadənin bütün yaradıcılığına şamil etmək ədalətli olmazdı. R.Rza da yalnız "elə şeirləri vardır ki" məntiqindən çıxış edərək subyektiv mülahizələrini bildirmişdir.

Z.Cabbarzadənin yaradıcılığında uşaqlara həsr olunan kiçikhəcmli lirik şeirlər mühüm yer tutur. Onu bu sahədəki xidmətlərinə görə uşaq ədəbiyyatının istedadlı nümayəndəsi kimi də təqdim etmək mümkündür. Fərqli zaman dövrünün mövzularını poeziyaya gətirməklə şair uşaqlarda mənəvi dəyərlərə hörmət, adət-ənənələrə sayğı, valideynlərinin və müəllimlərinin sözünə baxmaq, onların tapşırıqlarını yerinə yetirmək, pis vərdişlərdən kənar durmaq, ədəbli və səliqəli olmaq, özündən kiçiklərə və böyüklərə kömək etmək, ədalətli, doğru mövqe seçmək kimi əxlaqi-etik tərbiyə normaları aşılamışdır.

Z.Cabbarzadənin uşaqlara həsr etdiyi şeirlərdən biri də bəstəkar dostu Emin Sabitoğlunun qızı Ceyran Mahmudovaya həsr etdiyi "Ceyran qızım" adlı şeiridir. Şübhəsiz ki, şairin bu şeiri yazıb bəstəkar dostuna təqdim etməkdə məqsədi əsərə mahnı bəstələnməsini istəmişdir. Çünki hər iki yaradıcı dostun sıx əməkdaşlığı şəraitində xalqın sevgi ilə qarşıladığı həzin, məzəli, şux mahnılar yaranmış və musiqi mədəniyyətimizi zənginləşdirmişdir. Sözləri Zeynal Cabbarzadəyə, bəstəsi Emin Sabitoğluna məxsus olan, görkəmli müğənnilərimizdən Şövkət Ələkbərova, Mirzə Babayev, Brilyant Dadaşova, İlhamə Quliyeva və b. repertuarına salınmış "Nə olar?", "Çay mahnısı", "Budu, bu", "Əlvida", "Gəl qoşulaq durnalara" və s. mahnıları uzun illlərdən bəri aktuallığını, yeniliyini, təravətini qoruyub saxlayır, rəsmi tədbirlərin bədii hissəsində, toylarda, el şənliklərində sevilərək ifa edilmişdir.

[1] Rəsul Rza. Ön söz. Seçilmiş əsərləri. – Bakı: Avrasiya Press, 2005, s.5

Z.Cabbarzadənin "Ceyran qızım" adlı şeiri oxşamalar üstündə yazılmış, əzizləmə, nazlama variasiyasında intişar tapmışdır.

Ceyran, dağlar yaraşığı,
Sən evimin bəzəyi.
Yanaqların ay işığı,
Özün mənim ürəyim.
Bircə qızım,
Dirçəl qızım,
Ceyranların ceyranı.[1]

Poeziya sevgi deməkdir. Sevgi ilə oxunan laylalar, nəğmələr saflıq mücəssəməsi, nur parçası olan uşaqların ruhuna köçür, qanına keçir. Z.Cabbarzadənin hələ mahnıya, musiqiyə uyarlanmamış şeirlərini analar sevgiylə, nəvazişlə öz övladlarının qulağına pıçıldasa belə, o sehrli duyğu selinə, həzin musiqi ritminə çevrilərək ruha, qana axacaqdır. Çünki Zeynalın poeziyası ahəng üzərində köklənib, sadə olduğu qədər də musiqiyə və ürəyə yatımlıdır. O, uşaqlar üçün yazdığı şeirlərinin mühüm bir hissəsini "Pioner" jurnalında çalışdığı illərdə yazmışdır. Uşaqlarla yaratdığı mütəmadi təmaslar şairi ruhlandırırdı. Bəzən onlarla səmimi, həyəcanlı görüşlər unudulmaz xatirələrə, poetik şeirlərə çevrilirdi. Elə şeirlərdən biri də "Uşaqlar, ay uşaqlar" adlanır:

Yanıma gəlmişdiniz,
Siz məni yoluxmağa.
Dilinizdən bal damır,
Üzünüzdən nur yağır...
Şeir deyənlər oldu,
Aranızda həmin gün.
Unutdurdunuz mənə,
Xəstəliyi büsbütün.
Baxıb sizə düşündüm;
"Kaş ki uşaq olaydım..."
Dedim: "Hayıf qocaldım,
Saçlarım da oldu qar."
Uşaqlar, ay uşaqlar![2]

Z.Cabbarzadənin yaradıcılığında kiçikhəcmli, lirik səpkili poema janrına da yer verilmişdir. Onun "Korlar", "Sərhəddə", "İçərişəhər", "Məni

[1] Zeynal Cabbarzadə. Ceyran qızıma / Seçilmiş əsərləri. – Bakı: Avrasiya Press, 2005, s.128
[2] Zeynal Cabbarzadə. Uşaqlar, ay uşaqlar / Uca dağlar başında. – Bakı: Gənclik, 1980, s.43-44

bağışlayın", "Karvan gedir", "Qonaq", "Qardaşlar", "İgid ölmür" və b. əsərləri müxtəlif illərdə yazılsa da, hər birini eyni poetik ruh, sadə, səmimi düşüncələr, yığcamlıq və axıcılıq birləşdirir.

Şairin "Korlar" poeması Vyetnam xalqının işğalçılara qarşı mübarizəsindən, qəhrəmanlığından, dəyanətindən, müharibənin kor qoyduğu uşaqların həyatından, yaşantılarından və müharibədən, ölümdən qurtulmaq üçün özünü "korluğa" vurub düşmənləri aldadan, onların pəncəsindən xilas olan gənclərdən, onların kor qalmış arzularından bəhs edir.

"Məni bağışlayın" poeması tərbiyəvi mövzuda qələmə alınmış, gənclər üçün yazılmış əsərdir. Gəncliyində kobud xətaya yol vermiş və peşmançılıq hissi ilə yaşayan lirik qəhrəman o məşum hadisəni yada saldıqca bağışlanması üçün çarə axtarmış və bütün cəhdləri nəticəsiz qalmışdır. Hadisənin süjet xətti belədir: lirik qəhrəman gənclik illərində qalın qar yağarkən insanların hərəkət etdiyi yolda xizək sürmüş, yol buz bağladıqdan sonra buzun üstünü qarla örtmüş, yoldan keçən insanların sürüşərək yıxılmasını gizlin yerdən izləyərək onlara qəhqəhə ilə gülmüşdür. Qaranlıq düşdükdən sonra yolda yıxılan və ciddi zədə alan qoca müəllimini görüb peşmançılıq keçirir. Müəlliminə baş çəkmək üçün yanına getsə də, cəsarəti çatıb həqiqəti söyləyə bilmir. Xəstə, başından yara almış müəlliminin onu gülər üzlə evində qarşılaması lirik "mən"in xəcalət hissini daha da artırır. O hadisədən uzun illər keçsə də, yol verdiyi yanlışlıq, kobud səhv yenə də ona rahatlıq vermir, vicdanını sızıldadır... Şair, "nə etməli?" sualının cavabını gənc məktəblilərin ixtiyarına buraxmışdır.

"İçərişəhər" lirik poeması bir qocanın xatirələrindən ibarətdir. Uşaqlığını, gəncliyini İçərişəhərdə keçirmiş insanın yeni mənzil alaraq oranı tərk etməsindən sonra nigarançılığı, intizarı başlanmışdır. Lirik qəhrəman özü-özü ilə danışır:

Bürc üstü, su ovdanı,
Məşhur Xıdır dalanı,
Bir də o "Sınıq qala",
Gözümün qabağında,
Dilə gəlir az qala.
Deyirlər: "Nə oldu, sən,
Bizdən üz döndərmisən?[1]

Şair "İçərişəhər" poemasında bu bənzərsiz memarlıq incisinin, sənət abidəsinin ziyarətinə hər zaman ehtiyac duyulduğunu gənc dostlarına xatırlatmış, onun sirli tarixini öyrənməyi, qayğısına qalmağı tövsiyə etmişdir.

[1] Zeynal Cabbarzadə. İçərişəhər / Seçilmiş əsərləri. – Bakı: Avrasiya Press, 2005, s.146

Zeynal Cabbarzadənin şeirlərinin musiqiyə yatımlılığını bəlkə də ilk duyan bəstəkarlarımız olmuşdur. Onun ilk dəfə 1950-ci ildə "Sülh" adlı şeirinə məşhur bəstəkar Qara Qarayev mahnı yazmış, sözün əsl mənasında bu şərqi dövrün xitinə çevrilmişdir. Digər görkəmli bəstəkar Tofiq Quliyev onun "Bakı", "Yenə göy üzünü bulud aldı, yar", "Məzəli mahnı" (O dedi: yox, yox, yox), "Neynim, neynim, yar", "Axşam mahnısı", "Onu bağışlamaq olarmı?" filmində "Bax, gəlib ilk bahar" və digər əsərlərinə müraciət etmiş, populyarlığını bu gün də qoruyub saxlayan nəğmələr bəstələmişdir.

Zeynal Cabbarzadə ilə Tofiq Quliyevin birgə yaradıcılıq tandemi uzun illərin dostluğu ilə daha da möhkəmlənmiş, yeni-yeni musiqi əsərlərinin yaranmasına vəsilə olmuş, rəvac vermişdir.

Xalq artisti, bəstəkar T.Quliyev yaxın şair dostu haqqında yazmışdır: "Həyatımın və yaradıcılığımın ən yaxşı səhifələri bizim xalqın gözəl və maraqlı şairi Zeynal Cabbarzadə ilə bağlıdır. Bütün yaxşı mahnılarım üçün mən Zeynala borcluyam. O təkcə şair deyildi, sözün həqiqi mənasında həm də bəstəkar idi. Onunla birlikdə işlədiyim günləri iftixarla xatırlayıram".[1]

Zeynal Cabbarzadənin iki yüzdən çox şeirinə mahnı bəstələnmişdir. Görkəmli incəsənət xadimləri, bəstəkarlardan Qara Qarayev, Cahangir Cahangirov, Tofiq Quliyev, Fikrət Əmirov, Səid Rüstəmov, Ağabacı Rzayeva, Emin Sabitoğlu, Vasif Adıgözəlov, Xəyyam Mirzəzadə, Andrey Babayev və digərləri şairin yaradıcılığına sıx-sıx müraciət etmiş, ölməz sənət əsərləri yaratmışlar.

Zeynal Cabbarzadənin zəngin ədəbi irsi Azərbaycanın əsrarəngiz təbiətini, qədim memarlıq abidələrini, mədəni və mənəvi qüdrətini tərənnüm edən, azadlıq və vətənpərvərlik məfkurəsindən bəhrələnən, barınan milli sərvətimizdir. Onun adı və poeziyası, çoxsaylı mahnı mətnləri xalqımızın yaddaşında əbədi yaşayacaqdır.

[1] Tofiq Quliyev. Şeirləri ilə nəğmələşən şair Zeynal Cabbarzadə. – Bakı: F.Köçərli adına Respublika Uşaq Kitabxanası, 2020, s.15

QASIM QASIMZADƏ
(1923-1993)

XX yüzilliyin qırxıncı illərindən Azərbaycan ədəbi-mədəni mühitində görünən gənc istedadlardan Qasım Qasımzadə fərdi poetik üslubu ilə seçilmiş və həm də ədəbi tənqidin fəal nümayəndələrindən biri kimi nüfuz qazanmışdır. Yarım əsrə yaxın yaradıcılıq həyatında o həm doğma yurdun tarixi taleyi və müasir həyatı, əsrarəngiz təbiəti və yüksək mənəviyyatlı insanların ilhamlı tərənnümçüsü kimi, həm də ədəbi prosesin aktual məsələlərinə dair məqalələri, ədəbiyyatda millilik və beynəlmiləllik problemi ilə əlaqədar sanballı elmi-tədqiqatları ilə xalqın humanitar düşüncə tarixində iz qoymuşdur.

Həyatı. Qasım Xansuvar oğlu Qasımzadə 1923-cü il iyunun 23-də Qubadlı rayonunun Xocamsaxlı kəndində dünyaya göz açmışdır. İlk təhsilini orada almış, sonra Şəki Pedaqoji texnikumunu bitirmişdir. Kəlbəcər rayonunun Çaykənd orta məktəbində riyaziyyat, dil-ədəbiyyat müəllimi kimi fəaliyyətə başlamış, az sonra Sınıqkilsə orta məktəbinin direktoru təyin edilmişdir. Kəlbəcər XMŞ-də metodist, 1943-cü ildən isə Malbinəsi kənd orta məktəbində dərs hissə müdiri işləmişdir. Təhsilini davam etdirmək arzusunu 1944-cü ildə Azərbaycan Dövlət Universitetinin Şərqşünaslıq fakültəsinə daxil olmaqla reallaşdırmış, üçüncü kursdan Filologiya fakültəsinə keçmiş, oranı 1950-ci ildə fərqlənmə diplomu ilə bitirmişdir. Həmin ildə Nizami adına Ədəbiyyat İnstitutunun aspiranturasına qəbul olunmuşdur. Hələ tələbə ikən səmimi lirik şeirləri və ədəbi-tənqidi məqalələri ilə ictimai mühitdə rəğbət qazandığı üçün 1947-1949-cu illərdə "Azərbaycan gəncləri" qəzetində ədəbiyyat və incəsənət şöbəsinin müdiri vəzifəsinə təyin edilmişdir. Gənc istedad 1950-ci ildə Azərbaycan Yazıçılar İttifaqının üzvlüyünə qəbul olunmuş, 1955-ci ildən "Ədəbiyyat və incəsənət" qəzetində tənqid şöbəsinin müdiri, 1957-ci ildən 1963-cü ilədək qəzetin baş redaktoru vəzifəsində fəaliyyət göstərmişdir. Bu məsul vəzifədə 34 yaşlı Q.Qasımzadə cəsarətli yeniliklər həyata keçirmişdir. Zamanın ictimai-siyasi durumunda şəxsiyyətə pərəstişin tənqidi şəraitində mətbuata senzor nəzarətinin səngiməsindən istifadə edərək qəzetin səhifələrində əvvəllər rəsmi dairələrdə çapına icazə verilməyən Rəsul Rzanın "Qızıl gül olmayaydı", M.Şəhriyarın "Heydər-babaya salam" poemalarını, Xəlil Rzanın "Afrikanın səsi" şeirini, ilk dəfə xalqın müqəddəs milli ənənəsinə dair "Novruz bayramı" adlı məqaləni və s. dərc etdirmişdir. Bu səbəbdən ona dəfələrlə edilən xəbərdarlıqlara əhəmiyyət vermədiyi üçün 1963-cü ildə baş redaktor vəzifəsindən kənarlaşdırılmışdır.

Q.Qasımzadə aspiranturanı bitirəndən sonra 1953-1959-cu illərdə elmi işçi kimi çalışdığı Nizami adına Ədəbiyyat İnstitutuna qayıdıb, ömrünün sonunadək burada baş elmi işçi, şöbə müdiri vəzifəsində işləmişdir. O,

həmçinin institutun elmi-təşkilatı işlərində də məsuliyyətlə çalışmış, Azərbaycan EA-da elmi-tədqiqat problemləri üzrə Elmi Şuranın üzvü, Nizami adına Ədəbiyyat İnstitutu və Türkmənistan EA Məhtimqulu adına Ədəbiyyat və Dil İnstitutunun ixtisaslaşdırılmış müdafiə Şuralarının üzvü olmuşdur.

Tənqid və ədəbiyyatşünaslıq sahəsindəki fəaliyyəti ilə yanaşı, Q.Qasımzadə ömrü boyu bədii yaradıcılıqla məşğul olmuş, müxtəlif məqamlarda publisistik yazılar çap etdirmişdir. Hər yeni şeir kitabında doğma Vətənə, insanlara, təbiətə səmimi münasibətin, lirik duyumun bənzərsiz bədii mənalandırılması diqqəti cəlb etmiş, ədəbi mühitdə əks-sədasını tapmış, haqqında mətbuatda məqalələr dərc olunmuşdur.[1] Onun "Bizim kənd" (1951), "Bizim şəhər" (1953), "Bizim dağlar" (1956) kimi ilk şeir kitabları, "Azərbaycan ədəbiyyatında xalqlar dostluğu" (1956) monoqrafiyası ilə başa çatmış; "Ürək döyüntüləri" (1959), "Son görüş" (1960), "Nəğməli ürəklər" (1963), "Bənövşə yarpağı" (1964), "İsmət" (1966) kimi könül tərənələri "Aşıq gördüyünü çağırar" (1969) məqalələr məcmuəsi, "Getdim, gördüm, düşündüm" (1971) adlı mənalı yol xatirələri ilə tamamlanmış, "İnsan min il yaşardı" (1973), "Keçmə namərd körpüsündən" (1975), "Dağlar buraxmır məni" (1979), "Daşdan keçən söz" şeir topluları "Ədəbiyyatda millilik və beynəlmiləllik" (1982) adlı sanballı monoqrafiyası və "Ədəbiyyatımız, mənəviyyatımız" (1988) adlı ciddi elmi-fəlsəfi kitabı ilə yekunlaşmışdır.

Bütün varlığı ilə Azərbaycanın milli müstəqillik ideallarına bağlı olan vətənpərvər bir şəxsiyyət olduğu üçün Q.Qasımzadə ölkədə 1988-ci ildən başlayan milli demokratik hərəkatın öncülləri sırasında mübarizəyə qoşulmuşdur. O, kütləvi informasiya vasitələrində, müxtəlif yığıncaqlarda milli-azadlıq ideallarının həyata keçməsi yolunda cürətli cıxışlar etmiş, hamını bu yolda qətiyyətli, mübariz olmağa ruhlandırmışdır. Ziyalıların milli-demokratik hərəkatda təşkilatlanması sahəsində vətəndaş şair, alim var qüvvəsi ilə çalışmış, 1991-ci ildə yaradılan Azərbaycan Demokratik Qüvvələr Birliyinin həmsədrlərindən biri seçilmişdir.

Erməni qəsbkarlarının Qarabağla bağlı mərkəzi mətbuatda fitnəkar təbliğatçılıq çıxışlarını Q.Qasımzadə dərhal həm Azərbaycan, həm də rus dillərində kəskin qəzəblə cavablandırmışdır. Məhz bu illərdə Q.Qasımzadə daha çox publisist yaradıcılıqla məşğul olmuş, dövri mətbuatda 70-ə yaxın məqalə dərc etdirmişdir.

[1] Məsud Vəliyev. "Bizim dağlar". "Ədəbiyyat və incəsənət", 14 sentyabr 1956; Qulu Xəlilov. Təmiz hisslərin tərənnümü. "Bakı", 15 aprel 1965; Əkbər Ağayev. İncə və həssas. "Ədəbiyyat və incəsənət", 24 iyun 1983; Yaşar Qarayev. Poeziyanın və ömrün yaşı / Qasım Qasımzadə. Səndən ayrılalı. Ön söz. – Bakı, 1988

Q.Qasımzadə ədəbiyyatşünaslıq elminin inkişafı və təbliği sahəsində xidmətlərinə görə dəfələrlə Azərbaycan EA-nın Fəxri fərmanı və medalla təltif edilmişdir. O, "Ədəbiyyatda millilik və beynəlmiləllik" tədqiqat işinə görə filologiya elmləri doktoru elmi dərəcəsi, Azərbaycan Dövlət mükafatına və professor elmi adına layiq görülmüşdür.

Qasım Qasımzadə 1992-ci ildən ağır xəstəliyə tutulmuş, müalicə olunmaq üçün dövlət tərəfindən əvvəl İstanbula, sonra Almaniyaya göndərilsə də, xəstəlikdən xilas ola bilməmiş, 70 yaşında – 1993-cü il iyulun 28-də dünyasını dəyişmişdir. Vətənpərvər şair, alim ikinci Fəxri xiyabanda dəfn olunmuşdur.

Yaradıcılığı. Q.Qasımzadə 1944-cü il 21 oktyabr tarixində "Kommunist" qəzetində dərc etdirdiyi "Vəfasız olmaz" adlı ilk şeiri ilə ədəbiyyata qədəm qoymuşdur. Kənd mühitində, başı qarlı, "vüqarlı dağlar", "buz bulaqlar", "zümrüd meşələr" qoynunda boya-başa çatan gənc şair döyüşən əsgərin həyatını deyil, öz könül aləmi ilə həmahəng səslənən duyğularını dilə gətirmiş və bununla da canlı, səmimi lirik hisslərini ifadə etmişdir. Şəxsi arxivindəki əlyazmalarında ümumilikdə yüzədək şeir və iki poema olmasına baxmayaraq şair ilk "Bizim kənd", "Bizim şəhər", "Bizim dağlar" kitablarına bunlardan yalnız ictimai-sosial mövzuda olan onadək şeir daxil edə bilmişdir. Cəmiyyətdə şəxsiyyətə pərəstiş dövrünün tənqidindən sonra "Qlavlit" nəzarətinin zəifləməsindən istifadə edən şair 1959-cu ildə nəşr olunan "Ürək döyüntüləri" kitabında, nəhayət, təbiət və məhəbbət mövzulu əlyazma şeirlərinin çapına nail olmuşdur. Bunlardan "Dəlidağdan İstisuya" silsiləsi, "Neyin əfsanəsi", "Qonşular" (deyişmə), "Olmaz-olmaz", "Yuxu", "Sevgilim" və s. kimi şeirlər və "Solmaz çiçəklər" poeması yüksək ideya-bədii keyfiyyəti ilə dövrün ədəbi tənqid yönündən yüksək dəyərləndirilmişdir.[1]

Yaradıcılığının ilk mərhələsindən Q.Qasımzadənin lirik düşüncə məkanını asan müəyyənləşdirmək olurdu: füsunkar Azərbaycan təbiəti və vətənpərvərlik motivləri, açıqqəlbli, xeyirxah əməlli doğma insanlar, məhəbbət dünyası və real həyatdan qaynaqlanan lirik süjetlər.

Milli poeziyamızda təbiət mövzusu hələ orta əsrlərdən müəyyən dərəcədə işıqlandırılsa da, ilk dəfə XX yüzillikdə Abbas Səhhətin yaradıcılığında rövnəqlənib, milli duyğularla süslənib, realist bədii lövhələrdə poetik təcəssümünü tapmışdır. 1920-30-cu illərdə H.K.Sanılı, S.Vurğun, M.Müşfiq, O.Sarıvəlli və b. ara-sıra təbiət gözəlliklərini qələmə alsalar da, təbiət şeirlərinin poeziyanın xüsusi bir qolunu təşkil etməsi 1950-1960-cı illərdə H.Arif, N.Xəzri, Q.Qasımzadə, M.Arazın və b. lirik nümunələri sayəsində gur bir axına çevriləndə baş verdi.

[1] Qulu Xəlilov. Təmiz hisslərin tərənnümü. "Azərbaycan gəncləri", 24 sentyabr 1961; Təhsin Mütəllimov. Səmimiyyət poeziyası. "Bakı", 27 oktyabr 1975

Q.Qasımzadənin "Təbiətin qız vaxtıdır", "Baharlı, vüqarlı diyarım", "Göygöl", "Laçın qayası", "Gəlmişəm", "Ballı qaya", "Zümrüd tac" və s. şeirlərində bilavasitə təbiət təsvirləri ilə yanaşı, təbiətlə insan ünsiyyətinin də bənzərsiz lövhələri yüksək sənətkarlıqla qələmə alınmışdır. Xüsusilə "Bələdikmi özümüzə" şeirində şair Vətəni sevmək üçün onu yaxşı tanımağın önəmliyini vurğulayır və heç olmasa, şeirinin misralarında oxucuya bu duyğunu aşılamağa səy edir. O, İstisu, Göygöl, Batabat, Bərdə, Astara, Zəngilan, Masallı, Gəncə, Lənkəran, Şirvan, Qarayazı, Pənahabad, Şəki, Şahdağ, Murovdağ, Qobustan gözəlliklərinin xarakter lövhələrini cızır, bu torpaqlarda izi qalan igid babaları xatırladırdı. Tövsiyə edirdi ki, "qoy hər kəsi düşündürsün":

Çıxmışammı Şahdağına, Murova mən,
Baxmışammı Vətənimə zirvələrdən?
Üryan qılınc parçalayıb iki yana,
Nə etmişəm qoymaq üçün onu qına?
Bir söz ilə, necə sevib öz ölkəmi
Tanıyıram mən ovcumun içi kimi?![1]

Q.Qasımzadə doğma təbiətin şair övladı idi. "İki lövhə", "Elqovan", "Qərib bahar", "Baharın məktubu", "Bakıda qış" və s. şeirlərdə fəsillərin təkrarsız gözəllikləri bənzərsiz bədii ifadələrlə təcəssüm olunur, baharın sellərlə çağlayan gəlişi onun təbiətdən insanlara yazdığı ilk məktubuna təşbeh edilirdi.

Şairin təbiətlə ünsiyyətinin ən bariz ideya-bədii, hissi-duyğusal təcəssümü "Gəlmişəm", "Dağlar buraxmır məni", "Sinəsi dağlı dağ" şeirlərində inikasını tapmışdır. Azərbaycan poeziyasında "dağlar" mövzusunda çox şeirlər yazılmışdır. Q.Qasımzadənin bu şeirləri onunla fərqlənir ki, burada təbiət lirik təcəssümlə insaniləşib tamamilə yeni bir poetik keyfiyyət kəsb etmişdir. Bunlar təbiətlə insan münasibətlərini, təbiət predmetlərinin şəxsləndirilməsini orijinal səpgidə bədiiləşdirən kamil örnəklərdir.

Q.Qasımzadənin bir çox şeirlərində təbiət Vətənin lirik obrazının ayrılmaz komponenti kimi təcəssüm olunur və onun bu rakursdan vəsf olunması ilə səciyyələnir. Şairin Vətən sevgisinin, vətənpərvərlik duyğularının çeşmə gözünün təbiətin əsrarəngiz gözəlliklərindən qaynaqlanması şeirlərində dəfələrlə təsdiqini tapır. "Azərbaycan" şeirinin poetik bənzərsizliyi məhz şeirdə vətən, təbiət, insan kimi ali varlıqların bir araya gətirilməsidir. Poeziyamızda "Azərbaycan" adlı çoxlu lirik nümunələr içərisində Q.Qasımzadənin şeiri məhz onunla fərqlənir ki, "ana deyə" oxşadığımız doğma Vətən ilk dəfə canlı bir insan timsalında vəsf olunur:

[1] Qasım Qasımzadə. "Bələdikmi özümüzə". Seçilmiş əsərləri. – Bakı: Azərnəşr, 1988, s.23

qədim "Şirvan yolu – alnındakı qırışları", "Mingəçevir – sevinc ilə yanan gözləri", "Şahdağın silsiləsi – sıx qara qaşlar"ı, "Zümzüməli Kür – şirin sözlər"i, "Abşeron – odlu, isti ürəyi", "Bakı küləyi – qəzəbi, nifrəti"dir və s. Dolğun məzmunlu obrazlı ifadələrlə Azərbaycanın maddi-mənəvi zənginlikləri, əzmi, qüdrəti ("Düşməninə yumruğudur Laçın, Qubadlı") və s. özəlliklər dərin iftixar oyadır, Vətənə doğmalıq, məhəbbət hissləri aşılayır. Şair Vətənə bağlılıq, vətənpərvərlik kimi müqəddəs duyğunun məhz ana təbiətin qoynunda qüvvətləndiyini dönə-dönə təlqin edir. Vətəni hər yöndən tanımağa, duymağa, sevməyə şövqləndirirdi.

Q.Qasımzadənin yaradıcılığında vətənin qəhrəman oğullarına, geniş qəlbli zəhmətkeş insanlarına həsr olunmuş şeirlər də mənalı-məzmunlu lirik nümunələrdir. Belə ki, şair sadə insanların əmək uğurlarını təsvir etməklə kifayətlənmir, həm də onların nəcib insani keyfiyyətlərini nəzərə çarpdırırdı. "Hamı bu yolla getsə, "Qoruqçu," "Muğan qızları", "Zəhmətin ətri", "Qara qız" "Dağlar oğlu" və s. seirlərdə şair obyekt aldığı əməkçi insanların təkcə xeyirxah əməllərindən deyil, həm də yüksək mənəvi-əxlaqi keyfiyyətlərindən riqqətlə söhbət açırdı. Bu şeirlərdə lirik məzmun hər dəfə maraqlı bir əhvalat əsasında cəlbedici süjet xətti ilə təqdim edilir, oxucunu nəcibliyə, həssaslığa yönəldirdi. İnsan talelərinə duyğusal yanaşan şair "Sevil" şeirində iş başında ikən faciəli həlak olmuş gənc əmək qəhrəmanının mənəvi keyfiyyətləri ilə onu daha yaddaqalan etmişdir.

Bir mehriban yoldaş idin – xoş niyyətli, qəlbi təmiz,
Fikri açıq, doğru sözlü, el yanında xətri əziz.
Ləyaqətli bir insandın söhbətində, rəftarında,
Həcərlərin hüsnü vardı ismətində, vüqarında.[1]

Şairin lirik "mən"inin yüksək əxlaqlı humanist təbiəti "Həkim xəstələndi", "Xeyirxahın intiqamı", "Yaxşı adam", "Nəsillərə sovqat", "İnsan min il yaşardı" və s. şeirlərinin ideya-bədii toxumasını müəyyənləşdirmişdir. Son şeirdə o, insanın mənəvi dünyası, insan ömrü barədə düşüncələrini, qənaətlərini ümumiləşdirmişdir. İnsanın yaşadığı mühitdə, cəmiyyətdə məruz qaldığı ziddiyyətlərdən, sıxıntılı məqamlardan, demək olar ki, bütün şairlər bəhs açıblar. Q.Qasımzadə səksəninci illərin ikinci yarısında cəmiyyətdə milli şüurun gücləndiyi və etiraz dalğalarının yenicə baş qaldırdığı bir zamanda varlığına hakim kəsilən iztirabları cəsarətlə dilə gətirib yazırdı:

Yad kimsələr yurdunu
Tapdayanda, əzəndə,
"Yersiz gəldi, yerli qaç"

[1] Qasım Qasımzadə. "Sevil". Seçilmiş əsərləri. – Bakı: Azərnəşr, 1988, s.102

Ədasıyla gəzəndə,
Şan-şovkətli xalqını
Tənə ilə süzəndə...[1]

Sovet hökumətinin mövcudluğu şəraitində belə sərt, kəskin milli ruhda şeirlər yazıb çap etdirmək xeyli təhlükəli olsa da, şair açıq-aydın Vətən, millət taleyi sarıdan ağrı-acılarının əhatəsini daha da genişləndirir, hər azərbaycanlının illərdən bəri ürəyində qövr elədiyi yaralardan da söz açırdı:

Üz verəndə ayrılıq millətə,
Daş-torpaq da düşəndə qürbətə...
Qardaş həsrət qalanda qardaşa...
Can üzülür cəngində kədərin...[2]

Şairin mənəvi simasını, iç dünyasını cizgiləndirdiyi bu vətənpərvər insan belə "ağrılar" müqabilində "min il yaşamaq" səadətindən məhrumdur. Əks halda "min il yaşamaq" üçün gərək "darda qalan kəslərin" dadına yetməsin, xeyirxahlığın zövqündən bixəbər olsun, "bədxahlığa köksünü" sipər etməsin. Şair nəhayət çiynindən ağır yük götürülmüş kimi gümrah bir intonasiya ilə hökmünü verir:

Nə yaxşı ki, ömrümüz
Yetişməyir min ilə –
Yaşamırıq bir belə.[3]

"İnsan min il yaşardı" şeirindəki İnsan sadəcə bəşər övladı deyil, həm də öz görümü-duyumu, düşüncə və dəruni yaşantıları ilə torpağına, soyuna-kökünə bağlı azərbaycanlı vətəndaşdır. Milli keyfiyyətlər ümumiyyətlə Q.Qasımzadənin çox şeirlərinə koloritverici bir mənalılıq gətirmişdir. Xüsusən şairin məhəbbət lirikasındakı hər iki qəhrəmanın: aşiq və məşuqənin xarakterlərində milli cizgilər nəzərəçarpacaq dərəcədə cəlbedici və təravətlidir.

Məhəbbət mövzusuna şairin yaradıcılığının erkən çağlarından müraciət etməsi arxivindəki əlyazmalardan aydın görünür. Təbiətin qoynunda – ucqar dağ kəndində Qlavlit təhdidindən xəbərsiz gəncin ilk sevgi şeirlərində dərin səmimiyyət, azadəlik ruhu hakimdir. Ancaq Bakıda həmin şeirləri ilk kitablarına saldıra bilməmişdi. "Olmaz-olmaz" şeiri rayon qəzeti variantında geniş yayılıb, başqa bir rayonda yaşayan Zöhrab Abdullayev adlı həvəskar bəstəkar tərəfindən musiqiyə alınmış, tezliklə xalq mahnısı kimi məşhurlaşmışdı. İki kolxozçu gəncin saf duyğularını təcəssüm edən "Qonşu olmaq

[1] Qasım Qasımzadə. Seçilmiş əsərləri. – Bakı: Azərnəşr, 1988, s.159
[2] Qasım Qasımzadə. "İnsan min il yaşardı". Seçilmiş əsərləri. – Bakı: Azərnəşr, 1988, s.160
[3] Yenə orada, s.160

istəmirəm" şeiri də bəstəkar Hacıbaba Həsənovun bəstəsində xalq arasında çox sevilən mahnıya çevrilmişdir.

Q.Qasımzadənin sevgi şeirlərindəki bəşəri hissdən sadə, səmimi, təmtəraqsız, pafossuz bir tərzdə "pıçıltılı" həsbhalların əksəriyyəti yadda-qalan, təsirli süjetlər əsasında formalaşırdı. "Cavabından qorxuram", "Görən nə deyər", "Bu gün səni gördüm", "Görüş yeri", "İnilti və gülüş", "Eşqimin növrağı" və s. şeirlərdə lirik motiv gerçək əhvalatlardan qaynaqlanıb həzin bir könül nəşidəsi kimi bədiiləşmişdir. Onun lirik "mən"i öz sədaqəti, etibarlığı ilə rəğbət oyadan bir aşiqdir, sevgili isə saf qəlbli, vəfalı, ismətli, ancaq "ovçusundan qaçan ceyran"a bənzər bir gözəldir. Hər iki aşiqdə milli cizgilər qabarıqdır və Q.Qasımzadə poeziyasında onlar şeirbəşeir yeniyetmə gənclikdən ahıllaşanadək bütöv bir ömür yaşayırlar. "Olmaz-olmaz"dan başlayan bu sevdalı həyat lövhələri "Köç bizə gəl, quraq təzə ailə", "O, körpəmin anasıdır, vurulmuşam bu çağına", "Onunla ömr edən dözümlü fildir, Onsuz yaşamaqsa... mümkün deyildir", "Heç nə istəmirəm qayıtsın geri, Sənlə möhnətli çağlarım mənim" kimi unudulmaz məqamları həkk etməklə yanaşı, "Xatirəmin aynasında bir qız ağlayır, Mən ağlayıram", "Bir şəhərin suyundan mən də, sən də içirik, Küçəsindən, bağından sən də, mən də keçirik" kimi ümidsiz təsəllilər və nəhayət, süjetli lirik şeirin yüksək sənətkarlıq nümunəsi olan "Köçəri quş"dakı qarı nənə və qoca baba surətləri. Son lirik mənzumədə şəhərin boğucu istisindən öz gənc nəvəsi ilə yaşıl meşəli, axar çaylı dağ kəndinə təşrif gətirən babanın xeyli əvvəl qayıdacağına ümid verdiyi "çalıquşu"ya bənzər qız - indi isə qarı və eynilə ona oxşar nəvəsi ilə qarşılaşması lövhəsi canlandırılıb. Cəmi 20 beytlik bir şeirdə 4 nəfərin obrazı elə səciyyəvi cizgilərlə verilmişdir ki, surətlərin həm zahiri, həm də daxili xüsusiyyətlərini təsəvvür etmək olur. Süjetin finalında qarının dili ilə deyilən "Köçəri quşdular, bənd olma, quzum" və lirik "mən"in: "Qarı tanıyıbmış məni, sən demə" – etirafı bu 4 obrazın 40 il əvvəl və konkret məqamdakı münasibətlərini çevrələyən hədsiz məna tutumu ilə heyrətə gətirən çox uğurlu ifadələrdir.

"Köçəri quş", eləcə də bir sıra süjetli şeirlərdəki sadə, aydın, ancaq son dərəcə lakonik, ideya-məzmuna uyarlı, semantik məna yüklü bədii ifadələri Q.Qasımzadə fitri istedadı ilə bahəm xalqın həyatı, mədəniyyəti ilə yaxınlığı, milli kökə bağlılığı və dərin poeziya biliyi sayəsində dürüst yerində işlədə bilir, yüksək poetik sənətkarlığa nail olurdu.

Əllinci illərin sonu, altmışıncı illərin əvvəlində Q.Qasımzadə bir qrup ziyalı həmvətənliləri ilə birlikdə bir neçə xarici ölkəyə getdikdən sonra silsilə şeirlərini "Uzaqların yaxın dərdi" kimi mənalı bir ad ilə təqdim etmişdi. Çünki o dövrdə xarici işğalçıların zülmü altında olan ərəblərlə, türklərlə 1920-ci ildən formal azadlıq verilən, əslində isə Rusiya imperialist hökmranlığının bir başqa şəkli olan sovet dövlətinin siyasəti sayəsində hər

cür maddi-mənəvi-mədəni varidatına veto qoyulmuş azərbaycanlıların ortaq dərdləri az deyildi. "Ehramlara baxanda", "Ləkələr", "Yaralı heykəl", "Ərəbin qızğın qanı" və s. şeirlərdə şairin yüz əlli ildən bəri Rusiya və İran dövlətləri tərəfindən işğal edilib iki parçaya bölünmüş vətənin iztirabları ilə dolu ürəyindən qopan misralar da yer alırdı. "Yaralı heykəl" şeirində yazırdı:

Budur ağaların mədəniyyəti,
Girər özgə evə oğrular sayaq.
Talamış varını, sənətini də,
Hesaba vurduqca çıxmış özünə
Ulu babasının zəhmətini də.[1]

Şair qəlb ağrısı ilə qədim Şərq mədəniyyətinin nadir incilərinin Avropaya daşınmasından nümunələr gətirir, hətta bəzi abidələrin hissələrə bölünüb, parçalarının ayrı-ayrı ölkələrə daşınmasını da nəzərə çatdırırdı. Qardaş Türkiyəyə səfərindən onun "Kiçik Asiyada böyük insan", "Uludağ", "Ağlayan qız", "Türk gözəli" və s. kimi şeirləri də dərin məzmuna malikdir. Böyük türk şairi Tovfiq Fikrətin ecazkar "Aşiyan"ını tərənnüm etməklə yanaşı, həm də onun qürurlu, məğrur simasını xatirdə canlandırır, poeziyasının ideya-bədii bütövlüyünə heyranlığını bildirirdi.

Q.Qasımzadə "Uludağ" şeirində seyrinə daldığı bir təbiət güşəsi ilə bağlı maraqlı tarixi məlumatları qələmə alırdısa, "İki bayraq" şeirində ölkənin hazırkı siyasi-iqtisadi vəziyyəti, milli istiqlaliyyəti sarıdan həyəcanlarını, narahatlığını dilə gətirirdi. Obyekt aldığı biri tək ulduzlu, digəri isə çox ulduzlu olan iki bayraqdan bədii vasitə kimi istifadə edərək ürəyiyananlıqla xəbərdarlıq edirdi:

Türk övladı, tədbirini,
Əncamını indidən çək.
Çox yubansan, o çox ulduz
Tək ulduzu söndürəcək.[2]

Xarici ölkələrə səfərlərin təəssüratı ilə yazılan bir qism şeirlərdə dövrün, ictimai-siyasi mühitin tendensiyalı mövqeyi də nəzərə çarpırdı. Bu da təbii idi, çünki müstəmləkə zülmündə olan ölkələrə azadlıq, dünya xalqlarına sülh, insanların "bərabərhüquqluğunu" təbliğ edən sovet xarici siyasəti onun da qəlbinə, şüuruna doğma idi. "Kommunistin son sözü", "Doğma səslər, yad səslər", "Akropol qartalı", "Baxışların hücumu", "Parisdə bir sərdabə var" və s. şeirlərdə əksər halda sovet şairinin səsi eşidilməkdə idi. Ancaq Q.Qasımzadənin həyat materialına özünəxas münasibəti, humanist

[1] Qasım Qasımzadə. "Yaralı heykəl". Seçilmiş əsərləri. – Bakı: Azərnəşr, 1988, s.210
[2] Qasım Qasımzadə. Seçilmiş əsərləri. – Bakı: Azərnəşr, 1988, s.231

duyğularla bədii mənalandırması və xüsusilə ideya-məzmunu ehtiva edən uğurlu süjet xətti bu şeirləri də yaddaqalan etmişdir.

Ümumiyyətlə, XX əsr Azərbaycan poeziyasında Qasım Qasımzadə lirik "mən"inin tipik milli xarakteri, bədii üslubunun yüksək ideya-estetik tutumu və poetik mükəmməlliyinə görə şeir tariximizdə öz bənzərsiz səhifəsini yaratmış lirik şairdir.

***

Q.Qasımzadənin poema janrında ilk iki əsəri sağlığında çap olunmamış, arxivində əlyazma şəklində saxlanmışdır.* Şairin oğlu şərqşünas alim Nəriman Qasımoğlunun araşdırmasına görə "Sular pərisi" və "İstiqbala səyahət" adlanan bu əsərlərin dövlətin sənəti, bədii yaradıcılığı ideoloji idarəetmə mexanizmindən keçməyəcəyini bildiyi üçündür ki, şair onların çapına qərar verməmişdir. Onun Kulis.az-da verdiyi məlumata görə Q.Qasımzadə "Sular pərisi" poemasını 1945-ci il martın 3-də tamamlamışdır. "Müharibə onun müharibəsi deyildi" adlı bu yazıda əsərin ideya-məzmunu barədə müfəssəl məlumat verən müəllif fikrini ümumiləşdirərək yazır: "...çap edilməmiş qalan "Sular pərisi" poeması müharibə mövzulu ədəbiyyatımızın kontekstində süjet və məzmun baxımından...sovet ideoloji sisteminin müəyyənləşdirdiyi meyarlara zidd məzmundadır".[1]

"İstiqbala səyahət" poeması haqqında da N.Qasımoğlu geniş araşdırma aparmış, onun elmi-fantastika janrında yazılması qənaətinə gəlmişdir. O həmin janrın ədəbi-nəzəri spesifikasından çıxış edərək dünya poeziyasında bu növdə olan poemaların yaranma tarixlərini dəqiqləşdirmiş və belə nəticə çıxarmışdır ki, 1950-ci ildən əvvəl bu janrın tələbləri çərçivəsində Q.Qasımzadənin "İstiqbala səyahət" poeması ilk nümunədir. Mətbuatda dərc etdirdiyi "Dünya elmi bədiyyat poeziyasında ilk imza... Qasım Qasımzadə" sərlövhəli məqaləsində N.Qasımoğlu əsərin ideya-bədii təhlilinə geniş yer vermiş, şairin sağlığında onun çap olunmamasını "...əsərin siyasiləşməyə məruz qalmamış düşüncə tərzinin məhsulu olması" ilə izah etmişdir.[2]

Q.Qasımzadə poema janrına əsasən yaradıcılığının birinci mərhələsində – 1945-1963-cü illərdə müraciət etmişdir. Əsərlərdə Azərbaycanın füsunkar təbiət gözəllikləri fonunda müxtəlif kənd əhvalatları təsvir olunmuşdur. Şairin süjetli lirikası üçün səciyyəvi olan bədii üslubu poemaların ifadə tərzi, lirik ricətləri və məcazları, poetik intonasiyasına şeiriyyətli bir ahəng gətirmişdir. "El köçü", "Alma almaya bənzər", "Meşə

* Hər iki poema Qasım Qasımzadənin 2024-cü ildə nəşr olunmuş "Zamansızlığa" kitabına (Bakı: Elm və təhsil) daxil edilmişdir.

[1] Qasım Qasımzadə. "Zamansızlığa" kitabı. – Bakı: Elm və təhsil, 2024, s.423

[2] Yenə orada, s.464

nəfəs alırdı", "Damcılar", "Günəş gec batacaq", "Dağ çiçəkləri" poemalarında, adlardan da göründüyü kimi, kənd həyatı ilə bağlı sadə, yığcam süjetlər sərgilənir.

"El yolu" poemasının məzmunu yay aylarında aran camaatının yaylağa köç etməsi (köç hazırlıqlarından başlamış ta payız ağzı yenidən kəndə qayıdınadək) əhvalatlarından alınmışdır. Şəhərli dostunun təkidli xahişi ilə gənc şair Kürdüstan dağlarından, təbiətin əsrarəngiz mənzərələrindən, gözlənilməz "şıltaq oyunları"ndan, saf qəlbli insanlarından, çoban həyatından nağılvari söhbətə başlayır. İşgüzar dağ camaatının əməyi, güzəranı poemanın süjet xəttinin əsasında dayanan igid çoban Valeh və sağıcı qız Mina ilə sevgi xəttinin epizodları ilə pərdə-pərdə təsvir edilir. Poemada maldarlıqla məşğul olan kənd əhalisinin yaşayışından verilən canlı təsvirlər, onların rəftarındakı saflıq, qayğıkeşlik, xeyirxahlıq kimi keyfiyyətlər rəğbətlə qələmə alınmışdır.

"Günəş gec batacaq" mini-poemada əsas ideya dünyada sülhün bərqərar olması, insan zəkasının gəlib çatdığı atom siqlətli texniki tərəqqini dinc quruculuq işlərinin inkişafına yönəltmək kimi aktual mövzu olsa da, "Zirvəsi buludda bir dağ dayanmış, Köksündə gizlətmiş sonsuz xəzinə" misralı proloqdan başlayaraq süjetin sonunadək bütün pillələrində təbiət canlı bir obraz kimi mövcuddur. Ancaq bir zamanlar "qartal yuvasıtək kaha"larda məskən salmış "Qaçaq Nəbi dövranı" dəyişilmişdir:

İndisə başqadır qəhrəman sözü,
Dağlara sığınmaq ar gəlir ona...
Köhnədir paltarı təbiətin də
Ona təzə libas biçilsin gərək...[1]

Əsərin qəhrəmanı Muxtar mühəndislik təhsilini bitirəndən sonra doğma kəndə qayıtmış, "başının ağ tacı heç vaxt düşməyən" dağların qoynunda "kiçik bir şəhər salmaq", onun "sirli xəzinəsinə" yol açıb, sərvətini Vətənin qüdrətlənməsi naminə xalqın istifadəsinə vermək arzusundadır. Ancaq dağın qranit əzəməti qarşısında "bir parça xırda daşa" bənzədiyini dərk edən gənc mühəndis ümidsiz deyil, insan zəkasına qürrəlidir: düşünüb-daşınıb yollar axtarır. Konflikt təbiətin əzmi, qüdrəti ilə insan zəkasının yenilməzliyinə inam arasında meydana çıxır. Muxtar qət edir ki, bəşəri məhv etmək üçün qorxunc təhlükəli silah olan atomdan "ellərin, dincliyin yolunu nurlandırmaq"dan ötrü faydalanmaq ən düzgün yoldur:

Deyir: Gün gələcək, o dağa doğru
Atom qüdrətilə dönəcəyik biz.[2]

[1] Qasım Qasımzadə. "Günəş gec batacaq". Seçilmiş əsərləri. – Bakı: Azərnəşr, 1988, s.293
[2] Yenə orada, s.297

Doğma təbiətə vurğunluq, onu sevə-sevə tərənnüm etmək motivi ilə müvazi Q.Qasımzadənin əsərlərində həm də onun təəssübünü çəkmək, qayğısına qalmaq, onu qorumaq amalı qabarıqdır. "Meşə nəfəs alırdı" (1963) poemasında ideya-məzmunun özəyini məhz təbiətin ən qiymətli bir sərvət kimi qorunub, daha da zənginləşdirilməsi təşkil edir. Əsərin fabulası çox sadədir: rəisin zəif xarakterindən istifadə edən meşəbəyinin ona həvalə olunan xalq malına qəsd etməsi. Əsərdə iştirakçı insan obrazları da cəmi iki nəfərdir: meşəbəyi və təzə rəis. Xalq malına xəyanət və oğurluq kimi mənfi təzahürlərin ifşası məqsədinə yönəlmiş konflikt zahirən aktual olub, bədii həlli də sadədir. Buna baxmayaraq, şairin poemada poetik fon kimi süjet boyu canlandırdığı meşənin həyatı, sakinləri, insanla əlaqəli problemləri əsəri xeyli mənalandırmış, bədii siqlətini artırmışdır.

Q.Qasımzadənin yaradıcılığında uşaqlar üçün yazılmış şeir və poemalar da az deyil. Uşaq şeirlərində əsasən səması günəşli, təranəsi quşların cəh-cəhi olan al-əlvan bəzəkli bahar-yay harmoniyasına bənzər həyat lövhələri təcəssüm edilir. Bunlarda əsasən uşaqların ətraf mühitlə ünsiyyətini doğmalaşdıran təbiətdəki əlvanlıqlardan bəhs olunur, azyaşlıların mənəvi-estetik şüurunun inkişafına kömək edəcək mövzulara diqqət yetirilirdi. Belə ki, "Məlahət" poemasında xəstələnmiş nənə öz nəvəsindən onun üçün dağ döşündən-çəməndən dərman bitkiləri toplamağı xahiş edir və hər otun-çiçəyin faydalarından bəhs edir. Məlum olur ki, bağayarpağı hər cür irinli yaranı, çibanı zərərli pensilindən daha tez sağaldır, gicitkan qıçların yel ağrısını, baldırğan isə "öskürəyin, sancının əlacıdır" və s. Bədii sonluq əsərin ideya-məzmununu yekunlaşdırmaqla qalmır, həm də azyaşlılarda vətənpərvərlik hisslərinin oyanışına təkan verirdi:

Ağ xalatlı həkimmiş
Dağ zirvələr, sən demə.
Böyük əczaxanaymış
Azərbaycan dağları.
Gül-çiçəklə qovur o,
Hər dərdi, hər azarı.[1]

"Məlahət" poeması milli uşaq ədəbiyyatımızın dəyərli nümunələrindən biri kimi "Şəfa çantası" başlığı ilə şairin kitablarında dəfələrlə nəşr edilmişdir. Poemanın ayrıca kitab kimi nəşrinə çəkilən al-əlvan şəkillər də şairin şeir dili ilə haqqında bəhs etdiyi dərman bitkiləri və çiçəklərini uşaqlara daha yaxından tanıtmaq məqsədi daşıyırdı.

Q.Qasımzadənin poemalarından göründüyü kimi, ictimai mühitin aktual məsələləri onun yaradıcı şüuruna təsir edib düşündürmüş, öz ideya-

[1] Qasım Qasımzadə. "Günəş gec batacaq". Seçilmiş əsərləri. – Bakı: Azərnəşr, 1988, s.268

bədii sözünü deməyə meyilləndirmişdir. Bununla belə, o, dövrün mövcud bədii örnəklərindən fərqli süjet strukturları yaratmış, vahid metod hüdudlarında eyni ideya-mövzunun bədii həllində fərdi sənətkar mövqeyini qoruyub saxlamışdır. Bu poemalardakı insan surətləri öz mənəvi-əxlaqi tipinə görə qəlib sovet adamı surətlərindən seçilmişdir. Zamanın konkret aktual mövzusundan yazanda belə, onu doğma təbiətin qoynuna köçürüb, yaxşı tanıdığı – yaşayışına və xasiyyətinə, düşüncəsinə və istəklərinə yaxından bələd olduğu insanların obrazını yaradırdı. Buna görə də milli koloritli təbiilik, səmimiyyət bu əsərlərin yüksək ideya-estetik keyfiyyətinin təminatçısı olurdu. Onun poemaları təkrarsız məzmununa, milli ruhun təcəssümünə və obrazların məhz milli-mənəvi xarakterinə görə ədəbi dairədə diqqət cəlb etmiş və yüksək dəyərləndirilmişdir.

Q.Qasımzadə publisist yaradıcılığına 40-cı illərdə başlamış, yazıları ideya-mövzu siqlətinə görə diqqət cəlb etdiyi üçün hələ tələbə ikən "Azərbaycan gəncləri" qəzetində ədəbiyyat və incəsənət şöbəsinin müdiri vəzifəsində çalışmış, (1947-1950) əllinci illərin ikinci yarısında isə "Ədəbiyyat və incəsənət" qəzetində məsul vəzifələr (tənqid şöbəsinin müdiri 1955-1957, baş redaktor 1957-1963) ona həvalə edilmişdir. Ancaq həmin dövrdə yazdığı günün aktual məsələlərinə həsr olunan məqalələrini ayrıca toplu şəklində nəşr etdirməyi lazım bilməmişdir. Belə ki, şair ilk genişhəcmli publisist yazılarını – 1958-ci ildən başlayaraq xarici ölkələrə səfərlərinin təsirilə qələmə aldığı yol qeydlərini 1971-ci ildə "Getdim, gördüm, düşündüm" adlı kitabda çap etdirmişdir. Burada o, bir sıra Avropa, yaxın Şərq ölkələrinə səyahəti zamanı təkcə görməli yerlər, tarixi məkanlar və muzeylər barədə məlumat verməklə qalmır, həm də "gör-götür dünyasıdır", – deyə nümunə kimi öyrəniləsi məsələləri də vurğulamışdır.

Kitabda "10 günün təəssüratı" adlı yazıda Q.Qasımzadənin çox sevdiyi qardaş Türkiyənin İstanbul–Bursa–İzmir–Ankara şəhərlərinə səfərdən qeydləri xüsusilə maraqlıdır. Şair böyük sevgi ilə İstanbulun qədim tarixi abidələrindən, Topqapı sarayı, Türk və İslam əsərləri muzeyi, Dolmabağça sarayında saxlanılan qiymətli ləl-cavahiratdan, sənət əsərlərindən söhbət açmışdır. Şair 10 günlük səfər qeydlərini görkəmli ədib Yaşar Kamalın "Ölümsüz ot" adlı əsərindən belə mənalı bir əfsanə ilə bitirmişdir: "Ölümsüz ot kiçik tağlar atan, kökü isə torpağın altında xırman-xırman yayılan bitkidir. Onun üzdəki tağını, yaxud torpaqdakı kökünün tellərini nə qədər kəsib töksən də, bircə buğumundan belə, boy atıb böyüyür, yenidən üzə çıxa bilir. Ölümsüz ot barədəki bu həqiqət nədənsə məni çox düşündürdü. Xalqlar arasındakı doğmalığı, ünsiyyəti, mehribançılıq tellərini qırıb tökmək

mümkün deyil. Çünki bu tellər çox-çox dərinliklərə rişələr atıb yayılmışdır. Ölümsüz otun kökləri kimi!.."[1]

Kitabdakı "İraq səfəri" adlı yol qeydləri 1959-cu ilin dekabrın sonu , 1960-cı ilin yanvarına ünvanlanmışdır. Yazını oxuyandan sonra onun da məhz "ölümsüz ot" ilə əlaqəli olduğu aydın dərk olunur, çünki Q.Qasımzadə bu səfərdə böyük şairimiz Ə.Xaqaninin hələ XI əsrdə yazdığı "Töhfətül İraqeyn" əsərindəki Dəclə sahillərinə, Mədain xərabələrinə tamaşa etmək, Şah İsmayıl Xətaidən nişanə qalan imarətləri gəzmək, dahi şairimiz Füzulinin bəşər dərdlərini danışan əsərlərini qələmə aldığı yerləri görmək, müqəddəs qəbrini ziyarət etmək, Kərkük "türkman"ları ilə doğma ana dilində danışıb bayatılaşmaq... kimi arzularını yazının əvvəlindən diqqətə çatdırmış, Şərq ölkələri ilə əlaqələrin ölümsüz köklərini bir daha xatırlatmışdır.

Yüksək vətəndaş mövqeli publisistik yaradıcılığı məhz səksəninci illərin sonunda vüsət tapıb, şairliyini və alimliyini xeyli üstələmişdir. Onun məqalələrində mövcud tarixi dövrdə Azərbaycanın siyasi-ictimai mühitinin mənzərəsi əks olunmaqla yanaşı, həm də şairin dünyagörüşünün, sovet quruluşunun tamamilə tənəzzülə uğradığı bir zamanda şüurunun alt qatında kök salmış azərbaycançılıq ideoloji baxışlarının təcəssümü baxımından bu yazılar çox əhəmiyyətlidir.

Həcminə və məzmununun əhatəliliyinə görə xüsusilə fərqlənən iki məktub-məqaləsi 1988-1989-cu illərdə mətbuatda çap olunmuş və böyük rezonans yaratmışdır. Məktublardan biri Rusiyanın orta əsrlər üzrə görkəmli şərqşünası akademik D.S.Lixaçova, digəri isə Dağıstanın Xalq şairi Rəsul Həmzətova ünvanlanmışdır. Onların mərkəzi mətbuatda dərc olunmuş yazılarındakı haqsız iradlara, yanlış məlumatlara aydınlıq gətirən şair Ümumittifaqda və elm, mədəniyyət aləmində yaxşı məlum olan bir faktı xüsusi nəzərə çatdırır ki, "erməni alimlərinin, tarixçilərinin, ümumiyyətlə hər tipli erməni "patriotunun" falsifikasiya və montaj sahəsində tayı-bərabəri yoxdur". Müəllif onilliklər boyu ermənilərin xalqımızı beynəlxalq ictimaiyyətə "barbar xalq" kimi tanıtmaq üçün dəridən, qabıqdan çıxdıqlarını faktlarla təqdim edir. Hər iki görkəmli şəxsin Azərbaycan xalqının zəngin ədəbi-mədəni irsindən, qədim mədəniyyət abidələrindən, humanizmindən və tolerantlığından məlumatı olmalarına şübhə etmədiyini bildirir.

Q.Qasımzadənin publisist fəaliyyəti 1990-cı ilin Qanlı Yanvar hadisələrindən sonra daha çox genişlənmiş, fövrilik kəsb etmişdir. Xalqını, Vətənini dərindən sevən, onun səadəti naminə hər fədakarlığa hazır olan şair çoxşaxəli yaradıcılğını bütövlükdə müstəqillik amalının ifadəsinə yönəltmişdir. Çox sarsıntılı və təlatümlü bir zamanda o, yazılarında milli-azadlıq hərəkatının

[1] Qasım Qasımzadə. Getdim, gördüm, düşündüm. – Bakı: Azərnəşr, 1971, s.82

öncülləri ilə bir cəbhədə olub, qarşıya çıxan çətinlikləri, vəziyyətin mürəkkəbliyini düzgün dərk edərək aradan qaldırmaq üçün sayıqlığı itirməməyə, hamını vahid məqsəd uğrunda birləşməyə dəvət etmişdir. Onun "Qeyrətdən yoğrulmuş torpağın övladları" ("Bakı" 2 mart 1990), "Demokratik respublikanın milli siyasəti" ("Ədəbiyyat və incəsənət", iyun 1990, "Davam edir 37" ("Varlıq" jurnalı, 1990, №2) və s. məqalələrində xalqın düçar olduğu ağır iztirablarla yanaşı, qarşıdakı vəzifələrə də xüsusi önəm verilmişdir.

"Yaralarımıza məlhəm" məqaləsi 1990-cı ilin 20 Yanvar faciəsindən bir qədər sonra qələmə alınsa da ("Azərbaycan", 23 mart 1991), bütövlükdə həmin hadisələrin səbəbini araşdırmaq, dinc, silahsız insanlara qarşı törədilən qətliamın məqsədini və nəticələrini şərh etmək məramı daşıyır. Müəllif "humanizm, demokratiya" bürüncəkli mərkəzin iç üzünü açaraq Azərbaycanın milli istiqlaliyyətinin möhkəmlənməsi naminə hər kəsə ayıq-sayıq olmağı, yalan təbliğata uymamağı, ali məqsəd üçün bir cəbhədə birləşməyi tövsiyə edirdi. Onun "Havamız, suyumuz – Azadlıq" ("Ədəbiyyat və incəsənət", 22 may 1992), "Bu qanı qanla yuyarlar" ("Ədəbiyyat və incəsənət", 25 sentiyabr 1992) və s. məqalələləri publisist yaradıcılığının mübarizə leytmotivi olub, hər kəsə erməni ekstremistlərinin Qarabağın şəhər və kəndlərini işğal və talan etmələrinin qarşısını almaq üçün döyüşlərə səfərbər olmağa çağırış idi. "Yaşamaq borcu" ("Həyat", 29 aprel 1992) oçerkini isə bilavasitə düşmənin üç tərəfdən mühasirəyə aldığı Ağdam rayonunun Qalayçılar kəndindəki döyüşçülərlə görüşündən qələmə almışdı. Şair 19-20 yaşlı bu gənclərin mübarizə əzmindən riqqətə gələrək yazırdı: "Oğullarım,.. təki siz sağ olun. Cavanların başından bir tük əskilməsin. Tutulmuş torpaqlarımızı siz qaytarıb Vətən edəcəksiniz. Bu müqəddəs borc naminə siz özünüzü qoruyun".

Ağır xəstəliyə tutulduğunu bilsə də, böyük vətənpərvər şair, alim istiqlaliyyətin taleyi üçün narahatlıqla müstəqil dövlətin möhkəmlənməsi naminə hər cür tədbirlərdə fəal iştirak etmiş, həmçinin öz qələmi ilə də bacardığı köməyi əsirgəməmişdir. Şeirlərinin birində yazmışdı:

Bir gün buxarlanıb qalxsam göylərə,
Yenə damla olub düşəndə yerə
Bir əməl çiçəyi bitirəsiyəm,
Xalqıma töhfələr yetirəsiyəm...

Ümumiyyətlə, Q.Qasımzadənin publisistikasındakı səlis, sözünə güvənli üslubunda məqsədyönlülük, birmənalılıq, məntiqilik aydın nəzərə çarpır. Arabir sitat gətirdiyi uyarlı bədii parçalar, obrazlı deyimlər və məsəllər adətən onun məqalələrini xeyli oxunaqlı etmişdir. Ağır xəstəlikdən müalicə üçün dövlət tərəfindən getdiyi İstanbul şəhərində qələmə aldığı "Sönən işıq,

yanan işıq" yazısı[1] həm məzmunu, həm də janrına görə fərqli olub, gözəl bir oçerk nümunəsidir. Yazının sonunda "27 aprel 1993, İstanbul" qeydi vardır. Həcmcə çox yığcam olan bu oçerkin məzmununda genişhəcmli bir romanın süjet xətti mövcuddur: yüzilliyin əvvəlində İstanbulun ictimai mühitində bakılı tələbə gəncin türkiyəli qıza vurulub onunla ailə qurması, bu sevgidən dünyaya gələn qəhrəmanın adı və soyadının yaranması ilə bağlı maraqlı məlumatlar və əhvalatlar; Bakıya gələndən sonra ziddiyyətli siyasi-ictimai çaxnaşmalar, sovet dövründə onların yaşadıqları sarsıntılar, ömür yolundakı qırmızı və yaşıl işıqlar...

"Sönən işıq, yanan işıq" oçerki bədii publisistikamızın yüksək sənətkarlıq nümunələrindən olub, bu ədəbi növün bir sıra janrının xüsusiyyətlərini ehtiva etməkdədir. Oçerkdə şərəfli ömür yaşamış bir insanın zəngin həyat tarixçəsi ilə yanaşı, həmin dövrdə ölkədəki ictimai-siyasi hadisələr də müəyyən dərəcədə təsəvvürdə canlanır. Həmçinin böyük həssaslıqla qələmə alınmış bu yazının müəllifinin kövrək qəlbi, qayğılı düşüncələri, nəcib təbiəti duyulur, təsirləndirir. Son publisist məqaləsinin "Sönən işıq, yanan işıq" sərlövhəsini simvolik mənasına görə müəllifinə də şamil etmək olar. Həmin günlərdə onun həyat işığı sönməkdə olsa da, xalqının milli sərvətinə çevrilən əsərləri ömrünün əbədiyyətə yol alan işığını yandırmaqda idi…

***

Q.Qasımzadə 1958-ci ildə "Azərbaycan" jurnalında dərc etdirdiyi genişhəcmli "Şeirimizin hazırkı vəziyyəti" məqaləsində son illərin poeziyasından çıxış edərək totalitar rejimindən sonra yeni ideoloji baxış bucağını açıqlayırdı. Tənqidçi daha çox müşahidə olunan yaradıcılıq problemlərinə diqqət yönəldərək göstərirdi ki, şairlər getdikcə süni, şablon, pafoslu tərənnüm üsulundan uzaqlaşıb yaşadıqları təbii reallıqlardan mövzu almağa üstünlük verirlər. Fərdi yaşantılar, məhəbbət duyğuları, adi insani hiss-həyəcanlar, əmək qayğıları, təbiətə bağlılıq şeirlərdə səmimiliyi, emosional təsir gücünü artırmışdır.

Q.Qasımzadə 1952-1968-ci illərdə mətbuatda dərc etdirdiyi ədəbi tənqidi məqalələrini ilk dəfə "Aşıq gördüyünü çağırar" ("Gənclik", 1969) kitabında cəmləmişdir. İlk səhifələrdən müasir dünyada xalqlar arasında əlaqələrin artması, iqtisadi, mədəni, ictimai inkişafla yanaşı, "əqidələrin, zövqlərin, dünyagörüşlərin sürətlə dəyişikliyə uğraması" müqabilində nəzərə çatdırılır ki, "…gəncliyin mənəvi köməyə ehtiyacı çoxdur. Doğrunu boyasız deyən söz indi daha artıq etibar qazanmaqdadır. Bunun üçün düzü düz, əyrini əyri yazan qələmin məsuliyyəti qat-qat çoxalmışdır. Xalq öz sənətkarlarını

[1] "Ədəbiyyat və incəsənət", 1 oktyabr 1993

həmişə "Aşıq gördüyünü çağırar", – deyə realizmə, həyatı gördüyü kimi, duyduğu kimi əks etdirməyə səsləmişdir.[1]

"Ədəbiyyat və tərbiyə" məqaləsində dövrün bir sıra aktual məsələlərinə çox yığcam toxunulsa da, müəllifin şəxsiyyətə pərəstiş dövründə yaranmış əsərlər haqqında mühakimələri xüsusilə əhəmiyyətlidir. O, ədəbi-ictimai mühitdə daim mübahisə obyekti olan bu məsələ barəsində yazmışdır: "Bəzi gənc yazarlarımız həmin illərdə yaranan sənət əsərlərinin hamısının üstündən qələm çəkmək istəyir, digər tərəfdən də həmin dövrün hadisələrindən yazanda həyatı birtərəfli, kölgəli göstərməyə meyil edirlər. Bu meyil, şübhəsiz ki, kökündən yanlışdır".[2] Cari ədəbi prosesi ətraflı araşdıran müəllif təkcə Azərbaycanda deyil, ümumittifaq ədəbiyyatında da belə səhv tendensiyanın baş alıb getməsinə aid nümunələr göstərib, "bu əsərlərdə yazıçının qəlbi müsbət obrazlarda deyil, mənfilərin nəbzində vurur", – deyə öz narahatlığını bildirmişdir. Məqalədə həqiqi sənət əsərinin yarandığı zamanın mövcud cəmiyyətin bədii sənədi olması, müasirliyi ehtiva etməsi prinsipləri, həmçinin gənclərin novatorluğa can atarkən yol verdikləri yanlışlıqlardan da bəhs edilmişdir. Müəllif ənənə və novatorluq probleminə geniş yer verməklə hazırda yaranmış ictimai-siyasi imkanlar şəraitində gənclərin xarici ölkələrin mədəniyyətindəki yad təmayüllərə daha çox meyil göstərmələrini və bunun təhlükəli nəticələrini diqqətə çatdırır.

"Aşıq gördüyünü çağırar" toplusunda Q.Qasımzadənin əsasən müasir ədəbi proseslə bağlı araşdırmaları əhatəli təhlil-təşrih nəticəsində gəldiyi qənaətlərinin inandırıcılığı, mühakimələrinin dürüstlüyü, məntiqli, aydın mülahizələri dərin rəğbət oyadır. Onun geniş bədii və elmi məlumatlılığı, fəal vətəndaş mövqeyi, milli təəssübkeşliyi və sözünün siqləti müasirləri tərəfindən yüksək dəyərləndirilmişdir.

Ədəbi prosesin çoxşaxəli problemləri ilə yanaşı Q.Qasımzadənin bir ədəbiyyatşünas alim kimi elmi yaradıcılığının başlıca istiqaməti Azərbaycan ədəbiyyatı nümunələri prizmasından millilik-beynəlmiləllik-ümumbəşəriliyin dialektik harmoniyasının tipoloji araşdırılması olmuşdur. O, tədqiqatlarında xronoloji və janr məhdudluğu qoymadan milli ədəbi-mədəni irslə yanaşı, başqa xalqların da müvafiq bədii əsərlərini təhlilə cəlb etmişdir. Gənc ədəbiyyatşünasın bu aspektdə ilk monoqrafik tədqiqatı "Nikolay Ostrovski" (1955) olmuşdur. O, rus yazıçısının maraqlı həyatı, mübarizliyi, yaradıcılığı barədə məlumat verməklə kifayətlənməmiş, onun Azərbaycan ədəbiyyatı, folkloru ilə tanışlığı, müasiri C.Cabbarlı haqqında fikirləri və s. faktları ilk dəfə aşkara çıxarıb təqdim etmişdir.

[1] Qasım Qasımzadə. Aşıq gördüyünü çağırar. Bakı: Gənclik, 1969, s.4
[2] Yenə orada, s.6

1956-cı ildə Qasım Qasımzadənin Azərbaycan EA Nəşriyyatında çapdan çıxmış "Azərbaycan ədəbiyyatında xalqlar dostluğu"[1] adlı monoqrafiyasında ədəbi əlaqələrin daha dərin qatlarına nüfuz olunmuşdur. Müəllif Ə.Haqverdiyevin "Ağa Məhəmməd şah Qacar", C.Cabbarlının "Od gəlini", S.Vurğunun "Vaqif" pyeslərindən çıxış edərək Qafqaz xalqlarının işğalçı düşmənə qarşı bir-birinə yardım etmələrini tədqiqatında işıqlandırmış, digər fəsildə A.Şaiqin "Araz" romanı, S.Rüstəmin "Qaçaq Nəbi" pyesi, M.Rahimin "Sayat Nova" poeması və s. əsərlərin təhlilində isə aparıcı ideya-məzmunun sinfilik yönümündə – istismarçı bəy-xanların zülmünə qarşı sadə əməkçi insanların milli-dini fərqlərə əhəmiyyət vermədən ağır gündə köməyə yetmələrinə diqqət yetirmişdir.

1984-cü ildə Q.Qasımzadənin doktorluq dissertasiyasi kimi müdafiə etdiyi və iki il sonra respublika Dövlət mükafatına layiq görülmüş "Ədəbiyyatda millilik və beynəlmiləllik" tədqiqat işinin ədəbiyyatşünaslıqda hadisə olduğu qeyd edilmişdir. Monoqrafiyanı respublikanın görkəmli alimləri M.Z.Cəfərov, Ə.Mirəhmədov, M.İbrahimov, B.Nəbiyev, K.Talıbzadə, Y.Qarayev, özbək alimi L.Qəyyumov, tacik akademiklər R.Amanov və Ş.Şükürov və digər alimlər müsbət rəyləndirmiş, müəllifin obyekiv elmi mövqeyini, cəsarətli nəticələrini yüksək dəyərləndirmişlər. Onlar əsərin ümumiyyətlə millilik və bəşərilik, millilik və beynəlmiləllik, yazıçı şəxsiyyəti və millilik, bədii ədəbiyyatda milli xarakterin inikası, milli ənənələr, ədəbiyyatların qarşılıqlı əlaqələri və s. poblemlərin öyrənilməsini xeyli zənginləşdirdiyini xüsusi qeyd etmişlər.

Ş.Alışanov "Millilik amili" məqaləsində yazmışdır: "Millət", "milli xüsusiyyət", "beynəlmiləl və milli mədəniyyət" anlayışlarının müasir elmi-nəzəri fikirdə qoyuluşunu, bu haqdakı mülahizələri sistemli şəkildə araşdıran tədqiqatçı "millət" məfhumu, estetik idealın milliliyi, bu anlayışın ehtiva etdiyi məzmunun yaranmasına qədər bədii fikirdə milli özünəməxsusluğu şərtləndirən cəhətlər üzərində xüsusi dayanır və bunların müxtəlif tarixi mərhələlərdə yeni estetik məna kəsb edərək təkamüldə olduğunu zəngin bədii materialların müqayisəli təhlili ilə sübut edir".[2]

Q.Qasımzadə məşhur humanitar düşüncəli alimlərin (N.İ.Konrad, A.Toyibi, A.B.Lunaçarski, Maks Friş və b.) milli dil, milli ədəbiyyat, milli xarakter anlayışları ilə bağlı bir-birinə zidd elmi baxışlarından çıxış edərək, milli mədəniyyətlərin özünəməxsus cəhətlərinin perspektivsizliyinə dair iddialarına münasibət bildirir, razılaşmadığı məqamları tutarlı dəlillərlə cavablandırırdı. Məsələn, "Bədii ədəbiyyat və dil" bölümündə bir qisim rus

[1] Qasım Qasımzadə. Azərbaycan ədəbiyyatında xalqlar dostluğu. – Bakı: Azərbaycan SSR EA Nəşriyyatı, 1956

[2] Şirindil Alışanov. Millilik amili. "Ədəbiyyat və incəsənət", 4 avqust 1989

tədqiqatçılarının "Birdəfəlik deyilməlidir ki, çoxmillətli olmasına baxmayaraq vahid sovet ədəbiyyatı vardır", yaxud "ikinci ana dili" deyə milli dillərdən imtina etmək fikrini açıq şəkildə müdafiə edən alimlərə Q.Qasımzadə birmənalı, qəti münasibət bildirərək yazmışdır: "Həqiqi əsər başqa dildə öz əslinə tam uyğun gəlməz, məna dərinləşə bilər, lakin orijinaldakı poetik lətafət, məxsusi təsir alınmaz. Bu cəhət hər bir dilin öz daxili quruluşu, milli xüsusiyyəti ilə bağlı məsələdir".[1] Yaxud "milli xarakter" məfhumuna qarşı "sovet xarakteri" terminini müdafiə edənlərə müxtəlif sovet yazıçılarının əsərlərindən çıxış edərək, milli xarakterin əsrlər boyu formalaşması müddəasını milli ənənələrin "bir neçə on illər müddətində başqalaşa bilməyəcəyi" kimi dəlillərlə təkzib edirdi. Görkəmli ədəbiyyatşünas professor Şamil Salmanov haqlı olaraq yazmışdır: "...həmin əsərində müəllifin mümkün qədər və imkanları daxilində o vaxtın hakim nəzəri-ideoloji tələb və vərdişlərinə məruz qalmamağa çalışması, sənətdə, ədəbiyyatda daha çox millilik mövqeyində dayanması, milliliyi ən əsas kriteriya kimi qoruması və təsbit etməsi tədqiqatın ümdə müsbət cəhəti kimi xülasə edilə bilər".

Q.Qasımzadə 1974-1987-ci illərdə çap etdirdiyi məqalələrini "Ədəbiyyatımız və mənəviyyatımız" kitabında cəm etmişdir. Müəllif müasir ədəbi prosesin aktual problemləri ilə yanaşı, klassik irs nümunələrinə də sosializm realizmi tədqiqat metodunun təzyiqindən azad, yeni baxışla yanaşıb dəyərləndirmişdir. O, bədii əsərləri estetik idealın milli özünəməxsusluğu, milli ənənələrlə əlaqəsi, yaradıcıda, eləcə də bədii obrazda milliliyin təzahürü və s. kimi problemlərin işığında araşdırmış, təhlil etmişdir. Alimin C.Cabbarlı, S.S.Axundov, S.Vurğun, S.Rüstəm, Rəsul Rza, M.İbrahimov, M.Hüseyn, M.Arif, M.Dilbazi, M.Z.Cəfərov, İ.Əfəndiyevin və b. yaradıcılıqlarına həsr olunmuş məqalələri bu baxımdan səciyyəvidir. "Molla Nəsrəddin"də milli məsələyə münasibət" (1969), "Ənənəvi obrazların həyatı" (1975), "Yazılı ədəbiyyatın folklorla əlaqəsi" (1982), "Klassik poeziyanın mənbələri" (1984) və s. kimi məqalələri çox əhəmiyyətli elmi tədqiqatlardır. Kitabda onun başqa xalqların görkəmli sənətkarlarına həsr olunmuş məqalələrində də dolğun elmi mühakimələr və millilik problemi ilə bağlı dərin mülahizələri yer almışdır.

Q.Qasımzadə "Azərbaycan ədəbiyyatı tarixi" üçcildliyi (1957–1960), "Azərbaycan sovet ədəbiyyatı tarixi" ikicildliyi (1967), Moskvada nəşr edilən "Очерки истории азербайджанской советской литературы" (1963) və "Azərbaycan tarixi" altıcildliyinin "Azərbaycan sovet ədəbiyyatının oçerki" bölməsi kimi fundamental əsərlərin yaranmasında həm müəllif, həm də elmi redaktor kimi yaxından iştirak etmişdir. İnstitutda hazırlanan "Folklor

[1] Qasım Qasımzadə. Ədəbiyyatda millilik və beynəlmiləllik. – Bakı: Elm, 1982, s.248

antologiyası", Nizami Gəncəvinin "İqbalnamə"si, Səməd Vurğun "Əsərləri"nin yeddicildliyi, "Azərbaycan sovet ədəbiyyatının aktual problemləri" və s. kimi onlarla mühüm akademik nəşrlərin elmi redaktoru olmuşdur. Həmçinin ədəbiyyatşünaslıq sahəsində gənc kadrların hazırlanmasında öz dəyərli məsləhətləri, tövsiyələri və səriştəli redaktəsi ilə əvəzsiz xidmət göstərmişdir.

Q.Qasımzadənin ədəbi və elmi fəaliyyəti respublika alimləri tərəfindən yüksək qiymətləndirilmiş, haqqında çoxsaylı məqalələr və monoqrafiya çap olunmuş və respublika, Ümumittifaq və bir sıra xarici ölkə ensiklopediyalarında görkəmli alim və şair kimi haqqında məlumatlar verilmişdir.

Qasım Qasımzadə şairlik istedadı sayəsində yaratdığı iyirminci yüzillikdə tarixi yaşantılarının təcəssümü olan poeziyası ilə yanaşı konkret ictimai-siyasi zaman kəsimində milli istiqlal amal bədii, elmi yaradıcılığı ilə mübariz bir alim kimi ədəbiyyatımızda daim yaşayacaqdır.

HÜSEYN RAZİ
(1924-1998)

XX əsr Azərbaycan ədəbiyyatında vətəndaşlıq poeziyasının görkəmli yaradıcıları sırasında Hüseyn Razinin özünəməxsus yeri və rolu vardır. Çoxcəhətli yaradıcılıq fəaliyyətinə malik olan Hüseyn Razinin poeziyasında olduğu kimi, bədii nəsr, dramaturgiya və publisistika sahəsindəki yaradıcılığında da ictimai mətləblərin əks etdirilməsi ön mövqedə dayanır.

Həyatı. Hüseyn Razi (Hüseyn Məmməd oğlu Rzayev) – 24 oktyabr 1924-cü ildə Naxçıvan Muxtar Respublikası Ordubad rayonunun Dəstə kəndində anadan olmuşdur. O, Dəstə kənd yeddiillik məktəbini bitirdikdən sonra 1938-1941-ci illərdə Ordubad Pedaqoji Texnikumunda təhsil alıb, müəllimlik ixtisası qazanmışdır. Hüseyn Rzayev Culfa rayonunun Ərəzin kəndində bir il ibtidai sinif müəllimi kimi çalışmışdır. Gənc müəllim 1942-1945-ci illərdə İkinci Dünya müharibəsində Oryol və Pribaltika cəbhələrində iştirak etmişdir.

Müharibədən qayıtdıqdan sonra Ordubad şəhərindəki 2 saylı səkkizillik məktəbdə müəllim işləyən gənc şair 1946-1949-cu illərdə doğma Dəstə kəndində klub müdiri kimi fəaliyyət göstərmişdir. Naxçıvana köçən Hüseyn Razi qısa müddət "Şərq qapısı" qəzetində və Naxçıvan Radiosunda çalışmışdır. Azərbaycan Dövlət Universitetində qiyabi yolla təhsil alıb, jurnalist ixtisası qazanmışdır.

Hüseyn Razinin həyatında və ədəbi taleyində Naxçıvanda çıxan "Şərq qapısı" qəzetinin böyük rolu olmuşdur. O, 1962-ci ildən təqaüdə çıxdığı 1989-cu ilə qədər iyirmi yeddi il "Şərq qapısı" qəzetində ədəbiyyat və incəsənət şöbəsinin müdiri vəzifəsində işləmiş, muxtar respublikada ədəbi mühitin inkişafı və yeni ədəbi nəslin formalaşdırılması yollarında xidmət göstərmişdir. Filologiya üzrə fəlsəfə doktoru, dosent Elxan Yurdoğlu–Məmmədovun yazdığı kimi, "onun (Hüseyn Razinin – İ.H.) vaxtilə Naxçıvan ədəbi mühitinin gənc imzalarına sənət yollarında verdiyi tövsiyələr, məsləhətlər, tənqidi qeydlər böyük bir ədəbi nəslin yetişməsində mühüm rol oynamışdır. Qətiyyətlə deyə bilərik ki, Naxçıvanda 1960-1980-ci illərin ədəbi gəncliyinin formalaşmasında Hüseyn Razinin rolu və təsviri inkaredilməzdir. Həmin ədəbi nəsillər bu gün muxtar respublikanı layiqincə təmsil edir, eləcə də Azərbaycan ədəbi mühitinin dəyərli simaları kimi sevilir, oxunur, uğurlar əldə edirlər".[1]

Hüseyn Razinin "Şərq qapısı" qəzetində çap etdirdiyi "Ədəbiyyat səhifələri" muxtar respublikada "Ədəbiyyat qəzeti" funksiyasını həyata keçirmişdir. Hüseyn Razinin tələbkar ədəbi senzurasından keçib, "Ədəbiyyat

[1] Hüseyn Razi. Taleyi və sənəti (kollektiv, məqalələr). – Naxçıvan: Əcəmi, 2024

səhifəsi"nə çıxa bilən şeir və hekayələrin müəllifləri elmi-ədəbi mühitdə qəbul olunmaq haqqı qazana bilmişlər. Bundan başqa, Hüseyn Razinin "Şərq qapısı" qəzetində ardıcıl olaraq hər ildə iki-üç dəfə çap etdirdiyi ədəbiyyat icmallarında dövrün ədəbi prosesinin ümumi mənzərəsi canlandırılmış, obrazlı şəkildə desək, ədəbi gedişat ələkdən keçirilməklə obyektiv qiymətləndirilmişdir.

Azərbaycan Yazıçılar İttifaqının 1958-ci ildə Naxçıvanda keçirilən plenumunda bu yaradıcılıq təşkilatının üzvlüyünə qəbul edilmiş Hüseyn Razi yazıçıların qurultaylarında təmsil olunmuş, muxtar respublikanın ictimai-mədəni mühitində yaxından iştirak etmişdir.

Hüseyn Razinin 1958-ci ildə "Kəndimizin səhəri" adlı ilk şeir kitabı çap olunmuşdur. Şairin şeirləri və poemaları müxtəlif vaxtlarda çapdan çıxmış "Ana məhəbbəti" (1960), "Ömür yolları" (1964), "Səsləşən dağlar" (1970), "Həmişəbahar" (1974), "Canlı tonqal" (1977), "Ayrılmaram" (1981), "Sahil həsrəti" (1985) və "Gözün aydın" (1996) kitablarında nəşr edilmişdir. Bundan başqa, onun povestləri "Buludlar arasında" (1961), "Həyəcanlı gecə" (1966) kitablar ilə oxuculara təqdim olunmuşdur. Hüseyn Razinin "Tarla gözəli" adlı bir pərdəli pyesi 1963-cü ildə Xalq Yaradıcılığı evi tərəfindən çapdan buraxılmışdır.

Dramaturgiya ilə də məşğul olan Hüseyn Razinin "Odlu diyar" pyesi 1963-cü ildə Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında böyük müvəffəqiyyətlə tamaşaya qoyulmuş, ona şair-dramaturq statusu qazandırmışdır. "Odlu diyar" tamaşası Azərbaycan Dövlət Akademik Dram Teatrının səhnəsində də paytaxt tamaşaçılarına göstərilmiş və rəğbətlə qarşılanmışdır. Hüseyn Razinin "Günəş" (1967), "Arxalı dağlar" (1971), "Haray səsi" (1977) pyesləri də Naxçıvan Teatrında uğurla tamaşaya qoyulmuşdur. Bundan başqa, Hüseyn Razinin "Şirinliyin acısı" adlı pyesi (1981) Lənkəran Dövlət Dram Teatrında nümayiş etdirilmişdir.

Hüseyn Razi bədii yaradıcılıqla yanaşı, elmi-tədqiqat işləri ilə də məşğul olmuşdur. O, filologiya elmlər doktoru, professor Teymur Əhmədovun elmi rəhbərliyi ilə "İrəvanda Azərbaycan ədəbi-mühiti" adlı namizədlik dissertasiyası yazmış, lakin müdafiə etməmişdir.

Ədəbiyyat və mətbuat sahəsindəki çoxillik səmərəli fəaliyyətinə görə Hüseyn Razinin xidmətləri dövlət səviyyəsində yüksək qiymətləndirilmişdir. O, 1984-cü ildə Azərbaycan Respublikasının, ondan əvvəl 1981-ci ildə Naxçıvan Muxtar Respublikasının Əməkdar İncəsənət xadimi fəxri adına layiq görülmüş, "II dərəcəli Vətən müharibəsi" ordeni ilə təltif olunmuşdur. Hüseyn Razi, eyni zamanda, müharibə iştirakçısı kimi "Döyüş igidliyinə görə" və "Döyüş xidmətlərinə görə" medallarını almışdır. Hüseyn Razi Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin (1964), Naxçıvan MSSR Ali Soveti Rəyasət Heyətinin (1968), Bakı şəhər Zəhmətkeş Deputatları Sovetinin (1970) Fəxri fərmanları ilə də təltif olunmuşdur.

Hüseyn Razi 27 fevral 1998-ci ildə Naxçıvan şəhərində vəfat etmişdir.

***

Yaradıcılığı. Hüseyn Razinin yaradıcılığında Azərbaycanın həyatının mühüm hadisələri tərənnüm olunmuş, tarixi şəxsiyyətlərin həyatı və idealları diqqət mərkəzinə çəkilmiş, bütövlükdə ölkəmizin ayrılmaz tərkib hissəsi olan Naxçıvanın tarixi keçmişi və müasir həyatı xüsusi bir ilhamla vəsf edilmişdir. O, obrazlı şəkildə Azərbaycanı "taxtım-tacım" deyə mənalandırmış, Naxçıvanı isə "Azərbaycan gözəli" adlandırmışdır. Hüseyn Razi milli düşüncənin inkişaf etdirilməsinə təsir göstərən qiymətli vətəndaşlıq poeziyası nümunələri yaratmışdır. Şairin mili-mənəvi dəyərlərimizə həsr edilmiş şeirlərində tərənnümlə yanaşı, həm də vətən dərsləri ilə əlaqədar ictimai mətləblər mənalandırılmışdır:

Bu yerin torpağı, daşı alovdur,
Yandıqca alışar, odu kül olmaz.
Qüruru tufandır, düşüncəsi nur,
Namərdə əyilməz, yada dil olmaz!
...Dağlar yeddi qat zirehli çadır,
Vətən sevgilidir, Vətən Anadır.
Dənizi əbədi bir fırtınadır,
Onun sinəsindən yada yol olmaz![1]

Hüseyn Razinin əsərlərində Vətən məhəbbəti mövzusu "Qarabağdadır" adlı şeiri ilə daha da zənginləşdirilmişdir. Qədim Azərbaycan torpağı olan Qarabağın başı üzərində qara dumanların oynadığı 1988-ci ildə yazılmış "Qarabağdadır" şeiri ilə Hüseyn Razi sanki ölkəmizin bu tarixi diyarına xalqımızın milli möhürünü həkk etmişdir. "Qarabağdadır" şeiri özünün dərin mahiyyəti etibarilə həmin dövrdən meydanlarda səslənən "Torpaqdan pay olmaz" çağırışlarının poetik təsdiqindən ibarətdir.

Dövlət himnimizin sədalarında
Qıy vuran nəfəslər Qarabağdadır,
Coşğun şeirimizin nidalarında,
Müdrik, odlu səslər Qarabağdadır.

Məğrur babaların dağ yaddaşları,
Nakam nəvələrin məzar daşları,
Mələk gözəllərin gül naxışları,
Ruhu müqəddəslər Qarabağdadır.

[1] Hüseyn Razi. Gözün aydın. – Bakı: Azərbaycan, 1996, s.14

...Bu gün Odlar Yurdu coşan bir dəniz
Haqqın kürsüsündən danışırıq biz.
Bütün tarixində ən ibrətamiz,
Ən möhtəşəm dərslər Qarabağdadır.[1]

Hüseyn Razi Naxçıvan diyarının möhtəşəm poetik salnaməsini yaratmışdır. O, Azərbaycanın bu tarixi torpağının orijinal bədii obrazını canlandırmışdır. Şairin Naxçıvan silsiləsi bu diyarının poetik xəritəsi təəssüratı yaradır. Hüseyn Razi ölkəmizə böyük şəxsiyyətlər bəxş etmiş Naxçıvanı "Azərbaycanın gözəl bir güşəsi" kimi vəsf etmişdir:

Yaşı bilinməyir uca dağların,
Loğman qüdrəti var buz bulaqların,
Mirzə Cəlil kimi bir sənətkarın,
Vüqarı, nəfəsi Naxçıvandadır.

Büllur layları var burda sal duzun,
Badamlı döşündən axır Şahbuzun.
Səidin, Cavidin, rəssam Bəhruzun,
Yaratmaq həvəsi Naxçıvandadır.

Bu yer qardaşıdır Milin, Muğanın,
Başında yazılmış neçə dastanın.
Qurbanı olduğum Azərbaycanın
Gözəl bir guşəsi Naxçıvandadır.[2]

Göründüyü kimi, Hüseyn Razi yaradıcılığının şah damarı Vətən mövzusundan və vətəndaşlıq mövqeyinin bədii ifadəsindən yoğrulmuşdur. Vətən mövzusu və vətəndaşlıq mövqeyi Hüseyn Razinin yaradıcılığında birbirini üzvi surətdə tamamlayır. Bu silsilədən olan şeirlərində Hüseyn Razinin vətənə bəslədiyi hədsiz məhəbbət hissi və milli iftixar duyğusu yüksək vətəndaşlıq mövqeyindən qabarıq şəkildə tərənnüm olunmuşdur. Bu baxımdan, Hüseyn Razinin Vətən mövzusunda, yaxud vətəndaşlıq mövqeyindən yazılmış şeirləri yalnız tərənnüm xarakteri daşımır. O, böyük məharətlə bu mövzuda yazdığı şeirlərində dərin ictimai mətləbləri mənalandırmağa çalışmışdır. "Bu yerlər", "Torpaq", "Sevgi", "Dağı zirvədə gör" və sair şeirlərində həm də Hüseyn Razinin özünün şair-vətəndaş obrazı canlanır. XX səksən-doxsanıncı illərində yazılmış şeirlərində o, şair-qəhrəman kimi çıxış edir. Dövlət müstəqilliyi ərəfəsində qələmə alınmış şeirləri ilə şair sanki qarşıdakı böyük və şərəfli mübarizənin poetik anonsunu vermişdir. Hələ 1986-cı ildə yazdığı "Şübhələr çoxalır" şeirində o, "Şər öz

[1] Hüseyn Razi. Gözün aydın. – Bakı: Azərbaycan, 1996, s.12
[2] Hüseyn Razi. Ana məhəbbəti. – Bakı: Azərnəşr, 1960, s.59

qamçısını qaldırıb göyə", "Ürəklər tonqaldır mübahisəyə" kimi misralarla mövcud cəmiyyətin çökməyə məhkum olduğunu nəzərə çatdırmış, "Yavaş-yavaş" adlı şeirində isə "Əvvəl-axır son günü var zor gücünə əbədinin" qənaətin"i dilə gətirmiş, hətta "daha ciddi bir sualın: ölüm ya olum" qarşısında dayanıbdır bizim əsrimiz" – deməklə cəmiyyətin dəyişikliyə doğru getməsinin zəruriliyini bəyan etmişdir.

Hüseyn Razinin bu qəbildən olan poetik qənaətləri onun hələ səksəninci illərin əvvəllərində sosializm cəmiyyətində xalqların mili-mənəvi varlığının əridilib itirilməsi istiqamətində örtülü şəkildə həyata keçirilən siyasətin iç üzünü dərindən duyduğunu və narahat duyğular yaşadığını bəyan edən şeirlərinin məntiqi davamı kimi təbii şəkildə meydana çıxmışdır. Bu baxımdan şairin "Eyniləşməyək", "Aman ovçu", "Keçəl Həmzə", "Laqeydlik" və sair şeirləri yüksək şeiriyyəti ilə yanaşı, həm də əsl vətəndaşlıq cəsarətinin poetik ifadəsidir. Həmin mövzuda yazılmış şeirlərində Hüseyn Razi bir çox hallarda senzuranı silkələyən milli ideyalar, cəsarətli fikirlər səsləndirmişdir. 1984-cü ildə yazdığı "Eyniləşməyək" şeirində o, mövcud rejimin milli-mənəvi dəyərləri əridib aradan qaldırılmasına, xalq anlayışının unutdurulmasına etirazını ifadə etmişdir. SSRİ adlanan imperiyanın "vahid sovet xalqı" və ya "vahid sovet ailəsi" adı ilə Sovetlər İttifaqına daxil olan ayrı-ayrı xalqların milli-mənəvi dəyərlərini, adət-ənənələrini aradan qaldırmasını hiss edən şair eyniləşdirmək siyasətinin bərabərlik kimi təqdim olunmasını kəskin tənqid etmişdir. Fikrimizcə, Hüseyn Razinin "Eyniləşdirməyək" şeiri XX əsr Azərbaycan siyasi-fəlsəfi lirikasının mükəmməl bir nümunəsidir:

Arvad kişiləşsə, əri sayılmaz,
Öz səsi olmayan diri sayılmaz,
İki eyniyyətin biri sayılmaz.
Süni calaqları götürmür ürək,
Gəlin, bir ölçüdə eyniləşməyək.

Yadlaşıb dönməyək biz özümüzdən,
Yol, cığır yaranmır ötərki izdən,
Sussaq danışarlar əvəzimizdən,
Biz öz sözümüzü özümüz deyək,
Gəlin, bir ölçüdə eyniləşməyək.

Yersiz bəm tutmayaq biri güləndə,
Nifrət də silahdır yeri gələndə,
Gündüzü gecədə, gecəni gündə,

Axtarıb zülmətə, çənə düşməyək,
Gəlin, bir ölçüdə eyniləşməyək.[1]

Vətəndaş-şair özünün odlu-alovlu şeirləri ilə ölkəmizdə mili azadlıq uğrunda aparılan mübarizəyə qol-qanad və dəstək vermiş, "Hara gedir bu gəmi" şeirində deyildiyi kimi, xalq hərəkatının məhvərindən çıxmamağa, müstəqillik yolundan geri çəkilməməyə çağırmışdır. O, illər uzunu yuxularda röya kimi duyduğu azadlıq arzusunun gerçək həyatda reallığa çevriləcəyinə dərin inam bəsləmiş və var səsi ilə əsarət zəncirlərini qıranlara ilham və cəsarət verən şeirlər yazmışdır. "Qatar gedir", "İnandıq", "Etiraf", "Bu dünyanın əsrarını", "Şəhid qəbirləri" kimi şeirlər müstəqillik uğrunda mübarizənin cəsarətli addımlarının poetik əks-sədasıdır.

Hüseyn Razi poeziyanın əbədi-əzəli mövzularından olan "Dünya" mövzusunda da orijinal və düşündürücü fəlsəfi mənalar ifadə etmək istedadı göstərə bilmişdir. Hüseyn Razinin "Dünya" və "Dünyam" adlı şeirlərinin Azərbaycan poeziyasında bu mövzuda yazılmış çoxsaylı klassik və müasir şeirlər arasında özünəməxsus yeri vardır. Şair dünyanı fəlsəfi mahiyyətini vəsf etməklə yox, dərk etməklə poetik baxımdan şərh etmişdir. Hüseyn Razinin "Dünya" şeirlərində tərənnüm deyil, fəlsəfi məzmun daşıyan bədii ümumiləşdirmələr üstünlük təşkil edir:

Bir evində sona qədər yanmaz çıraqlar,
Bir ürəkdir, ürəksizlər nəbzini yoxlar,
Bir aləmdir, yüz aləmin sirrini saxlar,
Bir günəşin şöləsində gilədi dünya.

Bağışlamaz namərd kimi barını dərsən,
Qaytaracaq səxavətlə ova nə versən.
Hər kim olsan baş aparma, bir gün görərsən
Səni ovub xəlbirindən ələdi dünya.[2]

Müasirlik də Hüseyn Razi poeziyasının yol yoldaşıdır. Şair müasiri olan insanların mənəvi dünyasının incəliklərini obrazlı bədii vasitələrlə canlandırmağı bacarmışdır. Bu cəhətdən gənclik duyğuları, sevgi, məhəbbət hissləri də şairin yaradıcılığında geniş tərənnüm edilmişdir. Onun məhəbbət mövzusunda yazdığı bir neçə şeirinə musiqi bəstələnmişdir. Müasir gənclik üçün bu mahnılar insanın zəngin mənəvi dünyasının orijinal poetik tərcümanı kimi mühüm əhəmiyyət daşıyır.

Hüseyn Razinin şeirlərində musiqi və nəğməyə yüksək qiymət verilir. O, muğamatı "nəğmələr xəzinəsi" adlandırır. Şair "Musiqi şəlaləsi" adlı

[1] Hüseyn Razi. Sahil həsrəti. – Bakı: Yazıçı, 1985, s.129-130
[2] Hüseyn Razi. Ana məhəbbəti. – Bakı: Azərnəşr, 1964, s.53

şeirində Aşıq Ələsgərin, Xəstə Qasımın, Xəyyam Mirzənin adlarını böyük iftixarla çəkir, Çahargah, Şur, Şahnaz, Rast, Mahur, Şüştər, Bayatı Şiraz və başqa mahnılardan ürək dolusu söhbət açır. Hüseyn Razi obrazlı şəkildə göstərir ki, "Segah" duyğular karvanını, "Heyratı" yürüşü, "Cəngi" hünəri, "Səmayi-şəms" kamanının inləməsini xatırladır. Bunlar həm də Hüseyn Razinin xalqımızın musiqi dünyası xəzinəsinə dərindən bələd olduğunu göstərir.

Şeirlərindən görünür ki, Hüseyn Razi sənətdə asan yolla getməmiş, əksinə, yuxusuz gecələr keçirmək, məsuliyyətlə şeir yazmaq onun üçün şair ömrünün həyat tərzi olmuşdur. Şairin "Oyaq qalmaq istəyirəm" – adlı şeirindənki: "Yuxu dinclik olsa belə, mənim üçün vahimədir. Ömür həyatdırsa əgər, yarısını yatmaq nədir? Ən işıqlı duyğuları mən şeirə döndərib bir-bir Rahat olmaq istəyirəm, Oyaq qalmaq istəyirəm" misraları bu gerçəkliyin bədii ifadəsidir. O, haqlı olaraq "gücü fırtınadan", "sürəti şimşəkdən", "boyaları qövsü-qüzehdən", "qədri duz-çörəkdən" alınan şeirləri əsas sənət nümunəsi adlandırır. Bu cəhətdən "Şeir yazmaq istəsən" adlı şeiri onun sənətə münasibətini aydın surətdə ifadə edir. "Şeir yazmaq istəsən" şeirində ifadə olunan fikirlər Hüseyn Razinin özünəməxsus ədəbi-nəzəri baxışlara malik olduğunu göstərir:

Şeir bal şəhdinə bənzəyir əslən,
Ətri yüz çiçəkdən alınmalıdır.
Gücü fırtınadan, odu günəşdən,
Sürəti şimşəkdən alınmalıdır.

Sözü, qafiyəsi mirvari şehdən,
Bəndi, sətirləri dəmir zirehdən,
Əlvan boyaları qöhsü-qüzehdən,
Qədri duz-çörəkdən alınmalıdır.

Ahəngi gəncliyin qəhqəhəsindən,
Məsum körpələrin gül nəfəsindən,
Səsi bulaqların zümzüməsindən,
Vurğusu ürəkdən alınmalıdır.[1]

Poema janrının inkişafında da Hüseyn Razinin özünəməxsus xidmətləri vardır. Şairin 1980-ci ildə Sosialist Əməyi Qəhrəmanı, Şərur rayonunda bacarıqlı təsərrüfat rəhbəri kimi tanınmış Yusif İsmayılova həsr edilmiş "Ucalıq" adlı ilk poeması onun yaradıcılığında tərənnümdən süjet qurmağa, kompozisiya yaratmağa, müxtəlif taleli insanların obrazlarını yaratmağa keçid baxımından uğurlu bədii məşq sayıla bilər. Poemada zəhmətin

[1] Hüseyn Razi. Səsləşən dağlar. – Bakı: Azərnəşr, 1970, s.23

romantikası və doğma torpaq sevgisi dolğun şəkildə canlandırılmışdır. Hüseyn Razi həyatı problemlərin bir qədər də dərin qatlarının açılmasına xidmət edən "Sədaqət" (1983) poemasında müharibədə ayaqlarını itirdiyinə görə yeganə övladının onu bu vəziyyətdə görməsini istəmədiyi üçün ailəsinə geri dönməyi məqbul saymayan, lakin ünvanını bildirmədən hər ay evlərinə pul göndərən Yavərin sədaqətli ömür-gün yoldaşı Xavərin axtarışları sayəsində tapılması və əri qayıtmazsa, övladı ilə birlikdə onun yanına gələcəyi barədəki qəti qərar qəbul etməsi əsl sədaqət nümunəsi kimi təqdim olunur. Janr baxımından lirik poema olan "Dünya sevənlərindir" poemasında isə "qəlbin sevgi kimi ilahəsi" səviyyəsində vəsf edilən məhəbbətin ülviyyəti və ucalığı tərənnüm olunmuşdur. Hüseyn Razinin Cənubi Azərbaycan mövzusunda yazdığı "Sahil həsrəti" poemasında isə XX əsrin yetmişinci illərində Araz çayı üzərində ucaldılan su elektrik stansiyasına ətrafında canlanan hadisələrin əsasında poetik cəhətdən mənalandırılmış ayrılıq və bütövlük düşüncələri poetikləşdirilmişdir.

Hüseyn Razinin görkəmli elm xadimi akademik Yusif Məmmədəliyevə həsr edilmiş "İnsanlar, tələsin xeyirxahlığa" poeması (1987) adlı-sanlı böyük alimin həyatı və mühiti, xidmətləri və idealları haqqında hadisələrin və düşüncələrin üzvü şəkildə əlaqələndirilməsindən, vəhdətindən yaranmışdır. Görkəmli elm xadiminin keşməkeşli və mənalı ömür yolunun mənzum tarixçəsini yaradan Hüseyn Razi akademik Yusif Məmmədəliyevin elmi kəşflərinin mahiyyətini və əhəmiyyətini poetik baxımdan dərindən və əsaslı şəkildə mənalandırmış və populyarlaşdırmışdır:

Vətən sevgisinə yanan kəslərin,
İşıqdır alovu gözlərimizə.
Eşqi, məramilə gülən kəslərin,
Ruhu zirvələrdən boylanır bizə.

Baxıb kövrəlsək də, zirvələr uca,
Sinəmiz qabarır qürurumuzdan.
Böyük zəkaları xatırladıqca,
Bizə çox işıqlı görünür cahan.[1]

Nəticə etibarilə, Hüseyn Razinin poemaları janr baxımından liro-epik poemalardır. Poemaları onun həm şairlik məharətini və həm də epik ədəbiyyat yaratmaq istedadını nümayiş etdirir.

***

Azərbaycan şeirinin forma zənginliyi də Hüseyn Razinin yaradıcılığında əyani şəkildə görünür. Onun poeziyasında qoşma və gəraylı janrlarında

[1] Hüseyn Razi. Gözün aydın. – Bakı: Azərbaycan, 1996, s.223

yazılmış, dördlük bəndlərdən təşkil olunan şeirlər ana xətti müəyyən edir. Bununla belə, o həm də klassik poetik formalara da müraciət edərək, Azərbaycan şeirini qəzəl janrında ayrılmış nadir bədii nümunələrlə zənginləşdirmişdir. Onun qəzəllərində klassik poetik ənənədən fərqli olaraq, aşiqanə məzmun deyil, ciddi ictimai məsələlər öz əksini tapmışdır. Hüseyn Razi əruz vəznində də mükəmməl şeir yazmaq istedadını nümayiş etdirir. Şairin qəzəllərinin dili də sadə və aydındır. "Yurdum, Vətənim, doğma elim Nəqşi-Cahandır" misrası ilə başlayan qəzəlini XX əsrdə əruz vəznində, sadə dillə yazılmış ictimai məzmunlu qəzəlin ən yaxşı nümunələrindən biri kimi qiymətləndirmək olar:

Yurdum, vətənim, doğma elim Nəqşi-Cahandır,
Mərdlik beşiyi, şanlı, şərafətli məkandır.
...Pərvaz eləmiş göylərə Şərqin sinəsindən,
Yüz elm, sənətşahı dünyaya əyandır.
Köksündəki dağlar dayanıbdır necə məğrur,
Lakin Arazın qəlbi yetimdir, nigarandır.
Min sədd çəkələr, hər iki sahil vətənimdir,
Yadlıq məxəzindən nə axıb gəlsə, yalandır.
Köksümdə qopan zəlzələlər, güclü küləklər,
Sellər bu yerin qəlbinə hopmuş həyəcandır.
Car çək bunu, Razi, nə qədər canda canın var,
Vahid Vətənin birliyi son hökmi-zamandır.[1]

Bədii nəsr sahəsində də Hüseyn Razi qələmini uğurla sınaqdan çıxarmışdır. Müharibə səhnələrini əks etdirən "Buludlar arasında" (1961) povesti bu mövzuda yazılmış cəlbedici və maraqlı nəsr əsərlərindən biridir. Müəllif bu povestdə özünün İkinci Dünya müharibəsində iştirakçısı olduğu hadisələri canlı, oxunaqlı şəkildə təsvir etmişdir. Polis işçilərinin həyatından və fədakarlığından bəhs edən "Həyəcanlı gecə" (1966) povesti yaddaqalan detektiv ədəbiyyat nümunəsidir. Hüseyn Razinin bədii nəsri onun publisistikasına yaxındır. Hüseyn Razi "Həyəcanlı gecə" povestinə görə Azərbaycan Daxili İşlər Nazirliyinin Fəxri fərmanı ilə təltif olunmuşdur.

Hüseyn Razi şair-dramaturq kimi də fəaliyyət göstərmişdir. Onun pyeslərinin bir çoxu mənzum dram janrında yazılmış kamil səhnə əsərləridir. "Odlu diyar" (1963) pyesi mənzum dramın uğurlu nümunəsidir. Pyesdə Azərbaycanda sovet hakimiyyətinin qurulması fonunda olsa da, xalqımızın igidliyi və vətənpərvərliyi maraqlı səhnələr vasitəsilə tamaşaçılara çatdırılmışdır. Şair-dramaturqun "Günəş" (1968) pyesində, Azərbaycan kəndinin səciyyəvi adamları və problemləri səhnəyə çıxarılmışdır. Hüseyn Razi nəzm

[1] Hüseyn Razi. Səsləşən dağlar. – Bakı: Azərnəşr, 1970, s.141

və nəsrlə yazdığı “Arxalı dağlar” (1971) pyesi vasitəsilə bir rayonun timsalında həyatın çətinliklərini, müxtəlif qütblərin qarşılaşmasını və nəhayət, insan mənəviyyatının ucalığını və xeyrin təntənəsini təqdim etmişdir. “Haray səsi” (1978) və “Şirinliyin acısı” (1981) pyeslərində də Hüseyn Razi müasir həyatla əlaqədar köklü problemlər qaldırmış və tamaşaçı fikrini irəli aparmağı bacarmışdır.

Çoxcəhətli yaradıcılıq fəaliyyətinə malik olan Hüseyn Razi rus ədəbiyyatından və keçmiş SSRİ xalqlarının poeziyasından çoxsaylı tərcümələr etmişdir. Oleq Şestinskinin “Bu torpağa bağban ol” poeması Hüseyn Razinin Azərbaycan dilinə çevirdiyi uğurlu tərcümə əsərlərindən biridir. Hüseyn Razinin bir sıra şeirləri rus dilinə tərcümə olunmuşdur.

Göründüyü kimi, Hüseyn Razi regionda yaşayan və ölkə miqyasında qəbul olunan Azərbaycan şairi idi. Vətəndaş şairin ideyaları yaşayır, o, müstəqil dövlətçiliyimizin daha da möhkəmləndirilməsinə və vətənpərvərlik tərbiyəsinin yeni nəsillərə aşılanmasına xidmət edir.

ADİL BABAYEV
(1925-1977)

Azərbaycan ədəbi mühitinin tanınmış simalarından olan Adil Babayev lirik yaradıcılığı ilə milli poeziyamıza dəyərli töhfələr bəxş etmişdir. Bənzərsiz bədii üslubu ilə əsrarəngiz təbiət gözəlliklərini, insanın munis hiss və duyğularını, vətən sevgisini, ana və övlad məhəbbətini səmimi tərənnüm etmiş, yaddaşlarda və ədəbiyyatda əbədiləşmişdir. O, müxtəlif bədii janrlarda əsərlər yaratsa da, Azərbaycan poeziyasında əsasən sonet janrının ustadı kimi məşhurlaşmışdır. Onun şeir və poemalarında, nəsr və dram əsərlərində, publisist yazılarında Vətənə, xalqa böyük məhəbbət, yüksək mənəvi-əxlaqi hisslər tərənnüm edilmişdir.

Həyatı. Adil Qafar oğlu Babayev 28 yanvar 1925-ci ildə Naxçıvan şəhərində anadan olmuş, natamam orta təhsilini 1 nömrəli məktəbdə almış (1931-1938), ailəlikcə Tiflis şəhərinə köçdükdən sonra M.F.Axundzadə adına Azərbaycan orta məktəbini bitirmişdir. 1943-1945-ci illərdə Tiflisdə A.S.Puşkin adına ikiillik Müəllimlər İnstitutunun Ədəbiyyat fakültəsində oxumuşdur. Əmək fəaliyyətinə "Şərq qapısı" qəzetində korrektor kimi başlamış, sonra Ədəbiyyat və incəsənət şöbəsinin müdiri vəzifəsində çalışmışdır.

Uşaqlıq illərinin acılı-şirinli xatirələri sonralar onun yaradıcılığında izsiz qalmamışdır. Adilin atası Qafar Babayev repressiya illərində "xalq düşməni" kimi tutularaq Nargin adasına aparılmış, sorğu-sualsız, məhkəməsiz güllələnmişdir. Məktəbdə oxuyarkən ictimai təşkilatların sıralarına daxil olmaq istəsə də, "xalq düşməninin oğlu" damğası ona ciddi maneçilik törətmişdir. O, atasının adından imtina etmək təklifi ilə razılaşmır və çox sarsılır. Bəxtiyar Vahabzadə "Xalq düşməninin şair oğlu" sərlövhəli məqaləsində yazmışdır: "Adil çox yerdə sıxıntı keçirir, çox yerdə sözünü açıq deyə bilmirdi, ehtiyat edirdi. Atasının həbs olunaraq "xalq düşməni" kimi güllələnməsi onun üstünə kölgə salırdı və ona görə də çox zaman ona irəli getməsinə mane olurdu. 1956-cı ildə, tam bəraət alana kimi Adili çox incidiblər. Mən bunun şahidiyəm".[1]

Totalitar rejimin çətinliklərini yaşayan bir çox ailələr kimi, Adil Babayevin də ailəsi bu ağır sınaqların öhdəsindən layiqincə gəlmişdir. Belə ki, ali təhsilini bitirdikdən sonra mətbuatda ara-sıra yazılarıyla tanınmağa başlayan gənc yazar istedadına, mənəvi-əxlaqi keyfiyyətlərinə görə rəğbət qazanır. Həm poeziya, həm də nəsr yaradıcılığında ədəbi qəhrəmanlarının mürəkkəb taleyi ilə oxucularının marağına səbəb olmuşdur.

[1] Bəxtiyar Vahabzadə. Xalq düşməninin şair oğlu. – Bakı: "Ədəbiyyat qəzeti", 24 avqust 2021

Müxtəlif vəzifələrdə çalışan gənc ədib mətbu orqanlarda korrektorluqdan şöbə müdiri vəzifəsinə qədər yüksəlmiş, bədii yaradıcılıqla mütəmadi məşğul olmuşdur. Eyni zamanda "Sovet Gürcüstanı" qəzeti redaksiyasında ədəbiyyat şöbəsinə rəhbərlik etmişdir. O, 1945-1947-ci illərdə "Kommunist" qəzetində ədəbi işçi, tərcüməçi, 1947-1949-cu illərdə "İnqilab və mədəniyyət" jurnalında Poeziya şöbəsinin müdiri vəzifəsində çalışmışdır. 1948-1950-ci illərdə o, Azərbaycan Dövlət İncəsənət İnstitutunun Teatrşünaslıq fakültəsində təhsil almışdır. Milli teatrın inkişafında yaxından iştirak edən Adil Babayev teatr sənəti ilə sıx bağlı olmuş, "M.Əzizbəyov adına teatr" (Moskva, 1959), "Şərəfli yol" (1974) monoqrafiyalarını ərsəyə gətirərək, teatr-kino sənəti, dramaturgiya, sənətşünaslıq ilə bağlı bir çox elmi məqalələrin müəllifi kimi tanınmışdır.

İstedadlı şair 1956-1964-cü illərdə Azərbaycan Dövlət Akademik Dram Teatrının ədəbi hissə müdiri, sonralar isə "Ədəbiyyat və incəsənət" qəzeti redaksiyasında Tənqid şöbəsinin müdiri, məsul katib və baş redaktorun müavini vəzifələrində çalışmışdır. 1971-ci ildən ömrünün sonuna qədər Azərbaycan Yazıçılar Birliyində bədii tərcümə üzrə məsləhətçi kimi fəaliyyət göstərmişdir.

Adil Babayev yaradıcılığının ən məhsuldar və yetkin çağında 52 yaşında, 21 avqust 1977-ci ildə Bakı şəhərində dünyasını dəyişmişdir.

Yaradıcılığı. Adil Babayev bədii yaradıcılığa erkən yaşlarından başlamış, ilk şeirləri 1939-cu ildə Tiflisdə nəşr olunan "Yeni qüvvə" jurnalında dərc edilmiş, ilk kitabı – "İkinci simfoniya" poeması 1947-ci ildə "Uşaqgəncnəşr" tərəfindən çap edilmişdir.

Atası Qafar Babayev 1956-cı ildə (vəfatından sonra) bəraət alır, günahsız olması hüquq-mühafizə orqanları tərəfindən sübuta yetirilir. Taleyin vurduğu zərbələr, yaralar isə həssas qəlbli şairin yaradıcı qələmi ilə şeirlərində öz əksini tapmışdır:

Ac-susuz qalanda bir xərabədə
Ümid olub suyum, çörəyim mənim…
Yaşadım ümidlə, ümid şirindir.
Vətən torpağının səadətində
Mən də səadəti tapmışam indi.
Ümid hər addımda qanaddır mənə
Ümid – fərəh dolu həyatdır mənə.[1]

Keşməkeşli həyatının acılarına sinə gərərək yaşayan şair sarsılmır, ümidlə qarşısına qoyduğu məqsədə çatmaq üçün çarpışıb, vuruşub maneələri aşaraq öz istəyinə, amalına müvəffəq olur.

[1] Adil Babayev. Anamın üzüyü. – Bakı: Azərnəşr, 1963

Akademik İsa Həbibbəyli şairin şəxsi mövqeyindən, insani keyfiyyətlərindən, yaradıcılıq məziyyətlərindən söz açarkən demişdir: "Adil Babayev Azərbaycan ədəbiyyatında aydın, bütöv və təvazökar sənətkar şəxsiyyətinə nümunə ola biləcək insan idi. Keçmiş sovet ideologiyasının sərt dönəmlərində yaşamasına baxmayaraq, onun yaradıcılığında siyasi xarakterli mətləblər deyil, həyatın adiliklərinin və insanın mənəvi aləminin təbii vasitələrlə təqdim edilməsi üstünlük qazanmışdır. O, müasiri olan şairlərlə müqayisədə az yazmış, lakin səmimi, təsirli sənət örnəkləri ilə yaddaşlarda qalmışdır".[1]

Yaradıcılığı boyu milli adət və ənənələri, əxlaqi keyfiyyətləri əsərlərinin əsas motivinə çevirən şair, yazıçı Adil Babayev öz bədii üslubu ilə fərqlənmişdir. Əksər yazarlar kimi, o da şifahi xalq ədəbiyyatından bəhrələnərək, ona söykənərək əsrlərdən gələn zəngin mənəvi keyfiyyətləri əsərlərində göstərə bilmişdir.

Müraciət etdiyi mövzuların hər dövr üçün aktuallığını itirməməsi həqiqətən şair və yazıçının ölməzliyinin, uğurunun əsas qayəsidir. Bu baxımdan Adil Babayevin yaradıcılığında da diqqətçəkən cəhətlər çoxdur. Adil Babayevin yaratdığı əsərlər mövzu baxımından çoxşaxəli və rəngarəngdir. Müxtəlif mövzulara müraciət etməsi şairin dünyagörüşünün, mənəvi aləminin zənginliyindən xəbər verir. İstər poeziya yaradıcılığında, istərsə də nəsrlə yazılmış əsərlərində şairin duyğu və düşüncələri, yaratmış olduğu qəhrəmanlarının mənəvi keyfiyyətləri əsərlərində sənətkarlıqla əks olunmuşdur.

Şairin "Ürək nəğməsi", "İlk addımlar", "İkinci simfoniya", "Xəzər sahillərində", "Gənclik illəri"," "Döyüş yollarında" (poema), "Unudulmuş yaşəmən", "Ana ürəyi", "Anamın üzüyü", "Gecikmiş bahar", "Memarın məhəbbəti", "Şərəfli yol", "Yolda görüş", "Ağahüseyn Cavadov", "Ümid sərvləri", "Təzədən doğulur şair ölən gün", "Ata sorağında", "Qılınclar arasında", "Pyeslər" və s. kitabları Azərbaycan bədii ədəbiyyatının orijinal nümunələrindəndir.

Adil Babayevin "Dan yeri sökülür" poeması müharibə mövzusunda yazılmışdır. Bu əsər müharibənin vurduğu yaraların ağrı-acısını yaşayan gənc döyüşçünün həyatına həsr edilmişdir. Dağıdıcı müharibənin fəsadlarının şahidi olan döyüşçünün xəyal və düşüncələrini əks etdirən bu əsər gələcəyə ümidlə baxan bir insanın inamından bəhs edir. Adil Babayev hadisələri, faktları müşahidə edərək qələmə aldığı mövzuları əhatəli şəkildə təcəssüm etdirmiş, istər lirik, istərsə də epik əsərlərində maraqlı surətlər yaratmışdır. Vətənə məhəbbət, təbiətə sevgi, insana rəğbət hissi əsərlərinin əsas qayəsidir. Onun lirik şeirlərinin mövzusunu insan və onun mənəvi aləmi təşkil edir.

[1] İsa Həbibbəyli. Azərbaycan poeziyasının sonet şairi. / "Adil Babayev: taleyi və sənəti" (tərtib edəni: Ə.Quliyev, R.Qasımov, elmi redaktoru: E.Babayev) / – Bakı: Mütərcim, 2025, s.6

İnsana verdiyi dəyər, insanın mənəvi aləminin zənginliyi Adil Babayevin poetik boyalarla yaratdığı əsərlərin simvoluna çevrilir. Şair "İnsan ürəyi" şeirində bəşər övladının ucalığından, onun mənəvi dünyasından, şöhrətindən, amalından ilhamlanaraq yazır:

İnsan nəfəsindən səslənən sazam,
Şeirimə qanaddır insan diləyi.
Ən dərin ümmanım, ən geniş fəzam
İnsan ürəyidir, insan ürəyi...
Onun şöhrətindən güc aldı şeirim,
Odur sənətimin hüsnü, bəzəyi.
Ən geniş otağım, ən geniş yerim
İnsan ürəyidir, insan ürəyi.[1]

Satirik şeirlərində isə həyatda baş verən eybəcərliklər, yaltaqlıq, ikiüzlülük, riyakarlıq, bürokratizm, bir sözlə, cəmiyyətə yad olan bütün mənfiliklər tənqid və ifşa olunur. Adil Babayev lirik şeirlər, poemalar müəllifi olmaqla yanaşı, onun yaradıcılığında sonetlər xüsusi əhəmiyyət kəsb edirdi:

İnsan gəlir dünyaya, yaşayır, bir gün köçür,
Sağ ikən ölən də var, ölüb sağ qalan da var,
Günlərin əllərindən gah şirin şərbət içib,
Gah acı zəhər içir dünyada yaşayanlar.[2]

Şeirin ikinci misrasında "Sağ ikən ölən də var, ölüb sağ qalan da var" – deyən şair insanı fəlsəfi düşüncələrə dalmağa təhrik edir. Həqiqətən sağ ikən varlığı bilinməyən insanların cəmiyyətdə niyə, nə üçün yaşadıqları heç özlərinə belə bəlli deyil. "Ölüb sağ qalanlar" isə ölümündən sonra ölməzliyə qovuşan böyük sənətkarların əbədi olaraq ürəklərdə, qəlblərdə yaşaması, əbədiyyətə qovuşmasıdır.

Tədqiqatçı Aypara Behbudova şairə həsr etdiyi məqaləsində yazır: "Adil Babayevin lirikasının mühüm hissəsini onun sonetləri təşkil edir. Azərbaycan poeziyasında sonet janrına sistemli şəkildə yanaşan, onun gözəl nümunələrini yaradan, bu janra ədəbiyyatımızda tam vətəndaşlıq hüququ qazandıran Adil Babayev olmuşdur.

Şair özü də bu janra müraciət etməsinin səbəbini "Yolda görüş" adlı kitabına yazdığı "İllər və arzular" adlı ön sözdə belə əsaslandırmışdır: Mən müasirlərimlə öz fikirlərimi, arzularımı bölüşməyə daha çox ehtiyac hiss etdiyimdən, qələmimi ədəbiyyatın müxtəlif janrlarında sınamağa başladım.

[1] Adil Babayev. Ümid sərvləri. – Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1977
[2] Aypara Behbudova. Böyük arzulardır, Tanrım, məbədim. "Ədəbiyyat qəzeti", 23 yanvar 2015

Son illərdə yazdığım poetik əsərlərimin bir qismi sonetlərdir. Mən doğma poeziyamızda həmin janrın imkanlarından istifadə edib müasirlərimizin arzu və istəklərini, narahat əsrimizin həyəcanlarını qələmə alıram. Sonet eyni zamanda yığcamlığı ilə mənə xoş gəlir. Bizim gözəl bayatılarımız, qoşmalarımız kimi burada da sözün meydanı dar, fikrin meydanı isə geniş olmalıdır".[1]

Milli poeziyada sonet janrı XX yüzilliyin əvvəllərindən intişar tapmışdır. Əsasən, həmin dövrün qüdrətli türk şairlərindən Tofiq Fikrət, M.Ə.Yurdakul və b. şeirlərindən təsirlənən romantik şairlərimiz H.Cavid, A.Şaiq və başqalarının müraciət etdikləri bu janr 1920-1930-cu illərdə istedadlı şair M.Müşfiqin də yaradıcılığında geniş yer almışdır. 1956-cı ildən sonra sonet janrı yenidən ayrı-ayrı şairlərin yaradıcılığında görünməyə başladı. Adil Babayev isə bu janrın ən sədaqətli ustadı kimi bir-birinin ardınca 200-dən çox müxtəlif məzmunlu, rəngarəng poetik biçimli sonetlər müəllifi kimi məşhurlaşdı. Öz mənalı fəlsəfi ümumiləşdirmələri ilə diqqəti cəlb edən bu sonetlər həm də nəcib, saf təbiətli lirik qəhrəmanının zamanla bağlı duyğu və düşüncələrini əks etdirmişdir.

Görkəmli ədəbiyyatşünas-alimlərdən Abbas Zamanov və Cəlal Abdullayev birgə yazdıqları məqalədə Adil Babayevin sonet janrında qələmə aldığı poeziya incilərini şərh edərək yazırdılar: "Azərbaycan poeziyasında sonet janrına bu qədər ardıcıl, sistemli surətdə yanaşan, bu janra bizim ədəbiyyatımızda tam vətəndaşlıq hüququ qazandıran, onun gözəl nümunələrini yaradan da məhz Adil Babayevdir. Adilin sonet kimi çətin janra müraciəti həyat hadisələrinə daha dərindən nüfuz etmək, müşahidələrini və düşüncələrini aforizm şəkilində söyləmək üçün sonetin verdiyi bədii imkanlardan faydalanmaq arzusu ilə izah olunmalıdır. Doğrudan da, sonetdə lal axan çayların dərinliyi, şairin müdrik təmkinliyi duyulmaqdadır".[2]

Şairin sonetlərində mənəvi dünyasının incəliklərini aydın müşahidə etmək olur:

Bir parça çörəkçün əslini danan,
Namərdə əyilən, yada yalmanan
Gömülsün torpağa, çevrilsin toza.

Şairin qələmə aldığı digər lirik janrlarda az sözlə dərin fikir yaratmaq, lirik qəhrəmanın hiss və duyğularını poetik şəkildə oxucuya çatdırmaq bacarığı çox qüvvətlidir. Saf məhəbbət, ülvi hisslər, duyğularla çırpınan

[1] Aypara Behbudova. Böyük arzulardır Tanrım, məbədim. "Ədəbiyyat qəzeti", 23 yanvar 2015

[2] A.Zamanov, C.Abdullayev. Həmişə yolda, həmişə axtarışda. / "Adil Babayev: taleyi və sənəti" (tərtib edəni: Ə.Quliyev, R.Qasımov, elmi redaktoru: E.Babayev) / – Bakı: Mütərcim, 2025, s.29

qəlblərin səsini duymaq, onların ürək sözlərini qələminin sehri ilə sətirlərə düzmək şair qəlbinin sədasıdır. "Dünyaya yadigar" şeirində şair eşqlə döyünən bir ürəyin həsrətini, niskilini bədii boyalarla qələmə alaraq yazır:

Qara gözlərinin seyrinə dalmaq
Mənim ən səfalı səyahətimdir.
Eşqinlə döyünən yanar bir ürək
Sənə gəncliyimdən əmanətimdi.

Ömür kitabımda qızıl sətirsən,
Günümə, ayıma çökən ətirsən…
Günlərim, aylarım köç edib gedir,
Dünyaya yadigar məhəbbətimdir.[1]

A.Babayev yaratdığı lirik şeirlərində bədii təsvir və bədii ifadə vasitələrindən məharətlə istifadə edərək, fikrin poetik gücünü daha da artırmağa müvəffəq olmuş, məcazlardan yerli-yerində, ustalıqla faydalanması şairin bədii üslubunun zənginliyini isbatlamaqdadır.

Təbiət gözəlliklərinin tərənnümü şairin yaradıcılığında xüsusi önəm kəsb edir. Torpağına, elinə, vətəninin hər qarışına heyranlıqla məftun olan şair onu vəsf etməkdən yorulmur. Güclü müşahidə qabiliyyətinə malik şair gördüyü ən incə detalları belə gözdən qaçırmır, obrazlı şəkildə mənalandırmağı ustalıqla bacarırdı:

Gəl gedək, xəzana edək tamaşa,
Payızda meşənin özgə hüsnü var.
Qovaqlar, palıdlar verib baş-başa,
Bizə müntəzirdir ağcaqayınlar...

Başlanıb meşədə yarpaq tökümü,
Payız güllərinin rəngi saralmış,
Deyin, sevən qəlblər bu günə kimi
Nə zaman payıza biganə qalmış?![2]

Adil Babayevin "Dağlar qızı", "Yarımçıq portret", "Mənim məhəbbətim", "Qız görüşə tələsir" pyesləri oxunaqlı olmaqla yanaşı, həm də teatr səhnələrində tamaşaya qoyulmuşdur.

Xalq şairi Bəxtiyar Vahabzadə şair dostunun şahidi olduğu bir pyesinin yasaqlanması haqqında yazırdı: "Adil Babayev mühacirətdə olan azərbaycanlıların həyatından bəhs edən bir əsər yazmışdı. Pyes çox bəyənildi və o zaman bizim Əzizbəyov Dram Teatrında tamaşaya hazırlandı. İctimai baxış

[1] Adil Babayev. Ümid sərvləri. – Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1977
[2] Yenə orada

tamaşası da göstərildi. Şəhərə afişalar vuruldu. Primyera olmalı idi, amma tamaşanı kimlərinsə göstərişi ilə ləğv elədilər... Bu hadisə Adilə çox pis təsir etdi və o uzun zaman iflic vəziyyətində xəstə yatdı. Onun çox yaşamamağının bir səbəbi həyatdan aldığı zərbələr idi".[1]

Adil Babayev mütərcimlik peşəsi ilə də ciddi məşğul olmuş, dost xalqların əsərlərini tərcümə etməklə yanaşı, özünün də şeirlərinin başqa dillərə çevrilərək çap olunmasının qürurunu yaşamışdır. Bir sıra xarici ölkə dramaturqlarından M.Petrieskunun "Ölümü görmüş insan", Sao Yuyyanın "Tufan", Ş.Miloravanın "Tbilisi haqqında mahnı", N.Dumbadzenin "Darıxma ana", V.Vinnikov və Y.Osnosun "Ağ şanaküllə" və digər pyesləri onun tərcüməsində milli səhnəmizdə tamaşaya qoyulmuşdur.

Adil Babayevin mühitində cərəyan edən hadisələr, cəmiyyəti silkələyən problemlər onun əsərlərinin mövzusuna çevrilirdi. Onun əsərlərinin təsirliliyi və gücü onun geniş erudisiyaya malik olmasında idi. Altmışıncı illərdə nəğməkar şair kimi şöhrətlənən Adil Babayevin yaradıcılığına həsr olunmuş elmi məqalələr, monoqrafiyalar yazılmışdır. Azərbaycantelefilm Yaradıcılıq Birliyində çəkilmiş "Ata olsam belə, ata istərəm" tammetrajlı sənədli film şairin mənalı ömrünün əbədiləşməsinə xidmət edir. Təbiətən sakit, mülayim olan Adil Babayev haqqında Xalq şairi Osman Sarıvəlli məhəbbətlə yazmışdı:

Görünür xeyirxah olub təbiət,
Qıymayıb sözlərin şeiriyyətinə.
Gör necə xoşbəxtsən, Adil, doğrudan,
Adın müvafiqdir təbiətinə.[2]

Bir çox ədəbi janrlarda qələmini sınayan və zəngin yaradıcılığa malik olan Adil Babayevin dostları, həmkarları onun istedadına, qazandığı uğurlara biganə qalmamış, dövri mətbuat səhifələrində Səməd Vurğun, Nəbi Xəzri, Bəxtiyar Vahabzadə, Nəriman Həsənzadə, Mirzə İbrahimov, Mehdi Hüseyn, Məmməd Cəfər Cəfərov, Abbas Zamanov, Kamal Talıbzadə, Yaşar Qarayev, İsa Həbibbəyli və başqaları onun yaradıcılığı haqqında şeirlər, məqalələr dərc etdirmişlər.

Dünyaya gəlişindən nisgilli, keşməkeşli taleyin qəlbinə, şüuruna saldığı dərin şırımlar səbəbindən ömür yolu yarımçıq kəsilsə də, böyük istedad və zəhmətlə yaratdığı bənzərsiz əsərləri Adil Babayevə milli ədəbiyyat tariximizdə əbədi həyat bəxş etmişdir.

[1] Bəxtiyar Vahabzadə. Adilin mənim qəlbimdə öz yeri var / Adil Babayev: taleyi və sənəti. – Bakı: Mütərcim, 2025, s.18

[2] Osman Sarıvəlli. Ad və təbiət / Adil Babayev: taleyi və sənəti. – Bakı: Mütərcim, 2025, s.174

GƏRAY FƏZLİ
(1925-1995)

Gəray Fəzlinin Azərbaycan ədəbiyyatında vətənpərvər şair, görkəmli nasir və publisist kimi, özünəməxsus yeri var. O, respublikada gedən ictimai proseslərin bədii inikası kimi, xüsusi maraq doğurmuş yaradıcılığı ilə xalqımızın mədəni-əxlaqi tərbiyəvi işində böyük rol oynamışdır. Zəngin yaradıcılığı ilə ədəbi ictimaiyyətin və geniş oxucu auditoriyasının dərin rəğbətini qazanmış, həyatını Azərbaycan ədəbiyyatının və mədəniyyətinin inkişafına həsr etmişdir.

Həyatı. Gəray Fəzli oğlu Alimov 14 noyabr 1925-ci ildə Dağıstanın Rutul rayonunda anadan olmuş, uşaqlıq illəri Qax rayonunun İlisu kəndində keçmişdir. Orta təhsilini İlisu kəndində almış, sonuncu sinifdə oxuyarkən müharibə başlamış, Gərayın 17 yaşının tamam olmamasına baxmayaraq, o, hərbi komissara ərizə yazaraq əsgərliyə getmiş, bəşər tarixinin ən dəhşətli müharibəsinin iştirakçısı olmuşdur (1942-1945). Səngərlərdə hərbi peşələrə, snayperlik bacarığına yiyələnmişdir. Dəfələrlə düşmən gülləsinə tuş gəlmiş, Belqorod şəhəri ətrafında və Dnepr uğrunda döyüşlərdə dəfələrlə yaralanmış, "müalicə üçün arxa cəbhəyə göndərilmişdir. Yaraları sağalmamış yenidən döyüş meydanına qayıtmışdır. Müharibənin sonuna yaxın sağ qolundan və boğazından ağır yaralanmışdır. Müharibədən dönən Gəray, anasının vəfat etdiyini, bacısının yadların himayəsində olduğunu eşitmiş, bu da ona bir zərbə olmuşdu. "Həyatda yeganə doğması olan bacısını özgə himayəsindən "azad" etmişdir".[1]

Məktəb illərində məlahətli səsi ilə ürəkləri fəth edən gənc Gəray səs tellərinə dəyən düşmən gülləsindən səsini itirmişdir. Payızda dünyaya gəlsə də, müharibədən sonra o, ad gününü həmişə 9 mayda qeyd etmişdir. Buna səbəb II Dünya Savaşında dəfələrlə ağır yaralansa da, sağ qalması olmuşdur. Nəvəsi filologiya elmləri doktoru, professor Şəfəq Əlibəyli yazır: "Sanki bütün ili bu günün həsrəti ilə yaşayırdı, mayın 9-u, Qələbə günü ilə. Təqvimdə həmin gün çatanda onun üzündə kədərlə sevinc, göz yaşı ilə təbəssüm bir-birini əvəz edərdi. Sevinc – qələbə sevinci idi. Kədər – müharibədə qoyub gəldiyi dostlarının, itirdiyi səsinin kədəri idi. Könüllü olaraq müharibəyə gedən və müharibə dəhşətlərini öz gözləri ilə görmüş, boğazına dəyən düşmən gülləsindən sonra səsini itirmiş olsa da, cəbhədə qazandıqları daha çox olmuşdu: iradə, dözüm, mərdlik, kamillik, ləyaqət, mübarizlik, ən əsası da qələbə və qələm".[2]

---

[1] Akif Cabbarlı. ...Yalnız el yükünə vətəndir könlüm. "Ədəbiyyat qəzeti", 5 noyabr 2020

[2] Şəfəq Əlibəyli. Unudulmaz Gəray Fəzli: insan, döyüşçü və şair taleyi. "525-ci qəzet", 5 may 2017

G.Fəzli cəbhədə qazandıqları haqqında "Yazıçı xəyalı, oxucu həqiqəti" adlı məqaləsində yazır: "Mən öz tərcümeyi-halıma borcluyam... Bunu deyərkən, 1941-45-ci illərə təsadüf edən, ən romantik, ən coşqun və eyni zamanda ən yetkin dövrü nəzərdə tuturam. Müharibə deyilən o mənhus tufanın qısa müddətə mənə bəxş etdiyi çox qiymətli keyfiyyətləri nəzərdə tuturam. Doğrudur, Böyük qələbənin qazanılmasında mənim kiçik də olsa, payım var, ancaq vətəndaş kimi, qələm əhli kimi, həmin qələbənin payı misilsizdir. Tərcümeyi-halımın "çılpaq faktlar okeanında rast gəldiyim hər şey xalqımın, vətənimin, dünyanın taleyi ilə bağlı olduğu üçün özümü necə də xoşbəxt hiss edirəm. Hər il Qələbə bayramı günlərində köksümü dolduran fərəh və iftixar hissinin böyük mənasını sözlə ifadə etməkdə çətinlik çəkirəm. Bu, mən deyərdim ki, dünyada hələ heç kəsə nəsib olmayan, son dərəcə qiymətli, əzəmətli və müqəddəs bir hissdir, tarixin ən böyük döyüşlərindən qələbə ilə çıxan bir əsgərin mənəvi xoşbəxtliyi, daxili zənginliyidir".[1]

"Cəbhə yolu, səngər ömrü" atası sürgün olunduqdan sonra uşaq evində böyümüş, könüllü müharibəyə getmiş yeniyetmə Gəray üçün ömür salnaməsinin ən şərəfli və unudulmaz səhifələri olmuşdur:

Mən səngərdə öyrənmişəm,
Dost yolunda candan keçmək.
El yolunda ölmək nədir,
Düşünürəm cəbhə yolum
səngər ömrüm,
hələ tamam oxunmamış salnamədir.[2]

Gəray təhsilini yarımçıq qoyub döyüşə getsə də, müharibədən sonra təhsilini davam etdirmişdir. "Orta təhsilini başa vuraraq Azərbaycan Pedaqoji İnstitutuna (indiki N.Tusi adına Universitet) daxil olmuşdur. Universiteti bitirdikdən sonra Qax rayonuna təyinat almışdır. Rayonun Güllük kənd orta məktəbində əvvəlcə dil-ədəbiyyat müəllimi işləmişdir. Bir qədər sonra həmin təhsil ocağına direktor təyin edilmişdir. Elə həmin illərdə respublika mətbuatında dərc olunan Gəray Fəzli imzalı şeirləri oxucular tərəfindən rəğbətlə qarşılanmış, ədəbi ictimaiyyətin diqqətini çəkmişdir. O, 1952-ci ildə Azərbaycan Yazıçılar Birliyinin üzvü seçilmiş, dövrün görkəmli şair və yazıçılarından S.Vurğun, M.İbrahimov, R.Rza, S.Rüstəm, M.Rahim, B.Vahabzadə, N.Həsənzadə, Qabil və b. G.Fəzlinin bədii yaradıcılığı haqqında müsbət rəy bildirmişlər.

[1] Azərbaycan 1941-1945-ci illər Böyük Vətən müharibəsində: biblioqrafiya / Tərt. ed.: M.Vəliyeva, H.Manafova, X.Abbasova; elmi red. K.Tahirov; red. M.Cəfərova. – Kitab 1: (Azərbaycan dilində). – Bakı, 2020, s.30-31

[2] Aynurə Əliyeva. Bir Gəray Fəzli vardı... https://medeniyyet.info.az/page/news/50683/Bir-Geray-Fezli-vardi.html

1957-ci ildə Azərbaycan Radio və Televiziya Komitəsinə işə dəvət olunmuş, bacarıqlı redaktor kimi tanınmışdır. Komitədə işlədiyi illər ərzində neçə-neçə telejurnalistin himayədarı olmuş, onların püxtələşməsi üçün əlindən gələni əsirgəməmişdir. Bunun nəticəsi olaraq komitədə Gəray Fəzliyə "ustad" – deyə müraciət olunmuşdur".[1] O, komitədə çalışdığı illərdə radionun uşaq şöbəsində redaktor, böyük redaktor, televiziyanın ədəbi-dram verilişləri baş redaksiyasında şöbə müdiri, baş redaktorun müavini (1983-1991) vəzifələrində çalışmışdır.

Gəray Fəzli "Hikmət" (1991-1992), "Axtarış" (1992), "Kəndin səsi" (1993-1995) qəzetlərinin baş redaktoru olmuş, 26 dekabr 1995-ci ildə Bakı şəhərində vəfat etmişdir.[2]

Yaradıcılığı. Gəray Fəzli 1954-cü ildə nəşr etdirdiyi "Ölkəm"[3] adlı ilk kitabı ilə ədəbiyyata gəlmişdir. Onun bir-birinin ardınca "Mənim səsim" (1956), "Təzə ünvan" (1961) adlı şeir topluları çap olunmuşdur. Həyatını paytaxtda, Bakı şəhərində davam etdirən şair şeirlərində Bakının füsunkar gözəlliyini, Xəzərin lacivərd dalğalarını, dənizdən doğan Günəşi bir rəssam kimi sözlə vəsf etmişdir:

Odur bax, nə isə çıxır Xəzərdən,
Dəyir bir-birinə yatmış dalğalar.
Sanki bir əl gəzir göy ləpələrdə –
Kimsə qalay çəkir sulara par-par.

Xəzər duvağını atır üzündən.
O bir ayna olur, günəş bir gəlin,
Baxır camalına, baxır doyunca.
Baxaraq hüsnünə iki gözəlin
Mən də yeriyirəm sahil boyunca.[4]

"Ağ qanadlı ləpələrdən ilham alan, könlü sulara öz dilində nəğmə demək, söz qoşmaq istəyən şair sevgisini misralara pıçıldayıb: "Mən Xəzərə vurulmuşam!"

"Sahil axşamı" şeirində isə bu gözəlliyi əks etdirmək, dənizi, "üfüqdə saralan günün", "Günəşin Xəzərdə qalan" və rəngli sap kimi sulara düzülən ziyasını" rəsm etmək, axşamın hüsnünü çəkmək üçün, "Gərək başqa fırça,

[1] Ələsgər Cabbarov. Güllələnmiş səsin hekayəti. manera.az
[2] Teymur Əhmədov. Gəray Fəzli. Azərbaycan yazıçıları XX-XXI yüzillikdə. – Bakı: Nurlar, 2011, s.361
[3] Gəray Fəzli. Ölkəm. – Bakı: Uşaqgəncnəşr, 1954
[4] Gəray Fəzli. "Günəş Xəzərdən doğur" XX əsr Azərbaycan poeziyası. IV kitab. 50-ci illərin poeziyası. – Bakı: Elm, 2013, s.350-355

başqa rəng, bir rəssam ola". Şəhərin gözəlliyindən ilham alan şair, "Bakını on beş günlük aya bənzətmişdir:

Günəşin Xəzərdə qalan ziyası
Düzülüb sulara rəngli sap kimi.
Gərəksiz görünür "göyün aynası"
Oxunub örtülən bir kitab kimi.

Demə axşamın da öz cəlalı var,
Bakı on beş günlük bir Aya bənzər.
Zığdan Şıxa qədər saysız işıqlar
Aynada əks olan ziyaya bənzər.[1]

Gənc yaşlarından ədəbi fəaliyyətə başlayan Gəray Fəzli nasir kimi də özünü sınamışdır. "İldırımlı dağlar" (1972), "Kəhrəba işığında" (1974), "Səadətin ünvanı" (1976), "Yeddi ulduzlu səma" (1978), "Gecə günəşi" (1981), "Bir qəlbin asimanı" (1983) və s. adlı nəsr əsərləri və "portret cizgiləri" seriyasından sənədli povestlər, oçerklər yazmışdır.

G.Fəzlinin nəsr sahəsində ilk uğuru "İldırımlı dağlar" adlı kəskin süjetli romanı olmuşdur. "Azərbaycan" jurnalında hissə-hissə yayınlanan roman ədəbi ictimaiyyətin diqqətini cəlb etmişdir. Yazıçı, dramaturq, ictimai xadim Mirzə İbrahimov mətbuatda G.Fəzlinin poeziyadan nəsrə keçməsi haqqında fikir bildirmişdir: "Azərbaycan" jurnalının keçən il son nömrələrində "İldırımlı dağlar" adlı bir roman çap olunmuşdur. Onun müəllifi Gəray Fəzlini oxucular bir şair kimi tanıyırdılar. İndi də o, qələmini nəsr sahəsində sınamağı qərara almış və iri formatlı bir əsər yazmışdır. Nə olar ki, bədii ədəbiyyatın janrları və növləri arasında heç bir zaman Çin səddi olmamış və yoxdur. Hərgah yazıçı bu və ya digər janrda əsər yazmaq daxili zərurət duyursa, ruhu, qəlbi ilə buna hazırdırsa, yazması təbii və yaxşıdır. Yazmaq üçün çox şey lazımdır. Hamısından da əvvəl həyat və insanlar barədə adilikdən yüksək olan fikirlər, ehtiraslar və müşahidələr. Bunlar ürəyə, beyinə dolubsa, sənə rahatlıq vermirsə, yazmamaq olmaz. Müəllif ilhamla yazanda, hər bir mövzu: mündəricə və material özünə müvafiq bədii forma tapır. Ancaq belə olduqda material hekayəyə, romanlıq material da romana sığışır. "İldırımlı dağlar"ı oxuduqca məndə belə qənaət hasil olurdu ki, onun müəllifi məhz bu cür hərəkət etmişdir, həyati müşahidələr, həyati hisslər və təəssürat sayəsində roman yazmaq ehtiyacı duymuş və bu başdan deyim ki, maraqla oxunan bir əsər yaratmışdır. Mənə elə gəlir ki, bədii əsər üçün, xüsusən böyük

[1] Gəray Fəzli. "Günəş Xəzərdən doğur" XX əsr Azərbaycan poeziyası. IV kitab. 50 illərin poeziyası. – Bakı: Elm, 2013, s.350-255

formatlı nəsr əsəri üçün bu, yəni əsərin maraqla oxunması əhəmiyyətli keyfiyyətdir".[1]

G.Fəzli "İldırımlı dağlar" romanında yaşadığı günlərin Azərbaycan kəndinin bir sıra səciyyəvi hadisələrini, insanlarını və onların arzu və əməllərini təsvir etmiş, şairanə və səciyyəvi təbiət təsvirləri ilə romanına rövnəq vermişdir. Romanın səhifələrindən Azərbaycan torpağının, Azərbaycan kəndinin ətri, Azərbaycan dağlarının sərin, təmiz havası duyulur. Müəllif, romandakı surətləri də eyni hərarətlə təsvir etmişdir.

Mövzu etibarı ilə "İldırımlı dağlar" ənənəvi sovet romanıdır. Əsərdəki hadisələr Günəşlidə, "Oktyabr" kolxozunda cərəyan edir. Kolxozda çalışan zəhmətkeşlərin həyatını əks etdirən romandakı obrazlardan ikisi xüsusi olaraq diqqət çəkir. Bunlardan biri "Oktyabr" kolxozunun sağıcısı Nərgiz, digəri isə kolxoza yenicə gəlmiş zootexnik Nigardır.

Nərgiz və Nigar gəncdir. Onlar zahirən də bir-birinə çox bənzəyirlər. Bəzən kolxozçular onları bir-birindən ayırmaqda çətinlik çəkirlər. Onların bənzərliyi yalnız zahiri bənzərlik deyil. Daxili, mənəvi cəhətdən də onlar bir-birini tamamlayır.

Nərgiz və Nigar yeni gəncliyin nümayəndələridir. Onlar hər şeydə və hər vəziyyətdə haqqın, həqiqətin tərəfində durur, vicdanlarının səsini dinləyirlər. Bu gənclər, daha doğrusu, həyatda çətinliklərə, ziddiyyətlərə rast gəldiyi zaman özünü itirmirlər. Başqalarının "qövlü ilə feili,[*] sözü ilə işinin tutmadığını, yaxşı sözləri riyakarlıq vasitəsinə çevirərək həqiqəti tapdaladığını gördükdə "bu nədir? Bizə belə öyrətməyiblər, dünyada həqiqət yoxdur!" – deyib bədbin olmur, ruhdan düşmürlər. Əksinə, mübarizə aparırlar. Yəni hər iki obraz əsl sovet gənci, "yeni insan"dır.

"Yeddi ulduzlu səma" romanında isə müəllif, müharibənin bütün ağırlıqlarını görmüş, gözəl insani keyfiyyətlərə malik olan baş qəhrəmanın fonunda yeni nəslin vətənə olan məhəbbətini, qurub-yaratmaq əzmini və müasir kəndin zəhmət adamlarını əks etdirmişdir.

"Bəşəriyyətin ümumi dərdi olan müharibələr həmişə dəhşət saçmış, faciəyə çevrilmiş və kütləvi ölümlər gətirmişdir. Həyatın və zamanın çoxlu cəngi-cidalları olur və bu gün də var. Çağımızda bu hədd, hüdud tanımır (Uzun illər davam edən müharibələr: İraq, Ukrayna, Fələstin və s.). Amerikalı şair və nasir Herman Melvinin müharibənin insan həyatında əbədi-əzəli olmasını və eyni zamanda faciəvi hadisə kimi və tarixi faktlarla "İzrail Potter əlli il sürgündə" romanında təsvir etmişdir. Müəllifin müharibəyə olan ikrah hissi əsərdə qəhrəmanın dili ilə deyil, müəllif tərəfindən göstərilmişdir.

[1] Mirzə İbrahimov. Günəşlidə mübarizə: (Gəray Fəzlinin "İldırımlı dağlar" romanı haqqında). – Bakı: "Kommunist" qəzeti, 1968, 9 aprel, s.4

[*] Qövl – Söz, danışıq; fail – iş görən, yaradan, əməklə məşğul olan

Yazıçı cəmiyyətə və insan həyatına bəla gətirmiş müharibənin harmoniyanı pozduğunu, hər şeyin xaosa, özbaşınalığa çevrildiyini yüksək bədii təsvirlərlə əks etdirmişdir. "Kəhrəba işığında", "Yeddi ulduzlu səma", "Gecə günəşi", "Bir qəlbin asimanı" romanları da bilavasitə böyük bir döyüş yolu keçmiş nasirin dərin həyati müşahidələrinin və "səngər ömrünün" məhsuludur. Romanları oxuduqca belə qənaətə gəlinir ki, ölümlə üz-üzə gələnlərə, əbədiyyətə qovuşan hər bir şəhidə, fiziki sağlamlığını itirən, bədənində qəlpələr gəzdirən qazilərə borcluyuq". [1]

G.Fəzli ədəbi tənqidi yazıları ilə diqqətçəkən yazıçı Vaqif Osmanovun ədəbiyyata gəlməsində əhəmiyyətli rol oynayıb. V.Osmanov müsahibələrinin birində "Sizdə tənqidi məqalələr yazmaq istəyi necə yarandı?" – sualına belə cavab verib: "Ədəbi tənqidə 1979-cu ildə Gəray Fəzlinin "Yeddi ulduzlu səma" romanını oxuyandan sonra başladım, – desəm, düz olar. Balakəndə müəllim işləyirdim. Romanı oxuyub romandakı ikili ömür yaşayıb bir məzarda uyuyan Ayxan – Eldar obrazını insanın mənəvi aləminin zirvəsinə bənzədərək, ünvanını dəqiq bilmədiyim müəllifə "Oxucu düşüncələri"mi yazdım və cavab aldım. Gəray müəllim mənim, özü demişkən, nöqtəsi, vergülü yerində olan məktubumdan sevindiyini bildirirdi. Az keçməmiş Azərbaycan Televiziyasının Gəray Fəzlinin yaradıcılığına həsr olunmuş verilişində şair Qasım Qasımzadə həmin məktubdan bir neçə cümlə oxuyanda uçmağa qanad axtarırdım. Hələ üstəlik Gəray müəllimin cavab məktubunun yaratdığı ovqatı demirəm..."[2]

Bu, gənc nəslin təlim-tərbiyəsində, peşəyə və təhsilə istiqamətlənməsində ədəbiyyatın, yazıçının gücünün təsdiqi, oxucusunun gələcək yolunu seçməsində yazıçının xidməti və uğurudur. Oxucu əsərinin qəhrəmanının vətən sevgisinin işığına büründüyünü etiraf edir: "Kəhrəba işığında" əsərinin qəhrəmanı Nahidin Vətən sevgisi düşüncələrimin işığına dönüb. Əsgər Nahidin "Nişan alanda hədəfi Vətən sevgisi işıqlandırır", – qənaəti ürəyini telləndirib. Gəray Fəzlinin "Kəhrəba işığında" romanının üzərindən uzun illər keçsə də, ədəbi tənqidçi Vaqif Osmanov Gəray Fəzlinin "Kəhrəba işığında" romanı əsgərlərlə söhbətlərimdə istifadə etdiyi əsərlərdən olduğunu vurğulayaraq deyib: "Zəngilan rayon ərazi özünümüdafiə taborunun komandiri olanda əsgərlərə Nahidin düşüncələrindən də danışırdım, Vətəni Nahid kimi sevməyin gərəkliyini deyirdim".[3]

[1] Herman Menville. "İzrail Potter sürgünde 50 yıl" (Cevirmen Kahraman Türel). İstanbul, Seyhan kitab, 2006

[2] Ədəbi tənqidçi Vaqif Osmanov (Müsahibə). Söhbəti Elvin Rizvangil apardı / edebiyyat.az

[3] Yenə orada

Gəray Fəzli yaradıcılığını təhlilə çəkən və nasir haqqında söz yazan Akif Cabbarlının "...Yalnız el yükünə vətəndir könlüm" məqaləsi də Nahidin dediyi işığın zərrəsidir".

Gəray Fəzlini özünə ustad bilən Akif Cabbarlı məqaləni nasirin kəlamı ilə yekunlaşdırmışdır: "Ürək insanlığın çox mühüm, bəşəri problemlərindən biridir. Bu dünyada heç kəs insanların qiymətli könül səltənətini qorumaqdan, könül azadlığı və səadəti uğrunda gedən mübarizədən kənarda qalmamalıdır, heç kəs!"

Ümumiyyətlə, cəbhəçi-yazıçı cəmiyyətdə baş verən proseslərə biganə qalmamış, nəsr əsərləri ilə yanaşı, günün ən aktual problemlərinə dair dövri mətbuatda publisist məqalələri ilə mütəmadi çıxış etmiş, "Portret cizgiləri" seriyasından sənədli povestlər, oçerklər yazmışdır. Şair "Mənim səsim" şeirində ömür yolunun ən ağrılı məqamlarını əks etdirmiş, şeir onun haqqında ballada kimi məşhurlaşmışdır.

Gəray Fəzlinin yaradıcılığı ədəbi ictimaiyyətin, məşhur söz adamlarının diqqətini çəkmiş, layiqli qiymətini almışdı.[1] Vaxtilə onunla çiyin-çiyinə çalışmış Fikrət Qoca, Cəmil Əlibəyov, Nahid Hacızadə, Tahir Paşazadə, Firudin Ağayev, Emin Mahmudov, Tofiq Rüstəmov, Nailə Muradxanlı, Ramiz Həsənoğlu, Bünyad Məmmədov, Ələkbər Abbasov, Hafiz Baxış, Nadir Diridağlı kimi söz adamlarının, rejissorların söhbətlərində, müsahibələrində çoxlarına örnək olası nəcib keyfiyyətləri, mərd xüsusiyyətləri ilə yad olunmuşdur. "Onun şair və yazıçı dostları arasında Qabilin, Əliağa Kürçaylının, İmamverdi Əbilovun, Nəriman Həsənzadənin, Novruz Gəncəlinin, Atif Zeynallının adlarını çəkmək olar".[2] Xalq şairi Nəriman Həsənzadə dostu Gəray Fəzli haqqında "İtirilmiş səs" adlı poema yazmışdır.

Gəray Fəzlini yaxından tanıyanlar onun, səbirli, təmənnasız bir ömür yaşadığını, ləyaqətli, gözütox, "həyatında baş verən irili-xırdalı problemləri təmkinlə həll etməyə"[3] çalışan bir insan olduğunu vurğulamışdır. Heç nə onu sındıra bilməmişdir. A.Cabbarov yazırdı: "Onun yeganə güvənc yeri şikəst barmaqlarını döyənək edən qələmi idi. O, ailəsi ilə kirayədə yaşayanda da, sonralar heç bir kommunal şəraiti olmayan ikiotaqlı mənzildə ayları, illəri yola salanda da, hökumət evinin qənşərindəki 16 mərtəbəli binada rahat

---

[1] Mənalı ömrün səhifələri: (Gəray Fəzlinin "Yeddi ulduzlu səma" kitabı haqqında) /Tofiq Mahmud //Azərbaycan gəncləri. –1980. – 3 yanvar..; Bünyadov, Ziya Musa oğlu. Gəray Fəzlinin təəccüb və heyrəti haqqında [Mətn] / Z.Bünyadov // Elm, 1991, 28 sentyabr.; Ələsgər Cabbarov – Güllələnmiş səsin həkayəti, Azərbaycan, 30 iyul 2009, 6,; Uğur olsun. (Gəray Fəzlinin "Təzə ünvan" kitabı haqqında). "Bakı", 1962, 2 mart; Günəşlidə mübarizə: (Gəray Fəzlinin "İldırımlı dağlar" romanı haqqındaO / Mirzə İbrahimov // "Kommunist", 1968, 9 aprel, s.4

[2] Akif Cabbarlı. "...Yalnız el yükünə vətəndir könlüm" / "Ədəbiyyat qəzeti", 05.11.2020

[3] Ələsgər Cabbarov. Güllələnmiş səsin hekayəti. https://anl.az/down/meqale/azerbaycan/azerbaycan_iyul2009/87556.htm

mənzilə köçəndə də eyni təbdə idi. Başqa sözlə, həyatın hər üzünü görən cəbhəçi-yazıçı İlahinin ona verdiyi ömür payının bütün məqamlarında ləyaqətini qoruyub saxlamağı bacaran, müvazinətini itirməyən şəxsiyyət idi. Yazıçılar Birliyində növbəti mənzil bölgüsündə yazıçı Gəray Fəzli "yaddan" çıxanda o, bunu adi hal kimi qəbul edərək zarafatyana demişdi: "Görünür, bu dəfə də kimsəlilərin "bəxti" gətirdi. Vaxt gələr, biz kimsəsizlərə də kömək əlini uzadan tapılar. Bu söhbətdən bir neçə gün sonra Gəraya sözügedən binada mənzil verilir və məlum olur ki, bu işi məmurlar Ulu öndər Heydər Əliyevin şəxsi göstərişindən sonra icra ediblər. Bu xeyirxah işdə Xalq şairi Bəxtiyar Vahabzadənin Gəray Fəzlinin kimliyi, sosial vəziyyəti barədə respublikanın rəhbərinə "məlumatı" əhəmiyyətli rol oynayıbmış"[1].

Bütün məqamlarda ləyaqətini qoruyub saxlamağı bacaran şair Gəray Fəzli isə o vaxtlar vətəni Azərbaycana olan böyük sevgisini əsərlərində təqdim edirdi:

İstər al qumaşa tutalar məni
İstər yanar oda atalar məni
Səsləyə dənizlər, adalar məni
Sənsən son mənzilim, axır ünvanım
Azərbaycanım.[2]

Gəray Fəzlinin vətənə, həyata, gələcəyə ünvanlanan, onun yaradıcılıq bioqrafiyasının fəlsəfəsini ortaya qoyan misraları bu gün də aktualdır, cəlbedicidir:

Özüm də sirrini bilmirəm nədir –
Bir dərya etibar, bir ümman sətir –
Elə bil tək mənim ürəyimdədir,
Səmadır, səhradır, çəməndir könlüm,
Sevgiyə, sevdaya vətəndir könlüm.
Demirəm hər yükü çəkəndir könlüm,
Yalnız el yükünə vətəndir könlüm.[3]

Gəray Fəzlinin yaradıcılığı yalnız ədəbi aləmdə deyil, dövlət səviyyəsində də yüksək qiymətləndirilib. Ümummilli lider Heydər Əliyev 2 mart 1995-ci ildə, şairin 70 illik yubileyində ona təbrik məktubu ünvanlamışdır. Məktubda yazılmışdır:

"*Yazıçı Gəray Fəzliyə*.

Sizi 70 illik yubileyiniz münasibəti ilə ürəkdən təbrik edirəm. Azərbaycan xalqı Sizi, həyatınızı ədəbiyyatımızın və mədəniyyətimizin inkişafına

[1] Ələsgər Cabbarov. Güllələnmiş səsin hekayəti. manera.az
[2] Yenə orada
[3] Yenə orada

həsr etmiş vətənpərvər şair, görkəmli nasir və publisist kimi tanıyır. Siz dəyərli yaradıcılıq nümunələrinizlə geniş oxucu kütləsinin dərin rəğbətini qazanmısınız. Müxtəlif illərdə çap etdirdiyiniz bir sıra şeir və nəsr kitabları xalqımızın mədəni-əxlaqi tərbiyəvi işində böyük rol oynamış, Azərbaycanda gedən ictimai proseslərin bədii inikası kimi, xüsusi maraq doğurmuşdur.

Heydər Əliyev, Azərbaycan Respublikasının Prezidenti"[1]

Ümummilli liderin vurğuladığı kimi, "Gəray Fəzli həyatını ədəbiyyatımızın və mədəniyyətimizin inkişafına həsr etmiş", görkəmli şair, nasir və publisist kimi tanınmış və sevilmişdir.

Nəğməkar şair Gəray Fəzlinin şeirlərinə Əfrasiyab Bədəlbəyli, Süleyman Ələsgərov, Telman Hacıyev, Adil Gəray, Musa Mirzəyev və b. tərəfindən mahnılar bəstələnmişdir.[*] "Rübabə Muradova, Şövkət Ələkbərova, Zeynəb Xanlarova, Yalçın Rzazadə kimi korifeylər, Hüseynağa Hadıyev, Təranə Vəlizadə kimi tanınmış sənətkarlar mahnılarını oxumuşlar. Xalq artisti Zeynəb Xanlarovanın ifasında səslənən şairin aşağıdakı misraları bu gün də sevən gənclərin qəlbini titrədir:

Baxıram arxanca hey gizli-gizli
Sən qəlbi kövrəksən, mən qəlbi sözlü
Sən ismi-pünhansan, mən Gəray Fəzli
Mən səni sevmişəm səndən xəbərsiz
Yaxından xəbərsiz, gendən xəbərsiz".[2]

Ədəbiyyat aləmində özünəməxsus yeri, sevilən nəsr əsərləri və poeziya nümunələri olan nəğməkar şair Gəray Fəzli çox məshuldar yaradıcılıq yolu keçmiş, şərəfli bir həyat sürmüş milli sənətkardır.

---

[1] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Üçüncü kitab. Çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr. – Bakı: Azərnəşr, 1997, s.116

[*] "Sən olmuşam" musiqisi Emin Sabitoğlu, "Kür boyunda – musiqisi Telman Hacıyev, Bariton və xor üçün "Dünya xalqları sülhün keşiyində" adlı vokal-simfonik poema – musiqisi Əfrasiyab Bədəlbəyli, "Xatirə" – musiqisi Süleyman Ələsgərov, "Ana kəndim" – musiqisi Adil Gəray, "Bağçada gül" – musiqisi Musa Mirzəyev və s.

[2] Ələsgər Cabbarov. Güllələnmiş səsin hekayəti. manera.az

CAVAD CAVADLI
(1926-2015)

Tanınmış şair, Azərbaycan uşaq ədəbiyyatının və maarifçi publisistikanın məhsuldar yaradıcısı olan Cavad Cavadlı keşməkeşli və şərəfli ömür yolu keçmişdir.

Həyatı. 12 aprel 1926-cı ildə Naxçıvan Muxtar Respublikası Şərur rayonunun Dəmirçi kəndində dünyaya göz açmış Cavad Ələsgər oğlu Cavadlının tale dramı cəlbedici bir filmin süjeti qədər maraqlı və ibrətamizdir. O, 1937-ci ildə hələ məktəbli ikən ailə üzvləri ilə birlikdə Dəmirçi kəndindən uzaq Qazaxıstanın qarlı-səhralı çöllərinədək ağır sürgün yollarından keçərək çox çətin günlər yaşamışdır. Atası Ələsgər kişinin dini ədəbiyyatı oxuyub öyrətdiyinə görə həbs edilərək, Belomorkanaldakı cəza evinə göndərilməsi, anası Keysu xanımın kiçikyaşlı beş uşaqla Qazaxıstan səhralarına sürgün edilməsi məktəbli Cavadın yaddaşında silinməz izlər buraxmışdır. On iki-on dörd yaşlarında iki dəfə sürgündən qaçaraq Qazaxıstandan doğma kəndlərinə gəlib çıxması o dövrün sərt rejimi ilə müqayisədə inanılması mümkün olmayan fantastik hadisə təsiri bağışlayır. O zaman Noraşen (indiki Şərur) rayonu partiya komitəsinə rəhbərlik edən gələcək yazıçı Süleyman Rəhimovun qayğısı sayəsində xilas olan "sürgündən qaçmış uşaq" böyük çətinliklər bahasına Dəmirçi kənd məktəbində təhsilini davam etdirmişdir. İkinci kursa keçənə qədər Naxçıvan Kənd Təsərrüfatı Texnikumunun aqronomluq şöbəsində oxumuşdur. 1941-45-ci il müharibəsinin başlanması ilə əlaqədar olaraq həmin texnikum fəaliyyətini dayandırdıqdan sonra isə 1944-cü ildən təhsilini Naxçıvan Müəllimlər İnstitutunda davam etdirən Cavad Cavadlı "xalq düşməni" ailəsinin üzvü olmağın minbir məşəqqətlərini yaşamış, lakin böyük bir iradə ilə təhsil almaq sahəsində fədakarlıq göstərmişdir.

İkinci Dünya müharibəsinin yenicə başa çatdığı ağır illərdə ailədən kömək almaq imkanlarını itirmiş gənc Cavadın Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsində ciddi çətinliklər bahasına ali təhsili başa çatdıra bilməsi yalnız böyük iradəsi, qeyri-adi həyat eşqi sayəsində mümkün olmuşdu. Tələbəlik dövrünü əhatə edən 1945-1950-ci illər Cavad Cavadlı üçün çətin və şərəfli həyat məktəbi mərhələsi idi. Sonralar rəsmi dövlət mətbuat orqanı olan "Kommunist" qəzetində gənc jurnalist kimi səmərəli fəaliyyət göstərməsi, lakin "xalq düşməni" ailəsinə mənsub olduğu üçün işdən uzaqlaşdırılması Cavad müəllimin keçən əsrin sərt repressiya rejiminin acı dadını yenidən yaşamasına səbəb olmuşdur. Buna baxmayaraq, Cavad Cavadlı yenə də iradə və qətiyyət göstərmiş, neçə-neçə keçilməz aşırımları dəf etməyi bacarmış və heç vaxt müvazinətini itirməmişdir. Bütün bunlara görə Cavad Cavadlının keşməkeşli ömür yolu həyatın ağır labirintlərindən

çıxmağın mümkünlüyünün canlı nümunəsidir, insan iradəsinin miqyasının real göstəricisidir.

Cavad Cavadlının son yarım əsrə qədərki fəaliyyəti "Azərbaycan müəllimi" qəzeti ilə üzvi surətdə bağlıdır. 1959-cu ildən etibarən çalışdığı "Azərbaycan müəllimi" qəzeti Cavad müəllimin maarifçi ədəbiyyat və publisistika yolunu tutmasına istiqamət vermişdir. XX əsr Azərbaycan maarifçi publisistikanın ən yaxşı nümunələri sırasında Cavad Cavadlının "Azərbaycan müəllimi" qəzetində çap olunmuş onlarla sanballı məqalələrinin adını çəkmək mümkündür. Onun məktəb həyatından, müəllimlərimizin fəaliyyətindən, proqram və dərsliklərdən, uşaq ədəbiyyatından bəhs edən məqalələrində maarifçi baxışla fəal vətəndaş mövqeyi birləşir. Cavad Cavadlının publisistikası maarifçi mühitin və məktəbin inkişafına kömək edən, ciddi təsir göstərən dəyərli və kəsərli nümunələrdən ibarətdir. O, Azərbaycanı məktəb-məktəb gəzmiş, müəllim-müəllim tanımış və tanıtmışdır. Bu mənada "Azərbaycan müəllimi" qəzeti şair-publisistin sadəcə iş yeri deyil, həm də fəaliyyət və mübarizə qərargahıdır. Cavad Cavadlının ən yaddaqalan maarifçi şeirləri, uşaq ədəbiyyatı nümunələri, habelə mahnı mətnləri də ilk dəfə "Azərbaycan müəllimi" qəzeti vasitəsilə geniş oxucu auditoriyasına çatdırılmışdır. Ədəbiyyatımızda məktəb və müəllim haqqında şeir yazmaq sahəsində Cavad Cavadlı ilə yarışa girə bilən ikinci şair tapmaq çətindir. O, müəllimin və məktəbin poetik fəlsəfəsini bütün təbiiliyi ilə canlandırmağı bacarmışdır:

Saçlarının ağlığına qar deyiblər,
Dahilər də qabağında baş əyiblər.
... Xoş arzulu sözündəki məna, kəsər
Qəlbimizdə böyüyərək oldu əsər.
Fikrimizi sən apardın Aya, Marsa,
Səninkidir yurdumuzda hər nə varsa.
... Baxışın da ürək açır, qəlb isidir
Məhəbbətin – nəğmələrin nəğməsidir.
Əziz adın körpənin də dilindədir,
Sənətimiz müəllimin əlindədir.[1]

Cavad Cavadlının çoxillik maarifçilik fəaliyyətinin məntiqi yekunu kimi meydana çıxmış "Ürək geniş dünyadır" adlı poeması yeni dövr maarifçi ədəbiyyatın parlaq nümunəsidir. O, böyük bacarıqla Azərbaycan ədəbiyyatının özünəməxsus milli ruhlu "Pedaqoji poema"sını yaratmağa müvəffəq olmuşdur. Klassik nəsihətnamələrdən fərqli olaraq bu əsərdə seçilmiş ibrətamiz həyat hadisələri ilə öyüdnamələr vəhdət təşkil edir, biri digərini tamamlayır.

[1] Cavad Cavadlı. İnsanlara sözüm var. – Bakı: Gənclik, 1973, s.14

Zəngin təcrübəyə malik olan Cavad Cavadlı pedaqoji poemasında Azərbaycan ədəbiyyatının Makarenkosu kimi çıxış edir. Cavad Cavadlı doğru olaraq bu qənaətdədir ki:

Müəllim nüfuzu düşsə aşağı
Sönər, yana bilməz elmin çırağı.
Yeri də, göyü də xeyirə bələr,
Dünyanı müəllim dəyişə bilər.
Böyük həqiqəti unutmayaq biz,
Müəllim əlində səadətimiz.
Yaxşı müəllimlər el sərvətidir,
İnsanın insana məhəbbətidir.

"Azərbaycan müəllimi" qəzeti Cavad Cavadlı üçün mükəmməl bir pedaqoji universitet funksiyasını yerinə yetirib. Heç vaxt sinfə girib dərs deməyən Cavad Cavadlı "Azərbaycan müəllimi" qəzeti vasitəsilə öyrəndiyi müəllimlik sənəti ilə pedaqoji ictimaiyyət arasında müəllim adını ləyaqətlə daşıyan görkəmli maarifçi şəxsiyyət kimi tanınır. "Sabahın sorağında" kitabında (1996) toplanan oçerklər ilk növbədə Cavad Cavadlının maarifçi mühitə, müəllim və şagird psixologiyasına, məktəb həyatının incəliklərinə dərindən bələd olduğunu nümayiş etdirir. Onun publisistikası maarifçi mühitin ana problemlərini əks etdirməsi ilə bərabər, müəllim ömrünün ucalığı və romantikasını da bütün təbiiliyi ilə təqdim edə bilməsi ilə fərdiləşir. Tanınmış pedaqoq alimlər Cavad Cavadlının maarifçi publisistikasını "müəllim haqqında nəğmələr" kimi səciyyələndirmişlər: "Obrazlı şəkildə belə demək mümkündür ki, müəllim ayırıb seçdiyi hər bir müəllim haqqında gözəl, maraqlı nəğmə oxuyur. Bu nəğmələrin səsi, ahəngi hamının qəlbini riqqətə, ehtizaza gətirir... "Sabahın sorağında" kitabı çox şərəfli, çətin müəllim əməyi, onun mənası, məzmunu barədə olduqca gözəl təəssürat yaradır, müəllim ən uca zirvədə dayanan müqəddəs şəxsiyyət kimi göz önündə canlanır".[1] Müəllifin "Maarifimizin ulduzları" (Bakı, "Elm", 2000), "Direktor olmaq istəyirsənsə?" (Bakı, "Sabah", 2002) adlı yüksək poliqrafik keyfiyyətdə buraxılmış kitabları pedaqoji ictimaiyyət tərəfindən müəllimlərin stolüstü ədəbiyyatı kimi qiymətləndirilmişdir.

Cavad Cavadlının maarifçi şeirlərində publisistik notlar, publisistikasında isə bədiilik elementləri müşahidə olunur.

Cavad Cavadlının jurnalistlik fəaliyyətində "Azərbaycan müəllimi" qəzetində 20 ilə qədər ardıcıl olaraq rəhbərlik etdiyi "Cənubdan səslər" guşəsi ayrıca qeyd edilməyə layiqdir. Bu guşədə verilən materiallarla və qəzet

[1] Camal Əhmədov. Müəllim haqqında nəğmələr. Bax: Cavad Cavadlı. Sabahın sorağında (müqəddimə). – Bakı: Sabah, 1996, s.9

vasitəsilə yaratdığı əlaqələrlə o, Azərbaycanın şimalı ilə cənubu arasında möhkəm, etibarlı mənəvi körpü yarada bilmişdir. Xüsusən hələ yetmişinci illərdən etibarən Cənubi Azərbaycanda gedən ədəbi prosesin "Cənubdan səslər"də dolğun və əhatəli təqdimi, heç şübhəsiz, Cavad Cavadlının xidməti sayılmalıdır. Həqiqətən də ədəbi-tənqidi fikrin etiraf etdiyi kimi, "o taydan bu taya uçan quşun da nəzarətdə olduğu zamanlarda Cənuba körpü salınmasında "Cənubdan səslər" guşəsində verilən yazılar çox mühüm rol oynayıb". İndi də "Cənubdan səslər" Şimali Azərbaycanda Cənubi Azərbaycan haqqındakı etibarlı mənbələrdən biridir.

Cavad Cavadlı 2015-ci il 22 iyun tarixində Bakı şəhərində vəfat etmişdir.

Yaradıcılığı. Mətbuat cəbhəsində tanınıb parlamış Cavad Cavadlı bədii yaradıcılığa hələ məktəbli ikən maraq göstərmişdir. Onun 1939-1945-ci illər arasında yazılmış ilk şeirlərində bədiilik zəifdir, şeir texnikasına tam əməl olunmamışdır. Lakin gənc müəllifin bu illərə aid şeirlərində ictimai mövzulara meyil üstünlük təşkil edir. İlk şeirlərində şairin gələcək yaradıcılığı üçün səciyyəvi olan həqiqət axtarıcılığının əlamətləri müşahidə olunur. O, hətta Molla Pənah Vaqif sayağı yazdığı şeirlərində "*Bir düz ilqar, doğru məlal görmədim"* – desə də, inamını heç vaxt itirməmişdir.

Gənclik illərinin təəssüratlarından ibarət olan ilk şeirlərindən Cavad Cavadlının mənəvi sıxıntılarının, çətin həyat yaşantılarının təbii əks-sədası eşidilir. Bu cəhətdən 1942-ci ildə qələmə alınmış "Mənim taleyim" adlı şeiri bəzi dil-ifadə, qafiyə qüsurları olsa da, bəxtinə, taleyinə ağır sürgün və acı müharibə taleyi yazılmış cavan şairin əzablı həyatının obyektiv poetik ifadəsi kimi maraqlı və əhəmiyyətli görünür. "Mənim taleyim" şeiri əzabdan və məşəqqətdən cana gəlmiş gənc bir qələm sahibinin ictimai etirazlarının, küskün və üsyankar ruhunun səsi kimi ümumiləşə bilir:

Uçur xəyalım yenə ələm dalğalarında,
Yurdsuz bir məskənim var, canilər ayağında.
Üzümdə şadlıq izi görünmədi dünyada,
Nalələrimdən ancaq həyat da gəldi zara.
Bir insan oğlu məni etmədi ömrümdə şad,
Bu uçuq daxmamızda çəkdim ah ilə fəryad.
Vətənimdə Vətənsiz bir insanam, düşünün,
Hər addımda hazırdır qarşımda bağlı düyün.
Qəlbin mənalarını duymayır tək bir insan,
Bəsdir, ey qoca tarix, ibrət elə, bir utan!

"Mənim taleyim" şeirindən sürgündən qaçmış, köməksiz məişət çətinlikləri içərisində sıxılıb-boğulan, üstəgəl müharibə dövrünün də çətinliklərini yaşamağa məcbur olan gənc Cavad Cavadlının özünün təbii obrazı boylanır.

Cavad Cavadlının "Zəhmət" kolxozu haqqında" adlı ilk şeirində də

onun *"Bu yazıq millət, Çəkir nə zillət",* – kimi misralarla cəmiyyət hadisələrinə ayıq-sayıq münasibəti aydın surətdə nəzərə çarpır. Nəhayət, İlk şeirlərindəki ictimai meyillər, həqiqət axtarıcılığı, cəsarət kimi motivlər sonralar inkişaf edərək, Cavad Cavadlının əsas yaradıcılıq qayəsini təşkil etmişdir. Yaradıcılığının başlanğıc mərhələsində satirik şeirlər yazmağa müəyyən maraq göstərməsi də cavan qələm sahibinin ilk şeirlərində üstünlük qazanmış ictimai motivlərlə səsləşir. Müasirlərinin xatirələrindən görünür ki, Cavad Cavadlının Naxçıvan Müəllimlər İnstitutunun divar qəzetində dərc olunmuş "Tələbə yeməyi" adlı satirik şeiri tələbə dostlarının marağına səbəb olmuşdur.[1]

Ədəbiyyatda ilk addımlarının bədii ifadəsi olan şeirlərini Haziq təxəllüsü ilə yazan gənc Cavad Xalq şairi Səməd Vurğunun təxəllüslə bağlı iradından sonra "Cavadlı" təxəllüsünü qəbul etmişdir.[2]

***

Cavad Cavadlının ədəbiyyat cəbhəsindəki yaradıcılıq fəaliyyəti çoxcəhətlidir. O, məhəbbət lirikasının, ictimai lirikanın, maarifçi şeirin və uşaq şeirinin dəyərli nümunələrini yaratmışdır.

Azərbaycan uşaq ədəbiyyatının inkişafında Cavad Cavadlının özünəməxsus xidmətləri vardır. O, uşaq ədəbiyyatına ardıcıl olaraq sədaqət göstərən, bu vacib sahəni diqqət mərkəzində saxlayan sənətkarlardandır. Uşaq şeirlərində ən müxtəlif üsullardan – dialoqdan, süjetdən, öyüdnamələrdən faydalanmaqla Cavad Cavadlı yeni nəslin yaşına və psixologiyasına uyğun gələn, sadə, aydın, duru bədii nümunələr yaratmağa müvəffəq olmuşdur. Bu şeirlərdən bir çoxuna musiqi bəstələnməsi, onun uşaq şeirlərinin çox asanlıqla mahnı mətninə çevrilməsi həmin nümunələrin yüksək bədii dəyərindən xəbər verir.

Cavad Cavadlının uşaq şeirləri mövzu cəhətdən rəngarəngdir. Vaxtilə pedaqoji elmlər doktoru, professor Camal Əhmədovun yazdığı kimi: "uşaq tərbiyəsinin elə bir sahəsi yoxdur ki, Cavad həmin sahədə uğurla şeirlər yazmasın".[3] Şairin uşaq şeirlərinin böyük əksəriyyətinin yığcam və ibrətamiz süjet əsasında qurulması bu bədii nümunələrin oxunaqlı və təsirli olmasını şərtləndirir. Müxtəlif illərdə yazılmış "Bilici qardaşlar", "Günahsız pişik", "Elşad və dələ", "Yuxusuz dovşanın başına gələn əhvalatlar", "Tənbəl dələnin sərgüzəşti", "Leylək yuvası", "Ceyran və Seyran", "Toyuqlar niyə uçmur?" və sair kimi poema və mənzum nağıllarda Cavad Cavadlı kiçik və yaddaqalan süjetlərdə ifadə olunan mətləblərlə yeni nəslin inkişafına kömək

[1] Fəraməz Maqsudov. "Təhsil" qəzeti, dekabr 1997, № 101-102

[2] Yusif Seyidov. Ata-ana harayından oğul harayına qədər. "Yeni Azərbaycan" qəzeti, 26 mart 1997-ci il

[3] Camal Əhmədov. Uşaqlara böyük məhəbbət. "Azərbaycan müəllimi" qəzeti, 5-12 dekabr 2002, № 49 (8001)

etməyə, təsir göstərməyə çalışmışdır. Aşağıdakı şeir parçası onun şeirlə kiçik oxuculara müraciətinin miqyasını və imkanlarını təsəvvür etmək baxımından əhəmiyyətlidir:

Balaca Qəni
Kəsdi meynəni.
Kəsilən yerdən,
Su damdı birdən.
Günlər ötüşdü,
Su yenə düşdü.
Burda nə sir var,
Kəsmir damcılar.
Qəni, ay Qəni,
Bilmirsən yəni –
Meynə ağlayır,
Səni danlayır.

Uzun illər ərzində Cavad Cavadlı uşaq folklorunun toplanılıb yazıya alınması ilə məşğul olmuşdur. Bu sahədə onun ardıcıl və səmərəli fəaliyyəti folklorşünaslıq üçün nümunə sayılmağa layiqdir. Əksəriyyəti nəvəsi Ələkbərin dilindən qələmə alınmış bu kiçik rəvayətlərdə uşaqların mənəvi dünyası güzgüdə olduğu kimi öz əksini tapır. Cavad müəllimin yazıya aldığı nümunələr uşaqları daha yaxından tanımağa bələdçilik edir. Bu rəvayətləri Cavad Cavadlının uşaq nəsri nümunələri kimi də qəbul etmək olar. Əldə edilmiş nümunələr Cavad müəllimin uşaq şeiri ilə yanaşı, uşaq nəsri sahəsində də uğurla fəaliyyət göstərdiyini təsdiqləyir. Yığcamlıq, konkretlik, aydınlıq, tərbiyəvilik onun uşaq nəsri üçün səciyyəvidir. Cavad Cavadlının toplayıb yazıya köçürdüyü "Topları kim atır", "Balıqlar çimir", "Bura xalagilin evidir" və sair kimi nəsr nümunələrində folklordan çox gerçək uşaq həyatı öz əksini tapmışdır. "Hamının babası" miniatürü həmin bədii nümunələrin xarakterik xüsusiyyətlərini özündə əks etdirir:

"– Ələkbər, sənin neçə baban var?
– İkidir. Rafiq baba, Cavad baba.
– Bəs Heydər baba?
– O hamının babasıdır".

Maraqlı cəhətdir ki, Cavad Cavadlı uşaqlar üçün xüsusi əhəmiyyətə malik olan atalar sözlərini, məsəlləri də toplayıb yazıya almışdır. Beləliklə, Cavad Cavadlının uşaq folklorunun toplanması və zənginləşdirilməsi sahəsində də səmərəli fəaliyyəti diqqəti çəkir. Əslində uşaq folkloruna bağlılıq onun uşaqlar üçün yazdığı əsərlərin ideya-bədii cəhətdən kamil, yetkin nümunələr kimi meydana çıxmasını şərtləndirir.

Cavad Cavadlının uşaq şeirləri məktəb dərsliklərinə salınmışdır. Ali

məktəblərin uşaq ədəbiyyatı dərsliklərində şairin bu sahədəki fəaliyyətinə xüsusi yer ayrılmışdır. Uşaqlar və məktəblilər üçün mahnılardan ibarət "Mahnı töhfəsi" adlı xüsusi bir kitabının meydana çıxması Cavad müəllimin həmin janra ardıcıl münasibətini və sədaqətini nümayiş etdirir. Otuz ilə qədər bir müddətdə ərsəyə gətirib 1985-ci ildə tamamladığı "Şirin xəyallar, çətin suallar", 2002-ci ildə bitirdiyi, nəvəsi Ələkbərin dilindən yazdığı "Mən toyuq doğan yumurta istəyirəm" kitablarında çoxlu uşaq şeiri nümunələrinin toplandığı nəzərə alınarsa, Cavad Cavadlı hazırkı mərhələdə uşaq ədəbiyyatının da əsas yaradıcılarından biri sayıla bilər. "Şirin xəyallar, çətin suallar" əsəri ədəbi tənqiddə məşhur uşaq yazıçısı Korney Çukovskinin "İkidən beşə qədər" əsərinin uğurlu analoqu kimi dəyərləndirilmişdir.[1] Nəticə etibarilə deyə bilərik ki, Cavad Cavadlı müasir Azərbaycan ədəbiyyatında uşaq şeirinin istedadlı yaradıcısı kimi tanınır. Bundan başqa, o, "Tovuz quşunun nəğmələri" adlı pyesi ilə yeni dövr uşaq dramaturgiyasını da zənginləşdirmişdir. Mənzum formada yazılmış bu dram əsərində uşaqlar üçün faydalı olan ictimai-tərbiyəvi məsələlər öz əksini tapmışdır. Əsərə daxil edilmiş mahnı mətnləri pyesin təsirini artırmağa uğurla xidmət etmişdir. "Tovuz quşunun nəğmələri" pyesi 1971-ci ildə Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrının repertuar planına daxil edilsə də, səhnədə tamaşaya qoyulmamışdır. Cavad Cavadlının əlyazma şəklində yayılmış "Allaha şikayət" şeirinin Dövlət Təhlükəsizlik Komitəsi tərəfindən ələ keçirilməsi onun ədəbi fəaliyyətinə bir sıra məhdudiyyətlər qoyulması ilə nəticələnmişdir ki, bu proses "Tovuz quşunun nəğmələri" uşaq pyesinin ilk məşqlərinin aparılmasına, hətta afişanın çap olunmasına baxmayaraq, tamaşanın səhnəyə çıxarılmasının dayandırılmasına səbəb olmuşdur.

***

Cavad Cavadlı yaradıcılığının bütün dövrlərində yaddaqalan, təsirli, aşiqanə məhəbbət lirikası nümunələri də yaratmışdır. Məhəbbət lirikasında o, təmiz eşqi, qarşılıqlı sevgini, düz ilqarı, sədaqəti vəsf etmişdir. Bu qəbildən olan bir çox şeirlərdə yaxşı mənada Səməd Vurğun şeirinin təsiri sezilir. Onun *"Dünya dəniz olub, mən kiçik ada, Hər yanım tufandır, yetən yox dada, Oğulqız fəryadı düşəndə yada, Qəlbimdə çağlayan telləri gördüm",* – kimi misralarında ustad Səməd Vurğun sənətindən təsirlənmə ilə yanaşı, həm də təbiilik və cəmiyyət də diqqəti cəlb edir.

Cavad Cavadlının məhəbbət lirikası şairin yaşadıqlarının orijinal bədii ifadəsi olan şeirlərlə zəngindir. Xüsusən, dünyadan vaxtsız köçmüş ömür-gün yoldaşının xatirəsinə həsr etdiyi şeirlər daha təsirli, bənzərsiz və səmimidir.

[1] Camal Əhmədov. Uşaqlara böyük məhəbbət. "Azərbaycan müəllimi" qəzeti, 5-12 dekabr 2002-ci il, № 49 (8001)

“Təbiətin işinə bax”, “Səndən sonra”, “Ata laylası”, “Sarı gül”, “Gedibsən” kimi şeirlərində vüsal eşqi və həsrət motivləri təbii və obrazlı düşüncələrin poetik ifadəsi kimi səslənir. Heç tərəddüd etmədən Cavad Cavadlının “Səndən sonra” şeirini poeziyamızda itirilmiş sevginin mənalı və düşündürücü elegiyası kimi dəyərləndirmək mümkündür.

“Ata laylası” şeirini isə bədii-emosional səviyyəsinə və mənasına görə ana laylaları ilə yanaşı qoymaq mümkündür. Bu, Azərbaycan uşaq şeirinin bənzərsiz və təsirli “Ata laylası”dır. Cavad Cavadlının bu qəbildən olan şeirləri mənalı, səmimi və axıcı nəğmə təsiri bağışlayır.

Şairin “Qara gözlər səadətdir” (1997) kitabı bütövlükdə məhəbbət lirikası nümunələrindən ibarətdir. Bu kitab Cavad Cavadlının özünəməxsus poetik məhəbbətnaməsidir. Cavad Cavadlı məhəbbət mövzusuna müraciət edərkən yaşadıqlarını, yaxından müşahidə etdiklərini, hiss edib duyduqlarını qələmə aldığı üçün şeirləri təbii, inandırıcı və təsirli səslənir. Bu şeirlərin əksəriyyəti yaşanmış ovqatın bədii ifadəsindən ibarətdir. Onun poetik məhəbbətnaməsində ümumi tərənnüm şeirləri azdır. Buna görədir ki, şairin məhəbbət lirikasının qəhrəmanı həyati təsir bağışlayır. Bununla belə, mövzuya dərindən bələdlik Cavad Cavadlının məhəbbət mövzusunda yazılmış şeirlərində yaddaqalan poetik ümumiləşdirmələr aparmasına da münasib imkan yaradır. Lakin belə məqamlarda da Cavad Cavadlı fərdi duyğularla ümumi düşüncələri vəhdətdə ifadə etməyə üstünlük verməklə şeirlərinə mənalı və təbii bir həyati ruh gətirə bilir:

Ölüm ona neyləyər,
Tanrını qul eyləyər,
Ərzi tutub əyləyər,
Fərmanımdır gözəllik!

...Ey gözəl, mehrin bəsim,
Qəlbim çalınmamış sim,
Dünyada yox heç kəsim,
Gümanımdır gözəllik!

İzləyirəm hər yerdə,
Səni görəydim bir də,
Düşmüşəm elə dərdə
Dərmanımdır gözəllik![1]

Ömrünün, həyatının bütün mərhələlərində Cavad Cavadlı məhəbbət mövzusunda yaddaqalan şeirlər yazmağa müvəffəq olmuşdur. Bu şeirlər şairin həmişəcavan ruhunun, həyat eşqinin əks-sədası kimi səslənir. Yaşının

[1] Cavad Cavadlı. Qara gözlər səadətdir. – Bakı: Elm, 1997, s.83

hər çağında da Cavad Cavadlının uğurlu məhəbbət şeirləri yazması onun yaradıcılığında bədii düşüncə ilə həyat eşqinin vəhdətdə yaşadığını bir daha nəzərə çarpdırır. Bu baxımdan sevgi şeirləri həm də Cavad Cavadlının həyat eşqinin poetik tərcümanıdır.

***

Bütün bunlarla bərabər, ictimai motivlərin mənalandırılması və poetik dərki Cavad Cavadlının yaradıcılığında aparıcı mövqeyə malikdir. Şairin ictimai motivlər üstündə köklənmiş poetik rübabının ana xəttini Vətən sevgisi müəyyən edir. Poeziyamızda bu mövzuda çoxsaylı bədii nümunələrin meydana çıxmasına baxmayaraq, Cavad Cavadlı ənənəvi mövzuya orijinal və yaddaqalan poetik əlavələr edə bilmişdir. Bu cəhətdən onun "Azərbaycan dərdi var", "Torpağında bitim, Vətən" kimi şeirləri xüsusilə cəlbedici və düşündürücüdür. "Mənim şeirlərimdə Azərbaycan dərdi var" poetik tezisi şairin Vətən mövzusuna müraciətinin xarakterini müəyyən etməyə imkan verir. Cavad Cavadlı Vətənin ilhamlı tərənnümündən çox, həmişə ölkənin və xalqın ağrılarından, inkişafa mane olan problemlərindən bəhs etməyə üstünlük vermişdir. O, Vətən ağrısı, yurd sevgisi, insan qayğıları ilə nəfəs alan Vətəndaş şairdir. Lakin Cavad Cavadlının yaradıcılığında az da olsa, Vətən mövzusunda tərənnüm şeirlərinə də rast gəlinir. Bu şeirlərdə vətənpərvər şairin Vətən sevgisinin təbii ritmi çırpınır. "Torpağında bitim, Vətən" şeiri Cavad Cavadlıya məxsus həqiqi və səmimi bir Vətən sərgisidir:

Çəmənində şehə batım,
Nəfəsimi şeirə qatım,
Daşına baş qoyub yatım,
Dumanında itim, Vətən!

Düzlərdə gül əsim-əsim,
Bir ləçəyi mənim bəsim,
Nə qədər ki, vardır səsim,
Nəfəsində ötüm, Vətən!

Mənə verdin arzu, inam,
Yollarında gül tək yanam.
Övladınam, sənsən anam,
Sənsiz qallam yetim, Vətən!

...Taleyimiz sərt doğulub,
Oğlun, qızın mərd doğulub.
Kaş öləndə bir gül olub
Torpağında bitim, Vətən!

Ədəbiyyat cəbhəsinin fədakar nümayəndəsi Cavad Cavadlının ictimai lirikasının əsasını vətəndaşlıq lirikası təşkil edir. Belə bir cəhəti diqqət mərkəzində saxlamaq lazımdır ki, hələ uşaq ikən özü, ailəsi iki dəfə repressiya təqiblərinə uğrasa da, keçmiş sovet cəmiyyətinə inamını itirməyən şair sonralar ömrünün müxtəlif mərhələlərində rast gəldiyi, üzləşdiyi haqsızlıqlara, zorakılıqlara görə inandığı ideologiyadan üz döndərmişdir. Buna görə də o, 1957-ci ildən, 31 yaşından etibarən ardıcıl olaraq açıq və ya örtülü şəkildə mövcud sovet quruluşunun əleyhinə yönəlmiş əsərlər yazmışdır. Dörd cilddən ibarət olan və "Həsrətlilər qovuşanda", "Məşəqqət içində", "Zindan guşəsindən səslər" və "Sürgün" adlandırılan bu əsərlərdən hələlik ancaq axırıncısı ayrıca kitab halında çapdan çıxmış, hətta oxucular tərəfindən uğurla qarşılandığı üçün təkrar nəşr edilmişdir. Çap edilən bəzi poetik nümunələr istisna olunarsa, qalan əsərlər işıq üzü görməmişdir. Bu da bəllidir ki, sovet rejimi dövründə onların hər hansı biri çap edilə bilməzdi. Ona görə də Cavad Cavadlı həmin əsərlərdən bəzilərini əlyazması şəklində yaymışdır. Belə əsərlərdən biri 1969-cu ildə yazılmış və gizli şəkildə yayılan, cəmi 20 misradan ibarət olan "Allaha şikayət" adlı şeirində keçmiş sovet dövlətinə tənqidi münasibət açıq-aşkar diqqət mərkəzinə çəkilmişdir:

Bir dəfə sənlə görüşsəydim, ah!..
Əzab içindəyəm axı, ay Allah!
Tamam unudubsan bu elləri sən,
Görmürsən yerdəki əməlləri sən.
Ürəklər, vicdanlar təmiz qalmayıb,
Düzlükdən, mərdlikdən bir iz qalmayıb.
Qurunun alovu yaşa keçibdir,
Başı olmayanlar başa keçibdir.
Nə zülmü, nə dərdi, nə ahı görür,
Nə də başı üstə Allahı görür.
Tükənib, qalmayıb ərənim, ərim,
Köləyə dönübdür güvəndiklərim.
Yaltaqla, namərdlə hər yan dolubdur,
Rüşvətsiz iş görmək çətin olubdur.
Vəfa işdə deyil, ağızlardadır,
Haqq da, həqiqət də kağızlardadır.
Yazmaqla tükənməz insanın dərdi,
Adına nə qədər məktub gələrdi.
Rahat ötüşməzdi bir anın Sənin,
Yaxşı ki, bilinmir ünvanın Sənin!

"Allaha şikayət" şeiri əlyazma şəklində Naxçıvanda əldən-ələ keçərkən, təhlükəsizlik orqanlarının diqqətini cəlb etmişdir. Cavad Cavadlı bu şeirə görə

rəsmi orqanlar tərəfindən Bakıda və Naxçıvanda sorğu-suala cəlb olunmuşdur.[1]

Şairin 1958-ci ildə yazılmış "Həqiqət" adlı şeiri də tərcümeyi-hal şeiri olmasına baxmayaraq, ciddi ictimai məzmuna malikdir. Bu şeirdə günahsız yerə işdən uzaqlaşdırılan cavan şair-publisistin nəzərində keçmiş sovet cəmiyyəti həqiqətdən heç bir nişan olmayan ölkə kimi təqdim olunmuşdur. "Həqiqət" şeirində tənqid və inkarçılıq sarkazm səviyyəsindədir:

Əgər bir ölkədə, eldə nişan yoxsa həqiqətdən,
Səfalət hökm edər orda, yanar yer-göy cinayətdən.
Həqiqət bir günəşdir ki, səadət bəxş edər daim,
Həqiqət dönsə iblisə, düşər aləm təravətdən.
Həqiqət söyləyib hər an ölən var nəmli zindanda,
Həqiqət! Qüdrətin varsa, qurtar dünyanı zillətdən.
...Həqiqət! Sən olan yerdə gülər insanlığın hüsnü,
Amandır, xalq ilə bir ol, kənar gəzmə cəmiyyətdən.
...Həqiqət naminə min-min bəlalər, qovğalar çəkdim,
Təəssüf ki, təəssüf ki, iz görmədim o nemətdən.

Cavad Cavadlı bu qəbildən olan hadisələrin ciddi, acı təsirlərini yaşamışdır. Təkcə bu fakta nəzər salmaq kifayətdir ki, zəngin yaradıcılığa malik olan müəllifin 1973-cü ildə çap edilmiş "İnsanlara sözüm var" adlı şeir toplusundan sonra 23 il ərzində heç bir kitabı da işıq üzü görməmişdir. Hətta sovet dövründə nəşriyyat planında təsdiq olunan kitabı da müxtəlif bəhanələrlə oxuculara çatdırılmamışdır. Daha doğrusu, həm də əsərlərinə ögey münasibət görən müəllif bir müddət nəşriyyatlardan üz döndərmişdir. Azərbaycan Yazıçılar Birliyinə üzv olmaq üçün təqdim etdiyi sənədlər qəsdən "itirilmişdir". Ən önəmli cəhət budur ki, Cavad Cavadlı bütün bu məhrumiyyətlərə dözmüş, sinə gərmiş, daha inadla yazıb-yaratmış, kitab nəşr etdirməyə yox, dövri mətbuatda çap edilməyə üstünlük vermişdir.

Vətəndaş mövcud sovet quruluşuna, onun ideologiyasına, eybəcərliklərinə olan etirazını obrazlı ifadələrlə, sətiraltı, mətnaltı fikirlərlə oxuculara çatdırmışdır. Xalqımızın taleyində baş verən əsas hadisələr, cəmiyyətdə gedən eybəcər proseslər, xüsusən, milli düşüncənin təqib olunması kimi hallar həmişə Cavad Cavadlının diqqət mərkəzində olmuşdur. Şair münasib forma taparaq imkan daxilində milli taleyimizlə bağlı aktual, zəruri mətləbləri oxuculara çatdıra bilmişdir. Bu məqamda o, bəzən vəziyyətdən çıxış yolu kimi ictimai həyata aid olan fikirləri təbiət motivlərinin üzərinə köçürmüşdür. Müəllifin keçən əsrin altmışıncı illərində "Ədəbiyyat və incəsənət" qəzetində dərc edilmiş "Durnalar" şeirində xalqın başçısız, rəhbərsiz olduğunu nəzərə

[1] İsa Həbibbəyli. Ədəbi şəxsiyyət və zaman. – Bakı: Elm və təhsil, 2017, s.738

çatdırmışdır. Şeirdə namərd ovçu tərəfindən başçısı öldürülən durnaların göylərdə çığırışa-çığırışa qalması, sıraya düzülə bilməmələrinin mətləbi ifadə olunur. Çıxarılan nəticə aydındır:

Ağırdır onların dərdi, yarası,
Düzülə bilməyir durna sırası,
Mənası dərindir bu həqiqətin,
Öncülsüz, sıraya düzəlmək çətin.[1]

Vaxtilə "Azərbaycan gəncləri" qəzetində çap edilən "Çay tələskənliyi" şeirində xalqımızın vahid sovet məkanında əridilib yox edilməsi fikri diqqətə çatdırılmışdır. O, məcazi bədii vasitələrlə oxucusuna çatdırmaq istəmişdir ki, bəndləri dağıdıb dənizə qovuşmaq istəyən çay bilmir ki, dənizə qovuşanda çaylığını da itirəcəkdir:

Bilməz bu tələsmək axı, nahaqdır,
Ümmana çatanda yox olacaqdır.

Cavad Cavadlı sovet hökuməti illərində üzərində xüsusi qadağa qoyulmuş Cənub mövzusunda da özünün şair-vətəndaş sözünü deyə bilmişdir. Şair özünəməxsus bir üslubda xalqımızın mənəvi birliyi məsələsini mənalandırmağı bacarmışdır. Onun *"Əgər soruşsanız düz ünvanımı, Şahdağam, Kəpəzəm, Savalanam mən!.."* misralarında milli birlik və mənəvi bütövlük ideyası öz əksini tapmışdır.

Müəllif sovet dövründə yazdığı "Lermontovun abidəsi önündə" şeirində söz, fikir azadlığının olmadığını, sənətkar və zaman münasibətlərinin çətinliklərini oxucuların nəzərinə çatdırmışdır. Bu şeirdə mövcud cəmiyyətin azad sözə qoyduğu məhdudiyyətlərin mahiyyəti poetik şəkildə ifadə edilmişdir:

Şairləri sevməyənlər,
Şairlərə tor quranlar
Hər vaxt olur.
İndi duel, güllə yoxdur,
Sənətkarlar infarkt olur.

Cavad Cavadlının sovet dövründə çap olunmuş bir çox şeirlərində ciddi ictimai məsələlərin öz əksini tapması onun lirikasına yüksək vətəndaşlıq ruhu gətirir. Şairin birbaşa cəmiyyətə aid olan mətləblərin münasib ifadə formasını tapa bilməsi onun özünəməxsus sənətkarlıq təcrübəsinə malik olduğunu təsdiqləyir. Bu meyil yalnız cəmiyyətlə əlaqədar olan məqamlarla məhdudlaşmır. Cavad Cavadlı ümumiyyətlə həyatda da, cəmiyyətdə də obyektivliyin, paklığın, halallığın ədalətli müdafiəçisi kimi çıxış edir. Onun insan mənəviyyatı ilə bağlı şeirlərində həmin istiqamət daha davamlı və dərindir. Şairin lirik

[1] Cavad Cavadlı. Nur xəzinəsi, yaxud misraların tufanı. – Bakı: Təhsil, 2006, s.107

qəhrəmanı ya tam bütöv, işıqlı mənəviyyatın layiqli, fədakar daşıyıcısıdır, ya da əsl pak, duru, sağlam mənəvi dəyərlərin müdafiəçisi kimi çıxış edir. "Atamın dostları" şeirində əsl, etibarlı dostluq təbliğ olunmuşdur. Cavad Cavadlı ataların böyük çətinliklərdən keçmiş, sınaqlardan çıxmış, səadət nümunəsi olan dostluq münasibətlərini yeni nəsillər üçün örnək kimi təqdim etmişdir.

Şair hikmətdən yoğrulmuş misralarında insan inamı ilə gerçəklik arasında möhkəm bağlılıq olmasını vacib saymışdır. Onun qənaətlərinə görə zahiri görüntüyə yox, gerçək acı həqiqətə inam bəsləmək zəruridir. Ona görə də Cavad Cavadlı aldadılmağı və gerçəkliyi dərk edə bilməməyi ictimai bəla kimi mənalandırır. Belə məqamlarda şairin sözü müdriklik nümunəsi kimi səslənir:

Bəzən qızıl lalələrə,
Bəzən qızıl güllərə
Biz xar deyirik.
Üzümün də salxımına,
Palıdın da qozasına
Bar deyirik.
Tez əsirik, tələsirik,
Dağda bir şey ağardımı,
Qar deyirik.
Üzü dönük, eşqi sönük,
Etibarsız gözəllərə
Yar deyirik.

Cavad Cavadlının qənaətinə görə hər hansı bir sənətkara qiymət verərkən onun cəsarətini, qorxmazlığını, fikir dünyasının genişliyini nəzərə almamaq olmaz. O, bu fikirdə idi ki, şairin fikri millətin taleyi ilə bağlı olanda daha böyük məna, əhəmiyyət kəsb edir. Azərbaycanın müstəqillik əldə etdiyi zamana qədər mətbuatda Türkiyəyə, Turan dünyasına rəğbət ifadələrinə rast gəlmək mümkün deyildi. Belə fikirləri səsləndirməyə cəhd göstərən müəllifləri çox ağır təqiblər gözləyirdi. Bununla belə, Cavad Cavadlı müxtəlif mətbuat orqanlarında çap etdirə bildiyi "Meh həsrəti" və "Yaşasın" adlı şeirlərində istədiyinə nail ola bilmişdir. O, Kür çayının mənşəyinin Türkiyə ərazisindən başlandığını nəzərdə tutaraq yazmışdı ki:

Xəyalımın şirin yeri Kür ucu,
Kəhkəşandan uzaqdadır bir ucu.

Şeirdə Ağrı dağından əsən sərin mehin də şairin ürək ağrısını dayandırdığının ifadə olunması o zaman qardaş Türkiyəyə münasibəti ifadə etmişdir. O zaman senzuranın və qəzet redaktorlarının nəzərindən qaçaraq mətbuata çıxa bilən belə misralar Cavad Cavadlı yaradıcılığında vətəndaşlıq missiyasının dərinliklərini və özünəməxsus incəliklərini təsəvvür etməyə imkan yaradır.

Deməli, Cavad Cavadlının ictmai motivlərlə zəngin olan lirikası fəal vətəndaşlıq mövqeyinin qabarıq poetik ifadəsindən yoğrulmuşdur. Onun yaradıcılığında davamlı olan məsələnin bu cəhəti oxucularda millilik, yüksək vətəndaşlıq və istiqlal düşüncəsinin aşılanmasına və daha da dərinləşməsinə xidmət etmişdir.

***

Cavad Cavadlının yaradıcılığında sürgün mövzusu geniş yer tutur. Hələ keçən əsrin əllinci illərindən etibarən ardıcıl olaraq sürgün mövzusunda müxtəlif şeirlər və poemalar, mənzum roman yazan Cavad Cavadlı yalnız müstəqillik illərində bu əsərlərin çoxunu üzə çıxarıb çap etdirmişdir. Şair-publisist Cavad Cavadlının sürgün mövzusuna ciddi maraq göstərməsinin əsas səbəbi dəhşətli 37-ci ilin onun da valideynlərini, ailə üzvlərini, hətta müəllifin özünü də əhatə etməsi ilə əlaqədardır. Atası Ələsgər kişinin nahaqdan tutulub həbs edilməsi, ömrünü Belemorkanal həbsxanasında başa vurması, bu azmış kimi, anası Keysu xanımın kiçik yaşlı beş uşağı ilə birlikdə Qazaxıstan çöllərinə sürgün olunması, məktəbli yaşında olan Cavadın da sürgün həyatı yaşaması onun sürgün mövzusunda yaddaqalan, təsirli və düşündürücü əsərlər yazmasını şərtləndirmişdir. Bu mövzuda əsərlər yazmış yazıçılar içərisində o özü sürgün acısı yaşamış yeganə müəllifdir. Bu isə öz növbəsində qəlbə və yaddaşa hopmuş, ömürdə, taledə ciddi iz buraxmışdır. Həmin yaşanmış həyat materialının yaradıcı bir ziyalı, qələm əhli üçün bədii-publisist əsərlərə çevrilməsi təbii bir hadisədir. Şair sürgün mövzusunda yazdığı əsərlərlə ilk növbədə öz həyatını, şəxsi müşahidələrini ümumiləşmiş şəkildə əks etdirmişdir. Bunlar sadəcə, bədii əsərlər deyil, həm də müəllifin poetikləşmiş tərcümeyi-hal sənədləridir. Lakin C.Cavadlı göstərilən mövzuya məhdud fərdi anlamda, şəxsi mövqedən yanaşmamış, qələmə aldığı, təsvir və tərənnüm etdiyi hadisələri xalqın, millətin tarixi taleyinin bədii-publisistik inikası kimi təqdim etməyi bacarmışdır. Bütövlükdə "Sürgün" kitabında toplanmış bu əsərlər milli özünüdərk, özünəqayıdış baxımından mühüm əhəmiyyətə malikdir. Bir sözlə, tanınmış ədəbiyyatşünas, filologiya elmləri doktoru, professor Kamran Əliyevin yazdığı kimi: "1937-ci ilin amansız repressiyası o ağır illərin iştirakçısı Cavad Cavadlını yetirmiş, Azərbaycanda dissident ədəbiyyatının əsası qoyulmuşdur".[1]

Cavad Cavadlı "Fəryadını duymadılar atamın", "Ayrıldım", "Daha əlvida!", "Gələcəyəm", "Ağladım", "Kəndimlə söhbət", "Ağlama, nənəm, ağlama" adlı şeirləri əsasən keçən əsrin əllinci illərində qələmə alınmışdır. "Tomburanı danışdır", "Anamın məzarına" şeirləri, nəhayət, "Anamın sürgün bayatıları" başlığı altında toplanmış dörd yüzdən çox bayatı isə altmış-yetmişinci illərdə meydana çıxmışdır. Sürgün həyatından söz açan "Zindandan

[1] Kamran Əliyev. "Vətən işığı" qəzeti, 26 mart 2006-cı il, № 2 (23)

məktublar, zindana məktublar" (1960), "Ata yurdu" (1963), "Canlı şəhidlər" (1964) poemaları altmışıncı illərdə yazılmışdır.

Təbii ki, bu əsərlərin böyük əksəriyyəti həmin dövrdə məlum səbəblər üzündən çap edilə bilməzdi. Adları çəkilən əsərlərdə şair sadəcə olaraq ürəyini boşaltmamış, yaddaş materiallarının unudulmaq təhlükəsindən xilas edilməsini təmin etmişdir. Buna görə də özünün, valideynlərinin və digər ailə üzvlərinin sürgün olunduğunu, habelə bu qəbildən olan bir çox əsərlərinin qadağan olunmuş, yasaq qoyulmuş illərdə yazıldığını və təhlükəsizlik orqanları tərəfindən təqib edildiyini nəzərə almaqla, Cavad Cavadlını tərəddüd etmədən Azərbaycanda dissident ədəbiyyatının ilk yaradıcılarından hesab etmək olar.

Cavad Cavadlının əvvəlcə "Dəftər" şəklində düşünülmüş sürgünnaməsi tədricən yeni-yeni nümunələrlə zənginləşərək, "Qazaxıstan kitabı"na çevrilmişdir. Bu kitab hələ Stalin dövründən başlayaraq müxtəlif dövrlərdə yazılmış müxtəlif janrlı bədii əsərlər toplusudur. Bu, Azərbaycan ədəbiyyatında başdanbaşa sürgün mövzusuna həsr edilmiş ilk kitabdır. Oxuculara 1996-cı ildə təqdim olunmuş "Sürgün" kitabının əsasında "Cəhənnəmdən qaçmış uşaq" adlı mənzum roman, poemalar, şeirlər silsiləsi dayanır. "Xalq düşməni" ailəsinin başına gətirilən fəlakətlər Cavad Cavadlının yaradıcılığında ilk növbədə təsirli lirik şeirlərə çevrilmişdir. Şair, hər şeydən əvvəl, ağır cəzaya məhkum edilmiş ailənin kim olduğunu, onun cəzası ilə günahının müqayisəsini poetik baxımdan dəyərləndirmişdir. Bu mənada müəllifin hadisələrə ayıq-sayıq münasibəti, aydın mövqeyi, ibrətamiz mülahizələri nəzərə çarpır. Sürgünə göndərilənlərin ayrılıq məqamlarının ürək parçalayan təsirli anları Cavad Cavadlının uşaq yaddaşına həkk edilmiş və müxtəlif şeirlərin ərsəyə gəlməsinə səbəb olmuşdur. Bu səpkidə yazılmış "Ayrıldım", "Fəryadını duymadılar atamın", "Kəndimlə söhbət", "Gələcəyəm", "Haray" şeirlərində haqsız cəzanın günahsız, sadə, zəhmətkeş insanların qəlblərində doğurduğu poetik ovqat öz əksini tapmışdır:

Anam anasına necə baxırdı,
Gözünün yaşları sel tək axırdı,
Göyün ildırımı yerə çaxırdı,
Sanki dünya qopur, əvvəl-axırdı.
Fil də dözəmməzdi mənim ağrıma,
Ağlama, nənəm, ağlama![1]

Sürgün həyatının məşəqqətli səhnələrinin təsviri Cavad Cavadlının şeirlərinin əsasını təşkil edir. "Qızıl qum", "Tanımadığım qazax qızına", "İxtiyar yolçunun dərdi", "Yatmayır" və sair şeirlərdə sürgünlərdə keçən keşməkeşli həyatın ağır müsibətləri məharətlə poetikləşdirilmişdir. Bu şeirlərin

[1] Cavad Cavadlı. Sürgün (Ön sözün müəllifi: İ.Həbibbəyli). – Bakı: Adiloğlu, 2010, s.26

hamısı bir yerdə ürək parçalayan ağı, elegiya təsiri bağışlayır. Bitib-tükənməyən, "yanar sac" kimi qızmar qumlu səhraların vahiməli nağıllardakı gedər-gəlməz yollarını yada salan, ürək göynədən hadisələrin tərənnümü, aclıq, səfalət, ölüm kimi səciyyəvi detalların təsviri həmin bədii əsərlərə sürgün mühitinin bütün ağrı-acısını hopdurmağa şərait yaratmışdır:

Bu yerləri addımlasan yüz il, – qum,
Axı, bunun harasıdır Qızıl qum,
Nə qurtarır, nə tükənir bu zəqqum.
Bu məkanı necə seçib çuğullar,
Anam, görən hara gedir bu yollar?!

Geniş səhra günəş altda yanar sac,
Hara baxsan bir çiçəyə, gülə ac,
Nə quş uçar, nə çəmən var, nə ağac.
Buludlardan yağış umar boz kollar,
Anam, görən hara gedir bu yollar?!

Nə görməyib bu səhrada olanlar!..
Quyruq üstə mil dayanar ilanlar,
Necə oldu yarı yolda qalanlar?
Hərdən külək vəhşi kimi uğuldar,
Anam, görən hara gedir bu yollar?![1]

Cavad Cavadlının sürgün şeirlərində ata, ana, uşaq, çörək, səhra, yol, ölüm, məzar, bayatı, ağı kimi detallar əsas bədii vasitələr kimi diqqət mərkəzinə çəkilmişdir. Şair bu detallardan hər birinə bədnam 37-ci ilin faciəvi duyğu, fikir, hadisə və qorxusunun mənalandırılması baxımından orijinal poetik rəng vermişdir. Cavad Cavadlıya görə 37-ci ilin ataları zindanlarda nahaqdan çürüsələr də, onlar haqqın əyilməz heykəlləridir. Müəllif həmin keşməkeşli illərdə dünyaya gələn körpələri ümidin, həyat eşqinin timsalı kimi tərənnüm etmişdir. Şairin əsərlərində o illərin çətin tapılan bir parça çörəyi dəyanət və səadətin əsl rəmzi kimi mənalandırılmışdır. Cavad Cavadlının əksər şeir və poemalarında surəti yaradılmış repressiya dövrünün ana obrazları, ərləri gedər-gəlməzə göndəriləndən sonra həm də "evin kişisinə" çevrilən, qeyri-adi dözüm və iradəyə malik olan mərdlik mücəssəməsi kimi ümumiləşdirilmişlər.

Sürgün şeirləri içərisində çoxluq təşkil edən ağı, bayatı, layla və oxşamalar ağır və məşəqqətli sürğün həyatının, Vətənindən ayrı salınmış insanların dünyəvi kədərinin, dərin iztirablarının poetik ifadəsinə münasib imkan

[1] Cavad Cavadlı. Sürgün. – Bakı: Adiloğlu, 2010, s.28

yaradır. Məsələn, sürgün laylaları qürbət diyardakı ana-övlad münasibətlərini, kədəri və nisgili ifadə etməyə yönəldilmişdir:

Bu yuxu, ya nağıldı?!
Yurd-yuvamız dağıldı.
Bu zülm haqdan doğuldu?
Qəbrə gedər bu dağım,
Yat, balaca dustağım![1]

Şair anaların dilindən deyilən oxşamalarda evi torpaq, beşiyi çöllər olan, taleyi haraya, müşkül düyünə düşmüş günahsız uşaqların miskin bədii obrazını yaratmışdır. Onun bayatı formasında qələmə aldığı şeirlər, bəlkə də, ədəbiyyatımızda sürgün duyğularını dilə gətirən ilk bayatı nümunələridir:

Kəndimizə ün düşdü,
Taleyim düyün düşdü.
Mən kimə neyləmişdim,
Bəxtimə sürgün düşdü.[2]

... Dərddən ozan olmuşam,
Ömrü xəzan olmuşam.
Əlifbanı bilmirdim,
Kitab yazan olmuşam.[3]

... Görən yaza nə qaldı?
İnsaf yazana qaldı,
Əl uzatdım görüşək,
Əlim uzana qaldı.[4]

Nəticə etibarilə, Cavad Cavadlının sürgün şeirləri məcburi, zorakı mühacirət həyatının poetik salnaməsi təsəvvürünü yaradır, məşəqqətli həyatın mahiyyətini açır, insan taleyinin ağır məqamlarına işıq salır. Bu təsirli nümunələr dözüm, iradə, dəyanət, həyat eşqi, ümid haqqında lirik monoloqlar kimi xüsusi əhəmiyyətə malikdir.

***

Dissident şairin sürgün və mühacirət mövzusunda yazdığı əsərlər içərisində poemalar da geniş yer tutur. Çünki həmin mövzu özünün dramatizmi, əhatə dairəsi, çoxplanlı xarakteri, həyat materiallarının genişliyi və zənginliyi etibarilə irihəcmli əsərlərin yaranması üçün daha əlverişlidir. Bunu nəzərə

[1] Cavad Cavadlı. Sürgün. – Bakı: Adiloğlu, 2010, s.118
[2] Yenə orada, s.52
[3] Yenə orada, s.53
[4] Yenə orada, s.58

alan müəllif sürgünün bədii-fəlsəfi mahiyyətini daha dərindən açmaq, müşahidə etdiyi həyat hadisələrini və insan talelərini bütün təfərrüatı ilə ədəbiyyata gətirmək üçün poema janrına müraciət etməyi vacib saymışdır. Şairin "Qazaxıstan kitabı" silsiləsinə on poema daxildir. Bu poemalar 37-ci ildəki Azərbaycan kəndində gedən prosesləri, sürgünə aparan əzablı yolların dastanını, sürgün həyatının dəhşətlərini, ibrət dərslərini real şəkildə, yaddaqalan hadisələrin və oxşar taleli insanların timsalında müvəffəqiyyətlə əks etdirir. Poemalardan üçü – "Ata yurdu", "Canlı şəhidlər", "Zindandan məktublar, zindana məktublar" əsərləri hələ keçən əsrin altmışıncı illərinin əvvəllərində yazılmışdır. Cavad Cavadlının şəxsiyyətə pərəstiş dövrünün qurbanı olmuş atası Ələsgər kişinin xatirəsinə həsr etdiyi "Ata yurdu" poemasında qanlı-qadalı repressiyanın təkcə vəzifəli şəxslərin, adlı-sanlı yaradıcı ziyalıların deyil, sadə, sıravi zəhmət adamlarının da taleyini amansızcasına tar-mar etdiyini poetik baxımdan əsaslandırılır. Poemada ailəsini "qabarlı əli" ilə saxlayan, əkinçilikdən yaxşı baş açan Ələsgər kişi kimi günahsız qurbanların acı taleyi zamanın faciəsi kimi ümumiləşdirilmişdir. Şair göstərir ki, sadə, sıravi peşə sahibi olan ataların, onların ardınca anaların və övladların zorakı metodlarla doğma ocaqlardan uzaqlaşdırılması yurd yerlərinin, dədə-baba torpaqlarının zəhmətkeş, təəssübkeş insanlardan, "başıpapaqlılardan" məhrum edilməsi ilə nəticələnmişdir. Mərd insanlara fitva verib sürgünə yola salan bədxah namərdlər kənd-kəsəkdə qalsalar da, doğma ocaqlara biganə olmuşlar. Beləliklə, təkcə atalar və oğullar deyil, bütövlükdə ata yurdları da repressiyanın qurbanına çevrilmişdir. C.Cavadlı haqlı olaraq bunu "XX əsrin dərdi" adlandırmışdır. Poemadakı:

Kənddəki yurdunu unudan bir kəs,
Şəhərdə bəxtiyar yaşaya bilməz![1]

– misraları indinin özündə də müasir səslənir.

"Zindandan məktublar, zindana məktublar" poeması müəllifin əmisi Ələkbər kişinin qardaşı, nahaqdan Arxangelskə sürgün olunmuş "kitabı bağlanmış", Belomorkanal tikintisində çalışan Ələsgər kişiyə yazdığı məktublardan və ondan aldığı cavablardan ibarətdir. Məktublaşma şəklində düşünülmüş bədii forma repressiya insanlarının mənəvi aləmini, qəlb dünyasını, psixologiyasını təbii vasitələrlə açmağa imkan vermişdir. Əsərdəki atanın ölümü ürək yandırıcı bir lövhə ilə qələmə alınmışdır. Əsərdə ataya olan sonsuz övlad məhəbbətinin böyük tərbiyəvi əhəmiyyəti vardır. Dolğun obrazı yaradılmış Ələsgər kişi qara böhtanlara məruz qalan, yurd-yuvası dağıdılan, nəyi vardısa əlindən alınan, ailəsi gedər-gəlməzə göndərilən, Stalin zindanlarında dözülməz məşəqqətlər içərisində, öləndə də bir içim suya həsrət ilə can verən yüz

[1] Cavad Cavadlı. Sürgün. – Bakı: Adiloğlu, 2010, s.129

minlərlə günahsız insanın ümumiləşmiş obrazıdır. Sənədli ittihamnamədir. "Canlı şəhidlər" poemasında doğma Dəmirçi kəndindən Qazaxıstan səhralarına qədərki uzun-uzadı sürgün yollarında baş verən hadisələr əks etdirilmişdir. Mal-heyvan daşınan vaqonlarda həftələrlə ac-susuz yol gedən insanların yanıqlı taleyi, "nəzarətçi" vəzifəsini yerinə yetirən qazaryanların "xalq düşmənlərinə" verdikləri olmazın işgəncələr bacarıqla ümumiləşdirilmişdir. Əsər sürgün məşəqqətlərinin canlı salnaməsidir. Adıçəkilən əsərlər 30-40 il bundan əvvəl yazılmasına baxmayaraq, nəinki aktuallığını və müasirliyini itirməmişdir, hətta həmin poemaların bədii keyfiyyəti də ciddi aşınmaya məruz qalmamışdır.

Cavad Cavadlının sürgün mövzusunda yazdığı poemalarda ana obrazı xüsusi yer tutur. "Sürgündə gördüyüm analar", "Acı nağıl", "Ana ölümü", "Qeyrət", "Məsmə xala" poemalarında mərkəzi mövzu, əsas sima anadır. "Qüssədən don geymiş", kişiləşmiş, əlləri qabar, ürəyi qübar dolu, gözü nisgilli olan bu analar sürgün həyatının bütün məşəqqətlərini mərdi-mərdanə yaşamış, adını, ismətini hər şeydən uca tutmuş insanlar kimi diqqəti cəlb edirlər. Cavad Cavadlı uzaq Qazaxıstan çöllərində Vətən həsrəti ilə dünyasını dəyişən həmkəndlisi Məşədi Bədr xanıma həsr etdiyi "Ana ölümü" poeması ilə 37-ci il faciəsinin mahiyyətini, səbəb və nəticələrini bir daha açıqlamışdır:

İlk müqəssir Cəlladbaşı, bu həqiqətdi,
Cahillik də, paxıllıq da min qan törətdi.
Baltaladıq özümüzü öz əlimizlə,
Hələ sirri mübhəm qalan əməlimizlə.[1]

Poemada Məşədi Bədr xanımın qürbət ellərdəki dəfni zamanı adicə başdaşının belə tapılmaması detalı Qazaxıstan çöllərinin təbii relyef əlaməti kimi izah edilməkdən çox, zülmün, haqsızlığın acı nəticələrinin sübutu səviyyəsində məna tapmışdır. Üç körpə qız uşağı olan ananın uzun müddət can verə bilməməsinin səbəbləri öz reallığı, ürək göynərtisi ilə oxucunu sarsıdır. "Acı nağıl" poemasında hər sabahı bəd xəbərlə açılan "qara sürgünün səciyyəvi faktı – bir övladının "xalq düşmənləri" qəbiristanlığında" dəfni günü digər oğlunu itirmiş ananın yanıqlı düşüncələri mənalandırılmışdır. "Qeyrət" poemasında isə köhnəlib üzülmüş donundan "göyərmiş, qaralmış dizləri" çıxmış ana haqqında oğulun qayğı və tələşləri, hiddət və əzabları göz önünə gəlir. Hələ sübh açılmamış, gizlicə yoxa çıxmış, Qazaxıstan çöllərindən məhsul toplayıb əldə etdiyi qazanc hesabına anasına donluq parça alan oğulun sevinci xalqımızın namus, qeyrət hissinə sonsuz ehtiramı kimi nəzərə çarpdırılmışdır. "Məsmə xala" poeması Lətifə adlı körpə uşağını bağrına basaraq Cavad Cavadlı ilə eyni vaxtda sürgündən qaçmağa cəsarət etmiş mərd

[1] Cavad Cavadlı. Sürgün. – Bakı: Adiloğlu, 2010, s.231

bir azərbaycanlı ana ilə əlli il sonrakı görüşün poetik tarixçəsidir. Bu qeyri-adi görüşün təsviri şairə ötən əzablı günlərin acı xatirələri vasitəsi ilə qanlı-qadalı repressiya illərinə ədəbi qiymət verməyə imkan yaratmışdır. Beləliklə, sürgün dövrü analarının əsas cizgiləri müəyyən olunmuşdur. Bu qadınları müharibə illərinin anaları ilə heç cür eyniləşdirmək olmaz. Ərlərini və oğullarını Vətən və torpaq yolunda itirən anaların iztirabları ilə müqayisədə ömürləri sürgündə çürüyən qadınların məşəqqətləri daha dərin və amansızdır. "Sürgündə gördüyüm analar" poemasında müəllif düçar olduqları nagəhan bəlalara dözə bilməyib "qırıq bir ney kimi" bayatı üstündə iliyi-sümüyü ilə ağlayan anaların dolğun obrazlarını yaratmışdır. Cavad Cavadlı sürgündə övladlarının qəlbini sındırmamaq naminə tək-tənha, oğrun-oğrun, gecələr ağlayan anaların poetik abidəsini ucaltmışdır:

Yastığına söykənərək
Anam gecə ağlayırdı,
Anam necə ağlayırdı.
Əzabını, tələşını gizlətməkçün
Gündüz deyil, anam gecə ağlayırdı,
Anam necə ağlayırdı!
Elə bil ki, gur sarayın
Kərpicləri bircə-bircə sökülürdü,
Göz yaşları gildir-gildir tökülürdü.
... Axı, ana incə xilqət, zərif xilqət,
Axı, qadın iradədə kişi deyil,
Mən sonralar dərk etdim ki,
Göz yaşını gizlətmək də
Hər ananın işi deyil!..[1]

Son illərin məhsulu olan "İtkin bacılar" poemasında da Zərri və Dürdanə kimi unudulmaz ana obrazları yaradılmışdır. Doğrudur, süjet xətti daha çox kənd müəllimi Rəşadın "aparılmasına", sürgün olunmuş ailə üzvlərinin didərgin düşməsinə, onların uzun illərdən sonrakı həyəcanlı, möcüzəli görüşünə istiqamət almışdır. Lakin yenə də mövzu sanki anaların qəlb süzgəcindən keçirilmişdir. Bütün bunlar sürgün dövrü analarının mükəmməl bədii surətini yaratmaqla bitməmişdir. Eyni zamanda anaların ətrafında cərəyan edən hadisələrin timsalında həmin ağır illərin dolğun mənzərəsi, yaddaqalan obrazı canlandırılmışdır.

Cavad Cavadlının "Düşmən iti" poemasında ailə üzvləri sürgün edilmiş, xalq düşməninin kənddə qalmış Alabaş adlı itinin sədaqəti çox təsirli səhnələrlə qələmə alınmışdır. Kənd camaatının qorxudan "düşmən itinə"

[1] Cavad Cavadlı. Sürgün. – Bakı: Adiloğlu, 2010, s.146

çörək ata bilməmələri haqlı olaraq zamanın qeyri-insani siması, amansızlığı hesab edilmişdir. "Vəfalı it" mövzusu qəddar dövran və vəfasız insan münasibətlərini aydınlaşdırmaq üçün mənalı bir açara çevrilmişdir:

Min yol göstərsə də öz ülfətini,
Hər yandan qovdular düşmən itini.
Kiçiklik görmüşəm mən çox naşıda,
Düşmən sayan vardı Alabaşı da!..
... İtin də üstündə nəzarət vardı,
Ona çörək atan cəzalanardı.
Ya da ki, şübhəli adam sayılar,
Başa düşməyəndə gözü oyular.
Düşmən itinə də yasaqdı rəğbət.
Bunu uşaqlar da bilirdi əlbət.
Dərdlər növ-növ olar, yekə olarmış,
İnsanlar itinə ləkə olarmış...[1]

Ümumiyyətlə, "Düşmən iti" poeması təkcə Cavad Cavadlı yaradıcılığında yox, bütövlükdə ədəbiyyatımızda sürgün mövzusunda yazılmış ən kamil bədii əsərlərdən biridir.

Sürgün mövzusu şairin yaradıcılığında "Cəhənnəmdən qaçmış uşaq" mənzum romanı ilə tamamlanmış, kamala çatmışdır. Həcm etibarilə on üç çap vərəqi qədər olan bu əsər müəllifin sürgün mövzusundakı düşüncə, axtarış və qənaətlərinin sanballı yekunudur. "Cəhənnəmdən qaçmış uşaq" mənzum romanında Keysu xanımın və övladlarının Qazaxıstanda keçən çətin, məşəqqətli sürgün həyatı – məktəbli Cavadın sürgündən qaçıb çaylar, dənizlər, əzablı yollar keçərək min bir əziyyətlə Naxçıvandakı doğma Dəmirçi kəndinə gəlib çıxması, otuzuncu illər Azərbaycan kəndində baş verən ictimai proseslər real şəkildə əks etdirilmişdir. Hətta əsərin personajları o qədər dolğun surətdə təsvir olunmuşdur ki, bunları yazıçı təxəyyülünün məhsulu kimi qəbul etmək olmur. Müəllifin məharəti ondadır ki, romanda təsvir edilən kiçik surətləri belə xarakter səviyyəsinə yüksəldə bilmişdir. Ona görə də əsəri oxuyarkən onların real adamların timsalında yaradıldığına heç bir şübhə qalmır. Kənd Sovetinin sədri Rza Zaman, kolxoz sədri Əhməd, ələ alınmış gənc kommunist İbadullah və digərləri mənfi qütbü təmsil edirlər. Düşünən, zəhmətkeş insanların taleyi onların bəd niyyətləri sayəsində müşkül düyünə salınmışdır. Ələsgər kişi, Məşdəli, Qara çoban, Şirin nənə, Keysu xanım, oğlanları Cəfər, Cavad, Əlihüseyn, qızları Səkinə, Zeynəb nahaqdan əzaba düçar edilən yüksək mənəviyyatlı, saf əqidəli vətən övladları kimi səciyyələndirilmişdir. Əsərdə təsvir olunan Əli, Novruz, Nərgiz, Hürü, Lal Vəli kimi müsbət

[1] Cavad Cavadlı. Sürgün. – Bakı: Adiloğlu, 2010, s.239-241

səpkidə işlənmiş obrazlar da yadda qalır, oxucunu uzun müddət düşündürür. "Düşmən iti" poemasında və mənzum romanda müəyyən yer tutan Lal Vəli ədəbiyyatımıza yeni ab-hava gətirən çox vəfalı bir kəndli obrazıdır. Bu da maraqlıdır ki, bədii ədəbiyyatda ilk dəfə sürgündən qaçan uşağa – Cavad Cavadlıya dayaq duran o zaman Noraşen rayon (indiki Şərur rayonu – İ.H.) partiya komitəsinin birinci katibi vəzifəsində işləmiş böyük yazıçımız Süleyman Rəhimovun xeyirxah, yaddaqalan obrazı yaradılmışdır.

Əsərdə qazax xalqının Bəxtigül, Oljas, Ağcamal şeşə və başqaları kimi xeyirxah nümayəndələrinin obrazları da maraqlıdır. Əsərdəki hadisələrin böyük bir hissəsi Qazaxıstanda cərəyan edir. Bütün bunlara görə, digər ideya-bədii xüsusiyyətləri ilə bərabər, "Cəhənnəmdən qaçmış uşaq" mənzum romanı, bəzi digər poetik nümunələr, həm də Azərbaycan-qazax ədəbi əlaqələrinin yeni, daha maraqlı səhifələrini açan dəyərli bədii nümunə kimi mühüm əhəmiyyətə malikdir. Bütövlükdə isə "Qazaxıstan kitabı" silsiləsi ədəbi əlaqələrimizin tarixinə, xalqlarımızın doğmalığına və yaxınlığına, onun inkişaf perspektivlərinə gur işıq salır.

Ümumiyyətlə, "Cəhənnəmdən qaçmış uşaq" mənzum romanı sürgün mövzusunda yazılmış əsərlərin ən təsirlisi, cəlbedici olanı və düşündürücüsüdür. Təsadüfi deyildir ki, ədəbi tənqid bu romanı "Cavad Cavadlının şah əsəri"[1] səviyyəsində dəyərləndirmişdir.

İrihəcmli əsərlər bir çox cəhətdən xarakterikdir, ənənəvi poemalarımıza bənzəmir. Müəllif bütün əsərlərin iştirakçısıdır. Mənfi və müsbət qəhrəmanların da bəzisi bir neçə əsərin əsas qəhrəmanıdır. Mənzum roman başda olmaqla, poema və şeirlərin dili çox aydın, səlis və obrazlıdır. Heca vəzninin demək olar bütün ölçülərindən, formalarından, xüsusən ədəbiyyatımızda çox az işlənən 13 hecadan geniş və məharətlə istifadə olunmuşdur. Müəllif yeni şeir formaları yaratmışdır. Aforizm kimi səslənən çoxlu beytlər kitabın uğurudur. Vətənin təbii gözəlliklərinin məftunluqla təsviri isə ayrıca bir mövzudur.

Cavad Cavadlı sürgünün ağrı-acısını şəxsən dadmış, qanlı-qadalı illərin canlı şahidi olmuşdur. Buna görə də onun üçün tarixin bəxş etdiyi bəraətdən qiymətli, əziz, uca heç nə ola bilməz. Repressiyanın günahsız qurbanı olmuş atası Ələsgər kişinin vəfatından on doqquz il sonra imzalanmış bəraət aktı doğru olaraq "qolu bükülməz haqqın sirdaşı" kimi ümumiləşdirilmişdir. Şairin bəraət sözünə verdiyi mənalardan hər biri gec və çətin də olsa, ədalətin qələbə çalmasını əsaslandırır:

...İşıq ilə zülmətin
Savaşıdı bəraət.

[1] Yusif Talıbov. Haqsızlığın başı üstə iti qılınc. "Vətən işığı" qəzeti, 28 mart 2006, № 2 (23)

...Zindanda can verənin
tələşıdı bəraət.
...Şərin başını əzən
Haqq daşıdı bəraət![1]

Bu mənada "Sürgün" kitabı ilk növbədə milli-tarixi özünüdərk proseslərini dərinləşdirməyə xidmət edir. "Qazaxıstan kitabı" silsiləsi həm də acı taleyimizi real və aydın şəkildə gələcək nəsillərə çatdırmağa imkan yaradır. Bundan başqa, oxuculara təqdim edilən əsərlər bütün emosional gücü və bədii enerjisi ilə qanlı-qadalı sürgün və repressiya illərinin bir daha geri qaytarılmamasına çağırır. Kitabın əsas ibrət dərsləri bundan ibarətdir.

Cavad Cavadlının "Sürgün" kitabında toplanan əsərlər sənətkarlıq baxımından da qiymətli bədii nümunələrdir. Şair seçdiyi çox təsirli həyat materiallarını yüksək bədii səviyyədə təqdim etməyi bacarmışdır. Sürgün həyatının müxtəlif yönlərinə gur işıq salan bu əsərlər janr etibarilə də zəngindir. Cavad Cavadlı sürgün dövründə müşahidə etdiyi insanları və üzləşdiyi hadisələri bayatı, gəraylı, layla, ağı, oxşama, poema, mənzum roman janrlarında oxuculara çatdırmışdır. Bu janrların hər birində şairin özünəməxsus yaradıcılıq imkanları, bədii yanaşma üsulu diqqəti cəlb edir. Haqlı olaraq deyildiyi kimi, "Sürgün" kitabında ədəbi növ, həcm, yazılma tarixi və sair baxımdan fərqlənən əsərlər ... bir bütövün tərkib hissəsi kimi səslənir, bir-birini tamamlayır. Az qalır deyəsən ki, "Sürgün" kitabı elə bircə poemadır, mənalı məzmunlu, həzin bir dastandır".[2] Cavad Cavadlı ayrı-ayrı janrlarda yazılmış əsərləri eyni süjet xətti ətrafında birləşdirməyi bacarmışdır. Oxşar taleli insanlar, eyni xarakterə malik olan təzadlı hadisələr uyğun poetik formalarda bədii həyatın münasib sənət meydanına çıxarılmışdır.

"Sürgün" kitabı şair-publisist Cavad Cavadlının yaradıcılıq nailiyyətidir. Əsərin bir mühüm əhəmiyyəti də ondadır ki, şair kiçik yaşlarından gördüyü haqsızlıqları yadında saxlayıb ən ağır, çətin illərdə kağıza köçürmüşdür. Bunlar itib getsəydi, tariximizin də bir çox mühüm səhifələri unudulub-batacaqdı. Bu kitab, eyni zamanda, taleyinə, bəxtinə sürgün hökmü yazılmış günahsız insanların, keşməkeşli, əzablı həyatının mənalı, ibrətamiz poetik dastanıdır. Bu kitab həmçinin digər şair və yazıçıların da sürgün mövzusuna ciddi münasibət bəsləmələrinə təkan verə bilər. "Qazaxıstan kitabı" silsiləsi ədəbiyyatımızda yeni ədəbi hadisədir, sürgün mövzusunun bədii inikasının ayrıca bir elmi tədqiqatının predmeti olduğuna şəhadət verir.

***

[1] Cavad Cavadlı. Sürgün. – Bakı: Adiloğlu, 2010, s.51

[2] Yusif Seyidov. Ata-ana harayından oğul harayına qədər. "Yeni Azərbaycan" qəzeti, 26 mart 1997-ci il

Göründüyü kimi, Cavad Cavadlı müasir Azərbaycan ədəbiyyatının tanınmış, görkəmli nümayəndələrindən biridir. Maarifçi ədəbiyyat və publisistika, uşaq və ictimai lirika sahəsindəki xidmətləri ilə o, ədəbiyyatımızı zənginləşdirmişdir. Sürgün mövzusunda yazılmış qiymətli əsərləri ilə Cavad Cavadlı ədəbiyyatımızda yeni bir ədəbi istiqamət açmışdır. Keçmiş sovet rejiminin tənqidinə və müstəqillik dövrü Azərbaycanın təsdiqinə həsr olunmuş əsərləri ilə o əsl vətəndaş sənətkar olduğunu təsdiq etmişdir.

Bədii yaradıcılığa məktəbli ikən başlayan, çoxillik şərəfli yaradıcılıq yolu keçən Cavad Cavadlının ədəbiyyat cəbhəsindəki fəaliyyəti ilə mətbuat sahəsindəki çoxcəhətli işi biri digərini tamamlayır. Əvvəla, Cavad Cavadlının bədii əsərlərində mətbuatdan gəlmə publisist notlar, məqamlar mövcuddur. İkincisi, Cavad Cavadlının əsərləri publisistikada olduğu kimi, aktuallıq və müasirliyə malikdir. Üçüncüsü, şairin publisistikası normativ jurnalistikanın prinsiplərindən əlavə, həm də bədii xüsusiyyətlərə malikdir. Dördüncüsü, Cavad Cavadlı şeir parçalarından istifadə etməklə, publisist əsərlərinin bədii-emosional təsirini qüvvətləndirməyi bacarmışdır. Bütün bunlar şair-publisistin ədəbiyyat və mətbuat cəbhəsinin hər iki qütbündə layiqincə təmsil olunduğunu göstərir. Ədəbiyyata, yaxud mətbuata münasibətdə çoxcəhətli fəaliyyətində nəzərə çarpan ikihakimiyyətlilik, nəticə etibarilə, Cavad Cavadlının hər iki istiqamətdəki yaradıcılıq işinin xeyrinədir. Çünki bu sahələrdən biri digəri üçün qida mənbəyi, ehtiyat enerji funksiyasını uğurla yerinə yetirir. Cavad Cavadlı publisistikanı bədiiliklə, poeziyanı publisistik keyfiyyətlərlə ən münasib şəkildə zənginləşdirən şair-publisist kimi özünəməxsusluq qazanmış sənətkardır.

Cavad Cavadlı həyatının və yaradıcılığının müdriklik çağında da ədəbiyyat və mətbuat cəbhəsinin sədaqətli əsgəri kimi nikbinlik ruhu və müasirlik duyğusu ilə yaşayıb-yaratmaqda davam etmişdir. Şairin "Hələ bunlar harasıdır" şeirində onun məşəqqətli ömrünün, mübariz və ibrətamiz sənətinin başlıca ruhu, əsas qayəsi bütün təbiiliyi ilə əks olunmuşdur. Cavad Cavadlının bu şeiri onun həm keşməkeşli ömür yolunun və həm də şair taleyinin epiqrafı hesab oluna bilər:

Sevinc, fərəh, bəxtiyarlıq, dərd, yollarda,
Ölüm, qada dayanıbdır sərt yollarda,
Nə büdrəyər, nə yıxılar mərd yollarda,
Yollar məni sınayası, yorasıdır,
Hələ bunlar harasıdır.

Məclislərdə toy görmüşəm, saz görmüşəm,
Bu dünyada qış görmüşəm, yaz görmüşəm,
Dərdi-qəmi kim deyir ki, az görmüşəm

Yaram Təbriz, Şuşa, Laçın yarasıdır,
Hələ bunlar harasıdır.

Adı bir an düşə bilməz dilimizdən,
Göycə kimi mahal çıxıb əlimizdən,
Vətən cavab istəyəcək ölümüzdən
Buna görə ellər məclis qurasıdır,
Hələ bunlar harasıdır.

Rahatlıqla ömrü başa necə vurum,
Min hiyləylə alınıbdır Zəngəzurum,
Bu dərd ilə ayaq üstdə necə durum?
Gələn nəsil bunu bizdən sorasıdır,
Hələ bunlar harasıdır.

...Şeirlərim haray çəkir gur səsiylə,
Qarı, buzu əridəcək nəfəsiylə,
Təzə inci, təzə bir dürr həvəsiylə
Hələ Cavad sərt dağları, qayaları yarasıdır,
Hələ bunlar harasıdır, Hələ bunlar harasıdır.

Ədəbiyyatımızın fədakar, zəhmətkeş və istedadlı yaradıcılarından biri kimi fəaliyyət göstərmiş Cavad Cavadlının ədəbi irsi zəngin və mənalı mənəvi xəzinədir. Böyük həyat məktəbi keçmiş şairin ömür və sənət yolu yeni nəsillər üçün örnək sayıla bilər.

ATİF ZEYNALLI
(1927-1991)

İkinci Dünya müharibəsindən sonra ədəbi-bədii mühitdə öz imzası ilə tanınan Atif Zeynallı milli ruhlu şeirləri ilə diqqəti cəlb etmişdir. Qırx ildən çox yazıb-yaratdığı bədii əsərləri və həmçinin iyirminci yüzilliyin görkəmli sənətkarları Cəfər Cabbarlı, Səməd Vurğun, Süleyman Rüstəm haqqında elmi tədqiqat əsərləri ilə ədəbiyyat tariximizdə iz qoymuşdur. Onun poeziyası bu gün də oxucuların ən çox müraciət etdiyi, bəhrələndiyi sənət örnəklərindəndir.

Həyatı. Atif Əbdülbaqi oğlu Zeynallı 20 mart 1927-ci ildə Bakıda dünyaya göz açmış, şəhər 132 saylı orta məktəbdə 7-ci sinfə qədər oxumuş, 1941-ci ildə müharibə başlanandan sonra ailəsi ilə birlikdə Mərdəkandakı bağ evlərinə köçərək təhsilini burada davam etdirmişdir. Məktəbi bitirəndən sonra 1944-1949-cu illərdə BDU-nun (keşmiş ADU) Şərqşünaslıq fakültəsində təhsil almışdır. İlk əmək fəaliyyətinə Cəlilabadda müəllim kimi başlamışdır. Sonradan Mərdəkanda müəllimlik etməklə yanaşı, bir müddət "Azərnəşr"də redaktor kimi çalışmışdır. Atif Zeynallı 1953-1956-cı illərdə Moskvada SSRİ Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunun aspiranturasında təhsilini davam etdirmişdir. Bakıya qayıtdıqdan sonra 1956-cı ildən ömrünün sonuna qədər AEA Nizami adına Ədəbiyyat İnstitutunda (indiki AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda) əvvəl kiçik elmi işçi, sonra baş elmi işçi kimi fəaliyyət göstərmişdir.

Atif Zeynallı 1957-ci ildə "Cəfər Cabbarlının dramaturgiyasında yeni insan surətləri" mövzusunda namizədlik dissertasiyası, 1972-ci ildə isə "Süleyman Rüstəm və Şərq şeir ənənələri" mövzusunda doktorluq dissertasiyası müdafiə edərək, elmlər doktoru elmi dərəcəsinə layiq görülmüş və ədib həmin ildən də Azərbaycan Yazıçılar Birliyinin üzvü olmuşdur.

Bu illər ərzində Atif Zeynallı XX əsr Azərbaycan ədəbiyyatının böyük simaları olan Cəfər Cabbarlı, Səməd Vurğun, Süleyman Rüstəm haqqında monoqrafiyalarla yanaşı, bir çox görkəmli şəxsiyyətlər haqqında və müxtəlif elmi-nəzəri problemlərilə bağlı müxtəlif ədəbi-tənqidi məqalələrin, elmi tədqiqatların müəllifi kimi tanınmışdır.

Şair Atif Zeynallı 1991-ci il yanvarın 28-də Bakıda vəfat etmişdir.

Yaradıcılığı. Atif Zeynallı 1940-cı illərin axırında hələ universitetdə oxuyarkən dövri mətbuat səhifələrində çıxış etməyə başlamışdı. Gənc şairin "Azərbaycan" adlı ilk şeiri 1947-ci ildə "Azərbaycan gəncləri" qəzetində dərc edilmişdir. Bu dövrdə təkcə Atif Zeynallı deyil, onunla birlikdə ədəbiyyata gələn gənc şairlərin bir çoxu Səməd Vurğun bədii üslubunun və vətənçilik əqidəsinin təsiri ilə yazıb-yaradırdılar. Sonralar vətən torpağının əsrarəngiz təbii gözəlliklərini özünəməxsus məcazlı dildə poetikləşdirən şair çox keçmədən ədəbi mühitdə nəzəri cəlb etmişdir. Bir şair kimi onun yaradıcılığı

1950-1990-cı illəri əhatə edir. O, bu dövrdə yaşadığı cəmiyyətin həm ictimai-sosial hadisələrini, həm də insanların mənəvi aləmini dərindən hiss edərək onları böyük ustalıqla qələmə almışdır. Bir şair kimi Atif Zeynallı müharibədən sonra Səməd Vurğun məktəbinin təsiri ilə yetişən, onun yaradıcılığından bəhrələnərək, vətəni dərin məhəbbətlə tərənnüm edən gənc şairlər nəslinin nümayəndəsi idi. Bunların sırasında Bəxtiyar Vahabzadə, Qasım Qasımzadə, Adil Babayev, İslam Səfərli kimi tanınmış söz adamları vardır.

Əməkdar elm xadimi, professor Timurçin Əfəndiyev Atif Zeynallıya həsr etdiyi məqaləsində yazır: "60-70-ci illərdə qələmə aldığı şeirlərinə sanki Səməd Vurğunun ruhu çökmüşdü. Həmin illərdə yazdığı doğma torpağın gözəlliklərini əks etdirən şeirlərində şair təbiətə sanki onun gözüylə tamaşa edirdi. Böyük Səməd Vurğunu Azərbaycan məfhumunun bir növ sinonimi, prototipi sanırdı. Onun nəzərində Vurğun da Azərbaycan kimi böyüklük, əzəmət simvolu idi. Zaman dəyişsə də, vaxtı ilə milli poeziyaya yeni nəfəs gətirən 60-70-ci illər lirikası, bu lirikanı özlərinin zəngin yaradıcılığı ilə cilalamış adlar, imzalar bu gün də xatirələrdə yaşayır, onlar müasir şeirimizin yaxın keçmişindən boylanan, hələ köhnəlməyə macal tapmayan sələflərdir".[1]

Ölməz şairimiz Səməd Vurğun poeziyasındakı ilhamlı pafosdan, əlvan təbiət lövhələrinin tərənnümündən qidalanan Atif Zeynallının poeziya dünyasında Səməd Vurğun üslubunun təsiri özünü aydın göstərir. Şair Səməd Vurğun yaradıcılığına biganə qalmamış, ömrünün müdrik illərini dahi şairin yaradıcılığına həsr etdiyi "Səməd Vurğun sənəti" monoqrafiyasını ərsəyə gətirmişdir. Tədqiqat işi 1990-cı ildə nəşr olunmuşdur.

Atif Zeynallı bütün yaradıcılığı boyu doğma vətənə, onun təbii gözəlliklərinə, igid oğullarına, tarixi şəxsiyyətlərinə çox sayda şeirlər həsr etmişdir. Qarış-qarış gəzdiyi doğma Qarabağın, Şahdağın, Göygölün, Lerikin, Ordubadın və digər vətən torpaqlarının təkrarsız gözəlliklərini tərənnüm edərkən həmin yerlərin səciyyəvi, özünəməxsus cəhətlərini qabartmış, eləcə də xalqın fəxr etdiyi dahi övladlarını da yaddan çıxarmamışdır:

Göygölu andıran məhəbbətində
Kürü xatırladan səxavətində
Xəzərə oxşadın cəsarətində
Hər dalğa yumruğun biləyin olsun.

Xaqani hissinin böyük niyyəti
Nəsimi fikrinin şimşək qüdrəti
Sabir gülüşünün kişi qeyrəti
Ən çətin məqamda köməyin olsun.[2]

[1] Timurçin Əfəndiyev. Şairi düşünərkən. – Bakı: "525-ci qəzet", 27 aprel, 2017
[2] Atif Zeynallı. Vətən. Əbədilik. – Bakı: Gənclik, 1979

Xəzəri tərənnüm etməkdən usanmayan şair elə Xəzərin özü kimi bəzən çılğın, tələtümlü, bəzən də sakit, təmkinli duyğuları ilə yaşadığı acını-şirini, asanı-çətini vərəqlərə köçürür, "dəniz" silsiləsini yaradırdı. Xəzərin vurğunu olan gənc şair yazırdı:

Sən ay Xəzər, lal duranda
Gözəllərin gözəlisən.
Cəfərimin duyğuları
Vahidimin qəzəlisən.
Sən ay Xəzər, qıy vuranda
Cəsurların cəsurusan,
Azərbaycan torpağının
Əzəməti, qürurusan.[1]

Bütün yaradıcılığı boyu xalqın qəhrəmanlıq mübarizəsini, əzmini yaratdığı lirik qəhrəmanların dili ilə qələmə alan şair bu istək və duyğularını poetik boyalarla tərənnüm etməyi ustalıqla bacarmışdır. Onun lirik şeirlərinin əsas qayəsini təşkil edən eşq, sevgi, məhəbbət, gözəllik, sədaqət şairin həyat amalına çevrilmişdi. Tənqidçi Vaqif Yusifli Atif Zeynallının yaradıcılığına həsr olunmuş "Xəzər şairi Atif Zeynallı – 90" yubiley məqaləsində yazır: "O, təbiətin vurğunu idi. İlin fəsilləri, adi bir yarpaq, qocaman ağaclar, Azərbaycanın dağları, dərələri, çayları, gölləri onun şeirlərində bir rəssam duyğusuyla əks olunurdu. Müəllif qeyd edir ki, o dövrün poeziyasına xas olan bütün mövzulara Atif Zeynallının şeirlərində rast gəlirik. Dünyada baş verən ictimai-siyasi hadisələr, milli azadlıq mücadilələri, mədəniyyət aləmində yeni ideoloji axtarışlar, Azərbaycanla bağlı arzular, həsrət motivləri, elmi-texniki inqilabın yaratdığı fəsadlar, ekoloji problemlər və əlbəttə ki, ilk sırada müasir insanın duyğu və düşüncələri Atif Zeynallının yaradıcılığında öz əksini tapır".[2]

Elm xadimi, alim olmaqla yanaşı, fitri-istedada malik olan Atif Zeynallının şair kimi duyğusal, kövrək hislərlə qələmə aldığı şeirləri onu həm də bir şair kimi xalqa tanıtdı. Onun vətənə, torpağa olan sevgisi, lirik şeirlərində xüsusi önəm kəsb edir.

Atif Zeynallı öz hiss və duyğularını, Xəzərə vurğunluğunu incə duyğularla qələmə alırdı. Bu vurğunluq ona hələ gənc yaşlarından yaradıcılığını sevə-sevə izlədiyi ölməz şairimiz Səməd Vurğuna sevgisindən irəli gəlirdi. Bu dövrdə təkcə Atif Zeynallı deyil, onun bir çox qələm dostları, ədəbiyyata gələn böyük şairlər nəsli Səməd Vurğun üslubunun və əqidəsinin təsiri ilə bir-birindən gözəl əsərlər yazıb-yaratdılar.

[1] Atif Zeynallı. Nur körpüsü. – Bakı: Yazıçı, 1985
[2] Vaqif Yusifli. Xəzər şairi Atif Zeynallı – 90. "Ədəbiyyat qəzeti", 19.04.2017

Zəngin yaradıcılığa malik olan şairin bütün əsərlərində vətən məhəbbətilə yanaşı, insan sevgisi də ön planda durur. Bu baxımdan o özünü qəzəl janrında sınamaqdan da çəkinməmişdir. Onun "Sən olmasaydın", "Sənmisən", "Ay məni yaşadan", "Gül kimi qızsan", "Gözlər"və s. qəzəlləri lirik şairin şeirlərinin poetik gücündən xəbər verir. Əruzun mahir bilicilərindən olduğu üçün bu janrda yazmaq şairə çox da çətinlik yaratmamışdır. Onun qəzəllərində əsrin qəzəl ustası Əliağa Vahidin təsiri daha çox özünü hiss etdirir. Bu qəzəllər mürəkkəb izafətlərdən azad, doğma dilin ahəngdar bədii vasitələri ilə zəngin olduğu üçün muğam sənətində də geniş işlənməkdədir. Məsələn, şairin "Niyə yoldan keçənə sərvü-xuraman deyirik" qəzəlində dilin ahəngi, axıcılığı, fikir, düşüncə tərzi və bənzətmələr onun əruz vəzninə dərindən bələd olduğundan xəbər verir:

Dedim ey yar, gedirəm, dərdi-qəmi qoşdu mənə,
Yaxşı ki, bilmədi heç dərdi-qəmi xoşdu mənə.

Dumduru gözlərini Göygölə bənzətdim onun,
Qəzəbindən qabarıb sanki Xəzər coşdu mənə.

Onsuz aləm dolana başıma pərvanə kimi,
Yenə, Atif, sanaram cumlə-cahan boşdu mənə.[1]

Atif Zeynallı həyata nikbin baxışlı, sevgisində sədaqətli məhəbbət şairi idi. Onun yaratdığı qəzəllərdə lirik obrazlar mətin təbiətli, həyata bağlı, şux ovqatlı, yarının əzabından da zövq alan obrazlar kimi təqdim edilir.

A.Zeynallı qələmini satirik üslubda da sınamaqdan çəkinməmişdi. O satirik şeirlər, təmsillər yazmaqla dövrün eybəcərliklərini, xüsusən də ikiüzlü, nadan, fırıldaqçı, riyakar, zalım və digər mənfi xüsusiyyətlərə malik insanları ifşa etmiş, onların bitkin obrazlarını yaratmışdır. Satirik üslubda yazdığı "Qara pişiyin hiyləsi", "Eşşəyin eşşəkliyi" və s. əsərlərində sadalanan mənfi keyfiyyətlər qabarıq şəkildə öz əksini tapmışdır.

Atif Zeynallı dram əsərləri yazmaqla da yaradıcılığına rəngarənglik qatmışdır. Onun "Sirlər yuvası", "Nəriman ata", "Məmmədəli kurorta gedir", "Ləkə" adlı əsərləri bu baxımdan xüsusilə diqqəti cəlb edir. Şairin təbiətinə xas olan yumşaqlıq, sadəlik, nikbinlik əsərlərində də əks olunur. Əsasən komik-dramatik üslubda yazdığı pyesləri Bakı, Gəncə teatrlarında dəfələrlə səhnəyə qoyulmuşdur. Atif Zeynallı tərcumə ilə də məşğul olmuşdur. Müxtəlif xalqların poeziyasından tərcümələr edən şairin özünün "Keçilməmiş yollarla" monoqrafiyası rus dilinə tərcumə olunub çap edilmişdir.

Şəxsiyyətə pərəstişin tənqidindən sonra ölkədə ictimai-siyasi mühitin yumşalması üzündən öz düşüncələrini daha açıq deməyə imkan tapan Atif

[1] Atif Zeynallı. Gözlərin. – Bakı: Gənclik, 1979, s.9

Zeynallı siyasi quruluşa qarşı müxalif fikirlərini, Araz mövzusunu bir neçə şeirində qələmə almışdır. Buna görə də Dövlət Təhlükəsizlik Komitəsindən ona ciddi xəbərdarlıq edilmişdir. Məsələn şair "Mən odlar yurduyam" şeirində yazırdı:

Xəzərimin şor suyu
Yarama məlhəm olub,
Ağrımı unutmuşam.
Babəkəm! Koroğluyam!
Nəbiyəm! Səttarxanam!
Mən Odlar yurduyam,
Azərbaycanam![1]

"Abidələr önündə" şeirində şair əsrlərdən bəri zəngin maddi sərvətlərinə görə dəfələrlə böyük dövlətlərin hücumlarına məruz qalan doğma vətəninin dərdlərini ürəkağrısı ilə: "Yurdumun hər qarışı yüz-yüz məzardır, qəbirdir... Bu fateh, o fateh... Heç biri Azərbaycanı öpüb gözünün üstünə qoymamışdır... Sorduqca qanını doymamışdır, doymamışdır...",[2] – deyə üsyan etmişdir.

Atif Zeynallı 1920-30-cu illər mədəni inqilab dövrü ədəbiyyatının ən yaxşı tədqiqatçılarından biri idi. 1957-ci ildə müdafiə etdiyi namizədlik dissertasiyası məhz bu dövrün ən qüdrətli yazıçısı olan Cəfər Cabbarlının yeni tipli qəhrəmanlarına həsr olunmuşdur. "Cəfər Cabbarlı dramaturgiyasında yeni insan surətləri" adlı tədqiqat işi ədəbiyyata yeni gələn ədəbiyyatşünaslara istiqamət verərək, onları akademik Məmməd Arifin açdığı elmi yolun davamçıları etmişdir. Məmməd Arifin redaktorluğu ilə 1967-ci ildə çıxan "Azərbaycan sovet ədəbiyyatı tarixi"nin birinci cildindəki "1920-1929-cu illər" oçerkini Atif Zeynallı yazmışdır. Bu göstərici akademik Məmməd Arifin öz tələbəsinə böyük etimadı idi.

Yeni proletar poeziyasının və mədəni inqilab dövrü şeirinin təşəkkülündə S.Vurğun üslubunun novator əhəmiyyətini Atif Zeynallı yüksək qiymətləndirirdi. Şairin yaradıcılığı ilə bağlı bütün mərhələlərdə o, doğru mövqe tuturdu. Onun doktorluq dissertasiyası (1983) da əslində yeni sovet poeziyasının novatorluğuna, proletar şeirinin tarixi əhəmiyyətinə həsr olunmuşdu. Əsasən S.Rüstəmin yaradıcılığını əhatə edən bu tədqiqat işi sovet dövrü şeirimizin qazandığı yeni keyfiyyətlərə uzaqgörən və doğru yanaşma idi. Bu həm də Yeni proletar şeiri anlayışını gözdən salmaq istəyənlərə tutarlı cavab sayıla bilərdi.

Şairlik ruhunun həyatının hər anında özünü daha güclü şəkildə büruzə verməsi onun həyat amalına çevrilmişdi. Güclü müşahidələri, dərin duyum hissi şeirlərinin poetik gücünü daha da artırır, lirik qəhrəmanını şairin ilham

[1] Atif Zeynallı. Xəzər, sənə sözüm var. – Bakı: Gənclik, 1976, s.116
[2] Atif Zeynall. Odlar yurdum. – Bakı: Gənclik, 1981, s.150

pərisinə çevirirdi. Vətəninə, elinə bağlı olan şairin məhəbbəti, sevgisi təbii söz axarında poetik əksini tapırdı. Elinə, obasına ürəkdən bağlı olan şair onu şeirlərində vəsf etməkdən yorulmurdu. Şairin təbirincə desək, mənim şeirlərimin vətəni Xəzər və Abşeron torpağı olmuşdur. Sonralar bu balaca vətən böyüdü, Azərbaycana çevrildi. Bütün yaradıcılığı boyu onu tərk etməyən vətən sevgisini öndə tutan şair Atif Zeynallı onu vəsf etməkdən usanmayaraq hiss və duyğularını qələminin gücüylə ərsəyə gətirdiyi şeirlərində güclü poetik çalarlarla boyamışdır.

Şairin bu qəbildən olan şeirləri çap etdirdiyi kitablarda öz əksini tapmışdır. Onun kitablarının məzmunu yox, adları da Xəzər və Abşeronla bağlıdır. "Sahildə" (1958), "Yenə o sahildə" (1959), "Adanın sirri" (1959), "Üç dəniz arxasında"(1970), "Xəzər, sənə sözüm var" (1976), "Odlar yurdum" (1981) kimi kitabları buna misal ola bilər.

Atif Zeynallı təkcə şair kimi deyil, həm də Azərbaycan ədəbiyyatşünaslıq elmində də oz sözünü demiş alimlərdəndir. Bu sahədə də onun çox sayda elmi məqalələri ilə yanaşı, irihəcmli tədqiqat işləri vardır. Öz yeri, öz çəkisi olan alimlərdən hesab olunan Atif Zeynallı həm şair, həm ədəbiyyatşünas kimi diqqətdən kənar qalmamışdır.

Atif Zeynallının yetişdiyi ədəbi mühitə nəzər salanda görünür ki, milli-mənəvi dəyərləri, vətən, xalq sevgisini yaratdığı əsərlərdə təbliğ edən dövrün şair və nasirləri bu yolda əllərindən gələni əsirgəməmişlər. Bu gün də ədəbiyyat tariximizdə adlarını sevə-sevə andığımız Gəray Fəzli, Məmməd Aslan, Oqtay Rza, Tofiq Bayram, Qasım Qasımzadə, Atif Zeynallı və başqaları milli poeziyanın inkişafında, təbliğində yorulmadan qələmlərini silaha çevirib yazıb-yaratmışdılar. Yaradıcı ömrünün ən məhsuldar çağlarında Mirzağa Quluzadə, Məmməd Cəfər, Əziz Mirəhmədov, Məmməd Arif kimi təfəkkür və düşüncə sahiblərilə çiyin-çiyinə çalışan Atif Zeynallı bütün ömrü boyu prinsipial, ədalətli çıxışlarıyla, yanaşma tərziylə də seçilirdi. Atif Zeynallı uzun illər Ədəbiyyat İnstitutunun Müdafiə Şurasının üzvü olmuşdur. Onun ədəbiyyat nəzəriyyəsi və ədəbi tənqid sahəsindəki elmi fəaliyyəti, elmi görüşlərinin mükəmməlliyi daim göz önündə olmuşdur.

Varlığını vətənə, torpağa, xalqa sevgisində görən şair yüksək sənətkarlıqla yaratdığı poeziya nümunələrində milli ruhu, vətən sevgisini özünəməxsus şəkildə bədii boyalarla əks etdirmişdir. Şeirlərinin qəhrəmanına çevrilmiş vüqarlı Kəpəz, coşqun Xəzər, füsünkar Bakı şairin ilham mənbəyinə çevrilərək yaradıcılığının əsas qayəsini təşkil etmişdir.

Atif Zeynallı 1960-80-ci illər poeziyasında öz sözünü demiş, ədəbiyyatşünaslıq sahəsində yetərincə xidmətləri olan o tənqidçi alimlərdəndir ki, yaradıcılığında milli-mənəvi dəyərlərdən çıxış edərək, ədəbiyyat tarixində silinməz izlər qoymuşdur.

ƏLİAĞA KÜRÇAYLI
(1928-1980)

XX əsrin ikinci yarısı Azərbaycan poeziyasını Əliağa Kürçaylısız təsəvvür etmək mümkün deyil. Qırxıncı illərin sonlarında ədəbiyyata gələn Əliağa Kürçaylı otuz beş illik yaradıcılığı ərzində poeziyamızı gözəl lirik şeirləri və poemaları ilə zənginləşdirmiş, sənətdə özünəməxsus poetik dəst-xəti ilə seçilib fərqlənmişdir.

Həyatı. Əliağa Kürçaylı (Vəliyev Əliağa Həsənağa oğlu) 1928-ci il 20 fevral tarixində Salyan rayonunun Kürqaraqaşlı kəndində anadan olmuşdur. Doqquzuncu sinfi bitirdikdən sonra Salyanda mühasiblik kursunda oxumuş, dəmiryolu idarəsində və Salyan dram teatrında (1944-1947) işləmiş-dir. Sonra Bakıya köçmüş, burada orta məktəbin son sinfini bitirib ADU-nun (indiki BDU) Filologiya fakültəsində (1949-1954) təhsil almışdır.

1954-cü ildən "Kommunist" qəzetində ədəbi işçi, "Ədəbiyyat və incəsənət" (1953-1955), "Azərbaycan gəncləri" (1959-1965) qəzetlərində şöbə müdiri vəzifəsində çalışmış, "Azərbaycan" və "Literaturnıy Azer-baydjan" jurnalları redaksiyasında məsul katib, Azərbaycan Dövlət Nəşriy-yatında redaktor işləmiş, 1978-ci ilin may ayından ömrünün sonuna kimi "Yazıçı" nəşriyyatının baş redaktoru olmuşdur.[1] Vəfatından sonra Azər-baycan Dövlət Mükafatına layiq görülmüşdür.

Əliağa Kürçaylı 1980-ci il fevral ayının 11-də Bakı şəhərində vəfat etmişdir.

Yaradıcılığı. 1946-cı ildə, "Azərbaycan gəncləri" qəzetində Əliağa Kürçaylının ilk şeiri dərc edilib. Şairin o vaxt on səkkiz yaşı vardı. Salyanda kiçik bir qulluqda çalışırdı, heç orta məktəbi də tam bitirməmişdi. İlk şeirinin qonorarını alan günün sevinci də yadındaydı. Bu sevincin ardınca başqa bir hadisə baş verir, gənc Əliağanı Salyan rayon partiya komitəsinin birinci katibinin qəbuluna çağırırlar. Katib ona Azərbaycan Sovet Yazıçılar İttifaqının sədri Səməd Vurğunun məktubunu oxuyur. Bu məktubda gənc şair Əliağa Kürçaylı Yazıçılar İttifaqında keçiriləcək gənc yazıçıların birinci respublika müşavirəsinə dəvət edilmişdi.

Məhz Səməd Vurğunun köməyi ilə Əliağa Kürçaylı Bakıya gəlir, burada fəhlə-gənclər məktəbində orta təhsilini başa vurur, sonra ADU-nun Filologiya fakültəsinə daxil olur. Beləcə, illər keçir, mətbuatda Əliağa Kürçaylı imzası tez-tez görünməyə başlayır, artıq əllinci illərin sonlarında Əliağa Kürçaylı tanınmış şair idi…

***

[1] Teymur Əhmədov. Əliağa Kürçaylı. Azərbaycan yazıçıları XX-XXI yüzillikdə. – Bakı: Nurlar, 2011, s.282

Qırxıncı illərin sonları – əllinci illərin əvvəllərində poeziyada seçilib fərqlənmək çox çətin idi, çünki ədəbiyyatda Səməd Vurğun, Süleyman Rüstəm, Rəsul Rza, Əhməd Cəmil, Məmməd Rahim kimi ustadlar vardı. Onların qarşısında söz demək üçün gərək istedadlı olaydın, poeziyada təzə bir nəfəslə diqqəti cəlb edəydin. Özü də unutmayaq ki, əllinci illər sovet poeziyasının ən qaynar bir dövrü idi. Partiyanı, sovet quruluşunu vəsf edən, "müsbət qəhrəman"ı qalib sovet adamı olan sosializm realizmi ədəbiyyatı hələ ki, ömrünü başa vurmamışdı. Ancaq bütün dövrlərdə sinfi-siyasi situasiyalardan asılı olmayaraq şairlər həmişə insan qəlbinin, insan istək və arzularının, sevginin, təbiət gözəlliklərinin tərənnümçüsü olmuşlar və onların gələcəyə sözü də elə bu şeirlər olub. Elə sovet dövrü ədəbiyyatından bizə qalan da həmin şeirlər olub.

Əliağa Kürçaylıdan bir şair kimi söz açanda ilk növbədə, onu lirika ustası kimi xatırlatmaq lazım gəlir. Böyük şairimiz Səməd Vurğunun Sovet Yazıçılarının İkinci Qurultayındakı məruzəsində indi də öz əhəmiyyətini itirməyən belə bir fikri misal gətirmək istəyirəm: "Lirik şeir, mahnı insanın qəlbini dilə gətirməli, onun qəlbində yuva salmalı və zümrüd quşu kimi onu isindirməli, zəhmətdə, mübarizədə, kədərli və nəşəli dəqiqələrdə insana yoldaş olmalı, onda nəcib hisslər oyatmalı və beləliklə də insanı yüksəltməli, onu daha güclü, daha ağıllı və mənəvi cəhətdən zəngin etməlidir".[1] Bu sözləri Əliağa Kürçaylının lirik şeir yaradıcılığına da şamil etmək olar.

Onun poeziyasında XX əsr Azərbaycan insanının duyğu və düşüncələri, xalqına, vətəninə məhəbbəti, təbiətə və insana sevgisi əks olunub və əlbəttə, bəlkə də şablon səslənən bu fikri söyləyərkən heç bir tərəddüd keçirmirik, çünki bu fikri sübuta yetirmək üçün şairin poeziyasından onlarla misallar gətirə bilərik.

Sən mənə ömrüm boyu
Bir bulanıq Kür suyu,
Bir söyüd yarpağı ver…

Mən onda hara düşsəm,
Hansı diyara düşsəm
Deyərəm vətəndəyəm.

Sən ey Milim, Muğanım,
Doğma Azərbaycanım,
Deyərəm ki, səndəyəm![2]

Onun şeirlərini mövzularına görə də qruplaşdırmaq olar, yazıldığı illərinə görə də. Amma bu şeirlərin hamısına xas olan, ümumilikdə onları bir

[1] Səməd Vurğun. Əsərləri. Altı cilddə, VI c. – Bakı: Elm, 1972, s.345
[2] Əliağa Kürçaylı. Seçilmiş əsərləri. – Bakı: Azərnəşr, 1969, s.16

araya gətirən cəhətlərdən söz düşsə, deyə bilərik ki, bunların yüzdə doxsan faizi nikbin insanın yazdığı şeirlərdir. Və bu nikbinlik heç də ictimai-siyasi şəraitin diktə etdiyi nikbinlik deyil, içəridən gələn nikbinlikdir. İnsana xas olan nikbinlikdir.

İkinci bir cəhəti də vurğulamaq istərdik. Əliağa Kürçaylının poeziyası həm də fikir və düşüncə ilə yoğrulub, burada təməl odur ki, şair müəyyən bir fikri hisslə, duyğu ilə qovuşdurur və təbii ki, əsl şeir elə bu vəhdətdən yaranır. Şairin "Daşlar" silsiləsindən olan şeirləri Azərbaycan poeziyasında fəlsəfi şeirin maraqlı nümunələri sayıla bilər. O zaman Xalq yazıçısı İlyas Əfəndiyev yazmışdı: "Elmi-texniki inqilab əsri bizim müasirimizin poeziyaya, sənətə olan tələbini, onun bədii-estetik zövqünü çox dəyişmişdir və mən çox şadam ki, sən istedadlı bir şair kimi bunu hiss edirsən. Bu hiss sənin poeziyanın ən yaxşı nümunələrinə, yeni, məhz bizim əsrimizə məxsus təzə bir ahəng, təzə bir ruh verməkdədir".[1]

"Daşlar" silsiləsində şair Daşı bədii bir detal kimi götürür, təbiətlə və tarixlə bağlı düşüncələrini bu detal vasitəsilə poetikləşdirir:

Özünü dərk edib duyduğu gündən
İnsan taleyini "daşa bağlayıb".
Təşnə dodaq üçün axıb dərindən,
Bulağın gözüylə daşlar ağlayıb.

Daş var-bu torpaqda sərhəddə dönüb,
Baisi olubdur qəm-kədərin də.
Daşlar Qobustanda şöhrətə dönüb,
Daşlar yetim qalıb Xudafərində.

Daşlar bünövrədə olaydı möhkəm,
Pıtılı, kövrəyi kaş olmayaydı.
İnsan sinəsində ancaq deyirəm:
Ürəyin yerində daş olmayaydı.[2]

Bu, həmin silsilədə birinci şeirdir və sonrakı şeirlərdə Daş obrazı ilə bağlı məna dairəsi genişlənir, həyatda, tarixdə daşların oynadığı müsbət və mənfi çalarlar öz poetik yozumunu tapır.

Bu gün Əliağa Kürçaylının o dövr üçün "ictimai" sayılan və qiymətləndirilən şeirlərini təkrar oxuyanda, bu şeirlərin "ictimailiyindən" çox, onların elə bu günümüzlə bağlılığı barədə düşünürük. Onun "Qətiyyət" adlı

[1] İlyas Əfəndiyev. Daşların poeziyası. – Bakı: "Ədəbiyyat və incəsənət" qəzeti, 25 noyabr 1978

[2] Əliağa Kürçaylı. Seçilmiş əsərləri. – Bakı: Azərnəşr, 1989, s.16

şeiri insanı öz şəkli ilə üzbəüz qoyur. İnsan o şəkilə baxır və özünü ittiham edir:

Bir əyinə paltar, ağıza çörək,
Bir dodağa gülüş olmusanmı heç?
Kürsüdən sinənə döyə-döyə sən
Yoxsa əl salmısan xalqın cibinə?

Udmusan sözünü yoxsa, bir anda
Bıçaq işləyəndə qana, iliyə?
Əqidə yolunda, inam yolunda
Qərar vermisənmi Nəsimiliyə?[1]

Tənqidçi Nadir Cabbarov məqalələrinin birində yazmışdı: "Əliağa Kürçaylının lirik qəhrəmanı üslubi metamarfozaları sevməyən qəhrəmandır. Tərənnümdə də, tənqiddə də, həyatın böyük-kiçik hadisələrini mənalandırarkən də, hətta satirik tipin təsvirində də şairlə onun arasında aydın və möhkəm bir "saziş" vardır, birbaşa, eyhamsız danışmaq. Şair heç zaman bu qəhrəmanın arxasında daldalanmır, onu özünə sipər etmir, bəlkə də hər yerdə, hər məqamda onunla çiyin-çiyinə, onunla boyaboy dayanır".[2] Ə.Kürçaylının təsvir etdiyi insan onun öz müasiri idi, bu insan sırf milli xüsusiyyətləri ilə seçilirdi, həmişə narahat idi, o, Azərbaycan dünyasının keçmişi, bu günü ilə fəxr edirdi, eyni zamanda tarixdə və müasir dövrdə baş verən mənfi hallara qarşı da etiraz səsini ucaldırdı.

Keçən əsrin 70-ci illərində onun yaradıcılığında fəlsəfi motivlər güclənir, lirik qəhrəmanın dünyaya, ictimai-siyasi hadisələrə münasibəti fəal və aparıcı mahiyyət kəsb edir. Görkəmli tənqidçi Əkbər Ağayev "Yetkinlikdən kamilliyə" adlı məqaləsində yazırdı: "Şair Əliağa Kürçaylının şeirləri bizcə, müasir poeziyamızın zənginləşməsi prosesindəki inadlı və səmərəli yaradıcılıq axtarışlarının müvəffəqiyyətli və yetkin bir nümunəsi kimi qiymətləndirilməlidir. Müvəffəqiyyətlidir, ona görə ki, Ə.Kürçaylının bir şair kimi inkişafı təbii yolla gedir, istedadı orijinaldır, kitabdan-kitaba daha da parlayır və öz yeni xüsusiyyətlərini büruzə verir. Yetkindir, ona görə ki, poetik idrak və təfəkkür üçün zəruri olan əsas əlamətlər – həyatilik, müasirlik, estetik fikir və baxışların, şair mövqeyi və idealının aydınlığı, bir sözlə, daxili yetişmə prosesi müəllifin yaradıcılığında daha qabarıq hiss olunur".[3]

Şairin 60-70-ci illərdə qələmə aldığı "Ləyaqət", "Ömür", "Savalanın zirvəsində qar görürəm", "Yedək gəmisi", "İkar gəlir", "İnsan öldü", "Fillər

[1] Əliağa Kürçaylı. Seçilmiş əsərləri. – Bakı: Azərnəşr, 1989, s.89
[2] Nadir Cabbarov. Bütövlük əqidəsi. – Bakı: "Ədəbiyyat və incəsənət" qəzeti, 20 mart 1980
[3] Əliağa Ağayev. Yetkinlikdən kamilliyə. "Əsrin tərənnümü" kitabında. – Bakı: Yazıçı, 1980, s.211-212

də ağlayar", "Gəl, bizim ellərə gedək, əzizim", "Qağayılar ağlayırdı", "Tarix dərsi", "Qıfıl", "Lorka haqqında qaraçı romansları", "Mənim atam", "Futbol və Şekspir" və əlbəttə, "Daşlar" silsiləsi o illərin poeziyasında xüsusilə seçilirdi və bu şeirlər Ə.Kürçaylının həyat, insan, zaman haqqında düşüncələrinin poetik ifadəsi idi. Onun bir sıra şeirləri müəyyən bir süjetlə bağlı idi. Məsələn, "Fillər də ağlayır" şeiri... Bir dostu şairə məsləhət görür ki, həyatda nə haqsızlıq varsa, ona dözməlisən. Bu isə şairi həyəcanlandırır:

O dedi üzümə:

"Lazımsa əgər,
İnsan sözünü də dəyişməlidir.
Tufanlara qarşı dursa bir nəfər,
Xəstə, yatağından qaçan dəlidir".

O dedi:

"Nəsimi dönsəydi bir an
Söylə, diri-diri soyulardımı?
Cordano Bruno hətta yalandan
Dönsəydi, tonqalda kül olardımı?"

…İndi ağlayıram mən bu dərd ilə
Yandırır sinəmi qəm-qubar, qızım.
Azman görkəmiylə o fillər belə,
Bəzən dözməyərək ağlayar, qızım.[1]

Ə.Kürçaylı Azərbaycan poeziyasında gözəl sevgi şeirlərinin də müəllifi kimi tanınır. Tənqidçi Şamil Salmanov haqlı olaraq yazırdı: "Əliağa Kürçaylı bu şeirləri mövzu xatirinə yox, sevərək, vurularaq yazırdı".[2]

Onun sevgi şeirləri hisslərinin saflığı, təmizliyi ilə seçilirdi, sevən qəlbin könül harayı, sevdiyinə sədaqəti əks olunurdu bu şeirlərdə. Əksəriyyəti də mahnı kimi səslənirdi və təsadüfi deyil ki, onun sevgi şeirləri bəstəkarların diqqətindən yayınmırdı:

Pəncərəmə uzanan
Yaşıl-yaşıl əldimi?
Yarpaqlar ilk baharın
Salamına gəldimi?
Seyr elə bu lövhəni,
Doğrudan gözəldimi?

[1] Əliağa Kürçaylı. Bütövlük. – Bakı: Yazıçı, 1978, s.205
[2] Şamil Salmanov. Bədbini mənimdir, nikbini sənin. "Ədəbiyyat və incəsənət" qəzeti, 26 fevral 1980

Dayanmışıq sənlə
Qoşa, üzü Günəşə,
Belə ola həmişə![1]

Əliağa Kürçaylının şeir və poemaları bədii sənətkarlıq baxımından da seçilirdi. Onun üçün vəzn məhdudiyyəti yox idi, hecada da, əruzda da şeirlik qüdrəti hiss olunurdu.

O, şeirlərin mükəmməl formasına xüsusi diqqət yetirirdi, Azərbaycan dilinin incəlikləri onun lirikasını həmişə təravətli saxlayırdı. Bu lirikada publisistik ahəng, mühakimə, düşüncə tərzi daha qüvvətli idi. Lakin bu mühakimələr Kürçaylı şeirinin lirik axarını zəiflətmirdi. Nümunə üçün onun "Çörək" şeirinə müraciət edək:

Təzəcə şumlanmış torpağın ətri,
Məst edir, burnumu qıcıqlandırır.
Baharda gəzəsən bizim bu yeri,
Zəmilər zümrüdü gölü andırır.
İndisə payızdır, torpaq çevrilir
Qara bir kitabın varağı kimi.[2]

Əliağa Kürçaylıdan bir şair kimi söz açanda onun epik poeziyası da unudulmamalıdır. O, iyirmi beş poemanın müəllifidir və bu poemaların bir çoxu müasir ədəbiyyat tariximizin təkcə faktları yox, həm də uğurlarıdır. Klassik Azərbaycan poemasına xas olan bir çox xüsusiyyətlər – təsvir olunan hadisələrin müəyyən bir xətt üzrə dinamik şəkildə izlənilməsi, insan talelərinin epik təsviri, süjet ardıcıllığı, dramatizm, kompozisiya bütövlüyü, tipik xarakter yaratmaq Ə.Kürçaylının ən yaxşı poemalarına xas olan cəhətlərdir. Görkəmli tənqidçi Əkbər Ağayev Kürçaylının yaradıcılığına həsr etdiyi "Yetkinlikdən kamilliyə" adlı məqaləsində yazırdı: "Mürəkkəb həyat hadisələrinin axınında insanın mənəvi inkişafı, dəyişməsi, öz mənliyini, ləyaqətini qoruyub saxlaması və buradan doğan əxlaqi məsələlər Kürçaylı poemalarının diqqət mərkəzində dayanır. Epik lövhələr yaratmaq, portret cıza bilmək, xarakterlər vermək cəhətindən Kürçaylının qələmi itidir. Onun poemalarında ictimai mənalı məsələlər ön plana çəkilir, həm də ötkəm publisist bir pafosla işlənir".[3]

Kürçaylının poemaları XX əsrin bir çox mühüm hadisə və olaylarını əks etdirir, əgər belə demək mümkünsə, bu poemalar XX əsr Azərbaycanının

[1] Əliağa Kürçaylı. Ülkər. – Bakı: Yazıçı, 1980, s.178
[2] Əliağa Kürçaylı. Bütövlük. – Bakı: Yazıçı, 1978, s.32
[3] Əkbər Ağayev. Yetkinlikdən kamilliyə / Əsrin tərənnümü. – Bakı: Yazıçı, 1980, s.215

kiçik bir mənzərəsidir. Yığcam şəkildə də olsa, bu mənzərəni əks etdirən poemalardan söz açaq.

"Nargindən əsən külək" poeması əllinci illərin sonlarında, Stalinin şəxsiyyətə pərəstiş kultunun aradan qaldırıldığı bir zamanın əks-sədasıydı. Poemada iki gəncin sevgisindən söz açılır, onların xoşbəxt anları başlayanda məlum olur ki, qızın atası müharibədə əsir düşmüşdür. Oğlanın atası tələb edir ki, qızı boşasın. Ancaq hər şey sevənlərin ürəyincə olur. Məlum olur ki, qızın atası həbs düşərgəsindən qaçıb, başının dəstəsi ilə onlarla faşisti qətlə yetirib.

Ümumiyyətlə, Kürçaylının bir çox poemalarının mövzusu sınaq və dözüm motivləri üzərində qurulmuşdu. Məsələn, "Daş hasar", "Qəzəbli sular", "Lana", "Uşaqlıq", "Mənim məhəbbətim", "Sən kimsən?", "Cakondanın təbəssümü", "Payız günləri", "Adi adam" poemalarında təsvir olunan obrazlar əzabkeş insanlardır, 50-60-cı illərdə belə ədəbi qəhrəmanlara az təsadüf etməmişik. Ədəbi tənqid bu poemaları vaxtında obyektiv qiymətləndirmiş, Kürçaylının epik poeziya sahəsində uğurlarını təqdir etmişdi.

Fikrimizcə, Ə.Kürçaylının "Durnalar cənuba uçur" poeması onun ən qüvvətli poemasıdır. Poemada Azərbaycanın vahidliyi, birliyi ideyası irəli sürülür. Hadisələr keçən əsrin əvvəllərində cərəyan etsə də, ideyasının müasirliyi ilə diqqəti cəlb edirdi.

Əliağa Kürçaylıdan söz düşəndə, onun mahir bir tərcüməçi olduğu da unudulmur. Onun dünya ədəbiyyatından tərcümə etdiyi şairlər çoxdur, amma elə şairlər var ki, onların poeziyasının dilimizdə kamil və səlis, sanki azərbaycanca yaranmış kimi səslənməsi Kürçaylının məharəti idi. Onun tərcüməçilik fəaliyyəti orijinal yaradıcılığından heç də fərqlənmirdi, yəni o, hər bir şairin şeirlərini dilimizə çevirərkən, həmin şairin poetik "damarını" tuta bilirdi. Elə buna görə də Aligyeri Dante (İtaliya), A.Nekrasov, M.Lermontov, S.Yesenin, V.Mayakovski, S.Marşak, K.Simonov, O.Berqols, N.Tixonov, A.Pokofyev (Rusiya), D.Qulia, K.Kaladze (Gürcüstan) O.Süleymenov (Qazaxıstan), Y.Xappalayev (Dağıstan), N.Hikmət (Türkiyə), M.Süleyman (Livan) onun tərcümələrində yeni həyatını yaşayırdı. Burada Aligyeri Dantenin və Sergey Yeseninin adlarını xüsusi vurğulamalıyıq. Dahi italyan şairinin "İlahi komediya" kimi son dərəcə çətin və mürəkkəb fəlsəfi əsərinin, yaxud Sergey Yeseninin bir çox şeir və poemalarının hələlik ən yaxşı tərcüməçisi Kürçaylıdır desək, yanılmarıq. Əlbəttə, bu tərcümələrin hər biri barədə mütəxəssis sözü deyilib, özü də bu əsərlərin tərcümələri uğurlu nümunə kimi qiymətləndirilib. Bu tərcümələrdə orijinalın poetik gözəlliyini qoruyub saxlamışdır:

Dəli könül, gəl çırpınma bu qədər,
Səadətdir bizi belə aldadan.

Dilənçiyə nə lazımdır – sədəqə
Dəli könül, gəl çırpınma bu qədər.
Ay o qızıl saçlarını açaraq
Şah palıdlar üzərinə səpir bax.
Qoy lalənin qarşısında sürünüb,
Mən də onun çadrasına bürünüm,
Dəli könül, gəl çırpınma bu qədər![1]

Əliağa Kürçaylı əsl şair ömrü yaşadı. Bu ömrün sərhədi əlli iki hüdudunda başa çatsa da, bir şair adını süsləyən nəsillərə və əsrlərə çatdırmaq üçün bu qısa ömür də kifayət elədi.

Sən mənə nə verdin?
Minnətsiz həyat.
Nəğməli bir dodaq, azad bir ürək.
İstəsən dara çək, alovlara at,
O öz sözlərini yenə deyəcək.

Doğrusu, bilmirəm,
Özümə də mən.
Dönüklük etmişəm həyatda bəlkə,
Sənin şərəfinə, fəqət, qətiyyən
Şeirim,
Vurmamışam kiçik bir ləkə.[2]

Əliağa Kürçaylı poeziya aləmində bir kimsəyə bənzəmədi və bir kimsə də ona bənzəyə bilmədi. Şeirə, sənətə bir çoxlarının gəldiyi kimi qədəm basdı, öncə ustad Səməd Vurğunun şeir yolunu tutdu, onun qayğısını, himayəsini hiss etdi, poetik dərslərindən faydalandı, amma çox keçmədən poeziyada öz yolunu, cığırını seçdi, o yolla getdi. Onun poetik səsi, nəfəsi yenə aydınca eşidilir, bir kimsənin səsinə, nəfəsinə qarışacağı yoxdur.

[1] Sergey Yesenin. Şeirlər və poemalar. – Bakı: Azərnəşr, 1975, s.123
[2] Əliağa Kürçaylı. Bütövlük. – Bakı: Yazıçı, 1978, s.60

HİKMƏT ZİYA
(1929-1995)

Daha çox təmsil müəllifi kimi tanınan Əməkdar incəsənət xadimi Hikmət Ziya uşaq ədəbiyyatının və mətbuatının inkişafı istiqamətində fəaliyyət göstərmişdir. Onun uşaqlar üçün yazdığı nağıl-povest, səhnəcik və təmsilləri Azərbaycan uşaq ədəbiyyatı xəzinəsinin dəyərli nümunələridir.

Həyatı. Şair, dramaturq, tərcüməçi, Əməkdar incənət xadimi Hikmət Ziya (Hikmət Ziya oğlu Əfəndiyev) 1929-cu il mayın 13-də Şəki şəhərində anadan olmuşdur. Sonradan valideynləri Ağdam şəhərinə köçdüyündən onun uşaqlıq illəri Qarabağda keçmişdir. Orta təhsilini Ağdam şəhər 1 saylı orta məktəbdə almış, 1947-ci ildə Azərbaycan Dövlət Universitetinin (indiki BDU-nun) Filologiya fakültəsinin jurnalistika şöbəsinə daxil olmuşdur. 1952-ci ildə ali təhsilini bitirib, təyinatını "Azərbaycan pioneri" qəzeti redaksiyasına almışdır. Burada uzun müddət (1952-1969) ədəbi işçi, Ədəbiyyat və incəsənət şöbəsinin müdiri, 1969-1984-cü illərdə "Göyərçin" jurnalı redaksiyasında poeziya şöbəsinin müdiri, məsul katib vəzifələrində çalışmışdır. Ədəbi yaradıcılığa 1952-ci ildə "Azərbaycan pioneri" qəzetində çap edilən "Qoqola" adlı ilk şeiri ilə başlamışdır. İlk satirik şeirləri, eyni zamanda "Atamın hədiyyəsi" (1957), "Bahar gözəldir, ya qış?" (1959), "Milçək ürəyi" (1960) kitabları Hikmət Əfəndiyev imzası ilə, "Şeirlər və təmsillər" (1963), "Ulduzların söhbəti" (1964), "Qısa təmsillər" (1965), "Xatirə" (1966), "Tülkü arayışında" (1967), "Buludlar" (1968), "Mənim dovşanım" (1970), "Qısqanc qarışqa" (1971), "Günəş və ləkələr" (1972), "Leylək yuvası" (1973), "Mənim misralarım" (1975), "Qardaşlar ovda" (1978), "Qərib cinlər diyarında" (1980), "Təmsillər" (1982), "Vətənim mənim" (1988) və digər əsərləri Hikmət Ziya imzası ilə çap olunmuşdur. "Mozalan" satirik kino-jurnalı bədii şurasının, Ümumittifaq uşaq və gənclər ədəbiyyatı şurasının, "Azərbaycan pioneri" və "Literaturnıy Azerbaydjan" jurnalı redaksiya heyətinin üzvü olmuşdur. Azərbaycan Yazıçılar İttifaqına (1958), Azərbaycan Jurnalistlər İttifaqına (1959) üzv seçilmişdir. Azərbaycan Respublikası Ali Soveti Rəyasət Heyətinin Fəxri Fərmanına layiq görülmüşdür. Hikmət Ziya 1995-ci il avqustun 2-də Bakıda vəfat etmişdir. Şairin ölümündən sonra onun adına "Hikmət Ziya" ədəbiyyat mükafatı təsis olunmuşdur.

Yaradıcılığı. Hikmət Ziya bir çox janrlarda əsərlər yazmışdır. Lirik və satirik şeirlər, poema, hekayə, nağıl-povest, pyes, səhnəcik, publisistik məqalələr müəllifi olan şair ədəbiyyatda daha çox təmsilləri ilə tanınmışdır. Hikmət Ziya təmsillərində cəmiyyətdə baş verən xoşagəlməz hadisələri, nöqsan və qüsurları daha çox heyvan və bitkilərin timsalında ifadə edirdi. Azərbaycan ədəbiyyatında təmsillərə hələ Nizami Gəncəvinin, Məhəmməd Füzulinin, Xətainin, Abbasqulu Ağa Bakıxanovun, Qasım bəy Zakirin, Seyid

Əzim Şirvaninin, Mirzə Ələkbər Sabirin, Abdulla Şaiqin yaradıcılığında rast gəlinsə də, sonrakı mərhələdə janra müraciət daha çox Hikmət Ziyanın adı ilə bağlıdır. Onu "Azərbaycan poeziyasının Krılovu", "ustad təmsilçi", "təmsilin ustadı" adlandıranlar haqlı idilər. Üç minə yaxın təmsil yazan şair heyvan və bitkiləri, ayrı-ayrı təbiət varlıqlarını, müxtəlif əşyaları, durğu işarələrini, hərf və rəqəmləri şəxsləndirmiş, onların maraqlı obrazlarını yaratmışdır. Onun təmsilləri özündə hikmət, lakoniklik, maraqlı fikir tutumu əks etdirir. Məsuliyyətsiz, iddialı, iş bacarmayan, tənbəl, yalan danışan, paxıl, saxtakar və nankorluq kimi xüsusiyyətləri öz təmsillərində tənqid atəşinə tutan şair yazır:

Mənə deyənlər var: "Doymadın cana?
Təmsilin sonuna nöqtə qoysana!
Əl çək Koramaldan, Kərtənkələdən,
Tülküdən, Çaqqaldan, Qurddan, Dələdən,
Kağızdan, Qələmdən, yaxud pozandan,
Çömçədən, Nimçədən, Misdən, Qazandan…"
- Xeyr! Əl çəkmərəm, söyləyirəm mən, –
Tülkü əl çəkməsə tülkülüyündən,
Çaqqal Şirə quyruq bulamağından…
Xülasə, qısa,
Əşyalar, heyvanlar olmasa adam,
Təmsilin sonuna nöqtə qoymaram.[1]

Təmsil yazmaq müəllifdən həm diqqətli müşahidə qabiliyyəti, həm də gördükləri ilə heyvan və cansız varlıqlar arasında uyğunluq tapmaq, onların obrazları vasitəsilə fikrini aydın çatdırmaq və ibrətamiz nəticəyə gəlmək kimi bacarıqlar tələb edir ki, Hikmət Ziya şeirində bütün bu xüsusiyyətlər gözlənilmişdir. Təmsillərində insanlara xas müsbət, yaxud xoşagəlməz xüsusiyyətləri heyvanların üzərinə köçürməklə ifadə edən şairin məqsədi oxuculara, xüsusilə yeniyetmə və uşaqlara mənəvi-əxlaqi keyfiyyətlər, zəhmətsevərlik, ətrafındakılara ədalətli münasibət, cəmiyyətlə uğurlu ünsiyyət kimi dəyərlər aşılamaq olmuşdur. Şairin həm böyük, həm də kiçikhəcmli təmsilləri oxucuya tanıdığı bir xarakteri, rastlaşdığı hadisəni xatırladır. Hətta bu təmsillərdə hansısa millətə xas olan xüsusiyyətləri də görmək olur. Məsələn, "Tarix uyduran bayquş" təmsilində özülü zəif olduğu üçün dağılan yeni bir tikilinin – xarabalığın üstünə qonub "min il qabaq burada yurd salmışdır əjdadım", – deyən bayquş bizə yalançı, iddialı qonşularımızı xatırladır. Yaxud aşağıdakı təmsildə başqasının bacarığını, uğurunu gözü götürməyənlərin obrazını görürük:

[1] Hikmət Ziya. Seçilmiş əsərləri. Üç cilddə, II c. – Bakı, Aspoliqraf, 2014, s.5

Tərifli söz danışsan
Dovğaya Doğramacdan,
Deyirdi eyham ilə:
- Çiydir, bişməyib hələ.[1]

İynənin bacarığını üsküyün qabiliyyəti hesab edən sancaq, bülbülün səsini bəyənməyən cırcırama, qurbağa və sərçə, çaya paxıllıq edən arx, çəngəli gözü götürməyən yaba, palıd ağacına tənə edən cır armud, Bal Arısının işinə şərik olmaq istəyən Eşşək Arısı, Ələkdən şikayət edən Kəpək, Ağacdələni lazımsız bilən Ağacqurdu kimi özünəməftunlar, heç nəyə faydası olmayanlar Hikmət Ziya təmsillərinin maraqlı obrazlarıdır. Azyaşlılar bu təmsillər vasitəsilə təbiəti, cəmiyyəti, onun yazılmamış qanunlarını öyrənir, nəticə çıxarır, həm ədəbi-estetik, həm tərbiyəvi keyfiyyətlərə yiyələnirlər. Belə maraqlı təmsillərdən biri də bülbül və sərçə haqqındadır. Öz "ifası" haqqında bülbülün fikrini bilmək istəyən sərçə xeyli cik-cikdən sonra ustadın münasibətini soruşur:

Sonra sual etdi: - Əziz Bülbülüm,
Necədir? İstədim rəyini bilim.
Bülbül cavab verdi açıqürəklə:
- Müğənniyə fitri, xoş səs gərəkdir,
Yoxsa, de, səni kim dinləyəcəkdir?!
O gündən bu Sərçə hara baş çəkir,
Dərin ah çəkir,
Deyir: – Cavanlara Bülbül dağ çəkir![2]

Şairin "Qış yuxuları", "Yeni ildən umacaqlar", "Qarğış təmsilləri", "Alqış təmsilləri", "Qorxulu xəstəliklər", "Mahnılar", "Monoloq təmsillər", "Xəbərdarlıqlar", "Bir aprel aldatmaları" və başqa adda maraqlı silsilə təmsilləri var. Bu başlıqlar altında verilən təmsillərdə hər obrazın xarakterik xüsusiyyyətini ustalıqla təsvir edən müəllif öz məqsəd və qayəsini ifadə etməklə yanaşı, münasibətini də bildirmiş olurdu. "Monoloq təmsillər"də cırcırama, mamır, ördək, qurbağa, çömçə, rəndə, civə, ilan monoloq söyləyirsə, onlar təkcə özlərini deyil, xislətcə bənzəri olduqları insan obrazlarını, onların düşüncə və xarakterlərini də ifadə etmiş olurlar. "Yeni il umacaqları"nda Göyərçin yeni təqvim ilindən dünyaya sülh, Fil fərəh və rahatlıq, Bal arısı gül-çiçək istəyəndə, Tülkü bicliyinin artmasını, Zürafə ağacdakı meyvələrin hamısını özü yeməsi üçün hamının boyundan kəsilib ona verilməsini, Ayı arılara bolluca bal, amma iynələrinin olmamasını istəyir.

[1] Hikmət Ziya. Seçilmiş əsərləri. Üç cilddə, II c. – Bakı: Aspoliqraf, 2014, s.471
[2] Yenə orada, s.462

Çaqqal hiyləgərliyin tülküdən alınıb ona verilməsini, Buqələmun işlərini aşıra bilmək üçün heç kimin sezmədiyi rəng arzulayır.

Şairin hərflər, rəqəmlər, durğu işarələrinin dilindən səslənən maraqlı təmsilləri var. Bir-birinin uğuruna sevinməyən, iddialı, hər yerdə özünü birinci görənlər, öz yerində olmayanlar hərflər, durğu işarələri vasitəsilə ifşa olunurlar:

Kiçik "a" dedi: – Cümlə,
Mənlə başlasa olmaz?
Hərdən kiçikləri də,
Qabağa çəkin bir az!
...Bir gün sətir başında,
Gördülər kiçik "a"nı,
Dedilər: – Bu cümlənin,
Görün əvvəli hanı?..[1]

Oxucu Hikmət Ziyanın təmsillərində xalq ədəbiyyatında, digər yazılı nümunələrdə rast gəlinən təmsil qəhrəmanlarından fərqli və maraqlı obrazlarla da tanış olur. "Hamı bilir ki, xalq deyimlərində, xüsusən təmsillərdə qurd – yırtıcılıq, tülkü – hiyləgərlik, dovşan – qorxaqlıq, tərlan – ucalıq, fil – əzəmət, ceyran – gözəllik, bülbül – sədaqət rəmzi kimi tanınır. Hikmət Ziya bu obrazlardan, onların xüsusiyyətlərindən öz əsərlərində bol-bol istifadə edir. Lakin o həm də bu ənənəvi obrazlar qalereyasını özünün bir sıra yeni, təravətli tapıntıları ilə zənginləşdirmişdir. Məsələn, kəlbətin və çəkic, ayran və nehrə, açar və qıfıl, iynə və sancaq kimi bir sıra obrazlar tamamilə yenidir: biz onlara bu biçimdə folklorumuzda, yazılı ədəbiyyatımızda, rus və Avropa təmsilçilərinin əsərlərində rast gəlməmişik. Cəsarətlə demək lazımdır ki, bunlar H.Ziyanın fərdi axtarışlarının uğurlu nəticəsidir".[2]

Hikmət Ziyanın yaradıcılığında Vətən, onun əsrarəngiz gözəllikləri, maddi, mənəvi sərvətləri, tarixi nailiyyətləri vəsf olunmuşdur. Onun Şəki, Mingəçevir, Qəbələ kimi şəhərlər haqqında əsərləri ilə yanaşı, Qarabağa həsr olunmuş şeiri də var. Şeirdə Qarabağın füsunkar təbiəti, tarixi abidələri və şəxsiyyətləri, zaman-zaman formalaşan qonaqpərvərliyi, böyüklərə qədirşünas münasibət kimi dəyərləri heyranlıqla təqdim olunur:

Köksündə hər qayası, tarixləşib tunc olan
Yenilməz abidəmdir yerdən göyə ucalan.
Yaşı yüzü ötsə də, yoxdur burda qocalan,
İnsan ömrü çətin ki, köç eylər Qarabağda,
Min ilin yorğunu da dincələr Qarabağda.[3]

[1] Hikmət Ziya. Seçilmiş əsərləri. – Bakı: Azərnəşr, 1992, s.234
[2] Bəkir Nəbiyev. Bir neçə söz / Hikmət Ziya. Seçilmiş əsərləri. – Bakı: Azərnəşr, 1992, s.4
[3] Hikmət Ziya. Seçilmiş əsərləri. – Bakı: Azərnəşr, 1992, s.7

Qobustanı "daş kitab", "sirli sirdaş kitabı", rəngsiz, boyasız rəsmlər muzeyi, "yerin qövsi-qüzehi" kimi xarakterizə edən, Şəkini Qafqazın bir parçası, ana dilinin xoş hecası adlandıran şair vətən haqqında yazdığı əsərlərdə Azərbaycanın obrazını yaratmışdır:

Xəritədə baxsan mənə, qartalam,
Tarix göstərməyib bir quşu çalam,
Haramdan uzağam, hər vaxt halalam,
Daş heykəl Qobustan, qədim Azığam…
Nəyi udmuşam ki, nəyi uduzam?![1]

Hikmət Ziya ülvi sevgini, saf duyğuları tərənnüm edən lirik şeirlər də yazmışdır. Bu poetik nümunələrdəki səmimi hisslərin ifadəsi, dil sadəliyi və axıcılıq bəstəkarların diqqətindən qaçmamış, onun "Sənin qəlbindən keçər", "Sən məni yad etsən", "Mən sənsiz, sən də mənsiz", "Küsüşdük, barışdıq", "Yeganəm", "Bəxtiyarlığım", "Ay yaraşıqlı", "Şirin yuxum olasan", "Sən olmasan", "Xoş gəlmisən" kimi şeirlərinə musiqilər bəstələmişlər.

Şair müxtəlif janrlarda əsərlər yazdığı kimi fərqli mövzulara da müraciət etmişdir. Onun uşaq dünyasından, təbiətin gözəllik və möcüzələrindən, vətən sevgisindən, saf məhəbbət duyğularından bəhs olunan əsərləri ilə yanaşı, ictimai-siyasi mövzuda yazdığı əsərləri də var. Bu əsərlərdə bəzən yaşadığı dövrün izlərinə də rast gəlinir. "Hikmət Ziya yaradıcılığının mövzu və problematikası zəngindir. Onun yaradıcılıq nümunələri arasında ictimai-siyasi mövzuda yazdığı əsərlər xüsusi yer tutur. Doğrudur, yaşadığı Sovet dövrünün tələbi ilə Hikmət Ziya da digər qələm dostları kimi Leninə, partiyaya, kommunistlərə, sarsılmaz qardaşlığa, sosialist vətəninin, sosialist əməyinin tərənnümünə həsr olunan xeyli şeirlər yazmışdır. Ancaq yaxşı cəhət bundan ibarətdir ki, Hikmət müəllim xalqımızın milli-mənəvi dəyərlərini heç zaman unutmamış, Azərbaycançılıq ideyası onun bütün yazılarının cövhərini, mayasını təşkil etmişdir".[2]

Uzun illər uşaq mətbu orqanlarında – "Azərbaycan pioneri" qəzetində, "Göyərçin" jurnalında məsul vəzifələrdə işlədiyindən daim kiçik oxucuların marağını, zövqünü, estetik tərbiyəsini, dünyagörüşünü nəzərə alan yazıçı onlar üçün müxtəlif janrlarda əsərlər – hekayə, nağıl, səhnəcik, təmsil yazmışdır. "Göyərçin" jurnalında uzun müddət "Balaca Nəsrəddin" rubrikası altında lətifələr, tapmacalar, yanıltmaclar təqdim etmişdir. Hekayələrlə yanaşı, nağıl, povest janrına da müraciət etmiş, "Qərib cinlər diyarında" adlı maraqlı əsər yazmışdır. Əsərin əsasında film də çəkilmişdir. Nağıl-povest maddi sərvət, var-dövlət üçün vətənini, doğmalarını qoyub cinlərin diyarına

[1] Hikmət Ziya. Seçilmiş əsərləri. – Bakı: Azərnəşr, 1992, s.13
[2] Rafiq Yusifoğlu. Hikmət Ziyası. "Ədəbiyyat qəzeti", 16 may 2014

üz tutan Qəribin timsalında nəfsinə satılıb yadlara kölələk yolunu seçənlərin aqibəti haqqındadır. Qərib əcinnə və iblislərin məmləkətini seçib onların təklif etdikləri daş-qaş qarşılığında bütün istəklərini yerinə yetirir, insanların bacardığı – ev tikmək, əkin sahəsi becərmək, taxıl yetişdirmək kimi işləri cinlərə həm öyrədir, həm də icrasında köməklik edirdi. Sonda nə qədər sərvət sahibi olsa da, xoşbəxtliyin maddiyyatda olmadığını başa düşür. Əsarətdə qalmaq, yadlara kölələk etmək, istismar olunmaq, özü üçün yox, başqası üçün işləmək onu ağrıtmağa başlayır. O qazandığı hər şeyi – işinə yaramayan daş-qaşları verib əvəzində Vətənə, anasına qovuşmaq istəyir. Qayıtmaq onun üçün asan başa gəlmir. Gedəndə anası, qardaşı, sevgilisi Zərəfşanla mübarizə aparan Qəribin yolunda indi divlər, əjdahalar, iblislər dayanır. Amma Qərib Simurq quşunun ona öyrətdiyi sehrli "Can, ay Vətən" sözünü deyə-deyə yolunun üstündəki bütün maneələri məhv edə bilir. Vətən sevgisi onun bütün qorxularına və çətinliklərinə qalib gəlir. Bütün qara qüvvələri dəf edən Qərib "– Ömrün uzun olsun, Simurq quşu! Obandan-yuvandan ayrı düşməyəsən! Balalarının canı sağ, qanadları qüvvətli olsun! Ömürləri boyu yad yerə, yad ələ keçməsinlər…",[1] – deyib, ona vətənə qayıtmaq üçün köməklik edib yol göstərən Simurq quşuna alqış edir. Yazıçı uşaqlar üçün yazdığı bu nağıl-povest vasitəsi ilə azyaşlılara vətən sevgisini, ana öyüdünə qulaq asmağı aşılayırdı. Sovet dövründə azadlığa qovuşmaq üçün mücadilə aparan, divlərlə, əjdahalarla döyüşən, başqalarına işləməkdən imtina edən bir obraz yaratmaq yazıçıdan cəsarət tələb edirdi. Hikmət Ziya Qəribin timsalında belə obraz yaratmağa nail olmuşdur.

Hikmət Ziya bədii tərcümə ilə də məşğul olmuş, rus ədəbiyyatından – A.S.Puşkinin əsərlərindən bir neçə nümunəni, A.Krılovun təmsillərini Azərbaycan dilinə çevirmişdir.

Yazıçı kinematoqrafiya sahəsində də fəaliyyət göstərmişdir. "Əli Bayramlı" (1971), "Azərbaycan qadını" (1974), "Qərib cinlər diyarında" (1977), "Dəcəl dovşan" (1981) filmlərinin ssenariləri Hikmət Ziyaya məxsusdur. Həmçinin "Sınaq" pyesi Lənkəran, "Əkiz qardaşlar" dramı Abdulla Şaiq adına Kukla Teatrında tamaşaya qoyulmuş, "Mehir məsələsi", "Meşədə qala" əsərləri əsasında isə radio-tamaşalar hazırlanmışdır.

Hikmət Ziya öz çoxyönlü fəaliyyəti və yaradıcılığı ilə Azərbaycan ədəbiyyatının, xüsusilə uşaq ədəbiyyatının, uşaq mətbuatının inkişafına xidmət etmiş, Azərbaycan poeziyasında təmsil janrının formalaşmasında böyük rol oynamışdır. Onun uşaq ədəbiyyatı nümunələri quru və sönük təsvirçilikdən, nəsihətçilikdən uzaq olub mənalı və maraqlı təqdim üsulu ilə seçilmişdir.

[1] Hikmət Ziya. Qərib cinlər diyarında. – Bakı: Gənclik, 1980, s.110

TOFİQ MÜTƏLLİBOV
(1929-1992)

Görkəmli şair, bənzərsiz lirik şeirləri ilə uşaq poeziyasının müqtədir ustadı, məşhur "Cücələrim" nəğməsinin mətn müəllifi Tofiq Mütəllibov Azərbaycan ədəbiyyatına dəyərli töhfələr bəxş etmiş sənətkardır. Onun lirik şeirlərində vətən, təbiət, şəxsiyyət, məhəbbət mövzusu yüksək bədii-estetik səviyyədə öz təcəssümünü tapmışdır. T.Mütəllibovun lirik şeirlərinə çoxsaylı mahnılar bəstələndiyinə görə, o, xalq arasında nəğməkar şair ləqəbi ilə tanınmış mədəniyyət nümayəndəsidir.

Həyatı. Tofiq Mütəllim oğlu Mütəllibov 1929-cu il aprel ayının 13-də Naxçıvan şəhərində anadan olmuşdur. Gənc Tofiqin poetik istedadı orta məktəb illərində üzə çıxmışdır. Bakı şəhər pionerlər sarayı 1946-cı ildə şeir müsabiqəsi elan etmiş, səkkinci sinif şagirdi Tofiq həmin müsaqibəyə şeir göndərərək müsaqibədə ikinci mükafata layiq görülmüş və "Zəfər" adlı həmin nəzmi "Azərbaycan pioneri" qəzetində çap olunmuşdur. Bu şeir yaradıcılıq fəaliyyətinə başlayan gənc Tofiq üçün adi maraq deyildi, dünyanı şair gözü ilə görmək məramının, yazıb-yaratmaq arzusunun olduğunu təsdiqləyən ilk ciddi addım idi. Poeziyaya vurğunluq Tofiq Mütəllibovu BDU-nun Filologiya fakültəsinə yönləndirdi. Burada filoloji ali təhsil aldıqdan sonra gənc şair öncə "Pioner" jurnalında məsul katib, Azərbaycan Televiziya Verilişləri Komitəsində redaktor, böyük redaktor, baş redaktor vəzifələrində çalışmışdır. O, 1971-ci ildən ömrünün sonuna qədər "Azərbaycan gəncləri" qəzetində Ədəbiyyat, incəsənət və mədəniyyət şöbəsinə rəhbərlik etmiş və bir çox şairlərin inkişafına qayğı göstərmişdir.

Tofiq Mütəllibovun bədii yaradıcılığı çox məhsuldar olmuş, o, otuzdan çox şeir kitabının müəllifidir. O, "Görüş" (1960), "Kəkliklər oxuyanda" (1965), "Sevənlər üçün" (1967), "Ləpələrin nəğməsi" (1968), "Şeirlər" (1971), "Gözəllikdən doymur ürək" (1973), "Danışan çiçəklər" (1975), "Sənin xətrinə" (1976), "Mənim əzizlərim" (1979), "Görüş yerimiz" (1985) və başqa kitabların müəllifidir. O, hələ gənclik yaşlarından doğma vətənini tərənnüm edir, onun tərəqqisini, həyat ritmini, müasir zaman ahəngini dərindən duyaraq yazırdı. Heç təsadüfi deyil ki, onun "Cücələrim"i dünyanın 50-dən çox dilinə tərcümə edilmişdir. Bəzi mənbələrə əsasən üç yüzdən çox lirik şeirlərinə nəğmələr bəstələnmişdir. Şair yalnız lirik şeirlər yazmaqla kifayətlənməmiş, onun "Ceyhun", "Ürəklərə yazıldı", "Tonqallar yanır", "Qış səhərində", "Yaxşılığa yamanlıq" adlı poemaları da vardır.

Tofiq Mütəllibov uşaqlar üçün yalnız şeirlər yox, həm də Azərbaycan Dövlət Kukla Teatrında oynanılan "Meşə nağılı" (1985), "Danışan qayalar" (1982) pyeslərinin, Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrında səhnələşdirilən "Cücələrim" adlı alleqorik əsərin də müəllifidir. 1989-cu ildə şairə

Azərbaycan poeziyasında və mədəniyyətində uğurlu xidmətlərinə görə Azərbaycanın Əməkdar incəsənət xadimi fəxri adı verilmiş, üç dəfə Azərbaycan Ali Sovetinin Fəxri fərmanı ilə təltif olunmuşdur.

Görkəmli şair yaradıcılığının yüksəliş dönəmində 30 oktyabr 1992-ci ildə Bakı şəhərində vəfat etmişdir.

Yaradıcılığı. Tofiq Mütəllibovun yaradıcılığında uşaq şeirləri onun poetik məramının ayrılmaz tərkib hissəsidir. Xüsusən, yaradıcılığının ilk dövrlərində uşaq şeirlərinin ümumən davamlı olaraq inkişaf etdirildiyinin şahidi oluruq. Şair təzadlı, rəngarəng uşaq dünyasını dərindən duyduğu üçün böyük uğurlar qazanmışdır. Uşaq müəllifləri sıralarında adı şərəflə çəkilirdi. Dünya və Azərbaycan poeziyasında uşaq şeiri yazan şairlər çoxdur, lakin onların içində əsl uşaq şairləri azdır. Fəxrlə deyə bilərik ki, bu azlardan biri də Tofiq Mütəllibovdur. O, incəqəlbli, safürəkli, mehriban, həyat hadisələrinin, uşaq dünyasının spesifikliyini, konkretliyini duyan istedad sahibi idi. Uşaq dünyasını, uşaqların anlayacığı dildə poeziya predmetinə çevirmək özəl istedad tələb edir. İlk baxışda sadə görünən uşaq dünyasına nüfuz etmək çox çətin yaradıcılıq aktıdır. İbtidai sadəliyin uşaqların anlayacağı tərzdə sadə bədii üslubla, tezis-antitezis, qarşılıqlı və anlaşıqlı təzadlar şəklində canlandırma təqdirəlayiqdir. Onun "Meriban baxışlar", "Kəkliklər oxuyanda", "Sevənlərçin", "Gözəllikdən doymur ürək", "Danışan çiçəklər", "Görüş yerimiz", "Vüqarın nəğmələri" və b. kitabları uşaqlar tərəfindən sevilən əsərlərdir.

Onun yaradıcılığında uşaq şeirləri, sözün əsl mənasında, bədii təməl rolunu oynamışdır. Xüsusən, "Cücələrim" adlı uşaq şeirinin yazılması onun həyatının böyük dönüş nöqtəsi oldu. Bu şeirin yaranmasının maraqlı tarixi vardır. Tofiq Mütəllibova qədər məşhur klassik şairimiz A.Səhhət uşaqlar üçün "Cücələrim" şeirini yazmışdı. Azərbaycan musiqi tarixində gənc, parlaq istedad sahibi olan bəstəkar Qəmbər Hüseynli həmin şeirə musiqi bəstələmiş, lakin istədiyi bədii effekt alınmamışdı. Çünki şeirdəki mövcud təsvirçilik, ahəngsizlik, oynaq musiqi ritmlərinin yaranmasına mane olmuşdu. Qəmbər Hüseynli Tofiq Mütəllibovun "Cücəclərim"inin mətni ilə tanış olarkən, şeirin canlılığı, ahəngliliyi, ritmik oynaqlığı, perspektiv uşaq arzusunun konkretliyi və aydınlığı onun diqqətini cəlb etdi. O, söz ilə musiqi ahənginin, ritminin gözəl vəhdətini yaratdı. Ona görə də "Cücələrim" ilk ifa olunandan bu günümüzə qədər bütün dünya xalqlarının sevimlisinə çevrilmişdir. Hətta 2025-ci ildə Çin kimi nəhəng ölkənin uşaq festivalında səhnəyə qoyulan "Cücələrim" böyük uğur qazanmışdır. Ölkəmizdə də uşaqlar üçün elə bir mərasim, tədbir yoxdur ki, "Cücələrim"ə müraciət olunmasın:

Cip-cip,cücələrim ,
Cip-cip-cip-cip cücələrim!

Gözləyirəm tez gəliniz,
Göy çəməndə dincəliniz.
Ay qəşəng cücələrim,
Tükü ipək cücələrim.[1]

"Cücələrim"də kiçik qızın cücələrə ritmik xalq deyimi cip-cip ilə müraciəti, ana nəvazişi, qayğısı ilə, onları oynaq melodiya ilə dən yeməyə çağırması, böyüyərək analarına çatmağı arzulaması və oynaq ritmin təkrar-təkrar səslənməsi ümumi fon yaradaraq, kompozisiyanı bütövləşdirir, canlı effekt, şən melodiya, estetik yüsəklik yaradır.

Ümumiyyətlə, müəllifin yaradıcılığında kiçik və məktəb yaşlı uşaqların, hiss və qavrayışları, ətraf mühitlə təmasları, yaşlılarla davranış və rəftarları, tərbiyəvi elementlər əyaniləşdirilir, bədii cəhətdən detallaşdırılır. Bu mənada onun uşaqlara yazılmış şeirləri gələcək vətəndaşımızın mükəmməl tərbiyə olunmasına istiqamət verir, uşaqların layiqli vətəndaş olmaları üçün poetik həyəcan, yaradıcılıq kredosudur. Onun otuzdan çox şeirinin məktəb-dərslik poqramına daxil edilməsi təsadüfi deyil. Şairin uşaq şeirləri uşaqların özü kimi safdır, mehribandır – uşaqları yaşayıb-yaratmağa, mənəvi yüksəlişə çağırışdır:

Qonaq gələr ilk bahar,
Meşəyə səs yayılar.
Yatan quşlar ayılar,
Kəkliklər oxuyanda.[2]

Şairin uşaq şeirləri hələ formalaşmamış, uşaq hisslərini düzgün yönəltmək üçün həmişə axtarışlar aparır, düzgün, tərbiyəvi mövzulara toxunurdu. "Kameliya" adlı şeiri bu cəhətdən çox xarakterikdir. Kiçik Nəzakət hamıya qarşı kobuddur, hətta anasının belə üstünə qışqırır. Lakin bir gün şəhər parkında məktəb yoldaşları ona kameliya gülünü göstərərək, onun mənasını izah edirlər. Ona deyirlər ki, bu gül inciklik gülüdür, kobudluğu sevmir. Nəzakət yuxusunda bu gülü görür və özünün necə kobud olduğunu ayılandan sonra başa düşür və hamıya qarşı nəzakətli olur.

Tofiq Mütəllibovun bədii yaradıcılığı 1940-cı illərin ikinci yarısından başlasa da, bir lirik şair kimi 1960-cı illərdə öz lirik mənini, poetik duyğularını ədəbi prosesdə özünəməxsus şəkildə reallaşdırdı. Bu illərdə şairin poetik ustalığı yeni vətənvənpvəlik, müasirlik, geniş ümumiləşdirmə aparmaq bacarığı, obrazlılıq və həqiqi hisslərin canlandırılması keyfiyyətləri ilə zənginləşdi.

[1] Tofiq Mütəllibov. Bəxtəvər uşaqlar. – Bakı: Uşaq və gənclər nəşriyyatı, 1953, s.19
[2] Tofiq Mütəllibov. Seçilmiş əsərləri, II cild. – Bakı: Elm və təhsil, 2019, s.1

Tofiq Mütəllibovun saf məhəbbətə, həqiqi sevgiyə, vəfa və etibara həsr edilmiş lirikası müasirlik çalarları ilə diqqəti cəlb edir. Bu poetik keyfiyyət vaxtilə ədəbi tənqidin də diqqətindən yayınmamışdı "Tofiq Mütəllibovun ən yaxşı şeirləri də çox vaxt müasir, aktual mövzuların bədii həlli ilə bağlı olmuşdur".[1]

Tofiq Mütəllibovun saf məhəbbətə, həqiqi sevgiyə, vəfa və etibara həsr edilmiş lirikası müasirlik çalarları ilə diqqəti cəlb edir. Onun lirikası sevgi intizarı, vüsal həsrəti ilə döyünən alovlu bir ürəyi xatıladır. "Mənim sevgi planetim" adlı şeirində lirik qəhrəman öz sevgi dünyasını "mənim sevgi planetim" adlandırır.

Şairin məhəbbət hissi ötəri deyil, onlar həmişə qoşa gəzib, qoşa dolaşıblar, hər vaxt bir-birilərini ulduz sanıblar, sonsuz məhəbbətlə seviblər.

Qoşa alışarlar, qoşa yanarlar,
Sevda göylərində qanadlanarlar.
Hər vaxt bir-birini ulduz sanarlar,
Sənin gözlərinlə, mənim gözlərim.[2]

Şair sevgilisinin təbəssümünü hər dərdə, hər kədərə məlhəm hesab edir. Qaranlıq gecələrə ulduz kimi yol göstərən səma işığı hesab edir.

Bu dünya sevən aşiqlərə dar gələrək, onların ürəklərini sevinclə doldurur, onları göylərə yüksəldir. Məhəbbətin qanadları onları pərvazlandırır. Şairin məhəbbət lirikası sanki könülləri qovuşdurmağa çalışan arzu çələngidir. O, ürək həyəcanı, sevgi iztirabı, vüsal həsrəti ilə yaşayan bir dünyadır. O, sevən insanların içindən gələn bəzən həzin, bəzən şən, bəzən gümrah könüllər oxşayan bir nəğmədir. Bir çox görkəmli Azərbaycan bəstəkarlarının bu lirik şeirlərə mahnı bəstələmələri təsadüfi deyildir. Tofiq Mütəllibovun lirik şeirlərə yazılmış nəğmələri heç də əvvəlcədən razılaşdırılmırdı. Həmin bəstəkarlar şairin lirik ahəngini, ritmlərini duyaraq ona nəğmələr yazırdılar.

Qövsi-qüzeh göydə çələng toxudu,
Sən gəlməmiş bu gözəllik yox idi.
Turağaylar nəğməsini oxudu,
Sənin xətrinə.[3]

Tofiq Mütəllibovun daha gözəl və mənalı Vətən gözəlliklərinə həsr edilmiş lirik şeirinə bütün ölkədə məşhur olan və sevilən mahnı bəstələnmişdir. O, həmişə Azərbaycanın dilbər guşələrini səyahət edər və görüb

[1] Şirindil Alışanov. Həqiqi poeziya xatirinə. "Ədəbiyyat və incəsənət" qəzeti, 1976, 4 sentyabr
[2] Tofiq Mütəllibov. Seçilmiş əsərləri, II cild. – Bakı: Elm və təhsil, 2019, s.541
[3] Tofiq Mütəllibov. Mənim əzizlərim. – Bakı: Yazıçı, 1979, s.178

müşahidə etdiklərini səmimi poeziyasında realistcəsinə əks etdirməyə çalışardı. Şairə görə, Vətən o qədər gözəldir ki, hətta qocalar da burda cavanlaşırlar.

Sular dilə gəlib coşub-daşırlar,
Qocalar da burda cavanlaşırlar...
Meşələr yamyaşıl, havalar sərin,
Bura məskənidir gözəlliklərin.[1]

Şairin lirikasına göz yetirərkən, onu başqa müəlliflərdən fərqləndirən mühüm bir üslubi keyfiyyəti diqqəti cəlb edir. Tofiq Mütəllibov doğma Vətənin və təbiətin təsvirində, ictimai hadisələrin qiymətləndirilməsində bəzəkli, romantik pafoslardan, kəskin sərt boyalardan, sosial illyuziyalardan, şişirtmələrdən yan keçirdi. Onun poeziyası, təbiətin özü kimi gözəl və sadədir. O, şöhrət xatirinə yazmırdı, təbiətmizin, insanlarımızın, həyatımızın gözəlliklərini real təbiətin, insanın, ictimai hadisələrin təsvirində də öz estetik fikirlərinə sadiq qalıb, bədii həqiqətləri, sadəliyin hikmətində çatdırırdı. Onun sadəliyi primitiv deyildi. Vətənin gözəlliklərini, əsl lirik yaşantıların sadə, aydın poetik dillə, müasirləri ilə təmasyaratma anları idi. Heç çəkinmədən deyə bilərik, ki, T.Mütəllibov Azərbaycan poeziyasında natural poetik üslubun ən görkəmli nümayəndəsidir. Onun sadə poetik üslubunda müasirlik, obrazlılıq və hissi emosionallıq, bədii ümumiləşdirmə əsas vurğunu təşkil edir. Bu mənada onun "Qış fantaziyası", "Alça ağacı", "Görünəndə", "Yalqız olanda", "Torpağa bağlı" və sair şeirlərini yada sala bilərik. Məsələn, "Torpağa bağlı" şeirində fikir və hisslər, həyəcanlar təbii bir dillə qələmə alınmışdır:

Meşə qəzəblənib, qalxdı ayağa,
Kim deyir tufanda laldı ağaclar.
Bağlı olduğuyçün kökü torpağa,
Tufana qələbə çaldı ağaclar.[2]

Azərbaycanın gözəl mənzərəli guşələri haqqında şairlərimiz çox yazıblar. Onlardan biri də məşhur Göygölümüzdür. Elə bir məşhur şairimiz yoxdur ki, Göygöl haqqında yazmasın. Lakin Tofiq Mütəllibovun Göygölü onlardan çox fərqlənir.

"Göllərin dastanı" şeirində şair Göygölü məğrur Kəpəzin göygözlü dilbəri adlandırıb:

Sən göy gözlü dilbərisən,
məğrur Kəpəzin,
Sahilində min şairin
gözü qalıbdır.

[1] Tofiq Mütəllibov. Mənim əzizlərim. – Bakı: Yazıçı, 1979, s.167
[2] Tofiq Mütəllibov. Seçilmiş əsərləri, II cild. – Bakı: Elm və təhsil, 2019, s.301

Elə bil ki, məqbərədən,
qalxıb bu zaman,
Ağ çalmalı Nizaminin
özü gəlibdir.[1]

Şair doğma təbiətin hər fəslini, hər ahəngini, rənglərini, nəğmələrini unudulmaz məhəbbətlə sevirdi. O, hələ Vətən nəğmələrinin sirlər dolu mənalarını daima dinləməyə, sevməyə müntəzir idi. Professor İfrat Əliyevaya görə, T.Mütəllibovun poeziyasında təbiət insan həyatını rövnəqləndirən vasitə, insan həyatına təsir edən amil,onunla birgə yaşayan, birgə nəfəs alan bir qüvvə kimi təsvir olunur.[2]

Şairin lirikasında torpağımız da, daşımız da əbədi məhəbbət hissi ilə o qədər səmimiyyətlə təsvir olunur ki, sanki əbədiyyət nəğmələrinə qoşuluruq. Nəğməli Qarabağda yalnız insanlar oxumur, burada meşə də, çəmən də, dağ da oxuyur. Burada təbiət o qədər gözəldir ki, günəş bu dağların başı üstə Qarabağa vurulmuş kimi heyran-heyran baxır.

Dumanlar toplaşar dəstəbə-dəstə,
Çəkir karvanını, uçur quş kimi.
Günəş bu dağların başının üstə,
Baxır Qarabağa vurulmuş kimi.[3]

Tofiq Mütəllibov vətəninin o qədər vurğunudur ki, ömrünün zirvəsini Vətənin zirvəsi ilə mənalandırır. Onun "Ömrün zirvəsi" şeirində bu, aydın görünür:

Azərbaycan! Yer üzündə,
Öz qüdrəti, öz səsi var.
Qoy Everest inciməsin,
Bu dünyanın
Azərbaycan zirvəsi var.[4]

Ən gözəl poetik ifadələr, metaforalar, təşbehlər həmişə vətən adı ilə səslənir. Sovet poeziyasında ideoloji əsaslara söykənən sosializm vətənpərvərliyi təbliğat vasitəsi idi. Lakin T.Mütəllibov bu trafaretlərdən yan keçərək, əsl bədii lövhələrlə bir vətən dünyası yaratmışdı. O, həmişə axtarışda idi. Doğma Azərbaycanın gözəlliklərinin alovlu tərənnümçüsü idi. Şair "...yüksək insani hissləri təbliğ edərkən didaktikadan uzaq olmağa, poetik lövhələr,

[1] Tofiq Mütəllibov. Mehriban baxışlar. – Bakı: Azərnəşr, 1965, s.32
[2] İfrat Əliyev. Nigaran sətirlər. "Ədəbiyyat və incəsənət" qəzeti, 1993, 16 aprel
[3] Tofiq Mütəllibov. Seçilmiş əsərləri, II cild. – Bakı: Elm və təhsil, s.560
[4] Tofiq Mütəllibov. Görüş yerimiz. – Bakı: Yazıçı, 1985, s.7

mənzərələr, mənalı obrazlar yaratmağa çalışır".[1] O, həmişə fəxr etdiyi vətəni Azərbaycan himninin Qafqaz zirvələrinə məğrurluq gətirdiyini xüsusi qeyd edirdi.

Azərbaycan himni çalındı yenə,
Əsillər, nəsillər qalxdı ayağa.
Ucaldı Qafqazın zirvəsinə,
Məğrurluq gətirdi ana torpağa.[2]

Şairin ictimai-siyasi lirikasında vətənə məhəbbət hissi, əbədi dönməz bir kateqoriyadır. İnsanlar gəlir-gedir, hadisələr bitir-tükənir, lakin vətən məhəbbəti həmişə əbədidir, əyilməzlik qalasıdır.

Şairin bütün varlığı ilə sevdiyi bu təbiəti qiymətləndirib onun qədrini bilən varmı? Belə yad münasibətlər yalnız təbiəti deyil, insanlığı da məhv edir.

Gözəlliklərin məhv edilməsi, ekoloji fəlakət, bəşəriyyətin başı üstünü almış ən böyük problemdir. Min illər mövcud olan o gözəlliklərin məhv edilməsi şairi həyəcanlandırır, əbədi gözəlliklərin qorunması dünya harmoniyasının qorunmasını gələcək nəsillərə tövsiyə edir. Cəmiyyət gələcəyə doğru inkişaf edir, yeni insani münasibətlər yaranır, vaxtı keçmiş münasibətlər öz yerini yenilərinə təhvil verir. Lakin təəssüf ki, pis vərdişlər, xarakterik xüsusuiyyətlər hələ də insanlar arasında davam edir, ictimai bəlaya çevrilir. Aktiv vətəndaş mövqeyi laqeyd insanların xarakter keyfiyyətinə çevrilir. Ona görə də şair qəlbi həmişə nigarandır. Bu həyəcanlar, bu yaşantılar təsadüfi deyil. Bir şair nigarançılığının poetik həyəcanıdır. Şairə görə, əbədi nigarançılıq və əbədi həyəcan həmişə bizi düşündürəcək.

Tələşlıdır hər gecə,
Ömür gödəkdir necə...
Yaşayırıq beləcə,
Qəlbimizdən nigaran,
Oyananda yuxudan,
Biz dövrandan nigaran,
Dövran bizdən nigaran.[3]

Tofiq Mütəllibovun lirik şeirləri ilə yanaşı, beş poeması da vardır. Qarabağ hadisələrinə həsr olunmuş "Ceyhun", igid, fədakar, başqasının həyatını xilas etmiş Sədrəddin Bayramova həsr olunmuş poema "Ürəklərə yazıldı", uşaqların həyatından bəhs edən "Qış səhəri", "Tonqallar yanır" və

[1] Famil Mehdi. Nəğməkar şair. "Ədəbiyyat və incəsənət" qəzeti, 1979, 16 aprel
[2] Tofiq Mütəllibov. Mənim əzizlərim. – Bakı: Yazıçı, 1979, s.5
[3] Tofiq Mütəllibov. Sevənlərin ürəyi. – Bakı: Yazıçı, 1991, s.199

“Yaxşılığa yamanlıq” poemaları. Həmin poemalar uşaqların və gənclərin fədakarlığından, mərdliyindən bəhs edir. “Yaxşılığa yamanlıq” poeması isə hind nağılı əsasında yazılmışdır. Tofiq Mütəllibov SSRİ xalqları ədəbiyyatından Həmzad Sadasadan, Mixail Dudindən, Zülfiyyədən, Maksim Tankdan, Gülroxsardan, Xuta Berulavadan və b. poetik tərcümələr etmişdir.

Tofiq Mütəllibovun uşaq və gənclərimizin mərdlik və fədakarlığına həsr edilmiş “Meşə nağılı”, “Danışan qayalar” pyesləri və “Cücələrim” kompozisiyası uğurla səhnəyə qoyulmuşdur.

Tofiq Mütəllibov həm də tanınmış jurnalist idi. O, yaradıcı dostlarının həyat və yaradıcılığı haqqında gözəl məqalələr müəllifidir.

Onun səmimi lirikası, uşaqlar üçün yazdığı şeirləri, gözəl məhəbbət nəğmələri, vətən tərənnümünə həsr olunmuş poetik duyğuları hər zaman ədəbi mühitimizdə xatırlanacaqdır.

FİKRƏT SADIQ
(1930-2016)

Fikrət Sadıq müasir Azərbaycan poeziyasının inkişafında mühüm yer tutan, ədəbi-estetik düşüncənin yenilənməsinə təsir göstərən görkəmli şairlərdən biridir. XX əsrin ikinci yarısında "altmışıncılar" nəslinin aparıcı nümayəndələrindən biri kimi o, poeziyanın mövzu, forma və ifadə imkanlarını genişləndirərək yeni bədii-estetik meyillərin formalaşmasında müstəsna rol oynamışdır.

Bu dövrdə Azərbaycan poeziyasında fərdi üslubların ön plana çıxması, klassik ənənələrlə müasir poetik axtarışların vəhdəti ədəbiyyatın inkişaf dinamikasını müəyyən edirdi. Fikrət Sadığın yaradıcılığı məhz bu kontekstdə seçilərək, təkcə ifadə tərzi və üslub özəlliklərinə görə deyil, həm də ideya və estetik düşüncənin dərinləşməsi baxımından yeni mərhələyə yol açmış, poetik ənənəni yeni bədii dəyərlərlə zənginləşdirmişdir.

Həyatı. Fikrət Sadıq (Fikrət Abbas oğlu Sadıqov) 30 may 1930-cu ildə Azərbaycanın qədim mədəniyyət mərkəzlərindən biri olan Şamaxı şəhərində ziyalı ailəsində dünyaya gəlmişdir. O, ibtidai təhsilini doğma şəhərində (1930-1938), orta təhsilini isə Kürdəmir rayonunda (1938-1944) başa vurmuşdur. Daha sonra Bakıda sənət məktəbində (1944-1946) təhsil almış, bir müddət Gəncə neft kəşfiyyatının Naftalan və Tərtər sahələrində elektrik montyoru (1946-1952) işləmişdir. Hərbi xidmətdən sonra o, 1954-1955-ci illərdə Bakıda kinomexanik, 1955-1956-cı illərdə isə Kürdəmirdə elektrik montyoru vəzifəsində çalışmışdır. Bu illərdə əmək fəaliyyəti ilə yanaşı, Azərbaycan Dövlət Universitetinin Filologiya fakültəsində (1956-1961) təhsil alan şair, Azərbaycan və dünya ədəbiyyatının nəzəri və tarixi əsaslarına dərindən yiyələnmiş, klassik sənətkarların yaradıcılıqları ilə yaxından tanış olmuşdur.

Fikrət Sadıq təhsilini başa vurduqdan sonra bir müddət Şamaxıda kənd müəllimi kimi fəaliyyət göstərmiş, rayon qəzetində ədəbi işçi vəzifəsində çalışmışdır. Ardınca Azərbaycan Dövlət Universitetində Azərbaycan ədəbiyyatı tarixi kafedrasında baş laborant, Azərbaycan Ensiklopediyasının Baş redaksiyasında və "Gənclik" nəşriyyatında elmi redaktor, şöbə müdiri, C.Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasında, Elmi-kütləvi və sənədli filmlər birliyi idarəsində baş redaktor kimi fəaliyyət göstərmişdir. Uzun illər Azərbaycan Yazıçılar Birliyinin ədəbiyyatın təbliği bürosunun direktoru olan Fikrət Sadıq milli ədəbiyyatın təbliği, gənc istedadların üzə çıxarılması və ədəbi-estetik meyarların cəmiyyətə çatdırılması istiqamətində məqsədyönlü fəaliyyət göstərmişdir. 1987-ci ildən etibarən isə Azərbaycan Yazıçılar Birliyində şeir üzrə məsləhətçi vəzifəsində çalışaraq poeziyanın

inkişafında bilavasitə iştirak etmiş, gənc qələm sahiblərinə dəstək göstərmişdir. 1963-cü ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü olan Fikrət Sadıq Yazıçıların VII və VIII qurultaylarında Təftiş Komissiyasının sədri, IX qurultayda isə İdarə Heyətinin üzvü, həmçinin qəbul komissiyasının və Şirvan filialının sədri seçilərək, ədəbi mühitdə həm yaradıcı, həm də təşkilatçı şəxsiyyət kimi fəaliyyət göstərmişdir.

Fikrət Sadığın yaradıcılığı və ictimai fəaliyyəti dövlət səviyyəsində yüksək qiymətləndirilmişdir. O, 1986-cı ildə "Əməkdar mədəniyyət işçisi" fəxri adına layiq görülmüş, 1988-ci ildə isə "Əməkdə igidliyə görə" medalı və Azərbaycan Respublikası Ali Sovetinin fərmanı ilə təltif edilmişdir. 1991-ci ildə nəşr olunan "Dünya öz işindədir" kitabına görə Azərbaycan Respublikasının Dövlət Mükafatına layiq görülmüşdür. Həmçinin o, Rəsul Rza və Məmməd Araz ədəbi mükafatları ilə təltif edilmişdir.

Fikrət Sadıq 30 noyabr 2016-cı ildə Bakı şəhərində vəfat etmişdir.

Yaradıcılığı. Fikrət Sadıq gənclik illərindən ədəbiyyata, xüsusilə poeziyaya dərin maraq göstərmişdir. İlk poetik nümunələri universitetdə təhsil aldığı illərdə mətbuatda, o dövrün almanaxlarında nəşr edilmişdir. O, ədəbiyyat aləminə 1946-cı ildə "Azərbaycan gəncləri" qəzetində dərc olunan "Bahar" adlı şeiri ilə qədəm qoymuşdur.

Tədqiqatçı Gülxani Pənah F.Sadığın ilk mətbu şeiri haqda yazmışdır: "Bu şeir onu isitmədi, əksinə ömrünə qış gətirdi. Bu şeiri dərc eləyən haradansa öyrənib bilmişdi ki, Fikrət Sadıq "xalq düşməni"nin oğludur, ondan sonra onun yazılarını dərc etmədilər. On il mətbuat onun üzünə bağlı qaldı. Yalnız 1956-cı ildə ADU-nun birinci kursunda oxuyarkən "Aprel çiçəkləri" almanaxında yenidən onun əsərləri işıq üzü gördü və "Ana əli" şeiri nəşr olundu".[1] Məlum olduğu kimi, 1937-1938-ci illərdə baş vermiş kütləvi siyasi repressiyalar Fikrət Sadığın həyatına da birbaşa təsir göstərmişdir. Onun atası Abbas Sadıqov heç bir əsas olmadan "xalq düşməni" damğası ilə həbs edilmiş, ağır işgəncələrə məruz qalaraq, Sibirə sürgün olunmuşdur. Bu hadisə təkcə ailənin maddi durumuna deyil, mənəvi dünyasına da dərin iz salmışdır. Gənc Fikrət uzun illər "xalq düşməninin oğlu" kimi damğalanmış, mətbuata çıxış imkanları məhdudlaşdırılmış, ədəbi çevrədə susqunluğa məhkum edilmişdir.

Şəxsi həyatı ilə ictimai mühit arasındakı bu ziddiyyət onun taleyində ciddi sarsıntı yaratmışdır. Lakin 1957-ci ildə atasına rəsmi bəraət verildikdən sonra bu təzyiqlər aradan qalxmış, gənc şair mənəvi və sosial buxovlardan azad olmuş, əsərləri mətbuatda dərc olunmağa başlamışdır.

Bu dövrün izləri, onun poeziyasında xüsusilə "Atam qayıtdı" şeirində öz əksini tapmışdır. Şeir yalnız fərdi taleyin poetik ifadəsi deyil, həm də bütöv

[1] Gülxani Pənah. Fikrət Sadığın poetikası. – Bakı: Şirvannəşr, 2008, s.9

bir nəsil üçün səciyyəvi olan sarsıntıların, basqıların və gecikmiş ədalətin simvolik təcəssümüdür:

Gör nə düşdü yadıma;
Çörək lap qıt olanda
Bir əlcə bir öynəlik,
Düşəndə hər adama
"Düşmən oğlusan" deyib
Mənə çörək vermədilər.

Atam qayıtdı... Yenə
Təmiz adım qayıtdı.
Keçmişim qayıtdı,
Gələcəyim qayıtdı.
Həbs edilmiş səadətim,
Açılmamış məhəbbətim,
Dodağımdan qoparılmış
Şaqraq uşaq gülüşlərim,
Uzaqlara aparılmış
Arzum, muradım qayıtdı.
Atam qayıtdı![1]

Bu misralarda bir övladın yalnız atasına qovuşması deyil, onunla birgə əlindən alınmış uşaqlığının, yarımçıq qalmış arzularının və illərlə həsrətini çəkdiyi azadlıq hissinin də geri dönməsi incə lirizm və dərin daxili dramatizmlə ifadə olunmuşdur. "Atam qayıtdı" şeiri XX əsr Azərbaycan poeziyasında repressiya mövzusunun fərdi-bioqrafik rakursdan poetik təcəssümünə parlaq nümunə kimi diqqəti cəlb edir. Bu əsər yalnız şəxsi taleyin poetik ifadəsi deyil, həm də totalitar rejimlərin yaratdığı mənəvi sarsıntıların ədəbi yaddaşda iz salmış formasıdır.

Fikrət Sadığın ədəbi aləmdə tanınmasında 1963-cü ildə nəşr olunan ilk şeir kitabı − "Cığır" mühüm yer tutur. Bu toplu şairin poetik dünyagörüşünün formalaşmasında mühüm rol oynayır. Kitabda yer alan şeirlər həm forma, həm də məzmun baxımından gənc şairin fərdi poetik baxışını, ifadə imkanlarını və daxili dünyasını özündə əks etdirir.

Müxtəlif duyğularla zəngin olan bu şeirlərdə oxucu təkcə şəxsi emosiyaları deyil, eyni zamanda dövrün mənəvi və sosial-psixoloji ab-havasını da hiss edə bilir. Şairin təxəyyülü, çağırış ruhu və fəlsəfi ovqatı aşağıdakı misralarda öz parlaq təzahürünü tapır:

[1] Fikrət Sadıq. Taleyin acığına. – Bakı: Çinar-Çap, 2003, s.8

Könül, soyuq Ay olunca,
İldırım ol, yandırıb yax,
Bircə an yaşa!
Sakit axan çay olunca,
Bircə dəfə sel kimi ax.
Ömrü vur başa.[1]

Bu sətirlərdə F.Sadıq zamanla üz-üzə dayanan insanın daxili çağırışını − dolğun, dəyərli və mənalı bir ömür sürmək istəyini poetik dillə ifadə edir. Onun eyniadlı "Cığır" şeirində isə həyatda buraxılan izlərin, insani varlığın dəyərlər sistemindəki çəkisinin rəmzi ifadəsini görmək mümkündür:

Addım ürək ağrıtsa da,
Həyatımdır ayaq izi.
Mən ot basmış bir cığıram,
İnsan üçün darıxıram.[2]

Buradakı "cığır" metaforası həm konkret həyat yolu, həm də mənəvi missiya anlamı daşıyır. Bu yanaşma şairin yaradıcılığına xas olan humanist baxış bucağının ilk işartılarını üzə çıxarır. Gənc şairin yaradıcılığını yüksək dəyərləndirən Bəxtiyar Vahabzadə onun kitabı haqqında yazırdı: "Fikrət Sadıq ilk şeirlərindən diqqətimizi cəlb edən gənc şairlərdəndir. O, hələ universitetdə tələbə ikən mən onun şeirlərində təzəlik, orijinallıq, özünəməxsus ifadə tərzi görmüş və onu həmişə izləmişdim.

Fikrət bu ilk kitabının adını "Cığır" qoymuşdur. Müəllif "Cığır" şeirində insanların ayaq izləri ilə açılmış "cığırın dili" ilə gözəl deyir:

Mən ot basmış bir cığıram,
İnsan üçün darıxıram.

"Cığır" kitabı təkcə poeziyada debüt deyil, həm də müəllifin mənəvi mövqeyini, bədii-estetik idealını cəmiyyətə bəyan etməsi baxımından xüsusi əhəmiyyət daşıyır. Bu ilk uğurdan sonra F.Sadığın poetik fəaliyyəti ardıcıl şəkildə davam etmiş, "Ömrün bir günü" (1965), "Dəniz küçəmizə gəlir" (1968), "Sevgi yağışı" (1970), "İşığın yağışı" (1974), "Ağ cığır" (1979), "Yerdən göyə ümid" (1981), "Məndən soruşsalar" (1985), "Dünya öz işindədir" (1989) kimi şeir kitabları nəşr olunmuşdur.

[1] Fikrət Sadıq. Kəsə sözlər (miniatür şeirlər) // "525 Kitab" seriyası. – Bakı: Mütərcim, 2010, s.24
https://www.kitabxana.net/files/books/file/1334677156.pdf
[2] Fikrət Sadıq. Mən ot basmış bir cığıram. – Bakı: Mütərcim, 2020, s.190

Şair, publisist və ssenarist Fikrət Sadıq hər şeydən əvvəl, poeziyada qazandığı uğurlarla tanınır. Onun poetik irsi müasir Azərbaycan ədəbiyyatında özünəməxsus mövqeyə malikdir. Ədəbiyyatşünas Vaqif Yusifli "Müasir Azərbaycan poeziyasında ənənə və novatorluq problemi (1960-2000)" adlı doktorluq dissertasiyasında[1] Fikrət Sadığın yaradıcılığını təhlil edərkən yazır ki, o, poeziyaya ilk addımlarını Rəsul Rza məktəbinin təsiri ilə atmış, fərdi poetik üslubunun formalaşmasında bu istiqamətdən bəhrələnmişdir. Tədqiqatçı həmçinin onun klassik şeir irsi ilə yanaşı, aşıq ədəbiyyatına da dərin maraq göstərdiyini vurğulayır.

Doğrudan da, şairin ilk poetik təcrübələri arasında yer alan "Üçüncü simfoniyanı dinləyərkən" adlı şeiri onun sərbəst şeirə meylini nümayiş etdirir. Bu şeirdə Rəsul Rzanın "Rənglər" silsiləsinin estetik enerjisi sezilsə də, Fikrət Sadığın özünəməxsus poetik düşüncə tərzi və obrazlı təfəkkürü aydın şəkildə hiss olunur. 1980-ci illərdən başlayaraq, şairin yaradıcılığında heca və əruzla yazılan nümunələr üstünlük təşkil etməyə başlayır. Bu dövrdən sonra şair müxtəlif şeir formalarına, xüsusən də rübai janrına üz tutur. Şair "dördlük"lərdən ibarət poetik parçaların toplandığı "Bugünnamə" kitabının proloq qismində yazır:

Əsil rübainin öz əruzu var,
Buyursun meydana, kimin sözü var,
Mən-hecaynan yazdım bu dördlükləri,
Bunun da özünə məxsus duzu var.[2]

Fikrət Sadığın şeirləri həm ideya-məzmun əlvanlığı, həm də sənətkarlıq baxımından maraq doğurur. Onun yaradıcılığında insan mövzusu geniş və əhatəlidir. Həssas şair dünyada gedən proseslərə, faciələrə biganə deyil. Onun poeziyasında Xirosima, Naqasaki faciəsi, Troya müharibələri, Səlib yürüşləri, Dünya müharibələri, Xatın kəndi faciəsi, Osvensim dərdləri, I Qarabağ müharibəsi, Xocalı soyqırımının dəhşətləri öz əksini tapır. Şair "Xatın kəndi abidəsi", "Növbə daşları", "Bir qarış ot", "Klod İzerli", "İnanıram da, inanmıram da" şeirlərində dünyanı ölüm kabusuna çevirən müharibələrdən bəhs edir, atom bombalarının icadını tənqid atəşinə tutur. Müharibə mövzusu Fikrət Sadığın əsərlərində oxucunun ruhunda dərin izlər buraxan təsirli lövhələr yaradır. Onun şeirlərində müharibənin ağrısı təkcə hadisələrin obrazı deyil, həm də insan qəlbinin yarası kimi canlanır. Məsələn, "Yaralı evlər" şeirində obrazlar sistemindəki evlər yaralı ürəklərlə yaşayan insanlar kimi təqdim olunur. Burada hər bir ev sadəcə, daş və kərpicdən deyil, sarsılmış

[1] Vaqif Yusifov. Müasir Azərbaycan poeziyasında ənənə və novatorluq problemi (1960-2000-ci illər), doktorluq dissertasiyası. – Bakı, 2009, s.127
[2] Fikrət Sadıq. Bugünnamə-3. – Bakı: Elm və təhsil, 2010, s.25

duyğular və ümidsizliyin simvolu kimi canlanır, oxucunun qəlbinə toxunan poetik bir metaforaya çevrilir:

Bunlar adi ev deyil,
Bu evlərin hər biri
Günahsız insanların,
Adsız qəhrəmanların
Nişanəsidir qalır.[1]

"İnsanı olmayan evlər"in quru daşı, taxtası dil açıb şairə dərdini danışır. "Dərd əlindən bükülmüş pillələrsiz pilləkan", "zor ilə çıxarılmış göz yerinə bənzəyən pəncərə oyuqları" bütün canlı, əzablı assosiasiyası ilə təsirləndirir.

Şair "Beş yarpaq" poema silsiləsindəki "Yadındamı, Qərənfil", "Ağ cığır", "Ucadan danışan", "Səhrada tənha buruq" kimi şeirlərində də müharibənin dəhşətlərindən, acı xatirələrindən, insanların göz yaşı, ayrılıq əzablarından, Azərbaycanın taleyinə vurulan ağır zərbələrdən böyük bir acı ilə bəhs edir. Şair müharibənin insan ruhunda yaratdığı qaranlıq kölgələri özünəməxsus poetik dili ilə bədii planda canlandıraraq, həm fərdi, həm də kollektiv yaddaşda iz buraxan bir sənət nümunəsi ortaya qoyur.

Fikrət Sadıq duyğularını Vətən, xalq üstündə kökləyir. Onun poeziyasında xalqımızın qəhrəmanlıq səhifələri − Metelər və Alp Arslanlar kimi tarixi simalar, yadellilərə qarşı sarsılmaz nifrət və dayanıqlı mübarizənin od-alovu − ruhun dərinliklərindən yüksələn əsas leytmotivə çevrilir. Şair vətənin, xalqın birliyi məsələsini ön plana çəkərək yazır:

Fələkdən sinə dağlıyam,
Bəndi-bərəsi bağlıyam.
Xalqımın şair oğluyam,
Quru dilmancı deyiləm.[2]

Şairin vətəninə duyduğu məhəbbət sonsuzdur. Cəsarət beşiyi kimi tərənnüm olunan "Azərbaycan" şeiri şairin vətən, yurd sevgisinin ədəbi salnaməsidir. O, "Yanacağam günəş kimi" şeirində isə azadlıq uğrunda çarpışan, vətən yolunda canını fəda edən mübariz insanların vətəndaşlıq ideyalarını ifadə edir.

Fikrət Sadığın diqqəti cəlb edən əsərlərindən biri də Mirzə Ələkbər Sabirin 100 illik yubileyinə həsr etdiyi "Ömrün bir günü" poemasıdır:

Qəlbində bir millətin
Çəkə biləcəyi dərd.
Dözə biləcəyi qəm,

[1] Fikrət Sadıq. Mən ot basmış bir cığıram. – Bakı: Mütərcim, 2020, s.11
[2] Fikrət Sadıq. Taleyin acığına. – Bakı: Çinar-çap, 2003, s.31

Əlində qəlbi kimi
Sınıq qurşun bir qələm.[1]

Lirik duyğularla işıqlandırılan bu poemada, millətin dərdini öz qəlbində daşıyan Sabirin poetik obrazı böyük ustalıqla canlandırılır. Fikrət Sadıq Sabirin "Nə işim var" misralarını xatırladaraq, sətirlərin arxasında gizlənən incə eyhamları, vətənini və xalqını hərraca çıxaranları öz bənzərsiz poetik dili ilə ifşa edir. O, sözün qüdrəti ilə xalqını qəflət yuxusundan oyatmağa çalışır. Eyni zamanda, şair millətin taleyini, onun dərd və faciələrini ürəyinin ən dərin qatlarında daşıyan Sabir, Mirzə Cəlil və Hadinin şərəfli yolunu davam etdirir. Cəsarətlə cəmiyyətin qaranlıq üzlərini, ədalətsizlikləri və haqsızlıqları açıq şəkildə ifşa edir, poeziyası ilə haqqın səsinə çevrilir.

Kasıba əl tutmaq − Əlidən qalır.
Allahı bilməyən − Əli nə qanır?
Qonşusu ac yatır, cəhənnəmə ki,
Ona bu bəsdir ki, özü dolanır.[2]

Şair "Kimindir", "Dünyanın", "Pulun başına daş düşsün", "Gətir", "Kasıblara tibbi xidmət", "Nə baha − nə ucuz" və s. şeirlərində zəmanənin eybəcərliklərini göstərir, öz xoşbəxtliyini başqalarının göz yaşları üzərində quran, yalnız özünü düşünən xudbinlərin çirkin mənəviyyatını lənətləyir. İctimai-siyasi xarakterli şeirləri ilə yanaşı, onun poeziyasında lirik ricətli duyğu dolu şeirlər də az deyil. Xüsusən, "işıq şeirləri" silsiləsi onun poetik təfəkküründü, amalını ifadə edir. Şairin "Monoloq" şeiri bu baxımdan maraq doğurur:

Günəşin bir zərrəsiyəm –
İşıqdan gəlmişəm, gəlirəm, gələcəyəm.
Dünənəm, Bugünəm, Gələcəyəm.[3]

Bu sətirlərdə şair öz varlığını işığın bir parçası kimi təsvir edir. O, zamanın bütövlüyünü − keçmişi, indini və gələcəyi − özündə birləşdirərək, daim yenilənən və inkişaf edən həyatın əbədiliyini vurğulayır. Yenidən işığa dönmək, yaşamağın və ümidin simvolu kimi təqdim olunur. Bu misralar şairin həyat manifesti, daxili dünyasının işıq dolu çağırışıdır. Ümumiyyətlə, şairin yaradıcılığında işıq, nur anlayışı həyatın mənəvi mahiyyətini daşıyan əsas dəyərlər kimi çıxış edir. Şairə görə, işıq – həm daxili aləmin simvolu, həm də başqalarına yol açan ümid işartısıdır. O, "işıqlı" şeirlərində insanları xeyirxahlığa, mənəvi saflığa və yüksək ideallara səsləyir.

[1] Fikrət Sadıq. Ömrün bir günü (Böyük Sabirin şərəfinə). – Bakı: Şirvannəşr, 2012, s.7
[2] Fikrət Sadıq. Bugünnamə-3. – Bakı: Elm və təhsil, 2010, s.32
[3] Fikrət Sadıq. Taleyin acığına – Bakı: Çinar-çap, 2003, s.24

Fikrət Sadığın yaradıcılığı təkcə böyüklər üçün yazılmış poetik nümunələrlə məhdudlaşmır. O, uşaq ədəbiyyatına da dəyərli töhfələr vermiş, bu sahədə özünəməxsus üslubu ilə seçilən nümunələr ərsəyə gətirmişdir. "Cırtdan hara getmişdi?" (1970), "Bala kirpi" (1972), "Göydə nə var?" (1978), "Göydən alma düşmədi" (1982), "Gəlin, dənizi yuyaq" (1982), "Şeirli əlifba" (1988), "Bir parça vətən" (1988) kimi kitabları Azərbaycan uşaq ədəbiyyatına yeni nəfəs gətirmiş, onun ideya-estetik diapazonunu genişləndirmişdir.

Bu əsərlərdə şair uşaq psixologiyasının incəliklərini dərindən duyaraq, dünyaya məhz uşaq baxışı ilə yanaşır. Onun şeirlərində tərbiyəvi məqamlar, mənəvi dəyərlər uşağın anlayışına və qavrayışına uyğun formada təqdim edilir. Mərdlik, əməksevərlik, vətənpərvərlik kimi keyfiyyətlərin təbliği, eyni zamanda eqoistlik, lovğalıq kimi mənfi xüsusiyyətlərin tənqidi bu şeirlərin əsas qayəsini təşkil edir. Məsələn, "İynə" adlı şeirdə əlinə iynə batıb barmağı qanayan balaca Hicran "bunu at, anacan", − deyib ağlayanda ana başa salır ki, iynə ilə güllü paltarlar, çəkmələr tikilir. Şeirdə ana ilə övlad arasında qurulan dialoq vasitəsilə əmək və zəhmətin dəyəri uşaq təfəkküründə incə poetik dillə çatdırılır:

Bircə il də böyü sən.
Özün öz əllərinlə,
Həmin bu iynə ilə
qaragöz gəlininə
bir qəşəng don tikərsən.[1]

Şair "Çanaqlı bağa ilə qurbağa", "Bala kirpi" kimi şeirlərində mənfi xüsusiyyətləri tənqid edərək, uşaqları sadəliyə, xeyirxahlığa və dostluğa səsləyir.

Fikrət Sadıq uşaqlar üçün təkcə şeirlər deyil, həm də bir sıra pyeslər yazmışdır. Onun "Yumaq top" adlı əsəri Kukla Teatrında, "Bir parça vətən" Gənc Tamaşaçılar Teatrında, "Oğul" Şamaxı Dövlət Dram Teatrında, "Biri vardı, biri yoxdu" (Alp Aruz) əsəri isə Lənkəran Dövlət Teatrında səhnələşdirilmişdir.

Bundan əlavə, şairin yaradıcılığı dramaturgiya və kino sahəsində də öz əksini tapmışdır. O, "İçərişəhər", "Naxçıvan–50", "Süleyman Rüstəm" sənədli filmlərinin və "Cırtdanın yeni sərgüzəştləri" adlı animasiya filminin ssenari müəllifidir.

Fikrət Sadıq bədii tərcümə sahəsində də özünəməxsus mövqe tutmuş, türk, qazax, özbək, rus, ukrayna, belarus, eston, litva və başqa xalqların görkəmli şairlərini Azərbaycan dilinə böyük ustalıqla tərcümə etmişdir.

[1] Fikrət Sadıq. Göydə nə var. – Bakı: Gənclik, 1978, s.9

Tərcümələrində yalnız mətnin məzmunu deyil, həm də orijinalın poetik ruhu, ritmi və estetik dəyəri yüksək həssaslıqla qorunmuşdur. Şəhriyar, Abay, Yanko Kupala, Emil Verharn, Nikolos Gilyen, Yan Rayns, Federika Qarsia Lorka, Aleksandr Çak, Oljas Süleymenov, Marşak, Arif Nihat Asya, Tofiq Fikrət kimi şairlərin əsərləri Fikrət Sadığın qələmi ilə Azərbaycan oxucusuna yeni nəfəs və bədii təravətlə təqdim olunmuşdur. Xüsusilə Şəhriyarın məşhur "Azərbaycan" şeirinin tərcüməsi onun bu sahədəki uğurunun parlaq nümunəsidir. Tərcümədə orijinal mətnin milli ruhu, poetik dərinliyi və emosional təsir gücü olduğu kimi qorunmuş, müəllifin fikri Azərbaycan dilində yenidən canlandırılmışdır.

Fikrət Sadıq, sayca az olsa da, nəsr sahəsində də özünü sınamış və hekayələri ilə oxucu yaddaşında iz qoymağı bacarmışdır. Onun "Xırdaca gəlin", "Daş balkon", "Kinomexanikin bacısı", "Sinif-sinif oyunu" və digər hekayələri insan münasibətlərinin incə qatlarını, məişət həyatının sadə görünsə də, dərin mənalarla yüklü epizodlarını bədii şəkildə əks etdirir. Bu hekayələrdə övladın doğmalarına bəslədiyi səmimi məhəbbət, bir yolçuluğun təfərrüatlarında gizlənən mənəvi axtarış, itkini dərk edən insan qəlbinin qüssəsi kimi həyat fəlsəfəsi ön plana çəkilir. Fikrət Sadığın nəsrində poetik duyarlıq, müşahidə qabiliyyəti və psixoloji incəlik bir-birini tamamlayır. Hekayələrindəki obrazlar həyatın içindən gəlir, hadisələr adi məişət kontekstində təqdim olunsa da, oxucunu düşündürürdü. Bu mənada onun hekayələri müəllifin poeziyasındakı lirizmin və fəlsəfi düşüncənin nəsrdəki təzahürü kimi dəyərləndirilə bilər.

Fikrət Sadıq ədəbi-publisistik sahədə də zəngin yaradıcılığa malikdir. Onun "Füzuli şair sözünün sinonimidir", "Məmməd Arazdan yeddi söz", "Xəlil Rza kimdir?", "Rəsul Rza", "Balaş Azəroğlu" və digər məqalələri Azərbaycan ədəbiyyatının müxtəlif aspektlərini dərindən təhlil etməklə yanaşı, milli poeziya ənənələrinin yaşadılması və inkişafında mühüm rol oynamışdır. Bu yazılar ədəbi tənqidin elmi metodlarına əsaslanaraq, həm klassik, həm də müasir ədəbiyyatın əsas məqamlarını işıqlandırır. Xüsusilə diqqət çəkən məqalələrindən biri olan "Füzuli şair sözünün sinonimidir" əsərində Fikrət Sadıq Füzulini "kədər, eşq, fikir və Allah şairi"[1] kimi dəyərləndirir. Müəllif qeyd edir ki, "Avropa Şərq şeirinə əsrlər boyu səcdə qılıb. Bu şeirin yaradıcılarından biri Füzulidir. Onun lirik, epik, fəlsəfi, alleqorik şeir inciləri, hətta nəsri belə ondan sonra gələn şairlərə məktəb olub".[2]

[1] Fikrət Sadıq. Taleyin acığına. – Bakı: Çinar-çap, 2003, s.239
[2] Yenə orada, s.239

Məqalədə "beyt" sözü ətraflı izah edilərək, Füzulinin türk dilində yaratdığı əsərlərin dili və bədii-estetik xüsusiyyətləri barədə dəyərli mülahizələr irəli sürülür. Fikrət Sadıq bu təhlillərlə klassik ədəbiyyatın mahiyyətinə işıq salmaqla yanaşı, onun müasir ədəbi prosesdəki əhəmiyyətini də vurğulayır.

"Ümmandan damla" məqaləsində isə Məhəmməd Hadi yaradıcılığına nəzər salaraq, şairin bədii-fəlsəfi görüşlərindən, sənətkarlıq məziyyətlərindən bəhs edir. Xüsusilə, Hadinin yaradıcılığında sənətkarlıq məsələlərinə diqqət yetirən Fikrət Sadıq yazır: "Hadidə rast gəldiyimiz məcazları ümmana bənzətsək, bu misralar damladır. Fəqət dəryadan götürülən bir damla su həmin suyun acılığını və ya şirinliyini göstərə bilər. Hadi hər vərəqi min kitab olan bir kitabdır".[1] O bu təhlillərlə Hadinin poeziyasının çoxqatlı bədii quruluşunu, dərin mənəvi qatlarını və sənətkarlıq ustalığını ortaya qoyur, Azərbaycan ədəbiyyatındakı yerini və rolunu aydınlaşdırır.

Fikrət Sadıq "Əbədi ziyarətgah" məqaləsində Sabir yaradıcılığına geniş yer ayıraraq, dahi şairin Azərbaycan ədəbiyyatındakı mövqeyini ətraflı şəkildə işıqlandırır. Onun Mikayıl Müşfiq yaradıcılığına həsr etdiyi "Müşfiq şeirinin şəfəqində yol getmək olar", Əzizə Cəfərzadə haqqında "Vətənə qayıt", Nigar Rəfibəyliyə həsr olunmuş "Həzin bir axşamda yada düşmək", eləcə də Anar barədə "Anar – deyiləndə" kimi məqalələri dərin ədəbi təhlilləri və dəyərli görüşləri özündə əks etdirir. Bu yazıların hər biri dilinin səlisliyi, rəvanlığı, bədii çaları ilə diqqəti cəlb edir.

Fikrət Sadıq yaradıcılığında dil məsələsinə xüsusi diqqət vardır. Doğma dilimizi "Böyük türk dili ağacının əzəmətli şah budağı"[2] kimi dəyərləndirən Fikrət Sadıq "Sənin ana dilin", "Qarşı" sözünə qarşı", "Bir daha "qarşı" sözünə qarşı", "Üçüncü kərə "qarşı" sözünə qarşı", "Bu yer məşğuldur", "İki toponim", "Pıçıltı yoxsa, fısıltı" və s. publisistik yazılarında dil probleminə toxunur. Şair "Sənin Ana dilin" məqaləsində ana dilimizin Şərqdəki mövqeyini Y.Lermontovun "Avropada fransız dili nədirsə, Şərqdə də türk dili odur"[3] fikri ilə açıqlayaraq, bu dili Dədə Qorqud, Həsənoğlu, Füzuli, Vaqif, Axundzadə, Sabir, Mirzə Cəlil, Şəhriyar, Səməd Vurğun, Rəsul Rza dili kimi şərh edir. Onun böyük tarixi keçmişə sahib olduğunu, ilkinliyini, zənginliyini xatırladaraq, dilimizə əcnəbi dillərdən gətirilən başa düşülməyən ofis, küçə adlarını tənqid atəşinə tutur. O özü də əsərlərində dilin poetik imkanlarından böyük həssaslıqla istifadə etmişdir. İstər poeziyasının, istərsə də publisistikasının dili təbii, axıcı, sadə və yığcam olmaqla seçilir.

[1] Fikrət Sadıq. Taleyin acığına. – Bakı: Çinar-çap, 2003, s.243
[2] Yenə orada, s.316
[3] Yenə orada, s.316

Fikrət Sadığın yaradıcılığında bədii obrazlı dili özünəməxsusdur. Bu da onun poeziyasının təkrarolunmaz poetik çalarlığını ifadə edir. "Bir kəlmə sözdən asılı idi / ümidimin kövrək sapı",[1] "Gümanın ağ haləsiyəm",[2] "Dünya olub sürgün yeri",[3] "Ürəyimdə sükutla / danışmağı öyrəndim",[4] "Ömür uzun pilləkən, hər pilləsi əzabdı"[5] və s. kimi yüzlərlə ifadə şairin poetik dünyasının dərinliyini, duyğularının mürəkkəbliyini və dil imkanlarının genişliyini əks etdirir. Bu nümunələr Fikrət Sadığın yaradıcılığının həm məzmunca, həm də bədii-estetik cəhətdən zəngin və fərqli olduğunu göstərir.

Fikrət Sadığın yaradıcılığı ənənə və novatorluğu özündə ehtiva edən, ədəbi mühitdə özünəməxsus poetik məktəb formalaşdıran ədəbi hadisə kimi təqdir olunur. Onun sənətinə həsr olunmuş çoxsaylı elmi-publisistik məqalələlər, o cümlədən Gülxani Pənahın "Fikrət Sadığın poetikası", İfrat Əliyevanın "Poetik ilhamın özünəməxsusluğu", Yeganə Xanlarovanın "Fikrət Sadığın poetik üslubu", Hafiz Rüstəmin "Fikrət Sadıq – Dədə Qorqud əmanəti" əsərləri şairin yaradıcılıq xüsusiyyətlərini və ədəbiyyatdakı mövqeyini əhatəli şəkildə işıqlandırır. Şairin 2003-cü ildə çap olunan "Taleyin acığına" kitabında isə təkcə poetik nümunələr deyil, eyni zamanda ədəbiyyatşünas alimlərin, qələm dostlarının şair haqqında dəyərli mülahizələri yer almış, ədəbi şəxsiyyəti Azərbaycan ədəbiyyatında mühüm mövqe tutan sənətkar kimi dəyərləndirilmişdir.

[1] Fikrət Sadıq. Halbuki. – Bakı: Nərgiz, 2010, s.183
[2] Yenə orada, s.100
[3] Yenə orada, s.102
[4] Fikrət Sadıq. Taleyin acığına. – Bakı: Çinar-çap, 2003, s.7
[5] Yenə orada, s.30

DAVUD ORDUBADLI
(1930-2011)

Davud Ordubadlı Azərbaycan ədəbiyyatında öz poetik üslubu və vətənpərvər ruhu ilə seçilən şairlərdən olmuşdur. Onun yalnız şair və yazıçı kimi deyil, həm də ədəbi işçi kimi xidmətləri vardır. Davud Ordubadlı həm ədəbiyyatın inkişafına, həm də cəmiyyətin mədəniyyət və maarifçilik işlərinə töhfələr vermişdir. Onun fəaliyyəti poeziya, ədəbi tənqid və mədəni istiqamətlərdə olub, Azərbaycan ədəbiyyatının və mətbuatının inkişafına təsirsiz qalmamışdır.

Həyatı. Davud Ordubadlı (Davud Rzaqulu oğlu Vahabov) 20 mart 1930-cu ildə Naxçıvan Muxtar Respublikasının Ordubad şəhərində anadan olmuşdur. Körpə yaşlarında atasını itirən Davud anası Rəna Vahabovanın və dayısının himayəsində böyümüşdür. Orta təhsilini Ordubaddakı gecə məktəbində alan Davud Vahabov 1949-cu ildə Bakı Dövlət Universitetinin (sabiq Azərbaycan Dövlət Universitetinin) Şərqşünaslıq fakültəsinə qəbul olunmuş və 1955-ci ildə oranı bitirmişdir.

İkinci Dünya müharibəsi illərində Ordubad Konserv zavodunda, sonra su təchizatı təmiri idarəsində, Ordubad İpək Kombinatında texniki katib vəzifələrində çalışmışdır. 1947-1949-cu illərdə Davud Vahabov "Ordubad işçisi" ("Ordubad fəhləsi") qəzeti redaksiyasında çapçı, sonradan isə elə orada ədəbi işçi kimi işləməyə başlamışdır.

Davudun dayısı Sadiq də şair idi, gözəl şeirlər yazırdı. Davud da hələ yeniyetmə yaşlarından dayısından təsirlənərək şeir yazmağa başlayır və doqquz yaşında ikən ilk şeirini dərc etdirir. On beş yaşından başlayaraq bilavasitə Naxçıvanda nəşr olunan dövri mətbuat orqanlarında "Vahabov Davud", "Davud Sərrac", "Davud Sərracoğlu" imzaları ilə "Ordubad işçisi", "Şərqin qapısı" qəzetlərində publisistik məqalələrlə çıxışlar edir. 1948-ci ildə Davud Ordubadlının "Ədəbiyyat qəzeti"ndə "Mənim respublikam" şeiri dərc edilmiş və bununla da ciddi ədəbi fəaliyyətə başlamışdır.

Naxçıvan, dillərdə dolaşır adın
Duzunun tərifi uzaqdan gəlir.
Nə xoşbəxt yaranmış sənin övladın!
O, sənlə fəxr edir, sənlə yüksəlir.

Ağ qızıl yetirən Noraşen düzü
Sənin sərvətinə gözəl misaldır.
Badamlı suyun içənlər, düzü –
Deyir: "Gör nə qədər gözəl diyardır".

Hələ Ordubadın dadlı meyvəsi
Toyda xonçaların zinəti olur.
Onun ağ ipəyi, gül mürəbbəsi
Hər gözəl məclisin şöhrəti olur.

Şərqin qapısına mayak kimisən
Camalın bənzəyir bir gülüstana.
Bilirəm Naxçıvan sən ta əzəldən
Yaraşıq olmusan Azərbaycana! [1]

Bakı Dövlət Universitetində təhsilini bitirənə qədər "Ordubad işçisi" qəzetində mühərrir kimi fəaliyyət göstərmiş şair maarifçi-publisist ideyalı dolğun məqalələr yazmış, Bakıda nəşr edilən "Kirpi" satirik jurnalında satirik şeirləri dərc olunmuşdur.

Davud Ordubadlı "Böhtan" (1954), "Həyat yollarında" (1955), "Gözəl həyat" (1956), "Ata yurdu" (1958), "Mənim arzum" (1960), "Səadət yolunda" (1962), "Qayğı" (1964), "Qartal" (1970), "Anama abidə" (1974) və s. əsərlər yazmış, 1954-cü ildə "Böhtan", 1955-ci ildə "Həyat yolları", 1956-cı ildə "Gözəl həyat", 1960-cı ildə "Mənim arzum", 1962-ci ildə "Səadət yolunda" adlı şeir kitabları işıq üzü görmüşdür.

1956-cı ildən ömrünün sonuna qədər Azərbaycan Yazıçılar Birliyinin üzvü olan Davud Ordubadlı 24 sentyabr 1990-cı ildə Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi fəxri adına layiq görülmüşdür.

Davud Ordubadlı 6 fevral 2011-ci ildə vəfat etmiş, Bakı şəhərində II Fəxri Xiyabanda dəfn olunmuşdur.

Yaradıcılığı. Davud Ordubadlının yaradıcılığı çoxşaxəlidir. Onun ilk şeiri 1939-cu ildə "Azərbaycan pioneri" qəzetində çap olunmuşdur. Gənc yaşlarından dövri mətbuatda davamlı olaraq şeirlər, publisistik məqalələrlə çıxış etmiş, dram əsərləri yazmışdır. Davud Ordubadlının poeziyası əslində onun kövrək, duyğusal, həssas qəlbinin səsi idi. O, həyatının sonuna qədər çox zaman ruhunda incələnən, bəzən iztirablı, bəzən qasırğalar qoparan fikirlərini, düşüncələrini ağ kağız üzərinə köçürmüş və bununla da öz məninin, şəxsiyyətinin yüksək mənəvi keyfiyyətlərə malik olduğunu büruzə vermişdir. Davud Ordubadlı sözün həqiqi mənasında əsl vətənpərvər şair idi. Çünki onun poeziyasında vətənə olan sonsuz sevgi tərənnüm olunurdu. Onun "Yurdum" adlı şeirinə diqqət edək:

Vətənimin hər parçası şirindir,
Könülaçan qışı, yazı şirindir,
Toy-mağarı, tarı, sazı şirindir,

[1] Davud Ordubadlı. Mənim respublikam. "Ədəbiyyat qəzeti", 26 may 1949, № 15 (556), s.2

Tərk eləyib qüssə, ələm yurdumu,
Mən dünyaya dəyişmərəm yurdumu.

Hər daşında bir tarix var şərəfli,
Addadığım çətin yollar şərəfli,
Ağ günlərim bir-birindən fərəhli,
Qoy tanısın bütün aləm yurdumu,
Mən dünyaya dəyişmərəm yurdumu.[1]

Burada elinə, yurduna sonsuz sevgisini bildirən şair xalq şeiri formasından məharətlə istifadə etmişdir. Ədib canlı lövhələrlə ürəkaçan mənzərələr yaratmağa nail olmuşdur. Davud Ordubadlının bu şeiri onun ana yurdunun – çox gözəl bədii ifadə vasitələri ilə vəsf etdiyi Ordubadın bənzərsiz, poetik obrazıdır. Eləcə də şairin "Ay gözəl Bakı" şeirində onun qüdrətli bir rəssam kimi Bakı şəhərinin füsunkar tablosunu yaratdığının şahidi oluruq:

Baxanda qoynuna gülür gözlərim,
Dil açır sinəmdə ürək sözlərim,
Havası əvəzsiz mavi Xəzərim.
Ömrümə şöhrətdir, a gözəl Bakı!
Bu necə zinətdir, a gözəl Bakı!

Camalın füsunkar, hüsnün qəlbaçan,
Üzlərə, gözlərə şəfəqlər saçan,
Buzovna, Novxanı, Saray, Mərdəkan,
İndi bir cənnətdir, a gözəl Bakı!
Bu necə vüsətdir, a gözəl Bakı![2]

Davud Ordubadlının poeziyasında vətənpərvərlik, yurda, el-obaya, xalqına bağlılıqla yanaşı, halal zəhmət çəkən, alın təri ilə çörək pulu qazanan, qeyrətli, namuslu, zəhmətkeş insanlara xüsusi önəm verilir, eyni zamanda başqasının hesabına yaşayan, tüfeyli həyat keçirənlər, nəsibi qızıl tac, qızıl taxt olsa belə, bədbəxt hesab edilərək poeziya silahı ilə güclü tənqid atəşinə tutulur:

O kəs ki, zəhmətə könül verməyib,
Min qara-tufana sinə gərməyib,
Alovlar aşmayıb, odlar görməyib,
İnana bilmirəm o xoşbəxt ola,
Nəsibi qızıl tac, qızıl taxt ola.

[1] Davud Ordubadlı. Yurdum. Şair ömrü. Şeirlər. – Bakı: Yazıçı, 1983, s.31
[2] Davud Ordubadlı. Ay gözəl Bakı. Şair ömrü. Şeirlər. – Bakı: Yazıçı, 1983, s.31

... O kəs ki, atıbdır arı, qeyrəti,
Almayır vecinə evi, külfəti,
Çiynində dağ yükdür arxa milləti,
İnana bilmirəm o xoşbəxt ola,
Nəsibi qızıl tac, qızıl taxt ola.[1]

Davud Ordubadlının poeziyasında xeyirxahlıq, humanistlik, imkansıza yardım etmək hissi xüsusi vurğulanır. Əslində, mənəviyyatı zəngin insanların portretini yaratmaq şairin lirik "məni"dir desək, yanılmarıq. Çünki şairin vəsf etdiyi insani keyfiyyətlər, əslində onun özünün parlaq daxili aləminin paklığını, saflığını ifadə edir. Bunu şairin "Yanan ürək" şeirində açıq-aşkar görə bilərik:

Bir korun qoluna girib gecələr,
Gətirdin məktəbdən yataqxanaya.
Ucaldın gözümdə səmalar qədər,
Alqış insanlıqda olan mənaya!

O vaxtdan neçə qış, neçə yaz keçir,
Unuda bilmirəm həmin səhnəni.
Dünya mənimkidir, dostum, elə bil,
Vəzifə başında görürəm səni.[2]

Davud Ordubadlının poeziyasında zəhmətkeş insanlara – qışın soyuğunda, yayın istisində, qarda, yağışda, boranda, tufanda xalqının, millətinin firavan yaşamasından ötrü özlərini təhlükəyə atan, təbiətin sərt tələtümlərinə qorxmadan, çəkinmədən sinə gərən insanlara fərqli hüsnü-rəğbət var. Bakı nefçilərinə həsr etdiyi "Neft daşlarında" əsərində bunun ən sadə şəkildə, lakin böyük bir məhəbbətlə tərənnümü verilmişdir:

Bir vertolyot qondu "Neft daşları"na,
Alıb cəsurları havaya qalxdı.
Dənizin qoynundan əsən sərin meh,
Dənizlə birlikdə qəlbimə axdı.
Başlar dəbilqəli, üzlər gülümsər,
Dostlar yollanırdı dincəlmək üçün,
Vertolyot uçurdu, igid neftçilər,
Sanki doğulmuşdu yüksəlmək üçün.[3]

Davud Ordubadlının zəngin mənəviyyatı və sadəliyi, dərin elmi təfəkkürü ilə seçilən yazıçı və pedaqoq Mir Cəlal Paşayevə həsr etdiyi şeirdə

[1] Davud Ordubadlı. Ləyaqət. – Bakı: Yazıçı, 1989, s.169
[2] Davud Ordubadlı. Yanan ürək. Qanadlı illər. Şeirlər. – Bakı: Yazıçı, 1980, s.69
[3] Yenə orada, s.69

ədib haqqında dolğun təsəvvür yaratmış, onun daxili aləmini poetik mənzərələrlə xarakterizə etmişdir. Mir Cəlal Paşayev qüdrətli yazıçı olmuş, birbirindən nəfis altı roman qələmə almışdır. Onun "Bir gəncin manifesti" əsəri uzun illərdən bəri yaddaşlara həkk olunmuşdur. Hər kəs əsərdəki haqsızlığa, rəzalətə, riyakarlığa məruz qalıb güclü şaxtada donub ölən on dörd yaşlı Baharın faciəsinə göz yaşı tökmüşdür.

Bütün bunlardan əlavə, Mir Cəlal Paşayev Mövlanə Füzulini çox sevmiş, onun haqqında elmi-tədqiqat əsərləri, monoqrafiyalar, məqalələr yazmışdır. Davud Ordubadlı hərəsi beş misradan ibarət, beş bəndlik bu şeirində Mir Cəlal Paşayevin məşhur "Bir gəncin manifesti"ni vurğulamış, eyni zamanda ədibin Mövlanə Füzuliyə olan intəhasız sevgisini də gözəl bir şəkildə vəsf etmişdir:

Həmişə sinifdə üzün gülürdü,
İşıqlı çöhrəndən nur süzülürdü,
Bizə məhəbbətin Arazdı, Kürdü,
Kamal dəryasından fitrətən kamal,
Müəllim Mir Cəlal, ədib Mir Cəlal!

Yazanda "Bir gəncin manifesti"ni,
Coşdu haqsızlığa qəlbinin kini,
Sənin şərbət içdi əlindən mini,
Çünki süd əmmişdin halaldan halal,
Ay Füzuli ruhlu, alim Mir Cəlal!

...Yerişin gözümün qabağındadır,
Gülüşün dostların dodağındadır,
Çox ürək adının sorağındadır,
Səndəki əqidə, səndəki amal,
Dillər əzbəridir, dillər, Mir Cəlal![1]

Davud Ordubadlı birpərdəli "Böhtan" pyesini sovetlər dönəmində – 1954-cü ildə, totalitar sovet rejimi vaxtında qələmə almış və pyesdə sosializm mühiti tərənnüm edilmişdir. Lakin müəllif kolxoz həyatının içində millimənəvi dəyərləri əsas tutmuş, sovet hakimiyyətinə yaltaqlanan bir çox "dramaturqlar" kimi milli-mənəvi dəyərlərin üstündən qara xətt çəkməmiş, əksinə, sözaltı ifadələr və obrazların dili ilə onları Azərbaycan xalqının təbiətinin əsas xüsusiyyəti olduğunu vurğulamışdır. Pyesdə kolxoz həyatından və orada baş verən hadisələrdən bəhs edilir. Davud Ordubadlı kiçikhəcmli pyesdə personajlara geniş imkanlar açmışdır. Dramaturq bu əsəri

[1] Mir Cəlal. Həyatı, mühiti, ədəbi-elmi və pedaqoji fəaliyyəti. İki cilddə, I c. – Bakı: Nurlar, 2014, s.329

qələmə alarkən, iyirmi dörd yaşında olsa da, dramaturgiya janrına peşəkarcasına yanaşmış, təsirli səhnələr, yaddaqalan xarakterlər yaratmışdır.

Məlumdur ki, dram janrı bədii ədəbiyyatın ən çətin növü sayılır, çünki bu janrda dramaturq göz önünə gətirilən hadisələri, əhvalatları qısa, yığcam, eyni zamanda tamaşaçının dərhal anlaması üçün rəvan şəkildə dialoqlarla, bəzən isə monoloqlarla təsvir etməlidir. Davud Ordubadlı məhz bu sahədə də istedadını ortaya qoymuş, personajların ifadə etdiyi dialoqlarla səhnə danışığının effektli variantlarını seçərək, pyesin mövzusunu, qayəsini, ana xəttini, ali məqsədini, ideyasını asan yolla qavramaq üçün gözəl şərait yaratmışdır.

Bu pyes qələmə alınan dövrdə mövzu ya inqilabdan, bolşeviklərin həyatından, ya da 1941-1945-ci il müharibəsindən, savaşın arxa cəbhədə törətdiyi acılardan, şəhərdə sənaye müəssisələrində çalışan əməkçi insanlardan, fəhlələrdən, kolxozçulardan, kənd zəhmətkeşlərindən bəhs etməli idi. Davud Ordubadlı da bu ənənədən kənarda qalmamış, yuxarıda qeyd olunduğu kimi, kolxoz həyatından bəhs olunan birpərdəli pyes qələmə almışdır.

1921-ci ildən Naxçıvanda fəaliyyətə başlamış "Şərq qapısı" qəzeti Azərbaycanın bir sıra ziyalılarını, o cümlədən yazıçı və şairlərini, bir sözlə, qələm sahiblərini ətrafında birləşdirmişdi. Davud Ordubadlı da hələ gənc yaşlarından müntəzəm olaraq bu qəzetdə çıxışlar etmişdir. Bu barədə Azərbaycan Yazıçılar Birliyinin üzvü, tarix üzrə fəlsəfə doktoru, dosent Vaqif Məmmədov qeyd edir ki, "1941-1945-ci illər müharibəsinin başlanması ilə həmin ədəbi qüvvələrin və bir çox digər istedadlı gənclərin səfərbər olunub orduya aparılması Naxçıvan ədəbi mühitinin zəifləməsi ilə nəticələnmişdir. Müharibədən sonrakı 1940-1950-ci illər Azərbaycan ədəbiyyatının formalaşmasında Naxçıvan ədəbi mühitindən pərvazlanmış İslam Səfərli, Adil Babayev, Yusif Axundov, Məmməd Əkbər, Tağı Axundov, Əbil Yusif, Müzəffər Nəsirli, Əvəz Sadıq, Nağı Nağıyev, Əbülfəz Bağırov, Əkbər Əkbərov, Hüseyn İbrahimov, Məmmədəli Tarverdiyev, Əbülfəz Abdullayev, Hüseyn Razi, Əliyar Yusifli, Hüseyn Əzim, Həsən Mehdiyev, Əkbər Məftun, Məmməd Əsgərov, Həsən Salmanov, Davud Ordubadlı, Həsən Fətullayev kimi şair və yazıçıların çox böyük xidmətləri olmuşdur".[1]

Onun şeirləri insanları təmizliyə, paklığa, saflığa, halal ruzi qazanmağa, vətənpərvərliyə, xalqını, millətini, torpağını intəhasız bir məhəbbətlə sevməyə, imkansızlara maddi və mənəvi yardım göstərməyə, xeyirxahlığa və insansevərliyə səsləyirdi. Onun yaradıcılığında riyakarlığa, yalana, saxtakarlığa, xainliyə, əxlaqsızlığa, paxıllığa dərin bir nifrət vardır. Şair şeirlərində özünün ləkəsiz, günahsız daxili aləmini ortaya qoyur və hər kəsi nümunəvilikdən bəhrələnməyə dəvət edirdi.

[1] Vaqif Məmmədov. Muxtariyyət dövrünün ədəbiyyatı. "Şərq qapısı", 22.05.2014

Davud Ordubadlının yaradıcılığı yetərincə tədqiq edilməmiş, haqqında çox az yazılmışdır. İnanırıq ki, bundan sonra onun zəngin külliyyatı haqqında dəyərli tədqiqat əsərləri yazılacaq, oçerklər, məqalələr dərc ediləcək, şeirlərindən nümunələr dərsliklərə salınacaqdır.

Davud Ordubadlı "Mənim arzum" (1960), "Səadət yolunda" (1962), "Qayğı" (1964), "Qartal" (1970), "Anama abidə" (şeirlər və poema) (1974), "Qanadlı illər" (1980), "Şair ömrü" (1983), "Ləyaqət" (1989), "Seçilmiş əsərləri" (1991), "Tanrı bölgüsü" (2006) və s. bir çox şeir kitablarının müəllifidir.

Azərbaycanın Əməkdar mədəniyyət işçisi Davud Ordubadlı müasirlik ruhu ilə çağlayan zəngin ədəbi irs yaratmış, gənc nəslin inkişafına böyük təsir göstərmiş, milli poeziyamızda özünəməxsus yer və məqam qazanmışdır.

ƏLİ KƏRİM
(1931-1969)

Əli Kərimin şeirlərinin birində ömür yolu ilə bağlı bir misra var: *əl boyda bir kağıza sığmaz amma bu aləm...*[1] Əslində şair ömrü istisnasız olaraq bütün hallarda bizim bildiyimiz bioqrafiya çərçivəsindən çıxır, şairlik missiyasının əsas keyfiyyətlərindən biri də elə budur. Şairin əsl bioqrafiyası onun misralarında yaşayır.

Həyatı. Əli Kərim (Əli Paşa oğlu Kərimov) 1931-ci il mart ayının 18-də Azərbaycanın Göyçay şəhərində dünyaya göz açmışdır. O, 1948-ci ildə Azərbaycan Dövlət Universitetinin Filologiya fakültəsinə daxil olmuş, bir il sonra (1949) Teatr İnstitutunun Teatrşünaslıq fakültəsinə girmiş, üçüncü kursdan təhsilini başa vurmadan Moskvaya M.Qorki adına Dünya Ədəbiyyatı İnstitutuna göndərilmiş (1951), həmin institutu 1955-ci ildə fərqlənmə diplomu ilə bitirmişdir. Moskva təhsilindən sonra taleyini "Azərbaycan" jurnalı ilə bağlayan Əli Kərim əvvəlcə ədəbi işçi, ömrünün sonuna qədər isə şeir şöbəsinin müdiri vəzifəsində çalışmışdır.

"Təzə müəllim" adlı ilk şeiri 1948-ci ildə "Azərbaycan pioneri" qəzetində dərc olunmuş, 1957-ci ildə Moskvada keçirilən tələbələrin VI Ümumdünya Festivalında "İlk simfoniya" poeması mükafata layiq görülmüşdür. "İki sevgi" ("Два влюбленных")[2] adlı ilk kitabı 1958-ci ildə Azərbaycan ədəbiyyatı dekadası münasibəti ilə Moskvada nəşr edilmişdir.

Əli Kərimin sağlığında Bakı şəhərində onun "İki sevgi" (1960), "Həmişə səfərdə" (1963) və "Qızıl qanad" (1965) adlı kitabları işıq üzü görmüşdür. Vəfatından sonra isə "Qaytar ana borcunu" (1970), "Uşaqlar və ulduzlar" (1971), "Səfərdən sonra" (1972), "Pillələr" (1978), "Цветы и хлеб" (1978), "Seçilmiş əçərləri" (I cild, 1974, II cild, 1975), "Qayıt" (1983), "Pillələr" (1987), "Seçilmiş əsərləri" (2 cilddə, 1991), "Mavi nəğmənin sahilində" (1991), "Neyləyim, şeirlə dərd söyləyirəm", (1999), "Seçilmiş əsərləri, 2 cilddə" (2013, 2014), "Nə xoşbəxt imişəm bir zaman, Allah" (2015), "Metronun yaylı qapıları" (2019) və s. əsərləri nəşr edilmişdir.

Ə.Kərimin xatirəsinə çox sayda şeirlər yazılmış, yaradıcılığı ilə bağlı monoqrafiya və məqalələr dərc edilmişdir. Onlardan Feyzi Mustafayevin "Dinmə, ey kədər" (1986), Elza Kərimin "Nə xoşbəxt imişəm" və Altay Məmmədovun "Tanıdığım Əli Kərim", Cavanşir Yusiflinin "Azərbaycan poeziyasında Əli Kərim mərhələsi" (2005), "Əli Kərim üslubu, yaxud fərdi yaradıcılıqdan ədəbiyyat tarixinə baxış" (2010), Sona Xəyalın "Əli Kərim" (2011) kitablarında şairin bədii yaradıcılığının ən müxtəlif tərəfləri araşdırılır.

[1] Əli Kərim. Seçilmiş əsərləri. İki cilddə, I c. – Bakı: Şərq-Qərb, 2013, s.65
[2] https://en.wikipedia.org/wiki/Ali_Kerim

Akademik Tofiq Hacıyevin Əli Kərim yaradıcılığı haqqında məqalələri onun üslubunu, poetik dəst-xətini öyrənmək istiqamətində mühüm rol oynamışdır.

Əli Kərim 1969-cu ilin 30 iyununda Bakıda vəfat etmiş, Göyçayda dəfn olunmuş, həmin yerdə Əli Kərim parkı salınmışdır.

Sumqayıt şəhərində Əli Kərim poeziya klubu fəaliyyət göstərir.

Yaradıcılığı. Əli Kərim haqqında fikir bildirərkən öncə onun bir şair kimi tipini müəyyənləşdirmək lazımdır. Bu olmayınca Əli Kərim adı ətrafında çox qovğalar qopacaq, onun yeri, daha doğrusu istedadı, ortaya qoyduğu əsərləri, seçilən sözü ilə açdığı yeri göstərilməyincə deyilən və yazılanlar ümumi səciyyə daşıyacaqdır. Bu oçerkdən məqsəd bu ümumi səciyyəni bir kənara qoyub, Əli Kərim adlı şairin dünyaya gətirdiyi mətləbi, sözü mümkün dərəcədə olduğu biçimdə təqdim etməkdir. Bəzən, özü də çox haqlı yerə millətin ruhunda iz salan şairlərdən misralar, bəndlər ... söylənir və "bu mətnin izaha ehtiyacı varmı"? – deyə sorulur. Vaxtilə Rolan Bart yazırdı ki, ədəbiyyatın maksimal gücü nəyəsə işarə etməklə bitir.[1] Ədəbi mətn işarə etdiyi şeyə toxuna bilmir, bu "bir barmaq ucu qədər" məsafə ədəbiyyatın, ədəbi mətnlərin mövcudluq formasıdır, həyatı və nəfəsidir. Şeirdə söz, əslində sükutdur, mətn bu sözün sükut formasıdır. "İzaha ehtiyacı olmamaq" haradasa əşyaya toxunmağa bərabərdir, ancaq məsələ təkcə bununla bitmir, bu olsa-olsa "məsələnin qoyuluşu" kimi qəbul edilə bilər. Vaxtilə Əli Kərim də "Şair" adlı şeirində deyirdi ki,

... dünyada çoxdu şair,
necə sayım onların hamısını birbəbir.
Şair var ki, ümidi qafiyəyə, vəznədir,
şair var ki, özünü başqasına bənzədir.[2]

Yaxud gənclik illərində, Moskvada Qorki adına Ədəbiyyat İnstitutunda oxuyarkən Səməd Vurğuna həsr etdiyi şeirdə deyirdi:

... Əlləri içinə alıb üzünü,
Vurğun söz deyirdi, könül yaxırdı,
şairlər unudub şairliyini,
bir oxucu kimi ona baxırdı...[3]

Əli Kərimin Nəsimiyə, Füzuliyə həsr etdiyi şeirlərdə həm obraz baxımından, həm də şairin taleyindən keçən zamanın mahiyyətinin açılması aspektindən bir sıra maraqlı məsələlər mövcuddur. Obraz məsələsi aydındır, Əli Kərim haqqında bəhs etdiyi ədəbi fiqurları qənirsiz yaradır, bu misralar

[1] Rolan Bart. Müəllifin ölümü. Cavanşir Yusifli. Bədii mətnin sirləri. – Bakı: Mütərcim, 1998, s.96

[2] Əli Kərim. Şair. Seçilmiş əsərləri. İki cilddə, I c. – Bakı: Şərq-Qərb, 2013, s.79

[3] Yenə orada, s.55

oxunduqca o şairlərin ədəbi portreti ən incə cəhətləri ilə gözümüz önündə canlanır. Qeyd edək ki, Azərbaycan poeziyasında bu işin öhdəsindən bu səviyyədə bir çox şairlər layiqincə gəlmişlər. Məmməd Arazın altmışıncı illərdə qələmə aldığı "Səba yeli" şeiri buna parlaq misal ola bilər. Bu mətndə böyük Füzulinin ürəyindəki qəm yükü, məlal, hicran, kədərlə açılan və örtülən sabah... elə ustalıqla göstərilib ki, onların bərabərində, onlara bərabər səviyyədə ikinci söz işlətməyin mümkün olmadığını düşünürsən. Yaxud Rəsul Rzanın Məhəmməd Füzuliyə həsr etdiyi və hecanın çox incə çalarlarından istifadə etməklə yazdığı poemada şairin qəribə və keşməkeşli taleyinin "keçid məqamları" ustalıqla qələmə alınıb. Bu poemada "şeir-şair" keçidləri, talenin şeir olması, yoxsa şeirin taleyə dönməsi, ikisinin bir yerdə möhnətə, nisgilə çevrilməsi sənətkarlıq baxımından zərgər dəqiqliyi ilə göstərilib. Bu poetik parçalarda Rəsul Rza poetikasının indiyə qədər araşdırmadan kənarda qalan incəlikləri mövcuddur. Bu özəllik mahiyyətcə ondan ibarətdir ki, adıçəkilən poemada obraz predmet haqqında bildiklərimizi yada salmaqla bərabər, Füzulini başqa yöndən təqdim edir. Rəsul Rza hecada elə keçidlərə yol verir ki, fikri ifadə baxımından maksimum sərbəstlik qorunub saxlanılır, yəni, deyək ki, bayatıdakı ideal sistemə yaxın, onun poetik ekvivalenti ola biləcək qədərdə nümunə yaratmağa çalışır. Bu şüurlu hərəkətin mahiyyəti odur ki, yaradılan ülgü, ölçü ... həm aid olduğu etnik-mədəni sistemin içindədir, həm də açıq sistemdir, Avropa, dünya şeiri tərzindədir. Buna görə də Rəsul Rzanın şeirində zahiri planda heç bir gərginlik yoxdur, çünki sistem "yüksək gərginlikli" poetik fiqurların alt-üst münasibətləri əsasında qurulmayıb. Məmməd Arazın yuxarıda adı çəkilən şeirində poetik gərginliyin maksimum həddində özünə sıxılan bənzətmələr bütün məkanı bürüyüb, bütün atmosfer, məkanın hər kiçik nöqtəsi belə onlardan hörülüb, onlarla nəfəs alır. Şeirin özəlliyi budur ki, bir ton aşağı danışmaq artıq eşidilməməyə bərabərdir. Səs məhz bu tonla tələffüz edilməlidir ki, kədərin yaratdığı sükutun qulaq batıran küyü içindən eşidilə bilsin. Əli Kərimin şeirində zaman tutulub saxlanılıb, dondurulub, bir nöqtəyə yığılıb, daha doğrusu, bütün perspektiv bir məqamdan təsvirlə ölçülür və belə olduğu üçündür ki, dinamika, hiss və duyğu axını sezilmir, hər şey bu poetik donuşluğun içinə batıb. Əli Kərimin Füzuli haqqında şeirində də bu ovqatın müəyyən cizgiləri var, ancaq burda işarələr "Səba yeli"ndə olduğu qədər sıx deyil, onlar, yəni poetik fiqur və obrazlar elə düzülüb ki, hava, onun temperaturu, iqlim, göy qurşağı, günəş, yağış... – hər şey təbii biçimindədir, burada poetik şərtilik norma daxilindədir, şeir oxunduqca sözlə predmet arasındakı məsafə kiçilir, sözün çənbəri daraldıqca, səs itir, sözlər hecalara ayrılıb yoxa çıxır və bütün bunlardan məqsəd poetik iqlimi hiss etdirməkdir. Əli Kərimdə poetik atmosfer elədir ki, diqqət daha çox göy qurşağını yaradan rənglərə, yağışın kölgədən, kölgənin yağışdan, Kürün ağac yarpağından

görünən əksinə yetirilirdi. Ancaq bu şairlərin taleyindən keçən zamanın bədii dərki mətləbini səhv eləmirəmsə, Əli Kərimdən başqa digər şairlərdə görmək mümkün deyildir. ”Şəhidliyin zirvəsi” şeirini bir də oxuyun. Bu artıq “...dünya səni qocaltdı, yaşıdın olsun deyə... ” məqamı deyildir, bu şeirdə Əli Kərim yaradıcılığının tam fərqli dövrü başlayır. Əli Kərimin ayrı-ayrı klassiklərə həsr etdiyi şeirlərdən bəhs etmək niyə önəmlidir? Məsələ belədir ki, tipi etibarı ilə Əli Kərim kimi şairlər sırf arxiv materialları, tarixi xronikadan yazanda da, öz talelərini yaradırlar, məhz şəxsi başlanğıc və yaşantıdan şeirə, yazıya dönə bilmək psixologiyası poetik sistemdə bir sıra məsələlərin taleyini bəri başdan bəlləyir. Şeirə, onun qələmə alınmasına səbəb olan şey, əslində taledən ayrılıb qələmdə oyanan hissdir, belə olduğu üçündür ki, şeirə çəkilən duyğular ilkinliyi, munisliyi və hər cür qatışıqdan xali olması ilə seçilir. Bu hisslər qarşıdakı əşyanı ayrıntılı şəkildə göstərir, cizgilər elə qabarıq alınır ki, olmaqla olmamağın sərhədi itir (... baxdım, bulağa baxdım, o yox idi elə bil). Fransız filosofu Qaston Başlyarın dediyi kimi, “Poeziya – ani metafizikadır. Yığcam şeirdə poeziya hər şeyi bir anda ifadə etməlidir – dünyanı necə görməsini və insan qəlbinin sirlərini, şəxsiyyəti və predmeti. Poeziya zamanının dalınca süründükcə həmişə həyatdan kiçik olacaq, həmişə kiçiləcək; yalnız həyatı dayandırmaqla və yalnız sevinclə əzabın ani dialektikasını yaşamaqla, poeziya həyatı ötüb keçə bilər. Buna uyğun olaraq, o hətta rabitəsiz şeylərin “bitişdiyi” halda da sinxronizmin təcəssümüdür”.[1]

Əli Kərim mətnin yuxarıda sitat verilən “sözün sükut” formasını, özünün təbirincə desək, sükutdan süzülüb gələn səsləri necə əldə edirdi? Bu cəhəti izah edə bilmək üçün 38 yaşında bu dünyadan köçənə qədər qələmə aldığı şeirləri bir neçə kateqoriyaya bölmək lazım gəlir. Əli Kərim şeirindəki intonasiya və ritm ayrıca tədqiq edilməli bir məsələdir, təkcə ona görə yox ki, istənilən orijinal şairin yaradıcılığının araşdırılması belə bir məsələni onsuz da ehtiva etməlidir. Ona görə ki, bu intonasiya və ritm o dövrün poeziyasında, fikrimizcə xüsusi bir hadisə kimi nəzərə çarpırdı. Əli Kərimin orijinallığı və bənzərsizliyi bir sıra poetik mətləblərlə yanaşı, həm də bu məsələdədir. “Günəbaxan” şeirində təsvir edilən prosesi diqqətlə izlədikdə görürük ki, şair şeiri elə “qurub” ki, hər şey var gücü ilə bir məqamın içinə can atır, bir nöqtənin içində birləşmək, oradakı burulğanın içində qərq olmaq istəyir. Bu şeirdəki “dərinliklə yüksəkliyin təkanı” misrası məhz bu ovqatın, daha doğrusu çarpışmanın nəticəsidir:

Qol saldım
məndən uzun bir günəbaxanın boynuna.

[1] Gaston Bachelard. L’Intuition de l’instant. Étude sur la Siloë de Gaston Roupnel, Paris, Stock, 1932, s.174

Durdu başım üstündə
çətir kimi.
Sürtdüm çopur sifətinə
uzun belinə əlimi, dayandım
Elə bil aran yayı rəngində
qızıl bir yuxudan oyandım.
Duydum ki
axır barmaqlarım arasından
Günəşin istisi,
işığ,
aşağı...
Duydum ki,
qalxır yerin ətri,
soyuğu,
buxarı,
yuxarı.
Günəbaxanın sifətindən qalxıb,
enib,
nöqtə-nöqtə,
Barmaqlarım isindi,
soyudu,
Onlar oldu beş qitə…[1]

Şeirdə hər şey necə deyərlər ondan başlayır ki, elə bil aran rəngində qızıl bir yuxudan oyanırsan... Günəbaxan yuxudakı gerçəkliyi oyadır, onların nəfəs alıb-verməsinə şərait yaradır. Adicə bir damarın atması, əşyaya toxunmaqla başqa bir gerçəkliyin oyanması, yavaş-yavaş hər şeyi özü də bilmədən əvəz etməsi texnoloji improvizasiya yox, mətnin qurulmasına başqa, fərqli prizmadan yanaşmaqdır. 1960-cı illərdə və daha sonralar bu üsul texniki mənada doğrudan da məkanı doldurdu, səs-söz qoşalaşması, qafiyə çarpazlaşması, hərəkətin paralelliyi və kəsişməsi ... kimi yönlər eninə-boyuna işləndi, ancaq bu şeirlərin böyük əksəriyyəti verlibr formasında söz oyunundan uzağa getmədi. Çünki yeni şeir yazmaq, materiyanı görünməyən bucaqlardan oyatmaq heç də adi texniki məsələ deyildir. ”Günəbaxan” şeirində necə deyərlər, “bütün oyunlar” şeirdə yeni mətləbi doğmaqla, onu fərqli, maksimum orijinal biçimdə təqdim etməklə bağlıdır. Füzulinin “kim nə miqdar olsa əhlin eylər ol miqdar söz” kəlamını yadda saxlayıb şeirimizin 60-cı illərdən bu günə qədər keçdiyi yolu araşdırsaq, şahidi olarıq ki, ən yaxşı şeir mətnində müəllifin (onun biliyi, talantı, bədii dünyagörüşü, ədəbi

[1] Əli Kərim. Günəbaxan. Seçilmiş əsərləri. İki cilddə, I c. – Bakı: Şərq-Qərb, 2013, s.173

hazırlığı...) forma ilə münasibətləri çox nadir hallarda şeir mətninin xeyrinə həll edilir. Bəzən ritm, intonasiya o qədər orijinal, o qədər fərqli olur ki, mətndə ən ağır və sanballı mətləbi belə qəzaya uğradır, əslində intonasiyanın özü şeir kimi oxunur və bu zaman biz nəyin çözülməsinin fərqində olmuruq. "Günəbaxan" şeirində aşağı-yuxarı hərəkətlərin bir nöqtədə kəsişməsi və mətndə qurulan burulğanda qərq olması fərqli bir intonasiya yaradır. Bu intonasiya tipi etibarı ilə Azərbaycan sərbəstində Əli Kərimin açdığı yoldur.

Yaxud "Babəkin qolları" şeiri. Burada bədii mətn necə deyərlər "özünü qapayan", bitməsi, qurtarması, əzbərlənməsi üstündə təkid edən bir sistem yox, "sonsuzluğa açılan sonsuzluq"[1] kimi çıxış edir. Sistem elə qurulur ki, deklamasiya, əzbərlənmək, yadda qalmaq stixiyası ölür, yerini sonsuz sayda müstəvilərin – fikir, məna müstəvilərinin eyni zamanda bir-biri ilə kəsişməsinə verir. Sistem elə qurulub ki, hər misra qurtardıqdan, oxunub başa çatdıqdan sonra yeni şeir başlayır: qan rəngli bir araba, Şərq boyda bir xaraba... Bütün bunların hər biri təzə sətirdən başlayan şeirlərdir. Əli Kərim poeziyası tapılan detalın simvollaşdırılması ilə bitmir, yaxud başlamır. Babəkin qolları – sivmol deyil – bitib-tükənməyən bir metaforadır, elə bir metafora ki, semantik enerjisi etibarilə xalqın, millətin həyatını, taleyini, azadlıq uğrunda savaşını... sonsuz nəsnələri az qala hər bir dövrün musiqi yaddaşında həkk edilən polifonik ladları ilə canlandırır. Babəkin qolları ... məhz şeir fiziki biçimdə başa çatdıqdan sonra, necə deyərlər, "vuruşmağa" yollanır. Bu detalın poetik funksiyası – indiyə qədər qədim qalaların altında sirr kimi yatan nəsnələri, tarixi yaddaşa ilişib qalan və heç bir təsadüfdə yada düşməyən mənzərələri və mətləbləri canlandırmaqdır. Bu üsulla əslində Əli Kərim simvola varmırdı, simvollar üzərində dayanıb, nəfəs dərib nəsə qurub-yaratmırdı, bütün bunlardan hiss olunmayan bir jestlə vaz keçir, bütün diqqətini bədii mətləbi göstərməyə sərf edirdi. Babəkdən yazanda əsas elementi seçib, ayırıb... metaforalaşdırırdı. Xətaiyə həsr etdiyi şeirdə at, kişnərti, qılınc... şeirin ümumi havası içində sərbəst şəkildə süzüb gedən, mənalanan, vaxt modusu dəyişdikcə dəyişən, simvola çatanda qəribə cəldliklə dar döngələrdən burulub qaçan metafora elementləridir. Əli Kərim şeirini simvollardan "qaçırdan" çoxdillilikdir. Bu poeziyada poetik mətləb bir neçə dilin qarışığında deyil, qovuşuğunda ifadə olunur. Bu dillər gah vahid simfoniya şəklində, gah ayrıca dilə gəlir, səslənir, bu dillər mütaliə olunduqca, zaman keçdikcə, onlara uyğun gələn hadisələr baş verdikcə açılır. Bu hadisə, yəni polifoniya Əli Kərim şeirində sadəcə bir poetik ünsür, yaxud bu kimi ünsürləri birləşdirən "müxtəlif səs tezlikləri" kimi başa düşülməməlidir. Əli Kərim poetikasında polifoniyanın daha dərin mənası var. Əli Kərim şeirində, onun poetikasında polifoniya şeirə ənənəvi münasibətin

[1] Rolan Bart. Müəllifin ölümü. C.Yusifli. Bədii mətnin sirləri. – Bakı: Mütərcim, 1998, s.95

kökündən dəyişdirilməsi anlamına gəlir, yəni şeir bir bütöv struktur kimi müxtəlif "səs ucalığına və səs tezliyinə" malik olan hücrə və ya hüceyrələrdən hörülür – bu hücrələr poetik hərəkətin gedişində, hansı məqamdasa baş verən çevrilmə prosesini əks etdirir. Poetik mövqe hiss edilmədən dəyişir, transformasiyaya uğrayır. Şeirin mətni, bu mətni idarə eləyən intonasiya modeli, bu modellərin bir-birinə münasibəti elə qurulur ki, deyək ki, "Babəkin qolları" şeirində ani olaraq müəllif də qəhrəmana – Babəkə çevrilir, Babəkin sifətlərinin xatırlanmadığı, onun apardığı azadlıq mübarizəsinin tarixinə heç bir ekskurs edilmədən müəllifin də bir göz qırpımında qəhrəmana çevrilməsi inandırıcı görünməyə bilər. Ancaq nəzərə almaq lazımdır ki, bu – adi, hamının öyrəşdiyi, haradasa dilinin əzbəri olan bir mətn parçası deyildir, burada şüurlu olaraq "kəsilən", doğranan yerlər xüsusi semantik-maqnit sahəsi ilə tutulmuşdur – müxtəlif, həm də qeyri-adi çalarda verilən meta-foraların yaratdığı görüntü (qan rəngli bir arabada, Şərq boyda bir xarabada, döyə-döyə, söyə-söyə, hamıya körk olsun deyə...) yuxarıda xatırlatdığımız çevrilmənin əyaniləşməsinə xidmət edən semantik sahə-cazibə məkanı yaradır.

Bu məqamda irəli sürdüyümüz ideyanı (bizə belə gəlir ki, müəllifin də bir göz qırpımında qəhrəmana çevrilmə zərurətini məhz poetik mətləbin əsaslandığı müxtəlif dillərin, bir-birini tamamlayan və inkar edən dillərin hansı virtual məkandasa qovuşması şərtləndirir...) izah etmək məqsədilə "Mətn içində mətn" termini işlətmək istərdik. Mətn içində mətn, yaxud intertekst nə deməkdir? Bu hər şeydən öncə XX əsrdə, ondan da əvvəl barokko mədəniyyət tipində bədii mətnin hiperritorik quruluşudur və məna etibarı ilə əsas mətnin əsərin məzmununu təşkil edən başqa mətnləri də çevrələməsini bildirir. Əsas mətnin digər paralel mətnlərlə konfliktə girməsi daxili və xarici mətn sərhəddində illüziyadan vaz keçərək reallığı parlaq şəkildə əks etdirmək oyunu başlayır. Oyunun belə qızğınlıqla getməsinin səbəbi isə XX əsr mədəniyyətində illüziya ilə reallıq arasındakı seçilən sərhəddin artıq aradan götürülməsi ilə bağlıdır.

***

Əli Kərimin poetikası bir çox cəhətdən diqqətəlayiqdir, bir faktı da qeyd edək: Əli Kərim poeziyasını təkcə "yenilikçilik" modeli ilə izah etməyə çalışmaq elm üçün ciddi qənaətlər əldə etməyə heç nə vermir. Çünki "yenilikçi" adını dövriyyəyə buraxdıqdan sonra bu ifadənin arxasında nəyin dayandığını sübut etmək tələb edilir. Və "sübut" etdikdən sonra "məlum olur ki", bu hadisə əslində yaddaşın təzələnməyindən başqa bir şey deyilmiş (bu mənada professor Tofiq Hacıyevin Əli Kərim poetikası üzrə müşahidələri maraq doğurur: "Ədəbiyyatda novatorluq – bədii təfəkkürün müasir mühitlə, mədəni-zehni səviyyə ilə ahəngdarlığıdır, ictimai-sosioloji tələbatla, dəb-

zövq çağırışı ilə zaman-zaman yeniləşməsidir. Bu, bədii əsərin janrı, üslubu, obrazlar sistemi, kompozisiya-tərkib elementləri ilə yanaşı və bəlkə də birinci növbədə, dilində üzə çıxır. Ə.Kərimin dil yeniliyinin özündə bir orijinallıq var: başqalarında dil yeniliyi əksərən leksikondan başlayıb təşbeh sisteminə keçir və sonra da bədii-fərdi nitqin bütün künc-bucaqlarını əhatə edir. Bunda isə novatorluq birbaşa təşbeh sistemindən start götürür, sonra sintaksisi fəth edir və buradan da asanlıqla bütün nitqi ələ alır: ona görə asanlıqla ki, sintaksis nitqin bütün elementlərini özündə birləşdirən və fikrin gerçəkliyini reallaşdıran, ünsiyyəti (sənətkarla oxucu arasında bədii-estetik əlaqəni) təmin edən sahədir. Məhz buradan (sintaksisdən) bədii nitqin bütün qatlarına damarlar yayılır".[1]

Bizə belə gəlir ki, bu hadisəni izah etməyin alternativ yolu yuxarıda adını çəkdiyimiz "mətn içində mətn" və ya "mətnlərin bəhsləşməsi" hadisəsidir. Doğrudan da, Əli Kərimin orijinallığını onun Füzuli, Nəsimi, Xətai, Səməd Vurğun, Rəsul Rza, N.Həsənzadə və başqaları ilə müqayisədə, adını çəkdiyimiz və çəkmədiyimiz söz ustadlarından nə qədər "irəli" getməsi ilə (hətta nəyi, hansı yenilikləri gətirməsi, sözün yaddaşını necə təzələməsi və sair və ilaxır) izaha çalışmaq nonsensdir, perspektivsizdir, qeyri-elmidir. Ədəbi proses arasıkəsilməz, daim davam edən, mətnlər yaradan, bunları, necə deyərlər, sonsuz sayda tirajlayan, etnik-mədəni sistemə uyğunlaşdıran bir davamlılıqdır; etnik-mədəni sistemdə, sözün estetik yaddaş ərazisində bədii mətnlər elə-belə yaranmır, onların bir-birinə paradiqmatik və sintaqmatik münasibəti, bu mətnlərin arasıkəsilmədən yaddaş ərazisində bir-birləri ilə çarpazlaşması, səsləşməsi, konfliktə girməsi prosesi gedir. Bu prosesin getdiyi sərhəddə baş alıb gedən söz oyunu, yaddaş qovğası özünəməxsus bir qanunauyğunluğu və sistemi formalaşdırır. Bu məntiqlə çıxış etdikdə bəzən biz çaşırıq, məsələn, Əli Kərimin ona necə deyərlər "doğma" olan mətnlərlə ünsiyyətini axtaranda keçmişdən yox, ultra-müasir dövrdən başlayırıq. Bu məqamda zahiri oxşarlıq daxili, batini səsləşməni üstələyir.

Əli Kərimin bütün yaradıcı gücü, belə demək mümkündürsə, yeni "üslub formatı" yaratmağa hesablanmışdı, bunun mahiyyəti ondan ibarətdir ki, üslub "forma və məzmunun fəlsəfi mahiyyəti" kimi yaddaşına yığılan heç bir elementdən sərf-nəzər etmir, saf-çürük etmə əməliyyatını aparmaq niyyətində deyildir, özünü elə aparır ki, hətta üslub olmaqdan yorulmuşdur, ancaq vəziyyət qəfildən "dəyişir", yaddaşa yığılan bütün informasiya selinə qarşı ironiya çıxış yolu kimi meydana çıxır. Bu ovqat bütövlükdə sintaktik struktura nüfuz edir, dildə süni axıcılığın yolunu kəsir, dilin içində dil, üslubun içində üslub yaradır. Azərbaycan poeziyasında Əli Kərimin təsbit

[1] Tofiq Hacıyev. "Yenilikçi poeziya". Əli Kərim. "Qayıt" şeirlər kitabına ön söz. – Bakı: Yazıçı, 1983, s.12

etdiyi bu üslub qəlibi sonradan, çağdaş poeziyanın axtarışları ilə daha da zənginləşdi, aparıcı istiqamətə döndü.

Əli Kərimin "Füzuli" şeirində bambaşqa bir mənzərənin və dünya-duyumun şahidi oluruq. Əli Kərimin şeirində geniş planda verilən fərqli yön öz inkişaf başlanğıcını Səməd Vurğunun bir misrasından götürür: "... asiman dolandı şikayətindən". Ancaq bu "başlanğıc nöqtə" o məqama qədər inkişaf etdirilir ki, nəticədə əşya və predmetlər arasındakı münasibətlər dəyişir, Füzuli haqqında monoloq şaquli bucaq altında kəsilir, müəyyən məqamlarda yaranıb-formalaşan "dillər" cərgəsi gah ayrılıb, gah da birləşib "danışır", "dövran və Füzuli" paralelizmi bərabərlik işarəsinə çevrilir, Səməd Vurğundakı "mən bütün dünya haqqında danışıram", "mən bütün kainatı ifadə edirəm" motivi Əli Kərimdə "dünya, dövran... məndən danışır" şəklinə düşür.

Dünya səni qocaltdı yaşıdın olsun deyə
Gömüldü dərdin yerə, ucaldı ahın göyə.
Dərdə şərik-dərd özü, sükut-suala cavab.
Qranit dağlar belə, gətirməzdi buna tab.
Füzuli, o nə dövran!... - Görsələr yanır insan
Yanana od verdilər.
Füzuli, o nə kədər!
Görsələr donur insan,
Donana buz verdilər...
... Dünya səni qocaltdı -
Yaşıdın olsun deyə...[1]

Bu – Əli Kərimin göstərmək, cilvələndirmək istədiyi fikrin, prosesin hələ müəyyən detallarıdır. Təsvir də öz funksiyasını dəyişdirir, predmetdən yan keçərək digər fərqli nəsnələrin virtual obrazlarını faktlaşdırır, poetik sxem başlanğıcda verilən görüntünü köklü şəkildə dəyişdirir. Həmin ana qədər Səməd Vurğun şeirində böyük istedadla ifadə edilən məqamlar sadəcə ön söz, ekspozisiya elementi kimi boy verir, sıraya düzülür.

Əli Kərim, yuxarıda qeyd etdiyimiz kimi, xüsusi baxış bucağının altından görüb müşahidə elədiyi detalları simvollaşdırmırdı, əksinə bütün enerjisini cəmləyib məhz simvollaşdırmadan və bu əsnada meydana çıxa bilən didaktik modellərdən qaçırdı, onlardan yaxa qurtarmaq istəyirdi. Fikir verin:

Baxdım,
bulağa baxdım.
O, yox idi elə bil,
(Bəlkə elə su deyil?)

[1] Əli Kərim. Füzuli. Seçilmiş əsərləri. İki cilddə, I c. – Bakı: Şərq-Qərb, 2013, s.48

O , duruydu, o, safdı,
Ən ülvi bir arzu tək.
Özü görünmürdü ki,
Dibindəki
Rəngarəng
Əfsanəni tez görək...[1]

Bulaq haqqında belə bir orijinal baxış bucağından şeir yazmaq kimin ağlına gələ bilər. Məsələ bunda deyil. Mətndə, mətnin daxili strukturunda iki sadə əkslik, oppozisiya mövcuddur: görünmək – görünməmək; şeirdə iki zidd anlayışın poetik məntiqin qanunlarına uyğun olaraq bir-birini "şərtləndirməsi", doğurması tezis kimi irəli sürülür. Əli Kərim mövzunun "həll üsulunu" hamıya tanış olan və ya olmayan "poetik məntiq" əsasında deyil, Füzuli kimi sözün öz içində, onu adi insan baxışının tuta bilmədiyi tədqiqat, incələmək metodu ilə, fəhmi işə salmaqla tapmağa çalışırdı. Alınan şey – sintez – əslində heç gözlənilən "həll üsulu" da deyildi, yaşandıqca, zaman keçdikcə şaxələnən bir mövzuya, dünyanı bütün qaranlıq nöqtələri ilə tutmaq məqsədi daşıyan araşdırmaya çevrilirdi.

Əli Kərimin bütün simvol və işarələri öz ilkin funksiyalarından "azdıraraq" hər şeyi – bütün cəhdləri sözün daxilində yuvalanan nəhəng enerjini fəth etməyə sərf etməsi... qəribə, ilk baxışdan anlaşılmayan qənaətlərin meydana çıxmasına səbəb olurdu; yorulanda sözün yamacına uzanmaq (...yorulmuşdum... uzandım bu sözün yamacına başımı söykəyərək...)... Əli Kərimin bu tipli şeirləri ("Azmaq istəyirəm", "Alman əsir", "Çətin görüş", "Günəbaxan", "Tolstoyvari", "Göydəmir at", "Van-Qoqun günəşi", "Uşaq", "Fraqmentlər", "Vəsiyyət", "Nə xoşbəxt imişəm.." və s.) konkret dövr çərəyində (60-cı illərdə) dəbi-fəlsəfi düşüncədə gəzib-dolaşan, dövr edən, o dövr yazıçı və şairlərin əsərlərində müəyyən bucaq daxilində ifadə olunan, dünyanı vahid bir məna kimi çevrələməyə çalışan fikir və düşüncə axınının ağır yükü altında formalaşan özünəməxsus konstruksiya tipini təqdim edirdi. Burada mətnin batini ilə bağlı mistik bir məna da vardır; ölüm, həyat... haqqında əsrlərin düşüncə qatlarından çətinliklə damcılayan, sızan, bizim nişan verdiyimiz, Əli Kərimin yaşadığı dövrdə artıq bir iti (görünən-!) cərəyan kimi dövr edən təfəkkür tipi bizim mənasını, semantik ölçülərini açıqlamaq istədiyimiz bədii düşüncə konstruksiyası kimi formalaşmasaydı, xaotik burulğanda çox böyük həqiqətlər itib-batmış olardı. Bu məqamda yuxarıdakı fikri, mülahizəni açıqlamaq məqamı yetişir: istənilən bədii mətn ideal mənada düzüm və sistemdir, əsrlər boyunca konkret bir millətin təfəkküründən, etnik şüurundan süzülən işıq selinin üzərinə düşüb

[1] Əli Kərim. Baxdım. Seçilmiş əsərləri. İki cilddə, I c. – Bakı: Şərq-Qərb, 2013, s.121

sındığı güzgüdür – hər şeydən öncə dərinlik və əngəllik ölçülərində mövcud olan bir güzgü. Mətn – fəlsəfi-qneseoloji anlamda etnik şüurda, etnosun bədii düşüncəsində yığılıb qalan və zaman keçdikcə müxtəlif istiqamətlərə şüalanan və buna görə də xaotik hərəkətə təhrik edən, istiqamətləri bir düzüm daxilində konstruksiya formasına gətirən, dünyanı, gerçəkliyi ölçmə, öyrənmə alətidir. Əli Kərimin şeirlərində istənilən bədii mətn nümunəsinin vahid planını-arxitektonikasını bütün mətn boyu hiss etmək mümkündür. Burada həmin vahid planın orijinal xüsusiyyətləri vardır; tam həmişə öz hissələrini gözlə görünməsə də, xəyala gələn, həmişə özünü hiss etdirən bir müstəvinin üzərinə "dağıdır" – həmin müstəvi üzərində bu hissələr daxili, üzvi bağlılıqlarını dərhal (bir-birini məna, semantika etibarilə tanıyaraq) bərpa edir, xəyali müstəvilər üzərinə "dağılan" hissələr tamı hamısı vahid bir sehrli kristalın bətnində olan ən müxtəlif variantlarda bərpa edir, quraşdırır, elə variantlar alınır ki, dağılma ilə birləşmə hadisələrinin sürətlə bir-birinə dolanması baş verir, bu proses həmin o xəyali müstəvinin "əyilməsinə", gözün tuta bildiyi bucaq altında deformasiyaya uğramasına qədər davam edir. Kompozisiya elementi nə qədər ciddi olsa da, arxitektonika ilə müqayisədə daha sərbəstdir. Əli Kərim müasirlərinin və ondan daha sonra 70, 80 və daha çox 90-cı illərdə poeziyaya gələn şairlərdən fərqli olaraq nə qədər gözlənilməz və cəsarətli risklərə-eksperimentlərə gedirdisə də, hər şeydən əvvəl sözün cazibə qüvvəsi ilə yadda qalırdı, sözün – realiyadan, ona məxsus təbii mühitdən ayrılmasına yol vermirdi. Bütün eksperimentlər artıq baş vermiş bir hadisənin cövhəri kimi işlənir, tətbiq olunurdu.

Otuzdan çox yaşamışam...
Göyçayda,
Bakıda,
Moskvada,
Tiflisdə,
Arabada, təyyarədə,
Gah qum üstdə,
Gah dənizdə.
Sevgi toranında
Mühazirə salonunda.
Sevgilimlə bir-birimizə deyəcəyimiz
İki söz arasında.
Xəstə olarkən
Həkimin mənə etdiyi çarasında
Bəzən baş tutmayan şeirimin
Dağılmış divarlarının xarabasında

Bəzən söz yarışında.
Bəzən ölüm sözünün polyar qışında...[1]

Bu tipli şeirlər ədəbi təcrübədə eksperiment olmasına görə deyil, məhz poeziyada primitiv, birölçülü düşüncə tərzini aradan qaldırmasına görə qəbul edilmir, sözün hərfi mənasında tənqid atəşinə tutulurdu. Bütün bunların, o zamanlar üçün real olan hadisələrin gerçək mənzərəsi ilə bir daha tanış olmaq üçün böyük şair, insanları şeir, poeziya vasitəsi ilə dünyanı bir az başqa cür görməyə, seyr etməyə çağıran Rəsul Rzanın "Qayğı sözü və Qayğı özü" məqaləsini oxumaq lazımdır. Bədii təfəkkür və düşüncədə, dünyanın poetik dərkində sözün həqiqi mənasında o zamana qədər analoqu olmayan bir hadisə baş vermişdi; həmin nümunələrdə "Mirzə Fətəli Axundov işi" yeni rakursda, tamamilə yeni bir şəraitdə icra edilirdi. Burada obrazlı şəkildə danışmaqdan vaz keçsək, deyə bilərik ki, bədii düşüncə predmetdən-predmetə adlamırdı, köhnə çərçivə içində mövcud komponentlərin düzümünü dəyişməklə məşğul olmurdu, çərçivənin özünü vurub dağıdırdı, bədii düşüncənin axarını indiyə kimi tanımadığı istiqamətə tuşlayırdı. Və iki kəlmə ilə deyək ki, bədii təfəkkürdə belə bir hadisə – çərçivənin birdən-birə vurulub dağılması (elə bil hava çatmır, yaxud köhnə havadan bezirsən...) zaman-zaman Azərbaycan poeziyasında həmişə baş vermişdir – Füzulidən tutmuş bu günümüzə qədər. Sıçrayışlarla inkişaf ətrafa tam təsir göstərməyə macal tapmadan sürətlə öz içində-açdığı yolda maksimum parlaqlığa yetişməklə müşayiət edilmişdir. Təsir mexanizmi həmin hadisə özünü lokal şəraitdə "tükətdikdən" sonra işə düşür. Səməd Vurğun haqqında xatirələrin birində – şairin qızının yazdığı xatirədə bu mənada çox önəmli bir cəhət vardır: Səməd Vurğun rus şairlərinin məclisində şeir oxuyur və danışırdı, romantika haqqında şairin söhbəti hamını sehrləmişdi. Həmin xatirədə səslənən bir fikir xüsusi ilə diqqəti çəkir – son zamanlar Səməd Vurğun sovet poeziyasını elə bir yüksəkliyə qaldırmışdı ki, bəzən özü də bu yüksəkliyə qalxa bilmirdi. Bu, epitetdən, məcazdan...çox, bütün Azərbaycan poeziyasını səciyyələndirən bir metaforadır – Azərbaycan poeziyasında həmişə heç kəsin yetişə bilmədiyi, sanki seyr etmək üçün ucalan yüksəkliklər mövcuddur.

Əli Kərimin poeziyasına xas olan özəlliklərdən biri də budur ki, o, doğrudan da, var gücü ilə ümumi olan şeylərdən seçilib ayrılırdı, qaçıb gizlənirdi, yazdığı şeirlərlə özünə elə bir mövqe seçirdi ki, buradan heç kəsə görünməsin, bura elə bir yer, elə bir məkan olsun ki, bütün dünya ovuc içində olduğu kimi görünsün. Bəlkə elə bütün bunları nəzərə aldığı üçündür ki, Ramiz Rövşən Əli Kərim haqqında belə bir ifadə işlətmişdi: "o, Azərbaycan poeziyasında müəyyən ənənələri ortaq məxrəcə gətirən bir şairdir". Ola bilsin

[1] Əli Kərim. Fraqmentlər. Seçilmiş əsərləri. İki cilddə, I c. – Bakı: Şərq-Qərb, 2013, s.32

ki, ifadə düzgün tapılmayıb, amma bu son dərəcə dəqiq bir müşahidədir, Əli Kərim, doğrudan da, Azərbaycan poeziyasında elə bir iş görür, elə bir missiyanı yerinə yetirirdi ki, onu, necə deyərlər, əl atıb bir nöqtədə tutmaq olmurdu, indiyə qədər müəyyən sahələr, cazibə sahələri içində donub qalmış kəsişmə məqamlarında özünəməxsus situasiyalar yaradırdı, Füzulini təzədən kəşf edir, Babəkin nə tarixdən, nə də poeziyadan görünməyən cizgilərini rəsm edirdi, Nəsimi haqqında bolluca danışılan, yazılan bir dövrdə onun əzəmətli obrazını yaradırdı. "Şəhidliyin zirvəsi" şeirində Əli Kərimin mənalar arasında yaratdığı "döyüş səhnələri" insanı üfüqdən o tərəflərə boylanmağa məcbur edirdi, müqayisələri, artıq söz və kəlmələri yığışdıra-yığışdıra bütün dünyanın sükuta baş qoyub ağladığı bir məqama yetişirdi. Bu şeirdə pafos ümumiyyətlə yoxdur, misralar arasında məna keçidləri ümumi ovqatı dəyişdirə-dəyişdirə, inkişaf etdirə-etdirə üzü sonsuzluğa aparırdı. "Şəhidliyin zirvəsi" şeirində bir neçə məna istiqaməti var: biz bu hissələri xəyalən kontekstlərə, yaxud semantik müstəvilərə də bölə bilərik. Şeirin başlanğıc hissəsində tağından, bünövrəsindən qopub sökülən bir orqanizm müşayiət edilir, bu, şübhəsiz ki, şahanə bir şeir parçasına bənzəyir: gözümüzün qarşısında yaranıb pərvazlanan bu şeir misra-misra, nöqtə-nöqtə sökülür, sinəyə, varaqların, yarpaqların üstünə göz yaşı kimi tökülür, istəsəniz bu şeirdə, bu son dərəcə gözəl, ağılçaşdıran kətanın üstündə qüssəli payızla yol gəlsə də, hələ çatıb yetişməyən baharın bir-birinə qarışan ovqatlarının rəsmini "görə" bilərsiniz.

Altı yüz ildir idrak
çırpınır pələng kimi,
Nərə çəkir, ağlayır,
tapa bilmir ki, bilmir –
o bir sirr-xudanı.
Təpədən dırnağadək
soyalar bir adamı;
Necə ola dinməsin,
Böyük əqidəsindən
Bir misralıq enməsin.
Gözündən bir nöqtə yaş
Sinəsinə düşməsin.
Qaşları çatılmasın
bir xırda vergül qədər,
Diri-diri soyulsun,
Əqidədən keçməsin...[1]

[1] Əli Kərim. Şəhidliyin zirvəsi. Seçilmiş əsərləri. İki cilddə, I c. – Bakı: Şərq-Qərb, 2013, s.147

Fikir verin: bütün misralar inkarla verilsə də, əslində, yuxarıda dediyimiz kimi hər şey tağından ayrılır, dünyanın səhmanı pozulur, xaos-kosmos düzümü və münasibəti dəyişir, xəncərlər, tiyələr – bütün kəsici və doğrayıcı alətlər işə düşür, itilənir, can ruhdan ayrılıb ayaqlar altına düşür, üfüqlərə çilənən qan günəşin təsiri altında şaxtada donurmuş kimi buz bağlayır, damardan qan püskürür...

Və burada başqa bir məqam da diqqəti çəkir; Əli Kərim Nəsimi obrazında, onun diri-diri soyulub "günəşə sərildiyi" səhnədə daha çox durğu işarələrindən istifadə edir; bu şeirdə insan, daha doğrusu, onun əqidəsi kamil, bütün strukturu boyu boy atıb ucalan, dünya ilə tən duran... şeirə bənzədilir. Böyük əqidəsindən bir misralıq enməyən, sərpa soyulan insan əslində şeirdir, poeziyanı ilahi mənasında özündə cəmləyən bir strukturdur. Burada necə deyərlər "pərdə, kadr arxasında" ikinci bir səhnə də "göstərilir": dünya şeir kimi dağılır, şah misralar tağından ayrılıb düşür, nöqtələr göz yaşına dönüb sinəni döyəcləyir, bu boyda dəhşətin qabağında qaşlar vergül kimi çatılır... Bu şeirdəki semantik çoxplanlılıq, ilkin vəziyyətdə bir-birinə geydirilən müstəvilərin yavaş-yavaş bir-birindən ayrılması, buna paralel olaraq ümumiyyətlə Əli Kərim yaradıcılığına xas olan dünyanın mənəvi tarixçəsini sadəcə bir "pritça formasında" izlənilməsi müstəvisində beşikdən məzara kimi ən səciyyəvi cizgilərin canlandırılması... seyr edilir. Bu mənzərə seyr edildikcə dünya şeir düzümünə düşür və... dağılır.

Bütün bu cəhətlər Əli Kərim yaradıcılığının poetik sistemində adekvat əksini tapıb. Hər şeydən öncə qafiyə sistemində. Harmoniya ziddiyyət doğurur. Şeirin, poetik mətnin daxilində misraların qafiyələnməsində də elə bu prinsip və düzüm izlənilir. Adıçəkilən şeirdə səadət, həsrət, qayıtmaq, ayıltmaq... kimi qafiyələr mətnin ümumi ovqatında hüznlü səsin güclə eşidilməsini şərtləndirir.

Əli Kərimdə yeni sözlər və yeni qafiyələr, daha doğrusu, mövcud qafiyələnmə prinsipinə başqa, daha orijinal yöndən yanaşma mövcuddur. Qafiyə bir növ "yatmış mətni" oyatmağa hesablanır, daha doğrusu, sözlərin içindəki enerji başqa nisbətdə ortaya çıxır, məsələn:

Həqiqət it şəklindəsə –
Yalan ceyran şəklində,
Olma iti madonna tək
Sevəcəyim şəkkində...[1]

Əli Kərim müharibə haqqında ən gözəl şeirlərin müəllifidir. Onun "Coğrafiya müəlliminin şəhadət barmağı haqqında ballada" şeiri bu mövzunun poetik həllinə parlaq nümunə ola bilər.

[1] Əli Kərim. Məhəmməd Hadiyə. Seçilmiş əsərləri. İki cilddə, I c. – Bakı: Şərq-Qərb, 2013, s.158

“Heykəl və heykəlin qardaşı” poeması da bu baxımdan ən səciyyəvi müharibə ədəbiyyatı nümunəsidir. Poemada həm Əli Kərim üslubunun özəllikləri, həm də müharibə haqqında, müharibənin insan taleyinə vurduğu sağalmaz yaralar haqqında poetik düşüncəsi qabarıq şəkildə “oxunur”. Poemada mövzuya, vəziyyət və şəraitə uyğun anjambmanlardan istifadə epik planın genişliyini və sərrastlığını nişan verir. Onun “İki simfoniya”, “Üçüncü atlı”, “O mənə danışdı ki...”, “Göylər adamının himni”, uşaqlar üçün qələmə aldığı “Uşaqların loğmanı”, “Paşa, ulduzlar və uşaqlar”, “Tənbəl ayı balası”, “Qız və kəpənək” və sair poemaları epik şeiri yeni çalarla, gediş və intonasiya ilə zənginləşdirmişdir. Poemalarında epik təfəkkürün imkanları açılır, epik səciyyələndirmə yerindədir. “Üçüncü atlı” poemasını gənc yaşlarında yazmasına baxmayaraq (1958), rus poeziyası, şair və zəmanə, şair və tale kimi məsələlər haqqında təkrarsız metaforik dillə söhbət açmışdır.

Şairin ölümünə yaxın qələmə aldığı “Mavi nəğmə sahilində” povesti (1964) də müharibənin silinməz yaralarına həsr edilib. Müharibə mövzusu bununla da bitmir. Əli Kərim Lev Tolstoyun “Sevastopol hekayələri” haqqında böyük bir məqalə qələmə alıb. Tələbə həyatından bəhs edən “Pillələr” romanında insan xarakteri metaforik-şərti üslub müstəvisində açılır. Onun nəsr əsərləri “poetik nəsr” kateqoriyasına aid olmaqla yaradıcılığında önəmli yer tutur, bu əsərlərdə şairin atası, ailəsi, özü haqqında bilgilər də yer almışdır. Əli Kərim həm şeirlərində, həm nəsr və dram əsərlərində insanı ən kritik – böhranlı məqamda təsvir edirdi. “Atamın xatirəsi” şeiri bu mənada çox önəmlidir. Azərbaycan poeziyasında “ölümündən utanan ata” obrazı ilk dəfə Əli Kərimin yaradıcılığında boy göstərib. “Mavi nəğmə sahilində” povestində bu ata rayondakı müəssisələrə faytonla çörək daşıyır. Evinə çataçatda faytonu aralıda saxlayıb qapılarını taybatay açır ki, həyətə çörək qoxusu ilə girməsin. Onun “Gül və çörək” şeirində bu dərd ən son hıçqırıq ladında təsvir edilib. *O zaman gül yada düşmürdü/// Gülü çörək yemişdi// gülü çörək məhv etmişdi...*

Əli Kərim hər şeirində, hər əsərində “sarı simə” toxuna bilirdi... Məmməd Araz demişkən, yazdığı şeirlərdə mövzunun zirvəsini fəth etməyə cəhd göstərirdi.

BƏHMƏN VƏTƏNOĞLU
(1932-2004)

XX əsr ozan-aşıq şeirinin tanınmış simalarından olan Bəhmən Vətənoğlu heca şeirimizin ən qüdrətli nümayəndələrindən biri kimi ədəbiyyat tariximizdə xüsusi mövqeyə malikdir. Onun müxtəlif mövzularda qələmə aldığı gəraylılar, qoşmalar, divanilər, ustadnamələr, müxəmməslər və digər formalarda yazdığı şeirləri hələ gənc yaşlarından aşıqların, xanəndələrin repertuarlarında önəmli yer tutmuş, dillər əzbəri olmuşdur.

Həyatı. Bəhmən Vətənoğlu (Bəhmən Kalış oğlu Abbasov) 1932-ci il dekabrın 31-də Kəlbəcər rayonunun Seyidlər kəndində anadan olmuşdur. Öz kəndlərində orta məktəbi bitirmişdir. 1951-1955-ci illərdə kolxozda çalışmış, 1955-1960-cı illərdə kənd kitabxanasının müdiri işləmişdir. Bakı Dövlət Universitetinin (sabiq Azərbaycan Dövlət Universiteti) Tarix fakültəsində (1960-1965) təhsil almışdır. Əvvəlcə Lev kənd orta məktəbində müəllim (1965-1967), daha sonra Seyidlər kənd orta məktəbinin direktoru (1970-1991) vəzifəsində çalışmışdır. 1993-cü ildə Kəlbəcər rayonu erməni-rus silahlı qüvvələri tərəfindən işğal olunandan sonra Gəncə şəhərində məskunlaşmışdır. Bu illərdə (1993-2004) Kəlbəcər rayon Təhsil şöbəsində metodist işləmişdir. Bəhmən Vətənoğlu 1998-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü olmuşdur.

Bəhmən Vətənoğlu 30 sentyabr 2004-cü ildə Gəncə şəhərində vəfat etmişdir.

Yaradıcılığı. Bəhmən Vətənoğlu fitri istedad sahibi olan ilhamlı bir şair kimi, hələ çox gənc yaşlarından Kəlbəcər və ətraf bölgələrdə məşhurlaşmışdır. Poetik ruhu Kəlbəcər ədəbi mühitinin və Göyçə aşıq məktəbinin təsiri altında formalaşmış şairin şeirlərindəki təbiilik, xəlqilik, insan ovqatının ən incə nöqtələrinə toxunmaq bacarığı onun poeziyasının əsas uğurlarından idi.

Xalq arasındakı məşhurluğuna baxmayaraq, Bəhmən Vətənoğlunun mətbuata gedən yolu heç də asan olmamışdır. Onun mərkəzi mətbuat orqanlarına göndərdiyi şeirlər siyasi sistemin yaratdığı bürokratik əngəllər üzündən çox xəsisliklə işıq üzü görmüşdür. Bu da həmin şeirlərin siyasi sistemin ədəbiyyatla bağlı əsas meyar elan etdiyi sosialist-realizmi prinsipləri çərçivəsindən kənara çıxması ilə bağlı idi. Çünki şair yaradıcılığı boyu hakim ideologiyanın tələb etdiyi sosializm quruluşunun təbliği istiqamətində konyuktur qaydalara tabe olmamışdır. Onun bədii yaradıcılığının əsasını saf məhəbbətin tərənnümü, vətən gözəlliklərinin vəsfi, ictimai-sosial mühitlə bağlı tənqidi ruhlu şeirləri təşkil etmişdir.

Bəhmən Vətənoğlu bədii yaradıcılığa orta məktəb illərindən başlamışdır. "Dəyişməmişəm" adlı ilk şeiri 1958-ci ildə Kəlbəcər rayonunda çıxan "Yenilik" qəzetində işıq üzü görmüşdür.

Şairin xalq arasında sürətlə məşhurlaşmasının başlıca səbəbi onun böyük istedada, güclü ilhama sahib olması, poeziya dilinin zəngin xalq dilindən mayalanması və dərin müşahidə qabiliyyəti idi.

Bəhmən Vətənoğlunun mövzu seçimi olduqca geniş və rəngarəngdir. Azərbaycan təbiətinin təkrarsız gözəlliklərinin tərənnümü, saf sevgi duyğuları, milli düşüncə, ictimai-sosial və mənəvi-psixoloji çalarları əks etdirən şeirlər onun yaradıcılığının əsas xəttini təşkil etmişdir. Bu sırada şairin şəxsi ovqatından doğan şeirləri də müəllifə böyük uğurlar gətirmişdir.

Şairin uşaqlıq dövrünün İkinci Cahan savaşının ağır illərinə düşməsi həyatında və yaradıcılığında silinməz izlər buraxmışdır. Kasıbçılığın və ehtiyacın buz kimi soyuq üzünü görmüş şair orta məktəbi bitirəndən sonra uzun müddət iş tapa bilməmiş, ali məktəbə qəbul olunması üçün ağır məşəqqətlərə qatlanmışdır. Bütün bu maddi və mənəvi ehtiyaclar yaradıcılığının ilk illərində onun şeirlərində pessimist ruhun hakim kəsilməsinə səbəb olmuşdur:

Ay ellər, heyranam, ömür bağımın
Yarpağı saraldı, barı bəs hanı?!
Əgər varsa tənəzzülə tərəqqi,
Eylədim ömrümü yarı, bəs hanı?![1]

Bəhmən Vətənoğlu folkloru, aşıq poeziyasını hələ uşaqlıq və yeniyetməlik dövründən dərindən mənimsəmişdir. Təbii ki, şairin yaradıcılığında böyüyüb ərsəyə yetdiyi Kəlbəcər ədəbi mühitinin və Göyçə ozan-aşıq məktəbinin güclü təsiri olduğundan, ilkin dövrlərdə ədibin şeirlərinin əsas özəyini gəraylı və qoşma janrında yazdığı şeirlər təşkil etmişdir. Dirili Qurbani, Abbas Tufarqanlı, Aşıq Alı, Aşıq Ələsgər, Ağdabanlı Qurban, Aşıq Şəmşir yaradıcılığı onun poeziyasına daha güclü təsir göstərmişdir.

Bəhmən Vətənoğlunun şeirlərindəki güclü lirik-poetik axıcılıq, dilinin sadə və zənginliyi onun şeirlərinin az bir zaman içərisində ətraf bölgələrdə sürətlə yayılıb məşhurlaşmasında başlıca amil olmuşdur.

Şeirlərindəki xəlqilik, sadə deyim tərzi, zəngin dil amili şairin şeirlərinin asan qavranılmasında əsas stimul olmuşdur. Oxucu şair səmimiyyətini və bu sətirlərdə öz duyğularını daha tez görə bildiyindən onun şeirlərinin populyarlaşmasında aparıcı qüvvələrdən biri olmuşdur.

Düşkünü deyiləm dövlətin, varın,
Sadiqəm yolunda əhdin, ilqarın.
Andına, eşqinə düz olan yarın,
Yolunda yüz cəfam, cəbrim olaydı.[2]

[1] Bəhmən Vətənoğlu. Haylı-haraylı dünyam. – Bakı: UniPrint, 2012, s.96
[2] Bəhmən Vətənoğlu. Allahsız dünya. – Bakı: Gənclik, 1992, s.107

Bəhmən Vətənoğlu çox gənc yaşlarından klassik ozan-aşıq şeiri ənənələrindən gələn nəsihətamiz ruhlu şeirlərin gözəl nümunələrini yaratmışdır. Bu sırada onun klassik yazılı ədəbiyyatımızın və ozan-aşıq poeziyamızın mövzularında yazdığı şeirləri daha məşhurdur. Nəzərə alsaq ki, Azərbaycan ədəbiyyatında saya gəlməz dünyanamələr yaradılmışdır və çox nəhəng şairlərimiz öz könül pəncərəsindən bu dünyaya baxaraq ürək yanğılarını poeziyaya gətirmişlər, bu baxımdan Bəhmən Vətənoğlunun da bu mövzuda yazdığı şeirlər bu silsilənin ən qiymətli nümunələrindəndir. Şair dünyanın fani, insan oğlunun gəldi-gedər bir varlıq olduğunu dərk etdiyindən müdrik bir filosof kimi, insanı dünyanın malına-mülkünə, varına-dövlətinə, ötəri həzlərinə aldanmamağa çağırır. Onun dünyaya baxışı da sanki müdrik bir ozanın, tərki-dünya bir sufi baxışlı dərvişin giley-güzarıdır:

Dünya kimiyə kef, kimiyə dəhşət,
Bunları qanana yazığım gəlir.
Duyub düşündükcə ömrün sonunu,
İnsanam, insana yazığım gəlir.[1]

Şairin həyati müşahidələri geniş və çərçivəyə sığmazdır. O, bəşər övladını keçmişdən örnək götürməyə, dünyaya ötəri bir həzz kimi baxmamağa, səhvlərindən nəticə çıxarmağa, öz yerini və məqamını yaxşı bilməyə çağırır:

Dövran təzələdi yenə dərdimi,
Saz nədir, bilməyən tərpədir simi.
Bir ağılsız naşı qəvvaslar kimi,
Düşəndə ümmana yazığım gəlir.[2]

Bəhmən Vətənoğlu xalqın içərisində yaşayıb-yaratdığından, xalqın ruhunu, onun folklorunu, adət-ənənəsini dərindən bilirdi. Məhz xalqın həyatından gələn bu humanist çalarlar, həssas duyğular onun şeirlərinin ruhuna da hopmuşdur. Ona görə də onun şeirləri oxucuya ötəri təsir edib, keçmir. Oxucunu düşündürür, həyəcanlandırır, onu ətraf aləmə daha açıq gözlə baxmağa, səhvlərdən nəticə çıxarmağa yönləndirir.

Poeziyasına xəlqilik, dünyəvilik ruhu hakim olan şairin hər misrası, hər beyti bitkin bir atalar sözü, aforizm təsiri bağışlayır. Bir bənd şeirdə şair dərin bir məna, ibrətamiz zərb-məsəl təsiri yarada bilir:

Giley nə lazımdır vədədən, vaxtdan,
Sədəqə gözləmə taledən, baxtdan.

[1] Bəhmən Vətənoğlu. Haylı-haraylı dünyam. – Bakı: UniPrint, 2012, s.43
[2] Yenə orada, s.43

Taxtın nə vecinə sən düşdün taxtdan,
Özgəsi çıxacaq, taxta nə var ki.[1]

Bəhmən Vətənoğlu ulu ozan Dədə Qorquddan bizlərə miras qalmış sazımızın, sözümüzün ən böyük ruh daşıyıcılarından biridir. Şairin sazımız və sözümüz haqqında yazdığı çoxsaylı şeirlərdən hər biri klassik poeziya nümunəsidir. Böyük saz ifaçımız Aşıq Ədalət Nəsibova həsr etdiyi "Ədalətin sazında" qoşması telli sazımız haqqında yazılmış ən dəyərli bədii nümunələrdən biri kimi xalq arasında geniş yayılmışdır:

Əsli nalə çəkər zülfü pərişan,
Fəqan eylər Ədalətin sazında.
Kərəm çıxar alovların içindən,
Üsyan eylər Ədalətin sazında.

...Qərq eyləyər xəyallara qananı,
Bircə anda dolandırar cahanı.
Zərif tellər hər duyğusuz nadanı,
İnsan eylər Ədalətin sazında.[2]

Şairin poeziya dili olduqca şirin və yaddaqalandır. Onun şeirləri sanki dağ çayları kimi aşıb-daşır, durnagözlü bulaqlar kimi çağlayır. Onun ən böyük uğuru isə hansı mövzuda yazmasından asılı olmayaraq, az sözlə böyük məna yaratmağındadır.

Mərddən əsirgəyir öz sərvətini,
Namərdə, xəsisə mərddi, bu dünya.
Zalıma məzlumdur, məzluma zalım,
Yaman amansızdır, sərtdi, bu dünya.

... Eyş ilə işrətdi, ay Vətənoğlu,
Dərd ilə möhnətdi, ay Vətənoğlu,
Çəkməsən ləzzətdi, ay Vətənoğlu,
Çəksən özü boyda dərddi, bu dünya.[3]

Görkəmli şair, ulu sözümüzün xiridarı Məmməd Aslan Bəhmən Vətənoğlunun o illərdəki ədəbi fəaliyyətini dürüst şəkildə dəyərləndirmişdir: "Həqiqətlə gerçəklik arasında keçilməz maneələr yaradan qırmızı imperiya dövründə ədalət axtarmaq, haqqı haraylamaq, tapmayanda küskünlük bildirmək şair üçün necə fəlakət olduğunu gedər-gəlməzə birəddi göndərilənlərin ruhları bilir, bir də onların arxasınca boylananlar. Ədəbi senzuranın kəsakəs

[1] Bəhmən Vətənoğlu. Allahsız dünya. – Bakı: Gənclik, 1992, s.160
[2] Bəhmən Vətənoğlu. Haylı-haraylı dünyam. – Bakı: UniPrint, 2012, s.239-240
[3] Bəhmən Vətənoğlu. Allahsız dünya. – Bakı: Gənclik, 1992, s.202

vaxtında bir də baxardın ki, meydanda aşıq sənin bir sözünlə bu ədalətsizlik yuvasını bir qırmanclayır, bir asıb-kəsir ki, gözlülər olsun, görməsin".[1]

Ötən əsrin 50-ci illərinin əvvəllərində qələm əhli kütləvi şəkildə Sibir sürgünlərinə və ÇK-nın qara geyimli "troykalar"ının mühakiməsi ilə "o dünyaya" göndərilməsələr də, "cızığından çıxanların" ruhi dispanserlərdə "müalicəyə" göndərilmələri gündəmdə qalırdı. Təəssüflər olsun ki, partiya təbliğatçılarının dünyada ən humanist qanunlar adlandırdıqları "Sovet qanunları"nda yazılanlarla real həyatda olanlar bir-biri ilə kəskin təzad təşkil edirdi. Sovet yazarları o zamankı qanunların dünyanın ən ədalətli qanunları olduğunu təbliğ etdikləri illərdə Bəhmən Vətənoğlu məhz o "humanist qanunlar"ın iç üzünü açır, əsl mahiyyətini xalqa çatdırırdı:

Nə qanunu axtar, nə qaydanı gəz,
Nə yalvar, nə yoncu, nə minnət elə.
Bir işi düzəltmək istəyirsənsə,
Zəmanə xanıma bir hörmət elə.[2]

Şair öz həyat müşahidələrində görürdü ki, sözdə qanundan, ədalətdən dəm vuran hakim sistemin təmsilçiləri xırda bir işi təmənnasız, rüşvətsiz həll etmirlər. Bu zaman onun içindəki qəzəb, etiraz söz silləsinə çevrilib partiya funksionerlərinin sifətlərinə çırpılırdı:

Zamanıma bir bax, dövrümə bir bax,
Boş kəllə gəzirlər, dolu cib, ancaq.
Bir qara qəpiyə dəyməz qanacaq,
Qədir də, qiymət də, ağıl samandı,
Pul Allah olubdu, Allah amandı![3]

Etiraf etmək lazımdır ki, o zamanlar belə şeirləri yazmaq üçün qələm əhli ən azı, Sibir sürgününü və bir neçə illik həbsxana "həyatını" göz önünə almalı idi. Lakin Bəhmən Vətənoğlu o illərdə bütün real təhlükələrə və qadağalara baxmayaraq, siyasi sistemi açıq şəkildə lənətləyir və bu cəbhədə öz ardıcıllarını da yetişdirirdi.

Zaman qoparsa da harayı, hayı,
Din əfsanə olub, qanun havayı.
Müqəddəs nə qalıb puldan savayı,
Peyğəmbər pulludan ötrü nadandı,
Pul Allah olubdu, Allah amandı![4]

---

[1] Məmməd Aslan. Belə yüksək nə bürc olar, nə qala / Bəhmən Vətənoğlu. Haylı-haraylı dünyam. – Bakı: UniPrint, 2012, s.5
[2] Bəhmən Vətənoğlu. Haylı-haraylı dünyam. – Bakı: UniPrint, 2012, s.102
[3] Yenə orada, s.19
[4] Yenə orada, s.19

Torpaqlarımızın erməni-rus təcavüzkarları tərəfindən işğal edilməsi milyonlarla yurddaşı kimi, Bəhmən Vətənoğlunun da həyatında sağalmaz yaralar açdı. Şairin yaradıcılığında yeni bir dönəm başladı. Doğma Kəlbəcərini itirəndən sonra onun yaradıcılığında pessimist ruh, yurd həsrəti, torpaq niskili ön plana çıxdı.

Axşam da qəribdi, mən də qəribəm,
Nələr ürəyimdən keçdi, darıxdım.
Zalım ayrılığın qafil ovçusu
Ox atdı qəlbimi deşdi, darıxdım.[1]

Bu həsrət, nisgil dolu poeziya nümunələrinin yaranmasında kəlbəcərli yazarlar öz dəst-xətlərinə uyğun olaraq faciəmizin nə qədər böyük olduğunu bir övlad ağrısı ilə dilə gətirirdilər. Həmişə məğrur, döyüşkən ruhlu şeirlər müəllifi kimi tanınan Bəhmən Vətənoğlu da bu ağrıya tablaşıb, bu yükü çəkə bilmirdi.

Məcburi köçkünlük həyatını Gəncə şəhərində keçirən şairi Nizami yurdu nə qədər doğma qarşılasa da, şair doğma yerlər üçün darıxdığını kövrək misralarla dilə gətirirdi:

Qoy yazım varağı, qalmasın ağı,
Kim çəkər həsrəti Bəhmən sayağı!
Çox da müqəddəsdir Gəncə torpağı,
Kəlbəcər yadıma düşdü, darıxdım.[2]

Bəhmən Vətənoğlu poeziyasında bədii təsvir vasitələri də orijinal və təkrarsızdır. Onun şeirlərində folklordan, anadilli yazılı ədəbiyyatdan gəlmə bədii təsvir vasitələri gündəlik həyatımızdakı danışıq dili ilə vəhdət təşkil etdiyindən, daha şirin, daha canlı, yaddaqalan alınır. Şairin ən böyük uğuru isə ondadır ki, heç bir şeirində digərində işlətdiyi bədii təsvir vasitələrini təkrarlamır, yeni bir poetik deyim yaradır:

Heç kəs mənəm deyib şeşələnməsin,
Yanan ocaqların sönən vaxtı var.
Ömürlük səmada quş da dayanmaz,
Onun da göylərdən enən vaxtı var.[3]

Hələ mətbuatın və nəşriyyatların qapıları üzünə bağlı olduğu illərdə xalq arasında böyük populyarlıq qazanan Bəhmən Vətənoğlu əsasən ədəbi mühitə xas olan şeir şəkillərində yaratdığı əsərləri ilə hələ sağlığındaca klassikləşmişdi. Bunun əsas səbəblərindən biri onun şeirlərindəki təbiilik,

[1] Bəhmən Vətənoğlu. Haylı-haraylı dünyam. – Bakı: UniPrint, 2012, s.273
[2] Yenə orada, s.273
[3] Yenə orada, s.92

süni pafosdan, bayağı ritorikadan, sosialist mədhiyyəçiliyindən uzaq deyim tərzi, həyatın real səhnələrini sadə bədii boyalarla əks etdirmək bacarığı və şairin özünəməxsus üslubu ilə bağlı idi. Bəhmən Vətənoğlu bədii sözün böyük məsuliyyətini bütün varlığı ilə dərk edərək yazıb-yaradırdı. Elə şöhrətin zirvəsində olduğu illərdə yazdığı şeirlərində də bu məsuliyyət aydın görünürdü:

Nə tələ qurandı, nə quyu qazan,
Bir haqqın yolunda ozandı, ozan.
Bəhmən nə şairdir, nə şeir yazan,
Əzəldən yaranıb söz azarkeşi.[1]

Bəhmən Vətənoğlu müasirləri ilə ən çox təmasda olan şairlərdən biri olmuşdur. Onun şeirlərinə çoxsaylı nəzirələr yazılmışdır. Mikayıl Azaflı, Məmməd Aslan, Məmməd İsmayıl, Zəlimxan Yaqub, Sabir Rüstəmxanlı, Adil Cəmil və başqa şairlərin Bəhmən Vətənoğlu ilə sıx əlaqələri olmuşdur və hər birinin şairlə qiymətli şeirləşmələri vardır.

Səməd Vurğunun Kəlbəcərə məşhur səfəri və burada ozan-aşıq sənətinin böyük nümayəndəsi Aşıq Şəmşirlə məşhur görüşü Kəlbəcərə və Aşıq Şəmşir yaradıcılığına qələm adamlarının böyük marağına səbəb olmuşdur. Aşıq Şəmşir kəlbəcərli yazarlar üçün də bir sənət örnəyi, saz-söz məbədinə çevrilmişdir. Rayonun yazarları da ona böyük hörmət və ehtiram bəsləmişdilər. Aşıq Şəmşir Kəlbəcərin bir çox poeziya vurğunlarına da öz xeyir-duasını vermişdir. Ustad sənətkarın Bəhmən Vətənoğlu yaradıcılığına və şəxsiyyətinə xüsusi bir sevgisi olmuşdur. Təsadüfi deyildir ki, onların arasında poeziyamızda deyişmə formasının çox gözəl nümunələri yaradılmışdır. Aşıq Şəmşirin istedadına böyük sayğı bəslədiyi Bəhmən Vətənoğluna yazdığı səmimi məktubu və aldığı isti cavab ədəbiyyatımızdakı ənənəvi deyişmə formasının maraqlı nümunələrindəndir:

Aşıq Şəmşir:

Dayanmışam, xəbərdar ol, a Bəhmən,
Yorub bu yoxuşlu döngələr məni.
Çatardım bahara qoysa qar-boran,
Qorxuram, bürüyər çən gələr, məni.

Bəhmən Vətənoğlu:

Demə qışım gəlib, a dünyagörmüş,
Mən ki, bənzədirəm bahara səni.

[1] Bəhmən Vətənoğlu. Allahsız dünya. – Bakı: Gənclik, 1992, s.48

Şahin qanad salmaz, qartal qocalmaz,
Yoxuş nə şeydir ki, o yora səni.[1]

Bəhmən Vətənoğlu həyata və hadisələrə günün reallığından qiymət verməyi bacaran qələm adamıdır. Onun əsas qəhrəmanı seçdiyi insan oğluna müraciəti də bu reallıqların güzgüsüdür.

Bəhmən Vətənoğlunun poeziyasında dövr, zaman, dünyanın gəlişi-gedişi ən çox rast gəlinən poetik detallardandır. Şairin ovqatındakı qabarmalar, çəkilmələr özünü məhz bu məqamlarda daha çox büruzə verirdi:

Sən çalış xoş keçir vədəni, vaxtı,
Keçəcək vədəyə, vaxta nə var ki.
Çox da bel bağlama taleyə, baxta,
Taleyə nə var ki, baxta nə var ki.[2]

Qaçqın-köçkünlük həyatı Bəhmən Vətənoğluna sarsıdıcı zərbə vurdu. Şair heç cür yurd itkisi ilə barışa bilmədi. Şeirlərindəki əvvəlki şuxluq, oynaqlıq, həyat eşqi pessimizmlə, hüznlü notlarla əvəz olundu.

Yurd-yuvamda bayquş ular,
Elim köçüb, obam yoxdur.
Əllərimi isitməyə
Bir ocağam, sobam yoxdur.[3]

Bu da görünür ki, qədərin bir yazısıdır ki, böyük söz adamları həyatın çox sınaqlarından, imtahanlarından keçməli olublar. Bəhmən Vətənoğlunun da sınağı ağır oldu. Çünki o yaşlı vaxtlarında canından artıq sevdiyi Kəlbəcərini, şeirlərinin ilham mənbəyi olan doğma dağlarını itirdi. O, bu ağrını ömrünün sonunacan yaşamalı oldu.

Qəzalar, qədərlər əyibdi məni,
Dərdim öz içimdən yeyibdi məni.
Zaman zindanında döyübdü məni,
Yoxdu o əzəlki havalı Bəhmən.[4]

Şair hələ gənc yaşlarından Vətənoğlu təxəllüsünü götürəndə vətənə əsl oğul olacağını gözə almışdı. Keçdiyi həyat yolu da onun səhv etmədiyini, öz sözünə həmişə etibarlı olduğunu təsdiqləyirdi. Onu yaxından tanıyanlar Bəhmən Vətənoğlunun qürurlu, kimsənin qarşısında əyilməyən, hər məqamda sözünü açıq deməyi bacaran bir söz adamı olduğunu yaxşı bilirdilər. Heç

[1] Kəlbəcərin söz sərvəti (Tərtibçi İlham Məmmədli). Antologiya. – Bakı: Sabah, 2005, s.117-118
[2] Bəhmən Vətənoğlu. Allahsız dünya. – Bakı: Gənclik, 1992, s.160
[3] Bəhmən Vətənoğlu. Haylı-haraylı dünyam. – Bakı: UniPrint, 2012, s.286
[4] Şair Bəhmən Vətənoğlu. Seçmə şeirlər. https//edebiyyat-az.com

bir çətinliyin, ehtiyacın əyə bilmədiyi şairi Vətən dərdi əydi, sındırdı. Bu dünyadan da "Kəlbəcər, Kəlbəcər" deyə-deyə köçdü.

Gələcək nəsilə şirin nağılam,
Bir də bu dünyada çətin doğulam.
Daha nə vətən var, nə də oğulam,
İndi mən olmuşam Bəlalı Bəhmən.[1]

Bəhmən Vətənoğlu ozan-aşıq şeirinin, xalq poeziyasının əksər forma və janrlarında qiymətli sənət nümunələri yaratmışdır. Poeziyada ən çətin forma sayılan təcnisdə də o özünü böyük ustad kimi təsdiq etmişdir. Təqlidçilik, təkrarçılıq, qafiyəbazlıq Bəhmən Vətənoğlu yaradıcılığına yaddır. O hansı janrda, formada qələmini sınamışdısa, orada yeni bir cığır açmışdır. Onun şeir üslubu da başqalarından fərqlənir:

Zahirdə üzümə dost deyə-deyə,
Yağı düşmən məni saldı nə qala.
Dərdimi göylərə büləndeylədi,
Belə yüksək nə bürc olmaz, nə qala.

... Bu vətəndi torpağından el əmən,
Mən elinəm, qurban olum elə mən.
Öz-özümə od tutdum ki, elə mən,
Ocağıma nə kösöv qoy, nə qala.[2]

Bəhmən Vətənoğlu lirik-oynaq ruhda yazdığı sevgi şeirləri ilə ədəbiyyatımızda təkrarsız məhəbbət şairi kimi də məşhurdur. Klassik poeziyamızdan üzübəri şairlərin əsas mövzu obyekti olan saf sevginin yaşatdığı iztirablar, məşuqun işvə-qəmzəsi, aşiqin göz yaşları şairin ruhunda tələtümlü səhnələrə keçid olmuşdur:

Qoşa gediləsi ömür yolunda
Sevgi bir an ola, dəhşətdi, dəhşət!
Sevilən sevməyə, sevən odlana,
Könül viran ola, dəhşətdi, dəhşət!

... Bir gözəl eşqini saxlaya dustaq,
Od vura qəlbinə, dolana uzaq.
El görə yanırsan, eybi yox, ancaq
Alov pünhan ola, dəhşətdi, dəhşət![3]

[1] Şair Bəhmən Vətənoğlu. Seçmə şeirlər. https//edebiyyat-az.com
[2] Bəhmən Vətənoğlu. Haylı-haraylı dünyam. – Bakı: UniPrint, 2012, s.124
[3] Yenə orada, s.177

Bəhmən Vətənoğlu qələmini epik janrda da sınamışdır. Onun "Daşkəsənə səfərim var", "Qaçqın-proletar" və "Vətən bizi bağışlamaz" poemaları mövzu və qarşıya qoyduğu problemlər baxımından maraq doğurur.

"Daşkəsənə səfərim var" poemasında şairin Daşkəsən rayonuna səfəri kontekstində öz həyat tarixçəsi bir kino lenti kimi çözələnərək onun gördüyü çətinliklərə, yaşadığı ağrı-acılara münasibəti qabardılır. Cəmiyyətdəki neqativ halları yaradan səbəblərə güzgü tutulur. Eyni zamanda Daşkəsən təbiətinin gözəllikləri vəsf edilir.

"Qaçqın-proletar" poemasında markisist-leninçi nəzəriyyəsi adı altında on illər boyu insanlığa sırınan yalan-palan təbliğatı, bolşeviklərin bu təbliğat və silah gücünə yaratdıqları diktaturanın əsas təbliğat atributlarından olan proletar sinfinin yaşadığı mərhumiyyətlər bədii sözün gücü ilə öz əksini tapır.

"Vətən bizi bağışlamaz" poemasında şair 1993-cü ilin 2 aprelində Kəlbəcərin erməni-rus qoşunları tərəfindən işğalı və bu ağrıların yaşatdığı faciələri qələmə almışdır. Şair milləti birliyə, vətən uğrunda savaşa çağırır:

Gəlin qaya qan ağlar, Dəlidağın dardadı,
Susub ceyran bulağı, Səməd Vurğun hardadı?
Tərtər suyu qan gəlir, yaman ahı-zardadı,
Bu fəryad elə qopdu, səs yayıldı cahana,
Bu qisası almasaq, oğul demə, ay ana![1]

Bəhmən Vətənoğlu sağlığında xalq məhəbbətini, el sevgisini bolluca gördü. Onun görüşünə respublikanın ayrı-ayrı bölgələrindən aşıqlar, şairlər, sənətsevərlər dəstə-dəstə gedərdi. Şeirləri də toyların, şənliklərin bəzəyi idi. Bu gün respublikamızın elə bir aşığı, müğənnisi, xanəndəsi tapılmaz ki, onun repertuarında Bəhmən Vətənoğlunun şeirləri xüsusi yer tutmasın. Haqqında televiziya verilişləri, filmlər çəkilmişdir.

Cənubi Azərbaycanda da Bəhmən Vətənoğlu poeziyasına bu gün böyük sevgi var. Cənublu soydaşlarımız da onun şeirlərini sevə-sevə oxuyurlar. Professor Məhərrəm Qasımlı qeyd edir ki, Cənubi Azərbaycanda hansı şəhərə, kəndə ayaq basdımsa, orada Bəhmən Vətənoğluna böyük sevgi gördüm.

Bəhmən Vətənoğlu poeziyası haqqında ölkəmizin tanınmış şairləri, alimləri, jurnalistləri müxtəlif mətbuat orqanlarında sanballı məqalələr dərc etdirmiş, şairin yaradıcılığını yüksək dəyərləndirmişlər.

[1] Bəhmən Vətənoğlu. Haylı-haraylı dünyam. – Bakı: UniPrint, 2012, s.319

RÜFƏT ZƏBİOĞLU
(1932-1983)

Azərbaycan ədəbiyyatının 1960-cı illər ədəbi nəslinə mənsub olan, çoxşaxəli və zəngin yaradıcılığı ilə seçilən Rüfət Zəbioğlu lirik, satirik və uşaq şeirlərinin müəllifi kimi tanınan, oxunan və sevilən şairlərdən biridir.

Həyatı. Rüfət Zəbi oğlu Axundov 6 avqust 1932-ci ildə Bakı şəhərində, müəllim ailəsində dünyaya göz açmışdır. O, orta təhsilini Bakı şəhər 31 saylı məktəbdə (1940-1950) almış, 1951-ci ildə Azərbaycan Dövlət Universitetinə (BDU) daxil olmuş, 1952-ci ildən filoloji təhsilini Moskva şəhərində Maksim Qorki adına Dünya Ədəbiyyatı İnstitutunda davam etdirmişdir.

Rüfət Zəbioğlu müxtəlif vəzifələrdə çalışmışdır. O, 1957-ci ildə Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Komitəsində redaktor kimi əmək fəaliyyətinə başlamışdır. 1958-1969-cu illərdə Azərbaycan Xalq Yaradıcılığı Evində dramaturgiya şöbəsinin müdiri, Bakı Neft Texnikumunda inspektor (1969-1974), Azərbaycan Dövlət Nəşriyyatında redaktor (1974-1978) vəzifələrində işləmişdir. Ömrünün son illərində müstəqil bədii yaradıcılıqla məşğul olmuş, ədəbi mühitdə satirik şair kimi tanınmışdır.

Publisist Qafar Əsgərzadə ədib və onun şəcərəsi haqqında yazır: "Şair Rüfət Zəbioğlu respublikamızın bölgələrini, dilbər guşələrini tez-tez gəzib dolaşsa da, ən çox gedib gəzdiyi yer Xızı olardı. Onu Xızıya bağlayan bəlkə də şair, dramaturq, maarifçi, pedaqoq Mirzə Əbdülqədir Vüsaqi, rəssam Nəcəf Rasim Nəzərli, dahi dramaturq Cəfər Cabbarlı, romantik şair Mikayıl Müşfiq, yazıçı-dramaturq Seyfəddin Dağlı, akademik Məmməd Arif Dadaşzadə ilə birgə şairin öz ata-anasının da Xızı torpağından olmalarıdır. 1850-ci ildə Xızıda dünyaya göz açan babası Axund Zəki Ərşi Hacızadə İraqda Nəcəf şəhərində ali ruhani təhsili alıb, 15 il Qubada qazilik etmişdir. Türk, ərəb, fars dillərini mükəmməl bilən "Ərşi" təxəllüsü ilə bu dillərdə seirlər yazan Zəki Hacızadənin 1914-cü ildə Bakıda nəşr edilən "Yədi Beyza" kitabında, əsasən, tərbiyəvi əhəmiyyətə malik əsərlər toplanmışdır. Atası Zəbi Axundov da türk, ərəb, fars dillərini bilirdi, klassik irsimizi tədris edən ədəbiyyat müəllimi olmaqla yanaşı, həm də həvəskar rəssam olub. Bütün bunlar Rüfəti Xızıya möhkəm tellərlə bağlayıb. Şair dönə-dönə ilhamla öz şeirlərində Xızını vəsf etmişdir".[1]

Rüfət Zəbioğlu yaradıcılığının səmərəli, məhsuldar çağında, ömrünün 51-ci ilində, 20 iyul 1983-cü ildə Bakı şəhərində vaxtsız vəfat etmişdir.

[1] Qafar Əsgərzadə. Dünya mülkünü işıqda görən sənətkar. Modern.az. https://modern.az › news.

Yaradıcılığı. Rüfət Zəbioğlunun ilk şeiri 1949-cu ildə "Bakinskiy raboçi" qəzetində dərc edilmiş, əsərləri, əsasən, "Azərbaycan", "Kirpi" jurnallarında , "Ədəbiyyat və incəsənət" qəzetində çap olunmuşdur.

Rüfət Zəbioğlunun rəngarəng yaradıcılığını özündə ehtiva edən, müxtəlif mövzulu şeirlərinin toplandığı "Səslə məni" adlı ilk kitabı 1960-cı ildə çapdan çıxmışdır. Sonralar müəllifinə şöhrət qazandıran "Zirvədən-zirvəyə" (1963), "Yollara duman çöküb" (1970), "İlk beşik" (1971), "Təbəssüm" (1975), "Sirr, möcüzəm" (1978), "Ayselim" (1983), "Kainatla üz-üzə" (1983) kitabları işıq üzü görmüşdür.

Rüfət Zəbioğlunun müxtəlif mövzularda qələmə aldığı şeirlərinin əsas leytmotivini, ana xəttini vətən məhəbbətinin müqəddəsliyi, bütövlüyü və ülviliyi təşkil edir. Rüfət Zəbioğlunun saf və təmənnasız Azərbaycan sevgisi onun poeziyasının zirvəsində dayanır və sonsuzluğa qədər davam edir. "Vətən son mənzildir, Vətən ilk beşik", – deyən şair öz sələflərinin yolu ilə gedərək bütün varlığı ilə qəlbən bağlı olduğu Azərbaycanı yüksək poetikliklə tərənnüm edir:

Biz övlad vətənik, o ana vətən.
O bizə vətəndir, biz ona vətən.
Vətən son mənzildir, vətən ilk beşik,
Onsuz nə sevmişik, nə sevilmişik.[1]

Şairin lirik şeirlərində insanın mənəvi aləminin, duyğu və düşüncələrinin yüksək poetik tərənnümü diqqəti cəlb edir. "Duman yolumu kəsdi", "Mən və torpaq", "Könlümə Xızı düşüb", "Mən payızı sevirəm", "Hayıflar olsun" , "Açılıb pəncərəm dan ulduzuna" şeirlərində insan amili ön plana çəkilir, təbiətlə cəmiyyətin harmoniyası yüksək sənətkarlıqla vəsf olunur. Şair real və yalçın qaya lövhələrini canlandırmaqla oxucunu saflığa, təmizliyə, düşüncəyə səsləyir.

Qayalar üstündə dumandan rübənd,
Görən ismətini kimdən qoruyur,
Dağların saçına birdən düşür dən,
Qayalar gəncləşir, dağlar qarıyır.[2]

Rüfət Zəbioğlunun "Müqəddəs yalanlar", "Müşfiqli röyam", "Bir nəşə, bir kədər", "Ad günü", "Yaman yorğunam", "Bənzətmələr", "Ay ev yiyəsi", "Mənim körpə balam", "Od", "Günəş tək deyildi" şeirlərində ana məhəbbətinin əvəzolunmazlığı, mənəvi-əxlaqi dəyərlərin qorunub saxlanması, nakam şairimiz Mikayıl Müşfiq şəxsiyyətinə və sənətinə dərin ehtiram, cəmiyyətdə mövcud olan ziddiyyətli məqamlara münasibət, şairi narahat edən

[1] Rüfət Zəbioğlu. Vətən son mənzildir, Vətən ilk beşik. http://www.3333047.az › zebi...
[2] Rüfət Zəbioğlu. Duman yolumu kəsdi. – Bakı: Gənclik, 1970, s.3

ictimai-siyasi məsələlər, insan və zaman haqqında fəlsəfi düşüncələr əksini tapmışdır.

Rüfət Zəbioğlunun "Dəhşətlidir əsrimiz", "Danışan məzar", "Dünya övladlarına" şeirlərində beynəlxalq aləmdə gedən mühüm ictimai-siyasi problemlərdən söhbət açılır, müharibələrə, fəlakətlərə rəvac verən, milyonlarla günahsız insanların məhvinə səbəb olan irticaçı qüvvələr qəzəb və nifrətlə pislənilir. "Gəlin, yer kürəsini bir yumruğa döndərək", – deyən şair bəşəriyyəti sülhə, əmin-amanlığa səsləyir:

Gəlin, ey insanlar, hökm edir zaman,
Eşqə qurban verin nifrətinizi!
Öpüb üzr istəyin ana dünyadan,
Gəlin, səcdəsinə – bağışlar sizi![1]

Rüfət Zəbioğlunun istər lirik, istərsə də satirik səpkidə qələmə aldığı şeirlərinin əsasında onun vətən sevgisi dayanır. Şairin yaradıcılığında satirik şeirlərin mühüm yer tutmasının başlıca səbəbi vətəndaşı olduğu cəmiyyətdə gördüyü, müşahidə etdiyi çatışmazlıqlar, ədalətsizliklər, qanun pozuntuları və digər nöqsanlarla izah oluna bilər. Rüfət Zəbioğlunun müxtəlif mövzuda qələmə aldığı satiralarında cəmiyyətdəki daxili və mənəvi aşınmalar, rüşvətxorluq, əliəyrilik, vəzifəpərəstlik, pulgirlik, ədalətsizlik, biganəlik kimi mənfi halların ifşası mühüm yer tutur. Tarixin bütün mərhələlərində sənətkarla mühit, ictimai formasiya arasında münasibətlər, baş verən hadisələrə şair ədib baxışı özünü tənqidi şeirlərdə, satirik üslubda yazılan bədii örnəklərdə daha qabarıq şəkildə göstərmişdir. Məhz Rüfət Zəbioğlunun satirik poeziyasında da dövrdən, zəmanədən, cəmiyyət hadisələrindən hər cür narazılıq motivlərini görmək mümkündür.

Rüfət Zəbioğlu yaradıcılığında onun müxtəlif mövzuda qələmə aldığı lirik şeirləri ilə yanaşı, müəllifini oxuculara daha yaxından tanıtdıran və sevdirən satirik şeirləri də mühüm yer tutur. Akademik Bəkir Nəbiyev Rüfət Zəbioğlu yaradıcılığının əsas istiqamətlərindən biri olan və ədəbi fəaliyyətində önəmli yer tutan satirik şeirlərinin özünəməxsus cəhətlərindən bəhs edərək yazır: "... sovet imperiyasının tüğyan etdiyi bir zamanda fəaliyyət göstərən şair təkcə tərənnüm ruhlu şeirlər ilə kifayətlənə bilmirdi. Bütün ətrafda baş verən hadisələr içərisində çox ciddi qüsurlar, çox naqis adamlar, əliəyrilər, rüşvətxorlar elə baş alıb gedirdilər ki, Rüfət Zəbioğlu bunların yanından elə-belə saymazyana bir şair kimi keçib gedə bilməzdi. Ona görə də bütün bunlardan tüğyana gəlir, öz etiraz sədasını satirik şeirlərində ucaldırdı. Doğrudur, o zamanlar satirik şeirlər yazmaq, xüsusən də onu çap etdirmək elə

[1] Rüfət Zəbioğlu. Gəlin, yer kürəsini bir yumruğa döndərək / Duman yolumu kəsdi. – Bakı: Gənclik, 1970, s.32

də asan deyildi. Buna görə də R.Zəbioğlu bir sıra ciddi müqavimətlərə rast gəlirdi. Lakin o, bütün bunlara baxmayaraq, öz yaradıcılıq bağlılığını qoruyub saxlayırdı, xüsusən rüşvətxorluğu özünün amansız atəş hədəflərindən birinə çevirməyi bacarırdı".[1]

Şairin "Tiplər tanıyıram", "Müsibətnamə", "Sırtığam", "Əlin cibində olsun", "Mənim əlimdir", "Mürdəşir yusun", "Mənzilbaz", "Düzələn zad deyiləm" və başqa satirik şeirlərində vətəndaşı olduğu cəmiyyətin çeşid-çeşid obrazlar qalareyasını, mənfi tiplərini, personajlar aləmini görə bilirik. R.Zəbioğlunun pul hərislərinin ifşasına həsr etdiyi "Budu, bu" şeiri xüsusilə maraq doğurur. Şairin pulgirin dilindən səsləndirdiyi "Budu, bu" satirasında haram yolla var-dövlət, sərvət toplayanlar, xalq əmlakını çapıb-talayanlar ifşa edilir, eyni zamanda pulun cəmiyyətdəki pozucu rolu tipin öz danışıq aktı vasitəsilə tənqid hədəfinə çevrilir:

Tağ atıb pul zoruna cibdə badımcan yetişir,
Pul üçün düşmən olur qardaşa qardaş, didişir,
Əlimə pul gələcəkdir, qağa, ovcum gicişir,
Nə gözəl şeydi bu pul, hər şeyə imkan budu, bu.
Nədi pul? Mülk, maşın, tazə kəsilmiş əl əti,
Sənə pul göstərərəm, Yalta bilərsən Ələti,
Pula qeyrət deyənin zərrəcə yoxdur qələti.[2]

Rüfət Zəbioğlunun poeziyası öz gücünü zəngin və çoxəsrlik klassik Şərq şeirindən və Azərbaycan xalqının minilliklər boyu yaratdığı və əsrdən-əsrə, nəsildən-nəslə ötürərək çağdaş dövrümüzə çatdırdığı, bulaq kimi çağlayan, saf, təmiz, büllur kimi dupduru folklor örnəklərindən almışdır. Satirada şair klassik şeirlərimizdə çox işlənən izafət tərkiblərindən istifadə etməklə obrazın mənfi çalarla yüklənmiş portretini və mənəvi eybəcərliyini real cizgilərlə açıb göstərmişdir.

Rüfət Zəbioğlu Füzuli yaradıcılığından yararlanaraq, şairin məşhur "Məndə Məcnundan füzun aşiqlik istedadı var" misrası ilə başlanan qəzəlinə parodiya şəklində qələmə aldığı "Diplomum" satirasında elmsiz alimin saxta yollarla, rüşvətlə diplom almasını sarkastik bir şəkildə tənqid hədəfinə çevirir:

Məndə alimdən füzun alverçi istedadı var,
İxtirasız, kəşfsiz alimliyin öz dadı var.
Doğrudan da hər kəsin dünyada bir ustadı var,
Ruhuna ustadımın yüz dəfə rəhmət, diplomum,
Elmsiz alim! Qiyamətdir, qiyamət, diplomum.

[1] Bəkir Nəbiyev. Modern.az. https://modern.az › news.
[2] Rüfət Zəbioğlu. Budu, bu. http://www.3333047.az › zebi..

Şeirdə Azərbaycan elminə, alim adına xələl gətirən, rüşvətlə aldığı diplomla istədiyi mənsəbə, şöhrətə, var-dövlətə çatan yalançı, başabəla və üzdəniraq "alimlər" tənqid olunur:

Xərc çəkib aldım səni, verdim fəqət vicdanımı,
Gəzdirirsən "Volqa"da min naz ilə cananımı,
Elmdən zəhləm gedirdi, rahat etdim canımı,
Ol səlamət ki, olum mən də səlamət, diplomum,
Elmsiz alim! Qiyamətdir, qiyamət, diplomum![1]

Şairin "Dayımdır mənim" satirasında əsl elm adamı ilə yalançı alimlər qarşılaşdırılır. Haram yolla çoxlu pula sahib olan mənsəbpərəstlərlə halal qazanc sahibləri – müəllimlər, alimlər paralellər əsasında müqayisə edilir. Bu mövzulu satiralarda öz sərvəti ilə öyünənlər cəmiyyətin düşünən beyni olan alimə, müəllimə ikrah hissi ilə, yuxarıdan aşağı baxır. Şair cəmiyyətdə ziyalıya həqiranə, sosial baxışın olduqca qüsurlu, bağışlanmaz bir tendensiya olduğunu çox böyük narahatlıqla yazıb göstərir və insanları belə mənfi hallardan ibrət götürməyə, nəticə çıxarmağa səsləyir. Əsərdə satirik obraz zahirən sanki ona aid olmayana gülsə də, daxilən bu situasiyada özünü görmüş, cəmiyyətdə tutduğu eybəcər mövqeyi, bir insan olaraq eybəcər siması satira aynasında tipin özünü nümayiş etdirmişdir. "Məlumdur ki, satira müəllifinin satiraya tutulan hədəfdən çox yüksəkdə durmasını tələb edir. Tənqidi gülüş o zaman müvəffəqiyyətlə səslənir ki, gülən adam mənəvi cəhətdən yüksək, gülüş hədəfi isə mənəvi cəhətdən alçaq adamlar olurlar".[2]

Şairin "Qalmışam", "Dayımdır mənim", "Sən öl", "Dağılıb xanimanım", "Səndə nə var?", "Ona de", "Nə sözün var", "Düşə bilmirəm", "Başın haqqı", "Soruş" kimi satirik şeirlərində əliəyrilər, tamahkarlar, rüşvətxorlar, vəzifəpərəstlər, yaltaqlar, riyakarlar və başqa mənfi tiplər kəskin satirik ittihamlarla üz-üzə qalır:

Bağına çəpər çəkib:
"Yaratdım, qurdum" deyən,
Ailəsinə "xalqım",
Evinə: "yurdum" deyən,
İftixarla: dağıtdım",
Fəxr ilə "qırdım" deyən,
Qohumuna, dostuna:
"Öz itim-qurdum" deyən
Tiplər tanıyıram mən.[3]

[1] Rüfət Zəbioğlu. http://www.3333047.az › zebi...
[2] Mir Cəlal Paşayev. Azərbaycanda ədəbi məktəblər. – Bakı: Ziya-Nurlan, 2004 , s.146
[3] Rüfət Zəbioğlu. http://www.3333047.az › zebi..

Rüfət Zəbioğlunun poeziyası öz rişəsini, şəhdini klassik ədəbiyyatımızla yanaşı, həm də zəngin folklor örnəklərindən almışdır. Şair xalq ədəbiyyatının lirik janrlarından sənətkarlıqla yararlanaraq satirik parodiyalar yaratmışdır. Xüsusilə, şairin xalq mahnılarının motivlərindən istifadə yolu ilə yazdığı, yeni forma, məzmun və ideya ilə zənginləşdirdiyi satiraları cəmiyyətdəki neqativ halların ifşasında mühüm rol oynayır. Bu baxımdan, şairin "Bəri bax" satirası daha çox diqqəti cəlb edir. Şairin xalq mahnısının oynaq ritmindən bəhrələnərək şeirin vəzn və qafiyə düzülüşündə yaratdığı sistemlilik, ardıcıllıq satiraya dinamiklik gətirmişdir:

Karxanadan daş gəlir, ay bəri bax, bəri bax,
Daş mənə daş-baş gəlir, ay bəri bax, bəri bax,
Yoxlanılır işlərim, ay bəri bax, bəri bax,
İşim mənə yaş gəlir, ay bəri bax, bəri bax.

Şair öz var-dövləti, haram yolla əldə etdiyi pullarının çoxluğu ilə öyünən antipodun mənfi xarakterini, satirik portretini məharətlə yaradır. Sabir satiralarının forma və struktur özəlliyindən, ifadə tərzindən və təqdimetmə üsulundan istifadə yolu ilə tipin öz dili ilə özünü ifşa metodunu seçmişdir.

Şair satiranı ibrətamiz bir sonluqla tamamlayır. Xalqın sərvətini talayan, öz nəfsinin qurbanına çevrilərək haqq-ədalət qarşısında dayanan bu tamahkar, əliəyri, pulgir, xəbis bir varlıq törətdiyi əməllərin cəzasını çəkir və ağır ittihamla üz-üzə qalır:

Tutulmuşam, ağlama, ay bəri bax,bəri bax.
Qonşudadır bağlama, ay bəri bax, bəri bax,
Apar atangildə qoy, ay bəri bax, bəri bax,
Qonşuya bel bağlama, ay bəri bax, bəri bax.[1]

Şairin "Nizamiyə nəzirə" epiqrafı ilə yazdığı "Sənsiz" satirası şairin eyniadlı qəzəlinə nəzirə şəklində qələmə alınmışdır. Nizami yaradıcılığından bir fon kimi yararlanan müəllif bu satirasında da rüşvətxorluğun cəmiyyətdə dərin kök saldığını, böyük fəlakətlərə yol açdığını satirik obrazın öz dili ilə açıb göstərir:

"Hər gecəm oldu kədər, qüssə, fəlakət sənsiz",
Başıma gözləmədən gəldi müsibət sənsiz.
Qızışıb rüşvət alan yerdə tutuldum, getdim,
Almayaydım onu kaş sağ-səlamət sənsiz.[2]

[1] Rüfət Zəbioğlu. http://www.3333047.az › zebi..
[2] Yenə orada

Rüfət Zəbioğlu satirik yaradıcılığında klassiklərin zəngin irsinə dönə-dönə müraciət edir, onların tükənməz söz xəzinəsindən yerli-yerində, məqamında bəhrələnir, dil-üslub, ədəbi priyom və bədii üslubundan yaradıcı şəkildə istifadə edir, bəzən isə onların adını da şeirdə hörmətlə xatırlayır. Bu baxımdan, şairin "Düzələn-zad deyiləm" satirası Sabir satiralarının tərzi ilə uyarlıq təşkil edir:

Mənə yastıqdı, döşəkdi, mənə yorğandı cibim,
Köməyimdi o mənim, cürətim, arxamdı cibim,
Böyüyüm, başbilənim, lap belə darğamdı cibim,
Bu əqidəmdə əsirəm, qulam, azad deyiləm,
Özünü yorma, kişi, mən düzələn-zad deyiləm.[1]

Şairin "Səndə nə var?" satirası Sabirin məşhur "Əkinçi" satirasındakı "Öyrəşməmisən ət-yağə dünyadə əkinçi" misrasının motivi ilə ekvivalentlik yaradır. Mülkədarın əkinçiyə həqiranə münasibəti bu satira üçün də xarakterikdir:

Neçə növ gündə ləziz, dadlı təamlar yeyirəm,
Yediyimdən dada bilsən qudurarsan deyirəm,
Ölü olsam da, sən öl, kastumu cüt-cüt geyirəm,
Qapıma müftə gəlir xarici, importnı tavar,
A yoluğ, məndə bu vardır, de görüm, səndə nə var?[2]

Rüfət Zəbioğlunun yaradıcılığında kiçikhəcmli, lakonok satirik şeirlərə də rast gəlinir. Bu tipli şeirlər yığcam olsa da, məna tutumu, tərbiyəvi əhəmiyyəti və didaktik mahiyyətinə görə diqqəti cəlb edir:

Müəllim xəbər aldı:
- Kim deyər cinas nədi?
Bir nəfər dəm tələbə
Cinasa misal dedi:
- Cüt vurmuşuq: mən, dədəm,
O da dəmdir, mən də dəm.[3]

Şeirin məzmunundan aydın görünür ki, şair cəmiyyətdə və ailədə itirilən ülvi hisslərə, mənəvi-əxlaqi dəyərlərə bir vətəndaş yanğısı ilə yanaşır. Bütün bunlar şairi dərindən düşündürür və bu problemlər onun yaradıcılığında önəmli yer tutur. Bu satirik ittihamların arxasında şairin insanları daxili saflaşmaya, mənəvi ucalığa doğru istiqamətləndirən harayını, çağırış nidasını görürük.

[1] Rüfət Zəbioğlu. http://www.3333047.az › zebi..
[2] Yenə orada
[3] Yenə orada

Ümumiyyətlə, Rüfət Zəbioğlu satiralarının mövzu və əhatə dairəsi olduqca genişdir. İctimai-siyasi, sosial, ədəbi-mədəni problemlərdən başlayaraq ailə-məişət məsələlərinədək bir çox problemləri öz yaradıcılıq orbitinə daxil edən şair onları fikir süzgəcindən keçirir, poetik forma və məzmun verərək oxucuların ixtiyarına buraxır. Beləliklə də sənətkar mühüm və həllini gözləyən problemləri ictimailəşdirməyə müvəffəq olur. Şairin bu qəbildən olan kiçik formalı satiralarından biri də "Əlin cibində olsun" şeiridir. Satirada mövcud cəmiyyətdə hökm sürən rüşvətxorluq, əliəyrilik kimi mənfi halların ifşası ön plana çəkilir:

İş istəyib, demişəm:
- Əlin cibində olsun...
Gödək sözü anlamır
Bu uzun oğlu uzun.
Gedir əli cibində,
Gəlir əli cibində...
Nə şapalaq yeri var
Qulağının dibində![1]

Tipin dilindən səsləndirilən, satira və yumorun sintezindən yaranan bu etirafda gözləntiləri puça çıxan, pul ehtirası ilə alışıb-yanan, iş müqabilində rüşvət uman mənfi personajın monoloqu yüksək sənətkarlıqla yaradılır və onun tamahının, nəfsinin quluna çevrildiyi açıq-aşkar görünür. Əlbəttə, sovetlər dönəmində cəmiyyətdə adi hala çevrilən bu cür problemlərin qabardılması və ədəbiyyata gətirilməsi sənətkardan böyük cəsarət tələb edirdi.

Şairin yaradıcılığında cəmiyyətin aparıcı və idarəedici güclərindən biri olan qadınların fəaliyyətini, ailədəki rolunu əks etdirən satiralara da yer verilmişdir. Əgər Mirzə Ələkbər Sabir, Əli Nəzmi, Əli Razi Şamçızadə və başqa mollanəsrəddinçilərin yaradıcılığında qadınların hüquqsuzluğundan, cəmiyyətdəki fəaliyyətsizliyindən, azadlığı əlindən alınmış zəif bir məxluq olmasından söhbət açılırsa, Rüfət Zəbioğlunun satiralarında klassiklərin təqdimatından fərqli bir yanaşmanın şahidi oluruq.

Azərbaycan ədəbiyyatının 1960-cı illər ədəbi nəslinə mənsub olan Rüfət Zəbioğlu XX əsr satirik poeziyasında Mirzə Ələkbər Sabir və "Molla Nəsrəddin" ədəbi məktəbinin layiqli davamçılarından biri kimi ədəbiyyat tariximizə daxil olmuşdur. Şairin orijinal dəst-xəti, yazı manerası, yaratdığı çoxsaylı lirik və satirik şeirləri çağdaş dövrdə də öz aktuallığını və müasirliyini qoruyub saxlayır.

[1] Rüfət Zəbioğlu. http://www.3333047.az › zebi..

RÜFƏT ƏHMƏDZADƏ
(1933-1988)

Azərbaycan sovet dövrü poeziyasında satirik şeirin sosial-məişət təmayülünün aparıcı xadimlərindən biri də Rüfət Əhmədzadədir. Azərbaycan Televiziyasında məişət mövzulu qısametrajlı satirik filmlər üçün ssenari və səhnəciklər yazmaqla televiziyada yeni bədii istiqamətin yaranmasına xidmət göstərmiş, "Kirpi" satirik jurnalının inkişafında əhəmiyyətli rol oynamışdır.

Həyatı. Rüfət Zülfüqar oğlu Əhmədzadə 25 mart 1933-cü ildə Bakı şəhərində (başqa mənbəyə görə Balakəndə[1]) anadan olmuşdur. Atası Zülfüqar Əhmədzadə 1918-ci ildə "Hümmət" təşkilatının üzvü idi, 1920-ci illərdə Azərbaycan istila nəticəsində sovetləşdikdən sonra müxtəlif ictimai-təşkilati vəzifələrdə fəaliyyət göstərmiş, talış əlifbasının yaradılmasında müəyyən işlər görmüşdür. 15 mart 1938-ci ildə əksinqilabi fəaliyyətdə günahlandırılmış, axtarış zamanı evindən "tapança tapılması" bəhanəsi ilə həbs edilmişdir. Bəzi mənbələrə görə, Z.Əhmədzadənin dövlət işlərindən uzaqlaşdırılması, ümumiyyətlə fəaliyyətinin dayandırılmasının əsl səbəbi 1932-ci ildə iclasların birində Azərbaycan Sov.İKP MK-nın ikinci katibi Yusif Qasımovu müdafiə etməsilə əlaqədar olmuşdur. Həmin toplantıda Mir Cəfər Bağırovla Vladimir Polonski Yusif Qasımovun işdən azad olunması məsələsini irəli sürərkən, Zülfüqar Əhmədzadə söz alaraq ittiham olunanın müdafiəsinə qalxmış: "Azərbaycan Kommunist Partiyasına uzun müddətdir ki, rubinlər, polonskilər, mirzayanlar başçılıq edirlər. Mərkəzi Komitədə cəmi 9% azərbaycanlı işləyir, qalanı erməni, rus, yəhudilər və gürcülərdir. Azərbaycanın məgər elə bir oğlu, kadrosu yoxmudur ki, rəhbər işləsin? Üstəlik Qasımovu da bəyənmirsiz...",[2] – demişdir. Bir müddət sonra 1938-ci ildə SSRİ cinayət məcəlləsinin 64-cü maddəsinə əsasən "vətənə xəyanət" və "Sovet hökumətinə qarşı silahlı mübarizə aparan təşkilatın üzvü kimi" həbs edilən Z.Əhmədzadənin məhkəməsində Şirəli Axundov adlı birisi üzünə durmuşdur. Bundan sonra Zülfüqar Əhmədzadənin Sibirə sürgünü rəsmiləşdirilmiş, beş il Sibirdə qalmalı olmuş, 1942-ci ildə ağır kataral pnevmoniyadan vəfat etmişdir. Zülfüqar Əhmədzadənin ölümündən sonra yazıçı Mehdi Hüseyn, Səməd Vurğun onun ailəsi ilə yaxından maraqlanmışlar. Zülfüqar Əhmədzadənin talış dilində qələmə aldığı müxtəlif lirik və satirik məzmunlu poetik parçalardan əlavə, Azərbaycan dilində yazdığı "Arktika

[1] Teymur Əhmədov. Rüfət Əhmədzadə. Azərbaycan yazıçıları XX-XXI yüzillikdə. – Bakı: Nurlar, 2011, s.794

[2] Ulduz Həşimov. "30-cu illərin repressiya qurbanları: Zülfüqar Əhmədzadə". https://www.talish.org/news/30_cu_ill_rin_represiya_qurbanlari_zulfuqar_hm_dzad/2012-02-11-885

dastanı" (1934) poeması, "Köylü qızı" adlı pyesi və "Sibir" (1940) adlı romanı olduğu göstərilir.

Atasının həbsindən sonra Rüfət Əhmədzadənin anası övladlarını götürüb doğma vətəninə – Balakənə köçmüşdür. Maddi çətinliklər ucbatından ailənin yeganə oğlu Rüfət Əhmədzadə erkən yaşlarından işləməyə məcbur olmuş, Bakıya köçdükdən sonra da müxtəlif kiçik işlərdə çalışaraq ailənin yükünü öz çiyinlərinə almışdır. "Xalq düşməninin oğlu" kimi damğalanması onun uzun müddət ali təhsil almasına mane olmuşdur. Bəraət dövründən sonra Azərbaycan Dövlət Universitetinin Filologiya fakültəsinə daxil olmuş və müvəffəqiyyətlə buranı bitirərək, uğurlu şeirlərilə mətbuatda ardıcıl çıxış etməyə başlamışdır. Şairin oğlu Rəşad Əhmədzadə atası haqqında xatirələrini belə ifadə etmişdir: "Hələ yeniyetmə yaşlarından ailəyə kömək etmək üçün işləməli oldu. Atası həbs olunub sürgünə göndərildikdən sonra bolşevik təqiblərindən qorunmaq üçün bir müddət anasının ata yurdunda, Balakəndə yaşadılar. Ara sakitləşdikdən sonra Bakıya qayıdan ailə ağır həyat şərtləri altında yaşamağa məhkum oldu, lakin möhkəm iradəsi, sarsılmaz qətiyyəti Rüfət Əhmədzadəni həyatın bütün sınaqlarından üzüağ çıxartdı. Az sonra qarşısına yaxşı adamlar çıxdı, üzünə qapılar açıldı, dostlarının, qələm yoldaşlarının sevimlisi oldu və ən əsası, ilhamı ona heç vaxt xəyanət etmədi".[1]

1953-cü ildə "Əziz bayram" adlı ilk şeiri mətbuatda dərc olunmuşdur. Çox ağır həyat şəraiti, keçirdiyi əsəb sarsıntıları gənc yaşlarından sağlamlığını zəiflətsə də, əzmlə fəaliyyətə başlamış gənc şair, daha çox gülüşə, satiraya meyilli şeirlərilə "Kirpi" satirik jurnalının redaktoru Əvəz Sadığın diqqətini çəkmiş, onu jurnalda işləməyə dəvət etmişdir. Ömrünün sonuna qədər bu jurnalda sözün həqiqi mənasında əmək sərf etmiş, korrektorluqdan baş redaktorun müavini vəzifəsinə qədər yüksəlmişdir. Şairin yaradıcılıq üslubunun formalaşmasında və sonrakı inkişafında Azərbaycan sovet satirik poeziyasının məcrasını təyin edən bu jurnalın böyük rolu olmuşdur.

Rüfət Zülfüqar oğlu Əhmədzadə 1988-ci il dekabrın 15-də Bakıda vəfat etmişdir.

Yaradıcılığı. Rüfət Əhmədzadə ilk şeirlərini orta məktəb illərində yazaraq toplantılarda, bayramlarda ifa etsə də, mətbuatda ilk dəfə 1953-cü ildə "Əziz bayram" adlı şeirilə çıxış etmişdir. İstedadlı şairin ondan çox şeir kitabı – "Özündən demir" (1962), "Qəribə yuxu" (1965), "Keçmə belə kişidən" (1967) "Karın könlündəki" (1970), "Hansımız hündürük" (1970) "Bu mənəm, mən deyiləm" (1976), "Məhəbbətlə, gülüşlə" (1981), "Düzü düz, əyrini əyri" (1973), "Hələlik" (1991) və s. nəşr olunmuşdur. Dörd

[1] Əyyub Qiyas. Onun silahı söz idi. "Ədəbiyyat qəzeti", 2020, 30 dekabr, s.16-17

musiqili komediyanın – “Sizin ilə, gülə-gülə”, “Bildirçinin bəyliyi”, “92 dəqiqə gülüş”, “Hələlik” və “Sonuncu məhəbbət”, “Gülüş sanatoriyası” adlı televiziya tamaşalarının, “Şirbalanın məhəbbəti” filminin ssenarisinin və onlarla satirik televiziya novella-səhnəciklərinin müəllifidir.

Yaradıcılığının ilk illərində bir çox poeziya xadimləri kimi o da lirik şeirlər yazmış və bu nümunələr müəllifinin kədərli dünyasının səsini əks etdirsə də, səmimiyyəti, reallığı, ümidi ilə nikbinliyə meyillidir və bu xüsusiyyət R.Əhmədzadənin poeziyasında ilk nəzərə çarpan cəhətlərdəndir. Şeirlərinin əksəriyyətini əsasən klassik şeir formalarında, əruz vəznində yazmış, üslubunda Sabir ənənələrini qorumağa çalışmış, hətta fərqli motivlərdə, daha doğrusu, zəhmət adamlarını, uğurlu, məhsuldar əməyi tərənnüm edən “Yaradan əllərə alqış”, “Yaxşılar yaxşı ki, çoxdur”, “Sən də fərəhlən”, “Öpürəm əllərinizdən” və s. kimi bəhri-təvillər də qələmə almışdır ki, mövzu baxımından bu əsərlər ictimai motivləri ilə seçilir. Şairin lirik qəhrəmanı da klassik sələfindən fərqlidir, bu aşiq məhəbbəti yolunda Məcnuna dönən, həyatını eşqi yolunda qurban verəcək, yaşam amalını itirə bilən tipaj deyil, bu, dünyanın bütün cəfalarından keçmiş, bərkimiş, məntiqlə düşünməyi bacaran və həyatının qədrini bilən müasir həyatın gənc nəslinin nümayəndəsidir:

Eşq dərdinin aləmdə əgər yoxdur əlacı,
Mən ölməliyəmsə, mənə dərman nə gərəkdir?
Qəsdin deyəsən, qəlbimi qarət eləməkdir,
Qəlb olmasa, ey gül, sənə bu can nə gərəkdir?
Onsuz da ki, zövqümcə olur hökmü zamanın
Sən vermədəsən bir belə fərman nə gərəkdir?
Neyçün də gərək canımı canana verim mən,
Məhv olsa bu canım, mənə canan nə gərəkdir?[1]

Şairin “Dağlara”, “Zarafatyana”, “Gülüş”, “Səhər-səhər”, “Olub”, “Demirsən”, “Deyinmək mənə qaldı”, “Nəyim var” və s. şeirlərində sevginin bütün rəngarəng hissiyyat çalarlarını öz kamal gözü ilə seyr edib mənəviyyatının “olar-olmazına” tabe etdirən, “Onlar ki, gəlmədi Rüfətə sarı, neyləyim, gedərəm özüm dağlara”, – deyə bəzən öz şəxsiyyətini dağlardan da böyük görən lirik qəhrəman, yalnız ana sevgisi önündə əyilir, məğrurluq hökmünü itirir:

İstər övladının etibarını,
Balasında görər dünya varını.
Qoparıb ömrünün varaqlarını
Ömür yolumuza düzər analar.

[1] Rüfət Əhmədzadə. Məhəbbətlə, gülüşlə. – Bakı: Yazıçı, 1981, s.6

Şirin sözümüzdə sözləri qalar,
Görən gözümüzdə gözləri qalar,
Bizim özümüzdə özləri qalar,
Girib qəlbimizdə gəzər analar.[1]

Rüfət Əhmədzadənin lirik şeirlərinin bir çoxu Səməd Vurğun, Mirzə Ələkbər Sabir, Süleyman Rüstəm, Hüseyn Arif, Osman Sarıvəlli və b. hörmətlə yanaşdığı, sevdiyi sənət adamlarına həsr olunmuşdur ki, yaradıcılığının inkişaf meyillərində, üslub və dinamikasında da bu sənətkarların təsiri özünü açıq-aydın göstərir. Bununla belə şairin poetik irsinin böyük bir hissəsi, o cümlədən ssenariləri, səhnəcikləri, komediyaları satira ilə, komik gülüşlə bağlıdır və fəaliyyətinin əhəmiyyətli bir bölümünü əhatə edən "Kirpi" satirik jurnalının ruhunun, assosiativ xüsusiyyətlərinin bu yaradıcılığın inkişafında aparıcı mövqeyi daim öndədir.

Sovet dövründə məqsədyönlü satirik mətbuata daha çox ehtiyac duyulurdu. Moskvada 1920-ci illərdə "Raboçaya qazeta"nın əlavəsi kimi çıxan və sonralar nisbi sərbəstlik qazanaraq "Krokodil" adı ilə dərc olunan ilk sovet satirik jurnalı müəyyən zaman ərzində siyasi məsələlərə senzura yasaqları qoyulmaqla ictimailəşmiş və populyarlıq qazanmışdı. Jurnalın səhifələrində ilk dövrlərdə siyasi məsələlərə, hətta ayrı-ayrı məsul partiya işçilərinə yönəlmiş satirik yazılara rast gəlmək olurdusa, 30-cu illərdən sonra, xüsusilə repressiya dönəmində daha çox məişətlə, bürokratizmlə, geriliklə bağlı məsələlər tənqid olunur və peşəkar karikaturistlərin illüstrasiyaları jurnalın ictimai nüfuzunu daha da artırırdı. "1930-cu illərin ortalarında karikatura hədəfləri daha çox kiçik və ikinci dərəcəli xadimlər olurdu və onların tənqidi də getdikcə yumşalır və kəsərsizləşirdi".[2]

Azərbaycanda 1952-ci ildən ana dilində "Kirpi" adlı, ayda iki dəfə işıq üzü görən satirik məcmuə dərc olunmağa başlamışdı. İlk nömrəsinin üz qabığında çiynində mürəkkəbli avtoqələm daşıyan ziyalı geyimli kirpi obrazının qoltuğunda "Krokodil" jurnalı ilə təsviri təsadüfi deyildi, məcmuə ölkənin baş satirik orqanının struktur nümunəsinə uyğun hazırlanmışdı. Kiçik məmurların, naqis sayılan məişət qüsurları, bürokratik əngəlləri, alverçilik, möhtəkirlik, sosial yaramazlıqlara ünvanlı tənqidindən irəli gedərək ictimai-siyasi, dövlət nüfuzuna xələl gətirəcək daxili qlobal məsələlərin işıqlandırılması ümumittifaq senzuranın qadağalarına məruz qalırdı. Gerçəkliklərin cəsarətli tənqidi, ictimai-siyasi qüsurların amansız ifşası cəsarətlə verilən "Molla Nəsrəddin" məcmuəsindən çox zəif olsa da, "Kirpi" müəyyən mənada sələfinin bəzi ənənələrini özündə daşıyırdı və burada jurnalın ilk redaktoru

[1] Rüfət Əhmədzadə. Məhəbbətlə, gülüşlə. – Bakı: Yazıçı, 1981, s.18
[2] Сатира в СССР. https://ru.wikipedia.org/wiki/%D0%A1%D0%B0%D1%82%D0%B8%-D1%80%D0%B0_%D0%B2_%D0%A1%D0%A1%D0%A1%D0%A0#cite_note-1

Əvəz Sadıqla bərabər, dövrün artıq söz, sənət sahibi kimi tanınmış S.Vurğun, S.Rüstəm, R.Rza, S.Rəhimov, S.Dağlı, S.Rəhman və digər ədəbiyyat adamlarının jurnalın milli koloritinin, spesifikasının formalaşmasında böyük səy göstərdiklərini xüsusi qeyd etmək lazımdır. Jurnal kollektivinin, redaksiya heyətinin ən yaxşı xüsusiyyətlərindən biri də istedadlı gəncləri axtarıb tapması, məcmuənin məqsədyönlü işinə cəlb etməsi idi.

Rüfət Əhmədzadə də belə bir zamanda Əvəz Sadığın dəvətilə, dövlət tərəfindən müəyyən səlahiyyətlər verilmiş, dövrünün nüfuzlu "Kirpi" jurnalına işə götürülmüş və satira yaradıcılığında jurnalın karikaturist səciyyəsinə sadiq qalmışdır. Satira bu baxımdan bəsitləşmişdi, bədii formalar açıq kinayə, sərt, hətta kobud tənqid ilə yoğrulur, gülüşün uğurlu üsullarına, qroteskin sənətkarlıq imkanlarına yer qalmırdı. Məşhur "Bəxtiyar" filminin bir epizodunda fırıldaqçı klub müdiri Ağabalanın dediyi "evin yıxılsın, "Kirpi" aforizmi əbəs yerə bir zərb-məsələ çevrilməmişdi. Doğrudan da, "Kirpi"nin səhifələrinə ünvanlı obyekt olaraq düşmək "ev yıxmaq" idi, "ictimai qınağın" bütün dəhşətlərini öz həyatında yaşamalı olacaq vətəndaş üçün bu, həqiqi bir həyat məsələsi sayılırdı.

R.Əhmədzadənin jurnalın qayələrinə müvafiq satirik yazıları şairin orijinal üslub və ifadə tərzilə seçilir. Ənənəyə uyğun olaraq müəyyən bir qüsura istehzalı münasibət bildirilir, lakin eyni zamanda mətnin içərisində fərdi problemin deyil, bir-birilə bağlı bütün sistemin mənzərəsi göz önündə canlandırılır:

Nə edim, keçmir işim, keçməsəm, hərgah kələyə,
Aktımın faktı üçün tülkünü saldım tələyə,
Qorxmuram, arxayınam, çünki müfəttiş lələyə,
Salacaq sayğaca dümdüz olacaq say, cücələr
Yığılın dövrəmə cibbildəşiniz, ay cücələr.

Ötən il bəddi işim, dəydi azar mal-qaraya
Düzü, gördüm batıram, sədri çağırdım haraya!
Orda töhmət alıb, əmrimi aldım buraya.
Məni siz bilməyiniz hər naşıya tay, cücələr!
Yığışın dövrəmə cibbildəşiniz, ay cücələr![1]

Əlbəttə, satirik poeziyanın estetik missiyası lirikadan fərqləndiyi kimi, oxucuda oyatdığı hissiyyat da fərqlidir. Jurnalın 25 illik yubileyinə həsr etdiyi "Yazmışam" şeirində şair "Kirpi"nin dilindən: "Üzdə fağırlıq eyləyən, dalda yedizdirən, yeyən, əyriyə düşmənəm deyən rüşvət alanı, dildə pəhləvan, təmizdə ləkə axtaranı, hər cür antipodların çıxınca canı yazmışam", – deyir.

[1] Rüfət Əhmədzadə. Məhəbbətlə, gülüşlə. – Bakı: Yazıçı, 1981, s.36

Yəni satira janrında qəhrəmanın obrazının tipik xüsusiyyətlərini açan situasiyanın olması vacibdir ki, Rüfət Əhmədzadənin satirik şeirlərinin əksəriyyətində bunu müşahidə etmək mümkündür. Şairin "Düşdü gözündən", "Bəziləri", "Yalan ha deyil", "Qonşudan qalma dala", "Sən özünçün eləsən, mən özümçün beləyəm", "Bunda olan ədaya bax", "Utanmır", "Cərimə topu", "Hələ bu harasıdır?", "Necədir?", "Altı otağımız var", "Qalıbdır" və bu qəbildən digər şeirlərində obyekt müəllifin təhkiyəsi ilə ifşa olunur, müəllifin açıq tənqidi vəziyyətə münasibəti təyin edir. "Sərxoşluq", "Möhtəkirin bolluqdan şikayəti", "Dələduzun dərdi", "Hələlik yazmıram", "Ölməyə vaxt tapdı dədəm", "Axtar təzə dayday mənə", "Vəsiyyət", "Xəyalplov", "Vay o gündən ki...", "Nəsihət", "Şəkk qulağım səsdədir", "Sığmazam", "Vəzifəm xətrinə", "Ot kökü üstündə bitər", "Sənin xətrinə qaldım", "Ortada baş dolandıraq" və s. şeirlərində isə obrazın dili ilə məsələyə münasibət bildirilir. Situasiya tənqid hədəfinin subyektiv mülahizələrilə oxucuya təqdim edilir və R.Əhmədzadənin bu cür bədii priyomu bir tərəfdən, bir şair olaraq onu Sabir ədəbi məktəbinin layiqli davamçısı kimi tanıdır, digər tərəfdən, onun qəhrəmanını birtərəfli, cansıxıcı karikatur bir tipaj olmaqdan xilas edir. Bəzən belə canlı, həyatdan bərk yapışan, bütün yaşam imkanlarını nəyin bahasına olur olsun əlində toplamağa çalışan, düşünməyi bacaran tənqid hədəfləri müəyyən mənada oxucuda, tamaşaçıda rəğbət də doğura bilir. Sonralar əsasında "Şirbalanın məhəbbəti" adlı film çəkilmiş "Sonuncu məhəbbət" komediyasının qəhrəmanı Şirbala da bu cür maraqlı xüsusiyyətlərə malik komik obrazdır.

1970-80-ci illərdə Azərbaycan televiziyasında efirə gedən "Səhər görüşləri" adlı əyləncəli-musiqili televiziya verilişlərinin əksəriyyətinin səhnəcik və etüdlərinin, novellarının mətni Rüfət Əhmədzadənin qələminin məhsulu idi. Bu cür səhnəciklərin əsas qayəsi şairin "Bildirçinin bəyliyi", "92 dəqiqə gülüş" musiqili komediyalarında olduğu kimi, tamaşaçını gülə-gülə naqislikdən ayırmaq, mühafizə etmək idi ki, müəllifin professional satirik tərzində bu məqsəd özünü lazımi şəkildə doğrulda bilirdi.

Ömrünün sonuna doğru qələmə aldığı "Mən qocalanda" şeiri qocalmağa macal tapmamış Rüfət Əhmədzadənin sanki çətinliklərlə dolu həyatına bir vida sözü idi:

Elə bil görürəm şirin bir yuxu,
Ötən günlərimi yada salanda,
Heyif ki, tez keçdi ömrümün çoxu,
Dünya gözəlləşdi mən qocalanda.[1]

[1] Rüfət Əhmədzadə. Məhəbbətlə, gülüşlə. – Bakı: Yazıçı, s.20

Rüfət Əhmədzadə müasir satirik poeziyamızın sözün əsl mənasında öncül simalarından, Sabir ənənələrinin layiqli davamçılarından olmuşdur. İstedadlı şair yaradıcılığının, ömrünün məhsuldar bir zamanında həyatı tərk etsə də, Azərbaycan ədəbiyyatı tarixinə özünəməxsusluğu ilə seçilən bədii irs qoyub getmişdir.

KƏLƏNTƏR KƏLƏNTƏRLİ
(1933-2012)

Ədəbiyyata böyük Səməd Vurğunun xeyir-duası ilə qədəm qoymuş Kələntər Kələntərli çeşidli bədii nümunələrdə qələmini sınamaqla mədəniyyət tariximizə şair, nasir, dramaturq, publisist və mütərcim kimi daxil olmuş, poetik nümunələrində xalqın qayğılarından, onun problemlərindən, Xəzəri fəth edən neftçi əməyindən, Azərbaycanın əsrarəngiz təbiətindən, onun flora və faunasından, dağından, düzündən, dənizindən, Vətəni Azərbaycana – Qarabağa, Şuşaya və s. həsr etdiyi şeirlərində vətənpərvərlik hisslərinin çağladığını görmək mümkündür. O, Azərbaycan memuar ədəbiyyatında özünəməxsus dəst-xəti və fərqli mövqeyi ilə seçilir.

Həyatı. Kələntər Şıxkərim oğlu Kələntərli 20 mart 1933-cü ildə Qusar rayonunun Sudur kəndində anadan olmuşdur. Sudur kənd orta məktəbinin 7-ci sinfini bitirdikdən sonra 5 il kolxozda işləmiş, 1950-1954-cü illərdə Quba Pedaqoji Texnikumunda orta ixtisas təhsili almışdır. Azərbaycan poeziyasının bayraqdarı Səməd Vurğunla da məhz bu təhsil ocağında tanış olmuşdur. 1954-1958-ci illərdə Azərbaycan Pedaqoji İnstitutunun Ədəbiyyat fakültəsində təhsil almağa başlasa da, çətin ailə vəziyyəti ilə əlaqədar ali təhsilini başa vura bilməmiş, dördüncü kursdan institutdan çıxıb işləməyə məcbur olmuşdur.

Bundan sonra Kələntər Kələntərli 1959-cu ildə Azərbaycan Elmlər Akademiyasında, 1960-cı ildən isə "Mübariz keşikdə" qəzetində şöbə müdiri vəzifəsində və 1961-1962-ci illərdə "Azərbaycan gəncləri" qəzeti redaksiyasında ədəbi işçi vəzifəsində çalışmışdır.

Kələntər Kələntərli 1962-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü olmuş, 1963-1964-cü illərdə AYB-nin nəzdində fəaliyyət göstərən Natavan klubunun direktoru işləmişdir. K.Kələntərli 1959-cu ildən 1966-cı ilin sonuna kimi "Azərbaycan gəncləri" qəzetinin M.Ə.Sabir adına Kitabxanada təşkil etdiyi "Ədəbi məclis"in rəhbəri kimi fəaliyyət göstərmişdir. 1966-1968-ci illərdə Azərbaycan Dövlət Nəşriyyatında İncəsənət şöbəsinin müdiri, 1984-1986-cı illərdə "Qızıl Şərq" mətbəəsində korrektor, 1990-1992-ci illərdə "Amal" qəzetində şöbə müdiri vəzifəsində çalışmışdır.

O, yüksək erudisiyası və sönməz enerjisi sayəsində Azərbaycanda şair, yazıçı, publisist, memuarçı və filoloq kimi məşhurlaşmış, onlarla təfəkkür sahibləri, o cümlədən sonralar ədəbiyyat sahəsində yaxşı tanınmış F.Kərimzadə, S.Məmmədzadə, Ə.Hacızadə, İ.Məlikzadə, F.Qoca, M.Süleymanlı, F.Sadıq, S.Rüstəmxanlı, İ.İsmayılzadə, Ə.Salahzadə, T.Abdin, Q.Köçərli, S.Sərxan, R.Rövşən və b. həmin ədəbi məclisin yetirmələri kimi ədəbiyyata gəlmişlər. Onların ədib kimi yetişib, mətbuatda çıxış etmələrində Kələntər Kələntərlinin böyük xidmətləri olmuşdur. Həmin dövrlərdə K.Kələntərlinin Azərbaycan ədəbiyyatının təbliğ olunmasında böyük xidməti vardır. 1967-

1973-cü illərdə Kələntər Kələntərli Respublika "Bilik" Cəmiyyətinin ən fəal mühazirəçilərindən olmaqla, respublikamızın müxtəlif regionlarında və yerlərində M.P.Vaqif, M.Ə.Sabir, C.Cabbarlı, S.Vurğun, R.Rza, Ə.Kərim və başqa sənətkarlarla, bədii ədəbiyyatla, yaradıcılıq prosesi ilə bağlı maraqlı mühazirələr oxumuş, dinləyicilərin rəğbətini qazanmışdır.

Kələntər Kələntərli 1993-cü ildən Azərbaycan Respublikası Dövlət Televiziya və Radio Verilişləri QSC-də radionun Ləzgi redaksiyasının baş redaktoru kimi fəaliyyət göstərmişdir. 2006-cı ildə isə o, Azərbaycan Respublikasının "Tərəqqi" medalına layiq görülmüşdür. Kələntər Kələntərli 22 noyabr 2012-ci ildə dünyasını dəyişmişdir.[1]

Yaradıcılığı. Kələntər Kələntərli bədii yaradıcılığa 1950-ci illərdən başlamışdır. O, bədii-poetik və sənədli-publisistik əsər və məqalələrini Azərbaycan və ləzgi dillərində yazmışdır. Şeirləri, poemaları, ədəbi-tənqidi və bədii-publisistik məqalələri Azərbaycan media məkanında yaxşı tanınan "Azərbaycan", "Qobustan", "Ulduz" və b. jurnallarda, eləcə də respublikada nəşr olunan çoxsaylı dövri mətbuat orqanlarında – "Ədəbiyyat qəzeti", "Xalq qəzeti", "Mədəniyyət", "Oğuz eli", "Azərbaycan müəllimi" və s. qəzetlərdə işıq üzü görmüşdür. Müəllifin "Dağlar silkələndi", "Şöhrət axtaran xanım", "Lənət şeytana, yaxud belə-belə işlər" kimi mənzum pyesləri xalq teatrlarında səhnələşdirilmişdir. Onun "Şuşa geri alınmasa" və "Ağ atlı oğlan" adlı əsərləri mövzu və problematika baxımından vətənpərvərlik mövzusundadır, oxucu diqqətini özünə daha yaxından cəlb edən əsərlərdəndir.

Quba Pedaqoji Texnikumunda təhsil aldığı dövrdə – 1950-ci ildə xoş təsadüf nəticəsində qarlı bir qış günü görkəmli şair Səməd Vurğun Qubaya gəldikdə burada çıxış edən Kələntər Kələntərli onun diqqətini cəlb edir. Kələntər nitqini bitirdikdən sonra Səməd Vurğun ona deyir. "Ay ləzgi balası, əgər Azərbaycan dilində mükəmməl bilsən, hətta şeir də yaza bilərsən". Bundan sonra Kələntər "Kənd nəğmələri" adı altında 12 şeir yazıb, Səməd Vurğuna ünvanlayır. Aradan bir qədər keçmiş Kələntəri gənc yazıçıların Respublika müşavirəsinə dəvət edirlər. S.Vurğun onu şair Osman Sarıvəlli ilə tanış edir və ona ərkyana "Bu ləzgi balasından muğayat ol, zənnim məni aldatmaz", – deyir. Beləcə, Kələntər Kələntərli 1950-ci illərin əvvəllərindən bədii yaradıcılığa başlayır. Ali məktəbdə təhsil aldığı zaman Osman Sarıvəlli, İsmayıl Şıxlı, Mikayıl Rəfili, yazıçı və tədqiqatçı alim və ictimai-siyasi xadim Şıxəli Qurbanovla tanış olur, onlar Kələntərə ədəbiyyata gəlişi üçün zəruri zəmin yaradırlar.

Beləliklə, Kələntər Kələntərlinin ilk dəfə "Arzu" adlı şeiri 1955-ci ildə "Ədəbiyyat və incəsənət" qəzetində işıq üzü görür. Məhz belə debütdən sonra

[1] Sədaqət Kərimova. Qusar və qusarlılar (Ensiklopedik toplu). – Bakı: Ziya, 2011; Kələntər Kələntərli – 90 (1933-2012), s.150-151

1963-cü ildə Kələntər Kələntərlinin ilk kitabı – "Dəniz nəğmələri" oxuculara təqdim edilir. Özündə iki rubrikanı birləşdirən "Dəniz nəğmələri" və "Ürəyimdən gələn səslər" silsiləsinə, müəllif müharibə əleyhinə yazılmış "Onun yadigarı" adlı lirik poemasını daxil etmişdir. K.Kələntərlinin "Dəniz nəğmələri" kitabında təqdim etdiyi "Salam, dəniz", "Gəmi gedir...", "Hər şey suyun üstündə", "Nə danışır ləpələr?", "Dənizi sakit gördüm", "Çoşqun sular öyünməsin", "Xəzər mavi nəğmədir", "Əlvida desəm də...", "Gül satan qız", "Kiçik daxma", "Göyü duman örtübsə...", "Mən uşaq olmamışam", "Nənəm nağıl deyərdi", "Mən hər sizə gələndə" və s. poetik nümunələrdə şairin ovxarlı hecalar axtarışına çıxıb, uğurlu gedişlərlə bağlı daha çox düşündüyünü görmək mümkündür. Dediklərimizin sübutu kimi məcmuənin ilk şeiri "Salam, dəniz" şeirində müəllifin işlətdiyi orijinal poetik deyimlərin ləngərinə diqqət yetirək:

Sən, gözəllər gözəlisən, salam, dəniz, salam, dəniz!
İstəyirəm öz şeirimlə qoynuna yol salam, dəniz.
İstəyirəm mavi cildli kitabını varaqlayım,
Varaqlaya-varaqlaya adına dastan bağlayım.
İstəyirəm qəvvas olub dərinlərə baş vurum mən,
Könüllərə pay göndərim qoynundaki incilərdən.[1]

Şair üçün dəniz heç də yalnız gözəllər gözəli deyil, o həm də onunçün mavi cildli kitabları varaqlayıb, ondan dastan bağlamaq vasitəsi, qoynundakı incilərdən könüllərə pay göndərilən, onu ilhamlandıran məkan, ənginlikdir. Eyni zamanda müəllif bu şeirlə "Dalğa" və "Ləpə" ifadələrini ustalıqla işlədib ilk baxışda kontrastlar yaratsa da, "onlarla dostluq qurduqdan sonra", dənizin üzü dönüb onu tufanlarla qarşılasa da, şairin əsrlərin tufanından özünü hifz etmiş nəğmələri ilə həmin tufanı qarşılamaq iqtidarında olduğunu bildirir. Zənn edirik ki, müəllif burada orijinal deyim, özünəməxsus yanaşmalara imza atmağı bacarır.

"Gecə növbəsində" şeirində də müəllifin yetərincə fərdi və özəl poetik tapıntıları var:

Axşam düşən kimi günəş elə bil.
Dincini almağa dənizə endi.
Qağayılar sanki sulara deyil
Göy məxmər döşənmiş bir düzə endi.[2]

Müəllif üçün dəniz qeyri-adi bir stixiya kimi nəzərdən keçirilməklə özündə gözəlliyi, gücü, qeyri-adi landşaftı əks etdirir. Dənizlə günəşin,

[1] Kələntər Kələntərli. Dəniz nəğmələri. – Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1963, s.5
[2] Yenə orada, s.11

qağayılarla suların xüsusi aurasını yaradır. Dəniz suyunun rənginin "göy məxmər döşənmiş" düzlə eyniləşdirilməsi, rəng palitralarının bolluğu, bir tərəfdən şairi səksəkəyə salırsa, digər tərəfdən gücü və gözəlliyi ilə özünə cəlb edir.

Kələntər Kələntərli məhsuldar bədii-poetik fəaliyyəti dövründə maraqlı mövzulara həsr olunmuş yüzlərlə şeir – "Övlad həsrəti", "Onun yadigarı", "Yuxusuz gecələr", "Qar yağır", "Azadlıq eşqi", "Nəğmə yenə oxundu", "Dəniz nəğmələri", "Dəniz və məhəbbət", "Qırmızı bağ", "Ağrının ad günü", "Bənna idi atam mənim"; üç mənzum pyes – "Dağlar silkələndi", "Məhəbbət axtaran xanım", "Lənət şeytana..." və s. dram əsərlərinin müəllifi kimi tanınmışdır.

"Dəniz nəğmələri" kitabında təqdim etdiyi nümunələrin əksəriyyəti oxucu diqqətini özünə cəlb etsə də, "Kiçik daxma" şeirini uşaqlıq illərinin maraqlı çağlarına həsr etməklə nostalji poetik lövhələr yarada bilmişdir. Şeiri oxuyarkən sanki gözümüz önündə müəllifin yaşadığı daxmanın uğurlu mənzərəsi yaradılır:

Burda uşaq olmuşam, burda iməkləmişəm,
İlk dəfə anama da burda ana demişəm.
İlk dəfə bu daxmada bacım məni ovudub.
İlk dəfə bu daxmada ayaqlarım yer tutub.[1]

Doğulduğun evin obrazı dərin və düşündürücü simvolik anlayış olsa da, o, insan həyatının bütün maddi sferasını, qeyri-maddi aspektlərini, ailəni, ənənələri, dili, doğma vətəni, tarixi, mənəvi dəyərləri özündə necə əks etdirdiyini biz Kələntər Kələntərlinin nümunə gətirdiyimiz şeirinin mətnində yaxşı görürük. Burada ana, bacı, nənə və onun şirin nağılları Vətən sevgisi ilə paralel olaraq uğurla yaradılır. Kələntərin "Kiçik daxma" şeirində doğma daxmadakı valideynlər – nənə, baba və ailənin digər üzvləri ilə bağlılığı bu daxmanın müqəddəsliyini göstərir. Başqa sözlə, Kələntər şeirdə daxmanı özünün bir insan, gələcəkdə şair kimi fəaliyyətinin və fərdi mənəvi həyatının başlanğıc nöqtəsi kimi götürür.

"Ev" leksemi S.Yeseninin lirikasında bir neçə varintlarda daha böyük tezlik və sıxlıqla istifadə olunur. Onun yaradıcılığında ev mücərrəd – ümumiləşdirilmiş yer, məkanın simvolu kimi təqdim olunur ki, məhz bura insanın doğulub böyüdüyü yer olmaqla, həm də insan daim oraya qayıtmaq haqqında düşünür".[2]

Kələntərin adıçəkilən və digər bu tipli "Nənəm nağıl dəyəndə", "Güllələsin dağlar məni", "Qocalar yaşayır bizim Sudurda", "Dağların

[1] Kələntər Kələntərli. Dəniz nəğmələri. – Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1963, s.24
[2] https://cyberleninka.ru

döşündə gəldim dünyaya", "Bizim elimizin dağ kəndlərində", "Bənövşəm, dağlardır yurdun, məskənin", "Dağlara baxıram, bu Şalbuz dağı", "Vaxt vardı gecələr dağ kəndlərində" və s. şairin doğma elindən, obasından, Vətənindən, onların landşaftına tamaşa edib, necə vəcdə gəldiyinin şahidi oluruq. Odur ki, Kələntər Kələntərlinin əsərlərindəki doğma ölkəsinin, elinin-obasının böyük ustalıqla təsvirinə vurulursan.

1965-ci ildə Bakıda Kələntər Kələntərlinin "Öz qitəmi axtarıram" adlı digər bir poetik məcmuəsi nəşr olunur. Xalq şairi Osman Sarıvəllinin "O daha da yüksələcəkdir" mövzulu ön sözü ilə açılan bu kitabdakı ürək sözündə resenzent bunları qeyd edir: "K.Kələntərli şeirin, sənətin çətinliyini, şairin məsuliyyətini gözəl başa düşən və öz şeirləri üzərində ciddi işləyən şairlərimizdəndir. Məhz ona görə də Kələntərli sənət abidəsinin zirvəsini Şah dağın zirvəsinə bənzədib deyir:

Şeir də belədir, könlümə yatan
Ellərin könlünə çox vaxt yatmayır,
Aylar, illər boyu əlləşirəm mən,
Onun zirvəsinə əlim çatmayır.[1]

Osman Sarıvəlli resenziyada bundan sonra həm də onu da əlavə edir ki, "... təbiəti və insanları odlu bir ürəklə sevən həssas şair bundan sonra daha geniş tablolar, maraqlı həyat səhnələri yaradacaqdır. Öz dili, ifadəsi üzərində daha ciddi işləyəcək, o həm Şah düzündə, taxıl tarlarında, meyvə bağlarında çalışanları, həm də Şah dağı ətəklərində qoyun-quzu, mal-qara saxlayan, bolluq, abadlıq, maddi nemətlər yaradan qəhrəmanları eyni hərarətlə qələmə alacaqdır.[2]

"Öz qitəmi axtarıram" poetik məcmuəsi dördhissəli – "Dağ çiçəkləri", "Dəniz nəğmələri", "Mənim yaşıl Gürcüstanım" və "Ürəyim nə istəyir?" kimi rubrikalardan ibarət olmaqla eyniadlı poetik sərlövhə "Öz qitəmi axtarıram"la başlayır. Bu nümunələrlə yaxından tanış olarkən belə qənaətə gəlmək olur ki, Osman Sarıvəllinin ön sözdə qeyd etdiyi kimi şair əvvəlkindən fərqli olaraq bədii ifadə vasitələrindən doğru-dürüst istifadə etməklə, poetik fikrin yetkinliyinə qərar verir, söz və ifadələrdən qənaətlə yararlanmaqla, ifadə vasitələrini şeirin məzmun və mahiyyətinə uyğun istifadə edir.

"Öz qitəmi axtarıram"ın üçüncü bölməsi "Mənim yaşıl Gürcüstanım" şairin 17 müxtəlif adlar altında təqdim etdiyi əsərlərinin qayəsi, motivi, mahiyyəti, vəsfi Gürcüstan, onun ayrı-ayrı bölgələri, çayları, bağları, keçmişi, gələcəyi, yazıçıları, sənətkarları, insanları və s. haqqındadır.

[1] Kələntər Kələntərli. Öz qitəmi axtarıram. – Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1965, s.5
[2] Yenə orada, s.5-6

Kələntər Kələntərlinin şeirlərinin ideya və mahiyyətinə nəzər saldıqda görürük ki, onun yaradıcılıq nümunələrində yaşanmış duyğular, canlı xatirələr, lirik qəhrəmanın hiss və emosiyalarının zənginliyi, şair ürəyinin işıqlı guşələri, qəlblərdə oyatdığı özəl xatirələr, bu xatirələr fonunda ortaya qoyduğu insan ləyaqəti, humanizm duyğuları və s. müəllifin poetik fırçasının özünəməxsusluğu ilə doğulur, dünyaya gəlir. Adını qeyd etdiyimiz kitabın birinci bölməsi "Könlüm keçir Qarabağdan" özündə "Şuşam geri alınmasa", "Ağ atlı oğlan", "Mənim ürəyimin anası ölsün", "Generalla həsbi-hal", "Yaddan çıxır Qarabağ", "Müharibə davam edir", "Bu millətə bir gün ağla, ilahi", "Gözlə məni", "Vətən nəğməsi", "Kaş", "Haray dünya" və "Əlvida, köhnə il" kimi şeirlər daxil edilmişdir. Görün, şairin "Könlüm keçir Qarabağdan" silsiləsindəki "Şuşam geri alınmasa" şeirində vətənpərvərlik hissləri nə qədər cövlan edib, cuşa gəlir, hayı-harayı göylərə büləndolur:

Dirək olar ahım göyə,
Qəlbim şişə çəkiləcək;
Hər gün "Şuşam" deyə-deyə,
Yuxum ərşə çəkiləcək
Şuşam geri alınmasa.[1]

Şairin burada elə mətləblərə üz tutması ortaya çıxır ki, onlar əslində bu nümunənin bütün sətirlərində dominant olaraq ortada dayanır. Ləzgi xalqının nümayəndəsi Qarabağı, Şuşanı öz ürəyinin parçası, canının bölünməz hissəsi hesab edir. O, yuxarıda qeyd etdiklərimizdən savayı, Şuşa geri alınmasa, hər hansı bir xoş ilinin gəlməzliyinə, İbrahim xanın bir də öləcəyinə, Pənah xanın gorunun çatlayacağına, Natəvanın adını dilə gətirə bilməməyimizə, Xanın səsinin havalanmayacağına, "Qarabağ şikəstəsi"nin həmişəlik şikəst olacağına, tarın sarı simsiz qalacağına, mədəniyyət tariximizin başını yuxarı tuta bilməyəcəyinə inanır. Davam edərək hansı ağlı yetkinin "yoxdur yaram" deməyə, hansı kişinin "mən də varam" deməyə təpəri olmayacağına diqqət çəkir. Şuşanın geri alınmadığı təqdirdə Azərbaycan torpağında səliqə – sahman və şənlənən insanların olmayacağına, dostun qəmlənəcəyinə, düşmənin bizə güləcəyinə, dirilərin dərddən öləcəyinə, hətta ölülərin belə yasa batacağına, şairin özünün canının ağrı çəkəcəyinə, rahat ola bilməyəcəyinə diqqət yönəldir. Şuşanın geri alına bilməyəcəyini xalq faciəsi səviyyəsində ortaya qoyur. Düşünürük ki, "Könlüm keçir Qarabağdan" silsiləsindəki şeirlər Azərbaycan xalqı ilə ləzgi xalqının əsrlər boyunca dostluğunun və qardaşlığının qədim tarixi və bu dostluğun zəngin ənənələrinin olduğunu birmənalı şəkildə sübut edir. Və bu silsilədəki şeirlərlə

[1] Kələntər Kələntərli. Güllələsin dağlar məni... (şeirlər, poemalar). – Bakı: Təhsil EİM, 2000, s.12-13

bugünkü separatçılara, ləzgilərlə azərbaycanlılar arasında nifaq salmaq istəyənlərə öz dolğun mesajını ötürür.

K.Kələntərli Qarabağ və Şuşa ilə bağlı yazılmış əsərlərlə, heç şübhəsiz ki, bu hadisələrə qədər tanış idi. O, yaxşı bilirdi ki, belə bir ekzotik tarixi ərazidə Mir Möhsün Nəvvab, Xurşidbanu Natəvan, Ağabəyim ağa, Üzeyir Hacıbəyli, Nəcəf bəy Vəzirov, Əbdürrəhim bəy Haqverdiyev, Yusif Vəzir Çəmənzəminli, Cabbar Qaryağdıoğlu, Bülbül və digər bu kimi tarixi şəxsiyyətlər doğulmuş və onları vəsf etmişlər. Pənahəli xan tərəfindən bünövrəsi qoyulmuş bu şəhər Pənahabad, Qala, Şəhri-Şuşa, Şuşa və s. kimi adlanmışdır. Baba bəy Şakir, Qasım bəy Zakir və başqalarının yaradıcılığında "Şuşa" toponimi ilə bağlı mülahizələr yer almışdır. Qarabağ, Şuşa Azərbaycan xalqının milli qürurunun simvolu kimi tanınmış, qəbul edilmişdir.

Kələntər Kələntərlinin "Güllələsin dağlar məni..." kitabında adını çəkdiyimiz "Könlüm keçir Qarabağdan" rubrikasındakı nümunələrdən başqa, həm də digər iki rubrika "Dağlar göründü", "İlk məhəbbət mahnıları" və onları çevrələyən şeirlər, eyni zamanda "Poemalar" yer almışdır.

Şair Kələntər Kələntərli "Bu səfər bitən deyil..." əsərində ilk növbədə Əli Kərimli ilə bərabər, həm də öz taleyinin acı səhifələrini də varaqlamağı vacib hesab edir. Digər məqamlarla yanaşı, Kələntər Əli Kərimlə görüşünü xatırlayaraq yazır: "Bir gün nahar vaxtı görüşdük... Şəhərin mərkəzindəki bir neçə kitab dükanına baş çəkdik. Əli Kərim şair olmasına baxmayaraq, nəsrlə yazılmış əsərləri daha çox mütaliə edirdi. Özünün dediyinə görə, ilk mətbu əsəri də "Bərbər" hekayəsi olmuşdu... Yenilikçi və bənzərsiz şair kimi tanınandan sonra "Mavi nəğmənin sahilində" povestini və "Pillələr" romanını yazdı, poetik dilli nəsr nümunələri yaratdı. F.M.Dostoyevski, L.N.Tolstoy, V.Hüqo, O.Balzak, C.London, R.Taqor kimi klassiklər öz yerində, Qərbin Lui Araqon, Mardın dü Qar, Andre Stil, Ernest Hemenquey, Remark, Oldiqton, Kronn, Folkner, Henrix Böll, Marina Mayerova, Sadovyano və bir sıra başqa yazıçılar da onun maraq dairəsinə daxildir".[1]

K.Kələntərlinin memuar yazmaq bacarığını nəzərdən keçirdikdə onun uğurlu alındığı qənaətindəyik. Eyni zamanda şair burada nəinki öz həyatının yetərincə təzadlı və ağrılı tərəflərini, həm də Əli Kərimin insan, dost və şair obrazını uğurla yaradıb oxuculara təqdim edə bilir. K.Kələntərli yazır: "Əli Kərim hər şair adını daşıyanın şeirini, poemasını oxumaqda, habelə redaktə edib, çapa hazırlamaqda o qədər də fəal deyildi. İntellektual səviyyəsi kifayət qədər yüksək olan, poetik sözün, poetik obrazın dadını, tamını yaxşı bilən, öz yaşıdı şairlərin hamısından seçilən, xeyli ucada duran əsl şair orta istedadlı, orta səviyyəli, primitiv yazarların yazılarına gözucu belə baxmaq istəməzdi; bəzi-bəzi yekəxanaların, özündən müştəbehlərin, dikbaşların "şeirlərini"

[1] Kələntər Kələntərli. Bu səhər bitən deyil... – Bakı: Vektor, 2007, s.13

atardı, arxasında oturduğu masanın lap alt gözünə; o göz də olardı "şeirlər" qəbiristanlığı".[1] Kələntərlinin "Bu səfər bitən deyil" memuarı Əli Kərimin müəllifin özü ilə bərabər, həyat və yaradıcılığını əhatə etsə də, əslində mahiyyət etibarı ilə burada xeyli sayda Azərbaycan şair, yazıçı və sənət adamlarının realist cizgili portretləri oxuculara təqdim edilmişdir. Lakin bütün hallarda "Bu səfər bitən deyil..." memuarında Əli Kərim kamil insan, istedadlı poetik naxışlar ustası kimi əsərin episentrində dayanmışdır.

Kələntər Kələntərli qeyd etdiklərimizlə bağlı heç də işini bitmiş hesab etməmişdir. O, "Kövrək nəğmələr" adı altında "Unudulmaz dostum Əli Kərimin əziz xatirəsinə bağışladım", "Birinci nəğmə", "İkinci nəğmə", "Üçüncü nəğmə", "Dördüncü nəğmə" və "Beşinci nəğmə"də böyük Əli Kərimə olan mehrinin, ülfətinin, ünsiyyətinin yaddaqalan panoramını yaradır:

Neçə yol ömrünü varaqlamışam,
Ona yananlardan az yanmıram mən;
Neçə yol qəbrini qucaqlamışam,
Yenə ölümünə inanmıram mən.[2]

Kələntər Kələntərlinin "Bu səfər bitən deyil..." memuarında yuxarıda bildirdiyimiz kimi, həm də digər sənətkarların obrazları ilə rastlaşırıq ki, şair-publisistin yaratdığı bu surət və personajlar bu və ya digər sənətkarlarımızın həyat fəaliyyətinin ayrı-ayrı səhifələrini yaratmaq baxımından faydalıdır. Burada Əli Vəliyev, Hüseyn Cavid, Mikayıl Müşfiq, Əhməd Cavad, Səməd Vurğun, Süleyman Rüstəm, Rəsul Rza, Osman Sarıvəlli, Məmməd Rahim, Əhməd Cəmil, Zeynal Xəlil, Mehdi Hüseyn, Nəbi Xəzri, Ələkbər Salahzadə, İsa İsmayılzadə, Çingiz Hüseynov, Tofiq Bayram, Fikrət Qoca, Məmməd Araz, Cabir Novruz və b. vardır. Əlbəttə, onlardan ən parlağı isə, təbii ki, Əli Kərim və onun büllur düşüncəsinin məhsulu olan poetik fikirləri, həyata fərdi münasibətinin təzahürü ortada görünür.

Etibar Sturvi yazır: "Kələntər Kələntərli yaradıcılığının palıd ağacına bənzəri var: şairin ustadları bu ağacın kökləri, ərsəyə gəldiyi mühit – köklərin yayıldığı torpaq, yaradıcılığına verilmiş qiymət, barəsində yazılmış yazılar – palıdın gövdəsi, haqqında deyilmiş ürək sözləri isə onun budaqlarıdır... "Ustadlarım, ilham mənbəyim" adlı fəsildə K.Kələntərli öz müəllimləri Səməd Vurğun, Osman Sarıvəlli, Mehdi Hüseyn, Əkrəm Cəfər, Əkbər Ağayev, Süleyman Rüstəm, İsmayıl Şıxlı, Bayram Bayramov, Nəbi Xəzri, Bəxtiyar Vahabzadə və digərləri barədə söz açır, bu şəxsiyyətlərin şairin həyatında oynadıqları rolu zərgər dəqiqliyi ilə xatırlayır".[3]

---

[1] Kələntər Kələntərli. Bu səhər bitən deyil... – Bakı: Vektor, 2007, s.23
[2] Yenə orada, s.156
[3] Kələntər Kələntərli – 75. Dağ parçası. – Bakı: Vektor, 2008, s.3

K.Kələntərlinin lirik şeirlərində biz onun mükəmməl portret yaratma məharətini görürük. Şairin poetik fırçasında dağ, dərə, çay, dəniz, bulaq, meşə, tala, kənd, daxma, gül, çiçək və s. hamısı öz rənglərinin naxışları, bu naxış və ilmələrin bitkinliyi və aydınlığı ilə yadda qalır. Onun bədii-poetik istedadı ilə yanaşı, həm də dürüst müəllif müşahidələri poeziyanın hər bir detalına, ünsürünə, kiçik elementinə şairlik sədaqətinin nəticəsidir.

K.Kələntərlinin şeirlərinin öz rəngləri, öz naxışları var. Onun şeirlərinin naxış və boyalarını yaratdığı nümunələrdən təcrid etsək, Kələntərli fərdiliyi heçə enər, özünəməxsus səslənişini, ahəngini, harmonik təsirini itirər. Çünki Kələntərlinin şeirləri şairin özü kimi saf və səmimidir. O, bizim hamımızın dəfələrlə gördüyümüz Lalə adı daşıyan qıza və düzlərdə, çöllərdə, yamaclarda, dağ döşündə bitən laləyə fərqli yöndən yanaşıb, onlar arasında bir bütövlük, bölünməzlik yaradır. Şair Lalə qızla lalə gülünün fərdi keyfiyyətlərini müşahidə etməklə, onları mənalandırmaq baxımından, doğma kəndinin yaylaqlarındakı auranı yaradır. Doğma diyarda Lalə adlı qızla görüşü, təbiətdəki lalə gülü qəlbini ruhlandırır, hisslərini riqqətə gətirir, təbiətin özünəməxsusluğunu, ətrini, lalə gülünün rənglərini ləzgi qızlarının yanaqlarında vəsf edərək maraqlı bir tablo yaradır.

Şahdağ şairin əsərlərində onun qəddinin dik durduğu, qürurunun cövlan etdiyi yerdir, Şahdağ burada, bir tərəfdən, sənətkarın doğma yurdu, Azərbaycanın mənzərələrinə baxıb, həzz aldığı məkan, ata yurdudursa, digər tərəfdən, içindəki nigaranlıq, narahatlıq və nisgilin rənglərididirsə, üçüncü bir tərəfdən, güvənc, qürur və iftixar etdiyi yerdir. Baxın, görün şair "dağ" obrazını, daha doğrusu, Şahdağı necə bir şəkildə vəsf etməyə qərar verib:

Deyirəm o çəmən, o dağ, o dərə,
Hər zaman, hər yerdə sirdaşım olsun!
Dünyadan köçəndə qoca Şahdağı
Mənim əbədilik başdaşım olsun!..[1]

Kələntərli əksər şeirlərində daim sadə ifadələrdən istifadə etməyə üstünlük verməklə nəinki dağın, daşın, dərənin, həm də göz qamaşdırıb, uzandıqca uzanan çöllərin özünəməxsus palitrasını və həmin yerlərlə bağlı sonsuz məhəbbət hissini yarada bilir. Dağ şairin poetik şüurunda monumentallıq və dözümlülük simvolu, yüksəklik və bütövlük, onun mənəvi gücü və aramlılığı kimi çıxış edir. Dağ Kələntərin daha sonsuz ənginliklərə üz tutan yüksək mənəvi idealı ilə eyniləşir, assosiasiya olunur. Oranın təmiz havası fikir və düşüncənin gümrahlaşmasına səbəb olub, hisslərini yeniləndirən, onun həyatın sınaqlarından çıxıb, daha yüksəklərə can atmasının simvolu

[1] Kələntər Kələntərli. Öz qitəmi axtarıram. – Bakı: Azərnəşr, 1965, s.17

kimi əzəmətlidir. Məhz buna görə də, o, dünyadan köçəndə Şahdağının ona əbədi olaraq başdaşı olmasını arzulayır.

Kələntər Kələntərlinin "Seçilmiş əsərləri" səkkiz cildliyinin birinci cildinə ön söz yazmış professor Şamil Vəliyev şairin nəinki əsərlərinin üzərində doğru-dürüst təhlillər aparmış, həm də sənətkarın özünəməxsus kimliyinin mahiyyətini dərindən təhlil etməyə çalışmışdır: "K.Kələntərli daxilən, ruhən azad adamdır... Onun şeir, poema, pyes və memuarlarında azadlıq duyğusu qırmızı xətlə keçir. Şair "İnsanlara azadlıq, millətlərə hürriyət" söyləyən Azərbaycan maarifçi-demokratlarının davamçısı kimi çıxış edir, "xeyir fikir, xeyir söz, xeyir əməl" (Zərdüşt) ideyasının müasir gerçəkliyə təbliğinə xidmət göstərir, "birlik, bərabərlik, qardaşlıq dünyasının qurulmasına çalışır".[1]

Kələntər Kələntərlinin şeir və poemalarında biz yüksəklərə pərvaz edən romantik duyğuların şahidi oluruq. Əlbəttə, biz Kələntərlinin romantizmində Corc Bayron, Uilyam Vordsvort, Petel Şelli, İohann Höte, Aleksadr Puşkin, Mixail Lermontov, Namiq Kamal, Şami Paşazadə Sezai, Abbas Səhhət, Məhəmməd Hadi, Hüseyn Cavid dəst-xətini axtarmasaq da, ümumən götürdükdə şairin yaradıcılığının özəl və diqqətçəkici olduğu qənaətindəyik. Sənətkarın Qusara, Sudura, bütövlükdə götürdükdə Azərbaycanın əsrarəngiz təbiətinə həsr etdiyi şeirlərində şairin yaratdığı romantik obrazlar bizimlə hər dəfə sənətkarın təklif etdiyi, məsləhət bildiyi dillə danışır.

K.Kələntərlinin peyzaj lirikasında durnalara həsr etdiyi şeirdə təbiət təsvirinin çeşidli tərəfləri işıqlandırılır. Kələntər, bir tərəfdən, kənd, təbiət təsvirinin nəğməkarıdırsa, digər tərəfdən, təbiət obrazını bir bütöv halında oxuculara təqdim edir. Bu mənzərəyə şairin "Durnalar" mənzuməsində nəzər salaq:

Yenə dağ döşünə düşdü təzə qar,
Donunu qızıldan biçdi çöl, çəmən:
Yenə qatar-qatar uçur durnalar,
Əllərim qoynumda dayanmışam mən.[2]

Müasir bədii-poetik texnologiyalar bu tipli romantik nümunələrin istiqamətini dəyişsə də, K.Kələntərlinin baxışlarında durnalar obrazının özünəməxsus aurası uğurla yaradılmışdır. Məlum olduğu kimi, Azərbaycan poeziyasında durnalar mövzusu geniş yayılmışdır. Bu mövzuda Vidadi, Vaqif, Q.Zakir, Növrəs İman, C.Cabbarlı, S.Rüstəm, M.Rahim, N.Xəzri, N.Həsənzadə və b. maraqlı və orijinal nümunələr yaratmışlar.

[1] Kələntər Kələntərli. Seçilmiş əsərləri. Səkkiz cilddə, I c. – Bakı: Azərbaycan, 2010, s.18
[2] Kələntər Kələntərli. Güllələsin dağlar məni... (şeirlər, poemalar). – Bakı: Azərbaycan, 2000, s.143

K.Kələntərlinin "Seçilmiş əsərləri"ndə diqqətçəkən bir analitik material da yer almışdır. Təqdim olunmuş "Sevirəm səni, poeziya" adlı məqalədə müəllifin poeziya və onunla ülfəti, ünsiyyəti dilə gətirilməkdədir. Burada K.Kələntərlinin poeziya ilə olan mübhəm münasibətləri göstərilərkən o, poeziyaya müraciət edərək deyir: "Poeziya! Əlimə qələm alıb ilk misranı, ilk şeir adlı neməti ərsəyə gətirdiyim gündən dincliyimi bir dəfəlik dincə qoymusan, qəlbimin rahatlığı ilə həmişəlik vidalaşmışam... Leylini dəlicəsinə sevən Məcnundan betər sevirəm səni...

Sən mənim adım – sanım, şanım – şöhrətim, varım – dövlətim, arzum – istəyim, ümidim – inamım, arım – namusum, qeyrətim – vicdanım, bir sözlə, başımın ucalığısan... Sənin dostun "mənim ən əziz dostum, sənin düşmənin mənim ən qəddar düşmənimdir, Poeziya!.."[1]

Şairin "Sevirəm səni, Poeziya!" adlı məramnaməsindən və poetik manifestindən çıxış edərək deyə bilərik ki, Kələntər Kələntərli, doğrudan da, özünün cismani, fiziki mahiyyətini poeziyada, ona vurğunluğunda görmüş və qarşısında təzim etmişdir. Eyni zamanda sənətkarın dünya klassiklərinin adlarını sıralaması da, onun mədəniyyət korifeylərinin yaradıcılığına, onların kredosuna yaxından bələd olduqlarının ifadəsi kimi dərk və qəbul edilməlidir.

Azərbaycan söz sərraflarının çoxu K.Kələntərlini şair kimi görür, qəbul edirdi. Xalq şairi Fikrət Qoca "Ədəbiyyat qəzeti"nin 27 noyabr 1992-ci il sayında Kələntər haqqında yazırdı: "…Kələntər Kələntərli ləzgi xalqının böyük şair oğludur. Başı bəlalar çəkmiş şair Kələntər, eyni zamanda azərbaycanlıdır. Azərbaycanın şair balasıdır. Onun şeirləri hər iki dildə rəvanlığı, axıcılığı ilə fərqlənir".[2]

Kələntər Kələntərlini hələ radioda işlədiyi vaxtdan üzü bəri tanıyan Savalan Talıblı şairin həyat və yaradıcılığına həsr etdiyi məqaləsində yazır ki, mən özüm şəxsən onun duzlu, koloritli söhbətlərini çox eşitmişəm, radioya çox bağlı idi... Onun şairliyi qədimlərdən gəlmişdi. Azərbaycan ədəbiyyatının dəyərlərini tam mənimsəmişdi. Dünya ədəbiyyatını yaxşı bilirdi...

Savalan Talıblı Kələntər Kələntərli ilə yaxından tanış olduğundan haqqında həm də bunları söyləmişdir: "O, Azərbaycan xalq poeziyasını əzbər bilirdi. Şeirləri Azərbaycan dilində doğulsa da, ləzgicə yazmağı da unutmurdu".[3]

Kələntər Kələntərli orijinal poetik yaradıcılıq, publisistik əsərlər və məqalələrlə yanaşı, həm də ləzgi yazıçılarının şeir və hekayələrini Azərbaycan dilinə tərcümə edib oxuculara təqdim etmişdir. 1979-cu ildə

[1] Kələntər Kələntərli. Seçilmiş əsərləri. Səkkiz cilddə, I c. Şeirlər. – Bakı: Azərbaycan, 2010, s.26-32

[2] Kələntər Kələntərli. Əyri oturaq, düz danışaq. "Xalq qəzeti", 1991, 14 dekabr

[3] Savalan Talıblı. Şair Kələntər Kələntərlinin xatirəsinə. "Ədalət" qəzeti, 2012, 26 dekabr, s.6

“Yazıçı” nəşriyyatında çap etdirdiyi “Şirin nübar” kitabında o, xeyli ləzgi müəlliflərinin əsərlərini dilimizə çevirmişdir.

Azərbaycan və ləzgi poeziyasının tanınmış nümayəndəsi Kələntər Kələntərli böyük sənətkar qəlbi ilə hər iki xalqın poetik mədəniyyətinin yüksəlməsinə və cilalanmasına xidmət etmişdir. Onun əsərlərinin dili saf su qədər tərtəmizdir. Kələntər Kələntərli Azərbaycan dilinin bütün leksikasından, onun bədii-ifadə vasitələrindən, ibarəli ifadələrindən əsərlərində yerli-yerində istifadə etmişdir.

HÜSEYN KÜRDOĞLU
(1934-2003)

XX əsrin ikinci yarısında çoxşaxəli yaradıcılığı ilə seçilən, şair, ədəbiyyatşünas və folklorşünas alim kimi tanınan Hüseyn Kürdoğlunun bədii yaradıcılığı və elmi əsərləri milli ədəbi irsimizin dəyərli səhifəsidir.

Həyatı. Hüseyn Kürdoğlu (Hüseyn Həsən oğlu Alışanov) 1934-cü il 15 iyun tarixində Laçın rayonunun Molla Əhmədli kəndində anadan olmuşdur. Molla Əhmədli kənd yeddiillik, Ağdam şəhər 1 saylı orta, Laçın şəhər və Qubadlı rayonunun Xanlıq kənd məktəblərində oxumuş, Azərbaycan Dövlət Universitetinin Filologiya fakültəsində ali təhsil almışdır (1953-1958). Əmək fəaliyyətinə Azərbaycan Televiziya və Radio Verilişləri Komitəsində ədəbi dram şöbəsinin redaktoru kimi başlamışdır. Sonra Azərbaycan EA Şərqşünaslıq İnstitutunda kiçik elmi işçi vəzifəsində işləmiş (1960), "Müasir Kürd şairi Abdulla Qoranın poeziyası" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir (1966). Bir müddət İnstitutun İran ədəbiyyatı şöbəsində böyük elmi işçi vəzifəsində çalışmış (1968-1993), 1993-cü ildən ömrünün sonunadək Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda işləmişdir.

Hüseyn Alışanov yaradıcılığa erkən yaşlarından başlamışdır. İlk şeirləri Laçın və Qubadlı rayon qəzetlərində çap olunurdu. 1950-ci ilin noyabr ayında Moskvada keçiriləcək Azərbaycan ədəbiyyatı dekadası münasibətilə "Azərbaycan gəncləri" qəzeti gənc şairlərdən Hüseyn Hüseynzadə, Gəray Fəzli, Əliağa Kürçaylının və Hüseyn Alışanovun şeirlərini dərc etmişdir. Ucqar dağ kəndində 8-ci sinifdə oxuyan məktəb şagirdinin tələbkar mərkəzi mətbuatda səkkiz bənddən ibarət "Gözəldir" rədifli qoşmasının çıxması əlamətdar hadisə idi.[1] Bu qoşma Hüseyn Alışanovun poetik istedadından və gələcək şair taleyindən xəbər verirdi.

Hüseyn Kürdoğlu uşaqlıq illərini belə xatırlayır: "Ən xoşbəxt günlərim yaylaq alaçıqlarında keçirdiyim günlər idi. Bizim alaçıqda tez-tez aşıq məclisləri qurulardı. Atam aşıqpərəst bir adam idi... Məndə söz qoşmağa ilk həvəs oyadan məhz aşıq məclisləri olmuşdur".[2]

El ruhunun daşıyıcıları aşıqlar, aşıq mühiti sonralar Hüseyn Kürdoğlunun yaradıcılığının bədii-estetik tutumunu formalaşdırmışdır. Onun doğulduğu kəndin aşıqları bütün Qarabağda məşhur olmuşlar. Aşıq Nəcəf, Aşıq Salman, Aşıq Dadaş kimi sinəsində xalqımızın söz sənətini yaşadan el sənətkarları Hüseynin həyata baxışını, bədii zövqünü formalaşdırmışdır.

Hüseyn Kürdoğlu 2003-cü il iyulun 12-də vəfat etmiş, Bakının Xırdalan

---

[1] Hüseyn Alışanov. Gözəldir. "Azərbaycan gəncləri" qəzeti, 29 oktyabr 1950

[2] Qəzənfər Paşayev. Hüseyn Kürdoğlunun poetik dünyası (monoqrafiya). – Bakı: Sabah, 2017, s.18

qəbiristanlığında dəfn olunmuşdur.

Yaradıcılığı. Hüseyn Alışanov hələ tələbəlik illərindən tanınmış şair idi. Müğənni və bəstəkar Qulu Əsgərov onun "Bəyənmir məni" (*Bir leyli gözlünün oduna yandım, Saralıb soluram, bəyənmir məni*) və "Könül bağladım" (*Maral gəzər dağ üstə / Bülbül qonar bağ üstə. / Niyə məndən qaçırsan,/ Dağ çəkirsən dağ üstə*) şeirlərinə musiqi bəstələyib oxuyurdu. Tələbəykən yazdığı "Qoy dolanım bu dağların başına", "Mənim", "Kəklik", "Titrədi" və s. şeirləri ədəbiyyatımıza istedadlı bir şairin gəldiyindən xəbər verirdi. Həmin dövrdə o, müəllimi Bəxtiyar Vahabzadənin məsləhəti ilə "Kürdoğlu" təxəllüsünü qəbul etmişdir.

Hüseyn Kürdoğlunun ilk kitabı – "Səhər nəğmələri" 1963-cü ildə görkəmli şair Əhməd Cəmilin redaktəsi ilə "Azərnəşr"də çap olunmuşdur. 1968-ci ildən Yazıçılar İttifaqının üzvü Hüseyn Kürdoğlunun kitabları ardıcıl çıxmağa başladı: "Yurdumu gəzə-gəzə" (1968), "Qaya çiçəkləri" (1970), "Doğma diyarım" (1973), "Dördtelli durna" (1979), "Toy karvanı" (1981), "Durna səsi" (1985), "Bir dünya, bir karvan yolu" (1989), "Min bir bayatı" (1992), "Yaralı torpağım, yaralı sevgim" (1997), "Tovuzum mənim, Oğuzum mənim" (1998), "Ziyalımız – ziyamız" (1999), "İmana-dinə gəldim" (1999), "Hər şəhid bir nəğmədir" (1999), "Yurduma qurbandır sözüm" (2005), "Sənə könül bağladım" (2009), iki cilddə "Seçilmiş əsərləri" (2011) və s. kitabları ilk gündən oxucu rəğbəti qazanmışdır.

Şairin "Seçilmiş əsərləri" 2014-cü ildə Özbəkistanda da çap olunmuşdur.

Hüseyn Kürdoğlu əqidəsindən dönməyən, qorxmaz şair idi. Onun poeziyasında güneyli-quzeyli Azərbaycan bütövləşir:

Qalaq vursaq aya-günə dəyərdi,
Dağ olsaydıq belimizi əyərdi,
Necə dözdük, bilməm, Araz dərdinə,
Həsrətimiz körpülərdə göyərdi.[1]

Sovet dönəmində bunu yazmaq şairdən böyük cəsarət və hünər tələb edirdi.

Hüseyn Kürdoğlu xalq dili ilə ədəbi dilin qovşağında poeziyada sözdən heyrətamiz bir abidə ucaltmışdır. Buradan vətənimizin hər guşəsi – şəhərləri, kəndləri, dağları, ormanları, çayları, şəlalələri, çəmənləri, bulaqları, yurdsevər insanları, qürur mənbəyi olan görkəmli şəxsiyyətləri aydın görünür. Ümumiyyətlə, Kürdoğlu yaradıcılığında vətənimizin füsunkar gözəllikləri incə bədii boyalarla vəsf edilmişdir.

Hüseyn Kürdoğlu təbin, ilhamın, fitri istedadın, elə-obaya, vətənə

[1] Hüseyn Kürdoğlu. Dördtelli durnam. – Bakı: Gənclik, 1979

sonsuz məhəbbətin sayəsində əsl poeziya nümunələri yaradan, Azərbaycan poeziyasında məxsusi yeri olan şairdir. Akademik İsa Həbibbəyli doğru olaraq göstərir ki, Hüseyn Kürdoğlunun şair xəyalı cəmiyyətdəki ideoloji mühitdən deyil, folklordan, klassik ədəbi ənənələrdən və həyatın dərslərindən ilham almışdır.

Bu baxımdan onun satirik "Bir neçə fövqəldövlət" bəhri-təvili xüsusilə fərqlənir. Bu bəhri-təvildə şair keşməkeşli dünyamızda dövrün taleyüklü olayları, ədalətsizliyi, eybəcərlikləri, haqsızlıqları tam çılpaqlığı ilə açıb göstərir:

Tanrının hökmü ilə böylə yazılmış əlbət
Dünyanın sahibi olsun da gərək,
Bir neçə fövqəldövlət –
Yekə dövlət,
Əkə dövlət,
Təkə dövlət.
Qalanı xırda-para,
Tikə dövlət, kökə dövlət.
Yekələr xırdaları
Bir-birinə saldırsın,
Malını, sərvətini
Gözgörəsi çaldırsın.
Tıxasın, anbarına doldursun...

Yaradıcılığı şifahi xalq ədəbiyyatı, aşıq yaradıcılığı və klassik şeir ənənələri zəminində formalaşan, əsasən milli heca vəznində yazan Hüseyn Kürdoğlu təkrarsız şair idi. O, zəngin irs qoyub getmişdir. Cinaslı və cinassız dördlükləri, cinaslı və cinassız bayatıları, təcnisləri, fəxriyyələri, bəhri-təvilləri, sərbəst şeirləri, şeir-məktubları, ithafları, satirik-yumoristik şeirləri, uşaq şeirləri, lirik, lirik-epik poemaları ilə könülləri fəth etmişdir.

Hüseyn Kürdoğlu ədəbiyyatımızda bir kitab cinaslı və cinassız dördlük yaradan və "Qaya çiçəkləri" adı altında çap etdirən ilk şairimizdir. Aramsız poetik axtarışların, bədii təfəkkürün gəzişmələrinin nəticəsi olan dördlüklər bir janr kimi Hüseyn Kürdoğlunun yaradıcılığında sabitləşmişdir. Şairin dördlüklərində diqqəti təzə-tər, orijinal bənzətmələr, mətləb, poetik fikir tapıntısı çəkir.

Rübai və dördlüklər bir-birinə yaxın olsalar da, Kürdoğlunun dördlükləri, əsasən, cinaslı olduğundan tamamilə yenidir. Şairin dördlüklərində sanki xalı üzərində Azərbaycanın xəritəsi çəkilib. Burada təbiətin əsrarəngizliyi, dağlar, çəmənlər, meşələr, çaylar, şəlalələr və s. tərənnüm edilir:

Yaz yerə kilim də, xalı da çəkir,
Lalənin bağrına xalı da çəkir.

Anam da rəssamdır ilk bahar kimi
Vətən gülzarını xalıda çəkir.[1]

Məhəmməd Əmaninin, Sarı Aşığın zamanında folklorumuzun və yazılı ədəbiyyatımızın çələnginə çevrilən bayatılar XX əsrin birinci yarısında zamanı keçmiş janr hesab olunurdu. Lakin XX əsrin ikinci yarısında Rəsul Rza, Hüseyn Kürdoğlu və Teymur Bünyadovun yaradıcılığı sayəsində məlum oldu ki, ən qədim janrda yeni söz demək mümkündür.

Bu baxımdan zəmanəmizin bayatı ustası, Sarı Aşığın ən layiqli davamçısı Hüseyn Kürdoğlunun yaradıcılığı xüsusilə fərqlənir. Şairin bayatılara dərin məhəbbəti bəlkə də Sarı Aşıqdan qaynaqlanırdı. O, Sarı Aşığın bayatılarını toplayaraq çap etdirdiyi "Seçmə bayatılar" (1993) kitabına yazdığı "Haqq Aşığı" adlı ön sözdə Sarı Aşığın bayatılarını möcüzə hesab etmiş və nümunələr vermişdir:

Analar yanar ağlar,
Günlərin sanar ağlar.
Dönər göy göyərçinə,
Yollara qonar ağlar.[2]

Hüseyn Kürdoğlu Sarı Aşığın bayatılarını mükəmməl tədqiq etmiş və nəşrinə nail olmuşdur.

Sarı Aşığın Hüseyn Kürdoğlu nəşri ona görə mükəmməldir ki, o, bayatı janrının poetik incəliklərini dərindən bilirdi, əvvəlki nəşrlərdəki bədii qüsurları aradan götürməklə yanaşı, öz bayatı yaradıcılığı ilə bu janrın bitib-tükənməyən bədii imkanlarını üzə çıxartdı. Sarı Aşıq və XX əsr Azərbaycan poeziyası arasında ədəbi yaradıcılıq körpüsü saldı.

H.Kürdoğlunun "Min bir bayatı" (1992) kitabı çap olunanda hadisəyə çevrildi. Şair bu bayatıları Kərkük xoyratlarından ilhamlanaraq yazmışdır. Kürdoğlunun yaratdığı yüksək bədii təfəkkürün məhsulu olan, dərin məna tutumu ilə fərqlənən cinaslı bayatı möcüzəsinə yalnız Kərkük dolaylarında rast gəlmək olur:

Barı var;
Qəm daşından barı var.
Əkmişəm dərd ağacı,
Hər mövsümdə barı var.[3]

---

[1] Qəzənfər Paşayev. Hüseyn Kürdoğlunun poetik dünyası. Q.Paşayev. Seçilmiş əsərləri. X cild. Elmi redaktoru İ.Həbibbəyli. – Bakı: Təhsil, 2018

[2] Hüseyn Kürdoğlu. Haqq aşığı / Sarı Aşıq. Seçmə bayatılar. Tərtib: H.Kürdoğlu. – Bakı: Sabah, 1993

[3] Hüseyn Kürdoğlu. Yurduma qurbandır sözüm. – Bakı: Sabah, 2005, s.500, 504 və s.

El sözü urvat imiş,
Qənd imiş, nabat imiş.
Bayatının bacısı
Kərkükdə xoyrat imiş.

Hüseyn Kürdoğlunun bir neçə gözəl poeması vardır. Lakin onun bayatı üstündə yazılmış iki lirik poeması xüsusilə fərqlənir. Hüseyn Kürdoğlu bayatı janrında poema yazmış ilk və yeganə şairimizdir. Doğrudur, şairin "Aşıq və Yaxşı" poeması bayatı və qoşma üstündə yazılmışdır.

Şairin tamamilə bayatı janrında yazdığı "Tovuzum mənim, Oğuzum mənim" lirik poemasında saz-söz ocağı Tovuzun təbii gözəllikləri, adlı-sanlı adamları, adət-ənənəsi incə bədii boyalarla, məhəbbətlə vəsf edilir. Şair poemaya yazdığı ön sözdə əsərin yazılma səbəbini açıqlayır: "Qəzənfər müəllimin Kərkük bayatılarına həsr olunmuş kitabları mənim bayatı yaradıcılığımda böyük bir dönüş yaratdı, bu doğma, qədim şeir janrına məndə sonsuz inam hissi oyatdı... Lakin bayatını vaxtı keçmiş bir janr hesab edən bəzi ədəbiyyatçıların yanlış mülahizələrinə görə çox narahat idim. Qəzənfərin tədqiqatları əyani şəkildə göstərdi ki, bayatı bütün türk dünyasının ölməz şeiridir və çağdaş şairlərin də bu biçimdə yazıb-yaratmağı son dərəcə gərəklidir. Fədakar folklorçumuzun bu sahədəki misilsiz fəaliyyəti yoluma gur işıq saldığına görə ona ömürlük minnətdaram. Ona ithaf etdiyim poema da həmin minnətdarlıq duyğularımın ifadəsidir".[1]

Hüseyn Kürdoğlu yaradıcılığının böyük bir qismini heyrətamiz poetik gücü və zənginliyi ilə seçilən, lirik növün bədii cəhətdən kamil növü, ölməz sənət əsərləri səviyyəsinə yüksələn bayatılara həsr etmiş və isbat etmişdir ki, folklorumuzun qədim növü belə yeni dövrün fikrini ifadə etməkdə münasib formadır.

Tərlanımın ovu yox,
Qılıncımın sovu yox.
Minmişəm qəm atına
Başında cilovu yox.

Cinas dördlüklərin, təcnis və qoşma təcnislərin də ən yaxşı nümunələrini Hüseyn Kürdoğlu yaratmışdır. Şairin "O yana dedim", "Gülə sən", "Ay belə baxdı", "Ya Ziya", "Söz qala məndən", "Söz uman", "Sizin bağın bəhrəsinə söz olmaz", "Dağıstan gözəli" kimi real həyatla bağlı ürəyəyatan təcnisləri vardır.

Xəncər qaşlı bir Dağıstan gözəli,
Atıb getdi, qoydu məni avara.

[1] Hüseyn Kürdoğlu. Tovuzum mənim, Oğuzum mənim. – Bakı: Elm, 1998, s.7

Bu sirrimi gərək deyim şeirlə,
Həm ləzgiyə, həm kumıka, avara.

Şairin gəraylıları, təsnifləri, qoşmaları, sərbəst şeirləri, rübailəri, ağıları, satirik şeirləri də Azərbaycan ədəbiyyatında əhəmiyyətli yer tutur.

Yaşa dolduqca fani dünya, insan, zaman Hüseyn Kürdoğlunu daha çox düşündürmüşdür. Onun həyat həqiqətlərinin dərindən dərkinə həsr edilən onlarca şeiri vardır. Onların arasında "Həyat ağacı" xüsusilə fərqlənir. Bu şeir "gerçəkliyin müdriklik səviyyəsində tərənnümüdür", – desək, səhv etmərik:

Barlıdır, ucadır həyat ağacı,
Bəhəri həm şirin, həm də ki, acı.
Dırmanıb çıxırıq, ucalırıq biz,
Başına çatmamış qocalırıq biz.
Ordan xəyal kimi düşürük bir-bir,
Ağacın dibində ölüm müntəzir.
Göydə tutur bizi, gömür torpağa,
Təzə gələnlərsə çıxır budağa.
Bu cür ülfətdədir ölümlə həyat,
Ağacın başına çıxan yox heyhat.[1]

Şairin ömrünün sonuna yaxın poeziyasında zamanın gərdişi ilə bədbinlik, həzinlik motivləri yer alırdı. Qarabağ hadisələrindən sonra bu kədərli ovqat, həzinlik ah-naləyə çevrildi:

Möhlət ver, ey Tanrı, möhlət ver bir az,
Laçın azad olsun, ölüm Laçında.
Öpüm torpağını ölümdən əvvəl,
Bir dinə-imana gəlim Laçında.[2]

El-oba həsrəti, doğma torpaqların düşmən tapdağı altında qalması şairin poeziyasında ali kədərə çevrilmiş, onun ruh düşkünlüyü son həddə çatmışdır:

Laçın torpağına qismət olmasam,
Pay verin çöllərdə qurd-quşa məni.

Yeridir deyək: Şair, ruhun şad olsun! Laçın və bütün Qarabağ yağı düşməndən azad edildi. Qisas qiyamətə qalmadı.

Elmi yaradıcılığı və tərcüməçilik fəaliyyəti. Hüseyn Alışanov Azərbaycan Dövlət Universitetini bitirərkən (1958) yazdığı "Səməd Vurğunun ilk

[1] Yaşar Qasımbəyli. Milli və estetik yaddaşın harmoniyası (Hüseyn Kürdoğlunun poeziyası barəsində düşüncələr). Bakı: Ədəbiyyat məcmuəsi. 2018, №1, s.31-42

[2] Qəzənfər Paşayev. Hüseyn Kürdoğlunun poetik dünyası. Q.Paşayev. Seçilmiş əsərləri, X cild. Elmi redaktoru İsa Həbibbəyli. – Bakı: Təhsil, 2018

yaradıcılıq dövrü" diplom işi onun böyük elmi potensialından xəbər verirdi.

Elmə həvəs H.Alışanovu Azərbaycan Elmlər Akademiyasının Yaxın və Orta Şərq xalqları İnstitutuna gətirir. İran ədəbiyyatı sahəsində kiçik elmi işçi və böyük elmi işçi vəzifəsində çalışır (1960-1993). Şöbədə İraqdan olan kürd əsilli Əli Gəlavej və Rəhim Qazidən kürd dilini öyrənməyə başlayır və tezliklə bu dili mənimsəyir. Kürd dilini öyrənməsi şairin gələcək ədəbi-elmi fəaliyyətində müstəsna rol oynayır.

O, kürdşünas alim Rəhim Qazinin rəhbərliyi ilə "Müasir kürd şairi Abdulla Qoranın poeziyası" mövzusunda dissertasiya yazır və 1966-cı ildə onu uğurla müdafiə edir.

Bu dissertasiya işi Qoran poeziyasına həsr olunmuş ilk elmi-tədqiqat işi olduğundan böyük əhəmiyyət kəsb edir.

Hüseyn Alışanovun kürd dilini öyrənməsi onun həm də tərcüməçi kimi yetişməsinə təkan vermişdir. Tezliklə Abdulla Qoranın şeirlərini Azərbaycan dilinə tərcümə edərək mötəbər mətbu orqanlarda çap etdirmişdir. O, eyni zamanda kürd ədib və şairlərindən Ə.Həjar, R.Qazi, Ə.Aqri və başqalarının bir çox əsərlərini Azərbaycan dilinə çevirmişdir. Ə.Həjarın Azərbaycanca çap olunan "Kürd nəğmələri" kitabındakı tərcümələrin əksəriyyəti Hüseyn Kürdoğluya məxsusdur. O, eləcə də Rəhim Qazinin "Peşmərqə" ("Fədai") povestini tərcümə edərək çap etdirmişdir.

Hüseyn Kürdoğlu eyni zamanda fars dilindən Şəhriyarın qəzəllərinin əksəriyyətini Azərbaycan dilinə çevirmiş, Şəhriyarın ruhunu qoruya bilmiş və uğur qazanmışdır.

Folklorşünaslıq sahəsində fəaliyyəti: Şifahi xalq ədəbiyyatı, aşıq poeziyası və aşıq musiqisini dərindən bildiyinə görə AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda hazırlanan "Cənubi Azərbaycan ədəbiyyatı tarixi. XIX-XX əsrlər" ikicildliyinin "XIX əsrdə Cənubi Azərbaycanda folklor" fəsli Hüseyn Kürdoğluya həvalə olunmuşdu. Alimin araşdırması dastanlar və bayatılar olmaqla iki bölümü əhatə edir.

Dastanları Azərbaycan folklorunun şah əsəri hesab edən tədqiqatçı "Koroğlu", "Əsli və Kərəm", "Qurbani", "Abbas və Gülgəz", "Aşıq Valeh", "Xəstə Qasım", "Qaçaq Nəbi" və s. məhəbbət və qəhrəmanlıq dastanlarından söz açmış, onları epizm və lirizmin vəhdəti baxımından folklor xəzinəmizin parlaq inciləri kimi dəyərləndirmiş, dastanlarımızın Güney və Quzey variantlarını müqayisə və təhlil etmişdir. O, "Səttarxan" dastanını tarixilik baxımından araşdırmış, "Qaçaq Nəbi" dastanının üzərində geniş dayanaraq dastanın Cənub və Şimali Azərbaycan variantlarını müqayisəli təhlil etmişdir. "Qurbani" dastanından söz açan tədqiqatçı ən çox "Abbas və Gülgəz" və "Xəstə Qasım" dastanlarından əhatəli danışır. O, "Xəstə Qasım" dastanında yer alan, indi unudulmağa üz tutan "bağlama-deyişmələr"dən də bəhs edir. Xəstə Qasımla Ləzgi Əhməd arasındakı "bağlama-deyişmələr"dən nümunələr verir.

Hüseyn Kürdoğlunun göstərdiyi kimi, keçmişdə bir çox ustad aşıqlar həm ustadlığını nümayiş etdirmək, həm də qarşısındakı aşığı məğlub edərək sazını əlindən almaq üçün "bağlama-deyişmələr"dən istifadə edirdi. Danılmaz faktdır ki, "bağlama-deyişmələr" aşıq sənətinin, aşıq poeziyasının inkişafına böyük təkan vermişdir. Deyişmələr aşıqların istedadını, biliyini, bədahətən şeir demə qabiliyyətini, kimin nəyə qadir olduğunu nümayiş etdirmək, ad-san qazanmaq baxımından əhəmiyyətli olmuş, aşıqların öz üzərində daim işləməsinə gətirib çıxarmışdır. Deyişmə zamanı aşıq şeir şəkillərinin əksəriyyətindən, xüsusən də, hərbə-zorba, bağlama, qıfılbənd, ustadnamə, təcnis və onun növlərindən istifadə edildiyindən ustadlıq iddiasında olan aşıq bütün aşıq şeiri şəkillərindən və havalarından xəbərdar olmalı idi.

Hüseyn Kürdoğlu Ləzgi Əhmədlə Xəstə Qasım arasında ölüm-dirim mübarizəsinə çevrilən hərbə-zorba, deyişmə və qıfılbənd deyişmələrdən nümunələr vermişdir. Onlardan sənət örnəyi kimi iki bənd qıfılbəndi nümunə kimi təqdim edirik.

Ləzgi Əhməd:

O nədir ki, dayanıbdır dayaqsız,
O nədir ki, boyanıbdır boyaqsız.
O nədir ki, doğar əlsiz-ayaqsız,
Üç ay keçər, ayağı var, əli var.

Xəstə Qasım:

Göy bir çadır, dayanıbdır dayaqsız,
Ayla Gündür, boyanıbdır boyaqsız.
Qurbağadır, doğar əlsiz-ayaqsız,
Üç ay keçər ayağı var, əli var.[1]

Hüseyn Kürdoğlu Qurbani, Abbas Tufarqanlı, Xəstə Qasım kimi qüdrətli sənətkarlar yetirən Güney Aşıq mühitində Aşıq Əli Feyzullahi Vahid, Aşıq Aslan kimi görkəmli sənətkarların, "Səttarxan" dastanının mahir söyləyicisi, Cənubi Azərbaycanda milli hökumətin süqutundan sonra Şimali Azərbaycana pənah gətirən Aşıq Hüseyn Cavanın yaradıcılığını əhatəli araşdıraraq yüksək dəyərləndirmişdir.

Uşaqlıqdan mənəvi qidası saz-söz olan Hüseyn Kürdoğlu XIX əsr Cənubi Azərbaycan bayatılarını da xüsusi şövqlə tədqiq etmişdir. Alimin qənaətinə görə, heyrətamiz poetik gücü və zənginliyi ilə seçilən bayatılar Quzey Azərbaycanda olduğu kimi, Cənubi Azərbaycanda da lirik növün geniş yayılmış və bədii cəhətdən ən kamil janrıdır.

[1] "Cənubi Azərbaycan ədəbiyyatı tarixi. XIX-XX əsrlər". – Bakı: Nurlar, 2009, s.24

Tədqiqatçı göstərir ki, bayatılar əvvəlcə hər hansı bir aşıq və ya sadəcə təbli bir adam tərəfindən qoşulur, ağızdan-ağıza keçərək cilalanır, daha da kamilləşir, bütün elin, xalqın sözünə çevrilir. Bir sözlə, el sözü hüququ qazanır, vətəndaşlıq dəyəri kəsb edir. Bu baxımdan Azərbaycan bayatıları vahid üslubi keyfiyyətlərə, vahid milli koloritə malik, ölçülü-biçili mükəmməl janrdır. Bununla belə, müəyyən tarixi-siyasi səbəbdən "Cənub bayatıları", "Cənub dastanları", "Cənub folkloru" ifadələrini işlətməli oluruq. Alim bu məsələyə aydınlıq gətirərək yazır ki, söz, musiqi, ədəbiyyat sərhəd bilmir. Cənubi Azərbaycan mətbuatından toplanaraq çap edilən "Arazam, Kürə bəndəm" kitabında nəşr edilmiş bədii nümunələr bu sahədə elmi fikirlər söyləmək üçün əlverişli zəmin yaradır.

Alim doğru olaraq göstərir ki, bir çox bayatılar məkanla, yurdla, ocaqla bağlı olur. Bu bayatılarda Təbriz simvollaşır, vətənin rəmzinə çevrilir:

Ağ dəvə düzdə qaldı,
Yükü Təbrizdə qaldı.
Oğlanı dərd apardı,
Dərmanı qızda qaldı.[1]

Tədqiqatçı göstərir ki, Qaradağ, Xoy, Mərənd, Salmas və s. kimi vətənimizin cənub mahalları, şəhərləri bayatı örnəklərinin yaranmasında həm bədii vasitə kimi poetikləşir, həm də torpağımıza, ata yurdumuza, vətənimizə əbədi bir sevginin təzahürü olaraq sözə gətirilir.

Rəmzləşən, obrazlaşan, vətən anlayışını bütövlükdə ifadə edən yurd, oba, mahal, kənd, şəhər, dağ, çay, göl, bulaq adları – toponimlər, hidronimlər və s. Azərbaycan bayatılarının xəlqi mahiyyətini, coğrafi-milli müəyyənliyini şərtləndirən əlamətdar amillərdən biridir.

Alim xüsusi vurğulayır ki, Savalan və Araz toponim və hidroniminin bədii-simvolik səciyyəsini nəzərdən keçirərkən XV-XVI əsrlərdən bəri çoxlu nümunələrin, qiymətli sənət örnəklərinin yarandığı məlum olur.

Aşığı yıxan Araz,
Ya sultan, ya xan Araz.
Kafir tilsimindəsən,
Açılmır yaxan Araz.

Və ya:

Savalanam, qarım var,
Əhdim var, ilqarım var.

[1] Bayatılar. "Cənubi Azərbaycan ədəbiyyatı tarixi. XIX-XX əsrlər". – Bakı: Nurlar, 2009, s.44, 50, 53

Əyilməz uca başım,
Salarım, Sərdarım var.[1]

Dağın dilindən deyilən bu dördcə misrada vətən eşqi, el qəhrəmanları yüksək bədii biçimdə tərənnüm edilir. Saların, Sərdarın əzəmətli obrazı zirvəsi daim qarlı, əlçatmaz Savalanla yanaşı durur.

Tədqiqatçının qəti qənaəti və inamı budur ki, vətənimizin coğrafi baxımdan üçdə iki hissəsini təşkil edən Güney Azərbaycana yollar açıldıqca folklor materialları toplanacaq, tədqiq olunacaq, çap ediləcək. O yazır: "Biz hələlik dəryadan damla götürməklə kifayətlənirik. Folklorumuzun başqa janrları ilə bərabər, parlaq sənət incilərimiz olan bayatılarımız haqqında da həmin toplama mərhələsindən sonra bütöv elmi fikir yürütmək, son qənaətə gəlmək mümkün olacaqdır".[2]

Hüseyn Kürdoğlunun uzaqgörənliklə dediyi sözlər həqiqətə çevrilmişdir. Zəmanəmizdə Güney və Quzey Azərbaycan mənəvi cəhətdən birləşmiş, bütöv Azərbaycanın mənəvi irsindən söz açmaq zamanı gəlmişdir.

Hüseyn Kürdoğlu yaradıcılığı həmişə alimlərimizin diqqət mərkəzində olmuşdur. Hələ sağlığında akademiklər Bəxtiyar Vahabzadə, Bəkir Nəbiyev, Tofiq Hacıyev, Yaşar Qarayev, Teymur Bünyadov, professorlar Qasım Qasımzadə, Camal Mustafayev və bir çox başqaları şairin yaradıcılığına məqalələr yazmış, çoxsaylı kitablar həsr etmişlər.

Hüseyn Kürdoğlunun bədii və elmi yaradıcılığı çağdaş ədəbiyyatımızın dəyərli və hər zaman aktuallığını qoruyub saxlayan söz və sənət incilərdir.

[1] Qəzənfər Paşayev. Hüseyn Kürdoğlunun poetik dünyası. Q.Paşayev. Seçilmiş əsərləri. X cild. Elmi redaktoru İ.Həbibbəyli. – Bakı: Təhsil, 2018

[2] "Cənubi Azərbaycan ədəbiyyatı tarixi. XIX-XX əsrlər". – Bakı: Nurlar, 2009, s.54

TOFİQ BAYRAM
(1934-1991)

Bakı şəhərinin Əmircan qəsəbəsi özünün görkəmli yetirmələri ilə məşhurdur. Mütəfəkkir, yazıçı, alim Abbasqulu ağa Bakıxanov, xeyriyyəçi milyonçular Murtuza Muxtarov, Şəmsi Əsədullayev, yazıçı Ümbülbanu (Banin), Səttar Bəhlulzadə, şair Səməd Mənsur, rejissor Tofiq Kazımov, Xalq şairi Ramiz Rövşən... Onlardan biri də istedadlı şair, tərcüməçi Tofiq Bayramdır.

Həyatı. Tofiq Qulam oğlu Bayram 1934-cü il dekabrın 16-da Abşeronun ən qədim kəndlərindən biri, köhnə Xilə (indiki Əmircan) kəndində Qulam bəy və Məşədi Zivər xanımın ailəsində anadan olmuşdur. Orta məktəbi Əmircanda bitirən Tofiq Bayram 1954-1959-cu illərdə Azərbaycan Pedaqoji İnstitutunun Tarix fakültəsində təhsil almış, əmək fəaliyyətinə Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Komitəsində ədəbi işçi (1960-1961) kimi başlamış, daha sonra – M.F.Axundov adına Dövlət Opera və Balet Teatrında ədəbi hissə müdiri (1961-1964), "Ulduz" jurnalı (1964-1968), "Ədəbiyyat və incəsənət" qəzeti redaksiyasında şöbə müdiri (1968-1978), "Yazıçı" nəşriyyatında baş redaktor müavini (1978) vəzifələrində çalışmışdır.

Əməkdar incəsənət xadimi (1984), Azərbaycan Yazıçılar Birliyinin (1959) üzvü olmuş, Maksim Qorki adına Mükafata (1988) layiq görülmüşdür.

Tofiq Bayram uzun sürən xəstəlikdən sonra 1991-ci il aprelin 19-da Bakıda dünyasını dəyişmiş, Əmircan kəndində dəfn olunmuşdur.

Yaradıcılığı. Tofiq Bayram bədii yaradıcılığa 1950-ci ildən – orta məktəbdə oxuduğu vaxtdan başlamışdır. Poeziya aləminə belə erkən qədəm qoyması onu tezliklə ədəbi dərnəklərin fəalına çevirmiş, Yazıçılar Birliyinin yaradıcı müzakirələrində iştirak etməyə həvəsləndirmişdir. Bəlkə elə buna görə də, T.Bayram 1950-ci illərin sonlarında ədəbiyyata gələn şairlərin ən istedadlı nümayəndələrindən biri hesab edilirdi. Yaradıcılığa kiçikhəcmli şeirlərlə gələn şairin 1961-ci ildə "Ana təbəssümü" adlı ilk kitabçası çap olunur. Bundan sonra onun bir-birinin ardınca "Mənim şair xalqım" (1963), "Sizi düşünürəm" (1964), "Azərbaycan dünya gəzir" (1965), "İnamım, əqidəm" (1969), "Gərək elə yanım" (1971), "Azərbaycan deyəndə" (1974), "Səninlə görüşəndə" (1980) kitabları işıq üzü görür. "Məsləkim – silahım", "Ay gecikən məhəbbətim" kitabları əsasında "Seçilmiş əsərləri" (2005) çap edilmişdir.

Onun şairliyi "şeir-sənət məbədi olan", zəmanəsinin ən tanınmış adamlarının toplaşdığı Əmircandakı ata evindən başlamışdı. Şairliyin "bəylik, xanlıq" deyil, tam bir "qəhrəmanlıq" olduğunu da bilirdi. "Bəlkə şair imiş hər kəsdən əvvəl, ilk dəfə ürəyi ağrıyan insan" da onun "tapıntısı"dır.

Hər şeydən də şeir yaradırdı. T.Bayram o şairlərdən idi ki, hava haqqında məlumatı dinləyəndə də ilhama gələ bilirdi. Bütün həyatı şeirlərində idi. Həqiqi şeir "düşüncəni duyğu halına gətirənə qədər yoğurmaqdır". T.Bayram belə şairlərdən idi. Onun daha bir özəlliyi şəxsiyyətini və yaradıcılığını məddahlıqdan uzaq tutması idi. Sözügedən məddahları Tofiq Bayram şeirində belə ikrah edirdi: "Şair var elə bil əl toğlusudur, vicdanı keyiyir, tumar görəndə..." (Şirvan Ədilli. XX əsrin milli şairi – Tofiq Bayram. "Türkistan" qəzeti) Şəxsiyyəti, xarakterinin bütövlüyü şeirlərində bütün ucalığı ilə əks olunurdu. Şeirləri də şəxsiyyəti ilə möhürlənmişdi. T.Bayramın şeirləri həyatın bütün aspektlərini əhatə edir, ətrafında baş verən heç nəyə seyirçilik etmir, prosesləri izləyib sərrast qiymət verirdi. Sabirin uçulub-tökülmüş məzarını görəndə iki misra demişdi: "Sabirə bax, səbrə bax, şairə bax, qəbrə bax"... "Ordu gəldi" şeiri də şairin o zaman üçün az qələm adamına xas hünərindən xəbər verir:

Qədim Bakı az görməyib qatar-qatar orduları
Bu torpağı çox taladı yad ellərin orduları.[1]

Heç vaxt Kommunist Partiyasının üzvü olmayan şairin başı sovet dövründə "millətçi, turançı" kimi az ağrımamışdı. Əslində, bu "damğa"da həqiqət payı da olmamış deyildi. Nədən ki, "T.Bayram əsl azərbaycanlı, iliyinə qədər türk oğlu türk idi". 1963-cü ildə, Sov.İKP-yə üzv olmaq üçün növbələrin düzüldüyü zamanda şair yazırdı:

Vətən torpağına sonsuz məhəbbət,
Mənim portbiletim, partbiletimdir![2]

Onun poeziyası realist, həm də gözəldir. Şair hər misrasına "poetik don" biçməyi bacarırdı. T.Bayram sadəcə qələmi ilə deyil, qəlbi, düşüncələri ilə yazır, hər şeirində yeni söz deyirdi. Bədahətən şeir deməyi də vardı. O, çox şeydə başqalarından fərqlənirdi; dünyanı qavrama bacarığı, "poetik nəfəsin genişliyi", müasirliyi ilə. Xəyal gücünün ənginliklərində özü ilə tək qalmaqdan da qorxmurdu... T.Bayramın poeziyası azad ruhlu, nikbin, enerjili, gülşad, "axar-baxar"lı poeziyadır.

Tofiq Bayram inam, əqidə şairi, "milli təəssübkeşliyin etalonu" idi. Vətən mövzusu onun poeziyasının ruhu, canı-qanı idi. O, Azərbaycanı "ən gözəl kəlmələr"lə alqışlayır, ona "qızıl qumaşlardan bayraq biçir", hər şeyin "ən gözəl"inin onun olmasını istəyirdi. Ona "Vətən şairi" də deyirdilər. Başımızın bəlalar çəkdiyi zamanda belə poeziya hava-su kimi gərəyimiz idi. T.Bayram torpaqlarımızın işğalını görməsə də, hadisələrin gedişatından çox

[1] Tofiq Bayram. Azərbaycanım. – Bakı: Azərbaycan, 2015, s.124
[2] Yenə orada, s.97

nigaran idi. Azərbaycan, azərbaycançılıq, Vətən, onun təbii gözəllikləri kimi ağrıları, yaraları da T.Bayramın poeziyasında öz əksini tapmışdı. Vətən və Tofiq Bayram ayrılmaz məfhumlardır. Onun Vətən şeirləri o qədər cəsarətlidir ki, onların "koloniya" dövründə yazıldığına inanmaq olmur. O, bu mövzuda "baltanı kökündən vuran" sənətkarlardan idi. Vətən mövzusu onun poeziyasından dəli Xəzri, təbiət hadisəsi kimi keçirdi. Vətən onun üçün "Füzuli, Abbas Səhhət, Müşfiq, Səməd" idi. "İlk məhəbbət, müqəddəs həqiqət", ideya idi. Onun yaradıcılığında həmişə dominantlıq təşkil edən bu mövzu Vətən dara düşəndə, başının üstünü qara buludlar alanda düşmənin gözünü çıxaran süngüyə dönmüşdü. T.Bayram döyüşkən ruhlu poeziyası ilə Vətəni sevməyi, onu qorumağı, yada verməməyi öyrədirdi. Torpağın üstü bir tərəfə, altını da Vətən bilən şairi Qarabağ dərdi, səksəkəsi yandırıb yaxırdı. "Qarabağı vermərəm" şeiri ilə şair ucadan düşünür, beynini yoran saysız suallara cavab axtarır, amma tapa bilmirdi...

Bu necə qonşuluqdu, üzük mənim, qaş onun?
Mən öz başımdan keçim, çiynimdəki baş onun?
Torpağımdan pay verim, olsun könlü xoş onun?
Bu Qarabağ nə vaxtdan məskəni olmuş onun?[1]

Hələ dinc vaxtlarda, ermənilərin bizə altdan-altdan quyu qazdıqları dönəmlərdə Üzeyir Hacıbəylinin Şuşadakı 100 illiyində vilayətin birinci katibi Cevorkovun "hörmətli qonaq" müraciətinə kəskin reaksiya vermiş, "mən qonaq deyiləm, bura mənim vətənimdi", – deyib ona yerini göstərmişdi.

Onun qəhrəmanları klassiklər və müasirləridir. Söz "zəlzələsi" Nizamidir, millətin "tərcümeyi-halı" Sabirdir, "əfsanəsi" S.Vurğundur. İ.Səfərli, Əli Kərim, Xudu Məmmədov da bu "peyzaj"a rahat yerləşirlər. Hördüyü söz çələngi ilə keçmiş və indini birləşdirir. Onun ciddi poeziyası sadəliyi, səmimiyyəti, şirinliyi ilə seçilir. Bakılı şairlərin əksəriyyəti klassik divan ədəbiyyatının təsiri altında yazıb-yaratsalar da, T.Bayram istisnadır. O, S.Vurğun ədəbi məktəbinin yolunu seçmişdi, şeirlərini həm də qoşma üstündə yazırdı.

Tofiq Bayramın bir çox şeiri var ki, nəinki öz yaradıcılığının, dövrünün poetik brendlərindəndir. Bu şeirlər oxucuların dilində sitata, qanadlı ifadəyə çevrilmişdir. "Ana dilim" belə şeirlərdən olub T.Bayramın vizit kartıdır. Milli-mənəvi dəyərlərimizin birincisi olan ana dilimiz həmişə şairlərin yaralı yeri olmuşdur. Dil həm də qələm adamlarının sənət materialıdır. Təəssübünü də özləri çəkib... Xəlil Rza, Bəxtiyar Vahabzadə, Tofiq Bayram...

[1] Tofiq Bayram. Azərbaycanım. – Bakı: Azərbaycan, 2015, s.375

Bu dil şirinlikdə şərbət kimidir,
Saflığı qorunan sərhəd kimidir,
Anamız Vətənsə qürbət kimidir
Öz ana dilini bilməyənlərə![1]

Doğma dilin yerini yadın dili verə bilməz. Dil həm də xalqın xarakteri, milli mənsubiyyətimizin rəmzi olub, "öz kökü üstdə bitir". Vətən sevgisi də elə dildən başlayır. Şair dilimizin gözəlliyini vəsf edir, onu bilməyin vacibliyindən danışır. Üzünü öz dilini bəyənməyib yad dildə danışan biganələrə, ədabazlara, mutantlara tutub deyir:

İtsin gözlərimdən qoy ilim-ilim,
Qəzəb ümmanıyam, yoxdur sahilim.
İlan zəhərimdən acıdır dilim
Öz ana dilini bilməyənlərə![2]

Doğrudan da, əsl sözün izaha ehtiyacı yoxdur... Şeir özü oxucunun duyğularına xitab edir, şərbət kimi içilir, qəlbə məlhəm olur.

Tofiq Bayram lirik şairdir. Onun lirikası poeziyamızda yeni bədii sözdür. Şeirləri surroqatdan, saxtadan, şablondan uzaqdır, canlı, natural və konkretdir. Ta qədimdən şairlər "sevgi odunun üstünə daha da alışqan maddə püskürürlər". Sevginin özünü yaşamayan şair, yalnız "qrafik təsvir yarada bilər, eşqin özünü yarada bilməz". T.Bayram böyük sevgilər şairi idi, onun lirikasının predmeti eşqdir. Şeirlərində sevgi bəzən qəfildən "hücum edir", bəzən vaxtsız gəlir, olur ki, tələsir, hərdən də gecikir. Bəzən şirin bir xəyal olur. Həyatın prozası onu "uda" da bilir...

Şairin imzasını təsdiq edən və adı ilə qoşalaşan şeirlərindən biri də "Ay gecikən məhəbbətim"dir. Koloritli Tofiq Bayramın müasir ruhlu Sərxan Sərxanla ərsəyə gətirdiyi "...gecikən məhəbbətim" əsəri bütün gecikmiş sevgilərin içindən seçilir, onların himni kimi səslənir. Bu şeir hər yaşda oxunur, oxuyanı qocalmağa qoymur. Şeir yazanın yox, ehtiyacı olanındır... Əsərin gələcək taleyini oxucu həll edir. Bu nəğmə xoşbəxt talelilərdəndir, onilliklərdir oxunur, sevilir, unudulmur, lirik "mən" müəllifini unutmağa qoymur...

Sən əzabsan, göz yaşısan,
Bəxtimin son naxışısan.
Bəlkə, tale qarğışısan,
Bəlkə də, ilk səadətim?
Ay, gecikən məhəbbətim![3]

[1] Tofiq Bayram. Azərbaycanım. – Bakı: Azərbaycan, 2015, s.23
[2] Yenə orada, s.23
[3] Yenə orada, s.41

Avtobioqrafik sayılan, elə musiqisiz də mahnı olan bu şeir 1982-ci ildə nəğməyə çevrilir, müəllifin dediyi kimi, bu gün nastolji də oyatmır, çünki hər nəsil onu yeni qəbul edir, sadəcə, retro duyğusu yaradır. Çoxlarının yaşadığı bənzər duyğuların tərcümanıdır "gecikən məhəbbət". T.Bayram sakit sevməyi bacarmırdı, onun sevgisi odlu-alovlu idi. Şairin səs-küy yaradan şeirlərindən biri də türk müğənnisi Sevda Aydana etdiyi ithaf olub, hansı ki, zaman üçün əsl hadisə idi, həm ictimai, həm şəxsi baxımdan...

T.Bayramın təbiət lirikası, epik təsvirləri o qədər canlıdır ki, sanki naturadan çəkilmişdir. Onun peyzaj lirikasını həmkəndlisi Səttar Bəhlulzadə ilə müqayisə edirlər. Səttar zamanın fövqündə dayanırsa, T.Bayramın poeziyası zamansızdır. Hər ikisi Azərbaycanımızı vəsf edib. Hər ikisi "ana təbiətin tamadası" idi. Biri poeziyada, biri rəngkarlıqda. İkisi də doğma torpaqda yanaşı uyuyur. T.Bayram özü Səttar möcüzəsinə silsilə şeirlər həsr etmiş, söz ilə "Səttar çələngi" hörmüşdü.

Bu dilsiz ağaclar necə oxuyur?
Necə şeir deyir bu lal qayalar?
Nə gözüm yorulur, nə könlüm doyur,
Dil açıb danışır rənglər, boyalar.[1]

"Səttar əbədidir, mən gəldi-gedər", – deyən T.Bayram "Əmircan lövhələri"ni kəndin fəxri vətəndaşına həsr etmişdi. Zəlimxan Yaqub deyirdi ki, Səttardan danışanda elə bil, Allahdan danışırdı. Onun yaradıcılıq ilhamını, həvəsini, həzzini belə şeirləşdirirdi:

Tarzən necə tələsər öz tarıyla görüşsün,
Durna necə tələsər qatarıyla görüşsün.
Loğman necə tələsər xəstəsinin yanına.
Məcnun necə tələsər Leylisinə qovuşsun.[2]

Rəssam da iş otağına elə tələsirdi. Molbertinə, kətanına, palitrasına belə can atırdı.

Mehdi Hüseyndən danışanda "dili-dodağı əsər", Əli Kərimin adını çəkəndə ağlayardı.

Bakı, doğma Abşeron, Xəzər onun şeirlərinin bəzəyi idi.

Sənsən, Xəzər, mənim ürəyimdə
Sənsən, Xəzər mənim Ürəyimdə Sən..!

– gözəl nəğməyə dönüb Xəzərin üzərində dolaşırdı. "Bakı haqqında nəğmə" oğul məhəbbətinin bir nümunəsidir. "Ay anam Bakı" şeirinin çapından sonra

[1] Tofiq Bayram. Azərbaycanım. – Bakı: Azərbaycan, 2015, s.235
[2] Yenə orada, s.134

Bakının meri Əliş Ləmbəranski ona iki otaqlı mənzil verdirmişdi. O zaman üçün bu şahanə hədiyyə idi.

T.Bayram şeirdə detallarla atmosfer yaratmağı bacarırdı:

Nədir ürəyimi burda incidən?
- Çimərlik qapqara, sahil natəmiz…
Bu mavi dənizdir, ya Qara dəniz?[1]

Bəzən də xarakterinə xas yumoru işə salırdı: "Zəncilər Bakıda gəlib ağarır, biz burada qalıb zənciləşirik" (aydinyol.az). T.Bayram qələminə xas zarafat da insanlara sevgidən irəli gəlirdi.

Tofiq Bayramın satirik şeirlərindən biri də "Ayıltma məntəqəsi"ndə şeiridir. "Xəyyam şeir yazıb tarixə düşüb, Sən isə ayıltma məntəqəsinə" deyərək təbi, ilhamı içkidə axtaran bəzi şaircikləri töhmətləyirdi.

Mehdi Hüseyn küçəsi №1. Əvvəllər "Parkovaya" adlanan bu küçəyə yazıçı M.Hüseynin adı 1964-cü ildə verilib. Paytaxtımızın amfiteatrında yerləşən bu ünvan özümüzü dərk edəndən yaddaşımıza həkk olunub. Azərbaycan Tele-Radiosunun dəyişməz ünvanı. T.Bayram bu məlum faktı ədəbiyyata gətirib, şeirləşdirib:

Bir küçə var – dünyanı gətirir evimizə,
Özü görünməsə də, ərzi göstərir bizə.[2]

Sonra yazıçıya xitab edərək, "ucalsaydı heykəlin, tanınmazdın bu qədər" deyir, adi ünvanın vətəndaşda necə bir assosiasiya yaratdığından danışır. Şair bu şeiri ilə sıradan bir, gördüyü işlər isə böyük epoxanı əhatə edən adi bir ünvanı poeziyada əbədiləşdirir. Şeir radiomuzun yarım əsrlik yubileyinə həsr edilmişdir. Onu da qeyd etmək lazımdır ki, and yerimiz olan Şəhidlər Xiyabanı da M.Hüseyn küçəsində yerləşir və Tele-Radio ilə qonşudur.

Tofiq Bayramın yaradıcılığında bir sabit obraz da var. Qadın obrazı. Qadın poeziyada aparıcı obraz olub həmişə mövzunu diri saxlayır. Qadın və poeziya ayrılmazdır. Dünya poeziyası xəzinəsindəki şedevrlərə görə məhz qadınlara borcludur. T.Bayramın poeziyası qadına səcdə edir, gözəlliyi qarşısında heyrətlənir, onu zirvələrə qaldırır, ona möhtac olduğunu etiraf etməkdən çəkinmir. "Lap dahi olasan, şıltaqlığına öz qadının dözər, öz anan dözməz", – deyib onu həyatında ən birinci yerə qoyur, ən yaxın insana çevirir. Oxucunun qarşısında klassik Azərbaycan qadınının obrazı açılır. Bu qadın özü şeir kimidir. T.Bayramda qadın dayaqdır, güc qaynağıdır, arxa cəbhədir. Həm də sirrdir, pünhandır... ilhamdır. Hər axşam evə dönməyi ilk görüş

[1] Tofiq Bayram. Seçilmiş əsərləri. – Bakı: Lider nəşriyyat, 2005, s.127
[2] Yenə orada, s.91

yerinə tələsməklə müqayisə edir. “Evə qayıdırıq”, “Qadın ürəyi”, “Keç günahımdan” qadınlara həsr olunmuş ən gözəl şeirlərdəndir. “Qadın ürəyi” bir “manifestdir”. T.Bayram məhəbbət şeirlərinin əksəriyyətini həyat yoldaşı Zərifə xanıma həsr etmişdir, bir qismi də ovqat şeirləridir. T.Bayramın sevgi şeirlərini səciyyələndirən əsas cəhət səmimiyyətdir. Ən gözəl şeiri olan “Qadın ürəyi”ni adını gizli saxladığı “Q.A-ya” ithaf edib. Gah ömür yoldaşına “şairə nə qədər keşik çəksən də, hardasa bir gizli məhəbbəti var” cəsarətli etirafında bulunur, gah da “sağalmaz xəstənəm, dərmanım sənsən”, – deyə əfv diləyir. Hətta tərcümələrində də qadınları tərənnüm etmişdir. Qaysın Quliyevin “Gözəl qadın qocalanda” şeirini elə tərcümə edib ki, şeir də udub, tərcümə də. Əslində o tərcümə mükəmməl sayılır ki, tərcüməçi görünməsin. T.Bayram şeirə elə aludə olub, “gözəlliyi gedər-gəlməzə gedən” qadına elə yas tutub ki, özününküləşdirib. “Gərək deyil tərcüməçi də, şeirin vahid dili ürəkdir, ürək” deyərək, Balkar şairinin şeirinə tipik T.Bayram havası qatıb, xüsusən özü oxuyanda:

Qadın qocaldıqca utanıb əsir
Üzünü gizlədir baxışlarından.
Onun nə günahı, vaxtdır müqəssir...
Mələyi qarıya döndərir zaman.

Onun poeziyası “zamanın həyəcanları” ilə döyünürdü. Elə özü də şeirləri ilə həyəcan yaşatmağı bacarırdı. Şairin onlarla şeiri var ki, bilməyən çox azdır. İlk misrasından tanınan, özü simvola çevrilən şeirlərindəndir “Şair qocalmaz”, “Azərbaycan deyəndə”, “Köhnə şeirlərimlə söhbət”... T.Bayram gah əsib coşa-coşa “Qarabağı vermərəm” deyir, gah Azərbaycan deyə-deyə “ürəklərdə döyünmək” istəyir, həm də dilinə xor baxan nadanları hədələyir. Yad qadının ürəyində yandırdığı “Sevda ulduzu”nu vəsf edir, sonra da özünü, günahlarını “qadın ürəyi”nə təslim edir, ona sığınır... Əsl, klassik şair naturası...

Şair “Volokardin” şeirini özünün pasportu sayırdı. Düşünürəm ki, T.Bayramın pasportu sayılacaq şeirləri çoxdur. Hamının əzbər bildiyi, ancaq onun yaza bildiyi, imzasını təsdiqləyən şeirləri.. “Poeziyanın tərifləri çoxdur. Biri də, sözlərin ən gərəklisini tapa bilmək sənətidir”.[1] Ədəbiyyatşünas alim Yaşar Qarayev T.Bayramı belə sənətkarlardan, söz xiridarlarından hesab edirdi.

Şairin mənəvi dəyərlərimizə münasibəti “Vağzalı çalınır” şeirində bariz görünür. Hər toyda-mağarda yada düşən, elə “Vağzalı” ilə müşayiət olunan “Vağzalı çalınır” şeiri poeziya ilə musiqinin təkrarsız harmoniyasıdır. Bu, süjetli şeirlərdən olub adət-ənənə, xeyir-dua, hiss-həyəcan ifadə edir.

[1] Firidun bəy Köçərli adına Uşaq Kitabxanası. Məsləkim, silahım yazmaq, 2019, s.7

“Vağzalı” milli Mendelson (Feliks Mendelson (1809-1847) alman bəstəkarı, toy marşlarının müəllifi) olsa da, səsi uzaqlara aparır, kədərləndirir, dünyanın əbədi qanunlarını bir daha xatırladır... Tənqidçi C.Yusifli bu şeir barədə əsl şair “adi görünəndən möcüzə yaradandı”, – demişdi.

Hər şair, əslində çox şairlər... öz şeirlərini yaxşı oxuya bilmirlər. Qiraətdə şüarçılıq, monotonluq, yoruculuq müşahidə olunur. T.Bayram isə özünün odlu-alovlu qiraəti, təbii pafosu, emosiyası, bədən dili ilə həm də şeirlərini gözəl çatdırmaq qabiliyyətinə malik idi. Şeirlərinin ən yaxşı qiraətçisi elə müəllifin özü idi. Şeiri elə oxuyurdu ki, coşur, daşır, “həm özünü yandırırdı, həm özgəsini”.[1] Nazim Hikmət T.Bayramın şeir oxuduğunu gördükdən sonra “S.Vurğunun layiqi yetişir”, – demişdi. Rus şairi A.Voznosenski də bu mövzunu davam etdirərək yazırdı: “Mən dünyanın heç bir yerində auditoriya tərəfindən Tofiq Bayram qədər hərarət və xüsusi məhəbbətlə qarşılanan şair görməmişəm”. O, kürsüyə qalxanda sanki “yeriyən dağ silkələnirdi”.

Tofiq Bayram aktiv və məhsuldar tərcüməçilik fəaliyyəti ilə də məşğul olmuşdur. Şair özü tərcümə işinə böyük qiymət verir, onu cavabdehlik baxımından qanköçürməyə bənzədirdi.

Tofiq Bayramın Lope de Veqadan, A.S.Puşkindən, A.Axmatovadan tərcümə etdiyi seçmələr şairin peşəkarlığı ilə bərabər, həm də yüksək zövqünün göstəricisidir. A.Tvardovskinin “Yaddaşın hökmü” poemasının tərcüməsinə görə 1988-ci ildə M.Qorki adına Azərbaycan Dövlət Mükafatına layiq görülmüşdür. R.Həmzətovun “Mənim Dağıstanım” kitabının peşəkar tərcüməsinə görə şair yüksək dəyərləndirilmiş, haqqında resenziyalar yazılmışdır. Rəsul Həmzətov ondan incik dünyadan köçmüş dostu Səməd Vurğunun ruhunu şad etmək məqsədilə gecikmiş “Əziz dostum” şeirini yazır. T.Bayram onu dilimizə elə uğurlu tərcümə etmişdi ki, çox adam sonradan məşhur mahnıya çevrilmiş bu şeirin tərcümə olduğunu da hiss edə bilməmişdir. Tərcüməni çox bəyənən müəllif T.Bayrama “sən mənim ruhumu məndən daha yaxşı anlamısan” deyir. “Əziz dostum”u İslam Rzayev, Rübabə Muradova, Əbülfət Əliyev, Canəli Əkbərov, Alim Qasımov kimi xalq artistləri, xanəndə Səxavət Məmmədov ifa etmişdilər. Mahnı türk dövlətlərində, xüsusən Türkiyədə də məşhurdur. “Tofiqləngər” (dostlarının təbirincə) öz tərcümə yaradıcılığı ilə də ədəbiyyatımızı, mədəniyyətimizi zənginləşdirirdi.

Ümummilli liderimiz Heydər Əliyev Tofiq Bayramın yaradıcılığına yüksək qiymət verərək, onu “ədəbiyyatımızın böyük qayğıkeşi” adlandırmışdı.

Sovet dövrü poeziyamızda özünün fəxri yeri, məqamı olan görkəmli şairimiz özünün həzin lirikası, ictimai-siyasi məzmunlu şeirləri ilə yaşayır, bu

[1] Yeniçağ.az. Tufan kimi doğulan, şeirləri ilə od püskürən şair... 19 aprel 2021

gün də aktualdır. Həyata “bir dəfə gəlmişəm daha bəsimdir”, – deyən Tofiq Bayram ölümü ilə də insanlığa xidmət etmək istəyir. Son gedişində “bütün yer üzünün yamanlığını, dərdini” özü ilə aparıb, “bütün insanların cavanlığını ölümün cəngindən” qurtarmaq istəyir. Budur, “Prometey hünərli” (akad. A.Aslanov) şairin şəxsiyyətinin mötəbərliyi, yaradıcılığının mahiyyəti. “Azərbaycanım” kitabının epiqrafı T.Bayramın 57 illik ömrü ilə səsləşir: “Ömür qısa, sənət yolu uzundur”. Deyirlər, əsl şair öləndə, dünya da ağzını bir az yumur... “Gərək elə yanım, külümdən belə, nəsillər tanısın – Tofiq Bayramam...”, – deyən poeziyamızın dağ vüqarlı, tufan kimi kükrəyən şairi ürəklərdə və ədəbiyyat tarixində əbədiyaşarlıq qazanmışdır. Nə qədər ki, şeirləri dil-dodaqda gəzir, nəğmələri oxunur, şair nə qocalar, nə də unudular.

FAMİL MEHDİ
(1934-2003)

Azərbaycan ədəbiyyatı tarixinə istedadlı şair, tənqidçi, alim, publisist kimi daxil olan Famil Mehdi çoxşaxəli bədii və elmi yaradıcılığı ilə nəzəri düşüncə tariximizdə yüksək mövqeyə malik alim, incə ruhlu şair kimi yaddaşlara həkk olunmuşdur. Onun poeziyasındakı mövzu zənginliyi, yüksək lirik-emosional çalarlar, şeirlərindəki milli-vətənpərvərlik duyğuları, fəlsəfi-estetik görüşlər bütün zamanlar üçün müasir və aktualdır.

Famil Mehdi Azərbaycan mətbuatının müxtəlif problemlərinə həsr olunmuş sanballı tədqiqat əsərlərinin müəllifi kimi Azərbaycan mətbuatı tarixində də mötəbər mövqeyə malik alimlərimizdəndir. Onun mətbuatın çeşidli məsələlərinə, nəzəri problemlərinə həsr edilmiş kitabları, dərslik və monoqrafiyaları uzun illərdi ki, ali məktəblərin jurnalistika fakültələrində istifadə olunur.

Həyatı. Famil Mehdi (Famil Ağalar oğlu Mehdi) 25 dekabr 1934-cü ildə Ağdam rayonunun Sarıcalı kəndində anadan olmuşdur. İbtidai təhsilini Ağdam şəhər 5 və 3 saylı orta məktəblərində almışdır. Ağdamın Əhmədavar kənd yeddiillik məktəbini bitirmişdir.

Famil Mehdinin uşaqlıq illəri İkinci Cahan Savaşının ağır illərinə təsadüf etmişdir. O zaman orta məktəb müəllimlərinin böyük əksəriyyəti hərbi səfərbərliyə alındıqlarından, məktəblərdə müəllim kadrlarına böyük ehtiyac yaranmışdı. Bu boşluğu doldurmaq üçün yaradılmış təhsil ocaqlarından biri də Ağdam Pedaqoji Məktəbi idi. Famil Mehdi orta məktəbin yeddinci sinfini bitirdikdən sonra bura daxil olaraq müəllim peşəsinə yiyələnmişdir. Lakin o orta məktəblərdə müəllim kimi fəaliyyət göstərməmiş, ali təhsil almaq üçün 1953-cü ildə o zamankı Azərbaycan Dövlət Universitetinin (İndiki BDU) Filologiya fakültəsinin Jurnalistika şöbəsinə daxil olmuşdur. 1958-ci ildə Universitetdə təhsilini başa vurmuş, elə həmin ildən "Bakı" axşam qəzetində ədəbi işçi kimi jurnalistlik fəaliyyətinə başlamışdır. Sonrakı illərdə ADU-nun Filologiya fakültəsinin aspiranturasında (1961-1964) təhsilini davam etdirmişdir. Jurnalistika fakültəsində müəllim, baş müəllim vəzifələrində çalışmışdır.

O illərdə respublikada mətbuat sahəsində çalışacaq jurnalist kadrlarına və onların hazırlanmasında lazım olan savadlı mütəxəssislərə böyük ehtiyac duyulurdu. Bakı Dövlət Universitetində əvvəllər Filologiya fakültəsinin tərkibində bir şöbə kimi fəaliyyət göstərən Jurnalistika sonradan müstəqil fakültəyə çevrilmişdir. Fakültədə peşəkar kadrlara böyük ehtiyac olduğundan müəllimlər və universitet rəhbərliyi Famil Mehdini pedaqoji sahəyə yönləndirmişlər. Bundan sonra o, ömrünü Azərbaycanda jurnalist kadrlarının hazırlanmasına və yetişdirilməsinə həsr etmişdir.

Famil Mehdi 1963-cü ildə görkəmli yazıçı, akademik Mirzə İbrahimovun rəhbərliyi altında "Səməd Vurğunun publisistikası" mövzusunda namizədlik dissertasiyası müdafiə etmiş, Jurnalistika fakültəsində müəllim işləyə-işləyə günün tələblərinə cavab verən dərs vəsaitlərinin və proqramların hazırlanması üzərində ciddi əmək sərf etmişdir. "Alovlu publisist Səməd Vurğun", "Azərbaycan bədii publisistikasının sənətkarlıq problemləri", "Mətbuatda publisistika", "Bədii publisistika" kimi monoqrafik kitablar və dərs vəsaitləri onun qələminin məhsuludur.

Famil Mehdi "Azərbaycan bədii publisistikasının sənətkarlıq problemləri" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. O, ömrünün sonunadək Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsində professor və "Jurnalistikanın nəzəriyyəsi və təcrübəsi" kafedrasının (1973-cü ildən) müdiri vəzifəsində çalışmışdır. F.Mehdi Bakı Şəhər Rayon Sovetinin deputatı, "Oqonyok" jurnalının laureatı idi və Bilik Cəmiyyətinin diplomuna layiq görülmüşdür.

Famil Mehdi 28 sentyabr 2003-cü ildə Bakı şəhərində vəfat etmişdir.

Yaradıcılığı. İlk şeiri 1951-ci ildə Ağdam rayonunun "Lenin yolu" qəzetində çap edilən Famil Mehdi bədii yaradıcılığa başlamış, mütəmadi olaraq dövri mətbuatda şeirlər, publisistik yazılar və elmi məqalələrlə çıxış etmişdir.

Universitetdə oxuyarkən şairin "Ana" şeiri "Ədəbiyyat və incəsənət" qəzetində dərc olunmuş, bu şeir onun ədəbi fəaliyyətində mühüm rol oynamışdır. Dövrün görkəmli şairləri, ədəbiyyatşünasları şeirə böyük qiymət vermişlər. Professor Mir Cəlal Paşayev onu "böyük bir poemaya bərabər şeir" adlandırmışdır.

Saplaya bilmədi iynəni ana,
Kədərsiz qəlbindən bir kədər keçdi.
Sanki qocalığı o heç bir zaman,
Əsla indiki tək hiss etməmişdi.

Çağırıb saplatdı onu qızına,
Bir şadlıq duyuldu yenə üzündə.
Çünki itirdiyi işığı ana
Doğma balasının tapdı gözündə.[1]

Famil Mehdi ədəbi fəaliyyətlə məşğul olduğu müddətdə siyasi sistemin ədəbiyyat və sənətlə bağlı müəyyən etdiyi norma və çərçivələrin əsiri olub qalmamışdır. "Sosialist realizmi" prinsipi adlanan siyasi konyuktura qələm adamının sərbəst mövzu seçimini və onun bədii inikasını cilovlasa da, şair

[1] Famil Mehdi. Qarabağ şikəstəsi. – Bakı: Azərnəşr, 1976, s.89

sistemin girovuna çevrilməmişdir. Onun yaradıcılığında siyasi konyukturanın müəyyən izlərinə rast gəlinsə də, şairin öz təbirincə desək, könül tarında, ancaq xalqın ruhundan, əhvalından doğan mahnılar çalınmışdır.

Min hava çalınıb könül tarımda,
Dünyanın nə çoxu, nə azıyam mən.
Fəsillər görüşür duyğularımda,
Elin həm qışıyam, həm yazıyam mən.[1]

Şairin ürəyi daim Azərbaycanla, onun Qarabağı, Mili, Muğanı ilə döyünmüşdür. Bir çoxları Moskvaya, Kremlə mədhiyyələr yazanda o doğma yurdunun dağını, dərəsini, çayını, bulağını tərənnüm etməyi daha üstün tutmuşdur.

Anam Qarabağın, Milin, Muğanın,
Siz də mənim kimi eşqilə yanın.
Başına döndüyüm Azərbaycanın
Dəli Kürüyəm mən, Arazıyam mən.[2]

Famil Mehdi təpədən-dırnağacan milli düşüncə daşıyıcısı olan vətənpərvər Azərbaycan ziyalısı idi. Azərbaycanın şanlı tarixi keşmişi, milli mədəniyyəti onun könül rübabını ehtizaza gətirən əsas stimul olmuşdur.

Dinlə "Çahargah"ı, eşit "Qatar"ı,
Könül dünyamızın dövləti, varı.
Ələsgərin sazı, Qurbanın tarı,
Cabbarın, Seyidin avazıyam mən.[3]

Sovet siyasi sistemi bütün ideoloji vasitələrlə çalışırdı ki, milli müstəmləkələrdə xalqları öz tarixindən, milli kökündən uzaqlaşdırıb "sovet adamı" adlanan süni bir toplum formalaşdırsın. Bütün bu məkrli oyunları dərindən duyan şair yaxşı dərk edirdi ki, öz xalqının tarixinə, mədəniyyətinə xor baxan sənətkarın yazdıqlarının ömrü uzun ola bilməz. Mənsub olduğu xalqın şanlı keçmişini yaxşı bidiyindən, onun poeziyasında bu çalarlar daha çox diqqəti cəlb edirdi.

Sovet sistemində sənətkarın öz taleyindən, zəmanədən şikayətlənməsi az qala, vətənə xəyanət kimi qiymətləndirilirdi. Marığa yatmış imperiya nökərləri, partiya ideoloqları sənətkarın bir sözündən yapışıb onu hansı bəlalara düçar etdikləri də uzaq keçmişin hadisəsi deyildir. Cavidləri, Müşfiqləri gedər-gəlməzə göndərən hakimiyyətin "ədəbi tənqidçilər"i yeni düşmən obrazı yaratmaq fitnələri Famil Mehdinin də taleyindən yan

[1] Famil Mehdi. Qarabağ şikəstəsi. – Bakı: Azərnəşr, 1976, s.89
[2] Yenə orada, s.89
[3] Yenə orada, s.89

ötməmişdir. Lakin o, yurd, vətən və onun övladları yolunda çəkdiyi ağrıları, əzabları taleyin bir lütfü kimi qəbul etmişdir.

Professor Tofiq Hacıyevin təbirincə, Famil Mehdinin "Mən" rədifli şeiri Səməd Vurğunun "Azərbaycan" şeirinə paralel ikinci poetik tablodur.

Famil Mehdi fikir və məna şairidir. Bu fikir və mənanın alt qatında şair ürəyinin alovu ilə qızınmış hiss və duyğu axınları çağlayır. Bunu onun hətta ayrı-ayrı beytlərindən də sezmək olur: "Sussam da yerimdə dan parçası tək, yaralı şir kimi bağırır ürək". "Qocalar" şeirindəki bu hiddətə səbəb nədir? Şair sahilə çıxmış müdrik qocaların yanından saymazyana, biganə keçən, hərcayı bir dəliqanlı görmüşdür. İki həyat yolu, iki tale arasındakı ziddiyyət şeirin bədii konfliktini, daxili münaqişə gücünü müəyyənləşdirmişdir. "Sənin saçlarını ananın əli, onun saçlarını güllə daradı", "Sən gözmuncuğunu dişinlə bəzən oynadıb qımışdın, ay cavan oğlan. O polad zənciri biləklərindən dişilə gəmirib qırdı bir zaman". Bu misralardan hər biri Famil Mehdi poeziyasına məxsus fikir gücünə, bədii məntiq qüvvəsinə malikdir.

Sovet siyasi elitası mətbuata özünün əsas ideoloji ruporu kimi baxırdı. Kreml ideoloqları yaxşı anlayırdılar ki, mətbuat ən güclü və qorxulu bir silahdır. Kütləni daim bir çətir altında saxlamaq üçün mətbuatın gücü ölçüyəgəlməzdir. Bunun üçün də jurnalist kadrlarının hazırlanmasına ciddi önəm verilirdi. Famil Mehdi də bu qədər həssas və təhlükəli bir zaman kəsiyində gənc tələbə jurnalistlərə sovet sisteminin ideoloji istəklərindən mühazirələr oxuyur, jurnalistikanın partiyalılığından, Lenin ideallarının "ölməzliyindən" danışırdı. Şeirlərində isə auditoriyada dilinə gətirə bilmədiyi içini göynədən acı həqiqətlərdən söz açırdı. Məhz bu təzadların nəticəsi idi ki, Famil Mehdi respublikanın tanınmış şairi, nüfuzlu alimi, peşəkar qələmli publisisti olmasına baxmayaraq, ona heç bir yubiley tədbirləri keçirilməmişdir. Poeziyasında özünü göstərən bu "cızıqdan çıxmalar" həyat yolunda ona əməlli-başlı əngəllər yaratmışdır.

"Famil Mehdinin şeirləri oxucuya yaxşı tanışdır. 1950-ci illərdə ədəbiyyata öz səsi, öz sözü ilə gələn F.Mehdinin poeziyası təmizlənə-təmizlənə, durula-durula axan suya bənzəyir. Bu durulan, təmizlənən yalnız şeir peşəkarlığı, sənətkarlıq dəst-xəti deyil. Bu həm də Vətən duyğusunun dərinliyidir, genişliyidir və müdrikliyidir. Dəyişməyən bir şey varsa, o da şairin Vətən ətirli şeirlərindəki səmimiyyətdir.

Vətənə şair kimi baxmaq böyük xoşbəxtlikdir. Hətta zəif şair belə Vətənə, doğma evinə, kəndinə şair kimi baxıbsa, o kənd, o ev, o yurd onu həmişə yadında saxlayır. Və o ev, o kənd, o yurd ona öz nurundan, öz müstəqilliyindən nəsə bir şey bağışlayır.

Famil Mehdinin üzünü Vətənə tutub dediyi şeirlər ciddi, sanballı poeziyanın dəyərli örnəkləri olduğu üçün Vətənin nurundan ona da qismət olub.

Dünyada üzündə vətən nuru yaşamaqdan da böyük xoşbəxtlik nə ola bilər?"[1]

Şairin şeirlərində ana obrazı ən dinamik, müxtəlif situasiyalara işıq tutan obraz kimi çıxış edir. Həm də, o əsas etiraflarını ana qarşısında dilinə gətirir.

Anam elə bilir dostam, sirdaşam,
Böyük adamlarla candan, ürəkdən.
Anam elə bilir hər səhər, axşam
Oturub-dururam nazirlərlə mən.
Deyir ki, gözlərim gözünə qurban
Baxmırlar,
on dəfə demişəm axı.
Bircə yol söz-sözü gətirən zaman
Tapşır, düzəltsinlər yollarımızı.
Anam elə bilir, elə bilir ki,
Ona elə gəlir, elə gəlir ki,
Bütün Bakıdakı institutlar
Mənim əlimdədir...[2]

Sovet hakimiyyəti insanların dini inancına təcavüz edir, ümumən dinlə bağlı siyasətini olduqca vulqar və barbarcasına həyata keçirirdi. Xüsusilə türk-müsəlman respublikalarında dinsizliyi, Allahsızlığı yaşam tərzi elan edən sovet diktaturası dini inancı öz varlığı üçün ən böyük təhlükə sayır və ona qarşı amansız mübarizə aparırdı. Şair bu cür avantürüst, antihumanist siyasətə açıq üsyan edirdi.

Mənim qoca anam Allahsız deyil,
Tanıyır Allahı, peyğəmbəri də.
Deyir söz düşəndə bunu yaxşı bil,
Allahdır yaradan göyü, yeri də.
Mən cavab verirəm: düz deyir anam,
Qızıldan qiymətli söz deyir anam.
Söyləyir allahsız nə var dünyada?
Deyir ki, onunla qəlbin düz olsun.
Bir işi tutanda onu sal yada,
Allah da, üstündə sənin göz olsun.[3]

Famil Mehdi yaradıcılığında saf məhəbbətin tərənnümü geniş yer tutur.

[1] Kamil Vəliyev. Vətəndaşlıq poeziyası // Famil Mehdi. Seçilmiş əsərləri. – Bakı: Azərnəşr, 1989, s.4
[2] Famil Mehdi. Seçilmiş əsərləri. – Bakı: Azərnəşr, 1989, s.68
[3] Yenə orada, s.108

Şairin lirik-emosional ruhda yazılmış "Yalnız o vaxt bil ki.." şeiri sevən bir aşiqin məşuquna səmimi etirafıdır. Burada yüksək pafoslu, təmtəraqlı ifadələrdən uzaq, sözünə, ilqarına etibarlı bir aşiqin ürək sözləri öz bədii inikasını tapır.

Xoş gündə bir dəfə yadına salma,
Dar gündə ümidlə axtar, an məni.
Gələrəm, əzizim, nigaran olma,
Yolumdan saxlamaz min tufan məni.
Şaxtada donsam da yenə gələrəm
Gəlməsəm sanma ki, qəlbi buzam mən,
Eşqimdə, əhdimdə vəfasızam mən...
Səni üstələsə əgər qan-qada,
Yalnız o vaxt bil ki, yoxam dünyada,
Yoxam dünyada.[1]

Famil Mehdi öz yaradıcılığında poeziyanın epik janrından da geniş istifadə etmişdir. Onun "Ömür təzələnir", "Göyü çiynində saxlayan adam", "İnsan unudulmur", "Günəş həmişə səmadadır", "Gəlimli, gedimli dünya" poemaları ciddi sənət örnəkləri kimi mütəxəssislər tərəfindən yüksək qiymətləndirilmişdir.

Şairin "Ömür təzələnir" poemasında İkinci Cahan savaşının insanlara yaşatdığı ağır mənəvi-psixoloji faciələr öz əksini tapmışdır. Əsərin qəhrəmanı Nadir ali təhsilini yenicə başa vurmuş gənc neft mühəndisidir. Yenicə ailə qurmuş Nadir də vətənin başı üzərini qara buludlar alanda yüz minlərlə soydaşı kimi, vətəni qorumaq üçün cəbhəyə gedir. O, döyüşlərdə böyük şücaət, qəhrəmanlıq göstərsə də, kəşfiyyata gedərkən düşmənə əsir düşür. Əsirlikdə min bir cəhənnəm əzabı yaşasa da, sabaha olan ümidini itirmir. Müharibə Hitler faşizminin məğlubiyyəti ilə başa çatanda Nadir də vətənə dönür. Lakin müharibədən qalan "əsir" damğası onu vətəndə ikinci "növ" adama çevirir. İxtisasına uyğun iş tapa bilmir. Ali təhsilli mühəndis olsa da, neft mədənlərində fəhlə kimi ağır işlərdə çalışmalı olur. Yenicə dünyaya gələn qızının adını Təranə qoyur. Cəbhədən mənən əzilmiş dönən Nadir dinc həyatda daha ağır bir zərbə alır. Maddi çətinliklərdən bezən həyat yoldaşı bir gün körpə qızını onun üstünə ataraq ailəni tərk edir. Nadir min bir məşəqqətə qatlanaraq körpə qızını özü böyütməli olur.

Famil Mehdi sovet diktaturasının insanlara yaşatdığı dəhşətli əzabları açıq şəkildə ittiham edir. Məlumdur ki, İkinci Cahan savaşında əsir düşmüş milyonlarla sovet insanı vətənə dönəndən sonra onlara "vətən xaini" damğası vurularaq, Sibir sürgünlərinə, həbsxanalara göndərildilər. Həbsxanadan can

[1] Famil Mehdi. Seçilmiş əsərləri. – Bakı: Azərnəşr, 1989, s.139

qurtaranlar isə cəmiyyətdə gözükölgəli, hüquqsuz bir varlığa çevrildilər. Nadir də məhz bu qəbildən olan insanlardan biridir.

Qəribə iş idi, nə vardı məndə,
Adamlar gen gəzir, uzaq qaçırdı.
Dəmir zəncirləri dişimlə kəsdim,
Ox kimi sinəmi dəldi qəm-kədər.
Qürbətdə vətənçün əsdikcə əsdim,
Vətəndə adıma "əsir" dedilər.
Getdim fəhləliyə bir mədəndə mən,
Qayıdıb gec gəldim evə də hərdən.[1]

Nadir qızının oxuduğu məktəbdə musiqi müəllimi işləyən Nübarla tanış olandan sonra onun həyatında dönüş baş verir. Nübar müəllimə həyat yoldaşını erkən itirmiş zəngin mənəviyyatlı bir xanımdır. O, Təranəyə öz doğma balası kimi yanaşır. Az vaxtda bu qıza qarşı onun qəlbində analıq hissləri baş qaldırır.

Nübar müəllimə Təranənin atası Nadirlə tanış olandan sonra başa düşür ki, bu, talenin onun qarşısına çıxardığı bir qismətdir. Nadirin yüksək mədəniyyəti, mənən zəngin, ləyaqətli bir insan olması müəllimənin qəlbində Nadirə qarşı sevgi hissləri cücərdir. Müəlliməni bir sual düşündürür ki, nə səbəbdən Təranəni həmişə məktəbə atası gətirib, aparır. Günlər keçir və günlərin bir günü Nadir öz həyat tarixçəsini Nübara danışmalı olur.

Gəldi ilk körpəmiz dünya üzünə,
Günəşin nurunu canımda duydum.
Qəlbimdə nəğmələr sussa da, yenə
Mən onun adını Təranə qoydum.
Sanma bu dünyada xoşbəxt qız oldu,
Anası var ikən, anasız oldu.[2]

Onların arasında səmimi hisslər baş qaldırır. Bir müddət sonra Nadirlə Nübar ailə qurur. Hər ikisinin həyatında yeni bir səhifə, xoşbəxt günlər başlayır.

"İnsan unudulmur" poema-trilogiyasında sovet siyasi sistemi, cəmiyyətin görünən və görünməyən tərəfləri bütün təzadları ilə öz bədii əksini tapmışdır. "Durğunluq illəri"ndə yazılmış poemanın qəhrəmanı Müzəffər Kürqırağı rayonlarından birində raykom katibi işləyir. Keçmiş döyüşçü Müzəffər müharibənin qanlı cəbhələrində gözü ilə od götürmüş, Varşavaya qədər döyüş yolu keçmiş mətin bir insandır. Döyüş cəbhəsini əmək cəbhəsinə

[1] Famil Mehdi. Seçilmiş əsərləri. – Bakı: Azərnəşr, 1989, s.261
[2] Yenə orada, s.262

dəyişən Müzəffər komsomol katibi kimi əmək fəaliyyətinə başlayır. Az sonra bacarığını və çalışqanlığını nəzərə alaraq, onu ali partiya məktəbinə oxumağa göndərirlər. Xalqın dərdinə-sərinə yanan, insanların həyatını, yaşayışını yaxşılaşdırmaq üçün gecə-gündüz çalışan təmənnasız bir rəhbərdir. O, siyasi sistemin yuxarıdan göstərişlə idarə prinsiplərinə boyun əyməyən, daha çox xalqın səsinə səs verən rəhbər işçidir.

- Maşallah, ət yox, yağ yox,
Nə var ki, biz də yeyək?
- İstəyirsiniz olsun.
Gəlin şüarlar deyək.
Gülüşdülər: – Ay canım,
Qəzetlər yazır ki, var,
Süd gölündə üzərlər
Ölkəmizdə adamlar.[1]

Müzəffər gecə-gündüz çalışır, günlərini tarlalarda, müəssisələrdə keçirir. Gərgin iş prosesi və müharibədən daşıdığı ağır yaralar onun əmək fəaliyyətinə ciddi təsir göstərir. Özü könüllü olaraq ərizə yazaraq işindən azad olunur. Təqaüdə çıxdıqdan sonra dostları, bir vaxt ətrafında pərvanə kimi dolanan tanışları tərəfindən unudulur. Bu etibarsızlıq, biganəlik onu ruhən sıxır, ürəyində ağrılı hisslər oyadır. Şair bununla sovet siyasi sisteminin hansı dəyərlər üzərində intişar tapdığını, insanlar arasında münasibətlərin karyerist düşüncə müstəvisində formalaşdığını lənətləyirdi.

1980-ci illərin axırlarında bədnam ermənilərin Qarabağda başlatdıqları seperatizm hərəkatı Famil Mehdinin şəxsi həyatında və yaradıcılığında ciddi kataklizmlərə səbəb oldu. Xalqının başı üstünü almış təhlükənin nə qədər dərin və böyük olduğunu anlayan professor respublikanın ləyaqətli ziyalıları kimi bu xəyanətə qarşı açıq şəkildə mübarizə aparmağa, səsini ucaltmağa başladı. Moskvanın qarşısında müti qul pisxologiyası ilə hərəkət edən Azərbaycanın o zamankı hakimiyyəti xalqı yuxuya verməyə çalışır, xalqımıza qarşı erməni xəyanətinin üstünü ört-basdır etməyə çalışırdı. Respublika televiziyası, mətbuat orqanları hələ də "sovet qardaşlığı", "beynəlmiləlçilik" kimi köhnəlmiş bayatılar oxuyurdu. Bunlar azmış kimi, xalqın haqq səsini deyən, Qarabağda baş verən həqiqətləri olduğu kimi çatdıran ziyalılar, qələm adamları gözümçıxdıya salınır, ağır təzyiqlərə məruz qalırdılar. Hakimiyyət tərəfindən ona qarşı aparılan təzyiqlərə baxmayaraq, Famil Mehdi Qarabağda baş verən cinayətləri bütün çılpaqlığı ilə bəyan edirdi.

[1] Famil Mehdi. Seçilmiş əsərləri. – Bakı: Azərnəşr, 1989, s.310

Yüz il sonra
Nəvəmizin nəvəsu də,
Azərbaycan torpağının
hər dənəsi, təpəsi də,
Bir də, bir də kükrəməsin
qəzəbli dağ seli tək!
Qarabağdan əlini çək!
Qarabağdan əlini çək![1]

"Getdi Qarabağım, haray ay haray!", "Mənim Qarabağım mənim deyilsə...", "Qaçqınlar, ölməyin, aman günüdür" başlıqlı şeirləri Qarabağ faciəsini, doğma vətənin başı üstünü almış təhlükəni ürəkağrısı ilə öz soydaşlarına çatdırır, xalqımızı yadelli işğalçılara qarşı bir yumruq kimi birləşməyə çağırırdı.

Famil Mehdinin şeirləri bir çox xarici dillərə tərcümə olunmuşdur. 1979-cu ildə Moskvada "Sovetskiy pisatel" nəşriyyatı şairin "Sedmoy kontinent" (şeirlər) (tərcüməçi Sergey Polikarpov), 1984-cü ildə "Çelovek ne zabıt" (poema) (tərcümə: R.Kazakova, M.Qusarov), 1987-ci ildə "Poisk istını" (poemalar və şeirlər) (tərcümə: S.Polikarpov (böyük hissəsi), R.Kazakova, V.Qordeyçeva) kitabları nəşr edilmişdir.

Famil Mehdi ictimai lirikanın, səmimi ifadə tərzinin, vətənpərvərlik coşqulu poeziyanın görkəmli ustadı, qüdrətli sənətkarı idi. O poeziyaya, sənətə gətirdiyi səmimi, saf, mübariz, məğrur, əzmkar, insani hiss və duyğuları ilə ədəbiyyatımızda özünəməxsus yer qazanmışdır.

[1] Famil Mehdi. Əllidən sonra. – Bakı: Yazıçı, 1993

MƏSTAN GÜNƏR
(1935-2010)

Şair, publisist, Dövlət mükafatı laureatı Məstan Günər poeziyamızın silinməz imzalarından biridir. Onun milli uşaq ədəbiyyatının inkişafında özünəməxsus yeri vardır.

Həyatı. Məstan Günər (Məstan Rəsul oğlu Əliyev) 1935-ci il iyulun 25-də Tovuz rayonunun Əsrik-Cırdaxan kəndində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra ADPU-nun Azərbaycan dili və ədəbiyyatı fakültəsini (1953-1957) bitirmişdir. İlk şeirləri "Sosializm kəndi" rayon qəzetində dərc edilmiş, respublika mətbuatına 1955-ci ildə "Ədəbiyyat və incəsənət" qəzetində çap etdirdiyi "İsti köynək" və "Körpü" şeirləri ilə qədəm qoymuşdur. Onun "Qartal", "İlk görüş", "Çəmən qızı", "Nərgizim", "Çalğıçı quşlar", "Addımlar, addımlar", "Obalardan əsən yellər", "Bir könüldən min könülə", "Mən bir durna qatarında", "Qoşmalar", "Seçilmiş əsərləri" və sair şeir kitabları işıq üzü görmüşdür.

O, əmək fəaliyyətinə jurnalist kimi başlamış və uzun illər radio və televiziya şirkətində, "Ədəbiyyat və incəsənət" qəzetində, "Gənclik" nəşriyyatında redaktor kimi çalışmışdır. Bir müddət Tovuz rayon icra hakimiyyəti başçısının müavini vəzifəsində çalışmışdır. Ədib müxtəlif vaxtlarda əsərlərini "Məstan Dəmirçioğlu", "Məstan Əsrikli", "Məstan Məsum", "Məsum Əliyev", "Məstan" imzaları ilə çap etdirmiş, əsasən Məstan Günər adı ilə tanınmışdır. O uşaq ədəbiyyatının inkişafında xidmətlərinə görə Azərbaycan Komsomolu (1976) və Azərbaycan Dövlət Mükafatına (1980) layiq görülmüşdür.

Məstan Günər 2010-cu il 25 sentyabr tarixində vəfat etmiş, doğma Əsrik-Cırdaxan kəndində dəfn olunmuşdur.

Yaradıcılığı. Məstan Günər dəmirçi oğlu idi, sonralar onun misraları da elə bil dəmirçi kürəsindən çıxmışdı; möhkəm, özüllü, isti...

Atası Rəsul kişi müharibədə həlak olmuşdu. Anası böyütmüşdü onu. Sonralar ən gözəl şeirlərindən birini anasına həsr etmişdir. O şeiri Azərbaycan poeziyasında ən lirik, ən həzin, ən duyğulu ana şeirlərindən biri hesab edirik.

Səndən ötrü qəribsədim,
a saçları yovşan anam.
Yaş ötdü, yaşın hökmünə
öyrəşən, uyuşan anam.

Sellər ilə süpürləşən,
çətin günlərdə kürləşən,
göyçək əli kömürləşən,
birçəyi qarlaşan anam.

Fikirli yatsa gecələr –
yuxusunu qatsam əgər,
gördüyünü səhər-səhər
sulara danışan anam.[1]

Şeir insan hisslərinin poetik ifadəsidir və bu şeirdə poeziyanın bütün komponentləri öz əksini tapmışdır. Təsvir olunan Ana obrazına diqqət yetirək... Son dərəcə milli və koloritlidir. Ona yaraşdırılan təşbihlər çox dəqiq seçilmişdir: ana saçlarından yovşan iyi gəlir. Yovşan elə bir bitkidir ki, çöllərdə bitir. Qəribə, gözəl qoxusu var. O qoxunu ancaq çöldə, kənddə yaşayanlar duya bilər. Saçın yovşana bənzədilməsi oğul həsrətinin bir ifadəsi deyilmi? Kənddən ayrılıb şəhərdə yaşayanlar həmişə çölü, çəməni xatırlamışlar. Çöl genişlikdir və təbiətin gözəlliklərini özündə əks etdirir. Ananın çöllərə təşbih edilməsi də maraqlı tapıntıdır. "Birçəyi qarlaşan anam" çox orijinal səslənir. Şeirdə Ana mənəvi planda da görümlüdür:

Yola çıxar köç görəndə,
uçmaq istər quş görəndə,
qollarını boş görəndə,
hərdən qubarlaşan anam.[2]

Məstan şeirə elə çöllərdən, eldən-elatdan, anaların – ağbirçəklərin, ataların – ağsaqqalların mehrindən, aşıqların sazında dillənən havalardan, bulaqların zümzüməsindən, bənövşələrin yaz qoxusundan gəlmişdir.

Məstan Günər ədəbiyyata 1950-ci illərdə gəldi. Ürəyi dolu idi. Amma bu dolu ürəyi boşaltmaq üçün təkcə təbii ilham, istedad kifayət etmirdi, öyrənmək, müşahidə etmək, şeirdə öz fərdi dəst-xətini yaratmaq, seçilmək, fərqlənmək lazım idi. O, xalq şeirindən, folklordan öyrənə-öyrənə, müasir şeirin də qarşıya qoyduğu tələblərə cavab verməyə çalışdı. Onun yetmişinci illərə qədər yaradıcılığını məhz axtarış dövrü kimi səciyyələndirmək olar. Məstan bu illərdə həm xalq şeiri ənənələrini davam etdirirdi, qoşmalar, gəraylılar yazırdı, həm də müasir heca şeirinin müxtəlif şəkillərinə müraciət edirdi. Mövzuları da rəngarəng idi, həyatın, gerçəkliyin hər yönünə baş vururdu, kəndi, təbiəti, eli-obanı unutmurdu, xalqın sevinci ilə yaşayır, qəmi ilə üzülürdü. Yetmişinci-səksəninci illərdə isə artıq o, yetkin bir şair kimi diqqəti cəlb edirdi.

Məstan şeiri kifayət qədər poetik sənətkarlıq nümunələri ilə zəngindir. Təkcə orijinal təşbihlər, metaforalar bir yana, bu şeirləri oxuyanda qarşında insan hisslərinin, duyğularının coşqun çaylarına, dənizlərinə baş vurursan.

[1] Məstan Günər. Bir könüldən min könülə. – Bakı: Yazıçı, 1981, s.20-21
[2] Yenə orada, s.21

Məsələn, sazın insan həyatına, varlığına necə hakim kəsildiyini çox şairlər ifadə edib. Amma Məstan Günərin ifadəsində bənzərsiz bir mənzərə yaranır:

Gecələr vadini kimdir ağladan,
orda sevənlərin bağrımı qandır?
Bir saz tüstülənib nə istər ondan,
sədəfli köksündə yoxsa tufandır?!

Orda Usuboğlu tənha dolanır,
o el nəğməkarı, el aşığıdır.
Sağa göz gəzdirir, sola boylanır,
qolları sazının sarmaşığıdır.[1]

Bura qədər Saz və Aşıq obrazları təsnif edilir, "qolları sazının sarmaşığı" olan Usuboğlunun "sədəfli köksündə"ki tufanın naləsini, hayqırtısını eşidirik. Ancaq sonra mənzərə dəyişir, düşünürük: "Bülbüllər susanda, güllər yatanda aşığı vadiyə gətirən nədir?" Və birdən "Qızıl qaya"nın daşına dəyən durnalar xatırlanır, "Qayanın dibində durna qanından aşığın sinəsi qırmızılandı". Ona görə də: "Sazı sinəsində, özü yerdəsə, aşığın xəyalı göy üzündədir. Qalan durnalarla verib səs-səsə, ölən durnaların əvəzindədir". Həmin o durnaların qanadları vaxtsız gedənlərin baş daşlarına bənzər.

Məstan Günərin əksər şeirlərində xalqın adət-ənənələri, mərifət dünyası, əxlaqi görüşləri öz əksini tapır və hətta heyrətlənirsən ki, bu qədər bilgi və məlumatı necə əxz edib. O, təbiətdəki hər gülün, çiçəyin, hər daşın, təpənin, bağın, gülüstanın görünüşündə incə mənalar axtarırdı. Ocaq daşında nərgiz ətrini duyur, "aylı buluddan ot tayasına mirvari töküldüyünü" görürdü. Şairliklə rəssamlıq… bu iki sənət sahəsi bir-birinə həmişə qoşa qanad kimi yaxın olub. Məstanın elə şeirləri var ki, orada sözlərin yaratdığı məna rəssam fırçasından yaranan tabloya çevrilir. "Yaz çağı gilanar çiçəklənəndə zirvədən gədiyə ağ duman enir. Təmiz dağ nəfəsi gətirir kəndə, tayalar şehlənir, çör-çöp nəmlənir". Bu, adi təbiət təsviridir. Amma baxın: "Simləri ağlağan, sevgisi körpə, Kərəm cürəsiydim o yerlərdə mən. Kərəmə dönmüşdü yanıq bir təpə, qolları cığırdan, mizrabı mehdən". Bu isə sözlərin, duyğuların yaratdığı mənzərədir.

Məstan Günər müasir şeirimizdə qoşma ustası kimi özünü sevdirə bildi. Heca şeirimizin bu forması Məstan şeirində özünün yeni ifadə tərzi ilə yaşayır, – desək, yanılmarıq. Onun qoşmaları XX əsr insanının, daha doğrusu, sevən aşiqin könül çırpıntılarını əks etdirir. Bu qoşmalarda Vaqif şeirinə məxsus nikbinlik sanki yenidən üzə çıxır. Gözəllikdən zövq almaq, sevdiyi

[1] Məstan Günər. Seçilmiş əsərləri, I cild. – Bakı: XXI Yeni nəşrlər evi, 2003, s.328

gözəlin həm daxili, həm də zahiri portretini yaratmaq, məhəbbətin, sevginin ötəri hiss olmadığını sübut eləmək bu qoşmaların mahiyyətini təşkil edir.

Üzündə al-əlvan xallar oynaşır,
Dörd yanın al-əlvan laladı yaman.
Tanrı töhfəsidi qara gözlərin,
Şəfadı, şəfəqdi, şəhla yaman.

Yerin-göyün şöləsi sən çıraqda,
Nursuz qalıb yəqin şeh də, bulaq da,
Çiçək əldə, çiçək tozun dodaqda,
Məstanın dərdləri əladı yaman.[1]

Məstan Günər həm də tanınmış bir uşaq şairi idi. Bu sahədə də uğurları az deyildi və Azərbaycan Dövlət Mükafatına layiq görülmüşdü.

Onun bir qoşmasının qəribə taleyi olub. Belə ki, aşıqlar onu böyük şairimiz Səməd Vurğununku hesab edirdilər. Yalnız illər keçəndən sonra, bu şeirin müəllifinin Səməd Vurğun yox, Məstan Əliyev olduğu aydınlaşdı...

Gedirəm, ay ellər, sözüm-söhbətim,
Neçə şirin-şirin dillərə qaldı.
Cüyürlü yamaclar, ceyranlı çöllər,
Körpə çiçəklərə, güllərə qaldı.

Elə çalma çoban qardaş, tütəyi,
Bir də görüşərik dağlar küləyi!
Məstanın bu yerə qonaq gəlməyi,
Deməyin aylara, illərə qaldı.[2]

"Kənddən ayrılarkən" adlı bu qoşmanı Məstan Əliyev 1955-ci ildə qələmə alıb, o illərdə Səməd Vurğun xəstə idi, az sonra, 1956-cı ildə böyük şairimiz vəfat etdi. Ümümxalq kədərinə çevrilən bu matəmdən sonra S.Vurğun uzun müddət unudulmadı, hətta onun son günləri ilə bağlı şeirlər yazıldı, bu şeirlərin də müəllifinin Səməd Vurğun olmadığı çox-çox sonralar meydana çıxdı.

Ancaq Məstanın bu qoşmasının Səməd Vurğunla "bağlılığı" təsadüfi deyil. Böyük şairimiz kimi Məstan da poeziyaya xalq şeiri qanadlarında gəlib. Səməd Vurğun kimi Məstan da arabir hecadan sərbəstə keçib, ancaq onun ürəyi də, beyni də Azərbaycan şeirinin ana ruhu ilə bağlı olub. Məstan ilk şeirlərini əllinci illərdə yazıb və məlumdur ki, o illərdə şeirimizdə Səməd Vurğun havası çox güclü idi. O zaman cavan şairlərin çoxu Səməd Vurğuna

[1] Məstan Günər. Seçilmiş əsərləri, II cild. – Bakı: Şərq-Qərb, 2018, s.353
[2] Məstan Günər. Bir könüldən min könülə. – Bakı: Yazıçı, 1987, s.85

pərəstiş edir, şeirlərində onun yolu ilə gedir və hətta onu təqlid edirdilər. Bəli, Səməd Vurğun cazibəsindən çıxmaq çətin idi və danılmaz faktdır ki, bu cazibə – Səməd Vurğun yolunun poetik istiqamətinin əsas yönümünü təşkil edirdi. Səməd Vurğun xalq şeirini müasir bədii təfəkkürün üniversal qəliblərinə sığışdırmış, ona uzunömürlülük bəxş etmişdi. Məhz buna görə də Səməd Vurğun şeiri uzun müddət poeziyamızda aparıcı tendensiyaya çevrildi. Məstanın həmyaşıdları olan Nəbi Xəzrinin, Məmməd Arazın, Nəriman Həsənzadənin, Cabir Novruzun, Xəlil Rzanın ilk yaradıcılıq nümunələri məhz S.Vurğun cazibəsindən işıq almışdı. Ancaq illər keçdi, bu şairlərin hər biri sənətdə öz yolunu bəlirlədi.

***

Məstan şeirinin ən başlıca özəlliyi – folklordan, qoşmalı, gəraylılı, hecalı aşıq şeirindən yaradıcı bəhrələnməsidir. Xalq ruhu – qocaların, gəlinlərin, nişanlı qızların, bəy oğlanların, el aşıqlarının, çobanların mənəvi dünyası bu şeirin iliyinə hopub. Onun müasir heca şeirinin müxtəlif variasiyalarında qələmə aldığı əsərlərindən qoşma, gəraylı olmasa da, elə qoşmanın, gəraylının, təcnisin ətri gəlir.

Etiraf edək ki, Azərbaycan ədəbiyyatında Hacı Kərim Sanılının (Aran köçü) və Abdulla Şaiqin (Köç) silsilə yazılarından sonra vadi, elat, köç poeziyasının, xalqın adət-ənənə sərgilərini bütün əlvanlığı ilə gözlərimiz qarşısında canlandıran şairlərdən biri də Məstan Günər oldu.

Məstan Günərin uşaqlığı müharibə illərinə düşüb. Uşaqülığı müharibə illərinə təsadüf edən şair və yazıçılar sonralar müharibənin ağrı-acılarını, insanların səbrini, dözümünü bədii lövhələrə çevirdilər – Müharibə və yaddaş nəsrinin gözəl nümunələrini yaratdılar. Bu sırada Məstan Günərin də şeir və poemaları xüsusi yer tutur. "Yox, daha ağlamır Qönçəgül nənə", "Şəhidlər", "Əsgər təpə", "O gələcəkdir", "Yüz otuz məzar", "Dəf ağacları", "İmran haqqında nəğmə", "Nənəmin sərv oğulları haqqında nəğmə", "Əsgər arvadı" və s. şeir və poemaları müharibə dövrü haqqında ən təsirli lövhələrdir. Bu müharibədə şairin də ən əziz adamları geri qayıtmayıblar. Məstanın doğulduğu Əsrik-Cırdaxan kəndində bir Məstan Əliyev də olubdur. O, şair Məstandan xeyli əvvəl doğulmuşdu. 1941-45-ci illər müharibəsi başlananda müharibəyə getmiş, qəhrəmanlıqlar və igidliklər göstərərək, Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdü. Şair Məstan sonralar qəhrəman Məstanın həyat və döyüş yolu barədə böyük bir məqalə yazmışdı.

"Nənəmin sərv oğulları haqqında nəğmə" poeması Məstanın müharibə illərindəki ata və əmi itkilərindən söz açır. Mirvarili təpədə ucalan iki sərv ağacı şairə atasının və əmisinin yaşıl heykəllərini xatırladır.

"Əsgər arvadı" poemasındakı Nabat illərlə ərinin yolunu gözləyir, ona elə gəlir ki, əri mütləq qayıdacaq… bu intizarla da dünyadan köçür.

Bunlar hamısı o böyük müharibənin insan taleyində yaşanan faciələridir… Amma bu o demək deyil ki, müharibə dövrü təkcə ağrı-acılarla dolu olub və müharibə haqqında danışanda ancaq intizardan, kədərdən söz açmaq lazımdır. Müharibə illərinin də öz romantikası olmuşdur.

1970-ci illərin əvvəllərində "Ulduz" jurnalında Məstanın "Liyana haqqında nəğmə" poeması dərc edilmişdi. Bu poema Azərbaycan ədəbiyyatında saz havasına yazılmış ilk poema idi; hər misrasında şeirlə musiqinin vəhdəti hiss olunurdu.

Bizdə belə bir saz havası var idi:
"İlyana",
Uzun boylu Məhəmmədin sazında
İlyananın öz havası var idi.

Bizdə belə saz havası var idi,
Qız havası, naz havası var idi.
Mayasında yaz havası var idi –
Sazın bu cür az havası var idi.[1]

Şair 4 yaşlı itkin qızının sorağında cənub yuvasına uçub gələn bir moldavan gözəlini təsvir edir. Yeni isnişdiyi el-oba, bu adamlar İlyananın gözləri qarşısında tam yeni bir aləm açır:

O gördü ki, papaqların tərkinə
Toy günləri çiçək düzür kişilər.
Kol dibində damcılanır bənövşə
İstəmir ki, şehi düşə gözündən
Əl uzadıb gendən üzür kişilər

Gördü qızlar ayaqlamır çəməni,
Gül dərəndə yerə gəlir bir dizi.
Sanki gendən əl uzadıb göz alır,
Nə gərəkdir oğlan qıza söz deyə
Yerişindən, duruşundan söz alır.[2]

Məstan Günər ancaq bir neçə mövzuda, təbiətin və gözəlliyin tərənnümü mövzularında şeirlər yazıb, həyatda və cəmiyyətdə baş verən müxtəlif hadisələr, onun yaradıcılığına təsirsiz ötüşməyib. Məstan öz dövrünün şairi kimi həyatda baş verən heç bir hadisəyə biganə qalmayıb; o zəhmət adamlarının həyatını da tərənnüm edib, kosmosa uçan qəhrəmanlara da şeirlər yazıb. Ancaq şeir və poemalarında həyatdakı ziddiyyətləri, vəzifə

[1] Məstan Günər. Seçilmiş əsərləri, I cild. – Bakı: Şərq-Qərb, 2018, s.342
[2] Yenə orada, s.349

adamlarının azğınlığını, sözlə əməlin çox zaman bir-biri ilə təzad təşkil etməsini, bir sözlə cəmiyyətin yaralarını da şeirlərinə gətirməkdən çəkinməyib. Xatırladım ki, o, dövrünün bir sıra mükafatlarını almışdı. Və Məstan Günər özü etiraf edir ki, bu illərin bütün uğurlarını mən nəyinsə, kiminsə adına yazmaq istəmirəm. Deməli, Dövlət mükafatlarını alan, arada bir "quruculuq" şeirləri yazan Məstan heç də çağ, dövran şairi olmayıb. Məstanın poeziyasından onlarca misallar gətirə bilərik ki, burada şair öz dövrü ilə necə müxalifətdədir. "Troya nağılı" poemasında şair yaşadığı cəmiyyətdə gördüyü nöqsanları cəsarətlə tənqid hədəfinə çevirmişdir.

Məstan Günər poeziyası müasir Azərbaycan ədəbiyyatına öz bənzərsiz dəst-xəti, üslubu ilə daxil oldu və orijinal bir şair kimi diqqəti cəlb etdi.

KƏMALƏ AĞAYEVA
(1936-2019)

Azərbaycan ədəbiyyatında görkəmli simaları olan qadın şairləri sırasında Kəmalə Ağayevanın özünəməxsus yeri vardır. XX əsrin ikinci yarısında və müstəqillik dövründə Azərbaycan şeiri və dramaturgiyasının inkişafına Kəmalə Ağayeva mühüm ədəbi töhfələr vermişdir. Lakin o ədəbi nəsil olaraq XX əsr Azərbaycan ədəbiyyatını təmsil edir.

Həyatı. Kəmalə Ağa qızı Ağayeva 10 iyul 1936-cı ildə Naxçıvan şəhərində anadan olmuşdur. O, Naxçıvan şəhərindəki Cəlil Məmmədquluzadə adına 2 saylı məktəbdə orta təhsil almışdır. Kəmalə Ağayeva 1953-1957-ci illərdə Azərbaycan Pedaqoji Xarici Dillər İnstitutunda (indiki Azərbaycan Dillər Universiteti) oxumuş, fransız dili müəllimliyi ixtisası qazanmışdır. İndiki Babək rayonunun Şıxmahmud kənd orta məktəbində, Naxçıvan şəhərindəki 1 saylı məktəbdə və internat məktəbində fransız dilindən dərs demişdir.

Hələ tələbəlik illərindən bədii yaradıcılıqla məşğul olan Kəmalə Ağayeva Azərbaycan Pedaqoji Xarici Dillər İnstitutunda Hüseyn Arifin rəhbərlik etdiyi ədəbiyyat dərnəyində iştirak etmişdir. Şairənin "Hilal olaydım" adlı ilk şeiri 1957-ci ildə "Azərbaycan" jurnalında çap olunmuşdur. Pedaqoji fəaliyyətlə yanaşı, bədii yaradıcılıqla da ardıcıl şəkildə məşğul olan şairə, eyni zamanda, fransız poeziyası nümunələrini Azərbaycan dilinə tərcümə etmişdir. Azərbaycan oxucusu Lui Araqon, Pol Elüar, Pol Verleni və başqa fransız şairlərinin şeirləri ilə Kəmalə Ağayevanın tərcümələri vasitəsilə tanış olmuşlar.

Kəmalə Ağayeva 1958-ci ildə Azərbaycan Yazıçılarının Naxçıvanda keçirilmiş yaradıcılıq plenumunda Xalq şairi Rəsul Rzanın təklifi ilə Yazıçılar İttifaqının üzvlüyünə qəbul edilmişdir. "Beləliklə, Kəmalə xanım muxtar respublikada Yazıçılar İttifaqının ilk qadın üzvü olmuşdur".[1] "Baharın sözü" adlı ilk şeirlər kitabı 1962-ci ildə çap olunmuşdur.

Poeziya sahəsində ardıcıl olaraq fəaliyyət göstərən Kəmalə Ağayevanın "Gül yarpağı" (1967), "Sən olmasaydın" (1974), "Arpaçayın nəğməsi" (1978), "Daş piyalə" (1982), "O dağlarda gözüm qaldı" (1988), "Tanrıya heyranam mən" (1997), "Vətən sevdalıyam" (2004), "Könül verdiyim ellər" (2006), "Əlixan məhəlləsi" (2010) və "Ay-ulduzlu gülüstanım" (2014) adlı şeirlər, kitablar və poemalar "Apardı sellər Saranı" (1997), çap olunmuş ədəbi ictimaiyyət və oxucular tərəfindən rəğbətlə qarşılanmışdır. Bundan başqa, uşaqlar üçün yazdığı şeirlər və pyeslər şairənin "Qönçələr" (2005) adlı kitabında toplanmışdır. Eyni zamanda, Kəmalə Ağayevanın "Məhsəti" (pyeslər) (2002) kitabı, "Bir gül kimi – ilahi şeirlər" (2003), "Sevdim Türkiyəni" (2009) adlı kitabları İstanbulda çapdan çıxmışdır. Adından da göründüyü

[1] Kəmalə Ağayeva. Taleyi və sənəti (məqalələr). – Naxçıvan: Əcəmi, 2002, s.5

kimi, “Sevdim Türkiyəni” kitabı bütünlüklə qardaş Türkiyəyə həsr edilmiş şeirlərdən ibarətdir.

Həyatı və yaradıcılığı teatr və dramaturgiya ilə üzvü surətdə bağlı olan Kəmalə Ağayevanın “Məhsəti” mənzum dramı 1964-cü ildə adına Naxçıvan Dövlət Teatrında (indiki Cəlil Məmmədquluzadə Naxçıvan Dövlət Milli Dram Teatrı) böyük uğurla tamaşaya qoyulmuş, şairəyə istedadlı dramaturq kimi şöhrət qazandırmışdır. Sonrakı illərdə onun “İsmət” (1972), “Bizim dağların oğlu” (1976), “Mənim tanrım gözəllikdir, sevgidir” (1982) və “Apardı sellər Saranı” (1985) mənzum dramları da tamaşaya qoyulmuşdur. Kəmalə Ağayevanın “Məhsəti” dramı Bakı və Gəncə teatrlarında da nümayiş etdirilmişdir.

Kəmalə Ağayeva 1968-ci ildən etibarən 20 ildən çox Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Milli Dram Teatrında ədəbi hissə müdiri vəzifəsində çalışaraq, muxtar respublikada teatrın və dramaturgiyanın inkişafına xidmət etmişdir. Azərbaycan Teatr Xadimləri İttifaqının 1971-ci ildə üzvü seçilən şairə teatrda tarixilik və müasirlik mövzularının gündəmdə olması istiqamətində geniş işlər aparmışdır. O, eyni zamanda, 1990-2012-ci illərdə Naxçıvan Dövlət Kukla Teatrında ədəbi hissə müdiri vəzifəsində çalışaraq, uşaq ədəbiyyatının inkişafı sahəsində məhsuldar fəaliyyət göstərmişdir. Şairə-dramaturqun Azərbaycan nağıllarının süjetləri əsasında yazılmış “Göyçək Fatma” (1993), “Tıq-tıq xanım” (1996), “Məlikməmməd” (1998) adlı pyesləri Naxçıvan Dövlət Uşaq Kukla Teatrında tamaşaya qoyulmuşdur. Kəmalə Ağayevanın həmçinin “Sirli sözlər” (1999), “Köhnə sandıq” (2001) adlı didaktik pyeslərinin tamaşaları da uşaqlar tərəfindən maraqla qarşılanmışdır. “Göyçək Fatma” tamaşası Türkiyənin müxtəlif şəhərlərində də nümayiş etdirilmişdir.

Bir sıra beynəlxalq tədbirlərdə Kəmalə Ağayeva ölkəmizi layiqincə təmsil etmişdir. Amerika dostluq və həmrəylik görüşündə (1979), Özbəkistanda Azərbaycan incəsənəti günlərində (1980), Fransada Azərbaycan Günlərində (1984), Türkiyədə Yunus Əmrə tədbirlərində (1990) iştirak edən şairə ədəbiyyatımızın təbliğinə və mədəni əlaqələrimizin daha da inkişaf etdirilməsinə öz töhfələrini vermişdir. O, İran İslam Respublikası tərəfindən Fatimeyi-Zəhranın mövludu münasibətilə 1994-cü ildə elan edilmiş müsabiqədə həmin mövzuda yazdığı şeirinə görə birinci yerə layiq görülmüşdür.

Tanınmış şairə-dramaturq Kəmalə Ağayeva çoxcəhətli ədəbi-ictimai fəaliyyətinə görə 1984-cü ildə Əməkdar Mədəniyyət işçisi, 2002-ci ildə Əməkdar İncəsənət xadimi fəxri adlarına layiq görülmüş, 2003-cü ildə isə ona Prezident təqaüdü verilmişdir. Kəmalə Ağayeva həmçinin Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin və Naxçıvan Muxtar Respublikası Ali Sovetinin Fəxri Fərmanları ilə təltif edilmişdir. Ölkəmizin ictimai-mədəni mühitində yaxından iştirak edən Kəmalə Ağayeva iki çağırış Naxçıvan Şəhər Sovetinin

deputatı kimi fəaliyyət göstərmişdir. İstedadlı şairə-dramaturq 1958-ci ildən Yazıçılar Birliyinin, 1971-ci ildən Teatr Xadimləri İttifaqının üzvü seçilmiş, Azərbaycan yazıçılarının və teatr xadimlərinin qurultaylarının iştirakçısı olmuşdur. Azərbaycanın tanınmış bəstəkarları şeirlərinə musiqi bəstələmişlər.

Azərbaycan ictimaiyyətinin iştirakı ilə 1998-ci ildə Kəmalə Ağayevanın anadan olmasının 60 illik yubileyi yüksək səviyyədə qeyd edilmişdir.

Ömrünün son illərində Bakıda yaşayan Kəmalə Ağayeva 18 iyul 2019-cu ildə burada vəfat etmişdir.

Yaradıcılığı. Kəmalə Ağayeva çoxcəhətli yaradıcılıq fəaliyyətinə malikdir. Onun yaradıcılığında lirika, dramaturgiya və tərcüməçilik işi əsas yer tutur. O, bədii yaradıcılığa şeirlə başlamış və bütün ömrü boyu şeirlər yazmaqla məşğul olmuş, istedadlı şairə kimi tanınmışdır. Kəmalə Ağayevanın şeirlərində incə, zərif lirika aparıcılıq təşkil edir. O, qadın qəlbinin ən incə duyğularını, təbii hiss və həyəcanlarını ilhamla şeirə çevirmişdir. Bu mənada ilk kitablarının adlarında ifadə olunan "Baharın sözü", "Gül yarpağı" sözlərinin mahiyyətindəki incəlik, təbiilik və zəriflik onun yaradıcılığının özünəməxsus xüsusiyyətlərini dolğun şəkildə mənalandırır. Şairənin "Zəriflik" adlı şeiri onun könül aləmindəki zəriflik duyğularının sənət dünyasındakı zəriflik düşüncəsi ilə vəhdət təşkil etdiyini göstərir:

Gülün həsrətində bir damla şehdir,
Heyran baxışları oxşar zəriflik
Çəmənə toxunan bir həzin mehdir,
Oxuyub nəğmələr qoşar zəriflik.

Həyadır libası, oddur mayası,
Axıb könüllərə dolar ziyası.
Dəryadan dərindir onun dəryası,
Zərif könüllərdə yaşar zəriflik.

...Zərifdir, amma ki, zəif deyildir,
O sınıb qırılmaz, xəfif deyildir.
Mənim söylədiyim tərif deyildir,
Uca zirvələri aşar zəriflik.[1]

Şairə Kəmalə Ağayevanın bəşəri mövzularda yazılmış şeirlərində də, vətənpərvərlikdən, qəhrəmanlıqdan söz açılanda da, təbiət vəsf ediləndə də mətləb, fikir zərif poetik dildə ifadə edilmişdir. Bu mənada zəriflik Kəmalənin lirikasının simasını müəyyən edir. Şairənin "Danışır dünya", "Barışın, insanlar", "Dünya", "Ağaclar ağrımasın" kimi dünyadan bəhs edən, poetik örnəklərində, "Vətən, sənincün", "Xəzərim", "Vətən havası", "Dədə

[1] Kəmalə. Ay-ulduzlu gülüstanım. – Bakı: Elm və təhsil, 2014, s.145

Qorqudum mənim", "Yaddan çıxmaz Qarabağ", "Doğma Naxçıvanım" adlı Vətən şeirlərində ictimai motivlər təmiz, zərif hisslər, səmimi duyğular vasitəsilə tərənnüm olunmuşdur. Zəriflik həm də şairənin sözü bənzərsiz obrazlı vasitələrlə ifadə etməsi üçün də zəruri tələblərdən birinə çevirir. Buna görədir ki, Kəmalə Ağayevanın ilahi dualara bənzəyən şeirləri ahəngdar lirik mahnılar kimi səslənir:

Mənim yurdum gülüstandır,
Yağış yağdı, gül islandı.
Bu yazılan nə dastandı,
Yazıldıqca yazıldı hey?

...Qoynundakı Xəzərimdir,
Göy göl gülən gözlərimdir,
Çeşmələri nəzərimdir,
Çəmənlərə süzüldü hey.

Tanrısını sevəndir o,
İnamdır o, güvəndir o.
Dahilərə Vətəndir o.
Sinəsinə düzüldü hey.

Dünya boyda şöhrəti var.
Ellər ilə ülfəti var,
Göyə qədər qaməti var,
Zirvələrə özüldü hey![1]

Şairə güllü-gülüstanlı Azərbaycanın qədim və həmişəcavan Naxçıvan diyarının özünəməxsus gözəlliklərinin mənalı bir poeziya çələngini yaratmışdır. O, sanki Naxçıvanın nadir təbiətinin obrazlı şəkildə rəsmini çəkmişdir. Naxçıvanın bənzərsiz dağlarını "göylərin hilalı", "daş kitabə", "zirvələri-piyalə", "lalələri həyali" adlandıran Kəmalə bu diyardakı əfsanəvi Gəmiqayanın fərqli bədii obrazını canlandırmışdır:

Ey qədimlik nişanəmiz – Gəmiqaya,
Gerçəyimiz, əfsanəmiz – Gəmiqaya.
Daş sinəndə sirləri var bu dünyanın,
Uzaq-uzaq zəmanəmiz – Gəmiqaya.[2]

İlk şeirlərindən diqqəti cəlb edən Kəmalə Ağayevanın 1958-ci ildə "Azərbaycan" jurnalında çıxmış "Gənclik" adlı şeiri xalq şairi Rəsul Rzanın böyük marağına səbəb olmuşdur. Azərbaycan Yazıçılarının həmin ildə

[1] Kəmalə. Ay-ulduzlu gülüstanım. – Bakı: Elm və təhsil, 2014, s.58
[2] Kəmalə Ağayeva. O dağlarda gözüm qaldı. – Bakı: Yazıçı, 1987, s.43

Naxçıvanda keçirilən yaradıcılıq plenumunda çıxış edən Rəsul Rza bu şeirdən bəhs edərək demişdir: "Son vaxtlarda nəşr olunan şeirlər içərisində Kəmalə Ağayevanın "Gənclik" şeiri ən yaxşı nümunələrdən sayılmalıdır… Bu, gözəl hisslə yazılmış həqiqi bir şeir nümunəsidir. Müəllifin gənc olduğuna və qələm təcrübəsinin azlığına baxmayaraq, bu əsərdə onun incə, poetik, lirik ürək döyüntüləri aydın duyulur… Buradakı ifadə yeniliyi, poetik intibahın zərifliyi, sözlərin sadə və səmimiliyi oxucuda xoş bir təsir buraxır".[1]

Kəmalə Ağayevanın 22 yaşında ikən yazıb respublika ədəbi mətbuatında çap etdirdiyi "Gənclik" şeiri onun müəllifinin bulaq kimi sakit təmkinlə çağlayan qəlbinin zərif duyğularının əks-sədasından yoğrulmuş ilhamlı poetik nümunədir:

…Gənclik, sirdaşındır arzular sənin,
Hər an gözlərində həyat var sənin.
Başladım eşqinlə şeir yazmağa,
Gördüm ki, şeirsən başdan-ayağa.

Qurtarmaz heç zaman söhbətin, sözün,
Mənim yazdığımdan gözəlsən özün.
Yalnız bircə sözüm var sənə, Gənclik,
Ömürlük olaydım yar sənə, Gənclik!

Mənbələrdə xalq şairi Rəsul Rzanın Naxçıvandakı çıxışı zamanı, təkcə elə bu şeirə görə onun müəllifini Yazıçılar İttifaqına üzv qəbul etməyə dəyər" – deyə qəti fikrini bildirdiyi də qeyd olunmuşdur.[2]

Kəmalə Ağayevanın şeirləri Azərbaycan poeziyasında şairənin fərdi özünəməxsusluğunu təsdiq edən və şeirimizi zənginləşdirən orijinal poetik nümunələr kimi ədəbiyyat tariximizə iz salmışdır.

***

Azərbaycan ədəbiyyatında poema janrının inkişafında Kəmalə Ağayevanın da özünəməxsus yeri vardır. Onun şeirləri kimi poemaları da mənalı, düşündürücü, ibrətamiz olmaqla bərabər, həm də sənətkarlıq cəhətdən orijinal bədii əsərlərdir.

Kəmalə Ağayevanın poemalarında süjetdən çox lirik düşüncələr əsas yer tutur. Haqqında yazılmış tədqiqat əsərində də haqlı olaraq şairənin poemalarında da lirizmin üstünlük təşkil etdiyi xüsusi olaraq qeyd edilmişdir. Məlum olduğu kimi, müasirləri və tədqiqatçıları şairənin xarakterindəki zə-

[1] Rəsul Rza. Seçilmiş əsərləri, V cild. – Bakı: Azərnəşr, 2002, s.21
[2] Ramiz Qasımov. Ədəbi və əbədi yaddaşın kamala yetən Kəmaləsi. Bax: Kəmalə: Taleyi və sənəti. – Naxçıvan: Əcəmi, 2022, s.38

rifliklə yaradıcılığındakı zərifliyin vəhdət təşkil etdiyini, bir-birini tamamladığını dönə-dönə nəzərə çatdırmışlar. Həqiqətən də, zəriflik Kəmalə Ağayevanın şəxsiyyətində və şeirlərində olduğu kimi poemalarında da sənətinin əsas meyarı olmuşdur: "Məzmunundan asılı olmayaraq bütünlükdə bu poemalar (Kəmalənin poemaları – İ.H.) ülvi məqsədləri, idealları, amalları təcəssüm etdirən nümunələrdir. Bu poemalar üçün lirizm səciyyəvi keyfiyyətdir. Dil-üslub gözəlliyi oxucu qəlbini isindirən, düşüncəsini cilalandıran fikir və hisslər Kəmalə Ağayevanın poemalarında da sadiq qaldığı ədəbi-estetik prinsiplərdir".[1]

Şairənin əksər poemaları sırf lirik poemalardır. "Nurun yayılıbdır bütün dünyaya", "Lermontovla görüş", "Kərbəla vaqiəsi", "Əlixan məhəlləsi", "Solan qönçələr", "Zərəfşanda bir axşam", "Arpaçay nəğməsi", "Daş piyalə" poemalarında süjet xətti epizodik təsvirlərdən ibarətdir.

"Nurun yayılıbdır bütün dünyaya" adlı poemasında Kəmalə Ağayeva Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin mənalı ömür və mübarizə yolunu poetik baxımdan işıqlandırmışdır. "Nurun yayılıbdır bütün cahana" poeması ideya-məzmununa və həm də sənətkarlıq xüsusiyyətlərinə görə görkəmli dövlət xadimi Heydər Əliyevə həsr edilmiş ən yaxşı bədii əsərlərdən biridir. Kəmalə Ağayeva nəticə olaraq poemada Ulu öndər Heydər Əliyevin qazandığı əbədiyyəti aşağıdakı obrazlı ifadələrlə ümumiləşdirilmiş şəkildə mənalandırmışdır:

Heydər memarıdır Azərbaycanın,
Hər daşda, torpaqda onun əli var.
Səsi hər yerindən gəlir dünyanın,
Onun Vətən boyda bir heykəli var.[2]

Kəmalə Ağayevanın "Əlixan məhəlləsi" və "Könül verdiyim ellər" poemaları Naxçıvan mövzusunda yazılmış yadda qalan əsərlərdir. "Əlixan məhəlləsi" poemasında bir məhəllənin timsalında həm Naxçıvanın qədim tarixi, həm də İkinci Dünya müharibəsi illərində bu diyarda yaşayan insanların dözümü, iradəsi birliyi seçilmiş həyat hadisələri əsasında canlandırılmışdır. "Könül verdiyim ellər" şairənin şeirlərində ilhamla tərənnüm olunan Naxçıvan diyarı geniş mənada torpağa, elə-obaya bağlılıq mənasında oxuculara təqdim olunan poemasında müharibə illərindən bəhs edən hadisələr əsasında vətənpərvərlik ruhunun qüdrətini, insana inamın əbədiyyətini nəzərə çatdırmışdır. "Gözü yolda qalan var" poemasında isə Həmidağa adlı vətənpərvər azərbaycanlı döyüşçüsünün keçdiyi şərəfli döyüş yolundan söz açılmışdır, ölkəmizin ərazi bütövlüyü uğrunda mübarizənin, dərin mənası və əhəmiyyəti canlı səhnələr vasitəsilə təqdim olunmuşdur.

[1] Günay Şirəliyeva. Kəmalə Ağayevanın poetik irsi. – Naxçıvan: Əcəmi, 2018, s.90
[2] Kəmalə Ağayeva. Könül verdiyim ellər. – Bakı: MBM, 2006, s.15

Tərcümeyi-halından məlumdur ki, şairə Kəmalə Ağayevanın həyatında türk dünyası ilə əlaqələrin mühüm yeri olmuşdur. Şairənin bu mövzuda yazdığı şeirlərində yeni tarixi erada türk dünyası ilə əlaqələrin yeri və əhəmiyyəti poetik cəhətdən əsaslandırılmışdır. Kəmalənin poemalarında da türk dünyası mövzusu liro-epik şəkildə təsvir edilmişdir. Türk dünyası ədəbiyyatının qüdrətli nümayəndəsi Yunus Əmrə haqqında yazılmış poemada Türkiyədə keçirilən Yunus Əmrə günlərində iştirakından aldığı təəssüratları poetikləşdirmişdir. Yunus Əmrənin "dünyanı birlik xilas edəcək" çağırışı poemanın ideyasını təşkil edir. "Zərəfşanda bir axşam" poemasında da Kəmalənin Özbəkistan səfərində müşahidə etdiyi hadisələr və insanların timsalında qardaş ölkə haqqında sevgi dolu fikirlər öz əksini tapmışdır.

Göründüyü kimi, Kəmalənin poemaları Azərbaycan ədəbiyyatında liro-epik poemanın ən yaxşı nümunələrindəndir. Xüsusən, poemalarda lirizmin aparıcılıq təşkil edərək, epik təsvirləri üstələməsi Kəmalənin poema yaradıcılığının özünəməxsusluğunu müəyyən etmişdir. Kəmalə Ağayeva Azərbaycan ədəbiyyatında lirik poemanın əsas yaradıcılarından biridir. Bir çox hallarda Kəmalənin poemaları lirik monoloqlardan ibarətdir.

***

Azərbaycan ədəbiyyatında Kəmalənin bir sənətkar kimi tanınmasında onun dramaturgiyası, xüsusən, "Məhsəti" mənzum dramı mühüm rola malik olmuşdur. Şairənin poemalarında olduğu kimi, dramaturgiyasında da lirizm qabarıq surətdə nəzərə çarpır.

Kəmalə Ağayeva XX əsrin ikinci yarısından sonrakı Azərbaycan mənzum dramaturgiyasının əsas yaradıcılarından biridir. O, Azərbaycan ədəbiyyatında ən tanınmış qadın dramaturqlarındandır. Kəmalə Ağayevanın Azərbaycanda mənzum dramaturgiyanın inkişafında mühüm xidmətləri vardır. Onun 1964-cü ildə Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Milli Dram Teatrında böyük uğurla tamaşaya qoyulmuş "Məhsəti" mənzum dramı bu janrın ən yaxşı nümunələrindən biridir. Bu mənzum dramda XII əsrdə yaşayıb-yaratmış tanınmış Azərbaycan şairəsi Məhsəti Gəncəvinin həyatından və yaradıcılıq fəaliyyətindən bəhs olunur. Kəmalə Azərbaycan ədəbiyyatında ilk dəfə olaraq Məhsəti Gəncəvinin obrazını teatr səhnəsinə çıxarmışdır. Onun təqdimatında Məhsəti Gəncəvi dərin fəlsəfi düşüncəyə malik rübailər ustadı və mühitə ayıq nəzərlərlə baxan ziyalı qadın kimi təqdim olunur. Kəmalə Ağayeva eyni zamanda dramda Azərbaycan qadınının cəmiyyətin inkişafındakı rolunu da diqqət mərkəzinə çəkmişdir.

Məhsəti Gəncəvinin həyatı və fəlsəfi lirikası Kəmalə Ağayevanın yaradıcılığında mühüm yer tutan zəriflik və müdrikliyin həyatda və ədəbiyyatdakı yerini və əhəmiyyətini dərindən açıb göstərməsinə, cəmiyyətin diqqət mərkəzinə çəkməsinə geniş imkan yaratmışdır.

Müəllif Məhsəti Gəncəvinin həyatı və yaradıcılığını tamaşaçıya obyektiv şəkildə çatdırmaq üçün şairənin dövrü, mühiti və müasirləri ilə əlaqələrini mənzum pyesin süjetinə daxil etmişdir. Bu cəhətdən "Məhsəti" dramında İlyas obrazı vasitəsilə böyük Azərbaycan şairi Nizami Gəncəvinin və mütəfəkkir şairə Məhsəti Gəncəvinin mükəmməl bədii obrazlarının yaradılması Kəmalə Ağayevanın ciddi yaradıcılıq nailiyyətidir. Ehtimal ki, Kəmalə Ağayeva Məhsəti dramındakı memar Pərvər baba obrazı ilə Məhsəti Gəncəvinin müasiri Əcəmi Naxçıvaninin xidmətlərindən söz açmışdır. Məhsəti obrazı Azərbaycanın xalq artisti Zəroş Həmzəyeva Naxçıvan səhnəsində böyük məharətlə oynamışdır. Bütün bunlara görə görkəmli teatrşünas Cəfər Cəfərov "Məhsəti" tamaşasını "respublikanın teatr hadisəsi" hesab etmiş, tamaşanın rejissoru Baxşı Qələndərlini "teatr üçün tam mənası ilə tapıntı"[1] kimi yüksək qiymətləndirmişdir. "Məhsəti" mənzum dramı uzun illər Naxçıvan teatrında göstərilməklə bərabər, qastrol tamaşası kimi paytaxtda Azərbaycan Dövlət Akademik Dram Teatrında da nümayiş etdirilmiş, Gəncə teatrında tamaşaya qoyulmuşdur.

Kəmalə Ağayevanın dramaturgiyasında müasir həyatın müxtəlif problemlərinə həsr edilmiş pyeslər də geniş yer tutur. Şairənin 1972-ci ildə yazılmış "İsmət" mənzum pyesində əsərin adında ifadə olunduğu kimi, qadınlıq üçün ali hesab edilən namus, ləyaqət, mənəvi dəyərlər, əxlaqi kamillik problemlərindən bəhs edilir. Müəllifin təqdimatında kənd müəlliməsi olan İsmətin simasında yüksək əxlaqi-mənəvi dəyərlərə malik Azərbaycan qadınının ümumiləşdirilmiş bədii obrazı yaradılmışdır. Onun əri çoban Qayacana sevgisi və ehtiramı əsl Azərbaycan ailəsinə örnək olacaq əxlaqi-mənəvi münasibətlərə nümunə sayıla bilər. Şəhərdən kəndə işləməyə gəlmiş Xəyaləddin həkim və onun həyat yoldaşı Lalə müəllimə isə tamam fərqli baxışların daşıyıcılarıdırlar. Xəyaləddinin yenilikçi olması, insanların təkcə fiziki deyil, daha çox mənəvi cəhətdən sağlam olmasına dair baxışları ilə Lalənin şöhrətpərəstliyi, yüngül xasiyyətləri və məkrli addımları bir-birinə ziddir. Lalənin İsmətə qarayaxmasının, süni gərginlik yaratmasının üstünün açılması ilə ailə-məişət münasibətlərindəki uydurulmuş anlaşılmazlıq aradan qaldırılır. Çətin sınaqlardan keçərək, qalib gələn mənəviyyatın təntənəsi "İsmət" dramının əsas qayəsini meydana qoyur.

"İsmət" pyesi 1972-ci ildə istedadlı rejissor Vəli Babayevin quruluşunda Naxçıvan teatrında uğurla tamaşaya qoyulmuşdur. Görkəmli teatrşünas, professor Mehdi Məmmədov tamaşaya yüksək qiymət vermişdir.

Kəmalə Ağayevanın Cəlil Məmmədquluzadə adına Naxçıvan Dram Teatrında tamaşaya qoyulmuş "Apardı sellər Saranı" pyesində (1985) məşhur Sara əfsanəsi və yeni çağda onunla səsləşən ideyalar canlandırılmışdır. Bu,

[1] Cəfər Cəfərov. Naxçıvan teatrı. Bax: Əsərləri İki cilddə, I c. – Bakı, Azərnəşr, 1968, s.365

Azərbaycan ədəbiyyatında ilk mənzum əfsanə – pyes kimi də əhəmiyyətlidir. Kəmalə əsərdəki Xançobanın Qaraqoyunlu, Saranın isə Ağqoyunlu tayfalarından olduqlarını əlavə etməklə məşhur "Sara əfsanəsi"nə yeni məzmun gətirmişdir. Pyesdə Saranın gözəlliyinə heyran olan Xaqanın onu aparmaq niyyətində olması motivi də əfsanəyə həyatilik gətirmişdir. Lakin məlum əfsanədə olduğu kimi, "Apardı sellər Saranı" mənzum əfsanə-pyesində də eşqinə sadiq qalan Saranın həyatını faciə ilə başa vurması əsl sevginin qələbəsinin tamaşaçılara çatdırılmasına xidmət edir. "Apardı sellər Saranı" o zaman gənc rejissor kimi Naxçıvan teatrında fəaliyyətə başlamış Əliqismət Lalayevin ən uğurlu tamaşalarından biri olmuşdur.

Kəmalə Ağayevanın böyük dramaturq Hüseyn Cavidin tərcümeyi-halı və pyeslərinin motivləri əsasında hazırladığı "Mənim tanrım gözəllikdir, sevgidir" tamaşasında Cavid sənətinin bəşəri mahiyyəti açılıb göstərilmiş və şairin humanist ideyalarının müasir əhəmiyyəti diqqət mərkəzinə çəkilmişdir. Əsər 1982-ci ildə Naxçıvanda yaradılmış Cavid Poeziya Teatrında Vaqif Əsədovun quruluşunda cavan rejissorun ilk tamaşası kimi böyük müvəffəqiyyətlə səhnəyə çıxarılmışdır.

Naxçıvanda Kukla Teatrının yaradılması yerli müəlliflərin uşaq pyesləri yazmalarına stimul vermişdir. Kəmalə Ağayevanın qələmindən çıxmış Azərbaycan nağıllarının motivləri əsasında hazırlanmış "Göyçək Fatma", "Məlikməmməd", "Tıq-tıq xanım" mənzum nağıl-pyeslərində uşaq dünyası üçün zəruri olan mühüm əxlaqi-mənəvi keyfiyyətlərin təqdim edilməsi yeni nəsillərin formalaşmasına müsbət təsir göstərmişdir. "Sirli sözlər" və "Köhnə sandıq" didaktik pyesləri uşaqlar və yeniyetmələrdə milli qürur, ana dili sevgisi, vətənpərvərlik duyğularının aşılanmasına xidmət edir.

Kəmalə Ağayevanın uşaq pyesləri Naxçıvan Kukla Teatrında uğurla tamaşaya qoyulmuşdur. "Göyçək Fatma" pyesi 20 ildən çoxdur ki, Naxçıvan Kukla Teatrında nümayiş etdirilməkdədir. "Göyçək Fatma" tamaşası Türkiyədə də rəğbətlə qarşılanmışdır.

Göründüyü kimi, Kəmalə Ağayevanın yaradıcılığı Azərbaycan poeziyası və dramaturgiyasını yeni mövzular və parlaq obrazlarla daha da zənginləşdirmişdir. Görkəmli söz ustası şairə-dramaturq Kəmalə Ağayevanın həyatı və yaradıcılığı zəriflik və müdriklik nümunəsi kimi yaddaşlara yazılmışdır.

ŞƏKƏR ASLAN
(1937-1995)

XX əsrin 60-90-cı illərində Lənkəran ədəbi mühitinin yetişdirdiyi sənətkarlardan biri də Şəkər Aslandır. Uzun illər mətbuat sahəsində çalışsa da, o daha çox gənclik və gözəllik nəğməkarı kimi tanınmış, şeirləri müxtəlif dillərə tərcümə olunaraq, keçmiş SSRİ məkanında da əbəbi ictimaiyyətin rəğbətini qazanmışdır.

Həyatı. Şəkər Aslan (Şəkər Mirzə oğlu Aslanov) 10 oktyabr 1937-ci ildə Lənkəran rayonunun Boladi kəndində anadan olmuşdur. Uşaqlıq və gənclik illəri İkinci Dünya müharibəsi və ondan sonrakı ağır illərə düşən Şəkər Aslan kəndlərində orta məktəbi bitirmiş, bir neçə il Boladi kənd klubunda, Port İliç qəsəbəsi (indiki Liman şəhəri) və Lənkəran şəhər mədəniyyət evlərində müxtəlif vəzifələrdə çalışmışdır. 1963-1968-ci illərdə Moskvada M.Qorki adına Dünya Ədəbiyyatı İnstitutunun Poeziya fakültəsində qiyabi ali təhsil alan Şəkər Aslan 1964-cü ildən mətbuat sahəsində fəaliyyətə başlamışdır. 1968-ci ilə qədər "Leninçi" (Azərbaycanın müstəqilliyini bərpa etməsindən sonra qəzet "Lənkəran" adı ilə çıxmışdır – İ.Q.) qəzetində ədəbi işçi, iki il Lənkəran Rayon Partiya Komitəsində təlimatçı kimi çalışan Şəkər Aslan 1970-ci ildə "Leninçi"nin redaktoru təyin edilmiş, 1992-ci ilə qədər bu vəzifəni icra etmişdir.

1992-ci ildə "Söz" ədəbi-bədii jurnalını təsis edən Şəkər Aslan 1994-1995-ci illərdə Azərbaycan Yazıçılar Birliyinin Lənkəran bölməsinə rəhbərlik etmişdir.

Azərbaycan Yazıçılar Birliyinin üzvü (1968-ci ildən), "Qızıl Qələm" mükafatı laureatı, "Şərəf nişanı" ordenli Şəkər Aslan 12 iyun 1995-ci ildə vəfat etmiş, doğulduğu Boladi kəndində torpağa tapşırılmışdır.

Yaradıcılığı. Lənkəranda yaşayan Şəkər Aslanın imzası 1961-ci ildən mətbuatda daha tez-tez görünməyə başlamış, 1960-1970-ci illər Azərbaycan poeziyasının sayılıb-seçilən nümayəndələrindən biri kimi tanınmışdır. Onun Bakıda çap olunan "Bahar yağışı"(1964), "Ürəyimi açıram"(1967), "Sənə nəğmə deyirəm" (1969), "Məhəbbət fəsli" (1973), "Sevgi günü" (1977), "Səni sevdiyim gündən" (1980), "Bu günlərdən iz qalacaq" (1982), "Döy, mənim qapımı" (1986), "Dünyanın sevincləri" (1987), "Samovara od salmışam" (1989), "Evə məktub" (1991), "Payıma düşən ömür" (2012), Moskvada "Sovetskiy pisatel" nəşriyyatında çıxan "Jivu u morya" (1976), "Çvetı iz Lenkorani" (1986) kitablarındakı əsərlərində doğma təbiətin, xüsusilə talış diyarının gözəllikləri, müasir həyat, insanların zəngin mənəvi dünyası, istək və arzuları, məhəbbət motivləri, müharibəyə nifrət və s. bu kimi problemlər öz bədii əksini tapmışdır.

Şairin "Bahar yağışı" adlı ilk şeirlər kitabına[1] əksəriyyəti Azərbaycanın gözəlliklərinə həsr olunmuş lirik şeirləri daxil edilmişdir. Bu şeirlərdə doğma Vətənə bağlılıqla yanaşı, valideyn həsrəti, müəllimlərə hörmət və s. bu kimi mövzular da mühüm yer tutur. "Mənim şəhərim", "Azərbaycan", "Kənddə bahar", "Dəniz", "Çay tarlası", "Viləş", "Lənkəran haqqında nəğmə", "Çinar" və s. kimi əsərlər dediklərimizi təsdiq edir.

"Atam döyüşən yerdə", "Mənim müəllimlərim", "Bakı küləyi", "Yuxu", "Meşəbəyi" və s. şeirlərdə hiss və həyəcanlarını, duyğu və düşüncələrini çox məharətlə poetikləşdirməyi bacaran şair 1961-ci ildə Yaltada qələmə aldığı "Gözləyin məni" şeirində yazırdı:

Mən öz kəndimizə "ana" demişəm,
Ürək sözlərimi ona demişəm.
Göyçək qızlarına "sona" demişəm,
Sonalar, sonalar, gözləyin məni

Oxşayıb könlümü lalə, yasəmən,
Çıxmaz xatirimdən o məxmər çəmən.
Şəkərəm, bir şəkər balanızam mən,
Analar, analar, gözləyin məni.[2]

Şəkər Aslanın poeziyası deməyə əsas verir ki, o, həm cismən, həm də ruhən Lənkərana bağlı olmuş, ilk kitabındakı şeirlərində olduğu kimi, sonrakı illərdə çap etdirdiyi kitablarında da doğma yurduna olan məhəbbətini poetik dillə tərənnüm etməyə üstünlük vermişdir.

Şəkər Aslanın 1960-cı illərdə yazdığı şeirlərinin əksəriyyətində təbiət mövzularına daha çox yer verilmişdir ki, biz bunların poetik təsdiqini "Yol", "Yağışdan sonra", "İstisu", "Bulaq", "Şəlalə", "Qoruqda", "Xəzərdə", "Payız yağışı", "Qızılı payız" , "Lerikdə" və s. əsərlərində aydın şəkildə görə bilirik.

Şeirlərində məhəbbət və gözəlliyin tərənnümü əsas keyfiyyətlərdən biri olan, kitablarından birini "Məhəbbət fəsli" adlandıran, bahara xitabən:

Tutub körpələrin qolundan bu gün,
Analar bağlara çıxır, ay bahar!
Bəlkə, ürəkləri böyütdüyünçün
Otaqlar adamı sıxır, ay bahar![3]

– yazan şair "Qaya", "Balıqçı sevgisi", "Bülbül xoru", "Külək", "Quşlar kimi", "Güllər şəhəri", "Çayçı qızlar", "Çinar" kimi şeirlərində və "Dəniz

[1] Şəkər Aslanov. Bahar yağışı. – Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1964
[2] Yenə orada, s.17
[3] Şəkər Aslanov. Məhəbbət fəsli. – Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1973, s.9

ömrü" poemasında təbiət və cəmiyyət haqqında düşüncələrini poetikləşdirərək, bir şair-vətəndaş kimi idealının nədən ibarət olduğunu aşağıdakı şəkildə ifadə edir:

Bir bulaq olum, bir quyu olum,
Ana torpağın gur suyu olum.
Baxanlar üçün dərin olum mən,
İçənlər üçün sərin olum mən..[1]

Şəkər Aslanın lirik qəhrəmanları olan fəhlə, kəndli və ziyalı gənclər nəcib hisslərlə yaşayan, sevgiyə ötəri, ani bir üfüq parıltısı kimi baxmayan, sevgi sayəsində ucalan, yenilməz, fədakar olan adamlardır. Bu cür adamların obrazlarını "Ot biçini", "Günəş yanmasa", "Pambıqçı dostlara", "Babək sovxozunda", "Tarlada çay içdim", "Məhsul bayramı", "Solmaz şöhrət" və s. şeirlərində yaradan Şəkər Aslanın lirikasında doğma diyarımızın gözəlliklərinin təsviri, müasiri olduğu insanların yüksək mənəvi keyfiyyətlərinin tərənnümü, insanların təbiətə məhəbbət və qayğısı başlıca mövzulardandır. Azərbaycan torpağının gözəlliklərindən bəhs edən "Ölkəm" rədifli qoşmasında:

Hər düzdə, hər döşdə keçə, xalı var,
Hər çiçək gözündə beçə balı var,
Bir bax təbiətin neçə halı var,
Günəşli, yağışlı, qarlıdır ölkəm![2]

– deyə məmləkətimizi vəsf edən şair "Lənkəranda" şeirində yazırdı:

Mən burda doğuldum, gətirdi baxtım,
Nağıllar həqiqət olur inandım.
Burda gözəllərin gözünə baxdım,
Gözümə, qəlbimə od düşdü, yandım.[3]

Məhəbbət Şəkər Aslan poeziyasının aparıcı mövzularındandır. Şairin təqdimatında təmiz sevgi, sədaqət, qarşılıqlı ehtiram əsasında qurulan gənc ailə gələcək nəslin daha kamil, daha gözəl, daha sağlam olacağına etibarlı təminat verir. "Səni sevdiyim gündən", "Bizim bu sevgimiz damıb qəlbimə", "Bu gün bənövşəyə bənzədin gülüm", "Dünənimiz", "Səni hər görəndə" və s. şeirləri ilə məhəbbət nəğmələri oxuyan şair məhəbbəti insanı daxilən saflaşdıran, əzabı da şirin olan bir nemət kimi tərənnüm edir və şeirlərinin birində yazır:

Sənə inanıram qüdrətin çatar,
Çağır, gəncliyimə qayıdım gəlim.

[1] Şəkər Aslanov. Məhəbbət fəsli. – Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1973, s.13
[2] Şəkər Aslan. Səni sevdiyim gündən. – Bakı: Gənclik, 1980, s.12
[3] Yenə orada, s.31

Hər sözün qəlbimdə sevgi oyadır,
Çağır qoy təzədən yanım, gözəlim.

Çağır, qocalıqdan qurtarsın yaxam,
Görüm dünya necə əlvan bəzənmiş?
Çağırsan bir nəğmə oxuyacağam:
"Ey həyat, doğrudan, qəribəsənmiş!"[1]

Şeirlərinə Tofiq Quliyev, Rauf Hacıyev, Vasif Adıgözəlov, Ramiz Mirişli, Oqtay Kazımov, Emin Sabitoğlu və b. görkəmli Azərbaycan bəstəkarları musiqi bəstələmiş, həmin mahnılar dillər əzbəri olmuş, nəğmə janrının qızıl fonduna daxil edilmişdir. İlk şeirlərini "Şəkər Aslanov" imzası ilə yazıb çap etdirən Şəkər Aslan ədəbiyyat və sənət aləminə Lənkəranda çıxan "Sosialist subtropikası" qəzetinin 23 iyul 1953-cü il tarixli sayında çıxan "Koreyalı bacıma" adlı şeiri ilə gəlmişdir.[2]

Gözəllik və məhəbbət nəğməkarı olan Şəkər Aslan şeirlərində bəşəri problemlərə də yer ayıran, insanları sülh, əmin-amanlıq və s. problemlər barədə də düşünməyə çağıran şairdir. Şeirlərinin birində:

İnsanlar, dayanaq, düşünək bu gün,
Kimsə susdurmasın haqqın səsini.
Doğma anamızı qorumaq üçün,
Qoruyaq anamız Yer kürəsini![3]

– deyən şair "Bir qələbə günü", "Bu dünyanı sevə-sevə", "Təbriz", "Qoruyaq anaları", "Qoruya bilmədik dostlarımızı", "Vaxtında edilməmiş yaxşılıq" və s. əsərlərində düşündüyü problemlərlə bağlı fikirlərini oxucuları ilə bölüşür və "Kimlər gəlir, kimlər gedir" adlı şeirində insanları dünya işlərinin gedişatından ibrət götürməyə çağıraraq yazır:

Hər kəsin işidir ən böyük sözü,
O kimdir, nəçidir, öz işi deyir.
İnsanı böyüdən dünyanın özü,
Kimdən zərər görür, kimdənsə xeyir.

Çox dolur, boşalır bu yer kürəmiz,
Adları gah yazır, gah da silirik.
Kimin gəldiyini bilməsək də biz,
Kimin getdiyini yaxşı bilirik.[4]

[1] Şəkər Aslan. Səni sevdiyim gündən. – Bakı: Gənclik, 1980, s.59
[2] Şəkər Aslanov. Koreyalı bacıma. "Sosialist suptrobikası" qəzeti, 23 iyul 1953
[3] Şəkər Aslan. Döy, mənim qapımı. – Bakı: Yazıçı, 1986, s.13
[4] Yenə orada, s.59

Sonet janrı Şəkər Aslanın yaradıcılığında xüsusi çəkiyə malikdir və təsadüfi deyildir ki, o, keçən əsrin 60-90-cı illər Azərbaycan sonetinin mahir yaradıcılarından biri hesab olunur. Şairin "Azərbaycan" və "Ömrün yayında" sonetlər çələngi dediklərimizə əyani sübutdur.

Əbədi beşiyi qəhrəmanların...
Xoşbəxt saatların, xoşbəxt anların
Qalır ömrümüzdə, taleyimizdə.

Müqəddəs sevgisən, ürəyim, canım,
Sənin çin yanaram Azərbaycanım
Səmada, torpaqda, dağda, dənizdə..[1]

– bəndləri ilə tamamlanan birinci sonetlər çələngində Azərbaycanın gözəlliklərini, fədakar övladlarını tərənnüm edən şair, ikinci sonetlər çələngində insan, onun ömür yolu, cəmiyyətdəki rolu barədəki fikirlərini oxucuları ilə bölüşür.

Digər poetik janrlarla yanaşı, Ş.Aslanın poeziyasında poema janrı da mühüm yer tutur. Onun "Qaya", "Sevgi günü", "Dəniz ömrü", "Mən qayıtmasam", "Anaya məktub" və s. poemaları mövzu-ideya baxımdan seçildiyi kimi, sənətkarlıq cəhətdən də diqqəti cəlb edir.

Şairin "Qaya" adlı lirik poeması dənizçi həyatından bəhs edir. Xəzər dənizində balıqçılıqla məşğul olan Qaya poemanın əsas obrazı kimi verilmiş, şair dəniz, insan, dostluq, xarakterin formalaşmasında əməyin və təbiətin rolu və s. bu kimi məsələləri onun simasında ümumiləşdirmişdir.

Əsasən Qayanın dilindən söylənilən, onun məktəb illəri, şagird və dənizçi yoldaşları, dəniz macəraları barədə məlumatlar verilən əsəri şair aşağıdakı misralarla bitirir:

Danışdın, ay Qaya, dinlədim səni,
Sinəndə bir şair ürəyi varmış.
Mən gördüm Xəzəri, coşan ləpəni,
Ləpələr özü də gur misralarmış.[2]

Şairin "Sevgi günü" poeması 23 yaşında həlak olmuş Sovet İttifaqı qəhrəmanı, lənkəranlı Baloğlan Abbasovun ruhu ilə söhbət fonunda iki gəncin məhəbbətindən bəhs edir. Sənətkarın məhəbbət və gənclik mövzusunda yazdığı şeirlərindəki bir sıra fikirlər poemada daha bariz formada əksini tapmış və insanı ölməzliyə qovuşduran məhəbbətin qüdrətindən ilhamla söz açılmışdır. Ləpələrin sevgiyə nəqərat olmasını və dəniz sahilində bağlanan

[1] Şəkər Aslan. Səni sevdiyim gündən. – Bakı: Gənclik, 1980, s.92
[2] Şəkər Aslan. Sevgi günü. – Bakı: Gənclik, 1977, s.90

əhd-peymanın dəniz kimi əbədi olacağını bildirən şair qəhrəmanın dilindən yazır:

Tale özü kəsib nikahımızı,
Sözümdə, sevgimdə ər kimi varam.
Xəzər sahilində sevdiyim qızı,
Uzaq sahillərdə xatırlayaram.

Görək nə deyəcək zamanın özü...
Zaman, qoy biz deyən bir zaman olsun.
Axı, sənin kimi bir qaragözü
Sevən oğlan, gərək, qəhrəman olsun![1]

Şairin "Dəniz ömrü" poemasında yaxından tanıdığı qoca balıqçının düşüncələri, onun dənizdə keçən zəhmət dolu günləri təsvir olunur, balıqçıların çətin və şərəfli əməyi öz bədii əksini tapır.

Poemanın qəhrəmanı Həsən kişidir və hadisələr bu qoca balıqçının dilindən söylənilir. Belə demək mümkünsə, ömrü Xəzər dənizində keçən bu kişini poemanın ilk səhifələrində müəllif belə təqdim edir:

Tor çəkib, güc gəlib daim qoluna,
Gah coşub sevgisi, gah coşub kini.
Dənizdə boy atan insan oğluna,
Dəniz bağışlayıb təbiətini.[2]

Həsən kişinin dilindən verilən aşağıdakı misralar dəniz və insan münasibətlərini poetik şəkildə əks etdirməklə yanaşı, həm də insanlığa bir sifarişdir:

Böyük məhəbbətlə dənizə çıx ki,
Çağırsın ən uzaq üfüqlər səni.
Dəli dalğaların ipini yığ ki,
Yaxından tanısın qoy, Xəzər səni.

Sahilə baxırsan bayaqdan bəri,
Sev, sev bu sahili, bir qanun haqdır.
Doğma sahilini sevməyənləri,
Dəniz sinəsində batıracaqdır.[3]

Müharibə mövzusu Şəkər Aslanın şeirlərində olduğu kimi, poemalarında da mühüm yer tutur. Şairin "Unutmarıq" və "Qızılgül nəğməsi" poemaları bu mövzuda yazılmış, hər iki poema 1941-1945-ci illərdə

[1] Şəkər Aslan. Sevgi günü. – Bakı: Gənclik, 1977, s.100
[2] Şəkər Aslan. Məhəbbət fəsli. – Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1973, s.68
[3] Yenə orada, s.74

müharibədə həlak olmuş qəhrəmanlara həsr olunmuşdur. Birinci poemada müharibədə oğul itirmiş, lakin hələ də ümidlərini üzməyən anaların obrazlarını yaradan şair, ikinci poemasını Lənkəran torpağının cəngavər övladlarından biri, cəmi 23 il ömür sürən və şəhidlik zirvəsinə ucalan Sovet İttifaqı Qəhrəmanı Baloğlan Abbasova ithaf etmiş, onun ömrünün bəzi məqamlarını poetikləşdirmişdir.

Rus şairi P.Pavlenkonun "Əgər azərbaycanlı sədaqət andı içmək istəsə, qoy cəsarətlə Baloğlan Abbasovun ruhuna and içsin" sözləri epiqraf kimi verilmiş "Mən qayıtmasam" poemasında birbaşa müharibənin təsviri olmasa da, burada da müharibənin bəşər tarixində törətdiyi faciələrə münasibət bildirilmiş, Baloğlan Abbasov və Nərgizin dilindən verilən məktublar vasitəsilə müharibəyə nifrət hissi əyaniləşdirilmişdir.

Şəkər Aslanın "Anaya məktub" poeması mövzu və məndəricə baxımından "Mən qayıtmasam" poeması ilə bu və ya digər cəhətdən səsləşir. Burada da problem, əsasən, cəbhədən yazılan əsgər məktubları vasitəsilə təqdim olunur. Birinci poemada məktublar İkinci Dünya müharibəsi illərində iki gəncin dilindən yazılırdısa, bu poemada məktubu yazan dinc quruculuq illərində hərbi xidmətdə olan oğuldur. Poema sabaha ümid dolu aşağıdakı bəndlərlə tamamlanır:

..Qayıdanda anamı
Bağrıma basacağam.
Bütün ordenlərimi
Döşündən asacağam.

Qurtarıram, ay ana,
Yenə yazaram, yenə.
Sevinc, qürur gətirsin
Qoy bu məktubum sənə.[1]

Şəkər Aslan yaşadığı illərin bir çox hadisə və problemlərinin poetik mənzərəsini yaratmağı bacarmış və şübhəsiz ki, bunlar XX əsrin 60-90-cı illər Lənkəran ədəbi mühitinin formalaşması və yüksəlişi yoluna öz müsbət təsirini göstərmişdir.

Özündən sonra zəngin ədəbi-bədii irs qoyub getmiş Şəkər Aslanın Azərbaycan poeziyasında özünəməxsus izi yaşamaqdadır.

[1] Şəkər Aslan. Dünyanın sevincləri. – Bakı: Gənclik, 1987, s.90

RƏFİQ ZƏKA XƏNDAN
(1939-1999)

Azərbaycan ədəbiyyatında Rəfiq Zəka Xəndan türkçü, milli ideyalara malik lirik-humanist şair, ssenarist, dramaturq kimi tanınmışdır. Onun şeirlərində xalqa ehtiram, vətən məhəbbəti, ülvi sevgi, uca insani hisslərin tərənnümü xüsusi yer tutur.

Həyatı. Rəfiq Cəfər Xəndan oğlu Hacıyev 1939-cu il, iyunun 16-da Bakıda görkəmli alim, şair, ədəbiyyatşünas Cəfər Xəndanın ailəsində dünyaya göz açmışdır. İlk təhsilini Bakıda Bülbül adına musiqi təmayüllü orta təhsil məktəbində, daha sonra 132 saylı məktəbdə almış, Azərbaycan Dövlət Universitetinin Filologiya fakültəsində isə ali təhsilini başa vurmuşdur (1956-1961). Hələ uşaqlıq, yeniyetməlik dövründən ailə mühitində ədəbiyyatımıza, mədəniyyətimizə məhəbbətlə böyüyən Rəfiq həm klassik, həm müasir poeziyaya böyük maraq göstərmiş, düşüncələrini ecazkar Azərbaycan şeirinin dili ilə tərənnüm etməyə üstünlük vermişdir. Sənətdə ilk addımlarını Rəfiq Zəka imzası ilə atsa da, sonralar atasının təxəllüsünü də götürərək, Rəfiq Zəka Xəndan adı ilə yazıb-yaratmışdır. Həyatının ilkin dövrlərindən başlayaraq ömrünün sonuna qədər poeziyasında öz məsləkinə – böyük türk dünyasının və onun bir parçası olan vətəninin vəsfinə, tərənnümünə, xalqının böyük şəxsiyyətlərinin layiqincə təqdiminə sadiq qalan Rəfiq Zəka ictimai fəaliyyətində də millətinin əsl oğlu kimi tanınmışdır. "Çağlayan" adlı ilk şeirlər kitabı ilə 1962-ci ildə ədəbiyyata qədəm basan şairin 1964-1994-cü illər arasında otuzdan çox şeir kitabı dərc olunmuşdur. İlk kitabının çap olunduğu ildə Azərbaycan Yazıçılar Birliyinin üzvü seçilmişdir. "Axırı yaxşı olar" (1968), "Mənim əziz vəhşiciyim" (1970) musiqili komediyalarının, "Füzuli" və "Söyüdlər ağlamaz" operalarının mətn müəllifidir. Rəfiq Zəka Televiziya və Radio Verilişləri Komitəsində (1960-1962) redaktor, Azərbaycan Dövlət Filarmoniyasında (1962-1963) və Azərbaycan Dövlət Musiqili Komediya Teatrında (1967-1975) ədəbi hissə müdiri vəzifələrində işləmiş, Bədən Tərbiyəsi İnstitutunda Fəlsəfə kafedrasının dosenti (1981-1985), professoru (1986), fəlsəfə elmləri doktoru olmuşdur.

Keçən əsrin 80-90-cı illərindəki fəaliyyətinə görə, Azərbaycan–Türkiyə ədəbi əlaqələrinin inkişafına xidmət edən Rəfiq Zəka Türkiyənin "Size", "Tanıtım" adlı dərgilərində şair və yazıçılarımız haqqında məqalələr dərc etdirmişdir.

Xalq yazıçısı Mirzə İbrahimov onun yaradıcılığını xarakterizə edərkən yazırdı: "Rəfiq Zəka əlinə qələm aldığı gündən gənclik ehtirası ilə şeirlər yazıb... Onun şeirlərində canlı xalq dilinə bağlılıq, axıcılıq və səlistlik nəzərə çarpır. Hafizəsinin kəskinliyini, zəngin Şərq ədəbiyyatını dərindən duyduğunu, sənət haqqında ehtiraslı düşüncələrə malik olduğunu görməmək

mümkün deyil".[1] Ustad yazıçımızın fikirlərində böyük həqiqət var, lakin şairin özünün də qeyd etdiyi kimi, Rəfiq Zəka poeziyasında aparıcı motiv fikirdən çox duyğunun üzərində bərqərardır ki, bütün yaradıcılığında bu xüsusiyyət aydın şəkildə izlənilir. Bununla belə o, bütün fəaliyyəti boyu erudisiyalı, yüksək biliyə malik bir şəxsiyyət kimi çalışmış, doktorluq dissertasiyası müdafiə edərək elmi dərəcə almış, layiqli elmi əsərləri, çıxışları ilə milli estetikamıza yeni bir metodika, ifadə tərzi, zənginlik gətirmişdir. Müxtəlif dövlət qurumlarında işləsə də, əsas iş yeri kimi Azərbaycan İncəsənət Universitetində sənətin estetikasından mühazirələr oxuyan Rəfiq Zəkanın istedadlı gənclərimizin vicdanlı, milli qürura, doğru mövqeyə malik mütəxəssis kimi formalaşmasında əməyi az deyildir.

Rəfiq Zəka dostu Xəlil Rza Ulutürklə bərabər ictimai həyatımızın ön sıralarında xalqla çiyin-çiyinə, qələmilə azadlığımız uğrunda, torpaqlarımızın bütövlüyü, türk dünyasının birliyi naminə mübarizə aparmış, yaradıcılığını, elmi-pedaqoji fəaliyyətini daha çox bu istiqamətdə irəlilətməyə səy göstərmişdir.

Azərbaycan ədəbiyyatının, klassik və müasir Şərq ədəbiyyatının nəzəri, tarixi problemlərini dərindən bilən şair, bu zəngin söz xəzinəsinin, onun yaradıcılarının, sənətkarlarının təbliğinə də poeziyasında geniş yer vermişdir. Ədəbiyyatımızın ayrı-ayrı nümayəndələrinə həsr etdiyi portret şeirlərində onların yaradıcılığından əxz etdiyi sənətkarlığın özəl cəhətlərini önə çəkməklə, real obrazlarını yaratmağa nail olmuşdur. "Könül, dünyadan ülvi səltənət yox, dünyada", – deyən şair sözün həqiqi mənasında həyata vurğun, yaşadığı ömrü sevinci, kədəri ilə sevən, dünyanın heysiyyatına sahib çıxan, milli düşüncəli bir vətəndaş kimi yaşayıb-yaratmışdır.

Rəfiq Zəka Xəndan Azərbaycan Yazıçılar İttifaqının üzvü olmuş (1962), Azərbaycanın Əməkdar incəsənət xadimi (1989), Dövlət Mükafatı laureatı (1990) fəxri adına layiq görülmüşdür. R.Z.Xəndan 1999-cu il yanvarın 7-də Bakıda vəfat etmişdir.

Yaradıcılığı. Özünəməxsus yaradıcı üsluba, deyim tərzinə malik Rəfiq Zəkanın poetik irsi ədəbiyyatşünaslığımızın nəzər-diqqətindən kənarda qalmamışdır. Mirzə İbrahimov, Rəsul Rza, Bəxtiyar Vahabzadə, Nəbi Xəzri, Bəkir Nəbiyev, Məmməd Araz, Fəraməz Maqsudov, Əfrasiyab Bədəlbəyli, Murtuz Sadıqov kimi görkəmli alimlər, ədəbi simalar Rəfiq Zəkanın poeziyası barədə maraqlı fikirlər söyləmişlər. Akademik Bəkir Nəbiyev yazırdı: "Rəfiq Zəka Azərbaycan–Türkiyə ədəbi-mədəni əlaqələrinin inkişafı üçün istedadından və fiziki imkanlarından yorulmaq bilmədən, maksimum dərəcədə istifadə edərdi. Dili bir, dini bir olub, kəşməkəşli tarixləri də bir çox

[1] Savalan Fərəcov. Rəfiq Zəka Xəndan – şair, ədəbiyyatşünas, filosof. – Bakı: "Mədəniyyət" qəzeti, 2010, 18 iyun, s.4

cəhətdən üst-üstə düşən, imperiya siyasəti nəticəsində son iki əsrdə süni surətdə bir-birindən ayrı salınan, bəzən, hətta biri-digərinə qarşı qoyulan iki qardaşın: Azərbaycan türkü ilə Anadolu türkünün mənəvi əlaqələrinin bərpa olunmasında Rəfiq Zəkanın həqiqətən də ciddi xidmətləri vardır".[1]

R.Zəkanın M.Müşfiqə həsr etdiyi "Çağlayan" adlı ilk lirik şeirlər toplusundan son əsərlərinə qədər xalq məhəbbəti, milli qürur, dostluq, sədaqət kimi ülvi hisslər mövzunu əhatə edən ən başlıca məsələlərdir.

"*Ey Zəka, millətimin mən quluyam,*
Millətimin qayğılarıyla doluyam.
Nə qədər bizlər üçün duyğuluyam,
O qədər yadlar üçün qorxuluyam."

– deyən şair həqiqətən də millətinin nüfuzu və şərəfi naminə hər şeyini qurban verməyə hazır bir vətəndaşdır. Sadə və sadə olduğu qədər qətiyyətli, hökümlü dillə yüksək idealları tərənnüm edən şairin yüksək amallı şəxsiyyət kimi yetişməsində qeyd etdiyimiz kimi, ailə mühitinin, uşaqlıqdan evlərində görüb tanıdığı ziyalıların, alim və yazıçıların, atası Cəfər Xəndanın ədəbiyyat və ədəbiyyatımızı yaradanlar haqqında söhbətlərinin böyük təsiri olmuşdur. Zəmanənin qorxu, vahimə altında gizlətdiyi milli kimlik sirlərini hələ uşaqlıqdan öyrənmiş, sevmiş Rəfiq Zəka babasına həsr etdiyi şeirdə yazırdı:

Hər zaman keçmişini andı dədəm,
Türklüyün eşqi ilə yandı dədəm.
Əsgəriydi ulu Nuri Paşanın,
Savaşa türk kimi heyrandı dədəm.
Türk sözüydü onun ən dadlı sözü,
Türkü ən ulu soy sandı dədəm.[2]

Türkçülüyün, turançılığın sadiq tərəfdarı olan Rəfiq Zəka azərbaycançılıq ideyasını bu böyük amallarla qovuşmuş vəhdət kimi təsəvvür edirdi. "R.Zəka bütün bədii, elmi, publisistik yaradıcılığında türkçülük ideyaları ilə yaşayıb-yaradan sənətkardır. Ziya Göyalpın davamçısı olaraq o da türkçülüyü türk millətinin yüksəlməsi kimi qəbul etmiş və ömrü boyu bu amala sadiq qalmışdır".[3] Onun bu mövzuda qələmə aldığı elmi-publisistik məqalələri poeziyasının romantik pafosundan uzaqlaşaraq dəqiq faktlara, dəlillərə söykənən sırf elmi-kütləvi, maarifləndirici səciyyə daşıyır. "Türklük böyüklükdür" məqaləsində səkkiz cildlik "Osmanlı tarixi"nin müəllifi Alfons

[1] Bəkir Nəbiyev. Bir neçə söz / Nailə Mustafayeva. Rəfiq Zəka yaradıcılığında türkçülük və Türkiyə. – Bakı: Avropa, 2009, s.4

[2] Rəfiq Zəka Xəndan. Bu dünyanın yarısı türkdür: şeirlər və poemalar. – Bakı: Qorqud, 1996, s.43

[3] Nailə Mustafayeva. Rəfiq Zəka yaradıcılığında türkçülük və Türkiyə. – Bakı, 2009,s.9

Lamartin, Napaleon Bonapart, Uilyam Pitt və bir çox fransız, ingilis, italyan, Çin, yapon, amerikan mütəfəkkirlərinin türklər və onların xarakterik keyfiyyətləri haqqında irəli sürdükləri fikirlərə istinad edərək türk millətinin ali xüsusiyyətlərə, mütərəqqi cəhətlərə, minilliklərlə ölçülən tarixə, mədəniyyətə malik olduğunu sübuta yetirir. Onun qələmə aldığı fikirlər türk düşmənlərinə yönəlmiş ittiham kimi səslənir. 1980-1990-cı illər arasında Rəfiq Zəkanın fəaliyyətinin böyük bir hissəsi məhz Azərbaycan və Türkiyə arasında əlaqələrin genişlənməsinə, ümumtürk birliyinin yaranmasına, milli oyanışın tərəqqisinə yönəlmişdi. Bu yolda öncə zehinlərdə bir intibah yaradılması lazım gəldiyini bildiyindən tez-tez Türkiyəyə səfərlər edir, mətbuatda məqalələrlə, televiziyada maarifləndirici müsahibələrlə çıxışlar edirdi. "Məncə, hər türk cocuğu bilməli türk olduğunu", – deyən şair illərlə əsarət, bölümlər, ayrılıqlar, unutdurulmalara məruz qalmış Azərbaycan xalqının da öz soykökünə dönməsini, özünüdərk məsələsini həyata keçirilməsi vacib olan, təxirə salınmadan bu gündən həllinə çalışılmalı ən başlıca problem olaraq görürdü.

Vətənpərvər şair doğma Qarabağımızın düşmən əsarətinə düşməsini həyatının ən acı faciəsi hesab edir, çıxş yolunu güclü, müzəffər ordunun hazırlanmasında, Azərbaycan xalqının, eləcə də bütöv türk dünyasının bu mübarizə yolunda səfərbər olmasında görürdü və yaradıcılığında həmin dövrlərdə bu məsələlərə geniş yer ayırmışdır. "Ordu istər yurdumuz", "Xəyala sığmayan vəhşət" və digər məqalələrində Rəfiq Zəka Qarabağ dərdinin kökü çox dərinlərə gedən bu qarşıdurmanın yalnız əməl birliyi, hərbi güclə məhv ediləcəyini yazırdı.Türkiyənin "Tanıtım" dərgisində 1988-ci ilin noyabr ayında Şamil Güvənlə müsahibəsində Rəfiq Zəka Qarabağın tarixindən, müasir Şuşa şəhərinin əsasının Pənahəli xan tərəfindən qoyulması, Şərqin ilk operası "Leyli və Məcnun"u yazan Üzeyir bəy Hacıbəylinin, məşhur musiqiçilər Cabbar Qaryağdıoğlunun, Seyid Şuşinski, Xan Şuşinski, Bülbülün, Rəşid Behbudovun şuşalı olduğunu qeyd edir və göstərir ki, "Qarabağ" kəlməsi nə qədər bizimdirsə, Qarabağın özü də o qədər bizimdir. Şairin poeziyasında da həmin dövrlərdə bu mövzu ön planda dayanır. Bu şeirləri əvvəlki və əsarətdən sonrakı dövrlərə ayırmaq olar. "Şuşa", "Qarabağda", "Bir bahardır Qarabağ", "Üzeyir bəy", "Üzeyir musiqisi", "İsa bulağı" və digər şeirlərdə Qarabağın səfası, gözəlliyi, uğurları, tərəqqisi vəsf olunurdusa, sonrakı dövrlərin "Xocalı soyqırımı", "Xankəndim", "Şuşam getdi", "Qarabağ uğrunda", "Qarabağdan çıxsın" və s. şeirlərində yurd dərdi, əlacsızlığın ağrısı mətnin əsasında dayanır. Lakin bununla belə müəllif ruhdan düşmür, öz inamına sadiq qalaraq, "Türklər gələcək çağrına Dağlıq Qarabağda, dərman bulacaq dərdinə Dağlıq Qarabağda" ümidi ilə Vətən torpağının yenidən azad olunacağına, bu yerlərin qardaşlıq məkanına

çevriləcəyinə qəti əminliyini bildirirdi və zaman da göstərdi ki, şairin doğmalıqla dolu hissiyyatı onu yanıltmamışdır.

Rəfiq Zəkanın əsərlərindəki vətənpərvərlik, döyüşkənlik, qələbə inamı Ümummilli lider Heydər Əliyevin də nəzərini cəlb etmiş və bu haqda öz fikrini bildirmişdi: "Rəfiq Zəka Xəndan mənim çox sevdiyim qeyrətli, namuslu, vətənpərvər şair kimi Azərbaycan mədəniyyətini zənginləşdirir. Allaha şükür ki, o atası unudulmaz Cəfər Xəndanın yolu ilə gedir".[1] Ulu öndərin öz əlilə ona yazıb ünvanladığı bu fikirlər şairin bir ömrlük fəxr yerinə çevrilmişdi. Rəfiq Zəka doğru olaraq bilirdi ki, canı qədər sevdiyi doğma xalqının, vətəninin nicatı bu müdrik rəhbərin əlindədir və hələ uzun illər Azərbaycan onun yaratdığı dövlətçiliyin, quruculuğun əzmilə irəliləyəcəkdir. Sonsuz rəğbət, minnətdarlıq hissi şairi milli liderimizə ithaf etdiyi "Heydər baba" poemasını yazmağa həvəsləndirmişdi:

Gələcək bir gün əminəm,
O gözəl gün gələcək.
Yurdumun haqlı səsi
Haqqa qədər yüksələcək.
O günəş nurunu
Yurddaşlara göydən saçacaq,
Yaşlı üzlər güləcək
Paslı könüllər açacaq.
Güləcəkdir üzü bir
Gül kimi Heydər Babanın,
Yurdumuz alqışına
Uğrayacaq hər obanın.[2]

Şair bu əsərində Heydər Əliyevin siyasətinə, dövlət quruculuğuna, xalq məhəbbətinə, torpaq, yurd sevgisinə çox böyük inam bəsləyir. "Atadır o, Atadır, bir ulu şəfqətli Ata. Saysız övladlarına sayğılı, diqqətli Ata" – deyərək rəhbərin aliliyinə güvənmiş və yenə də öz məsləkinin, ideyasının diktəsiylə fikrinə yekun vurmuşdur:

Ağlayan türkümü duymağa türk lazımdır,
Bax,bu günlər ölümə dalmış olan millətimə.
Millətin rəmzi olan bir Atatürk lazımdır,
Ana yurdda Atasız qalmış olan millətimə.[3]

[1] Rəfiq Zəka Xəndan. Bu dünyanın yarısı türkdür: şeirlər və poemalar. – Bakı: Qorqud, 1996
[2] Refig Zeka Handan. Haydar Baba. – Bakü: Korkut, 1993, s.25
[3] Yenə orada, s.11-12

Rəfiq Zəka Heydər Əliyev fenomeninin sarsılmaz gücünə çox inanır, yurdunun kamil, müdrik xilaskarının atdığı addımların doğruluğunu qeydsiz-şərtsiz qəbul edir və yazılarında təbliğ edirdi. "Az zaman içərisində ağlasığmayacaq qədər çox iş görən, zəngin dünyagörüşü, zəngin kamalıyla könüllərimizdə şəfqət, ruhlarımızda bir hərəkət oyandıran Heydər bəyə sonsuz məhəbbətimiz qələbəyə inamımızdır! Bu inamdır bu gün hamımızı həyəcanlandıran! Bu həyəcandır bu gün atar damarlarımıza qüvvət verən! Bu qüvvətdir sabah bir bütün olacaq Azərbaycanımızın sərhədlərində dan yeri kimi söküləcək zəfər müjdəsindən doğacaq qüdrət!"[1] "Həyatdakı Atatürk" məqaləsində isə Heydər Əliyevin başçılıq ediyi nümayəndə heyətilə Türkiyəyə səfər etdiyindən, oradakı görüşlərdən, Öndərimizin nümayəndə heyətinin hər birinə göstərdiyi atalıq qayğısından yazan şair, görüşlərdən birində ona xitabən söylədiyi fikirləri də qələmə almışdır: "Rəfiq Zəka bir nömrəli türkçüdür. Ən çətin illərdə türklüyünü, Atatürkü sevdiyini danmamış, şeirlərində Türk oğlu Türk olduğunu aləmə car çəkmişdir. Türkiyədə layiqincə sevilən Rəfiq Zəka Azərbaycandan çıxmayacağına söz vermişdir. Onu heç bir qüvvə əqidəsindən döndərə bilməz".[2]

Ulu öndərimizin dediyi kimi əqidə şairi Rəfiq Zəkanın bitib tükənməyən hissiyyatı, sevgisinin ən başlıca ünvanı yurd, millət sevgisi olmuşdur. Yaradıcılığında digər şəxsi istək və ülvi duyğular məhz bu məhvərin ətrafında dolanır. Lakin bununla belə şairin düşüncələrində insan sevgisi ümumbəşəri səciyyə daşıyır. Öz millətinə arzuladığı bağımsızlığı, azadlığı o, bütün dünya xalqlarının həyatında görmək istəyir. Şair daim dünyanı bürüyən imperializm zorakılığına, müstəmləkəçiliyə, qanlı-qadalı müharibələrə qarşı etiraz səsini ucaldır. "Dünya dastanı", "Çili övladlarının səsi", "Ey ərəblər, birləşin", "Salvador", "Azad olmuş Əfqanıstan", "Fələstinin səsi", "Dünya nifrəti" və s. şeirlərində insanlığın əzab və zülmünə qarşı kəskin qəzəb, nifrət hissləri ilk nəzərə çarpan assosiativlikdir. Əslində sovet hakimiyyəti dönəmində yazdığı bu əsərlərdə şair zülmə qatlanmış xalqların faciəsi fonunda Arazla ikiyə bölünmüş və hər iki sahildə müstəqilliyi əlindən alınmış yurdunu, yorulmuş xalqını da simvolikləşdirirdi. Humanist şair insan əleyhinə yönəldilmiş bütün haqsızlıqlara, dünya nizamını pozan bütün ədalətsizliklərə nifrətlə yanaşır, etirazını bildirirdi. Rəfiq Zəka dünyanın bütün ölkələrin ictimai-siyasi vəziyyətini öz düşüncə süzgəcindən keçirib obyektivliklə qiymətləndirməyə meyilli şairdir. Dünya ölkələrində baş verən hadisələr onun da taleyindən keçib gedir. Lakin bütün mövzuların, hadisələrin mərkəzində ilk növbədə Vətən və vətəndaş taleyinin önə çəkilməsi Rəfiq Zəka yaradıcılığının əsas leytmotividir.

---

[1] Rəfiq Zəka Xəndan. Qələbəyə inam. – Bakı: "Azərbaycan" qəzeti, 1993, 10 sentyabr

[2] Rəfiq Zəka Xəndan. Həyatdakı Atatürk. – Bakı: "Azərbaycan" qəzeti, 1994, 23-24 fevral

Rəfiq Zəkanın poeziyasında lirikanın da xüsusi yeri vardır. Klassik poeziyamızın xarakterik cəhətlərini, üslub və dil xüsusiyyətlərini, elmi-nəzəri aspektlərini erkən yaşlarından dərindən mənimsəmiş şair, əruz vəznilə yalnız qəzəllər deyil, müasir günümüzlə bağlı fikir və düşüncələrini də uğurla qələmə ala bilirdi. Sevgi şeirlərinin səmimiyyəti, sadəliyi lirikasını əlahiddələşdirərək romantik pafoslu digər poetik nümunələrdən fərqləndirir. Külliyyatında böyük bir yer tutan oğlu Xəndana, qızı Aydana həsr etdiyi nəsihətamiz şeirləri də övladlarına böyük məhəbbət bəsləyən atanın səmimi könül səsləri kimi inandırıcılığıyla seçilir. Bu sıraya ən yaxın dostlarına, ruhuna yaxın adamlara da ithaf etdiyi şeirləri də aid etmək olar. Rəfiq Zəka lirik şeirlərində hisslərin tərənnümünü sanki bütün artıq, yersiz görünə bilən pafosdan, ibarələrdən, metaforalardan uzaq saxlamağa çalışır. Təsəvvür olunandan çox, yaşananların gerçəkliyini təsvir etməyə çalışır ki, məhz bu səbəbdən onun müxtəlif illərdə lirik musiqilərə yazdığı mahnı mətnləri bu gün də sevilir, yəqin ki, gələcəkdə də təravətini itirməyəcəkdir.

Rəfiq Zəka zəhmətkeş, fədakar, bacarığını, qabliyyətini usanmadan incəsənətin bir çox sahələrində sınamış istedadlı sənətkar idi. Onun uğurlu liberettoları, televiziya və kino üçün nəzərdə tutulmuş ssenariləri də vardır. Lakin bununla belə, özünün 1986-cı ildə qələmə aldığı bir şeirində dediyi kimi, nikbin, gələcəyə ümidli, inamlı, məsləkinə sədaqətli, əqidəsi bütöv, yurd, millət aşiqi bir şair kimi yaşayıb-yaratmışdır:

Dünyada şeir qədər heç nəyə vurulmadım.
Zövqündən, nəşəsindən, dərdindən darılmadım.
Ey Zəka, yaşamaqdan yorulduğum oldu da,
Yaşam dolu şeirdən heç zaman yorulmadım.

Rəfiq Zəka Xəndan zəngin bədii yaradıcılığı, elmi-fəlsəfi irsi ilə ədəbiyyat tarixində özünəməxsus yer tutmuş, xidmətlər göstərmiş dəyərli sənətkarlardan biridir. Onun xüsusilə bədii əsərləri Türkiyədə və Türk dünyasında geniş yayınlanmış, eyni etnosa malik ölkələrin birliyinə, elmi, ədəbi-mədəni əlaqələrinin inkişafına xidmət göstərmək potensialına malikdir.

ƏNVƏR RZA
(1939-1987)

XX əsrin 60-cı illərində yaradıcılığa başlayan, daha çox 70-80-ci illərdə ədəbi ictimaiyyətin diqqətini çəkən Ənvər Rza ədəbiyyatımızda lirik ovqatlı şair, Azərbaycan təbiətinin mahir tərənnümçüsü, ingilisdilli poeziyanın ustad tərcüməçisi və istedadlı ədəbiyyatşünas kimi tanınmışdır.

Həyatı. Ənvər İsmayıl oğlu Rzayev 3 mart 1939-cu ildə Kəlbəcər rayonunun Aşağı Ayrım kəndində anadan olmuşdur. Onun uşaqlıq dövrü İkinci Dünya müharibəsinin qanlı-qadalı illərinə təsadüf etmişdir. Müharibənin və kasıbçılığın yaşatdığı ağır məhrumiyyətlər şairin yaradıcılığında silinməz izlər buraxmış, lakin yaşadığı çətinliklər onun təhsilə olan sonsuz sevgisinə mane ola bilməmişdir. O, 1947-ci ildə 8 yaşında Kəlbəcər qəsəbə 1 saylı orta məktəbinə daxil olmuş, 1957-ci ildə orta təhsilini gümüş medalla başa vurmuşdur. Elə həmin ildə də Azərbaycan Pedaqoji Xarici Dillər İnstitutunun İngilis dili fakültəsinə daxil olmuşdur. 1962-ci ildə ali təhsilini fərqlənmə diplomu ilə bitirmişdir. Geniş biliyi və elmi qabiliyyəti nəzərə alınaraq o institutda müəllim olaraq saxlanılmışdır.

Ənvər Rzanın elmi və pedaqoji fəaliyyəti əsasən Xarici Dillər İnstitutu ilə bağlı olmuşdur. O, əvvəlcə İnstitutun "İngilis dili leksikası" kafedrasında müəllim (1962-1967), baş müəllim (1967-1972), kafedra müdiri (1972-1979), daha sonra "İngilis dili leksikası" kafedrasında dosent (1979-1987) vəzifələrində çalışmışdır. "İngilis poeziyasının Azərbaycan dilinə tərcümə məsələləri (C.Bayronun "Şərq poemaları" əsasında) mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir. Bədii yaradıcılıqla bərabər ingilisdilli poeziyanın tərcüməsi onun əsas fəaliyyət sahəsi olmuşdur.

Ənvər Rza 8 iyun 1987-ci ildə vəfat etmiş, vəsiyyətinə görə doğulduğu Aşağı Ayrım kəndində dəfn edilmişdir. Kəlbəcərin 30 illik işğalı dövründə Ənvər Rzanın məzarı da erməni girovluğunda qalsa da, 2020-ci ildə Ənvər Rzanın məzarı və şair ruhu, doğma kəndi, əsrarəngiz Kəlbəcər şəhəri azadlığa qovuşmuşdur.

Yaradıcılığı. Orta məktəbdə oxuduğu illərdən poeziya vurğunu olan Ənvər Rzanın "Göz işığı" adlı ilk şeiri 10 fevral 1962-ci ildə "Ədəbiyyat və incəsənət" qəzetində işıq üzü görmüşdür. Bundan sonra o, dövri mətbuatda şeirlər və tərcümələri ilə davamlı olaraq çıxış etmişdir.

Uşaqlıqdan ağır zəhmətə öyrəşmiş şair həyatının sonrakı dönəmində elmi axtarışlarını bədii yaradıcılıqla paralel şəkildə inkişaf etdirmişdir. 1969-cu ildə onun "Sənsiz" adlanan ilk şeirlər kitabı çapdan çıxmışdır. O dövrün müəyyənləşdirdiyi "standartlar"a uyğun olaraq kitab həcmcə xeyli yığcam olsa da, burada qəlbi yazıb-yaratmaq eşqi ilə döyünən şairin saf duyğuları və gələcəyə olan böyük ümidləri öz bədii əksini tapmışdır.

Ənvər Rzanın uşaqlıq dövrü İkinci Dünya müharibəsinin qanlı-qadalı illərinə təsadüf etdiyindən bu illərdə görüb-yaşadığı çətinliklər onun yaddaşında silinməz izlər buraxmışdır. Sonradan o, qələmə aldığı şeirlərində böyük ustalıqla bu ağrılı həyat lövhələrinin sözlə mahir bir rəssamın belə çəkə bilməyəcəyi tablolarını yaratmışdır:

Uşaqlıq çağımız qəm, kədər görüb,
Zülmət gecələrin ümid banıyıq.
Uşaqlıq çağımız dəhşətlər görüb,
Biz də müharibə veteranıyıq.[1]

Kişisiz qalmış kəndlərin, həyat yoldaşlarını, qardaşlarını, oğullarını davaya yola salmış qadınların, anaların, bacıların yaşadıqları sonsuz acılar, sıxıntılar, oğlan paltarı geyib əkin-biçin işi görən qızların çəkdikləri əziyyətlər kino lenti kimi şairin yaddaşında çözələnərək şeirə, poemaya çevrilmişdir. Bütün acılıqlarına baxmayaraq, keçdiyi bu çətin həyat yolu şairin bütöv bir şəxsiyyət kimi formalaşmasında böyük rol oynamışdır. Təsadüfi deyil ki, müharibə mövzusu Ənvər Rza yaradıcılığında heç vaxt ikinci plana keçməmişdir:

Kimin günahıymış Tanrının görkü?
Nələr çəkəsiymiş bu yazıq bəndə.
Nə günə qalacaq kəndimiz gör ki,
Öküzlər hürkəcək kişi görəndə.[2]

Ənvər Rza müharibənin bütün dəhşətlərini "Bənövşə qarı" şeirində daha canlı və detallı şəkildə təsvir etmişdir. Onun qəhrəmanı real həyatda tanıdığı həmkəndlisi Bənövşə qarıdır. Şair oğullarını davaya yola salmış anaların çəkdikləri mənəvi iztirabları, ağrıları böyük ustalıqla Bənövşə qarının timsalında bədii sözün yaddaşına köçürmüşdür:

Yadımdan çıxmır heç Bənövşə qarı,
Onun dağdan ağır nisgili vardı.
Dəhlizin küncündə həmişə qarı
Arı pətəyidək sızıldayardı.[3]

Üç oğlu müharibədə həlak olmuş Bənövşə qarı övladlarını qanlı döyüşlərdə itirmiş milyonlarla günahsız anaların bitkin obrazıdır. Müharibənin dəhşətli kabusu insanlara illərlə sağalmayacaq yaralar vurmuş, neçə-neçə ocağın son ümid çırağını söndürmüşdür:

[1] Ənvər Rza. Bənövşə qarı. Kəlbəcərə gedən yollar. – Bakı: Azərnəşr, 2010, s.320
[2] Yenə orada, s.317
[3] Yenə orada, s.320

Yaşlı gözlərinin yuxusu perik,
Naləsi gəzirdi obada onun.
Təsəlli verməyə cürət etməzdik,
Üç oğlu ölmüşdü davada onun.[1]

Gözləri yollardan yığılmayan Bənövşə qarı oğullarının "qara kağız"-larını alsa da, onun ana ürəyi heç cür bu itkilərlə barışmamış, son nəfəsinədək bir gün balalarının doğma komaya qayıdacaqları ümidi ilə yaşamışdır. Lakin dünyada möcüzə baş vermədiyi üçün qarının arzuları gözündə qalmış, elə bu acı nisgillə də dünyadan gözüyaşlı köçmüşdür:

Yollara baxardı, yollara elə;
Bir ana yanında yollar xəcildi.
Öldü, dəfn elədik el adətiylə,
Yox, onun kəfəni dərddən biçildi.[2]

Şair bədii məcazlardan böyük ustalıqla istifadə etməklə davanın insanlara nə miqyasda faciələr yaşatdığına diqqət çəkərək müharibə canilərini tarixin mühakiməsinə verir. Bu qanlı tiranların bir gün günahsız anaların göz yaşlarında boğulacaqlarına varlığı kimi inanır:

Qarının naləsi buludlara tən,
Dağları dağıyla dağlayırdı o.
Mən qəbir üstünə getmişdim dünən,
Eşitdim, qəbirdə ağlayırdı o.[3]

1970-ci ildə Ənvər Rzanın "Könlümə bahar düşüb" adlı növbəti şeirlər kitabı işıq üzü görmüşdür. Bu kitabda şairin daha çox təbiət mövzusunda yazdığı və lirik ovqatdan doğan şeirləri üstünlük təşkil edir. Yaradıcılığın ağır yollarında gündən-günə püxtələşən şair artıq ingilisdilli poeziyanın da istedadlı bir tərcüməçisi kimi orijinaldan etdiyi dəyərli tərcümə nümunələrini kitaba salmışdır.

Ənvər Rza şeirlərini əsasən heca vəznində yazsa da, poeziyanın digər vəznlərində də qələmini sınamışdır. Həcmindən və formasından asılı olmayaraq onun şeirlərinin əsas qayəsi dəyişməzdir: fikrin dərin mənada ifadəsi, sadə deyim və orijinal üslub.

Ənvər Rza yurda, vətənə, milli kökə qırılmaz tellərlə bağlı olan vətəndaş şairdir. Vaqifdən, Səməd Vurğundan gəlmə talelərinə kənddə doğulub, şəhərdə yaşamaq qismәti düşmüş şairlərin yaşadıqları yurd nisgilini

[1] Ənvər Rza. Bənövşə qarı. Kəlbəcərə gedən yollar. – Bakı: Azərnəşr, 2010, s.320
[2] Yenə orada, s.320
[3] Yenə orada, s.320

bədii sözün yüksək poetik dili ilə çatdırmaq yalnız Ənvər Rza kimi torpağa, el-obaya bağlı incə qəlbə malik qələm adamlarına müyəssər ola bilərdi:

Könül, eylə duyduğunu saf-çürük,
Bu dağlardan ayrı keçən ömür – yük,
Bir yer versin balasına ömürlük,
İstəmirəm qonaq olam dağlara.[1]

Taleyin qədəri bir neçə ildən sonra şairi bu arzusuna qovuşdurdu. Həm də yaradıcılığının ən qaynar, püxtə bir dövründə şairi ana dağlara ömürlük mehman elədi.

Ənvər Rza böyüdüyü ocağa, yurda, doğma kənd-kəsəyə qırılmaz tellərlə bağlı bir yazar idi. Məhz bu xüsusiyyətlərdən irəli gələn reallıq idi ki, onun yaradıcılığında doğulduğu Aşağı Ayrım kəndi, uşaqlığı və gəncliyinin keçdiyi Kəlbəcər dağları, Dəlidağ, Tərtər, Dik yurd və s. yerlərin təkrarsız gözəlliyi poeziyasının əsas ilham mənbəyi olmuşdur. Şairin 1972-ci ildə çap olunmuş "Nə yaxşı görüşdük" kitabının da əsas leytmotivini yurda olan övlad məhəbbəti, doğma yerlərin ayrılığından doğan niskil təşkil edirdi:

Yaddaşımı xatirələr kötəklər,
Yaddaşımda pöhrələnər kötüklər.
Qayıdanda yol verməyə gədiklər,
Bir bəxtəvər dustaq olam dağlara.[2]

Ənvər Rza Azərbaycan ozan-aşıq sənətinin ən qaynar ocaqlarından olan Kəlbəcər ədəbi mühitində böyüyüb ərsəyə yetdiyindəndir ki, onun yaradıcılığında heca vəzni, xalq şeiri ruhu, aşıq poeziyası ritmi qabarıq şəkildə özünü büruzə verir. Onun gəraylılarında, qoşmalarında Dirili Qurbaninin, Abbas Tufarqanlının, Sarı Aşığın, Aşıq Ələsgərin ruhu yaşayır, şeirlərində onların bədii üslublarına oxşarlıq daha çox diqqəti cəlb edir.

Bu xəbəri apar qanlı,
Müjdə qanlı, çapar qanlı.
Oldum Abbas Tufarqanlı,
O Gülgəzdi, Allah, Allah.[3]

"Ənvərin poetik dilinin hərarətini, şirinliyini təfərrüatı ilə anlamaq, sözün dili arxasında göstərdiyini görə bilmək üçün gərək onun vaqif olduğu canlı xalq dilinə bələd olasan. Ənvər Rzanın müasir şeir şəkillərindən hansında qələmə alınmış əsərinə nəzər salsanız, hamısında xalq yaradıcılığından rəng, çalar görmək mümkündür.

[1] Ənvər Rza. Kəlbəcərə gedən yollar. – Bakı: Azərnəşr, 2010, s.155
[2] Yenə orada, s.320
[3] Yenə orada, s.218

Bir yandan klassik poeziyamızı dərindən bilməsi, bir yandan Avropa şeirinə bələdliyi (xüsusilə, ingiliscə yazılmış) onun yaradıcılıq üfüqlərini genişləndirmişdi".[1]

Ənvər Rza öz şeirlərində milli irsə, klassiklərə nə qədər sevgiylə, sədaqətlə yanaşsa da, sələflərindən heç kəsi təkrarlamamış, əksinə, sözə böyük ustalıqla yanaşaraq ona yeni məna, məzmun dolğunluğu verməklə öz bədii üslubunu yarada bilmişdir:

Xəyalım buludtək burdan ötəndir,
Soruş: "Saçındakı bu dən nə dəndir?"
Yanmayıb qəlbimi yandıran təndir,
Nə yaxşı görüşdük, nə yaxşı yenə.[2]

Tarixən şairlərin böyük əksəriyyətinin yaradıcılığında təbiət mövzusu, onun gözəlliklərinin tərənnümü başlıca yerlərdən birini tutmuşdur. Ənvər Rzanın şeirlərində də bu mövzu əsas ilhamverici qaynaqlardan biri olmuşdur. Onun poeziyasının əsas sütununu Azərbaycan təbiətinin təkrarsız gözəllikləri təşkil etmişdir. Şair ana yurdun əvəzsiz bir tərənnümçüsü kimi ədəbiyyatımızda silinməz bir iz qoymuşdur. Onun şeirlərinin hər sətrində, hər misrasında ana yurda sonsuz övlad sevgisi dil açmış, doğma vətənin hər daşı, qayası canlanmış, hər qarışı çiçək açmışdır:

Karvan-karvan boz buludlar axında,
Yaşıl xal var zirvələrin ağında,
Dəlidağın yayın qızmar çağında,
Yazına bax, yazına bax yazına.[3]

"Gəlmişəm", "Maralgöl", "İstəmirəm qonaq olam dağlara", "Gedirəm", "Hasarlı", "Qarçiçəyi", "Lalə ilə söhbət", "Çoban bulağı", "Qaldı çoban tütəyində", "Beşbulaq" və digər şeirlərində də ana təbiətin təkrarsız gözəllikləri böyük ilhamla öz bədii əksini tapmışdır.

Şair keçmiş SSRİ-nin də çox yerlərində, bir neçə xarici ölkədə səfərdə olmuş, gəzdiyi yerlərin gözəlliklərinə şeirlər, poemalar həsr etmişdir. "Maşuk bayatısı", "Maşuk meşəsi", "Puşkin planeti", "Duel", "Əlvida demirəm, görüşənədək!", "Şairə təsəlli", "Əkizlər" və s. bu səfər təəssüratlarının sayəsində yaranmışdır.

Ənvər Rzanın vətən sevgisi, yurda bağlılığı şüarçılıqdan, pafoslu ritorikadan uzaqdır. O, heç vaxt xalqın ağrısına biganə qalmamışdır. Sovet senzurasının bədii sözü dəmir çərçivədə saxladığı illərdə də o, xalqın

[1] Ənvər Rza. Bəxtəvər dustaq. – Bakı: Qanun, 2019, s.48
[2] Ənvər Rza. Nə yaxşı görüşdük. Kəlbəcərə gedən yollar. – Bakı: Azərnəşr, 2010, s.157
[3] Ənvər Rza. Kəlbəcərə gedən yollar. – Bakı: Azərnəşr, 2010, s.15

dərdindən danışmış, sözə heç zaman xəyanət etməmişdir. Yeri gəlmişkən, şair bütün yaradıcılığı boyu sovet ideologiyasının ədəbiyyat üçün elan etdiyi ənənəvi mövzulardan uzaq olmuşdur. Vətən dağlarının çopur bir daşını vəsf etməyi partiyadan, sovet beynəlmiləlçiliyindən və digər konyuktur mövzulardan üstün tutmuşdur. Əksinə, Moskvanın xalqımıza qarşı yürütdüyü ikiüzlü mürtəce siyasətini hələ o illərdə bir şair fəhmi ilə dərindən duymuş, yurdu, ana dağları gözləyən təhlükəni görərək yurddaşlarını ayıq olmağa səsləmişdir:

Dağlar oğlu, dağa qoyma yağını,
Aldatdılar, uzaq sandıq yaxını.
Əritmişəm ürəyimin yağını –
Ay batanda çıraq olam dağlara.[1]

Ənvər Rza şeirlərində bədii ifadə vasitələrindən yüksək sənətkarlıqla istifadə etmişdir. O, ana dilimizin gözəl bilicisi idi. Yaradıcılığında Azərbaycan dilinin şəhdindən-şirəsindən elə sənətkarlıqla istifadə etmişdir ki, sanki mahir bir memar süslənmiş daşlardan sözə əbədi bir abidə ucaltmışdır. Şair ana vətənin dağını, dərəsini, çayını, bulağını yüksək şövqlə tərənnüm etmişdir. Onun şeirləri həm də axıcılığı və tez yadda qalması ilə seçilmişdir:

Mən ona paklığın carçısı dedim,
Ayna çay, güzgü çay, carçı su dedim.
Şeir qalaçamın carçısı dedim,
Dəlidağ nəfəsli nəsimdi Tərtər.[2]

Dəlidağa, Tərtər çayına Azərbaycanın çox ünlü şairləri şeirlər, nəğmələr həsr etmişlər. Ənvər Rzanın "Tərtər"i isə sanki "Ruhani"nin zənguləsi, "Qarabağ şikəstəsi"nin qəlbləri coşduran harayı, "Çahargah"ın əzəmətidir.

Ondan uzaq düşmək dərddi, zülümdü,
O mənim su evim, su mənzilimdi.
Dağda zənguləmdi, döşdə zilimdi,
Arana yenəndə pəsimdi Tərtər.[3]

Ənvər Rzanın şeirlərində milli yaddaşın bədii əksi daha çox diqqəti çəkir. Şair yaxşı anlayır ki, bir xalq üçün milli yaddaşın itirilməsi milli varlığın sonu deməkdir. Əsl vətəndaş həyatda hansı mövqeyə yüksəlməsindən asılı olmayaraq doğulduğu ocağı, doğma yurd-yuvasını, keçmişini, safını-soyunu, ilkini unutmamalıdır:

[1] Ənvər Rza. Kəlbəcərə gedən yollar. – Bakı: Azərnəşr, 2010, s.154
[2] Yenə orada, s.158
[3] Yenə orada, s.158

Ənvər Rza poeziyası qafiyəbazlıqdan, döyənək deyimlərdən uzaqdır. O, söz seçimində, məna yaratmaqda heç bir çətinlik çəkmir. Ona görə də onun şeirlərindəki poetik deyim də, axıcılıq da, qafiyə seçimi də, məna da təbii istedaddan, şair fitrətindən doğur. O, çılpaq qayalıqda da gözəllik, sadəlikdə yüksəklik, əzəmət yarada bilir:

Yalayaram bu daşları duz kimi,
Yanar qəlbim sərinləyər buz kimi.
Qantəpərin, gülxətminin qız kimi
Nazına bax, nazına bax, nazına![1]

Ənvər Rza poeziyada heyrət yaratmağı bacaran şairlərdəndir. Onun şeirlərində lal "danışır", kor "görür". Bu şair fəhminin, alim təfəkkürünün nə qədər böyük bir çevrəni əhatə etdiyini göstərir. Şairin "Lal haqqında ballada"sını dünya ədəbiyyatının böyük klassik inciləri ilə müqayisə etmək olar. Şeirin qəhrəmanı Vilayət sanki böyük rus yazıçısı Turgenevin "Mumu"sundakı Gerasimlə qardaşdır, onun prototipidir:

Salam, Vilayət, salam!
Nə bərk sıxdın əlimi –
Kötükdürmü əllərin?
Tənbəlliyə, süstlüyə
Kötəkdirmi əllərin?
Sözlü gözlərin tanış,
Səssiz sözlərin tanış,
Danış, əzizim, danış.
İntizarı təkləyim,
Səni dinləmək üçün
Qulağımın yerinə
Qaşlarımı şəkləyim.
Kirpiyindən, qaşından
Söhbət yağır, söz yağır,
Sənə lal-kar deyənin
Günahı dağdan ağır.[2]

Ənvər Rzanın ingilisdilli poeziyadan etdiyi tərcümələr bu gün də mütəxəssislər tərəfindən yüksək sənətkarlıq örnəyi kimi təqdir olunur. Onun böyük ingilis şairi Uilyam Şekspirdən tərcümə etdiyi "66-cı sonet", "Bülbüllə söhbət", "Təmiz ad", P.Şellinin "Məhəbbətin fəlsəfəsi", "Gecən xeyirə qalsın", "Solmuş bənövşə", "Yay və qış", "Anarxiya maskaradı" (poema) şeir

[1] Ənvər Rza. Kəlbəcərə gedən yollar. – Bakı: Azərnəşr, 2010, s.375
[2] Yenə orada, s.249

və poemaları, C.Bayronun "Şilyon məhbusu", "Mazepa", "Parizina" poemaları mütəxəssislər tərəfindən yüksək qiymətləndirilmişdir. Ənvər Rzanın tərcümələri məzmun və məna, eləcə də yüksək poetik xüsusiyyətləri baxımından orijinalla daha yaxından səsləşir.

Bayronun "Mazepa" poemasında Ukrayna xalqının vətənpərvər oğlu, ketman Mazepanın öz xalqının azadlığı uğrunda apardığı qəhrəmanlıq mübarizəsindən bəhs edilir. Mazepa Vətənin istiqlalı yolunda apardığı mübarizədə rus işğalçılarına məğlub olsa da, xalqının bir gün bu boyunduruqdan azad olacağına ürəkdən inanır:

Poltava döyüşü. Bu vuruşmada
İsveç kralına tale baxdı kəm.
Qoşunu, ordunu verərək bada
Basıldı, əzildi, sarsıldı möhkəm.[1]

Rus işğalına qarşı İsveç kralı ilə bir cəbhədə vuruşan Mazepa taleyin dönüklüyü üzündən məğlub olur. Kralla bərabər tərki-vətən olub çöllərə düşən Mazepa ağır məşəqqətlərə qatlaşsa da, keçmişin şirin xatirələrindən güc, qüvvət alır:

O vaxt gözəl, qəşəng bir gənc idim mən,
Yetmişi keçmişəm, olmaz qəbahət.
İgid oğlanlardan, cəngavərlərdən
Heç kəs aparmazdı mənlə rəqabət.
Ömrün sübh çağıydı, zirəkdim-zirək,
Məndə pələng gücü, şir gücü vardı.
Boyum, qamətim də sərv ağacıtək,
İllər hamısını çapıb apardı.[2]

Tərcümə sənəti ədəbiyyatın ən çətin və incə sahələrindən biridir. Poeziya nümunələrinin tərcüməsi isə ikiqat məsuliyyət tələb edir. Bu, tərcüməçidən həmin xarici dili yaxşı bilməklə yanaşı, yüksək şairlik qabiliyyəti və tərcümə etdiyi obyekti, onun mənsub olduğu xalqı, o xalqın milli düşüncəsini də dərindən bilmək bacarığı və istedadı tələb edir. Ənvər Rzanın ingilis şairi Şellidən tərcümə etdiyi bir şeir parçasına diqqət yetirsək, sözlərin poetik axıcılığı, dilin rəvanlığı və fikrin bitkinliyi baxımından ilk baxışda bunun bir tərcümə nümunəsi olduğuna qəbul etmək çətindir:

Çeşmələr çaylara, çaylar ümmana,
Külək də küləyə qovuşur hər an.
Bir ülfət duyulur baxsan hər yana,

[1] Ənvər Rza. Kəlbəcərə gedən yollar. – Bakı: Azərnəşr, 2010, s.155
[2] Yenə orada, s.382

Ölməz bir qanunu yaşadır cahan.
Qovuşmaq eşqidir bu bəxtiyarlıq,
Şirin bir duyğudur ülvi, müqəddəs.
Tək-tənha yaşayır de hansı varlıq?!
Biz niyə, biz niyə qovuşmayaq bəs?[1]

Uzun illər orta məktəblərimizin ingilis dili dərsliklərinə salınan ölməz şairimiz Səməd Vurğunun məşhur "Azərbaycan" şeirinin tərcüməsi də Ənvər Rzaya məxsusdur. O, böyük şairin "Vaqif" dramını da ingilis dilinə tərcümə etmiş, lakin vaxtsız ölüm işin tam başa çatdırılmasına imkan verməmişdir.

Ənvər Rza folkloru, ağız ədəbiyyatını, xalqın tarixini, mədəniyyətini dərindən bildiyi üçün yaradıcılığında ənənəvi detallardan yerli-yerində istifadə etməklə qiymətli sənət nümunələri yarada bilmişdir. Onun şeirləri həzinliyinə görə bəstəsiz də bir mahnı, könülləri riqqətə gətirən şaqraq nəğmələr kimi səslənir. Poeziyasındakı bu həzin və bitkin çalarlardı ki, onun şeirləri həmişə toylarda, şənliklərdə aşıqlar, müğənnilər tərəfindən sevilə-sevilə oxunmaqdadır. Təbii ki, onun şeirləri bəstəkarların da diqqətindən yayınmamış, sözlərinə həzin mahnılar bəstələnmişdir. Şairin şeirlərinə bəstələnmiş "Gözlərəm səni", "Bircə sənsən, bircə mən", "Gözlərinə göz dəyər" kimi mahnılar xalq arasında geniş yayılmışdır. Şairin "Gözlərinə göz dəyər" şeirinə yazılan mahnı xalq arasında o qədər populyarlaşmışdır ki, çox zaman bu bəstəni xalq mahnısı kimi də təqdim edirlər:

Səni görüb dayanmışam nitqi lal,
Süzgün baxma, kirpiyini yavaş çal.
Gözlərinin qarşısında, ay maral,
Təkcə mən yox, hər kim olsa, baş əyər,
Elə baxma, gözlərinə göz dəyər.[2]

Şair, mütərcim Ə.Rzanın bədii yaradıcılığı haqqında ölkənin tanınmış qələm adamları, ədəbiyyatşünas və tənqidçiləri dəyərli məqalələr yazmışlar.

Ənvər Rza bitkin və zəngin poeziyası, bədii tərcümələri, təkrarsız ifadə tərzi, bənzərsiz yaradıcılığı ilə ədəbiyyatımızda özünəməxsus yer tutmuşdur.

[1] Ənvər Rza. Kəlbəcərə gedən yollar. – Bakı: Azərnəşr, 2010, s.336
[2] Yenə orada, s.218

ARİF ABDULLAZADƏ
(1940-2002)

XX əsrin II yarısında Azərbaycan ədəbiyyatının "60-cılar" adlandırılan nəslinin görkəmli nümayəndələrindən şair, nasir, ədəbiyyatşünas Arif Abdullazadənin imzası "nəsrdə olduğu kimi, poeziyada da ədəbiyyatımıza yeni nəfəs, yeni bədii-estetik ab-hava gətirmiş və sənəti sosrealizm çərçivəsindən çıxmış"[1] "60-cılar" ədəbi nəsli arasında xüsusi mövqeyə malikdir.

Həyatı. Arif Əbdürrəhman oğlu Abdullazadə 1940-cı ildə Azərbaycanın Şəki şəhərində anadan olmuşdur.

O, Azərbaycan Dövlət Universitetinin (indiki BDU) Filologiya fakültəsini bitirmişdir (1956-1961). 1961-ci ildən Azərbaycan EA Elmi kitabxanasında redaktor-mütəxəssis kimi əmək fəaliyyətinə başlamış, həmin ilin 31 iyulunda isə Nizami Gəncəvi adına Ədəbiyyat Muzeyində kiçik elmi işçi vəzifəsinə təyin edilmişdir. 1962-ci il 23 yanvardan Nizami adına Ədəbiyyat İnstitutunda (Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda) Azərbaycan sovet ədəbiyyatı şöbəsində kiçik elmi işçi, 1968-ci ildən isə baş elmi işçi kimi çalışmışdır. 1970-ci ilin 14 noyabrından 1972-ci ilin 18 noyabrınadək Türkiyədə tərcüməçi kimi fəaliyyət göstərmişdir.

Arif Abdullazadə 1966-cı ildə "Qantəmirin həyat və yaradıcılığı" mövzusunda namizədlik dissertasiyasını, 1977-ci ildə "Azərbaycan sovet poeziyasında yaradıcılıq üslubları" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir.

1993-cü ildə XX əsr Azərbaycan ədəbiyyatı şöbəsinə müdir təyin olunmuş professor Arif Abdullazadənin gənc ədəbiyyatşünasların filologiya üzrə fəlsəfə doktoru dissertasiyalarının ərsəyə gəlməsində xüsusi xidmətlər göstərmiş, rəhbərlik etmiş, elmlər doktoru dissertasiyalarında elmi məsləhətçi olmuşdur. Ədəbiyyatşünaslar arasında müəyyən mövqeyi olan, tanınan alimlər içərisində Arif Abdullazadənin yetirmələri çoxdur.

Poeziyanın müxtəlif problemlərini araşdıran tədqiqatçı-alimin "Novatorluq və üslub" (Bakı, 1976), "Şairlər və yollar" (Bakı, 1984), "Şair Cəfər Cabbarlı" (Bakı, 1989), "Od nə çəkdi" (Bakı, 1990) monoqrafiyaları, "Rəsul Rza şeirinin mövzu dairəsi" (1970), "Qantəmir" (1973), "Rəsul Rza yaradıcılığı" (1974), "Rəsul Rza şeirinin poetik üslubu və əhatə dairəsi" (1976), "C.Cabbarlının poetik üslubu" (1980), "Nəbi Xəzrinin lirikası", "Müasirliyin konkret həlli", "Molla Cumanın yaradıcılığı", "Ədəbiyyatda insan amili", "Səməd Mənsur sədaqəti", "Aşıq Alı", "Qasım bəy Zakir", "Səhhət işığı", "Tənqid və sənətkar", "Söz sarayında" və s. tədqiqat işləri,

[1] Elçin. Sözlərə azadlıq öyrədə bildik... "Ədəbiyyat qəzeti", 23 dekabr 2023, s.8

elmi məqalələri müxtəlif forum, simpozium, konfrans, konqres və sessiyalarda məruzə və çıxışları ilə ədəbiyyatşünaslığımızın inkişafı və təbliğində xidmətləri olmuşdır.

Onun rəhbərliyi altında Ədəbiyyat İnstitutunda "Ədəbiyyatda şəxsiyyət konsepsiyası" (Bakı, "Elm", 2000) monoqrafik məcmuəsi çap olundu ki, burada toplanmış tədqiqatlar 1960-90-cı illər Azərbaycan ədəbiyyatının müxtəlif janrlarında əks olunan ədəbi-bədii keyfiyyətlər, təmayüllər, konsepsiyalar haqqında yeni fikir idi. ETT dövrünün poeziya, nəsr, dramaturgiya nümunələrində insan, cəmiyyət, təbiət problemləri, şəxsiyyətin cəmiyyətdəki mövqeyi yazıçı və şairlərin insan konsepsiyaları əsasında araşdırılmış və gənc alimlərin yeni elmi-nəzəri baxışları öz əksini tapmışdır.

Filologiya elmləri doktoru, professor Arif Abdullazadə ədəbi prosesdə orijinal ifadə üslubu, fərdi deyim tərzi, azad düşüncə, kəskin mövqeyi ilə seçilən bir alim olmaqla yanaşı, bu özünəməxsusluğunu şair və yazıçı kimi də təsdiqləmişdir.

Ədəbiyyatımızda "60-cılar" kimi tanınan ədəbi nəsil içində öz üslubu ilə fərqlənən Arif Abdullazadənin "Arzular" (1964), "Könüllərin dünyası" (1966), "Ana dünyamız" (1975), "Sevin Azərbaycanı" (1979), "Sənlə sənsiz" (1983), "Bəxtimizin kitabı" (1988), "Seçilmiş əsərləri" (1991), "Ulu Qorqud" (1999), "Tövbə duaları" (2003), "Qatarla uçmaqdan yorulan durna" (2020) şeirlər kitabları, "Sınaq kürəsi" (2024) adlı romanları çap olunmuşdur.

Arif Abdullazadənin kitab şəklində çap etdirmədiyi iki dram əsəri – "Evlərin axşamları", "Aqillər" Şəki Dövlət Dram teatrında tamaşaya qoyulmuş, əsərləri fars, macar, polyak, rus, tacik dillərinə tərcümə edilmişdir.

Ədib öz həyatını, yaradıcılığını səciyyələndirərək fikrini belə ifadə edirdi: "...kitablara yazılan müəllif ön sözlərində tərcümeyi-haldan da söhbət gedir və çox vaxt Yeseninin (təkcə Yesenininmi?) məşhur "mənim tərcümeyi halım mənim şeirlərimdir" fikrinə istinad edilir... Hər halda söhbət mənim kimisindən gedirsə, doğrudan belədir. Axı mənim nə tərcümeyi-halım var ki...1940-cı il Şəkidə doğulmuşam, sonra Bakı – Universitet, Akademiya, səfərlər, şeir, romanlar... Və bu baxımdan şeirlərim qəlbimdə hiss və düşüncələrimdən keçən nə qədər arzuların, ümid və həvəslərin, nəsrim isə ömrümdən keçən nə qədər günlərin, ayların, illərin qarşısındakı dumanları seyrəldir, onları duyumlu görümlü edir".[1]

Arif Abdullazadənin özünün dediyi kimi, onun həm lirikası, həm də nəsri bir şair, bir vətənpərvər şəxsiyyətin və onun mənsub olduğu xalqın tərcümeyi-halı, tarixi, mənəvi dünyasıdır.

[1] Arif Abdullazadə. Tövbə duaları. – Bakı: Çaşıoğlu, 2003, s.351

O, bir müddət Azərbaycan Yazıçılar Birliyində poeziya bölməsinin müdiri olmuş və ədəbi-elmi fəaliyyətinə görə Rəsul Rza adına mükafata layiq görülmüşdür.

Şair, nasir, alim Arif Abdullazadə 31 may 2002-ci ildə Bakıda vəfat etmiş, Şəkidə dəfn olunmuşdur. Şəkidə Arif Abdullazadənin adını daşıyan küçə vardır.

Yaradıcılığı. XX əsrin ortalarından Azərbaycan lirikasında mənəvi azadlıq cəhdinin doğurduğu sənətkar narahatlığı 60-cı illərdə azacıq da olsa, əldə olunmuş mülayimləşmə fonunda geniş vüsət almışdır.

Əli Kərim, Bəxtiyar Vahabzadə, Məmməd Araz, Fikrət Qoca, Fikrət Sadıq, Vaqif Səmədoğlu, Ələkbər Salahzadə, İsa İsmayılzadənin lirik qəhrəmanları hər şeydən əvvəl narahat fikir adamları, zəmanə ilə barışa bilməyən, özünü cəmiyyətdə tənha hiss edən şəxsiyyətlər idi. Ağıl və hissin vəhdətinin səciyyəsi olan lirik qəhrəman düşünən, düşündüklərini duyğularının süzgəcindən keçirərək dərk edən real və narahat şəxsiyyət idi.

Arif Abdullazadə də bu dövr lirik qəhrəmanının mənəvi aləminin zənginliyi, özünəməxsusluğu ilə diqqəti cəlb edən şairlərdən olmuşdur. Onun lirikasının özümlüyü şairin lirik qəhrəmanının mənəvi aləmini müəyyənləşdirməyə imkan verir.

Sən heç bir divanəyə
cavabı müşkül olan
suallar vermisənmi,
ya da ki, bir dəlini
batan günəşə baxıb
gözləri yol çəkən görmüsənmi?[1]

Bu lirik parçada şair fikrin təsvirini vermir, onun barəsində danışmır, diqqəti fikrin poetik obrazına yönəldir. Onun lirik qəhrəmanının mənəvi aləmini səciyyələndirən, insanın daxilində – istər yaddaşında, istərsə də qəlb aləmində fikrin taleyini düşünməkdir. Hisslərin, duyğuların insanı çəkib apardığı məkanı, məqamı tutmaq, o mövqeyi müəyyənləşdirməyə çalışmaqdır.

Şairin "İşıq söndü", "Kirpilər tikansız doğulur", "Kövrək ümidlər", "Vaxtında", "Hər şeyin bir sonu var", "Bir vaxt istəsəydim..." kimi lirik-fəlsəfi şeirləri əslində sual-monoloqlu düşüncələrdən doğulmuş epizodlardır. A.Abdullazadə öz bioqrafiyasının onu əhatə edən aləmin ab-havası ilə vəhdətini təqdim edir, bir ömrün mənası üzərində düşüncələri, zaman və insanlar haqqında həqiqətlərlə bağlayır.

A.Abdullazadənin şeirlərində təsvir və tərənnüm, vəcdlə düşüncə, həyəcanla fikir qovuşur, bu qovuşuqda gözəlliyi duyan, onun taleyi üçün

[1] Arif Abdullazadə. Sənlə sənsiz. – Bakı: Yazıçı, 1983, s.31

narahatlıq keçirən lirik qəhrəman şair qəlbinin narahatlıq meyarını ifadə edirdi. Ömür yolundakı tragizmin dərkinə can atmaq, detallarda ümumi ovqatın rəmzini görmək, zamanın təzadlarını duyğularının süzgəcindən keçirərək özünə dərd etmək müasirləri kimi Arif Abdullazadənin də lirikasını səciyyələndirən poetik və estetik əlamətlər idi.

A.Abdullazadə öz müasirlərini "60-cılar" adlı şeirində xarakterizə edərkən bu yanğının, vətənpərvərliyin oyanış başlanğıcının zamanın tələbindən doğduğunu göstərir:

Qəlblərini dələn söz yağmurundan
Təptəzə sözlərlə öc aldı onlar.
Bu sözlər əl-ələ, dil-dilə verib,
Müzəffər yürüşə döndülər bir gün.
Söz-sözə qovuşub bayraq yaratdı,
Əsl çevrilişə döndülər bir gün.[1]

Y.Qarayev 70-ci illər poeziyasından bəhs edərkən yazmışdı: "Bu dövr təkcə lirik əsərlərdə deyil, həm də epik əsərlərdə qəhrəmanın mövqeyinin və estetik fəallığının qüvvətlənməsinin şahidi oluruq. Bir dövr vahidi kimi, bütünlükdə, 70-ci illərin poeziyasını xarakterizə edən bu əlamətdar cəhət müasir lirikada vətəndaşlıq və şair şəxsiyyəti problemini xüsusi bir kəskinliklə irəli sürür. İndi şeirin ictimai mövqeyi Cahanın və Zamanın qayğılarına şərikliyin daha da artan dərinliyi ilə ölçülür".[2]

Zamanın, cəmiyyətin poeziyada əks-sədası A.Abdullazadənin yaradıcılığında da ictimai ovqatı şərtləndirən etirazçı ruhu ilə təmsil olunurdu. Zamanın qarşısında insan şəxsiyyəti onun şeirlərində sətiraltı mənalarda deyil, görümlü lirik obraz kimi təsvir və tərənnüm olunurdu. 1980-ci illərdə poeziyanın gur axınında A.Abdullazadə lirikasında "yaşamaq" mövcud olmağın sinonimi deyil, həyatı bütün gözəlliyi ilə, təzadları ilə qavramaq və dərk etmək, zamanın üzərində öz mənəvi hökmranlığını təsdiqləmək üsulu idi. Şairin özünəməxsusluğu ilə seçilən, sevilən şeirləri şərəfli insan adına yaşamağı, zəngin dünyası ilə insan adını doğrultmaq, kimliyini dərk etmək amalı daşıyırdı. Məhz bu cür yaşam uğrunda mübarizədə millətin özünüdərkinə, totalitarizmə, imperiya köləliyinə, mübarizə və mücadilələrdə xalqın ruhunu əks etdirən, coşduran poeziyada A.Abdullazadənin də payı vardır:

...bu Yurd sənin inamındır, dinindir,
...Yurdun yaman günündə
dünya boyda nəhəng bir dağ olmalısan ki,
onun mətin köksündə

[1] Arif Abdullazadə. Tövbə duaları. – Bakı: Çaşıoğlu, 2003, s.61
[2] Yaşar Qarayev. Poeziya və nəsr. – Bakı: Yazıçı, 1974, s.50

ən əziz bir duyğu kimi
ömürlük yaşaya biləsən.[1]

Hər daşı, çiçəyi, hər qarışı məhəbbət, sevgi dolu vətən obrazı A.Abdullazadənin yaradıcılığında o taylı-bu taylı Azərbaycan elini ifadə edir. Onun lirik qəhrəmanı "Adım, soyum" şeirində dediyi kimi poeziyanın lirik mənində belə səciyyələnir:

Qapısını bir Araz yox,
milyon Araz bağlasa da,
təbrizliyəm, mərəndliyəm,
bir amallı, bir sevincli, bir dərdliyəm.
həm o taylı, həm bu taylı,
həm o saylı, həm bu saylı,
paralanmış bir bədəndə
otuz milyonluq canam mən.[2]

Bu şeiri A.Abdullazadə 1989-cu ildə yazmışdı. Xalqın müstəqillik, azadlıq uğrunda mücadiləsi öz milli-mənəvi dəyərlərinə sahib çıxdığı, milli köklərə qayıtdığı tarixin qaynar dönəmində onun da səsi xalqın səsinə dəstək verməkdə idi. Zamanın, cəmiyyətin ovqatı onun da şeirlərində öz əksini tapırdı. Xalqına bağlı, onun tarixini öz şair ömründə anbaan yaşadan, duyğularından keçirib şeirləşdirən şairlərin ən həssası, bəlkə də ən kövrəyi idi A.Abdullazadə. Taleyinə tənhalıq yazılan şairin ən ülvi hissləri vətəninin, xalqının xoşbəxt, azad, bütöv gələcəyinə bağlı idi. 1990-cı ilin qanlı yanvarında xalqın başına gətirilən müsibətlər, Qarabağ uğrunda gedən döyüşlər, torpaqlarımızın düşmən əlinə keçməsi onun 1990-cı illər şeirlərinin ictimai ovqatını xarakterizə edirdi. Şairin son on ildə yazdıqları onun Allah və zamanla dialoqu, keçdiyi ömür yolunun, bu yolda çəkdiklərinin bir növ haqq-hesabından ibarət olan lirik parçalardır.

Allahım, bu necə işdir,
Atdığım zər heçə düşdü.
Göz yumunca gecə düşdü,
Daldalandı duman kimi.
Toza döndü dağ niyyətim,
Göydə qaldı son heyrətim.
Tanrılarımla söhbətim,
Boşa çıxdı, "aman" kimi.[3]

[1] Arif Abdullazadə. Tövbə duaları. – Bakı: Çaşıoğlu, 2003, s.34
[2] Yenə orada, s.36
[3] Yenə orada, s.233

"Zamanın boyu" adlı şeirində A.Abdullazadə Zaman, Dünya obrazını dövrün ictimai ovqatı fonunda səciyyələndirərək deyirdi:

Ulu Vətən nicatına hələ gün sayır.
Ulu dilim öz adına yollar arayır.
Millət deyir: öz imzamla mənə yer ayır,
Qoca dünya tək başına fırlanır hələ.
Torpağımız həmsərhəddir torpağımızla,
Torpağımız həm də səddir torpağımızla.
Torpağımız hələ dərddi torpağımıza,
Qoca dünya öz başına fırlanır hələ.[1]

A.Abdullazadənin fəlsəfi şeirləri içərisində dünya modelinin müxtəlif poetik anlamını, dərkini səciyyələndirən nümunələr çoxdur. "Dünyamızın adiliyi", "Bu dünyanın işləri", "Mənim bu dünyada nə işim vardı", "Mənim dünyam", "Dünya da qocalarmış", "Dünyaya ilk sözüm", "Bu dünya", "Görən dünya, seçən dünya", "Dünyanın ağ yalanı", "Dünyanın düz vaxtı", "Ulduz axdı dünyadan", "Vəznlər, dünya və sən" şeirləri hər mövzuda dünya ilə həsbi-halı, cəhli-bəhsi şairin yaradıcılığından keçən qırmızı xətt boyunca inkişaf edən insan və dünya konsepsiyasını aydın ifadə edir.

A.Abdullazadənin lirikasında dünyanın gərdişindən doğan fəlsəfi kədərin yükü şeirlərinin çoxunda hiss olunur. Şeirlərinin "belibüküк" olmağının səbəbini "üzrxahlıq"la ifadə etməyə çalışan şairin bu gəldi-gedər dünyanın dünəni, bu günü, sabahı haqda narahat düşüncələrini yaradıcılığı boyu izləmək mümkündür.

Vətənin ağrı-acısına dözümsüzlük kimi səslənsə də, şairin həyatdan umduğu ən böyük səadətinin, xoşbəxtliyinin aldığı zərbələrə – vətəninə dəyən zərbələrə dözə bilməməsi onsuz da problemli olan səhhətinə də təsirsiz qalmırdı. Torpaqlarımızın mahal-mahal zəbt olunması, igidlərimizin, günahsız yurddaşlarımızın şəhidliyi həssas şair qəlbinin daşıya biləcəyi yük deyildi. Yaradandan, taleyindən, dünyadan gileyləri də 1990-cı illərin ovqatı üstündə sızıldayırdı.

Ölüm məktubları yazıram artıq,
Birini özümə, birini sənə.
Tövbə duaları pıçıldayıram
Biri bu günümə, biri dünənə.
Sabaha yazmağa sözüm qalmayıb.
Əslində sabahın heç bir şeyində
gözüm qalmayıb.[2]

[1] Arif Abdullazadə. Tövbə duaları. – Bakı: Çaşıoğlu, 2003, s.46
[2] Yenə orada, s.189

“Daha bu dünyada xoşbəxt görünmək gəlmir əlimdən”, – deyən şairin durumunun qeyri-adi obrazlarla təsviri misra-misra poetik ovqat yaradırdı:

Ömür yollarında azan yolçuyam,
Qürubda dağları üst-üstə düzüb
ocaq qalayan
günəş kimiyəm.[1]

Şairin kövrək duyğularının incəldiyi məqamları ifadə edən poetik nümunələr öz taleyini yurdun taleyindən, yaralarından kənar düşünə bilməyən vətən oğlunun təbəddülatları idi. Həqiqətə, haqqa gedən yollardakı müəmmaları araşdırmaqdan yorulmuş, xalqının dərdləri ilə üz-üzə dayanmış, çıxılmaz vəziyyətlərin ağırlığında kədərin anatomiyası sözlərlə belə ifadə olunmuşdur:

Keçdiyim yolların çoxu yoxuşdu,
Ayağım altından neçə dağ uçdu,
Ömür deyildi bu, adi qaçışdı,
Bu yolu tutandan yarışıram mən.
Həyat bir sualdı, soruşub gedər,
Gerçəyi gümana qarışıb gedər,
Fürsəti yanından sovusub gedər
Zamanla təkbətək vuruşuram mən.[2]

Şairin ömür yolunda tale payına Zamanla mücadilədə düşənlər təkbətək vuruşlardan ibarət olduğundan “indi caynağımla gor eşirəm mən” deyir. “Altmışım gəlir” şeirində bu ömür kəsiyinin yük tutumunu araşdırır. “Altmış ağrıların oğlan çağıdır”, – deyir. Bu dünyanı dərk edib, dərdlərin ağırlığını ölçə bilən müdriklik dövründə “Ömrə başlamamış bitib gedirik, ömrü ömürlərə qatıb gedirik”, – deyə ömrünün sonlarına yaxın keçirdiyi anlara – zaman kəsiyinə dönüb onu mənalandırır:

Kimin ətəyində nəyi qalıbsa,
İçində zamanı yandırdığımız
Cəhənnəm oduna atıb gedirik.[3]

Bu misralardakı fikrin obrazı şairin subyektiv duyğularının zəminində yaranmış olsa da, onun ömür adlı həyat ölçüsü haqda fəlsəfəsinin özünəməxsus şərhini, heç kimə bənzəməyən yanaşmasını görürük. Müasirlərindən A.Abdullazadəni fərqləndirən kövrək deyim tərzində, həm də həyatın, var olmağın dəyərini duyub da ondan üzülüşməyin acı yanğısı, həyat sevgisi ilə

[1] Arif Abdullazadə. Tövbə duaları. – Bakı: Çaşıoğlu, 2003
[2] Yenə orada, s.196-197
[3] Yenə orada, s.255

vicdanın sərhədlərində duyğuların məhkum təbəddülatlarının belə ifadə tərzi idi. İstər şeirlərində, istərsə də nəsrində o, öz sözlərinin içində bütün duyğuları ilə mənəvi portretini – özünü göstərə bilirdi. Onun lirikasındakı kövrəklik "tənhalıq", "bədbinlik", zamanın ovqatını əks etdirən mənəvi dünyasına sirayət edən, onun şeirlərinin əhvalında ifadə olunan fərdi duyğularının əksi idi. Özü bu haqda yazırdı ki, bəziləri məni bədbinlikdə qınayırlar və bu sualı verənlər qəmlə bədbinlik arasındakı ruhi fərqi unudurlar.

A.Abdullazadənin şair ömrü böyük bir eşqin, vətən sevgisinin vəhdətində şeirləşib, ömür dəftərinin misraları bu məhəbbətin ruhunu əks etdirir. Onun bu dəftərinin gündəlikləri vətən adlı dastanın tarixi xronikasını çəkmişdir. Azərbaycanın 1980-1990-cı illər həyatını şair ömrünün anlarında və bunların da şeirlərdə əksini misra-misra görmək mümkündür. Qarabağ müharibəsindən gələn bəd xəbərlər onun şair ruhunu sarsıdır, xəyallarındakı istək-arzularının tərəddüdləri içərisində çırpınır, bəzən də kövrəlir.

A.Abdullazadə "Hələ ki...", "Atalar", "Sevgilər", "Yad nəfəslər", "Son kişilər", "Yurd" və s. şeirlərində Azərbaycan adlı böyük bir ağrının problemləri ilə bir şair ömrünü sona vurdu, ağrılı-acılı dərdləri ilə son misralarında – "Zamanın boyu"nu "Son yarpağa yazılanlar"ında "tövbə" edib ayrıldı:

Zaman taleyimi içimdən oydu,
Ömür tabutuma tərsinə qoydu,
Gəlişim matəmdi, gedişim toydu,
Tövbə, ömür adlı kəlməyə tövbə,
Bir də bu dünyaya gəlməyə tövbə.[1]

1970-1980-ci illər Azərbaycan nəsrinin xüsusən də roman və povestlərinin problematikası, bədii-estetik xüsusiyyətləri, axtarışları, nailiyyət və qüsurlarının Seyfulla Əsədullayevin ("Tarix, sənətkar və müasirlik". Bakı, "Gənclik", 1975), Elçin Əfəndiyevin ("Tənqid və ədəbiyyatımızın problemləri. Bakı, "Yazıçı", 1981), Akif Hüseynovun ("Sənət meyarı". Bakı, "Yazıçı", 1986) monoqrafiyalarında, Əziz Mirəhmədov, Yaşar Qarayev kimi görkəmli ədəbiyyatşünasların təhlillərində elmi dəyərləri verilmişdir. Xüsusən hər ilin sonunda yekun "hesabatı" ilə nəsrimizin durumunu xarakterizə edən Akif Hüseynovun yazılarında İ.Hüseynov, Anar, Ə.Əylisli, S.Əhmədov, Elçin, İ.Məlikzadə və başqalarının nəsrində milli həyatın sosial dərkindən tutmuş, sosial motivlərin qabardılması, insanın daxili aləminə nüfuz, psixologizmə meyil və s. araşdırılır, dəyərləndirilirdi. Bu dövrün Azərbaycan nəsrinin mükəmməl şərhini verən Tehran Əlişanoğlu yazır: "Azərbaycan yeni nəsri üçün gerçəklər nə ictimai-tarixi varlığını milli sosial çalarlarına qədər bütün (məna və perspektivi ilə) göründürən nəsnələrdir

[1] Arif Abdullazadə. Tövbə duaları. – Bakı: Çaşıoğlu, 2003, s.199

(tənqidi realizmdə olduğu kimi), nə də daim inqilabi "zor"a, sosial ideyalar təsirinə müncər "dəyişən" ictimai hadisələr sırası (sosializm realizmi); bu – daim insanın varlıq-yoxluq məqamını izləyən, aydınladan ekzistensial duyumlar sırasından, dünyəvi məqamın milli çalarlarından ibarət "həyat görüntüləri", yaşantıları, bəlirləridir. Onun XX əsr hadisəsi olması, XX əsr nəsrini təmsil etməsi də bu kontekstədir. Azərbaycan yeni nəsrinin ən böyük önəmi milli nəsri bilavasitə dünya kontekstinə kökləməsi oldu".[1]

1960-cılar nəslinin üslubi meyillərini həm bir şair kimi, həm də nasir kimi yaradıcılığında əks etdirən, orijinallığı ilə seçilən, həm bədii, həm də elmi əsərlərində dövrün ədəbi-fəlsəfi tendensiya və konsepsiyalarından çıxış edən alim, şair, yazıçı kimi tanınan Arif Abdullazadə irsi 1970-80-ci illər nəsrinin tədqiqi üçün maraqlı faktlar verir.

Arif Abdullazadənin ilk irihəcmli nəsr əsəri "Bir ovuc torpaq" adlanır. Əsərin başlanğıc və sonunda verilən müəllif qeydləri yalnız onun mövzu və ideyasını, qələmə alındığı coğrafi məkanları nişan verməklə məhdudlaşıb qalmır, həmçinin əsərdə cərəyan edən hadisələrin, min bir əzab-əziyyətlə yaşanılan həyatın bərkindən-boşundan çıxmağı ömrü boyu axtarıb arayan, qismətinə həsrət və nisgil dolu tale düşən insanların obrazları, şəxsi mənəvi dünyasına məxsus fərdi cizgiləri də dolğun şəkildə əks olunmaqdadır.

Müəllif romanı "Sevimli şairim Nazim Hikmətin xatirəsinə" – deyə başlayır. Yazıçının Nazim Hikmətə böyük ehtiramı ilə yanaşı, onun Vətən nisgilli ömrünün müəyyən epizodları əsərin ruhuna təsir edən, ideya-məzmununu əlvanlaşdıran amillərdən biri olduğu şübhəsizdir. Eyni zamanda bir sıra səciyyəvi məqamlarda romanda avtobioqrafik elementlərdən istifadə olunduğunu da istisna etmir. Belə ki, Arif Abdullazadə 1970-1972-ci illərdə Türkiyə Cümhuriyyətində sovet mütəxəssisləri ilə birlikdə inşa olunan sənaye müəssisələrində tərcüməçi kimi çalışmış, o zaman müşahidə etdiyi hadisə və faktlar sonralar qələmə aldığı bu romandakı epizodların canlı və real təsvirinə zəmin yaratmışdır.

"Bir ovuc torpaq" romanının əsasını təşkil edən hadisələr Rusiya–Türkiyə–Azərbaycan miqyasında cərəyan etsə də, əsərin mövzu və qayəsi milli hiss və duyğuları vətən, doğma yurd-yuva həsrətini ömrü boyu şəxsi taleyində yaşadan insanların aqibəti haqqında əyani təsəvvür yaradır.

Türk şeirinin ülvi simalarından olan Nazim Hikmətin xatirəsinə ithaf olunan bu əsər mühacir həyatı yaşamış şairlə ömür və tale oxşarlığı olan insanların ümumiləşmiş obrazı həmçinin fərdi cizgiləri ilə özünəməxsus keyfiyyətlərə malikdir. Bursa həbsxanasında siyasi məhbus kimi saxlanılan Nazim Hikmətlə bağlı səhnələr romanda bir qədər yığcam və konkret təsvir edilsə də, hər halda şairin mübariz xarakterini, apardığı mücadilənin mahiyyətini dolğun boyalarla təsvir edir.

[1] Tehran Əlişanoğlu. Azərbaycan "yeni nəsri". – Bakı: Elm, 1999, s.68

Əsərdə başlığa çıxarılan ad – "Bir ovuc torpaq" ifadəsi Nazim Hikmətin həm də mühacir taleyi ilə yaxından səsləşən anlayış kimi diqqəti çəkir. Romanda müəyyən parçalar bu barədə yetərincə təsəvvür yaradır: "...bir neçə il bundan əvvəl Türkiyəyə gələn məşhur rus şairi Lev Oşanin İstanbuldan bir ovuc torpaq gətirib, Moskvada "Novodeviçi" qəbiristanlığında Nazimin qəbrinə səpib. Və Azərbaycan şairi Məmməd Araz bu barədə təsirli bir şeir də yazıb".[1]

Bir ovuc torpaq ifadəsi əsərin ayrı-ayrı hissələrində müxtəlif münasibətlərlə işlənilir: Topqapı muzeyində peyğəmbərin qəbrindən gətirilən bir ovuc torpağın eksponat kimi saxlanılması, taleyinə qürbətdə yaşamaq kimi ağır bir yük düşən Leyla xanımın Gəncədən gətirdiyi bir balon Göygöl suyu, bir kisə qənd və bir kisə torpaq! Əsərdə Leyla xanımın vətəndən gətirdiyi bu üç nemət rəmzi-simvolik mahiyyət daşıyır. Öz övladlarını evləndirən valideynlər qənddən toy şirnisi hazırlayır. Torpaq isə nəsibinə öz doğma yurd-yuvalarından ayrılıq düşənlərin gözünə və məzarına son anda səpilən, ümumilikdə vətən, torpaq həsrətinə təsəlli və təskinlik ola biləcək bir məna daşıyır. Şübhəsiz ki, Leyla xanımın nə vaxtsa gətirdiyi qənd də, su da, torpaq da, vətəndən uzaqlarda yaşanan ömür də tükənə bilər. Əsərdə belə həyəcanlı və psixoloji anların təsvir olunduğu məqamlara tez-tez yer verilməsi əsərin ideya və məzmunu ilə sıx bağlıdır. Romandakı hadisə və süjet xəttinin real və xəyali olaraq yaxın və uzaq keçmişin gerçək mənzərəsinə yönəldilməsi də diqqəti çəkən fərdi sənətkar mövqeyindən və yazıçı manerasının özünəməxsusluğundan xəbər verir.

Arif Abdullazadənin birbaşa roman kimi son dərəcə mürəkkəb bədii struktura malik bir janra müraciətini yönləndirən amillər onun həm istedadlı ədəbiyyatşünas-alim, həm də zəngin həyat təcrübəsi ilə bağlı olduğunu ehtiva edir. Həyatın ziddiyyətlərlə dolu olan sınaqları, ətrafında cərəyan edən talelərin qəribəlikləri və müxtəlifliyi içində müşahidə və fəlsəfi yorum eləmək səriştəsi və duya-duya yaşadıqlarını romanlaşdırma bacarığı, həm də müəllif mənini mərkəzdə saxlaya bilmişdir. Əsərdə bütün olub-keçənlərin onun əhatəsindən, onun dünyasından keçdiyi aydın bəlli olur. Belə bir məziyyət analoji olaraq digər bir müddəanı dəqiqləşdirməyə sövq edir: prototip müəllifdirmi? Əlbəttə, bunu birmənalı şəkildə təsdiqləmək çətindir. Ancaq avtoportretin müəyyən cizgiləri əsərin bir çox hissələrində öz əlamət və təzahürlərini aşkar şəkildə nümayiş etdirir, daha doğrusu, müəllif tərcümeyi-halından ayrı-ayrı fraqmentlər ümumi bədii struktura səpələnmiş və hopdurulmuş halda verilir, bu əsərin daha aydın və həssaslıqla qavranılmasına stimul yaradan detallar kimi xüsusi əhəmiyyət kəsb edir.

Müəllifin uşaqlıq, yeniyetməlik və tələbəlik illərinin, o cümlədən tərcüməçi kimi çalışdığı Türkiyədəki fəaliyyətinin bir çox təfərrüatları belə müqayisələr aparmağa kifayət qədər əsas verir. Əsərdə epik təhkiyənin bəzən

[1] Arif Abdullazadə. Bir ovuc torpaq. – Bakı: Gənclik, 1982, s.229

real gerçəkliyin tələblərindən irəli gələn publisistik təsvirlərlə əvəzlənməsi özünü nəzərə çarpdıracaq dərəcədə büruzə verir. Çox halda belə təsvir üsulunun keçmişlə – baş vermiş hadisələrlə günün reallıqlarının bədii mətnə transformasiyası da romanda mürəkkəb xarakterli hadisə və situasiyaların vahid məcraya, axına gətirilməsi üçün zəmin hazırlayır.

Əsirlik həyatı yaşamış bir şəxsin aldığı yaralar təkcə fiziki-cismani ağrılarla bitmir, mənəvi-psixoloji yaşantı və sarsıntılar da onu addımbaaddım izləyir, cəmiyyətin münasibəti, ictimai qınaq vəziyyəti daha dözülməz həddə çatdırır. Müharibənin faciəsi ölüm-itimlərlə, yetimlərin yarımçıq həyatları ilə məhdudlaşmır, həm də İsmət bəy kimi yaşayanların həyatında davam edir.

Əsərin süjet xətti ətrafında toplanan bu ömür kəsimləri həm İsmət bəyin gündəliyindəki nisgilli dilində, həm də müəllifin təhkiyəsində soyuq ifadə təsiri bağışlasa da, insan ruhunu göynədə biləcək bir həsrət faciəsini oxudur.

"Bir ovuc torpaq" II Dünya müharibəsindən sonrakı ictimai durum və zaman içərisində vətəndən uzaq düşən həmvətənlərimizin həsrət psixologiyasını real və həssaslıqla əks etdirən çox dəyərli romanlardan biridir.

Arif Abdullazadənin 1982-ci ildə yazdığı "Duyum" romanı yalnız o illərin ədəbi kontekstində deyil, həm də o dövrün sosial mühitinin rəngləri, şəxsiyyət-insan amili ilə onun qarşısındakı problemlər fonunda zamanın insan və cəmiyyət konsepsiyasını qismən də olsa müəyyənləşdirməyə imkan və faktlar verir. Dövrün, zamanın gerçəkləri insan həyatının qayğıları, düşüncə və duyğuları işığında sınağa çəkilib cəmiyyətin mənzərəsinin aydınlaşdırıldığı bədii əsərlər sırasında bu romanın da xüsusi yeri, əhəmiyyəti vardır. 1980-ci illər bədii fikrinin zamanla, həyatla ayaqlaşdığını göstərən, dövrün sosial-əxlaqi səciyyəsini, mühitin adi insanı narahat edən problemlərini real təcəssüm etdirən "Duyum" romanı bədii həqiqətin gerçəkliyini təsdiqləyir.

"Həyatımız və nəsrimiz" (1982) məqaləsində Akif Hüseynov yazırdı: "Qəhrəmanların ömür yolunu cəmiyyət həyatının konfliktləri fonunda əks etdirməyə meyil güclənmişdir və bu, hazırda nəsrimizin ən perspektivli xüsusiyyətlərindəndir. İndi yazıçılarımız şəxsiyyətlə mühit arasındakı əlaqələrə daha həssas yanaşır, bu əlaqələri müxtəlifliyi ilə qələmə almağa çalışırlar. Ən yaxşısı əsərlərimizdə nəinki insanın cəmiyyət qarşısındakı borcundan və məsuliyyət duyğusundan, həm də cəmiyyətin ona qayğısının zəruriliyindən söhbət açılır".[1]

Bu baxımdan Arif Abdullazadənin "Duyum" romanında ənənəvi sovet romanlarındakı ictimai motivlər, qəhrəmanların ictimai planda qabardılması, ideallaşdırılması deyil, qəhrəmanın şəxsi hissləri, duyğu və düşüncələri, şəxsi həyatının təfərrüatları əsas yer tutur.

[1] Akif Hüseynov. Sənət meyarı. – Bakı: Yazıçı, 1986, s.257

Əsərin çox maraqlı kompozisiyası çərçivəsində baş qəhrəmanın həyatının qırx iki ilinin cəmi dörd gün ərzində xatirələrdə və gerçəklikdə çözələnməsi, hadisələrin yığcam bir dairədə yerləşib lakonikləşməsini göstərir. Bu kompozisiya surətlərin fəaliyyət mühiti, ev, iş, dostların əhatəsi, qəhrəmanın düşüncələri və s. məqamların çox məqsədli quraşdırılıb düzülmüş bir struktur halını ifadə edir. Oxucunun ilk rastlaşdığı səssiz duyğular (məzar sükutu) başlayan və söylənib qurtaran həyat tarixçəsinin dairəvi çərçivəsində birləşdiyi bir məqamdır. Əsər bu məqamla başlayır, eyni zamanda həmin məzar sükutu ilə sonlanan dördüncü yuxu ilə bitir. Hərçənd dördüncü günün səhəri həyat davam edir. Müəllif qəhrəmanına ad qoymayıb və əsərin sonuna qədər də ona adı ilə müraciət olunan məqama ehtiyac hiss etməyib, bu baxımdan "O"nun həyatının anlarını sanki, özü imiş kimi dəqiq, hər addımını qabaqcadan duyurmuş kimi inandırıcı təsvir edir. Qəhrəmanın dünyagörüşünü, ətrafa, həyata münasibətini tam açmaq üçün istifadə etdiyi "səs" priyomundan çox, sanki müəllif özü də bu obrazın tam portretini çəkmək üçün bütün situasiyalarda bütün rənglərdən istifadə edir.

Əsərin epiloqa bənzər girişi ilə sonrakı məzmuna maraq oyadan yazıçı "onun ölümə" qədərki yaşamında özünün də "boz" adlandırdığı həyatının boz günlərinin dəyərini anlamağa doğru gedən dövründə bu məzmunu yerləşdirib, bütün bir insan ömrünün mənasını, necə olursa-olsun var olmağın şirinliyini ifadə edə bilmişdir.

Qəhrəman alimdir, ziyalıdır, cəmiyyətdə müəyyən mövqeyi var, elmi idarədə işləyir. Doktorluq dissertasiyası yazır, müdafiə etmək istəyir. Səhərlər işə gedir, axşam evinə dönür, dostları ilə zəngləşir, görüşür. Bir sözlə, yeknəsəq bir həyat tərzi keçirir. Onu başqalarından fərqləndirən bir neçə xüsusiyyəti var ki, onlardan biri "duyum" qabiliyyətinin güclü olmasıdır.

Müəllif qəhrəmanın bütün ömrü boyu fərqinə varmadığı duyğuların, hətta "boz" adlandırdığı günlərin, doğmalarının, dostlarının, sevgisini layiqincə dəyərləndirə bilmədiyi bir qadının, sevgiyə möhtac həssas ürəyinin – Allahın ona bəxş etdiyi çox böyük bir lütfün dəyərini anlatmağa buradan başlayır.

Əsas məlumat mənbəyi müəllifin təhkiyəsində olsa da bütün informasiyalar yalnız qəhrəmana məlum olanları əhatə edir, müəllif onun daxil olmadığı hadisələri və ya onun rəyindən, fikrindən, düşündüklərindən – onun dünyasından kənarda heç bir şeyə müdaxilə etmir. Bütün həyat, xəyallar, var olanlar, yuxusunun da daxil olduğu kənar dünyalar belə, ancaq qəhrəmanın duyğularından keçirilib oxucuya söylənilir. Digər obrazların da həyatından məqamlar yalnız qəhrəmanın iştirakı ilə olan hadisələrdən ibarətdir. Yəni ona məlum olanlar qədərdir.

İlk görüşdən onun daxili təbəddülatlarını təqdim edərkən belə, yazıçı təsviri onun içindən keçərək sözlə elə ifadə edilir ki, bunun obrazın daxili monoloqu və ya müəllif təqdimatı olduğunu çətin ayırd etmək olur.

Birinci yuxudan başlayan maraqlı tanışlıq "O"nu özünü dərk etməyə, həyatın mənasını anlamağa, dəyərləndirməyə yönəldir. Cansıxıcı, mənasız, boz ömrünün mənalı anlarının, məqamlarının kəsiklərini bir-birinə calayıb, varlığının əhəmiyyət vermədiyi dönəmlərini xəyalında sərgiləyir.

Başqa planetdən olan varlıq səsdən ibarətdir. O yerə uzun yoldan (səs sürəti ilə 50 zamanlıq) "gəlir" və nədənsə bu qəhrəmanla ünsiyyətə girir. Öz ulduzundan Yeri öyrənmək üçün göndərilib.

Üçüncü yuxu onun təklik probleminin əsas mövzusu kimi həyata soyuq "bozalaq" münasibətini də aydınlaşdırır. Onun qısa sürən evliliyinin həyatında buraxdığı neqativ izin fəsadlarını açır.

Qəhrəman həyatını, cəmiyyətin tələblərini, öz imkanlarının hər bir halda durumunu, səciyyəsini analiz edəcək qədər təfəkkürə malikdir. Bununla belə, onu sıxan, bu şəhərdə, bu illərdə, bu adamlar arasında sevincdən çox əzablı, məşəqqətli bir ömür "saydığı səadət payı"ndan imtina etdiyini anlayır. Özünün də dediyi kimi, əhatəsindəkilər, mühiti və istəkləri, barışa bilmədiyi, qəbul edə bilmədiyi münasibətlər qarmaqarışığında özünü bir yerə qoya bilmir, həyatını mənalandırmaqda, yaşamının dəyərini dərk etməkdə çətinlik çəkir.

Səs ona bütün bunlara son qoymağın yolunu təklif edir. Dördüncü və sonuncu yuxuda onun müvəqqəti ölümü ilə səs onun həyat fəlsəfəsində dönüş yaradır. O, qorxu və tərəddüd içində ölümlə üzləşdiyi anları xatırlayır.

Yuxunun dördüncüsündə qəhrəmanın "dördüncü ömrünün" başlanğıcı üçün istifadə olunan "ölüm" onun doğmalarının və tanıdıqlarının isti və soyuq münasibətləri ilə birgə həyatının ritmini zənginləşdirən əlvanlığın dəyərini ona anladır.

Arif Abdullazadə "Duyum" romanında Azərbaycan roman janrına yeni vasitə ilə – yadplanetli Səs ilə bir ilk gətirdi.

Cəmiyyətdə "tənhalaşan" qəhrəmanın həyat fəlsəfəsini açmaq üçün yazıçının "yuxu" və "ölüm" komponentlərindən istifadəsi də 1980-ci illər nəsrinin uğuru sayıla bilər.

XX əsrin 80-ci illərində bədii nəsrin inkişaf meyilləri ilə bağlı qoyulan problemləri araşdıran tənqidçi Akif Hüseynov "bədii sözü xalqın, zamanın səsi, həqiqət səsi kimi" səciyyələndirirdi. "60-cılar" ədəbi nəslinin illərdən bəri istər poeziyada, istərsə də nəsrdə ədəbiyyata gətirdikləri yeni mövzulardan biri olan "tənhalıq" probleminin çeşidli təzahürlərini də aydınlaşdırırdı: "Həmin əsərlərdə problemlər də, konfliktlər də ilk növbədə obrazların daxili-ruhi aləmində baş qaldırır, bu aləmdə də şərh olunur. Əlbəttə, bu o demək deyil ki, həmin əsərlərdə bədii inikas şəxsiyyətin mənəvi dünyası ilə məhdudlaşır, obrazları ancaq özləri maraqlandırır, yaxud bir vaxt yayılmış ifadə ilə desək, onlar öz içərilərində eşələnirlər. Həmin əsərlərdə şəxsiyyətin öz daxilində duyduğu sarsıntılar, onun yaşadığı gərgin əhvali-ruhiyyələr onun özünü, öz əzablarını, sevinclərini dərk etmək cəhətləri bədii təhlilin

mərkəzinə çəkilir və buradan, qəhrəmanın içərisindən onun həyatı da, ətraf aləmi də, dövrün səciyyəsi də az, ya çox dərəcədə işıqlanır".[1]

Arif Abdullazadənin istər "Duyum", istərsə də "İşıq zolağı" romanlarında qəhrəmanların mühitlə aralarındakı "təcridlik sərhədini" qaldırmaq cəhdləri əsər boyu izlənilir. Mühiti ilə doğmalaşa bilməyəndə içərisindəki boşluğu, hisslərinin daxili çəkişmələrini tənhalıqda çözməyə meyillənirlər. Mühitin gəncləri arasında adi qəbul olunan bu "tənha"ların hər birinin öz mənəvi əsasları, öz məntiqləri vardır. "İşıq zolağı"nın qəhrəmanı isə tələbə yoldaşları tərəfindən Robinzon adlandırılmış və sonralar hamı onu bu adla da çağırmışdır. Robinzon öz-özü ilə danışmağa, fikirlərini sərbəst ifadə etməyə, deyəcəyini deməyə kiçik də olsa bir məkana malikdir. Lakin buradan kənarda baş verənlər, həqiqətlər-döngələr, "məcburi dayanacaqlar" onu sıxanda axşamlar öz "kabinetinə" çəkildiyi vaxt və ya gecələr yuxusu qaçanda (ya da elə bu fikirlər yuxusunu qaçıranda) alovlu və çılğın daxili monoloqlara başlayır, müdiri ilə mübahisə edir, onu sabahkı (və ya dünənki) iclasda ifşa edir, hamı əl çalır, müdirinin müdiri isə ayağa qalxıb əlini sıxır və s. Səhəri günlər isə hər şey adi, "bozalaq" günlərdən biri olur. Pərdəsi çoxdan salınmış, səhnəsi qaralmış, salonu boşalmış teatr kimi. Bu gəncliyin formalaşmasında dövrün qaçılmaz həqiqətləri əsas rol oynayır. Robinzon tək deyildi, istər "Duyum", istərsə də "İşıq zolağı"nın qəhrəmanları II dünya müharibəsi zamanı – 40-cı illərdə doğulmuşdular. Əksərinin atası müharibədə həlak olmuş, anaları tərəfindən tək böyüdülmüş idilər.

Robinzonun atası müharibədə deyil, bir qədər sonralar ölmüşdü, onun beş yaşı olanda, odur ki, atalarını görməyən, "ala-yarımçıq" sevgi əhatəsi olan, uşaqlığının qayğılı, natamam dünyasından xarakterinə qüsurlar çökdürmüş müasirlərindən fərqli aləmi vardı Robinzonun. Hətta atasını sonradan tapan Toğrul kimi əsəbi, şübhəli, bir qədər aqressiv, əldə etmək istədiklərinə çatmaq üçün hətta gərəksiz yolları seçə bilən "yarımçıq" uşaqlığı olanlardan fərqlənirdi Robinzon.

Toğrulların analarında müharibələrin törətdiyi faciələrin fərdin dünyasında yaratdığı izlər, onların sevgi dünyasında yaratdığı fəsadlar və bu darmadağın ürəklərin ötürdüyü məhəbbət, övladlarında natamam, "çəkingən" "qorxaq" bir sevginin əlamətlərini yaradır və xarakterlərində özlərinin də duya bilmədikləri boşluqlar, təbəddülatlar onları düşünməyə, kənara çəkilməyə, kənardan baxıb anlamağa, saatlarla-günlərlə fikirləşməyə meyilləndirir. Toğrulların əsəbi, bir qədər aqressiv olmasında onun böyüdüyü əhatəsi – anası və ondan aldığı, ruhunu formalaşdıran sevginin natamamlığıdır.

Arif Abdullazadənin 1990-1991-ci illərdə yazdığı "Qanlı yaddaş" adlı romanı vəfatından səkkiz il sonra – 2010-cu ildə çap olunmuşdur. XX yüzilliyin

[1] Akif Hüseynov. Sənət meyarı. – Bakı: Yazıçı, 1986, s.281

ikinci yarısında Azərbaycanda cərəyan edən hadisələr, cəmiyyətdəki problemlər, obrazların həyat fəlsəfəsini formalaşdıran və müxtəlif xarakterlərin bir araya gəlməsini təmin edən hadisələr, maraqların bənzərliyi bir amal uğrunda həmrəy olan gəncliyin yaşantıları və s. romanın əsasını təşkil edir. Müəllifin digər əsərlərindən məlum təhkiyəsi həm öz dilindən, həm də qəhrəmanın dilindən verilir. Süjet ətrafında topladığı xatirələri qəhrəmanın dilindən söyləyən müəllif 1960-cı illər gəncliyinin 60 ildə keçdiyi həyat yolunun – milli oyanışdan, kökə qayıdışdan, imperializmə qarşı milli azadlıq hərəkatından, didərginlik, ən nəhayət 1990-cı ilin qanlı 20 Yanvar faciəsindən keçib gedən bir tarixi yolun salnaməsini qələmə almışdır. İnsanlığın – dünyanın taleyi üçün narahat, nigaran yazıçının "Sınaq kürəsi" adlı fantastik romanında hadisələr başqa kürələrdə baş versə də, onun səs adlandırdığı qəhrəmanları – yer adamları, sınağın baş tutmadığı Sınaq kürəsi – Yer olduğu o qədər real təsəvvür yaradır ki, yazıçı bunu özü də "etiraf" edir: "Yenicə partlayıb son zərrələri kainatın boşluqlarına səpələnən Sınaq kürəsi özünün şüurlu-şüursuz canlıları, məskənləri, topluları, kəşfləri, ixtiraları, tapıntıları, tarixi və bu tarixin yollarına səpələnmiş ömür taleləri, insan, heyvan, təbiət adları, uğurları, uğursuzluqları, sevgiləri, həsrətləri, sevincləri, qüssələri... ilə necə də bizim ana yer kürəmizə bənzəyirdi..."[1]

Arif Abdullazadənin əsərləri Azərbaycanın təxminən iyirminci yüzillikdəki bir əsrə bərabər dövrün insan-zaman-mühitin real təsvirini verən nəsr nümunələridir. Onun yaradıcılığı 1970-1980-ci illərdə Azərbaycan nəsrində insan və cəmiyyət konsepsiyasını araşdırmağa, dövrün sosial-psixoloji mahiyyətindəki tənhalığa meyil problemini müəyyənləşdirməyə imkan verən əsərlərdir. Yaşadıqları mühitin obrazların mənəviyyatına nüfuz edən faktor kimi səciyyələndirilmə üsulları insan və cəmiyyət haqqında aydın təsəvvür yaranmasını təmin edir. Arif Abdullazadənin ədəbi irsi bütün məziyyətləri ilə Azərbaycan ədəbiyyatı tarixində xüsusi bir mövqeyə malikdir.

[1] Arif Abdullazadə. Sınaq kürrəsi. – Bakı: Optimist MMC, 2024, s.335

AĞA LAÇINLI
(1940-2007)

Ağa Laçınlı milli poeziyamızda öz dəst-xəti olan, müxtəlif janrlarda çoxsaylı əsərlər yazıb-yaratmış, Azərbaycan ədəbiyyatının tanınmış simalarından, istedadlı nümayəndələrindən biridir. Uzun illər Bakı Dövlət Universitetinin Filologiya fakültəsində səmərəli fəaliyyət göstərmiş Ağa Laçınlı böyük bir filoloqlar nəslinin yetişməsində xüsusi xidmətləri olan pedaqoqlarımızdandır.

Həyatı. Ağa Əliqəmə oğlu Əliyev 5 may 1940-cı ildə Laçın rayonunun Oğuldərə kəndində anadan olmuşdur. Oğuldərə kəndində ibtidai, Qorçu kəndində yeddiillik məktəbi bitirmiş, 1954-1959-cu illərdə Ağdam Kənd Təsərrüfatı Texnikumunda təhsil almışdır. Təhsilini başa vurduqdan sonra bir müddət Laçın rayonunun Şəlvə kəndində aqronom işləmiş, 1960-1963-cü illərdə ordu sıralarında xidmət etmişdir.

1963-1969-cu illərdə o zamanlar keçmiş SSRİ məkanında ədəbiyyat üzrə yaradıcı insanların formalaşmasında nüfuzlu təhsil ocağı kimi məşhur olan Maksim Qorki adına Moskva Dünya Ədəbiyyatı İnstitutunun poeziya şöbəsində qiyabi təhsil almışdır. Təhsil aldığı illərdə (1963-1966) Bakıdakı 4 nömrəli Xəzər Dəniz Tikinti Sahəsində və Makaron Fabrikində fəhlə işləmişdir. Sonralar A.Laçınlı "Ədəbiyyat və incəsənət" qəzeti redaksiyasında katib, ədəbi işçi (1966-1969) vəzifələrində çalışmış, Yazıçılar Birliyinin üzvülüyünə (1969) qəbul edilmiş, qurumun Natəvan klubunun müdiri (1969-1971) vəzifəsində çalışmışdır. O, BDU-nun Filologiya fakültəsində baş müəllim, dosent vəzifəsində (1970-1987) işləmiş, "Azərbaycan bayatılarının bədii xüsusiyyətləri" adlı namizədlik dissertasiyası (1980) müdafiə edərək filologiya elmləri namizədi elmi dərəcəsinə layiq görülmüşdür. "Homer dastanlarında türkçülük" adlı elmlər doktoru dissertasiyasını yazıb bitirmiş, təəssüf ki, müdafiə olunması üçün ömür vəfa etməmişdir.

Ağa Laçınlı Türkiyə, Rusiya, Latviya, Litva, Estoniya, Gürcüstan və başqa ölkələrdə Azərbaycan mədəniyyətinə, ədəbiyyatına, elminə dair məruzələr etmişdir. Onun əsərləri dünyanın bir çox ölkələrində (Türkiyə, Rusiya, Fransa, ABŞ, Çin, Hindistan, Polşa, Ukrayna, Belarus, Gürcüstan, Bolqarıstan, İraq və s.) nəşr olunmuşdur.

Antik yunan ədəbiyyatı üzrə mütəxəssis olan Ağa Laçınlı tərcüməçilik sahəsində də geniş fəaliyyət göstərmiş, qədim şumer, antik yunan, qədim Roma, Çin, hind, eləcə də polyak, rus, Vyetnam, slovak, yapon, Koreya, Argentina və başqa xalqların klassik poeziyasından seçmə şeirləri dilimizə çevirmişdir.

Şair, alim, tərcüməçi, pedaqoq Ağa Laçınlı 2007-ci il noyabrın 25-də Bakı şəhərində vəfat etmişdir.

Yaradıcılığı. Ağa Laçınlı bədii yaradıcılığa 1958-ci ildə Ağdam rayonu "Lenin yolu" qəzetində çap olunan "Çoban" şeiri ilə qədəm qoymuşdur. Şairin 1966-cı ildə "Ümid" adlı ilk şeirlər kitabı işıq üzü görmüş, topluda şairin doğma vətənin, daha çox qoynunda ərsəyə yetdiyi Laçın dağlarının təbiəti, əsrarəngiz gözəllikləri, sabahkı günə böyük ümidlərini əks etdirən lirik şeirləri öz bədii əksini tapmışdır:

Durmuşam buludlar qaynaşan yerdə,
Döyür alaçalpo üzümə mənim.
Qışda baldırıma qar çıxan yerdə
Yazda gül çıxacaq dizimə mənim.[1]

Ağa Laçınlı 1970-ci ildən əmək fəaliyyətini elmi-pedaqoji sahədə davam etdirmişdir. Bakı Dövlət Universitetinin "Dünya ədəbiyyatı" kafedrasında çalışan Ağa Laçınlının Sarı Aşıq kimi böyük bayatı ustadını yetirən bir mühitdə böyüyüb-başa çatması onun məhz xalq şeirinə və folklora dərin sevgiylə yetişməsində mühüm amil olmuşdur. Ağa Laçınlı şifahi xalq ədəbiyyatının ən qədim və poetik cəhətdən bitkin formalarından biri olan bayatıların yaranması və formalaşması prosesini, onların bədii-estetik xüsusiyyətlərini elmi-nəzəri müstəvidə tədqiqata cəlb etmiş, bayatıların Azərbaycan şeirinin sonrakı inkişafına göstərdiyi böyük təsiri elmi dəlillərlə dövriyyəyə gətirmişdir.

Ədəbiyyatşünaslıq və pedaqoji sahədə ciddi fəaliyyət göstərməsinə baxmayaraq, Azərbaycan elmi-ədəbi cameəsi Ağa Laçınlını daha çox şair kimi tanımışdır. Çünki poeziya onun həyat və ədəbi fəaliyyətinin əsas sahəsini, ömrünün mənasını təşkil etmişdir.

A.Laçınlının 1970-ci ildə "Sakitlik" adlı növbəti şeirlər kitabı işıq üzü görmüşdür. Bu kitabda da şairin əsasən heca vəznində, xalq şeiri ruhunda yazdığı əsərləri toplanmışdır. Daha çox uşaqlıq illərinin ağrılı xatirələri, müharibənin insanlara yaşatdığı məhrumiyyətlər bu şeirlərin əsas ana xəttini və məzmununu təşkil etmişdir:

Sakitlik qoynunda açılıb səhər,
Sükut cilalayır duyğunu, hissi.
Sakitcə süzülüb ilıq şəfəqlər
Öpüşlə oyadır qönçə nərgizi.[2]

İkinci Dünya savaşının atəşi Ağa Laçınlının da həyatını qarsalamış, onun da atasını cəbhəyə aparmışdılar. Körpə bir uşağın ata qayğısı görmək əvəzinə, yaşadığı ata niskili, cəbhədən gələn qorxulu ölüm xəbərləri, içində olduğu həyatın məhrumiyyətləri şairin yaddaşında silinməz izlər buraxmışdır.

[1] Ağa Laçınlı. Ümid. – Bakı: Azərnəşr, 1966, s.7
[2] Ağa Laçınlı. Sakitlik. – Bakı: Azərnəşr, 1970, s.3

O, bu acı reallıqları poeziyanın dolğun, həyatın real ştrixləri ilə təsvir etmişdir:

Qırxda mən doğuldum, qırx birdə dava,
Başına gəlməyən axı, nə bilsin.
Dağıldı qoynuna qonduğum yuva,
Az qaldı dünyam da qaçıb əkilsin.[1]

Şairin ilk müəllimi həyatın özü olmuşdur. Müharibənin milyonlarla insana yaşatdığı məhrumiyyətlər, bu insanlar arasında daha çox qayğıya ehtiyacı olan uşaqların hələ bərkiməmiş çiyinlərində ağır yükə çevrilməsi onun yaddaşındakı ən acı səhnələrdən idi. Həyat nə qədər ağır olsa da, şair bu sınaqlardan üzüağ çıxmış, sabahkı günə olan ümidlərini itirməmişdir:

Görüşlü inama ilişib qaldım,
Yaxşı yuxularda yetişdim kama.
Məktəbə getməmiş savad da aldım
Məktub yaza-yaza əsgər atama.[2]

1971-ci ildə "Gənclik" nəşriyyatı tərəfindən şairin "Sirli, soraqlı dağlar" adlı növbəti kitabı çap olunmuşdur. Burada da daha çox şairin şəxsi ovqatı, həyata baxışındakı fəlsəfi-estetik düşüncələri, ədəbiyyatın məsuliyyətli yollarında bərkə-boşa düşdükcə yetkinləşməsi bədii sözün dili ilə öz əksini tapmışdır. Təbii ki, o illərdə dövlətin ədəbiyyatla bağlı "sosialist realizmi" metodunun məcburi konyuktur tələbləri qələm adamlarına müəyyən qədər maneələr yaradır, onların ilhamını əsl yolundan sapdırırdı. Lakin bu təsirlər Ağa Laçınlının yaradıcılığında o qədər də hiss edilmir. Əvəzində, həyatın istisini-soyuğunu, yaxşısını-yamanını görmüş və bu müstəvidə yetkinləşmiş bir şairin həyata baxışının lirik-emosional dillə ifadəsini müşahidə edirik.

"... O vaxtdan yeddi il keçir. Artıq, Ağa Laçınlı "Ümid" və "Sakitlik" adlı iki kitab çap elətmişdir. Bu yeddi il ərzində mən onu həmişə izləmişəm. O, şeirdən şeirə artır. Cəsarətlə deyərdim ki, təzələşir. Onun misraları canlıdır, doludur; buna görə də həmin misralar bizi düşündürə bilir. "Hazırlıq" şeirinə diqqət yetirək. Bu, fəlsəfi şeirdir... Hamı öləcəyini bilsə də, ölümün heçlik olduğunu duysa da, heç kəs öz ölümü haqqında düşünmək istəmir. Lakin xoşbəxt o adamdır ki, ölümə həmişə hazır ola bilsin. Şair ölümə hazırlığı nədə görür?.. Vətən və xalq qarşısında borc ödəməkdə... İnsan avtomat deyil. O, həmişə eyni mahnını oxuya bilmir. O səhv də eləyə bilər. Lakin ağıllı

[1] Ağa Laçınlı. Alın yazımız. – Bakı: Yazıçı, 1992, s.10
[2] Yenə orada, s.10

adam o adamdır ki, həyat yollarında buraxdığı səhvləri qəbrə aparmasın, elə həyatın yollarındaca düzəldə bilsin".[1]

Ağa Laçınlının yaradıcılığında ana adı ən çox müraciət etdiyi mövzulardandır. Uşaq yaşlarından ana himayəsində böyüməsi, övladlarını böyütmək yolunda anasının kiprikləri ilə od götürməsi şairin qəlbində anasının əzəmətli heykəlini ucaltmışdır. Müharibənin girovuna çevrilmiş milyonlarla anaların çəkdikləri iztirablar, bütün yaşadıqları çətinliklərə rəğmən anaların hər məqamda balasının hər sözünə "can" deməsi ana ürəyinin nə qədər genişliyindən, övlada olan sevgisinin sərhədsizliyindən xəbər verir. Şair də məhz bu ilahi duyğuları sözün diliylə oxucuya çatdırır:

Ah! Ana övlada qıymaz ki, qıymaz,
Dinirəm, "can" olur sözü, cavabı.
Bəlkə də o məni danlasa bir az,
Çəkməzdim bu qədər vicdan əzabı.[2]

Ağa Laçınlının müraciət etdiyi mövzular bir-birini təkrarlamır, hər şeirində yeni bir obrazı, həyat səhnəsini gözlərimiz önündə sərgiləyir. Hamısını da eyni bir qayə birləşdirir: dünyamızı, insanları xoşbəxt görmək, pisliklərdən uzaq olmaq. Yazıçı Süleyman Rəhimovun fikrincə: "Ağa Laçınlı şeirdə mövzu genişliyinə xüsusi diqqət yetirir və götürdüyü mövzuya ötəri münasibət bəsləmir; onu dərindən müşahidə edir, poetikasını duymağa, poetik məqamları tutmağa cəhd göstərir, buna nail olur".[3]

Ana mövzusunda klassik ədəbiyyatımızdan üzübəri saysız sayda əsərlər, poemalar, şeirlər yazılıb. Dünya var olduqca da, bu mövzu ədəbiyyatın əsas aparıcı mövzularından biri olaraq qalacaq. Şairin hər yeni dərc olunan kitabının da əsas xəttini ana mövzusu təşkil edir. Ağa Laçınlının şeirlərində ana haqqındakı həzin xatirələri o qədər səmimi, o qədər canlıdır ki, onu həyacansız oxumaq olmur. Sanki şair bütün övladlar adından anaya müraciət edir, onların dillə səmimi övlad duyğularını analara çatdırır. Bu anda şeiri oxuyan hər bir oxucunun gözləri önündə sanki bir anlıq öz anasının obrazı canlanır. Əsl sənətin gücü və böyüklüyü də elə bundadır:

...Bahar bayramından ay yarım keçib,
Qovurğa payımı saxlayır yenə.

---

[1] Bəxtiyar Vahabzadə. Yaratmaq eşqi / Ağa Laçınlı. Sirli-soraqlı dağlar. – Bakı: Gənclik, 1992, s.4

[2] Ağa Laçınlı. Ana duyğusu. – Bakı: Gənclik, 1976, s.10

[3] Süleyman Rəhimov. Bir neçə söz / Ağa Laçınlı. Sevgimizlə sevindirək. – Bakı: Yazıçı, 1981, s.6-7

Nə vaxtsa əlinə bir alma keçib
Onu da düyübdür düyünçəsinə.[1]

Ağa Laçınlı şeirlərində vətən sevgisini yüksək pafosla, ritorika ilə izhar etmir. Sadə, ləngərli ifadələrlə, bitkin deyimlərlə bu sevginin ucalığını, əbədiliyini oxucunun gözləri önündə canlandıra bilir.

"Ağa Laçınlının şeirlərində vətənpərvərlik və humanizm motivləri çox güclüdür. Bu motivlər onun yaradıcılığında müxtəlif formalarda, rəngarəng ifadə tərzlərində təzahür edir. O, insanlardan və onların əməllərindən yazanda da, təbiətdən və uşaqlıq xatirələrindən bəhs edəndə də, dostluqdan, qardaşlıqdan və siyasi mövzulardan danışanda da bunların hamısını vətənpərvərlik mövqeyindən qiymətləndirir və vətənimizin tərəqqisinə bağlayır".[2]

Həyatını ədəbiyyata, poeziyaya həsr etmiş şair zamanın çox çətinliklərini yaşasa da, sabahkı günə olan ümidlərini heç vaxt itirməmişdir. Bütün varlığıyla inanmışdır ki, masa arxasında keçirdiyi zülmət gecələri onun aydın sabahlara açılacaq yol yoldaşıdır. O, yaxşı dərk edir ki, insan xoşbəxtliyi zəhmətin və inamın məhsuludur. Bu inamla da şair yazıb-yaratmaqdan yorulmur:

Mən hələ ki namizədəm,
səbrin olsun gülmə buna.
Gülmə tənha cəfakeşin
tilsim qırmış uğuruna!
Cırmağımla cığır açdım, –
cığırım yol namizədi,
Ağrı çəkmiş arzularım
Öz kamıyla üz-üzədi!
Namizədəm, gülmə barı,
Tapmaq üçün cavabları –
Saf su kimi içmişəm mən
Kip örtülmüş kitabları![3]

Ağa Laçınlının elmi-ədəbi fəaliyyətini izlədikcə onun çox zəhmətkeş və məhsuldar bir yaradıcılıq yolu keçdiyinin şahidi oluruq. Təbiət və həyat daim ona yeni mövzular verir. Onun yardıcılığında dəyişməyən mövzular isə yalnız ana, vətən və ana təbiətdir. Hər ikisinə də ürək qanıyla, övlad sevgisi ilə ürəyini qoyur. "Ana duyğusu" şeirində şair bu hisslərini daha səmimi şəkildə dilə gətirir:

Doğrusu, bir vaxtlar inanmazdım mən,
Anam yazanda ki: "duyğum həssasdı".

[1] Ağa Laçınlı. Ana duyğusu. – Bakı: Gənclik, 1976, s.10
[2] Qulu Xəlilov. Həyat nəfəsli şair / Ağa Laçınlı. Sevgimizlə sevindirək. – Bakı: Yazıçı, 1981, s.8
[3] Ağa Laçınlı. Sevgimizlə sevindirək. – Bakı: Yazıçı, 1981, s.28

Deyirdim ünyetməz bir məsafədən
Bəlkə ürəyimə o, qulaq asdı.

Budur son məktubu – soruşur məndən:
"Başında nə vardı beş-on gün əvvəl?"
Düzü, qızdırmışdım soyuqdəymədən,
Anam gör necə də duymuş əlbəəl![1]

Şairin dili xalqın zəngin söz xəzinəsindən, folklordan qidalanır. Anadilli poeziyamızın gözəl örnəklərini yaradan Ağa Laçınlı yaradıcılığı dilçilərimiz üçün də böyük bir xəzinədir və ciddi tədqiqat obyekti ola bilər:

Çölçüydük,
odunçuyduq,
karvançıydıq, kim idik...
gedirdik güney-güney,
aşırdıq gədik-gədik.
Biz ürəklə gedirdik – ürək gümana bağlı,
Yayımız xoş üzlüydü, qışımız qaş-qabaqlı.
Boran qopan quzeydə qalın qara düşürdük,
Heç duymurduq –
Gözümüz necə alacalandı,
Bizə elə gəlirdi, –
dünya birdən dolandı,
bu qış yaza calandı.[2]

Şair ana təbiəti yaxşı tanıyırdı, onun gülünün, çiçəyinin dilini bilirdi. Ona görə də şeirləri bu qədər xəlqi və milli alınırdı. Hər gülü, çiçəyi öz dilində danışdırmağı bacaran Ağa Laçınlı doğma vətənin cənnətməkan bir diyar olduğunu da təbii lövhələrlə oxucunun gözləri önündə canlandırırdı:

Cavab al gecikən suallarına, –
Səfərə çıxmışdım... gəzib gəlmişəm.
Sən gendən baxanda dağ yollarına,
Mən düymə qönçəni üzüb gəlmişəm.

Şehliykən yığmışam yaşmaqlı gülü,
Məni üsküк badə məst eləyibdi.
Südlü məröycəni, sütül sünbülü
Tamarzı əllərim dəstələyibdi.[3]

[1] Ağa Laçınlı. Ana duyğusu. – Bakı: Gənclik, 1976, s.5
[2] Ağa Laçınlı. Alın yazımız. – Bakı: Yazıçı, 1992, s.99
[3] Yenə orada, s.187

Ağa Laçınlı doğma vətənini və onun övladlarını çox sevdiyindən daim onları xoşbəxt görmək istəyirdi. İnsanları bir-birinin qədrini bilməyə, sevib-sevilməyə səsləyirdi. Şeirlərindəki bu humanizm, insan sevgisi onun şəxsi xarakterindən doğan başlıca xüsusiyyət idi:

İnsan tez götürə insan ərkini,
Heç kimsə dönməyə qorxulu devə.
Ağıllı dəlini, gözəl çirkini,
Bəxtiyar bədbəxti bəyənə, sevə.
Bu dünya bəzənə, aləm yaz ola.
Hamıya tuş gələ könül həkimi,
Ağrı qərib düşə, nisgil azala.[1]

Poeziyanın əbədi mövzularından olan məhəbbət Ağa Laçınlı yaradıcılığında da parlaq lövhələrlə öz bədii əksini tapmışdır. Şairin sadə, səmimi duyğuları dilimizin geniş imkanları müstəvisində sevən aşiqin çəkdiyi iztirabları, bu iztirabların işığında yaşanan xatirələrin kövrək ovqatını əks etdirir:

Ay insafsız, mənə meylin vardısa,
Barı bunu bəxt yanmamış deyəydin.
Adın ada qaynaq olub bitməmiş,
Əlin ələ toxunmamış deyəydin.

Kiridəydin üzə düşən hirsini,
Əridəydin bu həsrətin hisini.
Ürəyinin köz bağlayan hissini
Ürəyimdə ox sınmamış deyəydin.[2]

Şairin qəlbində hər zaman azadlıq eşqi dağ çayları tək coşub-çağlamışdır. O, yaxşı dərk edirdi ki, adına azadlıq ölkəsi deyilən məmləkət əslində qullar ölkəsidir. Xalqın sərvətini talayanlar onun gözünə kül üfürürlər. "Sıxın bizi" şeirində şairin daxilində püskürən azadlıq arzusu sistemə bir ölüm hökmü kimi səslənirdi:

Biz qapqara qullarıq – aclarıq, yoxsullarıq,
yığıb öz varımızı yağılara yollarıq.
Sıxın bizi, bərk sıxın!
Döyün bizi, bərk döyün!
Yıxın bizi, bərk yıxın!
Yeyin bizi, bərk yeyin!

[1] Ağa Laçınlı. Vaxt yetişəndə. – Bakı: Gənclik, 1980, s.93
[2] Ağa Laçınlı. Ay işığı. – Bakı: Yazıçı, 1992, s.86

Bəlkə bir mənliklənək,
qəlbilərə diklənək.
Toplayaq özümüzü,
göstərək gücümüzü!..[1]

Ağa Laçınlının poeziyasında bədii məcazlar, bənzətmə və metaforalar yüksək sənətkarlıqla öz bədii əksini tapmışdır. Pedaqoji fəaliyyəti, daim ədəbi prosesin içərisində olması və geniş mütaliəsi şairin dünyagörüşünün və bədii dilinin cilalanmasında böyük təkan olmuşdur. Ona görə də şairin sonrakı dövr yaradıcılığında bu yeni deyimlərin, bədii məcazların şahidi oluruq:

Duman minib yəhər dağı,
Dəvə qaya hürküclüdü.
Çapıq daşın çarpanağı
Neştərlidi, ülgüclüdü.

Yağış çölü çimizdirib,
Otu xıncıb sel vəlləri.
Ac qurdlara acıq verib
Döşdə süzür dağ kəlləri.[2]

Şair cəmiyyətdəki əyintilərə, nöqsanlara qarşı da heç bir zaman biganə qalmamışdır. Başqalarının hesabına yaşamağı özlərinə həyat norması seçən, yaxşı insanların ayaqlarının altını qazan, öz şəxsi mənafelərini hər şeydən üstün tutan bu yalaq-yaltaqları, yalotu adlandırdığı bu antipodlar bütün zamanlarda cəmiyyət üçün ən təhlükəli viruslar sayılmışlar. Onlar Ağa Laçınlının "söz gülləsindən" yayına bilməmişdilər:

Yel hara əsirsə ora əyilir,
Yerini bərkidir o ildən-ilə.
Palıd birdən sınır, biryolluq ölür,
Yalotu boy verir yaltaq fənd ilə.

Yalmanıb küləyin əlindən öpür,
Eyninə gəlməyir bu alım-çalım.
Bəzən bir üzünə çovğun tüpürür,
O biri üzünü çevirir zalım.

Qırmancı, qınağı elə udur ki,
Guya xoşhallanır bu qalmaqalda.

[1] Ağa Laçınlı. Alın yazımız. – Bakı: Yazıçı, 1992, s.78
[2] Ağa Laçınlı. Ay işığı. – Bakı: Yazıçı, 1992, s.87

Adamı yandıran elə odur ki,
Yalotu yer tutub ən uca yalda.[1]

Ağa Laçınlı yadların-yağıların yüz illər boyu vətənimizi çapıb-talamalarının, çəkdiyimiz bəlaların əsas səbəbini milli birliyimizin olmamasında görürdü. Milləti birliyə, diriliyə çağırırdı:

Mən nə bilim, ay başına döndüyüm,
Bu bəlalar haçanacan qalacaq!
Zülmün evi, zalımlığın yuvası
Əyri özül uçanacan qalacaq!

Satqınımız sağır düşüb sağılar,
Birliyimiz darı kimi dağılar.
Bizdən olub bizi udan yağılar
Gəlmə yadlar qaçanacan qalacaq![2]

Azərbaycanın ikiyə bölünməsi milli varlığımızda əsrlər boyu sağalmayacaq yaralar açıb. O zamandan da ikiyə bölünmüş vətən mövzusu o tay-bu taylı poeziyamızın əsas mövzularından birinə çevrilib. Son iki əsrdə bu mövzuda yazılan şeirlərin sayını hesablamağa da zaman çatmaz. Ağa Laçınlı da bu mövzuda yazarkən, o səhnələri ürək qanı ilə canlandırır:

Bir zaman bir imiş, indi ikidi,
Gözünə dağ oldu böyük gələcək.
Özü də bilmədi heç kiminkidi,
Bilmədi axırı necə gələcək.[3]

Şair gənc nəslin yadına salır ki, dünyada hər şeyin bölünməsinə dözmək olar, yalnız vətənin bölünməsindən başqa. Bölünmüş vətənin övladları da heç zaman başı dik, alnı açıq gəzə bilməz. Vətən yarası sağalmayınca, insanın şəxsi xoşbəxtliyindən də danışmaq olmaz:

Acıqlı təpiklə az döyülmədi,
Gümanı qat verdi qara nisgilə.
Qılınc qabağında çox əyilmədi,
Qurğu qalasında çox qaldı belə.

Yiyəsiz gəmidi, su basan ada,
Onun ağısına siz qulaq asın.

[1] Ağa Laçınlı. Gecə yuxusu. – Bakı: Yazıçı, 1992, s.77
[2] Yenə orada, s.145
[3] Yenə orada, s.3

İnsanın hər nəyi iki olsa da,
Təki bir Vətəni iki olmasın.[1]

Ağa Laçınlı Azərbaycan ədəbiyyatının öyrənilməsi və gənc nəsil arasında təbliği sahəsində də yorulmaz fəaliyyət göstərmişdir. O, 1967-2006-cı illərdə işlədiyi BDU-nun Filologiya fakültəsində ədəbiyyat dərnəyinə başçılıq etmişdir. Burada gənclərin bədii ədəbiyyatın əsas missiyası, ədəbi əsərlərin mövzu və ideya baxımdan işlənməsiylə bağlı tələbələrə elmi-nəzəri məsləhətlər vermişdir. Bu gün ədəbiyyatımızın bir çox tanınmış nümayəndələri vaxtı ilə Ağa Laçınlının rəhbərlik etdiyi dərnəyin üzvləri olmuşlar.

Halal zəhməti həyatının mənası hesab edən şair ətrafındakıları da belə görmək istəyir, torpağı, havanı müqəddəs varlıq kimi ömrünün mənası hesab edirdi.

Gəl, a dəyirmançı, üyüt dənimi,
Dənim tərtəmizdi, dənim durudu.
Onu göy suvarıb, torpaq yetirib, –
O yağış ətridi, günəş nurudu.
Dənimin hər biri inci dənəsi,
Gəl, a dəyirmançı, özün halısan.
Bəlkə mən deyiləm incidiləsi,
Buğdanı arpadan ayırmalısan.[2]

Şairin zəngin bədii, elmi irsi Azərbaycan poeziyasının və ədəbiyyatşünaslıq elminin qiymətli nümunələrindəndir.

[1] Ağa Laçınlı. Alın yazımız. – Bakı: Yazıçı, 1992, s.3
[2] Ağa Laçınlı. Aşırımlar qarşısında. – Bakı: Yazıçı, 1978, s.39

ƏLƏKBƏR SALAHZADƏ
(1941-2013)

Ələkbər Salahzadə ədəbi fəaliyyətə XX əsrin 60-cı illərindən başlamışdır. Şairin bədii yaradıcılıq arsenalı son dərəcə zəngin və rəngarəngdir. Əsərlərinin fərdi intellektual-fəlsəfi tutumu dərin və əhatəlidir. Poetik dəstxətində metaforalaşma əksər hallarda öncül mövqedə dayanmaqla dildə söz semantikasından faydalanmağa daha çox meyillidir.

Həyatı. Ələkbər Salahzadə (Ələkbər Baba oğlu Məmmədsalahlı) 15 mart 1941-ci ildə Quba rayonunun Cimi kəndində anadan olmuş, Qonaqkənddə orta məktəbi bitirmiş, Bakı Dövlət Universitetinin (keçmiş ADU) Filologiya fakültəsində (1958-1963) təhsil almışdır. O, "Azərbaycan" jurnalında ədəbi işçi vəzifəsində əmək fəaliyyətinə başlamış, Azərbaycan Sovet Ensiklopediyasının dil, ədəbiyyat və incəsənət redaksiyasında elmi redaktor (1966-1968), Gənclik nəşriyyatında poeziya üzrə redaktor (1968-1976), AYB bədii ədəbiyyatın təbliği bürosunun direktor müavini (1976-1989), "Ulduz" jurnalında poeziya şöbəsinin müdiri (1989-1992), AYB-nin gənclər üzrə katibi (1992-1998), "Ulduz" (1992-2004) və "Qobustan" (2004-2013) jurnallarının baş redaktoru vəzifəsində çalışmışdır.[1]

Ələkbər Salahzadə 20-dən çox kitabın, yüzdən çox esse və məqalənin müəllifidir. Pyesləri Şəki, Sumqayıt və Ağdam Dövlət Dram teatrlarında tamaşaya qoyulmuşdur. Yaradıcı əməyi layiqincə qiymətləndirilmiş, 2005-ci ildə Ə.Salahzadə Respublikanın əməkdar incəsənət xadimi fəxri adına layiq görülmüşdür.

Ələkbər Salahzadə 1 sentyabr 2013-cü ildə vəfat etmişdir.

Yaradıcılığı. Ələkbər Salahzadə bədii yaradıcılığa orta məktəb illərindən başlamış, 1960-cı illərdən ədəbi fəaliyyətini daha da genişləndirmişdir. Poema və şeirlər toplusundan ibarət ilk kitabı "Beş yarpaq"[2] adlanırdı. Şairin sonrakı illərdə "Od heykəli" (1970), "Gözlər baxır dünyaya" (1979), "Xatirə çiçəyi" (1982), "Yerimiz bir, göyümüz bir" (1986), "Xocalı xəcilləri", "Mikayıl Müşfiqin monoloqu" (2008), uşaqlar üçün nəşr etdirdiyi "Yayın qış gecələri" (1985), "Nağaraçı naxırçı" (1987) pyesləri və b. bədii-əsərləri sənətkarın yaradıcılıq palitrasının yetərincə orijinal olduğunu sübut etməkdədir.

Adından, mövzusundan, struktur-kompozisiya, ideya-estetik, poetik-fəlsəfi özəlliyindən asılı olmayaraq əsərlərinin başlıca xüsusiyyəti onlardakı fərdi özünəməxsusluq, misraların məzmun və ifadə çalarlarının fərqliliyidir.

---

[1] Teymur Əhmədov. Ələkbər Salahzadə. Azərbaycan yazıçıları XX-XXI yüzillikdə. – Bakı: Nurlar, 2011, s.255

[2] Ələkbər Salahzadə. Beş yarpaq. – Bakı: Gənclik, 1968

Ə.Salahzadənin "Gözlər baxır dünyaya" şeirlər və poemalar toplusunda doğma yurdun təbiətinə məhəbbət, sevgi mənzumələri ilə yanaşı, ayrıca olaraq silsilə şeirləri "Xınalıq naxışları" ("Xınalıq", "İşıq çoxdu burda", "Xınalığın qayaları", "Dörd yanından su axır Xınalığın", "Dünyanın yarısı", "Xınalıqda od yeri", "Xınalıqda...") ad altında ümumiləşdirilərək görümlü və uğurlu poetik mənzərələr təqdim edilmişdir.

Xınalıqla bağlı şairlərimiz, yazıçılarımız, publisistlərimiz, tarixçilərimiz, etnoqraflarımız, dilçi alimlərimiz çox yazıb, çox deyiblər. Lakin Ələkbər Salahzadə tamamilə fərqli biçimdə Xınalığı vəsf edə bilib. O, Xınalığa rekviyem oxumur, o, Xınalığı ucalıq, yüksəklik, monumentallıq rəmzi kimi gözlərimiz qarşısında ucaldır, onu tariximizin Qorquddan, Babəkdən, Koroğludan gələn ucalıqları ilə eyniləşdirir, bir az aşağıda isə Xınalığın dörd yanından suyun axmasını isə mifoloji, folklor dünyamızla eyniləşdirərək yazır:

Dörd yanından su axır Xınalığın;
hara getsən,
hardan çıxsan
arxanca su axar su.
Xınalıqda yola çıxanın
dünyada nə qorxusu![1]

– deyə fikrini tamamlayır.

Ə.Salahzadə bütün yaradıcılığı boyu öz poetik nitqi, ondakı söz və ifadələrin sintaktik quruluşunda yalnız özünün özəl poetik düzümünə söykənmişdir. Elə "Bir ilin yaşıdları" şeirindəki sözlərin quruluşunda olduğu kimi:

Doğulduq 41-də
davayla yaşıd olduq.
Özümüz də bilmədən
dördcə il
dava havasında yaşa dolduq...
Dörd yaşımızda,
nə yaxşı,
dörd yaşında qaldı dava!
Bir nəslin də yaddaşında qaldı dava.[2]

Ə.Salahzadənin müharibə ilə bağlı şeirləri nəinki ədəbiyyatımızın, poeziyamızın, həm də milli tariximizin müəyyən bir kəsiminin uğurlu səhifəsi kimi maraqlıdır.

[1] Ələkbər Salahzadə. Gözlər baxır dünyaya. – Bakı: Yazıçı, 1979, s.89
[2] Ələkbər Salahzadə. Yerimiz bir, göyümüz bir. – Bakı: Yazıçı, s.10, 1986

Ə.Salahzadənin "Yerimiz bir, göyümüz bir" şeirində də biz özünəməxsus poetik yozumların şahidi oluruq:

Yerimiz bir,
göyümüz bir,
Günümüz bir,
Ayımız bir...
Kürəmizin
ikinci bir Hümalayı,
ikinci bir Qafqazı yox...
Əsrimiz yüz ildi,
gün sayımız bir,
ay sayımız da birdi!..[1]

Ələkbər fərdi intuisiyalı bir şair olaraq sanki dünyanın qarışacağını öncədən görüb, insanlığı, bəşəriyyəti silkələyəcək hala görə öz hayqırtısını qoparmağı zəruri hesab edib, ölkələri, xalqları yaxınlaşacaq bəşəri fəlakətlərdən qorumağa çağırırdı. O, Vətənini sanki altıncı hissi ilə həm də erməni qəsbkarlarının yaxınlaşacaq məkrindən qorumağa səsləyirdi. Şair dünya ədəbiyyatının daimi problemlərindən biri olan müharibəyə öz baxışı ilə yanaşırdı. O, burada sanki həyatın insanla bağlı olan bütün mənəvi və fəlsəfi problemlərini qaldırırdı. O, təkcə Azərbaycanı yox, bütün dünyanı, Yer kürəsini, göy üzünü, Afrikanı da, Avropanı da, Asiyanı da hamı üçün, bəşər övladı üçün ümumi məkan kimi nəzərdən keçirirdi. Müharibəyə görə onun ürəyi həyəcan və narahatlıqlarla dolu idi, acı hisslər sanki emosiyalarını kilidləyirdi, odur ki, fəryad qoparır və sanki "əsrimiz yüz ildi, gün sayımız bir, ay sayımız da birdi" deməklə dünyanı parçalayıb bölmək istəyənlərə içindən bir çağırış etməyi hər şeydən üstün tuturdu.

Ə.Salahzadənin bütün şeirlərində özü ilə sözünün uğurlu vəhdəti yaradılır. "Bəs sən" şeirində Salahzadə çox mənalı, düşündürücü mətləblərə toxunur:

Elə sənsiz də, bala,
Babəkdi Babək,
Nizamidi Nizami,
Füzuli də, Füzulidi!
Hərəsi bir elin göz bəbəyi,
bir zamanın nizamı,
bir dünyanın özülüdü...

[1] Ələkbər Salahzadə. Yerimiz bir, göyümüz bir. – Bakı: Yazıçı, 1986, s.40

Yaxşı
bəs sən?[1]

Şairin həyat manifestində, yaradıcılıq kredosunda boşluğun, laqeydliyin heç vaxt özünə yuva qura bilmədiyi də qeyd olunmalıdır. Bu şeirin mayasında özünü Babəkə, Nizamiyə, Nəsimiyə, Füzuliyə yaxınlaşdırma amalı və amili üstünlük təşkil etməkdədir.

Şairin "Vaxt vadisi" kitabına daxil etdiyi xeyli nümunələrdə bu tipli örnəklərə rast gəlinir. "Qan" şeiri bu baxımdan daha səciyyəvidir:

Mən qala-qala,
Sən dura-dura
Onlar şəhid oldular,
Onlar gəldilər bura!
Bu yurdun bir çağında
hamıdan çox yandılar.
... Ömrü onlar qazandılar.
Onlar öldülər,
Ölməz oldular...
bizsə öldük-dirildik...
...Vətən oğlu deyəndə
onlar düşəcək yada...
...Bəlkə bəxt
onların üzünə güldü?
...Vətənin damarına
onların qanı uyğun gəldi!..[2]

Şair burada "mən qala-qala, sən dura-dura onlar şəhid oldular" deyirsə, digər yerdə şəhidliyin nə qədər uca mərtəbə olduğunu aşağıdakı fikirləri ilə tamamlayır: "Onlar öldülər, ölməz oldular... Bəlkə bəxt onların üzünə güldü? Vətənin damarına onların qanı uyğun gəldi!..." Ə.Salahzadə bu misralarla Şəhidliyə uca mərtəbədə sanki heykəl qoyur.

Ələkbər Salahzadənin yaradıcılığını mahiyyətincə təhlillərə cəlb etməyə can atdıqda ilk növbədə tədqiqatçı-ədəbiyyatşünasın gözü önündə şairin poetik miniatürlərində özünü daha çox büruzə verən intellektual yanaşma amili dayanır. Belə yanaşma Ə.Salahzadənin poetik mətnlərinin strukturunun nəinki yeni tərəflərini fərqləndirməyə imkan verər, həm də XX əsrin 60-cı illərindən – XXI əsrin 10-cu illərinə qədər Azərbaycan poeziyasının inkişafı ilə bağlı müəyyən qənaətlərə gəlməyə şərait yaradır. Bu zaman Ə.Salahzadənin yaradıcılığında yer alan intellektual meyillərin yeni tipli bədii

[1] Ələkbər Salahzadə. Od odası. – Bakı: Yazıçı, 1989, s.15
[2] Ələkbər Salahzadə. Vaxt vadisi. – Bakı: Nərgiz, 2007, s.136-137

üslubun (ideolekt və idioüslubun) poetik təfəkkürün əsasını təşkil etməklə Azərbaycan poeziyasının yeni fəlsəfi-estetik motivlərlə, çeşidli üslublarla, janr xüsusiyyətləri və obrazlı təfəkkürlə yeni tipli lirik qəhrəmanların qeyri-klassik paradiqmaların çərçivəsinə transformasiya edildiyi qənaətinə gəlinir.

Ələkbərin canlı aləmi, insanı, təbiəti, hətta cansızı elə şəkildə obrazlaşdırma, canlandırma bacarığı vardır ki, ilk baxışda diqqət mərkəzinə çəkilməyə layiq ola bilməyən əşyalara onun necə qeyri-adi həyat verməyinin sehrində qalırsan. Elə "Vaxt vadisi" kitabında təqdim etdiyi "Sünbül əfsanəsi"ndəki kimi:

Havaxtsa,
hardansa bir dən
torpağa düşüb birdən...
Bu mikroplaneti
qucaqlayıb Yer:
"Mənimdi –
Mənə bənzəyir!"
Döyə-döyə döşə
sonra onu
yaşıl dili kimi
göstərib günəşə.[1]

Ələkbər bu şeiri 1965-ci ildə 24 yaşı olanda qələmə almışdı. Şairin obrazlaşdırdığı hər nə varsa, hamısı oxucu ilə tamamilə fərqli dillə danışır. İfadələrin zühur etməsi, ardıcıllığı, yaxud gözlənilmədiyi halda "arenaya" çıxması da tamamilə yeni bir situasiyaya keçirilərək baş verir. Şeirin məzmun kanvasına (naxışlanmasına) gətirilən süjet xətti özünəməxsus irreallığa bürünərək təsvirin inkişafını dinamikləşdirməklə insan şüurunda gedən fikir axınını kardinal şəkildə dəyişir. Şair bu və ya digər predmetin təsvirində "sözlərin şəklini uğurlu çəkməklə", metaforik obrazlılığa daha böyük üstünlük verir. Müəllifin fikrinin inkişafı süjet dəyişkənliyini, real aləmin hadisə və prosesləri ilə assosiasiya olunan təxəyyül vəziyyətini təmin edir ki, onlar da öz növbəsində həyatın daimi problemlərini müəyyən zaman kəsiyindən kənara çıxarır.[2]

Ə.Salahzadənin yaradıcılığında intellektual keyfiyyəti müəyyən etməyə cəhd etdikdə məlum olur ki, belə yanaşma ilk növbədə real və irreal təbəqələrin, layların sintezi, assosiativ sıraların yaranması, dövrün, zamanın tələblərindən kənara çıxma, universal kanonlar (qaydalar) yaradıb, mifoloji

[1] Ələkbər Salahzadə. Vaxt vadisi. – Bakı: Nərgiz, 2007, s.16-17

[2] Ф.Сайфуллина, Н.Юсупова. Интеллектуальная тенденция в поэзии Р.Хариса // Филология и культура, 2021, № 92 (64), с.178

və folklor elementlərinə üz tutaraq, müəllif obrazını avanssenaya çıxarmaq üstünlük təşkil edir. Odur ki, onun şeirində lirik qəhrəmanın fərdi konsepsiyasında obrazlı təfəkkür üslubunun özəlliyi təmin olunur.

Gülşən Əliyeva Kəngərli özünün "Xəyal və idrakın vəhdəti (Azərbaycan fəlsəfi-intellektual şeir təmayülü)"[1] monoqrafiyasında məsələyə fəlsəfi aspektdə baxış sərgiləyib, "Azərbaycan fəlsəfi intellektual şeirinin qaynaqları və ənənələri" problemini araşdırarkən bu tipli şeir ənənələrinin lap əvvəllərdən – XX əsr Azərbaycan fəlsəfi-intellektual poeziya təmayülünün yaradıcıları Rəsul Rza, Bəxtiyar Vahabzadə, Əli Kərim, Fikrət Qoca, Məmməd Araz, Vaqif Səmədoğlu, Fikrət Sadıq, Ramiz Rövşən kimi şairlərlə yanaşı, Ələkbər Salahzadənin də adını çəkərək onu da söyləyir ki, onlar vaxtında həmin ənənələrin cazibəsini dəf edərək, fərdi yaradıcılıq üslublarını formalaşdırmışlar... Müəllif, eyni zamanda onu da bildirir ki, "Ənənə yaratmaq hər şairə nəsib olmur. O yalnız dahi mütəfəkkir şairlərə qismət olan yaradıcılıq taleyidir. Başqa sözlə desək, mənsub olduqları ədəbiyyatda poetik məktəb yaradan şairlərin ənənəsi yaşaya bilir".[2] Tədqiqatçının belə yanaşmasının təsdiqini Ə.Salahzadənin bütün yaradıcılıq, publisistik, tərcümə, redaktorluq fəaliyyəti və epistolyar irsi ilə dərindən tanış olduqda müəyyənləşdirmək olur.

Yaradıcılığın intellektual tipi intellektin özünürefleksiya, təfəkkür modelində, dil deyimlərinin potensiyasında, poetik şüurun ümumi formulunda açıla bilir. Bütün bunlar Ə.Salahzadə yaradıcılığının ən aparıcı tərəflərini əhatələyir. Çünki şairin əsərlərinin süjet-kompozisiya və məna-məzmun arxitektonikasına nəzər saldıqda görürük ki, onun intellektual bədii-poetik şüuru özünün xüsusi reallığını özünəxas şəkildə konstruksiyalaşdırıb, fərdi yaradıcılıq düşüncəsinə yad olanı yenidən rekonstruksiya edir və belə olduqda müəllifin poetik təfəkkürü yeni obyektiv biliklərin açılmasına və ortaya qoyulmasına iddia edir.

Əlbəttə, intellektuallığa xidmət edən əsərlər yazmaq heç də mürəkkəb və qarışıq konstruksiyalardan istifadəni nəzərdə tutmur. Bəzi müəlliflər belə fikirlər səsləndirirlər ki, onların kitabları ona görə böyük ruh yüksəkliyi ilə qəbul olunmur ki, ortabab təfəkkürlü oxucular üçün yazmırlar, onlar intellektual səviyyəli şairlərdir. İntellektual əsərlərdə ən mühüm olanlar isə, heç şübhəssiz ki, konseptuallıq, ədəbi eksperiment, müəllifin oxucunu yazdığı mətnə cəlb edə bilməsi, intermətnlik, qeyri-formulluq, üslub baxımından izafilik və s. Belə olduqda konseptuallıq burada müəllifin varlıqla bağlı fəlsəfi düşüncələrini çevrələməli, onun hər hansı mühüm aspektini nəzərdə tutmalı, varlığın konsepsiyasını göstərmə bacarığına malik olmalı, öz

[1] Gülşən Kəngərli-Əliyeva. Xəyal və idrakın vəhdəti. – Bakı: Qanun, 2021
[2] Yenə orada, s.18

müəllif mühakimələri ilə fikirlərini oxucuya çatdırmalıdır. Ədəbi eksperiment əsərlərində özünəməxsus qeyri-adi süjet xəttinin yaradılmasıdır, yəni əsərdə mozaik düzüm, naxış və s. mütləq ortada olmalıdır. Oxucunun mətnə cəlb edilməsi müəlliflə oxucu arasında dialoqun yaradılması, oxucunun reaksiyası, alınan informasiya üzərində dərindən düşünməsidir. İntermətnlik onu nəzərdə tutur ki, belə əsər öz sferasına həm də digər çoxsaylı ideyalar, allüziyalar, çeşidli biliklər və fikirlər cəlb etmək imkanına malikdir. Qeyri-formulluq – əsərin konkret forma, yaxud formulaya tabe olunmasıdır. Bu o deməkdir ki, intellektual ədəbiyyat formulasız ədəbiyyatdır. Üslub izafiliyi – qeyri-normativ leksikadan, özünəməxsus leksik normalardan istifadə etməkdir.[1]

Ələkbər Salahzadənin əsərlərində qeyd etdiyimiz bu elementlərin əksəriyyətini tapmaq münkündür. Yuxarıda adını çəkdiyimiz "Vaxt vadisi" kitabından "Yer" şeirinə müraciət edək:

Ulu Tanrının "Yer" əsəri –
sənət sehri;
şeir deyirsən, şeiri,
nəsr deyirsən nəsri.
Səsin, rəngin ahəngi,
ahəngin səsi, rəngi...[2]

Belə işıqlandırma, belə izah növbəti parçada bir qədər də gücləndirilir. Və sanki elə bil işıq bir projektordan yenidən dünyanın üzünə, üstünə gəlir ki, həmin aura qarşısında mat-məəttəl qalırsan:

...Hələ Dünya bir yana,
təkcə qartal diyarının
dimdiyi dirənmiş
dan üzü
dalğası daranmış dənizi,
dağlarında,
düzlərində
Tanrının
pozulmaz, silinməz izi...[3]

Bizə belə gəlir ki, indiyəcən söz sərraflarından heç kim "Yer"i Tanrının əsəri", "sənət sehri", "səsin rəngin, ahəngi, ahəngin səsi, rəngi" kimi səciyyələndirməyib. Belə xarakteristika, belə yozum yalnız Ə.Salahzadəyə məxsusdur. Təsvir getdikcə daha da tündləşir və idrakın qeyri-adi söz və söz

[1] Что такое интеллектуальная проза – https://dzen.ru>...
[2] Ələkbər Salahzadə. Vaxt vadisi. – Bakı: Nərgiz, 2007, s.166
[3] Yenə orada, s.166

birləşmələrini interpretasiya etməsi nəticəsində yeni ifadələr yaranır və "qartal diyarının dimdiyi dirənmiş dan üzü, dalğası daranmış dənizi" ortaya çıxır ki, orada da "Tanrının pozulmaz, silinməz izi" gözümüz qarşısında canlandırılır. Bütün bunlar bir daha onu təsdiqləməyə imkan verir ki, Ələkbər Yerə, varlığa, dünyaya, Yaradana, Tanrıya, insanlara və təbiətə fərqli rakursdan baxır. Salahzadənin yaradıcılığında sözlər, anlayışlar, əşyalar bəzən özlərinin özlərindən xəbəri olmadan, qəflətən bir-biri ilə ülfət bağlayıb, dostcasına ünsiyyətə girməsinə heyran olursan. Onlar can bir qəlbdə görüşür, ayrılanda isə kədərə, qəmə-qüssəyə batırlar. Onlar ayrılsa da, bir-birinə yaxınlaşma, bir-biri ilə ülfət bağlama həsrətində olur, yeni əlaqələr və yeni dialoq, sözlər, fikirlər arasında mükalimələr lakonik "Qürubda qəbir" şeirində olduğu kimi yaranır:

Qürubda bir qəbir var,
qəbirdə də bir qərib.
Qəbri özümü qazıb,
özümü gəlib girib?

Əcəl qurub torunu,
elə bu yerdə qurub.
Qürub ki elə qəbir,
qəbir də elə qürub...[1]

Görün Ə.Salahzadə burada "qürub", "qəbir", "qərib", "qurub" sözlərini bir-birinə necə uyğunlaşdırıb, necə toxuyub və qürubun qəbir, qəbirin qürub olmasını bir-birinin içində necə uğurla əridib.

Ələkbər Salahzadənin sənət aləmində dünya fasiləsiz olaraq qurulur. Şair ruhi-mənəvi dəyərlərə qiymət verəndə də, dünyanın gərdişi üzərində fikirlərə dalanda da onun poeziyasının avanqard istiqamət və hisslərlə yoğrulduğunu və lirik düşüncəsinə bir aramlıq gətirdiyini görmək mümkündür. Ələkbərin şeirlərinin kompozisiyası ayrı-ayrı hərflər, sözlər üzərində birbirinə zahirən oxşar olub, mənaca tamamilə fərqli ifadələr üzərində bərqərar edir. Bəlkə də onun şeirlərini belə olduqda oxumaq yox, üzərində müşahidə aparıb, necə ortaya çıxması ilə bağlı mülahizələr yürütmək (daha doğrusu memarlıq konstruksiyaları üzərində düşünərək qurma) yeni gözlənilməz və maraqlı gedişlər izləmək daha məqsədəuyğundur. Salahzadə, şeirlərində daim bədii formanı eksperimentlərə cəlb etmək üzərində daha çox düşünürdü. O, vizual poeziyanın yaradılmasında daha çox maraqlı idi. Odur ki o, vizual poeziyasında görmə qavrayışını mənəvi qavrayışla birləşdirməyə daha çox can atırdı.

[1] Ələkbər Salahzadə. Vaxt vadisi. – Bakı: Nərgiz, 2007, s.170

Ə.Salahzadə də öz yaradıcılığında poeziyanı simvolist, rəmzi çağırışlardan azad edib, ideala yaxınlaşdırmağı, mistik humanizmdən imtina edib, varlığı bütün tərəfləri ilə, bütün səsi və rəngləri ilə qəbul edirdi. Sözə dürüst məna yükləməyi, obrazların predmetliliyi və dolğunluğu, detalların ovxarlanması, insanın əsl hisslərinə müraciəti, dünyanın ilkin emosiyalarının poetizasiyasını və s. nəzərə alırdı. Futuristlər sənətin açıq kitab ideyasını təbliğ etməklə tamaşaçını hər tərəfdən dairəyə almağa çalışdıqları halda onlar həm də şeirin nitq normalarının vərdiş edilmiş qaydalarına qarşı çıxır, ritm və qafiyə sahəsində eksperimentçiliyi qəbul etmir, "özünəməxsus xalis" söz axtarışında olur, epataj pafosuna meydan verirdilər. Futuristlər məsələnin ideya hissəsinə nəzər salarkən özlərinin qayğısızlığını nümayiş etdirməklə poetik sözün "azadlığı" uğrunda mübarizə aparırdılar. Lakin bu, heç də bu qrupun hər bir iştirakçısının özünün müəyyən baxışlarının ifadə etməsinə mane olmurdu".[1] Ələkbər Salahzadənin intellektual poeziya nümunələrində biz onun söz, ifadə, söz birləşmələri, söz yaradıcılığı və sözün azadlığı uğrunda apardığı mübarizəni yaxşı görürük. "Fevral-1966" kitabında "Rəngin zəngi" şeirində Ələkbərin söz yaradıcılığının qeyri-adiliyini göz önünə gətirək:

Rəngə rəng damızdırıb,
rəng verib yaralamayın.
...Rəngdən rəng alın,
rəngi rəngdən-rəngə salın.
rəngdən rəngi çıxın,
rəngi rəng üstə gəlin,
rəngi rəngə vurun,
rəngi rəngə bölün.
Rəngi rəngə qatın;
rəngi rəngə çalın:
Birdən-birə zəng çalın, zəng,
Cəngi çalın, Cəngi![2]

Şeirdə nümunə gətirdiyimiz həm bu parçada, həm də onun bura cəlb etmədiyimiz digər hissəsində sözlərin, söz birləşmələrinin o qədər qeyri-adi variasiyaları vardır ki, onlar, bir tərəfdən, söz yaradıcılığının sərbəst, azad atributu kimi çıxış edirsə, digər tərəfdən rəngin çoxçalarlı assosiasiyasını yaratmaq baxımından orijinaldır. Bu şeirdə Salahzadənin poeziyasının rəng palitrası çoxrəngli və cəlbedicidir. Şair poetik təfəkküründə doğma diyarın

[1] А.А.Волков, Л.А.Смирнова. История русской литературы XX века. Дооктябрьский период. – Москва: Просвещение, 1977, с.291
[2] Ələkbər Salahzadə. Fevral-66. – Bakı: Elm və təhsil, 2021, s.161

obrazlarının vasitəsi ilə insan talelərini, varlığın mürəkkəbliyini və özünün fərdi qəlb çırpıntılarını ustalıqla verməyə çalışırdı. Şair rəngləri son dərəcə yaxşı hiss edir. Onda bu rənglərin müxtəlifliyi özünü yetərincə relyefli göstərir. Əgər biz burada peyzaja nəzər salsaq, bu zaman onun da ifadəliliyini və rəngarəngliyini görə bilərik. Burada rəng ifadəsinin rəng palitrası çoxrəngli və ifadəli olmaqla rənglər şair üçün özünün orijinal ifadə imkanlarını yaradır.[1]

Ə.Salahzadə intellektual təfəkkürlü sənətkar olduğundan o bütün əsərlərində özünə sadiq qalmağı üstün tutmuşdur. Poeziyada açdığı cığırdan, fərdi poetik manifestindən, yaradıcılıq kredosundan heç zaman kənara çıxmamışdır. Düzdür, o, bu yolda tək addımlamırdı. İntellektual poetik nümunələr yaradan sənətkarlar – Rəsul Rza, Fikrət Qoca, Əli Kərim, Vaqif Bayatlı Odər, Ramiz Rövşən, Çingiz Əlioğlu, Vaqif Səmədoğlu, İsa İsmayılzadə, Vaqif Cəbrayılzadə, Camal Yusifzadə, Tofiq Abdin, Qulu Ağsəs, Adil Mirseyid, Arif Abdullazadə, Rasim Qaraca və digərləri ilə yanaşı, bu sahədə ardıcıl və israrla qələm işlədənlərdən biri də Ə.Salahzadə idi. Eyni zamanda Ə.Salahzadə fəlsəfi-intellektual şeir yaradıcılığında öz fərdi poetik üslubunu bütün tərəfləri ilə ortaya iddia ilə qoyanlardan idi. Rəsul Rza "Rənglər" silsiləsini yaradıb, modern üslubunu bütün tərəfləri ilə təqdim etməklə, özünün assosiativ təfəkküründən doğan məqamları ustalıqla oxucuya təqdim edib, öz fərdi dünyagörüşünü ümumiləşdirirdisə, Ə.Salahzadənin "Rəngin zəngi" yığcam şeirində qeyri-adi düzüm və orijinallığı göz önündə predmetləşdirirdi. Ələkbərin intellekti və bu intellektin istiqamətləri o qədər gözlənilməzdir ki, "rəngin rəngi"ndən yaranan assosiativ ifadələrin köməyilə özünün söz yaradıcılığının unikallığı ilə oxucunu öz fəzasında sehirləyirdi.

Ə.Salahzadənin düzüb qoşduqlarını, şeirlərinin hər bir sətrinə yüklədiyi semantikanı birbaşa, düzxətli şəkildə dərk etmək heç də əksər hallarda səmərə vermir. "Fevral–1966" kitabında təqdim edilən "Yer üzü" şeiri görün oxucunu hansı dərinliklərə, ənginliklərə qərq edir, hansı gözlənilməz assosiasiyalar yaradır:

Biz də gəldik Yer üzünə,
Bəlkə də hər üzünə
Baxdıq,
gördük hər üzünü
Ötdüyümüz yol uzunu
bir də gördük astarı yox,
başdan-başa torpaq üzü, su üzüdü,

[1] Цветовая палитра поэзии Есенина. Природа у… https://m.vk.com>wall.43532306

dağ üzüdü, daş üzüdü,
ot izidi, at izidi...
...Tutduq, tutduq üzümüzü hər üzünə –
Yer üzünə.
Əyrisindən – düzündən
dedik, dedik,
qoşduq – düzdük,
nələr demədik, nələr!
susdu, dözdü
baxmadan üzümüzə:
düzdü, dedi,
düzdü, düzdü!...[1]

Tənqidçi Vaqif Yusifli "Rəsul Rza və müasir Azərbaycan poeziyası" kitabında Rəsul Rzanın yaradıcılığı ilə bağlı çağdaş Azərbaycan tənqidinin qənaətlərini verməyə çalışarkən, həm də Xalq yazıçısı Anarın 70-ci illərin əvvəllərində "Ulduz" jurnalında nəşr olunmuş məqaləsində üç gənc şair İsa İsmayılzadə, Ələkbər Salahzadə və Səyavuş Sərxanlının şeirlərindən söz açarkən qeyd etmişdi ki, "...əgər mən bu üç şairin poetik üslubunu, yaradıcılıq yönünü bir sözlə ifadə etməli olsaydım, deyərdim ki, Ələkbər Salahzadə şeiri qurur, İsa İsmayılzadə rəsm edir, Səyavuş Sərxanlı oxuyur, deklamasiya edir".[2] Yəni Ələkbər Salahzadənin şeirdən özünəməxsus konstruksiya yaratması hələ 70-ci illərdə Anarın da nəzərindən qaçmamışdı.

Ə.Salahzadənin ümumi yaradıcılığından bəhs edərkən onun əsərlərinin janr özəlliyindən də danışmaq lazımdır. Sənətkarın bu müstəvidə ortaya qoyduğu poemalar ("M.Müşfiqin monoloqu", "Qara yunun ağ yumağı", "Qobustan", "Xocalı xəcilləri"), uşaq dünyası ilə bağlı yazdığı şeirlər, yanıltmaclar, nağıllar, publisistik əsərləri və məqalələri, dünya ədəbiyyatı nümunələrindən dilimizə uğurla çevrilmiş örnəklər və s. vardır. Qeyd etməyi zəruri hesab edirik ki, Salahzadənin bu sahədə ortaya çıxardıqları da mövzu kamilliyi və məzmun özəlliyi ilə fərqlənməkdədir.

Məsələn, şair özünün tarixin dərin laylarını qaldıran "Qobustan" poemasında[3] əcdadlarımızın əski dövrlərinə ekskurs etməklə Qobustanımızın, etnoqrafiyamızın, arxeologiyamızın, daşların harayına Qavaldaşı, Təbildaşı, Qoç qayasını, rəsmlərini, əcdadlarımızın rəqslərini, minilliklərin arxasından boylanan sənətdən, yaddaşdan, Aydan, Günəşdən, Böyükdaşdan, Kiçikdaşdan, Çingizdağdan, Mədaində Xaqanidən, Nizamidən, Füzulidən, Qeysdən, Daş dövründən, Dəmirlə Daş savaşından obrazlı şəkildə söz açaraq

[1] Ələkbər Salahzadə. Fevral – 66. – Bakı: Elm və təhsil, 2021, s.235-236
[2] Vaqif Yusifli. Rəsul Rza və müasir Azərbaycan poeziyası. – Bakı: Letterpress, 2010, s.67
[3] Ələkbər Salahzadə. Qobustan. Poema. – Bakı: Şirvannəşr, 2010

onlardan Qobustanın əski keçmişinə mahiyyəti üzrə bələd olan tarixşünas və coğrafiyaşünas kimi bəhs edir.

Ə.Salahzadənin digər poemaları da o qədər özəl və təkrarolunmaz nümunələrdir ki, onlardakı mövzu zənginliyi və individuallıq da oxucuları cazibəsində saxlayır. "Müşfiqin monoloqu" poemasında müəllif poetik intonasiyanın çalarlarını qeyri-adi təfəkkür işığında sanki bir rekviyem kimi ortaya qoymaqla sovetlər dövrünə qarşı barışmaz münasibətini ifadə edir.

"Xocalı xəcilləri" poemasında giley, nifrət, antibəşəri hisslərə qarşı haqq səsini ucaldan şair bu əsərdə vətənpərvərlik konseptinin, bəşəriliyin, xalqımıza qarşı törədilmiş amansız soyqırımın tükürpədici qorxunc mənzərəsini canlandırır. Xocalıda törədilənləri Helemno, Treblinka, Beljets, Sobibor, Maydanik, Osvensim, Yasenovats, Malı Trostanets (Belarus), Yanovski (Ukrayna), Ozariçi, Xatın və s. kimi ölüm düşərgələrində baş verənlərlə müqayisə edərək ermənilər və onların havadarlarının qeyri-insani sənədli obrazlarını yaradır.[1]

Ə.Salahzadə öz qələmini bədii-poetik tərcümə yaradıcılığı sahəsində də uğurla sınaqdan keçirmişdir. Onun rus yazıçıları A.Tarkovskidən "Gözəl Gülayım haqqında povest", A.Platonovdan "Dörd hekayə", A.Safronovdan "Vida poeması", Litva ədəbiyyatının görkəmli nümayəndəsi Pyatras Svirkadan "Tülkünün kələyi", fransız şairləri R.Desnosdan "Qutan və Durna balığı", P.Mari-Fontendən "Yalançı", T.Kemqsordan "Yalançı pişiklərin nəğməsi", Bosniya və Hersoqovinalı nasir M.Selimoviçdən "Dərviş və ölüm" romanı və s. tərcümələri Ə.Salahzadənin zəngin və dərin ədəbi təfəkkür daşıyıcısı olduğunu bariz şəkildə sübut etməkdədir.

Ələkbər Salahzadə əsərlərini qeyri-adi şəkildə konstruksiyalaşdırır, özünəməxsus eskizlər atır, bu konstruksiyanın içində şəbəkələr qurur. Eyni zamanda bu şəbəkələrdəki sözlər semantik baxımından bir-birindən fərqli məna çalarları daşıyır. Nəticədə rebussayağı yuvalarda yerləşdirilmiş ifadələr uzun müddət oxucu təfəkkürünün oyaq qalmasına səbəb olur. Bu yanaşmalar nəticəsində şairin qələmə aldıqları Salahzadə pərəstişkarlarının daim öz orbitində qalmasına şərait yaradır.

[1] Ələkbər Salahzadə. Xocalı xəcilləri (poema). – Bakı: Şirvannəşr, 2006

İSA İSMAYILZADƏ
(1941-1997)

XX əsrin 60-cı illərində ədəbiyyata gələn istedadlı gənclərdən İsa İsmayılzadə gözəl şair, jurnalist, tərcüməçi kimi Azərbaycan ədəbiyyatında özünəməxsus mövqe qazanmış, yaradıcılığı görkəmli şairlərin, alimlərin, oxucuların diqqətini çəkmiş, haqqında dəyərli məqalələr yazılmışdır.

Həyatı. İsa Mustafa oğlu İsmayılzadə 1941-ci il martın 15-də qədim Qarapapaqlar yurdunda, hal-hazırda Gürcüstanın Aran Borçalısı sayılan Qarayazıda doğulmuşdur. Valideynləri əslən nüfuzlu nəsildən olmuş, Sovet hakimiyyəti tərəfindən mal-mülkiyyəti əllərindən alınmış, halal əməklə dolanmış, övladlarını da bu ruhda tərbiyə etmişlər. Ailədə səkkiz uşaqdan biri olan İsa orta məktəbdə "əla" qiymətlərlə oxumuş, şeirlər yazmışdır (ilk şeiri 1956-cı ildə yerli "Stalinçi" qəzetində dərc olunmuşdu). O, 1958-1963-cü illərdə ADU-nun (BDU) Filologiya fakültəsində oxumuş, təhsilini bitirdikdən sonra Qarayazıda orta məktəbdə müəllim işləməklə bərabər "Sovet Gürcüstanı" qəzetinin ştatdankənar müxbiri olmuşdur.

İsa İsmayılzadənin 1961-ci il 19 iyulda "Azərbaycan gəncləri" qəzetində "Poçt qutusu" adlı şeiri dərc olunmuş, 1964-cü ildə "Azərbaycan" jurnalının 9-cu sayında "Yağış gölməçəsi" adlı şeirinə "daş atan" S.Rüstəm "bu sərçə şairləri, gölməçə şairləri", – deyə tənqid etmişdir. Altmışıncı illərdə İsa İsmayılzadənin imzası respublikanın mərkəzi mətbuatında tez-tez görünməyə başlayır və ədəbi ictimaiyyətin diqqətini cəlb edir. Rəsul Rzanın "Qayğı sözü, qayğı özü" adlı məqaləsi ilə "Ədəbiyyat və incəsənət" qəzetində gənclərə "dayaq olmasından" ruhlanan İsa İsmayılzadə şairə məktub yazır. Rəsul Rza cavab məktubunda onu Bakıya dəvət edir. "Ömrünün mənəvi dayağı olan" R.Rzanın köməkliyi ilə o, Radio Komitəsində işə düzəlir. Sonrakı illərdə Dövlət Televiziya və Radio Verilişləri Komitəsində redaktor (1966-1968), "Ədəbiyyat və İncəsənət" qəzeti redaksiyasında ədəbi işçi, şöbə müdiri və redaktor müavini, "Ulduz" jurnalı redaksiyasında şöbə müdiri (1968-1981), ömrünün axırınadək isə "Azərbaycan" jurnalında baş redaktorun müavini işləmiş, Azərbaycan Radiosunda əməkdaşlıq etmiş, "Ovqat" adlı verilişin aparıcısı olmuşdur.

Qısa ömrün "vaxt qıtlığından gecə-gündüz uşaq kimi gileylən"ən İsa İsmayılzadənin lirik şeir və poemaları, incəsənətin və həyatın aktual problemlərindən söhbət açan publisistik yazıları, ədəbiyyatımızın, şeirimizin yaradıcılıq axtarışlarından bəhs edən dəyərli məqalələri, dünya ədəbiyyatının nümunələrindən etdiyi tərcümələr onun məhsuldar fəaliyyətindən gələcək nəsillərə qalan qiymətli irsdir.

1960-cı illərdən müxtəlif mətbuat səhifələrində şeirləri, poemaları ilə oxucuların diqqətini çəkən, öz dəst-xəti ilə seçilən İsa İsmayılzadənin bir sıra

kitabları çap olunmuşdur: “Ulduzların ad günü” (1968), “İşıqlı yarpaqlar” (1972), “Torpaq nəğməsi” (1977), “Ömrümdən keçən qatar” (1980), “Salam Yer kürəsi” (1982), “Anamla söhbət” (1985), “Yelləncəkdə yellənən külək” (1985), “Gedim anamdan soruşum” (1987), “Bir ömürlük gecə” (1989), “Seçilmiş əsərləri” (1991), “Vurağan, tutağan, yatağan” (1992) və s.

“60-cı illərin narahat üslub axtarışlarında büllurlaşan və artıq poetik fərdiyyətlər kimi sabitləşməkdə olan imzalardan biri, poeziyada maraqlı bir poetik üslubu” ilə ayrılan (Yaşar Qarayev) İsa İsmayılzadə yaradıcılığının məhsuldar dövründə, 56 yaşında, 1997-ci il iyul ayının 17-də dünyasını dəyişdi. Şair doğulub böyüdüyü Qarayazıda dəfn edildi.

Yaradıcılığı. XX əsrin 60-cı illəri digər yaradıcılıq sahələrində olduğu kimi poeziyada da yenilik, novatorluq mərhələsi kimi özünü təsdiqləyir. Bu dövrdə ədəbiyyata gələn Fikrət Qoca, Ələkbər Salahzadə, Arif Abdullazadə, Fikrət Sadıq, Vaqif Səmədoğlu kimi gənclərin sırasında İsa İsmayılzadə də sözün yeni ifadə çalarları, obrazlı deyim tərzini aşkarladı, şeirə yeni rəngarənglik gətirdi. Yaşar Qarayev İsa İsmayılzadənin hələ yaradıcılığının ilk illərində onun yenilikçi ruhunu duymuş, dəyərləndirmişdi. Onun öz şeirlərində hətta mücərrəd mənəvi anlayışları, hərəkət və prosesləri əyaniləşdirərək, cisimləşdirərək təsvir edə bilmək bacarığını xüsusi qeyd etmişdi. İsa İsmayılzadənin ilk şeirlərindəki deyim tərzi tənqidlə qarşılaşsa da, onun gəlişi lirikada fəlsəfi təmayülə yeni rəng qatırdı:

Yağdı, tala-tala gölməçə yağdı,
Göylərin dəlisov ilhamı yağdı.
Sərçələrin soyuq hamamı yağdı.
Yağış gölməçəsi buludla doldu,
Günəşlə,
payızla,
sükutla doldu.[1]

“Ulduzların ad günü” adlı ilk şeir kitabına nəşriyyatdan kiçik bir təqdimat yazılmışdı: “İsa İsmayılzadənin kitabçası, hər şeydən əvvəl, narahatçılıqla döyünən bir ürəyin məhsuludur. Gənc şairi narahat edən əsrinin başı üzərində “təkayaqlı quldur tək” dayanan atom göbələkləridir. Bununla belə, İsanın şeirlərində başqa bir narahatlıq da duyulur. Hər cür nadanlıq və gerilik, simasızlıq və ikiüzlülük onun üçün “atom göbələyi” qədər qorxuncdur, dəhşətlidir. Bu dəhşəti İsa bəzən həddən çox şişirdir, onun şeirlərində bəzən narahatlıqdan, əsəbilikdən doğan dolaşıq ifadələr... nəzərə çarpır”.[2] Yeni poetik söz deməyə can atan gənc şairə qüsur kimi ünvanlanan məziyyətlər sonrakı yaradıcılığında və ondan yarım əsr sonra – müasir

[1] İsa İsmayılzadə. Ulduzların ad günü. – Bakı: Gənclik, 1968, s.16
[2] Yenə orada, s.3

dövrümüzdə də həyat həqiqətlərinin, dünyanın çaxnaşmalı durumunun əsassız olmadığı – məhz ikili standartların – "tək ayaqlı quldur tək" "atom çətiri"nin vahiməli ola biləcək fəsadlarının nəticəsi kimi təsdiqlənmiş oldu.

Döyüş paltarını geyinsə dünya –
Raket qollarını yana açaraq
Sinəsinə döyüb
öyünsə dünya,
Əlləri günəşə,
üzü Allaha
Təzə paltarında sevinsə dünya...[1]

Narahat, silahlanmış dünyanın taleyinə yanan insan oğlunun lirik "sos" nidaları ağrılı da olsa, belə görünür:

Ulduzlar bir nağıl başlayar onda:
"Biri vardı, biri yoxdu,
Biri yoxdu, biri vardı,
Günəşin, Allahın qonşuluğunda
Yer kürəsi yaşayırdı..."[2]

Bu, dünyada atom, nüvə silahlarının artmasına etirazın, üsyanın yeni-sakit ifadə tərzi idi. İnsanlığın duya biləcəyi ən son, ən böyük ağrının belə lirik təqdimatı İsa İsmayılzadənin fərdi üslub özəlliyini əsaslandırır. Yaşanan duyğuların ağırlığını sözlərə yükləyib adi tonda səsləndirməsi şairin müharibə mövzusunda yazdığı lirik parçalarda daha təsirli, gözlənilməz məcazlarla insan ruhunun zənginliyini, həssaslığını sözdə təcəssümləndirə bilir.

İsa İsmayılzadə müharibə dövründə doğulub böyümüşdü. "...Ondan sonrakı illərdə o qədər sıxılıb qalmışam, o sıxıntı adamın ruhuna elə hopub ki, elə bil yerlə göy arasında alçaq tavanlı evlərdə olan kimi sıxılırsan, havan çatışmır, o illərin bir qism şeirlərimdəki "boynu büküklük" də oradan gəlir".[3]

Belə şeirlərdən "Elegiya", "Əlsiz qalan yetim ciblər", "1941", "Oyuncaqsız uşaqlığım", "Dava-dava oynayardıq", "Dəbilqələr, çətirlər", "Güllələr deməsi", "Analara xəbər gəlib", "Günlərin bir günü", "Muştuluq", "Dünya mənə tanış gəlir", "Dünyadan nə qədər umacağım var..." və s. kimi yüzlərlə şeirlərində "boynu büküklük" hiss olunsa da, İsa İsmayılzadə həyat eşqi, Vətənə, təbiətə, insanlara səmimi sevgi dolu şeir dili ilə poeziyamızda yeni səhifə açmışdır.

[1] İsa İsmayılzadə. Anamla söhbət. – Bakı: Yazıçı, 1985, s.22
[2] Yenə orada, s.23
[3] Yenə orada, s.6

Müharibədən sonrakı həyatın ürəklərdə qövr edən sızıltıları gənc şairin şeirlərində ağrılı poetik lövhələrlə onun həssas duyğularının tərcümanına çevrilmişdir. "Əlsiz qalan yetim ciblər" şeirində duyğulu anların sözlərlə çəkilmiş fraqmentləri ümidlərə sığınıb həsrətlə yol gözləyən sədaqətli bir Azərbaycan qadınının hekayətindəndir. Bir ömrə bərabər bu kiçik epizodun təsvir dili və təsirliyi ilə bənzərsiz məna tutumu sərgilənir:

Boz pencəyi asılqandan götürdü,
masa üstə gətirdi.
Ayrılıq tozunu yox,
inamının üstə qonmuş
şübhələri təmizlədi.[1]

Cəbhədən qayıtmayan həyat yoldaşının pencəyini əzizləyən, onun dönəcəyi ümidinə sığınaraq "bu pencəkdə donub qalan neçə-neçə xatirəni oxşayaraq", "barmaqları yana-yana ütü çəkən" qadının halını təsvir etmək üçün şair səciyyələndirici ifadələrdən elə həssaslıqla istifadə edir ki, bundan mükəmməlini düşünmək olmur: "Düymələri bərkitmədi – ümidini bərkitdi", "su səpmədi paltar üstə; gözlərindən damla-damla axıb gələn məhəbbətin alovunda isladaraq... bəlkələrə ütü çəkdi, inamına ütü çəkdi"[2] və s. Bəlkə də "çoxlarına məzar olan səngərləri qucaqlayıb yatan" ərinin "varlığını onun qolsuz qalan qol saatındakı titrək səsdə belə hiss etməyə çalışan, ümidinin yox olmasına imkan verməyən, ağrılı-acılı təsəllisini tapmağa can atan bu gəlinin sədaqətinə, vəfasına şəkillərdən bir gülərüz sevinirdi"... Belə bir təqdimatda şair sədaqətin, vəfanın sözlərlə möhtəşəm abidəsini yaradır. "Əlsiz qalan yetim ciblər" şeiri poeziyamızın müharibə mövzusunda yazılmış ən təsirli sənət nümunələrindən biridir.

İllər keçdikdən sonra da müharibənin yetim uşaqların həyatında silinməz izləri İsa İsmayılzadənin misralarında ağrısını əks etdirirdi.

Biz böyüdük, yaşa dolduq,
Ataların, qardaşların
qəbri ilə yaşıd olduq.
Hələ gözü yolda olan
anaların, bacıların, gəlinlərin,
səbri ilə yaşıd olduq.
...Kainatın güllələnmiş
yuxusuyla yaşıd olduq.[3]

[1] İsa İsmayılzadə. Ulduzların ad günü. – Bakı: Gənclik, 1968, s.34
[2] Yenə orada, s.34
[3] Yenə orada, s.34

Məmməd Araz "Şairin taleyi" adlı məqaləsində yazır: "İsa İsmayılzadənin bütün şeirlərinin, demək olar ki, əvvəli də vətəndir, axırı da vətən. Vətən adı çəkdiyi şeirlərində də belədir, çəkmədiyində də. "Onun üçün vətən vətənin daşından başlanır, şairin qəlbinə, əqidəsinə, bu qəlbi, bu əqidəni pasportlaşdıran misralarına qədər davam edir. O, bir üzü işıq, bir üzü qaranlıq dünyanı, az qalır deyəm ki, Araz qırağından görür, Kür boyundan görür, Qarabulaq yaylağından görür".[1]

Qatar gedir Araz boyu
Gedir qıvrıla-qıvrıla.
Qarşı dağlar görünəndə
Qaldım qovrula-qovrula.

Araz axır sərhəd boyu,
Axıb gedir lilli-lilli.
Qatar gedir həsrət boyu
Həsrətimin paraleli.[2]

"Vətən qayaları", "Tikanlı məftillər qaldı o "üzdə", "Vətən nəğməsi", "Od", "Çay daşları", "Ay ana, ay ata, ay doğma oba...", "Bir əli bu sahildə...", "Mən elə bilirdim...", "...Baxdım o dağlara qaş qaralanda", "Gövşəndə", "İllər gödəlir", "Yollarda", "Ömrümdən keçən qatar" və s. şeirlərində yurd, vətən sevgisinin gözləri yaşardacaq, çox dərin, kövrək, həm də ülvi bir poetik ifadəsi vardır, belə kövrək ifadə tərzi onu başqa şairlərdən fərqləndirən əsas xüsusiyyətdir.

İsa İsmayılzadənin lirikasında təbiətin yalnız rəsmi çəkilmir, burada söz, duyğular, şair, təbiət iç-içədir – vəhdətdədir, bir-biri ilə həmsöhbətdir. Onun təbiətlə dialoqunda da obrazlı ifadə fərqlidir:

Burda vaxtın ayağından daş asılıb.
Bu meşənin ortasında,
Bu sükutun ortasında
Yarpaqların yanağından yaş asılıb,
Çiçəklərin gözlərindən yaş asılıb.
Dinləyirəm –
Səssizlikdən qulaqlarım uğuldayır,
Səssizliyi yarıb keçən tənha cığır
Baş götürüb qaça-qaça
hardasa bir yola çıxır.[3]

[1] İsa İsmayılzadə. Seçilmiş əsərləri. – Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1991, s.3
[2] İsa İsmayılzadə. Ömrümdən keçən qatar. – Bakı: Yazıçı, 1980, s.13
[3] İsa İsmayılzadə. Sükut uğuldayır qulaqlarımda / Ömrümdən keçən qatar. – Bakı: Yazıçı, 1980, s.53

“Çaylar çiçəkləyir yağış yağanda”, “İşıqlı yarpaqlar”, “Yarpaq odası”, “Çoxdan görüşmürük, çoxdan, a dağlar”, “Ucalıq” və s. şeirlərində obrazlı ifadələr gözəl peyzaj yaradan rəngarəng sözlər adi olsa da, qeyri-adi məna tutumuna malikdir:

Gözü açıq yatan dəniz,
Dəniz, səni kim oyatdı?
Ay acığı tutan dəniz,
Kim yuxuna ulduz atdı?[1]

İsa İsmayılzadə lirikasının mövzu dairəsi genişdir. Lakin özünün də qeyd etdiyi kimi şeirlərində “Qarayazı”, “qatar”, “yollar” və s. sözlər gözə çox dəyir. Onları şair “on səkkiz yaşımdan bu yana”, “Bakı-Tbilisi” qatarı ilə bağlandığı yerin “söz kölgələri” adlandırır. “Gecələr məni yuxudan səksəndirib oyadan qəfil misralarda bu sözün nəfəsini həmişə duymuşam, kölgəsini həmişə hiss eləmişəm, görmüşəm”,[2] – deyir şair. Bu yolların onu yanına apardığı anası ilə bağlı həsrət notları da şeirlərində duyulur. Hətta kitablarından birinin adının “Anamla söhbət” olması da təsadüfi deyildir.

“Ana, mənəm danışan” şeirində şairin analı dünyasının ən həssas məqamının fərqli poetik ifadəsi insan ruhunun sözlərə düzülmüş lirik notları kimidir. Anası ilə telefonla danışan şairin psixoloji halının ifadə manerası və sözlə təqdimatı duyğuların ssenarisi kimi göz önündə canlandırma effekti yaradır:

Beş yüz kilometr intizar boyu
Uzanan qəhəri udmaq çətindir.
Necə deyim – gözlə, ana,
Qəhər məni boğur, ana,
Səsim açılar indi...
“Əlo, əlo” – deyib gözləyir o da
Ayrılığın, intizarın o başında...[3]

Elinə, obasına, anasına bağlılıq İsa İsmayılzadənin şeirlərində onun ömrünü mənalandıran poetik ifadələrdə öz əksini tapır:

Ay ana, ay ata, ay doğma oba,
Siz mənə,
Siz mənə bir ömrü halal eyləyin.[4]

[1] İsa İsmayılzadə. Salam yer kürəsi. – Bakı: Gənclik, 1982, s.106
[2] İsa İsmayılzadə. Anamla söhbət. – Bakı: Yazıçı, 1985, s.11
[3] İsa İsmayılzadə. Ömrümdən keçən qatar. – Bakı: Yazıçı, 1980, s.50
[4] İsa İsmayılzadə. Anamla söhbət. – Bakı: Yazıçı, 1985, s.11

1960-1970-ci illərin fəlsəfi lirikasında İnsan və Zaman, İnsan və Dünya ədəbi problemlərinin poetik həlli baxımından insan ömrünün mənasını, mahiyyətini müəyyənləşdirmək mövqeyindən fərqlənən şairlərdən biri də İsa İsmayılzadə olmuşdur. Onun fəlsəfi konsepsiyaları fərqli, özünəməxsus poetik ifadəyə malikdir. İstər müharibə mövzusunda, istər vətən, təbiət, Arazla bağlı, anasından, dünyadan, məhəbbətdən söhbət açanda belə, onun lirik "mən"i bütün ruhu ilə, mənəvi dünyası ilə açılır.

"Gördüm bu dünyanın hər üzünü mən" və bununla belə "Bu dünyaya bir də qayıtmağım var", – deyərək "Qələmin altında ölüm titrəyir"i bilərəkdən yaşam yükünün ağırlığını ömrünün sonlarında Qarabağ hadisələrində belə ifadə etmişdir: "İndi bizim suyumuzu sıxıb çıxarır: torpağı şaqqalanmış, yurd-yuvası viran qalmış bir xalqın, düşmən tapdağı altında inləyən bir məmləkətin, faciələrimizi görmək istəməyən kor dünyanın, harayımızı, qışqırığımızı eşitmək istəməyən, kar dünyanın şairi olmaq mənim aləmimdə ən böyük bir məşəqqətdir. Hünərin var, bu məşəqqət içində nəfəs al, görüm, necə nəfəs alırsan, yaz görüm, necə yazırsan. Hərdəm qayğılardan canımı qurtarım deyə, nəfəsimi dərim deyə, şahmat oynayıram, onda da elə bil, özüm özümlə oynayıram; məkrli, min bir maskalı, hikkəli zamanla oynayıram. Bu oyunda kim uda, kim uduza – Allah bilir..." (Fevral, 1996).

Bu səmimi şair özünüifadəsinin əksini "Haran ağrıyır, Vətən" poemasının poetik misralarında da aydın görmək olur:

Özü boyda başdaşıdı Qarabağ,
çöküb, çöküb sinəmizə.
Dirigözlü şəhid olduq –
Tez olun, Vətən boyda
Şəhid qəbri qazın bizə...[1]

Qarabağ müharibəsində hadisələrin siyasi yozumu, dəhşət və faciələrin inikası, təsviri ilə bağlı şeir və poemalar çox yazılmışdır, lakin İsa İsmayılzadənin bu kiçikhəcmli poeması onlardan fərqlənir. Bu poemada sözlə təqdim olunan od-alov, fəlakət, ölüm-itim, Vətənin xaraba qalmış görünüşünün təqdimi, təsviri deyil, şəhidlərinin qanında boğulan Qarabağ adlı bir şəhid vətənin ağrısının özüdür. Hər misranın informasiya yükü bu ağrını ifadə edən şeir dilinin poetik tutumuna heyrət doğurur. Şairin səmimi, həm də qeyri-adi təqdimatında insan oğlunun yaşaya bilməyəcəyi bir yükün-ağrının sözlərlə çəkilmiş faciəsidir "Haran ağrayır, Vətən":

Özü boyda göz yaşıdı Qarabağ,
Dərdimizin başdaşıdı.

[1] İsa İsmayılzadə. Gözləyin, dünyaya qayıtmağım var... – Bakı: Qanun, 2006, s.261

Əkiz-əkiz qəbirlərdi
Vətən boyu səpələnib.
Yurdum – torpağım kimi
qəbir-qəbir qəlpələnib...[1]

İsa İsmayılzadənin bir sıra kiçikhəcmli, yığcam, maraqlı poemaları da vardır. "1937" (1966), "İçəri şəhər" (1968), "Böyüdülmüş şəkillər" (1976), "Torpağın nəbzi vurur" (1979), "Danışmayın, susun görək" (1979), "Bir səs gəlir üstümüzə" (1983), "İndicə zəng çalınacaq" (1983), "Anamla söhbət" (1983-84), "Uçacağam buludların yanına" (1984), "Bir ömürlük gecə" (1985-86), "Alışırıq... Barışırıq" (1987), "Çernobıl ağrısı" (1988) kimi poemalar İsa İsmayılzadənin müasir dünyaya bədii-fəlsəfi baxışını, ictimai fikrin və insan psixologiyasının ümumi mənzərəsini əks etdirir.

"1937" adlı poema 1989-cu ildə "Azərbaycan" jurnalının birinci sayında dərc olunmuşdur. Görkəmli ədəbiyyatşünas Kamal Talıbzadə "Ədəbiyyat və incəsənət" qəzetində (30 iyun 1989) "Məhəbbət və nifrət poeması" adlı məqaləsində yazırdı: "1937"nin hər bəndi yığcam, aforistik deyilmiş bir mənanı, bir hadisəni ifadə edir. 37-nin əvvəli də, sonu da 30-dan sonrakı mərhələnin... ağrılı-acılı, arzulu-ümidli günlərindən söhbət açılır. ...Kim insana məhəbbət himnini oxumaq istəyirsə, "1937"ni oxusun".[2]

"Böyüdülmüş şəkillər" poemasında müharibədən qayıtmayan, qəhrəmanlıqla həlak olanların unudulmayan xatirələri, şəkilə dönmüş ömürləri qələmə alınmışdır. 25 ildən sonra şəkilçinin böyütdüyü şəkillər qəhrəmanları əvəz edir, kəndə ata əvəzinə, oğul əvəzinə şəkillər gəlir:

Başlarına and içən oldu şəkillərin...
Xeyrə-şərə qarışdılar,
El içində şəkil kimi
Yaşamağa alışdılar.[3]

İsa İsmayılzadənin milli müstəqilliyə qovuşduğumuz illərdə yazdığı poemalardan biri "Tanrım, bağışla məni..." adlanır. 1995-ci ildə qələmə alınan poema tanrıya xitab formasında yazılmış, sərt qadağaların, ideoloji yasaqların nəticəsində insanın daxili-mənəvi tarazlığını, həyata, dünyaya, insanlığa inamını ölməyə qoymayan yaradana üz tutması təsadüfi deyildi.

Poema "Qurani-Kərim"in Bəqərə surəsindən gətirilən müqəddəs kəlamlarla başlayır, daha çox fərdi hiss və duyğuların, yaşantıların məhsulu

[1] İsa İsmayılzadə. Gözləyin, dünyaya qayıtmağım var... – Bakı: Qanun, 2006, s.262
[2] Kamal Talıbzadə. Məhəbbət və nifrət poeması. – Bakı: "Ədəbiyyat və incəsənət" qəzeti, 1989, 30 iyun
[3] İsa İsmayılzadə. Torpaq nəğməsi. – Bakı: Gənclik, 1977, s.93

olan fikir və düşüncələr əslində bütün insanlığı narahat edəcək mətləblərin ifadəsi ilə diqqəti çəkir:

Nəfəsinlə isinən bu torpağın üstündə,
Baxışına küsənən bu Günəşin altında.
Varlığına güvənən bu Göylərin altında
Adın çəkiləndə ayağa qalxan
bəndələrin adından
Sənə üz tuturam, Tanrım...[1]

Poema strukturuna və təhkiyə tərzinə görə daha çox poema-monoloq təsiri bağışlayır. Azərbaycan poeziyasında ilk cəsarətli tövbə, etiraf kimi Allahdan əfv diləməyin səmimi ifadəsi olan bu poema şairin həyat fəlsəfəsinin kamillik məqamının inikasıdır.

İsa İsmayılzadə "Mənim qəribə dünyam" adlı kiçik bir povest də yazmışdı (1967), lakin onu çap etdirməmişdi. Bu lirik-fantastik melodramla iyirmi altı yaşlı şair öz qələmini nəsrdə də sınamış, yəqin ki, ürəyincə alınmadığından uzun müddət üzə çıxarmamışdı. Sonralar povestin üzərində ixtisarlar aparıb, düzəlişlər edib, səliqəyə salsa da, dərc etdirməmişdi.

"Mənim qəribə dünyam" maraqlı mövzuda, səmimi və lirik bir dildə yazılmışdır. Dövrün gənclərinin sevgi və duyğularını, romantik ovqatını əks etdirən bu povestdə belə, İsa İsmayılzadənin onu başqalarından fərqləndirən üslubu, deyim tərzi, həssas şair təxəyyülü özünü göstərir.

1970-1990-cı illərdə "Azərbaycan", "Ulduz" jurnallarında, müxtəlif qəzetlərdə İsa İsmayılzadənin bir çox mövzuda yazıları dərc olunmuşdu. Azərbaycan və dünya klassikləri haqqında məqalələri, rus, gürcü və dünya poeziyasından etdiyi tərcümələr, gənc yazarların əsərləri haqqında fikirləri və ya tənqidləri, həyatın və incəsənətin müxtəlif sahələrindən bəhs edən publisist yazıları və s. onun ədəbiyyat və incəsənətimizin inkişafındakı xidmətlərini əks etdirir.

İsa İsmayılzadə mövzusundan, janrından asılı olmayaraq, hər yazdığı ilə azərbaycanlı, vətənpərvər, humanist, həyatsevər, xalqına, elinə-obasına sədaqətli, vətənin ağrısını dərindən yaşayan bir oğul olduğunu göstərmişdir.

XX əsrin II yarısında Azərbaycan poeziyasında bənzərsiz bədii üslubu ilə seçilən istedadlı şair, publisist, tərcüməçi İsa İsmayılzadə öz yaradıcılığı ilə vətənpərvər bir sənətkar mövqeyini təsdiqləmiş, söz sənətində novatorluğu ilə Azərbaycan şeirinin səviyyəsini yüksəkdə tuta bilmişdir.

"Adsız-sansız", təmənnasız şair ömrünü xalqına, vətəninə həsr edən şair oğlunu bu xalq, bu vətən dönə-dönə oxuyacaq, oxuduqca sevəcək və ona "bir şair ömrünü halal eyləyəcək".

[1] İsa İsmayılzadə. Gözləyin, dünyaya qayıtmağım var... – Bakı: Qanun, 2006, s.272

ŞAHMAR ƏKBƏRZADƏ
(1941-2000)

Şahmar Əkbərzadə Azərbaycan xalqının milli dəyərlərini – mədəniyyətini, tarixini, təbiətini ürəkdən sevən və problemlərini üzə çıxararaq mütəmadi olaraq həlli yolları arayan varlığında "Vətən" yaşadan şair idi. O uşaqlığını müharibənin cəmiyyətə vurduğu zərbələrin, ağrı-acıların fəsadları, gəncliyini Arazın ayırdığı, ikiyə böldüyü bir millətinin taleyi, Vətən həsrəti, göynərtisi içərisində yaşadı... Şahmar Əkbərzadənin poeziyasını, bütün yaradıcılığını parçalanmış Azərbaycanın yaraları üzərinə sərilmiş dəfnə yarpağına, sarınmış Vətən bayrağına bənzətmək olar.

Həyatı. Şahmar Əkbər oğlu Əkbərzadə 28 dekabr 1941-ci ildə Ağdam rayonunun Çəmənli kəndində dünyaya göz açmış, Mahrızlı kənd orta məktəbini bitirərək (1958), Şuşa Pedaqoji Texnikumunda oxumuş (1958-1960), təhsilini davam etdirərək Bakı Slavyan Universitetinin (sabiq M.F.Axundzadə adına Azərbaycan Pedaqoji Rus Dili və Ədəbiyyatı İnstitutu) Rus dili və ədəbiyyatı şöbəsini müəllim ixtisası üzrə başa vurmuşdur. Bir müddət doğulub boya-başa çatdığı Çəmənli kəndində müəllim işləyən Ş.Əkbərzadə 1968-ci ildə Bakı şəhərinə qayıtmış, Kənd Təsərrüfatı Nazirliyinin nəşriyyat şöbəsində redaktor (1968-1973), dövrün ən populyar mətbuat orqanları olan "Azərbaycan gəncləri" (1973-1978), "Kommunist" (1978-1990) qəzetlərində şöbə müdiri vəzifəsində çalışmışdır. Mədəniyyət Nazirliyinin 1990-cı ildə təsis etdiyi "Mədəniyyət" qəzetinin baş redaktoru vəzifəsində ömrünün sonunadək şərəflə işləmiş, Azərbaycan mədəniyyətinin, ədəbiyyatının alovlu təbliğatçısına çevrilmişdir. Onun Türkiyədən Yavuz Büləndi Bakülər, Əli Yavuz Akpınar, Quzey Kıbrısdan Əşbər Sərakınçı, Qazaxıstandan Oljas Süleymenov, Qırğızıstandan Çingiz Aytmatov ilə yaxın dostluq və yaradıcılıq əlaqələri milli ədəbiyyatın və mədəniyyətin üfüqlərini daha da genişləndirmişdir.

Şahmar Əkbərzadənin əsərləri xarici dillərə tərcümə olunmuş, yüksək bədii-estetik səviyyəli poeziyasına görə "Qızıl qələm" (1983) və "Araz" (1996) ali ədəbi mükafatı ilə təltif edilmişdir. Ş.Əkbərzadə Türkiyədə, Çexoslovakiyada, İranda, İraqda olmuş, Kərbəla, Nəcəf, Kufə və Kərkük şəhərlərini ziyarət etmişdir.

Şahmar Əkbərzadənin ürək xəstəliyindən vəfat etdiyini qəfil eşidən həmyerlisi və dostu, yazıçı Mustafa Çəmənli onun ruhuna üz tutub yazırdı: "Sonuncu kitabının adını "Haqqa pəncərə" qoymuşdun. Çünki sən haqqı tanıyan, üzünü haqqa tutan, haqqa qapı açan mərd bir kişi idin. Sən alovlu bir

natiq idin. Sən danışanda gözlərimiz önündə odsuz-ocaqsız yanardın. Buna ürək dözərdimi qardaş! Dözmədi də. Dağ boyda Qarabağ dərdi də üstəlik...[1]

İstedadlı şair, publisist Şahmar Əkbərzadə 30 avqust 2000-ci ildə Bakı şəhərində vəfat etmiş, Xırdalan qəsəbə qəbiristanlığında dəfn olunmuşdur.

Yaradıcılığı. Şahmar Əkbərzadə orta məktəb illərindən şeir yazmağa başlamış, "Çağırış" adlı uğurlu ilk qələm təcrübəsini 23 may 1958-ci ildə Ağdam rayonunun "Lenin yolu" adlı qəzetində dərc etdirmişdir. Onun "Yüksəlişdə" adlı ilk şeirlər kitabı isə 1969-cu ildə Azərnəşrdə işıq üzü görmüş, gənclik tərəfindən rəğbətlə qarşılanmışdır.

Ədəbiyyat tarixinə altmışıncılar ədəbi nəsli kimi daxil olan, xüsusilə poeziya sahəsində Əli Kərim, Məmməd Araz, Xəlil Rza, Fikrət Qoca, Ramiz Rövşən, Ələkbər Salahzadə, Hüseyn Arif, Nəriman Həsənzadə və Şahmar Əkbərzadənin şeirləri ədəbiyyatda milli müəyyənlik uğrunda mübarizələrin tarixi-ideoloji yekunu idi. Bu dövrün ədəbi-tarixi xarakterini səciyyələndirən Heydər Əliyev Azərbaycan Yazıçılarının X qurultayındakı nitqində demişdir: "Tariximizin hansı əsrinə, hansı səhifəsinə baxsan orada şairlərin, yazıçıların, mədəniyyət xadimlərinin izlərini, əsərlərini görəcəksən. Bu xalqımızda bu gün, dünən deyil, əsrlərdən-əsrlərə keçib gələn bir ənənədir. Şeirə, şairə, söz ustasına, zəkalı insana həmişə hörmət, ehtiram olmuşdur. Məmnuniyyət hissi ilə deməliyəm ki, XX əsrdə – çox mürəkkəb ziddiyyətli proseslərlə böyük dəyişikliklərlə, müharibələrlə, faciələrlə dolu əsrdə bizim xalqımızın bu gözəl ənənəsi nəinki yaşayıbdır, hətta cəsarətlə demək olar ki, daha yüksəklərə qalxıbdır".[2] Azərbaycan İstiqlalını öz poeziyası ilə təqdim edən, şeirdə millilik və müasirliyin vəhdətinə nail olmuş Xalq şairi Məmməd Araz, Bəxtiyar Vahabzadə və Xəlil Rza ilə yanaşı, Şahmar Əkbərzadə yaşca onlardan kiçik olsa da, xalq həyatını dərindən bilən, tarixi faciələrimizi ürək ağrısı ilə qələmə alan, ümumən milli müəyyənlik məcrasında düşünən mütəfəkkir şairlərdəndir. Bu bir faktdır ki, adları qeyd olunan bu şairlər daşından yarpağına qədər, suyundan torpağına qədər, dağından bulağına qədər, hər zaman Vətənin azadlığını və istiqlalını tərənnüm etmişlər. Danılmaz həqiqətdir ki, poeziyada Vətənnamə yaradan bu şairlərin yaradıcılığında totalitar sovet rejiminə qarşı barışmaz mövqe 1960-1990-cı illərə təsadüf edir. İlk şeirlərini 1950-1960-cı illərdə yazan altmışıncılar nəslinin görkəmli nümayəndələri kimi tanınmış Bəxtiyar Vahabzadə, Məmməd Araz, Xəlil Rza, Məmməd Aslanla möhkəm dostluq və yaradıcılıq münasibətləri olan Şahmar Əkbərzadə poeziyaya mövcud totalitar rejimlə mübarizədən başladı. Bu illərin və bu şairlərin ədəbi tarixi dəyərini verən Ulu öndər Heydər Əliyev 1995-ci ildə demişdir: "Milli azadlığa nail olmaq üçün,

[1] Mustafa Çəmənli. Şahmar heyy! Ürəyimdən kimlər keçdi. – Bakı: Xan, 2017, s.246-248
[2] Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı. – Bakı: Ozan, 1999, s.413

xüsusən xalqımızda milli oyanış, milli dirçəliş, milli ruhun canlanması lazımdır. Bu da asan bir proses deyildir, çox vaxt tələb eyləyən prosesdir".[1] Ədəbiyyat bir elm olmaqla yanaşı, həm də varlığın təcəssümüdür. Bəşəriyyətin elə bir hiss-həyəcanı yoxdur ki, ədəbiyyatın anlayışından kənarda qalsın. Ədəbiyyat həm də sivilizasiyanın tarixi kimi xalqın düçar olduğu tarixi hadisələrin duyğularını bölüşür. Məhz bu səbəbdən Azərbaycan şeiri əsrlərdir sözü uca tutub, özündə bir sıra dəyərləri qoruyaraq insanın ruhuna hopmuşdur.

Şahmar Əkbərzadənin şeirini, şairliyini ikihecalı bir sözlə ifadə etsək yəqin ki, bu "həsrət" olar. "Çəmənləri oxşayanda küləklər, / Göydən yerə həsəd çəkər mələklər" (İzlərimə həyan qal). Uşaqlıqda atasını itirən şairin ilk həsrəti ata qayğısı, ata nəvazişi ilə başlasa da, sonralar iki yerə bölünən Azərbaycan dərdi – Bütöv Azərbaycan həsrətinin ağrısı-acısı ilə davam etmişdi. Vətəninin ürəyindən keçərək ərşə çıxan tüstüsünü tikanlı məftillərdən uca tutaraq poeziyanın zərif qanadlarında göylərin varlığına qovuşdurur. "Tüstümüz bəxtəvərdir" şeirinin isə yalnız adı bəxtəvərdir:

Bacanızın çınqısından
Bacamıza pay düşür.
Tüstünüzlə tüstümüz
Göy üzündə öpüşür.[2]

Vətən həsrəti, vətən sevgisi bütün şeir-sənət aləminin əsas qayəsi olmuşdur. Dünyanın bütün şairlərinin ilk və son məhəbbəti Vətən olmuşdur. "İnsana bir yaşayış bağışlanmışdır, doyunca yaşamaq lazımdır. Amma bu dar dünyanı gərək elə keçəsən ki, öləndə arxaya baxıb, həsrət çəkməyəsən".[3]

Şahmar Əkbərzadənin dünyasından söz açan (1 may 1998) Bəxtiyar Vahabzadə "Şair içindəki zillətin-zillətə düçar olmamasına peşiman deyil... Bəladan ləzzət alan Məcnun ucalığı dilə gətirilir". Bəxtiyar Vahabzadənin dünyasında isə dərd könüldə yuvarlanıbdır:

Yolunda sabitdir, ancaq insanı
Gah yoxuşa çıxır, gah düzə dünya
Bir üzü gecədir, bir üzü gündüz,
Dayanıb özüylə üz-üzə dünya.[4]

Beləliklə, bu dövrün şairləri istiqlalın ülvi nurlu aləminə, Azərbaycan dünyasına daxil olaraq ümumilikdən uzaqlaşıb istiqlalın konkret obrazını yaratmağa çalışırlar.

---

[1] Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı. – Bakı: Ozan, 1999, s.250-252
[2] Şahmar Əkbərzadə. Tüstümüz. "Xarıbülbül nəğmələri". – Bakı: Azərnəşr, 2018. s.166
[3] Kamran Məmmədov. Yusif Vəzir Çəmənzəminli: həyatı və yaradıcılıq yolu. – Bakı: Elm, 1981
[4] Şahmar Əkbərzadə. Dünya. "Xarıbülbül nəğmələri". – Bakı: Azərnəşr, 2018, s.23-24

İkinci Dünya müharibəsinin soyuq qış günündə dünyaya gəlmiş Şahmar Əkbərzadənin taleyinə nəinki 41-45-ci illər müharibəsi, ondan sonrakı çətin günlər, hətta Birinci Qarabağ müharibəsini, erməni faşizmini yaşamaq da nəsib oldu.

Zəngəzurda, Laçında kəndirləri kəsilən,
Xocalıda, Şuşada bağrına dağ basılan.
Mərcanlıda, Tərtərdə şaqqalanıb asılan,
Yolum, layla, a layla![1]

Şahmar Əkbərzadənin lirik qəhrəmanı daima iztirab çəkir. O, planet və onun sakinləri üçün narahatlıq keçirir. Sivasda doğulan, təhsilini Qaziantep və Malatyada alan, əslən qarabağlı (ağdamlı) olan türk şairi, yazıçı Yavuz Bülənt Bakilər keçən zaman üstünə tökülən qan və qılınc-qalxana and içərək "Azerbaycan yüreğimde bir şahdamardır" şeirində Azərbaycana – Bəxtiyar Vahabzadəyə və Şahmar Əkbərzadəyə səslənərək yazırdı:

Götür beni Aras, al beni Hazar
Oğuzu Oğuzdan başka kim anlar
Yaram derin, melhemim yok, vaktim dar
Bir destan yazar gibi yaz beni Hazar
Duy beni Bahtiyar
Duy beni Şahmar.[2]

Şahmar Əkbərzadə və Vətən anlayışı. Vətəndaşlığın əsas şərti istiqlalın rəmzi olan "Vətən daşı"na dönməkdən ibarətdir. Bu şeirlərdə insan və Vətən daşda təcəssüm tapır. Adlarında da deyildiyi kimi qayalar, daşlar insandır. İnsan da vətən çiçəkləri içində müqəddəs missiyası olan istiqlal daşı, istiqlal qayasıdır. Qeyd etdiyimiz kimi Vətən həsrəti Şahmar Əkbərzadənin poeziyasının ümumən külliyyatının ana xəttidir. Professor Məmməd Qocayev "Həsrət və ümid şairi" adlı məqaləsində İstiqlal arzusu ilə yaşayan şairi "Şahmar Əkbərzadə haqqında düşünəndə həmişə onun həsrət və ümid dolu çöhrəsi yada düşür, nəyinsə həsrətini çəkdiyi, nəyinsə barəsində yanıqlı danışığı yada düşür" kimi müəyyənləşdirmişdir.

Kölgəm gün çıxanda sərhəddi aşdı,
Kölnümə qan damdı gözümdən mənim.
Keçib, o sahili gəzib dolaşdı,
Kölgəm qeyrətliymiş özümdən mənim.[3]

[1] Flora Xəlilzadə. Bu, vətən eşqi idi. – Bakı: "Azərbaycan" qəzeti, 2011, 29 dekabr
[2] Yavuz Bülent Bakiler. Azerbaycan Yüregimde Bir Şahdamardır. https://www.tarihistan.org/azerbaycan-yuregimde-bir-sahdamardir-yavuz-bulent-b-kiler/18152/
[3] Şahmar Əkbərzadə. Kölgəm. "Xarıbülbül nəğmələri". – Bakı: Azərnəşr, 2018, s.165-166

Xalq şairi Bəxtiyar Vahabzadə Şahmar Əkbərzadə misralarını ocağa aparan oda bənzədirdi: "Araz qırağında o taydan, bu taydan çör-çöp daşıyıb, yuva qura-qura "Vətəni vətənə birləşdirən" iki sağsağana bax, Azərbaycanın keşməkeşli taleyini anma görüm, necə anmırsan?"[1] Şahmar Əkbərzadə "Dağ-dağan" şeirində sərhəddə o taylı-bu taylı çör-çöplərdən yuva quran sağsağanların sevincinə həsəd apararaq bir şair qürurundan məğrur qiymətləndirirdi:

Sərhəd kənarında cavan yaşımda
Həsədim utanıb yerə girirdi.
İki quş dimdiyi ağac başında
Vətəni vətənə birləşdirirdi.[2]

Sovet rejiminin hakim olduğu bir dövrdə Şahmar Əkbərzadə Qarabağ torpağının zəngin guşələrini şeirlə, sözlə dünyaya bəyan edərək öyünürdü. İlk şeir yazdığı gündən doğma Azərbaycanını vəsf etməkdən doymurdu. Şair intuisiyası ilə doğma torpağından ayrılacağı hissi ilə daima yurduna can atırdı. Dünyanın hansı diyarında olursa olsun doğulduğu elini-obasını unutmayaraq, hər axşam doğma kəndində axşamlayırdı.

Gündüz ovuna bilir,
Alışanda ağ şamlar.
Can qürbətə sığınar,
Ruh Vətəndə axşamlar.[3]

Şair gündüzü günəşli loğman, göylə yer üzünü nura bələyən şirin mürgülərdə ayılan gülləri, yalçın qayaların şeh bənövşəsini qrimləyən Krım günlərində, 1986-cı ildə yazdığı şeirlərində də Vətənin həsrətini çəkir:

Dolaşar boynuna doğmalıq mehi
Hardasa bir dəli həsrət inləyər.
Kiminin bəxtinə bülbül cəh-cəhi
Kiminin bəxtini qəm qrimləyir.

Türkiyə və Azərbaycan ədəbi əlaqələrində milli istiqlal mövzusu həm nəzəri, həm də tarixi ictimai cəhətdən aktual olmuşdur. Ədəbiyyatda bu mövzu Ulu öndər Heydər Əliyevin irəli sürdüyü "bir millət iki dövlət" konsepsiyası əsasında işlənir. "Millətlərin ən qədimi və ən ulusunu, Türk oğlu türk olduğunu xalqa aşılamaq türkçülüyün əsaslarını təşkil edir (Əlibəy Hüseynzadə). Dünya Azərbaycan və Türk Diaspor Təşkilatları Rəhbərlərinin

[1] Vaqif Yusifli. Unudulmayan Şahmar Əkbərzadə. – Bakı: "Azərbaycan" qəzeti, 2021, 31 avqust. https://www.azerbaijan-news.az/az/posts/detail/unudulmayan-sahmar-ekberzade-1640637490

[2] Şahmar Əkbərzadə. Dağdağan. "Xarıbülbül nəğmələri". – Bakı: Azərnəşr, 2018, s.158 (296)

[3] Fidan Nizaməddin qızı. Haradasa bir dəli həsrət inləyir (Şahmar Əkbərzadə haqqında). – Bakı: "Ədalət" qəzeti, 2021, 28 dekabr

I Forumunda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev, nitqində türk xalqlarının birliyinin tarixi əhəmiyyətindən söz açmışdır: "Biz əsrlər boyu bir yerdə olmuşuq. Amma müxtəlif tarixi hadisələr bizim xalqlarımızı bir-birindən ayrı salmışdır. Yalnız Azərbaycanın dövlət müstəqilliyinin bərpasından sonra bizim birliyimiz də bərpa olundu və bu gün Türkiyə və Azərbaycan – iki qardaş ölkə bərabər addımlayır. Biz bütün tədbirlərdə bərabər iştirak edirik, aramızda ən yüksək fikir birliyi var".[1]

Şahmar Əkbərzadə yaradıcılığında fikirlər hər şeydən əvvəl, tarixlə daxili əlaqəsinin möhkəmləndiyini ifadə edən faktlar kimi çıxış edir. O, Çingiz Aytmatov, Oljas Süleymenov, Yevgeni Yevtuşenko, İrfan Ünvər Nəsrəddinoğlu, Yavuz Büləndi Bakilər və Cənubi Azərbaycan şairləri ilə mütəmadi əlaqə saxlayaraq, onları Azərbaycana dəvət edib, elmin və mədəniyyətin inkişafı istiqamətlərində müxtəlif tədbirlər keçirmişdi. Şahmar Əkbərzadənin "Güvəndiyim dağdır o!" məqaləsi adı qan yaddaşımızın "Şərəf lövhəsi"nə düşən nadir şəxsiyyətlərdən biri olan Cavad Heyət haqqındadır. "Azərbaycanımızın güneyini yer üzündə ləyaqətlə təmsil edən kim ola bilər?" sualını cavablandırmalı olsam, tərəddüd etmədən Cavad Heyəti nümunə gətirərəm – yazmışdı Ş.Əkbərzadə. Hər şeydən öncə ona görə ki, Cavad bəy kökünə-soyuna dərindən bağlı ensiklopedik biliyə malik vətəndaşdır. Bu ziyalını ilk dəfə Quzey Azərbaycana yerli-yataqlı tanıdan professor Nurəddin Rza məqalələrin birində onu "Cavad Heyətim mənim" adlandırır. Şahmar Əkbərzadə, Cavad Heyəti Azərbaycandan yola salarkən Bəxtiyardan, Xududan Şəhriyara dərin mənalı salam göndərir:

Mən əvəzdən Savalanı soraqla,
Nərgizini, laləsini qucaqla,
Təbrizdə Ərk qalasını qucaqla,
Əlincənin duruşundan Salam de!
Gözləyirik müjdəsini hər ilin,
Biz tərəfə köçəcəkmi bir gəlin?
Araz üstə boyun bükən gözəlin
Göz yaşına göz yaşımdan salam de![2]

Şahmar Əkbərzadənin telefon kitabçasındakı bu müxtəsər qeyd: "Bakilərin Qarabağda dəfn olunmuş babaları və babasının qardaşları Hacəli, Murad, Fərənşad, Məhəmməd, Cabirdi. Qaraağacı qəbiristanlığında axtarılmalı, yaxud Ergidəki qədim məzarlıqda aranmalı" Yavuz Büləndi Bakilərə

[1] İlham Əliyev. Dünya Azərbaycan və türk diaspor təşkilatları rəhbərlərinin I forumunda nitq. Azərtac. 2007, 9 mart. https://azertag.az/xeber/dunya_azerbaycan_ve_turk_diaspor_teskilatlari_rehberlerinin_i_forumunda_azerbaycan_prezidenti_ilham_eliyevin_nitqi-371021

[2] Şahmar Əkbərzadə. Salam de. "Xarıbülbül nəğmələri". – Bakı: Azərnəşr, 2018, s.156-157

aiddir. “O, geniş düşüncəli, dünya mədəniyyətinin dəyərlərini əxz edən, müasir aləmin nəbzini duyan ziyalı idi”.[1] Şahmar Əkbərzadənin türk dünyası ilə bağlı şeirləri taleyin poeziyaya dönmüş təcəssümüdür:

Uçurduq “Ankara-Bakı” reysində
Gözlükdən boylanıb baxırdım yerə.
Gözüm sataşanda Göyçə gölünə,
Göydə tabutuma döndü təyyarə.[2]

1980-ci il dekabr ayının 28-də “Novıy mir” jurnalının 11-ci nömrəsində çap olunmuş “Gün var əsrə bərabər” romanını oxuyub bitirən Şahmar Əkbərzadə hisslərinin yanğısı ilə əsərin yazılma yeri və tarixinə çatanda “Çolpon-Ata, dekabr 1979-mart 1980” bəlkə də ağlına gəlməzdi ki, bu əsərin yazıldığı otaqda ona gecələmək qismət olacaq. “O zaman xəyalıma hardan gələ bilərdi ki, 1985-ci il noyabr ayının 17-də Azərbaycan paytaxtındakı qonaq evinin 15 nömrəli otağında akademik Çingiz Aytmatov Odlar diyarında sehrləndiyindən tarixi söhbətlər edəcək, üstəlik Frunzeyə (indiki Bişkek) qayıdandan sonra belə bir teleqram göndərəcək: “Mənim Azərbaycan torpağına minnətdarlığımın ölçüsü yoxdur”. Yazıçı respublikamıza ikinci dəfə gəlirdi. Onu bu dəfə Bakıya gətirən Şahmar Əkbərzadənin istəyi, təkidi və Bəxtiyar Vahabzadənin poeziyası idi. Şahmar Əkbərzadənin: “Bəxtiyar Vahabzadənin poetik dünyagörüşündəki hansı cəhətlər diqqətinizi cəlb edir?” sualını Çingiz Aytmatov belə cavablandırırdı: “Bizi əhatə edən aləmdə nə varsa, Bəxtiyarı dərindən-dərinə düşündürür: xeyirlə şəri, gözəlliklə eybəcərliyi, böyüklüklə kiçikliyi, bir sözlə insan ruhunun ali və xırda duyğularını poeziya səviyyəsinə qaldırmaq ehtirası Bəxtiyarın fitrətindədir”.[3] Üç gün müddətində müxtəlif məqamlarda xeyli söhbətləşmişik, yazmışdı Şahmar Əkbərzadə. Əslində bu adi söhbətlər deyildi, qan yaddaşı idi, küll halında mədəniyyətimizə verilən tarixi qiymət idi. Çingiz Aytmatov Üzeyir Hacıbəyovu, Səməd Vurğunu, Qara Qarayevi, Fikrət Əmirovu dərin hörmətlə yad edirdi. Özünü heç vaxt şair hesab etməyən yazıçı şairliyi xalqın “üzəngisi” adlandırırdı. Onun fikrincə, xalq öz istinadgahını poeziyada tapır. Çünki əsl şair xalqının düşüncə tərcümanıdır.

Şahmar Əkbərzadənin 1998-ci ildə Bakıda çap olunmuş “Haqqa pəncərə” adlı şeirlər kitabı, 2000-ci ildə həm kiril, həm də latın əlifbası ilə Ankarada nəşr edilmişdir. Kitab Türkiyənin tanınmış ədəbiyyatşünas alimi İrfan Ünvər Nəsirəddinoğlunun Şahmar Əkbərzadə haqqında düşüncələri –

[1] Siyavuş Məmmədzadə. Şahmar dünyası. – Bakı: Təhsil, 2001
[2] Şahmar Əkbərzadə. Ankara-Bakı reysi. “Xarıbülbül nəğmələri”. – Bakı: Azərnəşr, 2018, s.98
[3] Şahmar Əkbərzadə. Bu torpaqdan doymadım: “Azərbaycan gəncləri” qəzeti, 21 dekabr 1985, s.4

“Sərhədsiz ruhumuz” sərlövhəli ön sözü ilə başlayır. Şahmarla ilk dəfə 1989-cu ildə, qırğızların görkəmli ozanı Toktokulun yubileyində tanış olduğunu xatırladan İ.Nəsirəddinoğlu həmin toplantıdakı çıxışı ilə hamını heyran qoyan şairi türkiyəli oxuculara cəsarətli, geniş ürəkli ədəbiyyat bilicisi, vətənpərvər bir insan kimi təqdim edir. Türkiyənin tanınmış ədəbiyyatşünas alimi Azərbaycan və Türkiyə arasında ədəbi əlaqələrin inkişafında böyük xidmətləri olan İrfan Ünvər Nəsirəddinoğlunun Şahmar Əkbərzadənin şeirlərindən ibarət “Haqqa pəncərə” (Ankara-2000) kitabının “Sərhədsiz ruhumuz” adlı ön sözündə şair haqqında düşüncələrinin maraqlı məqamlarından söz açır. İrfan Ünvər Nəsirəddinoğlu böyük yazar Çingiz Aytmatovun qonağı olan (1989) qırğızların görkəmli ozanı Toktokulun yubileydə Şahmar Əkbərzadə ilə tanışlığını yüksək qiymətləndirir: “Mən Əkbərzadə ilə Aytmatov dostluğunun nə demək olduğunu o gecə daha dərindən anladım”. Bəxtiyar Vahabzadənin, Məmməd Arazın, Nəbi Xəzrinin, Xəlil Rza Ulutürkün, Məmməd Aslanın və başqalarının Şahmar yaradıcılığına verdiyi yüksək qiymət onun poeziyasının zəmanəti idi. “Şahmar Əkbərzadə haqqında çox yazmaq olar, nə qədər yazılırsa-yazılsın, yenə azdır. O, bizim sərhədsiz ruhumuzdur”.[1]

İrfan Ünvər Nəsirəddinoğlu Türkiyəni, Şahmar Əkbərzadə isə Azərbaycanı təmsil etdiyi üçün on gün birlikdə vaxt keçirmələri bu kitabın yaranmasına səbəb olmuşdu. Çingiz Aytmatov türkcə danışan bütün ulusları təmsil edən şairləri, yazarları, sənət adamlarını Qırğızıstana ulu akının yubiley tədbirinə dəvət etmişdi. “Toktokul üçün düzənlənən yubileydə Şahmar könlümü və eləcə də bütün könülləri fəth etdi. O nə möhtəşəm konuşmaydı? O nə güclü xitabət ustalığı, o nə güclü səsləniş idi”. Yubiley iştirakçıları Şahmar Əkbərzadəni ayaq üstə alqışlayır, səsi televiziya ilə bütün Qırğızıstana yayılırdı. O, “perestroyka”dan, Qarabağ faciəsindən çəkinmədən ədalətlə tarixi faktları dilə gətirirdi. İstiqlal arzusu ilə yaşayan şair Toktokulun yüz il öncə yazdığı misraları qırğızca söylədikdən sonra izdihamlı salona üzünü tutaraq: “Toktokulun ölməz şair, ulu akın olduğuna şübhənizmi var?” soruşdu. Şaşırmış salondan “xeyr!” cavabını alan Şahmar fikrini bu şəkildə tamamlamışdı: “Belə isə bütün alimlərə, ədəbiyyat tarixçilərinə səslənirəm. Hansı haqla (yenə Haqq! – S.Ə) bütöv sovet ensiklopediyalardakı “Qırğız yazılı ədəbiyyat tarixi 1924-cü ildən, Aalı Tokambayevin “Oktyabr” şeiri ilə başlanır” fikrilə razılaşır və bu haqsızlığa susursunuz? Əgər qırğız ədəbiyyatı Aalı Tokambayevdən başlanırsa, bəs ondan 60 il öncə yazıb-yaradan Toktokul kimdir?”... Bişkekdə Çingiz Aytmatovun yubileyinin keçirildiyi günlərdən danışarkən Polad Bülbüloğlu qeyd edirdi ki, “Çingiz Aytmatovun yubileyinin keçirildiyi günləri xatırlayıram. Şənliyə dünyanın hər yerindən çoxsaylı qonaqlar gəlmişdi. Şahmarın alovlu çıxışları bütün iştirakçıları valeh edirdi. Onun

[1] İrfan Ünver Nasreddinoğlu. Gerçeğe Açılan Bir Pencere. – Ankara, 2000

söylədiyi bəzi kəlamlar hətta dillər əzbəri olmuşdu. Qəzetlər onun sözlərini manşetə çıxarmışdılar: "Yaşasın Qırğızıstan – Manasstan və Çingizistan!"[1]

Şahmar Əkbərzadə bütün Türk dünyası ilə elmi və mədəni əlaqələr qurmağa çalışırdı. Türk dünyası durduqca Şahmar Əkbərzadənin yaratdığı söz körpüsü də əbədi olaraq yaşayacaq.

Şahmar Əkbərzadənin publisistikası. Ötən əsrin son iyirmi ilini müasir publisistikamızın başlanğıc mərhələsi kimi adlandırmaq olar. Qarabağda baş verən təxribatlar, ölkənin ictimai-siyasi həyatındakı daxili problemlər, eyni zamanda müstəqillik uğrunda mübarizə mətbuat azadlığına şərait yaradaraq, publisistik yazılara marağı artırdı. Həmin illərdə vətənin dar günündə müdafiəyə olan tələbdən minlərlə publisistik əsərlər yarandı.

Şahmar Əkbərzadə istənilən dövrdə sözünü, mövqeyini mərd və qətiyyətlə bəyan edə bilirdi. 1988-ci ilin mart ayında "Kommunist" qəzetində "Biz tale qonşusuyuq..." adlı məqalədə otuz ildən artıq Şuşa Beynəlmiləl məktəbinin direktoruna ünvanladığı məktubunda Azərbaycan xalqının digər xalqlarla çoxəsrlik dostluq ənənələrindən, müxtəlif millətlərə mənsub insanların özünü yad, mağmın hiss etməməsindən söz açmışdır. Məktubda "...dostlarınızın içində ən çox ürək qızdırdığınız, ailəvi get-gəl etdiyiniz qəmxar olduğunuz ağdamlı Zeynal Məmmədovdur" fikrini irəli sürməsi də təsadüfi deyildir. Bu həmin Zeynal Məmmədov idi ki, Çingiz Aytmatov avtoqrafında yazmışdı: "...xoşbəxtəm ki, mənim Ağdamda Zeynal Hüseyn oğlu kimi dostum var..." Zeynal müəllimin böyük kitabxanası var idi, Ağdamda hamı ona "bala Marks" deyərdi. O, böyük tədbirlərin təşkilatçısı idi: "1983-cü ildə Üzümçülər evində yaradıcılıq gecəm keçirildi. Onun da təşkilatçısı Zeynal müəllim idi. Orda da Xudu müəllim, Famil müəllim, Şahmar müəllim nələr demədilər, nələr danışmadılar..."[2] Şahmar Əkbərzadənin publisistik çıxışlarında da yazıları kimi bütövlük hiss olunur. Yazılarının bütün fikirləri xarakterindən güc alır və xalqın marağından kənarda qalmırdı. 2000-ci ildə Respublika sarayında 20 Yanvar şəhidlərinin xatirəsinə həsr olunmuş mərasimdə ziyalıların çıxışı çox böyük əhəmiyyət kəsb edirdi. Bəxtiyar Vahabzadənin, Məzahir Süleymanzadənin, Yusif Kərimovun, Şahmar Əkbərzadənin və onlarca Azərbaycan ziyalılarının Prezident qarşısında çıxışlarında, 20 Yanvar hadisələrində müstəqilliyimiz uğrunda şəhid olmuş igidlərimiz, Qarabağ hadisələrinə münasibət, şəhid oğullarımızın şücaəti diqqət mərkəzində dayanırdı. Şahmar Əkbərzadə

[1] Vaqif Yusifli. İki Şahmar – iki nisgil. – Bakı: "Ədəbiyyat qəzeti", 2020, 23 sentyabr. https://edebiyyatqazeti.az/news/edebi-tenqid/6226-iki-sahmar-iki-nisgil

[2] Zəlimxan Yaqub. Ağdamda keçirdiyim günlərin hamısı ömrümə yazılasıdır. "Ədalət" qəzeti, 23 yanvar 2015, s.4

çıxışında 20 Yanvar hadisələrini xatırlayaraq belə bir günün müqəddəsliyindən bəhs edir və deyirdi: "20 Yanvar 1990-cı il tariximizin ən təzadlı günüdür. Paradoksa baxın: bu gün həm müsibətimizin, həm də milli iftixarımızın eyni vaxtda əbədiyyət qazandığı gündür. Qanlı Yanvarımızın, Şanlı Yanvara dönən günüdür. Əsarət bayrağının hürriyyət bayrağına çevrildiyi gündür. Mənə elə gəlir ki, bu gün ağlamağa, sızlamağa heç birimizin haqqı yoxdur".[1] Müəllif buradakı çıxışında da unutqanlıq məsələlərini yada salaraq bu gün artıq uzun illərdən sonra səhvlərimizdən nəticə çıxardığımızı alqışlayır. Belə görünür ki, 1988-ci ildən üzü bəri ədəbiyyatımızın publisistika qolunun üstünlük təşkil etməsi də xalqın ayılmasına, məsələlərə dəqiq münasibət bildirməsində təsirsiz ötüşməyib. Elə çıxışının sonunda da müəllif Azərbaycan xalqına çağırış olaraq Şəhidlərimizlə qürur duymaqla yanaşı, unutqan olmamağı tövsiyə edir. Publisistin çıxışında incə məqamlarla yanaşı, dərdlərimiz, problemlərimiz, bu çətin vəziyyətdən çıxış yolu və torpaqları qaytarmaq üçün yollar aranır. Şahmar Əkbərzadə onu narahat edən məsələlərə də toxunur – 20 Yanvar şəhidlərinə qara yaxaraq onları terrorist adlandıranları söz atəşinə tutur. Şəhid adını müqəddəs tutan Şahmar Əkbərzadə: "... onların gördüyü iş unudulmamalı, şəhid adı hər zaman uca məqamda olub, yenə də uca olmalıdır" deyirdi.

Milliliklə bəşəriliyin vəhdəti Şahmar Əkbərzadə şeirlərinin ideya-fəlsəfi məğzini təşkil edir. Bu poeziyanın İstiqlal arzusu ilə yaşayan şair yolu millilikdən bəşəriyyətə doğru gedir.

Şahmar Əkbərzadənin lirik qəhrəmanı onun şəxsiyyəti ilə yaxındır. Bu baxımdan şairin şeirlərində özünütəhlil və özüntənqid çox güclüdür. Burada şairin lirik "mən"i həsrət duyğusu ilə bütöv Azərbaycan arzusu ilə yaşayan qəhrəmanın aydın xarakteri ilə yaddaşlara iz salır. Şair vətənə həsrətlə yazdığı şeirlərində "Həsrət qoxlayıram çiçək yerinə" niskili ilə yazır.

Sən iki hecalı bir sözsən, Və-tən,
Sətirdən sətirə keçirilmisən.
Sui-qəsd ediblər şan-şərəfinə
Edam olunubdur beş hərfin də,
"Və" keçib Arazın o tərəfinə,
"Tən" qalıb Arazın bu tərəfində.[2]

Şahmar Əkbərzadə yüksək poetik amallara və ictimai ideallara xidmət edən bənzərsiz poeziyası, kəsərli, dəyərli publisistikası ilə ədəbiyyatımızda öz yerini, mövqeyini daha da möhkəmləndirmişdir.

[1] Şahmar Əkbərzadə. Çıxış. – Bakı: "Respublika" qəzeti, 2000, 20 yanvar
[2] Şahmar Əkbərzadə. Vətən. "Xarıbülbül nəğmələri". – Bakı: Azərnəşr, 2018, s.25

ƏHMƏD ELBRUS
(1941-2006)

Azərbaycan ədəbiyyatının inkişafında xidmətlər göstərmiş, milli poeziyamızın istedadlı nümayəndələrindən biri, şair, publisist, ədəbiyyatşünas-alim Əhməd Elbrus 1960-1990-cı illər elmi, ədəbi-bədii mühitində dəyərli ictimai məzmunlu lirik şeirlərin, poemaların, elmi-publisistik oçerklərin və ciddi tədqiqatların müəllifi kimi tanınmışdır. Onun yaradıcılığının aparıcı yönlərində orta əsrlərə dair ədəbiyyatşünaslıq məsələləri, çağdaş zamanla səsləşən bədii-fəlsəfi poeziya nümunələri, orijinal ifadə tərzi, ənənəvi mövzulara fərqli, yeni baxış mühüm yer tutur.

Həyatı. Əhməd Elbrus (Elbrus Misir oğlu Əhmədov) 1941-cü il 17 may[1] tarixində (Ə.Elbrusun doğum tarixi müxtəlif mənbələrdə fərqli olaraq 1943 və 1944-cü il kimi də qeyd edilmişdir) Ağcabədi rayonunun Salmanbəyli kəndində dünyaya göz açmışdır. Ağcabədi şəhər 5 saylı orta məktəbini 1959-cu ildə əla qiymətlərlə başa vuran Elbrus Misir oğlu 1960-cı ildə Bakı Dövlət Universitetinin Filologiya fakültəsinin əyani şöbəsinə daxil olmuş, ölkənin nüfuzlu və təməli Xalq Cümhuriyyəti dövründə (1919) qoyulmuş elmi-pedaqoji müəssisəsini o, 1965-ci ildə bitirmişdir. Ali təhsil aldıqdan sonra, 1965-1969-cu illərdə jurnalistlik fəaliyyəti ilə məşğul olmuş, Azərbaycan Dövlət Radio və Televiziya Verilişləri Komitəsində redaktor vəzifəsində çalışmış, redaktəetmə sənətinin sirlərinə dərindən yiyələnərək poeziya yaradıcılığına, elmi-tədqiqat işlərinə ciddi həvəs göstərmişdir.

Əhməd Elbrus 1969-ci ildə AEA Nizami adına Ədəbiyyat İnstitutunun aspiranturasına daxil olmuş, Orta əsrlər Azərbaycan ədəbiyyatı şöbəsində XVI əsr şairi "Fədai və Şərq ədəbiyyatında "Bəxtiyarnamə"si"[*] mövzusunda dissertasiya üzərində araşdırmalar aparmış, 1971-ci ildə dissertasiyasını uğurla tamamlayaraq,[2] 1972-ci ilin sentyabr ayında AEA Nizami adına Ədəbiyyat və Dilçilik İnstitutunun Dissertasiya şurasında müdafiə etmiş[**]

---

[1] Elbrus Misir oğlu Əhmədov. Şəxsi iş. Kadrlar uçotunun şəxsi vərəqəsi. AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitunun Arxivi, qovluq № 75

[*] Fədainin "Bəxtiyarnamə" adlı əsərinin əlyazma surətini ilk dəfə Əməkdar jurnalist Qulam Məmmədli 1945-ci ildə Hacı Məhəmməd Ağa Naxçıvaninin kitabxanasından əldə etmiş, Təbrizdən Bakıya gətirmiş, ön söz yazaraq 1957-ci ildə çap etdirmişdir. Əsər Q.Məmmədlinin tərtibi, transliterasiyası və ön sözü saxlanılmaqla 2004-cü ildə latın qrafikası ilə təkrar nəşr olunmuşdur.

[2] Elbrus Misir oğlu Əhmədov "Fədai və Şərq ədəbiyyatında "Bəxtiyarnamə"si" / AEA Nizami adına Ədəbiyyat İnstitutu, Bakı, 1971. Azərbaycanda müdafiə olunmuş dissertasiyaların biblioqrafiyası (1920-1975, s.212

[**] Elbrus Misir oğlu Əhmədov. Filologiya elmləri namizədi diplomu № 007932

filologiya üzrə fəlsəfə doktoru (elmlər namizədi) elmi dərəcəsinə (1973, 18 may, diplom № 007932) layiq görülmüşdür.

Əhməd Elbrus Orta əsrlər Azərbaycan ədəbiyyatı şöbəsində kiçik elmi işçi vəzifəsində işləməklə yanaşı, Azərbaycan Dillər Universitetində ikiillik (1972-1973) fars dili üzrə tərcüməçi ixtisasına yiyələnmişdir. Azərbaycan EA Rəyasət Heyəti bu istedadlı gəncin işgüzarlığını yüksək qiymətləndirmiş, 22 iyun 1973-cü il tarixli 25 saylı qərarına əsasən o, kiçik elmi işçi vəzifəsindən "Elm" nəşriyyatına köçürülmüş, burada 1986-cı ilədək baş redaktor vəzifəsində çalışmış, xüsusi məsuliyyət hissi tələb olunan bu elmi sahəyə peşəkarlıqla rəhbərlik etmişdir.

Ə.Elbrusun irihəcmli tədqiqat işi "İnam və idrak poetikası" (Qədim və Orta əsrlər Şərq poetikasında hürufi rəmzlərin açılışı sistemləri)[1] adı ilə 2006-cı ildə "Bəstəkar" nəşriyyatında böyük tirajla çap edilmişdir.

Azərbaycan EA Rəyasət Heyətinin qərarı ilə təsis edilən və 1984-cü il 1 noyabr tarixindən fəaliyyətə başlayan "Elm" qəzetinin ilk redaktoru vəzifəsi də Ə.Elbrusa həvalə olunmuşdur. O, iki ilə yaxın müddətdə (1984-1986) "Elm" qəzetinin nəşriyyatla birlikdə ağır yükünü məhdud ştat vahidilə yerinə yetirmiş, redaktorluq sahəsində mükəmməl təcrübəyə yiyələnmişdir. Mətbuat sahəsində yüksək peşəkarlığa nail olmuş Ə.Elbrus 1987-1990-cı illərdə AYB-nin "Azərbaycan" jurnalında çalışmış, 1990-cı ildə "Azərbaycan" qəzetinin redaktor müavini vəzifəsində işləmişdir.

Azərbaycan Dövlət müstəqilliyini bərpa etdikdən sonra Əhməd Elbrus Türkiyə Cümhuriyyətindən Prof., Dr. Ziya Aydınla birlikdə 1991-ci ilin aprel-may aylarında "Amalımız xalqımıza xidmətdir" – epiqrafı ilə "Dədəm Qorqud" adlı Azərbaycanda ilk rəngli, müstəqil qəzet təsis etmişdi. Mətbuat orqanlarının rəngli formatda nəşr edilməsinin müşkülə çevrildiyi mürəkkəb bir zamanda "Dədəm Qorqud"un məqsədini, məramını, tutacağı yolu redaktorlar qəzetin ilk sayında açıq bəyan edirdilər: "Bizim "Dədəm Qorqud" siyasətə qarışmır. Lakin Respublikamızın bütövlüyünə, siyasi suverenliyinə, iqtisadi müstəqilliyinə və xalqımızın rifahına xidmət edən sağlam siyasəti müdafiə edir".[2]

Türkiyəli professor isə amacını daha konkret, aydın ifadə edərək yazırdı: "Mən və arxadaşım Əhməd Elbrus Azərbaycanda və Türkiyədə iki sevimli millətin, ayrı-ayrı vətənlərdə yaşasalar da, eyni qanı daşıyan qürurlu qardaşlarımızın sevgilərini bir-birilərinə çatdıra bilmələri üçün "Dədəm Qorqud" qəzetini çıxarıb, dünyanın hər tərəfində yaşayan Azərbaycan türkləri və ümumən türklərə bu qəzeti yollamaq amacındayıq".[3]

[1] Əhməd Elbrus. "İnam və idrak poetikası". – Bakı: Bəstəkar, 2006
[2] Əhməd Elbrus. "Dədəm Qorqud" qəzeti – Bakı, 1991, №1, s.1
[3] Ziya Aydın. "Dədəm Qorqud" qəzeti – Bakı, 1991, №1, s.1

Redaktorların əsas məqsədlərindən məlum olur ki, Azərbaycanda istiqlalın bərpa edilməsindən altı ay əvvəl təsis edilmiş "Dədəm Qorqud"un yayım coğrafiyasının Azərbaycanı, Türkiyəni və türklərin yaşadığı geniş bir arealı əhatə etməsi, onun ayrı düşmüş xalqlar arasında dostluq əlaqələrini canlandırması, birliyə, qardaşlığa, əməkdaşlığa çağırışların məqsədyönlü intensivləşdirməsi, hər iki dövlətin ortaq mətbuat orqanına çevrilməsi üçün ilkin addımlar atılmışdır. Sovet rejiminin reklasasiya dövründə qəzetin adının üç əlifba ilə (kiril, latın və ərəb qrafikası ilə) yazılması və ilk saylarının böyük tirajla nəşr edilməsi irəli sürülən mülahizələri isbatlayan arqumentlərdir. "Dədəm Qorqud" adı türk xalqlarının qədim və ortaq abidəsi olmaqla bərabər, eyni kökə, genə, dilə, dinə və mədəniyyətə mənsub olan millətlərin birlik, dostluq, qardaşlıq rəmzi olaraq seçilmişdir.

"Dədəm Qorqud" qəzeti 1993-cü ildə fəaliyyətini dayandırdıqdan sonra Əhməd Elbrus yaxın məsləkdaşları Xəlil Rza Ulutürk və Rəfiq Zəka Xəndanla müştərək "Qorqud" adlı özəl nəşriyyat yaratmış, bu yönümdə fəaliyyətini genişləndirmiş, sovet ideologiyasının təsir dairəsindən azad, istiqlalına qovuşmuş mübariz ruhlu xalqın milli mənafeyi, dövrün, zamanın mənəvi ehtiyacları nəzərə alınaraq, elmi, ictimai-siyasi, ədəbi-bədii ədəbiyyat nümunələrinin nəşrinə rəvac vermiş, kitab mədəniyyəti sahəsində böyük əhəmiyyət kəsb edən xidmətlər göstərmişdir. 1990-cı illərin mürəkkəb dönəmində "Qorqud" nəşriyyatının Ulu öndərə həsr etdiyi "Heydər Əliyev sülhün carçısıdır"[1] monumental əsəri hazırlanmış, Atatürk Beynəlxalq Sülh Mükafatı Komitəsinin və Türkiyə Cumhur Başkanının qərarı ilə Azərbaycan Prezidentinin "Atatürk Sülh Mükafatı"na layiq görülməsi münasibətilə nəşr edilmişdir. Bu poliqrafiya müəssisəsi müəyyən müddət ərzində sanballı ictimai-siyasi, ədəbi-bədii nəşrləri ilə Azərbaycanın kitab mədəniyyətinə dəyərli töhfələr vermişdir.

Əhməd Elbrus 1994-cü ildə Ulu öndər Heydər Əliyevin rəhbərlik etdiyi nümayəndə heyətinin tərkibində Çin Xalq Respublikasına, 1995-ci ildə Böyük Britaniyaya və Fransaya rəsmi səfərlərdə iştirak etmişdir.

Əhməd Elbrus 2006-cı il 12 dekabr tarixində dünyasını dəyişmiş, doğma yurdu Ağcabədi rayonunun Salmanbəyli kəndində dəfn olunmuşdur.

Yaradıcılığı. Bədii yaradıcılığa 1960-cı illərin əvvəllərindən başlayan, lirik şeirləri mərkəzi qəzet və jurnallarda çap olunan Əhməd Elbrusun bir-birinin ardınca "Uçun, durnalar" (1966), "Etibarım" (1971), "Üçüncü addım" (1974), "Günəş nəğmələri" (1977), "Ömür yolu" (1979), "İnsan əfsanəsi" (1982) və "Ölməzlik" (1992) adlı şeir kitablarının nəşri qədim və zəngin poeziyamıza, ədəbi mühitə yeni nəfəs, milli çalar, aktual ictimai mövzular gətirmişdir.

[1] Heydər Əliyev sülhün carçısıdır (Buraxılışa məsul: Əhməd Elbrus, Asif Rüstəmli). – Bakı: Qorqud, 1999, 336 s.

O, təbiət, stixiya etibarilə hürriyyətsevər, müstəqil, xeyirxah, dostlara, yaxınlara qarşı istiqanlı və humanist şəxs idi. Əsərlərində vətən sevgisi, azadlıq arzuları, milli ruh, güclüdür. Şair bəzən sözün kəsərini, qüdrətini poetik misralarda təcəssüm etdirir, insan üçün müqəddəs vətəni qəfəsə, həbsxanaya çevirən siyasi rejimi məzəmmət, qınaq, ironiya hədəfinə çevirməkdən çəkinmirdi. Şairin yaxın dostlarından tənqidçi, ədəbiyyatşünas-alim Qurban Bayramov həmkarının cəsarətini vurğulayaraq yazırdı: "Elbrusun "dimdiyindən qan iyi gələn" bir şeirini də xatırlayıram, dördcə misradır... O vaxtlar ürək istəyirdi, cəsarət tələb edirdi özün "Elm" nəşriyyatının baş redaktoru ola-ola belə şeirlər yazasan:

Qəfəssiz bircə gün yaşaya bilməz,
Sızlar "Vətən" deyə, bülbülün səsi!
Vətəni özünə qəfəs olan kəs
Məcburdu qəfəsə "Vətənim" desin!"[1]

Əhməd Elbrusun "Qəfəs bülbülü" (1981) adlı şeirində vətən və azadlıq anlayışları haqqında fərqli, obrazlı düşüncələri zamanında orijinallığı, yeniliyi, bənzərsizliyi ilə bəyənilmiş, seçilmiş və müəllifinə şöhrət gətirmiş, uğurlar qazandırmışdır. Burada ironik aspektdə təqdim olunmuş müqayisə obyektləri arasındakı incə bir məqama da diqqət yetirmək zəruridir; qəfəs bülbülün cəh-cəh vurması, yaşaması və təhlükəsizliyi üçün təminat məkanı, vətən – "*Vətəni özünə qəfəs olan kəs"*lər üçün qəfəsdir! Vətəni qəfəsə – qəfəsi vətənə çevirənlər arasındakı fərq daimi olaraq Əhməd Elbrus yaradıcılığının aparıcı amili olmuşdur.

Onun "Gənc şairin ilk kitabı" seriyasından 1966-cı ildə çap etdirdiyi "Uçun, durnalar"[2] adlı şeirlər toplusu "Vətənim" əsəri ilə açılır. Ə.Elbrusun bədii yaradıcılığını bütövlükdə nəzərdən keçirdikdə vətən, zaman və insan məfhumlarının fəlsəfi fikir qatlarına istinadların mütəmadiliyi, diqqət mərkəzinə çəkilməsi, öyülməsi və poetik dəyərləndirilmə təşəbbüsləri bədii düşüncə müstəvisində daha aydın müşahidə olunmaqdadır.

Sən elə varlıqsan – ölməz, kiçilməz,
Sən elə nemətsən – qıyıb keçilməz,
Vətənim, Vətənim!

Sən elə arzusan – müqəddəs, əziz,
Sən elə aynasan – ləkəsiz, təmiz,
Vətənim, Vətənim![3]

---

[1] Qurban Bayramov. Ölməzliyə qovuşan şair ömrü... Əhməd Elbrus dünyası. – Bakı: Gənclik, 2010, s.53-76

[2] Əhməd Elbrus. "Uçun, durnalar". – Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1966

[3] Əhməd Elbrus. Vətənim. "Uçun, durnalar". – Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1966, s.3

Gənc şairin qəlbinin dərinliklərindən boy göstərən, təmkinlə, titrəyişlə tərənnüm etdiyi, həzin və ülvi duyğularla söylədiyi "Vətən" andı, "Vətən" duası onun bitib-tükənməz sevgi nəğməsinə, məhəbbət simfoniyasına, ömür yolunun, yaradıcılıq amalının leytmotivinə çevrildi. Onun vətən anlayışı "Ağcabədi" şeirində daha da konkretləşir, ünvanlaşır, müqəddəsləşir. Vətən yalnız maddi nemətləri, sərvətləri ilə deyil, mənəvi mahiyyəti, sirli-sehirli hikməti, əzəməti, qüdrəti, ilahi cazibədarlığı ilə də müqəddəs və əzizdir.

Beşiyimi burda qoyub getmişəm,
İlk eşqimi burda duyub getmişəm,
Mən şöhrətə, ada uyub getmişəm...
Fəqət... sənə qayıdacaq son anım!
İnsan oğlu sədaqətlə sınanıb!
Yaşamarıq, yaşatmasaq sədaqəti,
Ağcabədi, Ağcabədi![1]

Beşik deyiləndə yaranan assosiativ duyğular nəticəsində göz önündə ilk növbədə körpəsinə laylay söyləyən ana obrazı canlanır. Müqəddəs bir varlığın – ananın beşik başında oxuduğu laylay ilk tərbiyə nümunəsi, insanlıq himnidir. Uşağın öz qanına, ruhuna sədaqət hissi ana laylasından – insanlıq məfkurəsindən keçir.

Əhməd Elbrus poeziyasının nəbzində döyünən səmimiyyət, sədaqət, həqiqət, ülviyyət cazibəsi, məsuliyyət energetikası bəzən onun beşik məkanından bəşəriyyətin taleyinə cavabdehlik öhdəliyinə qədər böyüyür, ucalır.

Görkəmli ədəbiyyatşünas, tənqidçi, AMEA-nın müxbir üzvü, professor Yaşar Qarayev Ə.Elbrus yaradıcılığının poetik xüsusiyyətlərindən bəhs edərək yazırdı: "Elbrusun fərdi üslub ədasını fərqləndirən digər cəhət də var: açıq ironiya, yaxud pafos və patetika onun ən yaxşı şeirlərində adi publisist, ritorik qat olub qalmır, estetik təsirin, müəllif mövqeyinin fəallığını ifadə edən poetik münasibət səviyyəsinə qalxır və çox zaman onun əsasında canlı detallar, həyati təfsilat və konkret məişət özü durur".[2]

Professor Y.Qarayevin vurğuladığı kimi "canlı detallar, həyati təfsilat"ların yer aldığı bədii nümunələrdən biri də şairin ilk mətbu şeiri olan, 1962-ci ildə qələmə aldığı "Yanğın" adlı əsəridir. Ədəbiyyata "Yanğın"la gələn şairin bütün yaradıcılığında dünyaya, vətənə, insana, sözə yanğılı, odlu-alovlu, hərarətli sevgisi duyulmaqda və düşündürməkdədir.

Ə.Elbrusun "Yanğın" şeirini insanlara və insanlığa çağırış, bəşəri fəlakətlərdən qorunmaq üçün xəbərdarlıq kimi qəbul etmək olar. Hər bir insan öz həyatında müxtəlifmiqyaslı yanğınlara rast gəlir, adi ehtiyatsızlıq,

[1] Əhməd Elbrus. Ağcabədi. "İnsan əfsanəsi". – Bakı: Yazıçı, 1982, s.16-17
[2] Yaşar Qarayev. Fəal poetik mövqedən. Ə.Elbrus. İnsan əfsanəsi. – Bakı: Yazıçı, 1982, s.5-9

diqqətsizlik adlandıraraq hadisədən ötüb-keçir, uzaqlaşırlar. Şair isə "qığılcımdan alov törər" – deyiminə köklənir, qlobal təhlükəsizlik problemini vurğulamaqla fəlsəfi məntiqə diqqəti yönəldir:

Körpədir baisi bu fəlakətin;
Körpə dərk etməyib yandırdı neçin,
öz evlərini?
Evin daşları da qara kül olur,
Yanğına baxdıqca gözlərim dolur,
ürəyim yanır.
Yanğına baxdıqca alışıram mən,
Məsum bir uşağın əlindən düşən,
adicə çınqı.
Bir ev yandırırsa, düşünün bir an,
Atom yanğısında nə olar cahan?![1]

Əhməd Elbrus "Yanğın" şeiri ilə ayıq-sayıq olmağa, məsum körpələrimizi, günü-gündən atom, nüvə silahları ilə yüklənən dünyamızı, aydan-aya, ildən-ilə çiçəklənən, laləzara, gülüstana çevrilən vətənimizi, qəhrəman oğullar, mərd, müdrik insanlar yetirən xalqımızı – Azərbaycanımızı hər bir bəladan qorumağa, hifz etməyə yönəlmiş açıq çağırışlar edir, diqqəti dövrün, zamanın problemlərinə yönəldirdi. Şairin beşlik biçimində yazdığı on altı hecalı "Azərbaycan" adlı şeirində doğma vətənin, onun cəsur oğullarının, böyük söz ustadlarının, təbiətinin və şöhrətinin tərənnümü orkestrin müşayiəti ilə səsləndirilən simfonik əsərin yaratdığı əhval-ruhiyyəni xatırladır.

Sərt düşməndən qisas üçün Vurğunumun sözü getdi,
Üzeyirin "Koroğlu"su, Mehdi, Qafur, Həzi getdi!
Şahinlərin qanad açdı, Bülbülünün səsi getdi,
Döyüşlərdə ad qazandın, zəfər yollu Azərbaycan!
Qoçaq elli, igid qızlı, mərd oğullu Azərbaycan!

Taleyinə ağ gün yazan azadlığın timsalısan!
Başdan-başa laləzarsan, abadlığın timsalısan!
Qoşqar, Kəpəz vüqarlısan, gözəl Göy-göl həyalısan.
Araz qollu, Kür qollusan, köksü Xəzər Azərbaycan!
Şan-şöhrətin dünyamızı nurla bəzər, Azərbaycan![2]

Cümhuriyyət dövründən çağımızadək "Azərbaycan" adı ilə çoxsaylı şeirlər, poemalar, dəyərli sənət əsərləri qələmə alınmış, azadlığına, istiqlalına qovuşan xalqımızın keçdiyi tarixi mübarizə yolları, qəhrəmanlıq səhifələri

[1] Əhməd Elbrus. Yanğın. "Uçun, durnalar". – Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1966, s.6-7
[2] Əhməd Elbrus. Azərbaycan. "Ömür yolu". – Bakı: Yazıçı, 1979, s.10-12

vəsf olunmuş, gözəl təbiəti, böyük şəxsiyyətləri, dahi insanları tərənnüm edilmişdir. Əhməd Elbrusun eyniadlı şeirinin yazıldığı tarixdən 58 il öncə Cümhuriyyət şairlərindən Hacı Kərim Sanılının "Azərbaycan",[1] Əli Abbas Müznibin "Azərbaycan",[2] Əli Şövqi Şeyxzamanlının "Azərbaycan",[3] Məhəmməd Ümid Gəncəlinin "Azərbaycan – Vətənim" şərqisi[4] və s. poeziya nümunələri ilə ruhi yaxınlığı, həmahəngliyi, məzmun uyarlılığı, müasir ədəbi mühitdə müstəsna aktuallıq kəsb etməsi şairin məxfi mühafizə dolablarında saxlanılan mətbu nümunələr ilə aşinalığından, məlumatlı olmasından xəbər verir. Şair haqlı olaraq "*Döyüşlərdə ad qazandın, zəfər yollu Azərbaycan", –* deyərək, Vətənin dünənki qələbələri, uğurları ilə iftixar hissini, fəxarət duyğusunu yaşamaqla yanaşı, "*Taleyinə ağ gün yazan azadlığın timsalısan"* – poetik şüarında xalqının, millətinin hürriyyət gününün, müstəqilliyinin yaxında olduğunu duyurdu və görürdü.

Ə.Elbrus poeziyasının xarakterik özəllikləri ilə fərqlənən, süni intellektə xas bəzi xüsusiyyətləri, keyfiyyətləri yarım əsr önləyərək beyinəqoşulmalar adlı silsilə şeirləri ədəbiyyatımızda yeni ədəbi hadisə effekti yaratmışdır. Onun M.Füzuli, M.Ə.Sabir, Nazim Hikmət, Rəsul Rza, B.Vahabzadə, F.Qoca, F.Mehdi, M.İsmayıl, İ.İsmayılzadə, N.Həsənzadə və b. görkəmli şairlərin poetik düşüncələrinin davamı, görünməyən məqamlar anlamına gələn "beyinəqoşulmalar"ı tarixi-fəlsəfi müstəvidə boy göstərən yeni poeziya nümunələridir. Ə.Elbrus bəzən diqqətçəkən şeirlərin "ipucundan" yapışaraq məna dərinliklərinə işıq salır, örtülü mətləblərin qabardılmasına rəvac verir, bəzən də tənqidi-yumoristik düşüncələrinin odunu, közünü kül altında pərdələyərək təqdim edir. O, Söhrab Tahirin məşhur: "İki bölünməkdən elə qorxmuşam, Çöpü də ikiyə bölmərəm daha" – beytindəki son sözü rədifə çevirərək poetik məcranın qarşı sahilini nişan verir:

Qılınca qın etdi Xətai, dərdi,
Birlik nübarını Xətai dərdi.
Qanıma qarışıb Xətai dərdi,
Vətən birləşincə ölmərəm daha.[5]

Şair həmkarının ümummilli dərdini duyur və ona qəhmar çıxır, yalnız "daha" kəlməsindən yapışsa da, dərdin dərinliklərinə təcnisin çırağı ilə pillə-pillə enir, eyni sözün təkrir kodları ilə Xətai dövrü – "Birlik nübarının

[1] Hacı Kərim Sanılı. Azərbaycan. "Yeni şərqilər. Mahnılar" kitabı. – Bakı: Novruz mətbəəsi, 1919, s.4-5
[2] Əli Abbas Müznib. Azərbaycan. – Bakı: Övraqi-Nəfisə jurnalı, 1919, 16 temmuz, № 5, s.1
[3] Əli Şövqi. Azərbaycan. – Bakı: "Azərbaycan" qəzeti, 1919, 21 temmuz (iyul), № 230, s.3
[4] Məhəmməd Ümid Gəncəli. Azərbaycan – Vətənim şərqisi. – Bakı: "Azərbaycan" qəzeti, 1920, 4 şübat (fev.), № 23, s.3
[5] Əhməd Elbrus. Daha. Ölməzlik. – Bakı: Yazıçı, 1992, s.14

dərildiyi" zaman örnək olaraq yada salınır... Əhməd Elbrus bir xalqın ikiyə "bölünmə" faciəsinin əlacını yaralanmış, parçalanmış vətənin birləşməsinə qədər "Xətai dərdi"nin ürəkdə, qanda yaşadılmasında görürdü.

Azərbaycan Dövlət Müstəqilliyini bərpa etdikdən və planetar miqyaslı siyasətçi, Ümummilli lider Heydər Əliyev Respublika Prezidenti seçildikdən sonra ədəbiyyat adamlarına, mədəniyyət və incəsənət işçilərinə diqqət və qayğı artırıldı. Dövlət Başçısının 1994-cü il 22-25 fevral tarixində Böyük Britaniyaya ilk rəsmi səfəri zamanı nümayəndə heyətinin tərkibinə tanınmış jurnalistlər, görkəmli ədəbiyyat və incəsənət xadimləri ilə yanaşı, şair Əhməd Elbrus da dəvət edilmişdir. Londona bu böyük tarixi səfərdən on gün sonra – 1994-cü il 7-9 mart tarixində Prezident Heydər Əliyevin rəhbərlik etdiyi Dövlət nümayəndə heyətinin tərkibində şair Əhməd Elbrus Çin Xalq Respublikasına rəsmi səfərdə iştirak etmişdir. Azərbaycan nümayəndə heyəti mart ayının 9-da Şanxay şəhərinə gəlmiş, Böyük Çin Səddinə səfər etmişdir. Həmin gün nümayəndə heyətinin üzvü, şair Əhməd Elbrus Böyük Çin səddindən Ulu öndər haqqında yeni yazdığı "Zəfər marşı" adlı şeirini dünyanın bu yüksək söz kürsüsündən Azərbaycan Televiziyası vasitəsilə poeziyasevərlərə böyük emosiya, həyəcan və əzmkarlıqla çatdırmışdır.

Haydı! Cavanşirin ruhuna sarı!
Dardadı Babəkin kəsik qolları!
Hanı Şah İsmayıl? Kəssin yolları!
Koroğlu haylasın: - bizimdir zəfər!
Heydərin ardınca! Heydərdi rəhbər!
Allahın adıyla! Allahu – Əkbər!

Gəlsin Cavad xanım! Qacar da gəlsin!
Gəlsin Qaçaq Nəbi! Həcər də gəlsin!
Nalbənd də, misgər də, tüccar da gəlsin!
Hər kişi qeyrəti – yenilməz bir ər!
Heydərin ardınca! Heydərdi rəhbər!
Allahın adıyla! Allahu – Əkbər!

Təbrizim bayrağı ucalı gəlsin!
Dərbəndim – Ulutürk mahalı gəlsin!
Ağır ellərivlə Borçalı gəlsin!
Gəlsin Zəngəzurdan Göyçəyə qədər!
Heydərin ardınca! Heydərdi rəhbər!
Allahın adıyla! Allahu – Əkbər![1]

[1] Əhməd Elbrus. Zəfər marşı // Tale ulduzu. – Bakı: Gənclik, 1998, s.88-90

Ə.Elbrus "Zəfər marşı"nı yazanda erməni işğalçılarına qarşı Qarabağda ağır, şiddətli döyüşlər gedirdi. Heydər Əliyev bir neçə ay idi ki, Azərbaycanın Prezidenti, xalqın rəhbəri seçilmişdi. O, bir əlində xəritə, o biri əlində çubuq Parisə, Londona, Pekinə, Vaşinqtona rəsmi səfərlər edərək münaqişənin tarixi səbəbləri, təcavüzkar Ermənistanın ərazi iddiaları, etnik təmizləmə, Xocalı soyqırımı, Qarabağın və ətraf yeddi rayonun işğalı haqqında əsl həqiqətləri iri dövlət başçılarına birbaşa çatdırmaqla yanaşı, bir tərəfdən ölkəmizə qarşı aparılan ədalətsiz, şər-böhtan kampaniyalarının qarşısını almaq, ideoloji hücumları neytrallaşdırmaq üçün ikitərəfli beynəlxalq əlaqələri aktivləşdirir, digər tərəfdən Ali Baş Komandan olaraq nizami ordu quruculuğunu gücləndirir, ön cəbhəyə, döyüş səngərlərinə baş çəkərək hərbi durumu təhlil edir və dəyərləndirirdi.

Qarabağ müharibəsinin şiddətləndiyi bir zamanda şair Əhməd Elbrusun "Zəfər marşı" insanlarda qələbəyə və Ali Baş Komandana sarsılmaz inam aşılayan, birliyə, səfərbərliyə səsləyən, mübariz əhval-ruhiyyəli və zamanında yazılmış dəyərli sənət əsəridir. Marşda sabaha inam və iman hissi, Ali Baş Komandan ətrafında sıx birliyə açıq çağırış aydın hiss olunur. Əsər vətənsevər gəncləri işğalçılara qarşı mübarizəyə, döyüşə ruhlandırmış, poetik pafosu, yüksək intonasiyası, dolğun diksiya dürüstlüyü, mükəmməl müraciət məcrası, ruhi-mənəvi harmoniyası, siqləti və səmimiyyəti bədii nümunəni arzuların həsrətini çəkdiyi milli-məfkurəvi Zəfər marşına çevirmişdir.

Əhməd Elbrusun poetik yaradıcılığında poema janrı da mühüm yer tutur. Onun müxtəlif illərdə yazdığı "Qocanın dastanı" (1977-1978), "İnsan əfsanəsi" (1980-1981), "Köhlən" (1986), "Ayrılığın üç günü" (1985), "İlanlı duyğular" (1986), "Ölməzlik (Tarixi dramatik dastan)" (1985-1988) və b. əsərlərində tarixi mövzulara meyillilik, bədii-fəlsəfi sanbalın prioritetliyi, zaman və insan, sənət və əbədiyyət xeyir və şər dilemmalarına ən doğru seçim axtarışları öz əksini tapmışdır.

Əhməd Elbrusun poeziyası Azərbaycan ədəbiyyatı tarixində əhəmiyyətli yer tutmaqla yanaşı, milliliyi, yeniliyi, fərqliliyi, fəlsəfiliyi ilə seçilən, məğrurluğa, cəsarətə, həqiqətə, mərhəmətə söykənən, insanlara inam, ümid, xeyirxahlıq aşılayan danılmaz və zəngin mənəviyyat xəzinəsidir.

SƏYAVUŞ SƏRXANLI
(1942-2005)

Azərbaycan poeziyasına ötən əsrin 70-ci illərində gələn, tribun şair, ədəbi-bədii publisistik məqalələr müəllifi kimi tanınan Səyavuş Sərxanlının ədəbiyyat tariximizdə öz yeri, öz dəst-xəti vardır.

Həyatı. Səyavuş Əli oğlu Sərxanlı 1943-cü il fevralın 23-də[1] Şəmkir rayonunun Sərxanlı kəndində anadan olmuşdur. O, ilk təhsilini Şəmkir şəhərində fəaliyyət göstərən Nizami Gəncəvi adına orta məktəbdə almış, orta məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət Tibb İnstitutuna daxil olmuşdur. Lakin tibb sahəsinə marağı olmadığı üçün təhsilini yarımçıq qoyub istehsalat və mədəniyyət sahəsində işləməyə başlayıb. O, əvvəl Yevlax tikinti idarəsində fəhlə peşəsində çalışmış, sonralar müxtəlif sahələrdə – təhsil aldığı Nizami Gəncəvi adına orta məktəbdə çilingər-elektrik, Şəmkir şəhər pioner evində uşaq xorunun dirijoru, mədəniyyət evi dram dərnəyinin rəhbəri, "Ulduz" rayon qəzetinin korrektoru vəzifələrində fəaliyyət göstərmişdir. "Ulduz" qəzetində çalışması ona BDU-nun Filologiya fakültəsinin jurnalistika şöbəsində ali təhsil (1962-1967) almasına imkan yaratmışdır.

Azərbaycan Yazıçılar Birliyi Səyavuş Sərxanlının istedadını nəzərə alaraq, 1980-ci ildə onu Moskvaya M.Qorki adına Ədəbiyyat İnstitutunun nəzdində olan ali ədəbiyyat kurslarına təhsil almağa göndərmişdir. Moskva təhsilindən sonra Səyavuş Sərxanlı "Azərbaycan" jurnalı Poeziya şöbəsinin müdiri vəzifəsində (1983-2005) çalışmışdır. Onun fəaliyyətində poeziya ilə yanaşı, publisistika da mühüm yer tutmuşdur. Ona görə də Səyavuşun Azərbaycan və SSRİ Yazıçılar İttifaqının Bədii Publisistika Şurasının üzvü olması təsadüfi deyildi. Gözəl, poetik nümunələrin yaradıcısı olan Səyavuş, həm də Azərbaycan ədəbiyyatının alovlu təbliğatçısı idi. S.Sərxanlının Alma-Atada, Sibir şəhərlərində, Pribaltika respublikalarında, İtaliya və başqa yerlərdə çıxışları rəğbətlə qarşılanmışdır.

Gənc Səyavuş poetik və publisistik yaradıcılığına görə, Azərbaycan Jurnalistlər Birliyinin "Qızıl qələm" (1977), "Məmməd Araz" (1991), "Nəcəf Nəcəfov" (2000), "Ümumittifaq N.Ostrovski" (1980), "Molodaya qvardiya" jurnalının mükafatına (1981) və b. mükafatlara layiq görülmüşdür.

Azərbaycan poeziyasında Səməd Vurğun şeiriyyətini, R.Rza müasirliyini, Müşfiqin poetik ənənələrini yaşatmağa çalışan Səyavuş Sərxanlı 5 iyul 2005-ci ildə vəfat etmiş, Şəmkirin Sərxan kəndində dəfn olunmuşdur.

[1] Teymur Əhmədov. Səyavuş Sərxanlı. Azərbaycan yazıçıları XX-XXI yüzillikdə. – Bakı: Nurlar, 2011, s.856

Yaradıcılığı. Səyavuş Sərxanlı bədii yaradıcılığa orta məktəb illərindən başlamış, ilk qələm təcrübələrini "Qırmızı Şamxor" qəzetində çap etdirmişdir. 1961-ci ildə Xalq şairi Nəbi Xəzrinin "uğurlu yol"u ilə "Azərbaycan gəncləri" qəzetində "Cığır" və "Səslədi" şeirlərinin dərc olunması onun həyatında dönüş nöqtəsi oldu. Gənc şairin ilk bədii axtarışları 1968-ci ildə çap etdirdiyi "Qayıt" adlı kitabında toplanmışdır.

Səyavuş Sərxanlının ilk yaradıcılıq dövrü onun tərcümeyi-halı ilə sıx bağlıdır. İkinci Dünya müharibəsi və ondan sonrakı dövrlər onun həyat və yaradıcılığında kədərli izlər buraxmışdır. Yazıçı Anar S.Sərxanlının bu dövrünü təhlil edərək yazırdı ki, o, həyatın dadını-duzunu, mənasını ancaq və ancaq kənd həyatında, kənd məişətində, təbiət lövhələrində görür. Anar gənc həmkarına poetik dünyasının sərhədlərinin genişlənməsini arzulayır. Onun lirik qəhrəmanı həyatın bütün əlvanlığını yalnız şəhərdən çıxıb uzaqlaşanda duya bilir.[1] Lakin şairin ilk mühiti nə qədər ağrılı-acılı olsa da, yaradıcılıq inkişafında mühüm rol oynamış, onu əhatə edən insanların təmizliyi, mərdliyi xalqa məxsus ən gözəl keyfiyyətləri göz bəbəkləri kimi qorumaları onu heyran etmişdir. Bu heyranlıq gözəl insani xüsusiyyətlər, lirik "mən"in daxilən zənginləşməsinə yaradıcı fərdiyyatın özünü bəyan etməsinə əsas olmuşdur. Yetmişinci illərdə poeziyaya gələn Səyavuş Sərxanlı sovet ideologiyasının təbliğatçısı deyildi, onun fikirləri, lirik qəhrəmanları, poetik yaşantılar, müasir duyğu və düşüncələrinin reallığı həqiqi poetik nümunələr təsiri oyadır. Tənqidçi Yaşar Qarayev S.Sərxanlının yaradıcılığına münasibət bildirərkən yazır: "Bu beytlə və misralar təbii, səmimi və qanadlı bir ilhamdan xəbər verir. Səyavuş hisslərinin təbii axarına, vəznin və ritmin musiqisinə, duyğuların nikbin və gurşad bolluğuna daha böyük üstünlük verir".[2]

Şairin məhəbət lirikası səmimi və ülvi hisslər üzərində qurulub. Lirik qəhrəman öz sevgisini, məhəbbətini əbədi sevgi hesab edir:

Məhəbbətlə ömürlük,
Dura bilsən göz-gözə,
Günün yanar günəş tək,
Gecən dönər gündüzə...[3]

Onun ilk dünya ilə təması, yaşadığı ilk mühit nə qədər əsrarəngiz olsa da, öz yerini daha böyük makro aləmə, mürəkkəb dünyaya təhvil verir. Burada lirik qəhrəmanı çətin yaradıcılıq sınaqları gözləyir:

Dalğalı sinəmdə adalarımdır,
Heç kəsin deyillər, mənimdir onlar.

[1] Anar. Oxşarlıq və oxşarsızlıq. "Ulduz" jurnalı, №3, 1973, s.47
[2] Yaşar Qarayev. İmzalar və ümidlər. – Bakı: "Ulduz" jurnalı, №3, 1973, s.55
[3] Səyavuş Sərxanlı. Dünya sevənlərindir. – Bakı: Gənclik, 1971, s.32

Onlar el-obada sədalarımdır,
Həm də öz ömrümə qənimdir onlar.[1]

Bütün gənc şairlərimiz kimi, S.Sərxanlı da yaradıcılıq aləminə öz vətənini, xalqını, əsrarəngiz təbiətini, insanlarını sevərək gəlmişdir. Onun bir şair kimi dünyagörüşü inkişaf etdikcə, bədii ustalığı artdıqca, yaradıcılığında bədii zənginlik, forma və məzmun gözəlliyi nəzərə çarpır. Səyavuşun poeziyasında bu yaradıcılıq uğurlarını görən Anar yazırdı: "Səyavuş o şeirlərində müvəffəqiyyət qazanırdı ki, poetik ifadələri real, görümlü, əyani ünsürlərlə əlaqələnir".[2] Şair üçün şeir yazmaq bir dünya ülviyyəti idi. O, şeir yazmaqdan ruhi ləzzət alırdı. Ona görə də yazdığı şeirləri xüsusi pafosla oxuduğu üçün ona tribun şair deyirdilər. S.Sərxanlı təbiət vurğunu olduğuna görə bəzən elə gözəl metaforalar tapırdı ki, həmişə alqışla qarşılanırdı. "Bir aylı gecədə tütək səsi", "Cığır", "Qütb adaları", "Ağsu dolaylarında", "Buhenvald harayı" və s. Hətta formaca qısa olan, "Cığır" şeiri bədii məzmunca bir zaman-məkan dünyası yaradır.

Bir kəndin qucağında,
Doğulub körpə olub.
Zirvəyə körpü olub...
Yorulub su içməyə
Neçə bulağa gedib,
Sonra da səyyah kimi
Neçə oylağa gedib.
O, kimlərə yol verib,
Kimlərlə görüşübdür?
Elə bil ki, dağlarda
Dağ boyda bir yumaqdan
Açılıb sap düşübdür...[3]

Bu şeirdə şair çox az sənətkara müəssər olan poetik deyimlə obrazın portretini yaradıbdır. Azərbaycan poeziyasında klassik şeir formaca nə qədər güclü olsa da, müasir poeziya şairə imkan verirdi ki, klassik formalara yeni məzmun verə bilsin. Bədii ənənə onun yaradıcılıq buxovuna yox, yeni bədii ifadə vasitələri axtarmasına kömək edirdi.

Şair yaradıcılıq yolunda uğurla irəlilədikcə, şairin bədii yaradıcılıq yolu onun hadisə və predmetlərin mənalandırılmasında, ictimai-siyasi hadisələrin qiymətləndirilməsində nə qədər uğur qazanmasının şahidi oluruq. O hətta

[1] Səyavuş Sərxanlı. Dünya sevənlərindir. – Bakı: Gənclik, 1971, s.30
[2] Anar. Oxşar və oxşarsızlıq. – Bakı: "Ulduz" jurnalı, №3, 1973, s.50
[3] Səyavuş Sərxanlı. Dünya sevənlərindir. – Bakı: Gənclik, 1971, s.53

insanlıq, bəşəriyyət qayğısına qalan bir yaradıcı insana çevrilir. Bu mənada "Buhenvald harayı" şeirini yada salaq:

Buludlar, buludlar..., tüstülərdimi,
Buhenvald ömrütək əsən tüstülər?
Dünən insan olub, bu gün sərsəri,
İlləri itirib illərdən bəri
Yurdunu, yerini gəzən tüstülər.[1]

Bu şeirdə poetik ifadələr real, əyani mənzərə yaradaraq, poetik təşbeh insanlıq tarixində ən cinayətkar bir mənzərənin, insan varlığının yandırılaraq məhv edilməsini, tüstüyə çevrilməsinin dəhşətini yarada bilmişdir. Şair "Buhenvald harayı"nın zəifləməsini istəmir, o haray kəsilərsə, insanlıq məhv olar, yalnız o haray bəşəriyyəti ayıq olmağa çağırır.

Şairin lirik qəhrəmanı kökünə, mədəniyyətinə bağlıdır. O, əsrlərin sınağından çıxmış, ahımız-kədərimiz yanğısında qovrulur, cızdağı çıxır. Elə gözlənilməz metaforalarla yanıb qovrulduğunun poetik dərinliyini yaradır. "Segah" adlı şeiri oxuculara bu hissləri yaşadır:

Dağların başında bir çəngə bulud,
Bir çəngə yolunmuş saca dönübdür.
Gözümün önündə adicə bir val,
Hissləri qovuran saca dönübdür.[2]

Belə misralar S. Sərxanlının uğurlu poetik axtarışlarının təntənəsidir.

S.Sərxanlı poeziyası inkişaf etdikcə mürəkkəb, zəngin həyat məlumatlarını daha poetik uğurla əks etdirir, müasirlik keyfiyyəti qazanır.

Ulduzlar min səslə,
Min rəngə dönüb,
Durub gözəlliklə qəsdimə mənim.
Səma özü boyda çələngə dönüb,
Əyilib bu gecə üstümə mənim.[3]

Şairin belə poetik tapıntılarını oxuyanda onun şeiriyyətinin müasirliyi, axarlılığı, vəzn və ritmin ahəngliyi, həyat nikbinliyi ümumən onun poeziyası haqqında həyatsevərlik pafosu yaradır.

S.Sərxanlının lirik qəhrəmanı ilə tanış olarkən müasir insanlarımızın arzu, düşüncələri, həyata baxışları, onların dünya dərkinin mahiyyətinə varılması, üslubi rəngarənglik, bədii sintez, axtarış sürəkliliyi göz önünə gəlir.

[1] Səyavuş Sərxanlı. Dünya sevənlərindir. – Bakı: Gənclik, 1971, s.12
[2] Yenə orada, s.21
[3] Yenə orada, s.61

Xalqın sənətkarı olmaq onun keçdiyi tarixi, mənəvi yola nəzər salmaq, ibrət dərsi götürmək, Səyavuş poeziyasının hikmət paradiqmasıdır, kəsişmə xəttidir.

Babalar illərlə odlu ürəklə,
Bu nemət yolunda candan keçiblər.
İnsan tanınıbdır duzla-çörəklə,
Ən böyük andı ona içiblər.[1]

Şairlərin ən müqəddəs varlıq kimi sevdikləri analarına şeir həsr etdikləri dünya poeziyasına məlum poetik hadisədir. Səyavuş da bu ənənəyə sadiq qalmışdır. Onun poeziyasında "Ana" adlı müqəddəs varlıq vətənin, bütün kainatın rəmzidir. "Ana" şeiri bu cəhətdən çox ibrətamizdir.

Vətən vurğunu olmaq, poeziya vurğunu olmaq deməkdir. Şair vətən vurğunudur, hər şey vətən üçündür, vətən üçün yaşayır, vətəninin hər səsinə səs verir, vətənin sevinci onundur, dərdi də, kədəri də onundur.

Durnalar həsrətimi daşıdı,
Bir oğlunam – Araz dərdi yaşadım.
Göyərməyən qeyrətimin daşında,
Mən sabaha min ümidlə yaşadım.
İnsanlara qalxan etdim yolumu,
Vətən var ol,
Vətən səslə oğlunu![2]

Şairə görə vətən torpağı müqəddəsdir, onun bir ovucu uğrunda, bir qarışı uğrunda ölmək hər insanın fədakarlığıdır, onun uğrunda ölənlər də müqəddəsdir, ucadır. Vətənin qayğısı, dərdləri çoxdur, onun Araz dərdi var, azadlıq eşqi ilə alışan dərdi var. Bütün vətənpərvər şairlərimiz kimi Səyavuş Sərxanlı da bütöv vətən uğrunda vuruşub, yaşayıb-yaratmaq istəyib.

Səyavuş Sərxanlıya görə, müasir şair sevib-sevilən, genişürəkli, ülvi məhəbbətli və hətta təbiətdən də səxavətli olmalıdır, təbiət kimi verdiyini geri almamalıdır.

Ayrılıqlar gözümüzdə yaş kimi,
Xoş günlərdir, uçub gedir quş kimi.
Qara günlər qalır qara daş kimi,
Belə gediş
Belə qalan olmaya

[1] Səyavuş Sərxanlı. Duz-çörək. – Bakı: Gənclik, 1984, s.15
[2] Yenə orada, s.22

İnsan odur oxşamaya dünyaya –
Verdiyini geri alan olmaya?[1]

Səyavuş Sərxanlı genişürəkli, insan vurğunu olan bir şairdir. Ona görə də müasir sənətkar kimliyindən, harada yaşamasından, hansı millətin nümayəndəsi olmasından asılı olmayaraq, planetar təfəkkürlü olmalıdır.

Ay məni yollara çağıran cığır,
Yolları sinəmdən salmaqdır peşəm.
Ay məni yollara çağıran cığır,
Çiynimdə dünyanın dərdi gəlmişəm.[2]

Şair xalq içindən çıxmışdır, onun dərdi-səri ilə yaşayan insan idi. Xalqın tarixən yaratdığı mənəvi-bədii sərvətlərini sevirdi, hətta onları bədii cəhətdən mənalandırmağı bacarırdı. Tarix şair üçün həm fəxarətli keçmiş, həm müasirlik, həm də gələcək dünyalarımızın təməli idi.

S.Sərxanlı müasir lirika ustası olduğu kimi yaddaqalan poemalar müəllifidir. Onun poemalarından "Üzü bəri baxan dağlar", "Atlant", "Bir görüşün çiçəkləri" və "Bir günün sorağı" oxucuların marağına səbəb olub. "Üzü bəri baxan dağlar" poemasının yazılma tarixi şairin Qarabağa səyahəti ilə bağlıdır. Bu poema yazılan vaxt hələ ermənilərlə Qarabağ münaqişəsi başlamamışdır. Lakin o vaxt da həyəcanlı söhbətlər gəzirdi. Torpağa, dağlara, vətənə həssas olan şair bu məsələyə biganə qalmamışdı:

Mənim Qarabağım dözümdü, tabdı,
İnan Günəşlidir min səhərimin.
Mənim Qarabağım bir daş kitabdır –
Düşübdür başına düşmənlərimizin.[3]

Vətən məhəbbəti, torpaq məhəbbəti, şair həyəcanı müasirlərini gələcək təhlükədən xəbərdar edirdi.

Müasir jurnalistika tariximizdə S.Sərxanlı alovlu publisist kimi sevilir, xüsusi qeyd olunur. Onun bu sahədə fəaliyyətinin 1977-ci illərdə "Qızıl qələm" mükafatına layiq görülməsi təsadüfi deyildi. Səyavuş Sərxanlı Azərbaycanın hər guşəsini gəzərək, əmək adamları haqqında gözəl publisistik məqalələr yazırdı. O, nəinki Azərbaycanın, ümumiyyətlə Pribaltika respublikaları və Sibir çöllərində əmək fədakarlığı göstərən alovlu publisistikanın müəllifidir. Onun Sibir neftçiləri haqqında yazdığı "Sibir nağılı" adlı publisistik məqaləsi Azərbaycanda məşhurdur. Bu oçerkə tənqidçi Qulu Xəlilov yüksək qiymət vermişdir". "Sibir nağılı"nda publisistik bir əsər kimi

[1] Səyavuş Sərxanlı. Duz-çörək. – Bakı: Yazıçı, 1984, s.42
[2] Yenə orada
[3] Yenə orada, s.67

mənə xoş gələn nədir! Mövzunun aktuallığı, faktların təzəliyi, müəllif təhkiyəsinin yığcamlılığı, hadisələrin maraqlı təsviri".[1]

S.Sərxanlının başqa sovet xalqları klassiklərindən etdiyi tərcümələr - tatar şairi Zəki Nuri, lak şairi M.Carinov, özbək şairi A.Arifov və gürcü müasiri N.Dumbadze xalqlarımız arasında dost münasibətlərin yaranmasına yaxşı xidmətdir.

Azərbaycan poeziyasında öz yeri olan, öz sözünü cəsarətlə deyən bir şəxsiyyət, bir şair kimi Səyavuş Sərxanlı özündən sonra qoyub getdiyi zəngin və bənzərsiz ədəbi-bədii yaradıcılıq nümunələri ilə hər zaman xoş xatirələrlə anılacaqdır.

[1] Qulu Xəlilov. Elə bil Sibiri Gördüm. "Ədəbiyyat və incəsənət" qəzeti, 1971, 9 oktyabr

DAVUD NƏSİB
(1942-2003)

Şair, yazıçı, publisist, tərcüməçi, ictimai xadim Davud Nəsib zəngin poetik irsi, bənzərsiz deyim tərzi, özünəməxsus üslubu, mövzu seçimi, orijinal metaforları ilə Azərbaycan milli poeziyasında xüsusi yer tutur. Onun zərif ruhlu, incə duyğulu poeziyasının idealı insan idi. İnsan mənəviyyatı, onun problemləri, kainatda rolu, təbiətlə bağlılığı poeziyasının özəyini təşkil edirdi. Şairin əsərləri dünya dillərinə çevrilmiş, gəncliyin mütəmadi istinad etdiyi sevgi nəğmələridir. Təsadüfi deyildir ki, Davud Nəsibin şeirləri Azərbaycanın və Sovetlər Birliyi Gənclər ittifaqının mükafatlarına layiq görülmüşdür.

Həyatı. Davud Məcid oğlu Nəsibov 1942-ci il avqustun 25-də Qazaxda ziyalı ailəsində anadan olmuşdur. Qazax şəhər 2 saylı orta məktəbi bitirdikdən sonra o, Bakı Dövlət Universitetinin (sabiq ADU) Kitabxanaçılıq fakültəsində təhsilini davam etdirmişdir (1959-1963).

Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin incəsənət redaksiyasında redaktor işləmiş (1966-1969), daha sonra təhsilini Moskvada M.Qorki adına Dünya Ədəbiyyatı İnstitutunun ikiillik ali ədəbiyyat kursunda davam etdirmişdir (1971-1972). Bakıya qayıtdıqdan sonra, "Ədəbiyyat və incəsənət" qəzeti redaksiyasında ədəbi işçi, Təsviri sənət şöbəsinin müdiri, poeziya şöbəsinin rəhbəri olmuşdur. 1969-cu ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü olmaqla yanaşı, həm də Rəyasət Heyətinin üzvü idi.

Davud Nəsib Macarıstan Xalq Respublikasında yaradıcılıq ezamiyyətində (1978-1980) olmuşdur. Dövrünün nüfuzlu təltiflərinə – Azərbaycan (1984) və Ümumittifaq komsomolu mükafatlarına (1986) layiq görülməsinə baxmayaraq deyirdi: "Şübhəsiz, şairi tanıdan və sevdirən fəxri adlar və mükafatlar deyildir, üzərində düşünüb-daşındığı mövzu, poetik sözünün vətəndaşlıq ləyaqəti və kəsəridir".[1]

Əhatə olunduğu ədəbi mühit, Moskva məktəbi və Macarıstan səfəri – hər biri ayrı-ayrılıqda D.Nəsibin gələcək inkişafında, dünyagörüşündə, yaradıcılığında mühüm rol oynamışdı.

Davud Nəsib 26 mart 2003-cü ildə yol-nəqliyyat hadisəsi nəticəsində vəfat etmişdir. Amansız əcəl onu istedadının, yaradıcılığının kamilləşən dövründə həyatdan, qələmdən, sevdiklərindən ayırdı. "Amma onun içindəki

[1] Davud Nəsib. Dünya bir körpüdür. – Bakı: Yazıçı, 1987, s.5

“qəza” daha əvvəl baş vermişdi”,[1] “kəşməkəşli həyatımızın burulğanlı durumları ona rahatlıq vermirdi”.[2]

Yaradıcılığı. Davud Nəsibin yaradıcılıq bioqrafiyası 1956-cı ildən başlamışdır. Bu, gələcək şöhrətindən xəbərsiz 14 yaşlı gəncin “Qalibiyyət bayrağı” (Qazax rayonu) qəzetində dərc edilən “Mənim doğma çayım – mənim Kür çayım” şeiri idi. O vaxtdan ömrünün sonuna qədər fəal ədəbi fəaliyyətlə məşğul olmuşdur. “Gözüm səni axtarır” (1966) adlı ilk kitabından sonra müntəzəm çap olunmağa başlayır. “Dağlar danışsaydı”, “Məhəbbət yolları”, “Ürək sözsüz danışır”, “Əsrin laylası”, “Azərbaycan bayatısı” və b. kitabları işıq üzü görür. Hər yeni kitabı ilə də, özünü bir daha, başqa rakursdan, başqa perspektivdən təsdiq edir. Bu kitablarda toplanan şeir və poemaları ilə də “şeirimizdə vətəndaşlıq hüququ qazanır”.[3]

Davud Nəsib 14 kitabın müəllifidir. Onun Moskvada, “Sovetskiy pisatel” nəşriyyatında “Anama məktublar” (1974), “Ocaq daşları” (1981), “Müsahibə” (1985) adlı şeirlər kitabları çap edilmişdir. Şeirləri Ukrayna, özbək, gürcü, moldovan, tatar, macar, bolqar, slovak və b. xalqların dillərinə tərcümə olunmuşdur. Zamanının sevilən şairlərindən, “qəlb həmdəm”-lərindən olan D.Nəsibin Azərbaycan ədəbiyyatının “qızıl əsr”ində özünəməxsus yeri, öz çəkisi vardır.

Davud Nəsib şeirimizə ata arxetipi gətirib, onun ən populyar şeirləri bu mövzudadır. Ata obrazı bizim ədəbiyyatda ana qədər aparıcı mövqedə olmasa da, Əli Kərim, Bəxtiyar Vahabzadə, Zəlimxan Yaqub, Ramiz Rövşən ata adına layiq qiymətli şeir nümunələri yaratmışlar. Ata mövzusu Davud Nəsibin yaradıcılığının bütün mərhələlərindən əsas xətt kimi keçir. Akademik Nizami Cəfərovun dediyi kimi, poeziyamızın ata tematikasında yazılmış ən emosional, zəngin mündəricəli, səviyyəli şeirləri məhz onun adı ilə bağlıdır. Hər kəsə doğma və əziz olan ata adının arxasında şairin uşaqlıq zədəsi, həyatının dramı dayanır. O, müharibə nəslinin uşağı olub. Demoqrafik koqortaya görə onlara “səssiz nəsil” də deyirlər. Yetkinlik çağı müharibədən sonrakı dövrə düşən D.Nəsib müharibənin ağrı-acısını həmişə özündə “qış, qaranlıq gecə” kimi yaşatmışdır. Poeziyamıza ata obrazını gətirən Davud Nəsibin özünü də poeziyaya gözünü açandan yanında görmədiyi, daim ehtiyac duyduğu ata həsrəti gətirib: şair atası cəbhədə ikən dünyaya gəlmişdir. Bu mövzu onun yaradıcılığının epiqrafı ola bilər:

Bu dərddən Davud xəstə,
Mən ölsəm qəbrim üstə

[1] Bəxtiyar Qaraca. Davud Nəsibin ümid qatarı. “525-ci qəzet; 28.09.2012
[2] Qəzənfər Paşayev. Dinclik vermir xatirələr. “Yada düşdü” jurnalı №1 (42) 2021)
[3] Davud Nəsib. Bizdən sonra yaşayanlar. – Bakı: Yazıçı, 1981, s.5

Salın yada laylamı:
Çalın ata laylamı.[1]

Xəyalındakı ata obrazı sanki müəllifə "ruhani bələdçi"lik edib, "əlindən tutaraq, Davuddan Davud Nəsibə yüksəldib". Hətta beşikdə yatan oğlunu da atasının əvəzi görür, "qınamayın, ay ellər, ata yırğalayıram, ata böyüdürəm mən",[2] – deyə onunla təskinlik tapmaq istəyir.

O, "vətən müharibəsi" dediyimiz, ataların gedib-qayıtmadığı II cahan müharibəsinə yas tutarkən (şairin atası Mozdok uğrunda gedən döyüşlərdə həlak olub, 3 əmisi, 4 əmisi oğlu müharibədən qayıtmayıb), müstəqillik dövründə özümüzün məruz qaldığımız, zorla cəlb edildiyimiz Vətən müharibəmiz alovlandı. Ata həsrətli şeirləri "qaçqınçılıqla, köçkünçülüklə səsləşməyə"[3] başladı, öz "oğullarımız vətənləşdi". D.Nəsib poeziyamızdan qırmızı xətt kimi keçən ana mövzusuna bir ata xətti də əlavə etdi. D.Nəsibin arxetipik motivlərindən ikincisi isə ana obrazıdır. D.Nəsibin "Ana"sı həzin, kədərli, nisgillidi... "Ata paltosu"nda bu iki obraz birləşir:

Anam üç qardaşı çağırıb deyir:
Artıq böyümüsüz – hamı halıdır,
Paltoya, kim geysə gövdəylə deyil,
Ata qeyrətiylə sığışmalıdır.[4]

Qırx illik ədəbi fəaliyyətinin böyük hissəsi sovet dönəmində keçsə də, onun yüksək fəxri mükafatlarını alsa da, yaradıcılığı ilə sovetin yox, öz ideologiyasına xidmət etmişdir. Onun zərif ruhlu, incə duyğulu poeziyasının idealı insan idi. İnsan mənəviyyatı, onun problemləri, kainatda rolu, təbiətlə bağlılığı Davud Nəsib poeziyasının özəyi idi. Davud Nəsibdə çoxlu lirik ithaflar vardır: Osman Sarıvəlli və onun həyat yoldaşı Sayalı xanıma, Hüseyn Arifə, Səttar Bəhlulzadənin xatirəsinə, tarzən Ramiz Quliyevə, Vaqif Nəsibə və s. Özünün də dediyi kimi, poeziyasının aparıcı mövzusu isə ata, ana ("Ana" poeması), nənə ("Dörd göz yaşı" poemasını nənələri Anaxanım və Fatmanın), baba ("İki dağ – iki baba" şeirini babaları Alı və Şərifin xatirələrinə ithaf etmişdi), qardaş ("Qardaş" poeması), doğmalar, övladlar ("Oğlumun nağılları"), soy-kök idi. O, "Azərbaycan poeziyasında həm də yurd, vətən sevgisinin uğurlu poetik ifadəçisidir".[5] Onun üçün vətən ana, ana da vətən idi. Macarıstanda olanda yazırdı:

[1] Davud Nəsib. Əsrin laylası. – Bakı: Gənclik, 1982, s.8
[2] Davud Nəsib. Ata laylası. – Bakı: Sabah, 2013, s.522
[3] Bəxtiyar Qaraca. Davud Nəsibin ümid qatarı. "525-ci qəzet", 28.09.2012
[4] Davud Nəsib. Əsrin laylası. – Bakı: Gənclik, 1982, s.10
[5] edebiyyatveinesenet.az

Qürbətdə olanlar vətəndən demiş,
Qürbətdə köksündə vətən döyünür,
Vətən gör nə qədər yaxında imiş,
Vətən uzaqlardan yaxın görünür.[1]

Yurd-yuva onun üçün elə müqəddəs, həm də geniş anlayış idi ki, təsadüfən yuvasını dağıtdığı quşun fikrindən, daha orada qala bilmədiyi üçün yaşadığı bağı satır. Davud Nəsibin qənaətinə görə, yazıçı hissiyyatının süzgəcindən keçirdiyini yazmalıdır. Yazıçı qələmə aldığı mövzunu ideya, sənət səviyyəsinə qaldırmağı bacarmalıdır. Ətrafında baş verənlərə emosional yanaşan şair zərrədə böyüklük görür, sevdiyini ideallaşdırırdı. Bu mövzular müxtəlif ola bilirdi; avtobioqrafik, od-ocaq, insan həyatı və münasibətləri, təlim-tərbiyə, o tay, dünyanın təzadları, təbiətin gücü kimi mövzuları əhatə edən şeirlərdir. Mənfur qonşularımızın torpaq təcavüzünü "şeytan oyunu" adlandırırdı: "Bizim maddi-mədəniyyət abidələrimiz, zəngin tariximiz üstündə qurublar ermənilər "Dənizdən dənizə" uydurmalarını"[2], – deyirdi. Dünyanın ədalətsizcəsinə, saymazyana "konflikt" adlandırdığı bu qeyri-bərabər, vəhşi müharibə onun yaradıcılığına da təsirini göstərmiş, romantik şair olan D.Nəsib bu ümumi prosesə qoşularaq, daha çox vətənpərvərlik ruhunda məqalələr yazmağa başlamışdı.

D.Nəsib "lap uşaqlıqdan yolları və qatarları sevirdi".[3] "Yollar" qurtaranda "Cığır"a düşürdü. Dünya ədəbiyyatının ayrılmaz parçası olan qatar onun poeziya pəncərəsindən motiv və məkan kimi təkrar-təkrar keçir. Kitabının bir fəsli də "Ümid qatarı" adlanır.

Bir uşağın intizardan köksü yaralı,
Gedib-gələn qatarları bir-bir sayırdı.
Qatar keçir gecəyarı, kənddən aralı –
"Sən tələsmə, o, gələcək"– pıçıldayırdı.[4]

D.Nəsibin "qatarında" müharibəyə sağlam gedib şikəst qayıdan əsgər də var; "Qatar əsgər aparır, yarısını qaytarır..."

D.Nəsibdə yol simvoldur, həm də taledir, qatar mistika, vaqon ümid yüklü, rels arası cərgə-cərgə, dilim-dilimdir. Uzaqdan sürətlə üstünə şığıyan iki qırmızı göz. Uzun bir yola çıxan şairin ömrü elə yolda da dayanır.

Tərcümələrinin içindən də vaqon keçir, qatar səsi eşidilir, stansiya görünür.

---

[1] Davud Nəsib. Bizdən sonra yaşayanlar. – Bakı: Yazıçı, 1981, s.62
[2] Davud Nəsib. Cavanşir. – Bakı: Zərdabi, 2019, s.4
[3] Bəxtiyar Qaraca. Davud Nəsibin ümid qatarı. "525-ci qəzet", 2012, 28 sentyabr
[4] Davud Nəsib. Dünya bir körpüdür. – Bakı: Yazıçı, 1987, s.26

D.Nəsib lirik şairdir. Məhəbbət lirikası ondan da yan keçməmişdi. O, sevgiyə başqa kateqoriyadan – şəxsi həyat kimi təmkinlə, mühafizəkarlıqla yanaşırdı. D.Nəsibin məhəbbət lirikasına bir "dərin-düşündürücü ovqat" hakimdir: "Yer üzündə kədər varmı məhəbbət qədər?! "Şairə görə, şeir istənilən halda Allahdan və Allahın özünün istədiyi vaxt gəlir. Onun üçün yalnız "ürək, sevgi, insanlıq və gözəllik var".[1] Şeirlərində eşq təbiətə qarışır, "məhəbbət, sədaqət haçalanmayır",[2] heyranlıq önə çəkilir. Hər şeir poeziya sayılmır. Əsl poeziya məzmun və məna vəhdəti, dil gözəlliyindən əlavə, bir də çatdırmaq bacarığıdır. D.Nəsibin poeziyasında duyum da, deyim də eyni dərəcədə güclüdür.

Davud Nəsibin təbiət təsvirləri spesifikdir, canlıdır; üfüqləri xəyala dalır, səhərləri göz qırpır, dağları göz-gözdür... Qış dişini ağardır, yellənən yarpaq elə bil oğluna əl edir... Onun poeziyasında bütün "ümidsiz" romantiklərin sevimli mövsümünə də yer var. "Son payız", "Payızın rəngi", "Payız addımı"... kimi şeirlərinə sonbaharın duyğuları, rəngləri, izləri hopub. Həm sondur, həm bahar. Şair "qışda yazı, yazda yayı arzulasa da, tək payızda başqa fəsil xatırlamırdı".[3] Onun payızı da elə kədəri kimidi... Hüzn vermir, "sevinc verir, duyğu verir təbiətin payız qəmi",[4] gələcəyə ümid verir.

Fəsillər dörd ömür, yoxsa dörd tanış?
Gödəkdir elə bil payızın ömrü –
Bu başdan yay kəsir, o başdan da qış.[5]

Payız peyzajı, epitetləri, metaforik obraz onun şeirlərində qol-qanad açır, yeni və orijinal səciyyə daşıyır:

Güneylər soyuyub quzeyə döndü.
Düzüldü qatara durna şərqisi.
Dəli dağ çayları quzuya döndü.
Açıldı dağlarda payız sərgisi.[6]

Yaxud 1990-larda qaz-işıq olmayanda kəsilib-yandırılmış tut ağacına müraciətlə:

Hər gün gün batanda, qızaranda dan –
Fikrimdən çıxmayır o tut ağacı,

[1] Mina Rəşid. Davud Nəsib. Heç vaxt unutmaram. "Ədəbiyyat qəzeti", 30.08.2019
[2] Davud Nəsib. Əsrin laylası. – Bakı: Gənclik, 1982, s.5
[3] Davud Nəsib. Ata laylası. – Bakı: Sabah, 2013, II cild, s.30
[4] Davud Nəsib. Bizdən sonra yaşayanlar. – Bakı: Yazıçı, 1981, s.83
[5] Davud Nəsib. Əsrin laylası. – Bakı: Gənclik, 1982, s.130
[6] Yenə orada, s.130

Həyatda çoxları çıxıb yadımdan,
Gəl unut bir görüm, unut, ağacı[1]

– söylədiyi fikir bir şair şəxsiyyətinin göstəricisidir.

D.Nəsibdə bir müraciət, xitab var. Bu çağırış İlahiyə də, konkret adama da aid ola bilər, abstrakt bir məfhuma da, təbiətə də. Ümumi bir yalvarış da, hayqırtı da ola bilər... "Qayıdın, atalar", "Mənə sübut eylə, məni inandır", "Hanı o köç yolu? Olmayıb demə!" kimi istək, tələb də. Ya "Şairi tərifləməyin", – deyir, bəzən isə "Möminə xatun"un önündə dayanıb "ürək-ürək, çiçək-çiçək, ilmə-ilmə bir də danış", – deyə xitab edir. Bu, şeirin mənasını açmaqla, həm də, emosional ovqat verir.

D.Nəsib düşüncə şairidir. Bu düşüncə bəzən dərin fəlsəfi də ola bilirdi. Dünyanın öz-özü ilə əbədi davasından, qovğasından nigarandır. Şair bu düşüncələrini ümumiləşdirilmiş obrazlar, ritm, bədii təsvir vasitələri ilə ifadə etmişdir.

Özünü həlak etdin, həlak bizəmi qalıb?
Özünü fələk etdin, fələk bizəmi qalıb?[2]

O, əqidə, amal şairi idi. Şair Qarabağ müharibəsi başlayandan daim cəbhə bölgələrinə can atır, yardım aparırdı, əsgərlərlə görüşür, onlara şeirləri ilə ruh verirdi. Sanki bununla qəlbi bir az aram olur, ürəyini soyudurdu. Müharibənin qızğın vaxtında ona ayrılan 3 otaqlı mənzildən qaçqınların xeyrinə imtina etmişdi. Oğlu əsgər gedəndə sevinmişdi. Onun haqqında deyilmiş "nə yazıbsa, elə bil and içirmiş kimi yazıb"[3] sözləri əməlin sözü doğrultmasının bir nümunəsidir.

Səməd Vurğun şairin ən çox sevdiyi şairdir, hətta bir şeiri bəyəndiyini "burda Vurğun nəfəsi var" deməklə bildirir. Böyük şairə bir neçə şeir də həsr etmişdi. S.Vurğun ədəbi məktəbinin davamçısı kimi şeirlərinin dili sadə, xalq dilinə yaxındır. Onun "poetik ifasında" hər element, hər söz məna ifadə edir, müəllif fikrini dəqiq çatdırmağa yönəlir. Əks təqdirdə, belə yaddaqalan uşaq şeirləri yaza bilməzdi ("İşıq", "Təranə", "Xəyalın dərmanı" və s.). Lakin şairin leksikasında dialekt sözlərə, "müasir dövrlərdə işlənməyən, arxaikləşən sözlərə də vaxtaşırı rast gəlmək olur".[4] Bu da dili qorumağın, qoruyub zənginləşdirməyin, nəsildən-nəslə ötürməyin əsas yoludur.

Davud Nəsib yaddaşlarda və könüllərdə sevilən mahnıların müəllifi kimi də qalmışdır. Onun sözlərinə yazılmış mahnıları Xalq artistləri Flora

[1] Bəxtiyar Qaraca. Kəmalə Mirzəyeva. Kasakla Qazax arasında. "525-ci qəzet", 07.06.2019
[2] https:// davudnasib.az
[3] Barat Vüsal. Unudulmaz sağlıq... "Ədəbiyyat qəzeti", 25.08.2022
[4] Yadigar Əsgərova. Davud Nəsibin poeziyası. Filologiya məsələləri. AMEA M.Füzuli adına Əlyazmalar İnstitutu. №11.2023

Kərimova, Mübariz Tağıyev, İslam Rzayev və b. ifa etmişlər. Bəstəkar mahnılarından əlavə, onun şeirləri bu gün də aşıqların, muğam ustalarının dilindədir.

D.Nəsib poemalar müəllifi kimi də məşhurdur. Onun "poemaları uğurludur, yığcamdır, yaddaqalandır, həm mövzu, həm sənətkarlıq cəhətdən maraqlıdır".[1] Şairin poemalarında da şeirlərində olduğu kimi, bir yığcamlıq müşahidə olunur. "Müharibə mənim taleyimdir", – deyən D.Nəsib poemalarında da mövzusuna xilaf çıxmır. Qara xəbərdən, "Əsgər oğlu"ndan, əsgər yadigarından, "Oğlumun nağıllar"ından yazır. "Atalar ölməsin", – deyir. Müharibə gülləsi uşaqların oyuncaqlarını yerə salmasın... Nağıl-nağıl, ağıl-ağıl böyüsünlər... Onun poemaları epik lövhələrlə zəngindir. D.Nəsibin ən təsirli poemalarından biri "Rekviyem"dir (1991). Rekviyemə xas lirik başlanğıc, matəm messası süjetin üst qatıdır, getdikcə nostalji bir nağıl ovqatına köklənir. Poema ölümdən çox yaddaş üzərində qurulub, D.Nəsibə xas tərcümeyi-hal, şəcərə xarakterlidir. Ailəyə, bacı-qardaşa bağlı olan şair böyük bacısının itkisini faciə kimi yaşayır, oxucunu da buna inandırır. Müəllif zaman paralelləri aparır, xəyalən keçmişə gedib qayıdır. Bütün bunları obrazlı şəkildə, səmimiyyətlə edir: "O günlər necə gözəl, o günlər bir nağıldı; O günlər əl eləyib qucağına çağırdı".[2]

"Hacı Kərim Sanılının "Aran köçü" poemasını xatırladan "Göyqurşağı" etnoqrafik poeması milli yaddaşımızı özündə daşıyan xalça sənətinə həsr olunub".[3] 1975-76-cı illərdə şair "Yatmış şəhərin əfsanəsi"ni yazır. Bu poema D.Nəsib üçün tarixə bir keçhakeç, tramplin olur. Artıq itib batmaqda olan tarixi abidələrimiz, onlarda gizlədilən tariximiz ona dinclik vermirdi. Gələcək fəlakətlərimizi də hiss etmiş kimidir, "poeziya yalnız zahiri əlamətlərin, hadisələrin təsviri deyil", ola biləcəklərdən də xəbər verir.

İllər keçdikcə, onun yaradıcılığı yeni mövzular tələb edir, yeni mövzular üçün yetişir. 1991-ci ildə Davud Nəsib "Karvan gedir" poemasını yazır. Bu, şairin ən böyük poeması olub, M.P.Vaqifin müasiri Dərviş Mahmud haqqındadır. Poemanın qəhrəmanı – şairin özünün də başlanğıcda ipucu verdiyi kimi sıradan olmayan bir ömür yaşamış, dövrünün tanınmış fikir adamlarından, şairlərindən olmuşdur. Poema maraqlı üslubda yazılmış, Dərviş Mahmudun əlimizdə olan azsaylı şeirləri ilə süslənmişdir. Sonra işğalın ağır illəri başlayır, şair sarsıntısını, el-oba dərdini içində çəkir, içində

[1] Davud Nəsib. Bizdən sonra yaşayanlar. – Bakı: Yazıçı, 1981, s.7

[2] https://davudnasib.az

[3] Yadigar Əsgərova. Davud Nəsibin poeziyası. "Filologiya məsələləri", AMEA M.Füzuli adına Əlyazmalar İnstitutu, № 11, 2023

yaşayır, oxucularından uzaq düşür. Amma qələm-kağızdan da aralanmır, sadəcə, poeziyanı pauzaya qoyur, "tarixə uzun səyahətə çıxır".[1]

Əsl "şair həmişə xalqın görən gözü, vuran nəbzi, döyünən ürəyi"[2] olmuşdur. Zəmanəsinin şairi olsa da, qədim tariximizlə hələ 1980-ci illərdən maraqlanmışdır. Mingəçevir "dənizi" onu hey özünə çəkir, elə hey sahilinə qayıdırdı. Bu həyəcan illər sonra "Cavanşir"in son sözündə sözünü deyəcək: "Sularda qərq elədik daş dilli naxışları, izləri Mingəçevirdə".[3] Alban tarixinin adı belə çəkilməyən dövrdə İrəvandakı alban məbədlərini, qədim qəbiristanlıqları gəzən, öyrənən D.Nəsib şüuraltı addım-addım "Cavanşir"ə doğru getmişdir. Məqamı gəlincə, yaradıcılığında zaman adlaması edir. 9 il "yay ilə yaylayıb, qışla qışlayan"dan sonra oxucularının görüşünə "Cavanşir" romanı ilə əli dolu gəlir. Bu müddət ərzində bütün alban tarixi mənbələrini araşdırmış, VII əsrdə yaşayıb 40 il hakimiyyətdə olan sərkərdə Cavanşir haqqında layiqli tarixi roman ortaya qoymuşdu. Roman böyük alban hökmdarı Cavanşirin qəhrəmanlıqla zəngin, kəşməkəşli, fatal sonluqla bitən həyat və döyüş yolundan bəhs edir. Mövzu onu elə zəbt etmişdi, "tarixi qəhrəmanlarımızı gündəmə gətirmək" arzusu elə güclü idi ki, uzaq tarixi keçmişimizdən qopa bilmirdi. Cavanşir kimi şəxsiyyət başqa xalqların tarixində çox azdır, – deyirdi. Əsər 4 hissədən ibarətdir: "Sınaq", "Dönüş", "Xəyanət", "Qanlı meydan". Başlıqların ardıcıllığı elə romanın annotasiyasıdır. "Cavanşir"in ardınca, 2001-ci ildə "Cavanşirsiz məmləkət" romanını yazıb çap etdirir. Akademik Nizami Cəfərov haqlı olaraq, bu tarixi romanları ona dövrün, zamanın yazdırdığını deyirdi. Vaxtında və uzaqgörənliklə yazılmış bu romanlar düşmənlərimizin alban məbədlərinin ermənileşdirilməsinə, alban katolikosluğunun erməni katalikosluğuna tabe etdirilməsi cəhdinə böyük zərbə idi. Əlbəttə ki, bunun da arxasınca torpaq iddiaları gəlirdi. O, "xalq qəhrəmanı Cavanşir haqqında elə maraqla danışırdı, sanki onunla bir zamanda yaşamış, qəhrəmanlıqlarının şahidi olmuşdu. İçində bir Cavanşir obrazı yaratmışdı".[4] Romanın məsləhətçisi akademik Budaq Budaqov "Davud Nəsib Cavanşirin vurğunu idi", – yazırdı. Yazıçı tarixi faktlarla, dəlil-sübutlarla Xosrov Pərvizin hakimiyyətində bir neçə erməni ailəsinin Qafqaza məqsədli şəkildə, xəbərçilik üçün köçürülməsindən bəhs edir. Və nəticədə, sərkərdə Cavanşirin aradan götürülməsində erməni variantından istifadə olunur. Erməni fitvası ilə Qafqaz Albaniyasının mərkəzi Bərdədə misli görünməyən soyqırım törədilmiş və bu qırğın romanda öz bədii

[1] Davud Nəsib. Ata laylası. – Bakı: Sabah, 2013, II cild, s.17
[2] Qəzənfər Paşayev. Dinclik vermir xatirələr. "Yada düşdü", №1. (42), 2021
[3] Davud Nəsib. Cavanşir. Zərdabi, 2019, s.203
[4] Ramiz Göyüşov. Davud Nəsibin özünü və sözünü xatırlayanda... "525-ci qəzet", 21 fevral 2014

əksini tapmışdı. “Davud Nəsib elə bu romanları yazmaqla özünü Azərbaycan ədəbiyyatı tarixinə yazmış oldu”.[1] Yazıçı bu mövzuya həm də özünə ideal hesab etdiyi Mehdi Hüseynin “Odlu qılınc”, “Cavanşir” əsərlərindən bəhrələnərək müraciət etmişdi. Ömrünün sonlarında qələmə aldığı bu romanlar sübut etdi ki, “onun nasir kimliyi şair kimliyindən heç də geri qalmayıb”.[2] Başqa sözlə, şair kimi tanınması onun nasirliyini ədəbiyyatın əyalətinə ata bilməmişdir. Hələ zamanında qiymətini alan, zamanımızda daha da aktual olan bu iki roman ayrıca tədqiqatın mövzusudur. Romanın son sözündə əlimizdən çıxanları yana-yana sadalayanda, unutqanlığımızı, başı-sovuqluğumuzu xatırladanda bir yazıçı öyüdü eşidilir: “Torpağının, xalqının danışıq dilini sandıq-sandıq daşıdılar vaxtilə... Eramızın əvvəllərindən indiyə kimi yadellilər poza-poza, başqa yerlərə yoza-yoza dəyişdiriblər xalqımızın qanı ilə cümlə-cümlə yazılan tarixini. İtirdiklərimizi indən belə dişimizlə-dırnağımızla, sürünə-sürünə düzəldib yerinə qoymalıyıq”,[3] – deyir. Romanı yazarkən Kəlbəcərdəki alban məbədlərinə əlinin çatmadığından yanıb yaxılan yazıçı, fəlakətlərimizin səbəbini götür-qoy edəndə də obyektivliyini itirmir, ağacın bir ucunu da öz çiynimizə endirir, “tarix boyu qənim kəsildik özümüzə”, – deyir... Əgər Davud Nəsib yaradıcılığını obrazlı olaraq bir məmləkət xəyal etsək, onun mərkəzi, heç şübhəsiz, “Cavanşirsiz məmləkət”dir. Ömür vəfa etsəydi, “Cavanşir” trilogiya olacaqdı, ingilis dilində çap ediləcəkdi. Yaradıcılığının yekunu olan bu romanlar həm hesabat, həm də sanki bir sənətkar vəsiyyətidir, “yalnız bu yurdu, bu xalqı canından artıq istəyənlərə aiddir”.[4] Nekrasov deyirdi ki, şair olmaya bilərsən, amma vətəndaş olmağa borclusan. O da ola ki, həm şair, həm vətəndaş olasan, “vətəndə vətən, millət yanında millət” (Nəriman Həsənzadə) olasan. Roman zamanında öz qiymətini almış, mütəxəssislər, oxucular tərəfindən yüksək dəyərləndirilmişdir. Akademik Teymur Bünyadov “Cavanşir”ə qiymət verərkən qeyd etmişdi ki, əvvəllər də yazıçıların, tarixçilərin Cavanşirə müraciət etmələrinə baxmayaraq, daha əhatəli, məzmunlu əsər Davud Nəsibə məxsusdur. Akademik B.Budaqov və professorlar Q.Qeybullayev, Q.Paşayev romanlara peşəkar rəy vermişlər.

“Cavanşir”ləri ona zaman yazdırsa da, bu əsərlər İsa Hüseynovun təbiri ilə desək, “faktlarla, ixtiralarla” zəngin olsa da, Davud Nəsib, ilk növbədə, şair idi. “Şeirsiz həyatda quru nəfəsəm”, – deyən şairin “içi şeirlə qaynayırdı”.

---

[1] Ramiz Göyüşov. Davud Nəsibin özünü və sözünü xatırlayanda... “525-ci qəzet”, 21 fevral 2014

[2] Əkbər Qoşalı. Davud Nəsib – Vətəncanlı poeziyanın Vicdanı. “Ədəbiyyat və İncəsənət” portalı, 12.03.2025

[3] Davud Nəsib. Cavanşir. – Bakı: Zərdabi, 2019, s.230

[4] Yenə orada, s.230

Lakin dövrün tələbi, vətəndaşlıq vəzifəsi ilə şeirdən uzaq düşmüş, "ikiləşmişdi".

Davud Nəsib tərcüməçi kimi də fəaliyyət göstərmişdir. Moskva mühiti nəşr, tərcümə sahəsində də münbit olmuş, şair Rus, SSRİ xalqları ədəbiyyatından tərcümələr etmişdir. Ən yaxşı tərcümələrini isə macar poeziyasının nümunələrindən etmişdi. Özünə və şeirə son dərəcə məsuliyyət və həssaslıqla yanaşan D.Nəsib "yalnız orijinal bədii sözün qarşısında təslim olurdu".[1] Keçən əsrin 70-80-ci illərində Macarıstanda yaradıcılıq ezamiyyətində olan D.Nəsibi XX əsrin görkəmli liriklərindən biri M.Rodnoti yaxından maraqlandırmışdı. Azadlıq mücahidləri F.Q.Lorka, Musa Cəlil, P.Lumumba, Çe Gevara ilə bir sırada dayanan Rodnotinin yaradıcılığı, yaradıcılığından heç də az təsirli olmayan həyatı, yaşadıqları diqqətini çəkmiş, onunla bağlı araşdırmalar aparmış, tanıyanları ilə görüşmüşdür. Bu ezamiyyət məhsuldar olmuş, D.Nəsib Rodnotinin şeirlər və ekloqalardan ibarət "Yaralı ağrılar" (1984) kitabını dilimizə çevirib nəşr etdirmişdir (D.Nəsib M.Rodnotinin dilimizə ilk mütərcimi olmuşdur).

Ata həsrəti D.Nəsibin tərcümələrində də özünü büruzə verir və eyni həyəcanla oxunurdu. Tərcümə obyekti də təsadüfi deyildi. Rodnoti də, şairin atası kimi qısa ömür yaşayıb, elə atasının yaşında, onun kimi II Dünya müharibəsində həlak olmuşdu. Fəaliyyət dairəsi (yazıçı, şair, tərcüməçi), mövqeyi (vətən, xalq təəssübkeşliyi), mövzuları (lirik poeziya, tarix, ekzistensializm (varlıq), dəyərləri, onu tərcümə obyekti kimi daha da maraqlı etmişdi. Rodnoti "Təqvim" yazmışdısa (bu "Təqvim"də 12 ayın hər birinə kiçik ekloqa həsr etmişdi), D.Nəsib "Fəsillərin rəngi"ni qələmə almışdı. Onun fəsilləri "öz rəngini seçər, qaranı sevməz"di.[2] 2019-cu ildə M.Radnotinin "Bir dəli yağış" adlı şeir toplusunun təqdimatı keçirilmiş, kitaba D.Nəsibin də Radnotidən etdiyi seçmə əsərlər daxil edilmişdir.

"İnsan nə qədər sevirsə, o qədər yaşayır və insan nə qədər sevilirsə, həm də o qədərdi ömrü".[3] Davud Nəsibin nümunəsində bu fikir birbaşa və məcazi məna daşıyır. Doğrudan da, bir insan nə qədər sevilərmiş? Yaradıcılığına yüksək qiymət verən, poeziyalarının oxşar cəhətlərindən söz açan Xalq şairi Vaqif Səmədoğlu D.Nəsibin mənəvi saflığını, paklığını da dönə-dönə vurğulayır, fiziki yoxluğunun yerində acı bir qəribçiliyin qaldığını da təəssüflə qeyd edirdi. 2013-cü ildə hər biri 600 səhifədən artıq olan ikicildlik "Ata laylası" adlı şeir və poemalarından ibarət kitabı çap olunmuşdur. Bu onun xatirəsinə bir ehtiram, həm də möhtəşəm abidədir. Kitab akademiklər Teymur Bünyadov və Nizami Cəfərovun, professor Qara Namazovun

[1] İsmayıl Umudlu. Bu dünyanın Davud Nəsib işığı. – Bakı: Ayna, 26.08.2006
[2] Davud Nəsib. Dünya bir körpüdür. – Bakı: Yazıçı, 1987, s.100
[3] Barat Vüsal. Unudulmaz sağlıq... "Ədəbiyyat qəzeti", 25.08.2022

sanballı məqalələri ilə də qiymətlidir. 2019-cu ildə İstanbulda "Cavanşir" romanının təqdimatı keçirilmişdir. Şairin haqqında "Tənha dağdağan ağacı" filmi çəkilmişdir.

Torpağın şəninə sağlıq deyən, onu "ayağının altında yox, ürəyində hiss edən" Davud Nəsibi elə torpaq da hərisliklə apardı.

Bu gün Azərbaycan poeziyasının "nəsib simalarından" olan Davud Nəsibin söz ömrü "şeirlərinin sətirləri arasında yaşayır".[1] Həm də insanlığının, şəxsiyyətinin, vətəndaşlığının məcmusunda.

[1] davudnasib.az

NÜSRƏT KƏSƏMƏNLİ
(1946-2003)

XX əsr Azərbaycan poeziyasında orijinal bədii üslubu, səlis, axıcı, lakonik dili ilə seçilən nümayəndələrdən, istedadlı simalardan biri də Nüsrət Kəsəmənlidir.

Həyatı. Nüsrət Yusif oğlu (Əyyubov) Kəsəmənli 1946-cı il dekabrın 29-da Ağstafa rayonunun Kalininkənd (hazırda Vurğun qəsəbəsi adlanır) kəndində anadan olmuşdur. Uşaq yaşlarından baba və nənəsinin himayəsində böyüyən Nüsrət ilk təhsilini Kirovka (Həsənsu) kənd orta məktəbində almışdır. Məktəbi bitirdikdən sonra əvvəlcə Mədəniyyət və İncəsənət Universitetinin Rejissorluq fakültəsinə daxil olmuş, 1966-cı ildən Azərbaycan Dövlət Universitetinin (indiki BDU) Jurnalistika fakültəsində təhsilini davam etdirmişdir. Bakı mühiti öz qaynarlığı və parlaqlığı ilə Nüsrət Kəsəmənlinin boz həyatına yeni bir rəngarənglik gətirmişdi. Universitetin ikinci kursunda oxuyarkən şairin müəllimi, görkəmli jurnalist, elm və ictimai xadim Nəsir İmanquliyev istedadlı gəncə maddi və mənəvi dəstək olaraq onu baş redaktor olduğu "Bakı axşam" və "Veçerniy Baku" qəzetlərinə işə qəbul etmiş, şairin ədəbi yaradıcılığına şərait yaratmışdır.

N.Kəsəmənli Universiteti bitirdikdən sonra Azərbaycan Yazıçılar Birliyində referent və ədəbi məsləhətçi vəzifələrində işləmişdir. Yaradıcılığa 1960-cı illərin əvvəllərində başlayan şairin müxtəlif illərdə "Sevirsənsə" (1971), "Gözlərimin qarası" (1975), "Özümə bənzədiyim günlər" (1979), "Gümüş yuxular" (1981), "Təklikdə danışaq" (1983), "Hamısı sevgidəndir" (1991), "Seçilmiş əsərləri" (2004), "Qapamayın gözlərimi" (2006), "Heyf o sevgiyə" (2006) və s. çap olunan kitabları onu gənclərin sevimlisinə çevirmiş, oxucuların geniş marağına səbəb olmuşdur. Onun "Gümüş yuxular" kitabı sovet dövründə Respublika Komsomolu Mükafatına layiq görülmüşdür.

Nüsrət Kəsəmənlinin 400-dən çox şeirinə musiqi bəstələnmişdir. Bunlardan "Yarı məndə, yarı səndə", "Neyləyim", "Sevdirə bilmədim", "Sevə bilməzsən, "Biri vardı, biri yox", "Allahım, ayırma bizi", "Mənim göz yaşımı görməyəcəksən", "Unut kədərini, qəmini unut" və s. bu gün də sevilə-sevilə dinlənilən mahnılardır.

Nüsrət Kəsəmənli həm də ssenarist kimi tanınmışdır. "Boş kəndlərin harayı", "Mövzu üzrə improvizasiya", "Ənbizlərin keşiyində", "Sovet Azərbaycanına səyahət" və s. sənədli filmlərin, "Afroditanın qolları", "Qarabağ əhvalatı" bədii filmlərinin ssenari müəllifi olmuşdur. 1985-ci ildən tamaşaçıların böyük marağına səbəb olan "İlham" və "Dünyaya pəncərə" sənədli televiziya verlişlərinin ssenari müəllifi və aparıcısı kimi sosial-mənəvi problemləri qabartmışdır. Respublika Lenin Komsomolu Mükafatına

layiq görülmüşdür. Yazıçıların Moskvada keçirilən VI, VII Ümumittifaq müşavirələrində iştirak etmişdir.

Nüsrət Kəsəmənli ictimai işlərlə də məşğul olmuşdur. Azərbaycan Yazıçılar İttifaqında Həmkarlar Komitəsinin sədri (1981-1984), Azərbaycan Yazıçılar İttifaqının VI, VII qurultaylarında idarə heyətinin üzvü, poeziya şurasının sədri seçilmişdir. C.Cabbarlı adına "Azərbaycanfilm" Kinostudiyasında baş redaktor işləmişdir. Nüsrət Kəsəmənli Vətəndaş Həmrəyliyi Partiyasının (VHP) qurucularından biri və VHP Ali Şurasının ilk üzvlərindən olmuşdur.

Xalq teatrı səhnəsində özünü sınayan Nüsrət Kəsəmənli Şeyx Nəsrullah rolunu ifa etmişdir. Əbdül Mahmudun "Doğma sahillər" filmində isə general obrazını canlandırmışdır. Rolunu yüksək professionalıqla ifa edən Nüsrət Kəsəmənlinin aktyor olmadığını bildikdə moskvalı kino mütəxəssislər təəccüblənirlər. O həmçinin "Özbəkfilm"in istehsalı olan "Şirəli və Aypəri" filmində Şirvanşah rolunu canlandırmışdır.

Nüsrət Kəsəmənli yaradıcılığının yüksəliş dövründə, 15 oktyabr 2003-cü ildə Təbrizdə vəfat etmişdir.

Yaradıcılığı. Nüsrət Kəsəmənli yaradıcılığa keçən əsrin 60-cı illərində gəlmişdir. Saf, səmimi məhəbbət duyğuları, vətənə, torpağa bağlılıq hissi yaradıcılığının ilk illərində əsas aparıcı mövzuları idi. Həmin şeirlərdə həssaslıq, səmimiyyət, ürəyəyatımlılıq, yüksək formada özünütəqdim onun üslubunu fərqləndirən, səciyyələndirən başlıca keyfiyyətlər idi. Şairin ilk qələm təcrübələrindən olan "İşıqlar, kölgələr" şeirində yaradıcılığı üçün sonralar əsas meyar və ölçüyə çevriləcək məqamları görmək o qədər də çətin deyildi.

Bir ömür istərəm şimşək tək çaxa
Əridə yerində hey sayanları.
Bir günəş istərəm
Yandıra, yaxa
Özgə kölgəsində yaşayanları.[1]

Nüsrət Kəsəmənlinin poeziyaya gətirdiyi mövzular ənənəvi mövzular idi. Az qala, poeziyanın yaddaşı qədər qədim olan bu mövzular onun yaradıcılığında yeni status qazandı, həm mövzu, deyim tərzi, yaşantı və eləcə də hiss və duyğuların fərdiliyi baxımından seçilənlərdən oldu. Şairin həyatı, uşaqlıq illəri sıxıntı, kədər, maddi və mənəvi ehtiyac içərisində keçmişdir. Hələ uşaqlığından ana nəvazişindən, ata qayğısından məhrum olan şair nənə-baba himayəsində böyümüş, tale elə gətirmişdi ki, öz doğma atasını qardaşı kimi tanımış və hörmətini saxlamışdır. Artıq yaşlandığını hiss edən ata nənəsi

[1] Nüsrət Kəsəmənli. Seçilmiş əsərləri. – Bakı: Şərq-Qərb, 2004, s.167

onu 17 yaşında öz doğma anası ilə görüşdürmüş və bundan sonra Nüsrətin illərlə həsrətində olduğu, sevgidən yanıq qaldığı ömrünün yeni səhifələri açılmışdır. Bütün bu olaylar Nüsrət Kəsəmənlini nağıl kimi yaşadığı həyatın əsas, mübariz qəhrəmanına çevirmişdir.

Beşiyim başında layla yananda,
Bayatı hicranın dilində qaldı.
Ürəyim bir ata-ana yanında,
Əllərim nənəmin əlində qaldı.[1]

Bəlkə də şairin şeirlərində nağıl motivlərinə, süjetinə, təhkiyəsinə, obrazlarına sıx müraciətin də başlıca səbəbi bu idi. Nağıl fenomen olaraq onun yaradıcılığından qırmızı xətt kimi keçir. Lap ilkindən nağılın başlanğıcı ilə insan ömrünün başlanğıcı arasındakı doğuluş aktı olaraq "biri vardı, biri yox" və yaşadıqlarını "nağıl bilib yaşadığı həyat" və bu gün də davam edən Nüsrət Kəsəmənli nağılları. Tənqidçi Rüstəm Kamal Nüsrət Kəsəmənlinin poetik dilində fəal janrlardan biri kimi işlənən nağılın şairin yaradıcılığındakı spesifikliyini dəyərləndirərkən yazır: "Nağıl Nüsrət Kəsəmənlinin poetik dilində fəal və sabit işlənən janrın adıdır. Nüsrət Kəsəmənli nağıllarında olub-olmuşları və olacaqları danışırdı".[2] Nağıllardakı şüuraltı gəzişmələr, milli fenomenal laylar Nüsrət Kəsəmənli şeirlərində də şairin yaddaşının qatları kimi açılıb mənalanırdı, daha dərin, mürəkkəb mətləblərin ifadəsinə yönəlirdi.

Qalxıram barmaqlarımın ucuna,
buludu tutam bəlkə,
Cırıb atam göylərin
bu gecə köynəyini,
Ulduzların gümüşü işığından öpəm,
Dünyaya ulduz işığı səpəm....
Çiçəkliyə sərhəd dirəkləri
tikanlı bir gül ola.
Dərib bu çiçəkləri düzələm yola.
Düzəm həsrətimin torpağına, daşına;
Bir çiçək də aparam Təbrizə...[3]

Nüsrət Kəsəmənli nağılları fərdin öz uşaqlıq yaddaşı, taleyi ilə, həm də xalqın milli yaddaşının Araz ağrısı, Təbriz yanğısı ilə poetikləşirdi. Bu isə şairin şeirlərində fərdi və kollektiv yaddaşın təzahür elementinə çevrilirdi.

[1] Nüsrət Kəsəmənli. Seçilmiş əsərləri. – Bakı: Şərq-Qərb, 2004, s.152
[2] Rüstəm Kamal. Nüsrət Kəsəmənlinin nağılları. Güzgü günü: (filoloji esselər). – Bakı: Çaşıoğlu, 2017, s.224
[3] Nüsrət Kəsəmənli. Seçilmiş əsərləri. – Bakı: Şərq-Qərb, 2004, s.206

Şairin "Daha nağıllara inanmıram mən", "Qorxulu buludlar, yaxud tənhalıq nağılı", "Biri vardı, biri yox", "Uçan xalçalar", "Bir nağıl gecəsi" və s. şeirlərində Nüsrət Kəsəmənli lirik "mən"ini fərqləndirən ən başlıca xüsusiyyət əsas personaj, nağıl qəhrəmanı olmasıdır. Bu poeziyanın bir qəhrəmanı var, o da şairin özüdür. Hər poeziyanın təbii ki, öz qəhrəmanı var, bütün hisslər, düşüncələr, yaşantılar konkret bir qəhrəmanın mənindən keçərək verilir. Amma fərqli cəhət ondadır ki, bu qəhrəman heç bir halda tutqun, dumanlı deyil, sevinci, kədəri, sevgisi, nifrəti ilə özüdür, təkdir. Şair "nəyim varsa deyirəm, özgə sirrim yox mənim", – deyərək bütün yaradıcılığı boyu sevinci, kədəri, tənhalığı, vüsalı, həsrəti, sevgisi, ayrılığı ilə özü idi. Qərib axşamın sükutunu pozmaq istəyən də, Araz, Təbriz ağrısını öz mənindən keçirən də şair özüdür. Çox zaman bu obraz, lirik "mən" digər qeyri-müəyyən zamanla, yaddaşla birləşərək şair ömrünün davamına çevrilir.

Bəlkə göydən gəlmişəm,
yerdə yerim yox mənim,
Nəyim varsa deyirəm,
özgə sirrim yox mənim.
Bir dəfə soyulmuşam,
daha dərim yox mənim.
Tanış olaq, oxucum,
tanış olaq: Bu mənəm.[1]

Şairin özünütəsdiq və təqdim edəcək şeirləri də yaradıcılığında kifayət qədərdir. Onun "Avtoportret", "Özümə", "Mənim bu şəhərdə kimim var axı", "Özgələr qapısında", "Bəlkə gələn oldu" və s. şeirləri bu qəbildəndir.

Nüsrət Kəsəmənli yaradıcılığının əsas hissəsini onun məhəbbət, sevgi mövzusunda yazdığı şeirləri təşkil edir. Bu şeirlər iki təzadlı hissi bir arada yaşayan, onun həm sevincini, həm kədərini duyan insanların qəlb çırpıntılarına, könül nəğmələrinə çevrilib, dillər əzbəri olub, az qala, folklorlaşıb, ənənəvi məhəbbət şeirlərinə, sevgi duyğularına yeni status qazandırıb. İlk növbədə hisslərin səmimi, açıq, heç bir qəlibə salınmadan, rəngə boyanmadan olduğu kimi, yaşanılan formada təqdimində və digər bir tərəfdən sevginin əzabı, sevinci, həsrəti, vüsalı və s. bu poeziyada ayrı deyil, vəhdətdə verilməsidir. Şairin "Kaş ki", "Yandır məktublarımı", "Sənin acığına", "Mən, sən, dəniz", "Sən unut demişdin", "Qayıtma", "İndi gedəcəyəm, tək qalacaqsan", "Getmək istəyirsən", "Nə biləydik", "Sevə-sevə ayrılaq", "İkimizin yerinə", "Olmayacaqdı", "Qar kimi" və s. şeirləri buna misal ola bilər. Tənqidçi Vaqif Yusifli şairin poeziyaya yeni nəfəs gətirdiyini, ənənəvi mövzuda yazılan bu şeirlərin yalnız vəsf, tərənnüm üzərində deyil, sevgi

[1] Nüsrət Kəsəmənli. Hamısı sevgidəndir. – Bakı: Gənclik, 1991, s.16

iztirabları, kədər və ayrılığın müxtəlif rəng və çalarlarda ifadə olunduğunu vurğulayaraq qeyd edir: "...Nüsrət Kəsəmənlinin məhəbbət lirikası fərdin daxili dünyasını – sevən qəlbin bütün gözəgörünməzlərini üzə çıxardı. Bu sevgi etirafları "mən" və "sən" arasındakı münasibətlərdən daha geniş idi".[1] Elə bir şair yoxdur ki, bu mövzuya toxunmamış, sevginin əzabı, iztirabları, müqəddəsliyi haqqında yazmamış olsun. N.Kəsəmənlinin məhəbbət şeirlərinin özəlliyi ilk növbədə bu hisslərin istər sevgi, istərsə də nifrət, əzab baxımından səmimiliyindən irəli gəlir. Digər bir tərəfdən isə yalnız birtərəfli şəkildə qeyri-adi duyğu kimi yox, müsbət və mənfi tərəflərinin bir-birinə nisbətdə verilməsi və ən əsası Nizami Cəfərovun sözləri ilə desək, "öz poetik fizionomiyasını" həm cəsarətli, həm də göründüyü kimi təqdim etməsindədir. Nüsrət Kəsəmənli sevgi etiraflarında acizləşmir, cılızlaşmır, kişi qürurunu itirmir. Sevginin böyüklüyü, aliliyi elə o qürurun içində boy verir, böyüyür, təqdim olunur.

Getmək istəyirsən bəhanəsiz get,
Oyatma mürgülü xatirələri.
Səsin həmin səsdir, baxışın ögey,
Gedirsən, səsin də yad olsun barı.

Yollartək döşənib ayaqlarına
Sənə yalvarımmı?...
Bu mümkün deyil.
Qoymaram qəlbimtək vüqarım sına,
Alçalıb yaşamaq ömür-gün deyil...[2]

Nüsrət Kəsəmənlinin lirik "mən"ini fərqləndirən ən başlıca xüsusiyyətlərdən biri hisslərinin, duyğularının ifadəsində hədsiz dərəcədə səmimiliyi, yaşantılarını, duyğularını heç bir dona, tülə bürümədən həqiqi, olduğu kimi verməsidir. Şair nə şairliyinə, nə də doğma olan dəyərlərə görə hisslərini ölçüb-biçmir, qəlibə salmır, düşüncələrini filtirdən keçirmir, birbaşa, olduğu rəngdə, tonda təqdim etməyə çalışır. "Köz istəyəndə alışıb yanan", "söz istəyəndə nəğmə olan", "kor qalıb gözlərini sevdiyinə bağışlayan", "bu sevginin sonu əgər ölümsə, mən ölərəm ikimizin yerinə", "özünlə aparmısan günlərimin rəngini", "sənsiz hər şeyim hədər", "səndən sonra heç kəsi sevmədim sənin qədər", – deyən şair etiraflarında nə qədər səmimidirsə, "çalış, kölgə kimi sürünməyəsən", "gözlərim hər zaman gəzəcək səni", "çalış, gözlərimə görünməyəsən" təmkinli davranışında da bir o qədər səmimidir.

Nüsrət Kəsəmənlinin şeirləri sadə olduğu qədər də fəlsəfi yüklüdür. Şairin şeirlərində ayrılıq, həsrət, ölüm ağrıları daha çox duyulur. Amma bu,

[1] Vaqif Yusifli. Yaddan çıxmaz Nüsrət Kəsəmənli. – Bakı: "525-ci qəzet", 07 oktyabr 2012
[2] Nüsrət Kəsəmənli. Seçilmiş əsərləri. – Bakı: Şərq-Qərb, 2004, s.54

insanın mənəvi əzabı, yaşayacağı vəhşətin qorxusu deyil, insan ömründən pillə-pillə keçən, sonluğa doğru gedən mərhələlərin nizamı, çox zaman ömrün, gerçəkləşməyən arzuların, doğrulmayan ümidlərin başlanğıcı və davamıdır.

Vaxtlı-vaxtsız bir ölümdür, gələcək,
Boğub məni qəh-qəh çəkib güləcək,
Açıq qalan gözlərimsə görəcək,
Qapamayın gözlərimi, amandır!

Gülə-gülə qovuşanda il-ilə,
Görəcəyəm Araz axır gül ilə,
İmkan olsa qılınc qoyun qəbrimə,
Qapamayın gözlərimi, amandır![1]

Ölümün atributları onun şeirlərində çoxdur. Alnından öpmək ölüm ritualıdır, ayrılıq məqamıdır, gedər-gəlməzə uzanan yoldur və nəhayət, yaxınları ilə son görüşdür.

Hər axşam qaralan günün
alnından öpdü gözlərim,
Alnından öpdüklərim
bir də dönmədi geri...
Bir gün babamın alnından öpdük,
əvvəl nənəm, sonra mən;
Bir gün də nənəmin alnından öpdük,
əvvəl anam, sonra mən;
Sonra anamın alnından öpdük,
əvvəl ölüm, sonra mən...[2]

Ay işığı mənfi assosasiya yaradır, o da ölümün atributuna çevrilir.

Ölən adamların şəkli kimi
Hara gedirdimsə
ay baxırdı...
Son nəfəsdə
nənəmin üzündə
görmüşdüm səni, ay işığı, –
Hardan gəldin yuxuma?..[3]

[1] Nüsrət Kəsəmənli. Hamısı sevgidəndir. – Bakı: Gənclik, 1991, s.30
[2] Yenə orada, s.36-37
[3] Yenə orada, s.66

Nüsrət Kəsəmənlinin şeirlərində ölümün adı çox çəkilmir, amma ölüm havası, ölüm ruhu onun şeirlərində yaradıcılığının son illərində ən aktiv, işlək obrazlardan birinə çevrilir. "Mənsiz dünya", "Bu gün", "Allaha tərəf", "Ölümə gedən yol", "Kor ölüm" və s. şeirlərində şair həm dolayı yolla, həm də birbaşa şəkildə onu dərk etməyə, anlamağa çalışır. "Kölgəm ayrılacaq məndən, ürəyimdə sızlayacaq kölgəsiz gəzməyin tənhalığı", "büdrəyə-büdrəyə yeriyəcək, məndən ayrılan kölgəm", "bir gün kölgəm ayrılacaq məndən, o mənim, mən isə ruhumun kölgəsiyəm", "mən kölgəm ayrılan gün öləsiyəm", "mənsiz qalacaqdır bu dünya bir gün", "Kor bir ölüm axtarır məni" (Kor ölüm), "Ölüm, qarşıla məni" (Ölümə tərəf), "Ölüm, qaynar baxışlarıyla, mavi-mavi, yaşıl-yaşıl, qapqara rənglər çəkir qurbanlıq qəlbimizə" (Ölümə gedən yol) misralarında ölüm təkcə atributları ilə deyil, birbaşa şəkildə varlıqla yoxluq arasında, başlanğıc və sonluğun vəhdəti kimi əsas təzahür vasitəsinə çevrilir.

Nüsrət Kəsəmənli şeirlərində həyatın dialektik vəhdəti, tərəflər, münasibətlər arasında bağlılıq, iki bir-birinə zidd anlayışlar arasında əlaqələr o qədər təbii və zəncirvari şəkildə qurulub mətn boyu inkişaf etdirilir ki, ən sadə deyim formasında fəlsəfi qat güclənir, insanın həyatı dərk fəlsəfəsinə yönəlir.

Ömürdən bir gün də keçdi beləcə;
Qəbristan yoluna təzə iz düşdü.
Bir ana bətninin qaranlığından
Çarpayı üstünə bir gündüz düşdü.[1]

Olum və ölüm dilemması, başlanğıc və sonluq arasında qurulan əlaqə həyatın fəlsəfi mahiyyətini açmağa və bədii dərkə yönəlir.

Nüsrət Kəsəmənlinin dövrünün ictimai-siyasi hadisələrin təsirilə yazdığı şeirləri də az deyildir: "Kirayə çarpayı", "Seyid Əhməd", "Laqeyd adamlar arasında", "Ağrı", "Oğru olmaq istəyirəm", "Xocalı", "20 yanvar", "Cıdır düzü", "İsa bulağı" və s. Bu şeirlərin əksəriyyəti xalqımızın məruz qaldığı təlatümlü hadisələrin, tarixi yaddaşın, milli yaşantıların sanki bədii salnaməsidir. 1990-cı illər poeziyasının panoramında vətəndaşlıq borcu, vətənə məhəbbət hissi keçici xarakter daşımırdı, vətəndaşın mahiyyətini, tarixi məsuliyyət hissini üzə çıxarırdı. Şairin 1980-90-cı illər yaradıcılığında dünyaya bağlanış sevgi hisslərini üstələyir. Qarışıq dünyanın mənəvi-ictimai əzab və iztirabları, təzadlığı, ziddiyyətləri bu şeirlərin əsas məzmununa çevrilirdi. Torpağa sevgi, məhəbbət hissləri ritorik ifadələrlə, gəlişigözəl sözlərlə, patetik ruhda verilmir, vətəni bütün gözəllikləri, fəlsəfi dəyəri,

[1] Nüsrət Kəsəmənli. Seçilmiş əsərləri. – Bakı: Şərq-Qərb, 2004, s.147

mənəvi-əxlaqi bütövlüyü ilə öz daxilindən keçirərək yanğılı, kədərli şəkildə təsvirə gətirirdi.

N.Kəsəmənlinin şeirlərində vətənə məhəbbət, torpağa bağlılıq silsiləsindən iki əsas baş mövzu keçir: Təbriz və Qarabağ! "Torpaq haqqında nəğmə", "Ağlama, Təbrizim, ağlama", "Cıdır düzü", "İsa bulağı" və s. şeirlərində xalqımızın yaxın keçmişinin mənəvi-ruhi yaşantıları, milli kədər hissi ümumiləşdirilir, hər kəsin vətəndaşlıq borcu, mənəvi məsuliyyəti kimi dərk olunurdu. Bu şeirlərdə nisgil, kədər hissi aparıcıdır. Araz dərdi, Təbriz acısı, Xudafərin onun yaddaşında ən ağrılı məqamdır, bu məqama şair dönə-dönə qayıdır, xatırlayır, gah yuxuda, gah ölümün ayrılığında, gah da günəşə açılan sabahda. "Ağlama, Təbrizim, ağlama" şeiri 1980-ci ildə yazılmışdır. Təbii ki, bu dönəmdə Araz nisgilini, Təbriz ağrısını kədərli notlarla deyil, nisgil içərisində üsyankarlıq, çağırış, səsləniş, dirçəliş ruhunda kökləmək böyük cəsarət tələb edirdi. Təbrizə müraciətlə "Danış, ucadan danış, sən dilini bağlama, Ağı dediyin bəsdir, ağlama, Təbrizim, ağlama", "Ucalt haqqın səsini, de sözünü saxlama", "Bir də bax dünəninə, kimsəyə bel bağlama", "Dur ayağa Vətən de, ağlama, Təbrizim, ağlama" və s.

Şairin ictimai məzmunlu şeirləri içərisində maraqlı nümunələrdən biri də "Oğru olmaq istəyirəm" şeiridir. Mənfi assosiasiyalar yaradan oğru məfhumuna yeni biçimdə yanaşma şairin yaradıcılığında təzadlıqların maraqlı sintezindən doğulur. Şairin səkkizliklə yazdığı bu şeirdə "oğru olmaq" istəyi geniş süjetə, ictimai məzmuna çevrilir. "Vicdanını pula satan nadanları", "dövlətlər arasında çəkilmiş sərhədləri", "insanların ürəyindəki kini, nifrəti", "həsrətli Təbrizi", "Kərbəladan Füzulini", "Hələbdən Nəsimini" oğurlamaq istəyən şair qeyri-adekvat obrazın mənəvi assosiativ tərəflərini yüksək insanlıq, vətəndaşlıq missiyasının ümumiləşməsinə çevirir.

Araz axır...
O taydan da insan baxır,
Bu taydan da insan baxır,
Neçə milyon gözüyaşlı əzizimi,
O həsrətli Təbrizimi
Oğurlamaq istəyirəm![1]

Nüsrət Kəsəmənli poema janrına da müraciət etmiş, lirik, lirik-psixoloji, epik-dramatik poemalar yazmışdır. Onun Qarabağ xanı İbrahim-xəlil xanın qızı Ağabəyim ağanın həyatından bəhs edən "Yaddan çıxmaz Qarabağ" epik-dramatik poeması, "Kitabi Dədə Qorqud dastanının "Duxa qoca oğlu Dəli Domrul boyu" süjeti əsasında yazılmış "Dəli Domrul", dərin lirizmi, dramatikliyi, psixoloji gücünün dərinliyi ilə seçilən "Çoxuşaqlı Aşır

[1] Nüsrət Kəsəmənli. Hamısı sevgidəndir. – Bakı: Gənclik, 1991, s.232

kişi", müharibə vəhşətlərinin ağrısı, övlad itkisinin əzablarını yaşayan əlləri qoynunda qalmış anaların ümumiləşmiş obrazını yaratmış "Boş beşiyin laylası" miniatür poemaları bu baxımdan seçilənlərdəndir.

XX əsrin sonları, XXI əsrin əvvəllərində tələtümlü ictimai-siyasi hadisələr, müstəqilliyimizin bərpası, Qarabağ müharibəsi milli yaddaşa, tariximizə bağlanış yönümündə bir çox şair və yazıçılarımızın yaradıcılığına yeni ab-hava gətirdi. Nüsrət Kəsəmənlinin epik-dramatik məzmunda qələmə aldığı "Yaddan çıxmaz Qarabağ" poeması Qarabağın sonuncu xanı İbrahim-xəlil xanın qızı Ağabəyim ağanın yaşadığı faciəli həyatın və Qarabağda baş verən olayların əksi olan tarixi, milli, ictimai yaddaşın ən ağrılı nümunələrindən biridir. Poema heca vəzninin ən işlək 7, 8, 11-likdə yazılmış, təhkiyə üsulu, dramatik məzmunda cərəyan edən süjet xətti baxımından Qarabağın, milli yaddaşın ən ağrılı mərhələsinə yeni baxışın, yaşantının təzahürü idi. Poema Qacarın Qarabağa yürüşü və istilası, orada qırılan, bitən ömrü ilə başlayıb xanlığın sonrakı taleyinin qurbanına çevrilən Ağabəyim ağanın nakam taleyi, qürbət ölkədə vətən həsrəti ilə yaşadığı iztirabların davamına çevrilir. Şair xalqın tarixi fonunda cərəyan edən olayların ictimai-siyasi səbəblərini araşdırır. Qacar öldürüldükdən sonra Qarabağın üzərindəki dumanın çəkilməməsi, ölüm kabusunun hələ də diri olması haqqında fikirlərinə İbrahimxəlil xanın oğlunun cavabında daxildə birliyin olmaması, xalqı bir araya gətirməyin zəruliliyi, tarixi unutqanlığımızın bu gün də yaratdığı faciələrin davamına çevrilməsi vurğulanır.

...Birliyin qüdrətinə
İnandırmaq gərəkdir
Qonşu xanlıqları da.
Belə getsə arada
Xalqın qanı axacaq.
Bir gün o qamçı, şimşək
Bakıda da çaxacaq,
Qubada da çaxacaq.
Şəkidə də çıxacaq....[1]

Poemanın hər bir bölməsində intonasiya, ritmlə yanaşı, ölçü də dəyişilir. Heca vəzninin ən işlək ölçülərindən istifadə etməklə bəzən ağır, bəzən oynaqlıq poemanın daxili dramatizmini daha da qabardır. Qarabağın azad olunması üçün öz doğma qızından keçən İbrahimxəlil xan son nicat yolunu Ağabəyim ağanın İrana – saraya göndərilməsində görür. Ağabəyim ağa vətən nisgilini, mənəvi-ruhi sarsıntılarını yüngülləşdirmək, vətən həsrətini ovutmaq üçün Qarabağdan gətirilən torpaqla İranda bağ-büsat qurur.

[1] Nüsrət Kəsəmənli. Hamısı sevgidəndir. – Bakı: Gənclik, 1991, s.239

Lakin nə qədər çalışırlar "Xarı bülbül"ü orada yetişdirə bilmirlər. Poemada Ağabəyim ağanın yad eldə yaşadığı məhrumiyyətlər və bütün çətinliklərə baxmayaraq, təslim olmaması, sona qədər öz namusunu qoruması həm də uzun müddət düşmən tapdağı altında qalan Qarabağın obrazına çevrilir və bütöv Azərbaycanın simvolu kimi xüsusiləşir. Əsərin dili olduqca sadə, ahəngdar, intonasiya çalarları ilə zəngin axıcı dildir. Şair yüksək professionallıqla Azərbaycanın tarixini, xalqın başına gətirilən müsibətləri süjet xəttinin inkişafında bir müstəvidə ümumiləşdirə bilir, vətən torpaqlarının parçalanması, Araz ağrısı milli kədərə, nisgilə çevrilir.

Qərib həsrətinin yuxusu dərin,
Torpağı oyanmaz, daşı oyanmaz.
Yolu sərhədlərdə dayananların
Axar, gözlərinin yaşı dayanmaz.[1]

Nüsrət Kəsəmənli lirik şairdir. Əsasən heca vəznində, ənənəvi şeir formalarında maraqlı və orijinal şeirlər yazmışdır. Bu şeir formaları ənənədən, poeziyanın genetik yaddaşından gəlsə də, təkrar deyildir, dili, üslubu, melodiyası, intonasiya çalarları baxımından orijinal və ürəyəyatımlıdır. Şairin "Yumul, bənövşəm, yumul" şeiri ənənəvi formada, 4+3 və 5+2 bölgü sisteminin oynaq, çevik şəklində yazılmış, ilk baxışda təbiət obrazının təsvir və tərənnümü üzərində qurulmuşdur. Lakin şeirdə ictimai motiv olduqca güclü və fərdi-intiutiv istiqamətlidir.

Yum gözünü, çən görmə,
Vaxtsız gələn qəm görmə.
Dünya yaman qarışıb.
Mən görəni sən görmə;
Yumul, bənövşəm, yumul!...[2]

Onun şeirləri vətən, həyat, insan, cəmiyyət, məhəbbət haqqında səmimi, heç bir qəlibə salınmamış, hər kəsə doğma həssas ünsiyyəti, poetik tərtibatı ilə diqqəti cəlb edir. Şairin dili axıcı, səlis, lakonik dildir. Yeni orijinal deyimlər, təzadlar vasitəsilə obraz yaratma, bir-biri ilə uyarlığı olmayan məfhumlar arasında əlaqə qurmaq şairin yaradıcılıq özəlliyidir. Nüsrət Kəsəmənli poeziyasının hədsiz dərəcədə ürəyəyatımlı, toxunduğu mövzudan asılı olmayaraq hər kəsə doğma, məhrəm hisslərin ifadəsi baxımından orijinal olması poetik dilinin zəngin olmasından irəli gəlir. Şairin şeirlərində təzadlılıq olduqca güclüdür. Bu təzad bütövlükdə bir mexanizmə

[1] Nüsrət Kəsəmənli. Hamısı sevgidəndir. – Bakı: Gənclik, 1991, s.263
[2] Nüsrət Kəsəmənli. Seçilmiş əsərləri. – Bakı: Şərq-Qərb, 2004, s.174

çevrilir, hissin, düçüncənin, şeirdəki fəlsəfi yükün, obrazın yaranmasına təkan verir.

İllərin əlçatmaz uzaqlığında
Nə vaxtsa aldadılmış gözəlin
gözləri dolacaq.
Ağarmış saçların xatirələri
Yaddaşda ilişib qalmış
qara saçlarını yolacaq.[1]

Təzadlılıq onun həyatı, insanı, dünyanı poetik dərk fəlsəfəsinin əsasını təşkil edir. Şeirlərindəki poetik funksiyanın icraedici komponentlərindən biri də təzaddır. Bu poetik gedişat şairin ilk şeir nümunələrindən başlayaraq yaradıcılığında əsas ifadə vasitəsi olmuşdur.

Acı doğru xoşdur şirin yalandan,
Büdrəmə, yapışmaz kimsə qolundan,
Bir gün mən verdiyim soyuq salamdan,
Alışıb yanarsan, ehtiyatlı ol![2]

Şairin yaradıcılığında təzad xalq hikməti, şifahi söz sənətinin fəlsəfi mahiyyəti kimi məsəl, ibrətamiz ifadə, kəlam, hikmətanə sözlər effekti yaradır. Nüsrət Kəsəmənli şeirlərində bədii forma, ifadə, obrazyaratma, təqdimat, təhkiyə üsulu son dərəcə milli statusludur. Məhz şairin poetikasını fərqləndirən, səciyyələndirən ən başlıca məqam da bununla əlaqəlidir.

Şairin üslubunda sonradan dillər əzbəri olan, danışıq ifadələrinə çevrilən söz və cümlələrə rast gəlmək mümkündür. "Getmək istəyirsən, bəhanəsiz get", "Məndə isə biri vardı, biri yox", "Allahım, nəydi günahım", "Daha nağıllara inanmıram mən", "Dəli bir ağlamaq keçir könlümdən" və s. folklor təhkiyə üsulu, nağıl poetikasının texnologiyası, şifahi xalq təfəkküründən gələn inanc və məsəllər yeni biçimdə, mətnin tərtibatına, ruhuna uyğun olaraq verilir. Sözlə istədiyi kimi rəftar etmək, bəzən tamamilə bir-birindən ayrı məfhumları bir araya gətirməklə, bağlılığı olmayan anlayışlar arasında əlaqə qurmaq, dil materialına çevirərək yenidən emal etmək şeirdə maraqlı hiss, ifadə gözəlliyi yaradır.

...Səni haraylaram...
dağlar səsimi
Yayar çəmən kimi yamaclarına.
O ayrılıq günü "kövrəlmə" deyib,
Ovcuma yığdığım göz yaşın kimi

[1] Nüsrət Kəsəmənli. Seçilmiş əsərləri. – Bakı: Şərq-Qərb, 2004, s.104
[2] Yenə orada, s.123

Yığaram yağışı ovuclarıma,
Yağışa deyərəm gətirər səni.[1]

Şairin yaradıcılığında yetərincə yeni, orijinal, yalnız Nüsrət Kəsəmənliyə məxsus obrazlı söz və ifadələrə rast gəlmək mümkündür. "Üfüqə baş qoyur mürgülü günəş", "yaddaşımın daş evinə hörməyəydim kaş ki, səni", "Saat əqrəbləri zamanı biçir", "ölüm ömrümüzü sükutla içir" və s.

Nüsrət Kəsəmənli bütün məqamlarında lirik şairdir. O, poetik istedadı, orijinal üslubu, səmimi, ürəyəyatan poeziyası, poetik dilinin güclü ifadə çalarları ilə fərqlənən istedadlı şairlərdəndir. Onun vətən, torpaq, məhəbbət, sevgi şeirləri, insan, cəmiyyət haqqında panoramlı düşüncələri, milli yaddaşa, mənəvi ağrılara vətəndaş mövqeyindən yanaşan poemaları, ənənə və novatorluq əlaqələri yaradıcılığının əsas özəllikləri kimi milli poeziyamızda Nüsrət Kəsəmənli obrazını yaradan cizgilərdir.

[1] Nüsrət Kəsəmənli. Hamısı sevgidəndir. – Bakı: Gənclik, 1991, s.169

ELDAR BAXIŞ
(1947-1996)

Azərbaycan ədəbiyyatında milli düşüncənin və milli özünüdərkin təbliğində böyük xidmətlər göstərmiş Eldar Baxış ötən əsrin 90-cı illərində milli azadlıq hərəkatının formalaşmasında xüsusi yeri olan ədiblərimizdən biridir. O, Azərbaycan ədəbiyyatı, mədəniyyəti tarixinə istedadlı şair, dramaturq, kino xadimi və televiziya mütəxəssisi kimi daxil olmuşdur. Eldar Baxış həm də müstəqil mətbuatın yaranmasında xidmət göstərmiş publisistdir.

Həyatı. Eldar Baxış (Eldar Baxış oğlu Ağayev) 22 iyun 1947-ci ildə Qubadlı rayonunun Diləli Müskanlı kəndində anadan olmuşdur. Öz kəndlərində ibtidai məktəbi, Qubadlı şəhərində isə onbirillik məktəbi bitirmiş, 1965-1969-cu illərdə Bakı Dövlət Universitetinin Tarix fakültəsində təhsil almışdır. Bakının kəndlərində müəllim işləmiş, ordu sıralarında bir il hərbi xidmət keçmiş, tərxis edildikdən sonra Bakı şəhərinə qayıtmışdır. E.Baxışın əmək fəaliyyətinin müəyyən bir dövrü Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Şirkətində keçmişdir. 1972-1988-ci illərdə Azərbaycan Televiziya Və Radio Verilişləri Şirkətində kiçik redaktor, redaktor vəzifələrində çalışmış, 1988-1990-cı illərdə televiziyanın Ədəbi-Dram Verilişləri baş redaksiyasının Televiziya tamaşaları şöbəsinin böyük redaktoru vəzifəsində çalışmış, 1992-ci ildə Özbəkistanın "Ürək dostları" klubunun fəxri üzvü seçilmişdir.

Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonra Eldar Baxış 1992-1993-cü illərdə yenidən Azərbaycan Televiziya və Radio Verilişləri Şirkətinə qayıtmış, Gənclik yaradıcılıq birliyinin ictimai-siyasi şöbəsinin müdiri işləmiş, 1993-cü ildən radionun Bilgi və Uşaq Dünyası verilişləri Baş redaksiyasının baş redaktoru vəzifəsinə təyin edilmişdir.

Eldar Baxış yaradıcılığının ən parlaq dövründə uzun müddət ağır xəstəlikdən əziyyət çəkmiş, 1996-cı il mayın 22-də Bakıda vəfat etmiş və Xırdalan qəsəbə qəbiristanlığında dəfn olunmuşdur.

Yaradıcılığı. Eldar Baxış bədii yaradıcılığa şeirlə başlamış, onun "Köynək" adlı ilk şeiri 1966-cı ildə "Azərbaycan gəncləri" qəzetində dərc olunmuşdur. Şeirləri "Ulduz", "Azərbaycan", "Pioner", "Göyərçin" jurnallarında, "Ədəbiyyat və incəsənət", "Azərbaycan gəncləri", "Sovet kəndi" və s. qəzetlərdə çap edilmişdir.

E.Baxışın "İydə çiçəyi" adlı ilk şeirlər kitabı 1977-ci ildə "Gənclik" nəşriyyatı tərəfindən oxucuların ixtiyarına verilmişdir. Kitabda İkinci Dünya müharibəsinin insanlara yaşatdığı ağrı-acılar, əsgərlərin döyüşlərdə göstərdiyi qəhrəmanlıqlar, o ağır illərdə Azərbaycan xalqının da arxa cəbhədə yaşadığı məhrumiyyətlər öz əksini tapmışdır. Şairin doğma kəndindən

cəbhəyə yollanıb geri dönməmiş əmisi oğlu Dəryaqulunun, yurddaşlarının acı xatirələri, övlad həsrəti ilə göz yaşı tökən anaların iztirabları və böyüdüyü yurdun xoş xatirələrini əks etdirən şeirlər də kitabda yer almışdır.

Şairin "Bir cüt qol haqqında nəğmə" adlı şeirini bədənlərinin müəyyən əzalarını qanlı döyüş meydanlarında itirmiş insanlara bir elegiya adlandırmaq olar. Şeirin qayəsindən doğan əsas fikir – dava qurtarsa da, onun vurduğu fiziki-mənəvi yaralar illərlə sağalmamış, insanlara ağır iztirablar və mənəvi üzüntülər yaşatmışdır.

Yaxşı kişidir Şirin əmi,
Kim nə deyər,
qulaq asar,
eşidər Şirin əmi,
ancaq yerinə yetirə bilməz
balaca nəvəsinin xahişini.
Yerinə yetirə bilməz,
od götürər kişini.
Nəvəsi deyəndə ki,
məni qucaqla, baba
Pencəyinin boş qolları
yellənər havada...
Uşaq nə bilsin davadan sonra
Qolsuz yaşayıb Şirin əmi.
Onun bir cüt qolu
1945-ci ilin
o tayında qalıb.[1]

Eldar Baxış bütün düşüncələri ilə milli kökə bağlı şairdir. O öz xalqının tarixinə, milli yaddaşa olduqca sadiqdir. Şairin 1979-cu ildə "Gənclik" nəşriyyatı tərəfindən çap olunmuş "Üçtəpə bayatıları" kitabında bu düşüncələr daha qabarıq şəkildə özünü büruzə verir. "Bizim babalar" şeiri bu ruhu özündə əks etdirən qiymətli poeziya örnəyidir.

Yaxşı kişi olub bizim babalar,
Yaxşı torpaqlarda yaşayıb onlar.
Miniblər həmişə yaxşı atları,
Yaxşı qılıncları qurşayıb onlar...[2]

Eldar Baxış folkloru, xalq dilini yaxşı bildiyindən onun şeirləri oxucuya şirin bir nağıl təsiri bağışlayır. Təhkiyəsində müdrik babaların, sinəsi söz

[1] Eldar Baxış. İydə çiçəyi. – Bakı: Gənclik, 1977, s.12
[2] Eldar Baxış. Üçtəpə bayatıları. – Bakı: Gənclik, 1979, s.3

boğçası olan nənələrin dilləri cücərir. Bu şeirləri oxuyanda bir anlıq adama elə gəlir ki, o, xoşbəxt bir uşaqdır və başını nənəsinin dizinə qoyub şirin bir nağıla qulaq asır:

Dərədən keçəndə selə dönüblər,
Təpədən keçəndə yelə dönüblər,
Yığışıb bir ağır elə döndülər,
Ayaq üzəngidə, diz qabırğada.[1]

Yaradıcılığının ilk dönəmlərində heca janrındakı şeirləri üstünlük təşkil etsə də, sonrakı illərdə Eldar Baxışın poeziyasında daha çox sərbəst şeir aparıcı xətt təşkil etmişdir. Lakin şair yaradıcılığı boyu folklorumuzdan, xalq şeirindən qidalanan poetik yoldan uzaqlaşmamışdır. Bu baxımdan onun bayatıları xüsusilə diqqəti cəlb edir. Şairin bayatılarındakı yeni deyimlər, lirik ovqat, axıcı ruh onun folklora dərin bələdliyinə və bağlılığına daha bir sübutdur:

Aşıq işim şuluqdu,
Yaram suluq-suluqdu.
Mən deyənin yanında
Sən deyən muştuluqdu.[2]

Əsl poeziyanın gücü ondadır ki, o, insanda yalnız lirik-estetik ovqat yaratmaqla məhdudlaşmır, oxucunu heyrətləndirir, düşündürür. Oxucu anlayır ki, bu şeirləri yalnız ilahi istedadı olan insanlar yarada bilər.

Bu qız deyil, sonadı,
Tellərini sanadı.
Durub üzünə baxdım
Yanaqları qanadı.[3]

Şairin ilk kitabında ictimai məzmunlu şeirlər üstünlük təşkil etsə də, burada məhəbbət mövzusunda qələmə aldığı poetik parçalar da xüsusi diqqət çəkir. İlk məhəbbətin yaşatdığı ayrılıq göynərtilərini bitkin bədii məcazlarla çulğalaşdıran ədib təsirli poetik lövhələr yaradır.

Nə oldu, ayrıldıq bir-birimizdən,
Dərə bir tərəfdə, dağ bir tərəfdə.
Ayrılıq ələdi saçlarıma dən,
Qara bir tərəfdə, ağ bir tərəfdə.

[1] Eldar Baxış. Üçtəpə bayatıları. – Bakı: Gənclik, 1979, s.3
[2] Eldar Baxış. İydə çiçəyi. – Bakı: Gənclik, 1977, s.16
[3] Yenə orada, s.16

Həsrət də alovdu, yandırdı, yaxdı,
Ürəkdə, könüldə neçə iz qalıb.
Mənim qollarımın yiyəsi yoxdu,
Sənin incə belin kəmərsiz qalıb.[1]

Eldar Baxış yaradıcılığının ən qaynar dövrü ötən əsrin 80-ci illərinin sonu, 90-cı illərin əvvəllərinə təsadüf edir. Ermənilərin Dağlıq Qarabağda Azərbaycana qarşı başlatdıqları seperatizm hərəkatına qarşı ilk dəfə açıq şəkildə etiraz səsini ucaldan qələm adamlarından biri kimi, Eldar Baxış öz şeirləri ilə milli oyanışın və dirənişin bayraqdarlarından birinə çevrilmişdir. O illərdə erməni millətçisi, şovinist yazıçı Zori Balayanın Azərbaycanın tarixi torpaqlarına yiyə çıxmaq yönündə qələmə aldığı mənfur "Ocaq" kitabına qarşı səsini ucaldan və kəskin münasibət bildirən şair erməni yalanlarını sadə məntiq və tarixi dəlillərlə darmadağın etmişdir. Az bir zaman içərisində şairin bu şeiri respublikada dillər əzbərinə çevrilmişdir.

O nədir yazmısan, Zori Balayan?
Kür-Araz deyirsən, kəkələyirsən.
Xırda budaqların üstə oturub
Böyük budaqları silkələyirsən.

Böyük budaqların böyük qolu var,
O qolun önündə qol dura bilməz.
Atandan, dədəndən, babandan soruş,
Hər adam hər daşı qaldıra bilməz.[2]

Şairin bu açıq və sərt poetik müraciəti o zaman "rusbaşlı" məmurların kürklərinə birə salmışdı. "Moskva buna nə deyər?" – qorxusu kürsü xəstələrini əndişələndirmişdi. Həqiqətdə isə şairin bu cavabı dəqiq hədəfinə dəymişdi. Moskva bu cavabdan möhkəm narahatlıq keçirmişdi. Şairə qarşı müxtəlif yollarla təzyiqlər başlamışdı.

Sən Zori Balayan,
Mən Eldar Baxış,
Baxıram eləcə zoğallayırsan,
Keşiş zurna çalır, sən də keşişin
Qara zurnasını sığallayırsan.
Sığalla, sığalla qara zurnalar,
Yastı balabanlar yatır sığala.[3]

[1] Eldar Baxış. İydə çiçəyi. – Bakı: Gənclik, 1977, s.23
[2] Eldar Baxış. O nədir yazmısan Zorri Balayan? https//kultur.az 05.04.2016
[3] Yenə orada

Eldar Baxış erməni xəyanəti və yalanlarına qarşı bu şeiri yazan günlərdə Azərbaycan mətbuatında hələ də "sovet qardaşlığı", "beynəlmiləlçilik" kimi çürük və saxta ideyalar təbliğ olunurdu. Vətənpərvər şair bu xəyanətləri heç cür həzm edə bilmirdi. Erməni millətçilərinin və erməni kilsəsinin sərhəd tanımayan həyasızlığı onun qəzəbini daha da artırırdı. Şair yurdun başı üzərini almış təhlükəni bütün varlığı ilə hiss edir və soydaşlarını ayıq-sayıq olmağa çağırırdı.

Eldar Baxış xalqının haqqını yeyən imperiyanın şovinist siyasətini də atəşə tuturdu. Azərbaycan kəndlərinin qaz üzünə həsrət qaldığı azmış kimi, respublikanın qazının və digər təbii sərvətlərinin İrəvana, Qafana daşındığını açıq mətnlə Moskvanın və erməni nankorlarının üzünə çırpırdı:

Qaxdan İrəvana, Qaxdan Qafana
Fındıq göndərirəm, qoz göndərirəm.
Mənim kəndlərim var odun yandırır,
Sənin kəndlərinə qaz göndərirəm.[1]

Şair öz soydaşlarına qarşı aparılan ayrıseçkilik siyasətini də lənətləyirdi. Xalqının böyük söz adamlarının haqlarının tapdalanmasını həzm edə bilmirdi. Ermənilərin Azərbaycanda bütün imkanlardan yararlandığını, öz soydaşlarının isə kölgədə qaldığını yana-yana xatırladırdı.

Eldar Baxışı millətçilikdə günahlandıran Moskvaya bağlı buyruq qulları, milli manqurtlar anlamaq istəmirdilər ki, vətənpərvər şair yurdunun başı üzərini almış erməni bəlasının nə demək olduğunu yaxşı görür və bunun bədəlini ağır ödəyəcəyimizi anlayırdı. Bu bəlanın qarşısını almaq üçün Azərbaycan xalqını milli birliyə çağırırdı.

Bu gün həmin şeiri yenidən oxuyanda şairin uzaqgörənliyinə heyran qalmamaq mümkünsüzdür. Eldar Baxış erməni oyunlarının Qarabağ üzərində oynandığını yaxşı bilirdi və ermənilərin arxasında hansı güclərin dayanmalarından asılı olmayaraq, öz xalqının gücünə və iradəsinə də inanırdı. O, Qarabağın bir gün erməni millətçilərinə məzar olacağına da inanırdı.

Eldar Baxış bir insan, vətəndaş şair olaraq beynəlxalq imperialist güclərin İslam coğrafiyasında tökdükləri qanın, əkdikləri fitnə toxumlarını lənətləyirdi və bir gün bu pisliklərin bumeranqa çevrilib özlərinə yönələcəyini şair fəhmi ilə görürdü. Onun yazdıqları mövzu baxımından bu gün də aktualdır. Vaxtilə Livan torpağında baş vermiş qanlı qırğınlara həsr etdiyi şeirin qələmə alınmasının üstündən on illər keçsə də, sanki şeir bu gün yazılmışdır:

Tökülən o al qan insan qanıdı,
Tökürsən Livanın torpaqlarına.

[1] Eldar Baxış. O nədir yazmısan Zori Balayan? https//kultur.az 05.04.2016

Qanı toxum kimi, qanı tum kimi
Əkirsən Livanın torpaqlarına.

Sən elə bilmə ki, yoxa çıxacaq,
Sən elə bilmə ki, itəcək o qan.
Elə toxum kimi, elə tum kimi
Cücərəcək o qan, bitəcək o qan.[1]

Eldar Baxışın şeirləri mövzu və müraciət olunan obyekt baxımından olduqca rəngarəng və maraq çəkəndir. Onun məhəbbət mövzusunda yazdığı şeirləri ənənəvi ölçülərə sığmır. Şairin deyim və ifadə tərzi də orijinaldır. Bu şeirlərdə fəlsəfi düşüncə sərhəd tanımır. Şairin dili nə qədər sadə və aydındırsa, onda ifadə olunan fikir də o qədər geniş və yenidir. "Sərçə balası" şeirində Uca Yaradana yalvaran şair öz hisslərini fəlsəfi yanaşmalar və pak duyğularla ifadə edir.

İlahi, mənə yox, mən istəmirəm,
İlahi, yazığın gəlsin bu qıza.
Elə eləmə ki,
Oğlanlar, qızlar,
Kişilər, arvadlar gülsün bu qıza.[2]

Bədii üslub və deyim tərzi baxımından daha çox Əli Kərim, Ələkbər Salahzadə, İsa İsmayılzadə, Ramiz Rövşən kimi ədəbi nəslin nümayəndələri ilə bir sırada dayanan şairin "sənətkar məni" milli kimliyimizdə ifadə olunan əsl kişilərin xarakteri ilə uyuşur. Şair saf məhəbbətə əyləncə kimi baxanlara, qadın hissləri ilə oynayan "adamcıqlara" ibrətamiz bir dərs vermiş olur:

Elə eləmə ki,
Vüsal yerinə
Göz yaşı danışsın, qəhər danışsın.
Bir qızdan bir bölük adam danışsın,
Bir qızdan bir böyük şəhər danışsın.[3]

Eldar Baxış epik şeirdə də bir çox uğurlara imza atmışdır. Şairin "Sandıq" adlı ilk lirik poeması "İydə çiçəyi" kitabında işıq üzü görmüşdü. Poemanın adı simvolik bir məna daşıyır. Nənəsinin sandığında saxlayıb göz bəbəyi kimi qoruduğu "xəzinə"ni tapmaq üçün nəvə bir gün açarı oğurlayıb sandığı açır. Sandıqdan bir dəftər çıxır. Dəftəri açıb görür ki, atasının cəbhədə yazdığı xatirə dəftəridi. Dörd xatirədən ibarət olan xatirələr İkinci Cahan

[1] Eldar Baxış. Sərçə balası. kultur.az, 22.05.2015
[2] Yenə orada
[3] Yenə orada

savaşından bəhs edir. Lirik-emosional ruhda yazılmış poema müharibənin ağrılarından bəhs edir:

Lələ
ilan – ilandı
əyilib su içəndə
o da vurmur adamı.
Ancaq vurdu faşistlər
əyilib su içəndə
Kərəm oğlu Qulamı.

"Davanın axırıncı günü" poeması İkinci Cahan savaşının ağır sınaqlarından çıxmış insanlara həsr edilmişdir. Poemanın əsas personajları arxa cəbhədə olan çoban Murad və onun ömür-gün yoldaşı Telli xaladır. Gecə-gündüz dinclik tapmadan çalışan, cəbhədə vuruşan əsgərlərin korluq çəkməmələri üçün hər cür zəhmətə qatlaşan bu ər-arvadın yalnız bir arzuları var – müharibə tezliklə başa çatsın, əsgərlər evlərinə dönsün:

Sözlərin ağzını yığıb bir yerə,
Altdan qıfıllayım, üstən bağlayım.
Bircə boy ver mənə, a Murad dayı,
Adına bircə boy dastan bağlayım.

Günü haraylayım:
- Gün, – deyən kimi,
- Duman, – deyən kimi, çən, deyən kimi.
Mən deyən kimi yox, sən deyən kimi,
"Gülüstan" bağlayım, "Büstan" bağlayım.[1]

Lirik bir təhkiyə ilə yazılmış poemada Hitler faşizminin insanlara yaşatdığı faciələr, ağrılar şairin qələmindən sanki söz gülləsi kimi səpələnir. Arxa cəbhədəkilərin müharibəyə yola saldıqları doğmaları üçün keçirdikləri iztirablar poemanın əsas süjet xəttini təşkil edir:

Bunu dedim,
Murad dayı qızışdı,
Ay Hüseyn,
mindi lap cin atına,
Dedi:
Gələ Hitler düşə əlimə,
salam onu bu şallağın altına.[2]

[1] Eldar Baxış. Davanın axırıncı günü. Üçtəpə bayatıları. – Bakı: Gənclik, 1979, s.47
[2] Yenə orada, s.51

Poemanın dili olduqca lirik və axıcıdır. Şair təhkiyəsi sanki ixtiyar bir ozanın dilindən çözələnən xalq nağılı, aşıq dastanı təsirini bağışlayır. Əsərdə mürəkkəb kompozisiyalar, konfliktlər olmasa da, oxucunun gözləri önündə önəmli hadisələr, psixoloji məqamlar sərgiləyir:

Murad dayı çoban oğlu çobandı,
Üçtəpəni Çiçəkliyə qatıb hey!
Yüz yaşında atım-atım atlanıb,
Bu yaylaqdan o yaylağa yortub hey...

Bu yolları, cığırları döndərib
Murad dayı barmağının beşinə.
Ağac adı, çiçək adı qalmayıb,
Hamısını kişi yığıb döşünə.[1]

Şairin "Kənd" poemasında ədəbiyyatın ənənəvi mövzularından sayılan kənddə doğulub şəhərdə yaşayan insanların doğma yurd-yuva həsrəti, nisgili öz bədii əksini tapıb. Doğma yerlərin gözəl mənzərələri, orada qoyub gəldiyi insanların xatirələri bir nağılçı dili ilə çatdırılır.

Müəllifin "Deyişmə" adlı poeması ozan-aşıq poeziyası, dastançılıq ruhunda qələmə alınmışdı. Əsərin əsas məziyyəti oxucunun qan yaddaşının oyanmasına, tarixi keçmişini unutmamasına çağırışdır. Xalqımızın ulu ozanı Dədə Qorqud, Qaraca Çoban, Sara Xatun, Qoç Koroğlu, Sarı Aşıq, Yanıq Kərəmin dilindən söylənən deyişmələr tarixi keçmişimizə sevgi, məhəbbət hissləri aşılayır. Poemanın dili olduqca lirik, axıcıdır. Gənc nəslin milli vətənpərvərlik və tarixi yaddaş müstəvisində formalaşmasında əvəzsiz bir örnəkdir.

Eldar Baxışın ən böyük arzularından biri türk dünyasının birliyini görmək idi. 1988-ci ildə "Yazıçı" nəşriyyatı tərəfindən "Deyə bilmədiyim sözlər" kitabında çap olunmuş "Çaldıran döyüşü" poemasında türk tarixinin ən böyük faciələrindən birinə həsr olunmuşdur. Qızılbaşlarla Osmanlılar arasında baş vermiş qanlı qırğın türkün sonrakı tarixində yüzillərlə sağalmayacaq bir yara açmışdır. Şair bu döyüşü türk dünyasının faciəsi kimi qəbul edir. Poema orijinal bir təhkiyə ilə qələmə alınmışdır:

Ağ atın,
ayğır atın
gözündən düşən işıqda
Şah İsmayıl güclə seçirdi
sözü sözdən,

[1] Eldar Baxış. Davanın axırıncı günü. Üçtəpə bayatıları. – Bakı: Gənclik, 1979, s.47

əyrini düzdən,
ipəyi bezdən.[1]

İki türk fatehinin zamanında dil tapa bilməmələri düşmənlərin işinə yaramış, hər iki dövlətin zəifləməsi ilə nəticələnmişdir:

Sultan Səlim
İstanbuldan Təbrizə,
İstanbuldan Dərbəndə,
İstanbuldan Bakıya
Od ələyirdi, –
Ağ atın,
ayğır atın
gözündən düşən işıqda
Şah İsmayılı hədələyirdi.[2]

Şairin "Balıq ölümü" poeması Cənubi Azərbaycandan olan böyük şairimiz, Pəhləvi rejimi tərəfindən Araz çayında boğulmuş Səməd Behrəngiyə həsr olunmuşdur.

Eldar Baxış Azərbaycanın iki yerə parçalanmasını millətinin tarixində ən böyük faciə hesab edirdi. Cənubi Azərbaycanda yaşayan soydaşlarımıza qarşı fars Pəhləvi rejiminin milli diskriminasiya və assimilyasiya siyasətini lənətləyirdi.

Eldar Baxış bir çox ədiblərimiz kimi, qələmini nəsr sahəsində də sınamışdı. Onun uşaqlar üçün hazırladığı "Atlı oğlanlar" kitabı 1990-cı ildə "Gənclik" nəşriyyatı tərəfindən böyük tirajla işıq üzü görmüşdü. Kitaba şairin balacalar üçün yazdığı hekayə, nağıl və povestlər daxil edilmişdir. O, uşaqların milli kökə, milli düşüncəyə bağlı insanlar kimi yetişmələrini öz yazıçı amalının əsas qayəsi hesab edirdi.

Kitabdakı "Alma", "Atlı oğlanlar", "Sarı buğda", "Ən şirin şey", "Həvəs", "Günəşin, torpağın, suyun nağılı" hekayələri, "Babək" (dastan-sayağı), "Qaravun dərəsinin adamları", "İyirmi dörd il sonra" povestləri milli vətənpərvərlik istiqamətində qələmə aldığı müxtəlif nəsr nümunələridir.

Eldar Baxış milli kökə, tarixi ənənələrə qırılmaz tellərlə bağlı bir qələm adamı idi. Onun ölkənin və xalqın müxtəlif problemlərinə güzgü tutan yazıları içdən gələn bir yanğı ilə qələmə alınırdı. Eldar Baxışın publisistik yazılarında xalqın üzləşdiyi problemlər, məmurların öz vəzifələrinə məsuliyyətsiz yanaşmaları da gündəmə gətirilirdi. Müəllifin 1993-cü ildə "Yazıçı" nəşriyyatı tərəfindən yüksək tirajla çap edilən "Ölüsü ilə ərəbcə, dirisi ilə rusca" (yeni dövrün lətifələri) kitabı o illərdə oxucular tərəfindən

[1] Eldar Baxış. Üçtəpə bayatıları. – Bakı: Gənclik, 1979, s.81
[2] Yenə orada, s.81

böyük maraq və rəğbətlə qarşılanmışdır. Kitabda toplanan lətifələr cəmiyyətdəki müxtəlif naqisliklərə, sovet sisteminin eybəcərliklərinə, insanların şəxsi tamah hisslərinin tənqidinə həsr olunmuşdur. Azərbaycanın müxtəlif bölgələrini əhatə edən lətifələr toplusu simvolik bir məna daşıyırdı. Bu lətifələrdə ərəb istilasından rus işğalına qədər bir xalqın tarixinə, mədəniyyətinə, dilinə, yazısına və digər gələnəklərinə olan basqılar tənqid atəşinə tutulurdu.

Eldar Baxışın müstəqil Azərbaycan mətbuatının yaranıb, formalaşmasında da xidməti olmuşdur. O, "Səs" və "İki sahil" qəzetlərini yaratmış, "Səs" qəzetinin baş redaktoru olmuşdur. Bu qəzetlərin adlarındakı simvolik mənalardan da göründüyü kimi, şair təpədən dırnağacan milli düşüncə daşıyıcısı idi və bu duyğuları öz həmvətənlərinə də aşılamağa çalışırdı.

Bu qəzetlərin səhifələrində o zamanlar respublika mətbuatında indiyəcən çap edilməmiş, qadağan olunmuş mövzulara – tariximizlə, milli varlığımızla bağlı ciddi araşdırmalara, erməni xəyanətlərini ifşa edən məqalələrə geniş yer verilirdi.

Eldar Baxışın əsərləri SSRİ məkanında və bir çox xarici ölkə xalqlarının dillərinə tərcümə olunmuşdur. 1985-ci ildə Vladivostokda keçirilən Ümumittifaq poeziya festivalında iştirak etmişdir.

O həm də istedadlı poeziya tərcüməçisi idi, sabiq İttifaqda təmsil olunan xalqların tanınmış şairlərinin şeirlərindən seçmə nümunələri Azərbaycan dilinə çevirmişdir.

Eldar Baxış öz qələmini dramaturgiya sahəsində də uğurla sınamış, 1982-ci ildə Kukla Teatrı Eldar Baxışın "Məlikməhəmməd" pyesini səhnələşdirmişdir. Böyük vətəndaş olan şair yaxşı dərk edirdi ki, xalqın sabahına cavabdeh olacaq uşaqların milli, vətənpərvər, cəsur ruhda böyümələri üçün ədəbiyyatın və mədəniyyətin üzərinə böyük məsuliyyət düşür. Motivi Azərbaycan xalq nağıllarından götürülmüş pyesdə də məhz xalqın zalıma, zülmə qarşı apardığı mübarizədən, bu mübarizənin önündə gedən igid oğulların qəhrəmanlığından bəhs edilir.

Eldar Baxış Azərbaycan xalqının şanlı tarixi keçmişini də daim təbliğ edir, bu mövzuda maraqlı əsərlər qələmə alırdı. Onun digər bir dram əsəri – "Uzun Həsən" pyesi Şuşa Dövlət Teatrında tamaşaya hazırlansa da, Qarabağda baş verən erməni təcavüzü səbəbindən tamaşa səhnələşdirilməmişdir. Sonradan bu pyes Mərdəkan Xalq Teatrının aktyorlarının ifasında Praqada tamaşaya qoyulmuşdur. Tamaşa Xalq Teatrlarının Tbilisidə keçirilən Ümumittifaq baxışında yüksək mükafata layiq görülmüşdür.

Eldar Baxış istedadlı şair, dəyərli dramaturq, təcrübəli tərcüməçi, peşəkar publisist olaraq xidmətləri müqabilində Azərbaycan ədəbiyyatının inkişafında özünəməxsus nüfuza və rola malikdir.

NƏSR
(1960-1980-ci illər)

Keçən əsrin əllinci illərinin ikinci yarısından başlayaraq Azərbaycan nəsrində əhəmiyyətli keyfiyyət dəyişiklikləri nəzərə çarpırdı. Bədii fikirdə tədricən reallığa diqqət artdı, səmimiyyət, həqiqət hissi gücləndi, problemlər, münaqişələr sənət üçün daha münasib bir müstəviyə – mənəvi-əxlaqi qatlara keçməyə başladı. Bir sıra hallarda insanla mühit, cəmiyyət arasındakı bağlılıq qarşılıqlı şərtlənmədə alındı, əvvəlki kimi təkcə kollektivin, kütlənin yox, fərdin, şəxsiyyətin də mövqeyinə önəm verildi. Həyatın estetik dərkində və qiymətləndirilməsində yaranan yeni qənaətlər ilk növbədə cəmiyyətin özündə gedən çoxcəhətli proseslərlə əlaqədar idi. Bu bağlılığı xüsusilə vurğulamaq lazımdır, çünki ideya-estetik oyanış dövrün öz ehtiyacından doğanda daha əsaslı və davamlı olur. Bu sayaq dəyişikliklər bütünlükdə ittifaq miqyasında özünü göstərirdi, mərkəzdən başlayaraq ətrafa da yayılırdı.

Digər tərəfdən, dünya miqyasında gedən sosial-mədəni proseslər də artıq təsirsiz qalmırdı. Bu vüsətli proseslər bədii sənətin təcrübəsi ilə yanaşı, nəzəri təliminə də sirayət edirdi (hətta baş təlimatın – sosialist realizmi metodunun da yeni axtarışlara açıq estetik sistem olduğu bəyan edilirdi). Bunlarla yanaşı, məhz daxili zərurət bədii təkamülün ilkin şərtinə və münbit zəmininə çevrilmişdir.

Əsrin ortalarında sovet cəmiyyətində artıq nisbətən fərqli mənzərə mövcud idi, xüsusilə yeni sistem quruculuğundakı kobud səhvlərin, qismən də olsa, etiraf edilməsi, şəxsiyyətə pərəstişin tənqid olunması ölkədəki sərt ideoloji ab-havanı bir qədər mülayimləşdirmişdi. Məhz mühüm ictimai dəyişikliklər sayəsində 1960-1980-ci illərdə bütünlükdə ədəbiyyat və incəsənətin inkişafında fərqli bir mərhələ təşəkkül tapdı. Burada mühüm bir məqamı da nəzərə almaq lazımdır. Normal ədəbiyyatlar, adətən, təbii inkişaf prosesi keçirərək yeniləşir. Bizdə isə belə olmadı. Sovet cəmiyyəti kimi, sovet ədəbiyyatı da dünya ictimai və bədii təcrübəsi ilə uyuşmayan tamamilə fərqli bir təşəkkül və tərəqqi yolu seçmişdi. Elə kökündən qurama olduğu üçün bunların hər ikisi nəticədə labüd iflasa uğradı. Cəmiyyət kimi, ədəbiyyat da tədricən özünə, öz təbii xislətinə qayıtmalı oldu. Beləcə, bir növ, yenidən müasir səciyyəli bədii təfəkkür formalaşmağa başladı. Digər sovet ədəbiyyatlarında olduğu kimi, bizdə də məşhur "altmışıncılar nəsli" partlayışı da əslində milli kökə, ideoloji "estetikadan" xalis estetikaya qayıdışın sürəkli başlanğıcı idi. Bütünlükdə sənətin təkamül prosesində həm də "yeni nəsr" adlanan güclü bir təmayül meydana çıxdı, bədii fikir kökündən başqalaşmağa doğru meyilləndi. Onu da vurğulamaq lazımdır ki, sənətin digər qolları kimi, nəsri də zənginləşdirən yeni məziyyətlərin əksər qismi əslində həqiqi ədəbiyyatın məlum xüsusiyyətləri idi. Bunlar zatən sovet dövründə

formalaşmış nəsrə nisbətdə yeni idi. Təsadüfi deyil ki, nəsr təbii inkişaf mərhələsinə qədəm qoyanda ədəbi ab-havada klassik ənənəyə, milli təmələ köklənmək rəmzi kimi Mirzə Cəlil kultu hökmran oldu. (Yeri gəlmişkən, bariz nümunə kimi, bu sahədə öz fərdi yönünü tapan Anarın uğurlu fəaliyyətini, onun xüsusilə böyük ustadın ruhundan bəhrələnmiş "Molla Nəsrəddin – 66" satirik silsiləsini, "Dantenin yubileyi" kimi dəyərli povestini xatırlamaq olar). Klassikaya bağlanmaq səyləri bədii fikri yayınmadan çəkindirir, onun axtarışlarını həyat həqiqətlərinə doğru yönəldir, səmimiyyəti, milli koloriti artırırdı.

Nəsrdən də cəmiyyətdəki proseslərə, insanların düşüncə və psixologiyasındakı dəyişikliklərə həssas yanaşmaq, bunları şərh etmək üçün güclü analitik təfəkkür tələb olunurdu. Nəsrin qarşısında müasir gerçəkliyi dərindən dərk etmək və onu təravətli boyalarla əks etdirmək vəzifəsi dururdu. Eləcə də tarixi keçmişə, cəmiyyətin inkişafının əvvəlki mərhələlərinə də yeni baxışlar əsasında nəzər salmaq zərurəti qarşıya çıxırdı. Aydındır ki, bunlara nail olmaq üçün bədii təfəkkürün mahiyyətində, gerçəkliyi inikas tərzində əsaslı dəyişikliklər baş verməli idi və ancaq belə halda sənətin dövrün tələblərinə uyğun irəliləyişi mümkün idi.

Əlamətdardır ki, artıq köhnəlmiş təsəvvür və ifadə vasitələri ilə yazmağın mümkün olmaması qənaətinin doğurduğu qüvvətli, səmərəli axtarış ruhu, yeni vəzifələrə uyğun gələn fərqli, təravətli boyalar tapmaq zərurəti bədii fikirdəki canlanmanın mahiyyət və istiqamətini müəyyən etdi. Bədii proses əsasən ideya-estetik mühakimələrinin təzəliyi ilə səciyyələnirdi; sənət haqqında yanlış, birtərəfli, qəlib halını almış anlayışlar getdikcə laxlayır, patetikadan, saxta pafosdan uzaq, ədəbiyyatımızın həyati gücünə, təbiiliyinə dəlalət edən keyfiyyətləri isə qüvvətlənirdi; ədəbi tənqiddən əlavə və ondan daha artıq dərəcədə bilavasitə bədii təcrübənin özündə köhnəlmiş meyarlara qarşı etiraz və mübarizə ruhu hakim kəsilirdi; bədii fikri buxovlayan quru və cansız ideoloji-estetik sxemlər, ilk növbədə, məhz yeni əsərlərin canlı və təbii səhnələri, həyatın gerçək həqiqətləri ilə rastlaşdıqca hörmət və nüfuzdan düşürdü, bədii əsərlərin öz polemikasında daha əsaslı və qətiyyətlə inkar edilirdi.

Haqqında danışılan dövrdə Azərbaycan nəsrində aydın duyulan yeniləşmə prosesi sosialist realizmi kanonlarının yumşalması, hətta bəzi hallarda sərf-nəzər edilməsi (bu, xüsusilə uydurma partiyalılıq prinsipinə biganəlikdə aşkar sezilirdi) nəticəsində kəsb etdiyi ideya-bədii məzmunun təzahürü kimi mənalanırdı. Əlamətdar cəhət həm də onda idi ki, cəmiyyətdəki dəyişikliklərin əks-səsası öncə sənətdə eşidilirdi, ilk növbədə bədii fikir cəmiyyətdə humanizmin, sərbəst düşüncənin zəruriliyi təbilini çalır, insanın ləyaqəti, dəyəri, xüsusilə sadə adamların taleyinə və güzəranına diqqət, həssaslıq məsələlərini qətiyyətlə irəli sürürdü.

Dövrün ədəbi mənzərəsini tamlığı ilə təsəvvür etmək üçün nəzərə almaq lazımdır ki, göstərilən dəyişikliklər nəsri heç də bütünlükdə əhatə etmirdi, sovet təcrübəsinə uyğun ənənəvi düşüncə məhsulları hələ də olduqca çox idi. Belə ki, əksər nəsr nümunələrində yenə də reallığa arxaik təsəvvür və meyarlarla yanaşılır, şablon ifadə vasitələrindən uzağa gedilmirdi. Bədii fikir əksər hallarda həyatdan yox, həyat haqqında səthi təsəvvürlərdən, hazır sxemlərdən çıxış edirdi; qəhrəmanlar ötəri cizgiləri ilə göstərilən çətinliklər üzərində asanca və mütləq qələbə çalırdılar; münaqişənin haqlı və haqsız, qalib və məğlub tərəfləri də belə hallarda müəllif istəyinə və iradəsinə uyğun müəyyən edilirdi; odur ki, xoşbəxt və nikbin sonluqla, adətən, kütləvi şənliklərlə qurtaran bu tipli süjetlər, konfliktin ideoloji qayəli ənənəvi həlləri, aydındır ki, hadisələrin məntiqi gedişindən doğan həqiqətə çevrilmir, bədii düşüncənin öz predmetinin daxili qatlarına enməsinin nəticəsi kimi səslənə bilmirdi. Yenə də nəsrin səhifələri istehsalat problemləri üzərində qurulmuş münaqişələrlə, "novatorlarla" "mühafizəkarlar" arasındakı aramsız toqquşma təfərrüatları ilə dolmuşdu və bütün bunlar, aydındır ki, həyatın da, qəhrəmanların da yeknəsəq təsvirləri ilə nəticələnirdi.

Əlamətdar haldır ki, yeni ruhlu əsərlərdə ədəbi axtarışlar təkcə ideya-məzmun qatını deyil, forma-üslub xüsusiyyətlərini də əhatə edirdi. Nəticədə həyat materialının yeni təfsirindən tutmuş estetik idealın ifadə tərzinəcən bədii fikrin bütün miqyas və hüdudlarında diqqətəlayiq məziyyətlər özünü göstərirdi.

Vaxtilə (1930-1950-ci illərdə) daha çox vüsətli epik lövhələrə meyil etmiş nəsrin janr ölçüləri və vərdişləri nəzərə çarpacaq dərəcədə dəyişdi. Yeni düşüncəli yazıçılar əvvəlcə kiçikhəcmli əsərlərə – psixoloji-dramatik povestlərə, yığcam romanlara üstünlük verdilər. Beləcə, yeniləşən nəsr ənənəvi nəsrdə dərin kök salmış zahiri monumentallığı, onun qəlibləşmiş poetikasını qəbul etmədi. İdeya-bədii təravət kəsb edən, gerçəkliyin real təcəssümünə can atan bədii təfəkkür, təbiidir ki, öz qüvvəsini əvvəlcə həyatın bir parçasında, nisbətən kiçik məkanda sınamalı idi. Bu fərqli təmayüldə lirik vüsət, hissi-emosional ahəng, dramatik boyalar üstünlük qazandı. Nəsrin strukturunda yaranan mühüm dəyişikliklər – insanı təsvirin mərkəzinə çəkmək, hadisələrin yönünü onun fərdi taleyi üzərində cəmləşdirmək, qəhrəmanın düşüncələr axarını, psixoloji yaşantılarını daha çox içəridən açıb göstərmək üçün müvafiq imkanlar yaratdı. Buna görə də İlyas Əfəndiyevin "Söyüdlü arx" (1958), B.Bayramovun "Mən ki, gözəl deyildim" (1959), Həsən Seyidbəylinin "Telefonçu qız" (1960), İsa Hüseynovun "Teleqram"(1963) povestləri həyatın real və səmimi təcəssümünün ilk nümunələri kimi geniş oxucu marağı qazandı. Bu tipli əsərlərdə sadə insanların taleyi timsalında humanist mündəricənin qüvvətli səslənməsi xüsusilə təsiredici idi.

Sosialist realizmi ehkamları ilə buxovlanmış nəsr hələ də istər hazırkı, istərsə də keçmiş dövrün tendensiyalı təcəssümündə "aktual", "vacib" problemlərə müraciət etməyə, konflikti, süjeti hökmən "mahiyyətli" hadisələr üzərində qurmağa çalışırdısa, formalaşmaqda olan yeni nəsr həyatı daha çox adi axarında alır, cəmiyyətə təlqin olunan ideoloji qənaətləri ayrı-ayrı fərdlərin konkret həyat təfsilatlarında sınağa çəkirdi. Bu yönlü axtarışlar sayəsində bədii fikrin gerçəkliyə müstəqil nüfuzu, müəllifin bilavasitə öz müşahidə və qənaətləri təsvirin, ümumiləşdirmələrin əsası kimi ön plana keçirdi. İdeyanı hazır şəkildə alan və həyat materialını həmin fikrin sadəcə təsbitinə çevirən, bununla da bədii inikası real dolğunluqdan məhrum edən yazarlar tədricən ciddi oxucu marağından məhrum olurdu. Cəmiyyətin istər tarixi, istərsə də müasir məqsəd və ideallarını həqiqət işığında açıb göstərən sənətkar tipi isə, əksinə, rəğbətlə qarşılanırdı. İnandırıcılığından əlavə, bu təmayül həm də onunla dəyərlidir ki, estetik ideal ictimai idealı mexaniki şəkildə təkrar etmir, sadəcə surət çıxartmır. Estetik ideal zatən öz spesifik muxtar təbiətini qorumasa sərbəst yaradıcılıq keyfiyyətini itirər, əsər adicə illüstrasiya səviyyəsinə enər. Beləcə, nəsrimizdə ənənəvi stereotip ideoloji təlimatları, ümumi mühakimələri tədricən yeni, müstəqil qənaətlər, mövzuya konkret nüfuz cəhdləri üstələyirdi. Bu baxımdan İ.Hüseynovun "Yanar ürək" kimi cəsarətlə yazılmış romanının ardınca altmışıncı illərdə qələmə aldığı silsilə povestlər ("Tütək səsi", "Saz", "Kollu Koxa"), İ.Şıxlının "Dəli Kür" (1964), S.Əhmədovun "Dünyanın arşını" (1969), Anarın "Ağ liman" (1970), F.Kərimzadənin "Qarlı aşırım" (1971) və s. əsərlər yeni poetikalı nəsrin ilk ciddi uğurları kimi diqqəti cəlb etdi.

Bu sayaq bədii nümunələr nəsrimizin insan taleyinin, şəxsiyyətin fərdi aləminin dolğun bədii təcəssümünə doğru israrlı hərəkətinin bariz təcəssümüdür. Vaxtilə "kütlə", "cəmiyyət", "xalq" məfhumları, ictimai mənafe və şüur poetikası sovet ədəbiyyatının mətləb və mündəricəsini, meyar və estetik idealını ifadə etmişdir. "Fərd", "şəxsiyyət" anlayışları, şəxsi qayğılara diqqət, intim hisslər, ümumiyyətlə, məişət-güzəran fonu, eləcə də həyatın gündəlik təfsilatları həmin mündəricədə gur səslənməmiş, hətta ayrıca bədii düşüncə obyektinə belə çevrilməmişdi. Lakin müasir ruhlu nəsri gerçəkliyin birtərəfli, aşkar tendensiyalı təcəssümü artıq qane etmir, o, ideoloji ehtimallar təməlində ümumiləşmiş qondarma qəhrəmanlara yox, real insanlara üz tutmağa, konkret fərdlərin şəxsi hissləri və yaşayışlarından ətraflı söhbət açmağa çalışır. Bu təmayül "ümumi" ilə "təkcə"nin qovuşmasına doğru irəlilədi. Getdikcə "fərd" anlayışı da bədii inikasın "xalq" məfhumu qədər əhəmiyyətli komponenti kimi nəzərə çarpmağa başlayır, həmin anlayışın öz çoxçeşidli mündəricəsi, "ümumi" ilə mürəkkəb, bəzən də təzadlı bağlılığı yazıçılar tərəfindən getdikcə daha dərindən açılır; "ümumi" yeni səciyyəli "təkcə"nin, cəmiyyət həyatı fərdin gerçək taleyində daha çox şərh və dərk

olunur. Totalitar mahiyyətli sovet cəmiyyəti üçün bunlar əslində müxalif, sistemə uyuşmayan meyillər idi və o da əlamətdardır ki, bu tipli mühüm sosial-mənəvi mətləblər senzuranın hökmranlıq etdiyi şəraitdə və əsasən də bədii fikir tərəfindən ictimai şüura təlqin edilirdi.

Nəsrin təkidli səyləri və ümumiyyətlə ənənəvi estetikadan, arxaik düşüncə tərzindən uzaqlaşmaq halları hakim ideologiya və onun mövqeyindən çıxış edən tənqidçilər tərəfindən kəskin müqavimətlə qarşılanırdı. Dövr, zamanla birgə insanların düşüncələrində, psixologiyasında baş verən kəskin dəyişiklikləri və bunların sənətdə də öz müvafiq əksini tapmasının vacibliyini onlar heç cür qəbul etmək istəmirdilər. Sənətdə həqiqət hissinin, təsvir və təhkiyədə təbiiliyin artması, xüsusilə ictimai motivlərin mənəvi təhlilini qabartmağa, insan təbiətinin mürəkkəbliyini canlandırmağa israrlı meyillər bədii axtarışların pozitiv mahiyyətini əks etdirdiyi kimi, bunların nə qədər mühüm olduğunu cəmiyyətə də tədricən təlqin edirdi. Ədəbiyyatın idraki rolunun güclənməsi, gerçəkliyi real mənzərəsi ilə əks etdirmək cəhdi sadəcə ifadə vasitələrini deyil, bədii təcəssümün məram və səciyyəsini də şərtləndirirdi. Cəmiyyətdə güclənən sosial-mənəvi proseslər sənətin bütün komponentlərində axtarışlar aparmaq labüdlüyünü doğururdu: həmin axtarışlar mündəricə, mətləb və üslub ölçülərini də, reallığın kolliziyalarındakı indiyənəcən sərf-nəzər edilmiş gərəkli motivləri də açıb göstərmək vacibliyini, şəxsiyyətlə mühit əlaqələrinin müasir sosial-mənəvi həqiqətlərini də əhatə edirdi. Buna görə də sovet ədəbiyyatında hələ də geniş yayılmış qəliblərə qarşı etiraz səslərinin artması tamamilə təbii idi. Belə ki, əsrin ortalarından başlayaraq nəsrimizin bir sıra nailiyyətlərində səthi təsvirçiliyi və ifrat hadisəçiliyi, həmçinin, hazır qənaətlərə əsaslanmaq, mündəricəni süni pafosa tabe tutmaq meyillərini cəsarətli və bəhrəli ideya axtarışları, mətləb təravəti, real gerçəkliyə nüfuz etmək cəhdləri əvəz edə bildi və bu tipli xüsusiyyətlər artaraq yeni keyfiyyətli ədəbiyyatın təşəkkül tapmasına güclü təkan verdi. Artıq gerçəkliyin sanki çox adi görünən, amma əslində çox vacib olan təfərrüatlarına zəhmli "qeyri-tipik" damğasını vurub bunlara əhəmiyyət verməmək, insan təbiətini yalnız iki rəngdən birinin (ağ, ya da qara) qatı fonunda göstərmək vərdişi nəsrin yeni təmayülləri ilə uyuşmayan arxaikliyə çevrilirdi. Daha nə mövzu aktuallığı, nə də qəhrəmanların guya ictimai fəallığı arxasında gizlənməklə, vüsətli süni sosial lövhələr yaratmaqla (bu sayaq cəhdlər hələ çox güclü idi!) əslində həyatdan uzaqlığı, müstəqil müşahidə və qənaətlərdən, obyektiv yaradıcılıq amalından məhrumluğu örtbasdır etmək mümkün deyildi. Nəsrin yeni axtarışları məhz real gerçəkliyi əks etdirmək səyi ilə əsl ideya-estetik dəyər kəsb edirdi. Mövcud reallığı, qəhrəmanın həqiqi duyğular və düşüncələr aləmini əks etdirmək istəyinin müqabilində ənənəvi nəsrin ideya-məzmun kasadlığı yüksək vüsət və pafosla ifadə olunsa da, əslində sönük və qeyri-səmimi təsir bağışlayırdı. Bu qabarıq

təzad bədii təcrübənin mənzərəsində aydın görünürdü və tez-tez kəskin mübahisələrə, ideya-estetik qarşıdurmalara gətirib çıxarırdı. Nəsrin yeni axtarışları ardıcıl surətdə sosializm realizminin ideoloji ehkamları mövqeyindən sərt tənqidlərə məruz qalırdı. Müasir ruhlu əsərlərin canlandırdığı real mənzərələr, bunlarda təlqin olunan təbii hiss və cəsarətli ideyalar rəsmi ideologiya və estetikada qərarlaşmış şablon qənaətlərə uyğun gəlmirdi, odur ki, həyata "qəribə", "subyektiv", "birtərəfli" yanaşmalar kimi təfsir olunurdu. Buna görə də yeniləşən nəsrin bir sıra dəyərli hekayətləri, məsələn, Şöşü ilə Cümrünün (İ.Hüseynov, "Tütək səsi"), Nemətin (Anar, "Ağ liman"), Sadığın (Ə.Əylisli, "Adamlar və ağaclar"), Qaçayın (İ.Məlikzadə, "Evin kişisi") təsirli və kədərli həyat sərgüzəştləri haqqında səmimi söhbətləri etirazla qarşılandı, bunlarda sovet gerçəkliyinin səciyyəvi boyalarla əks etdirilmədiyi iddia edilirdi.

XX əsrin altmışıncı illərinin təravətli bədii nəsrində sosialist realizmi yaradıcılıq metodunun tələbləri və prinsipləri yox, real həyat həqiqətləri, təbii yaşantılar, sadə adamlarla bağlı əhvalatlar qələmə alınmışdır. Ədəbi tənqidin bu tip yanaşmanı açıq və ya örtülü şəkildə qəbul edə bilməməsinə baxmayaraq, ümumilikdə "subyektiv baxış" kimi dyərləndirilən bu meyil dayanmamış, əksinə, getdikcə daha da genişlənmişdir. "Altmışıncılar"ın yenilik hissi güclü olan nümayəndələri üçün həyat həqiqətinin ideoloji sxemləri üstələməsi səciyyəvi xüsusiyyətə çevrilmişdir. Bu yolla "subyektiv" təəssüratlara əsaslanmaq, "obyektivlik" naminə o dövrkü ədəbiyyatda geniş yayılmış süni pafosdan, ritorik motivlərdən uzaq olmaq cəhdi təhkiyəyə səmimiyyət, inandırıcılıq aşılamışdır.

1960-cı illərin yeni nəsli ədəbiyyata əlamətdar bir vaxtda gəldi: bədii fikirdə mühüm təkamül baş verdiyi, gerçəkliyin yeni ideya-estetik şərhinə və müasir yazı mədəniyyətinə yiyələnmək zərurəti aşkar bir təmayülə çevrildiyi vaxtda fəaliyyətə başladı. Buna görə də Anar, Elçin, Yusif Səmədoğlu, Maqsud və Rüstəm İbrahimbəyov qardaşları, Fərman Kərimzadə, İsi Məlikzadə, Vaqif Nəsib kimi istedadlı yazıçıların yaradıcılığında artıq ilk qələm təcrübələrindən sezilən yeni poetik nəfəs təkcə gənclik hərarəti və istedaddan irəli gəlmirdi, həm də ölkədəki ictimai-ədəbi fikrin təzadlı abhavası ilə şərtlənirdi. Gənc yazıçıların əsərlərindəki təbii fərqlilik və özünəməxsusluqla yanaşı, həyat qənaətlərindəki, bədii meyar və mühakimələrindəki üzvi yaxınlıq və səsləşmənin qabarıqlığı da diqqətdən yayınmırdı. Elə fəaliyyətlərindəki müəyyən ümumi, səciyyəvi xüsusiyyətlərin qabarıq mövcudluğuna görə də istedadlı gənc nasirlər ədəbi nəsil baxımından dərhal seçilib formalaşa bildilər. Sənəti zənginləşdirən bu fərqlilik həm də onların müraciət etdikləri ilkin həyat materialının spesifikliyindən doğurdu.

Gənclər əsasən "özləri" haqqında danışmaqla, "öz" həyat təəssüratlarına müraciət etməklə yaradıcılığa başladılar. Yazıçı düşüncələri sıx surətdə

onun öz "mən"inə doğru yönəldi. Geniş mənada avtobioqrafizm (bir nəslin tərcümeyi-halını işıqlandırmaq mənasında) gənc nasirlərin maraq predmetinə çevrildi. Həmin yazıçılardan birinin sənət haqqında mühakiməsi də bu cəhətdən sərrast səslənir: "Bütünlükdə ədəbiyyat həmişə avtobioqrafikdir" (M.İbrahimbəyov). İlk əsərlərində gənclər daha çox özləri, öz nəsilləri barədə söhbət açdıqlarından onların yaradıcılığında təhkiyəçi ilə, qəhrəmanla müəllif arasında doğmalıq, bəzən hətta "eyniyyət" müşahidə olundu. Bu cəhət yazıçı ilə obrazlar arasında sanki heç bir müstəqim əlaqə olmadıqda da hiss olunurdu. Buradan da təhkiyədəki səmimiyyət, həqiqət hissi ilə yanaşı, coşqun lirizm, boyaların təbiiliyi və hərarəti, özünümüşahidə və özünütəhlil meyli üçün geniş imkanlar açıldı. Aydındır ki, müəllif şəxsiyyəti bariz prototip kimi alınanda, "mən" sanki bütün həyati təfsilatı ilə təsvirə çökəndə də həqiqi sənətdə bunlar ümumiləşir, ümumi maraq doğuracaq şəkildə ifadə olunur. Bizdə də bədii fikrin "mən"ə doğru intensiv meylini belə başa düşmək lazımdır. Yeni nəsil öz həyatını dərk etməklə – dövr, mühit haqqında real söhbətə başladı. Gənc yazıçılar əslində mənsub olduqları nəslin mənəvi-psixoloji tərcümeyi-halını yazırdılar, öz nəsillərinin taleyini, onları narahat edən problemləri dilə gətirirdilər. Həmin söhbətin fərdi-subyektiv planda verilməsinin, daha çox psixoloji ahəng daşımasının, lirik təhkiyənin həm məzmun, həm də forma etibarı ilə gənclərin əsərlərində təcəssümünü tapmasının başlıca səbəbi də elə budur. Sovet dövrü nəsrində təmayül halında bu yeni idi, ədəbi prosesdə şəxsiyyətə, şəxsi təəssürat və qənaətə artan diqqətin təzahür formalarından biri idi.

Gənc nəslin gəlişi ilə nəsrdə təkamül prosesi gücləndi. İnsanın konkret fərd kimi təsvirinə diqqətin artması hakim estetikanın iddia etdiyi kimi, sənəti həyatın real obyektiv inikasından uzaqlaşdırmırdı. Ənənəvi nəsrdəki "obyektiv" həqiqət isə, adətən, ideoloji təlimlərdən nəşət edirdi. Yeni bədii meyillər əslində həmin təsəvvürləri, rəsmən "tipik" sayılan dəyərləri gerçəkliyin öz mənzərələrində sınağa çəkirdi. Bu nəsrdə obrazın yaşadığı həyatın təlqin etdiyi həqiqət istər problemlərin şərhində, istərsə xarakterlərin açılışında, istərsə də münaqişələrin həllində müəyyənedici amilə çevrilirdi. Ənənəvi stereotip qavrayışdan kəskin fərqləndiyi üçün həmin yaradıcılıq təmayülü rəsmi tənqiddə məhdud subyektiv qavrayış kimi səciyyələndirilirdi. Belə qarşıdurmalar gerçəkliyin bədii təcəssümündə köklü ziddiyyətlərə səbəb olur, elə əsərlər yaranır və bunlarda həyatın elə sərf-nəzər edilmiş yönləri qabardılır ki, bunlar "genişlik", "obyektivlik", yaxud "ideyalılıq", "mübarizlik" adı altında təbliğ edilən "estetik" ölçülərə uyğun gəlmirdi. Belə əsərlərin müəllifləri ənənəvi tənqid tərəfindən, bir qayda olaraq, ideya məhdudluğunda, qeyri-mübariz, yəni sovet gerçəkliyinin mahiyyəti ilə uyuşmayan cılız qəhrəmanlar yaratmağa aludəçilikdə tənbeh edilirdi. Özü də ən çox ideya-estetik özəlliyi ilə seçilən əsərlər tənqid edilirdi. Halbuki, yeni bədii

dəyərlər yaradanların estetik idealı aydın və mənalı idi, onlar sovet gerçəkliyinə ayıq nəzərlə baxmağa, mövcud həyatı müstəqil, tendensiyasız təhlili düşüncədən keçirməyə çalışırdılar.

"Ağ liman" (1970) povestində Anarı yüksək mənadan məhrum ömrün boşluğu, qanadsızlığı kimi mühüm mənəvi-ictimai problem düşündürür və o bu baxımdan qəhrəmanı Nemətin, eləcə də onu əhatə edən adamların həyatını, əməllərini bədii təhlil süzgəcindən keçirir. Yazıçının qəhrəmanı öz yaşayışında yüksək mənəvi dəyər axtarır və bunu tapa bilmədiyindən həyatından narazı qalır. Əslində, Nemət həyata biganə qalan, ətrafında gördüyü yalanla, şərlə uyuşan insan deyil; o, həyatı üzərində düşünür, yaşamağının mənasını anlamağa çalışır. Onu "yüksək, işıqlı həyat idealından" məhrum olmaqda qınayanlar oldu, halbuki, insana həqiqət axtardığına, ömrünün mənasını hələ tapa bilmədiyinə görə yuxarıdan baxmaq yaxşı deyildi, bu zaman axtaranın səmimiyyəti daha inandırıcı görünürdü. Özü də problem təkcə Nemətdə deyildi, daha çox cəmiyyətdə idi, odur ki, qəhrəman təkcə öz yaşayışında yox, ətrafında da istinad etməyə təməl tapa bilmirdi. Ənənəvi tənqid Neməti və nemətləri "parlaq" sovet həyatından kənarda qalmaqda, cəmiyyətin ideallarına qovuşa bilməməkdə günahlandırırdı. Halbuki, mövcud durğun cəmiyyətə uyuşmaqla ömrün həqiqi amalını tapmaq, sadəcə, mümkün deyildi. Əsas problem də elə bu idi. Bütün sistemə ideoloji riyakarlıq sirayət etmişdi. Düzdür, bu acınacaqlı hal, onun doğurduğu bir sıra vacib siyasi və milli səciyyəli problemlər ədəbiyyatımızda hələ açıq və qabarıq əks etdirilmirdi. Bu baxımdan sovet gerşəkliyinin dolğun və dərin təhlilini, elə "Ağ liman" povestində də olduğu kimi, daha çox sadəcə rəmzi-metaforik işarələr (Nemətin yuxuda özünü zolaqlı məhbus geyimində görməsi məqamını xatırlayaq) əvəz edirdi. Amma, hər halda, dolayısı da olsa, yeni nəsrin ümumi ruhuna ölkənin durumundan narazılığın hopduğunu aydın hiss etmək olurdu.

Yeni nəsr uğurları ilə getdikcə özünü təsbit etsə də, onun ətrafında kəskin ittihamlar səngimək bilmirdi. Bədii fikirdəki həqiqət axtarışları sayəsində nəsrdə də tənqidi pafos güclənirdi. Bunu sovet gerçəkliyinin qərəzli, birtərəfli təsviri sayan hakim estetika qüsurun gözünə tərifin də qatılmasının, tünd boyalarla guya cəmiyyətdə aşıb-daşan işıqlı cəhətlərin arasında nisbət gözlənilməsinin vacibliyindən danışırdı. Yaxud zəif, aciz insan əsas təsvir obyektinə çevriləndə, belə əsərdə mübariz, qətiyyətli qəhrəmanın da canlandırılmasının zəruriliyindən bəhs edilirdi. İddia edilirdi ki, müsbət və mənfi cəhətlər arasında müvafiq tarazlıq yaratmadan, həyatı obyektivliyi ilə dialektik inkişaf prosesində canlandırmaq mümkün deyil. Bu sayaq ritorik mühakimələr ədəbi-mədəni mühitdə baş alıb gedirdi. Ancaq belə ideoloji təlimlər, əlbəttə, ciddi ədəbiyyat söhbətləri deyil.

Ardıcıl təkamül prosesi keçirən nəsrimiz humanist ideallara xidmət edir, insanlarda ləyaqət və şəxsiyyət hissini oyatmağa çalışırdı. İdeoloji təzyiqin və sosial haqsızlığın hökm sürdüyü bir cəmiyyətdə bu, olduqca zəruri məsələ idi. Yeni nəsr ilk növbədə insanı duymağa, onun qayğılarını başa düşməyə, onunla həssas, səmimi davranmağa çalışır. Elə buna görə də Anarın "Dantenin yubileyi" (1988), Elçinin "Toyuğun diri qalması" (1987), Ə.Əylislinin "Kür qırağının meşələri" (1971), İ.Məlikzadənin "Evin kişisi" (1982), V.Nəsibin "Ceyrançöllü Qoç Kərəməli" tipli əsərlər dərin humanist qayəsi ilə oxucuları təsirləndirə bildi.

"Evin kişisi" povestində Qaçay, hələlik sahibovlara, baxışlara, pənahlara qarşı çıxacaq qəhrəman deyildi. Ona görə ki, bunun üçün o, sahibovların fəndgirliyindən heç olmasa baş çıxarmalıdır. Qaçay isə işdə hey ələ salındığını nəinki duymur, hətta rəisinin məhz ona iş buyurması ilə öyünür. Yazıçı insanlara hədsiz dərəcədə etibar edən və bu inamında da yanılan saf, səmimi bir gəncin çəkdiyi əzabdan bəhs etməyi qarşısına məqsəd qoymuşdur. Qaçay neyləsin ki, harın sahibovların, hiyləgər baxışların min bir əməli müqabilində olduqca sadəlövh, gülünc vəziyyətdə görünür, heysiyyatı da, sevgisi də tapdalanır. Qaçayın faciəsi həyata büllur nəzərlə baxmağında, qanun keşiyində duran səlahiyyət sahibinin qanunu pozmasını xəyalına gətirə bilməməsindədir. Belə şəraitdə Qaçay kimiləri ağır sınaq qarşısında qalırlar, əzab çəkirlər və bəzən də tab gətirməyərək əyilməyə məcbur olurlar – yazıçının real həyati lövhələrlə bizə çatdırdığı başlıca mətləb budur.

Dövrün nəsrinin mahiyyətində mühüm dəyişikliklər yaradan, meyarlarını müəyyənləşdirən, uğurlu nümunələrinin cazibədarlığını təmin edən başlıca xüsusiyyət – bədii fikirdə şəxsiyyət başlanğıcının güclənməsidir. Sovet ədəbiyyatının əvvəlki nümunələri, adətən, dövrün müəyyən bir aktual problemi, deyək ki, qadın azadlığı ya da yeniliklə köhnəliyin mübarizəsi barədə əsərə çevriləcək dərəcədə ümumiləşirdi, həyat materialı məhz problem baxımından əhatə və şərh olunurdu. İndi isə bu xüsusiyyət getdikcə zəif nəzərə çarpır. Odur ki, ədəbiyyatın əvvəlki mərhələsinin anlayışlarını yeniləşən bədii təcrübəyə tətbiq etmək çətinləşirdi. Artıq aydın müşahidə edilirdi ki, məsələn, yeni ədəbi nəslin fəaliyyətində ilk uğurlu nümunələrdən olan "Qarlı aşırım" (F.Kərimzadə) (1967) romanını nə hadisələrin cərəyan etdiyi dövrə, nə də konkret materiala əsaslanıb sadəcə kollektivləşmə hərəkatı barədə əsər kimi dəyərləndirmək, sadəcə, mümkün deyil. Həqiqi sənət yaradıcıları, nə qədər vacib olsa da, daha problem barədə yox, ilk növbədə insan və onun taleyi, xarakteri barədə əsər yazmağa çalışırlar. Belə əsərlərdə ən gərəkli mətləblər də, mühit-zaman təfsilatları da ənənəvi nəsrdə olduğu kimi təfərrüatlı haşiyələrdə, ayrıca səciyyələndirmələrdə yox, əsasən qəhrəmanın simasında cəmləşərək təcəssümünü tapır.

Yeni nəsrin bu mühüm estetik keyfiyyəti ilkin olaraq İsmayıl Şıxlının "Dəli Kür" (1965) romanında qabarıq nəzərə çarpdı. Bu əsərdə bütünlükdə təsvir-təhkiyə vasitələri insanlar üzərində təmərküzləşir, dövr-mühit obrazların və təbiidir ki, ilk növbədə əsərin qəhrəmanı Cahandar ağanın canlı və koloritli xarakteri vasitəsi ilə açılır. Romanda bizi yalnız bədii inikasın deyil, həm də ideya-məzmunun yeniliyi, milli psixologiyaya, tarixi həqiqətə bağlılıq və sadiqlik cəsarəti də cəlb edir.

Yazıçı cəmiyyətdə yeni meyillərlə köhnə qaydaların üz-üzə gəldiyi, toqquşmağa başladığı mühüm tarixi keçid dövrünün mənzərəsini sərrast və koloritli boyalarla təsvir edir. Kəndin nüfuzlu tayfa başçısı Cahandar ağanın çar hökuməti adamlarının kənddə tez-tez görünməsi ilə müstəqil həyat tərzinin təməlindən laxladığını hiss edərək daldığı ağır düşüncələr, keçirdiyi narahatlıqlar müstəmləkəçilik dövrünün milli-psixoloji kolliziyalarını qabarıq canlandırır. Tarixi təlatümlər əsərin də əsas münaqişəsinə çevrilir və öz mürəkkəb, vüsətli ideya-bədii ifadəsini məhvərinə aldığı qəhrəmanın kədərli taleyində, digər surətlərin əməllərinin ümumiləşdirici məğzində tapır.

Dövrün bədii təkamülünün müəyyən əlamətlərini yaşlı nəslin bəzi nümayəndələrinin yaradıcılığında da müşahidə edirik. Doğrudur, S.Rəhimov, M.İbrahimov, Ə.Vəliyev, Ə.Əbülhəsən, Q.İlkin kimi tanınmış yazıçılar hələ də həvəslə yazdıqları "tarixi-inqilabi" mövzulu epik əsərlərində ənənəvi janrın şablon ideoloji ölçülərinə əməl edirdilər. Lakin bununla yanaşı, bəzi hallarda artıq fərdi hiss və qayğılara da diqqətin artdığını görürük. Bunu yəqin etmək üçün Ə.Əbülhəsənin "Yoxuşlar" romanının birinci hissəsi (1930) ilə ikinci hissəsini (1962) müqayisə etmək kifayətdir. Vüsətli ümumiləşdirmələrlə yanaşı, obrazların fərdi cizgilərinin dolğun təcəssümünü M.İbrahimovun "Pərvanə" (1971) romanında aydın görə bilirik. Eyni fikri Ə.Vəliyevin "Budağın xatirələri" (1974) romanı haqqında da demək mümkündür.

Xalq yazıçısı Əbülhəsən Ələkbərzadə sovet dövrü romanlarının ilk nümunələrindən olan "Yoxuşlar" (1930) və "Dünya qopur"a (1933) yenidən qayıtdı, bunların davamını yazdı. "Yoxuşlar" həqiqətən yarımçıq əsər idi, onu tamamlamağa ehtiyac duyulurdu, müəllif bunu etdi və əsər, standart poetikası daxilində olsa da, bir qədər təkmilləşdi, çünki ənənəvi mövzuya nisbətən yeni qənaətlərlə yanaşa bildi. Ancaq ikinci əsər üzərindəki iş uğurlu alınmadı. Çünki məhz fikir təzəliyi "Dünya qopur"un qəhrəmanları ilə yeni görüşə maraq doğura bilərdi.

Eyni mənzərəni Əli Vəliyevin "Qarabağda qalan izlər" (1980) romanında da görürük. Yeni cəmiyyət quruculuğunun fəal iştirakçısı olan qocaman ədib öz zəngin ömür yolunda tanıdığı adamlardan, gördüyü, eşitdiyi əhvalatlardan yeni əsərlərində söhbət açır. Təsadüfi deyil ki, "sənədlilik", "xatirə" epitetləri bu əsərlərin bəzən janr göstəricisinə də çevrilir. Hərçənd "Qarabağda qalan izlər"i müəllif roman-xatirə adlandırmamışdır, ancaq

memuar reallığı əsərin ruhunda aydın duyulur. Gözləmək olardı ki, materiala şəxsi bələdlik romanın ənənəvi forma-mündəricə xüsusiyyətlərinə müəyyən canlılıq, cazibədarlıq gətirəcəkdir. Lakin belə olmur. Məlum "tarixi-inqilabi" janrın trafaret poetikası ilə burada əsərin qayəsində, süjetin davamında, xarakterlərin səciyyələndirilməsində növbəti dəfə rastlaşırıq. Yalnız bir fərqli cəhət nəzərə çarpır. Yeni romanda da sinfi ziddiyyətlərdən çox danışılır, amma bu dəfə, əsasən, ümumi şəkildə. Konkret lövhələrdə isə kəndlilərin vəziyyətində artıq nə yoxsulluq, yazıqlıq, hüquqsuzluq qabardılır, nə də bəylərin davranışında həmişə vurğulanmış zülmü, vəhşiliyi müşahidə edirik. İndi kəndlilər bəylərdən yox, əksinə, bəylər kəndlilərdən çəkinirlər. Lakin bu tipli ötəri təfsilatlar da həm əvvəlki ifratların, sadəcə, əks tərəfi təsiri bağışlayır, həm də bu əsərdə də səngiməyən inqilabi pafos və ritorika ilə uyuşmur. Odur ki, həmin fərqləri yazıçının dövrə baxışının dəyişilməsinin, ideya mövqeyinin yeniləşməsinin əsaslı təsbiti kimi dəyərləndirmək mümkün olmur.

Təxminən eyni vəziyyəti M.Hüseynin "Yeraltı çaylar dənizə axır" (1964-1965) romanında da görürük. Yazıçı bu sonuncu əsərində yaxın keçmişin faciəvi repressiya hadisəsini qələmə alır, günahsız qadın qəhrəmanının başına gətirilən müsibətlərin timsalında çəkinmədən sovet cəmiyyətində baş vermiş kütləvi repressiyanın sarsıdıcı lövhələrini rəsm edir. Bəs belə dəhşətli haqsızlıqlarla dolu bir cəmiyyətdə yaşayan yazıçıya həmin cəsarəti verən nə idi? Məsələ burasındadır ki, əsərdə bütün ölkəni bürümüş qətllər-sürgünlər dalğası hakim partiyanın, dövlətin yanlış siyasətinin yox, yalnız ayrı-ayrı rəhbərlərin səhv hərəkətlərinin acınacaqlı nəticəsi kimi qələmə verilir. Yazıçı bu yanlış qənaətini qətiyyətlə, ardıcıl şəkildə oxucuya aşılamağa çalışır. Yəqin ki, qorxunc ittihamı əsl günahkarın üstündən götürəndən sonra cəsarətli olmaq elə də çətin deyildi?! Düzdür, M.Hüseyn prinsipial adam idi, əqidəsini, mövqeyini asanlıqla dəyişənlərdən deyildi. Çox güman ki, o, yazdığı kimi də düşünürdü. Bununla işimiz yoxdur. Ancaq repressiyanın dəhşətinin emosional boyalarla təsirli canlandırılmasını nə qədər təqdir etsək də, böyük bir faciənin səbəbini kökündən təhrif edən bir əsəri həyat həqiqəti kimi başlıca amil üzərində təşəkkül tapan yeni bədii düşüncənin şəksiz nümunəsi kimi dəyərləndirmək çətindir.

Tarixi-inqilabi mövzu Qılman İlkinin də yaradıcılığında mühüm yer tutur. "Şimal küləyi" (1962) və "Qalada üsyan" romanlarında hadisələrin dramatizminə meyil təhkiyəni nisbətən cəlbedici etdi, müəllif qələminin potensial imkanını üzə çıxartdı. Ancaq "Madam Qədri" povestində təsvir tərzi maraq doğurmur. Povestdə Müsavat hakimiyyəti dövrü qərəzli mövqedən işıqlandırılmışdır. Əslində əsərdə sanki nəsrimiz üçün təzə və ciddi bir dünyagörüşü və psixoloji münaqişədən söhbət açılır: ideya mövqeləri uyğun gəlmədiyinə görə bacı ilə qardaş bir-birinə yadlaşırlar. Ancaq bu nifaq təsirli

deyil, çünki düşüncələr dayazdır, əhval-ruhiyyələr səthidir. Sosial-psixoloji mahiyyətli konflikt detektiv süjet səpgisində davam edir, açıq macəraçılığa meyil həyata real nüfuzu kölgədə qoyur.

Dövrün əsaslı ideya-bədii axtarışları ilə uyuşmayan bu tipli səthi əsərlər çox yazılırdı. Onlara hələ də köhnəlmiş sxematik qəliblərlə düşünən bütün nəsillərdən olan yazıçıların yaradıcılığında rast gəlinirdi. Yalnız tarixi düşüncənin dərinliyi, dövrün həqiqi mənzərəsini canlandırmaq, ziddiyyətlərinə, mürəkkəbliyinə həssaslıqla nüfuz etmək bacarığı bədii uğuru təmin edə bilərdi. Bunun üçün tarixi gerçəkliyə yeni qənaətlər işığında nəzər salmaq zəruri idi.

İlyas Əfəndiyevin "Geriyə baxma, qoca" (1980) romanı həmin qabarıq məziyyətləri ilə geniş oxucu rəğbəti qazana bildi. Daha çox müasir həyatın ardıcıl tərənnümçüsü kimi tanınan yazıçı yeni romanında unudulmaz uşaqlıq illərinin kövrək xatirələrinə müraciət etmişdir. Bu xatirələrin Qarabağ torpağı, Şuşa şəhəri və Müsavat hakimiyyəti dövrü ilə bağlı olması onlara xüsusi dəyər verir. Yazıçı rəvan və çox koloritli bir təhkiyə ilə bir ömrün bütün incəliklərinəcən yaddaşa hopmuş acılı-şirinli uşaqlıq dünyasına qayıdaraq bir elin, bir xalqın üzərində yaşadığı doğma torpağının və gərgin tarixi çağının əlvan təbiəti, yenilməz insanları və təlatümlü hadisələri ilə birgə olduqca təsirli epik və lirik-psixoloji lövhələrini canlandırmışdır. Məhz belə əsərlər həmin ərazilərin tarixən kimlərə mənsub olduğunu və kimlərin qəlbində, ruhunda yaşadığını əyani və dolğun şəkildə göstərə bilir. Başıbəlalı Müsavat dövrü də ilk dəfə bu romanda obyektiv və cəlbedici təsvir olunmuşdur. "Geriyə baxma, qoca" əsəri yüksək ideya-bədii xüsusiyyətləri ilə nəsrimizin seçilən, həmişəyaşar poetik dastanlarından biridir.

Mövlud Süleymanlının "Köç" (1980) romanında da bilavasitə tarixi personaj və hadisə ilə rastlaşmırıq, burada taleyi izlənilən bir tayfanın timsalında elin aqibətindən, ilkin mənəvi-ruhi yaşantılarından cəlbedici söhbət açılır. Əsərdə psixoloji dolğunluqla Qarakəllə kökünün ümumiləşdirilmiş obrazı yaradılır, bütünlükdə təfsilat və süjet xətti bu mərkəzi motiv-obraz ətrafında cəmləşir. Ümumiləşdirici sərrast cizgilərin ön plana çəkilməsi romanın ideyasını özündə təcəssüm etdirir. Əsərdə belə bir ideya təlqin olunur ki, kökə, elə bağlılıq ruh, düşüncə və məqsəd birliyidir, bütövlükdür, əsilliyin, saflığın qorunmasıdır. "Köç" daha çox şərti-rəmzi planda qavranılır, mətn tarixi gerçəkliyindən daha çox məcazi ruhu, doğurduğu assosiasiyalar, təlqin etdiyi hisslərlə qəlbimizə, xəyalımıza çökür; təsvir konkret çərçivələrindən çıxır, zaman hüdudlarını aşır, elin əzəli mahiyyətini, səciyyəvi ruhi-psixoloji mövcudluğunu özündə təcəssüm etdirən folklorvarı kontekstə çevrilir. Folklor ruhu və poetikası ümumiyyətlə M.Süleymanlının bədii düşüncəsinin, həyati estetik qavrayışının məğzində, üslubunun mayasında duyulur. Odur ki, folklor koloriti "Köç"ün süjet

axarından tutmuş xarakterlərin səciyyələndirilməsinəcən bütünlükdə təsvir-ifadə tərzinə elə üzvi şəkildə hopmuşdur ki, hətta onu dastanvarı roman adlandırmaq mümkündür. Bu məziyyəti ilə "Köç" əsəri nəsrimizin ən çox seçilən dəyərli nümunəsidir.

Nəsrdə tarixiliklə müasirliyin əlaqəsi güclənir. Bu meyil həyatda qarşıya çıxan problemləri həm də yaxın və uzaq keçmişin tarixi təcrübəsi fonunda anlamaq ehtiyacından irəli gəlir. Bədii düşüncə zamanlar arasındakı bağlılığı, səsləşməni aramağa çalışır.

Nəsrin bu səmtə yönəlmiş səylərini Ə.Cəfərzadənin "Aləmdə səsim var" (1973), "Vətənə qayıt" (1977) və "Yad et məni" (1980) adlı silsilə romanlarında, M.İsmayılovun "Xaqani", Ç.Hüseynovun "Fətəlinin fəthi" (1988), H.İbrahimovun "Əsrin onda biri", N.Xəzrinin "Heykəlsiz abidə" (1982), T.Hüseynovun "Borçalı əhvalatları" (1977) əsərlərində görmək mümkündür. S.Rəhimovun "Qafqaz qartalı" (1972), C.Bərgüşadın "Bozatın belində" (1958) və "Sıyrılmış qılınc" (1981), P.Makulunun "Gizli zindan", "Xiyabani" (1979) və "Heydər Əmioğlu" (1985) romanlarında xalqımızın ictimai ədalət və milli azadlıq uğrunda mübarizəsi əks olunmuşdur.

Elə tarixi simalar var ki, onların fəaliyyəti öz miqyasına görə ölkənin, xalqın varlığında təcrid olunmuş şəkildə təsəvvürə gəlmir, zaman özü onları milli yaddaşda ümumiləşmiş mahiyyəti ilə yaşadır. Belə şəxsiyyətlərdən olan Şah İsmayıl haqqında, təsadüfi deyil ki, xeyli əsər yazılmışdır.

Əzizə Cəfərzadənin "Bakı–1501" (1981), Fərman Kərimzadənin "Xudafərin körpüsü" (1982) və "Çaldıran döyüşü" (1987), Ə.Nicatın "Qızılbaşlar" (1983) romanlarında keçmişimizin Xətainin adı və fəaliyyəti ilə bağlı olan mühüm və mürəkkəb mərhələsinə maraq göstərilir. Həmin dövr, bəllidir ki, mərkəzləşdirilmiş dövlət yaratmaq uğrunda gərgin mübarizələrlə, milli şüurun intibahının əhəmiyyətli əlamətləri ilə səciyyələnir və bütün bunlar yazıçılara torpağımızın taleyinin və xalqımızın xarakterinin təşəkkülü təfsilatının milli-tarixi dərki baxımından zəngin material verir.

"Bakı–1501" romanında hadisələr dörd əsas surət ətrafında cərəyan edir, bu da süjet xəttinə müəyyən pərakəndəlik gətirir və əsərin bütöv qavrayışını çətinləşdirir. Əsərin qəhrəmanı Şah İsmayıl tarixi həqiqətə uyğun olaraq sərkərdə, hökmdar, təriqət başçısı və şair kimi fəaliyyətinin çoxcəhətliliyi ilə səciyyələndirilir, ancaq, təəssüf ki, bəzən bunlardan təcriddə danışılır. Bəs qələmlə qılınc bir əldə necə uyuşur, fərqli sahələrin hər birində uca zirvələr necə fəth edilir, dörd ürək bir könüldə uzlaşa bilirmi, aralarında heç çəkişmə-çarpışma olmurmu? – bu məqamlara diqqətin artması mürəkkəb xarakterə mənəvi-psixoloji nüfuzu dərinləşdirə bilərdi.

Fərman Kərimzadənin "Xudafərin körpüsü" romanında Şah İsmayılın ağır uşaqlıq illərindən, ilk gənclik dövründə apardığı gərgin mübarizələrdən söhbət açılır, şəxsiyyət kimi yetkinləşməsinin təfsilatı, görkəmli dövlət

xadimi, təriqət başçısı, şair və sərkərdə kimi məşhurlaşması qabarıq boyalarla göstərilir. Bütün bunlar Şah İsmayılın əməllərini və ideallarını müəyyənləşdirən, tarixi zərurətə çevirən amillərin şərhinə, çoxcəhətli fəaliyyətinin rabitəli canlandırılmasına imkan yaradır. Özü də bioqrafik zəmində dövrün epik vüsəti ilə təcəssümü mərkəzə çəkilir, məhz zamanın ümumiləşmiş obrazı təsvirin bütün şaxələrini özündə qovuşduran əsas qayə kimi mənalanır. Odur ki, "Xudafərin körpüsü"nün janrını, bir növ, salnamə, tarixi xronika kimi müəyyənləşdirmək mümkündür; süjetin ardıcıl davamı və hədsiz şaxəliyi də, hadisələrin və iştirakçıların çoxluğu da təsvirin səciyyəsindən irəli gəlir. Beləcə, tarix öz keşməkeşləri, zaman öz burulğanları ilə süjetin də məhvərinə çevrilir, hadisələrin də axarını istiqamətləndirir. Bununla belə, romanda tarixi kolliziyalar bəzən adi intriqa səviyyəsinə endirilir, hökmdar surətləri cılızlaşdırılır, müşkül məsələlər çox asanlıqla həll edilir.

Elçin də "Mahmud və Məryəm" (1982) romanında dolayı yolla bizi Şah İsmayılın yaşadığı dövrə aparır. Maraqlıdır ki, tarixi keçmişimizin ziddiyyətlərindən ümumiləşdirici söhbət açmağı qarşısına məqsəd qoyan yazıçı əsərinin süjet materialını folklordan alır, özü də sosial qayəsi ilə sanki uyuşmayan "Əsli və Kərəm" kimi xalis məhəbbət dastanına müraciət edir. Maraqlıdır ki, bu əsərdəki məhəbbət motivi romanın da süjet xəttini təşkil edir, ancaq kompozisiyanın sadəcə zahiri örtüyü olaraq qalır. Romanda da sevgilisi Məryəmi axtaran Mahmud sarayı tərk edib çöllərə düşür, ölkəni qarış-qarış dolaşır. Yazıçı da dastanın verdiyi imkandan istifadə edib dövrün sosial səpgili ümumiləşdirici mənzərələrini önə çəkir. Addımbaşı rastlaşdığı acınacaqlı səhnələr qəhrəmanı dərindən sarsıdır. Beləcə, sevgilisini axtaran aşiq iztirablı yaşantılar içində üzülən xalq təəssübkeşinə çevrilir. Mahmuda əyan olur ki, onun öz dərdindən daha vacib bir dərd var ki, bu da xalqının müsibətli taleyidir. Mahmud ruhən, fikrən ayılır və bu mənəvi oyanma onu şəxsiyyət kimi yetişdirir, əsər xəlqi siqlət kəsb edir. Ancaq, təəssüf ki, müəllif niyyətini bəzən açıq, birbaşa bildirir, oxşar təfsilatlar mündəricəyə aşkar yeknəsəqlik gətirir. Qəhrəmanın düşüncələrinin dəyişməsində müstəqimlik də diqqətdən yayınmır. Eləcə də bəzi hallarda təsvirlər ümumi nəql təsiri bağışlayır. Bu roman üzərindəki təcrübədən sonra Elçinin yaradıcılığında xalq həyatına müraciət getdikcə güclənir. "Ağ dəvə" (1984) və "Ölüm hökmü" (1984-1988) romanları xəlqi ruhunun barizliyinə, ictimai kəsərliliyinə, sovet sisteminin ciddi qüsurlarını tənqid etdiyinə görə oxucu rəğbəti qazanır.

Diqqətəlayiq haldır ki, tarixi nəsr qəhrəman axtarışlarında klassik sənətkarlarımıza tez-tez müraciət edir. Lakin o da qeyd olunmalıdır ki, bu əsərlərin çoxusu üçün belletristik təhkiyə səthiliyi səciyyəvidir. Bu tipli yeni əsərlər içərisində İ.Hüseynovun "Məhşər" (1979), Ç.Hüseynovun "Fətəlinin

fəthi" (1980) romanları təsvir dolğunluğu ilə daha çox seçildilər və yadda qaldılar.

"Məhşər" romanında hürufilik təriqətinin fəlsəfi-bədii şərhi, Nəsimi, Nəimi, Teymurləng kimi şəxsiyyətlərin əzəməti və fəaliyyətlərinin vüsəti uzaq keçmişin tələtümlü siyasi-ictimai mənzərəsinə, səngiməyən dini münaqişələrinə dərin və ətraflı nüfuz tələb edirdi. Romanda geniş yer tutan fəlsəfi-mənəvi düşüncələr ümumi və mücərrəd səslənmir, humanist idrak nuru ilə insanı necə kamilləşdirmək, dünyada haqq, ədalət səltənətini hansı yollarla qurmaq kimi bəşəri mətləblər üzərində cəmləşir.

Çingiz Hüseynovun "Fətəlinin fəthi" (1980) romanı M.F.Axundov şəxsiyyətinə və onun yaşadığı zəmanəyə konseptual baxışı, yeni tarixi sənəd zənginliyi ilə maraq doğurur. Əsər təhkiyə-ifadə tərzi ilə də diqqəti cəlb edir. Süjet daha çox nəsrimiz üçün yeni olan fikir axarı, assosiasiyalar əsasında inkişaf edir, tarixi faktlar, düşüncələr, yaşanılan hisslər arasındakı bağlılıq izlənilir. Bunlar bəzən gözlənilməz təsir bağışlayır. Romanda daima çevik, narahat, həqiqəti anlamağa çalışan araşdırıcı idrakı hadisələri müşayiət edir, təhkiyə-forma mütəhərrikliyi də bununla şərtlənir. Yazıçı qəhrəmanının daxili dünyasına oxucunu da daxil etməyə, bu dünyanın dramatizmini və şəxsiyyət vüsətini ona aydın hiss etdirməyə çalışır.

Romanda müəyyən qüsurlar da nəzərə çarpır. Tarixi hadisələrə yeni baxışı əsaslandırmaq mövqeyindən faktlara təəssübkeş münasibət müəyyən hallarda onların ehtirazsız oxunuşuna imkan verməmişdir. Təhkiyənin qabarıq məntiqi-publisist ahəngi dildə canlılığı da zəiflətmişdir.

Mühitin ictimai mənzərəsini qəhrəmanın şəxsiyyətində ifadə etmək baxımından Hüseyn Abbaszadənin "Burulğanlar" (1979) romanı da diqqəti cəlb edir. Yazıçı təmkinlə və müəyyən koloritli boyalarla canlandırdığı bir ömrün həqiqəti işığında dövrə nəzər salır, qəhrəmanın həyat yolunun burulğanları ilə açıq və ya dolayı təmasda zamanın keşməkeşli axarı haqda əyani təsəvvür yaradır. Bu əsərdə də cəmiyyətdə baş verən inqilabi dəyişiklərdən danışılır, lakin burada, dolayısı da olsa, kəskin sinfi toqquşmaların mərkəzinə çəkilmirik, qəhrəmanla birlikdə daha çox kənar müşahidəçi mövqeyində qalırıq. Standart sosial fəallığı ilə seçilməyən təmkinli bir insanın aqibəti bizi narahat edir. Həmid kimi adamların təsirli taleyi dövrün mühüm ictimai həqiqəti kimi ümumiləşir, mürəkkəb, çaxnaşıq zaman haqqında təsəvvürümüzü əsasən yeni təfsilatlarla zənginləşdirə bilir.

H.Abbaszadə mənsub olduğu nəslin taleyini əks etdirən yazıçı kimi də tanınır. Bir-birinin ardınca yazdığı "Onu tanımadılar", "Şokolad paylayan qız", "Hardansız, Müsyo Abel?", "Dörd bazar günü", "Uzaqdan gələn qonaq" silsilə povestlərində İkinci Dünya müharibəsi iştirakçılarının fərqli tale macəraları izlənilir.

Fərman Eyvazlı “Qaçaq Kərəm” (1986-1990) romanında tanınmış el qəhrəmanının həyatını, onunla bağlı rəvayətləri tarixi reallığa uyğun şəkildə qələmə almağa çalışmışdır. Müəllif qəhrəmanlarının milli psixologiyasına nüfuz etdiyinə görədir ki, münaqişələrin səciyyəsi və hadisələrin davamı həmin psixologiya ilə sıx şərtlənir. Koloritli təfsilatlar əsərə marağı artıran xüsusiyyətlərdir.

Romanda sosial təzadlar qabarıq canlandırılsa da, bunların təsvirində müəllif süni vurğulardan çəkinir, süjetin davamı əsasən real həyati cizgilərə söykənir. Həmçinin, yazıçı qaçaqçılıq mövzusunun şirnikdirici macəraçılıq şaxələrinə tamahsılanıb qəhrəmanını hədsiz romantik boyalarla bəzəmir.

Gördüyümüz kimi, bir sıra yazıçılar keçmişin, xüsusilə “inqilabi-tarixi” mövzunun bədii təcəssümünə müəyyən təzəlik gətirməyə çalışsalar da, hələ də epoxanın konseptual dərkində hakim antaqonist sinfi ziddiyyətlər təlimindən xilas ola bilmirdilər. Bunların sırasında yaşlı yazıçılarla yanaşı, sonrakı nəsillərin nümayəndələri də az deyildi. Onların əsərlərində müəyyən ictimai təfərrüatların reallığı artsa da, tarixi gerçəklik yenə də mahiyyət etibarilə sinfi mübarizə prizmasından ümumiləşdirilərək təqdim edilirdi.

Altay Məmmədovun “Əlvida, gözəl dünya” (1988) romanında Aprel çevrilişindən əvvəlki və sonrakı Gəncə mühiti qələmə alınmışdır. Bu mühit həmin dövrdəki ictimai proseslərin siyasi-milli mahiyyətini qabarıq ifadə etmək üçün geniş imkanlar yaradır. Yazıçı əsərin qəhrəmanı İsa kişinin dolğun və mənalı ömür yolunu səmimi və qabarıq boyalarla canlandıra bilmişdir. Təlatümlü, qarışıq dövrün çətinliklərinə baxmayaraq o, insani saflığını itirmir, ictimai fəallığını ömrünün sonunacan qoruya bilir. İsa kişinin sözü ilə əməli bir olur, ömrü boyu el-oba təəssübü çəkir, heç vaxt öz hayına qalmır. Ancaq, bununla yanaşı, romanda tarixi gerçəkliyin, xüsusilə Aprel çevrilişindən sonrakı ziddiyyətli proseslərin real, tutarlı təsvirinə ehtiyac duyulur. Müəllif dövrün mürəkkəbliyini qabarıqlığı ilə üzə çıxartmır, təsadüfi deyildi ki, təzəcə qurulan sovet hakimiyyətinin zülmkarlığına qarşı ən kəskin üsyan elə Gəncə şəhərində baş vermişdi. Müsavat hökumətinin ənənəvi təsviri də romanda təəssüf doğuran ciddi qüsurlardandır.

Ümumiyyətlə, müsavat mövzusunun ifrat neqativ planda təcəssümü sovet ədəbiyyatında vərdiş halını almışdı. Hətta sovet hökmranlığı ömrünü başa vurmaqda olduğu vaxtda yazılmış bir romanda belə (Yusif Kərimov, “Qırmızı sahil”, 1988) Demokratik Cümhuriyyətin ünvanına yenə də hədsiz təhqiramiz ifadələrin yağdırıldığını görürük. Bu tipli əsərlərdə müsavatın adı ilə bağlı nə varsa, hamısı ucdantutma pislənir, damğalanır, obrazların təsviri hətta karikatura həddinə belə endirilir.

Nəzərdən keçirilən əsərlərdən də yəqin etmək olur ki, yazıçılar ideoloji qəliblərdən uzaqlaşıb tarixin öz həqiqətinə sadiq qalmağa cəhd göstərəndə, az-çox uğur qazana bilirlər. Eyni vəziyyəti müasir mövzulu əsərlərdə də

görmək olur. Məhz gerçəkliyə müstəqil və real təhlili baxış – təhkiyəyə inandırıcılıq və səmimiyyət aşılayır.

Fəhlə sinfi sosializm cəmiyyəti quruculuğunda oynadığı mühüm roluna görə təşəkkülü dövründən sovet ədəbiyyatında tərənnüm olunan aparıcı mövzu səviyyəsinə yüksəlmişdir. Təsadüfi deyil ki, sovet yazıçılarının böyük qisminin yaradıcılığı, fəhlə surəti başda olmaqla, ümumiləşmiş zəhmət adamının həyatı və taleyi ilə bağlı olmuşdur. Yazıçılar özündə xalq varlığını, zəhmətə bağlılığı təcəssüm etdirən qəhrəman surəti yaratmaq istəyəndə, adətən, zəhmət adamlarına, ən çox da fəhlə sinfinin nümayəndələrinə müraciət edirdilər. Elə bu daima aktual ənənənin davamı olaraq İ.Əfəndiyevin "Körpüsalanlar" (1960), B.Bayramovun "Fəhlə qardaş" (1975), H.Seyidbəylinin "Tərsanə" (1975), Q.İlkinin "Dağlı məhəlləsi" (1978), Elçinin "Dolça" (1979) və digər əsərlər yarandı. Bu əsərlərdəki fəhlələr də sələfləri kimi əzəmətli, cəsarətli, mübariz qəhrəmanlar kimi tərənnüm olunurlar. Ancaq aralarında mühüm bir fərqin də olduğu diqqətdən yayınmır. Əgər əvvəlki fəhlə surətləri cəmiyyətdə möhtəşəm sayılan uğurların önündə təsvir edilirdisə, indikilər, əksinə, daha çox cəmiyyəti sarmış qüsurların, ziddiyyətlərin fonunda qələmə alınır. Elə bil ki, yazıçılar həyatdakı özbaşınalıqların qarşısını məhz fəhlə sinfinin ala biləcəyinə inanırlar, xilaskar kimi ən çox ona güvənirlər. Pafoslu əsərlərdə, hətta qorxu-hürkü bilməyən sütül fəhlələr də (qələmin hökmüylə) cəngavər kimi döyüşə atılırlar, böyük-böyük məmurların belə dizini rahatca yerə qoyurlar. Dəyişmiş zəmanədə isə əslində, tamamilə başqa mənzərə mövcud idi: şanlı fəhlə təbəqəsi əvvəlki sosial funksiyasını və mötəbər mövqeyini itirmişdi. İndi zəhmətkeş kəsimin yalnız cüzi bir qismi, öz sinfi mahiyyətindən uzaqlaşıb təminatlı kübar həyatı yaşayırdı, əksəriyyəti isə ağır güzəran keçirirdi. Artıq onların özünü sosial həmlələrdən qoruyan lazım idi. Bir-birinin ardınca yazılan belletristik əsərlərdə isə fəhlənin şərəfinə hələ də gurultulu təriflər yağdırılır, hətta ona "əlahəzrət" deyə müraciət edilirdi. Qalın-qalın kitablarda uydurma, şişirdilmiş fəhlə surətləri baş alıb gedirdi. Cəmiyyətdə fəhlənin həqiqi vəziyyəti necədir kimi əsas mətləb bir qayda olaraq fəhlə necə olmalıdır ehtimalı ilə əvəz edilir və həyat həqiqəti kimi təqdim olunurdu. Bu xülya-bəzəklər də rəsmi sənədlərə çəkilmiş "bədii" illüstrasiyalar təsiri bağışlayırdı, odur ki, səmimi, inandırıcı deyildi. Əksər yazıçılar uydurma qəhrəmanlarını həyatın guya kəskin ziddiyyətləri ilə qarşılaşdırmağa çalışırlar, amma obrazlar hansı süjet labirintlərindən (həyat labirintlərindən yox!) keçsələr də, nə kimi dekorativ maneələrlə üzləşsələr də, onların aqibəti səviyyəli oxucuda təşviş-nigarançılıq hissi doğurmur. Onun üçün şəksizdir ki, müəlliflər sevimli qəhrəmanlarını darda qoymayacaqlar.

Bu tipli qəhrəmanlar, süjetlər uydurmaq əvəzinə, əslində fəhlə də daxil olmaqla əmək adamına cəmiyyətdəki biganəlikdən həyəcan təbili çalmaq

lazım idi. Ümumiyyətlə sadə adamlar mövzusunun vüsətli ictimai-mənəvi idrak miqyasına çıxarılmasına, cəmiyyətlə bağlı doğurduğu ciddi problemlərin obyektiv təhlilinə aşkar zərurət duyulurdu. Ancaq əsərlərin çoxunda real həqiqətləri süjet dolanbacları kölgədə qoyurdu. H.İbrahimovun "Bahar yağışı" (1983), C.Əlibəyovun "Sınaq" (1966) və "Həyatın özü" (1970), Q.İlkinin "Dəniz qapısı" (1984), F.Dərgahovun "Yollarda bahar", S.Vəliyevin "Dumanlı gündə", Q.Mehdiyevin "Çinar günü" (1986) və s. əsərlərdə, adətən, belə mənzərələrlə rastlaşırıq.

İ.Əfəndiyevin "Körpüsalanlar" (1960) povestində ideal fəhlə kollektivi təsvir edilir. Bu yazıçının güclü poetik təfəkkürü işığa daimi təşnəliyi ilə seçilir, odur ki, əsərləri xeyrin, gözəlliyin qabarıq, cazibədar boyalarla tərənnümü ilə duyğusal oxucunu xüsusilə təsirləndirə bilir.

Yazıçı romantik xəyali qəhrəmanlarını aşkar rəğbət hissi ilə qələmə alır. "Sarıköynəklə Valehin nağılı" (1980) romanında qəhrəmanların macəraları müstəqim mənada da nağıl təsiri bağışlayır, həqiqətlə arzu-istək burada elə şirin, elə ahəngdar qovuşmuşdur ki, (həyatın əzablarından bezən) oxucu reallıqdan təcrid olunduğunun fərqinə varmır, düşdüyü sehrin cazibəsindən sanki ayılmaq, ayrılmaq belə istəmir.

Şablon təsəvvürlərdən uzaqlaşmaq, surətləri də, problemləri də real həyati təfsilatları ilə canlandırmaq baxımından Seyran Səxavətin "Gözü işığa düşmüş adam" povesti maraq doğurur. Yazıçı nəsrimizdə tez-tez təsadüf edilən kənd və şəhər həyatının müqayisəsi məsələsinə yeni bir bucaqdan – fəhlə güzəranı və psixologiyası baxımından nəzər salır, bunların uyuşmayan məqamları üzərində dayanır. Əsərin qəhrəmanı Salman kənddə gün-güzəran keçirsə də, fəhlə kimi işə düzələndə, bura görünməmiş vərdişlər gətirir: qapısından mal-qaranın kökünü kəsir, çörəyi də hazırca dükandan alır, arvadını xanımsayağı bəzədib evdə otuzdurur, özü demişkən, kəndçiliyin daşını atıb, keçir "rahat-asudə" şəhərsayağı yaşayışa.

Bu qəribə davranış çoxlarına sirayət edir. Nəticədə, kənd zəhmətkeşini əkin-biçinə bağlayan şah damarın kəsilib atılması ağlasığmaz müsibətlər törədir, torpağı da, insanı da mələr qoyur. Ancaq aydın idi ki, kəndin ənənəvi simasını məhv edən başlıca səbəb salmanların peyda olması deyildi. Bəlaların kökü – kəndlə bağlı aparılan siyasətin yanlışlığında idi. Kəndli əməyinin bəhrəsini görməyəndə, əkib-becərdiyinin yiyəsi olmayanda hökumətdən asılı vəziyyətə düşür. Kəndli, nəticədə, kəndliliyini, əməyinə marağını itirib, bir növ, torpaqda əlləşən vecsiz işçiyə çevrilir. Salman kimiləri də sadəcə zəhmətlərinin nağd haqqını almaqla əsl fəhləyə çevrilmirdilər. Çünki cəmiyyət fəhlələri də ictimai əmlaka biganə etmişdi. Fəhlə də əslində əməyini satan köləyə çevrilmişdi, onu da daha işinin nəticəsi maraqlandırmırdı. Biganəlik, özgələşmə ölkədə əslində hamıya sirayət etmişdi. Əlbəttə,

povestdə qaldırılmış problemin ictimai səbəbi haqda indi rahatca danışmaq olur, ancaq əsərdə bu barədə üstüörtülü işarələrlə kifayətlənilmişdir.

"Qapıların o üzündə qalan dünya" povestində S.Səxavət kəndli qəhrəmanını şəhərə gətirir və təzadlı psixoloji lövhələr fonunda həm təbii və koloritli xarakter yaradır, həm də bu xarakteri cazibədar kəndli təbiətinin ifadəsi kimi ümumiləşdirə bilir.

Sabir Əhmədli müasir həyatdakı prosesləri müntəzəm və həssaslıqla izləyən sənətkar kimi tanındı. İçərisində yaşadığı gerçəklik haqda intensiv düşüncələr, zamanın dəyişilən ruhunu, cəmiyyətin irəli sürdüyü problemləri duymaq, anlamaq səyi "Yaşıl teatr", "Toğana" (1981), "Yasamal gölündə qayıqlar üzür" (1984), "Qanköçürmə stansiyası" (1983), "Azığa doğru" (1983) və s. əsərlərinin meydana çıxmasını şərtləndirdi. Bu əsərlərdə cəmiyyətdə gedən proseslər haqqında sayıq mühakimələr yürüdən, eyni zamanda ömrün mənasını anlamağa çalışan narahat obrazlarla rastlaşırıq. Xüsusilə spesifik psixologiyası ilə canlandırılmış ziyalı obrazları maraq doğurur. Müəllif qayəsi əsərlərin poetikasını da müəyyənləşdirir: süjetin davamı, adətən, ləngiyir, əhvalatdan çox surətlərin düşüncələr axarı izlənilir. Fəlsəfi mühakimələrə, ətraf mühitə və qəhrəmanın daxili aləminə analitik baxışa cəhd, əlbəttə, yaxşıdır, bunlar intellektual nəsrə meyil baxımından da ehtiyac duyulan məziyyətlərdir. Lakin o da həqiqətdir ki, ictimai-əxlaqi kolliziyaların şərhi, insan hissləri və davranışlarının mahiyyətinə yetmək səyi həm də sosial-psixoloji konkretlik, fakt, hadisə əyaniliyinə istinad tələb edir.

S.Əhmədov ziyalı qəhrəmanları haqqında yazdığı əsərlərində süjeti müəyyən modellər üzərindən qurmağa çalışır. Əsərlərə verdiyi adların rəmzi mənası da təhkiyənin məcazi çalarına işarə kimi səslənir. "Yaşıl teatr" romanı gerçəkliyin, bir növ, səhnələşdirilmiş modeli, rəmzi tamaşası təəssüratı yaradırsa, "Yasamal gölündə qayıqlar üzürdü" romanı da xəyalın-yuxunun bir anlığa çin olması təəssüratını doğurur. Qəhrəmanlar da sanki salındıqları şərti şəraitdə necə davranacaqları ehtimalları ilə sınağa çəkilir. "Toğana" romanı da mahiyyətcə səhnə şərtiliklərini andırır, ancaq burada dekorativ "avadanlıq" kimi təbiət qoynu seçilmişdir. Şübhəsiz, sənətdə təxəyyül axtarışlarına məhdudiyyət qoymaq mümkün deyil, hər təsvir-təhkiyə tərzinin də öz kəsir və üstünlükləri vardır. Əsas məsələ burasındadır ki, hansı qəlib-model konstruksiyası seçilirsə, burada quramaçılıq hiss olunmamalıdır, bədii təcəssüm mətləbə münasib və "həqiqi-təbii" səslənməlidir. Belə kəskin məcazlarda da əsərin həyatilik rişələri qurumamalı, inandırıcılıq təməli laxlamamalıdır. Bu üzviliyə diqqət artırılmalı idi.

Vidadi Babanlının "Müqəddəs ocaq" romanında romantik tülə bürünmüş səhnələrə meyil güclü olsa da, bütövlükdə əsər həyati təsir bağışlayır. Əsərin qayəsi mənalıdır: burada insanın elə-obaya, kökə bağlılığından cəlbedici söhbət açılır. Müəllif qəhrəmanı ilə birgə sanki oxucunu da döşü

güllü-çiçəkli dağlarımızın qoynuna çıxarır, doğma yurdun təbiəti, insanları, güzəranı ilə onları yaxından tanış edir. Şöləsində bir el isinən Mövlanoğlunun siqlətli şəxsiyyətinin canlı təsvirini yazıçının ciddi yaradıcılıq uğuru saymaq olar. Xeyri kişi təmkinli rəftarı, insani saflığı ilə yadda qalır. Zərrin romantik təbiəti ilə gənclərimiz üçün nümunə ola biləcək cazibədar bir obraz kimi düşünülmüşdür. Romanda dədə-baba yurdu nuru ilə bizi özünə çəkir, mənəvi saflığı ilə hafizəmizə nəqş olunur. Təbii tərənnüm səciyyəli əsərdə kəndin aktual problemlərinə də toxunulur, xüsusilə çobanların əziyyətli əməyindən, çətinliklərindən yanğı ilə danışılır.

Ciddi ictimai problemlər fonunda xalq həyatının, sadə insan taleyinin bədii təcəssümünə artan marağı C.Əlibəyovun "Özümü axtarıram" (1969), Ə.Babayevanın "Adamlar və talelər" (1978), B.Bayramovun "Cıdır düzü" (1979), Əfqanın "Dədə Bəhmən", Ə.Yusifoğlunun "Düşmənimin düşməni" (1978), Ş.Arifin "Qınamayın məni" (1965), İ.Məlikzadənin "Dədə palıd" (1984), S.Azərinin "Duman çəkilir" (1979), V.Nəsibin "Omaroğlunun qayıtması", M.Orucun "Qırmızı bantlı qoç", S.Oğuzun "Yengə", R.Əlizadənin "Əncir qurusu", Şahmarın "Elçilik", A.Abdullanın "Qəmərlidən keçən qatar", S.Alışanlının "Zəng" və s. diqqətəlayiq roman, povest və hekayələrdə görmək mümkündür.

Nəsrdəki yeni meyillər təcrübə toplayıb gücləndikcə əsərlərdə daha artıq mənəvi yanğı, həqiqət axtarışlarında qətiyyətlilik duyulur. Bunun nəticəsidir ki, "Bir misranın yuxusu", Anarın "Gürcü familyası" və "Macal", M.İbrahimbəyovun "Ondan yaxşı qardaş yox idi" və "Kərgədan buynuzu", İ.Məlikzadənin "Qatarda" və "Gümüşgöl əfsanəsi", R.Rövşənin "Daş" və "Ağrı", Ə.Əmirlinin "İldırımötürən" (1983) və "Axirətdən qabaq gəzinti" (1989), Afaqın "Qarğış" və "Cəza", S.Oğuzun "Bayat oxşaması" və "Sarı gəlin", Əlabbasın "Köhnə kişi" və "Güdaz" əsərləri nəsrimizdə həm müstəqim, həm də dolayı yolla insan ömrü və həyati ziddiyyətlər barədə təsirli düşüncələr kimi dəyər kəsb edə bilmişdir. Müxtəlif janrlardan olan bu tipli əsərlər gerçəkliyə münasibətin mənalılığı, ruhi-hissi yetkinliyə çağırışın cazibəsi ilə maraq doğurmuşdur. Həqiqi sənətdə bütün mətləb və münaqişələr, hər cür insan xarakterləri məhz mənəviyyat işığının təqdir-nurunda, ya da tənbeh-divanında aşkarlanıb həqiqi qiymətini tapır. Əlamətdardır ki, yeni düşüncəli yazıçılar qələmə aldıqları mövzuların mənəvi-psixoloji aspektdən təcəssümünə diqqətlərini artırırlar. Gerçəkliyin bu zəruri prizmadan işıqlandırılması ədəbiyyatda həm ayrıca mövzu-problem şaxəsi, həm də ümumiyyətlə bədii təfəkkürün üzvi tərkib hissəsi kimi tədricən təsbitini tapır. Həqiqi sənətdə mənəvi-ruhi meyar həmişə aparıcı olmuşdur. Yeni bədii təcrübənin bu baxımdan təkamülü iki mühüm proses-səbəblə əlaqədardır. Əvvəla, sovet ədəbiyyatında total ideologiya estetika kimi, mənəviyyatı da üstələmişdi, sənətdə də, cəmiyyətdə də riyakarlıq baş alıb gedirdi. Bunun doğurduğu total

simasızlıq ölkəni içəridən çürüdürdü. Bu dözülməz vəziyyət yeni bədii təmayülün əsas problem-qayğısına çevrilirdi. İkinci səbəb də dünyanı bürüyən mənəvi-əxlaqi tənəzzüllə bağlı idi. Sənətdə insani-bəşəri başlanğıcı önə çəkməklə əsrin repressiya bəlalarını, faşizm dəhşətlərini görən, nüvə təhlükəsinin qorxusu içərisində yaşayan, sürəkli əxlaqi eroziyalara uğrayan insanların ruhi-mənəvi dayaqlarını, sabaha ümid-inamını möhkəmləndirməyə ehtiyac güclü idi. Cəmiyyət özü də qət etdiyi tarixi yolun istər sosial-siyasi qayəsini, istərsə də mənəvi-psixoloji mənzərəsini dərindən saf-çürük edərək anlamaq zərurəti ilə qarşılaşırdı və ölkədə uğursuz yenidənqurma ehtiyacını da elə bu qarşısıalınmaz vüsətli proseslər doğurdu. Belə bir qarışıq dövrdə təqdirəlayiqdir ki, ədəbiyyat da cəmiyyətə baxışını genişləndirir, mənəvi tələbkarlığını və humanist məramını gücləndirirdi. Təsadüfi deyil ki, yeni nəsrin də epik vüsəti tədricən artır, burada da həyati proseslər sosial-tarixi fonda izlənir və təhlil olunurdu. İ.Hüseynovun-Muğannanın "İdeal" (1985), Y.Səmədoğlunun "Qətl günü" (1984), M.Süleymanlının "Ceviz qurdu" (1984) romanları bu xüsusiyyətləri ilə səciyyələnir. Aydındır ki, bu qəbildən olan parlaq əsərlərdəki həyata təhlili yanaşma və qənaətlər ənənəvi nəsrdən tamamilə fərqlidir.

İsa Hüseynov "İdeal" romanında dövrə və insanlara yeni mövqedən və əhatəli nəzər sala bilmişdir. Burada əhatəlik sadəcə məkan genişliyindən və süjet şaxəliyindən daha çox, hadisələrin vüsətli şərhində aşkar hiss olunur. Yazıçı əsərdə münaqişənin təfsilatlarını dolğunluğu və dəqiqliyi ilə üzə çıxartmağa çalışır. Bunun üçün nəsrimizdə yeni və cəlbedici süjet halqaları qurur. Təhkiyənin dalğavarı davamında hər dəfə həqiqət axtarışının gözlənilməz bir təfsilatı üzə çıxır və bu, mövcud təsəvvürü dəyişdirir. Müəllif əsər boyu bizi cərəyan edən hadisələrin psixoloji-məna dərinliklərinə çəkir, hisslərimizi, idrakımızı daim gərginlik içərisində saxlaya bilir.

"Qətl günü" romanı da istər məzmun, istərsə də kompozisiya baxımından təravətli və cəlbedicidir. Əsərin olduqca canlı və səlis təhkiyəsi üçün, həm də səngiməyən dramatik ahəng səciyyəvidir. Burada müxtəlif zaman halqa-dairələrinin aramsız sosial-mənəvi kolliziyaları ümumi süjetin axarını, müxtəlif səpkili xarakterlərin ümumiləşmə yönünü müəyyənləşdirir. Bundan əlavə, təsvir-təhkiyədəki intensiv ritm həmin kolliziyaların bilavasitə təfsilatlı əyani təcəssümünü daima sərrast mənəvi-psixoloji düşüncələrin müşayiət etməsindən nəşət edir. Uzaq və yaxın keçmişimizdən söhbət açılanda da, bilavasitə müasir dövrə nəzər salınanda da idraki-emosional gərginlik nəinki zəifləmir, əksinə, tarixi keçmişin acı, sərt həqiqətləri bu günün kəskin problemləri ilə üzvi surətdə birləşir, təlqin olunan fikirlər geniş zaman kontekstində ümumiləşərək canlanır.

Mövlud Süleymanlının "Ceviz qurdu" romanında sovet hakimiyyəti qurulandan sonra insanların şüurunda, yaşayış tərzində baş vermiş kəskin

təbəddülatlar dolğun və təsirli canlandırılmışdır. Xüsusilə yeni hökumətin gəlişi ilə camaatı sarmış hədsiz qorxu-xof hissinin doğurduğu təlaşların sərrast boyalarla unudulmaz psixoloji lövhələri yaradılmışdır.

İnsanlar daima vahimə içərisində yaşayırlar. Müəllif bunun sosial-mənəvi nəticələrinə diqqəti yönəldir. Bu əsərdə də M.Süleymanlının güclü obrazlı təfəkkürü sayəsində təhkiyə başdan-başa metaforik mənalarla aşılanır. Nəticə etibarı ilə yazıçı ümidlə dolu mühüm bir fikri romanın qayəsi kimi oxucuya təlqin edir: dövrün ötəri meyilləri bütün dəhşətinə, rəzilliyinə baxmayaraq, həyatın davamını, təbiətin axarını poza bilmir!

Yeniləşən nəsrimizin bu tipli mühüm nailiyyətləri bədii idrakın üfüqlərinin genişlənməsinin nəsrimiz üçün nə qədər əhəmiyyətli olduğunu göstərirdi. Belə mənalı təmayüllər ədəbiyyatımıza güclü xarakterlər, insani mahiyyət kəsb edən vüsətli sosial-mənəvi problemlər gətirə bildi. Bədii fikrin dövrün səciyyəvi kolliziyalarına ardıcıl nüfuzu yaşadığımız cəmiyyəti də, özümüzü də yaxından tanımağımıza, nəticə etibarı ilə milli-ictimai duyğu və düşüncələrimizin güclənməsinə kömək edirdi. Bütün bu çoxşaxəli ideya-estetik təmayüllərin sayəsində nəsrimiz də inkişafının mühüm bir mərhələsini həqiqi ədəbiyyata doğru kəskin dönüşü, uğurlu irəliləyişi ilə başa çatdıra bildi.

İSMAYIL ŞIXLI
(1919-1995)

İsmayıl Şıxlı Azərbaycan nəsrinin orijinal nümayəndələrindən, çox oxunan sənətkarlarından biridir. Oçerk, hekayə, povest və romanlarında başlıca olaraq öz müasirlərini, onların hiss və düşüncələrini, zamanın aktual problemlərini təsvir edən yazıçı xalqımızın keçmişinə də müraciət etmiş, tarixi hadisələrin inikasına da onların müasir milli tələblərə cavab verməsi meyarı ilə yanaşmışdır.

Həyatı. İsmayıl Qəhrəman oğlu Şıxlı 22 mart 1919-cu ildə Azərbaycanın gözəl, zəngin təbiəti və şeir, sənət xadimləri ilə tanınan Qazax bölgəsinin İkinci Şıxlı kəndində ziyalı ailəsində dünyaya göz açmışdır. İ.Şıxlının atası Qəhrəman Şıxlı məşhur Qori seminariyasının məzunu idi və həmin seminariyanın Azərbaycan bölməsi əsasında böyük alim və ədəbiyyat tənqidçisi Firidun bəy Köçərlinin (1863-1920) yaradıb rəhbərlik etdiyi Qazax seminariyasında dərs deyirdi. İ.Şıxlı ilk təhsilini qonşu Kosalar kəndindəki ibtidai məktəbdə almışdı. 1933-1936-cı illərdə gələcək yazıçı Qazax seminariyasının bazasında təşkil edilmiş pedaqoji məktəbdə oxumuş, oranı bitirəndə vaxtilə təhsil aldığı Kosalar məktəbinə müəllim göndərilmiş, bir müddət həmin məktəbdə həm də baş dəstə rəhbəri olmuşdu. 1937-ci ildə ali təhsil məsələsi meydana çıxanda da İ.Şıxlı ailə ənənələrinə sadiq qalaraq özünün gələcək fəaliyyət sahəsi kimi müəllimliyi seçmiş, Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Dil və ədəbiyyat fakültəsinə daxil olmuşdu.

İ.Şıxlı 1941-ci ildə yüksək ixtisaslı müəllim kimi fəaliyyətə başlamış, Kosalar kənd orta məktəbində ədəbiyyat müəllimi və dərs hissə müdiri vəzifələrində çalışmışdır. 1942-ci ilin sentyabrında cəbhədə şiddətli döyüşlər getdiyi bir vaxtda orduya çağırılmış, Qafqazdan Almaniyaya qədər davam edən cəbhə yolları ilə vuruşa-vuruşa irəliləmiş, Kubanda, Krımda, Belorusiyada, Şərqi Prussiya istiqamətində, Königsberqdə aparılan əməliyyatlarda desantçı kimi qələbə gününə qədər iştirak etmişdir. Müharibədən sonra qısa bir müddət müəllimlik etdikdən sonra yenə Bakıya gəlib doğma institutun Filologiya fakültəsində aspiranturaya qəbul olunmuşdur.

O vaxtdan öz elmi pedaqoji fəaliyyətini həmin institutun Xarici ölkələr ədəbiyyatı kafedrasında davam etdirən İ.Şıxlı on illər boyu Filologiya fakültəsinin tələbələrinə qədim yunan və Roma ədəbiyyatlarından, Avropa xalqlarının ədəbi-ictimai fikir tarixindən mühazirələr oxumuş, xarici ölkə ədəbiyyatlarından dilimizə tərcümələr etmiş, bu sahədə elmi-tədqiqat işi aparmış, dərslik və proqramlar tərtib etmiş, 1954-cü ildə öz elmi işlərindən birini müdafiə edərək filoloji elmlər namizədi alimlik dərəcəsinə layiq görülmüş, dosent elmi adını almış, bir qədər sonra həmişəlik bağlandığı Rus və Avropa ədəbiyyatları kafedrasının müdiri seçilmişdi.

Keçən əsrin 50-80-ci illərində Azərbaycan məktəbində çalışmağa gedən gənc ədəbiyyat müəllimlərinin böyük bir qismi xarici ölkələr ədəbiyyatına dair İsmayıl müəllimin mühazirələrini dinləmişdilər. O bu sahədə mənsub olduğu ədəbiyyatşünaslar nəslinin müəllimi olmuş professor Əli Sultanlının ənənələrini müvəffəqiyyətlə davam etdirmişdir.

İ.Şıxlı 1949-cu ildən Azərbaycan Yazıçılar İttifaqının üzvü idi. O 1965-1968-ci illərdə Azərbaycan Yazıçılar İttifaqının katibi, 1976-1978-ci illərdə "Azərbaycan" jurnalının baş redaktoru, 1981-1985-ci illərdə Yazıçılar İttifaqının birinci katibi vəzifələrində çalışmışdır.

Yorulmaz ictimai fəaliyyətilə həmişə xalqın rəğbətini qazanan ədib uzun müddət Bakı şəhər sovetinin deputatı olmuş, 1990-cı ildə Azərbaycan Respublikası Ali Sovetinin deputatı seçilmiş, 1981-1987-ci illərdə SSRİ Yazıçılar İttifaqının katibi olmuşdur.

1984-cü ildə İ.Şıxlıya Azərbaycanın Xalq yazıçısı adı verilmiş, 1991-ci ildə o, M.F.Axundov adına ədəbi mükafatın laureatı olmuşdur. Yazıçı "Şərəf nişanı" (1971), "Qırmızı əmək bayrağı" (1979), "Böyük Vətən müharibəsi" (1985), "Şöhrət" (1994) ordenləri və bir sıra medallarla təltif edilmişdir.

İsmayıl Şıxlı 26 iyul 1995-ci ildə Bakı şəhərində vəfat etmiş, Birinci Fəxri Xiyabanda dəfn edilmişdir.

Ümummilli liderimiz Heydər Əliyev İ.Şıxlının matəm mitinqində (28 iyul 1995) çıxışında demişdi ki, ədib öz əsərlərilə xalqımızın mədəni səviyyəsinin yüksəlməsi, onun mənəviyyatının inkişafı, adamlarımızın mətinləşməsi sahəsində böyük xidmətlər göstərmişdir. Onun əsərləri Azərbaycan vətəndaşlarını milli azadlıq ruhunda tərbiyə edib püxtələşdirmişdir. "İ.Şıxlı həm yazıçı, həm müəllim, həm alim, həm ictimai xadim, həm də insan və vətəndaş kimi... xalqımızın tarixində dərin iz, zəngin ədəbi irs qoymuşdur. Onun əsərləri, şübhəsiz ki, xalqımızın bu günü və gələcəyi üçün əvəzsiz sərvətlərdir".[1] Xalq şairi N.Həsənzadənin dəfn günü yazdığı şeirdə bu misralar da var idi:

Dünya bir pəncərəydi, İsmayıl baxdı getdi,
Qılınc kimi parladı, Gün kimi çaxdı getdi.
"Dəli Kür" qoydu getdi, dəli Kürə bərabər,
Bir əsrin ağrısıydı, yanğısıydı bu əsər.[2]

Ədibin əsərləri haqqında müxtəlif vaxtlarda dövri mətbuatda, xüsusilə də "Ədəbiyyat qəzeti" və "Azərbaycan" jurnalında çoxlu məqalə və resenziyalar dərc olunmuş, roman, povest və hekayələri ikicildlik "Azərbaycan sovet ədəbiyyatı tarixi"ndə (1966) orta məktəblərin X və XI sinifləri üçün

[1] Heydər Əliyev İ.Şıxlının matəm mitinqində. "Dəli Kür" qəzeti, 4 avqust 1995
[2] Nəriman Həsənzadə. İsmayıl Şıxlıya. "Dəli Kür" qəzeti, 4 avqust 1995

yazılmış "Ədəbiyyat" dərsliklərində (1998-2005) təhlil edilmişdir. Təcrübəli alim Yaqub İsmayılov ilk dəfə onun haqqında "İsmayıl Şıxlı: həyatı, mühiti, sənəti" (1999) adlı qiymətli monoqrafiya nəşr etdirmişdir.

Yaradıcılığı. İsmayıl Şıxlını bir nasir kimi tanınsa da yaradıcılığa şeirlə başlamışdır. 1938-ci ildən 1942-ci ilədək yazdığı şeirlərindən ibarət bir dəftəri bu gün də onun arxivində qalmaqdadır. Həmin şeirlərdən bəzilərinə biz "Ədəbiyyat qəzeti"nin 1938-1939-cu illər komplektini vərəqlərkən də rast gəlmişik. Qoşma janrında yazılmış bu şeirlərdə sevən qəlbin çırpıntıları, hicran iztirabları, vüsal həsrəti, tarixin müxtəlif dönəmlərində elin-obanın məruz qaldığı məhrumiyyətlər başlıca motivlərdir. İlk mətbu şeirindən gətirdiyimiz bu bənd də səmimi olub bədii səviyyəsi etibarilə nəşr olunduğu çağın qoşmalarından az təsir bağışlamır:

Azmı bəla gördü dağların başı?
Şahiddir bunlara çayların daşı.
Cavan anaların axan göz yaşı
Süzülüb töküldü bulağa, quşlar![1]

Lakin İ.Şıxlının ilk qələm təcrübələri olan bu şeirlər onun özünü təmin etmirdi. Buna görə də gələcək yazıçı elə o zamandan etibarən həyatda və sənətdə çox əlamətdar məqamları ilə yaddaqalan axtarışlara başlayır. O, Kür qırağı obalarda, Xəzər sahilindəki paytaxt şəhərində, təhsil illərində mütaliə etdiyi saysız-hesabsız bədii və elmi əsərlərdə, yaşadığı kəndlərdə, müəllimlik etdiyi məktəblərdə, xüsusən də şahidi və iştirakçısı olduğu barıt qoxusu verən cəbhə hadisələrində, müşahidə etdiyi rəngarəng insan talelərində, silahdaşları və məsləkdaşları ilə qarşılıqlı münasibətlərində bir qələm sahibi kimi özünü, öz sözünü axtarır. İlk şeir təcrübələrindən sonralar demək olar ki, büsbütün əl çəkməsi də onun həyatın geniş lövhələrini, varlığın epik qatlarını hərtərəfli müşahidəsi və səmərəli axtarışları ilə əlaqədar idi. Bu gördüklərini, duyub yaşadıqlarını ifadə etmək üçün, əlbəttə, indi artıq o, qoşma ilə kifayətlənə bilməzdi.

***

İ.Şıxlının orduya yola düşdüyü gündən başlamış, qələbədən sonra doğma kəndlərinə qayıtdığı günədək həyatında baş verən bütün vacib hadisələri əks etdirən bir gündəliyi vardır. Bu gündəliyin səhifələrində yol qeydləri, xatirələr əsas yer tutur. Təfərrüatını bir zaman unuda biləcəyindən ehtiyat edirmiş kimi, o, həyatının ən mühüm məqamlarını 3-4 sətirlə də olsa, qeyd edib keçir. Cəbhədə öz əli ilə düzəldib əsgər iynə-sapı ilə tikdiyi həmin dəftərçələri yazıçı o odlu-alovlu günlərin qiymətli yadigarı kimi ömrünün

[1] İsmayıl Şıxlı. Quşlar. "Ədəbiyyat qəzeti", 24 noyabr 1938

sonunadək əziz-əziz qoruyub saxlamış, ilk nəşrindən xeyli əvvəl mənzilində olanda bizə, bu sətirlərin müəllifinə göstərmişdi.

Üç ildən də artıq bir zamanı əhatə edən bu gündəliklərin saralmış, bəzən də az qala pozulub getməkdə olan səhifələrini çevirdikcə Qafqaz dağlarının uçurum dərələri, Kuban çayının qəzəbli ləpələri, Qara dənizin qırmızı – qan çalarlı dalğaları, Belorusiya meşələrinin şaxtası, hər addımı uğrunda ölüm-dirim mübarizəsi gedən Litva şəhərlərinin küçələri, Şərqi Prussiyanın, Königsberqin istehkamları gözlərimiz önündə canlanır.

İ.Şıxlının dəniz desantçısı kimi xidmət etdiyi panton batalyonu üçün cəbhə yolları 1945-ci ilin 8 mayında Almaniyanın Frişqaf şəhərində qurtarır. Bu mübarizə, məhrumiyyət və qələbə yollarından yazıçının mənalı, unudulmaz yadigarları var. Döyüş tapşırıqlarını nümunəvi yerinə yetirdiyinə görə komandanlıqdan aldığı təşəkkürnamələr, "Əlaçı pantonçu" döş nişanı, medallar, "Qırmızı ulduz" ordeni... Bir də, bir də sağında-solunda vuruşan, lakin qəhrəmanlıqla həlak olan silah və məslək dostlarının əziz xatirəsi... Müharibədən sonrakı bir sıra hekayələri, habelə "Kerç suları" adlı miniatür povesti də İ.Şıxlı üçün müharibənin yadigarları idi.

"Kerç suları"nda yazıçı bir neçə il öncə tərk etdiyi səngərlərdə baş vermiş hadisələri, cəbhə yoldaşlarının əhval-ruhiyyəsini, müharibə həqiqətlərinin kiçik bir parçasını öz təravətli müşahidələri əsasında əks etdirmişdir. Qara dəniz sularında gedən şiddətli döyüşlər, müvəqqəti olaraq düşmən əlinə keçmiş Krım sahillərinə güclü atəş yağmuru altında bizimkilərin desant çıxarması, bu zəmində insan iradəsinin üz-üzə gəldiyi ağır sınaqlar səriştəli qələmlə, təsirli vasitələrlə əks olunur. Yazıçı gurultulu təsvirlərə uymur, ölümün dəhşətini, qanın dizə çıxdığını demir. Amma vuruşların ağırlığı, əldə edilən xırdaca üstünlüyün belə böyük məhrumiyyətlər və qurbanlar bahasına başa gəldiyi mənalı təfərrüatlardan və müəllif təhkiyəsindəki ahəngdən duyulur.

Lakin "Kerç suları" əsərini yazıçı müharibə haqqında düşüncələrinin, xalqın cəbhədə göstərdiyi tarixi qəhrəmanlıqların bədii inikasını vermək cəhətdən kifayət hesab etməmişdi. Öz cəbhə dostları haqqında onu narahat edən ürək sözünü hələ bütün genişliyi ilə demədiyi bir də bundan hiss olunurdu ki, bir qədər sonra o həmin mövzuda "Odlu çarpazlar" adlı əsərini bitirmiş və bu əsər kinossenari kimi də qəbul edilmiş; Gəncə Dövlət Dram Teatrında tamaşaya da qoyulmuşdu. "Həkimin nağılı", "Səhəri gözləyirdik", "Köynək" və sair hekayələrini, "Daşkəsən", xüsusilə də "Raykom katibi" oçerklərini o zamanın ədəbiyyat həvəskarları yəqin ki, xatırlayırlar. Lakin İ.Şıxlının irihəcmli iki əsəri də var ki, onun bir yazıçı kimi formalaşması, qələminin püxtələşməsi, üslubunun müəyyənləşməsi bilavasitə həmin əsərlərlə bağlıdır. Bu əsərlərdən biri "Ayrılan yollar", digəri isə "Dəli Kür"dür. Bu romanları ilə, xüsusən də "Dəli Kür"lə yazıçı yalnız ölkəmizdə

yox, respublikamızdan kənarda, keçmiş Sovetlər İttifaqının və bəzi Avropa ölkələrinin oxucuları arasında da geniş şöhrət tapmışdır.

***

Azərbaycan kəndində müharibədən sonrakı illər üçün səciyyəvi olan dəyişiklik və inkişaf "Ayrılan yollar" romanında özünün maraqlı bədii ifadəsini tapmışdır. Sovetlərin bir çox atributları kimi, kolxoz kəndi də bu romanın nəşrindən keçən illər ərzində artıq tarixə çevrilmişdir. Bununla belə, əsər yenə də öz bədii əhəmiyyətini saxlayır. Çünki burada İmran, Zeynəb, Nəsib dayı kimi qeyrətli insanların timsalında, köhnəliyə, zərərli iş üsullarına qarşı onların Kosaoğlu və Kazıma, Musa və Şahnaza qarşı apardığı gərgin, ardıcıl mübarizənin timsalında təbii insan münasibətləri canlandırılmışdır. Bu mübarizə təkcə yaxşı bir aqronomla pis bir kolxoz sədrinin, yaxud, pambıq becərilməsindəki köhnəlmiş üsulla yeni üsulun tərəfdarları arasında gedən mübarizə deyil, böyük ideallarla idealsızlıq, vətəndaş qeyrəti ilə kiçik ehtiraslar arasında gedən mübarizədir. Adını çəkdiyimiz surətlərin yolları romanda ayrılır. Onlar mübarizənin bir-birinə zidd qütblərində dayanırlar. Lakin ayrılan bu yollar ikiləşmir, qoşalaşmır; birinci yolun, yəni qabarlı əllərin, namuslu əməyin, təmiz insani münasibətlərin ikinci yol üzərində – yəni gerilik, köhnəlik və ətalət üzərində qələbəsi, təntənəsi kimi nəticələnir.

"Ayrılan yollar" romanında bu məsələlər canlı insan surətləri, bədii xarakterlər, ictimai borca müxtəlif münasibətlərin mübarizəsi əsasında təsvir olunur. Yuxarıda göstərildiyi kimi, həmin mübarizənin bir qütbündə gənc, istedadlı aqronom İmran, əmək veteranı Nəsib dayı, manqabaşçısı Zeynəb, o biri qütbündə isə kolxoz sədri Kosaoğlu ilə onun bəzi tərəfdarları, qohumları dururlar.

Kosaoğlunun zərərli iş üsullarını və bir xarakter kimi eybəcərliyini yazıçı kəskin tənqid edir. Şan-şöhrətinin əldən gedəcəyindən qorxan sədr əkin üçün yararlı olan sahələrin faktik ölçüsü barədə – "yuxarıya" yalan məlumatlar verir, əlavə yer əkdirir. O, pambıqçılıqda təzə üsulların, aqrotexniki qaydaların tətbiqi ilə deyil, əlavə sahədən götürülən yenə də aşağı məhsulun hesabına planı ödəyir. İndi hamıya gün kimi aydındır ki, bu zərərli üsul, sahibkarlıq vaxtilə təkcə Azərbaycanda yox, Sovetlərin digər pambıq becərilən ərazilərində, xüsusən də Özbəkistanda geniş yayılmış və sonralar çox gurultulu məhkəmə proseslərində ifşa edilmişdi. "İ.Şıxlı minlərlə insanı robota çevirən, onları planın, istehsalatın əsiri edən, yalan və saxtakarlıq içində boğulan bir zamanın eybəcərliklərini ilkin göstərən yazıçılarımızdandır. Artıq sahə əkməklə, satın almaqla, şişirtmə rəqəmlərlə kağız üstündə pambıq planı doldurmağın faciələrini o hələ 50-ci illərdə göstərmişdi. Bu yolla insanların içində başlanan mənəvi aşınma, torpağı əldən gedən

kəndçinin fəlakəti, rişələri yayılan bürokratiya xərçənginin gələcək faciələri romanda uzaqgörənliklə təsvir olunmuşdur".[1]

Romanda maraqlı lirik bir xətt də var ki, əsas hadisələrlə əlaqədə müvəffəqiyyətlə inkişaf etdirilir. Bu xətt "Ayrılan yollar"ın gənc qəhrəmanlarının mənəvi aləmini açıb göstərmək baxımından xüsusilə maraqlıdır. Manqabaşçısı Zeynəblə traktorçu Mahmudun, aqronom İmranla kənd müəllimi Nərgizin dağ çeşməsi kimi saf məhəbbəti zərif cizgilər əsasında təsvir olunur. Nərgizin İmrana təqdim etdiyi bir xatirə dəftəri Bakıda yaşayan ata-anasının bircə övladı olan, Azərbaycan kəndində dərs demək üçün müəyyən qədər atasının arzusuna qarşı çıxan gənc müəlliməsinin təmiz mənəviyyatını yaxından öyrənmək üçün zəngin material verir.

"Ayrılan yollar"la əlaqədar aldığı məktublardan birinə yazıçının cavabında belə sətirlər var: "Romanın qəhrəmanları və onların prototipləri ilə tanışlıqdan 25 il keçir. Bu müddətdə dünyada, həyatımızda və insanların psixologiyasında çox dəyişikliklər olmuşdur. Amma mənim üçün İmran, Nərgiz müəllimə, Zeynəb, Tükəzban xala kimi insanlar yenə də əzizdir. Ona görə ki, bu adamlar vahid və böyük amal eşqi ilə yaşayır, xalq üçün çalışır, yüksək məqsəd üçün mübarizə aparanda bəzən özlərini belə unudurlar. Mən indi də öz gözəl idealı uğrunda mübarizədə əzab və məhrumiyyətlərə dözən, sözü də, işi də eyni olan bütöv xarakterli insanlara, xalq həyatını işıqlandırmaq üçün meteor kimi yanan müasirlərimə pərəstiş edirəm" (Məktubun surəti İ.Şıxlının şəxsi arxivindədir). Təkcə yazıçının özünün deyil, "Ayrılan yollar"ı mütaliə edənlərin çoxunun roman və onun qəhrəmanları haqqında qənaəti belədir.

Belə bir xatırlatmanı zəruri hesab edirik ki, aralarında müəyyən yaş fərqləri olduğuna baxmayaraq İ.Şıxlının şah əsəri olan "Dəli Kür" ondan 1960-cı illər ədəbiyyatının nümayəndələrindən biri kimi bəhs etməyə ciddi əsas verir. "Dəli Kür" nəsrimizin ilk nümunələrindən idi ki, əsərdə sosializm realizminin tüğyan etdiyi bir vaxtda müəllif sovet ədəbiyyatının aparıcı istiqamətini təşkil edən partiyalılıq, sinfilik yolundan çıxaraq, sözün həqiqi mənasında əsl xəlqilik, millilik kateqoriyasına əsaslanan mənəvi dəyərlərə üstünlük verilmişdir. Bir qədər öncə qeyd olunan ziddiyətləri də buraya daxil olmaqla Cahandar ağa xalq psixologiyasında aparıcı mənəvi dəyərlərin ən mötəbəri olan mərdanəlik statusuna çox yüksək səviyyədə cavab verirdi və həm də bu baxımdan nəsrimizin yeni hadisəsi idi. Bundan çıxış edərək bir sıra məqalələrdə Dəli Kür obrazının bütövlükdə zamanın stereotiplərinə, çərçivələrinə sığmayan Azərbaycan ruhunun rəmzi kimi şərh olunması təbiidir. AMEA-nm müxbir üzvü, prof. Yaşar Qarayev bu qənaətində yüz faiz haqlı idi ki, bizim nəsrimizdə sinfi və milli dəyərlər belə kəskinliklə ilk dəfə

[1] Sabir Rüstəmxanlı. Müdriklik. "Kommunist" qəzeti, 2 aprel 1989

“Dəli Kür”də üz-üzə gəlmiş və milli kolorit, milli-epik səciyyə həm formada, həm də məzmunda nihilist beynəlmiləl abstraksiyanı üstələmişdi.[1]

“Dəli Kür” romanındakı təsvirlər ədibin digər əsərləri ilə müqayisədə daha canlı, dil daha ahəngdar, hadisələrin təqdimi isə daha cazibədar çıxmışdır. Romanın əsas məziyyəti buradakı surətlərin daxili aləminin təsvirində yazıçının hər cür sxematizmdən uzaq olması ilə bağlıdır. Buna görə də təqribən 10 il davam etmiş yaradıcılıq əməyinin bəhrəsi olan “Dəli Kür” yazıçının kəskin konflikt, dərin psixoloji təhlil əsasında güclü xarakter yaratmaq bacarığını nümayiş etdirən yüksək bədii keyfiyyətlərlə zəngindir.

İ.Şıxlı “Dəli Kür”ü yazmaq üçün uzun illər davam edən böyük axtarışlar aparmış, tariximizin XIX əsr kimi çox mürəkkəb bir mərhələsini, bu mərhələdə xalqımızın həyat və məişətini, adət və ənənələrini, milli mentalitetimizin köklərini, rus çarizminin Qafqazda yeritdiyi müstəmləkəçilik siyasətinin mahiyyətini hərtərəfli öyrənmiş, bu roman üzərində işlədiyi illərdə sənətkarlıq baxımından özü də xeyli püxtələşmişdi. Təkcə elə Cahandar ağanın oğlu Əşrəfin seminariya həyatının təsviri üçün yazıçı Tiflisə gedib orada, Gürcüstan Respublikasının Xalq Maarifi Muzeyinin arxivində aylarla axtarışlar aparmalı olmuşdu. Vaxtilə Qori seminariyasında təhsil almış qocaman müəllimlərlə söhbətlər etmiş, onların xatirələrini toplamış, Qazax müəllimlər seminariyasının arxivindəki materialları dönə-dönə oxuyub qeydlər götürmüşdü. Bütün bunlar da öz növbəsində ədibin təsvirlərindəki realizmi qüvvətləndirmiş, bütünlükdə romana bir mötəbərlik haləsi gətirmişdir. Bu sətirlərin müəllifi vaxtilə görkəmli alim və ədəbiyyat tənqidçisi F.Köçərlinin həyatı, mühiti və yaradıcılığı ilə ilgili axtarışlar apararkən Qori müəllimlər seminariyasının da materialları ilə ətraflı tanış olmuşdur. Arxiv sənədlərinə yaxşı bələd olan bir araşdırıcı kimi romanın həmin seminariyada dərslərin təşkili, tədrisin xüsusiyyətləri, şagirdlərin həyat və məişəti, məzunların taleyini əks etdirən fəsillərini oxuduqca biz çoxsaylı və geniş profilli məlumatların bədii əsərin tərkib hissəsinə necə ustalıqla çevrildiyinə bir daha yəqinlik hasil etdik.

Bütünlükdə “Dəli Kür” romanı, xüsusilə də Cahandar ağa obrazı xalqımızın tarixi taleyi ilə bağlı müəllifin on illər boyu düşünüb-daşındıqlarının, arayıb-axtardıqlarının məhsuludur. 1998-ci ildə dövri mətbuata verdiyi bir müsahibəsində İ.Şıxlı özü bunu etiraf etmişdi. O hər şeydən öncə millətin vahid psixoloji keyfiyyətlərin daşıyıcısı kimi formalaşmasını zəruri hesab edirdi. Təəssüflənirdi ki, bunun əvəzinə müxtəlif təfriqələr yaratmış, birləşmədən parçalanmışıq... Buna sinfi don geyindirəndə isə xalqımızın tarixində, psixologiyasında, həyata münasibətində, xarakterində özünü göstərən, əsrlər boyu xalqı idarə edən, onu birləşdirən cəhətləri: mənəvi

[1] Yaşar Qarayev. Tarix: yaxından və uzaqdan. – Bakı: Sabah, 1995, s.499

zadəganlığı, cəngavərliyi yox etmişik. Bunlara feodal-patriarxal damğası vurmuşuq. Milli qürur və iftixarla bağlı nə varsa, hamısını qamçılamışıq.

Ədib bu fikirdə idi ki, "Milləti, xalqı iki yolla tərbiyə etmək olar. Biri döymək, danlamaq və qorxutmaqla. O biri isə ucaltmaq, özünə inamı canlandırmaq, iftixar və qürur hissi aşılamaqla mənəvi ləyaqəti təsdiqləmək".[1] "Dəli Kür"ün müəllifi ikinci yolu, müsbət nümunələrə istinadən tərbiyə etmək yolunu seçmişdi.

Romanın çox uğurlu taleyi, uzunömürlülüyü göstərdi ki, İ.Şıxlı bu qənaətində tamamilə haqlı olmuşdur.

"Dəli Kür" tarixi hadisələrə müasir nəzərlə baxıb, onları sənətkarlıqla əks etdirməyin təqdirəlayiq nümunələrindəndir. Yazıçı əlavə xətlərlə dolaşdırılmayan, təbii süjet xətti əsasında ciddi həyat həqiqətlərini ifadə edə bilmişdir. Burada kompozisiya təbii bir ahənglə, həyatiliklə inkişaf edir. Özözlüyündə hərəsi bitkin bir bədii parça təsiri bağışlayan Cahandar ağa – Mələk, Şamxal – Güləsər, Şahnigar – Cahandar ağa, Pristav – Poçt Əhməd, Qoca dayı – Çərkəz düyünləri hamısı əsərdəki baş xətlə möhkəm bağlanır. İnsanlara, tarixi faktlara, bakir təbiət təsvirlərinə təravətli və orijinal münasibətin hər səhifədə hiss olunması romanın məziyyətləri kimi qeyd edilməlidir.

Roman bizi təqribən 150 il bundan əvvəlki Azərbaycanın Kürqırağı kəndlərindən biri ilə tanış edir. Bir yandan Molla Sadıq və onun bəzi müridləri, digər tərəfdən isə anbarlarına 20 kəndin gəliri toplanan Cahandar ağa kəndə sahiblik edirlər.

Cahandar ağa bütün ziddiyyətlərilə təsvir olunmuş orijinal canlı bir surətdir. O güclüdür, igiddir, lazım gəldikdə səhərə qədər at belində əli silahlı dolaşmağı, ailəsini, öz qalası və istehkamı sandığı evini təcavüz və basqınlardan qorumağı bacarır. Yeri gələndə pristavla onun əli tüfəngli rəiyyətinin yanında sərt danışmaqdan da çəkinmir. Qəribə hörmət edən, qonaqsevən bir adamdır. Qaragüruhçu Molla Sadığın təhrikilə fanatiklər Çernyayevskini və Əhmədi öldürmək istəyəndə Cahandar ağanın meydana atılıb qonaqlara havadar çıxması əsərin yaddaqalan epizodlarındandır.

Cahandar ağa dəliqanlı və zalım mülkədardır. Ağa təbiəti onu yoxsullara qarşı amansız etmişdir. Kasıb gəmiçi qızının oğlu tərəfindən qaçırıldığını eşidəndə qəzəbindən pələng kimi bağırıb dönə-dönə təkrarladığı bu sözlər dediyimizi sübut edir: "Sümüyümüzü it sümüyünə caladı!" Xırdaca bir ehtiyatsızlıq üstündə bacısı Şahnigarı vəhşicəsinə öldürməklə guya namusunu ləkədən qoruyan Cahandar ağa özgənin kəbinli arvadını götürüb qaçanda kiminsə namusuna ləkə vurduğunun əsla fərqinə varmır. Əsərin

[1] İsmayıl Şıxlı. O yerlər min xəyal eylər. "Azərbaycan gəncləri" qəzetinə müsahibə. 20 dekabr 1988

ekspozisiyasında və bəzi ricətlərində göstərildiyi kimi, bir zamanlar Cahandar ağanın həyat tərzində nisbi bir dinclik, asudəlik varmış; yəni bu varlı və qohum-əqrabalı, vuran-yıxan zəhmli kişi bütün ətrafda istədiyini edir, arzuladığı kimi dolanır. Lakin onun romandakı güzəranı həmişə güclü sarsıntılar və tələtümlər içərisində keçir. Bəzi ailə üzvlərinin daxilən, mənən ona yad olması, Şahnigarın qətli, doğma qızının qaçırılması, rəsmi hökumət nümayəndələri ilə özü arasında baş verən ixtilaflar, əleyhinə kənd mollasının söylədiyi nifrinlər, vaxtı ilə bir sözünü iki eləməyənlərin indi hərdən onun üzünə ağ olması əsərin əvvəllərində sal qayaya bənzəyən Cahandar ağanı dörd yandan döyəcləyən güclü dalğalar kimi öz təsirini göstərir.

Cahandar ağa artıq zəmanənin dəyişdiyini, onun adət etdiyi "əlçatmaz", "ünyetməz" idillik orta əsr mülkədar həyat tərzinin əsaslarının sarsılmağa başladığını hiss edir. Doğrudur, o öz mövqelərindən asanlıqla əl çəkən, hədə-qorxudan ürkən adam deyil. Lakin yuxarıda saydığımız maneələrə, onları doğuran ictimai-siyasi səbəblərə qarşı mübarizədə tarixən məhduddur. Onun bir xarakter kimi faciəsi də bundan doğur.

Ədəbiyyatımıza son dərəcə məzmunlu, dolğun həyat lövhələri, müxtəlif, rəngarəng təbiət hadisələri və mənzərələri, bunların əsasında işlədiyi dərin psixoloji məqamları, canlı insan obraz və xarakterlərini gətirməsini ədibin ən böyük xidmətlərindən hesab edən tədqiqatçı Yaqub İsmayılov bunu haqlı olaraq xüsusi vurğulayır ki, "öz təbiiliyi və reallığı ilə unudulmayan bir çox milli obrazlar, xüsusən bitkin və mükəmməl xarakteri ilə seçilən Cahandar ağa surəti ilk növbədə müəllifin tarixə baxış yeniliyi ilə yaradılmışdı".[1]

Romanda XIX əsrin son rübündəki Azərbaycan kəndinin ictimai vəziyyəti özünün maraqlı bədii inikasını tapmışdır. Lap ilk səhifələrdən yazıçı əsas hadisələrin baş verdiyi Göytəpə kəndinin evləri ilə əlaqədar belə bir təsvir verir: "Torpaqdan güclə seçilən qara damlar və onların arasında təkəm-seyrək gözə dəyən daş evlərin kirəmidli damları görünürdü...". Həmin təsvirdəki müqayisə əsərdə tanış olduğumuz insanların ictimai mənşəyini, onların bir-birinə münasibətlərini müəyyən etmək üçün açar vəzifəsini görür. Ayağına geyməyə bir cüt çarıq tapa bilməyən gəmiçi Qoca dayı, maddi çətinliklər üzündən evlənmək vaxtı çoxdan keçən Çərkəz, yaylaq yerində xəcalətli görünməmək üçün ət xörəyi əvəzinə qazanda bulaq suyu asan Güləsər, uzaq səfərə yola saldığı oğluna cib xərcliyi tapmayan Əminə xala, "bəylə bostan əkib tağı çiynində bitən" Rüstəm kişi və başqaları kənddəki qara damların sakinləridir. Gəzdikcə qurtarmayan əkin yerlərinin, meşənin, talanın, örüşün, sürülərlə qoyunun, naxırlarla mal-qaranın sahibi Cahandar

[1] Yaqub İsmayılov. İsmayıl Şıxlı: həyatı, mühiti, sənəti. – Bakı: Ayna mətbuat evi, 1999, s.220

ağa, halal-haramı çoxdan qarışdırmış fırıldaqçı Molla Sadıq kimilər isə həmin tək-tək gözə dəyən daş evlərin sakinləridir. O zaman imperiyanın hər yerində milliyyətindən asılı olmayaraq cəmi yoxsulların dərdi böyük idi. Gündəlik ruzisini məşəqqətlə tapan Rüstəm kişinin də, evindən-eşiyindən didərgin düşüb qarda-yağışda günlərlə yollarda dolaşan faytonçu İvan Filippoviçin də, həftələrlə belini qaldırmayıb özgə zəmisinin məhsulunu toplayan biçinçi Sərkisin də. ...İnqilabi iş üstündə təqibə, sürgünlərə məruz qalan Əhməd, Kipiani, tərəqqipərvər müəllim Çernyayevski, sonralar seminarist Əşrəf məhz bu məzlumların böyük dərdinə çarə etməyin yollarını düşünür, başqalarını səadətə çatdırmaq üçün özlərini odun-alovun içinə atırlar.

Əsərdə maraqlı epizodlar əsasında göstərildiyi kimi, o zaman Qafqazda inqilabi fikir və ideyaların yayılması işində, hökumətin hər cür qadağan tədbirlərinə baxmayaraq, yeni məktəblərin, o cümlədən də romanın bəzi qəhrəmanlarının təhsil aldığı Qori müəllimlər seminariyasının müəyyən rolu vardı. Azərbaycan ictimai fikri, ədəbiyyatı, maarif və mədəniyyəti tarixində görkəmli xidmətləri olmuş Nəriman Nərimanov, Cəlil Məmmədquluzadə, Üzeyir Hacıbəyov, Firidun bəy Köçərli və başqaları bu seminariyada təhsil almışdılar. "Dəli Kür" romanındakı Çernyayevski, Kipiani, Semyonov, Firidun surətləri həmin seminariyanın işıqlı tərəflərinin, Petrov isə çarizmin ucqarlarda yeritdiyi mürtəce müstəmləkə siyasətinin təmsilçiləridir. Seminariyanın ən yaxşı müəllimlərini, onların müxtəlif millətlərdən olan ləyaqətli şagirdlərini, yetişdirmələrini İ.Şıxlı zamanın qaranlıq göylərində parlayan ulduzlarla müvəffəqiyyətlə müqayisə edib oxucunun həmin – yeni tipli ziyalılara rəğbətini artırır. Bu cəhətdən maraqlıdır ki, inqilabçı müəllimlərdən Mixail Kipiani dərsin şirin yerində onu həbs etmək üçün sinif otağına girmiş jandarm nümayəndələrini görüb sarsılmır, böyük rus şairi Puşkinin "səadətin cazib ulduzundan" bəhs edən şeirini axıradək uşaqlara oxuyub sonra onlarla vidalaşır:

Товарищ, верь взойдет она –
Звезда пленительного счастья,
Россия вепрянет от сна,
И на обломках самовластья
Напишут наши имена!

Yoldaş inan buna, deyirəm sana:
Bir gün səadətin cazib ulduzu
Doğacaq, Rusiya ayılacaqdır.
Onda mütləqiyyət xərabəsinin
Üstündə adımız yazılacaqdır!

“Dəli Kür” gərgin dramatik toqquşmalar, qüvvətli xarakterlər romanıdır. Görünür onun məhz bu keyfiyyətləri kinematoqrafın nəzərini cəlb etmiş, C.Cabbarlı adına “Azərbaycanfilm” studiyası 1970-ci ildə İ.Şıxlının ssenarisi əsasında eyni adlı film çəkmişdi. Üzərindən on illər keçdiyinə baxmayaraq həmin film yenə də uğurla nümayiş etdirilir, tamaşaçılar tərəfindən rəğbətlə qarşılanır.

“Dəli Kür” Azərbaycandan xeyli uzaqlarda da dönə-dönə tərcümə olunub nəşr edilmişdir. 1971-ci ildə Moskvada çap olunmuş rus tərcüməsində romanın, demək olar ki, bütün ideya və sənətkarlıq xüsusiyyətləri incəliklə duyulub rus dilinin çox zəngin imkanları əsasında canlandırılmışdır. Bu tərcümədən Azərbaycanın Kürqırağı meşələrinin ətrini duyur, anadil quşlarının əsrarəngiz səsini eşidir, ən başlıcası isə canlı insan xarakterlərinin hərarətini duyuruq. Ədalət naminə göstərmək lazımdır ki, əsərin xaricdə yayılması işində onun rus nəşrinin çox əhəmiyyətli rolu olmuşdur. Tanınmış rus ədibi və mütərcimi Vladimir Solouxin romanın tərcüməsi üzərində çox ciddi yaradıcılıq zəhmətinə qatlaşmış, “Dəli Kür”də təsvirini tapmış hadisələrin baş verdiyi yerləri İ.Şıxlının özü ilə birlikdə qarış-qarış gəzmiş, həm o zamankı Azərbaycan mühitini, adamların psixologiyasını, həm də ədibin sənətkar və vətəndaş amalını dərindən öyrənmişdi. Bu barədə İ.Şıxlının özünün yazdıqları maraqlıdır:

“Bir qrup tərcüməçilər var ki, hər hansı bir əsərin sətri tərcüməsi əlinə keçən kimi makinaya diqtə etməyə başlayır. Buna görə də kitabın dili, fikir və hisslərin təsvir olunduğu səhifələr ütülənir və cansız bir hala düşür. Solouxin isə bu əsərin sətri tərcüməsini iki-üç dəfə oxuduqdan sonra hadisələrin cərəyan etdiyi yerləri görmək, adamlarla söhbət etmək qərarına gəldi. O ilk dəfə Azərbaycana gəldi. Biz onunla birlikdə Kür sahilinə getdik. Qarayazı meşəsinə keçdik. “Dəli Kür” romanında cərəyan edən hadisələrin baş verdiyi ərazini qarış-qarış gəzdik. Mən ona çox çətinliklə də olsa, qara dam tapıb göstərdim. Orada yaşayan adamların məişətini Vladimir Solouxin öz gözləri ilə gördü. Mis səhəngi, kərəntini, baltanı, dəhrəni, bizim qızların səhəngi necə götürdüyünü, Kürdən necə su gətirdiklərini, oğlanların necə at çapdığını, Novruz bayramını, Azərbaycan qonaqpərvərliyini öz gözləri ilə gördü. Qocalarımızla tanış olub söhbət etdi və beləliklə dəqiq təsəvvür və anlayışdan sonra qayıdıb tərcüməyə başladı”.[1]

***

Cahandar ağa obrazı, onun mərdlik və cəsarət rəmzi olan siması romanın ilk nəşrindən sonra da vaxtaşırı İ.Şıxlının zehnindən çıxmamış, 1990-cı ildə yazdığı “Ölüləri qəbristanda basdırın” hekayəsində, “Ölən

[1] İsmayıl Şıxlı. “Özüm haqqında”, s.6. Əlyazması bizim arxivimizdədir. – B.N.

dünyam" romanında və bəzi digər əsərlərində onun yaradıcı təxəyyülünü məşğul etmişdi. Cahandar ağanın xarakterindəki mühüm cəhətlərdən birini – milli koloritin əsas əlamətlərindən olan vüqar və əyilməzliyi ədib "Ölüləri qəbristanda basdırın" hekayəsindəki Şəmistan ağanın timsalında da canlandırmışdır. Cahandar ağanın rus müstəmləkəçi məmurlarından çəkdiyi məşəqqətləri bir qədər də artırılmış şəkildə Şəmistan ağa bolşevik özbaşınalığından, sovet milisindən, "QPU"dan çəkir. Bu varlı-hallı kişinin möhkəm bünövrə üzərində qurulmuş ailəsi, sevimli övladları, Həcər kimi qeyrətli qızı var. O, despot atalardan da deyil. Qızını onu sevən yoxsul Cavanşirə vermək üçün elçilər də gözləyir. Təzələrin gözündə Şəmistan ağanın bircə eybi var: O, Azərbaycan kəndinə total bir bəla kimi gələn "kommuna"nın əleyhinədir, vəssalam. Elə bu da kifayət edir ki, Cahandar ağanın XX əsrin 20-ci illərindəki davamçısı Şəmistan ağanın nəyi varsa, əlindən alıb tifaqını dağıtsınlar, onu yurd-yuvasından, el-obasından didərgin salsınlar...

Eyni sözləri "Ölən dünyam" (1995) romanındakı Halay bəyin faciəli taleyi haqqında da demək olar. Bu romanda ədib 1930-cu illərdə Azərbaycanı bürüyüb böyük amansızlıqla həyata keçirilən Stalin repressiyasına dair tükləri ürpədən epizodlar təsvir etməklə bu zamanın fəciələrdən uzaq saldığı nəsillərə tarixi həqiqətləri çatdırmaq baxımından çox böyük yaradıcılıq işi görmüşdür (Güllələnənlər siyahısındakı bir çobanın təqsiri budur ki, vaxtilə ailəsini acından ölməkdən xilas etmiş, indi isə yeni hökumətdən qaçaq düşüb meşədə gizlənmiş qonşusuna çörək aparmışdır. Həmin siyahıdakı aşığın isə qətlinə dair ona görə sərəncam verilib ki, aşıq ev-eşiyindən digərgin düşmüş kəndlilərinə rast gəldiyi meşədə onlar üçün bir ağız çalıb-çağırmışdır).

Son sanballı əsəri olan "Ölən dünyam" romanını İ.Şıxlı ömrünün son çağlarında, ağır xəstə kimi evində guşənişin olanda yazmışdı. Aylar keçdikcə onun səhhəti daha da ağırlaşmış və gözləri görmə qabiliyyətini itirmişdi. Belə olduqda romanın materialının böyük bir hissəsini ədib ömür-gün yoldaşı möhtərəm Ümidə xanıma diqtə edib yazdırmışdı...

"Ölən dünyam" romanındakı hadisələrin çoxu ədib üçün 1990-cı ilərin əvvəllərində artıq çoxdan tarixə çevrilmişdi. Əlbəttə, burada tarixə çevrilmişdi əvəzinə keçmişdə qalmışdı yazmaq daha dəqiq olardı. Bir də ona görə ki, keçmişdə baş verənlərin heç də hamısı tarixdə qalmır və buna ehtiyac da yoxdur. Tarixə çevrilən hadisələrdən isə yalnız bir qismi bədii təsvirin predmeti olub əsl yazıçı qələmi ilə mənalandırılanda yeni həyat kəsb edir. "Ölən dünyam"da bu baxımdan özünə yer tapmış epizodlardan ikicə nümunəni qeyd etməklə kifayətlənəcəyik. Əsərin ikinci fəslinin 3-cü bölməsində təsvir olunur ki, kənd şurasının sədri əxlaqsız Qəzənfər öldürülüb, bu işdə əli olduğu güman edilən iki nəfər isə qalada yatır və onlar mühakimə olunacaqları günü gözləyirlər. Bu zaman kənd şurasının yeni sədrinin otağına 13-14 yaşlarında bir oğlan gəlib ona deyir:

"– Qəzənfəri mən öldürmüşəm...

– Kim?

– Mən!

Uşaq ayağa durur, şalvarınm belini qurdalayıb oradan çıxardığı naqanı masanın üstünə qoyur.

– Bax bunnan. Düz qaşının ortasından vurdum...

– Axı nə üstə?!

Uşağın qaş-qabağı tökülür... Bir-iki dəfə udqunur, sonra təmkinini pozmadan qətiyyətlə dillənir:

– Bacıma sataşmışdı!"[1]

"Ölən dünyam", bütün digər fikri-bədii keyfiyyətləri bir yana, elə təkcə bu çox müxtəsər dialoqda əksini tapan hadisənin bir qədər müfəssəl təsvirindən ibarət olsaydı, yenə də yüksək səviyyəli bədii əsər kimi həyata vəsiqə alacaqdı.

Biz bu romanda müəllifin xüsusi hüsn-rəğbətlə təsvir etdiyi bəzi surətlərlə "Dəli Kür"ün baş qəhrəmanı arasında irs-varis münasibətlərinin fərqinə vardıq və həmin münasibətlərin inandırıcı təqdimatını rəğbətlə qarşıladıq. "Ölən dünyam"ın səkkizinci fəslinin üçüncü bölməsində təqdim olunan Çapıq Əmrah surəti bu baxımdan ayrıca qeyd olunmağa layiqdir. Yaralı halda əsir alınmış, Müsavat zabiti Çapıq Əmrah Dövlət Siyasi İdarəsinin müvəkkili "yoldaş Fətullayev"in hüzurunda öz milli köklərinə, zabit qüruruna layiq bir surətdə canlanır:

"– Sənə niyə Çapıq Əmrah deyirlər?

Əmrah alnındakı çapığa işarə ilə cavab verir:

– Buna görə.

– Bu nə çapıqdı belə?

– Qılınc çapığıdır. Rus qılıncının çapığı.

– Harda vurublar səni qılıncla?

– Gəncədə.

– Sənin Gəncədə nə işin var idi?

– Mən zabitəm. Musavat ordusunun zabiti. Öz hökumətimi, xalqımı qorumaq üçün vuruşmalı idim. Bilirsənmi, kişi yorğan-döşəkdə ölməz. Kişi ya gərək güllədən, ya da xəncər yarasından ölsün. Bir də axı azadlıq uğrunda vuruşmamaq, bir qaşıq qandan qorxub geri çəkilmək namərdlikdir.

Fətullayev hirslə ayağa qalxdı:

– Gəncədə döyüşdünüz. İnsan qırğınından başqa nə qazandınız?

Çapıq Əmrah da ayağa durdu və Fətullayevlə döş-döşə dayandı:

– Mərdlik, cəsarət! Bəs siz nə qazandınız? Camaatı qorxaqlığa, xəyanətə öyrətdiniz... İndi buraya niyə gəlmisiniz? Rus əsgərlərini niyə

[1] İsmayıl Şıxlı. Seçilmiş əsərləri. İki cilddə, I c. – Bakı, 2005, s.273-274

gətirmisiniz?
– Qaçaq-quldurun kökünü kəsməyə!

– Yox! Siz kişilərin kişiliyini əlindən almağa gəlmisiniz. Arvad-uşaq yanında kişiləri hörmətdən salıb onların qürurunu sındırmaq istəyirsiniz! Siz qürurlu adamları, elə xalqı da tapdalamağa çalışırsınız. Sizə kişi yox, madyan lazımdır. Cəmiyyət də insan kimidir. Axtalanmış adamdan kişi çıxmadığı kimi, axtalanmış cəmiyyətdən də kamil cəmiyyət ola bilməz".[1] Nə yaşda olduğundan, hansı nəsli, ailəni təmsil etdiyindən asılı olmayaraq bu dialoqda bütün əzəmətilə canlanan igid Azərbaycan zabiti Çapıq Əmrahın damarlarında təmsilçisi "Dəli Kür"dəki Cahandar ağa olan qeyrətli babalarımızın təmiz qanı axdığı aşkar həqiqətdir.

"Ölən dünyam"da ədibin öz ənənəvi təsvir üsulundan fərqli olaraq bir qədər ekspressiv vasitələrdən faydalandığını göstərən müəlliflər haqlıdırlar. Doğrudan da İ.Şıxlı bu əsərdə bəzən konkret zaman çərçivələrinə məhəl qoymadan öz təqdimatlarında gah geriyə, uzaq keçmişlərə, gah da irəliyə; daha uzaq gələcəyə müraciət etməklə əsərin süjetinə bir dinamika aşılamış, onu daha da maraqlı və oxunaqlı etməyə nail olmuşdur. Bu məsələyə ilkin diqqəti cəlb edən tənqidçilərdən biri İntiqam Qasımzadə oldu: "İllər uzunu ənənəvi nəsr təhkiyəsindən kənara çıxmayan, klassik roman janrının bütün qayda-qanunlarına riayət edən İ.Şıxlı "Ölən dünyam"da çərçivələri dağıdır, bəzən qəhrəmanlarının taleyi ilə bağlı bir epizodu Azərbaycan miqyasında baş verən qlobal ictimai-siyasi proseslərin təsviri əvəz edir. Və yaxud aramla qələmə alınmış psixoloji vəziyyətdən sonra ... süjetin bir hissəsini sürətlə nəql edib keçir".[2]

Tənqidçinin gəldiyi bu nəticə də doğrudur ki, adıçəkilən təsvirlərdə yazıçının məqsədi əsərin bu qlobal qayəsini qabartmaqdır. Müəllif qayəsi, yazıçı amalı bu ideyanın təsdiqinə xidmət edir ki, sosializm Azərbaycan xalqının mentalitetinə yad bir quruluşdur və onun bütün ölkə miqyasında zorla qəbul etdirilməsi xalqın həyatında, taleyində qlobal fəlakətə, kataklizmə səbəb olmuşdur. Bu baxımdan əsərin son cümlələrindəki potensial məna bizə çox əlamətdar göründü. Adıçəkilən qlobal hadisələrin fəlakət və kataklizmlərin yekun məqamında İ.Şıxlı az qala heç nə olmayıb kimi çox təmkinli bir üslubda yazır: "Kür isə yenə həmişəki kimi gah meşəyə doğru burulub axır, gah çiləkənlərin üstündən aşır, gah da yarğanlara çırpılırdı. Elə bil dünyada heç nə olmamışdı". Yəni bolşeviklərin nəhəng bir imperiyaya zorla peyvənd etməyə çalışdıqları ictimai sarsıntılar, qondarma sistemlər, irimiqyaslı repressiyalar hamısı gəldi-gedərdir. Vətən və xalq isə bütün

[1] İsmayıl Şıxlı. Seçilmiş əsərləri. İki cilddə, I c. – Bakı, 2005, s.334-335
[2] İntiqam Qasımzadə. Oxunan və sevilən yazıçı // İ.Şıxlının iki cildlik "Seçilmiş əsərləri"nə ön söz. – Bakı, 2005, s.10

məhrumiyyətlərə baxmayaraq Kür kimi öz əzəli, əbədi həyatını yaşamaqdadır.

Ədəbi ictimaiyyət "Ölən dünyam" əsərini rəğbətlə qarşıladı. Roman haqqında onu yüksək qiymətləndirən bir sıra resenziya və təəssüratlar dövri mətbuatda özünə yer aldı. Xalq yazıçısı Anar "Ölən dünyam" haqqında qənaətlərini 2 iyun 1995-ci ildə İ.Şıxlıya ünvanladığı məktubunda belə ifadə etmişdi: "Yeni romanınızı birnəfəsə oxudum. Sizi ürəkdən təbrik edirəm. Xəstəliyin sizə bu qədər əzab verdiyi günlərdə belə bir əsəri yaratmağın özü bir qəhrəmanlıqdır... Bir neçə ailənin, bir neçə insanın taleyinin timsalında Siz xalq həyatının bütöv mərhələlərini əks etdirə bilmisiniz; canlı, koloritli səhnələr, milli xarakterin, təbiətin dəqiq təsviri, obrazlı, canlı dil bu romanınızı sizin yaradıcılığınızın yeni zirvəsi kimi səciyyələndirir. Romanın bir çox epizodlarını oxuyanda mən hərdən bədbin düşüncələrə də dalırdım ki, nə üçün mərdlik, cəngavərlik, xeyirxahlıq, açıqürəklilik, igidlik kimi yüksək mənəvi keyfiyyətlərə malik olan xalqımız yaşadığımız günlərdə belə bir vəziyyətə düçar olmuşdur".[1]

***

İ.Şıxlı romanlarından əvvəl də, sonra da bir sıra çox maraqlı hekayələr yazmış, onların böyük bir qismini 1984-cü ildə "Məni itirməyin" adlı sanballı kitabında nəşr etdirmişdi. "Köynək", "Mənim rəqibim", "Namus qaçağı", "Namərd gülləsi", "Qızıl ilan", "Sapı özümüzdəndir", "Təyyarə gecikir", "İlğım" və digər hekayələri göstərir ki, yazıçı xırda formalı nəsr əsərlərində də vacib əxlaqi-mənəvi problemlər qaldırmağı və onları canlı, koloritli insan surətlərinin taleyi əsasında həll edib ümumiləşdirməyi bacaran bir sənətkar olmuşdur. Hekayələrin mühüm bir qisminin mövzusunu ədib bitib-tükənməz folklor xəzinəsindən almış, yaxud ayrı-ayrı xırda formalı nəsr əsərlərində şifahi xalq yaradıcılığı motivlərindən faydalanmışdır.

XX əsr Azərbaycan nəsrinin ən populyar nümunələrindən biri olan "Sapı özümüzdəndir" hekayəsi bu baxımdan xüsusilə maraqlıdır. Cansız aləmdə, meşədə baş verən bir hadisəni böyük sənətkar səriştəsilə canlandırıb ona dərin məna verən ədib yaşadığı çox mürəkkəb ictimai təlatümlər dövrünün ən aktual probleminə münasibətini bildirmişdir: tarixin taleyüklü sınaq məqamlarında cəmiyyət, toplum, xalq ancaq bütün qüvvələrini səfərbərliyə alıb sarsılmaz vəhdət halında bir yumruq kimi birləşməklə hər cür təcavüz qarşısında duruş gətirib dözə bilər, müqavimət göstərib qalib gələ bilər. Və əksinə, belə olmasa, bəzən hətta tək bircə nəfərin belə xəyanət yoluna düşüb düşmənə yarınması zaman keçdikcə böyük bir ölkənin, bütöv bir xalqın fəlakətinə səbəb ola bilər. Hekayədəki Qoca palıd öz rişələri ilə ulu Dədə Qorquda gedib çıxan,

[1] Anar. Ölən dünyam. "Zerkalo" qəzeti, 5 avqust 1995

xalq müdrikliyini təcəssüm etdirən canlı bir obrazdır. O, çox yaxşı dərk edir ki, par-par parıldayan almaz kimi iti ağzı ilə qabağına çıxan hər cür ağacı doğrayıb tökən dəmir balta öz-özlüyündə təhlükəli deyil. Ona məhz ağacdan düzəldilmiş, yonulub sahmanlanmış sap taxıldıqdan sonra balta meşəni soyqırıma məruz qoyur. Hekayənin sərlövhəsinə çıxarılmış "Sapı özümüzdəndir" ifadəsinin mahiyyətində də məhz bu el deyimi durur. Lakin İ.Şıxlı bu el deyiminin mənsub olduğu xalq rəvayəti əsasında çox gözəl bir hekayə nəşr etdirdikdən və onun məğzini Milli Məclisdəki nitqlərinin birində işıqlandırdıqdan sonra həmin rəvayət sanki yenidən dünyaya gəldi, təkcə ədəbiyyat aləmində deyil, ictimai həyatda, siyasi mübarizələr müstəvisində də özünə vətəndaşlıq hüququ qazandı, mətbuatda, radio və televiziyada əvvəlkilərlə müqayisəyə gəlməyən dərəcədə tez-tez işlənməyə başladı.

"Məni itirməyin" hekayəsində elin-obanın başına gələn çox dəhşətli və genişmiqyaslı bir fəlakət zamanı üz-üzə gəlib ağır sınaqlardan sonra möhkəm dost olmuş Od, Su və Vicdan yer üzündən silinmək təhlükəsindən xilas etdikləri insanlarla vidalaşırlar. Yazıçı bu üç dostun arasında Vicdanın sualı ilə başlayan kiçik bir dialoq təqdim edir:

"– İşdir, birdən bir-birimizi itirsək necə tapacayıq?

Su gülə-gülə dillənir:

– Harda çəmənlik, yaşıllıq görsəniz, məni orada axtarın.

Od deyir:

– Harada ocaq, bacalardan burulub çıxan tüstü görəsiniz, bilin ki, mən oradayam. Bəs səni itirsək necə tapaq, ay Vicdan?

– Amanın bir günüdür, məni itirməyin, itirsəniz tapa bilməzsiniz..."[1]

Mövzu və motivlərini folklordan, yaxud müasir olan cəmiyyətin həyatından götürməsindən asılı olmayaraq İ.Şıxlının hekayələri mükəmməl kompozisiya və süjeti, yığcam təfərrüatlar əsasında təqdim olunan canlı insan surətləri, oynaq bədii dili, unudulmaz təbiət təsvirləri ilə yadda qalır. Bu müxtəsər oçerkdə həmin hekayələrin bədii keyfiyyətlərinə dair müfəssəl söhbət açmağa imkan olmadığı üçün onlardan birindən, yuxarıda sözügedən "Sapı özümüzdəndir" əsərindən kiçik bir təbiət təsvirini nümunə gətirməklə kifayətlənirik.

"Bu gün quşlar lap tezdən oyanmışdılar. Dan yerinə çəhrayı rəngli gümüşü işıq çilənib üfüq qızaranda artıq onların səsi meşə yarpaqlarının həzin xışıltısına qarışmışdı. Dünənki yağışda çimib tərtəmiz yuyunmuş çiçəklərin ləçəklərinə elə bil səhər-səhər mirvari səpələnmişdi. Meşə xoruzlarının, qırqovulların sinəsi, saçaqlı quyruqları alışıb-yanırdı. Günəşin qızılı şüalarını, göy qurşağının əlvan zolaqlarını deyəsən xaliq özü onların boynuna dolamışdı".[2]

[1] İsmayıl Şıxlı. Məni itirməyin. – Bakı: Gənclik, 1984, s.145

[2] Yenə orada, s.181

Çox mahir bir rəssamın yaratdığı əlvan natürmortu xatırladan bu canlı mənzərə sıravi təbiət təsviri olmayıb bir qədər sonra meşədə baş verəcək taleyüklü hadisələrin – meşə soyqırımının daha təsirli çıxması üçün ümumi ahənglə təzad, kontrast təşkil edən bir bədii vasitə kimi çox yaxşı tapılmış fon təsiri bağışlayır.

Ədibin hekayələrində nadir epik əsərlər miqyasında qoyulub həll edilən böyük bəşəri ideya, bütün cəmiyyətlər və zamanlar üçün etalon olan mənəvi problem-vicdan problemi özünün çox uğurlu bədii həllini tapmışdır. Onun əsərləri xalqımızın mədəni-tarixi şəraitini dolğun xarakterlərlə canlandıran, zamanın aktual problemlərini tutumlu obrazlar işığında əyaniləşdirən yaradıcılıq nümunəsi kimi hər zaman aktual və müasirdir.

QILMAN İLKİN
(1914-2009)

Azərbaycan ədəbiyyatı tarixində zəngin yaradıcılığı ilə dərin iz qoymuş tanınmış sənətkarlarımızdan biri də Qılman İlkindir. Yaradıcılıq fəaliyyəti dövründə çoxsaylı kitabları çıxan yazıçı hekayə, povest, romanları ilə dövrün ədəbi mənzərəsini dolğunlaşdırmış, qoyub getdiyi ədəbi-bədii irsi ilə XX əsr Azərbaycan ədəbiyyatında silinməz imza qoyub getmişdir.

Həyatı. Qılman İlkin (Qılman İsabala oğlu Musayev) 1914-cü il aprelin 28-də Bakının Mərdəkan kəndində anadan olmuşdur. Atası İsabala kişi dülgər işləyirdi və Qılman onu 6 yaşında ikən itirmişdir. İbtidai sinfə Hacı Zeynalabdin Tağıyevin doğma kəndində açdığı bağbanlıq məktəbində getmiş, Feyzulla Qasımzadə, Cəfər Rəmzi kimi ədəbiyyat müəllimlərindən dərs almışdır. 1925-ci ildə ibtidai təhsilini başa vuran Qılman Bakıda vaxtilə "Rüşdiyyə" adlanan 18 nömrəli orta məktəbə daxil olmuşdur. Sonra təhsilini Pedaqoji Texnikumunda davam etdirmiş (1926-1929), Azərbaycan Pedaqoji İnstitutunun dil-ədəbiyyat fakültəsində oxumuşdur (1932-1936). Əmək fəaliyyətinə mürəkkəb sinfi mübarizə illərində Xaçmaz rayonunun Əhməd-oba kəndində müəllim kimi başlamışdır. Qılman İlkin 1931-1932-ci illərdə "Gənc işçi" qəzeti redaksiyasında işləmiş, 1938-ci ildən Uşaqgəncnəşrdə çalışmış, əvvəl məsləhətçi, baş redaktor, daha sonra direktor vəzifəsini icra etmişdir. Qaynar ədəbi mühitə düşən gələcək yazıçı S.Vurğun, S.Rüstəm, M.Müşfiq, M.Hüseyn, A.İldırımla yaxından tanış olur. Q.İlkinin ömrünə "repressiya" adlanan sınaq da düşmüşdür. "Yoldaşını ifşa et" kompaniyasına qoşulmadığı üçün institutdan qovulmaq təhlükəsi ilə üz-üzə qalmışdır. Bu çətinliyi müəllimlərinin köməkliyi ilə yoluna qoyan Q.İlkinin böyük qardaşı, yazıçı-dramaturq Qurban Musayev onun qədər şanslı olmur, həbs edilib 1924-cü ildə Solovki adalarına sürgün edilir. Ailənin bütün ağırlığını Qılman çəkməyə başlayır. Lakin NKVD-nin qara nəfəsi onu hələ uzun müddət təqib edir.

Q.İlkin pedaqoji fəaliyyətlə də məşğul olmuş, Azərbaycan Dövlət Universitetində Fuad Qasımzadə, Əziz Mirəhmədov, İsmayıl Şıxlı kimi gələcək ziyalılara ədəbiyyat nəzəriyyəsindən dərs demişdir. II Dünya müharibəsi iştirakçısı olan Q.İlkin Sovet ordusunun tərkibində Qafqaz cəbhəsində və İranda hərbi müxbirlik etmiş, Təbrizdə nəşr olunan və cənublu şairləri ətrafında birləşdirən "Vətən yolunda" əsgər qəzetinin redaksiyasında çalışmışdır.

Müharibədən sonra Azərbaycan Yazıçılar Birliyi üzvlüyünə qəbul olunmuşdur. Azərbaycan Dövlət Nəşriyyatının baş redaktoru (1960-1963), "Azərbaycan" jurnalının baş redaktoru (1963-1967), Azərbaycan Dövlət

Nəşriyyatının direktoru (1967-1971) vəzifələrində işləmiş, 1974-cü ildə fərdi təqaüdə çıxmışdır.

Q.İlkin "Şimal küləyi" əsərinə görə 1967-ci ildə M.F.Axundzadə adına Azərbaycanın Dövlət Mükafatına layiq görülmüşdür. Qırmızı Əmək Bayrağı ordeni (1967), Əməkdar incəsənət xadimi fəxri adını (1989) almışdır. Bundan başqa "1941-1945-ci illər Böyük Vətən müharibəsində Almaniya üzərində qələbəyə görə" medalı, "İkinci dərəcəli Vətən müharibəsi" ordeni (1985) ilə təltif edilmişdir. Təltifləri sırasında S.C.Pişəvərinin 1945-ci il tarixli sərəncamı ilə Azərbaycan Milli Hökumətinin ali "21 Azər" medalı, Azərbaycan Ali Soveti Rəyasət Heyətinin Fəxri Fərmanı (1970), Qafqaz Xalqları Ali Dini Şurasının "Paklıq" mükafatı da vardır.

Q. İlkinin bir xidməti də Azərbaycan kitab mədəniyyətinin inkişafında və xüsusilə bədii ədəbiyyat nəşrinin təşkilində, bu işin kəmiyyət və keyfiyyət yüksəlişində göstərdiyi böyük fəaliyyətidir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Xalq yazıçısı Qılman İlkinin yaradıcılığına yüksək qiymət vermiş, onu ədəbiyyat tarixində özünəməxsus mövqeyə malik sənətkarlardan biri kimi dəyərləndirmişdir.

Qılman İlkin 2009-cu il noyabrın 6-da, 95 yaşında Bakıda vəfat etmiş, II Fəxri Xiyabanda dəfn olunmuşdur. Xəzər rayon Mərdəkan qəsəbəsində adına küçə verilmiş, 2004-cü ildə haqqında "Yenilməz qoca" adlı sənədli film çəkilmişdir. S.Mümtaz adına Ədəbiyyat və İncəsənət arxivində 7 siyahıdan ibarət irsi gələcək nəslə əmanət edilmişdir.

Yaradıcılığı. Qılman İlkin əsasən hekayə və povestlər müəllifi kimi tanınır. Yaradıcılığının böyük hissəsini "Qılman Musayev" imzası ilə yazsa da, yalnız 1970-ci illərdən "İlkin" təxəllüsü ilə ilk dəfə "General" hekayəsini yazır.

Onun ədəbiyyata gəlməsinə təkan verən Cavid əfəndinin "Öksüz Ənvər" mənzum hekayəsi olmuşdu. 4-cü sinifdə oxuyan Qılman bu hekayədən təsirlənib o qədər ağlamışdı ki, həyat onun üçün başqalaşmış, anlamı dəyişmiş, gələcək yolu müəyyənləşmişdir.

Ədəbi fəaliyyətə 1943-cü ildə "Yaralı şahin" hekayəsi ilə başlamışdır. Sonra "Mayor", "Göy adamı" hekayələrini yazır. Elə o vaxtdan "bədii və publisistik nəsr janrında yorulmadan çalışır, müasir və tarixi mövzularda əsərlər yazır, yaradıcılıq prinsiplərini dərinləşdirir"di.[1] Q.İlkin bir hekayəçi idi. "Töhfə" adlı hekayəsi Mir Cəfər Bağırovun şəxsi icazəsindən sonra çap olunmuşdur. Onun "Çəyirtgə", "İstintaq", "Köşk-balaban", "Köçəri buludlar", "Flaminqo" və b. hekayələri müxtəlif mövzuları əhatə edir, lakonikliyi, tərbiyəvi əhəmiyyəti ilə seçilirdi. Qılman İlkinin yaradıcılığına yüksək qiymət verən professor B.Xəlilov bu hekayələrin hər birini "bir həyat" adlandırırdı.

[1] Qılman İlkin. Seçilmiş əsərləri. – Bakı: Avrasiya Press, 2006, I c., s.4

Q.İlkin gözəl təbiət hekayələrinin də müəllifidir. Onun "Bahar tüstüləri", "Fırtına, insan və vaxt" hekayələri oxucuların qarşısında ətraf mühitin gözəlliklərinə qapı açır.

Q.İlkin 1947-ci ildə Nəcəf bəy Vəzirovun uşaqlıq illərini əks etdirən "Həyat yollarında" povestini yazır. Əsərdə Nəcəfin oxumaq dalınca Şuşadan Bakıya qaçmağı, "Bakı gimnaziyası"nda Həsən bəy Zərdabi ilə tanışlığı, elə onu tanıyandan sonra qəlbində baş qaldıran yazıçı olmaq arzusu gözəl təhkiyə ilə nəql olunur: "Mən yazıçı olmağa çalışacağam, məhz belə adamları xalqa tanıtdırmaq üçün yazıçı olacağam. Çünki onları tanıtdıran adam yoxdur. Belə halda isə onlara heç kəs qiymət vermir".[1] Əsərdə tarixi həqiqətlər olmuş hadisə və obrazların real təsvirləri ilə oxucuya çatdırılır.

Q.İlkin xalqımızın dəyərli övladlarına öz əsərlərində – bədii yaradıcılığında, məqalələrində, ssenarilərində daim yer vermiş, unudulmağa qoymamışdır. Belə şəxsiyyətlərdən biri də rusların "Artilleriyanın Tanrısı" ləqəbini verdikləri general Əliağa Şıxlinski idi. Yazıçı Azərbaycan Xalq Cümhuriyyəti hərbi nazirinin müavini olmuş, Port-Arturun müdafiəsində, Birinci Dünya müharibəsində döyüşən, saysız-hesabsız təltifləri olan, "Rusca-türkcə hərbi lüğət"in (Azərbaycanda ilk dəfə) müəllifi Ə.Şıxlinski haqqında əvvəl "General" hekayəsini, 1970-ci ildə isə eyniadlı filmin ssenarisini yazır. Generalı da şəxsən tanıyırdı. Q.İlkinin tarixi faktlarla işləyərkən kənara çıxıb uydurmaya qaçmadığı, hər məlumatı dönə-dönə yoxladığı, sözün üstündə körpə uşaq kimi əsməyi, yalnız tam arxayın olandan sonra əsərində yer verməsi özü bir fakt idi. Mövzuya dəqiqliklə yanaşar, "kanatına yetişənə qədər" (Vasim Məmmədəliyev) üstündə işləyərdi. Lakin sənədlərlə, faktlarla da kifayətlənmir, sənətkar qələmini işə salıb quru faktları canlandırırdı. Müsahibələrində danışırdı ki, "Ə.Şıxlinski müharibə illərində "Azad qadın" heykəlinin yaxınlığında olurdu, qoca kişi idi, elə orada da otururdu. Generalın "Xatirələrim" hərbi memuar kitabını oxuyandan sonra qərara aldım ki, onun adına bir yazı yazım, belə hərbi xadimimizin itib-batması heç insafdan deyil..."[2]

Realist yazıçı olduğundan əsasən tanıdığı insanları əsərlərinə gətirirdi. Murtuza Muxtarov, Şəmsi Əsədullayev, Musa Nağıyev haqqında yazıb. Özü də "cəsarətlə yazıb" (B.Xəlilov). Q.İlkin M.Muxtarovu, bu "diplomsuz neft mühəndisi"ni millətin tərəqqisi naminə heç bir şeyini əsirgəməyən, Bakının abadlaşdırılmasında can qoyan, onu əzəmətli binalarla gözəlləşdirən, vərəmə tutulmuş artistini (Hüseyn Ərəblinski) müalicəyə göndərən, "İrşad" mətbəəsini pulla alıb mətbuatın sərəncamına verən, Cənubi Azərbaycandakı

[1] Azərbaycan nəsri antologiyası, IV cild. – Bakı: Şərq-Qərb, 2006, s.64

[2] "Yenilməz qoca" sənədli film. – Bakı: Lider TV. 2004. https://www.youtube.com/watch?v=PXnc-8_vx0U

milli-azadlıq hərəkatına gizli yollarla kömək edən... bir Vətən, millət aşiqi, həqiqi ziyalı kimi təsvir etmişdir. Q.İlkinin atası M.Muxtarovun muzduru olub, özü onun bağında işləyib və milyonçudan çox razı qalıb.

Qələmin sehrinə düşən ədibin bir-birinin ardınca "Hekayələr", "Sahil küçəsində", "Üçtəpə cocuqları", "Tayqa nağılı", "Madam Qədri", "Göy delfin" və b. kitabları işıq üzü görür. Professor Qara Namazov onun əsərlərində vətənimizin zəngin sərvətlərinin axtarılması, kəndlərimizin keçmişinin və bu günün öyrənilməsi məsələlərinin ətraflı təsvir və təbliğini xüsusi vurğulamışdır.

Yaradıcılığa dəniz mövzusu ilə başlayıb. "Bakının istisini də sevən", o qədər çox sevən ki, heç vaxt Bakıdan kənarda dincəlməyən Q.İlkinin dənizə bir ayrı məhəbbəti vardı. Dənizçi babası Məşədi Musadan qanla-canla gələn bu sevgi yaradıcılığına da çökmüşdü. "Matros toqqası", "Dəniz qapısı" əsərlərini dənizə həsr edib. "Dəniz həmişə göy olmur" povestində də, uşaqlar üçün yazdığı "Körpə siyənək balığı" hekayəsində də dəniz var. Amma fərqli, hərəsində bir cür, şəraitə, ovqata görə. "Dəniz həmişə göy olmur" əsərində "Böyük Vətən müharibəsi" dediyimiz dövrün arxa cəbhəsindən danışır ki, burada par-par parıldayan, minbir rəngə çalan dəniz mənzərələrinə yer yoxdur. Üzü kül rəngli səma, "üfunətli və yosunlu sahil"[1], adamboyu qalxan qamışlıq, "burnu üstə yaş qumsallığa sancılan qayıqlar"[2], fırtınanın sahilə atdığı qurumuş suitilər, çopur qayalıqlara ilişən dənizotu kimi hal-vəziyyətə uyğun təsvirlər qəlb qaraldır. Bununla belə, bu povest Q.İlkinin "bədiiyyatca ən gözəl əsəri" (tənqidçi Vaqif Yusifli) hesab edilir. Çox sevilən "Körpə siyənək balığı"nda isə yazıçının sevgili dənizini bütün cah-cəlalı ilə görürük... Bütün gecəni çalxalanmış sular yorğun-yorğun mürgüyə dalır... Günəş boylanır... Dənizin mavi gözləri aralanır. Hamıdan qabaq xırda ləpələr oyanır... Dənizin gözəlliyi qayıdır.

Q.İlkin qələmini roman janrında da sınamış, "Qalada üsyan" (1959), "Şimal küləyi" (1962) kimi yaddaqalan əsərlər yaratmışdır. "Qalada üsyan" "potyomkinçi"lərin Zaqatalaya sürgün edilməsi, onların aqibəti haqqındadır. Romanı ərsəyə gətirmək üçün yazıçı uzun müddət arxivlərdə iş aparmış, dəfələrlə Tiflisə səfər etmişdi. Romandakı Qaçaq Məhəmməd sovet dövrü nəsrində yaradılmış ilk qaçaq obrazlarındandır. Q.İlkin sovet yazıçısı olsa da, bəzi əsərləri kommunist-bolşevik mövqeyini əks etdirsə də, əslində bu, zamanın reallığı idi.

Müstəqilliyimizdə "Şimal küləyi" romanına görə ona tənə vuranlara təmkinlə yanaşar, əsasən iki yetimin həyatını təsvir etdiyini "ədəbi zadəganlıqla" əsərinin arxasında dayandığını söyləyərdi. Əsərdəki "Heydər və Yetim kimi gənclərin inqilabdan əvvəl bolşeviklərə rəğbət göstərməsi

[1] Qılman İlkin. Seçilmiş əsərləri, I cild. – Bakı: Avrasiya Press, 2006, s.73
[2] Yenə orada, s.73

yalan deyil və Q.İlkin bunları heç də özündən uydurmayıb".[1] Q.İlkin əsərlərinin mövzusunu real həyatdan götürən, "həyatı təqlid edən" yazıçı idi. "O dövrün yaxşı cəhətlərini yazmağı bacaran, obyektiv insan idi".[2] Eyni zamanda yazıçının özünəməxsus dəst-xəti, sənətkarlıq xüsusiyyətləri də göz qabağındadır. "Şimal küləyi" tarixi-publisistik roman adına da "iddialı"dır.

"İrihəcmli "Təbriz xatirələri" sadəcə xatirə, yol qeydləri sayıla bilməz; yazıçı bu əsərdə öz şəxsi xatirələri və təəssüratları vasitəsi ilə oxucunu bu şəhərin həyatına və tarixinə daxil edir".[3]

Bakı dağlılarının həyat və məişətini əks etdirən "Dağlı məhəlləsi" povesti 1978-ci ildə yazılmışdır. Yasamalda yerləşən, o zamanlar adla olan Dağlı məhəlləsi Bakının "Sovetski"dən sonra ikinci böyük məhəlləsi idi. Əhalisi də əsasən Xızıdan köçmüşdü. Bu məhəllə əsasən, Cəfər Cabbarlı, Mikayıl Müşfiq, Zeynəb Xanlarova ilə assosiasiya olunsa da, isti "dağlı çörəyi" ilə də az məşhur deyildi. Mövzusu müasir həyatdan götürülmüş bu əsər yazıçı axtarışlarının, uzun müşahidələrinin nəticəsidir. Yazıçı elə təsvirlər edirdi ki, sanki uzaq yaddaş qabağa gəlir, içərisindəkilər tökülürdü: "Boz təpələr bizim şəhəri cənub və qərb tərəfdən dövrələmişdir. Yuxarıda, bu təpələrin ətəyində böyük bir məhəllə yerləşir: Dağlı məhəlləsi. Şəhər isə çox aşağıda, çökəkdədir. Baharın, payızın leysan yağışlarında məhəllənin torpaq sinəsi lək-lək olur. Sel buraları elə yalayıb keçir ki, sanki küçələrdə üzüaşağı dərin arxlar qazılır".[4]

"Xatirə qalsın yazdıqlarım bu adamlardan, bu məhəllədən...",[5] deyən ədib, buradan keçən tramvaylara tamaşa edir, uçuq-sökük daxmalar arasında dolaşıb əsərinin qəhrəmanlarını gəzirdi. Əsasən də insan axtarırdı. Öz təbirincə desək, "yaxşı insan axtarırdı". Povest sənətkarlıq, dil-üslub xüsusiyyətlərinə görə 1960-1980-ci illər nəsrinin orijinal nümunələrindən biri sayılırdı.

Q.İlkin ən gözəl əsərlərini Bakıya həsr edib, "doğma Bakımıza olan sonsuz məhəbbəti onun qəlbinə ana südü kimi axmışdır". Hətta Bakıdan bəhs etmədiyi, tamam başqa mövzulu əsərlərinin içindən də gizli Bakı sevgisi keçir. "Faytonçu dama uzadılmış ensiz nərdivanı göstərdi: "Bax, oradan qalx, Bakıda damda yatmağın başqa ləzzəti var, – dedi".[6] 1998-ci ildə ilk dəfə çap edilmiş "Bakı və bakılılar" kitabı publisistikada bir "hadisə"dir. Beş dəfə təkrar nəşr olunmuş, müəllifinə böyük şöhrət gətirmişdir. Ensiklopedik səciyyə daşıyan bu kitab nadir və ilk dəfə çap üzü görən fotoşəkillərlə zəngindir. "Paytaxtımız Bakı keçmişdə necə olub? Hansı fırtınalardan keçib,

[1] Vaqif Yusifli. Zəngin yaradıcılıq yolu keçmişdi. "Ədalət" qəzeti, 05.04.2014
[2] Rauf İlyasoğlu. Görkəmli ədibin xatirəsi anıldı. "Respublika" qəzeti, 03.10.2014
[3] Qılman İlkin. Seçilmiş əsərləri, I cild. – Bakı: Avrasiya Press, 2006, s.6
[4] Yenə orada, s.129
[5] Yenə orada, s.129
[6] Azərbaycan nəsri antologiyası, IV cild. – Bakı: Şərq-Qərb, 2006, s.38

bugünkü xoşbəxt günlərinə necə qovuşub?", "Bakı və bakılılar" bu və ya digər suallara ziyadəsiylə cavab verir.

Əsər XIV əsrlik Bakının, Abşeronun tarixindən, əhalisindən, köklü bakılılardan söz edir. Akademik Fuad Qasımzadənin kitaba yazdığı "Ön söz"də oxuyuruq: "Böyük şəhərləri, o cümlədən paytaxtları onların ətrafında olan kəndlərsiz təsəvvür etmək mümkün deyil. Bu baxımdan bizim Bakını da. Bakılılar dedikdə biz dədə-babadan, soyundan bakılı olan şəhər əhalisini və şəhər ətrafındakı kəndlərin sakinlərini nəzərdə tuturuq".[1] Kitab necə sevgi ilə yazılıbsa, akademikin kitab, mövzu haqqındakı fikirləri də eyni sevgini ifadə edir.

Yazıçı Bakı haqqında dastana "Qədim şəhər"lə giriş edir, rus işğalı, Sisianovun öldürülməsi, şəhərin neft və milyonlar səltənətinə çevrilməsi ilə davam edir. Oxucunun gözləri qarşısında XX əsr Bakısı – xanları, milyonçuları, ziyalıları, pəhləvanları, qoçuları, hamballarına qədər, meydanları, küçələri, məhəllələri, dar dalanları, məscid və kilsələri, eləcə də ləhcəsi və mətbəxi detalları ilə canlanır.

Q.İlkinin "köhnə kişilərdən" olduğunu vurğulayan akademik Vasim Məmmədəliyev onu həm də koloritli bir insan adlandırırdı. Və eyni koloritlə də "Bakı və bakılılar"dan fisincan, düşbərə-qutab ətri gəlir", – deyirdi.

"Köhnə Bakını tanıyırsanmı?" kitabına belə bir giriş yazmışdı: "Bakının unudulmuş bəzi tarixi yerləri və adamları haqqında məlumat öyrənmək işində bu kitab səni təmin edərsə, özümü xoşbəxt hiss edərəm".[2] Doğrudan da, Bakının yaranması, Xəzər dənizinin adının ilk çəkilişi, səyyahların xatirələri, Bakı arxipelaqının adaları və Bakıya aid nə vardısa, salnaməçi Q.İlkinin əsərlərində idi. Xalq yazıçısı Əli Vəliyev yazırdı: "Mən inqilabdan qabaqkı Bakını görməmişəm. Bu şəhərdə yaşamamışam. Qılmanın əsərlərini oxuyandan sonra həm şəhəri, həm hadisələrin cərəyan etdiyi şəraiti görməyə başladım".[3] Akademik Məmməd Arif Dadaşzadə yazırdı: "Q.İlkin özünün tarixi romanlarında Bakının ağır günlərindən, orada baş verən mürəkkəb hadisələrdən elə aydın bir dil və bədii vasitələrlə danışır ki, oxucu özünü bu hadisələrin şahidi kimi hiss edir, onlar haqqında tam dolğun bir təəssürat alır".[4] Onu Bakının "tarixi yaddaşı", "yorulmaz tərənnümçüsü" adlandırırdılar. Bütün materialları sistemləşdirib gələcək nəsillərin faydalanması üçün şəxsi fondunda saxlayırdı. Bu barədə onu yalnız Qulam Məmmədli ilə müqayisə etmək olar. Millət atası H.Z.Tağıyevlə bağlı hər şeyi bilirdi. Ömrü boyu savada, təhsilə Tağıyev məktəbindən başladığını

[1] Qılman İlkin. Bakı və bakılılar. – Bakı: Nurlar, 2006, s.3
[2] Qılman İlkin. Köhnə Bakını tanıyırsanmı? – Bakı: Şirvannəşr, 2004, s.2
[3] Firidun bəy Köçərli adına Respublika Uşaq Kitabxanası. Əsrin yaşıdı Qılman İlkin. 2019, s.8
[4] Rauf İlyasoğlu. Görkəmli ədibin xatirəsi anıldı. "Respublika" qəzeti, 03.10.2014

unutmamışdı. “Tağıyev fenomeni”, “Şəxsiyyət” və b. çoxlu sayda əsərlərində qədirbilənliklə uşaqlıqda Mərdəkandan tanıdığı xeyirxah insanın obrazını yaradıb, həyat yolunu işıqlandırıb. “Ömrünün son illərini əzabla yaşadı”, – deyirdi. “Nərimanov olmasaydı, bolşeviklər onun qocalığına heç baxmazdılar”.[1]

Q.İlkin əsərlərində uşaq və yeniyetmələri də unutmamış, “dinc quruculuq illərində uşaqların təhsili, işi və fəaliyyəti”ni əsərlərində əks etdirmişdir. Hətta bir müddət uşaq yazıçısı kimi tanınmış, dərsliklərdə hekayələri yer almışdır. “Bahar tüstüləri”, “Sahildə” və başqa kitablarında uşaqların həyatından bəhs edən maraqlı hekayələr toplanmışdır. Onun şəxsiyyəti, keçdiyi ləyaqətli həyat yolu özü gənc nəslə nümunə, bir örnək idi.

“İntiqam” hekayəsini Q.İlkin müharibəyə həsr edib. Hələ 1940-cı illərdə ciddi tədqiqat işi aparan vətənpərvər ədib daşnakların alman kəşfiyyatına qulluğu barədə məqalə yazmışdı. Bu məqalənin əks-sədası Mir Cəfər Bağırova da çatmış, xeyli razı qalmışdı. Yaşadıqlarımızın acı nəticələrindən dərs çıxaran Q.İlkin bu fikirdə idi ki, uşaqlarımızda birinci sinifdən milli vətənpərvərlik şüuru formalaşdırmaq, gənc nəslə dostumuzu-düşmənimizi tanıtmaq lazımdır. Özü də əsərləri ilə vətənpərvərlik nümunəsi olmağa çalışırdı. “Həsrət kədəri”, “Əhd”, “Hicranın gündəliyi”, “Əl yaylığı” və b. hekayələrini Qarabağ müharibəsinə həsr etmişdi.

Q.İlkinin həm yazıçı, həm ssenari müəllifi kimi fəaliyyətində tarixi mövzular yer tutur. N.Vəzirov, H.Zərdabinin bədii obrazlarını yaratmış, “Kölgələr sürünür”, “Yenilməz batalyon” kimi bədii, “Nobel qardaşları” sənədli və bir neçə televiziya filminin ssenarisini yazmışdır.

O, tərcüməçilik fəaliyyəti ilə də məşğul olmuş, L.Tolstoyun “Kazaklar” povestini, A.Çexovun hekayələrini və s. dilimizə çevirmişdir. Öz əsərləri də başqa xalqların dillərinə tərcümə olunmuşdur.

Q.İlkin böyük ədəbiyyata xidmətini “Kiçik hekayələr”lə başa vurdu. Milli nəsrin “təməl daşı” sayılan hekayəyə axır töhfəsini verib getdi. Bu, yazıçının sağlığında çap edilən son kitabı oldu. Sonuncu günəcən əlindən qələm düşmədi, “Ədəbiyyat qəzeti”ndə yeni hekayələri ilə görünməkdə davam etdi. Q.İlkin “ilk baxışda ədəbi prosesdə böyük planda nəzərə çarpmasa”[2] da, dövrün ədəbi mənzərəsi onun əsərləri ilə daha canlı, əhatəli görünür. O, ədəbiyyatımızın canlı klassiki, yorulmaz mücahidi adını hələ sağlığında qazanmışdı. Yazıçının xoşbəxtliyi sözün xoşbəxtliyidir. Qılman İlkin ədəbiyyatımızda, nəsrimizdə əsərləri və əməlləri ilə milli sənətkar kimi əbədi yaşayacaqdır.

[1] Vaqif Yusifli. Qılman İlkin 96 ilin xatirə insanı. “Ədəbiyyat qəzeti”, 22.10.2018
[2] Qılman İlkin. Seçilmiş əsərləri, I cild. – Bakı: Avrasiya Press, 2006, s.6

İMRAN QASIMOV
(1918-1981)

Azərbaycan ədəbiyyatında xüsusi yeri və mövqeyi olan yazıçılarımızdan biri də nasir, dramaturq, kinossenarist İmran Qasımovdur. O, sovet dövrü Azərbaycan ədəbiyyatının görkəmli simalarından və mötəbər dayaqlarından biri olub.

Həyatı. İmran Haşım oğlu Qasımov 25 noyabr 1918-ci ildə Bakı şəhərində anadan olmuşdur. Azərbaycan Cümhuriyyətinin yarandığı, Bakı şəhərinin anti-milli qüvvələrdən (1918, 15 sentyabr) azad edildikdən sonrakı bir dövrdə dünyaya göz açan gələcəyin görkəmli yazıçısı tanınmış ziyalılar şəcərəsinin nümayəndəsi idi. Atası Haşım Qasımov Sankt-Peterburqda ali təhsil almış, anası Mələk xanım Azərbaycanın ilk mühəndis qadınlarından biri olmuşdur. Mələk xanım, eyni zamanda ədəbiyyatı, mütaliəni çox sevmiş, oğlunun yazıçı kimi yetişməsində müstəsna rol oynamışdır. Adını daşıdığı əmisi İmran Qasımov vaxtilə Üzeyir Hacıbəyli, Hüseynqulu Sarabski, Abbas Mirzə Şərifzadə ilə birgə çalışmış, Azərbaycanda musiqili teatrın yaranması və inkişafında böyük xidmətlər göstərmişdir. Yazıçı əsərlərində yeri gəldikcə bioqrafiyasının bu xoş məqamını xatırlayaraq yazırdı: "İnşaatçılar nəslindənəm, ulu babam da, babam da, atam da inşaatçı olublar".[1] İmran Qasımov mənsub olduğu ailənin təsiri və özünün həyatda qazandıqları sayəsində bütöv şəxsiyyət kimi yetişmiş, nəslinin adını şərəflə davam etdirmişdir. O, hələ gənclik illərindən görkəmli bəstəkarlar – Qara Qarayev və Tofiq Quliyevlə dostluq etmiş, bu dostluq getdikcə yaradıcı əməkdaşlığa çevrilmişdi.

İmran Qasımov 1967-1981-ci illərdə Azərbaycan Yazıçılar Birliyinə rəhbərlik etmiş, "Литературный Азербайджан" jurnalının baş redaktoru (1954-1956) olmuşdur. Azərbaycanın Xalq yazıçısı (1979), Əməkdar incəsənət xadimi (1960) fəxri adlarına, Respublikanın Dövlət Mükafatına (1980) layiq görülmüş, dövrünün nüfuzlu "Qırmızı əmək bayrağı" (1968), "Şərəf nişanı" (1959) ordenləri ilə təltif edilmişdir. Azərbaycan Ali Sovetinin və SSRİ Ali Sovetinin müxtəlif illərdə deputatı olmuşdur. Əsərləri tədqiqat mövzusuna çevrilmiş, yaradıcılığı haqqında monoqrafiyalar yazılmışdır.

İmran Qasımov 20 aprel 1981-ci ildə Bakı şəhərində dünyasını dəyişmiş, Fəxri Xiyabanda dəfn edilmişdir. Paytaxt küçələrindən birinə İmran Qasımovun adı verilmişdir.

Yaradıcılığı. İmran Qasımovun yaradıcılıq qabiliyyəti erkən yaşlarından üzə çıxmış, orta məktəbdə oxuduğu illərdən özünü büruzə vermiş, həyatının məqsədinə çevrilmişdir. "Rəngarəng rəsm əsəri" adlandırdığı bədii sözə, qələmə olan bu sonsuz sevgi onu ömrünün sonuna qədər müşayiət

[1] İmran Qasımov. Ölkələr və insanlar. – Bakı: Azərnəşr, 2009, s.19

etmişdir. Ədəbiyyata hekayə ilə gələn gələcək ədib daha sonra fəaliyyətini əsasən pyes və ssenari janrlarında davam etdirmişdir. Zaman keçəcək, Moskvanın ən məşhur teatrlarında onun əsərləri tamaşaya qoyulacaq, uğur qazanacaqdı. Ssenariləri əsasında çəkilmiş filmləri dünya turuna çıxacaqdır. Hələ ki, 1935-ci ildir, İmran 14 saylı orta məktəbin məzunudur. Əvvəlcə Azərbaycan Dövlət Universitetinin Filologiya fakültəsində, sonra isə Moskva kinossenaristlər kursunda təhsilini davam etdirir. Azərbaycan ədəbiyyatının inkişafında xidmətləri olan İmran Qasımovun "ilk ciddi ədəbi nailiyyəti" 1937-ci ildə yazdığı "Yer altından gələn səslər" ssenarisi olmuşdur. "Bu əsər həm mövzu, həm də janr etibarilə yazıçının sonrakı yaradıcılıq istiqamətinin müəyyənləşməsində mühüm rol oynamışdır. Belə ki, bu ssenarinin əsasında dayanan neft mövzusu, fəhlə sinfinin həyatı müəllifi ardıcıl və müntəzəm məşğul etmiş və həmin mövzu öz bədii ifadəsini onun dramaturgiya və kinodramaturgiya janrlarında yazdığı əsərlərində tapmışdır".[1] Əsər həm də Azərbaycan Dövlət Dram Teatrında tamaşaya qoyulub. Əslində, neft, Bakı fəhləsinin həyatı İ.Qasımovdan əvvəl də bizim ədəbiyyatda geniş işıqlandırılmışdı. Görkəmli yazıçılar M.S.Ordubadi və M.Hüseyn bu mövzuda irihəcmli qiymətli sənət nümunələri yaratmışlar. "Gizli Bakı", "Səhər", "Komissar", "Abşeron", "Qara daşlar" bu gün də maraqla oxunur, öz bədii dəyərini hifz edib saxlayır. Yazıçının yaradıcılığında dənizin, Bakı neftçilərinin xüsusi yeri var. Bakı fəhləsi, onun nəsilbənəsil davam edən neft salnaməsi İ.Qasımov yaradıcılığının leytmotividir. "İllər keçir" romanındakı hadisələr XX əsrin 20-30-cu illərində Abşeron yarımadasında baş verir. Əsərin əsas qəhrəmanları neft mədənlərində qazma işləri üzrə peşəkarlar – usta Mərdan və Vasili Lukiç Bobrovdur. Onları bir-birinə uzun illərin dostluğu, yoldaşlığı və işlərinə böyük məhəbbət bağlayır. Romanda Abşeron neft mədənlərində çalışan digər sadə əməkçilərin yaddaqalan obrazları yaradılmışdır. "İmran Qasımov fəhlə mövzusu ilə daxilən, ürəkdən bağlı olan bir sənətkar idi; fəhlə obrazını o geniş çərçivədə mənalandırardı, cəmiyyətimizin aparıcı qüvvəsi kimi nəsrin səhifələrinə gətirərdi".[2] Akademik Bəkir Nəbiyev çox haqlı olaraq, İ.Qasımovun əsərlərini "müasir Bakı fəhləsi, onun nəsillərinin estafeti haqqında dramatik salnamə" hesab edirdi. "Maraqlıdır ki, yazıçının yaratdığı qəhrəmanlar ənənəvi "staxanovçular", o zaman dəbdə olan bir beşillikdə iki beşillik yerinə yetirən əmək qabaqcılları deyildi, sadəcə, öz vəzifə borcunu ləyaqətlə yerinə yetirən sadə zəhmətkeşlər idi".[3] Xalqlar

[1] İmran Qasımov. Seçilmiş əsərləri, I cild. – Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1988; Arif Səfiyev. Ön söz: "Mənəvi mövqeyin fəallığı", s.5

[2] Mirzə İbrahimov. Ön söz / Zəkiyyə Qiyasbəyli. İmran Qasımov. – Bakı: Yazıçı, 1983, s.3

[3] Оксана Буланова. Имран Касумов и его вклад в историю Азербайджана – Azerhistory. Com, Из архива газеты это

dostluğu mövzusu İ.Qasımovun bütün yaradıcılığında tərənnüm edilir. Ən başlıcası, oxucu bu dostluğun səmimiliyinə, qarşılıqlı olduğuna inanır. "Bakının qocaman fəhləsinin dəfn mərasiminə gələn adamların sayı-hesabı yox idi. Bu ağır dərd onun yaxın adamlarının belini bükmüşdüsə də, mərasimin kütləvi şəkil alması hamını heyrətə gətirmişdi... Bu balacaboy, batıq sinəli qoca, məşhur Bakı fəhləsi idi... Qəbrin üstünü torpaq və güllərlə örtdülər".[1]

İ.Qasımov dəniz adlanan stixiyaya yaradıcılığı boyu sadiq qalmış, dənizi və onun fatehlərini vəsf etməkdən yorulmamışdır. Bu güc onu "səhnə arxasından" idarə etmiş, sənətində mühüm rol oynamışdır. O, "Xəzər dənizində şəfəq", "Xəzər nefti" (1948), "Mən Xəzər dənizçisiyəm" (1961), "Xəzərdə möcüzə" (1961) filmlərinin ssenari müəllifidir. "Dənizdə doğulub, dənizdə böyüyən" yazıçı Xəzərə də, mövzusuna da sadiq qalır, dönə-dönə müraciət edir. Xəzər dənizi İ.Qasımov üçün əbədi ilham mənbəyi, sevincdə həmsöhbəti, kədərdə üz tutduğu məhrəmi, təsəlli yeri idi. "Xəzər dənizində şəfəq" pyesinin karyerası S.Vurğun adına Rus Dram Teatrında tamaşaya qoyulmaqla bitmir, həm də Yermolov adına Moskva Teatrının səhnəsində quruluş verilməklə, tələbkar paytaxt tamaşaçılarına təqdim edilir. "Xəzər dənizçiləri haqqında dastan" (1953), "Dənizi fəth edənlər" (1959) filmlərinin ssenarisini rejissor, ssenarist, operator R.L.Karmenlə birgə yazmışdır. Hər iki film dünya kinematoqrafiyasının qızıl fonduna daxil edilmişdir. Roman Karmen Neft daşları mövzusunu daim gündəmdə saxlamış, İmran Qasımova yazdığı məktublarda dənizdə və platformadakı vəziyyətlə maraqlanaraq, əməkdaşlığı davam etdirmək niyyətində olduğunu hər kağızında qeyd etmişdir. Bu dilogiya Xəzər neftçilərini dünyada tanıdan ilk ekran əsəri olmuşdur. Bu əsərlər həm də bu günümüzə bir mesajdır. "Neft Azərbaycanın hər bir vətəndaşının həyatında müstəsna rola malikdir, Sovet İttifaqı dağılandan sonra Azərbaycan Xəzərdə ona məxsus ərazinin üzərindəki hüquqlarını mətin iradə ilə qorudu, dünyaya tanıtdı".[2]

İmran Qasımov müstəqil və müştərək 45 filmə ssenari yazmışdır. "Onun böyük ürəyi" (1958), "Bizim küçə" (1961), "İnsan məskən salır" (1967) kimi ekran əsərləri kinodramaturqun filmoqrafiyasında xüsusilə uğurlu hesab edilir, tamaşaçılar tərəfindən bu gün də sevilə-sevilə baxılır. "Süjet qurmaq, personajları idarə etmək dövlət idarəçiliyi kimi mürəkkəb bir işdir".[3] İ.Qasımov bu idarəetmə "üsulunun" öhdəsindən ustalıqla gəlmişdir.

[1] İmran Qasımov. Həsən Seyidbəyli. İllər keçir. – Bakı: Gənclik, 1968, s.185

[2] Kamran Qasımov. Həsən Seyidbəylinin "Azərbaycan epopeyası". "525-ci qəzet", 01.01.2021

[3] Mənim əsl həyatım kitablarımdadı. Ç.Abdullayevin Lent.az-a müsahibəsi. "Bizim yol", 2017, 25 yanvar, s.15

Onun üç ən məşhur filmi müharibə mövzusundadır: “Onun böyük ürəyi”, “Bizim küçə”, “Uzaq sahillərdə”. Müharibə sonrası bu mövzuda filmlərin çəkilməsinə dövlət tərəfindən start verilmişdi. Müharibə haqqında film “janr”ı da elə o zamandan formalaşdı və SSRİ dağılana qədər davam etdi. “Bizim küçə” lirik-psixoloji dram olub II Dünya müharibəsində partlayış nəticəsində anasından ayrı düşmüş Sara adlı azərbaycanlı qız haqqındadır. Film orijinal və maraqlı başlayır. Sakinlər sevinə-sevinə yeni rayonda təzə tikilmiş binada məskunlaşırlar. Həyat yeni rəng alır. Yazıçı kameranın gözü ilə tamaşaçını mərtəbə-mərtəbə gəzdirib qəhrəmanlarını bir-bir təqdim edir. Konstruktor Rasim, onun alt qonşusu Qarabağdan gələn boksçu Fuad, Bibiheybət neftçisi Barışev və onun böyük ailəsi, kələ-kötür xasiyyətli həkim Bəhramla “ayaqüstü” tanışlıqdan sonra hadisələr kuliminasiyaya doğru irəliləyir. Sakinlər də bir-biri ilə tanış olurlar, onların arasında müharibədə bütün ailəsini itirən Bəyim xala adlı tənha qadın da var. Günlərin bir günü Bəyim xala televizorda müharibə xronikasına baxarkən o illərdə itirdiyi yeganə qızı Saranı görüb tanıyır. Ekran qarşısında huşunu itirən qadının köməyinə yeni qonşuları gəlir və dərhal da Saranın axtarışına başlanılır. Fuad, ananın balasını itirdiyi məntəqəyə təcili teleqram göndərir, Musa Mehdi Hüseynzadə ilə Triyestdə görüşdüyü zaman partizanın bir bakılı qız haqqında etdiyi söhbəti xatırlayır (İmran Qasımovun Mehdi sevgisi o qədər böyük idi ki, epizodik də olsa, öz sevimli Mixaylosunu “Bizim küçə”yə gətirib həmin vaxt Triyestdə ofisiant işləyən Sara ilə görüşdürmüşdü). Mehdinin həyatını xilas edən bu qız elə Sara Gözəlova ola bilərdi. Rasim Moskvaya yola düşüb Saranın Almaniyaya qovulan əhali arasında olduğunu öyrənir. Şərikli və uzun axtarışdan sonra qız vətəninə, evinə dönür. Sara qürbətdə məruz qaldığı çətin, hətta çıxılmaz vəziyyətlərdə özünü, şəxsiyyətini, şərəfini qoruya bilir, axırda da vətənə mərd, alnıaçıq qayıdır. Və onların küçəsində əsl bayram olur. Filmi seyr edərkən özünü tamaşaçı qismində deyil, hadisələrin tam mərkəzində hiss edirsən ki, bu da ideya ilə sənətkarlıq vəhdətinin bariz nümunəsidir. Müharibənin dəhşətlərindən ayrılmaq istəyən, ilıqlaşma dövrünə qədəm qoyan sovet adamı ekranda yalnız real hadisələri görmək istəmirdi, həm də əylənmək, gələcəyə köklənmək arzusunda idi. “Bizim küçə”nin süjet dinamikasının fərqliliyi tamaşaçıya bu ovqatı verirdi. İ.Qasımovun mövzunu təqdimetmə istedadını da xüsusi qeyd etmək lazımdır. Film tənqidçi Mehdi Hüseyn tərəfindən yüksək qiymətləndirilmişdi. “Bizim küçə” filminin adı ilə məzmunu arasında gözəl və üzvi vəhdət vardır. Bizim küçə həm uzun, həm də genişdir. Bizim küçənin qızğın həyatı ilə müasir dünya arasında mənalı və dərin bir əlaqə vardır”.[1] İ.Qasımovun bu kinopovesti ittifaq miqyasında müharibə tematikasında yazılmış ən gözəl film ssenarilərindən biridir.

[1] Mehdi Hüseyn. Bizim küçə. – Bakı: “Kommunist” qəzeti, 11 yanvar 1962

“Onun böyük ürəyi” kinopovesti üç dövrü – müharibədən əvvəlki, II Dünya müharibəsi və müharibədən sonrakı dinc quruculuq illərini əhatə edir”.[1] Bu ümumi sinopsisdən əlavə, filmin süjet xəttini Səmayənin asan olmayan taleyi təşkil edir. İ.Qasımovun qadın qəhrəmanları ailə, isti ocaq həsrəti çəksə də (Sara, Nina kimi), qismətlərinə ağır, mürəkkəb tale düşmüşdür. Lakin öz hünərləri sayəsində özlərini yaratmağa qadir olan bu qadınlar sonda həyatın sınaqlarından üzüağ çıxa bilirlər. İ.Qasımov öz millətinin qadınını belə görür, onun ekran aqibətini qalib və qürurlu sona çatdırırdı. Səmayə çox sevdiyi həyat yoldaşının məhbus həyatını, xəyanətini yaşayır. Onu həqiqi məhəbbətlə sevən Mənsuru müharibədə itirir. Dözüb sınmır, irəliyə baxır, tikintidə işləyib təhsilini qiyabi davam etdirir, övladını böyüdür. Yaşadıqlarına, taleyin kədərli sürprizlərinə baxmayaraq, deyə bilərik ki, Səmayənin həyatı baş tutmuş, alınmışdır. Qadın çəkdiyi əziyyətlərə mətinliklə sinə gərir, öz ağlı, zəhməti müqabilində düşdüyü mürəkkəb vəziyyətdən qazanclı çıxa bilir. Xoşbəxtliyini işində və analıqda tapan Səmayə, əzablı yollarla da olsa, özünü sənətində təsdiq etmiş, təkbaşına Lalə kimi ləyaqətli qız ərsəyə gətirmişdir. Əsərdə Oqtay, Rəcəb, Mənsur kimi bir-birindən fərqli üç kişi obrazı da verilmişdir. Filmdə hər birinin öz yolu olan bu üç insanın Səmayənin həyatında və qəlbində danılmaz yeri olduğu da aşkar görünür.

İ.Qasımovun əsərlərinə verdiyi adlar o qədər obrazlıdır ki, onun özü haqqında film çəkən rejissorlar ad axtarmaqda özlərini çətinə salmamış, hazır adlardan məmnuniyyətlə istifadə etmişlər. İ.Qasımovun həyat və yaradıcılığına həsr edilmiş sənədli filmin adı elə özünə məxsus olub “Onun böyük ürəyi” adlanır.

Yazıçının dramaturgiyasının “leytmotivini təşkil edən bir ideya var: insan ləyaqətlə yaşamalıdır, özündən sonra bir iz qoymağa, hamının onu məhəbbətlə yad etməsi üçün çalışmalıdır”,[2] həyatdakı əsas missiyasını unutmamalıdır. İ.Qasımovun dramaturgiyasında insan amili, onun dərin mündəricəsi əsas konsepsiya kimi götürülür.

Akademik Məmməd Arif İmran Qasımovun 70-ci illərin əvvəllərində əxlaqi-etik mövzularda yazdığı “İnsan məskən salır”, “Ömür elə qısadır ki...” (1973), “Sən nə üçün yaşayırsan?”, “Nağıl başlananda”, “Dairəni genişləndirin” (1974) pyeslərini Azərbaycan dramaturgiyasının qazandığı görkəmli nailiyyətlər adlandırmışdır. Mənəviyyat problemi önə çəkilən “Sən nə üçün yaşayırsan?” pyesi Gənc Tamaşaçılar Teatrında səhnəyə qoyulmuş, uzun zaman müvəffəqiyyətlə oynanılmışdır. Ümumiyyətlə, İ.Qasımov

[1] ANS “Onun böyük ürəyi” teleqraf. Com, 28 yanvar 2016

[2] Aytən Rüstəmzadə. İmran Qasımovun dramaturgiyasında insan amili. “Ziya” informasiya mərkəzi

əsərlərinə təkrar-təkrar həyat bəxş edən yazıçılarımızdandır. Onun Allah vergisi olan istedadının diapazonu o qədər geniş idi ki, əsərləri kitab vərəqlərindən tamaşa zallarına, oradan da kinoteatrlara ayaq açırdı. Onu nahaqdan "Azərbaycanın Erenburqu" adlandırmırdılar. Kinodramaturqun ən şanslı əsərlərindən olan "İnsan məskən salır" əsasında həm "Azərbaycanfilm"də kino çəkilmiş, həm də Moskvanın məşhur "Malı" Teatrında, Qazaxıstan Dram Teatrında pyes oynanılmışdı. Hər iki təşəbbüs özünü doğrultmuş, böyük uğur qazanmışdı. Ssenarinin pyes əsasında yazılmasına baxmayaraq, "İnsan məskən salır" film-tamaşa yox, klassik ekran əsəridir. Arif Babayevin Xəzər neftçilərinin çətin, təhlükəli anlarla dolu həyatını ekranlara gətirən "İnsan məskən salır" filmi o zamankı ümumittifaq məkanında da bəyənilmiş, məşhurlaşmış, rejissor İrəvanda keçirilən kinofestivalda "ən yaxşı debütə görə" diplomu ilə təltif edilmişdi. Dəniz çörək verəndir, sərvətini əsirgəməyəndir. Lakin eyni zamanda da üzüdönükdür, zarafatı sevmir, bir anda qarşısında nə var qabağına qatıb dağıda bilər... Neft daşlarında neftçi işləyən Cavad qasırğada estakadanın aşması nəticəsində həlak olur. Bir müddət sonra briqadanı Ramiz adlı gənc mühəndis təhvil alır. Hamının sevimlisi olan usta Cavaddan sonra kollektiv yeni briqadiri qəbul etmir, ona Cavadın yerinə gələn kimi baxır. Ramizin qarşısında duran əsas problem briqadanın hörmətini qazanmaq, etimadı doğrultmaq idi. Öz işinin ustası olması, səmimiyyəti ona kollektivin nəbzini tutub münasibəti öz xeyrinə dəyişməkdə kömək edir.

"Dənizdə vəzifə borcunu yerinə yetirərkən faciəli surətdə həlak olmuş Sosialist Əməyi Qəhrəmanı Mixail Kaveroçkin ədibin "İnsan məskən salır" pyesindəki Cavadın həyatdakı prototipidir".[1] 1957-ci il 21 noyabrda Xəzərdə yüz ildə bir dəfə olan güclü və davamlı fırtına qopmuş, buruq aşması nəticəsində Mixail Pavloviç və 22 nəfərdən ibarət briqada dənizdə həlak olmuşdur. "İnsan məskən salır" əsəri "bədii ədəbiyyat real hadisələrin usta qələmlə əksinin məcmusudur" fikrini bir daha yadımıza salır. Gerçək hadisələri ədəbiyyata gətirən İmran Qasımov kimi yazıçıların yeri görünür.

"Ömür elə qısadır ki…" romantik komediyası sovet dövlətinin intibah dövründə yazılmış, İ.Qasımovun başqa əsərləri kimi, o da xoşbəxt taleli olmuş, bu pyes ədəbiyyat və teatr tənqidçiləri tərəfindən yüksək qiymətləndirilmişdir. Əsərdə İctimai-etik-mənəvi problemlər qoyulur, sosial davranış normalarına diqqət yetirilir. İ.Qasımovun içindəki insan sevgisi ağ-qara deyil, ona verdiyi əbədi dəyər təbiətin yeddi rəngi ilə süslənmişdir. Bu sevgi nəinki mane olmur, əksinə, onunla bərabər addımlayıb yaradıcılığının təməl daşına çevrilir. Əsərin ideyası finalda yazıçının özü tərəfindən, əsas qəhrəmanı Arifin dili ilə açılır: "Beşikdən qəbrədək bir yol, yeganə yol

[1] İfrat Əliyeva. Zəngin erudisiyalı yazıçı. "Ədəbiyyat qəzeti", 05.09.2018

açıqdır qarşımızda, bizi fərqləndirən də budur ki, qət edəcəyimiz bu yolu kim necə keçəcək".[1]

2016-cı ildə İ.Qasımovun xatirəsinə həsr edilən daha bir sənədli film "Ömür elə qısadır ki..." adlanır. Bu film də onun öz əsərinin adını daşıyır.

İ.Qasımov 1972-ci ildə "Nağıl başlananda" adlı pyesini yazır. Əsər Akademik Dram Teatrında Tofiq Kazımovun quruluşunda səhnəyə qoyulur və 1972-73-cü il teatr mövsümünün aparıcı tamaşalarından birinə çevrilir. "Pyesin əşxası cəmi üç nəfərdən ibarətdir, üçü də konfliktin müsbət qütbündə dayanmışdır"[2] və əsərdə bu surətlərə müxalif personaj yoxdur. Eyni tələblərlə, lakin məhdud iştirakçı ilə pyes yazmaq çətindir, amma eksperimentlər də mümkündür. "Nağıl başlananda" adı qədər gözəl, kiçik bir pyesdir. "Nağıl" gecənin bir aləmi böyük benzindoldurma məntəqəsində payız ayında başlayır. Yağışda ayaqyalın, plaşsız, cırılmış bluzkada ağlaya-ağlaya səhnəyə yüyürüb gələn Tahirə Validə rast gəlir. Validin pencəyi və 45 nömrə ayaqqabılarını geyinən Tahirə "elə bil sehirli nağıl surətləriyik", – deyir. Validə də bu qəribə şəraitdə baş verən tanışlıq çox romantik görünür. İkinci görüş milis kapitanı Valid Həsənov və onun "povestka" ilə bölməyə çağırdığı benzindoldurma məntəqəsinin mühasibi Tahirə arasında baş tutur. Hər ikisi təəccüblənir və bu görüşün inersiya ilə "qeyri-adi tanışlığın davamı" olmadığı, qanun keşikçisi və qanunpozan qismində dindirilmə olduğu acı bir fakt kimi ortaya çıxır. Qeyri-müəyyənliyə baxmayaraq, əsər optimist sonluqla başa çatır. Cəzanın labüdlüyünü görən Tahirənin "əgər iş versələr, məni gözləyəcəksənmi?" sualına Valid saatını açıb onun qoluna bağlamaqla cavab verir. "Onlar düzlük, doğruluq yolunda bütün əzablara dözməyə hazırdırlar. Onların sağlam, şüurlu məhəbbətləri də bu əzablara dözür, həyatın sınaq-larından fədakarlıqla çıxır".[3]

İmran Qasımovun sənəti hər zaman yazıçı, tənqidçi, ədəbiyyatşünas alimlərin diqqət mərkəzində olmuş, onun haqqında dəyərli fikirlər söylənmişdir. Zəmanəmizin tanınmış yazıçısı, çoxsaylı mükafatlar laureatı Çingiz Aytmatov İ.Qasımovun səhnə yaradıcılığını yüksək qiymətləndirmiş, onu "Azərbaycan teatrının adası" adlandırmışdır. İ.Qasımovu hər mənada "öz dövrünün vətəndaşı" hesab edərək, hər zaman onun "bəşəri ədəbiyyat və incəsənət haqqındakı düşüncələrinə heyranlıqla" yanaşmışdır. Oğlanlarının İ.Qasımovu kumir kimi gördüyünü, bu avtoritetin sarsılmazlığını yazdığı məktublarda qeyd etməklə, dostunun şəxsiyyətinə necə dəyər verdiyini bir daha bildirmişdir. "Azərbaycanda ən böyük dostu heç şübhəsiz ki, İ.Qasımov

[1] İmran Qasımov. Seçilmiş əsərləri, I cild. – Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1988, s.92
[2] Arif Səfiyev. Mənəvi mövqeyin fəallığı / İmran Qasımov. Seçilmiş əsərləri, I cild. – Bakı: Azərnəşr, 1988, s.9
[3] Zəkiyyə Qiyasbəyli. İmran Qasımov. – Bakı: Yazıçı, 1983, s.170

olan Ç.Aytmatov" onun vəfatından kədərlənmiş, yazdığı məktubunda üzüntüsünü ifadə etmişdir. "İmran Qasımovun işıqlı ağlı sönmüşdür. Mənim üçün İmrandan yaxın dost yox idi... Qəlbimə necə bir tənhalıq çökmüşdür".[1]

Xalq yazıçısı Anar İ.Qasımovun yaradıcılığına böyük dəyər vermiş, əsərlərində təbliğ etdiyi humanizmi, insan sevgisini xüsusilə vurğulamışdır: "İmran Qasımov istedadlı sənətkar idi, amma onun ən böyük istedadı, məncə, insanlıq istedadı idi". Və bu ali statusu İ.Qasımov bütün şüurlu həyatı boyu şərəflə daşımışdır. "İmran müəllimi erkən itirməyin böyük bədbəxtlik" olduğunu deyən Anar, onu "mürəkkəb situasiyalardan böyük insanlıq istedadını saxlayaraq, ləyaqətini və mənliyini qoruyaraq keçə bildi"yi üçün ehtiram və rəhmətlə anır. Dövrümüzün daha bir Xalq yazıçısı Elçin İ.Qasımov qədər "insanlara kömək edən, onların qulluğunda duran" ikinci bir adam tanımadığını söyləmişdir. O qədər ki, "Ümummilli liderimiz Heydər Əliyevlə dost münasibətindən həmişə ədəbiyyat adamlarının xeyrinə bir iş görməyə çalışardı". İ.Qasımovun əsas "tədqiqat obyekti insandır. İnsanın mənəvi-əxlaqi keyfiyyətləri onun bütün pyeslərinin bədii təhlil predmetini təşkil edir",[2] gələcəyi quran müasirlərinin daxili zənginliyi və saflığı əks etdirilir. İ.Qasımov öz yaradıcılığında daha çox sadə peşə sahiblərinə, adi insanlara, onların ailələrinə yer verir, bu təbəqənin cəmiyyətdə rolu barədə danışır, onun daxili və xarici parametrlərini açır.

İ.Qasımov "İllər keçir" (1973) romanını, "Dəniz cəsurları sevir" (1954), "Sən nə üçün yaşayırsan" (1959) pyeslərini, "Uzaq sahillərdə" povestini (1954) Həsən Seyidbəyli ilə həmmüəllif olaraq işləmişdir. Belə uğurlu tandem nümunələri dünya ədəbiyyatında yetərincədir: Qrim qardaşları, Vayner qardaşları, İlf və Petrov, Arkadi və Boris Struqaskilər və s. İmran Qasımov və Həsən Seyidbəyli cütlüyü bu sıranın hüdudlarını ən layiqli şəkildə genişləndirir. Bu işin öz çətinlikləri olsa da, onlar bir-birini tamamlayıb təkmilləşdirmiş, üslub, dil və s. fərqi hiss olunmamışdır. Nəticədə ayrı-ayrılıqda hər biri söz sahibi olan bu iki yazıçının yaradıcı əməkdaşlığı yaddaqalan, səmərəli və davamlı olmuşdur. Dediklərimizin bariz nümunəsi isə hər ikisinin şah əsəri olan "Uzaq sahillərdə" povestidir. Bu əsər Azərbaycan xalqının qəhrəman oğlu Mehdi Hüseynzadənin İtaliya və Yuqoslaviyada alman-faşistlərinə qarşı apardığı partizan müharibəsinə həsr edilmişdir. Povesti həm mövzu, həm sənətkarlıq xüsusiyyətləri baxımından

[1] Mehman Həsənli. Çingiz Aytmatov fenomeni və Azərbaycan. – Bakı: Elm və təhsil, 2020, s.263-268

[2] İmran Qasımov. Seçilmiş əsərləri, I cild. – Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1988; Arif Səfiyev. Ön söz. "Mənəvi mövqeyin fəallığı" // İmran Qasımov. Seçilmiş əsərləri, I cild. – Bakı: Azərnəşr, 1988, s.7

ədəbi tənqid yüksək qiymətləndirmiş, əsər görünməmiş əks-səda doğurmuşdur. Mehdi Hüseynzadənin Vətən müharibəsindən öncə ehtiramla anılması 44 günlük savaşımızda öz sözünü dedi. Əslən Laçından olan polkovnik-leytenant Qərib Baxşəliyev ağır döyüş zamanı düşmən mühasirəsinə düşərək son gülləsinə qədər vuruşmuş, ölümü əsir düşməkdən üstün tutmuşdur. Mehdinin əfsanəsi ilə böyüyüb Mehdi nümunəsi göstərən nə qədər oğlumuz torpaqlarımızın düşməndən təmizlənməsi uğrunda canından keçib şəhidliyə yüksəldi. Budur, "əsərin tərbiyəvi əhəmiyyəti" dediyimiz örnək, ciddi ədəbiyyatın təsiri!

İ.Qasımov və H.Seyidbəyli "Uzaq sahillərdə" povesti ilə 26 yaşında həlak olan qəhrəmanın adını əbədiləşdirmiş, əvvəli rəssam, müəllim, sonrası partizan olan Mehdini tanıtmışdılar. "Faşistlər Mehdinin cavab atəşi açmadığından sevinərək əllərindəki avtomatların güllələrini onun bədəninə boşaldırdılar. Mehdinin bədəni yavaş-yavaş sürüşərək pəncərədən aşağı düşdü. Elə bu vaxt dəhşətli bir partlayış yeri-göyü titrətdi. Çardaqdakı faşistlər canlarını qurtara bilmədilər. Onlar evin tüstülənən xarabazarı altında gömülmüşdülər".[1] Əsər xəfiyyə janrına bənzəyən tərzdə başlayıb, "indi bitər" həyəcanı ilə davam edir və əsl qəhrəmanlıq povesti kimi sona çatır. "Uzaq sahillərdə" sovet məkanına meteor kimi daxil oldu. Povest müxtəlif dillərə tərcümə edilib çap olunduqca, müəlliflərin oxuculardan aldıqları heyranlıq və təşəkkür dolu məktublar da artırdı. Evə yazdığı məktubunda peyğəmbərcəsinə "mənim barəmdə eşidərsiniz", – deyən Mehdinin şərəfli adını duymayan qalmadı. Xüsusi kəşfiyyat-diversiya qrupunun başçısı olan Mehdi 200 nəfərlə elə döyüşürdü ki, "faşistlərdə belə bir fikir oyandı ki, çox qüvvətli, sayca onlardan çox düşmənlə döyüşürdülər. Top atəşi, minaatanların ulaması, avtomatların taqqıltısı, qumbara partlayışları, zirehli maşınların hücumu faşistlərin arasına elə vahimə salmışdı ki, onlar bir-birini əzməyə, özləri-özlərinə atəş açmağa başlamışdılar".[2] Almanlar elə bilirdilər ki, onların canına lərzə salan "Mixaylo" böyük bir dəstənin adıdır. İki müqtədir sənətkar daha sonra filmin senarisini də bərabər işləmiş, povestin və ekran əsərinin gətirdiyi müvəffəqiyyəti də bir yerdə bölüşmüşdülər. Gerçək qəhrəmanın kino həyatı da uğurlu alınmış, dünyanın 25 dilinə tərcümə edilmiş, 100-dən çox ölkədə nümayiş etdirilmişdir. "Azərbaycanfilm"dən sonra SSRİ-də kəşfiyyatçılar haqqında ssenarilər yazılmağa, hətta çoxseriyalı filmlər çəkilməyə başlandı. "Uzaq sahillərdə" SSRİ-də kəşfiyyatçı haqqında çəkilən ikinci film, partizan Mixaylo da ilk qaranquşlardan idi. "Uzaq sahillərdə" replika-sitat baxımından ən çox xatırlanan, tez-tez misal gətirilən filmlərimizdəndir. "Uzaq sahillərdə" əllinci illərdə lentə alınmış ilk və yeganə

[1] İmran Qasımov, Həsən Seyidbəyli. Uzaq sahillərdə. – Bakı: Gənclik, 1974, s.307
[2] Yenə orada, s.300

ekran əsəridir ki, filmdə ümumiyyətlə Sovet İttifaqının adı çəkilmir".[1] Mehdi azərbaycanlı oğlu, Azərbaycan qəhrəmanı kimi təqdim edilir. Mehdi Hüseynzadə Azərbaycan xalqının milli "relikviyasıdır", yanaşması ssenaridən, onun müəlliflərindən irəli gəlirdi.

İ.Qasımov ictimai xadim kimi xarici ölkələrdə səfərlərdə olmuş, təəssüratlarını qələmə almışdır. Bir yazıçı ancaq bu qədər milli ola bilər, bir insan yalnız bu qədər bəşəri ola bilər... "Fransız qobeleni" və "İtaliya mozaikası" sənədli povestləri yazıçının köhnə qəhrəmanlarının taleyi, keçmiş və gələcək haqqında düşüncələridir. Bu əsərlərdə həm də sözügedən Avropa ölkələrinin o zamankı "vəziyyəti, adamların yaşayış tərzi, mənəvi münasibətləri, ən çox ideologiya sahəsində çalışanların mübarizəsi öz əksini tapmışdır".[2] Bu povestlərin daxil olduğu "Azərbaycan xalçası" triptixini İ.Qasımovun müəllif monoloqu da adlandırmaq olar. Əsər rus dilində yazılmış, Yusif Əzimzadə tərəfindən dilimizə çevrilmişdir. "Üç etüd"ü oxuyandan sonra, insanın zövqü, həyata baxışı, lap elə həyatının özü dəyişir. Gedib həmin yerləri gəzmək, elə yazıçının gözü ilə görmək istəyirsən. "Fransız qobeleni" yol qeydlərini yazıçı 1969-cu ildə yazmışdır. 1976-cı ildə İ.Qasımov "Ceyran" povestini qələmə alır. Yazıçının "Fransız qobeleni"ndəki səfərinin məqsədi olan araşdırmaları fakt olaraq bu povestdə öz əksini tapmışdır. "Ceyran" haradasa "Dairəni genişləndirin" (1975) dramının davamıdır. Göründüyü kimi, müəllif öz qəhrəmanlarını başlı-başına buraxmır, həyat yollarını nəzarətdə saxlayır, fürsət düşdükcə yenə onlara "dönür". "Ceyran"ı, onun dumanlı qalan aqibətini unutmayan yazıçı 1980-ci ildə povesti teatr üçün yenidən işləyir. Səhnə variantı "Dinsizin tövbəsi" adlanır. İ.Qasımovun əsərlərinin zəncirvari gediş üzrə bir-birinə bağlılığını, bir neçə janrda yaşamağa davam etdiyi yuxarıdakı misallarda qeyd edilmişdir.

"Mən aydın surətdə Ceyranı Neverdə, Plan de Orqonda, döşəməsinin altında tüfənglər, tapançalar, mina dolu yeşiklər yığılmış yastı, alçaq evdə görürəm; əlində vərəqələrlə dolu zənbil düz esesçilərin sırasına doğru addımlayan görürəm".[3]

Yazıçı 1961-ci ildə "Bizim küçə"də Sara Gözəlovanı da axtarmışdı. Qızlar hər ikisi müharibədə itkin düşsə də, bu axtarış o axtarışdan deyildi. Sara uzunmüddətli kəşfiyyatdan, başı min bəla çəkəndən sonra xoş təsadüf nəticəsində anası Bəyimə qovuşa bilmişdi. Burada isə Ceyranın son mənzilini tapmaq, ipucunun hara gedib çıxdığını öyrənə bilmək özü bir şans idi.

İ.Qasımov Marseldən, Parisdən sonra tərcüməçi Tatyana Kudryavtseva ilə birlikdə "isti bir iyun günündə "İtalya mozaikası"nın ardınca uçub Romaya

[1] Kamran Qasımov. Həsən Seyidbəylinin Azərbaycan epopeyası. "525-ci qəzet", 01.01.2021
[2] İmran Qasımov. Seçilmiş əsərləri, I cild. – Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1988, s.11
[3] İmran Qasımov. Ölkələr və insanlar. – Bakı: Azərnəşr, 2009, s.74

gəlir. Povest maraqlı və həyəcanlı başlayır. İtaliya "Mixaylo" deyib ona üz tutan yazıçını yumşaq desək, soyuq qarşılayır. Bu elə zaman idi ki, Romanı etiraz dalğası bürümüşdü. Parlament binası qarşısındakı oturaq tətildən tutmuş, mehmanxanalara, dəmiryol kassalarına qədər heç yer işləmirdi. Səfərinin məqsədi sadəcə, ziyarət olmayan, zamanı məhdud SSRİ-dən gələn nümayəndələr çıxılmaz vəziyyətə düşmüşdülər. Hətta "olmaya, məni yola salanda, hay-küy içində, ardımca su atmağı yaddan çıxarıblar?"[1] – deyə müəllifin ümidsizliyə qapıldığı an da olur.

Burada yenidən qəhrəmanımızın sevimli obrazı ilə qarşılaşırıq. Yazıçı yaratdığı bütün qəhrəmanlarını sevir. Lakin "kefcil, şən, dəcəl" olan Mixaylo yalnız "Uzaq sahillərdə"nin deyil, bütünlükdə İ.Qasımov yaradıcılığının baş qəhrəmanıdır. Müharibənin Mehdini tələbə ikən haqlayıb uzaq Adriatik dənizinin sahillərinə atdığını, igid həmyerlimizin anında və düzgün qərarlar verə bilmək bacarığını, Mehdinin "atlı", faşistlərin "piyada" olub onu tapa bilməməsini bir daha oxuyuruq, öyrənirik. Mixaylonun adı əfsanəyə döndüyü yerlərdə – uzaq sahillərdə o qədər tanınır, əziz tutulur ki, xüsusi isim olmaqdan çıxmış, ona bənzəməyə çalışan "mixayloçular" yetişmişdir. 1971-ci il – İtaliya səfərinə qədər İ.Qasımov bunları yalnız arzulaya və təxmin edə bilərdi. "Uzaq sahillərdə" əsərinin yazılmasından on beş il, müharibənin bitməsindən daha çox vaxt keçəndən sonra yenidən bu mövzuya və qəhrəmanının döyüşdüyü yerə qayıdan yazıçı üçün vacib idi ki, görsün "şöhrətli partizanın qəbri müasir Avropa peyzajı ilə necə bağlanır, faşizmə müqavimət göstərənlər arasında onun xatirəsi nə dərəcədə yaşayır, ona ehtiram və məhəbbət gənc nəslə necə aşılanır"[2] və s. Yazıçının səfəri xoş və məhsuldar olur. "Küçələr, meydanlar, döngələr – Seyidbəyli ilə bərabər, biz xəyalən, fikrən bu yerlərdə gəzmişik, bunlar hamısı bizim romandakı kimidir, ya təxminən o cürdür: külək əsəndə yapışmaq üçün məhəccər, şəhərin kənarına gedən kiçik tramvay".[3] İ.Qasımov altı min kilometr məsafə qət edib yetişdiyi Mixaylonun türbəsindən vətənində qoyulacaq abidəyə tökmək üçün bir ovuc torpaq götürməklə yanaşı, Bakıya ondan az qiymətli olmayan bir xəbər də gətirir... Qafqazlı balası Mehdi Hüseynzadənin qəhrəmanlığı haqqında o zamankı mötəbər İtaliya mətbuatı belə yazırdı: "Hadisələrdən nə qədər çox vaxt keçirsə, onlar o qədər aydın və qabarıq görünürlər".[4] Bəli, uzaqdan daha yaxşı görünür... Yazıçının ünsiyyətdə olduğu adamlar Mixaylo haqqında elə xatirələr danışırlar ki, oxucunun qəlbi fəxrlə dolur, millətimiz və xalqımız adına qürurlanırsan. "Hamı məndən soruşur ki, Mixaylo necə

[1] İmran Qasımov. Seçilmiş əsərləri, I cild. – Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1988, s.148
[2] Yenə orada, s.149
[3] İmran Qasımov. Ölkələr və insanlar. – Bakı: Azərnəşr, 2009, s.117
[4] İmran Qasımov. Seçilmiş əsərləri, I cild. – Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1988, s.169

adam idi? Bəlkə fövqəlbəşər idi? Yox, yox, bir daha yox! Adi bir adam idi. Cəsur və namuslu. Düşmən eşelonunu yoldan çıxarmaq, partlatmaq asan iş deyil, amma Mixaylo əsl fəhlə kimi, usta kimi yavaşca deyirdi: ammonal filan qədər, şnur uzun deyildi. İki döyüşçünü gözətçi göndərdim. Belə çıxırdı ki, o adi bir iş görüb".[1]

Əsər hadisələrin epik həllindən əlavə yeni forma axtarışları, maraqlı epizodları, nüansları ilə də diqqəti cəlb edir. Məsələn, detektiv janrı dedikdə gözümüz önünə gələn ilk simalardan olan Jorj Simenonun evinə viziti, onun yaradıcı atmosferinin təsviri, və nəhayət, məşhur yazıçının şəxsiyyəti, qonaqpərvərliyi üç səhifə həcmində oxucu üçün ən maraqlı, diqqətçəkən məqamlar qabardılmaqla əks edilmişdir. Belə xoş məqamlardan biri də, Simenonun İ.Qasımovu bu qədər maraqlandıran Müqavimət hərəkatının fəal üzvlərindən olması, partizan paraşütçüləri dəfələrlə evində gizlətməsi faktıdır. Beləliklə, İ.Qasımovun professional nasir kimi daha bir məziyyəti, az kəlmə ilə böyük məna ifadə etmək bacarığı, uzunçuluqdan, sözçülükdən uzaq olmaq kimi əsas yazıçı keyfiyyəti üzə çıxır. Səyahətçi-yazıçı İ.Qasımov Romada Trevi fontanının yanından xanım həmkarı ilə dəfələrlə şütüyüb keçsə də, işin çoxluğundan ora pul atmağa imkan tapmır. Bir onillik ötəndən sonra yazıçı həmin məsələyə qayıdır, dünyanı dolaşsa da, bir daha Romaya – Trevi fontanına dönə bilməməyinin, yolu düşməməsinin səbəbini həmin o inancda axtarır, bu təəssüfünü povestə "son söz əvəzi" kimi əlavə edir. Düşünürəm ki, bu da yazıçının həssas, romantik qəlb sahibi olduğuna bir işarədir.

O hansı mövzuda yazır-yazsın, istər tapdanmış yolla getsin, ya yeni cığır açsın, öz üslubunu, pozisiyasını, əqidəsini gözləyən bir sənətkardır. İ.Qasımovun yaradıcılıq axtarış və tapıntıları hər zaman diqqət çəkmiş, ədəbi tənqid tərəfindən yüksək qiymətləndirilmişdir. Yazıçının "publisistik məharəti bir də ondadır ki, o, hər yeni yazısını yeni üslub və formada təqdim edir. Onun publisist yazıları bir-birinin təkrarı deyil, onlarda bir şablonluq, yeknəsəklik hiss olunmur".[2] Gördüklərinə özünəməxsus münasibət, dəqiq müşahidələr, maraqlı qeydlər, detallara girmə və s. onu bir publisist kimi səciyyələndirir. "Məsələn, "Fransız qobeleni" və "İtaliya mozaikası" oxucunu yalnız öz dərin məzmunu ilə deyil, yeni bədii forması ilə də cəlb edir... Xatirələr, yol qeydləri əsas ideya ətrafında elə toplanıb ki, tam və kamil bədii əsər əmələ gəlib".[3]

İ.Qasımovun publisistikası ayrıca bir tədqiqatın mövzusudur. O, yazıçı-publisist kimi ictimai-siyasi prosesləri izləmiş, cəmiyyətin aktual problemlərinə, həyat hadisələrinə vətəndaş mövqeyini və münasibətini əsərləri

[1] İmran Qasımov. Seçilmiş əsərləri, I cild. – Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1988, s.189
[2] Zəkəriyyə Qiyasbəyli. İmran Qasımov. – Bakı: Yazıçı, 1983, s.180
[3] C.Məmmədov. Qəhrəmanların məhəbbəti. "Kommunist" qəzeti, 25 noyabr 1978

vasitəsi ilə bildirmişdir. 1968-ci ildə Kremlin Sütunlu salonunda böyük Azərbaycan şairi və dövlət xadimi "Molla Pənah Vaqif haqqında söz" demiş, sonra bu çıxışını 70-ci illərdə yazdığı məqalə və nitqlərinə əlavə edib kitab halına salaraq, Moskvada "Высокое назначение" adı altında çap etdirmişdi. M.P.Vaqifin 250 illiyi münasibətilə etdiyi məruzəsi bu günümüzdən baxanda böyük əhəmiyyət daşıyır. Şuşadakı bir sıra əhəmiyyətli tikililər, o cümlədən Şuşa qalası xanlığın baş vəziri M.P.Vaqifin birbaşa nəzarəti altında inşa edilmişdi. Burada natiq kiçik Qafqazın yüksək zirvəsində yerləşən Şuşa qalasından, Vaqifin saraya dəvət olunub xanlığın idarə edilmə işlərinin ona tapşırılmasından, şairin ictimai xadim kimi Qarabağın çiçəklənməsi, digər Azərbaycan xanlıqları ilə yaxınlaşmasında gördüyü böyük işlərdən danışır. Qarabağ problem olmadığı kimi görünən zamanda da millətimizin ziyalılarının, fikir sahiblərinin diqqət mərkəzində olmuş, barıt çəlləyi olduğu respublika rəhbərliyinin yadından çıxmamışdır. Ümummilli liderimiz Heydər Əliyevin Şuşada şairə məqbərə yaratmaq təşəbbüsü "bir tərəfdən milli ədəbiyyata sevgisindən irəli gəlirdisə, digər tərəfdən, diyarın tarixini, əhalisinin etnik mənsubiyyətini bir daha göstərməklə bağlı idi".[1] "Yüksək təyinat" kitabına yazıçının "Dostun gözləri ilə", "Sönməz məşəl", "Karmenin ürəyi", "Qara Qarayevin briqantinası", "Həmişə yolda", "Roman ustası", "Zamanın məğzi" və başqa əsərləri daxil edilmişdir.

Hər insanın ömrü bir planetdir. "Maraqsız insanın ömrü elə maraqsızlığı ilə maraq doğurursa" (Y.Yevtuşenko), dünyanı gəzmiş, ölkələr görmüş, maraqlı sənət adamları ilə görüşən yaradıcı biri haqqında gör nələr demək olar. "İ.Qasımov xoşbəxt insandır, çünki ömür yolları, yaradıcı kəşflərində ömrümüzün təkrarsız və qəhrəmanlıq poeziyası parlaqcasına əksini tapmış insanlarla ülfət və ünsiyyət sarıdan bəxti gətirmişdir".[2] Yerində deyilmiş bu fikir yazıçının uzun illər əməkdaşlıq etdiyi "Literaturnaya qazeta"ya aiddir.

"Vaxtilə Maksim Qorki Valeri Bryusovu "mədəni yazıçı" adlandırmışdı. Bu ifadəni mən İmran Qasımova da aid edirəm".[3] Yazını yekunlaşdırmaq üzrə ikən bu cümləyə rast gəldim və bu qənaətin nə qədər doğru və yerində olduğunu bir daha anladım. İ.Qasımovun yaradıcılığı ilə baş-başa qalmaq, onun iç dünyasına sirayət etmək, parlaq obrazını görmək – mənə bu nəticəyə gəlməyə əsas və səbəb vermişdi. Onun kimi insanlar ölümlərindən sonra da xatırlanır və sevilirlər.

---

[1] Ulu öndər Heydər Əliyev: Şuşa əziz bir şəhərdir, əziz bir torpaqdır, əziz bir qaladır, əziz bir abidədir. https://azertag.az/xeber/ulu_onder_heyder_eliyev_susa_eziz_bir_seherdir_eziz_-bir_torpaqdir_eziz_bir_qaladir_eziz_bir_abidedir-1689597

[2] İmran Qasımov. Ölkələr və insanlar. – Bakı: Azərnəşr, 2009, s.165

[3] Zəkəriyyə Qiyasbəyli. – Bakı: Yazıçı, 1983, s.26

İmran Qasımov çox yaşamasa da, çox iş görə bilmişdir. Ədibin bütün yaradıcılığını, ömür yolunu, təltif və mükafatlarını bir oçerkin hüdudlarında əhatə etmək mümkünsüzdür. "Onu bu şöhrət zirvəsinə aparan yollar müxtəlif döngələrdən, quruluş və dövrün tələblərindən keçmişdir. Xəzərdən başlanğıc götürən bu çətin və şərəfli yaradıcılıq yolu Bakıdan çox uzaqlarda – Adriatik dənizinin sahillərində lövbər salmışdı".[1] "Onun böyük... qələmi" sayəsində qazanan isə yenə sənət, ədəbiyyat oldu.

İmran Qasımov ssenarilərini bütün diqqəti ekranda olan tamaşaçı üçün yazırdı. Ömür möhləti qısa, əsərlərinin ömrü uzun olan yazıçı bu gün də maraqla oxunur, qoyub getdiyi ədəbi irs dəyərini saxlayır, tədqiqata cəlb edilir. Özünün insan sevgisi, xeyirxah əməllərilə onu tanıyanların ürəklərində məskən salan sevimli yazıçımız İmran Qasımov maraqlı əsərləri ilə oxucularının qəlbində daim yaşayacaqdır.

[1] "Onun böyük... qələmi". F.Köçərli adına Respublika Uşaq Kitabxanası, 2018

HÜSEYN İBRAHİMOV
(1919-2008)

Xalq yazıçısı Hüseyn İbrahimov XX əsr Azərbaycan bədii nəsrinin əsas yaradıcıları sırasında mühüm yer tutur. Onun nəsr əsərləri ədəbiyyatda sovet ideologiyasından xalqın mənəvi dəyərlərinin, insanın daxili aləminin təsvirinə keçid proseslərini əks etdirir.

Həyatı. Hüseyn Məmmədəli oğlu İbrahimov 23 may 1919-cu ildə Naxçıvan Muxtar Respublikası Şərur rayonunun Şahtaxtı kəndində anadan olmuşdur. İlk natamam orta təhsilini Şahtaxtı kənd yeddiillik məktəbində almışdır. Araz çayının sahilində yerləşən, görkəmli Azərbaycan yazıçısı Cəlil Məmmədquluzadənin "Sahib-mənsəb və ziyalılar məskəni" adlandırdığı, ölkəmizin ədəbi-ictimai fikrinə böyük simalar bəxş etmiş qədim Şahtaxtı kəndinin coğrafi mövqeyi və maarifçilik ənənələri Hüseyn İbrahimovun da mənəvi təkamülündə və dünyagörüşünün inkişafında, gələcək sənət taleyində mühüm rol oynamışdır. Şahtaxtı kəndində uşaqlıq yaddaşına həkk olmuş həyat hadisələri və burada tanıdığı insanlar Hüseyn İbrahimovun gələcək yaradıcılıq fəaliyyətində zəngin istinad mənbəyi olmuşdur.

Bundan sonra təhsil aldığı Naxçıvan Pedaqoji Texnikumunda qazandığı bilik və bacarıqlar onun həyata vəsiqə almasına və bədii yaradıcılığa hazırlamasına ciddi təsir göstərmişdir. Gələcək yazıçının ilk qələm təcrübələri də tərcümeyi-halının bu mərhələsində meydana çıxmışdır. Naxçıvan Pedaqoji Texnikumunu 1940-cı ildə bitirən Hüseyn İbrahimov həmin ildə təyinatla göndərildiyi Şərur rayonunun Sədərək kənd orta məktəbində bir il pedaqoji fəaliyyətlə məşğul olmuşdur.

Tələbəlik illərindən ictimai fəallığı ilə diqqəti cəlb edən Hüseyn İbrahimov 1941-ci ildə Azərbaycan Komsomolu Noraşen rayon (indiki Şərur rayonu – İ.H.) komitəsinin birinci katibi seçilmişdir. O, 1943-1947-ci illərdə Naxçıvan Vilayət Komsomol Komitəsinin katibi vəzifəsində çalışmışdır. Gənclər təşkilatındakı fəaliyyəti onun həyatı daha yaxından müşahidə etməsinə şərait yaratmışdır. Müxtəlif əsərlərindəki vahid müəllim obrazı ilə əlaqədar əhvalatlar bu dövrdəki müşahidələri əsasında qələmə alınmışdır.

Gənclik dövründə ədəbiyyata və mətbuata ciddi maraq göstərən Hüseyn İbrahimovun tərcümeyi-halında həmin sahələr üzrə fəaliyyəti mühüm yer tutur. Hüseyn İbrahimov 1947-ci ildə komsomol təşkilatından mətbuat sahəsinə – "Şərq qapısı" qəzetinin redaktor müavini vəzifəsinə göndərilmişdir. Sonra o, 1949-cu ildə Naxçıvan Nazirlər Soveti yanında Radio Verilişləri Komitəsinin sədri vəzifəsinə irəli çəkilmişdir. Hüseyn İbrahimov 1954-1960-cı illərdə Azərbaycan Yazıçılar İttifaqı Naxçıvan filialının sədri kimi muxtar respublikada ədəbi qüvvələrin inkişaf etdirilməsi sahəsində

xidmət göstərmişdir. O, 1953-1958-ci illərdə Azərbaycan Dövlət Universitetində jurnalistika ixtisası üzrə qiyabi ali təhsil almış və həmin illərdə yaradıcılıq təşkilatlarında göstərdiyi qabiliyyəti onun ideoloji cəbhədə irəli çəkilməsinə yol açmışdır.

Hüseyn İbrahimovun bundan sonrakı fəaliyyətində siyasi-ideoloji iş və dövlət idarəçiliyi müəyyən yer tutur. O, 1960-1961-ci illərdə Naxçıvan Vilayət Partiya Komitəsində mühazirəçilər qrupunun sədri işlədikdən sonra 1961-1965-ci illərdə "Şərq qapısı" qəzetinin redaktoru olmuşdur. Naxçıvan Muxtar Respublikasının əsas mətbuat orqanı olan "Şərq qapısı" qəzeti yazıçı Hüseyn İbrahimovun səyləri nəticəsində həm ictimai-siyasi, həm də ədəbiyyat qəzeti kimi müxtəlif sahələri əhatə etmişdir.

Naxçıvan Muxtar Respublikasının ictimai-siyasi həyatında və ədəbi-mədəni mühitinin inkişafında da Hüseyn İbrahimovun mühüm xidmətləri olmuşdur. O, 1965-1970-ci illərdə Naxçıvan Vilayət Partiya Komitəsi Təbliğat və təşviqat şöbəsinin müdiri vəzifəsində çalışmış və muxtar respublikada yaradıcılıq təşkilatlarının fəaliyyətinin canlandırılmasına, regionda teatr, ədəbiyyat, mətbuat sahəsinin inkişaf etdirilməsinə nail olmuşdur. Hüseyn İbrahimovun 1970-1975-ci illərdə Naxçıvan Muxtar Respublikasının Mədəniyyət naziri kimi fəaliyyəti də uğurlu olmuşdur.

Hüseyn İbrahimov IV, VII və VIII çağırış Naxçıvan MSSR Ali Sovetinin deputatı seçilmiş, 1963-1967-ci illərdə Naxçıvan MSSR Ali Sovetinə sədrlik etmişdir. Azərbaycan mədəniyyət işçiləri nümayəndə heyətinin İtaliya və Əlcəzairə səfərlərinə rəhbərlik edən Hüseyn İbrahimov Finlandiyada, Danimarkada, İranda və Türkiyədə səfərlərdə olmuşdur.

Göründüyü kimi, Xalq yazıçısı Hüseyn İbrahimovun həyatında və taleyində dövlətçilik fəaliyyəti özünəməxsus yer tutmuşdur. XX əsr ədəbi-ictimai fikir tarixində dövlət işi ilə yaradıcılıq fəaliyyətini məharətlə uzlaşdırmağı bacaran sənətkarlardan biri olmuşdur. Müxtəlif dövlət vəzifələrində çalışmaq Hüseyn İbrahimovun yaşadığı mühitin hamı tərəfindən görünməyən tərəflərinə bələd olmasına şərait yaratmışdır. Dövlətçilik sahəsindəki təcrübəsi onu özünəməxsus ictimai baxışlara malik olan cəmiyyətşünas yazıçı səviyyəsinə çatdırmışdır. Azərbaycan dövlətçilik tarixinin müxtəlif mərhələlərindən – Atabəylər dövründən, sovet hökumətinin qurulmasından, qaçaqçılıq hərəkatından, repressiya illərindən, müstəqillik uğrunda mübarizədən yazdığı əsərlərin, habelə əsərlərindəki raykom katibi, ispalkom sədri, istehsalat rəhbəri, komsomol katibi, məktəb direktoru və s. kimi obrazların uğurlu alınmasında yazıçının dövlətçilik təcrübəsi əhəmiyyətli rol oynamışdır.

Hüseyn İbrahimovun həyatında mətbuat sahəsindəki fəaliyyətinin xüsusi yeri və rolu olmuşdur. O, 1975-1980-ci illərdə yenidən "Şərq qapısı"

qəzetində Ədəbiyyat şöbəsinin müdiri vəzifəsində çalışaraq, muxtar respublikada yazıb-yaradan qələm sahiblərinin istedadının üzə çıxarılmasına mühüm töhfələr vermişdir. Hüseyn İbrahimov 1980-ci ildən etibarən 28 il Naxçıvan Muxtar Respublikasında yaşayıb-yaradan yazıçıları özündə birləşdirən yaradıcılıq təşkilatına rəhbərlik etmişdir. Belə ki, 1980-1997-ci illərdə Azərbaycan Yazıçılar İttifaqı Naxçıvan Filialının məsul katibi vəzifəsində çalışmışdır. Azərbaycan Yazıçılarının IX Qurultayında Hüseyn İbrahimovun təşəbbüsü ilə Respublika Yazıçılar İttifaqının Naxçıvan Filialının əsasında ölkə yazıçılar təşkilatının tərkibində Naxçıvan Yazıçılar Birliyi yaradılmışdır. Hüseyn İbrahimov 1997-ci ildən ömrünün sonuna qədər Naxçıvan Yazıçılar Birliyinə sədrlik etmişdir. Hüseyn İbrahimovun Naxçıvan Yazıçılar Birliyinin sədri kimi fəaliyyəti də uğurlu olmuş, müstəqillik dövründə Naxçıvanda ədəbi mühitin yenidən canlandırılmasına xidmət etmişdir. Azərbaycan Yazıçılar Təşkilatının əllinci illərdən sonra təxminən yarım əsr ərzində keçirilmiş bütün qurultay və plenumlarının iştirakçısı olan Hüseyn İbrahimov həmişə ədəbiyyatın milliliyi, xəlqiliyi, həyatiliyi uğrunda mübarizə hərəkatında fəallıq göstərmişdir. Naxçıvanda ədəbi mühitin və yeni yaradıcı nəslin qayğıları Hüseyn İbrahimovun məqsədyönlü fəaliyyəti sayəsində daim özünün müsbət həllini tapmışdır.

Naxçıvanda yaşayıb-yaradan yaradıcı qüvvələrin ilk ədəbi almanaxı olan "Səadət mahnıları" toplusu 1995-ci ildə Hüseyn İbrahimovun təşəbbüsü ilə çap olunmuşdur. XX əsrin səksəninci illərində "Araz" almanaxının təsis edilməsi və nəşri, həmçinin "Qoy tanısın dünya səni" adlı şeir toplusunun nəşri də onun səmərəli təşkilatçılıq işinin nəticəsidir. O, 1958-ci ildə özünün "Baharın hekayəsi" povesti ilə yanaşı, qələm dostlarından Müzəffər Nəsirlinin "Mənim muxtar respublikam", Hüseyn Razinin "Kəndimizin səhəri" adlı ilk şeir kitablarını, habelə 1982-ci ildə isə Hüseyn Cavidin anadan olmasının yüz illiyi ilə əlaqədar şeir toplusunu da Naxçıvanda daxili imkanlar hesabına nəşr etdirməyə müvəffəq olmuşdur. O, yaradıcı gəncliyin müdrik müəllimi və etibarlı bələdçisi olmuşdur. Bu diyarda yazıb-yaradan yeni yaradıcı nəslin bir çox nümayəndələri məhz Hüseyn İbrahimovun zəmanəti ilə Yazıçılar Birliyinin üzvlüyünə vəsiqə almışdır. Hüseyn İbrahimov muxtar respublika yazıçılar təşkilatına rəhbərlik etdiyi dövrdə Naxçıvan ədəbi mühitində təmsil olunan istedadlı yaradıcı gənclərin bir çoxu haqqında mətbuatda "Uğurlu yol" xarakterli məqalələr yazmış, onlara xeyir-dua vermişdir.

Müstəqillik ərəfəsində, 1988-ci ildə Ermənistan tərəfindən azərbaycanlılar Qərbi Azərbaycandan zorla çıxarıldıqları dövrdə Hüseyn İbrahimov yeni yaradılmış Naxçıvan Qaçqınlar Cəmiyyətinə rəhbərlik etmişdir. O, ata-baba torpaqlarından qovulmuş Qərbi Azərbaycan əhalisinin haqlarının müdafiəsi, onların yerləşdirilməsi və ölkəmizin digər regionlarına köçürülməsi ilə

əlaqədar məsələlərin həll edilməsinə lazımi köməklik göstərmişdir. Hüseyn İbrahimov XX əsrin doxsanıncı illərinin əvvəlində, milli azadlıq hərəkatı dövründə sovet ordusu hərbçilərinin Naxçıvan şəhərinə daxil olmasına açıq etirazını bildirmiş və ayağından yaralanmışdır.

Görkəmli dövlət xadimi, Ümummilli liderimiz Heydər Əliyev yazıçı Hüseyn İbrahimovun yaradıcılığına yüksək qiymət vermişdir. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 23 may 1998-ci il tarixli Sərəncamı ilə Hüseyn İbrahimov "Xalq yazıçısı" adına layiq görülmüş, ədəbiyyat və mətbuat sahəsindəki xidmətlərinə görə "Şöhrət" ordeni ilə təltif olunmuşdur.

Hüseyn İbrahimovun anadan olmasının 50, 75, 80 və 100 illik yubileyləri respublika miqyasında, dövlət səviyyəsində geniş qeyd olunmuşdur. Əsərləri bir çox xarici ölkə xalqlarının dillərinə tərcümə edilmişdir.

Xalq yazıçısı Hüseyn İbrahimov 10 aprel 2008-ci ildə Naxçıvan şəhərində vəfat etmişdir.

Yaradıcılığı. Xalq yazıçısı Hüseyn İbrahimov zəngin və çoxcəhətli yaradıcılıq fəaliyyətinə malikdir. Ədəbi fəaliyyətə 1944-cü ildə "Ədəbiyyat qəzeti"ndə dərc olunan "O, düşməndə qoymadı anasının qanını" adlı şeirlə başlayan gəncin yaradıcılığında sonralar poeziya xətti inkişaf etməmişdir. Bununla belə, şeir yaradıcılığı onun üçün ədəbiyyat aləmində "ilk məşqlər" kimi müəyyən əhəmiyyət daşıyır. Bu şeir nümunələrində ədəbiyyat qaydalarına, düşüncələrini bədii şəkildə ifadə etmək bacarığına yiyələnmək meyilləri özünü aşkar şəkildə nəzərə çarpdırır. Hətta keçən əsrin təxminən 40-cı illərinin ortalarında qəzəl janrında yazılmış "Özüməm" rədifli aşağıdakı şeir Hüseyn İbrahimovun ədəbi savadı, mütaliəsi haqqında aydın təsəvvür yaratmaqla bərabər, lirik qəhrəmanın bənzərsiz obrazını da dolğun surətdə canlandırır:

Xalıqa, söylə ona, qəlbinə soltan özüməm,
Çeşminə eşq-nuri, canına həmcan özüməm.

Qəsdinə dursa Fələk, çəksə də gər dara onu,
Qətlinə hökm verən aqili-Xaqan özüməm.

Təşnəkamam mən eşqin, bəlayi-sərsəm tək,
Karvani-məhəbbətin önündə sarban özüməm.

Çəksələr məşhər ayağına onu, bir də onu,
Hər kərə mən gedirəm, bilsin ki, qurban özüməm.

Soyarlarsa bu yolda dərimi kəbz Mənsurtək,
Bir üsyan gərçi mənəm, bir də ki, üsyan özüməm.

İstərəm bir inayət, bəs deyilmi xunabım?
Məcnunlar səhrasında da ilk sərgərdan özüməm.

Hüseyn İbrahimin son qərarı bil, belədir:
Qibləgahi-Adəmə köçsə də, dərman özüməm.

Bəzi kiçik qüsurlarına baxmayaraq, bu qəzəl eşq aləmində Hüseyn İbrahimovun qəti qərarını bəyan etsə də, onun ədəbiyyat dünyasındakı son qərarına çevrilə bilmədi. Az sonra o, "karvani-məhəbbətin" deyil, "karvani-nəsrin" önündə sarban kimi fəaliyyətini davam etdirmişdir. Lakin şeir yaradıcılığı Hüseyn İbrahimov üçün təsirsiz qalmamışdır. Belə ki, bədii nəsrindəki obrazlılıq, emosional ovqat, hətta bəzi məqamlardakı lirizm özünün qida mənbəyini onun ilk şeir məşqlərindən almışdır. Bundan başqa, bir sıra əsərlərində yaratdığı ədib-mütəfəkkir, yaxud şair obrazlarının bənzərsiz dolğun təqdimatı da, fikrimizcə, onun şeir yaradıcılığından gəlir.

Hüseyn İbrahimov təbiəti etibarilə təmkinli, ağır, sabit və nəzakətli şəxsiyyət idi. Yaradıcı şəxsiyyətin xarakterinin bu cəhəti şeirdən çox, ədəbiyyatda epik növün, nəsr qolunun xüsusiyyətləri ilə üst-üstə düşür. Yalnız XX əsr Azərbaycan bədii nəsrinin əsas yaradıcılarından biri olan Xalq yazıçısı Süleyman Rəhimovla müqayisə edilə bilən şax, vüqarlı qamətə, ciddi təmkinə və ağır təbiətə malik olan Hüseyn İbrahimov taleyini həmişəlik olaraq epik ədəbiyyata bağlamışdır. O, cəmiyyətimizdə yaşanmış bir çox ideoloji mərhələlərdə yazıb-yaratsa da, hətta Vilayət Partiya Komitəsinin Təbliğat və təşviqat şöbəsinə rəhbərlik etsə də, yaradıcılığında təbiəti etibarilə əsasən, siyasi ideologiyaya uymayan, həmişə mənəvi və maarifçi mühitin problemlərini ön mövqeyə çəkən yazıçıdır. "Günəş doğan yerdə" romanını nəzərə almasaq, yaradıcılığının 60 ildən artıq dövrünü əhatə edən sovet hakimiyyətinin heç bir əlamətdar hadisəsi, tarixi günü və ya siyasi prosesi haqqında onun ayrıca bədii əsəri yoxdur. Hətta sovet hakimiyyətinin qurulması uğrunda mübarizəyə həsr olunmuş "Günəş doğan yerdə" romanında da müqayisədə həyat materialı ideologiyanın payından çoxdur. Əsərdəki keşməkeşli taleyə malik olan igid, məğrur, keçid dövrünün çətinliklərini yaşayan, "bir igid bir eli saxlar" əqidəsinə sadiq olan Qüdrət obrazı və süjetdə geniş yer tutan qaçaqçılıq hərəkatının təsviri romana geniş və təbii həyat nəfəsi gətirir. Beləliklə, bədii nəsrimizin sərt rejim çərçivəsində ideoloji tələblərin məngənəsindən çıxıb həyata, xalqa, insanlara, mənəviyyata doğru yönəlməsi və yaxınlaşmasında, dirçəlişində Hüseyn İbrahimovun özünəməxsus xidməti və zəhməti vardır.

***

Müxtəlif nəsr janrlarında yazıb-yaratsa da, Hüseyn İbrahimov bütün yaradıcılığı boyu hekayə yaradıcılığına müraciət etmişdir. "Ədəbiyyatımızın

mirvarisi" adlandırılan hekayə janrında onun da öz mirvariləri vardır. "Şirin xatirə", "Qumralın məktubları", "Təmiz adam", "Kənd adamı", "Kənd həsrəti", "Arxayın Məmməd", "Madam Herita", "Vicdan səsi", "Qadın nəfəsi", "Köhnə onluq", "Aləmzər" Azərbaycan ədəbiyyatının hekayələrindən düzəldilmiş nəhəng boyunbağısına məhz onun bəxş etdiyi mirvarilərdir. Yazıçının hekayələri müxtəlif dillərə tərcümə edilmiş, Türkiyədə nəşr olunmuşdur. Ümumilikdə onun doqquz hekayə kitabı işıq üzü görmüşdür. "Azərbaycan hekayəsi antologiyası" kimi seçmələr toplusuna Hüseyn İbrahimovun da hekayələri daxil edilmişdir.

Çoxillik yaradıcılıq təcrübəsinə malik olan Hüseyn İbrahimovun bəzi hekayə və novellalarının formasını təyin edərkən həmin janrların əvvəlinə "kiçik" ifadəsini artırmaq lazım gəlir. "Kənd həsrəti", "Nazbalış" hekayələri istisna olmaqla, digər əksər hekayələr maksimum yığcamlığı ilə diqqəti cəlb edir. Bu cəhət yazıçının satirik novellalarına daha çox aiddir. Deməli, Hüseyn İbrahimov Azərbaycanda XX əsrin əvvəllərindən başlanan kiçik hekayə janrı ənənəsinin sonrakı mərhələdəki uğurlu davamçısı idi. Onun kiçik formada yazılmış hekayələrində həyatın böyük və ciddi məsələləri özünün bənzərsiz bədii əksini tapmışdır. Yazıçının qələmə aldığı çoxcəhətli əhvalat və obrazların mərkəzində, əsasən, bir meyar dayanır: Ləyaqət! Müəllif təsvir etdiyi hadisə və personajları qiymətləndirmə barometrinə çevirdiyi bu yüksək mənəvi keyfiyyəti aşkarlamaq niyyəti ilə hər dəfə yeni hadisəyə müraciət etmiş, aralarında müəyyən bənzəyiş olsa da, bir-birini təkrar etməyən vəziyyətlər yaratmışdır. O "özü balaca, işi böyük" olan hərbi xəstəxananın ibrətamiz qaydalarını ("İnam"), bütün yuxularını doğma kəndi Kosalarda görən qocaman alimin xəyal dünyasını ("Kənd həsrəti"), ezamiyyətdən qayıdan köhnə tanışların kupedə təsadüfən rastlaşdıqları "təmiz adamın natəmiz əməllərini" ("Təmiz adam"), əlçatmaz bir eşqin hekayətindən söz açan köhnə onluqla bağlı təsirli xatirələri ("Köhnə onluq") qələmə almaqla, hekayə üçün zəruri olan detalların konkretlik və emosional ifadəsinə müvəffəq olmuşdur. Bunlar isə yazıçının geniş maraq dairəsini, onun nüfuz etdiyi səciyyəvi hadisələrin ümumiləşdirilmiş şəkildə təqdim edilməsini şərtləndirmişdir. Bunun nəticəsidir ki, məktəbli uşaqların quş yuvalarını uçurtmaları ("Kərim əmi"), atası cəbhəyə gedəndən sonra doğulan övlada ad qoyulmaması ("Səfər müəllimin qızı"), qoca nənənin illərdən bəri toplayıb balıncın içində saxladığı pulla alınan "Jiquli" maşınının "Nazbalış" adlandırılması ("Nazbalış"), nişanlısının arxasınca könüllü cəbhəyə yola düşən və həlak olan Yazgüldən yadigar qalmış şəklin mənalandırılması ("Şirin xatirə") kimi ilk baxışda adi görünən detallar hekayələrdə insan ləyaqətinin incəliklərinin məharətlə üzə çıxarılmasına, bunun əksinə olan naqis meyillərə kəskin münasibət bəslənməsinə səbəb olmuşdur.

Hüseyn İbrahimovun hekayələrindəki həqiqi ləyaqət axtarışları onun

şəxsiyyətində ifadə olunan fərdi ləyaqəti ilə səciyyələnən obrazlar yaratması ilə nəticələnmişdir. Müxtəlif hekayələrindəki "döyüşdə aldığı ağır yaradan ölən oğlunu dəfn edən kimi dərhal hərbi xəstəxanaya qayıdaraq, yenicə gətirilmiş əsgəri çətin cərrahiyyə əməliyyatı ilə həyata qaytaran tibb elmləri doktoru Şalva İrakliyeviç, inamı özünə deviz seçən Yelmar Zərgərli, uşaq ikən ata-anasını itirsə də, mənliyini uca tutan məsum Sabirə, Vətən elminin dünya şöhrəti qazanması yollarında can-başla xidmət göstərən professor Qoşqar Çinarlı, "işi də ürəyi kimi təmiz" olan taksi sürücüsü Sabir, ömrü boyu şərəfli əməyə bel bağlayan neftçi Fərrux kişi, iradə və sədaqəti ilə xəstə həyat yoldaşı üçün əvəzedilməz məlhəmə çevrilən Şadiyyə kimi hekayə qəhrəmanları ləyaqətin ucalığını, əvəzedilməzliyini bütün təbiiliyi ilə mənalandırırlar. Yazıçı öz növbəsində pis niyyətli, köhnə fikirli, cəmiyyətə fayda verməyən adamları oxucunun mühakiməsinə verməklə də estetik idealın bütöv, inandırıcı təqdiminə səy göstərir.

Bütün bunlar isə onun epik üslubuna satirik notlar daxil etmişdir. Hekayələrindəki satira elementləri bu nümunələri yazıçının satirik novellaları ilə doğmalaşdırır. Azərbaycan satirik nəsrinin ənənələrindən yaradıcılıqla faydalanan Hüseyn İbrahimov müasir həyatımızda klassik novella qəhrəmanları ilə qarşılaşarkən, "Sənə min rəhmət, Mirzə Cəlil", yaxud "Heyf, Mirzə Cəlil sağ deyil" kimi yerinə düşən, cəlbedici epiqrafların gur işığı altında ənənəvi gülüş obyektinin müasir vəziyyətini bacarıqla açıb göstərmişdir. Müəllifin təqdimatında Cəlil Məmmədquluzadənin məşhur Usta Zeynal obrazına bənzəyən Arxayın Məmməd, məşhur "Zırrama" hekayəsindəki Mirzə Qurbanqulunun əziz-xələfi olan Əvəz Məmişoviç obrazları özlərinin müasir inkişafla ayaqlaşmayan adət və əməlləri ilə bir daha gülüş hədəfinə çevrilirlər. "Arxayın Məmməd", "Day lazım olmadı", "Yeddinci meyit", "Zırrama", "Müdirin naziri", "Barıt", "Nərd", "Eyvazovun salamı", "Yersiz vahimə", "Çaybaz Nəcəf", "Menzurka" – Azərbaycan ədəbiyyatında satirik novella janrının tələblərinə tam cavab verən uğurlu bədii nümunələrdir. Həmin bədii nümunələrdə təsvir edilən hadisələr klassik novellalarda olduğu kimi, qısa zaman intervalında sürətlə cərəyan edir. Yazıçının novellalarında bu janra xas olan ənənəyə uyğun olaraq adi deyil, qəribə hadisələr hərəkətverici qüvvə funksiyasını daşıyır. Qoca məzarçı Şirinoğlunun Mirzə Səidə ərizə yazdırıb haqqını ödəməməsi ilə Mirzənin ona qışın şaxtasında yalandan anasının ölüm xəbərini çatdıraraq qəbir qazdırmasının ("Day lazım olmadı"), yaxud dəllək Sərxanın qonşuların nəzərində peşəsini pərdələmək niyyəti ilə simsiz tarda maqnitofona yazılmış musiqinin müşayiəti ilə barmaqlarını gəzdirməsi nəticəsində "Sinxron əmi" ləqəbini qazanmasının təsviri gülüş doğuran novellalar qəribə süjet yaratmağın orijinal bədii ifadəsidir. Nəhayət, Hüseyn İbrahimovun novellalarının, bir qayda olaraq, gözlənilməz sonluqla bitməsi onun bu janrın mövcud çərçivəsini qorumaqla,

həm də fərqli həyat materiallarını təqdim etmək istedadını nümayiş etdirir.

Həmçinin Hüseyn İbrahimovun hekayə və novellaları kiçik həcmə malik olan ləyaqət dərsləri kimi də əhəmiyyətlidir. Yazıçı hər dəfə tam fərqli həyat hadisəsi vasitəsi ilə insan ləyaqətinin müxtəlif təzahürlərini təqdim etmişdir. Lakin heç bir halda Hüseyn İbrahimov oxucusuna nəsihət xarakterli ləyaqət dərsləri keçməmişdir. İnsanın ləyaqətinin qorunması, uca tutulması, cəmiyyət üçün nümunə olması yazıçının hekayə və novellalarında təsvir olunan hadisələrdən, təqdim etdiyi yaddaqalan obrazların keşməkeşli taleyindən çıxarılan ibrətamiz nəticədir. Vaxtilə tanınmış tənqidçi Qulu Xəlilov mənəvi təmizliyin, nəciblik və ləyaqət hissinin qorunmasını Hüseyn İbrahimovun yaradıcılığının əsas "pafosu kimi qiymətləndirərək yazmışdır". "Təmizliyə çağırış, insanlarda saflıq və gözəllik hisslərini istiqamətləndirmək, … insan ləyaqətinə kölgə salan hər cür əyriliyə xəlqi mövqedən atəş açmaq Hüseyn İbrahimovun yaradıcılığının əsas pafosunu təşkil edir".[1]

Bundan başqa, janr baxımından Hüseyn İbrahimovun hekayələri ilə novellalarını eyniləşdirmək olmaz. Yazıçının hekayələri təbii axarı ilə davam edən hadisələrin təmkinli bir təqdimat şəklində ifadə olunur. Onun novellalarında isə, yuxarıda qeyd edildiyi kimi, hadisələr qəribə süjet əsasında qurulub və gözlənilməz sonluqla bitir. Qəribə süjet də, qəribə sonluq da Hüseyn İbrahimovun novella sənətkarlığında hər dəfə təkrarsız hadisə kimi meydana çıxır. Satirik hekayə və novellalarında ləyaqət hissi mənəvi təmizlənmə, dahi Aristotelin təbirincə desək, katarsis vasitəsilə ifadə olunur.

***

Hüseyn İbrahimovun təhkiyəsində nəzərə çarpan sakit, təmkinli epik təsvir və həyat materialının zənginliyi hekayədən onun yaradıcılığında povestə keçidi bədii baxımdan əsaslandırır. Bu maraqlı sənətkarlıq körpüsü həm də yazıçının povestlərinin yaranmasında hekayəçilik məşqlərinin əhəmiyyətli rolunu da aydınlaşdırır. Beləliklə, povest janrı sahəsində novator yazıçı kimi də Hüseyn İbrahimovun özünəməxsusluğu, orijinal dəst-xəti aşkar nəzərə çarpır. Mənəviyyatın ucalığının qorunması, ailə-məişət məsələlərinin ön mövqeyə çəkilməsi, yalnız sevinc və fərəhin, xoşbəxtliyin deyil, təbii insan kədərinin və ağrılarının da bədii ədəbiyyatın materiallarına çevrilməsi, hekayələrində olduğu kimi, xalq yazıçısının povestlərində də əsas aparıcı xətti təşkil edir. "Baharın hekayəsi", "Göyərçinin məhəbbəti", "Səhv edəndə", "Qu quşları öləndə oxuyurlar" və sair povestlərdə həyatı bütün təbiiliyi ilə yaşayan, düşünən, səhv edən, büdrəyən, aldanan, lakin çətin məqamda ayağa qalxmağı bacaran sıravi adamların həyatı, zəngin mənəviyyatı öz əksini tapmışdır. Bütün bunlar müəllifin, hətta çətin dönəmlərdə də ideoloji sxem və

[1] Qulu Xəlilov. Torpağa bağlılıq. "Ədəbiyyat və incəsənət" qəzeti, 15 iyun 1979

tələblərdən uzaqda dayanmasına, ən müxtəlif janrlarda uzunömürlü əsərlər yazmasına şərait yaratmışdır.

Hüseyn İbrahimovun 1958-ci ildə kitab halında nəşr etdirdiyi "Baharın hekayəsi" povesti oxucuların bir neçə nəslinin yaddaşında dərin iz salmış qiymətli sənət nümunəsidir. Əslində, bədii yaradıcılığa hekayə ilə başlayan, 1952-ci ildə hekayələrinə görə Yazıçılar İttifaqının üzvlüyünə qəbul edilən Hüseyn İbrahimov ədəbi aləmdə bir yazıçı kimi özünü məhz "Baharın hekayəsi" povesti ilə təsdiq etmişdir. Ailə-məişət məsələlərindən bəhs edən, zəngin həyat materiallarına və ciddi sənətkarlıq xüsusiyyətlərinə malik olan bu əsər povest janrının Azərbaycan ədəbiyyatındakı həmişəyaşar nümunələrindən biridir. "Baharın hekayəsi" həm də Hüseyn İbrahimovun hekayə yaradıcılığının yekunu, nəsrin iri formalarına keçidinin başlanğıcıdır. Yazıçının romançılığa meyli də ilk dəfə "Baharın hekayəsi"ndə müşahidə olunmuşdur. Bütövlükdə Hüseyn İbrahimov bir yazıçı kimi "Baharın hekayəsi"ndən doğulmuşdur. Bu povest təcrübəsizlik ucbatından ötəri meyillərə uymuş və yanılmış, peşman olmuş zavallı Baharın hekayəti, əsərin müəllifi Hüseyn İbrahimovun isə yazıçı kimi layiqli təqdimatıdır. Təsadüfi deyildir ki, vaxtilə Xalq şairi Rəsul Rza bu povestdən bəhs edərək yazmışdır: "Hüseyn İbrahimovun "Baharın hekayəsi" povesti ciddi yaradıcılıq işinin məhsuludur. Buradakı hadisələrin həyatiliyi, ayrı-ayrı obrazların inandırıcılığı, məqsəd aydınlığı və əsərin ümumi ruhundan çıxan tərbiyəvi mənası bizə bu əsəri... nəsr əsərlərimizin yaxşı nümunələri sırasına qoymağa haqq verir".[1]

Yarım əsr bundan əvvəl yazılmasına baxmayaraq, Hüseyn İbrahimovun "Baharın hekayəsi" povesti indi – müstəqillik dövründə də Azərbaycan nəsrinin layiqli, əhəmiyyətli orijinal nümunəsi kimi dəyərləndirilə bilər.

"Göyərçinin məhəbbəti" povestinin əsas konflikti ömür yoldaşının təmiz sevgini qiymətləndirməyi bacarmayan Yusifin səhvlərinin təsvirindən ibarətdir. Yazıçı qəhrəmanın taleyinə ictimai məna verərək, onu ləyaqət meyarı ətrafında süzgəcdən keçirir. Hüseyn İbrahimov son nəticədə qəhrəmanlarının səhvlərdən mənəvi təmizlənməyə doğru təkamül prosesini göstərir. Göyərçinin mənəvi cəhətdən ucalığının təsviri Azərbaycan qadınının mənəvi təkamülünün uğurlu bədii ifadəsidir.

"Kamalın ad günü" povestində isə meşşan, harın bir ailənin yaşanan həyatının başdan-başa səhvlər üzərində kökləndiyi göstərilmişdir. Anbardar Hacıağa, onun meşşan arvadı Mələk xanım, ərköyün qızı Toma, mənəviyyatsız əlaltısı Əsəd əxlaq normalarına zidd olan cinayət xarakterli səhvlərə yol vermişlər. Ailənin yeganə zəhmətkeş nümayəndəsi olan Kamalın təkbaşına "haman səhvləri islah etməsi" mümkün deyildir. Buna görə də müəllif birinci iki povestdə konflikti hekayə və novellalardan tanıdığımız

[1] Rəsul Rza. Seçilmiş əsərləri, V cild. – Bakı: Azərnəşr, 2002, s.22

təcrübəli və ləyaqətli Vahid müəllim obrazının müdaxiləsi ilə həll etdiyi halda, "Kamalın ad günü"ndə vəziyyətin yalnız istintaq orqanlarının qüvvəsi ilə aradan qaldırılmasının zəruriliyi qənaətinə gəlmişdir. Beləliklə, nəinki konkret bir povest, bütünlükdə böyük bir kitab tamamlanmışdır. Müxtəlif səpkili səhvlər əl içi kimi aydınlaşdırılmış, onların təzahür formaları göz önünə gətirilmiş, oxucuya həqiqi, doğru çıxış yolu göstərilmişdir.

Hüseyn İbrahimov "Səhv edəndə" povestində mövzusuna sadiq qalaraq, ailə-məişət məsələlərindən bəhs etmiş, Qızlar adlı kimsəsiz bir gəncin həyatdakı sadəlövh addımlarının fonunda baş vermiş gərgin hadisələri qələmə almışdır. Özünü Cabir adı ilə təqdim edən cavan bir oğlanla ailə quran Qızlar uzun müddət onun bəd əməllərindən xəbərsiz olmuş, yalnız Cabirlə əlbir olan Həcər arvadın və ərinin cinayətlərinin üstü açılandan sonra nə qədər böyük səhv etdiyinin dərin təəssüf hisslərini yaşamışdır. Digər əsərlərində olduğu kimi, Hüseyn İbrahimov "Səhv edəndə" povestində də qəhrəmanını ailə-məişət çətinliklərindən keçirərək, nəhayət, mənəvi mühitin təmiz havasına çıxarmışdır. Yazıçı özünü Cabir adlandıran şəxsin əslində çoxsaylı cinayətlər törədib, Orta Asiyaya qaçmış Səməd Nəzər oğlu olduğunu bildikdən sonrakı Qızların ana kimi keçirdiyi dərin təəssüf və peşmançılıq hisslərini mənəvi təmizlənmə prosesinin səciyyəvi təzahürləri kimi təqdim etmişdir. Hüseyn İbrahimovun hekayə və povestlərində xilaskar, xeyirxah hami, məsləhətçi kimi iştirak edən Vahid müəllimin bu məqamda da Qızları övladlığa qəbul etməsi ilə gənc ananın yeni həyata qaytarılması, sonrakı sağlam həyat tərzi və xoşbəxt günlərinin oxuculara çatdırılması nikbin final funksiyasını daşısa da, müəllifin məqsədini və amalını uğurla tamamlayır.

"Qu quşları öləndə oxuyurlar" povestində isə Hüseyn İbrahimov arxa cəbhədə çalışan Azərbaycan qızlarının dəyanəti və mətanətini, ləyaqətini göstərən ibrətamiz hadisələri təsvir etmişdir. Yazıçı cəbhəyə getmiş ərinin illərlə yolunu gözləyən, oğlu Vahidi evləndirən, nəvəsi Azadı nənə qayğısı ilə əhatə edən Bəhriyyənin ailə dəyərlərini müqəddəs hesab etməsini Azərbaycan gəlini üçün əsl nümunə olaraq təqdim etmişdir. Cəbhədə qəhrəmancasına həlak olmuş əri Cəlalın təltif olunduğu "Qızıl ulduz" medalını sarsılmaz ümidinin ifadəsi kimi onun əvəzindən qəbul etməməsi də onun yüksək ləyaqətinin ifadəsidir.

"Ölməz mahnılar" əsərini Hüseyn İbrahimov əvvəlcə kinossenari kimi düşünmüş, sonra povestə çevirmişdir. Povestdə böyük Azərbaycan bəstəkarı, dahi Üzeyir Hacıbəyovun həyatı və çoxcəhətli fəaliyyəti, musiqi sənəti sahəsindəki böyük xidmətləri onun keçdiyi ömür yolunun səciyyəvi hadisələri əsasında təsvir edilmişdir. Əsərin sonunda "Koroğlu" operasının uğurlu tamaşasına görə, Üzeyir Hacıbəylinin yaşadığı qürur və iftixar duyğuları ssenari mətnlərində olduğu kimi təqdim olunur: "Böyük bir darvazanın qapıları taybatay açılır. Koroğlu, dalısınca igidlər görünür. Xalq

qalib sərkərdəni duzla-çörəklə alqışlayır:

– Nə şənli, şanlı bayram!

Yaşa Koroğlu qəhrəman, qəhrəman…

Teatrda da foyenin qapıları açılır. Üzeyir, Zülfüqar, Hüseynqulu (Sarabski), Məlikə görünürlər. Foyedəki minlərlə adam Üzeyiri alqışlayır, başına gül-çiçək səpir.

Üzeyir gülümsəyir, ehtiramla baş əyir".[1]

Povestləri Hüseyn İbrahimovun yaradıcılığında roman janrına keçid üçün münbit zəmin hazırlamışdır.

***

Xalq yazıçısı Hüseyn İbrahimov ədəbiyyatın çoxfiqurlu şahmat taxtasında uğurlu roman gedişi edən sənətkardır. Hələ XX əsrin əllinci illərində yazdığı "Sabahın sorağında" romanı ilə o özünün həm də mahir romançılıq imkanlarını büruzə vermişdir. "Sabahın sorağında" mövzu baxımından məişət, mənəviyyat romanıdır. Əsər istehsalat romanlarının dəbdə olduğu bir dövrdə yazılmışdı. Bu, kəndi yalnız təsərrüfat, əmək yarışı, yaxud sinfi çəkişmələr meydanı kimi təqdim edən özündən əvvəlki romanların uzun illər ərzində yaratdığı, formalaşdırdığı qəliblənmiş ideoloji təsəvvürləri yıxıb uçuran yenitipli formadır. Bu, kənd ziyalılarının keşməkeşli taleyini geniş miqyasda ədəbiyyatımıza gətirən ilk geniş həcmə malik əsərlərindən biridir. Aradan illər keçməsinə baxmayaraq, "Sabahın sorağında" bu gün də yaxşı bir romanın sorağında olan oxucu və tənqidçilərin maraqla oxuduğu və yüksək qiymətləndirdiyi əsərlərdəndir.

"Sabahın sorağında" romanındakı nümunəvi kənd ziyalısı, əsl xalq müəllimi Mirzə Mahmud, pak əqidəyə mənsub olan Zeynal Günəşli, Firəngül müəllimə kimi insanlar kənddə sinfi mübarizə qəhrəmanlarını, yaxud sosializm yarışı qaliblərini təqdim etməyə köklənmiş həmin dövr nəsrimiz üçün və fərqli insanlar idilər. Hüseyn İbrahimov Sabahın sorağında yeni insanın simasını müəyyən edərkən onun sinfi mənsubiyyətini, ictimai münasibətləri deyil, şəxsiyyət amilinin ən mənəvi keyfiyyətlərini ön mövqeyə çəkmiş və öz qəhrəmanlarının daxilindəki böyük sabahları yaratmaq enerjisini məharətlə açıb göstərə bilmişdir. Buna görədir ki, ədəbi tənqid "Sabahın sorağında" romanına yüksək qiymət vermişdir. Akademik Məmməd Arif hələ 1967-ci ildə "Sabahın sorağında" romanını nəzərdə tutaraq yazırdı: "Müəllifin müsbət qəhrəman uğrundakı axtarışları, mənəvi-intellektual keyfiyyətlərə malik surətlər yaratmaq təcrübəsi qiymətlidir. Yazıçı cəmiyyətdə təsvir etdiyi təmiz insanları – qəhrəmanları oxucusuna sevdirə bilir".[2]

[1] Hüseyn İbrahimov. Seçilmiş əsərləri. Üç cilddə, I c. – Bakı: Naksuana, 2007, s.463

[2] Xalq yazıçısı Hüseyn İbrahimov (tərtib edəni Sarvan İbrahimov). – Naxçıvan: Əcəmi, 2015, s.27

Hüseyn İbrahimovun "Sabahın sorağında" romanı XX əsrin əllinci illərində ədəbiyyat cəbhəsində təmsil olunan yazıçıların yaradıcılığı üçün səciyyəvi olan insanın mənəvi dünyasının təkamülü və cəmiyyətdə yeniləşmə zərurəti haqqında yazılmış yeni və əhəmiyyətli bədii əsərdir. Bu mənada "Sabahın sorağında" romanını "Mənəviyyatın sorağında", yaxud da "Yeniləşmə sorağında" da adlandırmaq olar. Romandakı yeniləşmə də, əslində, köhnə adət və ehkamlaşdıraraq yaşamaq, cəmiyyəti saflaşdırmaq uğrunda gedən mübarizənin təsviri və təsdiqi ilə əlaqədardır. Ceyranlı kənd məktəbinə göndərilmiş Zeynal müəllimlə cəmisi 2-3 ayın gəlini olmuş Firəngül arasındakı sevgi münasibətlərinə Yasəmən xalanın münasibəti qəlibləşmiş keçmiş baxışlara, Mirzə Mahmudun yanaşması isə mənəvi aləmin real dəyərləndirilməsinə əsaslanır. Mirzə Mahmudun Zeynal müəllimi oğulluğa qəbul etməsi ilə onun Firəngülə olan münasibətindən doğan bütün narahatlığın aradan qaldırılması müdrikliklə müasirliyin təntənəsidir.

Zeynal müəllimin Ceyranlı kəndində süni şəkildə "Mədət uşağının ağsaqqalı" kimi tanınan əliəyri kolxoz sədri Şükürlə və məktəb direktoru Qulamla mübarizəsi ictimai xarakter daşısa da, yazıçı ədəbiyyatda digər örnəkləri də olan bu mövzunu insan mənəviyyatındakı fərqli xüsusiyyətlərin çarpışması fonunda təsvir etməklə, yeni müstəvidə təqdim etmişdir. "Fitrən hər şeydə düzlük, doğruluq axtarmaq üçün doğulmuş" Zeynal müəllimlə insan ləyaqətini vəzifədə, var-dövlətdə, yeyib-içməkdə axtaran Şükür və məktəb direktoru Qulam müəllimin arasındakı fərq və ziddiyyət ictimai xarakterli konfliktin mənəvi-psixoloji planda inkişaf etdirilməsi yolu ilə köhnəliklə yeniliyin mübarizəsinin real təzahürlərini təqdim etməyə əsas vermişdir. Əsərdə vəzifədən qovulmuş Şükürün kor olmasının təsviri işıqlı amalların qələbəsinin rəmzi ifadəsi kimi mənalandırılır.

Hüseyn İbrahimovun "Bahar yağışı" adlı romanının mövzusunu ilk baxışda "yandım", – deyib haray çəkən çöllərimizə su gətirmək, əbədi bahar bəxş etməklə əlaqədar hadisələr təşkil edir. Əslində isə əsərdə epik konfliktin xarakteri tikinti rəisi Osman Məlikzadə kimi mühafizəkar, iş görməkdən çox gözə kül üfürməyə çalışan adamlarla öz işini sevən, ürəyi qurub-yaratmaq eşqi ilə döyünən Yalçın İbrahimbəyli arasındakı təzadla müəyyənləşir. Yazıçı əks qütblərin xarakterlərini həm də onların təbiət hadisələrinə münasibəti vasitəsi ilə əks etdirmişdir. Əsərdə biz Yalçını, Seyfəddin müəllimi, Maral xala və Əbdülkərim kimi adamları həmişə baharın əlvan rənglərinin əhatəsində görürük. Mənfi xislətli Osman Məlikzadələrin isə bahar ətrini qaynar həyatdan, ana təbiətin özündən yox, yalnız "bir yerə qonaq dəvət ediləndə, ezamiyyətə gedəndə oğrucasına istifadə etdikləri "İnci çiçəyi" odekalonundan aldığının şahidi oluruq. Konfliktin mənfi qütbü hər addımda özünün imtiyazları və imkanları, "ad-san" gücü ilə öyünür. Əks tərəf – müsbət qüvvələr isə ilk növbədə mənəvi paklığa, düzlüyə, halal zəhmətə, alın

tərinə, xeyirxahlığa söykənirlər. Raykom katibi Bəbir Ağayeviç, tikinti rəisi Osman Məlikzadə və onların orbitində fırlanan "mestkom" Məşədi Yolçuyev, planovik Alagöz, prorab İsmayıl, xörəkpaylayan Rübabə, ticarət işçisi Dobrı Rəhim kimilər hadisələr irəliyə doğru inkişaf etdikcə acizləşir, miskin görkəm alırlar.

Qeyd edildiyi kimi, qəhrəmanların xarakterinin açılışında yazıçı əsərin adından, ruhundan gələn arqumentlərdən – yaz fəslinin rəng çalarlarından bacarıqla bəhrələnmişdir. Ədib əsərin qəhrəmanının – cavan mühəndis Yalçın İbrahimbəylinin Arançay dəryaçasına işləməyə gəlməsini hələ təbiətdə baharın əlamətlərinin tamamilə çəkilib getmədiyi bir vaxta tabe etdirmişdir. O, hünər meydanı olan Arançay dəryaçasının tikintisinə ilk dəfə yaşıllığa qərq olmuş Güllücə zirvəsindən baxır. Roman boyu onun və digər müsbət obrazların ayrı-ayrılıqda bahar çalarlarını ifadə edən "Ərikli kəndi", "Nanəli kəhriz", "Yarpızlı", "Ballı", "Çiçəkli" bulaqları əhatə edir. Hadisələrin sonrakı gedişindən öyrənirik ki, hətta Yalçın İbrahimbəyli vəfalı ömür yoldaşı Nəsimə ilə də ilk dəfə onun əynindəki yaşıl paltara görə tanış olmuşdur. Baharın əlamətlərindən biri olan suya, selə, yağışa heyrətamiz maraq isə təkcə Yalçın İbrahimbəylinin peşəsindən – su mühəndisliyindən irəli gəlmir. Vaxtilə Kürün qoynunda həyat sürmüş müdrik atasının su haqqında söylədiyi hikmətlər onun da ömür yolunun, dünyabaxışının, romantikasının əsas meyarına çevrilmişdir. Onun həyatın mənasını halal zəhmətdə axtaran adamlara – dəryaçanın partiya komitəsi katibi Seyfəddin Əlizadəyə, əmək veteranı Əbdülkərim kişiyə, ekskavatorçu Nadirə məhəbbətinin mühüm səbəblərindən biri də onların su kimi aydın, duru və müqəddəs niyyətə, pak əməllərə malik olmalarıdır. Bütün bunlara görə də su – əsər qəhrəmanının nəzərlərində aydınlıq və xoşbəxtlik, həya və ismət mənasını daşıyır. Dirilik suyu haqqındakı düşüncələri, dörd ünsürdən biri barəsindəki mifologiya suyun sosial-fəlsəfi mənada cavan mühəndisin varlığında həyatın özü qədər mühüm yer tutduğunu göstərir. Onun suya işarə ilə deyilmiş aşağıdakı sözləri də buna sübutdur: "Əslində sənə həyat üçün zərurisən demək azdır, axı sən həyatın özüsən..."[1]

"Bahar yağışı" romanı zahirən istehsalat mövzusunda yazılmışdır. Lakin müəllif öz qəhrəmanlarını yalnız işdə-gücdə, tikinti meydançalarında, sükan arxasında göstərmək kimi birtərəfli yolla getməmişdir. Burada Yalçın İbrahimbəyli – Nəsimə – Səidə xətti mərkəzi obrazın ailə-övlad münasibətlərini, əxlaq və mənəviyyatını aydınlaşdıran hadisələri özündə cəmləşdirir. Hətta müəllif əsərdə Məşədi Yolçuyevin ailəsinə məxsus sürüşkənlik, tamahkarlıq, yaltaqlıq, ikiüzlülük kimi qeyri-insani keyfiyyətləri də bütün reallığı ilə göz qabağına gətirmiş, özünü "evli ikən subay" adlandıran Alagözün

[1] Hüseyn İbrahimov. Əsərləri. Üç cilddə, III c. – Bakı: Naksuana, 2007, s.289

mənəvi faciəsini qabarıq şəkildə əks etdirmişdir. Bütün bunlar isə zamanda ailələr arasındakı fərqlərin timsalında mənəviyyatların, dünyagörüşlərin fərqini açmağa və göstərməyə şərait yaradır. Roman qəhrəmanlarının şeir, musiqi, kino, mahnı ilə ülfəti, gənclərin sevgi macəraları, dostluğu, hətta yeri gəldikcə dünya hadisələri ilə maraqlanmaları əsərdəki istehsalat motivlərinə canlı həyati keyfiyyətlər əlavə etmişdir.

Bütün bunlar romanın kompozisiyasının bütövlüyünə, xarakterlərin canlılığına, kolliziyaların aydınlığına mühüm zəmin yaratmış, əsərin ictimai mahiyyəti və əhəmiyyəti ilə bir sırada bədii səviyyəsini də qüvvətləndirmişdir. Bu mənada romanın "Epiloq əvəzi"ndə məharətlə qələmə alınan Aranabad baharı da təkcə Arpaçay dəryaçasının tikintisinin qaydaya düşməsinin, aran-şoran düzlərin abadlığa, yaşıllığa dönməsinin yaxınlaşmaqda olduğunu bildirməklə qalmır. Yerində düşünülmüş bu detal romanın ana xəttini müəyyən edən əsas mətləblərin estetik mahiyyətini müvəffəqiyyətlə aşkara çıxarır. Quruculuq əzminin, yüksək əxlaqi-mənəvi keyfiyyətlərin yaltaqlıq, ikiüzlülük, paxıllıq üzərindəki qələbəsi, yazıçının öz sözləri ilə desək, qışa qalib gələn "allı-güllü" Aranabad baharının simasında ümumiləşdirilmişdir. Bu mənada əsərin finalındakı "eşikdə bahar yağışı başladı" cümləsi romanın adını doğrultmaq xatirinə işlədilmiş ənənəvi ifadədən çox, roman qəhrəmanlarının yeni həyatının aydınlığını çox dolğun şəkildə mənalandırır və əsəri tamamlayır.

"Bahar yağışı" romanı Hüseyn İbrahimovun "Baharın hekayəsi" povestindən başlayıb, təxminən iyirmi beş il davam edən yaradıcılıq axtarışlarına həm müvəffəqiyyətlə yekun vurur, həm də öz müəllifinin yeni, orijinal sənətkarlıq imkanlarını nümayiş etdirir.

Hüseyn İbrahimovun "Bahar yağışı", "Günəş doğan yerdə", "Əsrin onda biri", "Böhtan" romanlarında epik təsvirin genişliyi, çoxşaxəliliyi, mövzunun dərinlik və əhatəliliyi, millilik və xəlqilik, tarixilik və müasirlik ön mövqeyə çəkilmişdir. Bu əsərlər yalnız həcminə görə deyil, qaldırdığı ictimai problemlərin dəyərinə, siqlətinə, insan talelərinin çoxsaylı "süxurlar"ından bir neçə qatını açıb-sökə bilməsinə, zəngin surətlər aləminə görə romandır. Obrazlı şəkildə belə demək mümkündür ki, Hüseyn İbrahimov əsl mənada real həyatı və təbii insan münasibətlərini əks etdirən romanların sorağında qələm çalan görkəmli yazıçıdır. Onun roman janrında yaratdığı əsərlər XX əsrin otuz-qırxıncı illərində meydana çıxmış ideoloji xarakterli romanlarla özündən sonrakı ədəbi nəsillərin gerçəkliyini əks etdirən bədii əsərləri arasında əhəmiyyətli bir körpüdür. Hüseyn İbrahimovun əsərləri həyat nəfəsi ağırlıqlı ədəbiyyat nümunələridir. Yazıçı tarixə müraciət edəndə də, istehsalat mövzusuna üz tutanda da gərçək həyatın təbii insan mənəviyyatını, münasibətlərini ön mövqeyə çəkmişdir. Bununla belə, Hüseyn İbrahimov yalnız əxlaq təbliğatçısı olan moralist yazıçı da deyildir. Onun mənəviyyat

fəlsəfəsi canlı həyatın təbii axarından alınmış hadisələrin daxili məntiqindən çıxarılan nəticələrdən ibarətdir. Bu, Hüseyn İbrahimovun mənsub olduğu Azərbaycan ədəbiyyatının əllincilər ədəbi nəsli üçün xarakterik olan bədii yanaşmadır. "Aralıq ədəbi nəsil", o cümlədən də Hüseyn İbrahimov bədii əsərlərində mümkün qədər ideoloji təsvirlərdən qaçmağa çalışmış və demək olar ki, məqsədinə nail ola bilmişdir.

***

Böyük memar Əcəmi Əbubəkr oğlu Naxçıvaniyə həsr olunmuş "Əsrin onda biri" tarixi romanında da sənətkar taleyi, zaman və şəxsiyyət problemləri bacarıqla əks etdirilmişdir. Əsərin yazılmasına yetmişinci illərin əvvəllərində başlanılmışdır. Hətta romandan bir parça hələ 1972-ci ildə mətbuatda dərc olunmuşdur. On il ərzində yazılmış "Əsrin onda biri" tam halda 1987-ci ildə çapdan çıxmışdır. Bu əsər sovet dövrü Azərbaycan tarixi romanının dəyərli nümunəsidir. Məhz bu əsərdə ədəbiyyat tariximizdə ilk dəfə olaraq Şərq memarlıq məktəbinin banisi, məşhur memar Əcəmi Naxçıvaninin mükəmməl bədii obrazı yaradılmışdır. Yazıçının təqdimatında Əcəmi Əbubəkr oğlu Naxçıvani görkəmli sənətkar, böyük mütəfəkkir olmaqla yanaşı, həm də zəngin mənəviyyata malik, xalqa bağlı olan şəxsiyyət kimi canlandırılmışdır. Bununla belə, romanda həm də Cahan Pəhləvanın hakimiyyəti dövrünün siyasi-tarixi hadisələri bədii sözün gücü ilə dəyərləndirilmişdir.

Müəllif o dövrün tarixi şəxsiyyətlərini, Atabəylər sarayını təmsil edən insanları həm qədim mənbələrin məlumatları, həm də bədii təxəyyülün imkanları əsasında dolğun və tutumlu şəkildə təqdim etmişdir. Əsərdə Əcəmi dövrünün insanları təkcə sosial fəaliyyətləri ilə deyil, bənzərsiz xarakterləri, hətta geyimləri ilə də fərqləndirilmişdir. Nəticədə Azərbaycan tarixinin XII əsr dövrü haqqında tarixi əsərlərdə verilmiş məlumatlar bədii təxəyyülün əks-sədası kimi meydana çıxan əhvalatlar və təsvirlərlə daha da zənginləşdirilmişdir. Müəllif əsərdəki Əli Şimşək obrazı ilə sənətkar və xalq, həmçinin hakimiyyət və xalq münasibətlərini mənalandırmağa müvəffəq olmuşdur. Yazıçı təxəyyülünün məhsulu olan Əli Şimşək obrazı o qədər sənətkarlıqla təsvir edilmişdir ki, oxucu onu sanki tarixi şəxsiyyət kimi qəbul edir. Bu obraz Əcəmi Əbubəkr oğlu ilə bağlı mətləblərin açılmasına və aydınlaşdırılmasına şərait yaradır. Bununla belə, Əli Şimşək obrazının "Əsrin onda biri" romanında müəllif fikrinin daşıyıcısı olan rezonyor surət olduğu da aşkar nəzərə çarpır. Bundan başqa, əsərdə Eldəgizlər səltənəti ilə kütlə, Cahan Pəhləvanla sənətkar Əcəmi, siyasi hakimiyyətlə xalq hərəkatı arasında etibarlı körpü yaradan saray dəbirinin obrazı da uğurlu alınmışdır.

"Əsrin onda biri" tarixi romanı Əcəmi Naxçıvaninin dövrü, mühiti və müasirləri haqqında əyani təsəvvür yarada bilir. Əsərdə tarixiliklə müasirlik vəhdətdədir. Hüseyn İbrahimov Əcəmi dövründən alınmış mövzu və

ideyalar, habelə obrazlar vasitəsilə yeni dövrün insanlarına ibrət və sənət dərsləri aşılayır. Müstəqillik dövründə "Əsrin onda biri" tarixi romanı daha çox aktual və müasir səslənir. Belə ki, "Əsrin onda biri" tarixi romanında təsvir olunan Atabəylər dövləti sanki müstəqil Azərbaycanın ümumiləşdirilmiş bədii obrazıdır. Hüseyn İbrahimov XII əsrdə fəaliyyət göstərmiş Azərbaycan Atabəylər dövlətindən sonrakı müstəqil Azərbaycan Respublikasının sələfi kimi söz açmışdır. Bu cəhətdən yazıçı zamanı bir qədər qabaqlamışdır.

Məlum olduğu kimi, Atabəylər dövlətinin hadisələri və şəxsiyyətləri ilk dəfə Azərbaycan ədəbiyyatında tarixi roman məktəbinin banisi Məmməd Səid Ordubadinin məşhur "Qılınc və qələm" tarixi romanında əks etdirilmişdir. Hüseyn İbrahimovun "Əsrin onda biri" tarixi romanı isə Azərbaycan Memarlıq Məktəbinin yaradıcısı Əcəmi Naxçıvaniyə dair mötəbər ədəbi mənbə sayılmağa layiqdir. Akademik Ziya Bünyadovun "Azərbaycan Atabəylər dövləti" monoqrafiyasında elmi mənbələr əsasında canlandırdığı Atabəylər dövlətinin ictimai-siyasi həyatını, tarixliyi yaradıcı şəkildə əks etdirməklə yanaşı, həm də sənətkar təxəyyülünün əks-sədası olan hadisələr və obrazlarla daha da zənginləşdirmiş, həyati şəkildə təqdim etmişdir. "Əsrin onda biri" romanının finalı kimi verilmiş "Saray dəbirinin son yazısı", əslində həm yazıçının romandan çıxardığı ibrətamiz nəticə və həm də onun gələcək nəsillərə çatdırmaq istədiyi ideyadır: "Ey dünya!... Gərdişindən fələyin özü də baş açа bilməyən dünya!... Birinə batman-batman yamanlıq, birinə misqal-misqal yaxşılıq paylayan dünya! Gör kimlər gəldi, kimlər öldü, kimlər qaldı, kimlər itdi səndə? Birinə mərd, birinə namərd dünya!...

...Bu dünyanı mütləqa hifz edib Mehdi Sahibəz Zaman da, onun ümmətinə də abad halda, qurulu-tikili halda təhvil vermək gərəkdir.

...Bu ulu dünyamıza nəsillər gəlib, nəsillər gedəcək ...Əbubəkr oğlu Əcəmini hamı yad edəcək. Xeyirxah əməllərinə görə. İlk növbədə, bəzəkli gəlinə oxşayan, həmişə canlı kimi görünən, nəfəs alan, insanların ovqatını təzələyən ruhuna görə. Və bunu da deyəcəklər: Ey insanlar! Bu yurd da, onun üstündəki abidələr də sizə bir ata-baba amanatıdı. Axı böyük ustadın özü də ürəyindən keçənləri abidənin lal kitabələrinə elə beləcə də həkk edib: "Təlatüm icrə biz, sürünəndə daim rüzgar. Köçərik dünyadan, amma bu qalar yadigar".[1]

Eyni mövqe Hüseyn İbrahimovun "Böhtan" tarixi romanında da diqqəti cəlb edir. "Böhtan" romanında yaxın dövr tariximizin qaranlıq səhifələri işıqlandırılmışdır. Hüseyn İbrahimov nəsrimizə ilk dəfə olaraq Azərbaycan romantizminin banisi Hüseyn Cavidin bədii obrazını gətirmişdir. Yazıçı

[1] Hüseyn İbrahimov. Əsrin onda biri. – Bakı: Avrasiya-Press, 2005, s.381

1988-ci ildə bitirdiyi bu əsəri on ildən sonra, daha da təkminləşdirərək 1998-ci ildə Bakıda kitab halında nəşr etdirmişdir. Romanda keşməkeşli taleli Hüseyn Cavidin həyatının müxtəlif məqamları öz əksini tapsa da, Hüseyn İbrahimov "Böhtan" romanında Cavid Əfəndinin bütöv tərcümeyi-halını yox, ədibin ömür yolundan seçilmiş təsirli məqamları ön mövqeyə çəkmişdir. "Böhtan"da romantik şairin tərcümeyi-halının, əsasən, Sibir dövrü canlandırılmışdır. Hüseyn Cavidin həyatının Naxçıvan, Təbriz, İstanbul, Tiflis, Bakı dövrlərinin təsvirləri xatirələr işığında geniş mənada şəxsiyyətin təkamülü fonunda böyük bir epoxanın bədii təqdimatı təəssüratı yaradır. Yazıçı Hüseyn Cavidin həyatının Sibir mərhələsini ön mövqeyə çəkməklə də əslində qanlı-qadalı epoxanın faciəsini əks etdirməyə üstünlük vermişdir. Hüseyn Cavidin acı taleyinin Sibir dövrü haqqında "çeşməkli məhbus"un rəsmi şəxsi işindən və bəzi xatirələrindən başqa, geniş materiallar olmadığından, Hüseyn İbrahimov daha çox "yazıçı təxəyyülünə" qol-qanad verməli olmuşdur. Eyni zamanda o, təsvir etdiyi epoxanın bütün yönlərini əks etdirmək üçün, Hüseyn Cavidin sələfləri və müasirləri ilə müəllimi Məhəmməd Tağı Sidqi, həməsri Məhəmməd ağa Şahtaxtlı, Əliqulu Qəmküsar, Rza Təhmasib kimi şəxsiyyətlərlə münasibətlərini, habelə qanlı "troykanı" təmsil edən "qara-yaxalı şəxslərin" faciəsini də oxuculara təqdim etmişdir.

Yazıçının təxəyyülünün məhsulu olan Hüseyn Cavidin respublikanın rəhbəri Mircəfər Bağırovla görüşü səhnəsi tədqiqatçıların haqlı olaraq qeyd etdikləri kimi, "Böhtan" romanının "kulminasiyası"[1] hesab edilə bilər:

"– Niyə susursan? Kommunist firqəsinin nəyindən narazısan?

– Mən firqəçi deyiləm….

– Bəs onda hansı firqəyə mənsubsan?

– Heç birinə … Mən siyasətlə məşğul olmuram.

– Əksinə, sən başdan-ayağa siyasətçisən… Belə olmasa idi, həmkarların sənə "əfəndi", "bəy" deyə müraciət etməzdilər. Görünür, İstanbulun havası sənin başına elə vurub ki, onu hələm-hələm çıxarmaq olmaz. Öz qanını zəhərlədiyin bəsdi, proletar şairlərimizin təmiz qanına o zəhərdən qatır".[2] Həmçinin "Böhtan" romanında Hüseyn İbrahimovun digər əsərlərindən fərqli olaraq, Hüseyn Cavidə aid olan romantik üslubun cizgiləri və notları da müşahidə edilməkdədir. Bu da, heç şübhəsiz, romanın əsasını təşkil edən Hüseyn Cavid yaradıcılığının xarakteri ilə uyğunluq yaratmaq niyyətindən irəli gələn düşünülmüş bədii yanaşmadır.

Nəticə etibarilə, Hüseyn İbrahimov "çeşməkli məhbusun" – görkəmli şair Hüseyn Cavidin timsalında böhtanın, şərin, şantajın ağır, acı nəticələrini, törətdiyi məşəqqətləri gerçək bədii vasitələrlə göz önünə gətirmişdir. Daha

[1] Hüseyn İbrahimov. Böhtan. – Bakı: Şərq-Qərb, 1998, s.193

[2] Yenə orada

qiymətli cəhət bundan ibarətdir ki, müəllif Hüseyn Cavidə aid böhtanın mahiyyətini açıqlamaqla yanaşı, bütövlükdə böhtançılıq fəlsəfəsinə ümumiləşmiş yazıçı qiyməti vermişdir. Romanın bir yerində Cavidin məhbus yoldaşına dediyi aşağıdakı sözlər romantik şairin taleyində və eyni zamanda Hüseyn İbrahimovun təqdimatında əsas yer tutan şərin, böhtanın ictimai-fəlsəfi mahiyyəti açıqlanmışdır: "Sən heç bilirsən böhtan nədir?... Böhtan – Mefistofeldir, Demondur... Böhtan – İblisdir".

"Böhtan" əsəri Azərbaycan tarixi romanının dəyərli nümunəsidir. Bu, Cavid əfəndi haqqında ilk roman kimi də qiymətlidir. Əsərdə Hüseyn Cavidin həyatının Sibir dövrü, əsasən, bədii təxəyyül vasitəsilə təsvir edildiyi üçün "Böhtan" ilk baxışda roman janrında yazılmış bədii əsər təəssüratı yaradır, lakin yazıçının mövzu ilə əlaqədar olaraq bir çox tarixi şəxsiyyətlərin həyatından bəhs etməsi, Hüseyn Cavidin müəllimləri və həmfikirlərindən söz açması və ən əsası, qələmə aldığı dövrün obyektiv ictimai-siyasi xarakteristikasını verməsi "Böhtan" əsərinin tarixi roman olduğunu təsdiq edir. "Böhtan" Hüseyn Cavid dövrünün faciəsi ilə yazıçının şəxsi faciəsini ümumiləşdirilmiş şəkildə əks etdirən mükəmməl tarixi roman nümunəsidir.

***

Hüseyn İbrahimovun yaradıcılığında dramaturgiya da müəyyən yer tutur. O, görkəmli Azərbaycan dramaturqu Cəfər Cabbarlının "Aslan və Fərhad" hekayəsi əsasında "Qardaş ürəyi" faciəsini işləyib səhnə üçün hazırlamışdır. Bundan başqa, Hüseyn İbrahimov "İtirilən sağlıq" və "Torpağın övladları" pyeslərini də qələmə almışdır. "İtirilən sağlıq" pyesi Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında uğurla tamaşaya qoyulmuşdur. Ailə-məişət və mənəviyyat məsələlərindən bəhs edən bu komediya böyük tamaşaçı marağı qazanmışdır. Bununla belə, Hüseyn İbrahimov xalis nasirdir. Hətta onun dramlarında da epik əlamətlər dramaturji vasitələrdən daha qabarıqdır.

Həyatının son illərində Hüseyn İbrahimov "Böhtan" tarixi romanı əsasında dram əsəri yazıb, romantik şair Hüseyn Cavidin keşməkeşli və faciəli həyatının, habelə ölməz sənətinin ibrətamiz dərslərini yeni nəsillərə daha yaxından tanıtmaq istəmişdir. Bu məqsədlə o, 2002-ci ildə faciə janrında "Nuri-həqq sönməz" adlı bir dram əsəri yazmışdır. Quruluş etibarilə iki hissədən və səkkiz şəkildən ibarət olan "Nuri-həqq sönməz" faciəsində Hüseyn Cavidin həbs olunması, dindirilməsi və Sibirdəki məşəqqətli sürgün həyatı təsvir edilmişdir. Yazıçı Hüseyn Cavidin həbs edilməsi və Sibirdəki sürgün həyatı ilə əlaqədar son illərdə üzə çıxarılmış sənədlərdən istifadə etməklə mümkün qədər tarixi həqiqətləri real şəkildə təqdim etməyə çalışmışdır. Əsərdə Hüseyn Cavid, Mir Cəfər Bağırov, Müşkinaz Cavid kimi real obrazlarla yanaşı, yazıçı fantaziyasının məhsulu olan və baş vermiş

ictimai-siyasi prosesləri təqdim etməyə şərait yaradan digər surətlər də yaradılmışdır. Hüseyn İbrahimov Hüseyn Cavidin Sibirdə keçən sürgün həyatından bəhs edərkən sovet imperiyasının ədalətsizliyini və qəddarlığını göstərməklə bərabər, həm də qırmızı imperiyanın məmuru olmasına baxmayaraq, o rejimin haqsızlıqlarını dərindən dərk edən və narazı qalan surətləri də canlandırmağa çalışmış və buna nail ola bilmişdir.

"Nuri-həqq sönməz" faciəsi qanlı 37-ci ilin faciəsini, sovet rejiminin faciəli mahiyyətini açıb göstərən və Hüseyn Cavidin böyük dühasına və ölməz sənətinə gur işıq salan əhəmiyyətli dram əsəridir. Bu əsər yazıçının vəfatından sonra üzə çıxarılaraq çap olunmuşdur.[1]

Çoxcəhətli yaradıcılıq fəaliyyətinə malik olan Hüseyn İbrahimovun yazıçı sözü miqyasında ədəbi-tənqidi görüşlərini əks etdirən məqalələri də çap olunmuşdur. Bu məqalələrində yazıçı Naxçıvan ədəbi mühitinə istiqamət vermiş, yeni ədəbi nəsillərə dayaq durduğunu ifadə etmiş, ədəbiyyat haqqında baxışlarını nəzərə çatdırmışdır.

Yazıçı-dramaturq və publisist Hüseyn İbrahimov bədii tərcümə ilə də məşğul olmuşdur. O, Türkiyə yazıçısı Əziz Nesinin hekayələrini Azərbaycan dilinə çevirmiş, özbək yazıçısı Abdulla Qəhharın bir neçə hekayəsini dilimizə tərcümə etmişdir. Azərbaycan oxucusu Suriya yazıçısı Sibainin hekayələri, Misir yazıçısı Sixata Ubeydin hekayələri ilə də ilk dəfə Hüseyn İbrahimovun rus dilindən etdiyi tərcümələr vasitəsilə tanış olmuşdur.[2]

Xalq yazıçısı Hüseyn İbrahimovun "Nəciblik" adlanan maraqlı bir hekayəsi vardır. Sonralar yazıçı hekayə kitablarından da birini "Nəciblik" adı ilə çap etdirmişdir. Müşahidə edilən bundan ibarətdir ki, "Nəciblik" anlayışı Hüseyn İbrahimovun şəxsiyyətinin də, yaradıcılığının da əsasını, ana xəttini təşkil edir. Şəxsi keyfiyyətləri, səliqə-səhmanı, müdrikliyi ilə obrazı müəyyən olunan yazıçı Hüseyn İbrahimovun bədii yaradıcılığının da əsas qayəsi yazıçının estetik idealı olan "Nəciblik" sözündə ifadə edilmişdir. Haqlı olaraq yazıldığı kimi, o, şəxsi nümunəsi, qələmi və əsərləri ilə bütövlükdə nəcibliyin keşiyində dayanmışdır.[3] Nəciblik fəlsəfəsini şərtləndirən daxili saflıq, müdriklik, əxlaqi kamillik və bütövlük kimi mənəvi dəyərlərə çağırış Xalq yazıçısı Hüseyn İbrahimov üçün ciddi yazıçılıq və vətəndaşlıq işi idi. Böyük sənətkarın əsərləri müstəqillik dövrünün oxucularına da nəcib əxlaqi-mənəvi keyfiyyətlərin aşılanmasına uğurla xidmət edir.

[1] Xalq yazıçısı Hüseyn İbrahimov. – Naxçıvan: Əcəmi, 2015, s.346-375
[2] Teymur Əhmədov. Azərbaycan yazıçıları XX-XXI yüzillikdə. – Bakı: Nurlar, 2011, s.420
[3] İsa Həbibbəyli. Nəciblik. "Ədəbiyyat qəzeti", 8 iyul 1994

BAYRAM BAYRAMOV
(1918-1994)

XX əsr Azərbaycan ədəbiyyatının yaradıcı simalarından, tanınmış nasirlərindən biri də çoxsaylı hekayə, povest və romanların müəllifi, müqtədir söz ustadı, Xalq yazıçısı Bayram Bayramovdur. Onun əsərləri dünya dillərinə çap edilərək yayımlanmış və Azərbaycan ədəbiyyatının inkişafında özünəməxsus rola malik olmuşdur.

Həyatı. Bayram Salman oğlu Bayramov 1918-ci il 11 dekabr tarixində Kolanı mahalının Şıxavənd (indiki Əlimədədli) kəndində Salman Məşhədi Qurban oğlunun ailəsində dünyaya göz açan dördüncü uşaq idi. Salman bəy (1873-1938) dövrünün təhsil görmüş, rus, ərəb, fars dillərini bilən, Cümhuriyyət ideyalarını, istiqlal məfkurəsini dəstəkləyən və təbliğ edən qabaqcıl ziyalılarından olmuşdur. O sovet dövründə üç dəfə həbs olunmuş, "xalq düşməni" adlandırılaraq, ən ağır cəzaya – güllələnməyə məhkum edilmiş, ölüm hökmü 1938-ci il 6 mart tarixində,[1] 65 yaşında Bakıdakı Bayıl həbsxanasında yerinə yetirilmişdir. NKVD əməkdaşları onun şəxsi kitabxanasının böyük bir hissəsini müsadirə etmiş, aparmadıqları əsərləri isə təndirə atıb yandırmışlar. Onların içərisində Nizami Gəncəvinin "Xəmsə"si, "Molla Nəsrəddin" jurnalının tam dəsti də olmuşdur. Bayram Salman oğlu Bayramov 20 ilə yaxın "xalq düşməninin oğlu" damğası altında atadanqalma qara mirası ürəyində və kürəyində qaratikan şələsi kimi daşımaq məcburiyyətində qalmışdır. O, anasını təxminən 2 yaşında itirmiş, Tükəzban nənəsinin himayəsində böyümüşdür.

Bayram Bayramov ulu babasının adını daşıyan Əlimədədli kəndində məktəb olmadığına görə, Yevlax rayonunun Malbinəsi kəndində yaşayan Bəkir dayısının və Gözəl bibisinin ailəsində qalmaqla, 1927-ci ildə birinci sinfə getmişdir. 1934-cü ildə 7 illik Kolxozçu-gənclər məktəbini bitirdikdən sonra Ağdam Pedaqoji Texnikumunda təhsil almış (1934-1938), atasının repressiya olunduğu il Tərtər rayonundakı Hüsənli kənd məktəbinə müəllim vəzifəsinə təyinat almış, 1940-cı ilədək bu məktəbdə çalışmışdır. O, 1940-1941-ci illərdə Müsəlmanlar (Türklər) kənd məktəbində tədris hissə müdiri, 1941-1942-ci illərdə Xoruzlu kənd 7 illik məktəbində direktor vəzifəsində fəaliyyət göstərmiş, şagirdlərin dərsliklərlə, müvafiq təlim-tərbiyə mühiti ilə təmin olunmasında, sinif otaqlarının dərs ləvazimatı, laboratoriya avadanlığı

[1] Bayramov Salman Qurban oğlu (6.3.1938*, 65 yaş). Azərbaycanda repressiya qurbanlarının siyahısı (1937-1938). https://az.wikipedia.org/wiki/Az%C9%99rbaycanda_ repressiya_ qurbanlar%C4%B1n%C4%B1n_siyah%C4%B1s%C4%B1_(1937-1938)

ilə təchizatında, məktəb kitabxanasının dərsliklərlə, yeni nəşrlərlə zənginləşdirilməsində mühüm rol oynamış, pedaqoji kollektivin və kənd əhalisinin rəğbətini qazanmışdır.

Bayram Salman oğlu Bayramov 1942-ci ildə könüllü müharibəyə yollanmış, Mozdak uğrunda döyüşlərdə ön cəbhədə fəal iştirak etmiş, həmin il ağır yaralanaraq hərbi xəstəxanada intensiv müalicə olunmuşdur. Sağlamlığı bərpa edildikdən sonra o, təhsil aldığı Yevlağın Malbinəsi kənd 7 illik Kolxozçu-gənclər məktəbində 6 ay direktor vəzifəsində çalışmışdır. Müharibənin şiddətli dövründə sakit həyatda, rahat təhsil mühitində dinclik tapmayan Bayram Bayramov 1943-cü ilin aprel ayında yenidən cəbhəyə qayıtmış, özünü odun-alovun içinə atmaqdan çəkinməmişdir. O, 1944-cü ildə ordu sıralarından tərxis olunduqdan sonra doğma kəndinə dönərək burada pedaqoji fəaliyyətini davam etdirmişdir. Ali təhsil almaq üçün 1945-ci ildə Bakı şəhərinə gəlmiş, 27 yaşında Azərbaycan Dövlət Universitetinin Filologiya fakültəsinə daxil olmuşdur.

Yazıçının öz xatirələrinə əsasən, ona təhsil illərində ədəbiyyatşünaslıq elmimizin görkəmli simalarından: "Əli Sultanlı, Həmid Araslı, Mirzə Feyzulla, Məmməd Arif, Mikayıl Rəfili, Mir Cəlal, Cəfər Xəndan, Məmmədhüseyin Təhmasib, Muxtar Hüseynzadə, Məmmədağa Şirəliyev, Məmməd Cəfər, Əbdüləzəl Dəmirçizadə kimi müəllimlər",[1] tanınmış alimlər dərs demiş, yazıçı, filoloq kimi yetişməsində diqqət və qayğı göstərmişlər.

Bayram Bayramov tələbə olmaqla yanaşı, Bakıdakı Kitabxanaçılıq Texnikumunda müəllimlik fəaliyyətini davam etdirmiş (1948-ci ildən), universiteti 1950-ci ildə fərqlənmə diplomu ilə başa vurmuşdur. Professor Teymur Əhmədovun verdiyi bilgiyə əsasən, Bayram Bayramov Kitabxanaçılıq Texnikumunda 1955-ci ilə qədər ədəbiyyat müəllimi peşəsində çalışmış, "Radionun ədəbi-dram verilişləri redaksiyasında məsul redaktor (1956-1958), "Azərbaycan" jurnalının redaksiyasında ədəbi işçi (1958-1960), Azərbaycan Yazıçılar İttifaqında nəsr üzrə məsləhətçi (1960-1963) işləmişdir. Bir müddət yenə bütün qüvvəsi ilə yaradıcılıqla məşğul olmuş, Dövlətnəşrkomda sədr müavini kimi çalışmışdır (1966-1971)".[2] O, Dövlət Nəşriyyat Komitəsindəki yüksək vəzifəsindən çıxdıqdan sonra uzun illər iş ilə təmin olunmamış, bədii yaradıcılığı üzərində intensiv çalışmış, yeni-yeni hekayə, povest və romanlar yazıb-yaratmışdır. Bayram Bayramov rəsmi vəzifələrdə fəaliyyət göstərmədiyi 18 il müddətində məhsuldar işləmiş, "Fəhlə qardaş" (1975), "Qaşsız üzük" (1977), "Yazılmamış kitab" (1978), "Cıdır düzü" (1979), "Gün batanda" (1981), "Seçilmiş əsərləri" üç cilddə

[1] Bayram Bayramov. Xatirələr / Çox sözdən sonra. – Bakı: Yazıçı, 1988, s.269

[2] Teymur Əhmədov. Bayram Bayramov. Azərbaycan yazıçıları XX-XXI yüzillikdə. – Bakı: Nurlar, 2011, s.119

(1984-1985), “Şəhərdən gələn qız” (1984), “Karvan yolu” I cild (1986), “Çox sözdən sonra” (1989) və s. bədii-estetik yönümdən ən maraqlı əsərlərini yazıb nəşr etdirmişdir.

Erməni-daşnak şovinistləri və onların havadarları tərəfindən 1988-ci ildə Qarabağın sabiq mərkəzində separatizm “ocağ”ı körüklənməyə və qığılcımları ətraf bölgələrə yayılmağa başlandı. Ermənistanın etnik təmizləmə siyasəti nəticəsində yüz minlərlə azərbaycanlı öz tarixi dədə-baba yurdlarından zorakılıq, qətl və qarətlərlə deportasiya edilir, Qarabağın dağlıq hissəsindən isə soydaşlarımız hərbi təcavüz nəticəsində məcburi qaçqına və köçkünə çevrilmişlər. Ölkənin ağır ictimai-siyasi və sosial-iqtisadi durumunda tarixi yurd yerlərini itirmiş, yaşam üçün ən zəruri ehtiyacların ödənilməsinə möhtac qalmış soydaşlarımıza qayğı göstərmək, onların cəmiyyətə rəvan inteqrasiyasına vəsilə olmaq üçün 1989-cu ildə Qarabağa Xalq Yardımı Komitəsi yaradıldı və onun ilk sədri Xalq yazıçısı Bayram Bayramov seçilmişdir. Ədib bu ağır və məsul vəzifədə beş il işlədi. Azərbaycanda hakimiyyətin tez-tez dəyişdiyi, siyasi qarşıdurmaların və uğursuzluqların təkrarlandığı dönəmdə (1990-1993), xalq arasında yazıçı kimi böyük nüfuz qazanmış, Qarabağa Xalq Yardımı Komitəsi xətti ilə qaçqınlara və köçkünlərə maddi və mənəvi cəhətdən dəstək və qayğı göstərmişdir.

Xalq yazıçısı Bayram Bayramov uzun sürən xəstəlikdən sonra 9 noyabr 1994-cü ildə Bakı şəhərində vəfat etmiş, II Fəxri xiyabanda dəfn olunmuşdur.

Bayram Bayramovun yazıçı əməyi layiqincə dəyərləndirilmiş, “Şərəf nişanı” (1968), “Xalqlar dostluğu” (1978), “Böyük vətən müharibəsi” (1985), “Qırmızı əmək bayrağı” (1988) ordenləri və çoxsaylı medallarla təltif edilmiş, Azərbaycanın Xalq yazıçısı adına layiq görülmüşdür (1984). Dövlət mükafatı laureatı olmuş (1990), Azərbaycan Ali Sovetinin deputatı (1990) seçilmişdir.

Yaradıcılığı. Bayram Bayramov ədəbiyyata, bədii nəsrə 1950-ci ildə “Azərbaycan gəncləri” qəzetində “Ən yaxşı hekayə” müsabiqəsinin qalibi olaraq çap etdirdiyi “Körpü” adlı əsəri ilə gəlmişdir. Əsərin qəhrəmanı kolxozda çalışan gənc və cəsur briqadir Səlimdir. O, tarlanı ikiyə bölən çayın yaz aylarında daşmasının təsərrüfata ciddi ziyan vurmasına, yolun uzanmasına və vaxt itkisinə səbəb olduğuna görə, körpü salınmasını təklif edir. Hesabdar Şirin təklifin əleyhinə çıxsa da, kolxozçular körpünün tikilməsinə qərar verirlər. Qəfil gur yağış yağması, sel sularının kükrəməsi körpünün tikintisinin vaxtında tamamlanmasına ciddi təhlükə yaradır. Özünü selin ağuşuna ataraq körpü taxtalarını xilas edən Səlimin cəsarəti, qoçaqlığı, qələbəsi əhali arasında rəğbət hissi ilə qarşılanır. Hekayədə Səlimin Durna adlı manqabaşçısının sevgi dolu baxışlarını qazanmasını yazıçı qəhrəmanına ən böyük mükafat çələngi kimi təqdim edir. Bayram Bayramov ilk mətbu

əsərini sonralar "Yasəmən"[1] adlı povestlər və hekayələr kitabına daxil etmişdir.

Yazıçının ilk kitabı 1954-cü ildə yazdığı və iki il sonra nəşr etdirdiyi "Tək adam"[2] povestidir. Onun ötən əsrin 50-ci illərində yazdığı və yaradıcılığının birinci mərhələsinə daxil edilən "Müqəddəs vəzifə" (1955), "Sənsiz" (1957), "Onun gözləri" (1958), "Mən ki gözəl deyildim" (1959), "Gördüyüm günlər" (1960) povestləri, "Ayrılıq" (1953-1957) və "Yarpaqlar" (1957-1960) romanları ədibin həmkarları və ədəbi tənqid tərəfindən yüksək dəyərləndirilmişdir. Xüsusilə Pənah Xəlilov "Azərbaycan" jurnalında Bayram Bayramovun "Tək adam", "Müqəddəs vəzifə" povestləri haqqında nəşr etdirdiyi "İlk povestlər haqqında"[3] adlı və Qulu Xəlilov "Ayrılıq"[4] adlı məqalələrində yazıçının ilk irihəcmli əsərlərinin sənətkarlıq nöqteyi-nəzərindən uğurları və qüsurları barədə mülahizələrini, qənaətlərini sərgiləmiş, "müəyyən təcrübəsizliyin" mövcudluğundan, dinamikanı zəiflədən "əhvalatçılıq"dan söz açmışdılar.

"Yarpaqlar" romanında hadisələr yazıçının doğma el-obası olan Kolanıda cərəyan edir. Kənd həyatı, onun saf, cəfakeş, mübariz insanları, zəhmət adamları haqqında canlı lövhələrdən, parlaq, inandırıcı boyalardan böyük ustalıqla istifadə olunmuşdur. Bayram Bayramovun digər əsərlərində olduğu kimi, "Yarpaqlar" romanında da mövzu, bədii-estetik düşüncə, haqq-ədalət uğrunda mübarizə üçün kolxoz quruluşu, onun idarə edilməsi mexanizmi fon, müstəvi olaraq seçilmişdir. Kolxoz – sovet rejimində iqtisadi sistemin ən kiçik idarəetmə strukturudur. Əsərdə Hümmətin timsalında kolxoz sədrinin mənfi obrazının peşəkarlıqla yaratmasının alt qatında yazıçının sosialist sisteminə şəxsi ironiyasının mövcudluğunu duymamaq mümkün deyildir. Tənqidçi Q.Xəlilov "Yarpaqlar" romanından söz açarkən kolxoz sədri Hümmətin xislətini və əməlini belə təqdim edir: "Kolxozçuların varını qohum-əqrəbası ilə talan eləyən Hümmət... kəndini kolxozunu müflis hala salmışdır... Hümbətin "neçə illərdən bəri verdiyi məlumatın 90 faizi yalandır" və onun təhdidinə məruz qalan namuslu və zəhmətkeş adamlar öz doğma kəndindən didərgin düşüb başqa yerlərə gedir... Kənddə sağlam və mübariz qüvvələrin sayı çoxaldıqca Hümmət amansızlaşır, quduzlaşır. Bu lovğa və nadan sədr bəzən kəndin qələbəsinin hamısını öz adına çıxır".[5]

Kənddə on illərlə formalaşan insani münasibətlər sistemi sosial-mədəni mühitin ən bariz göstəricisidir. Yusif yaxşı bilir ki, kənddə baş verən

[1] Bayram Bayramov. Yasəmən (povestlər və hekayələr). – Bakı: Gənclik, 1969
[2] Bayram Bayramov. Tək adam. – Bakı: Uşaqgəncnəşr, 1956
[3] Pənah Xəlilov. İlk povestlər haqqında. – Bakı: "Azərbaycan" jurnalı, 1957, № 9, s.212-224
[4] Qulu Xəlilov. Ayrılıq. – Bakı: "Azərbaycan gəncləri" qəzeti, 1957, 8 fevral
[5] Qulu Xəlilov. Ön söz / Bayram Bayramov. Seçilmiş əsərləri, I cild. – Bakı: Azərnəşr, 1968, s.5-15

naqisliyin, qohumbazlıq və yaltaqlığın daha irimiqyaslı mənzərəsi rayon strukturunda da baş verir. Onun üzv olduğu və iştirak etdiyi Rayon sovetinin iclasında mədəniyyət şöbəsinin müdiri "Kənddə mədəniyyət işlərinin vəziyyəti haqqında" adlı məruzəsinə belə başlayır: "Deputat yoldaşlar! Rayon partiya komitəsinin, şəxsən Əlizadə yoldaşın, rayon zəhmətkeş deputatları soveti və onun sədrinin yaxından rəhbərliyi və qayğısı nəticəsində rayonumuzda mədəniyyət işləri gündən-günə çiçəklənməkdədir..."[1]

Mədəniyyət anlayışının mahiyyətinə, ruhuna zidd olan, dövrünün, zamanının dəyişməz şablonuna çevrilmiş, yarınmağın və yaltaqlığın elementlərini özündə əks etdirən bu tipli "müqəddimə"ləri müəllif haqlı olaraq əsərində ifşa etmiş, gülüş hədəfinə çevirmişdir. Yazıçının bütün əsərlərində yaramazlıqlara, naqisliklərə qarşı satirik gülüş metodundan məharətlə istifadə olunmuşdur.

"Yarpaqlar" romanında xalq mənafeyini hər şeydən üstün tutan, kolxozda Hümmətlərə, Həmzələrə qarşı açıq mübarizəyə girişən gənc Yusif, Şahmar obrazları çox ağıllı, fədakar, uzaqgörən və mübarizdilər. Məhz onlar doğma kəndin sabahını, gələcəyini işıqlı, yaraşıqlı, mədəni, daima inkişafda görürlər.

Bayram Bayramovun 1960-1970-ci illər yaradıcılığı ilkin mərhələ ilə müqayisədə zəngin və peşəkarlıq yönümdən fərqlidir. Qələm yoldaşları ilə eyni dövrdə, eyni ədəbi mühitdə yaşayıb-yaratsa da, eyni ədəbi prosesin məcrasından mətin addımlarla keçsə də, ölkədə yeniləşmənin və milliləşmənin önündə gedən 60-cılar ədəbi hərəkatının ön cərgəsində görünmürdü. Amma mədəniyyətimizin, klassik ədəbi irsimizin, adət-ənənələrimizin, mənəvi yaddaşımızın tarixin dərinliklərindən bu günümüzə ünvanlanan səsdasına, nişanəsinə, yadigarlarına güzgü tuturdu, onu çağdaş bədii ədəbiyyat xiridarlarına çatdırmağı özünün mənəvi borcu, yazıçılıq missiyası hesab edirdi.

Bayram Bayramovun yazdığı "Sənsiz" (1963), "Onun gözləri" (1964), "Xəzinə. Bəlalı sevgim" (1965), "Arakəsmələr" (1966), "Üç gün, üç gecə" (1967), "Seçilmiş əsərləri" iki cilddə (1968), "Yasəmən" (1969), "Fəhlə qardaş" (1975), "Qaşsız üzük" (1977), "Yazılmamış kitab" (1978), "Cıdır düzü" (1979) və digər irihəcmli kitablarında, povest və romanlarında Azərbaycanın həyalı, abırlı-ismətli, sədaqətli xanımlarının, mərd, qeyrətli, cəsur oğullarının mədəni-mənəvi dünyası gerçək əksini tapmışdır.

"Yasəmən" povestində əsərin baş qəhrəmanı olan Yasəmənin təhkiyəsində metaforalardan, bədii təsvir vasitələrindən geniş istifadə olunmasa da, yazıçının təqdimatında inandırıcılıq güclüdür. O, kolxoz quruluşunun yeni yarandığı 30-cu illər müstəvisində aclığın, yoxsulluğun, ehtiyacın tüğyan etdiyi kənd mühitində bir ailənin ən incə cizgilərə qədər dəqiqliklə nəzərə

[1] Bayram Bayramov. Yarpaqlar. Seçilmiş əsərləri, I cild. – Bakı: Azərnəşr, 1968, s.357

alınmış ailə-məişət münasibətlərinin geniş panoramını yaratmağı bacarmışdır. Yasəmən özünü və ailəsini belə təqdim edir: "Bacıların kiçiyi, qardaşların böyüyü idim. Məndən sonra anamın oğlan doğması ilə ailədə ərköyün, xoşqədəm olmuşdum. Lap körpəlikdən hiss edirdim ki, bacıların əziz bacısı, ata-ananın istəkli övladı mənəm. Anam çox zaman boyumu sevib "adına qurban" deyərdi. Atam nə qədər qaradinməz, qayğılı olsa da, məni oxşardı, hərdən üzümə gülüb "Yasəmən balam" – pıçıldayardı. Mən çalışacam ki, hekayətimi insafla davam etdirəm. Hər şeyi yaddaşımın sədaqətilə düz danışam, hadisələrə, əhvalatlara rəng-bəzək vurmayam".[1]

"Rəngsiz, bəzəksiz" hadisələrdə, əhvalatlarda acı həqiqətlərdən, qanlı qarşıdurmalardan, sinfi mübarizələrdən bəhs olunur. Yazıçı konkret tarixə istinad etməsə də, hadisələrin 1920-1930-cu illərdə pambıqçılıq təsərrüfatı ilə məşğul olan bir Azərbaycan kəndində cərəyan etdiyi bəlli olur. Müəllifin yaşadığı, müşahidə etdiyi həyat hekayələrindən ayrı-ayrı lövhələrin Yasəmənin təqdimatında verilməsi olduqca təbii və cəlbedicidir. Yasəmən qaranlıq mühitə həqiqət işığı yayan məşələ bənzəyir. Məhz həqiqətsevərliyinə görə başı müsibətlər çəkir. Əsərdə ayrı-ayrı epizodlarda Yasəmənin gözəl səsi olduğu vurğulanır, Üzeyir bəyin bölgələrə mütəxəssislər göndərib yaxşı musiqi duyumu və səsi olan gəncləri musiqi məktəbinə dəvət etdiyi bildirilir.

Əsərin sonunda dövrün ziddiyyətlər burulğanından ləkəsiz və zədəsiz çıxan, təhsilə meyillənən, uşaqlıq və gənclik illərinin acı xatirələrini şirin bir təhkiyə yolu ilə söyləyən Yasəmən Mehnətoğlunun professor olmasını zəhmətə, istedada, halallığa, qədirşünaslığa və həqiqətsevərliyə verilən qiymətin rəmzi kimi dəyərləndirmişdir.

Bayram Bayramovun yaradıcılığında müstəsna yer tutan əsərlərindən biri də "Cıdır düzü" romanıdır. Əsər "Külli Qarabağın" tarixinə, mədəniyyətinə, adət-ənənəsinə, musiqisinə, ictimai və sosial həyatına, işgüzar, yaradıcı insanlarına, qədim və əfsanəvi Şuşa şəhərinə, tarixi yarışlar meydanı olan Cıdır düzünə həsr edilmişdir.

Romana, onun bədii-estetik səviyyəsini yüksək dəyərləndirən tənqidçi-ədəbiyyatşünas əsər haqqında yazırdı: "Cıdır düzü" romanı 1979-cu ilin sonlarında işıq üzü gördü və sonra görəcəyimiz məşum illərə hələ düz on il qalırdı və Bayram Bayramov ağlının, fəhminin gücü ilə Şuşanın, Qarabağın faciəsini öncədən gördüyündən, bu faciəni önləməkdən ötəri haray çəkirdi və bu romanı yazmaqla bütün Azərbaycan cəmiyyətinin yatmış, soyumuş diqqətini Azərbaycanın içərisindəcə ermənilər tərəfindən təklənmiş lacivərd Şuşaya yönəltmək istəyirdi".[2]

---

[1] Bayram Bayramov. Yasəmən (povestlər və hekayələr). – Bakı: Gənclik, 1969, s.5

[2] Qurban Bayramov. Karvan yolunun fatehi. https://modern.az/edebiyyat/91407/karvan-yolunun-fatehi-bayram-bayramov/

Milli-mənəvi sərvətlərimizin mücrüsü hesab olunan "Cıdır düzü" romanını etnoqrafik əsər də adlandırmaq olar. Əsərdə qəribə və bənzərsiz küçə, məhəllə, yer adları, bəy, mirzə, molla, bəzzaz, tacir, alverçi, hambal, papaqçı, dərzi, xanəndə, ziyalı ləqəbləri, təxəllüsləri, ayamaları, bir sözlə, antroponimlər səsləndirilir, şivə, ləhcə özəllikləri sərgilənir. Şəhərin tarixi abidələri, təbiətin füsunkar gözəllikləri, insanları bir-birinə bəslədikləri tükənməz sevgisi, coşğusu, şux zarafatları yaddaşlarda yaşayır.

Yazıçı Şuşanın axarlı-baxarlı mənzərəsini bir sənətkar səxavəti ilə müşahidələrinə əsaslanaraq təsvir edir: "Cıdır düzü tərəfdəki... göz işlədikcə gözəllik göstərən, bir yandan qarlı dağları – Qırxqızı, bir səmtdən qıvrım telli Topxana meşələrini, avazla axan Daşaltı çayını, o yanda Yeddixırman düzənliyini, bir cəhətdən aşağıları qızılı zəmili aranları göz önünə tutan Ağqulaqlar məhəlləsi ilə bərabərləşmişdi. Bu həmin Ağqulaqlar idi ki, onların baş binasında Natəvanın, Vaqifin, Nəvvabın, Cabbarın, Üzeyirin ilham pərisinə sığınan şairlərin, yazıçıların istirahət mənzilləri yerləşirdi. O yerdən ki, Vaqifin türbəsi görünürdü, o eyvandan ki, Cabbarın "Qatar"ı səslənmişdi, Seyid, Xan Şuşinski oxumuşdular".[1]

Qarabağın konservatoriyası adlandırılan Şuşanın təsvir olunan panoraması Qədim Romanın açıq səma altında muzeyi hesab edilən Kolizey amfiteatrı ilə necə də oxşarlaşır, yaddaşlaşır. B.Bayramovun xüsusilə, Qarabağa həsr etdiyi əsərlərindəki hadisələrin gerçəkliyinə, dəqiqliyinə güvənərək, bu bölgənin bədii tarixi də adlandırmaq mümkündür.

Ötən yüzilliyin 80-ci illəri Xalq yazıçısı, dövlət mükafatı laureatı Bayram Bayramovun ömrünün ahıl dövrünə təsadüf etsə də, yaradıcılığında bədii reklasasiya, diqqəti cəlb edən zəifləmə müşahidə olunmamışdır. Onun bu dövrdə yazdığı "Gün batanda" (1981), "Şəhərdən gələn qız" (1984), "Karvan yolu" iki cilddə (1986, 1993), "Çox sözdən sonra" (1988), "Üzlüastarlı dünya" (1990) və b. kitabları, povest və romanları Azərbaycan bədii nəsrini zənginləşdirən dəyərli ədəbi töhfələr idi.

Yazıçının "Karvan yolu" romanı təsvir olunan hadisələrin əhatə dairəsinə, miqyasına, zəngin həyati materiallarına və ədəbi şəxsiyyətlərin xalq ilə sıx bağlı ömür-gün yollarının dərin məna kəsb etdiyinə görə tarixi aspektdə yazılmış böyük bir epopeyadır. Məlumdur ki, Bayram Bayramovun bütün yaradıcılığından Qarabağ mövzusu qırmızı xətt kimi keçir. O özünü təkrar etmədən povest və romanlarında Qarabağ, Şuşa, Cıdır düzü mövzularına dönə-dönə qayıtmış, məsələyə müxtəlif yönlərdən yanaşmaqla bu əfsanəvi məkanın mənəvi incilərlə zəngin sirli-sehirli qatlarına xəyali ekskursiyalar etmişdir. Mövzuya dərindən bələdliliyin nəticəsidir ki, yazıçı "Karvan yolu"nu yazarkən, fakt-material baxımından arxiv, kitabxana

[1] Bayram Bayramov. Cıdır düzü. – Bakı: Yazıçı, 1979, s.4

fondlarını araşdırmağa ehtiyac duymamış, bu yönümdən ciddi çətinliklərlə üzləşməmişdir. Çünki yazdığı hadisələrin ya şahidi olmuş, ya da ən yaxın insanlardan eşitmiş, əxz etmişdir. Əsər böyük Azərbaycan yazıçısı, publisisti, mütəfəkkiri Cəlil Məmmədquluzadəyə və onun sədaqətli, mətin ömür-gün yoldaşı Həmidə xanımın həyatına və maarifçilik uğrunda mübarizəsinə həsr olunmuşdur. Qarabağda cərəyan edən hadisələr bu bölgənin real tarixini özündə ehtiva edir. Yazıçı Bayram Bayramovun "Karvan yolu" əsərini Cəlil Məmmədquluzadə, Həmidə xanım Məmmədquluzadəyə həsr edilmiş və tarixi "Qarabağnamələr"in bədii məcrada davamı olan bədii əsər hesab etmək mümkündür.

Bayram Bayramovun "Üzlü-astarlı günlər" (1991) əsəri professor Teymur Əhmədovun təşəbbüsü və xahişi ilə qələmə alınmış avtobioqrafik romandır. Əsərdə hadisələr 1927-ci ilin sentyabrından başlanır, qardaşı Əkbər Bayramovun Universitetin Psixologiya fakültəsinə daxil olduğu dövrə qədərki acılı-şirinli, üzlü-astarlı xatirələri dəqiq, yerli-yerində, rəvan təhkiyə üslubunda nəql olunur. Romanda bir ailənin sarsıntıları, zamanın qandonduran faciələri, repressiya dövrünün gecə həbsolunmaları haqqında həyəcanlı süjetlər verilmişdir. Yazıçı həmin dövrü yada salaraq yazırdı: "37 öz məşəqqəti ilə başa çatanda çox adam nəfəs dərib əli göydə şükür elədi. Elə hesab elədilər ki, məşəqqət də sona yetdi... 38-in ilk günlərində gah sakitlik olurdu, gah da ordan-burdan xəbər çıxırdı – "apardılar". Novruz bayramı yaxınlaşırdı. ...böyük qardaşım Fərman məndən üç il sonra texnikuma daxil olmuşdu, mən son kursda, o isə birinci kursda təhsil alırdı. Gəldi, oyundan məni kənara çağırdı. Bayram sovqatı gözlədiyimiz halda, qara xəbər aldıq.

– Dədəmi keçən gecə aparıblar.

Ömrümdə bunun qədər ağır xəbər eşitməmişəm və o qədər də donub keyləşmişəm. Elə bil dərin bir quyuya saldılar məni, ondan da dərin və qaranlıq bir yerdən vahiməli, rişxəndli bir səs ilan həniri ilə pıçıldayırdı: apardılar, havadan, bulaq suyundan da təmiz atanızı. Sizi də yaman günə qoydular".[1]

Ağdam Pedaqoji Texnikumunda təhsil alan iki qardaş: Bayram və Əkbərin "bulaq suyundan da təmiz" atalarının şər və böhtanla ləkələnməsi, qısa müddətdə güllələnmə hökmünün çıxarılması yüz minlərlə gənclərin, günahsız ailələrin düçar olduğu ənənəvi faciələr idi. Repressiyanın qəddar, qeyri-insani məramlarından biri də ailə başçısını aradan götürmək, perspektivli övladlarını cəmiyyətdə təzyiq altında saxlamaq, gözükölgəli etmək və qara niyyətlərinin icrası üçün onlarla itaətkar kölə kimi davranmaq idi.

[1] Bayram Bayramov. Üzlü-astarlı günlər. – Bakı: Gənclik, 1991, s.37-39

Ədəbi-ictimai fəaliyyətinin son dövrlərində Qarabağ hadisələrinə münasibətdə Bayram Bayramov təhriflərə yol vermiş, proseslərin təhlilində yanlış mövqe göstərmişdir.

Xalq yazıçısı Bayram Bayramov "Üzlü-astarlı günlər" və digər romanlarında Azərbaycan dilinin gözəlliyini, zənginliyini, duruluğunu, saflığını qoruyub saxlamışdır. Xalq yaradıcılığından mütəmadi faydalanmış, görkəmli söz sənətkarı kimi Bayram Bayramovun yaradıcılığı Azərbaycan ədəbiyyatı tarixində özünəməxsus yer tutur.

ƏZİZƏ CƏFƏRZADƏ
(1921-2003)

Tarixi romanlar ustası, ədəbiyyatşünas alim, pedaqoq Əzizə Cəfərzadə ədəbi-bədii fəaliyyəti ilə Azərbaycan ədəbiyyatında özünəməxsus mövqeyə malikdir.

Həyatı. Nasir, ədəbiyyatşünas Əzizə Məmməd qızı Cəfərzadə 1921-cil il dekabrın 29-da Bakı şəhərində anadan olmuşdur. Əslən Şamaxı xanlarının nəslindəndir. Orta məktəbi bitirdikdən sonra ADU-nun filologiya fakültəsində təhsil almışdır. Ağsu rayonunun Çaparlı kənd məktəbində müəllim (1942-1944), "Azərbaycanfilm" kinostudiyasında ssenari şöbəsinin rəisi (1844-1946), teatr məktəbində müdir (1947-1949), Universitetdə aspirant (1948-1950), kafedra müdiri (1950-1956), Kamçatka Pedaqoji İnstitutunda dosent (1956-1957), Azərbaycan EA Əlyazmalar İnstitutunda baş elmi işçi, şöbə müdiri (1957-1974) olmuşdur. BDU-nun Azərbaycan ədəbiyyatı kafedrasında professor vəzifəsində çalışmışdır (1974-cü ildə). "Xatirə" irs komissiyasının (1989-cu ildə) və Azərbaycan Qadınlar Şurasının sədri olmuşdur (1983-1990).

Ədəbi fəaliyyətə 1947-ci ildə "Ədəbiyyat qəzeti"ndə çap etdirdiyi "Əzrayıl" adlı ilk hekayəsi ilə başlamış, həmin vaxtdan etibarən dövri mətbuatda nəsr əsərləri və ədəbi-tənqidi məqalələri ilə müntəzəm çıxış etmişdir. Onun ədəbiyyatşünaslıq fəaliyyəti əsasən klassik irsimizin tədqiqi ilə bağlı olmuşdur. "Fatma xanım Kəminə", "Könül çırpıntıları", "Azərbaycanın şair və aşıq qadınları", "Şirvanın üç şairi", "Mücrüm Kərim Vardani-Sünbül", "Abdulla Padarlının seçilmiş şeirləri", "Hər budaqdan bir yarpaq" kitablarını tərtib edib çapa hazırlamışdır.

Əzizə Cəfərzadə əsasən tarixi romanlar müəllifi kimi tanınır. Belə ki, o, 16 tarixi romanın müəllifidir və ədəbiyyat tariximizdə bu sayda birincidir. "Aləmdə səsim var mənim", "Vətənə qayıt", "Yad et məni", "Bakı-1501", "Cəlaliyyə", "Zərrintac-Tahirə", "Gülüstandan öncə", "Bir səsin faciəsi" və s. romanları Azərbaycan tarixində iz buraxan görkəmli şəxsiyyətlərin ömür yolunu əks etdirir. Onun əsərləri keçmiş SSRİ və xarici ölkə xalqarının dillərinə də tərcümə olunmuşdur. Əzizə Cəfərzadə "Xalqlar dostluğu" ordeni ilə təltif edilmişdir.

Əzizə Cəfərzadə 2003-cü il sentyabrın 4-də vəfat etmişdir.

Yaradıcılığı. Əzizə Cəfərzadə ədəbi yaradıcılığa 1946-cı ildə "Ədəbiyyat qəzeti"ndə dərc etdirdiyi "Əzrayıl" hekayəsi ilə başlamışdır. Onun məşhur tarixi romanlarına qədər yaradıcılığı o qədər məhsuldar olmamışdır. O daha çox pedaqoji fəaliyyətlə məşğul olmuş, ara-sıra klassik ədəbiyyatdan, xüsusilə Azərbaycanın şair və aşıq qadınlarının yaradıcılığından məqalələr yazmış, hekayələr dərc etdirmişdir. Ancaq keçən əsrin

yetmişinci illərinin əvvəllərindən başlayaraq Əzizə Cəfərzadə müasir Azərbaycan nəsrində tarixi romanlar müəllifi kimi tanınmış və təxminən otuz il ərzində 16 roman yazmışdır.

Əzizə Cəfərzadə "Şirvan trilogiyası" adlandırdığı üç romanı ilə özünün tarixi roman silsiləsinin əsasını qoydu. "Aləmdə səsim var" Seyid Əzim Şirvaninin, "Vətənə qayıt" Nişat Şirvaninin, "Yad et məni" Abbas Səhhətin keçdiyi həyat yoluna həsr edilmişdir. Təbii ki, yazıçı bu üç şairin həyat və yaradıcılığına yaxşı bələd idi. Məlumdur ki, Azərbaycan ədəbiyyatında görkəmli ədib M.S.Ordubadi bu janrın ilk nümunələrini yaratmış və müəyyən ənənə qoymuşdu. Əzizə Cəfərzadə də bu ənənəni uğurla davam etdirən yazıçılardan biri oldu. Tarixi roman üçün əsas xüsusiyyətlər – tarixi keçmişdə baş verən hadisələri qələmə almaq, görkəmli şəxsiyyətlərin fəaliyyətlərini işıqlandırmaq, keçmişlə müasir həyat arasında bir körpü yaratmaq bu tipli romanlar üçün əsas və müəyyənedici cəhətlər idi.

Xalq şairi Rəsul Rza "Aləmdə səsim var" romanı haqqında yazmışdı: "Əsərin bəyənilən cəhətlərindən biri, bəlkə də ən dəyərlisi, müəllifin qələmə aldığı dövrə, onun insanlarına, xalqın məişətinə, adətlərinə yaxından yaxşı bələd olmasıdır. Biz bu əsərdəki xalqın keçmişinə aid yalnız baş vermiş hadisələr, yeniliklə köhnəliyin mübarizəsindən inandırıcı səhifələr deyil, həm də bir sıra etnoqrafik detallar, adətlərin necəliyi, dəblər, mühitin havası haqqında maraqlı məlumat alırıq".[1]

Bu mülahizələr təkcə "Aləmdə səsim var" romanına deyil, Əzizə xanımın digər tarixi romanlarına da şamil oluna bilər. Doğrudan da, Əzizə xanımın romanlarında təsvir olunan dövrün etnoqrafik mənzərəsi, adət-ənənələr qalereyası diqqəti xüsusilə cəlb edir. Bu isə hər yazıçıya müəssər olmur.

Orta əsərlərin şəhərləri, kəndləri, obaları, hətta şəhərlərin küçələri, məhəlləri, orada yaşayan sakinlərin geyimi-kecimi, danışıq tərzi, bişirdikləri xörəklərin çeşid-çeşid növləri, saraylarda yaşayan əyan-əşrəfin, xüsusilə rütbə sahiblərinin dünyagörüşü, zövqü, məişət tərzi, saraylardan kənarda yaşayan insanların yaşayışı, elat həyatı, köçəri zindəganlığı, bu adamların folklor dünyası böyük ustalıqla canlandırılır. Lakin elə düşünülməsin ki, hər hansı tarixi roman məhz etnoqrafik detallar üzrə qurulmalı və müəllif bu cür təsvirlərlə təəssüratlarımızı zənginləşdirməlidir. Əlbəttə, bunlar hər hansı tarixi roman üçün bir məziyyət sayılmalıdır, çünki əsərə canlılıq, məxsusi bir kolorit gətirir, lakin romanı bunun üzərində qurmaq sırf etnoqrafçılığa gətirib çıxarmazmı?

[1] Rəsul Rza. Talant, bilik, zəhmət / Seçilmiş əsərləri. Beş cilddə, V c. – Bakı: Azərnəşr, 2002, s.199

“Aləmdə səsim var” romanı XIX əsrin böyük şairi Seyid Əzim Şirvani haqqında ilk və həm də son romandır. Seyid Əzim Şirvaninin həyatı çox keşməkeşli olub, amma o sarsılmayıb, fanatizmin hökm sürdüyü Şamaxı mühitində maarifçiliyi-məktəbdarlığı ilə şöhrət qazanıb. “Beytüs-Səfa” ədəbi məclisini yaradıb, Azərbaycanın digər bölgələrində olan ədəbi məclislərlə əlaqələr qurub. Əlbəttə, bütün bunların hamısı romanda əks olunmasa da, hər halda Seyid Əzimin obrazı mükəmməldir. Hiss olunur ki, Ə.Cəfərzadə Seyid Əzimin tərcümeyi-halını, əsərlərini, həmçinin Şamaxı ilə bağlı tarixi məlumatları və şairin yaşadığı mühiti dərindən öyrənmişdir. Əlbəttə, hər hansı tarixi roman, xüsusilə sənətkar taleyindən söz açan bədii əsər heç də məlum tarixi hadisələrin bütünlüklə əks etdirilməsi demək deyil. Seyid Əzim Şirvaninin dolğun obrazını yaratmaq üçün onun şəxsi həyatı, müasirləri ilə qarşılıqlı münasibətləri, dini fanatizmin hökm sürdüyü Şamaxıda təqiblərə, tənələrə məruz qalması da romanda öz əksini tapmalıydı və Əzizə xanım da bunu çox gözəl bilirdi. Tarixi roman tədqiqatçısı – professor Yavuz Axundlu yazırdı ki: “Əsərin sərlövhəsi çox mənalıdır. Bu sözləri xalqının işıqlı gələcəyinə inanan, əsərlərinin yaşayacağına dərin inam bəsləyən şair demişdir. Bu sözlərin deyildiyi vaxtdan bir əsrdən çox keçmişdir. Xalqımızın qabaqcıl oğullarının arzuları artıq həqiqətə çevrilmişdir”.[1]

Əzizə xanımın istənilən tarixi romanında sevgi xətti öncül yer tutur. Bu ondan irəli gəlir ki, yazıçı təsvir etdiyi tarixi şəxsiyyətin qəlb aləminə də biganə qalmır. Romanda Seyid Əzimin Sonaya məhəbbəti də bu mənada təsadüfi deyil. Sona rəqqasədir, öz oyunundan zövq alır, o, gənc Seyid Əzimin ona olan məhəbbətini duyur, amma… o, başqasını sevir və Seyid Əzimin sevgilisi yox, ilham pərisi olur. Sona Tərlanı sevir, bu, qarşılıqlı sevgi isə məlum səbəblər üzündən baş tutmur.

Biz Seyid Əzim Şirvanini təkcə Füzuli ədəbi məktəbinin layiqli davamçısı və Azərbaycan qəzəl məktəbinin istedadlı nümayəndələrindən biri kimi deyil, həm də bir maarifpərvər bir şair kimi tanıyırıq. Romanda onun yeni tipli məktəb açmaq üçün çəkdiyi əzablar, çətinliklər təfsilatı ilə əks etdirilir. Ancaq bununla yanaşı, romanda Seyid Əzimin maarifçi obrazı bir qədər kölgədə qalmışdır. Əzizə xanım sevgi macəralarına, ikinci dərəcəli məsələlərə daha çox yer vermişdir.

“Vətənə qayıt” Əzizə Cəfərzadənin ikinci tarixi romanıdır. Bu roman XVII əsrin sonları – XVIII əsrin əvvəllərində yaşayıb-yaradan Nişat Şirvaniyə – onun həyat yoluna həsr olunmuşdur. “Azərbaycan Sovet Ensiklopediyası”nın VII cildində onun haqqında qısa bir məlumatla tanış olaq: “Nişat Şirvani”nin XVII əsrin sonu, XVIII əsrin birinci yarısı ədəbi

[1] Yavuz Axundlu. Azərbaycan tarixi romanı: mərhələlər, problemlər. – Bakı: Adiloğlu, 2005, s.144

irsinin az bir hissəsi dövrümüzədək gəlib çatmışdır. O, Füzuli ədəbi məktəbinin davamçısı, lirik şair kimi tanınmışdır.

Əsasən, aşiqanə qəzəllər yazmış olsa da, lirikasında taledən şikayət, zahidlərin riyakarlığına istehza, didaktik motivlər də mövcuddur. "Görmədim" rədifli mürəbbesində ədalətsiz dövranın tənqidi ilə yanaşı, bədbinlik də duyulur. Həməsrlərindən Ağa Məsih Şirvani, Vaqif, Zülali Nişat Şirvaniyə nəzirələr yazmışlar. Əzizə Cəfərzadənin "Vətənə qayıt" romanı Nişat Şirvaniyə həsr olunmuşdur".[1]

XVIII əsrdə yaşamış Nişat Şirvaninin həyatı və yaradıcılığı da az tədqiq olunub, amma Əzizə Cəfərzadə əldə etdiyi məlumatlar əsasında onun şair obrazını yarada bilmişdir. Təbii ki, Nişat Şirvaninin həyatı və yaradıcılığı haqqında məlumatın azlığı romanın məzmununa öz təsirini göstərmişdir. Amma Nişat Şirvani haqqında bir sıra mənzumələr qələmə alınıb və Ə.Cəfərzadə də bu mənzumələrdən faydalanıb. Təbii ki, ortada tarixi faktlar, mənbələr olmayanda, müəllif bədii təxəyyülə müraciət etməli olur. Əzizə Cəfərzadənin tarixi romanlarında təsvir olunan qəhrəmanlar – məlum ədəbi-tarixi şəxsiyyətlər keşməkeşli həyat sürmüş, faciələrlə, sarsıntılarla dolu ömür-gün yaşamışlar. Əlbəttə, yazıçı bütün bunları qələmə alır, amma onun qəhrəmanları bizdə qətiyyən bədbinlik hissi yaratmır. Seyid Əzim Şirvani, Nişat Şirvani, Abbas Səhhət keşməkeşli həyat tərzi keçirsələr də, zülmətdə parlayan bir nur kimi yaddaşlarda iz buraxırlar. "Vətənə qayıt" romanında da Nişat Şirvanini biz belə dərk edirik.

"Vətənə qayıt" romanında müəllif Nişat Şirvaninin yaşadığı dövrün tarixi-ictimai mənzərəsini tam əks etdirməsə də, hər halda, qəhrəmanın xalqla bağlılığı, onlarla ünsiyyəti diqqətdən yayınmır. Bu romanda da əsərin əsas qəhrəmanının sevgi macərası və bunun uğursuz sonluğu təsvir olunur. Nişat Şirvani ilə Şəbnəmbəyimin məhəbbəti qarşılıqlıdır, amma məlum olur ki, haqsızlıq hökm sürən bir mühitdə əsl sevgiyə yer tapılmaz.

Əzizə Cəfərzadənin "Şirvan" trilogiyasında üçüncü romanı – "Yad et məni" Azərbaycan poeziyasının qüdrətli bir nümayəndəsi Abbas Səhhətə həsr olunub. Əgər "Vətənə qayıt" romanında Ə.Cəfərzadənin Nişat Şirvaninin həyat və yaradıcılığı haqqında məlumatı az idisə, əsasən bədii təxəyyülə üstünlük verirdisə, "Yad et məni" romanında o, qələmə aldığı dövrü, şairin həyat və yaradıcılığını ətraflı öyrənmiş, ədəbi-tarixi mənbələrdən, şair haqqında xatirələrdən istifadə etmişdir. "Ə.Cəfərzadə romanı yazmağa başlayanda A.Səhhəti tanıyan adamların bəziləri ilə şəxsən görüşmüş, yaşlıların xatirələrini, onlardan eşitdiklərini romana daxil etmişdir. Xatirələr, canlı söhbətlər müəllifin hadisələri bilavasitə duyub yaşamasına kömək etmiş, təhkiyənin emosionallığını gücləndirmişdir… Romanda Abbas Səhhət

[1] Azərbaycan Sovet Ensiklopediyası, VII cild. – Bakı, 1983, s.273

və Mirzə Ələkbər Sabirlə yanaşı, epizodik olsa da, bir çox tanınmış başqa şəxsiyyətlərin (Ağaəli bəy Əfəndizadə Naseh, Məhəmməd Hadi, Abdulla Şaiq, Məhəmməd Tərrah, Cəmo Cəbrayılbəyli, Əlicabbar müəllim, Hacıbaba Nəzərli və başqaları) surətləri verilmişdir".[1]

Ədəbiyyat tarixində Abbas Səhhətin həyatı qədər çətin, ağrılı bir insan həyatı nadir hallardadır. Əzizə Cəfərzadə ilk dəfə olaraq Abbas Səhhətin keşməkeşli, faciəli, amma eyni zamanda, qürur doğuran ömür yolunu əks etdirmişdir.

Ümumiyyətlə, bu üç roman – "Şirvan trilogiyası" Azərbaycan tarixi nəsrində ən uğurlu nümunələrdən biridir desək, səhv etmərik.

Əzizə Cəfərzadənin tarixi romanları ilk növbədə, təsvir olunan dövrün tarixi ruhunu, özünəməxsus ictimai-mənəvi mənzərəsini əks etdirməsi ilə diqqəti cəlb edir. XVIII əsr Şirvan şairi Nişat Şirvanidən bəhs edən "Vətənə qayıt" romanı bütövlükdə XVIII əsr Şamaxı mühiti haqqında müəyyən bir təəssürat yaradır, başqa bir romanda "Bakı-1501"də XVI əsrin əvvəllərindən – Xətai dövründən söz açılır. Burada nəyi isə aydınlaşdırmağa lüzum yoxdur. Xətainin saray mühiti, nəsli, kökü, dostu-düşməni, özü və sevdiyi qadınlar, apardığı müharibələr haqqında təfərrüatı ilə məlumat əldə edirik. Özü də bunlar faktları sadalamaq üsulu ilə deyil, canlı təsvirlərlə, şirin və emosional təhkiyə ilə nəzərə çarpdırılır. Yetmişinci illərdə qüdrətli şah və sərkərdə Şah İsmayıl Xətainin anadan olmasının 500 illiyi ərəfəsində nəsrimiz həmin əlamətdar hadisəni bir neçə romanla qeyd etdi. Ə.Cəfərzadənin "Bakı-1501", F.Kərimzadənin "Xudafərin körpüsü" və "Çaldıran döyüşü", Ə.Nicatın "Qızılbaşlar" romanları nəşr olundu. Əzizə Cəfərzadənin romanı Şah İsmayılın Şirvan yürüşü və Bakının alınması hadisələri haqqında söz açır. Təbii ki, əsərdə Şah İsmayılın həyatı, sərkərdə və şah kimi xarakteri diqqət mərkəzindədir. Lakin müəllif bədii təxəyyüllə yaratdığı və o dövrün ictimai-siyasi hadisələri ilə bağlı olan obrazlara da geniş yer verir (Bibixanım-Sultanım, Aytəkin, dərviş İbrahim). Azərbaycan tarixi romanının tədqiqatçısı professor Yavuz Axundlu Əzizə Cəfərzadənin "Bakı-1501" romanını geniş təhlil edir, əsərin bədii məziyyətlərindən söz açır. Bununla yanaşı, müəllifin romanda macəraçılığa meyil etdiyini də nəzərdən qaçırmır.[2] Görkəmli tənqidçi Akif Hüseynov "Tarixi düşüncə vüsəti" adlı 1980-ci ilin nəsrinə aid icmal məqaləsində Ə.Cəfərzadənin "Bakı-1501" romanı haqqında geniş söz açır, əsərin uğurlu cəhətlərini vurğulayır və eyni zamanda qüsurlarından da yan keçmir. Lakin ümumilikdə tənqidçinin gəldiyi nəticə roman haqqında ən obyektiv fikri ifadə edir. "Başa düşürük ki, "Bakı-1501" romanı Şah

[1] Yavuz Axundlu. Azərbaycan tarixi romanı: mərhələlər, problemlər. – Bakı: Adiloğlu, 2005, s.150

[2] Yenə orada, s.257

İsmayılın ağır uşaqlıq illərindən tutmuş, nəhayətsiz döyüş əməliyyatlarınacan, sənət adamlarına qayğısınacan narahat, gərgin ömür yolu haqqında geniş oxucu kütləsinə məlumat verən ilk mənbədir. Əgər onu da əlavə etsək ki, həmin məlumat, ümumiyyətlə obyektiv təsir bağışlayır, tarixi faktların mahiyyəti, ruhu burada qorunmuşdur, onda Ə.Cəfərzadənin zəhmətinin əhəmiyyəti daha da aydın olar. Ə.Cəfərzadənin mövqeyi də düzgün və təqdirəlayiqdir. O, Şah İsmayılın mürəkkəb xarakterini canlandırarkən nəinki birtərəflilikdən uzaqlaşa bilmiş, obrazın məziyyətləri, fəaliyyətinin pozitiv cəhətləri ilə yanaşı, qüsurlarını da göstərmişdir, həm də qəhrəmanın milli şüurunun, vətənpərvərlik duyğularının inikasına ciddi diqqət yetirmişdir. Romanda Şah İsmayıl Azərbaycan hökmdarı, Azərbaycan dövlətinin yaradıcısı kimi səciyyələndirilir".[1]

Əzizə Cəfərzadə bir sıra tarixi romanlarında elə şəxsiyyətlərin həyatını qələmə alır ki, onlar bədii ədəbiyyatda ilk dəfə işıqlandırılır. Məsələn, "Eldən-elə" romanı ömrünün 40 ilə qədərini dünyanın müxtəlif ölkələrində səyahətlə keçirən bir insanın – Hacı Zeynalabdin Şirvaninin həyatından, keçirdiyi səfərlərdən bəhs edir. Zeynalabdin Şirvani (1780-1838) XVIII əsrin son rübü, XIX əsrin birinci rübündə yaşamışdır. Bu illər Azərbaycan tarixinin ən mürəkkəb, keşməkeşli bir dövrü idi. Müəllif həmin dövrün ictimai-siyasi durumunu, öz qəhrəmanının doğulduğu Şamaxı mühitini, uşaqlıq və gəncliyini keçirdiyi Kərbəla və Bağdad həyatını tarixi həqiqətə uyğun şəkildə təsvir etmiş, oxucuda qələmə aldığı dövr və məkan haqqında dolğun təsəvvür yaratmağa çalışmışdır.

"Bir səsin faciəsi" romanında da Əzizə Cəfərzadə həyatı demək olar ki, heç öyrənilməyən, Azərbaycanın ilk qadın xanəndəsi Mirzə Güllərin keşməkeşli ömür yolundan söz açır. Mirzə Güllər Şərqin böyük sənətkarı, şamaxılı Mirzə Məhəmmədhəsənin şagirdi olmuş, qadın sənətçiyə yabançı münasibətin hökm sürdüyü bir dövrdə kişi paltarı geyinib toylarda, el məclislərində xanəndəlik etmişdir.

Əzizə Cəfərzadə təcrübəli bir yazıçı kimi dərk edirdi ki, romanı macəravari, ilk baxışda cazibəli hadisələrlə "zənginləşdirmək" çox ucuz yoldur (Hərçənd ki, o, "Bakı–1501" romanında buna meyil etmişdi)… Əsas məsələ bu hadisələrdə bütün qüvvətli və zəif cəhətləri ilə üzə çıxan dolğun obrazlar yaratmaqdır, tarixi mənbələrdə adı çox az səslənən Mirzə Gülləri də bu mənada bizə sevdirməyə çalışır. O təkcə Mirzə Güllər haqqında az-çox məlum olan tarixi sənədlərə müraciət etməklə kifayətlənməmiş, Şamaxıda, Şirvan rayonlarında yaşayan yaşlı insanlardan da Mirzə Güllər haqqında xatirələr toplamış, hətta onun haqqında olan rəvayətlərə də diqqət yetirmişdir. Nəticədə, maraqlı bir roman yaratmağa müvəffəq olmuşdur.

[1] Akif Hüseynov. Sənət meyarı. – Bakı: Yazıçı, 1986, s.221

“Gülüstandan öncə” romanı, fikrimizcə, Əzizə Cəfərzadənin tarixi nəsr sahəsində ən uğurlu addımlarından biridir. Həmin romanı oxuyanda “tarixi düşüncə mədəniyyəti” (Yaşar Qarayev) ifadəsini xatırladıq. Sözün həqiqi mənasında həm tarixi, həm də müasir roman kimi qavradığımız bu əsər öz təsir gücünə, obyektiv-sosial və milli inkişafın tarixi məntiqini, onun fəlsəfi konsepsiyasını doğru və tam ifadə etməsinə görə diqqəti daha çox cəlb edir. Ə.Cəfərzadənin bu romanında Şirvanın sonuncu hökmdarının – Mustafa xanın obrazı milli xarakter kimi qavranılır, çünki tarixi nəsrdə milli keçmişin ən böyük sənədi – milli xarakterdir.

Mustafa xan Xançoban tayfasının adlı-sanlı nəslindən olub, 1787-ci ildə Şamaxıda taxta çıxmışdı. O, 1820-ci ilə qədər Şirvanı idarə etmişdi. Bu vaxtacan isə Azərbaycan xanlıqlarının hamısı rus imperiyasının tərkibinə qatılmışdı. Mustafa xan isə uzun müddət gah diplomatiya yolu ilə, gah da açıq-aşkar müqavimət göstərməklə xanlığı qoruya bildi. 1820-ci ildə rus ordusu Azərbaycanın sonuncu xanlığını öz tərkibinə qatmaq üçün Şamaxıya hücum çəkdi, qanlı döyüşlər başlandı. Bu döyüşlərdə rusların sayca çoxluğuna baxmayaraq, şirvanlılar kəskin müqavimət göstərdilər, hətta bir döyüşdə qalib gəldilər. Lakin qüvvələr tükənmişdi və Mustafa xan qohum-əqrəbasını götürüb gecə ikən gizli cığırla Fit dağını tərk edir. İllər keçəcək, torpağından doymayan Mustafa xan bu yerlərə dönə-dönə qayıdacaq: 1828-ci ildə Abbas Mirzənin ordusunda Şirvan üstündə çarpışacaq, lakin Şirvanşah orduları məğlub olub “Türkmənçay müqaviləsi” baş tutandan sonra taleyin hökmünə boyun əyəcəkdi. Romanda bütün bunlar (Mustafa xanın son illəri) haqqında ötəri məlumat verilir, müəllif əsas diqqətini Mustafa xanın səciyyəsinə (hökmdar və insan kimi), “Kürəkçay müqaviləsi”nə imza atana digər Azərbaycan xanlarının (İbrahimxəlil xanın və Səlim xanın) həlledici anda keçirdikləri hiss və həyəcanlara, 1805-ci il 13 mayda Kürəkçayda bağlanmış və Azərbaycanın gələcək faciələrinin özülünü qoyan müqaviləyə, nəhayət, ruslara qarşı Şirvan ordusunun apardığı son döyüşlərə yönəltmişdir. Bu xətlərin hər biri romanın süjetində mühüm rol oynayıb müəllif qayəsinin açılmasına xidmət edir. Qətiyyətlə demək olar ki, 1804-cü ildə ruslara boyun əyməyən Cavad xandan sonra Azərbaycan xanları arasında ən qətiyyətlisi Mustafa xan idi.

Budur, Kürəkçay müqaviləsindən öncə rus generalı Sisianovun düşündükləri: “Axı, mən soldatam, başa düşün! Siyasət…sizin siyasətinizdən başım çıxmır. Heç çıxmağını da istəmirəm Gəncədən sonra neyləyə bilərlər bu bir-birilə boğuşan xanların ikisinin sözü bir-birinin boğazından getmir. Öyrənmişəm ki, xanlıqlar tarixi boyunca, bunların eyni qardaş, eyni millət kimi üçü bir süfrəyə əl uzatmayıb. Dilləri, dinləri bir olsa da, bir-birini

yanlamırlar. Anlamaq istəmirlər. Hər biri "mənəm-mənəm" deyib, başa keçmək iddiasındadırlar".[1]

Bu, həmin Sisianov idi ki, bir il sonra – 1806-cı ildə ölümünü Bakının "Qoşa qala qapısı" ağzında qarşılayacaqdı. Sisianov – əslən gürcü olan bu rus mundirli general əlini Qala Qapısının açarları üçün uzadanda Bakı igidlərindən biri onun köksünə xəncəri saplayacaq və deyəcəkdi: "Bizdə donuzları belə gəbərdirlər".

Əzizə xanımın romanlarında onun tədqiqatçılığı qabarıq şəkildə hiss olunur və müəllif özü də bunu gizlətmir. "Gülüstandan öncə" romanında həmin dövrün əhval-ruhiyyəsi ilə səsləşən bayatıların, Şirvanın satirik şairi kargər Əhmədin rusların işğalçılıq siyasətini pisləyən şeirlərinin xatırlanması, əsərin publisistik kəsərini artırır. Romanda hiss olunan bu "publisistik xətt" vətəndaş yanğısı və ağrısının ifadəsi kimi səslənir. Əzizə xanımın "Zərrintac" romanında da bu yanğı və ağrını hiss edirik. "Zərrintac" əsərini yazmaq üçün müəllif, özünün dediyi kimi: "Bu əsəri yazmaq üçün onlarla kitab, arxiv materialları, sənədlər, oçerk və məqalələr oxumuşam. Qürrətüleynin 150 il ziyadə bundan əvvəl yazılmış, saralmış, rəngi itməkdə olan əlyazmalarını nəzərdən keçirmişəm. İngiltərə, Türkiyə, İran və eləcə də keçmiş Sovet Birliyinin Sankt-Peterburq, Moskva, Daşkənd, Bakı, Alma-Ata, Xarəzm, Düşənbə kimi şəhərlərin arxivlərində Tahirə Qürrətüleyn ilə bağlı nə varsa, imkan daxilində nəzərdən keçirmiş, əldə etmişəm".[2]

Amma o, digər romanlarında olduğu kimi, fakt və sənədlərin sadalanması yolu ilə getməmişdir, canlı obrazlar yaratmışdır. Əsərin qəhrəmanı Zərrintac Tahirə Qürrətüleynin təxəllüsü ilə tanınan və İranda babilik hərəkatının başçılarından biri olmuşdur. 1848-ci ildə bu hərəkata qoşulmuş, çadrasını ataraq İranın müxtəlif şəhər və kəndlərində babilik ideyalarını təbliğ etmişdir. Ə.Cəfərzadə tanış olduğu sənədlərdən, arxiv materiallarından istifadə edərək həm qəhrəmanın həyatı, mübarizəsi, həm də onun yaşadığı dövrün ictimai-siyasi-dini mənzərəsini əks etdirmişdir. Müəllif öz qəhrəmanını həm də Vətəninin taleyini düşünən bir obraz kimi nəzərə çarpdırır. Romanda Tahirə-Qürrətüleynin babilik hərəkatına qoşulan gənclərin qarşısında çıxışına diqqət yetirək:

"Vətən! Onu müstəqil, onu azad, onun övladlarını tox bəxtiyar görmək arzusudur məni çöllərə salan, evimə, balalarıma həsrət qoyan. Yurdumdan didərgin eləyən. Bu arzu bir oddur, atəşdir yandırır məni. Bu arzuma çatmadan ölsəm, qəbrim od tutub yanacaq. Ürəyimdə indi nə valideyn, nə ər, nə övlad məhəbbətinə yer qalıb. Bircə ondan, yurdumun azadlığı diləyindən başqa heç bir hissə yer qalmayıb".[3]

---

[1] Əzizə Cəfərzadə. Gülüstandan öncə. – Bakı: Şur, 1996, s.51
[2] Əzizə Cəfərzadə. Zərrintac-Tahirə. – Bakı: Göytürk, 1996, s.3
[3] Yenə orada, s.114

Əzizə Cəfərzadə, öncə qeyd etdiyimiz kimi, həm də klassik ədəbiyyatın tədqiqatçısı idi. Onun tarixi romanlarında da tədqiqatçı ruhu hiss edilir. Biz bunu onun "Sabir" romanında da izləyə bilirik. Ədəbiyyatşünas Yavuz Axundlu bu haqda yazır: "Sabir" romanı sırf tarixi roman qəlibinə sığmır, onun hüdudlarını aşır, roman-tədqiqat xarakteri daşıyır. Ə.Cəfərzadənin digər tarixi romanlarında da elmi və publisistik şərhlərə rast gəlirik, lakin bunlar həmin romanların süjetində həlledici rol oynamırdı. "Sabir" romanında isə təsvir olunan hadisələrlə qaynayıb qovuşur, hətta bəzi məqamlarda üstünlük təşkil edir".[1]

Əzizə Cəfərzadə haqqında söz açdığımız tarixi romanlarından əvvəl bir ədəbiyyatşünas kimi də tanınırdı. O, 1970-ci ildə artıq filologiya elmləri doktoru idi, 1975-ci ildə professor elmi tituluna layiq görülmüşdü. O, klassik Azərbaycan ədəbiyyatı ilə bağlı bir çox tədqiqatların müəllifidir, həm də bir tərtibçi kimi də bu sahədə fəaliyyətini əsirgəməmişdir. Onun tərtibçisi olduğu kitablar klassik ədəbiyyatımızda müəyyən boşluğu aradan qaldırmaqda mühüm rol oynamışdır. "Fatma xanım Kəminə" (1971), "Könül çırpıntıları" (1972), "Azərbaycanın aşıq və şair qadınları" (1974), "Şirvanın üç şairi" (1976), "Mücrim Kərim Vardani-Sünbülüstan" (1978), "Abdulla Padarlının "Seçilmiş şeirləri" (1979), "Hər budaqdan bir yarpaq" (1983) kitabları məhz onun tərtibçi əməyi ilə işıq üzü görmüşdür. Bu kitabların içində "Azərbaycanın aşıq və şair qadınları" bizim fikrimizcə, ədəbi-tarixi bir hadisədir. Bu kitabda ədəbiyyatımızda ilk şairə hesab edilən Məhsəti xanım Gəncəvidən XX əsrə qədər Azərbaycanın aşıq və şair qadınları haqqında məlumat verilir, onların şeirlərindən nümunələr təqdim edilir. Əzizə xanıma və bizə məlum olan adlarla (Ağabəyim ağa Ağabacı, Heyran xanım, Aşıq Pəri, Tahirə Qürrətüleyn, Natəvan, Fatma xanım Kəminə) yanaşı, heç tanımadığımız, ilk dəfə məhz bu kitabda şeirlərini oxuduğumuz onlarla aşıq və şair qadınların yaradıcılığı ilə tanış oluruq: Mahi xanım, Xədicə Sultan xanım, Cəmali, Güllər Pərisi, Qonçabəyim, Gövhərbəyim, Şirvanlı Gövhər, Tuğra xanım, Rəncur Şahnigar xanım, Ləli Ziba xanım, Nimtac xanım, Püstə Şikar qızı, Ülkər, Dilşad, Qızyetər, Əsmər, Dostuxanım, Naburlu Badam, Səhər Ərdəbili və s. Kitaba ön söz yazan Nigar xanım Rəfibəyli Əzizə xanımın əməyini yüksək qiymətləndirir, bu salnamənin yaranmasını əsl fədakarlıq hesab edir.

Əzizə Cəfərzadə XX əsr Azərbaycan nəsrində tarixi romanlar müəllifi kimi özünü tanıtmış və sevdirmiş, onun romanları keçmişimizi, tarixi şəxsiyyətlərimizi tanımaqda bizə bələdçi olmuşdur.

[1] Yavuz Axundlu. Azərbaycan tarixi romanı: mərhələlər, problemlər. – Bakı: Adiloğlu, 2005, s.437

HÜSEYN ABBASZADƏ
(1922-2007)

Hüseyn Abbaszadə altmış ildən çox bir dövrü əhatə edən səmərəli ədəbi fəaliyyətinin məhsulu olan çoxsaylı əsərləri ilə ədəbiyyatımızın inkişafına öz töhfəsini vermişdir. O, ölkəmizdə cərəyan edən hadisələrə hər zaman vətəndaş mövqeyi ilə yanaşmış, Azərbaycanı suveren, güclü, dünyanın inkişaf etmiş ölkələri sırasında görmək istəyirdi. Vətən məfhumu onun üçün bütün dəyərlərdən üstün idi…

Hüseyn Abbaszadə maraqlı və səmərəli bir həyat yolu keçmişdir. Onun həyatına qısa nəzər salanda aydın görünür ki, o, şərəfli bir ədib ömrü yaşamış, zəngin ədəbi irs qoyub getmişdir.

Həyatı. Hüseyn Abbas oğlu Abbaszadə 1922-ci il noyabrın 22-də Bakı şəhərində anadan olmuşdur. Orta təhsilini bitirdikdən sonra II Dünya müharibəsinin başlanması ilə əlaqədar 17 yaşında ordu sıralarına çağırılmışdır. Hüseyn Abbaszadə 1941-1945-ci illərdə Şimali Qafqaz, Leninqrad, 1-ci və 4-cü Ukrayna cəbhələrində şərəfli döyüş yolu keçmişdir. Müharibədən qayıdan Hüseyn Abbaszadə uzun müddət əliçəlikli gəzib, bir müddət işləməyib, ilk getdiyi ictimai yer Yazıçılar Birliyində Yusif Əzimzadənin rəhbərliyi ilə fəaliyyət göstərən ədəbiyyat dərnəyi olub. 1945-1950-ci illərdə Azərbaycan Teatr İnstitutunun Teatrşünaslıq fakültəsində qiyabi ali təhsil almışdır.

Hüseyn Abbaszadə əmək fəaliyyətinə 1945-ci ildə "Kommunist" qəzetinin əməkdaşı kimi başlamış, sonra "Pioner" jurnalında şöbə müdiri, məsul katib işləmiş (1958-1964), "Göyərçin" jurnalı redaksiyasında məsul katib, baş redaktor (1964-1971), "Ədəbiyyat və incəsənət" qəzetinin (1972-1975) və "Göyərçin" jurnalının baş redaktoru olmuşdur. O, Azərbaycan Yazıçılar Birliyinin katibi (1975-1991) vəzifəsində çalışmışdır.[1]

H.Abbaszadənin yazıçı, ictimai xadim və ziyalı şəxsiyyəti haqqında bu deyim onu tam xarakterizə edir: "O, ön cəbhədə də, arxa cəbhədə də qəhrəman olaraq qaldı!.." Görkəmli yazıçı ömrünün sonuna kimi həqiqətin, haqqın yanında dayanmağı özünə insanlıq borcu bildi, yazdığı əsərlərdən başqa, bir ləyaqətli şəxsiyyət olaraq tanındı... Onu tanıyan hər kəsin söhbətində də, xatirəsində də yazıçının insani keyfiyyətləri əsas xətt olaraq keçir.

Hüseyn Abbaszadə Azərbaycan ədəbiyyatı və mədəniyyətinin inkişafında göstərdiyi xidmətlərə görə yüksək qiymətləndirilmişdir. O, bir sıra hərbi orden və medallarla – "Qırmızı ulduz" ordeni, "Qırmızı Əmək Bayrağı"

[1] Teymur Əhmədov. Hüseyn Abbaszadə. Azərbaycan yazıçıları XX-XXI yüzillikdə. – Bakı: Nurlar, 2011, s.415

ordeni (19.11.1982), I dərəcəli "Böyük Vətən müharibəsi" ordeni (11.03.1985) ilə təltif olunmuşdur.

Azərbaycan Yazıçılar Birliyinin 1948-ci ildən üzvü olan Hüseyn Abbaszadə Xalq yazıçısı (1991), Əməkdar incəsənət xadimi (1979) fəxri adlarına layiq görülmüş, Azərbaycan Dövlət Mükafatı (1984), SSRİ Yazıçılar İttifaqının mükafatları ilə təltif edilmiş (1988), müstəqil Azərbaycanın ali mükafatı olan "Şöhrət" ordeninə (22.11.1997) və Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü adına layiq görülmüşdür.

Hüseyn Abbaszadə 2007-ci il dekabrın 12-də, ömrünün 86-cı ilində Bakı şəhərində vəfat etmiş, Fəxri Xiyabanda dəfn olunmuşdur.

Yaradıcılığı. Hüseyn Abbaszadə yaradıcılığa şeirlə başlamış, "Şanlı bayram" adlı ilk şeiri 1940-cı ildə "Ədəbiyyat qəzeti"ndə dərc olunmuşdu. Ədəbi fəaliyyətini müharibə illərində cəbhə qəzetlərində, müxtəlif mətbuat orqanlarında müntəzəm davam etdirmişdir. Hələ tələbə ikən 1949-cu ildə "Sınaq illəri"[1] adında ilk kitabı nəşr edilmişdir.

Hüseyn Abbaszadənin "General" (1962), "Ləpədöyəndə" (1965), "Onu tanımadılar" (1967), "Qapı döyülür" (1969), "Burulğanlar" (1979), "Çəmbərəkənd balladası" (1982), "Dünyadan gör necə insanlar gedib" (1988), "Qayıdanlardan biri" (2003), müxtəlif illərdə "Seçilmiş əsərləri" və digər kitabları çap olunmuşdur.

O, cəbhədə böyük həyat təcrübəsi qazanmış, oddan-alovdan keçmiş, gənclik yaddaşına hadisələr, əhvalatlar, müxtəlif insanların xarakterlərini həkk etmiş, sonra bunlar onun əsərlərinin bədii materialına çevrilmişdir.

Yazıçı üçün mühüm bir məziyyət də qələmə aldığı hadisələri nə vaxtsa yaşaması, təsvir etdiyi insanları görməsi, duyması, onların müasirinə çevrilməsidir. Əlbəttə, burada söhbət müharibə mövzusundan gedir. H.Abbaszadə bu mövzunu yüksək professionalıqla qələmə alıb. Bu, onun müharibə mövzusuna həsr etdiyi "Şokalad paylayan qız", "Onu tanımadılar", "Uzaqdan gələn qonaq", "Dörd bazar günü", "Haradansınız, müsyö Abel?", "Barıt iyi" qəbildən, irili-xırdalı bütün əsərlərində parlaqlığı ilə görünür.

H.Abbaszadənin bu silsilədə əksini tapan povest və hekayələri, eləcə də iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanova həsr edilən ilk nəsr əsəri olan "General" romanı (1960-1961) göstərir ki, o, müharibənin sadəcə iştirakçısına çevrilməmiş, sözün həqiqi mənasında, o illərin qanlı hadisələrinin, orada gördüyü insanların psixologiyasının təkcə bir seyrçisi yox, həm də canidildən iştirakçısı olmuşdur. Əgər bu müşahidələr olmasaydı, yazıçının əsərlərində görünən belə reallıq, bədii inandırıcılıq və bədii ümumiləşdirmə nəzərə çarpmazdı.

[1] Hüseyn Abbaszadə. Sınaq illəri (şeirlər) (red. Osman Sarıvəlli). – Bakı: Uşaqgəncnəşr, 1949

Hüseyn Abbaszadənin 35 yaşında yazdığı "General" romanı zəmanəsi üçün çox dəyərli əsərlərdən sayılır. "General" romanı müəllifə şöhrət qazandırmışdır. Müharibənin od-alovundan keçən yazıçı əsərdə iki dəfə Sovet İttifaqı Qəhrəmanı, general Həzi Aslanovun keçdiyi döyüş yollarını qələmə alır.

Həzi Aslanov həyati qəhrəmandır, təxəyyülün məhsulu deyildir. Yazıçı dövrün ən məşhur insanı, qəhrəman şəxsiyyəti Həzi Aslanovun həyatını, yetişdiyi mühiti, döyüş yolunu diqqətlə öyrənmiş, qəhrəmana xas xarakterə malik sərkərdə obrazı yaratmağa müvəffəq olmuşdur. Həzi Aslanov romanda bacarıqlı sərkərdə, düşmənə qarşı amansız döyüşçü, milli xarakterdən gələn mental xüsusiyyətləri – mərdliyi, qorxmazlığı, sadəliyi, qayğıkeşliyi ilə fərqlənən, sərkərdəyə məxsus düşüncə və duyğu sahibi olan bir insan kimi təqdim-təsvir edilmişdir.

Yazıçının öz qəhrəmanına sonsuz rəğbətinə baxmayaraq, qəhrəmanını idealizə etməmişdir, onun insana məxsus xarakterini müxtəlif rakurslardan açа bilmiş, hadisələrin gedişatından təbii şəkildə yaranan situasiyalardakı təbiətini aşkarlamışdır. Müəllif əsas qəhrəmanının qəhrəmanlığını onun döyüşçü dostlarının əhatəsində, bu insanların da qəhrəmanlara xas xüsusiyyətləri, bu insanların bir-birinə münasibətləri fonunda verməyi bacarmış, baş qəhrəmanla yanaşı, müxtəlif millətlərə məxsus Firuz, Filatov, Paramanov, Çerepanov, Şərəf Rəhmanov kimi fərdi xüsusiyyətləri ilə yadda qalan müxtəlif surətlər yaratmağa nail olmuşdur. "Əsərdə cəbhə həyatının, xüsusən döyüş əməliyyatının canlı təsviri, döyüşçülərin fədakarlığı, ayrı-ayrı millətlərdən olan əsgərlər arasında səmimi dostluğun, mehribanlığın təsviri xüsusi diqqəti cəlb edir".[1]

Həzi Aslanovun bir qəhrəman kimi gücü, qüdrəti onun Vətənə sonsuz məhəbbətində, düşmənə – faşizmə sonsuz nifrətində, insanlığa olan səmimiyyətində və təbiiliyindədir...

Roman müharibə illərində Azərbaycan oğullarının qəhrəmanlığını bütün dolğunluğu ilə əks etdirən parlaq nəsr nümunəsidir. "Hüseyn Abbaszadə nəsr cəbhəsinə bir seçmə döyüşçü kimi gəldi və nəhayətdə bütöv yaradıcılığı ilə bu cəbhənin generalı mövqeyinə qalxdı".[2]

"General" romanında yazıçı Azərbaycan xalqının müharibə kontekstində görünməz olmadığını göstərdi. Həzi Aslanovun timsalında əcdadımızdan gələn mükəmməlləşən qəhrəmanlıq – sərkərdəlik xasiyyətini əks etdirdi.

H.Abbaszadənin bu mövzuda yazdığı əsər təkcə "General" romanı ilə məhdudlaşmadı. O, müharibədən sonrakı dövrdə, ancaq bilavasitə müharibə

[1] Məmməd Cəfər. Ədəbi qeydlər. "Azərbaycan" jurnalı, 1962, № 9, s.180

[2] Tofiq Hacıyev. Ön söz / Hüseyn Abbaszadə. Seçilmiş əsərləri. İki cilddə, I c. – Bakı: Şərq-Qərb, 2006, s.4

ilə bağlı hadisə və əhvalatları da bir çox povestlərinin mövzusuna çevirdi. Yazıçının yaradıcılığında müharibə mövzusuna daha geniş yer verməsi təsadüfi deyildi. "Onu tanımadılar", "Şokalad paylayan qız", "Uzaqdan gələn qonaq", "Dörd bazar günü", "Haradansınız, müsyö Abel?" kimi povestləri də müharibə mövzusuna həsr edilən, həyat materialları ilə zəngin, hərb və sülh konsepsiyasının bədii-estetik, lirik-emsional tərzdə fəlsəfəsini ilmələyən sənət əsərləridir...

Xalq yazıçısı Hüseyn Abbaszadənin "Haradansınız, müsyö Abel?" romanı İkinci Dünya müharibəsində ağır yaralanaraq almanlara əsir düşən, amma möcüzə nəticəsində sağ qalan və anlaşılmazlıq üzündən vətənə qayıda bilməyib, Fransada qalmağa məcbur olan Əbil Xeybərovun acınacaqlı həyat hekayətindən bəhs edir. "Haradansınız, müsyö Abel?" romanı 2018-ci ildə Fransada fransızca nəşr olunub və tezliklə ən çox oxunanlar siyahısında yer almışdır.

H.Abbaszadə "Oderin o tayında" (1964) povestində də müharibənin insan psixologiyasına təsirini əks etdirməyə daha çox diqqət yetirə bilmişdir. Berlin uğrunda vuruşmaların iştirakçısı olan müəllifin mənalı təfərrüatları, leytenant Qiyasəddinovun xatirələrində müharibənin gətirdiyi məhrumiyyət və iztirablar, müharibənin sonuna doğru cəbhədə yaranan vəziyyət, qaliblərin və məğlubların əhval-ruhiyyəsi, sovet döyüşçülərinin davranışlarındakı humanizm və alicənablıq əsərdə bədii ifadəsini tapmışdır.

H.Abbaszadənin yaradıcılığında əhəmiyyətli yer tutan əsərlərindən biri də "Burulğanlar" romanıdır. Bu əsər iki hissədən və epiloqdan ibarətdir. Əsər 1975-1978-ci illərdə yazılmışdır. Romanda yoxsul ailədən çıxmış, fiziki cəhətdən çox güclü olan sadə bir insanın yarıməsirlik ömür yolu, onun qarşısına çıxan çətinliklər və acınacaqlı, burulğanlardan keçən taleyi təsvir olunur. Bu mərhumiyyətlər onun insanlıq ləyaqətinə, mənəviyyatına, həyat eşqinə mane ola bilmir.

Romanda məişət planı, sevgi mövzusu öndə olsa da, hadisələrin inkişafı daha çox sosial-ictimai məsələlərə söykənir. Həmidin həyatı, saf məhəbbəti fonunda cəmiyyəti bürüyən ədalətsizlik, quruluşun baş verənlərə siyasi don geydirməsi kimi məsələlər işıqlandırılır.

Romanın 22 bölümdən ibarət birinci hissəsi Şura hökumətinin yeni qurulan vaxtlarına təsadüf edir. Burulğanlar içində olan ölkənin vəziyyəti çox qarışıqdır. Gecə saatlarında evlərindən qaranlıq dünyaya aparılan "xalq düşmənləri" insanları nigarançılığa salır. Köhnə Bakı kəndləri, İçərişəhər öz qədimliyini qoruyub saxlamağa çalışsa da, çox davam gətirə bilmir. Bir il Həştərxanda qalıb vətəninə qayıdan baş qəhrəman Həmid Xələfov öz küçələrini belə tanıya bilmir.

Həmid Azərbaycan ədəbiyyatındakı ən uğurlu və bütün ziddiyyətləri ilə göstərilən, psixoloji ampluada təsvir edilən müsbət qəhrəmanlardan biridir.

Həmidin şəxsində şöhrətə can atan birisi deyil, şöhrəti hörmətlə, izzətlə qazanmağı üstün tutan bir gənc canlanır.

Əsərdə onun saf sevgisi, inamı, həqiqətsevərliyi geniş şəkildə təsvir olunur. Amma bu o demək deyil ki, "Burulğanlar" sevgi romanıdır. "Deyirlər ki, həyatda nəsə baş verəndə ən çox əziyyət çəkən bunun nə vaxtsa baş verəcəyinə inanmayan adamlardır. Həmid də elə idi. Qocalıq gəlib qapısını döyəndə də sevgisi ilə qovuşa biləcəyinə inanırdı. Nə olsun ki, başqasının arvadı idi. Ani zəifliyinin qurbanı olan Həmid özünü heç vaxt bağışlamadı. Nurludan sonra sevmədi, ailə qurmadı. Özü öz cəzasını kəsdi və çəkdi. Cavanlıqda gözünə elə dəhşətli görünməsə də, kimsəsiz qalanda, divarlar üstünə gələndə tənhalığı daddı".[1] Romanda təsvir edilən surətlərin düşüncə və mükalimələrində sinfi-ideoloji mövqedən vəziyyətləri yazıçının mövcud quruluşa münasibətinin əksi kimi özünü göstərir.

"*Burulğanlar*" romanında həyatın ağır sınaqlarından keçən Həmid, Balağa, Cəmil müəllim, Nurlu, Muxtar, Mikayıl və Firuz ideologiyanın tələblərinə və mövcud qayda-qanunlara zahirən əməl etsələr də, milli təəssübkeşlik onların dünyagörüşünü formalaşdırır, baş verən hadisələrə münasibətlərini müəyyənləşdirir və dövrün ictimai-siyasi ziddiyyətlərini öz fərdi, milli düşüncə prizmasından dərk edib təhlil etmələrini əsaslandırır. Əslində bu surətlərin hər biri yaşadığı dönəmin ziddiyyətlərini, ictimai quruluşun insanlar arasında səpdiyi şübhə toxumunu – həqiqəti dilə gətirir.

Bu obrazlar ayrı-ayrılıqda müxtəlif, bəzən bir-birinə zidd xarakterlərə malik olsalar da, bunların hamısının içində bir etiraz yatır, hamısının taleyində dövrün təzyiqi hökm edir...

"Burulğanlar"da cərəyan edən hadisələr repressiya illərinə təsadüf etdiyindən yazıçı bir sıra məqamlara obrazların dili ilə toxunmuş, həm yazıçı, həm də vətəndaş mövqeyindən çıxış etmişdir. O, sovet hakimiyyətinin xalqın əlindən aldığı milli-mənəvi dəyərləri, milli düşüncə və psixologiyaya, eləcə də dini inanclara göstərilən təcavüzü, məscidlərin viran qalmasını, rüşvətxorluq və müftəxorluğun geniş vüsət almasını epizodik şəkildə olsa da, əsər boyu oxucuya çatdırmağa çalışmışdır. Məscidin sökülməsinə yanan qoca kişiyə bir cavanın: "Əşi, ağzını nə qoymusan Allah yoluna?! Dilini dinc qoy, əksinqilabi söz danışma, tutub apararlar, əlli-ayaqlı gedərsən. Məscidi sökürlər, sənə nə?!" – deməsinə qocanın: "Necə yəni, sənə nə? Məgər bu bina bizim deyil, xalqın deyil?"[2] – cavabı yaşlı nəslin tarixi kimliyə həssas, ürəkyandıran münasibətini, yeni nəslin isə laqeydliyini, mövcud quruluşun

[1] Hüseyn Abbaszadə. Seçilmiş əsərləri. İki cilddə, II c. – Bakı: Şərq-Qərb, 2006, s.137

[2] Hüseyn Abbaszadə. Burulğanlar (roman). – Bakı: Yazıçı, 1991, s.193; Hüseyn Abbaszadə. Seçilmiş əsərləri. İki cilddə, II c. – Bakı: Şərq-Qərb, 2006

siyasətinə tərəddüdlü baxışını aydın ifadə edir, əslində, hər iki münasibət dövrü doğru xarakterizə edir, dövrün təbiətindən doğur...

"Burulğanlar"da baş verən bu hadisələr repressiyanın tüğyan etdiyi illərə təsadüf etdiyindən yazıçı müəyyən məqamlara obrazların dili ilə toxunmuş, öz yazıçı mövqeyi ilə vətəndaşlıq mövqeyini birləşdirə bilmişdir. O, sovet hakimiyyətinin xalqın əlindən aldığı bir çox mənəvi dəyərlərlə dili, milli kültürü, milli düşüncə tərzi, milli psixologiyası ilə yanaşı, ən böyük qüvvə olan dininə də təcavüz edildiyini, məscidlərin təsadüfi sökülmədiyini, rüşvətxorluğun, müftəxorluğun baş alıb getdiyini epizodik məqamlarla da olsa, əsər boyu oxucuya çatdırmağa səy göstərir. "İdeal" fəhlə-kəndli cəmiyyətinin sovet dövrünün "ideologiyasının çürüklüyü", "iç üzü" yazıçının sənətkar düşüncələrinin qənaəti kimi səslənir: "gərək elə uşaq bağçası tikmək üçün bu məscidi sökəydilər?! Aşağıdakı o xırdaca dükanlar sahiblərindən savayı kimə lazımdır? Heç kimə! Ordakı çayçı, pitiçi, papaqçı kiminsə ovcuna filan qədər basıb, ona görə də o dükanlara dəymirlər".[1]

"Burulğanlar" romanının II hissəsində hadisələr müharibə illərini əhatə edir. Bu dövrdə öz axarında davam edən həyat insanların taleyində kəskin dönüş yaradır. Müharibə gündəlik yaşayışı alt-üst edir, ailələr ayrılıq və nigarançılıqla üz-üzə qalır. Kişilər səfərbərliyə cəlb olunur, cəbhəyə yola salınır. Həmidin qardaşı Mikayılın və Nurlunun həyat yoldaşı Muxtarın da müharibəyə getməsi bu ağır dövrün insanların şəxsi talelərinə necə sirayət etdiyini açıq şəkildə göstərir.

Həmid evlənməməsinin səbəbini açıqlayaraq Nurlunu hələ də sevdiyini etiraf edir. Qadın kimi bu etiraf Nurlunu sevindirsə də, Həmidin ailə qurmaması onda müəyyən nigarançılıq yaradır. Nurlu obrazının timsalında yazıçı müharibə illərində Azərbaycan qadınının mənəvi gücünü, sədaqətini və həyat qarşısında möhkəm dayanmaq bacarığını parlaq şəkildə canlandırmışdır.

Atasının hökumət tərəfindən "xalq düşməni" kimi həbs olunması Nurlunun taleyinə ağır kölgə salır və bu səbəbdən Həmidin ona qarşı göstərdiyi soyuq münasibəti o, uzun müddət anlaya bilmir. Nəticədə Həmidin dediyi kimi "arıq kimya müəllimi" – Muxtarla ailə qurur, ana olur.

Muxtarın qələbədən üç il sonra itkin düşmədiyi, əksinə, qəhrəmanlıqla həlak olaraq qardaşlıq qəbiristanlığında dəfn edildiyi məlum olduqdan sonra Həmid yenidən Nurluya evlənmək təklifi edir. Lakin Nurlu bu təklifə oxucunun gözlədiyi və onun mənəvi bütövlüyünü, sədaqətini əks etdirən ləyaqətli bir cavab verir: "Gecdi, Həmid, – dedi, – çox gecdi. Nə olsun ki, indi mən səni əvvəlkindən artıq istəyirəm. Onu da gözəl bilirəm ki,

[1] Hüseyn Abbaszadə. Burulğanlar (roman). – Bakı: Yazıçı, 1991, s.194; Hüseyn Abbaszadə. Seçilmiş əsərləri. İki cilddə, II c. – Bakı: Şərq-Qərb, 2006

övladlarımdan artıq sən mənim qayğıma qalırsan, ömrüm sənlə xoş keçər. Nə edəsən ki, gecdi. Mənim iki yekə oğlum var...”

Romanda 1930-1950-ci illər sovet quruluşu insanlarının həyatı təsvir olunur. Balağa-Çopur Abdulla, Balağa-Həmid, Həmid-Nurlu, Balağa-Firuz, Həmid-Muxtar xətləri birbaşa olmasa da, oxucu təxəyyülünün cızdığı ştrixlərlə əsərin dinamikliyini təmin edir. İnsanın hər bir hərəkətinin nəticəsi əsərin ideyasını tamamlayır.

Əsərin bu məqamında hadisələrin dramatizmi daha da dərinləşir və bir-birini sevən bu iki obrazın illər keçməsinə baxmayaraq duyğularının səmimi və saf qaldığını üzə çıxarır. Onların sevgisi bir yerdə yaşamaq arzusu ilə yenidən aktuallaşsa da, bu istək reallaşmır.

Nurlu üçün ailə namusu, böyütdüyü iki oğlunun heysiyyatı, mərhum əri Muxtarın xatirəsinə olan sədaqət və ehtiram, ən başlıcası isə sevginin ucalığı və paklığı hər cür şəxsi xoşbəxtlik arzusundan daha üstün idi. Bu mövqeyi ilə Nurlu həm mənəvi bütövlüyünü qoruyur, həm də obrazın əxlaqi kamilliyini oxucuya aydın şəkildə nümayiş etdirir.

Əsər boyu müxtəlif obrazların danışığı və davranışları vasitəsilə yazıçının mövqeyi aydın və ardıcıl şəkildə üzə çıxır, oxucuya dolğun formada çatdırılır: “Yersiz gəldi, yerli qaç, buna deyiblər. Basa-basa dünyanın o başından gəliblər öz dənizimizdə, dədə-baba məskənimizdə üstümüzdə ağalıq eləyirlər, biz də başlamışıq ki, filan vaxt sən məni qurşaq tutanda yıxmısan, necə olsa da, mən səndən bunun əvəzini çıxacağam.[1] “... “Öz dənizimiz”i, “basa-basa dünyanın o başında gələnlərə heç cür qıymamaq o dövrdə sovetin əli ilə fransızın, ingilisin, almanın da Azərbaycana göz dikməsi bolşevik Turab kimi firqə nə olduğunu bilməyən Umur babanın da ağrılı yeridir. “O, sularında əsrlərdən bəri dədə-babasının balıq tutub güzəran keçirdiyi dəli Xəzəri azad görmək istəyirdi. Qoca hər dəfə dənizdə xarici gəmilərlə rastlaşanda elə bilirdi ki, əcdadının müqəddəs ruhunu təhqir eləyirlər, dünya başına fırlanırdı”.[2]

1970-ci illərin ikinci yarısında ustalıqla qələmə alınmış “Burulğanlar” romanı təkcə 1930-1940-cı illərin geniş mənzərəsini canlandırmır, ümumilikdə quruluşun, cəmiyyətin, repressiya və müharibə dövrünün xarakteristikasını verir, ölkədə ictimai-siyasi vəziyyətlə bağlı yaranan gərginlik, dramatizm öz bədii təcəssümünü tapır. Romanın istər təhkiyə dili, istərsə də obrazların dili sadə olduğu qədər də yığcamdır. Yazıçı xalq danışıq dili ifadələrindən gen-bol istifadə edərək, böyük “mətləbləri” bu yolla oxucusuna çatdırır. “Burulğanlar” romanı koloriti ilə seçilir. Bakılı Həmidin bəxtsiz taleyi, qədim

[1] Hüseyn Abbaszadə. Burulğanlar (roman). – Bakı: Yazıçı, 1991, s.40; Hüseyn Abbaszadə. Seçilmiş əsərləri. İki cilddə, II c. – Bakı: Şərq-Qərb, 2006

[2] Yenə orada, s.116

Bakı, Nardaran, Mərdəkan ləhcələrində danışan insanlar, müharibənin döydüyü qapılar, bir sözlə, hər şey Bakı, Abşeron mühitinin özünəməxsusluğunu göstərə bilir.

Müxtəlif dillərə tərcümə olunan "Burulğan" romanı ədəbi-bədii dəyərinə və Azərbaycan nəsrinə gətirdiyi yeniliyinə görə yüksək qiymətləndirilmiş, 1984-cü ildə Dövlət Mükafatına layiq görülmüşdür.

H.Abbaszadənin 1980-ci illərdə yazdığı maraqlı romanlarından biri də "Əlibalanın ağır səfəri" (1983-1984) adlanır. Əsər sovet insanının mənəvi-psixoloji keyfiyyətlərinin hələ də bəşəri mahiyyət daşıdığı bir dövrdə yazılmışdır. Romanın qəhrəmanları olan Əlibala ilə Dadaş eyni mühitin və quruluşun adamları olsalar da, təbii ki, taleləri və xarakterləri bir-birinə oxşamır. Hadisələr Əlibalanın ömür yolunu əks etdirsə də, yazıçı insanlararası münasibətlər, biganəlik, "yamanlığa yaxşılıq" kimi məsələləri, şəhərlə-kəndin fərqini ictimai və əyani amillərlə əlaqələndirir.

Cəbhə yoldaşı Dadaşın uzun illər cəbhədə ona qan verib xilas etməsi fikrində yanıldığını biləndən sonra da, Əlibalanın döyüşçü dostuna münasibəti dəyişmir. Hadisələr də elə bununla bağlı cərəyan edir. Əlibalanı ağrıdan, narahat edən bir məsələ də insanların bir-birinə laqeydliyi, soyuqluğudur. Hətta şəhərdə qapıbir qonşuların bir-birinin dərd-sərindən xəbər tutmaması onu – bu fədakar cəbhəçini narahat edir. "Axı, biz belə deyildik, cəbhədə bir-birimizi ölümün ağzından alırdıq... İndi bir-birimizin ölüsündən-dirisindən də xəbərimiz yoxdur!"[1]

Romanın əsas məziyyətlərindən biri insanlar arasında əxlaqi-mənəvi dəyərlər sırasında xüsusi yer tutan dostluq, səmimiyyət və qayğıkeşlik kimi keyfiyyətlərin ön plana çəkilməsidir. Yazıçı bu dəyərlərə təkcə ideal münasibət sərgiləmir, eyni zamanda sovet sisteminin və mövcud ictimai-siyasi quruluşun formalaşdırdığı mühitdə bu insani keyfiyyətlərin necə aşındığını, sosial-ictimai dəyərlərin məhvə doğru sürükləndiyini göstərir.

Əlibala obrazı isə bu baxımdan xüsusi əhəmiyyət daşıyır: o, yüksək mənəvi keyfiyyətləri özündə cəmləşdirən, vicdanlı və saf düşüncəli insanların təbii, inandırıcı və həyatiliyi ilə seçilən bir obraz kimi təqdim olunur. Dadaşla olan münasibət, daha dəqiq, Əlibalaya qarşı qoyulmuş Dadaş obrazı da insan mənəviyyatının iki əsas qütbünü təmsil edir. H.Abbaszadə də bu surətləri qarşılaşdıraraq mənəvi-əxlaqi ziddiyyətlərin imkanlarından məharətlə istifadə edərək, insan talelərinin fonunda cəmiyyətin sosial-siyasi və mənəvi-əxlaqi problemlərini yüksək bədiiliklə oxucuya çatdırır. Əlibala sadə, təmiz, halallıqla yaşamaq prinsiplərini üstün tutur, hətta çayçı Sadığın səfər vaxtı sərnişinlərə çay paylayarkən güzəranından gileylənməsini və sərnişinlərdən çay pulu aldığını o, sosial və əxlaqi dəyərin pozulduğu kimi qiymətləndirir.

[1] Hüseyn Abbaszadə. Əlibalanın ağır səfəri. – Bakı: Gənclik, 1985, s.29

Əlibalaya görə, bu, "mədəni yolla camaatdan sadağa dilənmək idi".[1] Əlibalanın həyatda əsas məramı halallıqdır. Yazıçıya görə, halallıqla qazanılan pul, qanunla yaşanılan ömrün rahatlığı ən böyük xoşbəxtlikdir.

H.Abbaszadə əsərində bir-birindən fərqli xarakter və xasiyyətə malik, lakin ümumi situasiyada bir-birini tamamlayan Xırdaxanım, Möhsün Nağızadə, Ağadayı kimi təbii, həyati obrazlar da yarada bilmişdir. H.Abbaszadənin bu əsəri də ideya və mövzu problematikasına görə, obrazların təbiiliyi və dilinin sadəliyi baxımından dəyərlidir.

Yazıçının nəsr əsərlərindəki oxucusunu ələ almaq bacarığı süjetdəki həyatilik, sadəlik, təbiilik və inandırıcılıq, dil səlisliyi, ən başlıcası isə müasirlik duyğusuna bağlılığı idi. H.Abbaszadə istər hekayələrində, povestlərində, istərsə də romanlarında ali həqiqətlərdən realist bədii dildə və üslubda danışır. Bu məqsədə Bakı və bakılılar haqqında yazdığı qısa və yığcam süjetli miniatür hekayələrində xüsusilə yaxşı nail olur. Bu adi qəhrəmanlar müasir düşüncə tərzi, sadə və aydın dili, qayğı və düşüncələri ilə geniş oxucu rəğbəti qazanır.

Əmək cəbhəsi insanların müharibədən sonrakı həyatının əsas ictimai qayəsinə çevrilmişdir. Müharibə cəbhəsindən qayıtmış insanın əmək cəbhəsindəki, dinc həyatdakı mənəvi keyfiyyətləri, əmək və istehsalat prosesində insan xarakterinin formalaşması, zəhmətin dəyişdirici gücü mövzusu da Hüseyn Abbaszadənin bir yazıçı kimi diqqətindən kənarda qalmamışdır. Onun "Qaradağ əhvalatı" (1962), "Ləpədöyəndə" (1964) povestlərinin mövzusu Bakı neftçilərinin bu gün də aktual olan həyatından alınmışdır. Yazıçı hər iki əsərdə həyatı ziddiyyətlərlə, çətinliklərlə qarşılaşan, bu yolda səhvlər buraxan, zəmanənin çağırış və tələblərinə çətinliklə uyuşan, kollektiv düşüncədən geri qalan insanların talelərini izləyir, bunları önə çəkir. Müəllif hadisələrin cərəyan etdiyi ictimai mühitin mahiyyətini, bu fonda özünü büruzə verən xeyirxah adamların humanizmini real bir tərzdə verə bilmişdir.

"Qaradağ əhvalatı" əsərinin süjet və konfliktini əsasən, iki gəncin – Nadirlə Vəsilənin ictimai mühitin təsiri ilə formalaşan münasibətlərindəki ziddiyyət təşkil edir. Toy günü ərəfəsində, təsadüfən hər ikisi üçün sınaq olan hadisə baş verir və bu hadisə hər iki gəncin örtülü qalan xarakterinin gizlinlərini açır. Dənizdə, neft buruğunda işləyən Nadirgilin qayığı dənizdə qəzaya uğrayır, güclü fırtınaya düçar olurlar... Nadirin dostları özlərindən çox, toy gününə çatmalı olan Nadirin xilasını düşünürlər. Nadir isə yoldaşlarından çox özünü, özünün xilasını düşünür, yaxşı üzməyi bacardığı halda, yoldaşlarına kömək etmir, qəti sınaq anında – "Mən öz həyatımı başqalarına qurban verə bilmərəm!" – deyərək, qorxaqlıq edir, sahilə üzür, lakin özünə gəlincə, pis hərəkət etdiyini başa düşür, etiraf əvəzinə, müxtəlif

[1] Hüseyn Abbaszadə. Əlibalanın ağır səfəri. – Bakı: Gənclik, 1985, s.33

bəhanələrlə özünə bəraət qazandırmağa çalışır. Vəsilə nişanlısının xarakterindəki bu nöqsanı bağışlamır, dostlarını dar ayaqda qoyub qaçan adam, onu da darda qoyar... O, belə bir adamla həyat qura bilməyəcəyi qərarını verir, nişanlısından üz çevirir. Vəsilə yoldaşa xəyanəti, qorxaqlığı bağışlamır... Əsərdə iş, əmək prosesi, bu prosesdə insanın yeni əxlaq normalarının yaranması, örtülü qalan mənəvi-əxlaqi hərəkət və münasibətlərin aşkarlanması, gəncliyin ailə-məişət münasibətlərində yeni psixoloji düşüncə və davranış tərzi öz əksini tapmışdır.

Ümumiyyətlə, H.Abbaszadə öz həmkarları arasında sovet dövründə Azərbaycan məkanından kənar əsərləri ən çox yayımlanan yazıçılardan olmuşdur.

Sovet dövründə imperiyanın Moskvada çıxan "Pravda" kimi baş qəzetdə H.Abbaszadənin ondan çox hekayəsi dərc olunmuş, "Oqonyok" jurnalında vaxtaşırı yazıları getmiş, "Taqqılbab" hekayəsi bu jurnalın 1982-ci il üçün "ilin ən yaxşı hekayəsi" mükafatını almışdı. "Əlibalanın ağır səfəri" romanı 1987-ci ildə Moskva radiosunun 1-ci və 2-ci proqramları ilə üç gün ərzində ədəbi verilişlər silsiləsində səsləndirilmiş, yazıçı 1988-ci ildə SSRİ Yazıçılar İttifaqının və Ümumittifaq Həmkarları Mərkəzi Şurasını xüsusi mükafatına layiq görülmüşdü, bu da periferiya yazıçısına, özü də türk kökənli yazıçıya müəssər olan hal deyildi... Bu, bəlkə də, Tanrının ona bəxş etdiyi uğurlu taleyin bəhrəsi idi...

H.Abbaszadənin yaradıcılığı haqqında həm ümumittifaq tənqidində, həm də Azərbaycan ədəbi-tənqidində yüksək dəyərləndirmələrdən ibarət məqalələr, rəylər, ədəbi-tənqidi oçerklər yazılmışdır. Görkəmli yazıçılarımızdan Süleyman Rəhimov, Mirzə İbrahimov, Əli Vəliyev, Süleyman Rüstəm, Mehdi Hüseyn, İlyas Əfəndiyev, Bayram Bayramov, İsmayıl Şıxlı, Bəxtiyar Vahabzadə, Qasım Qasımzadə, Balaş Azəroğlu, Anar, Elçin, tanınmış ədəbiyyatşünas-alimlərimizdən Məmməd Arif, Məmməd Cəfər, Kamal Talıbzadə, Bəkir Nəbiyev, Qulu Xəlilov, Cəlal Məmmədov, Yaşar Qarayev, Akif Hüseynov və digərləri onun şəxsiyyətini və yaradıcılığını yüksək qiymətləndirmişlər... Yeni nəsil tənqidçilərdən K.Nərimanoğlu, Ş.Alışanov, A.Əmrahoğlu, N.Qasımzadə, V.Yusifli, R.Yerfi və b. onun haqqında sanballı məqalələr yazmış və maraqlı fikirlər, mülahizələr söyləmişlər.

Hüseyn Abbaszadənin dövrümüzün müxtəlif mərhələlərinin bədii mənzərəsini canlandıran və insanlarımızın zəngin mənəviyyatını tərənnüm edən hekayələri, povest və romanları oxucular tərəfindən daim rəğbətlə qarşılanmış, gənc nəslin milli-mənəvi dəyərlərə bağlılıq ruhunda tərbiyə olunması işində mühüm rol oynamışdır.

H.Abbaszadə yaradıcılığında mühüm yerlərdən birini də uşaqlar üçün yazdığı əsərlər tutur. O, uzun müddət "Pioner" və "Göyərçin" kimi uşaqlar üçün yaradılmış və olduqca dəyərli dərgilərdə baş redaktor işlədiyinə görə bu

mövzuya ciddi yanaşmış, Azərbaycan uşaq ədəbiyyatının inkişafında böyük rol oynamışdır. Onun "Sınaq illəri" (1949), "Yaşıl küçə" (1951), "Silah yoldaşları" (1954), "İlqar" (1955), "Yasəmən" (1956), "Ağarır yelkənimiz", "Bacı və qardaş", "Sən nə yaxşı nənəsən" (1960), "Yun corab" (1961) kitablarında toplanan şeirlərin və kiçik hekayələrin əksəriyyəti uşaqlar üçün qələmə alınıb. Ümumiyyətlə, H.Abbaszadə bir şair kimi yüksələ bilməsə də, zərif, maraqlı, tərbiyəvi, uşaqların qəlbini və ruhunu oxşayan əsərlər müəllifi kimi geniş miqyasda tanınmış və Azərbaycan uşaq ədəbiyyatının inkişafında bir şair, nasir və naşir kimi əvəzsiz xidmətlər göstərmişdir. Onun bu sahədəki yaradıcılığını şərh edən akademik Tofiq Hacıyev yazır: "...Hüseyn Abbaszadənin humanizmi ilk vəzifəsi olan "Göyərçin"in redaktorluğu zamanı müəyyənləşdi. Yazıçı-şair Abbaszadə o vaxtlar təməlində A.Səhhət, A.Şaiq sənəti dayanan uşaq ədəbiyyatının həm yaxşı nümunələrini yaratdı, həm də uşaq ədəbiyyatının bələdçiliyi ilə uşaq dünyasının saf, ülvi, təmənnasız aləminə, mühitinə daxil oldu, öz xasiyyətini bir daha bu saflıq mühitinin suyuna çəkdi. Buna görə də, onun müxtəlif mövzulu əsərlərinin içərisində həm də uşaq nəfəsi qədər mülayim, uşaq gülüşü qədər işıltılı bir bədii ovqat var. Özü də uşaq ürəyi kimi saf ürək sahibidir. Uşaq xasiyyətindən bircə şıltaqlıq götürməyib. Cavan olmasına baxmayaraq, onun nəsri ağsaqqal təmkini ilə danışır".[1] Hüseyn Abbaszadə həm yaradıcılığı, həm də ədəbi fəaliyyəti ilə Azərbaycan uşaq ədəbiyyatının ictimai və sosial məzmun ərazisini xeyli genişləndirmiş və onu daha da canlandırmışdır.

Hüseyn Abbaszadə şair kimi geniş sferada tanınmasa da, onun uşaqlar üçün yazdığı zərif, lirik şeirlərinə, xüsusən, istedadlı bəstəkar Ağabacı Rzayeva tərəfindən bəstələnmiş mahnılar görkəmli Azərbaycan müğənniləri tərəfindən ifa edilərək, dinləyicilərin böyük rəğbətini qazanmışdır.

Onun ədəbi fəaliyyətinin bir istiqaməti də bədii tərcümə sənəti ilə bağlı olmuşdur. Azərbaycan oxucusunun dünya ədəbiyyatı nümunələri ilə tanış edilməsində Hüseyn Abbaszadə yaxından iştirak etmişdir. Yazıçının əsərləri də bir çox xalqların dillərinə tərcümə olunaraq, ölkəmizin hüdudlarından kənarda yayılmış, milli nəsri uğurla təmsil etmişdir.

Hüseyn Abbaszadənin yaradıcılığında xatirələrin və xatirə-memuar janrının da, xüsusi yeri var. Əslində onun xatirələrində milli mədəniyyətimizin müəyyən dövrünün XX əsr Azərbaycan ədəbiyyatı və mədəniyyətinin görkəmli simalarının işıqlı obrazları öz əksini tapmışdır. "Dünyadan gör necə insanlar gedib" xatirələr kitabındakı publisistik oçerklərdə böyük bir ehtiramla Azərbaycanın görkəmli sənətkarları Üzeyir Hacıbəyli, Səməd Vurğun, Süleyman Rüstəm, Sidqi Ruhulla, Ağabacı Rzayeva, Mikayıl

[1] Tofiq Hacıyev. Ön söz. Hüseyn Abbaszadə. Seçilmiş əsərləri. İki cilddə. – Bakı: Şərq-Qərb, 2006, s.5

Abdullayev, Kazım Ziya, Qara Qarayev, Süleyman Rəhimov, Əliağa Kürçaylı, Mirmehdi Seyidzadə, Səid Rüstəmov, Əli Kərim, Adil İsgəndərov, Əli Vəliyev, Rəsul Rza, Ənvər Məmmədxanlı, İlyas Əfəndiyev, İmran Qasımov, Aşıq Şəmşir və başqalarından söz açır, onların xarakterindəki ən ümdə, ən səciyyəvi məqamlar üzərində dayanır: "…Xatirələrimdə Azərbaycanın görkəmli ədəbiyyat və incəsənət xadimlərindən bəzilərinin portretlərinin ayrı-ayrı cizgilərini, həm də yalnız mənə məlum olan cizgilərini təsvir etmişəm. Bunun üçün sənətkarlarımızın arxivimdə olan əlyazmalarından, mənə yazdıqları məktublarından, köhnə fotoşəkillərdən istifadə eləmişəm, ötən illərin qəzet-jurnallarını dönə-dönə vərəqləmişəm… Onların arasında ədəbiyyatımızın, incəsənətimizin şöhrətini dünyaya yayan, bədii fikrimizi yeni-yeni zirvələrə qaldıran böyük sənətkarlar və sənət aləmində öz imkanları daxilində namusla yazıb-yaradan yazıçılar, rəssamlar, musiqiçilər, artistlər də vardır. Lakin onların hamısını bir cəhət yaxınlaşdırır. Doğma xalqımıza tükənməz ilhamla xidmət eləmək! Buna görə də onların xatirəsi mənim üçün əzizdir..."[1] Bu deyilənlər bizim mədəniyyətin, ədəbiyyatın, sənətin bu dövrünü yaradan, onu tariximizə həkk eləyən bir çox şəxsiyyətlərin H.Abbaszadə bucağından görünən, bilinən, dərk edilən portretlərindən cizgilərdir və bu portretləri dolğunlaşdıran, çoxlarının bilmədiyi məlumatlardır.

Zəngin sənətkar ömrünün ən maraqlı anları, onların həyatından yaddaqalan epizodlar bu xatirələrdə ustalıqla, səmimiyyətlə, mərhəmət və hörmətlə qələmə alınmışdır. Burada müəllif özünün xarakterini də açmağa müvəffəq olmuş, başqa sözlə, öz portretini də yaratmışdır, məşhur xalq deyimində olduğu kimi, "dostunun, yoldaşının kim olduğunu göstər, sənin kim olduğunu deyim".

Müəllif "Dünyadan gör necə insanlar gedib..." adlı kitabının yazılmasına iyirmi ildən çox vaxt sərf etmişdir. Xatirələr ilk dəfə hissə-hissə dövri mətbuatda "Portret cizgiləri" adı ilə dərc edilib.

Vaxtilə klassik ədəbiyyatda, xüsusən IX əsrdən mənqəbə adlanan bir ədəbi janr olmuşdur. Bu janrda tarixi şəxsiyyətlər, peyğəmbər, məzhəb imamları və sufilərin tərif ediləcək fəzilət və məziyyətlərini ehtiva edən rəvayətlər yazılmışdır. Orta əsrlər Şərq ədəbiyyatında konkret tanınmış, məşhur bir şəxsin həyat və yaradıcılığını əks etdirən bioqrafik səciyyəli əsərlərə mənqəbə deyilmişdir. Mənqəbələrin toplandığı əsərlərə isə "Mənaqibnamələr" adı verilmişdir. H.Abbaszadənin "Dünyadan gör necə insanlar gedib..." kitabı həmin klassik janrın müasir nümunəsidir – "Mənaqibnamələr"dir.

"Hüseyn Abbaszadənin gözü mizan-tərəzidir. O, gördüyü, tanıdığı yazıçı, şair, bəstəkar, sənət adamları haqqında tarixə dönəcək xatirələr

[1] Hüseyn Abbaszadə. Dünyadan gör necə insanlar gedib (xatirələr). Müəllifdən. – Bakı: Gənclik, 1988, s.3

yazmışdır. Onun bu insanlar haqqında xatirələri sadəcə, yaddaş qoruğunun yazıya köçürülməsi deyil, şəxsiyyətin təhlilidir, onların tərcümeyi-halında əks olunmamış, ancaq fəaliyyətlərinin ibrətli, milli əhəmiyyətli elə nümunələridir ki, bu tarixi şəxsiyyətləri bir daha tanıdır, tərcümeyi-hallarını tamamlayır".[1]

Yazıçının sağlığında iki dəfə nəşr olunan bu xatirələr, sonradan latın qrafikasında da "Nurdan yoğrulmuşlar" adı ilə çap edilmiş, əvvəlki nəşrdə müəllifin 39 xatirə-oçerki, bu nəşrə isə əvvəlki kitaba düşməyən portret-xatirələr də əlavə edilərək cəmi 59 xatirəni əhatə edərək tamamlanır.[2]

Azərbaycan ədəbiyyatı tarixində yeri olan, böyük nəsr əsərlərinin müəllifi kimi tanınan yazıçı Hüseyn Abbaszadə kino sahəsinə də özünün yaradıcılıq töhfəsini verib. Belə ki, onun əsərləri əsasında bir çox filmlər çəkilib ki, kino tarixində ayrıca yeri var. "Dənizə çıxmaq qorxuludur" (1973) və "Dörd bazar günü" (1975) filmləri məhz yazıçının əsərləri əsasında çəkilib.

Onun Azərbaycan Yazıçılar İttifaqının katibi kimi uzun illər müasir ədəbi prosesin təşkili sahəsində əməyi də təqdirəlayiq olmuşdur. Anadan olmasının 75 illik yubileyi şərəfinə Ulu öndər Heydər Əliyevin imzaladığı təbrik məktubunda deyilirdi: "...Qəzet və jurnalların baş redaktoru olduğunuz dövrdə də yaratdığınız əsərlər respublikada ədəbi prosesin inkişafına öz töhfəsini vermişdir. Bu əsərlər gənclərimizin vətənpərvərlik ruhunda tərbiyə olunması, onların hərtərəfli şəxsiyyət kimi yetişməsi işinə xidmət etmişdir. Uzun illər Azərbaycan Yazıçılar İttifaqının katibi kimi fəaliyyətiniz də böyük təşkilatçılıq qabiliyyətinə malik olduğunuzu göstərir".[3]

Hüseyn Abbaszadənin Azərbaycan ədəbiyyatı və mədəniyyətinin inkişafında göstərdiyi xidmətləri yüksək qiymətləndirilmişdir. O, bir sıra hərbi orden və medallarla, habelə müstəqil Azərbaycanın ali mükafatı – "Şöhrət" ordeni ilə təltif olunmuşdur.

"Yazı masasını özünün səngəri hesab edən",[4] "vicdanı xalqının və qələminin qarşısında həmişə rahat olan"[5] Xalq yazıçısı Hüseyn Abbaszadənin Azərbaycan ədəbiyyatında müstəsna xidmətləri vardır. Onun yaradıcılığı xalqımızın zəngin mənəvi xəzinəsində layiqli yerlərdən birini tutur. Hüseyn Abbaszadə XX əsrin ikinci yarısında yaranmış Azərbaycan ictimai fikrinin, ədəbi-bədii nəsrinin, publisistikasının, ümumən, ədəbiyyatının yaradıcılarından, təşkilatçılarından, böyük nümayəndələrindən biridir.

---

[1] Hüseyn Abbaszadə. Seçilmiş əsərləri. İki cilddə, I c. – Bakı: Şərq-Qərb, 2006, s.7-8

[2] Hüseyn Abbaszadə. Nurdan yoğrulmuşlar (tərt. ed. İ.Hüseynqızı). – Bakı: Avrasiya Press, 2008

[3] Heydər Əliyev. Xalq yazıçısı Hüseyn Abbaszadəyə / Müdriklik mücəssəməsi (tərtib edəni Asif Rüstəmli). – Bakı: Elm, 2023, s.484

[4] "Panorama" qəzeti, 1999, 16 yanvar, s.5

[5] "Yeni Azərbaycan" qəzeti, 2002, 26 noyabr, s.4

İSA MUĞANNA
(1928-2014)

İsa Muğanna gerçəkliyə əsaslanan, həyatı reallığı və obyektivliyi ilə əks etdirməyə çalışan sənətkar kimi şöhrət qazanmışdır. Əsərləri, eyni zamanda həyata müəllif baxışının müstəqilliyi, onun müşahidə və qənaətlərinin özünəməxsusluğu ilə dərindən aşılanmışdır. Yaradıcılığı gerçəkliyin sadəcə analogiyasına, empirik təfsilatına çevrilməkdən uzaq olmaqla yanaşı, müəllifin ruhi-mənəvi aləminin orijinallığı, bədii şərhlərinin mənalılığı haqda da aydın təsəvvür yaradır. Hər iki cəhətin vəhdəti nəinki yazıçının nəsrini ciddi sənət hadisəsi səviyyəsinə yüksəldir, həm də onun estetik dünyasını konseptual mahiyyəti ilə ifadə edir. Məhz daxili-mənəvi bütövlük İsa Muğannanı sənətkar və şəxsiyyət kimi dəqiq səciyyələndirir.

Həyatı. İsa Muğanna (İsa Mustafa oğlu Hüseynov) 12 iyun 1928-ci ildə Ağstafa rayonunun Muğanlı kəndində müəllim ailəsində anadan olmuşdur. İsa Muğanna doğulandan ona verilən ilk ad İsa Əfəndi olmuş – "Əfəndi" kəlməsi hər şeyi bilən ağa, üləma, sayğıdəyər, bilgiyə sahib anlamında işlənmişdir. İlahi bir səs bu adı İsa Muğannanın ata qohumu Hilal xalaya söylədib. Müəllif bunu özü belə qeyd edirdi: "Hilal xala sevinclə xeymədən eşiyə atılıb, deyib: - Gözün aydın, ay Omar ağa, İsa Əfəndi gəldi". İsa Əfəndi Muğannanın əmisi olmuşdur. Tarixi sirləri varisləri ilə gələn nəsillərə ötürən Muğlar, Muğannalar İsa Əfəndiyə "Nəslin Günəşi" deyərmişlər. Çünki o Saf Ağ elminin bilicisi və bu elmi gənclərə çatdırmaqda görəvləndirən bir şəxs idi. O dövr üçün "çox təhlükəli "İstoriya İslama" kitabı"nı yazmışdır. XX əsrin 80-ci illərindən İsa Əfəndi "Muğanna" imzasını seçmişdir. İsa Muğanna "İdeal" romanının ilk nəşrinin ön sözündə "Hüseynov"dan "Muğanna"ya keçməsini bu cür izah edir: "Ulularımızdan irs qalmış tərkidünyalıq bahasına, gecələrimi gündüzlərimdən seçməyib, o mənanı və hikməti ifadə eləməyə çalışdım. İş qurtaranda isə qeyri-rəsmi daşıdığım "Muğanlı" familiyası əvəzinə, dünyadan üzüörtülü gedən əzabkeşlərimin şərəfinə "Muğanna" oldum".[1]

Müharibənin qanlı-qadalı illəri bir çoxları kimi onun da uşaqlığından yan keçməmişdir. Atası Mustafa müəllim müharibəyə getdikdən sonra ailənin bütün ağırlığı evin böyük övladı gənc İsanın və anası Xədicənin zərif çiyinlərinə düşmüşdür. Bütün çətinliklərə baxmayaraq, İsa Əfəndi orta məktəbi bitirdikdən sonra Bakıya gəlir. 1945-ci ildə N.Nərimanov adına Tibb Universitetinə daxil olsa da, təhsilini yarımçıq qoyur və 1947-ci ildə Azərbaycan Dövlət Universitetinin (indiki BDU) Filologiya fakültəsinə daxil olur, sonra Moskvaya, M.Qorki adına Ədəbiyyat İnstitutuna göndərilir. 1952-

[1] İsa Hüseynov. İdeal. – Bakı: Yazıçı, 1986, s.6

ci ildə təhsilini başa vurduqdan sonra Bakıya qayıdıb uzun illər ədəbi jurnalların redaksiyalarında işləmişdir. Bir müddət Azərnəşrdə Ədəbiyyat şöbəsinin redaktoru (1952-1954), "Literaturnıy Azerbaydjan" qəzetində nəsr şöbəsinin müdiri (1960-1964), Cəfər Cabbarlı adına Azərbaycanfilm Kinostudiyasında baş redaktor (1964-1968), redaktor (1968-1974), Azərbaycan Dövlət Kinostudiyasında baş redaktor (1979) vəzifələrində çalışmışdır. İsa Hüseynov yaradıcılığa erkən yaşlarında başlamışdır. 1947-ci ildə 19 yaşı olanda "Azərbaycan gəncləri" qəzetinin hekayə müsabiqəsində "Arx" adlı hekayəsinə görə mükafatlandırılmışdır. 1949-cu ildə onu böyük oxucu auditoriyasına tanıdan "Anadil ötən yerdə" adlı hekayəsini çap etdirir. Yazıçı bu hekayədə atasının və dayısının obrazını yaratmışdır. Bu ilk mətbu əsərindən başlayaraq İsa Hüseynov böyük və zəngin bir yaradıcılıq yolu keçmişdir. İlk yaradıcılıq nümunələrindən başlayaraq qələmə aldığı əsərləri ictimai məzmununa, psixoloji gücünə görə diqqət kəsb etmişdir. Ədib həmin illərdə bir-birinin ardınca "Kollu-koxa", "Quru budaq", "Tütək səsi", "Ömür karvanı", "Saz", "Bizim qızlar", "Doğma və yad adamlar", "Dan ulduzu", "Yanar ürək", "Məhşər" kimi povest və romanlarını qələmə almışdır. İsa Hüseynovun 1953-cü ildə nəşr olunan "Bizim qızlar" pyesindən başlayaraq müxtəlif illərdə bir-birinin ardınca "Dan ulduzu" pyesi (1956), "Hekayələr" (1957), "Yanar ürək" (1960, 1965, 1979), "Doğma və yad adamlar" (1962), "Teleqram" (1963), "Tütək səsi" (1965), "Pyeslər" (1967), "Kollu koxa" (1969), "Saz" (1971), "Seçilmiş əsərləri" (1972), "Məhşər" (1979), "İdeal" (1985), VI cildlik "Seçilmiş əsərləri" (2009), "Türfə" (2009), "Qəbiristan" (2013), "Cəhənnəm" (2013), "GurUn" (2013), "İsahəq – Musahəq" (2013) və s. kitabları çap olunmuş, intellektual oxucu kütləsinin marağına səbəb olmuşdur. Müəllifin "İdeal"dan sonra bədii əsər adına beş romanı: "Qəbiristan", "GurÜn", "İsahəq, Musahəq", "Cəhənnəm", "Türfə", üç povesti: "Qırx kisə qızıl", "İlan dərəsi" və ya Peyğəmbərin taleyi" və "Söz yarası", bir səhifəlik "Mənim məhəbbətim" adlı simvolik romanı və bir səhifəlik yarımçıq əlyazması oxuculara bəxş edilmişdir. Geniş yaradıcılıq imkanlarına malik yazıçı aktual əsərləri ilə yanaşı, bir sıra filmlərə də ssenari yazmışdır. "İyirmialtılar", "Doktor Nərimanov", "Nəsimi", "Nizami" İsa Muğannanın çoxçeşidli yaradıcılığının önəmli bir hissəsini təşkil edir. 1950-1960-cı illərdə İsa Hüseynovun yaradıcılığı ədəbi tənqidin haqsız hücum və təzyiqlərinə məruz qalmışdır. Həmin dövrdə Ümummilli lider Heydər Əliyevin "Nəsimi" kinossenarisinin yazılmasını İsa Hüseynova tapşırması, "Məhşər" romanının yazılması yazıçının həyatı və yaradıcılığı üçün bir stimul olmuşdur. Yazıçının ictimai-sosial problemlər, fəlsəfi, mənəvi-əxlaqi keyfiyyətlərlə zəngin yaradıcılığı istər sovet dövründə, istərsə də müstəqillik illərində daim diqqət mərkəzində olmuş, İsa Muğanna sənəti müxtəlif zamanlarda dövlət tərəfindən

ali mükafatlarla dəyərləndirilmişdir. Yazıçı ədəbiyyatımıza və mədəniyyətimizə göstərdiyi xidmətlərinə görə "Əməkdar incəsənət xadimi" (1976), "Şərəf nişanı" ordeni (1978), "Azərbaycanın Xalq yazıçısı" (1988), "İstiqlal ordeni" (1998), "Nəsimi" mükafatı (2012) fəxri ad və mükafatlarla təltif edilmişdir. Zəngin yaradıcılıq yolu keçən yazıçı 1970-ci illərdən başlayaraq ömrünü sadəcə bir kitaba – "İdeal"a və "İdeal"ın şərhinə həsr etdi. 1970-ci illərdə İsa Hüseynovu İsa Muğannaya çevirən "İdeal" romanından başlanan ədəbi-fəlsəfi yol 2014-cü ildə "Mənim məhəbbətim" adlı yarımçıq əlyazması ilə tamamlandı. İsa Hüseynov 1 aprel 2014-cü ildə vəfat etmişdir.

Yaradıcılığı. İsa Hüseynovun yaradıcılıq fərdiyyəti ədəbiyyatımızın humanist, etik ənənələrinə sədaqət ruhunda, realizm və xəlqilik istiqamətində təşəkkül tapmış və zənginləşmişdir. Onun hələ ilk yazılarında – "Bizim qızlar" və "Dan ulduzu" povestlərində istedadının əlamətləri aydın sezilirdi. Əllinci illərin əvvəlində yazılmış bu əsərlərdən birincisi hətta rus dilinə çevrilib Moskvada da nəşr olunmuşdur. Lakin povestlər dövrün uydurma "konfliktsizlik" nəzəriyyəsinin təsiri altında yazıldığından ümumi səthiliyinə, sxematikliyinə görə sonralar müəllifin özünü də qane etməmişdir. İsa Hüseynov qələminə xas ideya-bədii təravət ilk dəfə "Yanar ürək" romanında barizliyi ilə nəzərə çarpdı və o, həm ictimai hadisələrə, həm də psixoloji aləmə məharətlə nüfuz edən sənətkar kimi tanındı. Hərarətli, ehtiraslı ürəklə narahat axtarıcı fikir yazıçının bədii təhkiyəsi və təhlillərinin səciyyəvi əlamətləri kimi maraq doğurur və əsərlərinin emosionallığı və düşündürücülüyü, estetik ideyalarının sirayətediciliyi elə buradan irəli gəlirdi. "Yanar ürək" romanında sovet cəmiyyəti üçün xüsusilə aktual olan "rəhbər və kütlə" probleminin qabarıq təcəssümü ilə rastlaşırıq. Bütöv bir rayonun yiyəsi sayılan döşü Qızıl ulduzlu Sultan Əmirli hamıdan sözsüz itaət, hədsiz tabelilik tələb edir, hakimi-mütləq kimi davranır, vahimə-şübhə atmosferi yaratmaqla nail olduğu dözülməz "dəmir rejimə" qarşı camaatın hər hansı bir etiraz cəhdini "başıpozuqluq", "avantüraçılıq" damğası altında tezcə dəf edir. Sultan Əmirli özü də xalqa, xidmət etdiyi ideallara inamını itirmiş, elin də dayağından, etimadından məhrum olmuş bir rəhbərdir və onun fəaliyyətinin, imkanlarının miqyasını nəzərə aldıqda bu obrazla yazıçının ifadə etdiyi ümumiləşdirici fikirlərin cəsarətli və ən başlıcası isə vacib, mənalı olmasını təsdiq etməmək mümkün deyildir. Sultan Əmirlinin fərdi cizgilərinin qabarıqlığı və sosial mahiyyətinin dərinliyi ilə canlandırılmış mürəkkəb xarakteri nəsrimizin ciddi nailiyyəti kimi mənalandırılmışdır. İlk dəfə idi ki, ədəbiyyatımızda raykom katibinin kəskin mənfi obrazı yaradılırdı. İ.Hüseynov isə ehkamdan kənara çıxmış, raykom katibinin əzazilliyindən, əxlaqsızlığından söhbət açmışdı. Problemin o biri qütbünə – xalq həyatına münasibətdə də biz eyni cəsarətli mövqe müşahidə edirik. Yazıçı diqqəti kənd

zəhmətkeşlərinin ağır güzəranına, hüquqsuz vəziyyətinə yönəldir, cəmiyyətdə demokratik dəyişikliklərə duyulan ehtiyacı xalq kütləsinin sosial-psixoloji vəziyyətindən doğan obyektiv zərurət kimi əsaslandırırdı. Beləcə, sovet ədəbiyyatına həyatın sərt həqiqətləri gətirilirdi, "Yanar ürək" romanı yeni səciyyəli nəsrin təşəkkülündən xəbər verirdi. Lakin onu da demək lazımdır ki, ədəbiyyatımızın bu istiqamətdəki ilk təşəbbüslərinə köhnəlmiş təsəvvürlər mövqeyindən yanaşma halları hələ çox güclü idi və bu, bədii fikrin irəliləyişini ləngidirdi. Normativ tənqid nəinki ədəbiyyatın təkamülünün səbəblərini açmır, bədii təcrübədə yeni meyilləri müdafiə etmir, hətta yeni ruhlu əsərlərə əvvəlki şablon ölçülərlə yanaşırdı, bu ölçülərə uyğun gəlməyən əlamətləri yaxına buraxmırdı. Dövrün ən nüfuzlu tənqidçiləri İ.Hüseynovu həyatı təhrifdə, "ictimai mövqeyi və məqsədi aydın" olmamaqda ittiham etdi, "Yanar ürək" romanı "həyatı birtərəfli, səthi, məhdud təsvir edən, yanlış ümumiləşdirmələrə əsaslanan" əsər kimi qiymətləndirilmişdir.

Lakin bütün bu tənqidlər İsa Hüseynovu öz yolundan döndərə bilmədi, o axtarışlarını davam etdirdi, bir-birinin ardınca "Doğma və yad adamlar", "Teleqram", "Tütək səsi", "Kollu Koxa", "Saz", "Quru budaq" roman və povestlərini yazdı. Silsilə təşkil edən bu əsərlər ictimai kəsərliliyi, mündəricə dolğunluğu və ən başlıcası isə reallığı, güclü həqiqət hissi ilə oxucularda dərin maraq oyatdı, müəllifə geniş şöhrət qazandırdı. Yazıçı müasir həyatın həssas və ardıcıl tədqiqatçısı kimi tanındı.

İsa Hüseynovun əsərləri insana, onun şəxsi ləyaqətinə, güzəranına və taleyinə çox həssas və humanist münasibət təlqin etməsi ilə, şərə kəskin nifrət oyatması ilə seçilir. Bu nəsrdə şəxsiyyətin estetik traktovkası çox əhəmiyyətlidir və bunsuz həmin nəsrin humanist konsepsiyasını, bədii idealını dərk etmək olmaz. Ətraf aləmdən təcrid edilmiş, ictimai həyata biganə, öz qınına çəkilən insanlar, meşşan əmin-amanlığında uyuyan məhdud düşüncəlilər və xudbinlər haqqında danışdığımız yaradıcılığın ruhuna və amalına yad və müxalif olan adamlardır. Yazıçını ilk növbədə ictimai maraq, fəallıq hissi güclü olan insanlar cəlb edir, düşündürür. Bu fəallıq xeyir də, ziyan da verə bilər, amma ictimai duyğular zəifləməməlidir. Sosial problemlər və konfliktlər haqqında danışdığımız nəsrin başlıca bədii idrak obyekti kimi mənalanır.

İsa Hüseynovun yaradıcılığında şəxsiyyət məhz zaman, xalq, cəmiyyət müstəvisində alınır və mənalanır, onun fərdi xüsusiyyətləri, şəxsi arzu və niyyətləri də mütləq ictimai və vətəndaşlıq siması ilə vəhdətdə göstərilir; insan bu vəhdətin vüsətində, qayğı və cazibəsində ləyaqət və gözəllik kəsb edir, yaxud yenə də həmin vəhdət zirvəsindən eybəcər göründükdə tənqid və ifşa olunur. Yazıçının yığcam əsərlərində epik siqlət bədii ümumiləşdirmələrin sıxışdırılmış enerjisində, təsvirlərin, təhkiyənin "havasında" duyulur, burada düşüncə tərzinə dərindən sirayət edən, üslubu müəyyənləşdirən

psixologizm, arabir eşidilən lirik notlar həyatın dolğun, dialektik şərhinə xidmət edir.

Yazıçının əsərlərində qabarıq canlandırılan problem və ziddiyyətlər xalq həyatının, cəmiyyətin öz yüksəlişində doğurduğu problem və ziddiyyətlərdir. Bütün bunlar müəllifin yaxşı tanıdığı və ayrı-ayrı əsərlərində bu və ya digər cəhətdən göstərdiyi (həmin əsərlərdəki bağlılıq da buradan irəli gəlir) konkret, müəyyən bir mühitin timsalında verilmişdir. Yazıçı daxilən tanıdığı bu mühiti, ondakı ictimai-mənəvi prosesləri həssaslıqla qələmə alarkən nəticə və ümumiləşdirmələrində, izah və istinadlarında həmişə ölkəni, xalqı və dövrü nəzərdə tutduğu kimi, bu miqyasların səciyyəvi əlamətlərini də həmin mühitin konkret reallığında izləyir. Şübhəsiz ki, məhz həmin qovuşma keyfiyyətinə görə, İ.Hüseynovun əsərləri həm də ictimai-bədii fikri düşündürə və müasirliyin bədii tarixinin layiqli təzahürlərindən birinə çevrilə bilmişdir.

İsa Hüseynovun roman və povestlərində, hekayələrində şəxsiyyətlə ətraf mühitin mürəkkəb qarşılıqlı əlaqəsinə dair verilən səciyyələrin dolğunluğu və dəqiqliyi ətrafında mübahisə etmək olar və bəzən belə mübahisəyə ehtiyac da duyulur (müəllifin çoxları kimi məlum, hazır həqiqətlər çərçivəsində dolaşmaması, mühakimələrinin özünəməxsusluğu və öz həyat təcrübəsinə əsaslanmağa çalışması belə bir fikir mübadiləsini mümkün edir və fəal surətdə buna çağırır), ancaq həmin səciyyənin mütləq mövcud olduğunu görməmək olmur. Elə bu məziyyət sayəsində də yazıçının əsərlərində ictimai və milli boyalar həmişə nəzərə çarpır. Özü də çox əhəmiyyətlidir ki, ictimai və milli başlanğıc bədii düşüncənin müəyyənliyi, daxili səciyyəsi kimi nəzərə çarpır, odur ki, təsvirin mahiyyətinə, psixoloji-emosional boyalara, mətləbin mənalandırılmasına keçir. Bu məqsədlə yazıçı elə şəxsiyyətlərə müraciət edir ki, onları geniş çərçivədə ümumiləşdirə (həm pozitiv, həm də neqativ planda) bilsin, onların psixologiyasında, əməllərində, davranışında mənsub olduqları el və torpaq bariz görünsün, onlar xalqın mürəkkəb və çoxcəhətli xarakterini, həyat tərzini bu və ya başqa cəhətdən ifadə edə bilsinlər. Buna görədir ki, müəllifin ancaq müsbət qəhrəmanları deyil, bu qəhrəmanların rastlaşdıqları və şərin, eybəcərliyin təzahürü kimi rədd etdikləri mənfi qüvvələr də mürəkkəbliyi və həyatiliyi ilə seçilir, mühüm, səciyyəvi kəsirləri özlərində cəmləşdirirlər.

"Saz" povestində iki adicə qoca deyil, iki el ağsaqqalı, böyük həyat yolu keçmiş iki qüvvətli şəxsiyyət qarşılaşdırılır və bunun sayəsində konfliktin kəskinliyi və dərinliyi, ictimai-milli səslənmə qüvvəsi artır. Bu ümumi xarakteristika daxilində müəllif aralarında gərgin mənəvi münaqişə yaranacaq dərəcədə fərqli surətlər təqdim edir. Əsərin qayəsi bu iki surətin müqayisəli səciyyələndirilməsi ilə ifadə edildiyindən, yazıçının qələmi üçün xarakterik olan məziyyət – təhlili keyfiyyət, təsvirdə, təfsilatda şərhin güclü

əlamət kimi iştirakı, psixoloji araşdırma məharəti "Saz" povestində də qabarıqdır.

Yazıçı qəhrəmanlarına yüksək mənəvi meyarlarla yanaşır; obrazların xalqa, cəmiyyət həyatına münasibəti həmin yanaşmanın özülünü təşkil edir. Qılınc Qurbanın faciəsi, dramatik ziddiyyəti də elə bununla müəyyən olunur. El qayğısı çəkmək istəyən bu adamın fəaliyyəti əslində həmin keyfiyyətin antipodu – camaata inamsızlıq, hamıdan, hər şeydən şübhələnmək üzərində qurulmuşdur. Vahimə, qorxu atmosferini mühafizə etmək, iman, şüur hesabına deyil, hədə-zorba, qılınc kəsəri sayəsində sakitlik yaratmaq – kənd soveti sədrinin xasiyyətinə, şəxsi ehtiraslarına uyğun gələn "rəhbərlik" üsullarındandır. Qurban kişidə böyüklük xülyası yaranır, "ədalət mücəssəməsi", qüsursuz, əvəzsiz olması barədə ağızlarda dolaşan mifə inanır, buradan da adamlara yuxarıdan baxmaq kimi təkəbbürlü, həqarətli münasibət doğur. Hamının əvəzində bir adam düşünəndə, bir adam hökm vermək, qərar çıxarmaq haqqını qəsb edəndə qılınc qurbanlara meydan açılır.

Povestdə insanlara inam və inamsızlıq ətrafında Qılınc Qurbanla İsfəndiyar kişi arasında gərgin psixoloji mübarizə gedir, lakin həmin mübarizə sırf mücərrəd mənəvi kolliziyaya çevrilmir, öz sosial-milli reallığında, eyni zamanda cəmiyyətin ideoloji ab-havası ilə şərtlənməsində verilir, odur ki, eyni zamanda ictimai problem kimi dərk edilir və ümumiləşir.

İnsana diqqət və ehtiram İsfəndiyar kişinin təbiətindədir, bu humanist duyğu onun dünyagörüşünün, həyati qənaətlərinin mahiyyəti ilə bağlıdır. İsfəndiyar kişi üçün insanın ləyaqəti və dəyərini müəyyən edən əsas bir meyar var – başqalarının qayğısına qalmaq, camaatın təəssübünü təmənnasız çəkmək, müharibə dövrünün artan ehtiyacları şəraitində həmin meyar İsfəndiyar kişinin nəzərində xüsusi əhəmiyyət kəsb edir. Əslində o, ümumiyyətlə qayğı barədə düşünmür, ümumi kədəri və sevinci adamlarla bölüşür, xeyirxahlığı ilə onların harayına çatır.

"Xalqa xidmət" məsələsini yazıçı konkret şəkildə, konkret insana münasibətdə ifadə edir. Bu baxımdan əsərdə feldşer obrazının şərhi çox əhəmiyyətlidir. Əgər insanın dəyərliliyini onun zahiri canfəşanlığı ilə ölçən Qılınc Qurbana belə meyillərdən tamamilə uzaq olan feldşer "çox yerəbaxan", "şübhəli, hiyləgər" adam təsiri bağışlayırsa, İsfəndiyar kişi, əksinə, onun ömrünün camaata qayğıdan ibarət olan məğzini görə bilir, feldşeri "elinə, obasına can yandıran, çalışqan, başıaşağı" insan kimi tanıyır.

Qılınc Qurban və feldşer surətlərini müəllif bilavasitə, süjet xəttində, onların müstəqim qarşılaşmasında müqayisəli planda verməsə də, belə bir müqayisə əsərin bütün ruhunda, bütün mətnaltı mənasında duyulur. El qayğıkeşliyinin, camaata qayğının bir-birinə əks mənzərəsi oxucunu düşündürməyə bilmir. Şöhrəti dillərdə dolaşan, yüksək mənsəb və vəzifə ilə rəsmiləşən birinci qayğının mahiyyətində gizli bir təkəbbürlülük, ədalılıq vardır. Həqiqi

fədakarlığa çevrilən ikinci qayğı isə gözə görünmür, daxili, mənəvi borc kimi sakitcə və nümayişsiz icra edilir. Müəllif göstərir ki, ən çətin şəraitdə də mərdliyini və insafını, təmkinini itirməyən İsfəndiyar kişilərdir, xalqın mənəvi gücü, insaniliyidir – yanlış və zərərli meyillərin, ədalətsizliyin, eybəcər təşəxxüsün və ədalı böyüklük iddiasının, cüzi də olsa, qarşısına çəpər çəkən, həyatda müvazinəti saxlayan, səmimiyyəti, ünsiyyətin hərarətini, qarşılıqlı hörmət və ehtiramı mühafizə edən, həyat, güzəran haqqında, cəmiyyətdə davranış normaları və mənəvi məsuliyyət, xeyirxahlıq barədə elin təsəvvürünün, əsrlər boyu sınaqdan çıxmış təcrübəsinin mahiyyətini yaşadan, odur ki, İsfəndiyar kişi şəri, yamanı təkcə pisləmir, lazım gəldikdə müqavimət göstərir, cəmiyyətdə adi hal almış haqsızlığın, insafsızlığın qarşısını almağa çalışır. Ondakı xəlqi ruh, el təbiəti və mühakiməsi bu qətiyyəti tələb edir.

İ.Hüseynovun əsərləri dövrün sosial-mənəvi kolliziyalarını özünə hopdura bilir, bədii fikir həyatın səciyyəvi cəhətlərini, dövrün sosial-əxlaqi mənzərəsini şərh etməyə doğru yönəlir və əsərlərin mündəricə dolğunluğu, zamanın ruhunu ifadə etməsi də bununla şərtlənir. Yazıçının əsərlərinin dil-üslub özünəməxsusluğu – insani meyillərin, ehtirasların çarpışmasından doğan güclü dramatizm, psixoloji şərh, təhkiyədəki dinamizm, süjet gərginliyi bədii qayənin qabarıq və kəskin təcəssümünə xidmət edir. "Yanar ürək", "Saz", "Kollu Koxa", "Şəppəli" əsərlərindəki müasir dövrə dərin sosial-psixoloji nüfuz nəsrin həyatla bağlanmasında, humanist mahiyyətinin qüvvətlənməsində, ümumiyyətlə, ideya-estetik təkamülündə mühüm rol oynamışdır.

Yetmişinci illərdə İsa Hüseynov yaradıcılıq axtarışlarını genişləndirdi, tarixi keçmişimizə üz tutdu. "Məhşər" romanı bizi orta əsrlər mühitinə çəkib apardı, lakin bu, müəllifin qələmində alışdığımız müasirlik ruhunu zəiflətmədi. Hazırkı dövrlə üzvi bağlılıq, ideya səsləşməsi yazıçının tarixi mövzuda qələmə aldığı ssenarilərin də səciyyəvi məziyyəti kimi mənalandı. Həmin ssenarilər əsasında "26-lar", "Ulduzlar sönmür", "Nəsimi", "Nizami" filmləri çəkilmişdir.

Əslində, İsa Hüseynovun yaradıcılığının ikinci mərhələsi "Məhşər" romanının yazılması ilə başlayır. Bu isə XX əsrin 60-cı illərinin sonuna təsadüf edir. Düzdür, "Məhşər" romanı ilk dəfə 1978-ci ildə "Gənclik" nəşriyyatı tərəfindən çap edilsə də, bunun əsası 1971-ci ildə Heydər Əliyev tərəfindən "Nəsimi" filminin ssenarisinin yazılması sifarişi ilə qoyulmuşdur.

"Məhşər" romanında İsa Hüseynovun tarixi nəsr sahəsindəki axtarışları forma-janr əlamətlərindən tutmuş mündəricə tarixə yeni baxış məsələlərinəcən geniş sahələri əhatə edir. İ.Hüseynovun əvvəlki əsərləri üçün səciyyəvi olan məkan lokallığını və buradan irəli gələn güclü kompozisiya təmərküzləşməsini yeni əsərdə təsvir obyektinin vüsətliliyi, süjet şaxəliliyi, konflikt çoxplanlılığı əvəz etmişdir. Əsərdə müəllif geniş bədii idrak

miqyasına çıxmağa çalışmışdır – müraciət etdiyi konkret tarixi materialı bütünlükdə bəşəriyyətin mənəvi təkamülü baxımından işıqlandırmağa, keçmişin təcrübəsinin hazırda bizim üçün kəsb etdiyi mənanı nəzərimizə çarpdırmağa səy göstərmişdir.

Qələmə aldığı o uzaq keçmişin siyasi-mənəvi mənzərəsindəki kəskin təzad, heç şübhəsiz, İ.Hüseynovun sənətkar qəlbini həyəcana gətirmişdir: doğrudan da, bir tərəfdə insanın ən ali yaradıcı qüvvə – Allah səviyyəsindəki ucalığına bəslənən müdrik Nəimi inamı, sönməz Nəsimi etiqadı, "cəmi yer üzündə həq səltənəti qurmaq" kimi idealların saçdığı şölə, digər tərəfdən ən dəhşətli qırğınlar, Teymurləngin timsalında dünyaya fəlakət gətirən cahangirlik ehtiraslarının tüğyanı… bunlardan təsirlənməmək, sarsılmamaq mümkün deyildi. Qatı zehniyyatla, siyasi irtica ilə, istibdad və cəhalətlə səciyyələnən bir dövrdə Nəimi və Nəsimi şəxsiyyətlərinin qeyri-adi parlaqlığından söhbət açmaq, onların düşüncə və əməllərinin bəşəri vüsətini mənalandırmaq, ictimai-fəlsəfi və mədəni-ədəbi fikrimizin belə nümayəndələrini tanıtmaq – vətənpərvərlik haqqı idi. Lakin bütün bunlarla yanaşı, nəzərə almaq lazımdır ki, "Məhşər" şəxsiyyət haqqında roman deyil, onun bioqrafik janrla da yaxınlığı yoxdur. "Məhşər" – dövr, zaman haqqında romandır. Burada şəxsi talelər yox, ideyaların taleyi mərkəzə çəkilir. Lakin ideya da müəllifi bəşəri məğzi ilə maraqlandırır. Odur ki, hürufilik hərəkatı əsərdə bəşəriyyətin azadlıq istəyinin, ədalətli cəmiyyət haqqında arzularının təzahürü baxımından ümumiləşir.

Hadisələrin iti, tələtümlü axarından başqa, yəqin bir də həmin xüsusiyyətinə görə əsərdə süst, durğun təsvirlər nəzərimizə çarpmır. Gah təfərrüat yay kimi yığılır, müəllif diqqəti kənar heç nəyə yayındırmadan bizi mətləbin məğzinə doğru yönəldir, gah da süjet tarıma çəkilir, müəyyən mərkəzi səhnələr daxili tutumluluğu ilə gərilərək canlandırılır. Hürufi görüşlərinin fəlsəfi, bəşəri səviyyəsinin şərhi, hürufi hərəkatının aqibətinin izlənilməsi – süjeti hərəkətə gətirən və istiqamətləndirən başlıca amilə çevrilir.

Romanda hürufilik dövrün fəlsəfi-mənəvi düşüncələrinə hakim kəsilən etiqad kimi səciyyələndirilir, Teymurləng istilalarına və qəddarlığına qarşı çevrilmiş nüfuzlu ideoloji cərəyan, eyni zamanda güclü siyasi hərəkat kimi mənalandırılır. Romanın qayəsi hürufilik təliminin "cəmi bəşəri kamilləşdirmək amalının", hürufilik hərəkatının "cəmi yer üzündə həq səltənəti" ucaltmaq məramının bədii-tarixi əsaslandırılmasıdır, eyni zamanda həmin amalın və məqsədin öz daxili zəifliklərinin və ziddiyyətlərinin aşkara çıxarılmasıdır. Müəllifin təkidlə təlqin etdiyi nəticə belədir ki, hər bir sosial hərəkatı, ideoloji cərəyanı mənəvi yetkinliyə cəhd müşayiət etməlidir: insanların əxlaqını, düşüncəsini yüksəltmədən cəmiyyətdə heç bir köklü dəyişikliyə nail olmaq mümkün deyildir. Mənəvi tərbiyə, insanları məhz ruhən, şüurən yetkinləşdirmək zərurəti unudulduqda, yaxud azacıq da olsa

kölgədə qaldıqda, bu, mütləq öz ciddi təsirini göstərir, idealı hardasa əyir, çirkin ehtiraslara yol açır. Romanda hürufilərin taleyi, məhşər səhnəsi həmin fikrin rəmzi təsdiqi kimi səslənir. Əsərdə hürufi təliminin və hərəkatının başlıca zəifliyi də elə həmin cəhətlə – idealların böyüklüyü müqabilinə ruhi-mənəvi yetkinliyin uyğun gəlməməsi ilə izah olunur. Təsadüfi deyil ki, yazıçı Nəiminin xəlifələri arasında "mayasında kin və ədavət olan ixtilafdan" danışır, bütünlükdə bəşəriyyəti mənən kamilləşdirmək iddiasına düşən bu ali ruh təəssübkeşləri öz qüsurları qarşısında aciz qalırlar, öz xarakterlərindəki müxtəlif mərəzləri dəf edə bilmirlər. Yaxud, Nəimidə də, Nəsimidə də çox zəngin mənəvi aləm, idrakın daima gərgin, nəhayətsiz axtarışları zamanında hürufilər daha çox fiziki qüvvə timsalı, cismani əzəmət mücəssəməsi kimi qavranırlar. Doğrudur, yazıçı müridlərin çəkdikləri əzab-əziyyətlərdən yanğı ilə danışır, Fəzl davamçılarının fədakarlığını rəğbətlə qələmə alır, ancaq bununla belə, onlarda böyük amallar yolunda bəlkə də ən zəruri keyfiyyəti – yüksək mənəvi qüdrəti hiss etmir. Müridlər kütləsi bütsüz keçinə bilmir, bütə sitayiş olan yerdə isə təlim də ehkamlaşır, idrak da kəskin çərçivəyə salınır. Ali mənəviyyat şöləsi ilə nurlanmayan kütlə kor ehtirasların, saxta məqsədlərin, məhdud həqiqətlərin əsiri olanda isə daha heybətli olur, daha müdhiş fəsadlar törədir. Bu zaman onlar özləri də fanatizmlərinin qurbanı olurlar. Yalançı təsvirlər nəticəsində müdriklərin dəhşətli kütləvi qətl səhnəsi belə təəssürat doğurur. Roman ən yaxın tarixi keçmişimizdə yaşadığımız acı həqiqətlərlə, müasir sosial təcrübəmizlə səsləşən motivlərlə zəngindir.

İsa Hüseynov bədii idrakın üfüqlərini genişləndirmək sahəsindəki axtarışlarını səksəninci illərdə qələmə aldığı növbəti əsərində – "İdeal" romanında da davam etdirmişdir. Akademik İsa Həbibbəyli "İsa Hüseynovdan İsa Muğannaya: Axırıncı əlyazma və bütöv dünya" məqaləsində qeyd edir ki, "İsa Hüseynovun yaradıcılığı Azərbaycan bədii nəsrinin böyük ustadı Cəlil Məmmədquluzadə ilə altmışıncı illər ədəbi nəslinin arasında körpü funksiyasını daşıyır. İsa Hüseynovun əsərləri Azərbaycan altmışıncılarının möhtəşəm bir proloqudur. Sanki İsa Hüseynov doğma və yad adamlar haqqındakı qənaətlərini, yazıçı təəssüratlarını Azərbaycan altmışıncılarına təhvil verib, özü tamam yeni bir sahə ilə, "İdeal" romanı ilə və onun davamı olan yeni dünyanı təsvir etməklə məşğul olmağa keçmişdir. "İdeal" yalnız İsa Hüseynovun yaradıcılığında deyil, geniş mənada Azərbaycan ədəbiyyatında özünəməxsus bir istiqamətdir".[1]

"İdeal" qlobal mahiyyətli, həyatı vüsətlə canlandıran əsər kimi düşünülmüşdür. Hərçənd bu əsərdə tarixi plan da qüvvətlidir, amma, hər halda, bədii inikas bilavasitə müasir gerçəkliyə istinad edir. Yazıçı yaşadığı

[1] İsa Həbibbəyli. İsa Hüseynovdan İsa Muğannaya: Axırıncı əlyazma və bütöv dünya. – Bakı: Hədəf nəşrləri, 2014, s.3-5

dövrə, şahidi olduğu hadisələrə əhatəli nəzər salmağa nail olmuşdu və bu da ədəbiyyatımızın təcrübəsi üçün çox dəyərli idi. Əgər ədəbiyyatımız tarixi keçmişə üz tutanda müəyyən hallarda bədii idrak genişliyi nümayiş etdirirdisə, hazırkı zəmanədən söz açanda vüsətli üfüqlərə çıxmağa, müasir dövrə tarixi baxışı dərinləşdirməyə aşkar çətinlik çəkirdi. Burası da diqqətəlayiqdir ki, "İdeal"da əhatəlilik məkan genişliyindən, süjetin şaxəliliyindən çox hadisələrində hiss olunur. Yazıçı həyat hadisələrini bütün cəhətləri ilə qavramağa səy göstərir. Hər dəfə əsas münaqişənin yeni bir çaları, yeni təfsilatçıları üzə çıxır və buna uyğun olaraq ona nəzər salınır. Süjet də beləcə, mətləbin müxtəlif nöqteyi-nəzərlərdən şərhi kimi mənalanır, həqiqət axtarışları burada təhkiyənin aparıcı amilinə çevrilir və oxucu tədricən əsl həqiqətə doğru yaxınlaşır. Digər tərəfdən müasir dünya nəsrində də ümumbəşəri problemlər qaldıran vüsətli romanlar getdikcə daha çox yaranır ki, "İdeal"ın vüsətliliyi, forma-janr axtarışları müasir bədii fikrin aparıcı meyilləri ilə qovuşuqdur.

"İdeal" əsəri ilk dəfə "Yazıçı" nəşriyyatı tərəfindən 1986-cı ildə nəşr edilmişdir. Ona qədər isə bu roman "Yanar ürək" adı ilə ilk dəfə 1956-cı ildə yazılmış, 1965 və 1979-cu illərdə çap edilmişdir.

İsa Hüseynov "Yanar ürək" romanında qələmə aldığı hadisələrə "İdeal" əsərində yenidən qayıdır və bunları tamamilə başqa mövqedən mənalandırır. Təkcə onu demək kifayətdir ki, "Yanar ürək"də ən çox tənqid olunan Sultan Əmirli təzə əsərdə ən işıqlı surət səviyyəsinə yüksəlmişdir. Əvvəlki əsərdə Sultan Əmirli mürəkkəb xarakter kimi qavranılırdı, indi isə bu mürəkkəblik hədsiz dramatizmlə aşılanmış, faciəvi siqlət kəsb etmişdir. Sosial dramatizm, qəhrəmanının dərin mənəvi sarsıntılarını, idraki gərginliyini şərtləndirir, xarakterinin qabarıq təcəssümünə imkan yaradır.

Romanda partiya təhsilini başa vuran Səməd Əmirli təyinatla rayona qayıdır. O, hələ yolda ikən əmisinin – rayon partiya komitəsinin birinci katibi Sultan Əmirlinin evləndiyini eşidir və təbrik üçün əmisigilə gələndə burada qəfildən öz sevgilisi Gülgəzlə rastlaşır. Məlum olur ki, əmisi Gülgəzlə evlənib. Təbiidir ki, Səməd dərin psixoloji sarsıntılar keçirir. Bu xətlə yanaşı, "avariya" hadisəsi də münaqişəni kəskinləşdirən amilə çevrilir. Bir neçə il əvvəl xəbər verilmişdi ki, Səmədin atası guya qəza nəticəsində həlak olub. Səməd bu əhvalatdan şübhəli qalır, ancaq onu təəccübləndirən budur ki, əmisi də qəza ehtimalı ilə razılaşır. Bütün bunlardan əlavə, əsərin qəhrəmanı görür ki, rayonda dələduz, nalayiq adamlar baş qaldırıblar, açıq-aşkar talanla məşğuldurlar, Sultan Əmirli isə onların əməllərinə göz yumur, hətta onlarla durub-oturur.

Səməd əmisini özü üçün ideal sanmışdı, onun himayəsində özü də saf böyümüşdü, indi isə əmisi haqda ağlasığmaz söz-söhbət eşidir. Burada İsa Hüseynovun yaradıcılığı üçün səciyyəvi olan bir cəhət aydın müşahidə

olunur: ictimai fəallıq hissi güclü olan insanlar, sosial-mənəvi problemlər "İdeal" romanının da əsas surətləri və başlıca bədii idrak obyekti kimi mənalanır. Sultan Əmirlinin, Səməd Əmirlinin, Qılınc Qurbanın, eləcə də çax-çux Xalıqın, Əlləzoğlunun qabarıq boyalarla canlandırılmış xarakterləri həmin ideya-estetik cəhətin yeni və uğurlu bəhrələri kimi mənalanır. Əsər boyu Səməd əmisi haqqında həqiqəti öyrənmək istəyir. Əmisi isə ictimai həyatın mərkəzindədir. Hər kəs öz təsəvvüründən və mövqeyindən çıxış edərək Sultan Əmirli haqqında fikir söyləyir. Özü də bu fikirlər hər dəfə əsaslı, dəlilli-sübutlu səslənir, həmin təfsilatlı mülahizələr, eyni zamanda polemik səciyyə daşıyır.

Səməd təkcə əmisinin hərəkətlərini yox, eyni zamanda cəmiyyətdə baş verən mürəkkəb hadisələri anlamağa çalışır. Romanda hadisələr müharibədən sonrakı illərdə cərəyan edir və həmin illərdə xalqımız özünün ən mürəkkəb dövrlərindən birini yaşayırdı. İ.Hüseynov qələminə xas olan həqiqət hissi və sosial proseslərin təhlillərinə meyil sayəsində sovet cəmiyyətindəki ciddi çətinliklər, əyintilər sərtliyi ilə göstərilir.

"İdeal"da bədii idrakın məğzinə tarixin işığı da çökür, müasir dövrün hadisələrini şərh edərkən yazıçı keçmişə də üz tutur. Ancaq roman bizə tarixi cavabları ilə yox, narahat tarixi sualları ilə qiymətli görünür. Biz kimik? Kökümüz hara bağlıdır? Ən qədim sivilizasiyaların torpağımızla nə dərəcə əlaqəsi var? Yazıçı fikir mübadiləsi üçün, mübahisələr üçün geniş meydan açan mülahizələr irəli sürür. Vətəndaşlıq da, milli şüur da milli özünüidrakdan, özünə bələdlikdən başlayır – əsər bu başlıca həqiqətin ehtiraslı tələqini kimi mənalanır. Buna görə də yazıçı hazırda cəmiyyətdə baş verən hadisələrin qavranılmasının milli, ictimai və tarixi hüdudlarını genişləndirir, dünənlə bu gün arasında məntiqi körpü salır, faktların daxili bağlılığını açmağa çalışır.

Eyni xüsusiyyətlər İ.Hüseynovun nəşr olunmuş sonuncu əsərində – "Qəbiristan" romanında da müşahidə olunur. Yazıçı burada əvvəlki əsərlərində qaldırdığı problemlər haqqında söhbətini, bir növ, davam etdirir. Həmin problemlər cəmiyyətin inkişafının yeni mərhələsində – müstəqilliyin ilk illərində necə meydana çıxır, Əmirlilər nəslinin, digər qəhrəmanların taleyində, düşüncələrində hansı dəyişikliklər baş verir – müəllif bu məsələlərə aydınlıq gətirir. Yenə də eyni ilə süjetin gərgin davamından doğan dramatizmlə dolu təhkiyə, baş verən hadisələrə əhatəli baxış və onların qeyri-standart şərhinə cəhd, surətlərin milli-ictimai hisslərinin ön plana çəkilməsi – "Qəbiristan" romanında da bədii düşüncənin səciyyəvi əlamətləri kimi mənalanır.

Mifoloji və dini fikri geniş şəkildə zəbt etmiş ölümdən sonrakı həyat bütün bəşər övladı kimi, İsa Muğannanı da düşündürmüş, yaradıcılığının

ikinci dönəmini demək olar ki, bu mövzuya həsr etmişdir.* Bu baxımdan "Cəhənnəm" romanı xüsusi əhəmiyyət daşıyır.

İsa Muğannanın "Cəhənnəm" romanı müstəqillik dövrü ədəbiyyatımızın dəyərli əsərlərindən olduğuna görə ədəbiyyatşünaslığımız üçün də maraqlıdır. Şərq və Qərb mifologiyasına, dini qaynaq və təlimlərə bələd olan müəllifin təsvir etdiyi cəhənnəmdə mifoloji qatlar və dinlərin fəlsəfəsi özünəməxsus bir yozumla təqdim edilmişdir. Ədəbiyyatımızda cəhənnəm və cənnət motivləri "Kitabi-Dədə Qorqud" dastanında, Nəsimi, Məhəmməd Füzuli, Mirzə Fətəli Axundzadə və Əbdürrəhim bəy Haqverdiyevin əsərlərində işlənsə də, "Cəhənnəm" romanında müasir romanın tələbləri və sufi fəlsəfəsinin aspektləri baxımından maraqlı konsepsiya qoyulmuşdur. Bu konsepsiya işıq gəmiləri ilə Ağa-Aya gələn Səməd Əmirlinin, Sərvinazın, Musanın, Qumralın saflaşmış ruhları Bünyad bəyi qarşılayır, ona cəhənnəm əzabını cənnət kimi görülən yerdə verirlər. Romandan belə məlum olur ki, yol ayrıcından alınaraq Aya aparılan cinayətkar (Maraqlıdır ki, cinayətkarın günahları milli zəmində, siyasi məqsədlərlə törətdiyi cinayətlərdir) saflaşdırılma mərhələsinə təqdim edilir. Amma Bünyadın günahları o qədər böyükdür ki, sorğu-sual mərhələsində ona sözün gücü ilə cəhənnəm göstərilir və saflaşmasının mümkün olmadığı məlum olur. Və beləcə, Bünyad bəyin ruhu tanrının dərgahına getmir, o, yerdə, işığa çıxmadan çürüyür.

"İdeal" romanından sonra İsa Muğannanın mövzusunun artıq yerdən yox, göylə yerin vəhdətindən alındığını görmək o qədər çətin deyil. Yazıçının marağı üçün ən önəmli priyom, ilk növbədə, oxucunu öz aurasına salmaqdır. Bunu da "Cəhənnəm" romanında layiqincə bacarıb. Əsərin ilk səhifəsində "Cəhənnəm deyilən, doğrudan da, varmı, ya yoxdur? Ömrü onsuz da işgəncələr içində keçən insanı bir daha, özü də daima əzaba salmaq hansı vicdansız yaradıcıya lazım olub?" kimi cümlə ilə başlamaq intellektual oxucunun diqqətini cəlb etmək üçün ən yaxşı motivasiyadır. Bunu oxuyan və bəşəriyyətin halına bələd olan oxucu əsəri acgözlüklə qarşılayır.

Əsərin ilk səhifəsində yaradılan bədii ziddiyyət oxucuda çaşqınlıq yaradır. Çünki verilmiş iki cümləlik fikirdən sonra əminliklə "Var cəhənnəm", – deyir. Bu ifadə o qədər inandırıcı səslənir ki, cəhənnəmin varlığına şübhə qalmır. Üstəlik müəllif ənənəsinə sadiq qalaraq burda da öz dilindən danışır və hadisələri şahidlik yolu ilə izah edir.

Bu dünyadan sonra başqa bir dünyanın olduğunu mifik düşüncə də, bütün dinlər də söyləməkdədir.

* İsa Hüseynovun Müstəqillik dövrü yaradıcılığını filologiya üzrə fəlsəfə doktoru, dosent Şəmil Sadıq yazmışdır.

“İsa Muğannaya görə, dünyanı dəyişdirən təhrif sözlərdir. Qoca Şərqin böyük müdriki Konfutsi deyirdi ki, sözlər (adlar) mənasını dəyişəndə insan azadlığını itirir”.[1]

Bəli, Muğannaya görə, dünyanı dəyişdirən təhriflərdir və o, bir ömür bu təhrif sözləri yaratdığı yeni bir düşüncə sisteminin dili ilə izah etməyə və ya çevirməyə çalışıb. Lakin “Cəhənnəm” əsərində müəllif sözlərin yox, uzun illərdən bəri insan şüuruna yeridilmiş “Cəhənnəm”in mahiyyətinin təhrifini sanki oxucusuna həzm elətdirir. Əsərin qəhrəmanı, “çekist”, satqın, iblisin qulluqçusu Bünyad bəyə verilən cəhənnəm əzabı, onun yandırılaraq saflaşdırılması oxucunun nəfəsini kəsir, o həyəcanı qəhrəmanla birgə yaşayır. Əsər boyunca oxucu İsa Muğannanın cəhənnəm anlayışı və mahiyyəti ilə tanış olur. Müəllifə görə, Quranda haqqında danışılan, təfsirlərdə izahı verilməyə çalışılan cəhənnəm odu heç də təqdim edildiyi kimi deyil. Bizim başa düşdüyümüz kimi tonqal qalayıb insanları milyon dərəcə selsi istilik əldə edib odda yandırmaq sadəcə təhrifdir. Çünki ideal heç bir zaman materiya ola bilməz. İnsan sözdür, insan işıqdır, insan vicdandır. Onu yandırsa, yandırsa vicdan əzabı yandırar.

“Əksinə, bəy! OdÜn – həqiqət səsi cəhənnəmdə cənnət yaradır. Qəbahətini eşitdikcə, öz hərəkətlərini qarşındaca gördükcə, yavaş-yavaş yüngüllük hiss edəcəksən. Nədən olur o yüngüllük? Sadəcə, qatı qanın yuyulur, canında qan dövriyyəsi normallaşır, hüceyrələri sağlamlaşdırır”.[2]

Bu sözləri 113 yaşlı milli mənliyini satmış, “çekist”lərə xidmət etmiş, bu xidməti yolunda öz sevgililərini belə zorlamaqdan, əzab verməkdən, öz casusuna çevirməkdən yayınmayan, Cavidin “İblis” əsərindəki iblis kimi dondan-dona girən Bünyad bəyə onun öz əlləri ilə boğub öldürdüyü keçmiş arvadı Sərvinaz deyir. Bu səhnə İblisin tapşırığı ilə Arifin öz arvadı Xavəri öldürməsi ilə eynilik təşkil edir.

Müəllifə görə, cəhənnəm və ya cənnət olduğu tam məlum olmayan bu məkanda insanlar yanaraq saflaşır və yenidən yerə göndərilir. Bünyad bəyin elədikləri gözünün qarşısına gətirildikcə onun vicdanı sızlayırdı. “- İlahi, özün kömək ol mənə! Cənnətdi, cəhənnəmdi, nə möcüzədi bu?! Deyə hayqıran, vicdan əzabında yanıb qovrulan Bünyad bəyə Sərvinaz: - “Biləcəksən, Bəy. Səbirlə, dəyanətlə dinlə OdÜnü – həqiqət səsini! Biz odda yanayana gözəlləşmişik burda. Sən də yanmalısan burda, Bəy!” – deyir.

Akademik İsa Həbibbəyli İsa Muğannanın təqdim etdiyi konsepsiyaya obyektiv mövqedən baxaraq müəllifin təhrif deyə təqdim etdiyi dünyanın sadəcə İsa Muğannaya aid olduğunu qeyd edir: “İdeal” romanı çap olunduqdan sonrakı şəxsi həyatı və yaradıcılığı göstərdi ki, İsa Hüseynov

[1] Rüstəm Kamal. İsa Muğanna: Ün və İşıq məqamı. 525.az.14.10.13
[2] İsa Muğanna. Cəhənnəm. – Bakı: Hədəf nəşrləri, 2013, s.5

özünün bu əsərlərində inandığı və sanki hətta yaşadığı dünyanı təqdim etmişdir. "İdeal"da və sonrakı əsərlərində İsa Hüseynovun inanaraq formalaşdırdığı Saf Ağ dünyası ədəbiyyat üçün utopiya kimi görünsə də, İsa Hüseynov üçün gerçəkliyin ifadəsidir. Əgər bu fəlsəfə "İdeal"la bitmiş olsaydı, onda Saf Ağ yolu İsa Hüseynovun yaradıcılığında keçici bir ovqat, yaxud keçid dövrü romanı kimi qəbul etmək olardı. Lakin yazıçının bundan sonra yazdığı "Qəbiristan", "Cəhənnəm" "GurÜn", "İsahəq, Müsahəq", "İlan dərəsi" kimi əsərlərində "İdeal"da təqdim olunan dünyanın da sistemləşdirdiyinin, dərinləşdirildiyinin şahidi olduqdan sonra bütün bunlara İsa Muğanna dünyası kimi baxmaqdan başqa yol qalmır.[1]

"Cəhənnəm" romanı fantastika janrının da ədəbiyyatımız üçün maraqlı nümunələrindəndir. Romanın növləri baxımından yanaşsaq, tarixi-fəlsəfi roman adını da vermək mümkündür. Çünki əsərdə Azərbaycanın cənublu, şimallı tarixi taleyi üzərində qurulan süjet, daha çox müəllifin təxəyyülünün sayəsində genişlənib. Müəllifin təqdim etdiyi faktlar, ümumiləşdirilmiş Bünyad, Səməd, Musa, xalq obrazı Muğannalar və onların tarixi keçmişi həqiqətləri əsərin tarixi roman janrına yaxınlığını göstərir. Lakin Səməd Əmirlinin, Qumralın, Sərvinazın, Musanın bəşər övladı və Tanrı kultuna özünəməxsus münasibəti, Cəhənnəm və Cənnət kimi fəlsəfi bir ideyanın problematikası əsərə fəlsəfi bir roman ab-havası gətirir.

Əsərdə insanın işıqdan ibarət olduğu, istənilən zaman yaddaşının götürülüb və ya sonra yerinə qoyulması, zaman və məkan anlayışlarının insan üçün əlçatan olduğunu, öz əməllərinin o dünyada bir lent kimi ona göstərilməsi, Ay planeti haqqındakı mülahizələr, hadisələrin üç zaman kəsiyində oxucunu yorğa yerişlərlə gəzdirməsi, fantastikanın mahiyyətinə uyğun olaraq, oxucunu elmi informasiyalarla savadlandırması əsərin fantastik bir janr olduğunu göstərir.

Təsadüfi deyil ki, müəllif əsərin daxili başlıqlarını "Fantastikasız fantastika" və ya "yenə fantastikasiz fantastika" adlandırır. Müəllif "Fantastikasız fantastika" dedikdə yazdıqlarının təxəyyülün məhsulu yox, bir həqiqət olduğunu göstərmək üçün çaba göstərir. Türkiyəli ədəbiyyatşünas Turğay Gülərin fikrincə, olmayanı xəyal etmək çox çətindir, lakin xəyal edilənin gerçəkləşməyəcəyini kim dəqiq söyləyə bilər?[2]

İsa Muğannanın da yaradıcılığındakı fantastik fikirlər elmə söykənir. Burada, əsasən humanitar elmlər olsa da, dəqiq elmlərin isbatlanmış nəzəriyyələrinə söykənən ideyalar da çoxdur. Romanda yetərincə siyasi fikirlər, yozumlar var. Və yazıçı bütün bu yozumlarını öz faktları ilə təhrif köynəyindən çıxartmağa çalışır. Bu siyasilik müəllifin yaradıcılığının ikinci

[1] Arif Tekin. Kuranın Kökeni. – İstanbul: Berfin Yayınları, 2013, s.6
[2] Tuqay Gülər. Mehdix Olasılık Teorisi. – İstanbul: Hayat yayınları 2013, s.5

dövrünün başlanğıcı hesab edilən "İdeal" romanından başlanır. Azərbaycan-türk tarixinin gizlədilməsi, bu tarixi faktların təhrif edilərək yenidən təqdim edilməsi prinsipi demək olar ki, "İdeal" romanında və ondan sonra yazılan bütün əsərlərində özünü göstərir. "İdeal"da Nizami Xəmsəsinin, Firdovsi "Şahnamə"sinin, "Dədə Qorqud", "Koroğlu" dastanlarının, aşıq yaradıcılığının, Quranın əslinin, Nəimi, Nəsimi fəlsəfəsinin təhrif olunaraq türkün öz həqiqi tarixindən uzaqlaşdırılmasını müxtəlif səviyyələrdə açıq və örtülü şəkildə qeyd etmişdir. Sonrakı əsərlərində sanki Muğanna "İdeal" romanında tezislərini verdiyi mətləbləri açmağı, bədii həllini və izahını verməyə çalışmışdır. Çünki "İsa həqq, Musa həqq" əsərində bu adda olan əfsanənin, "Cəhənnəm"də Nizaminin "Yeddi gözəl" əsərindəki "Qarageyimlinin hekayəti"nin, "Gur Ün"də Quranın və ağ şeyxlərin – Nizami Gəncəvinin, "Qırx kisə qızıl"da "Aşıq Qərib" dastanının, "Söz yarası" povestində "Sarı gəlin" əfsanəsinin, "İlan dərəsi və ya Süleyman peyğəmbər" əsərində Süleyman peyğəmbəri olduğu kimi təqdim etməyə çalışmış, təhrifə qarşı öz yozumunu böyük inamla qələmə almışdır. Bütün bunların fövqündə Sovet hakimiyyətinin ideologiyası əsasında baş verdiyini əminliklə söyləyir, Atatürkün, Nəriman Nərimanovun, Stalinin, Mircəfər Bağırovun apardığı siyasətin gizlin tərəflərini aşkarlamağa çalışır. Hətta Leninin belə, seçilmişlərdən olduğunu qeyd edir, Nərimanovla dostluqlarından danışır. Bu gün tarixin sübut etdiyi Lenin və Nərimanovun zəhərlənməsinin SafAğ elminin zəhərlənməsi və məhv edilməsi naminə edildiyi qənaətindədir. Stalinin "çekist"i Bünyad bəyin etirafı bunu ifadə edir: Nəriman Nərimanov Moskvaya aparılanda Zeynalabdin Tağıyev Muğannalardan kompanionu-Məmməd xozeyni kabinetinə çağırıb, qapını açarla bağlayıb deyib: "Nərimanov vəzifəyə yox, ölümə getdi... Nərimanın, sənin Muğannalara mənsub olduğunuz açıla bilər. Nərimanın Leninlə gizlin danışıqları Ulyanovların EvƏrEy OdƏrliyi, Tərikliyi də açıla bilər. Ulu Bağın cəmi Yer üzündə vahid ədalət Səltənətinə dair yazdıqları axtarılır. Hətta, bəlkə, hammızı qırarlar".

Leninin seçilmiş olduğu nə qədər aksiomadırsa, onun OdƏr elminə xidmət etməsi, OdƏrliyi bir o qədər mübahisə doğuran məsələdir. Düzdür, "İdeal" əsərində slavyanların türklükdən ayrılma və uzaqlaşma prosesi olduqca geniş və aydın şəkildə izah edilib. Amma tarixin dərin qatına enə bilməyən oxucu bunu pafos və millətinə aşiqolma kimi qiymətləndirəcəkdir. Elə müəllif ona görə də "Həyatımdan səhifələr" povestində "Yaxın və uzaq keçmişimizdən tarixi hadisələr, bədii süjetlər içində verilmiş SafAğ həqiqətlərinin qavranılmasını asanlaşdırmaq məqsədilə mən "İdeal" romanını yenidən və sonuncu dəfə işlədim. Bu əsərlə tanış olmayan oxucu altılığa daxil edilmiş romanlarda SafAğ elminin təfsilatını dərk edə bilməz. Həmin romanlar – "Məhşər" (Ənşər-mən şər") "Qəbiristan", "GürÜn", "İsahəq,

Musahəq", "Cəhənnəm", burada göstərilən xronologiya əsasında oxunmalıdır ki, lazımınca yaxın və uzaq keçmişimizdən tarixi hadisələr, bədii süjetlər içində verilmiş SafAğ həqiqətlərinin qavranılmasını asanlaşdırmaq məqsədilə fayda versin.

Fikrimizcə, İsa Muğanna SafAğ elminə xidmət edən insan dedikdə bunu sırf genlə bağlamır. Onun düşündüyü və yaratdığı bu elm bəşəriyyətin xilasını qurtaracaq elmdir. "Cəhənnəm" romanında da qeyd edildiyi kimi, dünyanı xilas edəcək qüvvə yalnız "elm və eşq"dir. Bu fəlsəfənin əsasını sufizmin, hürufizmin qoyduğu hamımıza bəllidir. Ulu Bağın SafAğ elminin həqiqətlərini, həqiqətin əslini üzü Atilladan, Makedoniyalı İskəndərdən tutmuş Teymura, Sultan Süleymana, Napoleona, Hitlerə, Leninə, Stalinə qədər çoxları axtarıb. Lakin əldə edilməsi mümkün olmayan bu sirrin qalıqları da zaman-zaman məhv edilib, sıradan çıxarılıbdır. Bu gün elmdə də bir inam var ki, yaradılışın sirri harda var, bir gün üzə çıxacaq. Bunu tapan isə dünyaya hökmranlıq edəcək. Hətta bəzi inanclarda bu sirr hansısa gizlin bir qüvvənin əlindədir və dünyanın idarəçiliyinə də nəzarəti o edir.

Müəllifin əsərdəki zaman arealı çox genişdir. O, bu gün dünyada danışılan dərin dövlətlər, dünyanın gizlin sahibləri, gələcək dünyanın konturlarının necə cızılması məsələlərinə Azərbaycan romançılıq ənənələrdən kənara çıxaraq, qlobal düşünərək yozum verir. Nəzərə alsaq ki, bu gün dünya insanını öz yozumları ilə sehirləmiş yazıçıların əksəriyyəti bu priyomdan istifadə edir. Den Braunun, Ceymis Rollinsin, Tom Knoksun əsərləri mistik yozumlar üzərində qurulur və sirli dünyanın sirlərini açmış kimi təqdim edilir, bəşəri və bəşəriyyəti dərk etmə yolunda daima maraqlı olan insanı cəlb edir. Təəssüflər olsun ki, bu gün dünyanın ən çox danışılan xalqı yevreylər – ƏvƏrEylər haqqında özünəməxsus, bənzərsiz yozumları olan İsa Muğanna əsərləri dünya ədəbiyyatına təqdim edilə bilmir.

"Cəhənnəm" romanının finalı müəllifin dilindən verilmiş: "- Cəhənnəm məkanını tap, ey "ins", o fantastikasız fantastika sənin özündə deyilmi?!" – cümləsi ilə yekunlaşır. Burda Hüseyn Cavidin "İblis" pyesindəki İblisin son monoloqu diqqətimizi çəkməyə bilməz:

"Bən tərk edərim sizləri əlan nəmə lazım?
Heçdən gələrək heçliyə olmaqdayım azim.
İblis nədir?
- Cümlə xəyanətlərə bais…
Ya hər kəsə xain olan insan nədir?
- İblis!.."[1]

[1] Hüseyn Cavid. İblis. Əsərləri / tərtib edəni Turan Cavid. Beş cilddə, III c. – Bakı: Lider nəşriyyat, 2005, s.104

Hər iki müəllifin qənaətinə görə, əgər dünyanı bu qədər iblisləşmiş insan bürümüşsə və onlar dinc dövrdə belə hər kəsin xoşbəxtliyinə mane olub, müharibə dövründə milyonları məhvə məhkum edə bilirlərsə, onda mövhumi İblisə, cəhənnəmə daha ehtiyac yoxdur.

Bünyad bəydən fərqli olaraq Arif içindəki iblislə mübarizəyə qalxdı, amma o, bunun fərqinə varmadı, çünki Arif, İblisi içində yox, göylərdə təsəvvür edirdi. İblisin yaranmasının da günahını Allahda görürdü və son nəticədə öz daxili aləmini təmizləyə, saflaşdıra bilməyən Arif qəlbindəki iblisə uydu.

İsa Muğannanın son kitabı olan "İlan dərəsində" dörd yeni əsəri – "Həyatımdan səhifələr" oçerki, "Qırx kisə qızıl", "Söz yarası" və "İlan dərəsi və ya peyğəmbərin taleyi" povestləri yer almışdır.

Yaranışının tarixi və səbəbləri bilinməyən erməni-türk düşmənçiliyi mövzusunda hələ "Cəhənnəm", "Qəbiristan" romanlarında yazmış yazıçı "Qırx kisə qızıl" və "Söz yarası" povestlərində bu mövzuya yenə toxunmuş, düşmənin fitnəkarlığını bir daha göstərməyə çalışmışdır.

İsa Muğanna "İdeal" romanında qoyduğu bir ideyanı – Xalqların vahid kökü və vahid dili ideyasını "Qırx kisə qızıl" povestində çox anlaşıqlı bir dillə qələmə almışdır. Əsər bir gəncin – Zahidin dilindən nəql olunur. Fəlsəfi fikirlərlə yüklü olan bu tale kitabı əsərin baş qəhrəmanı Zahid və Nəsibənin saf sevgisinin təqdimi ilə gərilmiş fikirləri sanki sığallayır, oxşayır. Amma bu şirin sevgi nəğməsi bir həyat fəlsəfəsini özündə daşıyır.

Əsərdə ermənin dilindən danışılan "Aşıq Qərib" dastanının əsli, sözsüz ki, rəmzi mənadadır. Bütün tarixçilərin gəldiyi bir qənaət var: bütün insanlığın və türkün qədim tarixi bu gün gizli qüvvələr tərəfindən gizlədilir və ya təhrif edilmiş formada bizə təqdim edilir. İsa Muğanna da "Aşıq Qərib" dastanının əsl variantını bu əsərdə təqdim etməklə, tarixi şəxsiyyət olan Məmmədhüseyn Təhmasibi bir obraz kimi təsvir etməklə, hətta Məhəmmədhüseyn Təhmasibi bu dastanın əsl variantını nəşr etdirməməkdə günahlandırmaqla, Ermənistandakı gizli "Matenadaran" kitabxanası haqqında "Matenadaran əməkdaşı" Karens Karapetyanın dilindən danışmaqla, Mir Cəfər Bağırovun anti-millət fəaliyyətini təqdim etməklə, Göyçə mahalının ermənilərə necə verilməsini, insanların necə köçürülməsini göstərməklə türk dünyasını öz tarixini araşdırmağa, düzgün kimliyini bilməyə səsləyir. Tarixi əsərləri özünə mövzu seçən bədii əsərlərin bir funksiyası da bu olmalıdır, bizcə.

Əsərin müsbət sonluqla bitməsi oxucunu ümidləndirir. Dastan üzərində qurulan, "Qırx kisə"dəki qızılın OdƏr dilindəki sözlər olduğunu məharətlə oxucuya izah edən yazıçı OdƏr həqiqətlərini öyrənən Zahidə axır ki, sevgilisi Nəsibədən "hə" cavabını eşitdirmiş və vüsala çatdırmışdır. Mir Cəfər Bağırovun edam edilməsi ilə azadlığa çıxan Zahidi sevgilisi qarşılayır. Bu, bir ümid işığıdır. Demək ki, şəcərə hələ də yaşayır, gizlədilmiş tarixlərin ortaya

çıxmasına ümid var. Bu ümidi isə onların yanında olan Nəsibə kimi türk qızlarının dəstəyi ilə həyata keçiriləcək. Əsərin qəhrəmanı Zahid sanki İsa Muğannanın prototipidir. Çünki onun vərəsənin nümayəndəsi olması, dünyagörüşü, taleyi, filoloq olması, öz xalası qızını sevməsi, onunla evlənməsi və sairə bir çox xüsusiyyətlər İsa Muğannanın yenə tanıdıqlarından yazmasına, həm də çox yaxından tanıdıqlarından yazması ideyasına sadiq qaldığını göstərən amildir.

Müstəqillik dövrü ədəbiyyatımızda İsa Muğanna yeganə yazıçılarımızdandır ki, 1990-cı ildən ömrünün sonunadək yazdığı bütün əsərlərdə Azərbaycanın əzəli düşməni olan Ermənilərin türklərə qarşı olan nifrətinin səbəblərini göstərən əsərlər yazmışdır. Son illərdə qələmə aldığı "Cəhənnəm", "Qırx kisə qızıl", "İlan dərəsi və ya Peyğəmbərin taleyi", "Söz yarası" kimi əsərlərində türk millətinin tarixi düşməni olan ermənilərin fitnəsinə xüsusi yer ayrılmışdır.

Muğannanın son böyük həcmli əsəri olan "İlan dərəsi və ya peyğəmbərin taleyi" povesti sanki insanın öz yaradılma tarixinə olan marağını cavablandırır. Ən mühüm məsələ budur ki, İsa Muğanna türk millətinin gələcəyinə böyük ümidlə baxır. Süleyman peyğəmbərin vətəninin qədim türk torpaqları olduğu, peyğəmbərin isə türk yanında olduğu qənaətinə gəlir insan. Zəhərli bir heyvan olan ilanın belə, dünyanın maariflənməsinə, barışın bərqərar olmasına, günahsız axan qanların durdurulmasına görə insanın – türk oğlunun yanında olması oxucunu heyrətləndirməyə bilmir. Peyğəmbərin türk torpaqlarını işğal etmək üçün bu qədim diyara hücüm etmiş Rus Çarı Aleksandra "Türkün heç bir düşməni yoxdur, bizim yeganə düşmənimiz cəhalətdir", – deməsi demək olar ki, İsa Muğanna yaradıcılığının, yaratdığı SafAğ elminin əsas qayəsidir.

İsa Muğanna yardıcılığının maraqlı və dəyərli əsərlərindən biri də "GurÜn" romanıdır. Roman "İdeal"da qoyulan konsepsiyanı yenə də davam etdirir. Ruh həmin ruh, üslub həmin üslub, iradə həmin iradə. Amma bu əsərdə İsa Muğanna bundan öncəki əsərlərinə nisbətdə daha cəsarətli görünür. Biz bunu əsərin təhkiyəsindən görürük. Əgər İsa Muğanna "İdeal" romanının sonunda "Heç kəsin anlamadığı bədbəxt bir OdƏr oturmuşdu. Gecələr saat on ikidən səhər saat yeddiyə qədər OdAğÜz BağOdƏr planetindən ən əziz, ən doğma insanın – Eysarının səsini dinləyə-dinləyə yazdığı bu əsəri ilə "Yer" bəşəriyyətinə lənət oxuya-oxuya deyirdi: "İsa", "İsus" adlandırdığım EySarla, BağSar – AğEyin "Musa ağa"nın nəslindən "Muğanna" arasında rabitə yaranıb. Ey ÜnƏs – "insan"! Oxu bu əsəri dəhşətə gəl, ay qatil! Ayıl və anla ki, "Əbədiyyət" əfsanə deyil!.."[1] – deyirdisə, artıq "GurÜn" əsəri birbaşa Eysarın dilindən yazılır və hərdən İsa Muğannaya bəzi sözlərin

[1] İsa Muğanna. GurÜn. – Bakı: Hədəf nəşrləri, 2013, s.64

izahının da verilməsi tələb edilirdi. Bu onu göstərir ki, İsa Muğannanın konsepsiyası təkmilləşmiş, öz həqiqətini tapmışdır. Oxucu da artıq İsa Muğannanın kim olduğunu bilir. Digər bir tərəfdən baxsaq, İsa Muğannanın eşitdiyi "Ün"ün nəticəsində Ün sahibləri kimi düşünməsi və onların nə istədiyini tamamilə mənimsədiyini və artıq mürşid kimi çıxış etməsini görərik. "GurÜn"də artıq fövqəlbəşər obrazlarla real həyati obrazların təmasını görürük. Qədim tarixə bu günün zaman kəsiyindən baxan və lazım gəldikdə keçmişə gedib hadisələrə müdaxilə edən Muğanna görürük. Əsərdə İlahi səs, qədim tarix və Muğanna arasındakı əlaqə iç-içədir.

Əsərin adı da magik bir addır. "GurÜn"lə İsa Muğanna Quranın, işığın, işıq övladlarının təliminin mahiyyətini açmağa və çatdırmağa çalışır. Yadda onun yozumlarından çox, yandırdığı çıraq qalır".[1]

Əsər bir əsas ana süjet xətti üzrə inkişaf etdirilsə də, modernist bir kompozisiya ilə qurulmuşdur. Ana xətt üç daxili başlığa bölünür: Elm, Din, Dil. Təsadüfi deyil ki, müəllif əsəri elm deyilən başlıqla təqdim edir və Nizaminin sahib olduğu Əxilik elminin simvolikası üzərində bəşəri məsələlərə toxunur. Əsərin əvvəlində Məhəmməd Cahan Pəhləvanla Nizaminin dialoqu da müəllifin elmə verdiyi böyük dəyərdən xəbər verir. Böyük hökmdara Nizami "qul kimi danışmalısan" deyir. "Şeyx, Atabəyəm mən", – deyən Məhəmməd Cahan Pəhləvana "Atabəylər nəslən Elmimizin qullarıdırlar. Elmin qulu kimi danış, Elm hökmdarı Nizami qulun olsun!"[2] – deyir.

Burdan aydın olur ki, bizə tarixdən də geniş şəkildə bəlli olan Əxilik elmi Səlcuqların varisi olan Atabəylərin sütunu idi. Qurulan dövlətçilik ənənələrində bu sistemin böyük töhfəsi var. Digər bir tərəfdən Nizaminin "Elmin hökmdarı" adlandırılması onun dövrünün ideoloqu və türk fəlsəfi fikrinin daşıyıcısı olduğunu göstərir. Nizaminin dövrünün böyük güc sahibi və Əxi babası olduğunu Məmməd Səid Ordubadinin "Qılınc və Qələm" əsərində də görürük. Hökmdarların atdıqları bütün addımları onunla məsləhətləşməsi, regionda aparılan siyasəti onun tövsiyə və təklifləri ilə həyata keçirmələri məsələnin dərinliyindən xəbər verir. "Təməldə Qurana və Peyğəmbərin sünnəsinə əsaslanan prinsiplər ilə İslami anlayışa birbaşa bağlı olan Əxilik təşkilatının qurulmasında, fütüvvət anlayışının büyük əhəmiyyəti var. İslamın ilk əsrindən etibarən görülməyə başlanan fütüvvət təşkilatları içində IX əsrdən etibarən sənətkar birlikləri ortaya çıxdı.

Əxiliyin yayılma arealı və onun ideya əsaslarının formalaşması ilə bağlı əxi araşdırıcıları arasında müxtəlif fikirlər mövcuddur. Bu fikirlərdən biri əxiliyin Türk "akılıq" və "alp" ənənəsinin, Ərəb və İran fütüvvət idealıyla İslamın bir sintez halında birləşməsi nəticəsində yarandığının irəli sürülməsi

[1] İsa Muğanna. Ölümdən sonrakı həyat. Məqalələr toplusu. – Bakı: Hədəf nəşrləri, 2014, s.7
[2] İsa Muğanna. İdeal. – Bakı: Hədəf nəşrləri, 2013, s.5-6

ilə bağlıdır. Digər bir yanaşma əxiliyin fütüvvətin "bir uzantısı" və onun yeni, daha mükəmməl və təkmilləşdirilmiş bir forması olması ilə bağlı olan fikirlərdir. Bəzi araşdırıcılar isə əxiliyi "Türk hadisəsi", "Türk fütüvvət hərəkatı", "...daha çox türkləşmiş bir qurum" kimi dəyərləndirirdilər".[1]

"Türklər məhz İslamı qəbul etmələrindən sonra fütüvvət ideyasını mənimsəyib özlərinə xas igidlik, comərdlik və qəhrəmanlıq vəsfləri ilə süsləyərək, Əxiliyin formalaşmasına və İslam dünyasında 500 il önəmli rol oynamasına səbəb oldular".[2]

Hələ XII əsrdə belə İslam xilafətinin xristianlığa xidmət etməsindən narahat olan türklər genlərində olan "dünyanın ədalətli idarə edilməsi naminə" əxilik sistemini qurub inkişaf etdirmişdilər. Dövlətin hökmdarı Məhəmməd Cahan Pəhləvan Nizamiyə deyir: "Mən sənin iqtən Həmdünyanda (Müəllif Həmdünyan adının belə simvolika olduğu düşüncəsindədir.) əxi icmalarını dağıtmalıyam, şeyx. Əxilərin evlərini yandırmalıyam. Gəncədən Abxasa qədər bütün Həmdünyandan qızıl axır sənin təkyənə. Mən dağıdım, yandırım, sən tikdir. Xəlifə mənə sultanlıq versin, səni mürtəd elan etsin.

Atabəy Məhəmməd Cahan Pəhləvan zahirdə Müstədbillaha qul olsun, batində SafAğ elminə... Qılıncımızın əsiri şirürəkli Riçard Müstədbillahın üzünə deyib: Xilafət xristianlıqdan gizlin işləmir, yəni müttəfiqdirlər!"[3]

Yəqin ki, orta əsrlərdə işıqlı insanların yaratdıqları ideologiyalar bəşərin dinlərin əli ilə idarə edilməsinin əleyhinə idi. İlk olaraq İslama inanış və sonradan İslamın xilafətini ləğv edib dini idarəçiliyi ələ almağı şərtləndirən məsələ elə məhz bu idi. İsa Muğannanın əsərin birinci bölməsini "Elm" adlandırması və Əxiliyin məhz sənətkarların gizli təşkilatı və ya İ.P.Petruşevskiyə görə "usta əlaltılarının gizli təşkilatı" adlandırılması bir-birini tamamlayan tarixi faktlardır.

Əsərin magik qəhrəmanı Əxi babadır. Əxi Baba isə eşitdiyi ünü "EySarın (İsanın) təkrarı" Nizamiyə çatdırır. "Əxi Baban deyil sənə bu sözləri deyən, EySar özüdür" deyir. Əxi Babaya da bu Ünü deyən Uca Ün sahibi əsərin ara-sıra müəllif dili kimi verilən "Şərh" hissəsində Əxi sözünü belə izah edir: "Əxi Baba" rütbədir, həm də ad. OdƏrcəsi Ağey BağBağÜn. Ağeylərin Beyin Bağı. Bütün Əxilərin beyinlərində fikirlərdən xəbər tutan və hamını bir-birinə bağlayan Bağ, Saf Ağ Alimi, Asf hökmdar" Başqa bir məqamda "Budur Əxi-Ağeylərdən qeyri heç kəsin dərk etmədiyi SafAğ İnsan".[4]

---

[1] Əsgər Əhməd. "XII-XIV əsrlərdə Azərbaycanın mənəvi mədəniyyəti (tarixi etnoqrafik araşdırma)". – Bakı, 2012

[2] Vüqar Zifəroğlu. Azərbaycan Milli Kimliyi. Azərbaycanda doğan 500 illik işıq-Əxilik. – Bakı: Elm və Təhsil, 2014, s.260

[3] İsa Muğanna. İdeal. – Bakı: Hədəf nəşrləri, 2013, s.5-6

[4] Yenə orada, s.5-6

Yazıçı təxəyyülünün məhsulu olan süjetli, kompozisiyalı, poetikası baxımından "GurÜn" bir bədii, XII əsrdə baş vermiş hadisələri təqdim edərək, faktlarla zənginləşdirərək bu faktların yeni bir baxışla yazılması baxımından tarixi araşdırma əsəridir. "GurÜn" həm də Nizami Gəncəvinin həyatı, yaradıcılığı, "Xəmsə"sindəki obrazları ilə müqayisə edilərək təhlilə çəkilir, obrazların prototipləri təqdim edilir. Nizaminin əsərlərinin və obrazlarının ideoloji qatı, bədii məziyyətlərinin ustalıqla izah edilməsi baxımından bir ədəbiyyatşünaslıq əsəridir.

"GurÜn" bir xatirə romanıdır: Muğanna bu romanda da digər əsərlərindəki kimi öz həyatı ilə obrazlarını ayırmır, "Məhşər", "İdeal" və digər bundan əvvəlki əsərləri bu romanda xatırlanır, tez-tez sitatlar gətirilir, izah edilir.

İsa Muğannanın "GurÜn" romanı Azərbaycan ədəbiyyatının "magik realizm" adına bütün məziyyətləri ilə ən dəyərli əsəridir: həm realizmi, həm sehri, həm də gerçəkliyi baxımından.

"Türfə" romanı müəllifin yeganə əsəridir ki, Muğanna ikinci dəfə üstündə işləməyə vaxt və imkan tapmamışdır. Roman Muğannanın ölümündən iki il sonra 2015-ci ildə çap olunmuşdur. "Türfə" romanı əsərin qəhrəmanı, Muğanna nəslinin varisi Astan bəyin dilindən xatirə şəklində danışılır. "Əsərdə yazıçının xatirələr vasitəsi ilə keçmişə nüfuz etməsinin şahidi oluruq. ...Daha çox qəhrəman düşüncəsində, xatirələrin bədii ifadəsində əksini tapır".[1]

Astan bəy GEPO nümayəndəsi Zalımoğlu tərəfindən öldürülməmişdən əvvəl xatirəsini bu cür tamamlayır: Stolun kənarında üstünə "Türfə" yazdığım qalın dəftər bozarırdı. Gücümü toplayıb dəftəri qabağıma çəkdim. Pencəyimin döş cibindən karandaşımı çıxarıb, axırıncı səhifəni açıb bu dediyim sözləri yazdım, sonra gözlərim qarala-qarala, əlim titrəyə-titrəyə əlavə etdim: "Əlvida, əziz anam! Əlvida, əziz Callam. Əminəm ki, arxamca gələcəksən və əbədiyyətdə yenidən xoşbəxt olacayıq. Hələlik, əzizim. Allahdan qorxun! Allahdan qorxun, – deyən müfti xislətli GEPO[2] cəlladlarına lənət yağdırıram.! Astan".[3]

"Türfə" Qazaxdakı İncə dərəsinin Astanbəyli kəndinin qəbiristanlığındakı nəqşibəndilik türbəsidir. Muğannaya görə, "mənası gözəl deməkdir".

---

[1] Salidə Şərifova. Azərbaycan postmodern romanları və onların bədii xüsusiyyətləri // AMEA. Humanitar elmlər. Xəbərlər. – Bakı: Elm, 2016, s.167

[2] 6 fevral 1922 -ci ildə ÜFK ləğv edilib, əvəzində RSFSR Xalq Daxili İşlər Komissarlığı (НКВД) nəzdində Dövlət Siyasi İdarəsinin (Государственное политическое управление-ГПУ) əsası qoyuldu. "QPU" adı "KQB" adından əvvəl yaranmış və onun kimi geniş yayılıb, Qərb ölkələrinin antisovet təbliğatında geniş istifadə edilmişdir. Alman dilində "GPU" kimi səslənən sözün abreviaturası "Grauen, Panik, Untergang" (Qorxu, Təlatüm, Ölüm) formasında açılırdı.

[3] İsa Muğanna. Türfə romanı. – Bakı: Hədəf nəşrləri, 2015, s.5

Ərəbcədən gələn bu ifadənin hərfi mənası: "Tapılmayan, nadir, misli-bərabəri olmayan, qəribə, əcaib"[1] – deməkdir.

Romandakı hadisələr Sovet dövrünün quruculuq illərindən, repressiya dövründən bəhs edir. Bütün hadisələr "Türfə" ətrafında cərəyan edir: "Hacı Mahmud əfəndi son illərdə Qarabağın Zəngəzur qəzasının Cejimli kəndində yaşayan Şair Şeyx Seyid Nigarinin şagirdi olub, Nəqşibəndi elmini öyrənib qəbul edib, Qarabağda, Qazax, Borçalı, Qaraçöp mahallarında çoxlu müridd-dərviş yetirib, Qazağın İncə dərəsindəki Astanbəyli kəndinin qəbiristanında Türfə – ziyarətgah yaradıb".[2]

İsa Muğannaya görə, "Nəqşibəndi"lik Yer, İnsan elminin başlanğıcının – SafAğ elminin davamıdır. "Yer"də elmin düşmənlərinin təzyiqi nəticəsində eramızın on dördüncü əsrində "Hürufi" adı altında gizlədilib, sonrakı əsrlərdə "Sufi", "Səfi", "Səfa" sözləri altında gizlədilib, nəhayət, "Nəqşibəndi"liyə gəlib çıxıb".[3]

Əsərin qəhrəmanı Astan Nəqşibəndilik elminin davamçısı olmuş üç böyük övliyadan biri olan Kiçik Mahmud Əfəndinin oğludur. Həmin bu üç alimdən biri Əsəd bəydir ki, Hacı Mahmud Əfəndi rəhmətə getdikdən sonra Ələs kənd natamam orta məktəbində direktor işləyib, kiçik Mahmud Əfəndi isə bir müddət Qazax məscidində molla adı altında nəqşibəndiliyi tədris edib və sonradan xəstələnərək vəfat edib. Türfəni işlətmək isə İsmeyil Əfəndiyə qalıb. İsmeyil Əfəndi Qazax mahalının sayılıb-seçilən müdriklərindən olub. Düzdür, əsər boyu heç bir möcüzəsini görmədiyimiz İsmeyil Əfəndi KQB tərəfindən həbs ediləndən sonra təcridxanasının qapılarını istədiyi zaman açması bir möcüzədir. Lakin İsmeyil Əfəndidən bunu kim edir soruşanda da, onu Yerin sahibi bilər deyərək, yalançı peyğəmbərlik iddiasında olmur heç bir zaman. İsmeyil əfəndi Türfəyə gələn insanlara SafAğ elmindən, bu elmə agah olan Nəsimidən, Yunis İmrədən, Seyid Nigaridən moizələr oxuyur, gizlin və təhrif edilmiş elmin şifrələrini açır camaata. Türfənin məsciddən fərqi onda idi ki, burada qətiyyən ölülərlə məşğul olunmur, qəbiristanlıqda olsa belə. İnsanlara elmdən, fəlsəfədən, əxlaqdan dərslər verir, müşkküllərini bir müdrik kimi həll etməyə çalışır. Məhz elə bu səbəbdəndir ki, Astan bəy təhsilini bitirib evlərinə dönəndə ilk olaraq onunla görüşür, nə edəcəyi tapşırığını ondan alır, hətta sevdiyi qızı ona vermək istəməyəndə belə ilk olaraq onun yanına gedir. İsmeyil Əfəndinin Astana tapşırığı bu olur ki, məktəbdə müəllim işləsin və Türfənin gələcəyi üçün, vərəsənin yaşaması naminə tez-tez ora da gəlməsini istəyir.

[1] Klassik Azərbaycan ədəbiyyatında işlənən ərəb-fars sözləri lüğəti. İki cilddə, II cild. – Bakı: Şərq-Qərb, 2005, s.411

[2] İsa Muğanna. Türfə romanı. – Bakı: Hədəf nəşrləri, 2015, s.5

[3] Yenə orada, s.5

İsa Muğannanın “İdeal”dan sonrakı bütün əsərlərində bu xətt davam etdirilir. Vərəsinin ağsaqqalı və gənc davamçı... “İdeal” romanında Sultan və Mədəd Əmirli ustad dərslərini alan Səməd, “Cəhənnəm” romanındakı mistik obraz Səməd Muğanna ilə gənc Bünyad bəy, “Qəbiristan romanındakı Səməd Əmirlinin oğlu polis geyimli Səmiyə gizlin elmi izah edən Pünhan Əmirli obrazı kimi, “Türfə” romanında da Astan bəy İsmeyil Əfəndinin nəzarəti və ustadlığı ilə əsərin qəhrəmanı, vərəsənin nümayəndəsi, İsa Muğannanın prototipidir.

1929-cu ildə Qazax Pedaqoji Məktəbini–Seminariyanı bitirəndən sonra kəndlərinə dönən Astanın gördükləri və yaşadıqları əsərin süjet xəttini təşkil edir. Əsəd müəllimin yanında məktəbdə dərs deməyə başlayan Astana “Türfə”yə getdiyinə görə camaat birtəhər baxır, bəzən ironiya ilə “Molla” da deyir. Amma əsərdə İsmeyil Əfəndinin dilindən dəfələrlə eşidirik ki, Türfə mollalığı qəbul etmir. Hətta o Astana deyir ki, oğul, mən istəmirəm, Türfəyə mollalar ayaq açsın, Türfəmiz molla düşüncəsi ilə idarə edilsin.

Astan elə ilk gündən dərs dediyi şagirdlərdən Callaya vurulur. Qarşılıq aldıqda isə bu məhəbbət daha güclənir. Düzdür, müəllifin məqsədi bir aşiq obrazı yaratmaq olmadığından əsərdə Astanı çox tərəddüdlü, eşqi yolunda çox az mübarizə aparan, hətta bir az qorxaq da görürük. Buna baxmayaraq, müəllif ara sıra əsərdəki məhəbbət süjetinə dönür, bir-iki epizodla mövzunu bağlayır. Hətta Callanın atası Zaloğlu onu qamçılayanda da ciddi bir etiraz etmir, taleyi ilə barışır sanki. Və bir müddət sevgilisindən uzaq da durur. Qızın ondan daha cəsarətli olması toyunda belə elin qabağına çıxıb Astanı sevdiyini etiraf etməsi, evi tərk edib Astana gəlməsində açıq-aydın görünür. Astan bir elm daşıyıcısı idi. Bu elm daşıyıcısını sanki bir qadın, sevgi uğruna qurban verməyə qıymayan müəllif sonda taleyin axışının, reallığın qarşısını ala bilmir. Zaloğlu həm şəxsi qisasını, həm də Sovet ideologiyasının qisasını almaq üçün nəqşibəndilik elminin son nümayəndəsini öldürür. Tarixdə də görürük ki, Nəqşibəndiliyin bir çox nümayəndələri, dərvişləri, tərəfdarları 30-cu illər repressiyasında tariximizdən silinir.

Astan obrazı əsərdə üç böyük sarsıntı xətti ilə yaşayır. Sevgilisinə qovuşa bilmək, Anasının ona xəyanəti və Saf Ağ elminin üzə çıxardığı tarix.

Əsəri müəllif özü povest janrı kimi təqdim etsə də, romanın bütün tələblərinə cavab verdiyi üçün biz də “Türfə”ni roman kimi qəbul edib, bu cür də təqdim etdik. Bütün magik romanlardakı mistika və gerçəklik olduğu kimi, “Türfə”də də mistika və gerçəklik var. Lakin bu mistika və gerçəkliklə bərabər, romana tarixi roman kimi də yanaşmaq mümkündür. Çünki əsərdə yetərincə tarixi şəxsiyyətlər var və onların həyatı müxtəlif məqamlarda izah edilir. Nəqşibəndilik təriqətinin XX əsrdəki vəziyyətinin siyasi və məişət məsələləri fonunda təqdimatı birbaşa tarixiliklə müasirliyin vəhdətini göstərməkdədir.

İsa Hüseynovun "Məhşər"dən başlayaraq bədii idrakın vüsətliliyi, fəlsəfi-bəşəri ümumiləşdirmələrə meyil yaradıcılığının yeni mərhələsinin aparıcı keyfiyyətləri kimi nəzərə çarpır. Yazıçının son romanlarında süjetin sadəcə, davamından daha çox, simvolik mənalandırmalar, hadisələrin axarını şərtləndirən siyasi-ictimai amillərin dərki, bunların surətlərin şəxsi taleyində, psixoloji aləmində qabarıq əksi, insan təbiətinin mürəkkəbliyinə, insan hisslərinin dərinliyinə nüfuz həyatın bədii təcəssümündə və xarakterlərin şərhində əsas xüsusiyyətlərə çevrilir. Yazıçı diqqətini daha çox qəhrəmanlarının ruhi-mənəvi dünyasının təlatümləri, həqiqət axtarışlarının dramatizmi üzərində cəmləşdirir. Bütün bunlarla yanaşı, onu da unutmaq lazım deyil ki, İ.Hüseynov daima yeniləşən, yaradıcılıq axtarışlarını genişləndirən bir sənətkardır. Elə buna görədir ki, o, əvvəllər yazdığı bir sıra əsərlərindən sonralar imtina etmişdir. Hətta imzasını da dəyişdirib, özünü "İsa Muğanna" adlandırmışdır. Yazıçı dilimizin də, etnik mənşəyimizin də təhrif olunduğunu bildirir, etiqadına görə həqiqi dilimizi və milli mənsubluğumuzu bərpa edir. Ədəbi və elmi ictimaiyyətdə bunlar müəyyən maraq doğursa da, hələlik daha çox ehtimallar, əsaslandırılmasına böyük ehtiyac duyulan fikirlər kimi qiymətləndirilə bilər.

İsa Hüseynovun "Ömrümdə izlər (tərcümeyi-hal əvəzində)" adlı yığcam bir yazısı var. Burada o, bilavasitə ömür yolundan yox, ruhi-mənəvi dünyasında dərin iz buraxmış hadisələrdən bəhs edir. Yəqin edirik ki, onun yaradıcılığının təməlini təşkil edən də elə həmin yaddaş, həmin yaşanmış hisslərdir. Əsərlərinin səmimiyyəti və həqiqət hissi də, heç şübhəsiz, öz həyat müşahidələrinə daimi istinaddan doğur.

SABİR ƏHMƏDLİ
(1930-2009)

Azərbaycan nəsrinin yeni meyarlarla qurulmasında əvəzsiz rolu olan yazıçılarımızdan biri də Sabir Əhmədlidir. O, milli düşüncənin ən həssas məqamlarına toxunmaqda, cəmiyyətin yaralarını bədii təcəssümün predmeti etməkdə xüsusi yerə və dəyərə malikdir.

Həyatı. Sabir Məhəmməd oğlu Əhmədli 1930-cu il iyulun 10-da Azərbaycanın Cəbrayıl rayonunun Cəbrayıl kəndində anadan olmuşdur. 1951-ci ildə ADU-nun Filologiya fakültəsini bitirmiş, 1951-1954-cü illərdə Cəbrayıl rayon mərkəzində müəllim işləmişdir. 1955-1956-cı illərdə Şükürbəyli kəndində orta məktəbin direktoru kimi fəaliyyət göstərmiş, daha sonra "Ədəbiyyat və incəsənət" qəzeti redaksiyasında ədəbi işçi, nəsr şöbəsinin müdiri (1956-1993), baş redaktor (1993-1996) vəzifələrində çalışmışdır.

Görkəmli ədibin Qarabağ hadisələrinə həsr etdiyi "Qarabağın gecikmiş yazı", "Qarabağın qarlı səngərləri" adlı irihəcmli ədəbi-publisistik məqalələri 1992-1993-cü illərdə "Ədəbiyyat və incəsənət" qəzetində dərc edilmişdir. Əsərləri keçmiş SSRİ xalqlarının və xarici ölkə xalqlarının dillərinə tərcümə edilmişdir.

Müharibə faktoru Sabir Əhmədlinin tərcümeyi-halından ağrılı məqamlarla keçir. O, İkinci Dünya Müharibəsi Qəhrəmanı Cəmil Əhmədovun qardaşıdır. Oğlu Məhəmməd Əhmədov isə Qarabağ hadisələri zamanı, 1994-cü il fevral ayının 12-də ad günündə Murovda şəhid olmuşdur.

Sabir Əhmədli bir sıra mükafatlarla təltif olunmuşdur. 1975-ci ildə "Əmək şöhrətinə görə" medalı ilə təltif edilmiş, 1984-cü ildə "Əməkdar incəsənət xadimi" fəxri adını almış, 1991-ci ildə "Qızıl sünbül" ədəbi mükafatı laureatı olmuş, 1992-ci ildə "Azərbaycanın Xalq yazıçısı" fəxri adına layiq görülmüş, habelə "Xalqlar Dostluğu" və "Qırmızı Əmək Bayrağı" ordenləri ilə mükafatlandırılmışdır.

İkihissəli "Aran" (1962), "Pillələr" (1964), "Görünməz dalğa" (1966), "Yamacda nişanə" (1973), "Yaşıl teatr" (1978), "Toğana" (1981), "Yasamal gölündə qayıqlar üzürdü" (1984), "Mavi günbəz" (1984), "Gedənlərin qayıtmağı. Dünyanın arşını" (1985), "Yasaq edilmiş oyun. Gülmalı kişinin axırı" (1988), "Yanvar hekayələri" (1992), "Kütlə" (1999), "Axirət sevdası" (2003), "Şəhid ruhu" (2004), "Yazılmayan yazı" (2010) və s. kitabların müəllifidir. 1989-1990-cı illərdə Azərnəşrdə ikicildlik "Seçilmiş əsərləri"[1] çap edilmişdir.

[1] Sabir Əhmədli. Seçilmiş əsərləri. İki cilddə, I c. – Bakı: Azərnəşr, 1989; II c. – Bakı: Azərnəşr, 1990

1955-ci ildən Azərbaycan Yazıçılar İttifaqının üzvü olan Sabir Əhmədli ittifaqın Mirzə Fətəli Axundzadə adına ədəbi mükafat komissiyasının sədri seçilmişdir.

Sabir Əhmədli 2009-cu il aprelin 17-də Bakıda vəfat etmişdir.

Yaradıcılığı. Sabir Əhmədli ədəbi fəaliyyətə 1951-ci ildən "Pioner" jurnalında çap olunan "Poçtalyon" hekayəsi ilə başlamışdır. "Bir payız axşamı" adlanan beş hekayədən ibarət ilk kitabı isə 1961-ci ildə çap olunmuşdur.

1960-cı illərdən başlayaraq nəsrdə güclənən bir çox əlamətlər bir neçə yazıçının yaradıcılığında daha sərt boyalarla təzahür etdi ki, onlardan biri də Sabir Əhmədli idi. Qəhrəman olaraq seçilən adi insanların daha çox düşündürücü obraz qismində səciyyələndirilməsi, ailə-məişət mövzularına üstünlük verilərək, mənəvi-əxlaqi məsuliyyət yükünün artırılması, romantikadan imtina edib əvəzində psixoloji dərinliyə meyillilik, istehsalat aləmlərində robotlaşmış personajları cəmiyyət həyatının içərilərinə salıb onların individual, fərdi başlanğıca köklənmələrinə yol açması, təhkiyədə daha çox obrazlılığın və reallığın önə çəkilməsi kimi əlamətlər Sabir Əhmədli ustalığının hələ zahiri, görünən tərəfləridir. Görünməyən tərəfləri isə daha çoxdur və onun bir nasir kimi fərqliliyi bu tərəflərin səciyyəsindədir.

Hekayələri. 1961-ci ildə çap olunan ilk kitabında yer almış beş hekayə ilə nəsrə yeni bir imzanın gəlişi bəlli olmuşdur. 1951-1963-cü illər arasındakı bir dönəmi çevrələyən bu mərhələdə Sabir Əhmədli "Poçtalyon" (1951), "Arabaçı" (1953), "Əsgər oğlan" (1955), "Bir payız axşamı" (1957), "Sevimli şəhər" (1958), "Murov" (1958) və başqa hekayələri ilə ədəbi tənqidin diqqətini cəlb etmişdir.

Yazıçı haqqında ilk məqalələrin müəllifi olan ədəbiyyatşünas alim İmamverdi Əbilov 1962-ci ildə onun "Azərbaycan" jurnalının 1961-ci ilin dekabr sayında çap olunan beş hekayəsi haqqında elə "Beş hekayə haqqında" adlandırdığı məqaləsində yazırdı: "Sabir Əhmədov müəyyən bir lövhəni çəkərkən, xarakter yaradarkən heç bir zəruri ştrixi, lüzumlu təfərrüatı nəzərdən qaçırmır və bunlar hekayədə bədii keyfiyyətin yüksəlməsi xatirinə edilir. Yazıçının hekayələrində konkretlik, lakonik ifadə tərzi vardır".[1]

Sabir Əhmədli hələ ilk hekayələrindən başlayaraq təlim, tərbiyə, əxlaq, mənəviyyat məsələlərinə böyük önəm vermişdir. Təsadüfi deyil ki, ilk hekayələrindəki olaylar məktəbdə və onun ətrafında cərəyan etmiş, ilk qəhrəmanları müəllim, şagird olmuş, istedadın dəyərləndirilməsi, lovğalıq, eqoizm və s. insan xislətinin naqis tərəflərinin tənqidi kimi məsələlər kiçik mətnlərinin bədii təcəssüm predmeti olmuşdur. "Pərvazlandılar" hekayəsində özündən müştəbeh şagirdin xarakterindəki mənfi çalarların müəllim

[1] İmamverdi Əbilov. Beş hekayə haqqında. "Ədəbiyyat və incəsənət" qəzeti, 1962, 12 may

tərəfindən islah edilməsi, “Çinar odunun qoxusu”nda çürük ənənələrə üsyan, “Qurumuş meşənin nağılı”nda istedadlı insanlara yol açmaq, onların itib-batmasına yol verməmək, “Ova gedəndə, ovdan qayıdanda” hekayəsində saxta şöhrətpərəstliyin, əməyə əsaslanmayan yalançı lovğalığın tənqidi, “Oğul” hekayəsində müəllim işləyən şəxsin uzun illərdən sonra rayona dönüşü kimi problemlər diqqət mərkəzinə gətirilmişdir. O da maraqlıdır ki, Sabir Əhmədlinin başladığı bu yol sonradan daha şaxəli, daha sistemli və təkmil şəkildə davam etmiş, hekayələrindəki məktəb məkanı, müəllim obrazları institut və orada çalışan müəllimlər, rəhbər işçilərin canlandırılması ilə əvəz olunmuşdur. Həmçinin şəhərdən yurda dönüş edən qəhrəmanlar, mənəvi-əxlaqi baxımdan natamamlıq kompleksi yaşayan personajlar da yazıçının hekayələrindən romanlarına daxil olaraq daha qabarıq, daha iri planda görünməyə, cəlb olunmağa başladılar.

Sabir Əhmədlinin əsərləri hər şeydən öncə iki fərqli dünyagörüşün, iki fərqli dünyanın qarşı-qarşıya gəlməsi üzərində qurulub. Yeni və köhnə dünya qarşı-qarşıya gəlir, hətta dövrün tələbi olan inqilabi-sosial, inqilabi-tarixi motiv belə bu əsərlərdə ümumbəşəri ləyaqət və mənəviyyat problemi səviyyəsinə yüksəlir. Bir tərəfdə sənayeləşən, modernləşən dünya, digər tərəfdə isə insan əxlaqını bu yeniliyin pozucu təsirindən uzaq tutmağa çalışan qəhrəmanlar. Bu paradoksal situasiyadan yan motivlər də şaxələnir: urbanizə prinsiplərinə assimilyasiya olunmuş insanların getdikcə ailə bağlarından, ənənələrdən qopması, modernləşən şəhərlilər, yadlaşan kəndlilər, bir də heç nəyə baxmayaraq, dəyərlərinə sadiq qəhrəmanlar.

İqtisadi inkişaf tempi yüksəldikcə, texniki nailiyyətlər artdıqca insanlar da sanki robotlaşır, mənəvi dəyərlər maddi-texniki dəyərlərə uduzur. Sabir Əhmədlinin məkan dairəsindən asılı olmayaraq, bütün əsərlərində harasa tələsən, kökü ilə bağları qopmaqda olan, duyğuları öləziyən və qəddarlaşan insan kütləsinə qarşı bir üsyan var. Sabir Əhmədli sanki yeni nəslin üzlərinə hopan laqeydlik ifadəsini söküb atmağa çalışır, milli kimliyindən uzaq düşməkdə olan fərdin konfliktini verirdi.

Mühit və şəxsiyyət amili. Yazıçının nəsrə gətirdiyi yenilik cəhdi onun ilk növbədə, şəxsiyyət amilinə münasibətilə izah olunmalıdır. Sovet ideologiyasının hökmfərma olduğu ən qatı dönəmdə belə yazdığı əsərlərdə mövzudan, problemdən daha çox, insanın fərd, şəxsiyyət olaraq şəxsi duyğularına istinad etməsi, daha çox qəhrəmanın psixologiya və mənəviyyat məsələlərinə önəm verməsi, onların davranış və əməllərinin bütün müsbət və mənfi tərəfləri ilə görüntülənməsi nəsrin yeni yaradıcılıq sferasında doğuluşunun göstəricisi idi. “Onun adı və imzası nəsrə gətirdiyi təfsilat və təfərrüatlarla bağlı olsa da, əsərləri “məişət realizmi”nin çərçivəsindən çox-çox kənara çıxır. Əslində burada da “məişətçilik” psixologizmin, açıq kinayə

isə mətnaltı kədərin, yanğının ifadə üsulu kimi meydana çıxır",[1] – yazan ədəbiyyatşünas alim Yaşar Qarayev haqlı idi. Mətnaltı kədər və yanğı Sabir Əhmədlinin ilk əsərlərindən sona qədər müxtəlif mövzu materialında işləndi. İlk romanı olan "Aran"da Sabir Əhmədli partiya təşkilatı katibi olan yazıçı Talıbın simasında müsbət və mənfi xüsusiyyətləri özündə cəmləyən partiya işçisi obrazı yaratmışdır. Sonralar "Görünməz dalğa" romanı ilə birləşdirilmiş "Aran" romanında nə sonluq xoşbəxtliklə bitirdi, nə də qəhrəmanlar müsbət səciyyəsi ilə seçilirdilər. Niyə? Sabir Əhmədli buna görə mühit faktorunu qabardırdı. İlk dəfə olaraq, insanın bədbəxtliyində rejimin, ictimai-sosial mühitin rolu olduğunu önə çəkirdi. "Görünməz dalğa" Sabir Əhmədli üçün sosial mühitin özü idi. "Ümumiyyətlə, əsərdəki surətlərin hamısının davranışında, hərəkətlərində, bir-birlərinə münasibətlərində, xarakterlərində həmin "görünməz dalğaların" mənfi təsiri hiss olunur. Əsas qəhramanların heç biri bu dalğalardan kənarda qala bilmir".[2] Saxta plan doldurmaları, yeniliklə köhnəliyin arasında aparılan cəfəng, əsassız mübarizə, insanların öz əsillərini danaraq, yadlaşması uğursuz yaşamlara, uğursuz ailə həyatlarına rəvac verən amillər idi. Yazıçı "görünməz dalğalar" deyərkən bunları nəzərdə tuturdu və o görünməyən bu kimi nəsnələri görünən etməklə nəsrin idilliyadan gerçəyə, romantikadan reallığa doğru axınını dəyişirdi.

Sabir Əhmədlinin əsərlərinə 1960-1970-ci illər nəslinin yaradıcılığı prizmasından baxılsa, ondakı yeniliyin dövrə nə qədər müxalif ruhda olduğunu görəcəyik. 1969-cu ildə yazdığı "Dünyanın arşını" romanında Cənub mövzusuna toxunub. "Yasaq edilmiş oyun" romanının mövzusu isə 37-ci il hadisələrindən götürülüb. Bu əsərlərdəki əsas qəhrəmanlar həyatı daha mənalı yaşamaq, insan ləyaqətilə ömür sürmək kimi fəlsəfi qənaəti və ovqatı daşıyırdı özündə.

"Aran" romanında köhnənin təmsilçiləri olan kolxoz sədri, mühasib və təhlükəli adam olan Yavuz Süleymanlı və yeniliyi təbliğ və müdafiə etməyə çalışan gənc qüvvələr – Hidayət, Talıb, Nargilə, pambıqçı qızlar üz-üzə qoyulur. Yeniliklərə qısqanclıqla yanaşılması, iki cəbhə arasında konfliktin dərinləşməsi iki fərqli dünyanın, dünyagörüşün konflikti kimi verilirdi əsərdə. Belə bir mübarizə yazıçının 1969-cu ildə yazdığı "Yamacda nişanə" povestində daha natural boyalarla nəsrə gətirilir. Xeyirlə şər, doğru ilə yalan, haqq və ədalətsizlik kimi ədəbiyyatın daim məşğul olduğu məsələlər "Yamacda nişanə" povestində daha kəskin qoyulmuşdur. Böyük ideallarla yaşayan, dəliqanlı, gənc Laçının faciəsi fonunda müəllif əslində mühitdə insana olan münasibəti mərkəzə gətirirdi. Laçın kimi doğru yolda olan və

[1] Yaşar Qarayev. Tarix: yaxından və uzaqdan. – Bakı: Sabah, 1996, s.503-504

[2] Fərhad Mədətov. Sabir Əhmədlinin romanları. – Bakı: Bakı Universiteti Nəşriyyatı, 1998, s.14

doğruları ilə yaşayan insanlar bu yolda olmayanlar üçün daim təhlükə mənbəyidirlər. Ona görə qardaşı da daxil olmaqla, vəzifəli şəxslər Laçına qarşı əks mövqe tuturlar. Hər yolla bu gəncə mane olmağa, yolundan sapdırmağa, əlini işindən soyutmağa, əqidəsindən döndərməyə çalışırlar. Yazıçı Laçına əks mövqeni Həsənxanın simasında ümumiləşdirmişdir. Raykom katibinin Laçını görərkən ayaqlarının dolaşması, hamının onun sərt baxışlarından qorxması bir az inandırıcı görünməsə də, əsas məsələ yazıçının saflığı, düzlüyü rüşvətxorluğa qarşı qoya bilməsindədir:

"– Gülməyiniz gəlməsin. Laçının məsələsi az qala, ümumrayon probleminə çevrilib.

– Deyin, deyin, utanmıyın, – katib nə isə xatırlayıb ona uyuşmayan qəribə acizliklə qımışdı: – Nə olacaq, verin yüngülündən-ağırından bir maşın, qoyun dolansın. Hər şey işsizlikdən, bekarçılıqdan törəyir! – Bununla o, eyni zamanda büroda möhkəm sıxışdırdığı kolxoz sədrinə, iki-üç nəfər karsız yoldaşa da məzəmmət edirdi. Onlar da Laçının halını daha yaxından duyduqları üçün büzüşüb:

– Elədir, elədir, – dedilər.

Katib, Laçının böyük qardaşına baxdı. O, xəcalət içində, nəzakətlə çiynini çəkdi.

– Mən özüm də küçədə Laçını görəndə qıçım dolaşır".[1]

Bu kiçik parçadan da göründüyü kimi, əsərin qəhrəmanına müxalif olan əslində rejimin özüdür, Həsənxanlar, milis rəisləri, hətta qardaşı belə rejimin ruporu səciyyəsi daşıyırlar. Amma az qala, bir ordu qismində olan bu çoxluğa qarşı saflığı ilə müqavimət göstərməyə, içlərinə çaxnaşma salmağa Laçın adlı bir gənc bəs edir. "Yamacda nişanə" povestində qəhrəmanın təsviri ilə bağlı estetik, həssas rakurslar, dəqiq seçilmiş ritm, dinamika qərarlaşıb. Müəllif sabitliyi fərdin daxili müqavimət hissinə tabe edir.

Sabir Əhmədlinin əsərlərində monumentallıq əsərlərinin həcmi və əhatə dairəsinin vüsəti ilə ölçülməməlidir, əksinə belə bir yanaşma böyük ədibin yaradıcılığına münasibətdə haqsızlıq olardı. Onun əsərlərində, əksinə reallığa yanaşmanın introvert üsulundan, yəni, daha çox iç təsvirlərinin dərinliyindən, metafizik başlanğıcın önə keçməsindən, daxili monoloqlara üstünlük verilməsindən bəhs etməliyik. Bədii təsvirlərdə daha çox milli koloritə köklənmək, milli mənəvi-əxlaqi dəyərlərə önəm vermək, problemlərə müasirlik prizmasından baxış vüsəti yazıçının üslubunun əsas xüsusiyyətlərindəndir. Sabir Əhmədlinin yazıçı kimi özəlliyindən digəri, qəhrəmanlarının xarakterini bir neçə detalda uğurla açması, təfsilata varmadan obrazın daxili aləminə işıq sala bilməsidir. Məsələn, müəllifin "Yamacda nişanə" povestində Laçının xarakterini ifadə etmək üçün ümumiləşdirdiyi bir neçə

[1] Sabir Əhmədov. Yamacda nişanə. – Bakı: Gənclik, 1973, s.24

cümlə onu tip olaraq təsəvvür etməyə imkan yaradır: "Qorxsalar da, qorxmasalar da, sevsələr də, sevməsələr də, Laçın kiçik şəhərin bir ərköyün, dəlisov balası idi. Ərsəyə yetib, qənşərə çıxdığı gündən adamların üz-gözü ona elə öyrəşmişdi ki, buranı Laçınsız ağıllarına gətirə bilməzlər. Küçədə, dükanlarda, bazarda Laçın görünməsə, nə dükan dükandı, nə bazar bazar. Əlləri gah dalında, gah əsgərsayağı yanlarında yellənə-yellənə girirdi bazara.

...Yerişində, hərəkətində elə od, hərarət vardı ki, guya keçib havaya kibrit çəksən alovlanacaqdı".[1] Yaxud "Dünyanın arşını" romanında əsərin qəhrəmanı Arifin Araz həsrəti və müəllifin bu həsrəti bir neçə kəlmə ilə təsvir etməsi həm yazıçının özünün Cənub ağrısını anlamağa, həm də həmin illərdə mövzunun nəsrdə işlənmə səviyyəsini sərgiləməyə imkan yaradır.

Sabir Əhmədlinin əsərlərinin fəlsəfəsi sadə insan həqiqətlərinə söykənir. Onun yaradıcılığı üçün məkan amili kimi şəhər və kənd mühiti daim işləkdir və hansı mühiti bədii təcəssüm predmeti etməkdən asılı olmayaraq, yazıçı təsvirlərinin episentrində insanın mənəvi boşluğu, daxili aləmlərin naqisliyi kimi əlamətlər dayanır. Bu əlamətləri müəllif həyatdakı durğunluq, mühitin özündə gedən aşınmalarla eyni müstəvidə təsvirə çəkir. Mühit kirlənibsə, ictimai zəmin olaraq istinad etməyə saf, duru bir ərazi qalmayıbsa, o yerdə hansısa uğurdan, keyfiyyətli işdən və insanların işə can yandırmasından, təmiz, vicdanlı əməldən söhbət gedə bilməz. İstər "Aran", "Dünyanın arşını", "Azıxa doğru" romanlarında rayonda baş verən hadisələrin, istərsə də Bakıdakı hadisələrin baş verdiyi "Yaşıl teatr" və "Yasamal gölündə qayıqlar üzürdü" əsərlərində tənqid olunan əslində, mühit amilinin özüdür.

Sabir Əhmədli mühitin gərçək mənzərəsini bir başqa romanında − "Dünyanın arşını"nda daha açıq şəkildə təsvir və təhlil etmişdir. Romanın mövzusu sadə olsa da, burada həyat həqiqətlərinin təsviri çoxcanlıdır: müəllif sosial mühitin dərin qatlarını sərt şəkildə qaldırmaqla yeni bir gerçəklik mənzərəsi yaratmağa müvəffəq olmuşdur. Bakıdan doğma rayonuna gəlib, orada qohum-qardaşı, dost-tanışıyla birlikdə tətil keçirən və yenidən şəhərə qayıdan bir filosofun yol xatirələri təsiri bağışlayan bu romanda qaldırılan məsələlər çox aktualdır. "Dünyanın arşını" ad kimi özündə çox mənaları ehtiva edir. Dəyərlər pozulub, meyarlar dəyişib, artıq hər kəsin öz arşını var və əsərdə hər kəsin dünya düzəninə münasibətdə öz arşını ilə ölçmək prinsipi işləkdir. Mövzusu sadə həyat həqiqətləri üzərində qurulan bu romanda müəllif sosial mühitin olduqca dərin qatlarına nüfuz etməklə bu günün özündə belə heyrət doğuran cəsarət nümayiş etdirib. Necə olub ki, sovet inzibati nəzarət mexanizminin işlək və güclü olduğu bir dövrdə Sabir Əhmədli mühitə, onun gerçəklərinə bu qədər aydın baxış sərgiləyə bilmişdir?!...

[1] Sabir Əhmədov. Yamacda nişanə. – Bakı: Gənclik, 1973, s.20

Görünür, yazıçının əsərlərinin illərdir çap olunmamasına, buna görə əngəllərlə rastlaşmasına səbəb bu amillər imiş.

Sosial-psixoloji qatlara enişi. Sabir Əhmədlinin 1970-ci illərin sonlarında yazdığı "Yasamal gölündə qayıqlar üzürdü" romanı daha çox insanın mənəvi aləminə, psixoloji qatlara nüfuzun dərinliyi ilə yadda qalır. Yazıçı romanlarında iki amili qarşılaşdırır: mühitə uyğunlaşan və uyğunlaşmayan qəhrəmanlar. İnsan, onun arzuları, istəkləri, xəyalları və ictimai-sosial mühit. İki qüvvə üz-üzədir. Əqidəli, işi ilə əməli düz insanlar həyatda yerini tapa bilmir. "Yasamal gölündə qayıqlar üzürdü" romanı bu ikiləşməni uğurla simvolizə edən əsər kimi dəyərlidir. Əsərdə çirkab suları ilə ekoloji baxımdan yarıtmaz halda olan Yasamal gölü çürüməkdə olan rejimin özünün obrazı idi. Bu çirkinliyə öyrəncəli olanlar, fərdi mənafeyi üçün onun çirkabına göz yuman Səlim Xəliloviç, Səməndər kimi obıvatel tipli obrazlar, eləcə də əks qütbü təmsil edən, xalqa ürəklə xidmət etməyə çalışan, ləyaqətli ömür sürməyi meyara çevirmiş Hikmət obrazı zamanın iki fərqli simasını özündə əyaniləşdirən qütb olaraq ümumiləşirlər. Elmi tədqiqat institutlarında hökm sürən özbaşınalıqlar, elmə Gülümsərov tipində yanaşıb şəxsi qazanc və mənfəət mənbəyinə çevirənlər, gənc kadrların qarşısına çəkilən çəpərlər, onların istedadlarını gözməzdən gəlmək halları, saxta dissertasiyalarla alim olanlar, xoşbəxtliyi ancaq pulda, əyləncəli həyatda görənlər və başqa bu kimi iyrəncliklər "Yasamal gölündə qayıqlar üzürdü" romanında Səlim Xəliloviç, komendant, Səməndər, Jületa obrazlarının timsalında ətraflı, incə boyalarla təsvirini tapmışdır.

"Aran", "Yasamal gölündə qayıqlar üzürdü", "Dünyanın arşını", "Yasaq edilmiş oyun", "Toğana" romanları sovet ideologiyasının çürük siyasətinin, rejimin iyrənc simasının, alt qatda gizlənən qorxulu mahiyyətinin üzə çıxmış nümunələri kimi onun antihumanist mahiyyətinə tutulan güzgü idi.

Sabir Əhmədlinin romanlarında yer alan qəhrəmanlar zamanla mənəvi müxalifətdə olan obrazlardır. Kimi sona qədər dirənib yaşayır, kimi isə fəal mübarizə aparmayıb təslim olur. Yazıçı bunu bəzən bir ailənin, bəzən də bir fərdin nümunəsində təqdim edir. Məsələn, "Yasamal gölündə qayıqlar üzürdü" romanında idealın iflasını göstərməyə çalışmışdır və bu çöküş ruhunu qəhrəmanın oğlu və qızının, eləcə də Büllur obrazının nümunəsində ümumiləşdirmişdir. Həyatın amansız məngənəsi içində boğulan, axıra qədər davam gətirməyib təslim olan, mənəvi, ruhsal təmizliklərini qoruya bilməyən faciə qəhrəmanları. Sabir Əhmədli mühitin çirkablarla dolu olduğu bu zamanda ideal həyat tərzinin çətin olması fikrini önə çəkirdi. Buna ancaq mənəvi müvazinəti güclü insanlar qadir ola bilərdi. Yazıçı Hikmət obrazında belə bir qəhrəmanın varlığı ilə əxlaqi deqradasiyaya meydan oxuyurdu.

Sabir Əhmədli urbanizasiya mühitinin insanın içində açdığı boşluqları

göstərir, maskulin dəyərləri, kişilik qanunlarının hökmfərma olduğu mühitin dəyərli cəhətlərini önə çəkirdi. "Görünməz dalğa", "Dünyanın arşını", "Azıxa doğru" romanları bu qəbildəndir. Onun əksər əsərlərinin qəhrəmanları ziyalılardır. Cəmiyyətin intellektual kəsimi. Yazıçı niyə əksər qəhrəmanlarını bu dairədən seçir? Düşünən beyinlər daha uzaqgörən olmalı, mühitdəki naqislik dalğasını yarmağa, eybəcərlikləri dəf etməyə digərlərindən daha artıq səy göstəməlidir..., – bunumu təlqin eləmək istəyirdi?! Bəs bu zümrənin özü naqis olanda, öz içindən çürüyəndə necə, ümidsizliyə yol açılmırdımı? "Dünyanın arşını", "Toğana", "Yasamal gölündə qayıqlar üzürdü" romanlarının qəhrəmanları filosof Arif, Adil, Mayis, Hikmət, eləcə də "Aran", "Gedənlərin qayıtmağı", "Dünyanın arşını", "Yaşıl teatr" kimi romanların qəhrəmanları daha çox islah etməyə çalışır, bunu görməyəndə ümidsizliyə uğrayırdılar.

Bütün hallarda yazıçı kolliziyada olan qəhrəman tiplərini üz-üzə qoyurdu. "Toğana" romanında məsələn, konflikt mənəviyyatla mənəviyyatsızlıq, maddiyyatçılıq arasındadır. Azərbaycan ziyalılarını mənəvi-psixoloji çirkabdan xilas etmək istəyən Adillə Mayis, cinayət işləri üzrə mütəxəssis olan, hiyləgər, maddiyyat düşkünü Fatehlə vuruşur.

Yaxud "Yasamal gölündə qayıqlar üzürdü" romanında şöhrət qazansa belə sadəliyindən, ləyaqətli həyat tərzindən uzaq düşməyən Hikmət hiyləgər, saxtakar Səlimlərə, meşşan həyat tərzi keçirən Billurlara qarşı sonadək müqavimət göstərir. Hətta ailəsində belə mənəvi disharmoniya hökm sürürsə, qəhrəmanın hansı boğucu şəraitdə fəaliyyət göstərməsini təsəvvür etmək çətin olmur:

"– Bu necə mükafatdı? – qız dilləndi. Oğlan qulağını şəklədi.

– Eşitməmisiniz? Kimlərə verildiyini bilmirsiniz?

– Bilirik, – dedi qız, soyuqca, quruca güldü.

– Bu mükafatın pulu da olacaq?

Atası qızın onu dindirməklə bayaqdan nəyi öyrənmək istədiyini başa düşmüşdü.

– Olacaq.

Kişi kədərləndi. Onun qızının, yeniyetmənin, doğrudanmı, ən böyük sevinci də pulla, qazancla ölçməkdən özgə düşüncəsi yoxdu?"[1]

Sabir Əhmədlinin əsərlərində əxlaq, saflıq, halallıq ona əks qütbdə dayanan maddiyyatçılıq, riyakarlıq, şər qüvvə ilə üz-üzə qoyulurdu. Bəzən heç bir müqavimət hissi olmadıqda belə qəhrəmanların tapındıqları həyat gerçəkləri, ona sığınıb yaşamaları və doğrularından usanmamaları böyük əhəmiyyət daşıyırdı. Belə hallarda Sabir Əhmədlinin qəhrəmanlarının gücü

[1] Sabir Əhmədov. Yasaq edilmiş oyun. Gülmalı kişinin axırı. Romanlar. – Bakı: Yazıçı, 1988, s.76

ancaq barışmamağa, düşünməyə, iç dünyalarına çəkilməyə, xəyallar qurmağa, mənəvi aləmlərini mümkün qədər çirkabdan qorumağa çatırdı. "Yaşıl teatr" romanında olduğu kimi. Həyatlarını sakit şəkildə yaşayan, ümumi axına qoşulub ömür sürən Kainat, Şiraslan, Xeyransa heç kimlə mübarizə aparmasalar da, xeyirxah, səmimi, mənəvi baxımdan tox olduqlarına görə rəğbət doğurur, elə bu şəkildə də şərlə mübarizə cinahında qərarlaşırdılar.

Urbanizasiya problemi. Sabir Əhmədli texnogen sivilizasiyanın inkişaf etdiyi, insanın təbiətə, mühitə, özünə belə yadlaşdığı bir dönəmdə ekoloji mühitin insan həyatında vacibliyi amilini qabardır, insan saflığını təbiətin gözəlliklərinin ekvivalenti kimi təqdim etməklə oxucunu təbiiliyini qorumağa səsləyirdi. "Azərbaycan ədəbiyyatında bir vaxt təbiət təsvirində estetik cəhətə daha çox üstünlük verilirdi. Ədəbiyyatımızın inkişafının yeni mərhələsində, o cümlədən Sabir Əhmədlinin "Toğana" romanında təbiətə yeni bir münasibət, ona mənəviyyat yolçusu kimi bir baxış da var. Bir sıra yazıçılar təbiəti sevmək, onu qorumaq və saxlamaq məsələsini birbaşa qaldırır, ona amansız münasibətləri ifşa edirlər. Sabir Əhmədov isə şəxsiyyətin mənəvi məzmununu onun təbiətə münasibəti ilə əlaqələndirib izah edir".[1]

"Toğana" urbanizasiya məsələsini ciddi şəkildə nəsrə gətirən romandır. Rəngarəng, çəkici meqapolis mənzərələri, yoxsa kənd dəyərləri, huzur, saflıq amili? Psixologiya üzrə alim olan Adil müəllimin düşüncələri əsasında oxucu Toğana yaylasında dincələn üç ailənin daxili aləmi ilə tanış olur. İnsan həyatını asanlaşdıran elmi-texniki inqilab, yoxsa mənəviyyat? Bütün hallarda dəyərlərini itirməyən, mənəvi keyfiyyətlərindən uzaqlaşmayan insanlıq! Onu qorumaq hər nə qədər çətin və məşəqqətli olsa da: "Eh rəhmətliyin oğlu, nə qoyub nə axtarırsan. Hanı üstündə bircə ləkəsi olmayan mütləq ləyaqət, mənəvi yüksəklik? Mütləq heç nə yoxdur. Mən sənə nisbətən yaxşıyam, sən o birinə nisbətən şükürlüsən. Hamı bu nisbətdədi. Beşindən geridə qalsa da, yüzünü beşindən irəlidə istəyir. Buna can atır. Ona qalsa, mənim əlimdə hamıdan çox əsasım var ki, şərəfimi qoruyum, hər hansı böhtandan, bədxahlıqdan mühafizə edim".[2]

Sabir Əhmədlinin əsərləri həm də urbanizasiya prizmasından, torpağa, kəndə, doğma yurda bağlılıq aspektinin qabardılması amilindən dəyərləndirilə bilər. Amma həmin dövrün bir qisim yazıçılarından fərqli olaraq, Sabir Əhmədli bütün sosial bəlaları, əxlaqsızlığı, mənəviyyatsızlığı urbanizasiya ilə əlaqələndirmir. Ona görə kəndin və kəndlinin problemlərinin kökündə şəhər və şəhərli amili dayanmır. Belə bir mövqeni milli prozamızda İsa Hüseynov, İsi Məlikzadə, Sabir Azəri və başqalarının yaradıcılığında da müşahidə etmək mümkündür. Sabir Əhmədli üçün kənddən şəhərə axın etmək məsələsi,

[1] Tofiq Hüseynov. Sabir Əhmədov. Azərbaycan sovet ədəbiyyatı. – Bakı: Maarif, 1988, s.402
[2] Sabir Əhmədov. Toğana. – Bakı: Yazıçı, 1981, s.42

təbiətin insan mənəviyyatında təmizləyici funksiyası ön planda olsa da, ümumən, insan xislətinin naqisliyi onun özünün çatışmazlığı kimi dəyərləndirilir. Belə bir çatışmazlığa isə rəvac verən rejimin antihumanist mahiyyətidir, sosial problemlərin şəhərlə birlikdə kəndi də çevrələməsidir.

Yazıçının "Azıxa doğru" romanı fikirlərimizə sübutdur. Roman qəhrəmanı Valeh kənddən şəhərə üz tutur və yaşının yetkin çağlarında yenidən geri dönür. Yazıçı müxtəlif zaman mərhələlərini irəli-geri dönüm sıçrayışları ilə eyni bədii müstəviyə gətirir. Yaşanan ömür, keçmişin həsrəti və gələcəklə bağlı arzu və xəyallar. Filosof ədalı, romantik düşüncəli Valehin şəhərdən yorulub, onun səs-küylü həyatından qaçıb kəndə sığınmaq niyyətini romanın əvvəlində dostu ilə olan qısa dialoqu sərgiləyir:

"Həmişəki təki bir addım aralıda toxdanıb dayandı. Dostuna zəhmət vermək istəmirmiş təki əlini alçaqdan uzatdı. Sınayıcı, qızğın, göy şöləli gözünü dikib, sanballı, ağır əliylə əlini sıxıb, içəridən, dolu, saf bir gülüşlə gülümsədi.

– Maşallah, yaxşısan. Lap oğlan kimisən. Elə burdanca təyyarəyə minib birbaşa Soçiyə, Moskvaya uça bilərsən.

–Hə, sən də yaxşısan. Nə olub sənə?

– Üzülmüşük əşi, bizi şəhər üzüb. Yorulmuşuq".[1]

Bu əsərlərdə ümumən insan darıxır, nə şəhərin urbanist təhnalığında, nə də kəndin statik ab-havasında özünü tapa bilmir. "Azıxa doğru" romanında olduğu kimi. Belə bir qarşıdurmada yazıçı seçim olaraq qəhrəmanını şəhərdən kəndə, ordan da azıxa – mağaraya doğru meyilləndirməklə modernləşən dünyanın ifrat tələbləri ilə qədim yaşayış tərzindəki minimalizmi üz-üzə gətirir. Valeh kəndə qayıtmaq istəyir, qayıdır da. Ancaq kənd onun qoyub gəldiyi kimidirmi? Məgər sürətli dəyişimlər, elmi-texniki inqilabların dalğası, sürətlə gedən mənəvi aşınma, rejimin yarıtmazlıqları kəndə də gəlib çatmayıbmı? Yenə də sistemin, mühitin naqisliyi. Valeh müəllim halallıqla, öz qazancı hesabına kənddə ev tikmək istəyir. Ancaq jurnalist kimi bir-iki yazı yazmaqla bu işin mümkün olmayacağını anlayır. Dostu, qardaşlığı, eləcə də digər yaxınları Valeh müəllimə ev tikməkdə, yurd salmaqda hər bir köməklik edəcəklərini söz versələr də, praktiki olaraq heç bir iş görmürlər. Yazıçı kənddəki pozulan mənəviyyatı raykom katibi Balayev obrazında ümumiləşdirmişdir. Yenə də kolliziya, yenə də üz-üzə qoyulan dəyərlər. Bu dəfə raykom katibi Balayevlə toqquşan Valehdir, sadə kəndli, qarovulçu Orucdur.

Valeh müəllim rejim qanunlarının hakim olduğu bütün dairələrdə, bütün ərazilərdə naqisliyin epidemiya kimi yayıldığını, insanların mənfəətpərəst, riyakar olduğunu görür. Ona görə də kəndin yaxınlığındakı sakit bir

[1] Sabir Əhmədov. Yasamal gölündə qayıqlar üzürdü. Romanlar. – Bakı: Yazıçı, 1984, s.161

guşəyə − Azığ mağarasına çəkilir. Bu məqam, yazıçının onu Azıx mağarasına yönləndirməsi sıradan nüans sayılmamalıdır: "Azıxa doğru" romanının urbanist mühitdən cana doymuş qəhrəmanının doğma yurda gəlişinin Azıx mağarasına – ən qədim insan məskəninə səyahətlə sonuclanması müəllifin "nicat ilkinlikdədir" kimi romantik qənaətindən qidalanır".[1] Bu həm də insan oğluna düşünmək, ibrət üçün seçilən mənəvi ərazidir. Doğulduğu yurdun qədrini bilməsi, onu tərk edib başqa məkanlara üz tutmaması üçün özünüdərk təlimidir. Bu mənada, ədəbiyyatşünas tənqidçi Akif Hüseynlinin qənaətləri dəqiqdir: "Azıxa doğru! – biz bunu belə qavrayırıq ki, yəni tariximizi tanımağa, torpağımızın qədimliyini duymağa, xalqımızın varlığına qovuşmağa doğru! Azıxa doğru! – yəni mənəvi simamızı mühafizə etməyə, yurdumuzu – məskənimizi qəlbimizdə ucaltmağa, onun şamını-çırağını həmişə alışdırmağa doğru!"[2]

Dünyanın dağılan nizamı, əyilən arşını, itirilən meyarları Sabir Əhmədlinin simvolik şəkildə adlandırdığı "Dünyanın arşını" romanında daha bitkin formada öz əksini tapmışdır. "Dünyanın arşını" çox dəyərlərin itirilməsinə işarə edən bir əsərdir. Ailə bağlarının, insanların bir-birinə inamının, haqq sözün çəkisinin itirilməsini bədii boyalarla təcəssüm etdirən bu əsər XX əsr Azərbaycan romançılığının seçilmişləri sırasında qərarlaşır. Tənqidçi Vaqif Yusifli yazır: "Dünyanın arşını" Azərbaycan nəsrində öz fəlsəfi-publisistik yönü ilə seçilirdi. Zahirən bir rayonda baş verən hadisələri təsvir etsə də, əslində, problem əhatəli idi, durğunluq illərində bütün ölkəni və xalqı sarmış mənəvi və sosial bəlaların bir rayon timsalında ümumiləşdirilməsi o zaman yuxarı dairələri qıcıqlandırmaya bilməzdi. İndi lap ucadan, qorxusuz-hürküsüz söylədiyimiz həqiqətləri Sabir Əhmədli qırx-qırx beş il əvvəl açıq söyləmişdi".[3]

Bu əsərdə də kənd və onun problemləri fonunda yazıçı ümumən bütün ölkənin neqativlərinə fokuslanırdı. Filosof Arifin cəmiyyətdə gedən proseslərə fəlsəfi baxışı, baş verən sosial-ictimai hadisələrlə bağlı mühakimələri onun həm də sosial mühitə qarşı üsyanı statusu alırdı. Roman kimi Haraylı kəndinin də adı simvolikdir. Bu, əslində, problemlər içində qıvrılan, yaşamın acınacaqlı hala gəldiyi bir mühitin harayıdır. Yazıçı qəhrəmanın çıxışı əsasında şüur oyanışının labüd olacağını, kəndlinin öz hüquqlarını, haqlarını tanıyacaqları günün yetişəcəyini, öz müqəddəratını onun taleyi üçün cavabdeh ola biləcək şəxsə etibar etmək vacibliyini mətnaltı şəkildə işarələyirdi: "Filosof danışır, öz səsini eşidirdi. Kəlmələr guya xırda-xırda çınqıllardı, göləmi, çayamı düşürdü. Deyirdi:

[1] Təyyar Salamoğlu. Müasir Azərbaycan romanının poetikası. – Bakı: Elm, 2005, s.91
[2] Akif Hüseynov. Sənət meyarı. – Bakı: Yazıçı, 1986, s.289
[3] Vaqif Yusifli. Sabir Əhmədli – yaşayan sənətkar. "Kaspi" qəzeti, 2014, 11 fevral

– Camaatı dolandırmaq lazımdır, camaatı. Bilirsiniz, kənddə camaatın rəyi çox şeyi həll eləyir (O, gözünün altınca sədrə baxdı, sədr də ona baxırdı.). Əvvəllər bir qədər başqa cür idi, amma indi xalq… (yenə aramla başını çevirib sədri görmək istədi. Sədr solmuş, üzülmüşdü.) qətiyyən yol vermir ki, təsərrüfatın, kəndin taleyi onun başı üzərindən həll edilsin (Sədr yerində yoxdur. Onun eşiyə çıxdığını görən olmamışdı. Arif onun əyləşdiyi yerə bir də diqqətlə baxdı. Orda yalnız sədrin kölgəsi sayıla biləcək, çox pozunuq bir surət vardı). Sədri də camaat seçir, camaat saxlayır, (Güloğlan yoxdu. O, sözlərini kimə deyirdi? Pəncərəyə-divara baxdı, bəlkə baxışı dolaşıb, açıla. Gözləri dumanlanıb? Bir də əyləşən yerə baxdı) və ya çıxarır. Belə də olmalıdır. Nə üçün də ailəmin, özümün müqəddəratını,… (Güloğlanın əyləşdiyi stol boşdu. Yuxarıda bayaqdan heç kimin əyləşmədiyi guya əyləşməyə cürət etmədiyi tək stulda isə qalın şüşədənmi, metal-plastmas qarışığındanmı qayrılmış bir skafandr qoyulmuşdu) yaşayışımı etibar etdiyim adamı mən yox, başqası seçə?"[1]

Sabir Əhmədlinin povestlərində yaratdığı qəhrəmanlar daha üsyankar ruhu ilə seçilirlər. "Yamacda nişanə" povestinin qəhrəmanı Laçın, "Qanköçürmə stansiyası"nın qəhrəmanı Hüsən kimi. Bu qəhrəmanlar, xüsusilə Hüsən obrazı ilə müəllif mühitin ağır basqıları altında əzilən bir obraz yaratmış, mühitin rəzilliklərini, insan qanına susayan dəllalları, qanını pula satıb, sonra həmin pulla araq alıb içən əyyaşları, qəssab işləyən qəhrəmanın həyatı, fərqli düşüncə tərzini prozaik müstəviyə gətirmişdir. Sabir Əhmədlinin əsərlərini istər ictimai-sosial qayəsi və prinsipləri, istərsə də bədii sənətkarlıq səviyyəsi ilə ciddi yaradıcılıq nümunəsi hesab edən ədəbiyyatşünas-alim Kamil Vəli Nərimanoğlu qeyd edir: "Qanköçürmə stansiyası"nda məlum sosial bəlanın "bədii-psixoloji mənzərəsi o qədər ustalıqla verilmişdir ki, yalnız sovet cəmiyyəti üçün deyil, bütün totalitar cəmiyyətlər üçün dəhşətli bir mənzərə olan "Qanköçürmə stansiyası" örnək kimi, sənət nümunəsi kimi yaşayacaq".

Gördüyümüz kimi, Sabir Əhmədli 1950-ci illərin sonu, 1960-cı illərin əvvəllərində yazdığı hekayələr və "Aran" roman ilə əməkçi insanı əsas obraza çevirdi. 1980-ci illərdə yazıçının yaradıcılığında başqa mühüm keyfiyyətlər önə keçdi. Urbanizasiya problemləri, sosial-psixoloji dərinliyə meyil, ziyalı, intellektual obrazların hiss, düşüncə aləmlərinin təsviri ilə sosial mühitin reallıqlarını açıb göstərmək təmayülü işlək oldu. Sabir Əhmədlinin 1990-cı illər yaradıcılığı isə onun milli-azadlıq hərəkatına, Qarabağ münaqişəsinə, metafizik başlanğıca müraciəti ilə dolğunluq qazandı, dəyişən zaman və mühit kontekstində qəhrəmanın həyata, cəmiyyətə ümumbəşəri dəyərlər

[1] Sabir Əhmədov. Gedənlərin qayıtmağı. Dünyanın arşını. Romanlar. – Bakı: Yazıçı, 1985, s.429

prizmasından yanaşması dünyadərk məqamı kimi mənalandı, varlıq və yoxluq hüdudunda hərəkətə gələn ruhun ucalıq səviyyəsi nəsrimizin yeni estetik dəyər və ümumbəşəri çalar kəsb etməsinə yol açdı.

1990-cı illər – Qarabağ. Sabir Əhmədli bu dövrdə xalqımızın üzləşdiyi bəlaları nəsrə gətirən və bunu epik panoram təsvirləri ilə canlandıran nadir yazıçılardandır. Təsadüfi deyil ki, 1990-cı illərdə də yazıçının yaratdığı bütün əsərlər, onların mövzu və əhatə dairəsi çağın diqtə etdiyi reallıqlara adekvat olaraq yazılır. "Kütlə", "Yanvar hekayələri", "Axirət sevdası", "Kef", "Ömür urası" və ölümündən sonra çap olunan "Yazılmayan yazı" əsərləri Sabir Əhmədlinin bir yazıçı kimi ölkədə yaşanan situasiyalara həssas yazıçı baxışıdır. Meydan prosesləri, milli azadlıq hərəkatı, 20 Yanvar faciəsi, Qarabağ münaqişəsi, erməni təcavüzü, Sumqayıt hadisələri, qaçqınlıq problemi, yurd həsrəti motivləri və başqa bu kimi müharibənin ardınca gətirdiyi bəlalar çeşidi yazıçının əsərlərindən başlıca xətt kimi keçir.

"Kütlə" romanı 1980-ci illərin sonlarında alovlanan meydan hərəkatına həsr edilən əsərdir. Meydanlara axışan xalq, tribunalarda xalqı mübarizəyə, azadlıq uğrunda mücadiləyə səsləyən ziyalılar, eyni zamanda bu ağır gündə, insanların ərzaq məhsullarının çoxunu talonla aldığı bir zamanda yuxarı eşalonda çalışan partiya işçilərinin firavan yaşayışı və s. bu kimi məsələlər əsərdə geniş əksini tapıb. Ad məsələsində həssas olan Sabir Əhmədlinin romanını "Kütlə" adlandırmasını təsadüfi saymırıq. Burada bir amal uğrunda küçələrə axışan insanların yumruq kimi birliyi ilə bahəm onların fərqli ambisiyalar, ideologiya və dünyagörüş nəticəsində kütlə olaraq qalması da nəzərdə tutulur. Yazıçı, eyni zamanda Meydanı yalnız görünən qüvvələrin deyil, həm də "görünməz dalğa"nın idarə etdiyini anladır.

Sabir Əhmədli hələ yenicə haqq səsini qaldırmağa çalışan xalqın toplandığı Meydanı bütün detalları ilə təsvirə çalışır, insanların psixologiyasının qatlarını açır, qınaq və ittihamlar, üsyana hazır olmamağın fəsadları, düşüncədəki natamamlıqları təsvir edir. Bəzən bu təsvirlərdə qarışıqlıq hakim olur, sanki Kütlə ab-havası əsərin daxilində də yaşanır. Bu da ondan irəli gəlir ki, müəllif o dövrə dair müşahidə etdiyi bütün nəsnələri mətnə hopdurmağa çalışır, qarışıq üslub, dolaşıq dialoqlarla yüklənən əsərdə bəzi yerlərdə nəzərə çarpan çaparaqlıq, cilalanmamış fikirlərin təqdimi xaotik bir dalğa yaradır. Buna baxmayaraq, "Kütlə" romanı xalqın üzləşdiyi problemləri incəliklərinə qədər əhatələyib içinə almaq baxımından tarixilik nöqteyi nəzərindən dəyərli nümunədir.

"Kütlə" romanında tarixi qata nüfuz müasir proseslərlə qoşa verilir. Müəllif bu xətti əsərdə Adaş müəllim obrazı vasitəsilə əyaniləşdirir. Nəşriyyat işçisi, azadlıq hərəkatının alovlu iştirakçısı, xalqın hürriyyətini ürəkdən arzulayan Adaş müəllimi yazıçının prototipi, avtobioqrafik obraz kimi də qəbul etmək olar. Hadisələrə soyuqqanlı tərzdə yanaşan Adaş

müəllim baş verənlərə tarixin ibrət məqamlarından nəzər yetirir, keçmiş olaylara ekskurs edir, fikirlərini ya özü, ya da Asif, Qulamla paylaşır. Ermənilərin zaman-zaman xalqımızın başına açdığı oyunlardan, torpaqlarımızı işğal etməsindən, törətdiyi vəhşiliklərdən, ötən əsrin əvvəllərində zülmü ərşə dayanan işgəncələrin vüsətindən bəhs edir, 1915-ci ildə Türkiyəyə qarşı xəyanətlərini, ziyalılarımıza qarşı riyakar və bədnam əməllərini xatırladır. Müəllif Adaş müəllim, Asif və Qulam obrazlarında proseslərə daha ayıq, daha analitik münasibət izhar edə bilir.

Sabir Əhmədlinin 1990-1991-ci illərdə yazdığı "Yanvar hekayələri" bizim nəsrdə 20 Yanvar faciəsinə həsr olunan hələlik ən sanballı bədii nümunədir. Bu hekayələr kitabında həmin hadisə ilə bağlı bütün mənzərə bədii rakursdan məharətlə işlənib. Öz azadlığı naminə meydanlara axışan xalq, silahsız xalqa hücum edən sovet ordusu, qana boğulan insanların fəryadı hekayələrin əsas təsvir predmetini təşkil edir. Sabir Əhmədli bu hekayələrdə insan hisslərini, ondakı vətənpərvərlik duyğularını, yurdu üçün əzmlə mücadilə etməsini psixoloji nüans dəqiqliyi ilə ifadə etməyə çalışır. Eyni zamanda rus imperialist siyasətinin obrazı, bir xalq olaraq dəfələrlə aldanışlarla üz-üzə qalmağımız kimi məsələlər də hekayələrin içindən əsas xətt olaraq keçir. Qeyd edək ki, kitabda yer alan "Dənizdən gələn səda" hekayəsi ABŞ-da da yayımlanmışdır. Hekayədə 20 Yanvar faciəsi ilə bağlı məqamlara, gizlin qatlara varılır ki, məsələn, meyitlərin dənizə atılması, yandırılması, ölülərə edilən həqarətlər, izi itirmək üçün onları sulara qərq etməklə bağlı faktlar və s., – onların həqiqətə əsaslandığı çox keçmədən etiraf edildi.

"Dənizdən gələn səda" hekayəsi "son mənzili Xəzər olan" oğlanın, beş bacının tək qardaşının nisgilli, nakam taleyinə həsr olunub. Rusların hücumu ilə 20 Yanvarda həlak olaraq neftdaşıyan gəmidə Dərbənd sularına atılıb suitilərə yem edilən bu oğlandan təsəlli olaraq geridə qalan anasına yazdığı məktubdur. Yazıçı o məktubdakı sözləri ümumən 20 Yanvar hadisələrində itkin düşənlərin son xatirəsi kimi əbədiləşdirir. O kəslər ki, onlara heç Şəhidlər Xiyabanında dəfn olunmaq belə qismət olmadı:

"Alatoranda göyərtə kranları işə düşdü. Türümlərdəki bağlamaları çıxartmağa əl qatdılar. Bəlkə, tonqal çatacaqdılar. Yox, bunların niyyəti özgə imiş. Brezent bağlamaları göyərtənin qırağına sürüdülər.

"Raz! Dva! Vzyali!" – meyit çatılmış mafraşlar dənizə quylandı. Sonra... sahibindən ayrı düşmüş qollar, qıçlar, başlar tolazlandı. Bu, bir məşəqqətdi. Bizi yandıran o idi ki, başımıza gətirdikləri bəs deyilmiş, ardımızca söyüş yağdırır, təpiklə vurub bağırırdılar: "Vot vam Şaxidlyar xiyabanı!"

Bir də gördük ki, ana, üstümüzdə vertolyotlar dolanır. Köməyəmi gəlmişdilər? Endi, az qaldı dalğalara toxunsun. Qapı açıldı, oradan dənizə atılmağa başladılar.

Paraşütləri yox idi, dalğaların arasına düşür, batır... çıxmırdılar. Hə, bunlar desant deyilmiş, eləcə bizdənmişlər. Amma onları vertolyotla gətirmişdilər.

Beləcə, başı Həştərxan, ayağı Lənkəran – dəniz oldu məzarımız, can ana".[1]

Müəllifin həmin silsilədən çap olunan "Cəza", "İşığı söndürmə", "Şəhidlər Xiyabanı", "Qisas", "Heç nə" hekayələri də şəhid ata və anaların harayını, emosional baxışlarını, övlad itkisinin onlara hansı psixoloji zərbə vurduğunu, erməni quldurlarının bədnam əməllərini, xalqımıza olan mənfur niyyətlərini meydana qoyur.

"Kütlə" və "Yanvar hekayələri" Sabir Əhmədlinin yazıçı, vətəndaş olaraq xalq, millət qarşısında mənəvi cavabdehlik hissindən hasilə gələn əsərlərdir. Ölkənin çətin günündə baş verənlərə tarixi qiymətin verilməsində, onun taleyüklü məsələlərinin ədəbiyyata gətirilməsində bu əsərlərin müstəsna rolu oldu.

Qarabağ məsələsi Sabir Əhmədlinin bioqrafiyasında izini dərin qoymuş, yazıçının müharibə faktoruna çağdaşlarından daha həssas yanaşmasına, mövzunu davamlı təsvir predmetinə çevirməsinə səbəb olmuşdur. Hələ "Ədəbiyyat" qəzetinin 1993-cü il mart-aprel aylarında "Qarabağın qarlı səngərləri" adlı publisistik yazısında yazıçı Füzuli və Cəbrayıl bölgəsində apardığı müşahidələrini oxucularla bölüşərkən cəbhədə rastlaşdığı bütün reallıqları təfərrüatı ilə nəql etmiş, erməni qüvvələrinin dinc əhaliyə tutduqları divanları, onların yaşadıqları ərazilərə qəfil basqın etmələrini, əliyalın insanların çarəsizliyini, eyni zamanda belə ağır günlərdə arxa cəbhədə aparılan oyunları, vəzifə hərisliyi, dəstəbazlıq, ön cəbhədəkilərin vəziyyətinə biganəlikləri və digər bu kimi amansız gerçəkləri sərt formada sərgiləmişdir. Sonrakı illərdə müharibə mövzusu yazıçının yaradıcılığında daha çox o kontekstdən işlənmişdir ki, dünyanı idrak, özünü dərk, son problematikası, heçlik duyğusu önə keçmiş, iç yaşantıları, mənəvi iztirabları ancaq bu məqsədin ifadəsinə yönəlmişdir: "Məni ölüm düşündürür!"

Ölüm haqqında düşünmək üçün Sabir Əhmədlinin böyük ağrıları vardı. Qardaşını müharibədə itirən yazıçı 1994-cü ildə Qarabağ uğrunda aparılan savaşda oğlu Məhəmmədi də itirmişdir. Bütün bu iztirablar yazıçının "Axirət sevdası", "Kef" və "Ömür urası" romanlarında əksini tapmışdır.

Bu üç əsəri ilk trilogiya adlandıran və "Qarabağ müharibəsi mövzusu ümumən ədəbiyyatımıza bu trilogiya ilə girir", – yazan ədəbiyyatşünas

[1] Sabir Əhmədov. Yanvar hekayələri. – Bakı: Azərnəşr, 1992, s.78

tənqidçi Tehran Əlişanoğlunun "Sabir Əhmədlinin Qarabağ trilogiyası" adlı məqaləsində oxuyuruq:

"Axirət sevdası" üç romandan ibarət trilogiyadır; əgər eyniadlı birinci romanda Müharibə ilə üz-üzə İnsanın Əbədiyyət axtarışları (ruhi varlığı) predmet seçilmişsə, "Kef"də müharibə şəraitində İnsanın başlıca olaraq nəfsi – cismani yaşamları hədəfdədirsə, "Ömür urası"nda yazıçının diqqəti bu dəfə İnsanın mənəvi siması, "yer sakini"nin məğzi-mənası, Yer ölçüləri üzərindədir.

Romanın poetexnologiyası barəsində təzə nəsə deməyə lüzum yox. Ümumən bu yaşda, bu yetkinlikdə yazardan təzə bədiiyyat istəməyin özü yanlış olar; bu, yenə də həmən XX əsr Avropa romançılığıdır ki, İnsanın mənəvi (sosial, psixoloji, ekzistensial, altşüur...) dünyasını verir qəhrəmanın düşüncə selinin qabağına və oxucu ilə bahəm baxır-görsün sonu nə olacaq... Bu, elə həmən qəhrəman – milli ziyalı obrazıdır ki, S.Əhmədlinin ilk bu tipli romanı – "Dünyanın arşını"ndan (1966-67) çıxıb, bugünəcən ölçə-ölçə milli varlığın parametrlərinə güzgü tutur, yuxulara – divan. İntəhası Zaman, dövr, kontekst dəyişir – qəhrəman yaşa-zamana dolur, kontekst mətnə-tekstə. Və baxıb-görürsən qarşında tamam başqa romandır, düşüncə hədəfi də ayrı. Yoxsa ki, Sabir Əhmədli nəsrinin elə bir sirri də yox; əzəldən qəhrəmanı fokus seçmiş, "danışan" – qəhrəmanın düşüncələridir, "sirr" – onun həyatı..."[1]

"Axirət sevdası" və "Ömür urası"nda tale, ölüm, ruhun fəlsəfəsi, fanilik və əbədiyyət haqqındakı düşüncələr aparıcıdır. İtirdiyi torpağı, ocağı ilə bağlı narahatlığını yanıqlı bir dillə qələmə alan yazıçı qəfil intonasiyanı, ritmi dəyişir və hadisələrin obyektivi müəllifin mənəvi yaşantılarının dərin qatına fokuslanır. "Məni ölüm düşündürür"! Bundan sonra daha çox fəlsəfi mündəricə önə keçir. Bu fəlsəfi düşüncə ilə yüklənmiş obraz yazıçının özüdür. Sabir Əhmədlinin yazıçı, vətəndaş, ata kimi duyğularını danışdırdığı əsərdir "Axirət sevdası". Roman boyu qəhrəmanın – özünün daxili nitqi, şüur axını, irəli-geri zaman dönümlərinə sıçrayışları, oğlu Məhəmmədin itkisi ilə bağlı yaşadığı dərin psixoloji-hissi sarsıntıları o qədər dərin işlənir ki, oxucu yazıçının şəxsi kədər və iztirabının fonunda bütöv vətənin yaralarını, portretini görür.

"Axirət sevdası" romanındakı əsas surət yazıçının oğlu Məhəmməd olsa da, o, romana təhkiyəçinin xatirələri, düşüncələri, yaddaş qəlpələri əsnasında adlayır. Təhkiyəçi isə yazıçının özüdür. Oxucu yazıçının seçdiyi belə bir bədii üsul vasitəsilə müharibə və onun acı reallıqları, oğlu Məhəmmədin ön cəbhəyə könüllü qoşulması, az sonra şəhid olması faktı ilə tanış olur.

Oğlunun ardınca cəbhə bölgəsinə yollanan ata onu Beyləqanda,

[1] Tehran Əlişanoğlu. Sabir Əhmədlinin Qarabağ trilogiyası. – Bakı: "Tənqid.net" jurnalı, 2008, № 5, s.39-40

Goranda, Gəncədə, Murovda axtarmalı olur. Ordan Gəncəyə, dostunun evinə qayıdır. Bu zaman ona Məhəmmədin yaralanması xəbərini verirlər və o, dərhal Bakıya üz tutur. Və... Evə daxil olunca oğlunun hüzür məclisi ilə qarşılaşır:

"Orta-böyük otaqda çəhrayı ipək örtük salınmış cənazə qoyulmuş, anası başdan oturmuş, xalaları, qonum-qonşu cənazə dövrəsində halay qurub əyləşmişdilər.

– Yox! Yox! Yox… Ola bilməz. İnanmaram! Məhəmməd, balam mənim! İnanmaram! – cənazənin ayağında çöküb, dizin-dizin onun üstünə can atdım.

– Açın üzünü! Götürün örtüyü! Mən onu görmək istəyirəm!.. Mən səni haralarda axtardım, balam?! Gəlibmişsən, özün gəlibmişsən! Məndən qabaq gəlib çıxmısan evimizə".[1]

Bu kiçik parçada müharibə məşəqqətlərini, onun insan həyatına qatdığı acıları dərk etmək üçün hər şey var. Oğul itirən atanın ağrıları, canını vətən üçün könüllü sipər edən oğullarımızın nakam taleyi, insan həyəcanlarının ekstaz biçimdə təqdimi və bütün bu mənəvi yaşantıların sonda insan psixologiyasına vurduğu zərbələr. Bu mənada "Axirət sevdası" əsərinin əsas leytmotivini təşkil edən fanilik və əbədiyyət haqqında düşüncələr heç nahaq deyil. Romanda şəhidlik ali bir məqam olaraq mənalanır. Məhəmmədin ölümündən sonra əsər ölümlə bağlı, ruhun fəlsəfəsi ilə bağlı metafizik qata enişi ilə davam edir. Vaqif Yusifli yazır: "Sabir Əhmədlinin "Axirət sevdası" romanı bu ata dərdini əbədiləşdirən bir əsər kimi yarandı. Bu roman "Ata ağrısı" da adlana bilərdi. İlk dəfə idi Azərbaycan bədii nəsrində Yazıçı – Atanın oğul itkisindən doğan dağ boyda dərdi ilə üzləşirdik".[2]

Əlbəttə, əsərin içinə aldığı çox problem, çox mənzərə var. Müharibə ritmi əsərin hər səhifəsində duyulur. Düzdür, müəllif savaş səhnələri canlandırmır, buna baxmayaraq, yazıçının həm arxa, həm də ön cəbhədə görüb şahid olduğu reallıqlar, əsgərlərimizin orduda vəziyyətlərinin qənaətbəxş olmaması, silahsızlığı, əyin-başlarının nazikliyi, belə bir çətin durumda, onların ölüm-qalım savaşında canları ilə əlləşdikləri bir zamanda müxtəlif rayonların icra başçılarının toy-büsat qurmaları, öz eyş-işrətlərindən qalmamaları haqqında təhkiyəçi yol boyu düşünür, ağrıyır.

"Kef" romanında yazıçının toxunduğu problemlər çoxyönlüdür. Bir yazıçının ailəsindən başlanan hekayət az sonra ictimai sferaya adlayır. Əsərin mövzusunu ölkəmizdə gedən ictimai-siyasi proseslər, ərazi bütövlüyü uğrunda çarpışmalar, milli müstəqilliyimizin bərpa olunması, qaçqınların öz doğma ocaqlarına qayıtması, savaş ruhunun dirçəldilməsi, müharibənin

[1] Sabir Əhmədov. Axirət sevdası. – Bakı: Ozan, 2003, s.45
[2] Vaqif Yusifli. Sabir Əhmədli – yaşayan sənətkar. "Kaspi" qəzeti, 2014, 11 fevral

fəsadlarının aradan qaldırılması kimi məsələlər təşkil edir.

Nəhayət, yazıçının sağlığında çap olunan "Ömür urası" romanı. Bu məqama diqqət edək: son kitab "Axirət sevdası" (2003), son əsər isə "Ömür urası" (2000-2001)!

"Ömür urası" Sabir Əhmədlinin həyat, ruhlar aləmi, iki dünya ilə bağlı narahat düşüncələrinin mətnləşdiyi son ünvandır. Bu, həm də yazıçının özünün gəlib çatdığı, nəfəs dərdiyi son duracaqdır – ömür urasıdır. Necə ki, əsərin əvvəllərində yazır: "Bağlar sovulanda yığılan bara el aparında "peşxudr" deyirlər. Biçilmiş zəmidən düşən tək-tük sünbül "başaq" adlanır. Bostan, dirrikdən qalma son məhsulsa "ura"dır. Məsəl var: "Gedər bostan urası, qalar üzün qarası."

İnsan ömrünün sovulan çağına da "ura" söyləmək olar. Oxuculara çatdırılan bu romansa yazıçı ömrünün son yetirməsi – "ura"dır. Bundan sonra nə yazsa, həmin ad altında gedəcək".[1]

Bu əsər də Qarabağ mövzusuna həsr olunub. Yazıçı son günlərinə qədər itki ilə barışa bilmir: qardaş, oğul, dost, torpaq itkisinin hər biri yazıçının qəlbində izini qoyur. "Yeddi il keçmişdi. Günə çevir bu yeddi ili, gör neçə gecə-gündüz eləyir. Onun hər anı ürəkağrısı, af-ufla doluydu",[2] – yazır əsərində. Burada da müharibənin insan psixologiyasına vurduğu zərbələr, şəhərə gəlib yurdunun talanmasına biganələşən qaçqınlar, paytaxtda şəhər evlərinə yerləşib doğma ocaqları üçün tərpəniş göstərməyən insanlar, düşmən əməllərinin önündə unutqanlığımız əsas qınaq predmeti olur. Amma əsər büsbütün bu motivlər üzərində qurulmayıb. "Ömür urası" Sabir Əhmədlinin xəyallar aləminə virtual səyəhətidir. Savaş bitmiş, Qarabağ azad olmuş, itirdiyimiz torpaqlar geri alınmış, qaçqınlar öz yurdlarına qayıtmışlar. Əsər Sabir Əhmədlinin həm xəyalının, həm də gələcək arzularının təsviri, sabaha nikbin baxışı ilə qapanır. Bu günün prizmasından baxdıqda əsərə uzaqgörən notlarına görə heyrət etməmək olmur. 2020-ci ildə 44 günlük haqq savaşımızdan sonra qazandığımız qələbə, böyük Zəfərimiz, geri aldığımız torpaqlarımız, qaçqınların öz yurdlarına qayıtması – nağıl kimi tarix! O şeylər ki, yazıçı son əsərində onlardan arzu kimi bəhs etmişdir.

Yazıçı Həmid Herisçinin fikrinə görə, "Bakı-Mincivan qatarı"nda Cəbrayıla gedib çıxan tənha müəllim obrazı Sabir Əhmədlinin özüdü". Yol boyu trilogiyanın qəhrəmanı olan Kişi bir zaman müəllim işlədiyi yurdunun kənd-kənd, oba-oba sorağına çıxır. Ermənilərlə qonşuluqda yaşamalarını xatırlayır, işğala az qalmış tikdirdiyi evin izi ilə az qala, hər dağın, daşın əvvəlki biçimini axtarır. Reallıqsa danılmazdır. Ermənilərin kənddə dağıtmadığı, viran qoymadığı heç nə qalmayıb. Evlər, muzeylər, tarixi

[1] Sabir Əhmədov. Axirət sevdası. – Bakı: Ozan, 2003, s.222
[2] Yenə orada, s.225

abidələr, heykəllər, qəbirlər xarabazara çevrilib. Sabir Əhmədli sovet dövründə yanaşı, dinc şəraitdə birlikdə yaşadığımız erməni məsələsinə həssaslıqla yanaşır. Qeyd edək ki, yazıçı hələ 1984-cü ildə nəşr olunan "Göy gümbəz" kitabındakı "Qəribə səyyahlar" (1973) adlı hekayəsində "Qara limanı", "Madğa" kimi sözlərlə Qarabağla bağlı müəyyən işarələr etmişdir. Bu artıq Sabir Əhmədli fəhminin gücü idi. İndi budur, illər ötmüş, "deyilənlər başa gəlmiş"dir. Yazıçı isə heç vəchlə olanlarla barışa bilmir: "Türk görəndə əsim-əsim əsən erməni gör bizi doğma yurddan qaçırtmış, yurd-yesir etmişdi: "Ara, musurman! Yeddi ermənini bir dərədə tək görmüsən?", – deyib də ələ saldığımız, sarıdığımız erməni başımıza nə müsibətlər gətirdi! Qorxaq, quşürək sandığımız dığalar, haylar tarix boyu nə qədər uduzmuşdular, nə ki hayıfları vardı bizdə, hamısını aldılar..."[1]

Sabir Əhmədli qələminin həqiqətləri boyasız təqdim etmək sərişləsi burada da işə düşür. Yazıçı ittihamına tuş gələn yalnız erməni vəhşiliklərinin hüdudsuzluğu olmur, həm də ermənilər gəlməmiş boşalmış yurdda, mahaldakı evlərin talan olması faktı mətnə gətirilir. Eyni zamanda müharibə yaşanan bir dövrdə hökm sürən disharmoniya, ölkənin iki qütbündə ayrı atmosferin mövcudluğu, torpağı qorumaq əzmində birlik yarada bilməməyimiz, insanların düşmən önündə tərksilah, əliyalın buraxılması, üstəlik, müxtəlif dünya birliklərinin bu haqsızlığa göz yumması, erməni ilə olan iş birlikləri Kişinin düşüncələrindən keçən fikirlər qismində qərarlaşır: "Dünya ermənilərin mənafeyini güdür, bütün xaçpərəst aləmi, Avropa, Amerikada sakinləşmiş erməni diasporu onlara yardım edir, havadarlıq göstərirdi. Bizimkilərsə iqtidar-müxalifət cəbhəsinə bölünüb, bir-biriylə çəkişir, öcəşir, bitib-tükənməz didişmədən qurtarıb, Qarabağın azadlığından ötrü iş görə bilmirdilər..."[2]

Bir əsərin bədii təsir gücü insan ağrısı və həqiqətini meydana qoymaqdısa, "Ömür urası" romanında bu səviyyə yetərincə dolğun işlənib. Tehran Əlişanoğlu düz vurğulayır ki, "Sabir Əhmədli, tələb olunduğutək ədəbiyyatımızda ilk dəfə Qarabağ müharibəsi mövzusunu qlobal yanaşma müstəvisində çözməyə cəhd edir".[3] Və əsaslandırır: "Romanda bir leytmotiv var – İnsan! Və bu, təkcə əsas personaj – Azərbaycan Kişisinin simasında təcəssüm tapmaqla qalmır; yazıçı təfərrüatları, faktları, yaddaşdan və bilavasitə lövhələri, epizodları, hadisələri danışdırmaqla geniş insan mənzərələri yaradır; eyni zamanda anti-insani səhnələrə vurğu salır. S.Əhmədli insanlarımıza qarşı neçə-neçə erməni vəhşiliyinin konkret, faktik təsvirini

[1] Sabir Əhmədov. Axirət sevdası. – Bakı: Ozan, 2003, s.287
[2] Yenə orada, s.299
[3] Tehran Əlişanoğlu. Sabir Əhmədlinin Qarabağ trilogiyası. – Bakı: "Tənqid.net" jurnalı 2008, № 5, s.42

verərkən, sakit görünür; lakin bu, niyyəti duru bir qələmin toxdaqlığıdır, müharibəyə öz rəngində yanaşmaq gərəkdir: "Kişi öz həyətinə yaxınlaşmaqda özünə bununla təsəlli verirdi: erməni işğalçılarının törətdiyi bütün cinayətlər Nürinberqsayaq bir məhkəmədə açılmalı, ifşa edilməlidir. Yalnız qırdığı dinc əhali, körpələrin intiqamı yox, qətlə yetirilmiş ağacların da cəzası verilməliydi. Bağ-baxçalara amansızcasına divan tutmuş qəsbkarlardan məhv etdikləri bitkilərin də qisası alınmalıdı..."[1]

Romanda son səhnədə yurduna qayıtmış Kişi burada ilk xalçaçı qızlarla rastlaşır. Bu həm də yurda bağlı olmağın təkrarsız milli çalarda ifadəsidir. Məhz xalça toxuyan qızların yurda ilk sahib çıxması! Amma onlar həm də Kişinin şəhid olmuş oğlunun arzularının şahidləridir: "Kişi hal-əhval tutdu. Xalça Birliyinin başına nə gəldiyini soruşdu.

Qızın baxışları taxtapuşu sökülmüş alt-üst evin üst qatına dolandı. Pəncərələri çıxarılmış otağın önündə, eyvanın tavanına dikildi. O, köks ötürüb dedi:

– Sizin oğlunuzun başına gələni də eşitdik... Murovda şəhid olub... Qızı qəhər boğdu, kişi dilləndi:

– O, yayda buraya gəlir, evin işinə əl tuturdu. Qız üst qatı, eyvanın tavanını göstərdi:

– Oranı rəngləyirdi. İşdən gedəndə görmüşdük. Anası çağırırdı: "Ehtiyatlı ol, yıxılarsan!" Bibisinin, sizin bacınızın toxumçuluq idarəsinə də baş çəkirdi... Bibisinə deyibmiş: "Mən xalçatoxuyan qız alacam!" Kişi kəsik ağacların dibinə axan suya baxdı, dilləndi:

– Hər şey yerini alacaq. Dağılmış şəhərlər, kəndlər yenidən qurulacaq, əzəlkindən də abad olacaq. Qaçqın-köçkün yurda qayıdacaq. Bircə şəhidlər qayıtmayacaq. Onlar biryolluq köçüblər.

Xalçaçı qız üst qatdan gözünü yığıb, müəllimlə sağollaşıb, düzəldi yola".[2]

Yazıçının ölümündən sonra işıq üzü görən, 80 illik yubileyinə həsr edilən "Yazılmayan yazı" müəllifin ən irihəcmli romanı kimi avtobioqrafik səciyyə daşıyır. Romanda müəllifin dünyaya göz açdığı Cəbrayıl rayonunun tarixi ilə bağlı faktlar, məktəb və tələbəlik illəri ilə bağlı xatirələri, Bakıya gəlişi, müəllim kimi rayonda çalışması, ədəbi mühitlə münasibətləri, Cənub mövzusu, çox sevdiyi Ziyarat dağı, "onun hər iki yanından Araza doğru uzanan qollar", Qarabağ silsiləsi haqqında məlumat, nəsil şəcərəsi, ailə üzvləri, 20 yaşında müharibədə həlak olmuş qardaşı Cəmil Əhmədovun

[1] Tehran Əlişanoğlu. Sabir Əhmədlinin Qarabağ trilogiyası. – Bakı: "Tənqid.net" jurnalı 2008, № 5, s.42

[2] Sabir Əhmədov. Axirət sevdası. – Bakı: Ozan, 2003, s.308

məzarını "Qardaşlıq qəbiristanlığı"ndan tapması və başqa bu kimi tərcümeyihalının bir çox səhifələri əbədiləşib.

Sabir Əhmədli bütün yaradıcılığı boyu kişilik dəyərlərinin xilası, onun qorunması üçün çalışdı. Bütün əsərlərində yanğılı bir dillə köhnə adət-ənənələrin, ailə kultunun, yurd sevgisinin itirilməsindən, cılızlaşmasından, yoxa çıxmaq təhlükəsindən bəhs etdi, haray çəkdi. Onun qardaş, oğul itkisinə həssaslığının mahiyətində dayanan amil həm də bu idi. Ona görə hər kişi bir evin yanan çırağıdı, dünyanın əyilən arşınını öz kişi ötkəmliyi, prinsipləri ilə nizama salandır, heç vaxt yaşanmayan, vaxtı gəlməyəcək "ura"ların səbəbidir.

Sabir Əhmədli 14 yaşında fiziki əzabına qatlandığı ölüm dəhşətini qocalığında "axirət sevdası" şəklində yaşamalı oldu. Bəlkə buna görə tale, ölüm, ruhun fəlsəfəsi, fanilik və əbədiyyət haqqında düşüncələrin ağırlığı ilə içindəki özünüdərk prosesi bütövləşdi, ölümdən qorxmağı deyil, onu sevməyi təlqin etdi bizlərə. Və məncə, buna ona görə nail oldu ki, bütün həyatı boyu onu incidən yaralarından qaçmadı, ona sığınıb ömür sürdü, ağrısının üstünü daha bərk basaraq yaşamağa çalışdı. Niyə də qaçaydı? Axı vətən uğrunda can qoymuş qəhrəman oğulların qardaşı, atası olaraq yaşamaq hər insana nəsib olan xoşbəxtlik deyildi...

Təsadüfi deyil ki, Sabir Əhmədli son romanında ölüm mövzusuna, metafizik başlanğıca qayıtdı. Bu, bəlkə də gəncliyində aldığı ölüm zərbəsinin – qardaş itkisinin sonda yenidən yazıçı ruhunda dirilişi idi. Tənqidçi Südabə Ağabalayevanın 1999-cu ildə yazdığı "Bu ömür deyilən bir kiçik möhnət" məqaləsində yazıçının ibrətli həyat yoluna aydın, dəqiq vurulmuş naxışlar yer alıb: "Yazıçı Sabir Əhmədli çox yollara yolçu olub, çox yerləri gəzib, amma onun ömründə getdiyi iki yol var ki.. Yolların biri Sabir Əhmədli qardaşı – Sovet İttifaqı qəhrəmanı Cəmil Əhmədovun adına Polşa torpağına gedib. Şimali Qafqazdan Polşayadək vuruşub, Cəbrayıla heykəl olub "qayıdan" qardaşının qəbrini ziyarət edib.

Beş il əvvəl Sabir müəllim bir də yola çıxdı. Məhəmmədi görməyə getdiyi yol labirint oldu, oğlunu soraqladığı yollar səmtini Bakıya yönəltdi... Və Yasamaldakı evin həyətində qurulmuş yas mağarında bitdi.. Burada Sabir müəllimin yolçuluğu başa çatdı. Bu yolun sonunda Sabir müəllimi Şəhid Atası adı gözləyirdi".[1]

Şəhid Atası! Azərbaycan nəsrinə qazandırdığı təkrarsız bədii örnəklərin müəllifi olmaqla bərabər, Sabir Əhmədlinin ömrünün urasında qazandığı bu ad ona Tanrı tərəfindən verilmiş Seçilmişlik haqqının ən şərəflilərindəndir.

[1] Südabə Ağabalayeva. Karvan yolu, tənha yolçu. – Bakı: Səda, 2005, s.198-209

YUSİF SƏMƏDOĞLU
(1935-1998)

Nasir, ictimai xadim, altmışıncılar ədəbi nəslinin görkəmli nümayəndəsi Yusif Səmədoğlu roman və hekayə janrının örnək nümunələrini yaratmaqla Azərbaycan nəsrinin inkişafına xidmət etmiş istedadlı yazıçıdır.

Həyatı. Yusif Səməd oğlu Vəkilov 25 dekabr 1935-ci ildə Bakı şəhərində Xalq şairi Səməd Vurğunun ailəsində dünyaya göz açmışdır. VIII sinfə qədər Azərbaycan Dövlət Konservatoriyası nəzdindəki onillik musiqi məktəbində skripka sinfində oxumuş, təhsilini 44 nömrəli məktəbdə davam etdirmiş, orta məktəbi Qızıl medalla bitirmişdir. 1953-cü ildə Moskvada Yazıçılar İttifaqı nəzdində olan Maksim Qorki adına Dünya Ədəbiyyatı İnstitutuna daxil olmuş, görkəmli rus yazıçısı K.Paustovskinin sinfində təhsil almışdır. Həmin institutun IV kursundan ADU-nun (indiki BDU-nun) Filologiya fakültəsinin V kursuna (1957-1958) keçmiş, təhsilini Azərbaycanda davam etdirmişdir.

Əmək fəaliyyətinə "Kommunist" qəzeti redaksiyasında tərcüməçi-redaktor kimi başlamışdır. 1960-1965-ci illərdə "Azərbaycan" jurnalı redaksiyasında ədəbi işçi, nəsr şöbəsinin müdiri, 1965-1969-cu illərdə "Azərbaycanfilm" Kinostudiyasında ssenari redaksiya heyətinin üzvü, baş redaktoru, 1969-1976-cı illərdə direktor müavini, 1976-1987-ci illərdə "Ulduz" jurnalının, 1987-ci ildən isə "Azərbaycan" jurnalının baş redaktoru vəzifələrində işləmişdir. 1958-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü olan Səmədoğlu 1991-ci ildə Birliyin katibliyi heyətinə (nəsr üzrə katib) seçilmişdir. 1990-1998-ci illərdə Milli Məclisin deputatı olmuş, Azərbaycan Parlamentinin Beynəlxalq Münasibətlər və Parlamentlərarası Əlaqələr Komissiyasının sədri kimi də fəaliyyət göstərmişdir.

Y.Səmədoğlu 1980-ci illərin sonlarında Azərbaycanın müstəqilliyi uğrunda gedən Milli azadlıq mübarizəsinin liderlərindən biri olmuşdur.

1979-cu ildə Əməkdar incəsənət xadimi, 1998-ci ildə Xalq yazıçısı fəxri adlarına layiq görülmüş, 1995-ci ildə "Şöhrət" ordeni ilə təltif edilmişdir.

Yusif Səmədoğlu 1998-ci ilin avqust ayının 16-da Bakıda vəfat etmiş, I Fəxri Xiyabanda dəfn olunmuşdur.

Yaradıcılığı. Yusif Səmədoğlunun gündəliyində belə bir qeydi var: – Haralısan? – Dünyalıyam!

Yazıçının bir əsəri üçün etdiyi bu yaddaş qeydi əslində Yusif Səmədoğlunun özünə aid olub, onun dünyaya münasibətini ifadə edirdi. O özünü böyük dünyanın vətəndaşı hesab edirdi. Buna görə dünyada baş verən bütün ictimai-siyasi proseslərə özünü bir insan kimi, fərd kimi məsul sayırdı. Amma böyük dünyaya vətəni Azərbaycanın sahib olduğu dəyərlər

çərçivəsindən, Azərbaycan pəncərəsindən baxırdı. Azərbaycan Parlamentinin Beynəlxalq Münasibətlər və Parlamentlərarası Əlaqələr Komissiyasının sədri kimi ölkədən kənarda olanda gündəliyində yazdığı fikirlər diqqəti çəkir. "Azərbaycanın əxlaqi saflıq genləri dağılmazdır… Əxlaqi saflıq deyəndə, təbii, ictimai əxlaqı nəzərdə tutmuram – bu, totalitar rejimin nəticəsidir – irsi əxlaqı nəzərdə tuturam",[1] – deyən yazıçı fəaliyyətinin bütün sahələrində, o cümlədən bədii yaradıcılığında bu saflığın qorunmasına çalışmışdır.

Yusif Səmədoğlunun 1960-cı ildə çap olunan ilk kitabı eyniadlı hekayəsinin adı ilə "220 №-li otaq" adlanır. 220 №-li otağın sakinləri Moskvada təhsil alan, əxlaqi saflığa, milli-mənəvi dəyərlərə xəyanət etmiş, Nizami Gəncəvi, Məhəmməd Füzuli, Mirzə Ələkbər Sabir kimi klassikləri oxumağı, saz, kamança və tarda ifa etməyi, zabul, segah, şikəstə dinləməyi gerilik əlaməti sayan, bütün bunlara artıq XX əsrdə yer görməyən, yaşadıqları zamanı saksafon, truba, trambon əsri hesab edən iki azərbaycanlı tələbədir. Hekayənin qəhrəmanı Azərbaycan, Bakı, ümumiyyətlə, vətən haqqında danışıb onlarda milli hissləri oyatmağa çalışsa da, istəyinə nail ola bilmir. Onların bütün müqəddəs dəyərlərə təkəbbürlü, istehzalı münasibətlərini dəyişə bilməyən gənc keçmiş dostlarını tərk edir, "Mən sizinlə duz-çörək kəsdiyimə görə Azərbaycana çatan kimi üzr istəyəcəyəm, səhər-axşam başı dumanlı olan bizim dağlardan üzr istəyəcəyəm. …Sonra isə Bakıda, Azərbaycanın hər şəhərində, hər kəndində hər yoldan ötəni saxlayıb bu sözləri deyəcəyəm:

– Gedin onları axtarın, tapın! Onlar 220 №-li otaqda yaşayırlar! Qorxmayın, onların üzünə tüpürün!"[2] – deyərək, etirazını bildirirdi. Yusif Səmədoğlu milli dəyərlərə yuxarıdan aşağı baxan, onları asanlıqla dəyişə və unuda bilən kosmopolitləri ümumiləşdirərək xaricdə təhsil alan iki tələbənin timsalında ümumiləşdirmiş və tənqid hədəfinə çevirmişdir.

"Qalaktika" hekayəsində isə əsas qəhrəman yaşı altmışı haqlamış, xəstə yatağında olan Kərimdir. Ancaq Kərimi xəstəliyindən çox narahat edən etiraf etməyə çətinlik çəkdiyi, onu rahat buraxmayan səhvləri, açıb deyə bilmədiyi, geridə qoyduğu xətalarıdır. "De görüm, otuz ildən bəri heç olmasa bircə dəfə qatara minib dədə-baba yurdunun ziyarətinə getmək əvəzinə, hər yay Kislovodskda avara-avara gəzməyimin səbəbi nədir? Niyə mən Bahadır kimi yaxşı-yaman günün dostlarını unutdum? İlbəil, günbəgün dəyişib mənən bu qədər yoxsullaşdım, bilə-bilə özümü torpaqdan qoparıb saralıb-soldum? Niyə mən o düzlərə, dağlara xain çıxdım, qardaş?"[3] Bu iztirablı düşüncələr,

[1] Yusif Səmədoğlu. Sonsuz ömrün yolçusu. – Bakı: Qanun, 2018, s.312-313
[2] Yusif Səmədoğlu. Deyilənlər gəldi başa. – Bakı: XXI Yeni Nəşrlər Evi, 1999, s.25
[3] Yenə orada, s.64

düzəlməsi mümkün olmayan səhvlər, "buxara papaqlı", "boz kəhərli" keçmişə xəyanətin verdiyi vicdan əzabı Kərimi çox incidirdi. Kərim onu yoluxmağa gələn gənclik dostu, ulduzları öyrənən professordan soruşur: "– Bəs elə hallar olurmu ki, o ulduzlardan biri qalaktikanın cazibə sferasından kənara çıxa bilməsin?

– Olur. Ancaq çox nadir hallarda. Milyard ildə bir dəfə.

– Nadir hallarda deyirsən?

– Hə, çox nadir.

– Demək, belə hallarda ulduz yalnız əsir düşdüyü qalaktikada fırlanır?

– Hə. Amma çox yox. Bir müddətdən sonra partlayır, toza çevrilib kainata səpələnir.

– Bunun səbəbini elm izah edirmi?

– Edir.

– O elmin adı nədir?

– Astrofizika.

– Hm, mənə isə elə gəlirdi ki, psixologiyadır".[1]

Öz vəziyyətini hansısa cazibəyə əsir düşmüş ulduzun vəziyyətinə bənzədən Kərimin bu mövzunu astrofizikanın yox, psixologiyanın problemi hesab etməsi təsadüfi deyil və az sonra o özünü otaqdakı qəfəsə salınmış bülbüllərə oxşadır. Bülbülləri açıb azadlığa buraxmağı təklif edən professora isə: "Yox, qəfəsdə yaşamağa, qəfəsdə oxumağa öyrənmiş quşlara azadlıq versən, bircə saat da yaşaya bilməz, onlar qəfəssiz yaşaya bilməzlər", – deyir və kövrəlir. Bu, hansısa qəliblərə, qəfəslərə sığışıb ömrünü çərçivələrdə keçirən, keçmiş azadlığına xəyanət edən bir insanın faciəsi, gecikmiş etirafı, düzəldə bilməyəcəyi səhvi idi.

"Astana" hekayəsinin qəhrəmanı da keçmişə xəyanətin cəzasını yaşayanlardandır. O etdiyi əməllərə, gördüyü işlərə görə arxasınca gələcəklərini bilib gecə ikən evindən, isti ocağından qaçıb, Qobustan qayalarına sığınır. Əsər boyu yadına düşən ana südünün qoxusuna, "ay bala, haram pulun axırı yoxdur, bir az toxta", – deyən anasına, "dağlardan gəlirəm, a bala", – deyən dayısı Mustafaya – bu halallıq simvollarına xəyanət edən, haram pullardan doymayan "qəhrəmanın" cəzası "Qalaktika"dakı Kərimin cəzasından daha ağır olur. O, evdən qaçıb, Qobustan qayalarının arasında gizlənib tapançanın tətiyini gicgahına sıxana qədər yaşadığı iztirablardan zamanı belə itirir. "Gecəydimi, səhərdimi, gündüzdümü – bunu bilmirdi". Gah "qırmızı günəş bayaqkı yerində baş-başa verib dayanmış iki qayanın arasında sıxılıb durmuş içi qan dolu qızıl ləyənə bənzəyir". Gah gecə olur, "Yer kürəsinin nəhəng çökəklərindən birinə milyard illərdən bəri yığılmış sular çalxalandı – uzaq dənizin boğuq və vahiməli səsi gəldi, qurd-quşun da

[1] Yusif Səmədoğlu. Deyilənlər gəldi başa. – Bakı: XXI Yeni Nəşrlər Evi, 1999, s.61

səsi daşların arasında təzədən eşidildi və ovuc-ovuc səmaya səpələnmiş ulduzlar aşağı enib hərəsi bir sal daş böyüklüyündə böyüdü və hərəsinin parıltısından yerə soyuq damlalar axdı".[1]

Yusif Səmədoğlunun əsərlərində unutqanlığın, dəyərlərə, saf xatirələrə, yaddaşa xəyanətin cəzası çox ağır olur. Necə ki, "Qətl günü" əsərində Baba Kahadan gələn səs ağ duman kimi eşiyə yayılır, yuxarı qalxıb ulduzlara qarışır, nəhəng buz parçalarına çevrilib aşağı axır, dağları, qayaları döyəcləyir, qayalardan, daşlardan yayılan səda ah kimi, lənət kimi yer üzünə yayılır. "Milyon-milyon illərin aysız və ulduzsuz gecələrinin zülmətini canına hopdurmuş sal qayalar, sal daşlar, dünyanın soyuq zülmətini təzədən dünyaya qaytarırdılar".[2]

Yazıçının yarımçıq qalan, tamamlaya bilmədiyi "Deyilənlər gəldi başa" romanında da insanlıq layladan yasinəcən unudulan müqəddəs dəyərlərin, haram əməlləri ilə korladıqları dünyanın qəzəbinə tuş gəlir. "Dünyanın nə ağ günündən, nə qara günündən doymadı insan. Özü öz rişəsini kəsdi, özü öz məzarını qazdı… Laylasını da unutdu, yasinini də. Haram süd əmmişlərin sayı həşəratların sayına çatdı, insan nə xeyrinə vəfa qıldı, nə şərinə…"[3] İnsan öz qara əməlləri, xəyanətləri ilə gələcəyi vəd edilən günün – haqq-hesab gününün, qiyamət gününün qara qorxusuyla elə bu dünyada üzləşməli olur. Əsərin lal qəhrəmanı Səməndər çox sirləri bilsə də, açıb deyə bilmirdi, ona görə yox ki, lal idi, danışa bilmirdi, ona görə ki ona inanmayacaqlarını, ələ salıb güləcəklərini bilirdi, həm də ona görə danışmırdı ki, bu sarı hamamla onun arasında böyük sirr idi. Səməndər bilirdi ki, Uçqunluqda üç kişidən biri olan Kamal Sərdarbabalının gənc qızının özünü asmasına səbəb Sərdarbabalı ocağının günahlarının böyüklüyüdür. Rayonun birinci katibi Cavadovun bacısı oğlunun yoxa çıxmasının səbəbi isə gələcəkdə tökəcəyi qanlar, viran qoyacağı ocaqlardı. Ömründə bir dəfə insan səsi eşitməyən lal-kar Səməndər gülün, çiçəyin səsini, kolun xışıltısını, quşların civiltisini, suyun şırıltısını eşidir. Onun-bunun qapısında bir qarın çörəyə işləyən Səməndər qəlbinə dəyən, onu incidən "heç kəsdən incimirdi, gülümsəyib, çiyinlərini qısıb, ən nalayiq sözlər eşitsə belə, başını aşağı salaraq ya yoluna düzəlib gedirdi, ya da işiylə məşğul olurdu... Çünki Səməndərin hər gün gördüyü, rastlaşdığı adamlara özündən daha çox yazığı gəlirdi. Bilirdi ki, hər kobud, nalayiq sözün, təhqirin, hər yalanın arxasında baxtından umu-küsü eləyən qocalı-cavanlı adamların kini-küdurəti durur".[4] Yəqin bunlara görə Səməndər əminliklə evində gizlətdiyi sarıcildli dəftərinə yazmışdı: "Mən öləndə

[1] Yusif Səmədoğlu. Deyilənlər gəldi başa. – Bakı: XXI Yeni Nəşrlər Evi, 1999, s.99
[2] Yenə orada, s.244
[3] Yenə orada, s.286
[4] Yenə orada, s.271

dünyanın ən xoşbəxt adamı kimi öləcəyəm. İnanan inansın, inanmayan inanmasın"…

Səməndər insanların, onların günahlarının cəzasının nə olacağını bilirdi. Sarı hamama gələndə görmüşdü ki, Hal arvadı insanların yaddaşını, xatirələrini yoxa çıxarıb qiyamət gününə qədər, göydəki günəşin son qızmar zərrəsinin soyuyub buza dönəcəyi ana qədər, bütün kainatın, bütün ulduzların işığı çözəlib sönənə qədər gümüş mücrüsündə atəşlərin ətrafında saxlayır. Ona görə insanlara yazığı gəlirdi.

"Yusif Səmədoğlunun əsərlərində heç bir, hətta ən xırda günah belə yuyulmur, məhz buna görə də onun insanda yaratdığı sarsıntı da insanı düz qiyamət gününə kimi izləyir... Günaha batmış və bunu dərk etmişlər isə əbədi olaraq mənəvi bütövlüklərini itirdiklərini duyurlar və bununla bağlı günahsız dünənləri ilə günahkar bu günləri və sabahları arasında yaranmış uçurumu – əbədi mənəvi naqisliklərini görür və bundan ötrü əzab çəkirlər ("Yanıram, a dağlar!"). Bu uçurumu – naqisliyi dəf etmək qeyri-mümkündür, çünki bu günah keçmişdə baş vermişdir".[1]

1967-ci ildə yazılsa da, 20 il sonra 1987-ci ildə çap olunan "Bayatı-Şiraz", yazıçının haqqında ən çox söz açılan hekayəsidir. Əsərdə restoranların birində kontrabas çalan, gündəlik qazancı cəmi 2 manat olan Səbzəli dayının acınacaqlı taleyindən bəhs olunur. Acınacaqlı olan Səbzəli dayının təkcə həyatı boyu yaşadığı uğursuzluqlar, uşaqkən valideynlərini itirib xalasının himayəsində böyüməsi, günahı olmaya-olmaya qazamatda yatması, ailə-uşaq sahibi ola bilməməsi deyil. Hekayənin ən acınacaqlı məqamı başqadır. O çalışdığı restoranda 100 manat qarşılığında kontrabasda "Bayatı-şiraz" ifa etmək sifarişini qəbul edir. Ürəkağrıdan bu səhnə Səbzəli dayının özü üçün də faciəli görünür. Əsl sənətin, incəsənətin maddiyyat müqabilində itirilməsi, yaradıcılıq ruhuna yad olan sifarişlərlə, diktələrlə yaşamaq məcburiyyətinin acısı hekayənin əsas ideyasıdır. Muğamatın şərbət kimi bir şey olduğunu, ifa olunanda külli-camaatı ayağa qaldırmalı olduğunu bilə-bilə, bütün zalı həm özünə, həm Bayatı-şiraza güldürdüyünə görə əzab çəkən Səbzəli ilk dəfə belə böyük məbləğ qazansa da, içinin səsi ona sonacan sevinməyə imkan vermir. "Az getdi, üz getdi, sevindiyindən birdən başını qaldırdı. Qaldırdı ki, baxsın görsün yuxarılarda nə var, nə yox?

Uca binaların zil qara siluetləri arasından parıltılı ulduzların əhatəsində süd yolunu gördü. Təəccüb elədi. Çünki əlli ildən yuxarı idi ki, süd yolunu görməmişdi.

Dayanıb, əlləri cibində doyunca tamaşa elədi. Birdən Səbzəli dayını ağlamaq tutdu. Ta ürəyi boşalanacan ağladı…"[2] Səbzəli dayı "220 №-li otaq"

[1] Qorxmaz Quliyev. Yanıram, a dağlar. "Azərbaycan" jurnalı, 2010, № 12, s.11-12
[2] Yusif Səmədoğlu. Deyilənlər gəldi başa. – Bakı: XXI Yeni Nəşrlər Evi, 1999, s.113

hekayəsinin personajlarından fərqli olaraq, nə qədər çətin həyat yaşasa da, göründüyü kimi, daxilində dəyərlərə ehtiram və məhəbbət saxlaya bilmişdir. O, muğama – "Bayatı-şiraz"a hörmətsizlik etdiyini özünə bağışlaya bilmir.

Yusif Səmədoğlunun əsərlərində yaddaş özünü iki fərqli kontekstdə göstərir. Birinci, yaddaş müəyyən elementlərlə – qoxu (ana südünün qoxusu, qan qoxusu, dəmir qoxusu, çürümüş yarpaq qoxusu), dad, səs ilə kilidli qapıları açır, hər şeyi xatırladır. Bir də yaddaş keçmişi, səni insan saxlayan xatirələri unudanlara cəza ilə gəlir, intiqamla gəlir. Yazıçının hekayələrində unutqanlığın, dəyərlərə, saf xatirələrə, yaddaşa xəyanətin cəzası ağır olur, qiyamət gününün vahiməsini xatırladacaq qədər ağır olur.

Yusif Səmədoğlunun əsərlərində hər adamın öz günəşi, öz ulduzu, ay işığı, süd işığı, gün işığı var. Onun əsərlərində harada olmağından asılı olmayaraq heç kəs tək deyil. "Kim tək qalır, elə bilir doğrudan təkdir. Amma heç kəs heç vaxt tək qalmır". İstər "Astana"dakı qəhrəman kimi gecənin bir aləmində başın qolların arasında Qobustan qayalarının arasında otur, istər Səməndər kimi kənddən nə qədər uzaqda bir daxmada yaşa, istər "Qətl günü"ndəki xəstə kimi qapısız, pəncərəsiz binaların buz bağlamış divarları arasında qal, istər qartal kimi dağ sakini ol. Mütləq sənin ya dərdini ovudan, ya dərdinin üstünə dərd gətirən, gözlə görünməyən bir həmsöhbətin var. Belə söhbətlər zamanı ya qəhrəmanın "çöhrəsinə bulaq suyu kimi dupduru bir təbəssüm hopur", ya da yadına beyin ağrıdan xatirələr gəlir. Bu həmsöhbət ya sənin içindəki özünsən, ya zamanın o başında, bir qapı arxasında qoyub gəldiyin, illərin səndən aldığı doğman, ya da günahındır.

Haqqında danışılan əsərlərdə irreal aləmlə real dünya o qədər qovuşuqdur ki, qəhrəmanların bir ayağı burada, bir ayağı mifik aləmdə ola bilir. Yazıçının son əsərində Səməndər gündüzlər kənddə el-oba içində, gecələr Sarı hamamda – qeyblər aləmində olur.

Onun qəhrəmanları bəzən zamanı da itirir. "Səməndər bilmirdi ki, gecənin oğlan çağıdımı, qarımış vədəsidimi, fərq etməz". Yaxud, "saat neçədir, neçə olur olsun, nə mənası var?"

Yusif Səmədoğlunun üslubuna xas xüsusiyyətlərdən biri böyük mətləblərin eyhamla, ezop dili ilə, bəzən yumorla ifadəsidir. Sovet rejiminin insanların eyni cür düşünən, eyni cür fikirləşən, bir-birinə bənzəyən, söhbətlərinin məzmunu fərqlənməyən, başını yuxarı qaldırmağı, göy üzünə, səmaya, ulduzlara baxmağı unudan insan toplusu formalaşdırmasını məharətlə ifadə edir. Yeşikdəki "əzgil yığını kimi" bir-birinə bənzəyən insanlara "başını qaldır, göyə bax, dünya gözlərində gözəlləşsin", – demək istəyirdi.

Şura hökuməti "kolxoz qurub", "bandit tutan", ömrünü ona qulluqda keçirən "hökumət adamı" İncəli Çərkəz kişinin xəstəliyinə əhəmiyyət verməyib onun təyyarənin, həkimin arxasınca qaçan halalı Sayalı arvadı üzüquylu qoyacağını görmək yazıçı uzaqgörənliyi idimi, bir gün müstəqilliyə

qovuşmağa güclü inam idimi? Yaxud "Qalaktika" əsərində 60-cı illərdə Sovet hökumətinin qurulmasına (lap göyün yeddinci qatında olsa belə) istehzalı yanaşma yazıçıdan böyük cəsarət istəyirdi.

Yusif Səmədoğlu 1959-cu ildə Cənubi Azərbaycan mövzusunda "Xəzri" və "Yaddan çıxmış sözlər" adlı iki hekayə yazmışdır. Adıçəkilən hekayələr də yazıçının bir çox əsərləri kimi yazıldığı vaxtdan xeyli sonra çap edilmişdir. "Yaddan çıxmış sözlər" hekayəsində üç gənc birlikdə şən ovqatla unudulmuş, yaxud az işlənən sözləri xatırladır, onların etimologiyası, leksik mənası haqqında fikirlərini yürütməklə maraqlı oyun oynayırlar. "Oyun"un maraqlı yerində gənclərdən biri doluxsunmuş və kövrək halda nəinki özlərinin, hamının yadından çıxmış "Türkmənçay... 1828-ci il" ifadəsini xatırladır. Ortalığa sükut çökür, bayaqdan deyib-gülən gənclərin ovqatı pozulur. "Türkmənçay... 1828-ci il" təkcə söz deyildi, o bir tarixdir, xəncərlə, qılıncla yazılmış coğrafiyadır. Vətən övladlarının sinəsində ağrı və dərddir. "Boylu-buxunlu, sağlam, həyatlarından və güzaranlarından razı üç cavan o günü daha gülmədi..."[1] Müəllif diktatorların məqsədli şəkildə unutdurmağa çalışdıqları "Tükmənçay"ın əslində unudulmadığını, yaddaşın bir küncündə ağrı və sızıltı kimi yaşadığını göstərirdi. "Xəzri" hekayəsini Y.Səmədoğlu "Cənubi azərbaycanlı qardaşıma" ithafla başlayır. Özünü namərd "dostları" tərəfindən qaranlıq dünyanın zülmətinə salınmış nağıl qəhrəmanına bənzədir, işıqlı dünyanın – azad Vətəninin axtarışında olduğunu, bunun üçün od püskürən səhralar, qarlı dağlar, buzlu dərələr keçdiyini, amma hələlik azadlığına qovuşa bilməməyinin acısını bölüşür. Dərin mənaya malik bu kiçikhəcmli hekayədə əslində vətəni Azərbaycanın ikiyə bölünməyini, əsarətdə olduğunu, xilaskarı bilib qanadları üstünə çıxdığı nəhəng quşun ondan daim nə isə istədiyini deyir. "Ağzımı açıb Millət – deyə haray qoparıram, qışqırır. Qa!

Ağzımı açıb Azərbaycan – deyə inildəyirəm, qışqırır. Qu! Daha məndə nə ət qalıb, nə də su! Ürəyimi parça-parça ona yedirtmişəm!"[2] Bir xalqın faciəsini, azadlığı uğrunda çəkdiyi iztirabları cəsarət və ürəkağrısı ilə təqdim edən yazıçı bu hekayəsində tarixi həqiqətləri əbədiləşdirmişdir.

Yusif Səmədoğlunun avtobioqrafik xarakterli əsərləri də var. "Güllər" hekayəsindəki Tahirin prototipi yazıçının qardaşı Vaqifdir (Vaqif Səmədoğludur). Tahirin məzun konsertidir. Amma ölüm yatağında olan atası və onun yanında qalan anası Tahirin bu xoş günündə iştirak edə bilmirlər. Konsertdə ona verilən güllər səhərisi vəfat edən atasının cənazəsi üzərinə qoyulur.

Yazıçının digər avtobioqrafik əsəri "Gözlər" hekayəsidir. "Gözlər" hekayəsinin qəhrəmanının adı çəkilməsə də, onun Səməd Vurğun olması

[1] Yusif Səmədoğlu. Seçilmiş əsərləri. – Bakı: Şərq-Qərb, 2005, s.193
[2] Yenə orada, s.191

şübhə doğurmur. Yoldaşları ilə ovdan qayıdan şair bir kənddə qonaq olur, onu qarşılamağa gələn kənd camaatı ilə görüşdə ön cərgədə dayanan bir gənc qıza: "Qızım, get mənə atlama qayır, gətir, gözlərinə şeir yazacam", – deyir. Amma məlum olur ki, qızın gözləri görmür. Bundan çox mütəəssir olan şair şəhərə qayıdan kimi həkim axtarır, o gənc qızın gözlərini əməliyyat etdirir. Gözləri sağalan və bir gün şairin görüşünə gələn həmin qıza: "Şair yanılmaz, qızım, mən şeirimi yazdım", – deyir. Görünür, Yusif Səmədoğlu hekayənin bu sonluğu ilə ziyalıya, söz adamına təkcə şeirdə, sözdə deyil, yeri gələndə həyatda, əməldə böyüklük, bütövlük göstərməyin lazım olduğunu demək istəmişdir.

"Qətl günü" romanı. "...Mən bu romanı daha çox "ağrılar romanı" adlandırardım".[1] "Əsəri "xəbərdarlıq romanı", hətta "təhdid romanı" da adlandırmaq olar". (Vladimir Kunitsın) "Qətl günü" – müasir ədəbiyyatımızın həqiqət günüdür".[2] "...Bütün sərtliyinə, başdan-başa aşıladığı narahatlığa, kədərə baxmayaraq, "Qətl günü" işıqdan və ümiddən məhrum roman təsiri bağışlamır".[3] "Məhz bu romanla dünya romanı mənzərəsində görünmək olar". (Vaqif Yusifli)

Berna Moran "Ədəbiyyat nəzəriyyəsi və tənqid" əsərində yazır: "Sənət və ədəbiyyat naməlum əraziyə çıxmış kəşfiyyat dəstələrinə bənzər və bəzən gözlənilməyən, hətta xoş olmayan raporlar gətirə bilər". Yusif Səmədoğlu da bilinməyən (əslində bilinən) əraziyə – tarixin uzaq başına yola çıxdı və gözlənilməyən bir raporla geri döndü. Bu gözlənilməyən hesabat xoş və arzuolunan idimi? Nə qədər acı, nə qədər ağır və ağrılı olsa da, bu təqdimat həqiqət olduğu üçün məqbul idi. Yazıçı əslində hamıya bəlli olan, hamının dilinin ucunda olan, şüuraltındakı həqiqətləri deməklə, Azərbaycan ədəbiyyatında "həqiqət gününü" yaratdı. V.Kunitsın "Qətl günü"nü "xəbərdarlıq romanı" adlandırırdı. Bu xəbərdarlıq nədən ibarət idi, kim kimi nədən xəbərdar edirdi? Əvvəl yazıçı romanın ilk cümləsi, ilk abzası, ilk səhifəsi ilə xəbərdar edir. "Dərd də azar kimi gələndə batmanla gəlir" xalq deyimini oxuyan oxucu qarşıda – əsər boyu çox dərdli, ağrılı mətləblərlə rastlaşacağından xəbərdar olur. Müəllif oxucunu təkcə əsərdə gözlənilənlərdən deyil, həyatda gözlənilənlərdən də xəbərdar edir. Dünyanın bu üzündəki həyat və bu həyatın son günü, dünyanın o üzündəki həyat – bu keçiddəki yaşantılar, psixoloji durumlar. "Külək hələ əsmirdi, hərdən qoşa vələsin kəlləsində ləpədöyənin səsinə bənzər bir səs qopurdu, deyirdin yaxınlıqda dəniz var, amma bu səsdən adam diksinirdi. Burada kim vardısa, bilirdi ki, çox-çox

[1] Pavlo Rudyakov. Arzular, ağrılar romanı. "Ulduz" jurnalı, 1987, №11, s.29
[2] Anar. Bitmiş ömrün bitməyən arzuları. Sonsuz ömrün yolçusu – Yusif Səmədoğlu. – Bakı: Qanun, 2018, s.92
[3] Yaşar Qarayev. Qətl günü. Sonsuz ömrün yolçusu – Yusif Səmədoğlu. – Bakı: Qanun, s.157

uzaqlarda, hardasa dünyanın o başında bir külək yatağından baş qaldırır. Baba Kahanın zülmətində gərnəşir, ordan çıxıb ağır-ağır, sürünə-sürünə, batman ləngəri ilə torpaqda dərin şırımlar açırdı, daş-qayanın gövdəsində uğultu sala-sala bu başıbəlalı dünyaya meydan oxumağa hazırlaşırdı. Burada kim vardısa, hələ çox-çox uzaqlarda həmləyə hazırlaşan küləyin qarğışını eşidirdi: ay ikiayaqlı bəndələr, kökünüz kəsilsin sizin!"

"İnsanlar küləkdən bezmişdi, külək də insanlardan". Oxucu sanki dini kitablarda dönə-dönə xatırladılan qiyamət gününün təsvirini görür və nə vaxtsa ondan sorulacaq hesabın, bu hesab gününün vahiməsini yaşayır. Əsər boyu oxucu Baba Kahadan qalxan dəhşətli küləyin uğultusunu eşidir, sümükləri titrədən soyuğu hiss edir, onun xofunu yaşayır. Baba Kahadan qalxan külək sormağa gəlir ki, ikiayaqlı bəndələr bu bəlalı dünyadan nə istəyirlər? Bu "ikiayaqlı qanadsız yarasalar" nə vaxt qandan doyacaqlar? Gəlirdi soruşsun ki, yuxusuz gözlərdəki kinin, hiddətin səbəbi nədir? Ancaq bu küləyin uğultusu və xofu ilə bərabər, haqdan, ədalətdən xəbər verən bir işıqlı ümid də var idi. Əsərin sonunda Baba Kahanı partlatmağa yığışıblar, məclisə mötəbər qonaqlar yığılıb. Paytaxtdan Muxtar Kərimli, Sədi Əfəndi kimi neçə-neçə ziya və zəka sahibini güdaza verən, ömrü boyu qanlı fitvalara sərəncam imzalayan Salahov Adil Qəmbəroviç də təşrif buyurub. Baba Kahanın partlayışından sonra böyük konsert tədbiri planlanıb. Bunu eşidən Moşu Mahmuddan soruşur: "– Ay Mahmud doxtur, bavam deyirdi ki, orda bir iri kaha var, içində əjdaha kimi bir şey yatır, deyirdi, heç quş da ora qalxammaz, bə bunlar ora necə qalxacaqlar? – Ayə, nə danışdığındı? – Mahmud güldü. – Bu hökumətin ağrısını alım, onnan ötrü orya qalxmağa nə var, ə?.."[1]

Amma yox, Mahmud deyən kimi olmur. Sən saydığını say, gör fələk nə sayır? Əsrlərdən bəri dünyaya meydan oxuyan hökmdarlar və onların mənəvi törəmələri çox dağları aşıb, çox məmləkətlər və qalalar fəth etsə də, Baba Kaha deyilən pənah yerinə, çarəsiz ikiayaqlıların son ümidinə, dünyanın nizamını tarazlayan o müqəddəs ocağa gücləri çatmır. Eldən-obadan uzaq gəzən, heç kəslə kəlmə kəsməyən Çomaq Qulam Baba Kahanın partladılacağını eşidəndə kənddə görünür:

"Bu gün qətl günüdür, Mahmud!

Mahmudun qaşları çatıldı.

– Qətl günü niyə olur, ayə, avara?

– Çünki, Baba Kahanı partladırlar, Mahmud!"[2]

Çomaq Qulamın dediyi qətl günü baş verir. Baba Kahanın oyumundan çıxan və bütün əsər boyu dalğalanan qara duman, dəhşətli külək neçə əsr

[1] Yusif Səmədoğlu. Deyilənlər gəldi başa. – Bakı: XXI Yeni Nəşrlər Evi, 1999, s.182
[2] Yenə orada, s.187

bundan əvvəl hökmdardan "qızıl teştin içindən" başıbəlalı dünyanın tamaşasına duran "açıq qalmış bir cüt şair gözü"nün qisasını aldığı kimi, bütün aciz və gücsüzlərin, ən əsası da özünün – Baba Kahanın qisasını alır. Mahmud doktorun yenilməz bildiyi hökumət belə bu qisasın qarşısında acizdir. Şəhərdə yaşayan xəstə qohumu ilə ölümə qənşər gedən Mahmudun yanında Baba Kahanı partlatmağa yollanan dörd alpinist də görünür.

Əsərdəki hadisələr harada, hansı məkanda baş verir? Pəncərəsinə yaşıl pərdə çəkilmiş xəstənin mənzilində, yaxud "kilidli qapı"ların arxasındakı xatirələrdəmi? Xəstənin yaxın qohumlarının yaşadığı, Kürün də içindən keçib-getdiyi kənddəmi? Muxtar Kərimlinin iclas apardığı zaldamı? Belə deyilsə, daha dəqiq olar: hadisələr "şairi başqa bir şairin başını ərməğan istədiyi məmləkət"də cərəyan edir. "Dərd uzun bir kəndirdir ki, dünyanın belinə toqqa kimi dolanıb, hamı bu kəndirdən yapışıb bir-birinə sarı gəlir…" Bu kəndirin keçdiyi yerdir əsərdəki məkan! "Baba Kahanın qaranlıqdan başlayıb qaranlığa gedən, dünyanın bütün rənglərini – ağını, qırmızısını, yaşılını lap elə həndəvərində əridib zülmət qaraya çevirən oyumundan hənirti eşidilirdi. Bu oyumun bir ucu məğribdəydi, bir ucu məşriqdə: bu oyum dünyanın ortasından keçirdi... Baba Kahanın dibsizliyində bir külək yatağından baş qaldırırdı, məğribdə başlayan hənirtisindən məşriqdə tufan qopurdu..."[1]

Hər şey Baba Kahanın küləyinin tuta bildiyi məğrib və məşriq arasındakı məkanda baş verir.

Nə zaman baş verir? Əsərdə üç zaman mərhələsi var. Biri xəstənin, həm də müəllifin özünün yaşadığı dövr – XX əsrin 70-80-ci illəri. İkinci zaman kəsimi – XX əsrin 20-30-cu illəridir ki, Sədi Əfəndilərin sorğu-suala çağrıldığı, ziyalıların, şairlərin qəfil yoxa çıxdığı, Salahov Adil Qəmbəroviçin əmri ilə Zülfüqar kimi kişilərin istəmədən qatil olduqları və sonra bir ömür vicdan sızıltısı ilə yaşadıqları dövrdür. Üçüncü tarixi mərhələ isə Sədi Əfəndinin "Qətl günü" əsərindəki dəqiq tarixi müəllif tərəfindən göstərilməsə də, XVIII əsr təxmin olunan bir zamandır. İç-içə, bir-birindən fərqli zamanlarda yaşanılan hadisələr, əslində bir-biri ilə bağlıdır. 70-ci illərdə Sədi Əfəndinin yubileyini təntənəli şəkildə təşkil edən Muxtar Kərimli 30-cu illərdə Sədi Əfəndiləri həyatdan, yaşamaqdan və yazmaqdan bezdirmişdi. Bunların – bu ağır repressiyanın izi təkcə mədəni və mənəvi həyatımızda deyil, həm də Sədi Əfəndinin qızı Səlimənin taleyində və səhhətində də özünü göstərir. Yazıçı o dövrün xofunun repressiya qurbanlarının ailələrində, övladlarının həyatında doğurduğu faciələri də göstərmişdir.

Müəllif hadisələri əlaqələndirməklə zamanlar arasındakı bağlılığı, əsrlər və nəsillərin ünsiyyətini göstərmək istəmişdir. Edam olunan şair ömür

[1] Yusif Səmədoğlu. Deyilənlər gəldi başa. – Bakı: XXI Yeni Nəşrlər Evi, 1999, s.99

boyu vəsf etdiyi gözəllərin bətnində neçə-neçə sərbaz toxumunun yatdığını düşünəndə haqlı idi. Muxtar Kərimlilər, Adil Salahovlar, Qədir Pünhan kimi şairciklər, əslində, hökmdarın, xacə Ənvərin, cəlladın, şairin başını ənam istəyən xırda şairlərin fiziki, yaxud da mənəvi varisləridirlər.

Yusif Səmədoğlu tarixi əsər yazmağı qarşısına məqsəd qoymasa da, tarixi faktlara və sənədlərə əsaslanmasa da, tarixə ədəbi səyahət, hamıya bəlli olan faktların bədii təqdimi, bədii tarixin yazılması alınmışdı. Yaşar Qarayevin İlyas Əfəndiyevin bir əsəri haqqında dediyi "Ən yaxın və ən uzaq tarix haqqında həqiqət və vicdan sənədi!" fikrini Yusif Səmədoğlunun "Qətl günü"nə də aid etmək olar.

Yuxarıda qeyd olundu ki, Pavlo Rudyakov əsəri "ağrılar romanı" adlandırırdı. Bu hansı ağrı idi? Təbii ki, xacə Ənvərin tiryəklə öldürdüyü "hava sərinləşəndən sonra şiddətlənən, sulu gözlərinə qara duman gətirən, çənəsinə kimi bütün bədənini çulğayan şeytan ağrıları", Zülfüqar kişinin, Mahmud doktorun ölümqabağı yaşadığı ağrı, edam öncəsi dili kəsilmiş şairin "boğazını, çənəsini, gözlərinə kimi sifətinin bütün əzalarını deşim-deşim deşən ağrı", əsər boyu qızdırmadan, öskürəkdən əziyyət çəkən xəstənin fiziki ağrıları deyildi. Bu, Qəmbəroviçin əmri ilə uryadnik Sarıca oğlu Məhəmmədi öldürən Zülfüqar kişinin ömür boyu çəkdiyi vicdan ağrısı idi, Muxtar Kərimlinin, əslində, Sədi Əfəndinin "Qətl günü" əsərindən xəbəri ola-ola "yox, əzizim, mənə bu roman barədə bir şey məlum deyil", – deməsinin qarşısında susmaq məcburiyyəti idi ağrı. Axı, Xəstə Sədi Əfəndinin gündəliyindən oxumuşdu ki, Kərimli o romanı oxuyub və əsərə görə də Sədi Əfəndinin başı çox bəlalar çəkib. Ən böyük ağrı Sədi Əfəndinin qızı Səlimənin atasının yubileyini təşkil etməsi üçün Muxtar Kərimlinin qəbuluna getməsi, hətta ona böyük gül çələngi aparması idi.

Aşağıda səslənən acı həqiqəti eşitmək idi ağrı! "Bilin və agah olun! Nə qədər ki, bəşər övladının qarnında qorxu ağrısı var, ürəyində şöhrət azarı, bir gündə yüz şair başı kəsilsə də, heç kəs və heç bir zaman hökmdarın üzünə ağ ola bilməz!"

Ağrı xəstənin və onun mənsub olduğu nəslin "bismillah" kəlməsini çoxdandı dilinə gətirməməsi, Zülfüqar kişinin dəfnində "Quran"ın, "Yasin"in gizli oxunması, tatar Temirin yaşadıqları idi. Xəstənin – ziyalının ölümqabağı havasızlıqdan boğulması (fiziki yox, mənəvi) idi ağrı.

Əsərdə daxilən rahat, iç dünyası sakit obraz yoxdur. Hər kəs nəyinsə narahatlığını, əzabını yaşayır. Hamı səksəkədədir, hamı nigarandır. Səlimə xanım da, Xəstə də, tatar Temir də.

Əsərdə diqqət çəkən bir məqam da təsvir olunan hadisələrin əksəriyyətinin payız fəslində baş verməsidir. Payızın qürub rəngi, xəzan ovqatı, demək olar ki, həm qəhrəmanların iç dünyası, həm də əsərin bədii strukturu, süjet xətti ilə həmahəngdir.

“Edam yerinə gedə-gedə şair, gözlərini çuğlamış dumanın içərisindən ağaclara baxırdı və xəzan vaxtının sarı-sarı, qırmızı-qırmızı yarpaqlarına baxırdı və ürəyində deyirdi: “Xudaya, bəs, bu dünyanın yaşıl yarpaqları hanı, vaxtsız əcəl niyə məni son məqamımda yaşıl yarpağa həsrət qoydu?”[1] Üfləmə Qasım elə həmin sarı yarpaqlarla şairin arabaya yığdığı əlyazmalarının üstünü örtüb viran qalmış məmləkətdən çıxarır.

“Moşu Mahmudun qoluna girdi, onu tünlükdən çıxarıb kənarda, bir ağacın altında sarı payız otlarının üstündə otuzdurdu”.[2]

“Soyuq külək əsirdi, yaman soyuqdu. Ağaclarda bir dənə də yaşıl yarpaq qalmamışdı. Qəfil gəlmiş Bakı payızının zəhlətökən, küləkli, tozanaqlı axşamlarından biriydi: şəhərin gözəlliyi bu tozanağın içində əriyib yoxa çıxmışdı”. Bəlkə, yazıçı əsərin ayrı-ayrı yerlərindən seçilmiş bu payız lövhələri ilə artıq yazını və yayını yaşamış dünyanın indi payız çağını yaşadığını demək istəyirdi?!

Romanda insanlar, qəhrəmanlar yaşadıqları dövrün, zamanın ictimai-siyasi, mənəvi fonunda verilmişdir. Dövrlə qəhrəmanın, şəxsiyyətlə zamanın, fərdlə cəmiyyətin, ziyalı ilə hakim mühitin mənəvi münasibətləri, sosial-mənəvi təzadları, bir-birinə müxalif mövqeləri Yusif Səmədoğlu tərəfindən böyük yazıçı ustalığı ilə canlandırılmışdır. Üç fərqli epoxanı, fərqli ictimai formasiyanı bir-biri ilə vəhdətdə təqdim edən yazıçı “zamanlararası əlaqəni” verməklə, ictimai epoxaların dəyişməsinə baxmayaraq, insanların, ziyalı taleyinin çox da dəyişmədiyini göstərmişdir. Keçmiş həmişə keşikdədir, tətiyə əl atmağa fürsət axtarır. O tətik xəstənin xəyallarındakı qapıların kilidini də açа bilər, etdiyin günahın cəzasını da verə bilərdi.

Əvvəldə deyildiyi kimi, əsərdə üç tarixi dövr təsvir olunur. Müəllif bu üç dövrdən başqa, az və ani də olsa, ömürdən sonrakı həyata da səyahət etmiş və demək istəmişdir ki, səni o üzdə etdiyin günahlar, sahibi olduğun yaxşı və pis əməllər qarşılayacaq. Necə ki, Zülfüqar kişini öldürdüyü uryadnik və uryadnikin vaxtsız əcəlin qurbanı olan iki qızı, Mahmudu xəstə qohumu, alpinistləri Baba Kaha qarşılayır.

Ədəbiyyatşünas Yaşar Qarayev əsəri nə qədər ağrı, nə qədər acı və əzab aşılasa da, işıqdan və ümiddən məhrum əsər hesab etmirdi. Bu ümid çırağını sönməyə qoymayan, mücadilələrlə qoruyanlar kimlər idi? Bu işığı sönməyə qoymayanlardan biri Üfləmə Qasımdır. Saray xanının təlxəyi Üfləmə Qasım şairin edam olunacağını bildiyindən, “hələ talandan qabaq, hər addımbaşı ölümlə üz-üzə gələ-gələ, şairin kimsəsiz evinə gəlib, oradan tapıb çıxardığı qalaq-qalaq əlyazmalarını səliqə ilə arabaya yığmışdı, üstündən ot-ələf tökmüşdü... Gün batanda, hava qaralanda yola düşməliydi. Yola düşməliydi

[1] Yusif Səmədoğlu. Deyilənlər gəldi başa. – Bakı: XXI Yeni Nəşrlər Evi, 1999, s.154
[2] Yenə orada, s.186

ki, dünyanın ən savab işini görsün, bu gün kövrək ürəyi cəllad qılıncının bircə həmləsi ilə əbədi dayanacaq şairin sözünü, söhbətini ağ vərəqlər üzərində bu məmləkətdən ömürlük aparıb haradasa dünyanın o başında təzədən gün işığına çıxarsın". Həmkarının başını hökmdardan ənam istəyən şairlə yanaşı, həyatı bahasına onun əlyazmalarını qoruyan Üfləmə Qasım da varsa, Sədi Əfəndini həyatdan küsdürən Muxtar Kərimli ilə bərabər, onun romanını uzaq ellərdə saxlayan bir kimsə də varsa, demək, hələ ki, dünyanın sonu deyil. Demək, haradasa işıq yanır. Və o işıq yaxşı adamlardan süzülə-süzülə, Baba Kahanın himayəsi ilə əsrlərdən-əsrlərə yol gəlir.

Romanda ayrı-ayrı adamların da öz işığı var. Xəstənin öz yuxu işığı var. "Mənim işığım dumanlı gündə güclə, öləziyə-öləziyə yanan fənər işığına bənzəyir". Əslində, Xəstənin "yuxu işığı" kimi bəhs etdiyi işıq həyatını, ömür cığırını işıqlandıran işıqdır. Onun tale işığı da heç gur və parlaq deyildi.

Romanda diqqətçəkən məqamlardan biri də günah məsələsidir. Ömrünü günah içində keçirmək, yaxud kiçik və böyük günah məsələsi. Zülfüqar kişinin etdiyi günah yaşadığı cəmiyyətin, tutduğu vəzifənin məcbur etdiyi, təhrik etdiyi günah idi və o ömür boyu vicdan məhkəməsində öz-özünü mühakimə edərək, bəlkə də, Tanrı qarşısında törətdiyi cinayətin bədəlini ödəmişdir (Düzdür, ölümə qənşər gedən Zülfüqar kişini qarşılayan Sarıca oğlu Məhəmməd və onun iki tifil qızcığazı bunu deməyə bizə əsas vermir). Amma ədəbiyyatda "katarsis" deyilən bir anlayış var. Zülfüqar kişi bu katarsisdən keçir. Hökmdar, onun vəzir-vəkili, cəlladı, törəmələri – Muxtar Kərimli və Adil Salahovsa, qan tökməyə, tifaq dağıtmağa, işıq söndürməyə adət ediblər. Qan tökmək onların peşəsi və vəzifəsidir. Adıçəkilən insanların əsər boyu vicdan sızıltısı, mənəvi narahatlıq yaşadığı görünmür. Əksinə, hökmdar bütün etdiklərinin müqabilində ilahidən cənnətə düşəcəyinin, peyğəmbərin hüzuruna alnıaçıq gedəcəyinin ümidində və iddiasındadır. Baba Kahadan əsən o dəhşətli külək ona Tanrı qəzəbi kimi yox, şeytan əməli kimi görünür. Çünki o, Tanrı qəzəbinə gələcəyini ağlına belə gətirmir. Bəlkə də, etdiyi əməllərin nə qədər haqsız olduğunu bilsəydi, zülmlərinə bir nəhayət verərdi. Amma hökmdar qızıl teştdə açıq gözləri göyə zillənən şairin edamını, yetim qoyduğu uşaqların ah-naləsini günah hesab etmir.

Xəstə polis bölməsində sevgilisi Marqo haqqında yazılmış izahata imza atdığı üçün özünü uzun illər keçməsinə baxmayaraq qınayır. Amma Muxtar Kərimli və Salahovlar gündə neçə şairin, ədibin, zəka sahibinin ölümünə, sürgün olunmasına imza atırlar, özü də uf demədən, bunu yaşadıqları dövrün ayağına yazaraq: "Pis dövr idi, aramızda da alçaqlar az deyildi", – deyirdilər.

Yaşar Qarayev yazırdı: "Keçmişdə, ömürdə, taledə baş verən heç nə unudulmur, hər əməl, hərəkət, hər günah "müvəqqəti kilid" arxasında öz növbəsini gözləyir. Yuxu, xatirə, xəyal – hamısı sirri, yasağı, kilidli qapıları açmağın bir üsuludur. Əslində roman boyu Yusif məhz bağlı seyfləri, "kilidli

qapıları” açmaqla məşğuldur: “Hər xatirənin öz vaxtı var, vaxt gələndə bütün kilidli qapılar öz-özünə açılacaq”. Təsadüfi deyil ki, buradakı obrazlar da səhifələrə kilidli qapılardan çıxıb gəlirlər”.[1] Bu qapılardan birinin arxasında Xəstənin işıq dolu, ilıq nəfəsli nənəsi durur. “Bala, çörəyi götürəndə heç olmasa, “bismillah” de”, – deyən nənəsi. Xəstə nənəsi ilə bağlı xatirələri ömrünü uzadan xatirələr hesab edirdi. “Gündəlik yazanlara hərdən paxıllığım tutur. Amma əslində, bunun heç bir əhəmiyyəti yoxdur. Çünki heç bir şeyi insan həmişəlik unutmur, çünki hər xatirənin öz vədəsi var: Vaxtı gələndə beynin bütün kilidli qapıları öz-özünə açılacaq. Amma gərək bu xatirələrin qabağında davam gətirə biləsən. Xatirələr üstünə gələndə kilidli qapılardan biri açılıb, boğazından içinə qaynar qurğuşun töküləndə, ürəyinə də damcı-damcı ağrı axanda, gərək ya fit çalıb, göz vurub özünü səfehliyə qoyasan, ya əllərini qaldırıb təslim olasan. Başqa yol yoxdur, çünki keçmiş həmişə pusqudadır, fürsət düşən kimi tətiyi çəkir. Vay o gündən ki, güllə səni tapa”. Təəssüf ki, insanların həyatında içinə işıq süzən, ruhuna rahatlıq gətirən xatirələr çox deyil. Tatar Temir kimi xəyanətin, Sədi Əfəndinin qızı Səlimə xanım kimi acı dolu həyatın, istəmədən işlətdiyi günahın qurbanına çevrilən Zülfüqar kişi kimi mənəvi cəzanın xatirələrini yaşayanlar daha çoxdur. Bu xatirələr, əslində, müəllifin vermək istədiyi, cizgilədiyi həyatın müxtəlif mozaikaları idi. Həmin mozaikalar cəmləşib böyük bir gerçəkliyi təqdim edirdi. Bu gerçəklik cəmiyyətin çoxlarının gördüyü, bir çoxlarının isə görsə də, göz yumduğu ağrılı həqiqətləri idi. Yazıçı Anar bu əsəri nəsrimizin “həqiqət günü” adlandıranda haqlı idi. “Qətl günü”nün müəllifi “böyük həqiqəti” demək üçün “böyük qəhrəman” yaratmaq yolunu seçməsə də, əslində, əsərdə “böyük qəhrəman” var idi, amma bunlar müsbət qütbdə deyildi. Hökmdar və onun əshabələri, onların XX əsrdəki mənəvi varisləri dövrün, zamanın, fərqli epoxaların panoramasını əks etdirəcək qədər tünd boyalarla yaradılmışdılar. Əsərin müsbət qütbünü əks etdirənlər isə, Üfləmə Qasım, Sədi Əfəndi, Mahmud və Xəstə idi. Xacə Ənvər obrazı mənfi qütbdə dursa da, müsbət çaları öz sahibinə son dərəcə sadiq qalması idi. Baba Kahanın qorxulu uğultusu gələndə xacə Ənvər əlini haqqın dərgahına uzadıb dua edir ki, ulu Tanrı onun ömründən kəsib hökmdarın ömrünə calasın. “Xacə Ənvər hökmdarın sifətinə, gözlərinə baxıb ürəyində “Allah, sən onu cənnətlik elə!” – dedi”.

Yusif Səmədoğlu çıxışlarının birində demişdir ki, mən “Qətl günü”nü atamın – “şair, hökmdarın hüzurundasan!” – misrasından çıxış edərək yazmışam. Həqiqətən də, Səməd Vurğunun bu misrasını “Qətl günü”nün loqosu hesab etmək olar. Əslində, XVIII əsrdə edam olunan şair hökmdarın, 30-cu illərdə Sədi Əfəndi rejimin, 50-80-ci illərin ziyalısı isə sovet

[1] Yaşar Qarayev. Qətl günü. Sonsuz ömrün yolçusu – Yusif Səmədoğlu. – Bakı: Qanun, 2014, s.153

ideologiyasının hüzurunda idi. Əsərdə edam olunan şair Vaqifin, Sədi Əfəndi Cavid Əfəndinin, yaxud Səməd Vurğunun, xəstə olan ziyalı isə yüzlərlə sovet ədəbiyyatşünasının, sovet şairinin obrazı idi. Şair həmkarının başını hökmdardan ənam istəyən şairlər XVIII əsrdə də var olub, Cavidi, Cavadı, Müşfiqi, lap Vurğunun özünü də edam olunanlar içərisində görmək istəyən qələm "dostları" XX əsrdə də var olub. Necə ki, Artur Şopenhauer deyirdi: "Tarix özünü elə aparır ki, sanki hər dəfə nəsə yeni bir şeydən danışır. Əslində isə o, əvvəldən-axıra ayrı-ayrı adlar altında, ayrı-ayrı qabıqlarda eyni hadisələrdən bəhs edir".

Yusif Səmədoğlunun əsərlərinin, o cümlədən "Qətl günü" romanının bədii dili poetikliyi, təbiiliyi, estetik cazibəsi ilə yadda qalır. Obrazlılıq, maraqlı sintaktik düzüm, bədiilik və sözün fəlsəfi tutumu onun əsərlərini daha da oxunaqlı edir. Akademik Tofiq Hacıyev bu haqda yazırdı: "...yazıçı Azərbaycan dilinin qrammatikasından istedadla istifadə etmişdir. Bəzən də obrazlılıq qrammatikanı görünməyə qoymur, təşbehlər, məcazlar üst-üstə qalanır, sözün və cümlənin müstəqilliyi altında qalır, oxucu rəmzlərin içinə düşür".[1] Onun əsərlərinin dilinə xas olan bu keyfiyyətlər yazıçının Azərbaycan dilinin incəliklərinə bələd olması ilə yanaşı, el ədəbiyyatını, xalq deyimlərini, folkloru da yaxşı bildiyini göstərir.

Romanın təhkiyə üslubu, mifik süjet və obrazları, müxtəlif detal və elementləri həm də xalq dastanlarından gələn ənənələrdir. "...Bu əsərdə milli dastançılıq və romançılıq ənənələri də üzvi şəkildə qaynayıb-qarışır. Yəni "Qətl günü" əlahiddə meydana çıxan, necə deyərlər, havadan yaranan əsər deyil. Ənənə üstündə yaranan, ancaq bu ənənələri fövqəladə dərəcədə, misilsiz bədii ustalıqla novatorluq həddinə yüksəldən "Qətl günü" məhz buna görə səksəninci illər Azərbaycan ədəbiyyatının ən uğurlu ədəbi hadisəsinə çevrildi".[2]

Yusif Səmədoğlunun taleyinə sovet dövründə yaşamaq düşsə də, yaradıcılığı xronoloji mənsubiyyətinə görə sovet ədəbiyyatına daxil edilsə də, ideoloji aspektdən ehkamlara uyğun gəlmədiyi üçün onun yaradıcılığını bu adın ehtiva etdiyi çərçivəyə salmaq düzgün deyil. Sovet yazıçısı dəfndə, hüzrdə xalqın "Quran"ı gizli oxutmasını, hakim olan rejimin Baba Kahanı partlatmağa gücü çatmadığını, ziyalının sovet epoxasında boğulduğunu, mənəvi sarsıntı keçirdiyini açıq-aşkar təsvir etməzdi. Yusif Səmədoğlu yaradıcılığı sovet dövrünə təsadüf edən, amma zamanın sosial, mənəvi çətinliklərini, çatışmazlıqlarını cəsarət və ustalıqla əbədi yaddaşa köçürə bilən istedadlı Azərbaycan yazıçısıdır.

[1] Tofiq Hacıyev. Süjetin şaxələri və dilin rəngləri. Sonsuz ömrün yolçusu – Yusif Səmədoğlu. – Bakı: Qanun, 2018, s.110

[2] Vaqif Yusifli. Nəsrin ustası. – Bakı: "Azərbaycan" jurnalı, 2005, № 12, s.13

MANAF SÜLEYMANOV
(1912-2001)

Yazıçı-publisist Manaf Süleymanov Azərbaycan ədəbiyyatında Bakı mühitinin ədəbi salnamıçisi, milli mədəniyyətin cəfakeş qoruyucusu və qədirşünası kimi tanınır.

Həyatı. Yazıçı, tarixçi, tərcüməçi Manaf Fərəc oğlu Süleymanov 1912-ci il martın 3-də Şamaxı qəzasının (indiki İsmayıllı rayonu) Lahıc kəndində anadan olmuşdur. 1930-cu ildə Bakıda 18 saylı orta məktəbi bitirən gənc abituriyent Azərbaycan Neft-Kimya İnstitutuna daxil olmuş və Geoloji kəşfiyyat fakültəsini fərqlənmə diplomu ilə bitirib kəşfiyyatçı-dağ mühəndisi ixtisasına yiyələnmişdir. Sonradan ömür yolunu daha çox ədəbiyyatla bağlayan Manaf Süleymanov öz əsas ixtisasından da ayrılmamışdır.

Dissertasiya müdafiə edib geologiya-mineralogiya elmləri üzrə fəlsəfə doktoru elmi dərəcəsi alan M.Süleymanov yarım əsrdən çox doğma institutunda müəllimlik etməklə yanaşı, həm də öz peşə bilgilərini, təcrübəsini böyük ədəbiyyatda qələmi ilə sınaqdan çıxarır. Onun "bütün əsərləri istisnasız olaraq dağ-mədən sahəsində, birinci növbədə neft, neft mədənlərində çalışan insanlardan bəhs edir".[1]

Manaf Süleymanov dedikdə, ilk göz önünə "Eşitdiklərim, oxuduqlarım, gördüklərim" əsəri gəlsə də, onun yaradıcılığı məşhurlaşdığı Bakı mühiti ilə məhdudlaşmır. Yazıçının fəaliyyəti onlarla kitabın səhifələrini aşıb işlədiyi arxiv materialları, bədii tərcümələri ilə genişlənir, tanınır, möhkəmlənir.

Manaf Süleymanov uzun bir ömür sürmüş, bir epoxanın yaranmasını da, süqutunu da yaşamış, Məhəmməd Əminlə söhbət etmiş, Mir Cəfər Bağırovu taxtda görmüşdür... Dəyişən formasiyaları da adladı, gözünün qarşısında əlifbadan əlifbaya da keçildi. Ömrü çox şeyə çatdı, çox hadisələrə şahidlik elədi. Ən başlıcası ləyaqətli bir həyat yaşadı, özü özünə layiq ola bildi. Manaf Süleymanov fəaliyyəti dövründə "Hacı Zeynalabdin Tağıyev" adına medalla təltif edilmiş, "Əməkdar mədəniyyət işçisi", "Əməkdar incəsənət xadimi" fəxri adlarına layiq görülmüşdür. O, 12 sentyabr 2001-ci ildə Bakı şəhərində vəfat etmişdir.

Yaradıcılığı. Manaf Süleymanov ədəbiyyata 1947-ci ildə "İnqilab və mədəniyyət" (indiki "Azərbaycan") jurnalında dərc olunan "Yerin sirri" romanı ilə gəlmişdir. Bu əsərə və onun müəllifinə xeyir-duanı görkəmli yazıçı və tənqidçi Mehdi Hüseyn özü vermişdir. İlk qələm təcrübələrini "Fərəcoğlu" imzası ilə yazmışdır. "Yerin sirri" 1948-ci ildə kitab şəklində çap olunmuş, zaman-zaman təkrar nəşrləri işıq üzü görmüş, rus, alman, slovak, çex, rumın və digər dillərə tərcümə edilmişdir. Əsərlə tanış olan A.Fadeyev ona yüksək

[1] Manaf Süleymanov. Seçilmiş əsərləri, I cild. – Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1993, s.6

qiymət verərək, "nəhayət, neftçilərin həyatından layiqli bir əsər çıxdı", – demişdi. Fadeyevin bu açıqlamasını yaxın dostu və həmkarı Səməd Vurğun da bölüşür, romandakı şərait amilinin deyil, insan faktorunun qabardılaraq önə çəkilməsini alqışlayırdı. Hətta yerə-göyə meydan oxuyan Mir Cəfər Bağırov da "Yerin sirri" haqqında Mehdi Hüseynə, Əli Vəliyevə demişdi: "Gördünüz Manafın əsərini? Əsl əsər belə olar". Neft, Bakı fəhləsinin salnaməsi ədəbiyyatımızda kifayət qədər və layiqincə işıqlandırılmışdır. Görkəmli yazıçılarımız – Məmməd Səid Ordubadi, Mehdi Hüseyn, İmran Qasımov bu mövzuda epopeyalar yaratmış, Bakı fəhləsinin uğurlu obrazını yaratmışdılar. Söz sahibləri üçün daim cəzbedici və aktual olan bu mövzu Manaf Süleymanovu da məşğul etmiş, hər iki sahənin professionalı kimi entuziazmla "Yerin sirri"ni öyrənməyə qalxmışdır". Akademik Nizami Cəfərov yazır: "Süjet o qədər də mürəkkəb deyil – hadisələr 30-cu, 40-cı illər üçün xarakterik olan xoşbəxt sonluqla başa çatır, lakin əsərin bədii yükü süjetdə deyil, daha çox təfərrüatda cəmləşmişdir".[1] M.Süleymanovun bu mövzuda yazan digər müəlliflərdən fərqi və üstünlüyü o idi ki, "yazıçılığa neftçilikdən" gəlmişdi. Bakının neftli torpağı, neft kəşfiyyatçılarının həyatı, dünyada ilk dəfə dərin qazma üsulunun həyata keçirilməsi romanın süjet xəttini təşkil edir. Gənc geoloq Zəki cəsarətli və məsuliyyətli bir layihə ortaya qoyur. Nəticədə 5 km dərinliyində qazılan buruq fontan vurub "neft dənizi" əmələ gətirməklə, gurultusu onlarla kilometr uzaqlarda eşidilir. "Sanki kürreyi-ərzin içi qopub havaya atıldı; göy üzünü qara bir pərdə örtdü. Havadan iri damcılarla, şiddətli neft yağışı yağmağa başladı".[2]

İlk çapının ədəbi ictimaiyyət tərəfindən bəyənilməsi gənc yazıçını sonralar "Fırtına", "Dalğalar qoynunda", "Zirvələr" əsərlərini yazmağa ruhlandırmışdır. Mövzu yazıçının qəlbinə, ruhuna o qədər yaxın idi ki, hətta müəllif ilk əsərinin qəhrəmanı olan Gülşənin adını qızına vermiş, sevə-sevə yaratdığı obrazı övladında yaşatmışdır. "Dalğalar qoynunda" dəniz neftçilərinin məşəqqətli əməyindən, qəhrəmanlığından, fədakarlığından bəhs edən istehsalat romanıdır. İstehsalat romanı janr kimi XX əsrin əvvəllərində yaranmağa başlamış, getdikcə sovet ədəbiyyatında təşəkkül taparaq yazıçıların ən çox müraciət etdikləri mövzuya çevrilmişdi. Manaf Süleymanovun da "qələminə ən çox yatan mövzu qurub-yaradan adamların ömür-günü" idi. Ədibin ilk romanında olduğu kimi, "burada da əsərin bədii gücü təfərrüatdadır".[3] Yazıçı heç nəyin üzərindən saymazyana keçmir, göstərmək istədiyini göstərir, çatdırmaq istədiyini çatdırır. "O kağız-kuğuz olmasa da,

[1] Manaf Süleymanov. Seçilmiş əsərləri, I cild. – Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1993, s.89-90

[2] Yenə orada, s.241

[3] Yenə orada, s.272

mən incinar olmasam da, bilirəm ki, bizim dənizdə güclü neft var. Gəmi ilə gedib-qayıdanda hara baxırsan suyun üstü, cəzirələr neftdir, qazdır. Dəniz qırağından yüz, iki yüz mil uzaqda neft üzür, qaz qaynayır".[1] Burada artıq geoloq-mineraloq M.Süleymanov danışır. "Gəmiçilər əvvəllər sahilə yaxınlaşanda Qız qalasını tuş götürürdülər, indi isə Hökumət evinə səmt alırlar",[2] – deyəndə isə yazıçı duyğusallığı üzə çıxır.

1960-cı ildə ədib "Fırtına" romanını yazır. Atmosferdə baş verən hər hansı çalxalanma ilə, lap maqnit qasırğası olsun, qarşılaşmaqdan hər kəs qaçsa da, ədəbiyyat və incəsənətdə həqiqətən, "Fırtına" qoparan əsərlər kifayət qədərdir. Romanda fırtınada daim ölüm təhlükəsi ilə üzbəüz qalan, Xəzərin "ağır xasiyyəti" qarşısında səbir, səbat göstərib neft çıxaranların hünərvər əməyi təsvir və vəsf edilir. Zaman – müharibə sonrası, məkan – dəli dalğaların qoynu açıq dənizdir. Dünənki cəbhəçilərin bu günün əmək qəhrəmanları kimi fəaliyyəti əsərin əsas xəttidir. Burada usta, mühəndis, fəhlə ayrı-seçkiliyi yoxdur. Hamının məqsədi – altı "nöyüt, döylət" olan mədənlərdən, neft təbəqələrindən itkisiz neft hasil etmək idi. Roman Usta Piri, Qulam İskəndərzadə, Qurban Hacıyev, gənc fəhlələr – Rövşən, Gülər, Firəngiz, Əhməd – Tovuz cütlüyü kimi maraqlı personajlarla zəngindir. Hər bir obraz, xarakter əsərin mükəmməlliyinə, çatışmayan epizodların, nüansların tamamlanmasına xidmət edir. Usta Piri surəti müəllifin özünə yaxındır, onun dəniz, neft, qazma barədə bilmədiyi bir şey yoxdur. Təpədən-dırnağa neftçidir. Hətta yapışqanı axtaranda da, "nə oldu, o zəhrimara qalmış yapışqan? Hazır olmadı? Quyudan-zaddan çıxır?", – deyir. Və bu bilgilərini, təcrübəsini gənc nəslə yadigar qoymaq üçün kitab yazır. Gördüyü çətinliklərdən, ləğv etdiyi qəzalardan, xilas olduğu yanğından "namə" bağlayır. Yazıçı istehsalat mövzusunu Daşkəsən filizçilərinin iş-fəaliyyətindən bəhs edən "Zirvələrdə" romanı ilə davam etdirir.

"Eşitdiklərim, oxuduqlarım, gördüklərim…" Sovet hökumətinin direklərinin laxladığı, süqutuna doğru gedən bir zamanda yazılsa da, yazıçının özünün söylədiyi kimi, 40 ildən çox çəkilən əməyin məhsulu idi. Bakıdakı arxivlərdə işləmək üçün Moskvadan icazə almasından başlamış, neft tarixini yazmağı səbəb kimi göstərməyinə qədər gərgin, əziyyətli bir yol keçmişdi. 1984-cü ildə "Azərbaycan" jurnalında çap edilmiş, dərhal da yaxşı mənada böyük ajiotaj yaratmışdı. Digər adı "Günlər keçdi" olan bu tarixi oçerk 1987-ci ildə kitab kimi nəşr olunmuşdur. Əsər inqilab dövründə "neft və milyonlar səltənətində" baş verən hadisələrdən, Bakı neftinin tarixindən, varlanmaq üçün dünyanın bir çox sənət, peşə sahiblərinin buraya axışmasından, mənsəb

[1] Manaf Süleymanov. Eşitdiklərim, oxuduqlarım, gördüklərim. – Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1987, s.257

[2] Yenə orada, s.6

və dövlətə sahib olub, "qızıl qırmaq"larından, "təzadlar şəhəri"nin milyonçularından və dilənçilərindən söhbət açır və dövr haqqında geniş təsəvvür yaradır. Kitabda mövzuya, dövrə aid elə bir böyük, ya kiçik məsələ, hadisə, ya nüans yoxdur ki, Manaf Süleymanov onun üstündən sükutla keçsin, epizodik, ya dərindən toxunmasın. Əsər "millətə azacıq da olsa istiqlal dadızdıran" Cümhuriyyətin süqutu və Qızıl Ordunun Bakını işğal etməsi ilə başa çatır. Təbii ki, 1984-cü ildə həm zamandan, bəlkə də əqidəsindən dolayı Manaf Süleymanov əsərinin sonunu tamam başqa istiqamətə – "sabaha açılan pəncərəyə", Şərqin işıqlı səhərinə aparır… Əsərdə Şaumyan da öz qəhrəman statusundadır, Bakı qırğınlarında 15 min azərbaycanlını qətl edəndən sonra cəsədlərin üstündə "bir-iki, Bakı oldu bizimki" – oxuyan daşnaklarla da onun heç bir əlaqəsi yoxdur. Sadalananlar faktdır və Manaf Süleymanov da işin içində olan adam kimi bütün bunlardan xəbərdar idi. Lakin Sovet hökumətinin yaratdığı və ermənilərin özləri kimi qondarma Azərbaycan – Hayastan dostluğunun fonunda əsl həqiqəti nə qələmə ala, nə də dilə gətirə bilərdi. Baxmayaraq ki, bütövlükdə Azərbaycan əleyhinə yazılmış, xalqımızın hissləri ilə oynayan, sırf təxribat məqsədi daşıyan "Ocaq" artıq kitab şəklində nəşr olunub yayılmışdı. İndiyə qədər canımızdan çıxmayan ağrı-acılarımıza da cəmi 4 il qalırdı. Amma H.Z.Tağıyev daha "Döyüşən şəhər"dəki Hacı deyil. Macəraçı obrazından qurtulmuş nüfuzlu dövlət və iş adamı, xeyriyyəçi, millətini sevən, onun çətinini asan edən, eyni zamanda şəxsiyyətini qoruyan bir vətənpərvərdir.

XX əsrin əvvəllərinin Bakısı bir çox əsərlərin süjetində öz əksini tapmışdır. "Əli və Nino"da, M.S.Ordubadinin "Gizli Bakı", "Döyüşən şəhər", Mehdi Hüseynin "Səhər" romanlarında, "Son iclas" filmində… Manaf Süleymanovun bu tarixi oçerkində isə bütün bu əsərlərdə ayrı-ayrılıqda təsvir edilən hadisələr bir yerdə və xronologiya gözlənilməklə əks etdirilmişdir.

"Şubanı dağındakı Atəşgah məbədi atəşpərəstlərin ən böyük, ən müqəddəs ziyarətgahı hesab edilirmiş. Şubanı Atəşgahını ötən əsrin axırlarında dağıdırlar".[1] "Qurd qapısı" aşırımından 5-10 km aralıda qərar tutan Şubanı dağlarının adı Bakının məhrəmi kimi, onun tarixinə aid sənədlərdə, təsvir edildiyi bədii əsərlərdə mütləq keçir, boz silueti görünür. Bakı şəhərinin mövqeyinin təsviri sanki görüntülüdür: "Limanın sahili şərqdə Zığ burnundan başlayıb, qərbdə Şıx burnuna qədər uzanır".[2]

Əsərdə şəhərin bağlarından – "Malakan", Quru bağ (Parapet) və əlbəttə ki, Bakının ən qədim parkı kimi təqdim etdiyi Qubernator bağından danışılır. O Qubernator bağı ki, salınması üçün "Bakı şəhər komendantı Lənkəran və İrandan Bakıya gələn bütün gəmilərin yiyələrini və kapitanları bir neçə çuval qara torpaq

[1] Manaf Süleymanov. Eşitdiklərim, oxuduqlarım, gördüklərim. – Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1987, s.26

[2] Yenə orada, s.43

gətirməyə vadar edərdi; əmri yerinə yetirməyənlərdən cərimə alınardı".[1] Qurban Səid "Əli və Nino"da Qubernator bağını "üstü böyük səhranın qumu ilə örtülmüş" ərazi adlandıranda, məhz həmin qumsallığı nəzərdə tuturdu.

Yazıçı Cəmil Əlibəyov yazırdı: "Manaf müəllimin son əsərinin bərabəri müasir Azərbaycan ədəbiyyatında yoxdur. Bizim yazıçılardan heç biri belə bir əsər yaza bilməyib, bilməyəcək də".[2] "Eşitdiklərim…"ə qədər də tanınmış yazıçı olan M.Süleymanova bu əsər böyük şöhrət gətirmişdir. O bütün yaradıcılığı boyu həyatının şah əsərinə doğru gedirdi, işləyirdi, material toplayırdı, arxivlərdə düşüb qalırdı, lakin heç kimə heç nə demirdi. Qorxurdu gözündən salarlar, qorxudarlar, əli soyuyar, ruhdan düşər, 40 illik zəhməti heç olar. Çünki belə bir əsər yazmaq cəsarət istəyirdi.

Əsər tanış fraqmentlərlə başlayır. Hadisələr Bakının köhnə məhəllələrində cərəyan edir, Birinci Dünya müharibəsini adlayıb 28 aprelə qədər qarma-qarışıq, mürəkkəb yol gedir. "Gündən-günə böyüyən şəhərdə üfunətdən nəfəs almaq olmurdu. Bir yandan havanı korlayır, digər tərəfdən yoluxucu xəstəliklərin yayılmasına səbəb olurdu. Bunları nəzərə alıb 1878-ci ildə ümumi kanalizasiyanı çəkməyə başlayırlar".[3] Getdikcə Bakı şəhəri inkişaf edir, küçə fənərlərinin sayı artır, "dərə-təpəlikdən ibarət olan şəhər küçələrini tarazlamağa, səki və küçələri düzəltməyə icazə verilir. Məhəllələrdə süpürgəçilər qoyulur".[4] Əsərdə sözügedən dövrün Bakısı hansı tərəfdən baxsaq, yaşamaq üçün normal görünmür. Milyonçular, bir ovuc ziyalı, bir az da əli iş tutan sənətkarlar istisna olunsa da, orta və aşağı təbəqə ağır vəziyyətdə yaşayırdı. Amma bütün bunlara baxmayaraq, həmin illər sonrakı nəsillər üçün həmişə maraqlı idi, ədəbiyyatda, incəsənətdə dönə-dönə müraciət edilmişdir.

Əsərin dili də diqqət çəkəndir: "Hacı Zeynalabdin Tağıyev ortada, qubernator bir tərəfində, şəhər bələdiyyə rəisi digər tərəfində III Aleksandra yaxınlaşırlar. Hacı xoşamədi deyir".[5] Zamanın özü kimi sadə, bəzək-düzəksiz xalq dili təhkiyəyə uyğun olub, əsərin qiraətini asanlaşdırır.

Bütün şüurlu ömrünü tədqiqata sərf edən M.Süleymanovu müasirləri "canlı tarix", "yeriyən ensiklopediya", "tozlu arxiv" adlandırırdılar. Təsadüfmü, qanunauyğunluqmu, onun özü də, "Həsənov qardaşları"na məxsus tarixi binada yaşayırdı. Kitabda bu mötəbər, təkrarsız mülkün adı çəkilməsə də, mesajı ötürülür...

Onun "Eşitdiklərim, oxuduqlarım, gördüklərim…" əsəri XIX əsrin sonu, XX əsrin əvvəlinin Bakısını öyrənmək üçün zəngin mənbədir. Əsərdə

[1] Manaf Süleymanov. Eşitdiklərim, oxuduqlarım, gördüklərim. – Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1987, s.11
[2] Yenə orada, s.11
[3] Nizami Cəfərov. Dolan, kəfkirim, dolan. – Bakı: Elm və təhsil, 2018, s.89-90
[4] Yenə orada, s.142
[5] Yenə orada, s.79

neft maqnatı Murtuza Muxtarovla usta Pirinin maraqlı dialoqu var. Bu "Fırtına" romanındakı məşhur neftçi Piri Quliyevin prototipidir.

Zaman keçdikcə, Manaf Süleymanovdan təsirlənənlər, yeni salnaməçilər, Bakışünaslar peyda olur. Əsəri yaradan müəllif olsa da, onun sonrakı taleyi cəmiyyətə nə qədər yararlı olmasından asılıdır. Zamanın keşməkeşindən çıxa biləcəkmi? Hələ ki, bu sualın cavabı müsbətdir və əsərin taleyi barədə nigarançılığa əsas yoxdur. Manaf Süleymanov Bakının tarixinə dair elə mükəmməl bir əsər yaratmışdır ki, sonrakı cəhdlər hələ ki, kölgədə qalır. 2019-cu ildə Bakı Kitab Mərkəzi ən çox satılan kitabların siyahısını təqdim etmişdir. Reytinqə daxil olan Azərbaycan dilindəki 10 kitabdan biri M.Süleymanovun "Eşitdiklərim, oxuduqlarım, gördüklərim…" əsəridir. Nizami Gəncəvi, Anar, Çingiz Abdullayev və b. görkəmli yazıçıların əsərlərinin yer aldığı mötəbər onluqda "Eşitdiklərim də…" halal yerini tutmuşdur.

1989-cu ildə Samsun Universiteti yazıçının "Bir kitabdan birqaç sətir" toplusunu nəşr etmişdir.

1994-cü ildə Manaf Süleymanovun "Azərbaycan diyarı Lahıc: etnoqrafik-bədii lövhələr" kitabı işıq üzü görmüşdür. Yazıçı bu kitabında doğulub böyüdüyü, Azərbaycanın ən qədim insan məskənlərindən olan Lahıcın bənzərsiz təbiətindən, ağ çay daşları ilə döşənmiş küçələrindən, adət-ənənələrindən, məişət və mədəniyyətindən, sənətkarlığından söz açıb. Bu gün bələdiyyə statusu daşıyan Lahıc böyük bir ustalar qəsəbəsidir. Emalatxanaların taybatay açıq qapılarından görünən xalça toxuyanlar, dəmir döyənlər, dekorativ tətbiqi sənəti inkişaf etdirən və bu təkrarsız sənəti gələcək nəsillərə ötürən misgərlər bu kitabda sevə-sevə tərənnüm olunmuşdur. Qədim zamanlardan öz əlinin zəhməti ilə yaşayan belə sənətkarlar haqqında deyirlər ki, onların həmişə qarnı tox, əyni geyimlidir. Çünki azaddırlar, padşahdan, beynəlxalq vəziyyətdən, bayırda istər qızmar yay, istər dondurucu şaxta olsun, heç kimdən, heç nədən asılı deyillər, öz dədə-baba dükanlarını işlədirlər. "Azərbaycan diyarı Lahıc…" M.Süleymanovun vətən, ocaq məhəbbətinin parlaq təzahürüdür və bu dağlar diyarını respublikanın hüdudlarından kənarda da tanıtmağa kömək edəcəkdir. Lahıc bir çox görkəmli şəxsiyyətlər, tanınmış ziyalılar, alimlər, ictimai xadimlər yetirib və… Şəhidlər verib. 44 günlük şərəf müharibəmizdən sonra bölgələrimizi tanıdan şəxsiyyətlərimizi sadalayarkən, verdiyi şəhidlərin də adı çəkilir.

"Azərbaycan diyarı Lahıc" latın qrafikalı əlifba ilə çap olunmuş və kitaba akademik Nizami Cəfərov ön söz yazmışdır. O, Manaf Süleymanovun müəllim, alim, mühəndis, ən əsası da, bir yazıçı kimi Azərbaycan xalqı qarşısındakı xidmətlərindən söz açmış və xüsusilə vurğulamışdır ki, "M.Süleymanov öz doğma yurdu Lahıc qarşısındakı borcunu məhz bu kitabı yazmaqla" vermiş oldu. Daha sonra hörmətli akademik yazıçının bu təşəbbüsünü alqışlamış, gələcəkdə yazılacaq "Azərbaycan tarixinin səhifələri" silsiləsi üçün belə bir kitabın qaranquş, mayak olacağını söyləyərək əsərin əhəmiyyətini bir daha qeyd etmişdir.

Bakı milyonçusu Hacı Zeynalabdin Tağıyevin şəxsi arxivini birinci dəfə araşdıran, Üzeyir Hacıbəylinin məktublarının surətini ilk dəfə üzə çıxaran da məhz yorulmaz araşdırmaçı Manaf Süleymanov olmuşdur. O, sıradan bir yazıçı deyildi, canlı arxiv, yeriyən ensiklopediya idi. Ədəbiyyat tariximizdə də beləcə yadda qalacaq, yaşayacaqdır.

Uşaqlıq illəri az yaşayan Cümhuriyyət dövrünə təsadüf edən qocaman yazıçı XXI əsrə qədər uzun bir yol gəlmiş, ona müstəqilliyimizdə yazıb-yaratmaq da qismət olmuşdur. "Son bahara çatdıq" (1996), "Neft milyonçusu" (1996), "Şərqdə ilk demokratik cümhuriyyət" (1999) kimi bədii və elmi-publisistik kitablarını artıq müstəqil Azərbaycanda çap etdirmişdir. Çox oxunaqlı "Şagirdlik illərim" adlı xatirə kitabı 2001-ci ildə nəşr olunmuşdur. M.Süleymanov xalqın tarixinə aid uzun illərdən bəri zəhmətinin məcmusu olan şəxsi fondundakı sənədləri 1988-ci ildə Salman Mümtaz adına Dövlət Ədəbiyyat və İncəsənət Arxivinə mühafizəyə vermişdir.

M.Süleymanovun yaradıcılığının əhəmiyyətli hissəsini onun tərcümələri təşkil edir. Cek Londonu, Uilyam Somerset Moemi, O.Henrini, Con Steynbeki, Piter Abrahamsı və başqa ingilisdilli yazıçıları azərbaycanca "danışdıran" məhz Manaf Süleymanov olmuşdur. "Tərcüməçi prozada qul, poeziyada rəqibdir", – deyirlər. Bu da nəsrdə tərcümənin çətinliyinə işarədir. Yəni bədii əsərlər sözbəsöz yox, həm də düşüncəbədüşüncə çevrilməli, çatdırılmalıdır. Ona görə deyirlər ki, bədii əsərlərin tərcüməsi ilə səriştəli yazıçılar məşğul olmalıdır. Manaf Süleymanov kimi. Onun tərcümələri birbaşa, seçimi zövqlüdür. C.Londonun "Həyat eşqi", E.Heminqueyin "Qoca və dəniz", O.Henrinin "Ən əziz hədiyyə" kimi dünyaşöhrətli əsərlərini Azərbaycan dilinə çevirərək latın qrafikası ilə də dəfələrlə çap etdirmişdir. O, ingilis, fars, ərəb dillərini bilməklə yanaşı, rus dilində də yazıb-yaratmışdır. Azərbaycan dilində isə ərəb əlifbası ilə yazırdı.

Akdemik Nizami Cəfərovun Manaf Süleymanova həsr etdiyi "Dolan, kəfkirim, dolan…" xatirə kitabını xüsusi qeyd etmək lazımdır. Bağlanan bu "ömür dastanı" sevgidən yoğrulub, yazıçının şəxsiyyətinə hörmətlə süslənib, nəql edilənlər qədirbilənliklə yad edilib. Xüsusilə son cümlə – "Bu kitabda yaxşı nə varsa, Sizin adınızdır və Sizə aiddir, uğursuz cəhətləri isə mənə aiddir və onun məsuliyyətini mən təkcə daşıyıram".[1] Bu sözlər Manaf Süleymanova olan ehtiramın göstəricisi olmaqla bərabər, müəllifin də ziyalı təvəzökarlığının başucalığıdır.

Hamı dahi ola bilməz, kifayətdir ki, özün olasan. "Sevdiyin hər şey bir gün itəcək, amma sonunda sevgi başqa bir şəkildə geri dönəcək". Manaf Süleymanovun bədii yaradıcılığının aktuallığı, yaratdığı böyük maraq ümumxalq sevgisinin bariz nümunəsidir.

[1] Nizami Cəfərov. Dolan, kəfkirim, dolan. – Bakı: Elm və təhsil, 2018, s.189

SÜLEYMAN VƏLİYEV
(1916-1996)

XX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən biri də Süleyman Vəliyevdir. O, milli ədəbiyyatımızda repressiya dəhşətləri və gizlinlərindən söz açan ilk memuar əsərinin ("Qanadı sınmış quş da uçarmış"), beynəlxalq antifaşist müqavimət hərəkatını əks etdirən ilk romanın ("Mübahisəli şəhər") müəllifidir. Süleyman Vəliyevin bir yaradıcı şəxsiyyət kimi orijinallığı onun bəhrələndiyi gerçək süjetlərlə bədii süjetləri arasında fərqin, demək olar ki, olmamasıdır. Yaradıcılığının əsas istiqamətini təşkil edən neft mövzusu da, müharibə mövzusu da, repressiya mövzusu da, qürbətçilik də... şəxsən yaşadığı real hadisələrdən təsirlənərək qələmə aldığı gerçəklərdir. Başqa sözlə, S.Vəliyev, sözün həqiqi mənasında, özünü və öz taleyini qələmə alan sənətkardır. Bu səbəbdən də tədqiqatçıları ondan daha çox "öz həyatını yazan", "özü öz bioqrafiyasını yaradan" sənətkar kimi söz açmış, əsərlərini isə "taleyin yazıları" kimi təhlilə cəlb etmişlər.

Həyatı. Süleyman Məşədi Vəli oğlu Vəliyev 1916-cı il dekabrın 21-də Bakı yaxınlığındakı Ramana qəsəbəsində anadan olmuşdur. Səkkiz illik məktəbi bitirdikdən sonra dövrünün nümunəvi təhsil ocaqlarından olan və direktorunun adı ilə tanınan "Qulam şkolası"nda təhsilini tamamlamışdır (O, "Qulam müəllim" adlı oçerkində bu barədə qədrşünaslıqla söhbət açmışdır).

Süleyman Vəliyev orta təhsilini bitirdikdən sonra neft mədənlərində fəhləlik etmiş, Lökbatanda çıxan "Neft uğrunda", daha sonra "Kommunist", "Azərbaycan gəncləri" qəzetlərində müxbir, "İnqilab və mədəniyyət" jurnalında ədəbi işçi kimi fəaliyyət göstərmişdir. O, jurnalistlik fəaliyyətini sonralar da davam etdirmiş, "Pravda", "Literaturnaya qazeta", "Trud" kimi nüfuzlu qəzetlərin, "Drujba narodov", "Naş sovremennik", "Detskaya literatura" kimi jurnalların fəal yazarı kimi tanınmışdır.

Hələ 1939-cu ildə Qərbi Ukraynada hərbi xidmətdə olarkən cavan yazıçı oraya görüşə gəlmiş görkəmli rus ədibi Aleksey Tolstoyla, SSRİ Yazıçılar İttifaqının I katibi Georgi Markovla tanış olmuşdur.

S.Vəliyev hərbi xidmətdən qayıtdıqdan sonra ustad şair və böyük şəxsiyyət Səməd Vurğun onu Yazıçılar İttifaqında Müdafiə Ədəbiyyatı bölməsinin müdiri təyin edir. Müharibənin ilk günlərində hərbi komissarlığa ərizə ilə müraciət edən S.Vəliyev Səməd Vurğunun arxada qalıb vətənpərvərlik təbliğatı təklifi ilə razılaşmır və cəbhəyə yollanır. Məşhur 416-cı Milli diviziyasının tərkibində Şimali Qafqazda, daha sonra Kerçdə vuruşur. Sevastopoldakı 1942-ci ilin may döyüşlərində kontuziya alıb düşmənə əsir düşür. 1944-cü ilin yazında o, ağır bombardman zamanı əsir düşərgəsindən qaçıb, partizan dəstəsinə qoşulur və döyüşlərdə böyük qəhrəmanlıqlar göstərir.

S.Vəliyev müharibədə olarkən S.Vurğun onun ailəsinə qayğısını əsirgəmir, müharibədən qayıtdıqdan sonra ona mənzil verdirir.

S.Vəliyev M.F.Axundov adına Pedaqoji İnstitutda (indiki Slavyan Universiteti) oxumuş (1946-1948), C.Cabbarlı adına "Azərbaycanfilm" studiyasında redaktor vəzifəsində işləmiş (1958-1963), Azərbaycan Yazıçılar Birliyində (İttifaqında) məsləhətçi kimi çalışmış (1963-1987), SSRİ Yazıçılar İttifaqının VI və VII qurultaylarında nümayəndə kimi iştirak etmişdir (1976; 1981).

S.Vəliyevin zəngin yaradıcılığı sağlığında geniş oxucu marağına səbəb olmuş, əsərləri bir çox dillərə tərcümə edilmiş, özü isə S.Marşak, A.Qaydar, V.Vasilevskaya və M.Mixaylovskidən tərcümələr etmişdir. Sağlığında Azərbaycan və rus dillərində 37 kitabı nəşr olunmuşdur.

Süleyman Vəliyevin ədəbiyyatımızdakı xidmətləri yetərincə dəyərləndirilmiş, Azərbaycan Respublikası Rəyasət Heyətinin fəxri fərmanları (1967, 1986), "Xalqlar dostluğu" ordeni (1984) və medallarla təltif olunmuş, Azərbaycanın Əməkdar mədəniyyət işçisi (1977), Azərbaycanın Əməkdar incəsənət xadimi fəxri adlarına layiq görülmüşdür. S.Vəliyev Azərbaycanın Günahsız Siyasi Qurbanlar Assosiasiyasının rəyasət heyətinin də üzvü seçilmişdir.

Görkəmli yazıçı Süleyman Vəliyev 1996-cı il martın 7-də Bakıda dünyasını dəyişmiş, İkinci Fəxri Xiyabanda dəfn edilmişdir.

Yaradıcılığı. Süleyman Vəliyevin 1932-ci ildə "Əmanət kassası" adlı ilk hekayəsi "Hücum" dərgisində dərc olunmuş, 1937-ci ildə "Bığlı ağa"[1] adlı ilk povesti isə Azərnəşr tərəfindən buraxılmışdır. Onun yaradıcılığa başladığı, "ilk addımları"nı atdığı 1930-cu illər, məlum olduğu kimi, Azərbaycan sovet ədəbiyyatının çox mürəkkəb, ziddiyyətli, onun formalaşması və təşəkkülü, öz yeni qəhrəmanını axtarması, yaradıcılıq metodunu müəyyənləşdirməsi dövrünə təsadüf etmişdir. İstedadlı yazıçı müxtəlif mövzularda qələmə aldığı "Mübahisəli şəhər", "Düyünlər", "Daşlı bulaq", "Qanlı ocaq" romanlarının, "Şor cüllütü" (bu povest əsasında "Qara gölün cəngavərləri" adlı S.Vəliyevin ssenarisi əsasında (1984) film çəkilmiş), "Kerç səhəri", "Türk qızı", "Mən necə dirildim", "İşıqlıq", "Qürbətdən vətənə", "Məhəbbət buzu əridir", "Dumanlı gündə", "Usta Pirinin ulduzları" povestlərinin, "İtaliya-Misir", "Qanadı sınmış quş da uçarmış" kimi memuarların, "Molla Məmiş və sandıq", "Əncir ağacı", "Bir səhəng su", "Gül dəstəsi", "Həyatın dadı" hekayələrinin və b. əsərlərin, eləcə də publisistik məqalə və oçerklərin müəllifidir.

Mövcud sovet rejiminin ağır dövründə, S.Vəliyevin repressiyaya məruz qaldığı illərdə onun da əsərləri kitabxanalardan yığışdırılmış, bəzi əsərlərinin

[1] Süleyman Vəliyev. Bığlı ağa. – Bakı: Azərnəşr, 1937

nəşri illərlə gecikdirilmişdir. 1946-1947-ci illərdə yazılan "Mübahisəli şəhər" romanının 1957-ci ildə işıq üzü görməsinin səbəbi S.Vəliyevin repressiyaya məruz qalması olmuşdur. Rejimin daha çox sıxışdırdığı və cəzalandırdığı sənətkarların quruluşu daha çox tərənnüm və təbliğ etməsi isə paradoksal olsa da, anlaşılandır.

S.Vəliyevin uşaqlığının zəhmətkeş, proletar fəhlə sinfi mühitində keçməsi (Həmid Sultanov Ramana neft mədənlərində işlərkən, onların həyətində kirayədə qalmış, Süleymanın atası Məşədi Vəli onunla dost olmuşdur – A.S.), təbii ki, onun dünyagörüşünə təsir etmiş və bolşevik fəhlə obrazları (o sıradan Həmid Sultanovun da) onun bir sıra əsərlərində müsbət qəhrəman kimi yer almışdır. Bu proses yazıçının yaradıcılığının sonrakı mərhələlərində də davam etmişdir. Başqa sözlə, S.Vəliyev də həmkarları kimi partiyanın Ədəbiyyat sahəsindəki siyasətini yaradıcılığında nəzərə alırdı.

Süleyman Vəliyevin əsərlərində qaldırdığı problemləri şərti olaraq neft, müharibə, repressiya, beynəlxalq mövzular üzrə qruplaşdırmaq mümkündür. İstedadlı yazıçı bir neçə satirik hekayənin də müəllifidir.

Ramanada – neft istehsal olunan kənddə doğulub-böyüyən Süleyman Vəliyev Bakı neftinin çıxarılmasında iştirak etdiyinə görə, fəhlə həyatına yaxından bələd olmuşdur. Bu səbəbdən də neft Bakısının real və əzəmətli obrazı, insanların ağır və fədakar əməyi, eləcə də şəhərin "neftlə yazılmış tarixi", müasir həyatı Süleyman Vəliyevin yaradıcılığında geniş yer almışdır. O, yazıçılığa fəhləlikdən, həm də, belə demək mümkünsə, "neft fəhlə-liyi"ndən gəldiyindən, bu mövzunu incəliklərinə qədər bilmişdir. S.Vəliyev irsinin tədqiqatçısı Faiq Şirinovun da qeyd etdiyi kimi, "Azərbaycan ədəbiyyatında Neft Bakısının istər tarixi, istərsə də müasir obrazını təsvir edən əsərlər çoxdur... Süleyman Vəliyevin mövzuya müraciətinin əsas səciyyəvi cəhəti budur ki, neft Bakısı obrazına bütün yaradıcılığı boyu ardıcıl müraciət edir və onu bütün tarixi dolğunluğu ilə əks etdirməyə çalışır".[1]

Bakının fəhlə həyatı və neft mövzusundan bəhs edən "Bığlı ağa" (1937) və "Şor cüllütü" (1939) povestlərində yazıçı dövrün ideoloji tələblərini nəzərə alsa da, xalqın məişətini, etnoqrafiyasını və milli psixologiyasını dərindən bilməsi ona Bakının əzəmətli tarixini və müasir həyatını yaratmağa imkan vermişdir. "Şor cüllütü" povestini tədqiqatçıların əsərdəki obrazların təkamül prosesi baxımından Arkadi Qaydarın "Timur və onun komandası", eləcə də Mir Cəlal Paşayevin "Bir gəncin manifesti" romanındakı obrazlarla müqayisə etməsinin səbəbi vurğulanan amillərlə birbaşa bağlıdır. S.Vəliyev neft

[1] Faiq Şirinov. S.Vəliyevin yaradıcılığında tarixilik və müasirlik. Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı (əlyazması hüququnda). – Sumqayıt, 2021, s.9

mövzusunu “Düyünlər” romanı, “Usta Pirinin ulduzları” povesti, “Buzovnadan Qalaya” oçerki, “Dağlar ətəyində” hekayəsində və bəzi başqa əsərlərində də davam etdirmişdir.

Süleyman Vəliyev müharibə başlanandan Şimali Qafqazda, Krımda, Kerçdə vuruşmuş və şahidi olduğu hadisələri “Mübahisəli şəhər” romanında, “Kerç səhəri” povestində, “Rütbə”, “Mənə “sən” de”, “Çörək”, “Zorən qoca”, “Heyf o gözlərdən”, “Qurtuluş”, “Təşəkkür”, “Həyatın dadı” kimi hekayələrində təsvir etmişdir. Real və canlı insan münasibətləri, eləcə də vətən sevgisi və düşmənə nifrət ruhunda yazılan bu əsərlər yarandığı dövrdə, eləcə də sonralar oxucu marağı və sevgisinə səbəb olmuşdur. Bu əsərləri müharibə mövzusunda yazılan çoxsaylı əsərlərdən fərqləndirən və oxuculara sevdirən başlıca cəhətlərdən biri də onların canlı müşahidə əsasında qələmə alınması, başqa sözlə, onların “döyüşçü qələmi”ndən çıxması və müəllifin müharibənin dilə gətirilməsi bir o qədər də təqdir edilməyən “gizlinləri”nə də yer verməsidir. Adıçəkilən əsərlərdə cəbhələrdə yaşanan müharibə həqiqətləri real boyalarla əksini tapmışdır. Yazıçının müharibə mövzusunda qələmə aldığı əsərlər içərisində ən uğurlusu isə II Dünya müharibəsində müqavimət hərəkatını işıqlandıran, 1946-1947-ci illərdə yazılsa da, yalnız 1957-ci ildə işıq üzü görən “Mübahisəli şəhər” romanıdır. Prototipi özünün olduğu əsərdəki Aslan obrazının timsalında müəllif partizan hərəkatındakı gizli fəaliyyətini, göstərdiyi qəhrəmanlıqları, əsirlikdən qurtulmasını, müxtəlif millətlərdən olan döyüşçülərin (rus, sloven, azərbaycanlı və b.) faşizmə qarşı mübarizəsini xalqlar dostluğu fonunda oxuculara çatdırır. Ədibin ilk romanı olan bu əsər, milli ədəbiyyatımızda beynəlxalq antifaşist müqavimət hərəkatını işıqlandıran ilk roman kimi qəbul edilir. SSRİ Yazıçılar İttifaqının I katibi Georgi Markovun Yazıçıların IV Qurultayında “Mübahisəli şəhər” romanının adını faşizmə qarşı mübarizədə xalqlar dostluğunu tərənnüm edən ən yaxşı əsərlər sırasında çəkməsi də təsadüfi deyildi.

Özünəməxsus yaradıcılıq yolu və üslubu olan S.Vəliyevin orijinallığını filologiya elmləri doktoru Rəhim Əliyev onun “ədəbiyyatımız üçün təzə olan həyat təcrübəsi, ömür yolu, taleyi ilə, zahirən az emosional, daxilən çox kövrək, istiqanlı və dərin şəxsiyyəti” ilə əlaqələndirir. Ardıcıl universitet təhsili ala bilməyən S.Vəliyevin ədəbiyyata “həyatın universitetlərindən” gəldiyini xatırladır. R.Əliyev “Mübahisəli şəhər”i ədəbiyyatımızda “Böyük Vətən müharibəsi dövründəki partizan hərəkatı barədə yeganə roman” hesab edir.

Doğrudan da S.Vəliyevin şəxsi taleyi bahasına topladığı həyat materialları onun ən yaxşı yol göstərəni, uğurlarının təminatçısı olmuşdur. Onun əsərlərinin məşhurlaşmasının, başqa dillərə tərcümə edilməsinin səbəbi də onların zənginliyi və orijinallığı idi. R.Əliyev bu atributların yazıçının təkcə bədii yaradıcılığında deyil, ədəbi-publisistik məqalələrində də qabarıq göründüyünü xatırladır və yazıçının oçerklərinin o dövrün “Pravda”, “İzvestiya”

kimi nüfuzlu mətbu orqanlarında tez-tez çap olunmasının da səbəbini onun topladığı həyat materiallarının zənginliyi ilə əlaqələndirir. R.Əliyev yazır: "S.Vəliyev Bakıda Ramana kəndində zəhmətkeş Vəli kişinin ailəsində insanlıq, kişilik, nəciblik, təmənnasızlıq barədə ilk təsəvvürlərə, anlayışlara yiyələnmiş, onları bütün ömrü boyu sədaqətlə qoruyub saxlamışdır. Müharibədə sıravi əsgərin payına düşən çətin fiziki və mənəvi sınaq, hərbi düşərgənin dəhşətləri, İtaliyada partizan dəstəsi döyüşçüsünün ağır həyatı, sonralar Sibirin sərt sürgünləri... Bütün bunların içərisindən mətanətlə keçən, ən başlıcası isə sınmadan, bədbinləşmədən keçən yazıçı otuzuncu illərin ortalarında ilk hekayə və povestlərini çap etdirdiyi vaxtların mənəvi təmizliyinin əxlaqi aydınlığını sədaqətlə saxlamış və bu keyfiyyətlər onun yaradıcılığının həmişə mənəvi əsasını təşkil etmişdir".[1]

Müəllif sadaladığı məziyyətlərin qabarıq ifadəsinin yer aldığı əsərlər sırasında "Bığlı ağa" və "Şor cüllütü", "Kerç səhəri", "İşıqlıq", "Türk qızı" əsərlərinin adlarını ön sırada çəkir. Ərəb hekayələrini S.Vəliyevin yaradıcılığında "orijinal hadisə" hesab edir. Yazır ki, "Burada S.Vəliyevin həyat təcrübəsi və müşahidələri dərin sosial təhlil bacarığı ilə, bədii ümumiləşdirmə gücü ilə birləşir. Bu nümunələrdə yazıçı adi faktların mənalandırılması və təhlili yolu ilə gedərək kiçik hekayələrdə böyük ictimai qrupların psixologiyasını, mənəvi-əxlaqi konfliktlərini, aldanış və faciələrini qələmə almış, istismar cəmiyyətinin daxili çürüklüyünü göstərə bilmişdir"[2].

S.Vəliyev üzərində uzun müddət işlədiyi "Daşlı bulaq" romanını (1950-1980) dəhşətli Sibir sürgününün ağrılarını bölüşdüyü sevimli həyat yoldaşı Asya xanıma həsr etmişdir. Məlum olduğu kimi, yazıçı Sibirə sürgün edildikdən az sonra həyat yoldaşı onun yanına gəlmiş və yazıçıya ağır günlərində dayaq olmuşdur (övladları Seyran və Leyla sürgündə dünyaya gəlmişdir – A.S.).

Repressiya mövzusu tarix və müasirlik kontekstində real və inandırıcı şəkildə təqdim edildiyinə görə, tədqiqatçıları bu əsəri Mirzə İbrahimovun "Böyük dayaq", İsmayıl Şıxlının "Ayrılan yollar", Sabir Əhmədlinin "Aran", İlyas Əfəndiyevin "Söyüdlü arx", Mehdi Hüseynin "Qara daşlar" romanlarının sırasına daxil etmişlər.

"Daşlı bulaq" romanının qəhrəmanı Ayazla əvvəlki əsərlərinin qəhrəmanları arasında xarakter yaxınlığı müşahidə edən Rəhim Əliyev yazır: "Oxuculara məlumdur ki, yazıçı bir neçə il Sibirdə sürgün həyatı keçirmişdir. Keçmişimizin bu faciəli səhifələrini durğunluq dövründə realistcəsinə yazıb çap etdirmək qeyri-mümkün olduğundan, yazıçı sürgün dövrü müşahidələrini

[1] Rəhim Əliyev. Sədaqət / S.Vəliyevin ikicildliyi haqqında qeydlər. Ədəbiyyatımız, tariximiz, dilimiz: son iki onilimiz. – Bakı: Elm, 1997, s.177

[2] Yenə orada, s.178

Sibirin müasir həyatında iştirak edən azərbaycanlı aqronomun fəaliyyəti kimi qələmə almışdır. Ayazın prototipi – Süleyman Vəliyev isə əslində sürgün şəraitində tərəvəzçilik briqadasında ağır fiziki əməklə məşğul olmuşdur. Əsərdəki bir çox eyhamdan da bunun izlərini hiss etmək mümkündür".[1]

R.Əliyev "Daşlı bulaq" romanını ədəbiyyatımızda şəxsiyyətə pərəstiş dövrünün qurbanlarının Sibir "həyatı" haqqında yazılmış "yeganə bədii əsər" adlandırır və onu sonrakı illərdə eyni mövzuda yazılmış əsərlərlə müqayisə edir. Əsərin yarandığı dövrün S.Vəliyevə acı gerçəkləri daha dərindən və daha real yazmağa imkan vermədiyini xatırladır: "Yəqin ki, müəllif "Daşlı bulaq" və "Düyünlər" romanlarını indi qələmə alsaydı, burada həyat həqiqətlərinin, realizmin səviyyəsi daha sərt və cəsarətli olardı, qəhrəmanların taleyinin təhkiyədən kənarda qalan məqam və nöqtələri də bəlkə daha əsaslı və əhəmiyyətli yer tutardı".[2]

"Şəlalə" hekayəsində sürgündə olduğu Bodaybonun qılınc kimi kəsən şaxtalı günlərini, insanlar arasındakı mənəvi çarpışmaların təsvirini yazıçı inqilabdan əvvəlki dövrə keçirməklə təqdim edir. 1957-ci ildə işləyib "Səadət yollarında" adı ilə yenidən çap etdirdiyi "Bığlı ağa" povestində yazıçı Sibir həqiqətlərindən də danışır və bu zaman şəxsən yaşadığı həyat materiallarına istinad edir.

S.Vəliyevin orijinal üslubda işlədiyi "Düyünlər" romanı Azərbaycan ədəbiyyatında repressiya mövzusunda yazılan ən qiymətli əsərlərdən biridir. Müəllif "Düyünlər" romanını, eləcə də digər avtobioqrafik əsərlərini yazarkən yalnız öz faciəli sürgün həyatından söz açmaq fikrində olmamışdır. O yaşadığı dövrün eybəcərliklərini, haqsızlıqlarını oxucuya çatdırmaq istəmişdir. S.Vəliyevin repressiyaya həsr etdiyi "Düyünlər" romanını qələmə aldığı dövrdə həm bu mövzuda yazılan əsərlərin sayı az idi, həm də yazılan əsərlərdə müəlliflər mövzuya örtülü və ehtiyatla toxunurdular. Bioqrafik səhnələrlə zəngin olan "Düyünlər"in müəllifi isə problemə daha geniş aspektdən və dərindən yanaşmaqla yanaşı, bəşəri bir bəla olan təkcə repressiyanın özünü – nəticəni deyil, onu yaradan səbəbləri, başqa sözlə, bütövlükdə repressiya mühitini ziddiyyətləri və mürəkkəblikləri ilə təsvir edirdi.

Akademik Məmməd Arif də romanın adını, məhz bu kontekstdə işlənən əsərlərin sırasında çəkirdi. Yazırdı ki, "Dəli Kür", "Dağlar arxasında üç dost", "Tamaşa qarının nəvələri", "Düyünlər" kimi roman və povestlərimizdə həyat və insanlar ciddi konfliktlər əsasında, dərin psixoloji təhlil yolu ilə, bütün ziddiyyət və mürəkkəbliyi ilə təsvir olunmuşdur".[3]

---

[1] Rəhim Əliyev. Taleyin yazıları. Ədəbiyyatımız, tariximiz, dilimiz: son iki onilimiz. – Bakı: Elm, s.173

[2] Yenə orada, s.174

[3] Məmməd Arif. Müasirlik, novatorluq, kamillik. Sənətkar qocalmır. – Bakı: Yazıçı, 1980, s.68

“Düyünlər” əsərini ərsəyə gətirməklə, Süleyman Vəliyev, doğrudan da stalinizmin dəhşətli gerçəklərini, repressiya həqiqətlərini daha geniş kütlələrə çatdırmağa çalışmışdır. Bu baxımdan Vasif obrazı təkcə müəllifin yox, stalinizmin törətdiyi repressiyanın pəncəsindən qurtulmuş minlərlə insanın prototipi idi. Əsər, doğrudan da, haqsız olaraq məhv edilmiş minlərlə həmvətənlərimizin xatirəsinə qoyulan söz abidəsi idi.

Romanın sonunda S.Vəliyev yaradıcılıq kredosu səviyyəsinə yüksəltdiyi mənəvi saflıq, dostluq, zəhmət adamlarının həmrəyliyi, insanlara inam kimi keyfiyyətlərə də kifayət qədər yer vermişdir. Əslində sadalananlar təkcə bu əsərin deyil, onun “Qulam müəllim”, “Qubkin və Yusif”, “İlk qəhrəman”, “Gözlərimin işığı”, “Məhəbbət buzu əridir”, “Usta Pirinin ulduzları”, “İşıqlıq”, “Dumanlı gündə” kimi povest və hekayələrinin, eləcə də bütövlükdə yaradıcılığının aparıcı xəttini təşkil etmişdir.

Görkəmli yazıçı Süleyman Rəhimov S.Vəliyevin Balaxanı neftinin tarixinə, məşhur buruq ustası Piri Quliyevə və onun ailəsinə həsr etdiyi “Babalar, atalar, nəvələr” povestini yüksək qiymətləndirir. Sənədli povestin bir çox hissələrinin “maraqlı roman kimi” oxunduğunu diqqətə çatdırır.[1] Həm adıçəkilən əsəri, həm də yazıçının “Düyünlər” romanını dövrün ədəbiyyat xəzinəsinə sanballı bir “hədiyyə” hesab edir. Gözəl roman və povestlərin, eləcə də müasir mövzulu, maraqlı kiçik hekayələrin müəllifi kimi tanınan S.Vəliyevin əsərlərinin gənc nəslin tərbiyəsində əhəmiyyətli rol oynadığını vurğulamışdır.

Süleyman Vəliyev repressiya dəhşətlərini 1988-ci ildə qələmə aldığı “Qanadı sınmış quş da uçarmış” xatirə romanında daha real – olduğu kimi təsvir etmişdir. Bu xüsusiyyətinə görə, əsər sənədli xatirə romanı da adlandırılır. Faktlara yanaşma, eləcə də onların təqdimi baxımından ədəbiyyatımızda yeni bir ədəbi tapıntı olan bu sənədli romanı repressiya mövzusunda müstəqillik illərində qələmə alınan əsərlərin “yol başçısı” da hesab etmək olar.

S.Vəliyev adıçəkilən əsərində taleyində xüsusi rol oynamış ustad şair və xeyirxah insan Səməd Vurğunla bağlı da naməlum faktlara toxunur. Məlum olur ki, 1948-ci ildə Xüsusi İdarənin əməkdaşları müharibədə kontuziya alıb, əsir düşmüş S.Vəliyevə S.Vurğundan donos toplamağı təklif edir: “Səməd Vurğunun evinə gedin. Ona ağır həyatınızdan danışın. O, ürəyi rəhmlidir, kömək edər. Ona yeni əsərinizi oxuyun. Elə edin ki, sizə ürəyi qızsın... Söhbətarası eşidəcəksiniz ki, millətdən danışır, pantürkistləri müdafiə edir və sonra... Bu sözləriniz bizə çox lazımdır”.[2]

[1] Süleyman Rəhimov. Fəhləlikdən yazıçılığa. “Ədəbiyyat və incəsənət” qəzeti, 25 dekabr 1976

[2] Süleyman Vəliyev. Qanadı sınmış quş da uçarmış (sənədli roman). – Bakı: Xan, 2018, s.57

“Təklif”dən müstəntiqin S.Vurğunun, belə demək mümkünsə, “zəif yerləri”ni yaxşı bildiyi aşkar görünür: o bilir ki, S.Vurğun “ürəyi rəhmlidir, əliaçıqdır, millətçidir və türkçüləri müdafiə edir”.

Müstəntiq günahının bağışlanacağını və firavan həyat vəd etsə də, S.Vəliyev S.Vurğuna qarşı çıxmır: “Görün, kimin haqqında və kimə müraciət edirdilər?! Səmədə ömrü boyu minnətdar olan adama. İstəyirdilər ki, tale yollarıma şeiriyyət nuru səpən şairin gülümsər gözlərindəki sevinc yox olsun. Yox, yox, qara külək nəhəng palıd ağacını yıxa bilmədi”,[1] – deyən yazıçı sürgünə getməyi – dözülməz həyatı alçalmaqdan üstün tutur. Onun doğma Vətəndən uzaqlaşdırılmasının səbəbi, təkcə müharibədə əsir düşməsi yox, mərdlik-mərdanəlik, vətəndaşlıq qeyrəti göstərib, xüsusi orqanların S.Vurğunla bağlı “təklif”ini yerinə yetirməməsi olmuşdur.

S.Vəliyev S.Vurğunun həbs olunmasına M.C.Bağırovun özünün rəhbərlik etdiyini də diqqətə çatdırır. Əslində o, haqlı idi: M.C.Bağırov S.Vurğunu 1937-ci ildə həbs etdirmiş, 1952-ci ildə isə Respublika prokuroru şairin həbsinə order imzalamışdır. Deyilənləri həm arxiv sənədləri əsasında yazılmış əsərlər, həm M.C.Bağırovun məhkəməsində ifadə verən keçmiş NKVD əməkdaşları, həm də şairin övladları[2] təsdiq edir...

S.Vəliyevin yaradıcılığının müəyyən bir sahəsini də satirik, yaxud “satirik çaların üstünlük təşkil etdiyi” hekayələri təşkil edir. Onun “Dəmir papaq”, “Allahın bəlası”, “Bölünməzlik”, “Azar”, “Millət qəhrəmanı”, “Namərd qapısı” və b. hekayələri fərqli problemlərə həsr edilsə də, onları birləşdirən ümumi bir cəhət də var: yaltaqlıq, ikiüzlülük, saxtakarlıq, böhtançılıq, donosbazlıq, şan-şöhrət xəstəliyi, başqa sözlə, sovet ideologiyasının, mövcud rejimin törətdiyi naqisliklər. Doğrudur, onlardakı tənqidlərin kəskinliyi kifayət qədər görünmür. Bunun səbəbi isə heç də müəllifin özünün, belə demək mümkünsə, “tolerantlığı” ilə deyil, hekayələrin qələmə alındığı dövrün amansızlığı, qəddarlığı ilə bağlı idi. Dilarə Adilovanın da qeyd etdiyi kimi, “...yazıçının yaradıcılığında satirik süjetlər ayrıca qeyd edilə bilər. Yəqin ki yaşadığı mühit imkan versə idi, Süleyman Vəliyev belə süjetlərə daha çox müraciət edər, öz satirik qələmini daha ustalıqla və daha məhsuldar işlədərdi”.[3]

S.Vəliyev “Ərəb hekayələri” səpkisində Şərq ölkələrində gördüyü hadisə və süjetlərdən bəhs edən bir sıra hekayələr də qələmə almışdır (“Əncir ağacı”, “Leysan yağışı”, “Nil suyu”, “Bir salxım üzüm”, “Dağılmış yurd” və s.).

---

[1] Süleyman Vəliyev. Qanadı sınmış quş da uçarmış (sənədli roman). – Bakı: Xan, 2018, s.57

[2] Cəlal Qasımov. Repressiyadan deportasiyaya doğru. – Bakı: Mütərcim, 1998, s.179; Aslan Kənan. XX əsrdə repressiyaya məruz qalanlar. – Bakı: Azərnəşr, 2011, s.157; Vaqif Səmədoğlu ilə müsahibə. Lent.az., 11 noyabr 2009

[3] Dilarə Adilova. Süleyman Vəliyevin satirik hekayələri. Filologiya məsələləri. – Bakı: AMEA M.Füzuli adına Əlyazmalar İnstitutu. 2004, №4, s.32

Süleyman Vəliyevin beynəlxalq mövzuda qələmə aldığı "Türk qızı" povestində (1962) də müasirlərimizin həyatından danışılır. Povestdə Gülbahar, Tofiq və bütünlükdə türk tələbələrinin simasında əsl türk xarakteri qabardılır.

"Qanlı ocaq" romanını S.Vəliyev müəyyən fasilələrlə uzun müddət davam etməkdə olan qlobal bir münaqişəyə yəhudi-fələstin qarşıdurmasına həsr etmişdir. Romanın əsas ideyası sionizmə qarşı mübarizə, ərəb və yəhudi xalqlarının dostluğudur.

Süleyman Vəliyevin həyatı çox ağır, məşəqqətli keçmişdir. Onun hansı faciələrlə üzləşdiyini təsəvvür etmək üçün repressiya mövzusundakı əsərlərinin birindən bir abzası xatırlatmaq, zənnimizcə, kifayət edər: "Çox ölkələr gördüm: Almaniya, Fransa, Avstriya, Yuqoslaviya, İtaliya, Misir, İraq və nəhayət, Sibir. Yaxın Şərqdə də oldum, Uzaq Şərqdə də... 50 dərəcə istini də gördüm, 50 dərəcə şaxtanı da, yanar torpağı da, donan torpağı da. Vətənə yolum çox uzun, çox əzablı yol idi. Yolasalma düşərgələri, Neapolun tikanlı məftilləri, Aralıq dənizindən üzüb gedən gəmi anqarları. Qırmızı dənizdə, Hind okeanında... sonra isə Vətən... Başıma gələn qəzaları, nəinki təsvir etmək, təsəvvürə gətirmək belə çətindir. Bəlkə, buna görə də mənim kimi başıbəlalı adamlar "qazanca qalmışıq", – deyirlər özlərinə".[1]

"Təsviri və təsəvvürə gətirilməsi" nə qədər çətin olsa da, S.Vəliyev əsərlərinin demək olar ki, hamısını "başına gələn qəzalar"a həsr edib. Bioqrafizmin yazıçının yaradıcılığının təməl qaynağı olduğunu nəzərə alsaq, deyilənlərin həqiqət olduğuna şübhə yeri qalmır. Əslində S.Vəliyevin bir yaradıcı şəxsiyyət kimi orijinallığı da bununla bağlıdır.

Bədii əsərlərin yaranmasında fərqli statusda çıxış edən gerçək və bədii süjetlər arasındakı fərqliliyin S.Vəliyevin yaradıcılığına, demək olar ki, aidiyyəti yoxdur. Başqa sözlə, onun əsərlərinin süjetləri öz həyatından götürdüyü süjetlər, belə demək mümkünsə, "öz süjetləri"dir. Yaradıcılığının əsas istiqamətlərini təşkil edən Bakı nefti mövzusu da, müharibə mövzusu da, repressiya mövzusu da, yurd həsrəti və qürbətçilik də, satiraçılıq da... şəxsən onun özünün real yaşantıları, yaxud qarşılaşdığı gerçək hadisələrdir. S.Vəliyev, sözün həqiqi mənasında, özünü və öz taleyini yazan sənətkardır. Elə bu səbəbdən də tədqiqatçıları ondan birmənalı olaraq "öz həyatını yazan" sənətkar kimi söz açırlar. Onu Azərbaycan nəsrinin görkəmli nümayəndələrindən biri hesab edən professor Famil Mehdi yazır: "Süleyman Vəliyev özü öz bioqrafiyasını yaradan yazıçılardandır. O, həyatın bütün keşməkeşlərini

[1] Süleyman Vəliyev. Qanadı sınmış quş da uçarmış (Sənədli roman). – Bakı: Xan, 2018, s.40

görüb... İnqilabdan əvvəl neftçilərin məşəqqətli həyatının şahidi olub. Uşaq qəlbi neçə-neçə fəhlənin başına gələn faciədən alışıb yanıbdır".[1]

Bir sənətkar kimi orijinal dəst-xəti olduğunu, bədii yaradıcılığın mürəkkəb psixoloji prosesini dərindən bildiyini, yazıçı həqiqətinin onun üçün əsas meyara çevrildiyini xatırlatmaqla yanaşı, görkəmli yazıçı Süleyman Rəhimov da S.Vəliyevin "gördüklərini və yaşadıqlarını yazdığını", onun "mövzu axtarmağa ehtiyac duymadığını"[2] diqqətə çatdırır.

Eyni gerçəyi filologiya elmləri doktoru Rəhim Əliyev də müşahidə edir. Yazır ki, "Onun bütün əsərlərində sərt sınaqlardan keçmiş taleyinin böyük hekayəsini oxumaq olur. Bu mənada yazıçının "Daşlı bulaq" (1987) adlı yeni kitabında verilmiş üç romanı onun həm həyatının, həm də yaradıcılığının bütün mərhələlərini əhatə edir, həmin əsərlərin ("Mübahisəli şəhər", "Düyünlər", "Daşlı bulaq") qəhrəmanları arasında ümumi cizgilər çoxdur və onlar müəllifin həyat yolunu əks etdirir. Hər üç romanın qəhrəmanı daha çox xarakter bütövlüyü, prinsipiallığı, mərdliyi, ədalət uğrunda mübarizə əzmi ilə seçilir və yadda qalır".[3]

Süleyman Vəliyevin əsərləri mühitinin, sözün həqiqi mənasında ədəbi salnaməsidir. Bəzən o, sənətkarlıq məsələlərinə bir o qədər də əhəmiyyət vermir – yaşamağa məcbur edildiyi faciələri, qarşılaşdığı hadisələri sadəcə təqdim edir. Əslində onun təqdim etdiyi hadisələrin – yaşadığı sarsıntıların, deyək ki, müharibə, yaxud repressiya mövzularının bədii təsvirə heç ehtiyacı da yoxdur. Obrazlılığın yaratmalı olduğu emosionallıq bu mövzuların məğzində, mahiyyətində, təqdim edilən mətnlərin, belə demək mümkünsə, bətnindədir. Müəllifin yaşadığı hiss və duyğuları oxucuya çatdırmaq üçün hansısa "bədii priyomlar"dan istifadə etməsinə heç ehtiyac da duyulmur. Öz yaşadıqları əsasında qələmə aldığı "Düyünlər" romanından təqdim etdiyimiz bu kiçik parçada olduğu kimi: "Mənimki əvvəldən gətirmədi. Qırovdağda kəşfiyyat işinə yenicə başlamışdım ki, müharibə başlandı, əsgər getdim. Mən Sevastopoldakı vuruşmalarda kontuz olub əsir düşdüm. Tale məni uzaqlara aparıb çıxardı. Almaniya, İtaliya... Düşərgədən qaçıb İtaliya partizanlarına qoşuldum. Müharibənin sonunda Afrikaya gəlib çıxdıq. Qırx beşinci ildə vətənə qayıtdım. Atamı görə bilmədim... Üç ildən sonra isə məni doğma yurdumdan ayırdılar. İndi təkrar vətənə qayıdıram. Bu dəfə də anam məni

[1] Famil Mehdi. Sənətkarın qüdrəti. Süleyman Vəliyev. – Bakı: Seçilmiş əsərləri. İki cilddə, I c. Poemalar. – Bakı: Yazıçı, 1983, s.5

[2] Süleyman Rəhimov. Fəhləlikdən yazıçılığa. – Bakı: "Ədəbiyyat və incəsənət" qəzeti, 25 dekabr 1976

[3] Rəhim Əliyev. Taleyin yazıları. Ədəbiyyatımız, tariximiz, dilimiz: son iki onilimiz. – Bakı: Elm, 1997, s.172

gözləyə bilmədi... Bir sözlə, ata-anamı nə doyunca görə bildim, nə də doyunca sevindirə bildim".[1]

Müəllif bu kiçik mətndə sadəcə olaraq həyatının Azərbaycandan başlayıb, Sevastopoldan keçən, Almaniyaya, İtaliyaya və Yuqoslaviyaya çatan "yol xəritəsi"ni sadəcə cızır. Amma sadə görünən bu "marşrut"un arxasında hər insanın yaşaya bilmədiyi ağır döyüşlər, dözülməz sürgün həyatı, doğma yurd, ata-ana həsrəti, övladlıq borcu, nisgil, başqa sözlə, faciələr, sarsıntılar dayanır. Amma yaşanması mümkün olmayan insan faciələrini yazıçı çox soyuqqanlılıqla təqdim etsə də, oxucu "deyilənlər"i "görür" – inanır və onları dərk edir; müəllifin keçdiyi yolları, sanki o da keçir və həmin hissləri o da yaşayır. Bu da, yəqin ki, yazıçının səmimiliyi, dilinin sadəliyi, sadaladığı faciəvi məqamları, sözün həqiqi mənasında yaşaması, onları inandırıcı şəkildə təqdim etməyi bacarması, yaddaşının fenomenallığı, eləcə də yaradıcılığın psixologiyasını dərindən bilməsi ilə bağlıdır.

[1] Süleyman Vəliyev. Düyünlər. – Bakı: Azərnəşr, 1970, s.11

CƏMŞİD ƏMİROV
(1918-1982)

Yazıçı, publisist, ssenarist Cəmşid Əmirov Azərbaycan ədəbiyyatında detektiv nəsrin təşəkkülü və formalaşmasında xüsusi mövqeyi olan sənətkardır. C.Əmirovun detektiv nəsri dövrün mühüm ədəbi hadisəsinə çevrilmiş, əsərləri oxucular tərəfindən maraqla qarşılanmış və müxtəlif dillərə tərcümə olunmuşdur. Cəmşid Əmirovun bədii nəsrimizdə yaratdığı ədəbi-estetik yenilik özündən sonrakı nəsrimizin mövzu, ideya və sənətkarlıq cəhətdən formalaşmasına əsaslı təsir göstərmiş, yeni yaradıcı gəncliyin detektiv ədəbiyyata gəlişinə yol açmışdır.

Həyatı. Cəmşid Cabbar oğlu Əmirov 1918-ci ilin fevral ayının 10-da Naxçıvan şəhərinin Sarvanlar məhəlləsinin aşağı hissəsində, Böyük bağ deyilən səfalı yerdə dünyaya gəlmişdir.[1] Babası Mirzə Nəsrulla Əmirov Naxçıvanda maarifçi kimi böyük nüfuz sahibi olmuşdur. O, dövrün tələb və şəraitini nəzərə alaraq rus dilinin öyrədilməsində xüsusi xidmətlər göstərmiş, insanların bilik və dünyagörüşünün genişlənməsinə töhfə vermişdir. Mirzə Nəsrulla Əmirov 1919-cu ildə Müsavat hakimiyyəti dövründə təşkil edilmiş Naxçıvan Milli Komitəsinin sədri seçilmişdir. Müsavat hökumətinin üzvü olduğuna görə, ailəsi uzun illər təqibə məruz qalmışdır.

Atası Cabbar Mirzə Nəsrulla oğlu Əmirov Naxçıvanda məşhur ticarətçi kimi tanınmaqla yanaşı, həmçinin Millətlər Sovetinin sədri olmuşdur.[2] Cabbar Əmirov Sovet hakimiyyəti illərində hökumətin xüsusi tapşırığı ilə respublikamızın rayonlarında ticarətin inkişafında böyük işlər görmüşdür. Bu sahədə müxtəlif vəzifələrdə bacarıqlı mütəxəssis kimi tanınsa da, o, siyasi keçmişinə görə, 1937-ci ildə repressiyanın günahsız qurbanlarından olmuş, antisovet təbliğat aparmaqda günahlandırılmış və həbs edilmişdir. Bu haqsız ittihamdan sonra anası Tərlan İsmayıl qızı Əmirova və övladları – Əli, Cəmşid, Cavid, Davud və Rəşid ailə başçısını itirmələrinə baxmayaraq, nəslin nüfuzunu qorumuşlar.

Cəmşid Əmirov 1924-cü ildə Bakıda 32 nömrəli yeddiillik məktəbə daxil olmuş, məktəbi bitirdikdən sonra Nəriman Nərimanov adına Texnikumun Kimya fakültəsində təhsilini davam etdirmişdir. M.Əzizbəyov adına Azərbaycan Sənaye İnstitutunun (indiki Azərbaycan Dövlət Neft və Sənaye Universiteti) Geoloji-kəşfiyyat fakültəsinə daxil olmuş və 1941-ci ildə bu fakültəni bitirmişdir. Dörd ay M.Əzizbəyov trestində mühəndis kimi

[1] Cəmşid Əmirovun tərcümeyi-halına aid sənədlər // Azərbaycan Respublikasının Dövlət Ədəbiyyat və İncəsənət Arxivi, Fond № 27, siyahı №2, , iş № 38, vərəq–2

[2] Aslan Kənan. XX əsrdə repressiyalara məruz qalanlar. – Bakı: Azərnəşr, 2011, s.190-191

fəaliyyət göstərdikdən sonra müharibə başlamış və o, könüllü olaraq cəbhə sıralarına yollanmışdır.

Cəmşid Əmirov Almaniya, Polşa, Avstriya, Çexoslovakiyada döyüşlərdə iştirak etmiş, "Vətən müharibəsi" (I dərəcəli) və "Qırmızı ulduz" ordenləri, "Döyüşdə fərqlənməyə görə", "Königsberqin alınmasına görə" və s. medalları ilə təltif edilmişdir. Sıravi əsgərdən əlahiddə batalyonun komandirinədək hərbi yol keçmiş, sonuncu rütbəsi qvardiya mayoru olmuşdur.

Sovet ordusu sıralarından tərxis edilən C.Əmirov "Azərbaycan gəncləri", "Bakı", "Sovet ticarəti", "Azərbaycan neft təsərrüfatı" qəzetlərində yaradıcılıq fəaliyyətinə başlamış, müxtəlif oçerk, məqalə və hekayələr dərc etdirmişdir. Bu fəaliyyəti onun dünyagörüşünün, bədii şüurunun formalaşmasına, ədəbi yaradıcılığa meyillənməsinə təsir göstərmişdir.

"Azərbaycan idmançısı" qəzetində məsul katib, "Gənc işçi" qəzetində şöbə müdiri, "Bolşevik nefti" qəzetində məsul katib, "Azərbaycan gəncləri" qəzetində şöbə müdiri, "Sovet ticarəti" (Moskva) qəzetində xüsusi müxbir, "Azərbaycan neft təsərrüfatı" jurnalında redaktor müavini, "Bakı" qəzetində şöbə müdiri vəzifələrində çalışmış, Bakı Maliyyə-Kredit Texnikumunun direktoru (1969-1972) vəzifəsini icra etmişdir.

Yazıçı Cəmşid Cabbar oğlu Əmirov 29 dekabr 1982-ci ildə Bakı şəhərində dünyasını dəyişmişdir.

Yaradıcılığı. Cəmşid Əmirovun ilk mətbu əsəri – "Dəqiqələr, saniyələr..." adlı oçerki "Azərbaycan gəncləri" qəzetinin 28 avqust 1946-cı il sayında dərc olunmuşdur.[1] Oçerkdə Əfqan Səfərovun qaçış ustası kimi uğurları, orduda məşğələlərə rəhbərlik etməsi və yeni Azərbaycan rekordunu qırmaq uğrundakı səyləri vurğulanmışdır. Cəmşid Əmirov Azərbaycan mətbuatında ilk məhkəmə oçerki yazan jurnalistlərdən biri kimi tanınır.

"Azərbaycan gəncləri" qəzetində respublika gənclərinin həyatından alınmış aktual mövzularda maraqlı publisist yazılarla çıxış etmişdir. O, "Bakı" axşam qəzetində "Bədən tərbiyəsi və idman" şöbəsinin müdiri kimi fəaliyyət göstərmişdir.[2] Bu qəzet dövrün Azərbaycan dilində çap olunan məşhur qəzetlərindən biri hesab edilir. Qəzetdə Sovet dönəmində respublika həyatının bütün sahələri – iqtisadiyyat, mədəniyyət, təhsil, sosial problemlər və s. məsələlər geniş şəkildə əhatə olunmuşdur. Həmin mətbu orqan bir qrup ziyalının səyi ilə yaradılmış, ilk əməkdaşlıq edənlərdən biri də Cəmşid Əmirov olmuşdur. O, Rafael Nağıyevlə birlikdə "Bəbirov qardaşları" və "Axşamzadə" imzası ilə maraqlı məqalələr hazırlamışdır. Onun bütün idman növlərinə yaxından bələd olması yazılarının məzmununa və keyfiyyətinə

[1] Cəmşid Əmirov. Dəqiqələr və saniyələr. – Bakı: "Azərbaycan gəncləri" qəzeti, 1946, 28 avqust

[2] Davud Dəmirli. Ata məhəbbəti. – Bakı, 2007, s.28-31

müsbət təsir göstərmişdir. Müxtəlif idman sahələrinə dair dərin biliyi və anlayışı yazılarının obyektivliyini, dolğunluğunu və peşəkarlığını artırmış, oxuculara geniş və əhatəli məlumat təqdim etməyə imkan vermişdir.

Azərbaycan ədəbiyyatının sosialist realizmi dövründə bədii nəsr fəallığı ilə seçilmişdir. Yeni ədəbi növün yaranması ictimai-tarixi dəyişiklərə bağlı olan prosesdir və bədii fikrin inkişafının göstəricisidir. Ədəbiyyatda yaranan yeni meyillər, süjetlər, mövzular və s. dövrün sosial mühiti və psixoloji ab-havasından asılıdır. Bədii nəsrimizdə yeniliyə cığır açan müəlliflərdən biri də Cəmşid Əmirov olmuşdur.

Cəmşid Əmirovun Azərbaycan ədəbiyyatında detektiv nəsrin formalaş-masında xüsusi rolu vardır. O, 1958-ci ildə "Sahil əməliyyatı" povestini çap etdirməklə ədəbiyyatımızda detektiv nəsrin əsasını qoymuşdur[1]. O, bundan sonra bir-birinin ardınca "Brilyant məsələsi"[2] (1963) "Qara Volqa" (1966), "Tək əldən səs çıxar" (1968), "Olub, olub", "Mənim əsl məhəbbətim" (1969), "Vətəndən uzaqlarda" (1969), "Şəhər yatarkən"[3] (1988) adlı povest və romanlarını qələmə almışdır.

Cəmşid Əmirov məhkəmədə baxılmış cinayətləri araşdırmış və onlara dair oçerklər, müxtəlif bölgələrdə baş verən cinayət hadisələri haqqında yazılar hazırlamışdır. Ədibin məhkəmə sənədləri ilə tanışlığının, hüquq-mühafizə orqanları ilə yaxından əməkdaşlığının nəticəsi idi ki, əsərlərində də bu faktlardan, detallardan istifadə etmişdir. O, çox zaman milislərlə birgə əməliyyatlarda iştirak etmiş, cinayətkarların istintaq prosesini izləmiş, hətta onlar ilə birgə söhbətlər də aparmışdır. Bu səbəbdən təsadüfi deyildir ki, onun qələmə aldığı mövzular, obrazlar real faktlara söykənir.

Ədibin yaradıcılığında müharibə mövzusu mühüm yer tutur. Sovet vətənpərvərliyi, sosial humanizm, xalqlar dostluğu, proletar beynəlmiləlçiliyi kimi yüksək duyğular, işıqlı fikirlər və bu keyfiyyətlər uğrunda mübarizədə təzahür edən rəşadət, iradə, əzm, cəsarət həmin əsərlərin qəhrəmanları üçün ən mühüm səciyyəvi xüsusiyyətlərdir. "Sahil əməliyyatı" və "Tək əldən səs çıxar" povestləri, "Vətəndən uzaqlarda" və "Mənim əsl məhəbbətim" romanları bu qəbildən olan əsərlərdir. Bu əsərlərdə qələbənin, böyük çətinliklər və məhrumiyyətlər bahasına, xalqın fiziki və mənəvi qüvvələrin o vaxtadək görünməmiş gərginliyi hesabına əldə edildiyi realist bədii lövhələrdə ümumiləşdirilmişdir.

"Sahil əməliyyatı" povesti bütünlüklə "Molodyoj Estonii" qəzetində oxuculara çatdırılmış, povest Azərbaycan Yazıçılar İttifaqı və Respublika İctimai Asayişi Mühafizə Nazirliyinin təşkil etdiyi müsabiqədə mükafata

[1] Cəmşid Əmirov. Sahil əməliyyatı. – Bakı: Uşaqgəncnəşr, 1958
[2] Cəmşid Əmirov. Brilyant məsələsi. – Bakı: Azərnəşr, 1963
[3] Cəmşid Əmirov. Şəhər yatarkən. – Bakı: Yazıçı, 1982

layiq görülmüşdür. Cəmşid Əmirov Müharibədə şahidi olduğu hadisələri "Sahil əməliyyatı" povestində əks etdirmişdir. Asayişin keşiyində duran milis işçilərinin həyatından bəhs edən bu əsərdə onların cinayətkarlarla mübarizəsi, qorxmazlığı, peşələrinə olan ciddiyyəti və məsuliyyəti bədii boyalarla əks olunmuşdur. "Sahil əməliyyatı" povesti bədii dilin axıcılığı, obrazların çoxşaxəliliyi ilə diqqəti cəlb edir. Hadisələr vahid problem ətrafında cərəyan edir. Əsərin mövzusu aktual olub, əhatə dairəsinin genişliyi, bədii cəhətdən zənginliyi, obrazların orijinallığı və mətn strukturu ilə seçilir. Əsər casus detektivi mövzusunda qələmə alınmışdır. Müəllifin aydın, axıcı təhkiyə üslubu, əsərdə bəhs etdiyi hadisələrə yaxından bələd olması povestin uğurunu şərtləndirən başlıca meyarlardandır. "Sahil əməliyyatı" povestində 1944-1956-cı illərdə İkinci Dünya müharibəsi ilə bağlı Bakı, Varşava və Berlində baş verən hadisələr təsvir olunmuşdur.

Əsər mühəndis Əzimovun evindən vacib çertyojların oğurlanması ilə başlayır. Casusların məqsədi mühəndis Əzimovun elmi çertyojlarını xaricə göndərməkdir. Hadisələr Sovetabad şəhərində cərəyan edir, çünki Sovetabad ağır sənaye və neft mədənləri ilə strateji əhəmiyyət kəsb edən şəhərdir. Əsas qəhrəman Dövlət Təhlükəsizlik Komitəsinin əks-kəşfiyyatçısı Oqtay Çingizovdur, o, casusların tapılması və izlərin aşkara çıxarılmasında böyük fədakarlıq göstərir. Əsərdə kollektiv işi önəmli yer tutur. Anatoli Konstantinoviç, Aleksandr Denisov, Adil Cabbarov və Qasımovun casusların ələ keçirilməsində rolu xüsusi qeyd olunur. Çünki Dövlət Təhlükəsizlik Komitəsinin bütün əməkdaşları dövlətin təhlükəsizliyi üçün canla-başla çalışırdılar. Əsərin sonunda casuslar məhkəmə qarşısına çıxarılır və cəzalandırılırlar.

"Sahil əməliyyatı" povesti kinematoqrafçıların da diqqətindən kənarda qalmamış, tanınmış rejissor Əlisəttar Atakişiyev povest əsasında 1966-cı ildə "İstintaq davam edir" filmini lentə almışdır.

"Brilyant məsələsi" povesti müəllifə böyük şöhrət gətirmiş və Azərbaycan Yazıçılar İttifaqının və Respublika İctimai Asayişi Mühafizə Nazirliyinin mükafatına layiq görülmüşdür. Müəllif əsərdə həmin illərdə baş verən xüsusi cinayətkar qrup tərəfindən törədilmiş silsilə cinayətləri təsvir etmiş və milis əməkdaşlarının bu cinayətlərin istintaqı prosesində göstərdikləri hünəri, çevikliyi, şücaəti əks etdirmişdir. "Brilyant məsələsi" povest janrının tələblərinə uyğun olaraq hadisələrin və obrazların çoxşaxəliliyi, mürəkkəb və dəyişkən situasiyaların gərginliyi və qəhrəmanların mənəvi dünyasının təsviri ilə xarakterizə edilir. Povestin xronotopu dar bir zaman və məkanda təsvir olunur. Müəllifin əsərdə təsvir etdiyi məkan, orada yer alan əşyaların quruluşu baş vermiş hadisə haqqında məlumatların oxucuya dəqiq, obrazlı şəkildə çatdırılması vəzifəsini yerinə yetirir.

“Brilyant məsələsi” povestində müəllif əsasən üç əsas cinayəti və onların ətrafında baş verən hadisələri mərkəzə çəkir. Bu cinayətlərin fonunda isə kiçik cinayətlər də təsvir olunur ki, bu da əsərin süjetini daha mürəkkəb və çoxşaxəli edir: 1. Qəzet müxbiri Hüseyn Dadaşovun evinin qarət olunması; 2. Əziz İslamovun qətli; 3. Laləzar İsmayılovanın qətli. Detektiv əsərlərdə məntiqi bir zəncir mövcuddur. Əsərdə təsvir olunan süjet çoxluğu oxucunu çaşdırsa da, süjet inkişaf etdikcə kələfin ucu cinayətkar qrupun başçısı Yədullada cəmlənir. Bütün cinayətlər onun tərəfindən törədilir və milis işçiləri səfərbər olunaraq uğurlu istintaq nəticəsində cinayətkarları yaxalayırlar. Müəllif Yədulla obrazının bütün törətmiş olduğu cinayətləri kupedə əyləşən sərnişin tərəfindən nəql etdirir və əsərin sonunda məlum olur ki, hadisələri nəql edən mayor Rəsulov imiş və o, qatara Yədulla və Ağaəli Möhtacovu təqib edərək yaxalamaq üçün gəlmişdir.

“Brilyant məsələsi” povestində başda polkovnik İsayev olmaqla, kapitan Əli Rəsulov, ekspert Sərdar Əzimov və Səmayə Hacıyeva, müstəntiq Adilə Paşayeva və başqaları izlərin aşkara çıxarılmasında, cinayətkarların həbs olunmasında böyük bacarıq göstərirlər. Vətənpərvər ukraynalı qız Lyudmila Yesenko, bağ gözətçisi Mirzə Məlik, çəkməsilən Əbdül və başqaları polisin işinə yaxından kömək edirlər. Cəmşid Əmirov bir cinayətin açılmasında hər kəsin səfərbər olması ideyasını irəli sürərək, cəmiyyətdə baş verən ziddiyyətli və xoşagəlməz halların qarşısını almaq üçün bütün xalq ayıq-sayıq olmalı və cinayətkarlara qarşı birgə mübarizə aparmalıdır, – amalını oxuculara çatdırmışdır.

“Qara Volqa” romanının mövzusu müharibədən sonra Bakı şəhərində fəaliyyət göstərən böyük cinayətkar qrupun törətdiyi təhlükəli hadisələrdən götürülmüşdür. Görkəmli ədib bu əsəri qələmə alarkən həm milis orqanı əməkdaşları ilə, həm də kriminal aləmin üzvləri ilə görüşmüş, milis işçiləri ilə birgə ağır əməliyyatlarda iştirak etmişdir. Müəllif əsərdə roman janrının geniş imkanlarından istifadə edərək şaxələnmiş hadisələri zəncirvari şəkildə bir-birilə əlaqələndirmişdir. Cinayətkar qrupun başçısı Pəncəli Aslan və onun tərəfdaşlarının həyata keçirmiş olduğu bütün qətl, cinayət və oğurluq məsələləri əsərdə incə detallarınadək təsvir olunmuşdur. “Qara Volqa” romanında 3 süjet xətti əksini tapmışdır. Birinci süjet Revekka Solomonovna və Abram Lifşitsinin qarət olunması, ikinci süjet Mübarək Novruzzadənin təqib olunması, üçüncü süjet isə falçı Pelageya Panteleyevnanın qətlidir. Bu üç süjet xəttini birləşdirən ortaq yön qətllərin eyni cinayətkar qrup tərəfindən həyata keçirilməsidir. Əsərdə yazıçı müxtəlif zamanlarda baş verən cinayətləri təsvir etdikdən sonra ardıcıllıqla istintaq prosesinə başlayır. Müəllif cinayətkar obrazların – Pəncəli Aslan, Yaşa, Viktoriya və Heydərəlinin keçmişinə nəzər salaraq, onların yanlış yol seçmələrini tənqid etməmiş, əksinə şəxsiyyətin düzgün formalaşmasında tərbiyənin vacibliyini

vurğulamışdır. Mübarək Novruzzadə obrazı vasitəsilə isə əqidəli və dürüst insan tipini təqdim edərək, belə insanların bütün sınaqlardan uğurla çıxacağı fikrini vurğulamışdır. Romanın sonunda hüquq-mühafizə orqanları tərəfindən böyük cinayətkar dəstənin başçısı Pəncəli Aslan və tərəfdaşları yaxalanıb cəzalarını alırlar.

"Qara Volqa" romanı kinematoqrafçıların da diqqətindən kənarda qalmamış, rejissor Elşən Məmmədov və ssenari müəllifi Nəriman Əbdürəhmanlı roman əsasında eyniadlı film ekranlaşdırmışlar.

Cəmşid Əmirov 1968-ci ildə qələmə aldığı "Tək əldən səs çıxar" povestində müharibə dövründə xalqın igid oğul və qızlarının cəsurluğunu ön plana çıxarmışdır. Onlar Vətənin azadlığı və müstəqilliyi uğrunda mübarizə aparmış, düşmənin məkrli planlarını üzə çıxarmaq üçün fədakarlıqlar göstərmişlər. Povestdə baş qəhrəmanın və ətrafındakıların fiziki, emosional və mənəvi mübarizələri təsvir edilmişdir. Müəllifin vətən uğrunda mübarizəyə çağırışı isə əsərin ideya-məzmun istiqamətini müəyyən edir, oxucunu həm mənəvi, həm də vətəndaşlıq baxımından fəallığa səsləyir. Beləliklə, əsərin adı və müəllifin çağırışı bir-birini tamamlayaraq mövzunun aktuallığını və sosial əhəmiyyətini gücləndirir, oxucu ilə emosional əlaqə yaradır. Bu da əsərin cəmiyyətə təsir gücünü artırır.

Cəmşid Əmirov "Olub, olub" povestində cinayətkar tərəfindən törədilmiş silsilə qarətləri təsvir etmiş və milis əməkdaşlarının cinayətkarın axtarılması zamanı aparılmış istintaq prosesində göstərdikləri hünəri, çevikliyi, şücaəti qələmə almışdır. "Olub, olub" povestində müəllifin yaratmış olduğu sirli məqamlarla yanaşı, təbii, canlı təsvirlər də mövcuddur. Povest Hüseynbala Cəfərquluyevin müxtəlif saxta kimliklərdən istifadə etməklə gənc qızları qarət etməsi ilə başlayır. Əsərin birinci hissəsində onun törətdiyi cinayətlərin insanlara vurduğu ziyan və sosial təsirləri əks etdirilir, bu da cəmiyyətin üzləşdiyi təhlükəni konkretləşdirir. İkinci hissədə isə Hüseynbalanın kimlik dəyişdirərək izini itirməsi və daha ağır cinayətlər törətməsi – kolxoz sədri Sərdar Məcidov və ailəsinin öldürülməsi hadisələrin miqyasını genişləndirir və cinayətkarın təhlükəliliyini artırır. Nəticədə, onun milis tərəfindən yaxalanıb istintaqa cəlb olunması cinayətə qarşı dövlətin effektiv mübarizəsini göstərir. Beləliklə, povest həm fərdi cinayətin, həm də cəmiyyət və hüquq-mühafizə orqanlarının münasibətinin analitik təsvirini verir. Yazıçının əsərdə yaratmış olduğu cinayətkar obrazı dəqiq, məntiqli və hiyləgərdir. İstintaq zamanı törətmiş olduğu cinayətin izlərini öz üzərindən uzaqlaşdırmaq üçün məntiqi şəkildə plan cızır, milis işçilərinin qarşısına dəlil və sübutlar gətirir. Müəllif kimliyi dəyişmək vasitəsilə yaratmış olduğu cəsus obrazının müxtəlif məkanlara girməsinə və məlumat toplamasına zəmin yaradır. Povestdə cinayətkar Hüseynbala Cəfərquluyev tələbə Natalya Kryuçkovanı qarət edərkən nazir Firdovsi Zərbəyarovun, Qalina Nikitiçna

Yermolayevanı aldadarkən zabit Adil Hənifəyevin kimliklərindən istifadə etmiş, Layma Laqunaviçusu qarət edərkən isə ticarətçi Mikayıl Petrosyan olaraq özünü tanıtmışdır. İkinci süjetdə isə izini itirmək üçün "Qızıl Şərq" kolxozunda çalışan Qədəmşah Tapdıq oğlunun sənədlərini oğurlamış, onun yerinə briqadir vəzifəsinə işə düzəlmişdir.

"Olub, Olub" povestində müəllif müxtəlif cinayətlərin motivlərinin dərinliyini, sosial həyatın mexanizmlərindən, cəmiyyət və insan ehtiraslarının törətmiş olduğu mənfiliklər və qəhrəmanları əhatə edən reallıqlardan bəhs etmişdir. "Olub, Olub" povestinin sonunda da cinayətkar milis işçiləri tərəfindən Sərvinaz Haşımovanın şahidliyi ilə yaxalanır və cəzalandırılır. "Olub, Olub" polis (milis) detektivi mövzusunda maraqla oxunan əsərlərdən biridir.

Cəmşid Əmirov 1969-cu ildə bitirdiyi "Mənim əsl məhəbbətim" adlı romanı yaradıcılığının şah əsəri hesab etmişdir. Roman casus detektivi mövzusunda qələmə alınmışdır. Əsərdə iki süjet xətti özünü göstərir. Birinci süjet xətti Ervin Ekkertin alman casusu kimi Sovet Azərbaycanına göndərilməsi və fəaliyyəti, ikinci süjet xəttində isə onun ailəsi ilə ziddiyyətləri, əsl kimliyinin ortaya çıxması və polis işçiləri tərəfindən saxlanılması qələmə alınmışdır. Romanda casusluq qaydaları, casus olmağın şərtləri, məsuliyyəti əhatəli şəkildə obrazların dilindən ifadə edilmişdir. Romanda Ervin Ekkert, Hans Şpeller, Fuks və başqa casus obrazları yaradılmışdır. Həmçinin müəllif obrazlar vasitəsilə vətənə sevgini, anaya hörməti üstün tutmağı oxucularına çatdırır. Yazıçı romanda casus Ervin Ekkert obrazına qarşı onun qardaşı olan Elçin Elgünəş obrazını yaratmışdır. Elçin qardaşından fərqli olaraq vətəninə ləyaqətlə xidmət edən vətəndaşdır. Qardaşının alman casusu olması və planları barədə çekistlərə məlumat vermişdir.

Müəllifin 1969-cu ildə bitirdiyi "Vətəndən uzaqlarda" adlı romanı Azərbaycan kəşfiyyatının yaranmasının 50 illik yubileyinə həsr olunmuşdur. Əsərin mövzusu Azərbaycan neftçilərinin Ukraynada faşist işğalçılarına qarşı mübarizəsindən bəhs edir. İkinci Dünya müharibəsi bəşəriyyət tarixində dəhşətli hadisə idi. Xalq müharibənin ağır yaralarını sağaltsa da, xarabalıqların yerində yeni şəhərlər və kəndlər salınsa da, əsgərlərin və partizanların böyük şücaəti hələ də xalqın yaddaşında yaşayır. Yazıçı bu şücaəti bütün təfərrüatları ilə təqdim etməyə, müharibənin qəhrəmanlıq və faciəli səhifələrini təsvir etməyə çalışmışdır. Romanda İkinci Dünya müharibəsi zamanı alman ordusunun vəhşilikləri, dağılmış şəhərlər, yetim qalan uşaqlar, qırılan talelər və bütün bunların fonunda sağ qalan Yusifin taleyi təsvir olunmuşdur. Romanın birinci hissəsində Yusif Yaqubovun partiya dostları ilə mübarizəsi, ikinci hissədə isə yəhudi gettosunda almanlara qarşı gənclərlə birləşərək Gənc intiqamçılar təşkilatı yaratması təsvir olunur. Onların əzmi, iradəsi, qorxmazlığı, bütün işgəncələrə dözərək vətənini müdafiəsi xüsusi vurğulanmışdır.

Romanın birinci hissəsində Yusif Yaqubovun partiya dostları ilə birlikdə mübarizəsi əks olunursa, ikinci hissədə onun "Gənc intiqamçılar" təşkilatı adı altında yəhudi gettosunda almanlara qarşı fəal yəhudi gəncləri ilə birləşməsi və mübarizəsi əks olunmuşdur. Əsər casus detektivi mövzusunda qələmə alınıb. Romanda kəşfiyyatçıların fədakarlığı, partizanların düşmən agentlərinə qarşı mübarizəsi və faşistlərlə ağır döyüşlərdə onların qəhrəmanlığı vurğulanmışdır.

"Vətəndən uzaqlarda" romanı təkcə siyasi intriqalarla, fərdlərin zehni və iradə gücünün sonsuz sınaqları ilə döyüş dolu bir casus hekayəsi deyil, o, dramatik toqquşmalarla zəngin, oxucuya sosial və siyasi hadisələri açan geniş tarixi mənzərədir. Romanın sonunda bütün sınaqlardan çıxan Yusifin hələ də mübarizə ruhunun tükənmədiyini müəllif bu sözlər ilə təsvir etmişdir: "Biz Birləşmiş Azərbaycan-Ukrayna gənc partizan təşkilatı yaradacağıq" fikri onun qəlbinin daim vətəni ilə döyünməsinə işarədir.[1]

"Şəhər yatarkən" povesti polis detektivi mövzusundadır və əsərdə ötən əsrin kriminal tablosu, müxtəlif insan xarakterləri, köhnə Bakı mənzərələri əks olunmuşdur. Süjet dinamik və məntiqi ardıcıllıqla qurulmuş istintaq prosesini əks etdirir. Əsər Famiyə Kiryəçi qızı Candikovanın cinayət hadisəsinə şahidliyi və polisə şikayət etməsi ilə başlayır. Zığ şosesinin yaxınlığındakı ağaclıqda öldürülən vətəndaşın şəxsiyyəti müəyyən edildikdən sonra rayon milis şöbəsinin rəisi podpolkovnik Tariyel Məmmədov qızğın fəaliyyətə başlamış, Təvəkkül Bədəlovun qətlində şübhəli olan şəxslərin istintaqı aparılmışdır. Onun ölümündə şübhəli ola biləcək hər bir şəxs milis işçiləri – podpolkovnik Oqtay Əhmədov, kapitan Hidayət Mirzəyev və s. tərəfindən dindirilərək yeni faktlar əldə edilmişdir. Bütün faktlar məntiqi şəkildə bir-birilə əlaqələndirildikdən sonra cinayətkar Əbdülqəni Əbdülhüseynov istintaqa cəlb edilmişdir. Cəmşid Əmirovun əsərlərində dövrün tələblərinə uyğun olaraq sovet ideologiyası hər zaman hiss olunur, povestdə də Sovet detektiv hekayəsinin humanist istiqaməti ondan ibarətdir ki, cinayətkara çox vaxt islahat şansı, cəmiyyətə qayıtmaq şansı verilir. Povestin sonunda da Əbdülqəni Əbdülhüseynovun həm zərərçəkmiş şahid, həm də müttəhim kimi dindirilməsi humanizm prinsipindən irəli gəlirdi.

Beləliklə, yazıçının əsərlərindəki mövzu dairələri çoxşaxəlidir və cəmiyyətin müxtəlif aspektlərini əhatə edir. Povest və romanlarında peşəkar hüquq-mühafizə orqanları, kollektiv əməkdaşlıq, vətənə bağlılıq, sosialist ideallar və müharibə sonrası dəyişikliklər kimi mövzular ön plana çıxmışdır. Cəmşid Əmirovun əsərləri yalnız cinayətlərin həlli ilə bağlı deyil, həm də geniş sosial, mənəvi və əxlaqi məsələləri dərindən araşdırmışdır. O, detektiv mövzuda yazdığı əsərlərində həm cinayətkarlıqla bağlı məsələləri, həm də

[1] Cəmşid Əmirov. Vətəndən uzaqlarda. – Bakı: Azərnəşr, 2009, s.361

sosial və əxlaqi problemləri təhlil etmişdir. Bu baxımdan yazıçının detektiv əsərləri həm fərdi psixoloji vəziyyətləri, həm də geniş sosial kontekstləri təhlil edən çoxqatlı ədəbi mətnlər kimi dəyərləndirilir.

Böyük ədəbi şəxsiyyətlər öz zamanlarının övladları olmaqla bərabər, həm də ədəbiyyat və mədəniyyətlərin zamanlarını yaradırlar. Belə şəxsiyyətlərdən biri də Cəmşid Əmirov olmuşdur. O, nəinki öz zamanının ədəbiyyatını yaratdı, eyni zamanda o, ədəbiyyata yeni bir bədii zaman gətirdi. Cəmşid Əmirov dil, üslub, janr, ideya-sənətkarlıq baxımından nəsrimizi zənginləşdirmişdir. Ədibin Azərbaycan ədəbiyyatında yaratdığı bədii-estetik ənənələr özündən sonrakı nəsrimizin mövzu, ideya və sənətkarlıq cəhətdən formalaşmasına əsaslı təsir göstərmişdir. Onun başladığı bu ənənəni Zaxar Abramov, Əkbər Əkbərov, Anar, Rüstəm İbrahimbəyov, Zeynal Babayev və başqaları uğurla davam etdirmişlər.

HƏSƏN SEYİDBƏYLİ
(1920-1980)

Görkəmli yazıçı, ssenarist, kinorejissor, publisist, Əməkdar incəsənət xadimi, Xalq artisti Həsən Seyidbəyli Azərbaycan ədəbiyyatında və kinematoqrafiyasında önəmli yeri olan incəsənət xadimlərindən biridir. Həsən Seyidbəyli yaradıcılığı ədəbiyyatımızda və incəsənətimizdə xüsusi mərhələdir. Onun yaradıcılıq diapazonu geniş, ədəbi irsi mükəmməl və zəngindir.

Həyatı. Həsən Mehdi oğlu Seyidbəyli 22 dekabr 1920-ci ildə Bakı şəhərində anadan olmuşdur. Seyidbəylilər Bakıda və Nardaranda məşhur nəsil kimi tanınmış, onun babaları Mirsalam və Səhər bəyin Çəmbərəkənddə böyük mülkləri olmuşdur. 132 saylı məktəbi bitirən gələcək kinodramaturq təhsilini Leninqrad Kino Mühəndisləri İnstitutunda, daha sonra Moskva Ümumittifaq Dövlət Kinematoqrafiya İnstitutunun Rejissorluq fakültəsində davam etdirmişdir. 1943-cü ildən Bakı Kinostudiyasında fəaliyyətə başlamış, 1949-1951-ci illərdə Moskvada təhsil aldığı institutun ssenari şöbəsində oxumuşdur. Müəyyən müddət yaradıcılıqla məşğul olmuş, 1961-ci ildən C.Cabbarlı adına Azərbaycanfilm Kinostudiyasında rejissor olmuş, Kinematoqrafiya İttifaqının birinci katibi və sədri seçilmişdir (1963-1980). O, yaradıcı əməyinə görə "Şərəf nişanı" (1959) və "Qırmızı əmək bayrağı" (1970) ordenləri ilə təltif edilmiş, Azərbaycanın Əməkdar incəsənət xadimi (1960) və Xalq artisti (1976) fəxri adlarına layiq görülmüşdür.

Həsən Seyidbəyli 25 iyun 1980-ci ildə vəfat etmiş, Bakıda küçələrdən birinə onun adı verilmişdir.

Yaradıcılığı. Həsən Seyidbəyli ədəbiyyata şeirlə gəlmiş, onlarla kitab çap etdirmiş, povest, roman, kinossenari, publisistik məqalə yazmışdır. Yazıçının ədəbi mirası dərin və çoxsahəlidir. Yüksək peşəkarlıq, gərgin əmək, özünü bütünlüklə sənətə həsr etmək H.Seyidbəylinin bir yazıçı kimi əsas yaradıcılıq məziyyətlərindəndir. Yazıçı öz əsərlərində alicənablıq, ləyaqət, təmizlik, vicdan kimi uca insani keyfiyyətləri tərənnüm edir. H.Seyidbəylinin ədəbi debüti 1946-cı ildən çap olunsa da, sonradan işıq üzü görəcək onlarla nəşrə yol açan "Kənd həkimi" kitabı sayılır. Bu povestdə bir sovxozun nümunəsində Azərbaycan çayçılarının həyatı, əməyi əks edilmişdir. Sovet ədəbiyyatının aparıcı mövzusu olan əmək romanın süjet xəttini təşkil edir. İstehsalat mövzulu romanları naturalist romanın birbaşa varisi hesab edilirdi. Müxtəlif peşələrə həsr edilən belə əsərlərdə bədiiliyə o qədər də fikir verilmir, ilk növbədə, qəhrəmanın iş qabiliyyəti, fəallığı əsas götürülürdü. H.Seyidbəylinin yaradıcılığı isə janrdan, mövzudan asılı olmayaraq, yüksək bədiiliyi, romantik üslubu ilə seçilir. O, ənənəsinə sadiq qalaraq, əsərlərini mövzulara bölmür, məzmunla bərabər, janrın tələblərinə də eyni dərəcədə cavab verirdi. "Bizim Astarada" povestində hadisələrin

mərkəzində təyinatla gənc kadr kimi kəndə göndərilən ixtisaslı həkim obrazı dayanır. Lakin ilk qələm təcrübəsi olmasına baxmayaraq, əsərin mövzusu, personajları, dəst-xəti gələcəyin kamil yazıçısından xəbər verirdi. Yazıçı Aydın Zeynalovun timsalında müasiri olduğu gəncliyi ümumiləşdirmiş, onların peşə və şəxsi həyatını əks etdirmişdir. Gənc həkim ilk gündən işinə məsuliyyətlə yanaşır, camaata qaynayıb-qarışmaqla hamının işinə yarayır. O dövrdə kəndlərdə mütəxəssis qıtlığı hökm sürürdü, ali təhsilli həkim isə ümumiyyətlə ələdüşməz idi. 22 yaşlı yazıçının 23 yaşlı qəhrəmanı özünü, xoşbəxtliyini bu sadə zəhmət adamlarının arasında tapır. "O özündə də yeni bir qüvvə hiss etdi. Adətən, belə haləti hər cür qəhrəmanlığa hazır olan insanlar keçirir. Günəş, havanın istisi, şən adamlar, xüsusi bir nura qərq olmuş təbiət – bütün bunlar hamısı onu haraya getmək üçün tələsdiyini, bir iş ilə məşğul olmağı, nəhayət, özünün bilavasitə vəzifəsi olan böyük və məsuliyyətli işə başlamağı ona təlqin edirdi".[1] Müəllifin ilk kitabı olan "Kənd həkimi" əsəri 1950-ci ildə çap olunmuşdur.

H.Seyidbəyli yaratdığı ədəbiyyatda həyatın mənası, məhəbbət, xoşbəxtlik nədir, keçmiş, gələcək, Vətən nədən başlanır, olum-ölüm kimi insanlığı əbədi düşündürən suallara bitməyən yaradıcılıq həvəsi ilə cavab axtarırdı. Onun əsərlərində oxucunu cəlb edəcək hər şey var: hadisələrin həyəcanlı cərəyanı, məhəbbət, maraqlı surətlərlə tanışlıq, yaddaqalan dialoqlar və əlbəttə ki, xoşbəxt sonluq! O, professional kino rejissoru olsa da, 1962-ci ilə qədər müəyyən səbəblərə görə kino sahəsində görünməmişdir. Ancaq "hər işdə bir xeyir var", – deyirlər. Kino təşnəsini bədii yaradıcılıqla söndürən yazıçının bu dövrü məhsuldar olmuş, ədəbiyyatımızı gözəl əsərlərlə zənginləşdirmişdir. "Həsən Seyidbəyli ilk növbədə, gözəl hekayələr və novellalar ustasıdır. Hekayə həyat həqiqətlərini göstərmək üçün ən çevik ədəbi yoldur. Bu ədəbi yola keçən yazıçı povest və romanı öz yaradıcılığına daxil edə bilir. H.Seyidbəylinin hekayələrinin mövzusu beynəlmiləlçilik ruhunda olsa da, obrazlar milli xarakterlidir. Hekayələrindəki daxili ziddiyyətlər barışmaz həddə deyil, bu ziddiyyətlər öz məcrasında həll oluna bilir".[2] "Kənd həkimi" adlı ədəbi debütünün arxasınca "Qiymətli damcılar" (1952) hekayələr kitabı çap edildi. Hər hekayə həyatdan götürülmüş kiçik hadisədir. "Qiymətli damcılar" eyniadlı kitabın ilk hekayəsidir. Əsas mövzusu müəssisə, hasilat, müşavirə olsa da, ikinci plana Həsən Seyidbəylinin üslubuna xas həyat, məhəbbət, dostluq, qadın-kişi münasibətləri hakimdir. Kitabda toplanan "İki köməkçi", "Qığılcımlar", "Sülh estafetası" əsl sovet hekayələri olub istehsalat mövzusunu davam etdirir. Hekayələrdə mütləq

[1] Həsən Seyidbəyli. Kənd həkimi. – Bakı: Uşaqgəncnəşr, 1950, s.23-24

[2] Rəhim Əliyev. Ön söz. Yazıçı və zaman / Baba Babayev. Həsən Seyidbəylinin bədii nəsri. "E.L." Nəşriyyat və Poliqrafiya Şirkəti MMC, 2010, s.3-4

beynəlmiləl motivlər səsləndirilir. Personajlar arasındakı bu beynəlmiləl ülfət sovet quruluşunun tələbi kimi yox, bədiiliyə toxunmamaq şərti ilə əsərin süjet xəttinə daxil edilmişdir. Yazıçı beynəlmiləlçilik mövzusunu bütün yaradıcılığı boyu davam etdirir. "Cəbhədən-cəbhəyə"dəki Vladimir Skvortsov əsas qəhrəman Teymur Cahangirovun silahdaşı olub povestin aktiv, dinamik iştirakçılarındandır. Povestin sonuna az qalmış Nina Kazakova da təşrif gətirir. "Tərsanə"də də mütləq Parfiri Sergeyeviç, onun qızı Nataşa, Alyoşa Timakov, Anna Borisovna kimi o dövr üçün xarakterik olan qeyri-azərbaycanlı surətlərə yer verilmişdir. "Uzaq sahillərdə" əsərində isə mövzu ilə əlaqədar hər xalqın nümayəndəsinə rast gəlmək olur.

H.Seyidbəyli dramaturgiya sahəsində də qələmini sınamışdır. Onun "İmtahan", "Qızıl axtaranlar", "Bağlı qapılar" adlı dramları Azərbaycanda və respublikamızdan kənarda səhnə təcəssümünü uğurla tapan əsərlərdəndir.

Yazıçı əsasən irihəcmli nəsr əsərləri ilə məşhurdur. Yaradıcılığının çiçəklənən vaxtı sovet hökumətinin qızıl dövrünə təsadüf edən H.Seyidbəyli bir-birinin ardınca "Kür sahillərində" (1953), "Telefonçu qız" (1960) povestlərini, "Cəbhədən-cəbhəyə" (1961), "Tərsanə (1975), "Çiçək" (1978) romanlarını yazır. Bu əsərlərdə dövrün problemləri, müxtəlif təbəqə, peşə adamlarının həyatı və əməyi əks olunur, mənəvi-əxlaqi dəyərlər önə çəkilir. "Haqlı olaraq deyirlər ki, Həsən Seyidbəylinin bədii əsərləri, filmləri milli tariximizin bədii salnaməsidir. Həqiqətən, onun təlqin etdiyi ideyalar həmişə işıqlıdır. Ən diqqətçəkən məqam isə budur ki, imza atdığı əsərlərin heç biri quruluşun quluna çevrilmədi",[1] konyuktura, siyasi ideoloji mənafelərə xidmət etmədi. O, mövcud şəraitə uyğunlaşmırdı, şəraiti özünə uyğunlaşdırırdı. H.Seyidbəylinin bu özəlliyini moskvalı həmkarı Oksana Bulanova da qeyd etmişdi: "Məlum olduğu kimi, məsafədən hər şey daha aydın görünür. Bu gün bir çox sovet ustadlarının əsərləri arxaik, təşviqatın aləti kimi görünür. Başqa sözlə, illər keçdikdən sonra çox şeyə irad tutmaq olar. Amma bu dediklərim H.Seyidbəylinin yaradıcılığına qətiyyən aid deyil. Yazıçı yaratdığı qəhrəmanları bizə olduğu kimi – bəzək-düzəksiz təqdim etmişdir".[2]

"Tərsanə" romanı 1970-ci illər ədəbi mühitində bir hadisə idi. Ənənəyə görə, ədəbi janrların zirvəsi roman sayılır. Öz qaydaları olan roman epik mənzərəni daha genişmiqyaslı təsvir edir. H.Seyidbəyli bu janra daha əvvəl müraciət etsə də, yaradıcılığının əsas və böyük romanı "Tərsanə"dir. Romandakı əhvalatlar öz dövrünün inikası olsa da, müasirlik ruhu onu "qocalmağa" qoymur. "Deyirəm, bizim bu konstruktorlardan xahiş eləyək, bir gəmi hazırlasınlar. Gəmi dənizi gəzib zir-zibili, taxta-şalbanı yığsın, suyun

[1] Flora Xəlilzadə. Azərbaycan – 2010, 22 dekabr, s.7

[2] О.Буланова. Гасан Сеидбейлй: азербайджанский кино-революционер. https:azerhistory.com

üzündəki nefti, mazutu sovurub içəri çəksin".[1] Bu gün dünya su hövzələrinin vəziyyəti 1970-ci illərdən də açınacaqlıdır. Bu baxımdan müasirlik H.Seyidbəyli əsərlərinin şah damarı olub zamanının bütün sahələrini əhatə edir. Yazıçı dəqiqlik və bacarıqla 1970-ci illərin mənəvi, ictimai, iqtisadi, məişət mənzərəsini təsvir etmiş, zamanəsinin və müasirlərinin problemlərini önə çəkmişdir. "Tərsanə"də sənaye Bakısı təsvir edilir, kəskin sosial, mənəvi-əxlaqi problemlər qoyulur. Hadisələrin iştirakçıları və mərkəzində duranlar gəmi təmiri zavodunun – nəhəng verfin fəhlə-mühəndis heyəti, partiya işçiləri, ziyalıların nümayəndələri, məktəblilər, tələbələrdir. Yazıçı romanın ikili leytmotivinə önəm verir. Xəzərin təmizliyi, çirklənməsinin qarşısının alınması ideyası sətiraltı insan mənəviyyatının saflığı uğrunda mübarizə ilə səsləşir. Romanın ideyası, yazıçının məqsədi budur. İnsan mənəviyyatının iflasa uğraması heç də ekologiyanın məhvindən az əhəmiyyətli deyildir. "Tərsanə" istehsalat mövzusunda yazılmış ən maraqlı romanlardan biridir. Bu romanda ünsür kimi istifadə olunan fantastikanı da "istehsalat fantastikası" adlandıra bilərik".[2] Çoxplanlı roman olaraq izlənilən "Tərsanə" nasirin heç bir əsərində olmayan qədər maraqlı, fərqli, tam, dolğun obrazlarla zəngindir. Bu da yazıçının personajların özəlliklərini vurğulamaqla şəxsiyyət kimi təqdim etməsindən qaynaqlanır. "H.Seyidbəylinin əsərlərində təsadüfi surətlər yoxdur, hər obraz düşünülmüş, yerli-yerindədir. Romanın "qədimlərdə deyərmişlər, insan qəlbi elə bir dəryadır ki, qəvvas olub baş vursan da, dibini görməszən"[3] cümləsi ilə başlanması sonrakı səhifələrdə baş verəcək mətləblərə bir işarə, ipucudur. Əsərin əsas surətləri Ələsgər Adalı və Əyyub Qəriblidir. Yazıçı hər iki qəhrəmanını təmiz, namuslu insan kimi görmək istəmiş, hər cür naqislikdən uzaq tutmuşdur. Ələsgər Adalı həyatdan götürülmüş real obrazdır. Görkəmli fizikdir, cəmiyyətdə seçilən, mövqe sahibi olan və mövqeyini, iş prinsiplərini qoruyan adamdır. Ələsgər faktiki tərsanədə böyümüşdü. Özü maraqlı, şəxsi həyatı standartlara uyğun olmadığından ətrafındakılar haqqında danışılan yalan-gerçəklə bioqrafiyasını "tamamlamağa" çalışırlar. Səlimənin faciəsi olan Damğalı Nəcəf obrazı həm də çirkli dənizin rəmzidir. Romanda yazıçının rəğbətini qazanan xarizmatik personajlar çoxdur. Müəllif bu obrazlarla oxucunu elə tanış edir ki, ilk baxışdan sevməyə bilmirsən. Məsələn, "rastına çıxanlar Əyyub Qəriblini ehtiramla salamlayır və mütləq dönüb ardınca baxırdılar. Əyyub Qəribli işlərində o qədər nizamlı idi ki, hətta bir qədər vasvası təsiri bağışlayırdı. Üst-başı da elə təmiz və səliqəli olardı ki, hamını valeh edərdi. Nəhəng tərsanənin tüstüsü, dudası, tozu, buxarı, od seli içərisində gəzib dolanan, işləyən

[1] Həsən Seyidbəyli. Cəbhədən-cəbhəyə. – Bakı: Yazıçı, 1979, s.425
[2] Tofiq Hüseynoğlu. Söz – tarixin yuvası. – Bakı: Azərnəşr, 2000, s.125
[3] Həsən Seyidbəyli. Tərsanə. – Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1975, s.3

Əyyubun köynəyi həmişə qar kimi ağ – ləkəsiz qalardı. Bu təmizlik və ləkə götürməmək qabiliyyəti onun həm daxilində, həm də xaricində vəhdət tapmışdı".[1] Bununla belə, yazıçı qəhrəmanlarının fiziki, statik xüsusiyyətlərinin hamısını dərhal açıb-tökmür, uzun-uzadı təsvirlə səhifəni doldurmur. İlkin tanışlıq üçün kifayət edəni deyir. "Əgər Turgenev "Atalar və oğullar" romanında Kirsanovun zərif əllərə sahib olduğunu onun ilk görünüşündə qeyd etsəydi, sonrakı bölümlərdə onu Bazarovun kobudluğuna qarşı qoya bilməzdi".[2] "Kəbirənin iri ceyran gözləri nisbətən xırdalanmışdı. Sıx kirpikləri seyrəlmişdi. Qırx üç yaş. Həm azdır, həm də çox. Hər halda Kəbirənin ciddi, qəşəng sifətində həzin bir dalğınlıq məskən salmışdı".[3] Yazıçı Həbibulla Səmədzadə, onun ailəsinin hər bir üzvü – həyat yoldaşı Kəbirə xanım, oğlu Ziya, qızı Lalə yazıçının sevə-sevə yaratdığı obrazlardır. Və bəzən oxucuya elə gəlir ki, yazıçı çox yaxından tanıdığı həqiqi bir ailədən, bəlkə də, öz ailəsindən danışır.

Ümumiyyətlə, H.Seyidbəylinin yaradıcılığında dəniz mövzusunun epizodik də olsa, keçmədiyi bir əsəri yoxdur. Ölçülərinə görə dəniz sayılan Yer kürəsinin ən böyük axmaz gölü onun üçün həyatın böyük sevinclərindən idi. Xəzərin sahilində doğulub böyüyən gələcək yazıçı yeniyetməliyindən "dənizin bu başından vurub o başından çıxırdı". "Günəş Zığ tərəfdən boylanıb dəniz üzərində ucalmış, Teymurun veyilləndiyi dar dalanları öz nuruna boyamışdı".[4] Və ya "Güldəstə dönüb Kürün Xəzərə axdığı səmtə baxdı. Sanki dəniz arxasında nəhəng bir tonqal qalanmışdı".[5] "Mən də ki, bilirsən su adamıyam. İstinin cırhacırında, üzüm dəyən vaxtda Şəmsini harda itirsən, dəniz qırağında taparsan... O qədər çimirdim ki, günün cırhacırında bədənim gömgöy göyərirdi".[6] Bu hələ bilavasitə dənizə həsr edilməyən bir əsərə kiçik ekskurs idi. "Günortaüstü istidən pörtəndə dənizə baş vurduq. Adanın bu sahilində dəniz xay idi. Heç xırdaca ləpə də yoxdu. Uzaqda, dənizin sinəsi aram-aram qabarıb enirdi. Əsl dəniz səhrası əmələ gəlmişdi. Biz də o səhrada o ki var, üzürdük".[7] Bu parça da "Tərsanə" romanındandır. "Uzaq sahillərdə" mövzusundan, "Dəniz cəsurları sevir" (İmran Qasımovla bir yerdə yazdığı), "Xəzər üzərində şəfəq" adından dolayı birbaşa dənizlə bağlıdır. "Möcüzələr adası"nın "sevgilisi dəniz"dir... "Onun bəlalı məhəbbəti"ndə "fikri nə qədər uzaqlara aparsa da dəniz, adamı da özünə qaytarır" və s. Həsən Seyidbəyli yazıçı İmran Qasımovla əməkdaşlıq etmiş, onunla birlikdə "Dəniz cəsurları

[1] Həsən Seyidbəyli. Tərsanə. – Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1975, s.6
[2] Описание персонажа. bloq. selfrub. ru.
[3] Həsən Seyidbəyli. Tərsanə. – Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1975, s.33
[4] Həsən Seyidbəyli. Cəbhədən-cəbhəyə. – Bakı: Yazıçı, 1979, s.200
[5] Yenə orada, s.200
[6] Yenə orada, s.271
[7] Həsən Seyidbəyli. Tərsanə. – Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1975, s.379

sevir" (1954), "Sən nə üçün yaşayırsan" (1959), "İllər keçdi" (1973) kimi gözəl əsərlər yaratmışlar. 1954-cü ildə ərsəyə gələn "Uzaq sahillərdə" povesti bu yaradıcı harmoniyanın kuliminasiyası olub, həmmüəlliflərə böyük şöhrət gətirmiş, dəfələrlə nəşr edilmişdir. "Ötən əsrin əllinci illərinin əvvəllərində sevilə-sevilə oxunan məşhur yazıçılarımızdan olan İmran Qasımovla Həsən Seyidbəylinin birgə qələmə aldıqları "Uzaq sahillərdə" əsərinin nəşri hər iki qələm sahibinin yaradıcılığına marağı daha da artırdı... "Uzaq sahillərdə" filmi də Azərbaycan kinosunun dəyərli örnəklərindəndir".[1]

İkinci Dünya müharibəsi sovet ədəbiyyatının tərkib hissəsi olan Azərbaycan ədəbiyyatının da sevimli mövzularından idi. 600 mindən çox azərbaycanlının həyatını itirdiyi, itkin düşüb şikəst qayıtdığı "Böyük Vətən müharibəsi" adlandırdığımız bəşəriyyətin ən qanlı savaşı ədəbiyyatımızda lazımi qədər öz əksini tapmışdır. "Uzaq sahillərdə" povesti də müharibə mövzusunun işlənməsində bir sıra yeni cəhətləri ilə seçilir",[2] əsər ilk səhifələrdən maraqlı süjeti ilə oxucunu alıb aparırdı. Haqqında əfsanələr dolaşan Mixaylo ləqəbli cəsur partizan Triyestin gestaposunu sabotaj əməliyyatları ilə təşviş içərisində saxlayır. Ober-leytenant formasında şəhərin müxtəlif yerlərində peyda olur, sirli surətdə yoxa çıxandan sonra isə ya faşistlərin toplaşdığı kinoteatr, kazino, istirahət evləri partlayır, ya da hitlerçilərlə dolu eşelon, dəmiryolu havaya sovrulurdu. Nəticədə alman ordusunun yüzlərlə əsgər və zabiti məhv edilir, döyüş texnikası sıradan çıxarılırdı. "Uzaq sahillərdə"yə qədər "Azərbaycan ədəbiyyatında partizan hərəkatına həsr olunan əsərlər yox dərəcəsində idi... Müəlliflər, belə demək mümkünsə, tarixi bir şəxsiyyəti – Mehdi Hüseynzadəni yenidən kəşf etdilər, onun canlı və dolğun surətini yaratdılar, xarakterini gur psixoloji hadisələr axınında ustalıqla açdılar".[3] Bu əsər bütün keçmiş SSRİ məkanının ədəbi mühitini çalxaladı. Povestin qəhrəmanları – Mixaylo, Anjelika, Veselin ən yaxın döyüş yoldaşları kimi vətənpərvər ruhda tərbiyə edilən sovet gəncləri üçün əsl qəhrəmanlıq ikonası idilər (hər iki Qarabağ müharibəmiz belə misallarla doludur. Düşmənə "təslim oluram", – deyərək yaxınına buraxan, sonra da özünü qumbara ilə partladıb 41 erməni faşistinin meyidini yerə sərən şəhid Tahir Həsənov əsl Mehdi nümunəsi deyilmi?). Mehdi kimi dostları da həqiqi partizanların prototipi olub başqa adlarla Mixaylo ilə çiyin-çiyinə faşizmə qarşı mübarizə aparırdılar. Bu sarsılmaz üçlük arasında həm də gizli məhəbbət üçbucağı var idi. Veselin Anjelikanı, Anjelika Mehdini, Mehdi Anjelikanı sevir. Gənclər arasında qarşılıqlı hörmət, hisslərinə ehtiram, qayğı və bir-birini qoruma da qabarıqdır.

[1] Məhəmməd Nərimanoğlu. 60 il "Uzaq sahillər"də... "Azərbaycan" jurnalı, 08, 2018
[2] Sevinc Kazımova. Ömrün iki yolu. – Bakı: Elm və təhsil, 2010, s.59
[3] Abbas Hacıyev. 17 suala 17 cavab. "Bilik" qəzeti, 1975, 25 aprel, s.3

Mehdi həm də legioner həyatı yaşamışdır. Əsərin filmə çevrilməsinin bir səbəbi Mehdiyə olan sevgi, onun qəhrəmanlığına olan xalq pərəstişi idisə, digər səbəbi qazandığı möhtəşəm populyarlıq idi. "Sağlıqlarında yaxınları qələm və ekran Mixaylosu kimi də çağırırmışlar. Əlavə edərmişlər ki, bunların "Uzaq sahillərdə"ki qəhrəmanları alman kinoteatrlarından birini bomba ilə partladıb, bunlar isə neçə illərdir Azərbaycan kinoteatrlarını anşlaqlarla..."[1] Keçmiş MDB-də Mixaylonu tanımayan yox idi. Qarabağ savaşında düşmən xüsusi fərqlənən, qəhrəman oğullarımızın başına pul qoyanda keçmişdən gələn səda ilə ilk yadımıza düşən məhz Mixaylo olmuşdu. Ümummilli liderimiz Heydər Əliyevin M.Hüseynzadənin aşkara çıxarılmasında şəxsən xidməti olmuşdur. Heydər Əliyev xatirələrində vurğulayır ki, "DTK müharibədə faşistlərə qulluq edənləri araşdırırdı, lakin orada qəhrəmanlıq göstərənlərlə maraqlanan yox idi. Həsən Seyidbəyli ilə İmran Qasımov bu sahədə işləyən gənc adamlar idilər, əldə edilən materialları tez mənimsədilər. Onlar bunu yazdılar, sonra da film çəkildi. Filmdən sonra Mehdi Hüseynzadəyə böyük çətinliklə Sovet İttifaqı Qəhrəmanı adı verildi".[2] Mehdinin əsir düşməsi faktına baxmayaraq, DTK müstəntiqləri elə misilsiz igidlik nümunələri ilə qarşılaşdılar ki, onun qarşısında ancaq baş əymək olardı. Əsər tarixi faktlar, dəlil-sübutlar əsasında, özü də Mehdinin qəhrəmancasına şəhadətindən cəmi 8 il sonra yazılmışdı, H.Seyidbəylinin özünün təbirincə desək, obraz o qədər real idi ki, bizim təxəyyülümüzdən ucada dayanırdı. Mehdi rəssam olmaq istəyirdi, müharibə onun arzularını yarımçıq qoydu... Bütün bunları hər bir azərbaycanlı yazıb-oxumağa başlayandan bilir. Eləcə də Mehdinin Novxanı kəndində anadan olmasını, Qasım İsmayılov küçəsində yaşadığını ibtidai sinifdə öyrəndiyi kimi. Hətta üstündə "Sovet İttifaqı Qəhrəmanı Mehdi Hüseynzadə bu evdə yaşamışdır" sözləri yazılmış lövhə sanki sirli məkanı nişan verirdi. Mehdi hər azərbaycanlının sevimlisi, qürur yeri idi. Onun bədii obrazı, qəhrəmanlığına layiq də yaradılmalıydı, necə ki, yaradıldı. Mehdi Hüseynzadənin bacısı uşaqları deyirdilər ki, "İmran Qasımov və Həsən Seyidbəyli, demək olar bizim evdən çıxmırdılar. Çox dostlaşmışdıq onlarla. Mehdinin qəbrinin üstünə də getmişdilər – Çepovaniyə. Məzarından torpaq da gətirmişdilər Bakıya. Biz həmin torpağı Hənifə babamın, Güllü nənəmin yanında basdırdıq".[3] Çepovan kəndi qardaşlıq qəbiristanlığındakı birinci məzar Mehdinindir. Ədəbiyyatşünaslıqla arxeologiya, tədqiqatla qazıntı işləri

[1] Tahir Abbaslı. Böyük ekran adamı. "Mədəniyyət qəzeti", 32-12-2015 httrs: medeniyyet. Az page.

[2] Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı (tərtib: V.Quliyev, red.: A.Rüstəmli). – Bakı: Ozan, 2000

[3] Savaş kimdən utandı? Azadlıq radiosu, "İz" mədəniyyət proqramı, may 09, 2010

arasında oxşarlıq görənlər haqlıdırlar... İ.Qasımov İtaliya, Triyest, keçmiş Yuqoslaviya arxivlərində işləmiş, xeyli qiymətli sənəd-sübut əldə etmişdi. H.Seyidbəyli və İ.Qasımov işbirliyinin nizamnaməsi yoldaşlıq-tərəfdaşlıqdan doğan qarşılıqlı bərabərlik, məcmusu da ortaya qoyulan qiymətli əsərlər idi. Bu, "ikiyə bölünmüş talant deyildi, ikiyə vurulmuş əməkdaşlıq" idi. Belə-belə, addım-addım "üfüqlərin sakit olmadığı" uzaq sahillərə – "oxucunu maraqlı səyahətə cəlb etməyə" doğru irəliləyirdilər. Hər bir qəhrəmanlıq dastanına xas macəra ruhu bu əsərdən də yan keçməmişdir. Bu xüsusiyyət bəzən tənqid kimi səslənsə də, əsəri korlamır, əksinə, daha oxunaqlı edir. Əsəri oxuyarkən, İtaliyanın gözəl mənzərələri, şəhərlərin, kəndlərin quruluşu, binaların arxitekturası gözlərimiz qarşısından gəlib keçir. Müəlliflər hər bir detalın düzgün və təbii olmasına diqqət yetirmişlər. "Səhərin ala-qaranlığı çəkildikdən sonra qarlı dağlar və uzaq kəndlərdəki evlərin bacalarından çıxan tüstü burumları görünməyə başladı. Dəstə artıq dağdan enib düzənlik bir yerlə gedirdi. Dəmir yolu relsləri dağların dolaylarında ilan kimi qıvrılırdı".[1] Mehdi bütöv Azərbaycanın rəşadətli oğlu olmaqla bərabər, həm də Həsən Seyidbəyli və İmran Qasımov "duetinin övlad"ı idi.

Müharibə mövzusu H.Seyidbəylinin yaradıcılığından ana xətti kimi keçir. Tələbə olduğundan müharibədə iştirak etməyən gənc Həsən yaradıcılığa da elə tələtümlü müharibə dövründə başlamışdı. Gördüklərinə, eşitdiklərinə sarılaraq gələcək əsərləri üçün mövzu toplayır, personajlar düşünürdü. Yazıçı Yuqoslaviya partizanlarının qəvi düşmənlə mübarizəsindən "Cəbhədən-cəbhəyə" romanına keçid alır və kəskin süjetli bir əsərlə bu mövzunu davam etdirir. Romanda dünya xalqlarına azadlıq və istiqlaliyyət gətirən sovet ordusunun möhtəşəm qələbəsi və Hitler hökumətinin biabırçı kapitulyasiyasından sonrakı zaman kəsiyi – sovet Bakısı təsvir edilir. Yazıçı özünün də yaşamış olduğu bir dövrün aurasını olduğu kimi oxucuya çatdıra bilmişdir. Müharibənin ağrı-acıları, fəsadları, faciələri hər surətin taleyində izini qoyur. Detektiv janrda yazılan bu əsərdə hadisələr adından da göründüyü kimi, bir cəbhədən o biri cəbhəyə keçir. Roman oxucuların hüsn-rəğbətini qazanaraq dövrünün yüksək tirajla çap edilən əsərlərindən biri kimi şöhrət tapmışdı. "Cəbhədən-cəbhəyə" bu gün də adlı-sanlı "xəfiyyə romanları"ndan sayılır.

"Cəbhədən-cəbhəyə" milli detektiv ədəbiyyatımızın ilk nümunələrindəndir. Əsər klassik detektivdir, müəllif finala qədər inadla cinayətkarın adını açıqlamır, oxucunu həyəcanda saxlayır. H.Seyidbəyli povestini dəlicəsinə sevdiyi Bakının təsviri ilə başlayır. "Çöl çiçəklərinin Şubanı dağları tərəfdən gələn ətri adamı məst edirdi".[2] Yox, belə yox... Bu əsərin başqa hissəsinə aiddir. "Bakı elə bil dərin yuxuya dalmışdır. Lakin... o yatmır. Üç ilə yaxındır

[1] İmran Qasımov, Həsən Seyidbəyli. Uzaq sahillərdə. – Bakı: Gənclik, 1974, s.63
[2] Həsən Seyidbəyli. Cəbhədən-cəbhəyə. – Bakı: Yazıçı, 1979, s.10

ki, onun gözlərinə yuxu getmir".[1] Bu həm də məcazi məna daşıyır, qatı qaranlığın altında nələrin gizləndiyinə, hansı dramların oynanıldığına müəllif mesajıdır. Belə rahatladıcı sakitlikdən bir lal qışqırıq, gələcək fırtınaya xəbərdarlıq duyulur. "Başqa yerlərdə olduğu kimi, ağır vəziyyətdən istifadə edərək burda da xəbis, çirkin ünsürlər baş qaldırırlar".[2] Güldəstə Şahsuvarova obrazı real həyatda olan prototipdən götürülmüşdür. Yazıçı bütün düyünləri öz əlində saxlayan, kriminal aləmin mərkəzində duran bir nəfərin həyat və cinayət hekayəsinin əsasında və güclü bədii təxəyyülün əlavəsi ilə romanın əsas qadın surətini yaratmışdır. Bununla belə, H.Seyidbəyli qatı cinayətkar Güldəstəyə də acıyır, onun pis yola düşməsinin səbəbini müharibədə görür, bütün mümkün üsullarla ona da, Seymur kimi, bəraət axtarır, elədikləri ilə bağlı günahkar və səbəblər düşünür, təəssüflənir... "Heç rəvamıdır ki, belə ceyran kimi qızı o cürə bağışlanmaz cinayətlərdə təqsirləndirəsən?"[3] Teymur Cahangirov bu sualları özünə "Güldəstə Şahsuvarova" əməliyyatının rəhbəri düşüncəsi ilə vermirdi, böyük qardaş, qohum intonasiyası ilə soruşurdu. Həsən Seyidbəylinin içindəki insan sevgisi o qədər yüksək idi ki, belə zirək, qabiliyyətli, iti ağıllı, istedadlı və yaraşıqlı azərbaycanlı qızını pis əməllərə yaraşdırmırdı. Lakin reallıq, acı həqiqət tamam başqa şey deyirdi. Yazıçı kəskin süjetli bu əsərində də öz tərzinə uyğun olaraq əhvalatı mümkün qədər "poetikləşdirməyə qaçmışdır". Teymurla Ləmanın sevgi macərası əsəri bəzəməklə həm də ona romantik ruh, ab-hava qatır. İki qardaş – Teymur və Seymur ayrı-ayrı dünyanın adamlarıdır. Yaralandığı üçün cəbhədən geri qaytarılan böyük qardaş Teymur qazandığı təcrübə ilə başqa bir cəbhədə – Dövlət təhlükəsizlik orqanlarında fəaliyyətə başlayır. "Teymurun elə bil nə evi, nə arvadı, nə də uşağı vardı, yalnız və yalnız böyük ehtirasla bağlı olduğu təhlükəli işindən başqa, onun üçün heç bir şey yox idi".[4] Açıq döyüşdə düşmənin kimliyi şəkk-şübhə doğurmurdusa, arxada – səngərin o tayındakı düşmən məchuldur. Qaranlıq otaqda qara pişiyi tapmaq kimidir. Ona görə ikiqat təhlükəli və qorxuludur. Yazıçı iki doğma qardaşı barrikadanın əks tərəflərinə yerləşdirməklə konflikti dərinləşdirir, hadisələri gərginlikdə saxlayır. Seymur anasını, qardaşını təbii ki, sevir, qayğı göstərir, hörmət saxlayır, "itaətdə" durur. Lakin etdiklərinə görə suçluluq duyğusu keçirmir. Yeganə əziz qardaşının bandit dəstəsinin bir üzvü olduğunu öyrənən Teymur büsbütün dağılır, qəlbi param-parça olur, dünyadan üz çevirmək istəyir. Yalnız peşəsinə, məsləyinə hədsiz bağlılıq, əqidəsi, bir də sevdikləri qarşısındakı borc onu xilas edir. Teymur qardaşının düşdüyü vəziyyəti analiz

[1] Həsən Seyidbəyli. Cəbhədən-cəbhəyə. – Bakı: Yazıçı, 1979, s.4
[2] Yenə orada, s.4
[3] Yenə orada, s.4
[4] Yenə orada, s.251

edərkən situasiyanı, çevrəsini, mühitini səbəb bilir. “Bəlkə qorxudublar”, – deyə zənnini aldatmaq istəyir... İnsanı qorxuları ilə manipulyasiya etməkdən asan heç nə yoxdur. “Göründüyü kimi, Seymur az qala yeniyetmə vaxtlarında cinayətkarların təsiri altına düşmüş və get-gedə bu cinayət bataqlığında boğulmağa başlamışdı”.[1]

H.Seyidbəylinin 1970-ci ildə “O qızı tapın” adı ilə ekranlaşdırdığı filmin titrlərində “Cəbhədən-cəbhəyə”nin motivləri əsasında çəkildiyi qeyd olunsa da, əslində, yazıçı yeni, tam fərqli ssenari yazmış və bu ekran əsərini Azərbaycan milisinin 50 illiyinə ithaf etmişdi. H.Seyidbəyli bu mövzuya illərlə hazırlaşmış, əməliyyat-axtarış qrupunun işi ilə uzun müddət maraqlanmış, detallı araşdırma aparmış, müşavirə və görüşlərdə iştirak edərək gələcək qəhrəmanlarının həyat və mübarizəsinə yaxından bələd olmuşdur. Yazıçı “mənim qəhrəmanlarım qeyri-adi insanlar deyil, onlar öz peşələrinə sadiq insanlardır”, – deyirdi. Peşəni hörmətli edən də onun həvəskarı yox, ustasıdır. H.Seyidbəyli həvəskar “xəfiyyə” kimi Moskvadakı “Советская милиция” jurnalında sənədli oçerklər, silsilə hekayələrlə vaxtaşırı çıxış edirdi. Ümumiyyətlə, o nədən yazırsa yazsın, həm də kifayət qədər müxtəlif mövzuları əhatə edirsə etsin, mütləq yaradıcı obyekti olan sahəni dərindən öyrənmiş, bu istiqamətdə yüksək professionallıq nümayiş etdirmişdir. İstər partizan hərəkatı olsun, istər çekistlərin fəaliyyəti, istər zavod mühiti, ya çayçıların iş “mətbəxi”, rabitə, lift xidməti – hər bir sahəni şəxsən və mükəmməl öyrənəndən sonra yazı masasının arxasına keçib qələmə alırdı.

“Bizim Cəbiş müəllim” hərbi kinopovesti də bu siyahının gözəl davamı olub, bir bomba belə düşməsə də, müharibənin tam ortasında olan Bakını, onun tarixi dövrünü, koloritini əks etdirir. Bakı bu hərbdə həm canı, həm də qanı ilə vuruşurdu. Hər təyyarədə, döyüş texnikasında onun qızıl “qanı” axırdı. “Cəbiş müəllim”in ssenarisi Maqsud İbrahimbəyova aid olsa da, kino incəsənətin sintetik növü hesab edilsə də, film sırf rejissorun əsəri sayılır.

Həsən Seyidbəylinin yaradıcılığı zövqlü yaradıcılıqdır, özünün təbirincə desək, onda “hər şey zövqlə sahman” olunur. Necə deyərlər, zövqsüzlük müəyyən yerə qədərdir, improvizənin isə sərhədləri yoxdur. Estetikalar dəyişsə də, dram və komediya elementlərinin qarışdığı “Bizim Cəbiş müəllim”in ümumxalq sevgisi bu gün də əvvəlkitək təzədir, təsirlidir, həvəslə baxılır, sitatlara bölünüb dillərdə gəzir. Səbəbi isə koloritin düzgün təqdimi, sadəliyi və təbiiliyi – stildə, manerada, ölçüdə, xarakterlərdə qorumaq, “köçürməyə” yox deyə bilməkdir. Tək “Cəbiş müəllim” yox, “Uzaq sahillərdə”nin “Mixaylo şəhərdədir”, “Şəhərdə iki-iki gəzmək qadağandır”, “Doqquzun yarısında alman zabiti ilə görüşüm var”, “Müsyö, bəs mənim pulumu vermədiniz”, “Bu əbləhi buraxın, o doğurdan da rəssamdır”, “Şəkil

[1] Həsən Seyidbəyli. Cəbhədən-cəbhəyə. – Bakı: Yazıçı, 1979, s.251

xoşuma gəlməsə, güllələnəcəksən!", "Cavan oğlan, məni qanmazın əlindən qurtarın", "Gülsatan qız", "Bacarmaram... Bacararsan!", "Sağ ol, Anjelika, sözlərini eşitdik" ibarələri bu gün də qanad açıb uçur, zamanın məhək daşından çıxıb hər addımda eşidilir, işlənilir. Çağdaş oxucu nəinki tarixi həqiqətləri öyrənir, həm də qəhrəmanlara qoşulub onların kitabda yaşadığını dərin emosiya ilə qəlbində yaşayır. Haqlı olaraq deyirlər ki, H.Seyidbəylinin əsərləri milli tariximizin bədii salnaməsidir.

H.Seyidbəylinin əsərləri milli ruhda olub paradokslar imperiyasında milli mənliyin güclənməsinə, cəmiyyətin inkişafına xeyli xidmət göstərmişdir. Tərbiyəvi əsərləri ilə, yaratdığı yeni, düşünən, müasir qəhrəmanları ilə ədəbiyyatımızın təşəkkülünə təkan vermiş, realist nəsrin gözəl nümunələrini yaratmışdır. O yazırdı: "Mənim seçdiyim qəhrəmanlar tipaj deyil. Həmişə haqlarında düşündüyüm, yazdığım, hər gün həyatda təsadüf etdiyim və ekranda görmək istədiyim qəhrəmanlardır. Yazıçı güclü, möhkəm insan xarakterləri axtarışında olsa da, ortaya əsasən sadə obrazlar çıxırdı. Bu qəhrəmanlar real həyatdan götürüldükləri üçün sevilir, yadda qalırdı.

"Çiçək" real həyat həqiqətlərini əks etdirən lirik-psixoloji povestdir. Əsərdə təsvir edilən hadisələr olmuş faktlara söykənir. Adət-ənənələrimizin, milli-mənəvi dəyərlərimizin düşüncəsiz Şirağa, qansız, zalım, qisasçı İsabala tərəfindən pozulması, təcavüzə uğraması bütöv bir obaya üzqaralığı gətirməklə, hərəni də bir cür bədbəxt edir. Şirağa günahkardır, tanımadığı adama sataşır, oğrudur, lakin onun cəzasını ailəsi çəkir, körpə qızı ödəyir. İsabala da Şirağadan artıq deyil, intiqamını kişi kimi almır, böyük namussuzluq edir. Yazıçı qəhrəmanı Çiçəyin həyatını Laçının ucqar dağ kəndindən başlamış gəncliyini sürdüyü paytaxtın İçəri şəhərinə, qiyabi təhsil aldığı Moskva Tibb Universitetinə qədər izləyir. Romanın süjeti gənc ərəbşünas Xalid ilə həkim Çiçəyin qarşılıqlı hörmət, sevgi, ailə münasibətləri əsasında qurulmuşdur. Adət-ənənələrimizin, milli-mənəvi dəyərlərimizin qorunması, qorunmadıqda gətirib çıxardığı faciəvi nəticələr əsərin əsas ideya istiqaməti, səbəb-nəticə kimi qiymətləndirilmişdir. Çiçək də Mehriban kimi atasız-anasız böyüyüb, uşaqlığı "bol günəşin isitdiyi sığınacaq yeri" deyil, həyatının zədəsi, natamamlığı, yarasıdır. Qızları tale oxşarlığından başqa yaşadıqları sevgi romanları da birləşdirir.

Yazıçının əsərləri bir sıra xarici dillərə tərcümə edilmişdir. "Telefonçu qız" povestini rus dilinə şəxsən özü çevirmişdir. "Tərcümə tərcüməçinin avtoportretidir", – fikri buraya hər mənada uyğun gəlir. Bundan əlavə, Moskvanın sifarişi ilə olan bir sıra ssenarilərini birbaşa rus dilində yazmışdır. Hətta, tərcüməçi olmaya-olmaya xarici filmləri də ingilis dilindən tərcümə etməyi bacarmışdır.

Həsən Seyidbəyli sənətə bir neçə sahənin ustadı kimi gəlmişdi. Sənətkarın istedadının qoşa qanadından biri də, həm də daha güclüsü onun

kino fəaliyyətində özünü göstərir. O, Azərbaycan kinematoqrafında neo-realizmin banisi, dünyaşöhrətli F.Fellininin davamçılarından sayılırdı. H.Seyidbəyli "həyatı yazan, yazdığını ekranlaşdıran", "keçmişi gələcəyə göstərən" bir sənətkar idi. Xalq yazıçısı Anarın sözləri ilə desək, "H.Seyidbəyli bədii yaradıcılığının iki istiqaməti – ədəbiyyatla kino arasında qalmışdı. Kino onun sənəti idi, ədəbiyyat isə istedadı idi".[1] Kinodramaturqun filmoqrafiyası 1962-ci ildə yazdığı "Telefonçu qız" lirik-dramatik povestini ekranlaşdırmaqla başlayır. Həsən Seyidbəyli quruluş verdiyi səkkiz tammetrajlı bədii filmdən altısının həm də senari müəllifi idi. Ədəbiyyatşünas Yaşar Qarayev "Telefonçu qız"ı şairanə, lirik psixoloji povest adlandırmış, "nəsrimizin çiçəklənməsi əlaməti" hesab etmişdir. Mehriban üçün, yaşıdlarından fərqli olaraq, valideynləri tərəfindən heç bir gələcək planlaşdırılmır. İlk baxışda əsərdə fövqəladə bir hadisə baş vermir. 18 yaşlı qız böyük zavodda telefonçu işləyir. Çalışır ki, işinin dərinliklərini öyrənsin, heç kimdən geri qalmasın. Lakin yazıçı telefonçu Mehribanın daxili aləminə qərq olub onun sadə personasına maraq və diqqət göstərməklə, hiss və həyəcanlarını canlı təsvir etməklə gözəl bir əsər, yeni tip qəhrəman yarada bilmişdir. Mehribanın uşaqlıqdan nakam başlayan taleyi həyati konfliktlər fonunda əsərin süjet xəttini təşkil edirdi. "Böyük daxili inam və xarakterin bütövlüyü gənc qəhrəmana həyatının ən çətin anlarında özünü ələ almağa və dərk etməyə kömək edir. Müəllif əsərdə qoyulan bu əsas ideyanı inandırıcı şəkildə, heç kəsə zorla qəbul etdirmədən oxucuya çatdıra bilmişdir".[2] Mehriban ona həm sevinc, həm kədər gətirən məhəbbəti ilə də elə insanları bir-birinə calaşdıranda qarşılaşır. Taleyin zərbələrinə baxmayaraq, gənc telefonçu möcüzələrə inanır. Həyatda öz yerini tapmağa çalışır, çətinliklərlə qarşılaşsa da, ruhdan düşmür, insanlara qırılıb xoşbəxtliyə, məhəbbətə inamını itirmir. "Həsən Seyidbəylinin ən yaxşı əsərlərində zamanın ab-havası, balaca adam adlandırılan insanlara marağı və diqqəti öz əksini tapdı. O, keçmiş dövrün istehsalat qabaqcılları haqqında bir sıra normativ əsərlərdən fərqli olaraq, sadə adamlar – telefonçular, kənd həkimləri, liftçi qız və b. haqqında yazmağa və çəkməyə başlayır".[3] Böyük enerji ilə iki cəbhədə fəaliyyət göstərir, özünün təbirincə desək, "cəbhədən-cəbhəyə" atılır. "Telefonçu qız"ın müvəffəqiyyətindən qanadlanan Həsən Seyidbəyli "Xidmət lifti" hekayəsində də bu tendensiyanı davam etdirmiş, 1966-cı ildə onun motivləri əsasında "Liftçi qız" novellasını çəkmişdi. Əsərdə gənc qızın – Lalənin taleyindən, həyatdakı ilk addımlarından, tədricən öz qüvvəsinə inanıb düzgün yol tutmasından

[1] Anar. Eldar Quliyev və Həsən Seyidbəyli haqqında. "Ədəbiyyat qəzeti", 2 mart 2021
[2] "Telefonçu qız" filmi. H.Seyidbəylinin 100 illiyi rubrikasında. https: aki. az.
[3] Anar. Eldar Quliyev və Həsən Seyidbəyli haqqında. "Ədəbiyyat qəzeti", 2 mart 2021

danışılır. Yazıçı "Möcüzələr adası" hekayəsini də genişləndirib 1963-cü ildə eyni adla tammetrajlı film formatında ekranlaşdırmışdı.

H.Seyidbəylinin şöhrətinin üstünə şöhrət gətirən "Nəsimi" filmi oldu. Film Azərbaycan xalqının görkəmli şairi və mütəfəkkiri, hürufiliyin tərənnümçüsü İmadəddin Nəsiminin 600 illiyinə həsr edilmiş, 1974-cü ildə Bakıda keçirilmiş VII Ümumittifaq kinofestivalda "Tarixi mövzuda ən yaxşı filmə görə" mükafat almışdır. Filmin taleyi Heydər Əliyevin etimadı ilə Həsən Seyidbəyliyə həvalə olunmuş, o da ortaya Nəsimiyə layiq bir əsər qoya bilmişdi. "Filmin əsas uğuru düzgün aktyor seçimi idi. Əgər dünya kinematoqrafçıları film çəksə və Teymurləngi oynamaq lazım gəlsəydi, heç kim Yusif Vəliyevdən yaxşı oynamazdı".[1] "Nəsimi"ni "pafosdan, patetikadan uzaq" real ekran əsəri adlandırsalar da, hər ikisindən bir az var. Nəsiminin adı elə pafosdur, vəcd, entuziazm, təmtəraqdır. H.Seyidbəyli həm də vətənpərvər, təəssübkeş bir vətəndaş idi, "Nəsimi" filminə hər kəsin tanıdığı Tixonovu qoyub heç kəsin tanımadığı Rasim Balayevi çəkməklə daha böyük dövlət mükafatlarından, daha yüksək mərtəbələrdən özünü və filmi məhrum etdiyinin fərqində idi. Vətənpərvərlik kor millətçilik, özündən olmayana nifrət deyil, milli həssaslıqdır, özününkünə sevgidir, tələb olunduqda birinciliyi ona verməkdir. Filmin rus dilinə dublyajı zamanı SSRİ Xalq Artisti Vyaçeslav Tixonov "Nəsimini səsləndirmək də olsa, mənə qismət oldu", – demişdi.

"Həsən Seyidbəyli kinodan və ədəbiyyatdan nə istəyirdi?" – sualına filologiya elmləri doktoru Məmməd Adilov belə cavab vermişdi: "Mən cürət edib onu Vasili Şukşinlə eyni düşüncə dünyasının adamı hesab edərdim. Şukşin rus mujikinin, Həsən Seyidbəyli Azərbaycan qadınının, ələlxüsus gənc qızların, azərbaycanlı ailəsinin xoşbəxtliyi problemi ilə məşğul olurdu".[2] Hələ üstəlik, H.Seyidbəyli professional yazıçı idi. O öz qadın qəhrəmanlarını fərqli sosial təbəqələrdən seçir, müxtəlif tip, müxtəlif taleli insan xarakterləri yaradır, mürəkkəb insan münasibətlərindən yazırdı. Ziyalı ailənin nümayəndəsi Kəbirə "alicənabdır, xanımdır. Adlı-sanlı həkimdir, yaxşı səliqəsi var. Yaxşı anadır". Bu xasiyyətnaməni ona rəqibi Zümrüd verir. Zümrüd özü isə "bacarıqlı stenoqrafçı idi. Azərbaycanın qoca bir akademiki bu fikirdə idi ki, bütün dünyada ikinci bu cür stenoqrafçı yoxdur. Hamıya lazım olduğunu bildiyi üçünmü, baxımlı olduğunu addımbaşı hiss etdiyi üçünmü özünü çox ərköyün aparırdı. Cavan və dilavər idi".[3] Zavodda Elektrod şöbəsində işləyən Səlimə texniki-peşə məktəbini bitirmişdi. Səlimə manipulyator Nəcəf tərəfindən açılmamış solan bir qadın obrazıdır. İradəsizliyi

[1] Kadrarxası. Modern.az, 31 yanvar, 1915

[2] Məmməd Adilov. Həyatı yazan, yazdığını ekranlaşdıran yazıçı – Həsən Seyidbəyli. Metodik vəsait. – Bakı: F.Köçərli adına Respublika Uşaq Kitabxanası, 2020, s.9

[3] Həsən Seyidbəyli. Cəbhədən-cəbhəyə. – Bakı: Yazıçı, s.415

səbəbindən həyatda büdrəyən, düzəldilməsi çətin olan səhvlər edən, öz həyatının altını üstünə çevirən Səlimə əsərin sonunda "heysiyyətli, dəyanətli" bir qadına çevrilir. Adalı onun haqqında deyir: "Səlimə əvvəlki qadın deyil! O qorxaq məxluqdan bir iz qalmayıb".[1] Lalə də əsərin sonunda başqa adamdır, "qısa zaman ərzində tanınmaz olmuşdu, nə isə bir möcüzə baş vermişdi... Baxışları dərin, sözləri oynaq, qanadlı, müdrik və kəsərli... Baxışlarındakı hikmət adamı çaşdırırdı".[2] Koloritli Məsmə də Adalının xarakterini bir başqa cür açır. Bunlar hələ bir əsərin surətləridir. Onun obrazları romantik, cəmiyyətdə öz yerini axtaran, daim inkişaf edən, özünü təsdiq etmək istəyən qızlar, qadınlardır, azərbaycanlı ruhunun parlaq ifadəçiləri, daşıyıcılarıdır.

H.Seyidbəylinin publisistikası heç də onun bədii yaradıcılığından geri qalmır və az əhəmiyyətli deyildir. Onun publisistikası da əslində elə bədiidir, təhkiyə, sənətkarlıq, ruh mətnə uduzmur. "İlk tanışlıq", "Yuqoslaviya xatirələri", "İyirmi gün Amerikada", "On beş gün Yaponiyada" kitabları məlumatlandırıcı, öyrədici olduğu qədər, əyləncəli, zövqlü, həm də bitkin əsərlərdir. XX əsrin ikinci yarısından sovet adamlarına xarici səfərlərə imkanlar açılmağa başladı. Hərtərəfli yaradıcı insan olan H.Seyidbəyli üçün dünyanı görmək, gördüyünü anlatmaq mühüm fürsət idi. İlk səyahətini Zirə, Türkan bağlarından başlayan H.Seyidbəyli böyüdükcə Xəzər dənizinin sərhədlərini aşdı, yer kürəsinin yarısını gəzdi. Daim üzdə olan hörmətli ictimai-siyasi xadim kimi ABŞ, Kanada, Hindistan və b. dəvət aldığı ölkələrə etdiyi səfərlərin gündəliyini, geniş icmalını "Gördüyüm yerlər" adlı yol qeydlərində yazmış, bu gün də maraqla oxunan memuar ədəbiyyatı nümunələri yaratmışdır. Yaponiya xatirələri yazıçının təzadlar, zəngin mədəniyyət və gözəlliklərin vətəni olan "gündoğan ölkə" ilə ilk tanışlığı, gərgin qrafikli həm iş, həm səyahət məzmunlu səfər təəssüratıdır. Dünya xalqlarının mədəniyyətləri fərqli olsa da, maraqları oxşardır. Moskvadan – yola düşən andan, ta geriyə, təyyarənin uçuş məqamına qədər diqqət çəkən hadisə kağıza köçürülmüş, yazıçının usta qələmi ilə oxucuya çatdırılmışdır. Asiyanın ən mənzərəli ölkələrindən olan "Yaponiyada şəhərlər arasında sərhəd yoxdur. Bir şəhər qurtaran kimi, o biri şəhər başlanır".[3] Yazıçı oxucuya ensiklopedik xarakterli informasiya yox, "Yaponiyanı necə gördüyü, necə kəşf etdiyi" barədə ətraflı məlumat verir. Bu gün 1966-cı ildə çapdan çıxmış bu yazı leksikası ilə də diqqəti çəkir. "Bufetin qarşısında ağ paltarlı kişilər nazik qəmişlərdən coka-cola sorurdular".[4]

[1] Həsən Seyidbəyli. Cəbhədən-cəbhəyə. – Bakı: Yazıçı, s.552
[2] Yenə orada, s.553
[3] Həsən Seyidbəyli. On beş gün Yaponiyada. – Bakı: Azərnəşr, 1966, s.27
[4] Yenə orada, s.36

Qarşılaşdığı, gördüyü heç bir epizod səyahətçinin nəzər nöqtəsindən, müşahidəsindən kənarda qalmır. Bundan başqa, onu əhatə edən hər şeyə öz düşüncəsinin gözü ilə baxır, hər nəsnədə məna axtarıb münasibətini bildirir. "Mənə belə gəlir ki, bir küçəni yüz nəfər adam eyni nöqtədən seyr edəndə belə eyni şəkildə görmür. Hər kəs həmin küçədə öz xasiyyətinə, emosional qavrayış qabiliyyətinə görə bir şeyi əsas götürür, onun üçün o küçənin xarakteri də həmin şeylərlə əlaqədar olur; fənər dirəyi, asfaltı yarıb baş qaldırmış otu, yaxud döngədəki evi..."[1]

H.Seyidbəylinin "20 gün Amerikada" kitabı bir səfər hüdudlarında hər xalq, hər dövr üçün ekzotik, cəlbedici olan bu ölkəni öz kəşfində A-dan Z-yə təqdim edir və məncə, məqsədinə də nail olur. Gözlərimiz önündə Amerika Ştatları H.Seyidbəylinin "obyektivinin" fokusunda bütün "gözəlliyi" ilə açılır.

Bədiiyyat, obrazlılıq publisistika üçün "məcburi" olmasa da, H.Seyidbəylinin səfər söhbəti haradasa, lirik monoloqa bənzəyir. Dilin təsir vasitələri fikrin qüvvətlənməsinə, estetik gözəlliyinə xidmət edir. "Təyyarəmiz yenidən havalanıb San-Fransiskoya üz tutdu".[2]

Həsən Seyidbəyli xoşbəxt taleli sənətkardır. Onun sənət yolu sistemli, dövrünün gözü ilə baxsaq, çox uğurlu olmuşdur. Yaradıcılığı daim ədəbi tənqidin diqqət mərkəzində olmuş, əsərləri bir çox xarici dillərə tərcümə edilmişdir. Əlbəttə, planlaşdırdığı, bu və ya digər səbəblərdən, xüsusilə, sağlamlıq və həyatın vəfasızlığı tərəfdən reallaşdıra bilmədiyi yarımçıq işləri də qalmışdır. Lakin geniş bucaqdan baxanda tərəzinin bəxtli işləri cəmlənmiş gözü kifayət qədər ağır gəlir.

Həsən Seyidbəyli Azərbaycan ədəbiyyatının tərəqqisi yolunda stabil fəaliyyəti ilə onun klassiki adını hələ sağlığında qazanmış, həyatda payına düşən missiyanı şərəflə yerinə yetirmiş, özündən sonra təmiz ad, qüsursuz reputasiya qoymuşdur. Onun əsərləri ilə neçə nəsil böyüyüb tərbiyə olunmuşdur. Azərbaycan Kinematoqraflar İttifaqına rəhbərlik etdiyi 17 il kinomuzun intibah dövrü sayılır. Xatirəsi layiqincə əbədiləşdirilmiş, haqqında neçə-neçə sənədli filmlər çəkilmiş, televiziya verilişləri hazırlanmışdır...

...Və Bakının dağlıq hissəsində Həsən Seyidbəyli küçəsindəki qədimi bir binanın fasadına "Yazıçı, kinorejissor, Azərbaycanın Xalq artisti Həsən Mehdi oğlu Seyidbəyli burada yaşayıb-yaratmışdır" sözləri həkk edilmiş barelyef böyük sənətkarı hər zaman xatırladacaqdır.

[1] Həsən Seyidbəyli. On beş gün Yaponiyada. – Bakı: Azərnəşr, 1966, s.36
[2] Həsən Seyidbəyli amerikalının yalanını necə tutdu? – xatirə. Kulis. Az, 16 aprel 2014

MAHMUD İSMAYILOV
(1920-2001)

Azərbaycanın XIX-XX əsrlər sosial-iqtisadi tarixinin araşdırılmasında, iqtisadiyyatının təşəkkülü haqqında ciddi faktoloji bazanın hazırlanmasında mühüm rol oynayan görkəmli tarixçi-alimlərimizdən biri də Mahmud İsmayılovdur. O, çoxcildlik "Azərbaycan tarixi"nin müəlliflərindən və redaktorlarından biri, vətənpərvər alim olmaqla yanaşı, həm də sanballı bədii əsərləri ilə Azərbaycanda tarixi roman janrının inkişafına öz töhfəsini vermiş, dilimizin zəngin incəliklərinə bələd olan bir yazıçıdır. Onun bədii əsərlərinin əsas süjet xəttini Azərbaycan tarixində mühüm rol oynamış tarixi şəxsiyyətlər və hadisələr təşkil edir.

Həyatı. Mahmud Əliabbas oğlu İsmayılov 1920-ci il sentyabr ayının 1-də Şəki şəhərində anadan olmuş, orta məktəbi 1937-ci ildə bitirdikdən sonra Azərbaycan Dövlət Universitetinin Tarix fakültəsində (1937-1941) təhsil almışdır. Qusar rayonunun Ənik və Hil kənd orta məktəblərində tarix müəllimi vəzifəsində işləmişdir. İkinci Dünya müharibəsində iştirak etmək üçün 1942-ci ildə ordu sıralarına çağırılmış, xidmət müddətində böyük döyüş yolu keçmiş, sıravi əsgərdən rota komandiri vəzifəsinədək ucalaraq nüfuz qazanmışdır. 1946-cı ildə ordudan tərxis edilərək, AMEA-nın Tarix İnstitutunda laborant kimi əmək fəaliyyətinə başlamış, ömrünün sonuna kimi burada kiçik elmi işçidən elmi işlər üzrə direktor müavini vəzifəsinə qədər yüksəlmişdir. Mahmud İsmayılov 1949-cu ildə "Azərbaycan neft sənayesində iltizam sisteminin ləğv edilməsi" mövzusunda namizədlik, 1961-ci ildə "Azərbaycanın kənd təsərrüfatında kapitalizmin inkişafı" mövzusunda doktorluq dissertasiyalarını uğurla müdafiə etmişdir. O, 1963-cü ildə professor elmi adına layiq görülmüş, 1983-cü ildə AMEA-nın müxbir üzvü seçilmişdir.

M.İsmayılov tarix sahəsində ancaq elmi fəaliyyətlə kifayətlənməmiş, ali təhsil ocaqlarında ixtisası üzrə pedaqoji fəaliyyətlə də məşğul olmuş, bir sıra dissertasiyalara elmi rəhbərlik etmişdir. Tarix elminin inkişafındakı xidmətlərinə görə "Əməkdar elm xadimi" adına layiq görülmüş, 2000-ci ildə isə Azərbaycan Respublikasının ali mükafatı olan "Şöhrət" ordeni ilə təltif olunmuşdur.

Azərbaycan Yazıçılar Birliyinin üzvü, tarix elmləri doktoru, professor, Əməkdar elm xadimi, AMEA-nın müxbir üzvü Mahmud İsmayılov 16 avqust 2001-ci ildə, 81 yaşında Bakıda vəfat etmişdir.

Yaradıcılığı. Mahmud İsmayılovun yaradıcılığı elmi və ədəbi-bədii irsdən ibarətdir. Elmi yaradıcılığının əsas istiqaməti XIX-XX əsrin əvvəllərində Şimali Azərbaycanda kapitalizmin genezisi və inkişafı, kənd təsərrüfatının tarixi kimi problemlərin tədqiqi olmuşdur. Onun bu sahədə Azərbaycan

və rus dillərində yazdığı monoqrafiyalarda, çoxsaylı məqalələrdə əldə etdiyi mühüm elmi nəticələr bu gün də öz əhəmiyyətini qoruyub saxlamaqdadır.

Mahmud İsmayılov kənd təsərrüfatı ilə yanaşı, neft sənayesinin tarixi ilə də maraqlanmışdır. Onun adı XIX əsrdə Şimali Azərbaycanda neftin hasilatı, emalı, istehsalat texnikası, nəqli və neft sənayesi tarixinin bir çox digər məsələlərinin araşdırılması işinə ciddi töhfələr verən alimlər sırasında çəkilir: "Bu baxımdan AMEA-nın müxbir üzvü, mərhum M.Ə.İsmayılovun əsərlərini xüsusi olaraq qeyd etmək zəruridir. Bakı, Tbilisi, Sankt-Peterburq və başqa arxiv qaynaqlarından toplanmış zəngin materiallar əsasında yazılmış həmin əsərlərdə M.Ə.İsmayılov Şimali Azərbaycan neft sənayesində müqaitə sistemi, onun məğzi və ləğvi, Azərbaycan neftinin həm diyarın, həm də bütövlükdə, Rusiya imperiyasının sosial-iqtisadi strukturunda oynadığı möhtəşəm rol hərtərəfli şəkildə işıqlandırılmışdır".[1] Alimin bu sahədə yazdığı "Azərbaycan neft sənayesinin inqilabaqədərki tarixi" əsəri bu gün də öz dəyərini itirməyib.

Onun digər qiymətli əsəri 1976-cı ildə "Elm" nəşriyyatı tərəfindən çap olunmuş "XX əsrin əvvəllərində Bakı sənayesi" adlı monoqrafiyadır. Monoqrafiyada "Bakı rayonunun, neft sənayesi çıxılmaq şərtilə, demək olar ki, bütün istehsal sahələri – mexaniki istehsal, maşınqayırma, tikinti, yunçuluq, yeyinti və b. sənaye sahələrinin tarixi öyrənilmişdir. Bütün bunların tədqiqi imperializm dövründə Azərbaycanın burjuaziyasının tarixi, milli kapitalın Bakı iqtisadi həyatında rolu və s. məsələlərin araşdırılması üçün çox mühüm əhəmiyyətə malikdir".[2]

Mahmud İsmayılovun "M.Ə.Sabir yaradıcılığında kəndli məsələsi", "Tarixi nəsr ədəbi tənqidimizdə", "Daha çox səriştə, daha çox nəzakət lazımdır" kimi ədəbiyyatla tarixin vəhdət təşkil etdiyi məqalələri göstərir ki, o, tarixlə yanaşı, ədəbiyyata da böyük maraq göstərmişdir. Bədii yaradıcılığa lap gənc yaşlarından şeirlə başlasa da,[3] dövri mətbuatda "Kür qırağında", "Anam Tomiris", "Buğatay" kimi hekayələrlə çıxış etsə də, ədəbi dairələrdə daha çox tarixi romanları ilə tanınmışdır. Onun bu janra müraciət etməsi XX əsrin 80-ci illərinə təsadüf edir. Məhz bu dövrdə Azərbaycan ədəbiyyatında tarixi mövzu daha aktual olmuşdur. İsa Hüseynovun tarixi-fəlsəfi "Məhşər" romanı ilə Azərbaycan ədəbiyyatında yeni səhifənin açıldığını göstərən Vaqif Yusifli həmin dövrü belə xarakterizə etmişdir: "Məhşər" romanı yetmişinci illərin ortalarında yazılmışdı, bir qədər sonra isə – yetmişinci illərin

[1] Namiq Kərimov. XIX-XX əsrin əvvəllərində Şimali Azərbaycanda çar Rusiyasının neft siyasəti. – Bakı: Elm və təhsil, 2019, s.10

[2] Hacı Həsənov. Elmi, pedaqoji və ictimai fəaliyyətinin qısa oçerki. M.Ə.İsmayılov. Biblioqrafiya (tərtibçi: H.Ə.Zülalova). – Bakı: Elm, 1993, s.20-21

[3] Yenə orada, s.25

sonlarında və səksəninci illərin əvvəllərində tarixi mövzuya güclü axın başlandı. Şah İsmayıl Xətai, Mirzə Şəfi Vazeh haqqında romanlar yarandı, xalqımızın digər qüdrətli söz ustalarının, dövlət xadimlərinin həyatı, tərcümeyi-halı da öz bədii inikasını tapdı, xalq tarixinin ayrı-ayrı dövrləri bədii düşüncənin işığında əks olundu".[1]

Mahmud İsmayılov həmin dövrdən etibarən Azərbaycan xalqının təşəkkül tarixində əhəmiyyətli hesab olunan siyasi-ədəbi proseslər, dini-ideoloji cərəyanlar, tarixi şəxsiyyətlərin həyat və fəaliyyəti haqqında romanlar yazmağa başladı. Tarixçi dəqiqliyi ilə mənbələrdən əldə etdiyi məlumatı yazıçı təxəyyülü ilə bədii şəkildə qələmə alan müəllif yazdığı romanlarla Azərbaycanın tarixində iz buraxmış mühüm hadisələri elmi auditoriya ilə yanaşı, geniş oxucu kütləsinə də çatdırmağa nail oldu. Əsərlərindən birində yazırdı: "İstərdim sənin dərin-dərin, uzaq-uzaq keçmişin barəsində, övladların, yolunda ölümü müqəddəs sayan ulların barəsində indiki nəslə – igid övladlarına bir neçə söz deyim. Qoy onlar səni, sənin ulu keçmişini yaxşı tanısınlar, səni daha çox sevsinlər".[2]

Məlumdur ki, tarixi-ədəbi şəxsiyyətlərdən bəhs edən əsərlər tarixi faktlara əsaslandığından müəllifdən öz qəhrəmanına, onun yaşadığı mühitə yaxşı bələd olmağı tələb edirsə, digər tərəfdən bədii əsər nümunəsi kimi yazıçı təxəyyülü tələb edir. M.İsmayılovun tarixi romanları hər iki tələbata tam cavab verir. Müəllifin bütün əsərlərində təsvir olunan dövrün ədəbi-siyasi mühiti, mədəni-etnoqrafik mənzərəsi, adət-ənənəsi və s. nəzərə alınmışdır.

Müəllifin ilk romanı "Ağ yapıncı" 1979-cu ildə "Yazıçı" nəşriyyatı tərəfindən çap olunmuşdur. Roman XVIII əsrin 30-40-cı illərində Şəki əyalətində İran əsarətinə qarşı xalq-azadlıq hərəkatından bəhs edir. Burada Hacı Çələbi xanın (1703-1755) dövründə Şəkidə, xüsusən də Baş Küngüt və Aşağı Küngüt kəndlərində baş verən siyasi hadisələrlə yanaşı, xalq arasından çıxmış cəsur sərkərdə – ağ yapıncılı Dəmirçioğlu Poladın qəhrəmanlığı öz əksini tapmışdır. Yaratdığı təbiət mənzərələri, adət-ənənələr, Novruz bayramı, döyüş səhnələri, Nadir şah tərəfindən Şəkiyə təyin olumuş Məlik Nəcəfdən xalqın narazılığı, Hacı Çələbi xanın Şəkinin müstəqilliyi uğrunda apardığı mübarizə və s. kimi tarixi məqamlar müəllifin bir şəkili kimi Şəki şəhərinin tarixinə, təbiətinə yaxından bələd olduğunu göstərir. Romanda zərgər Məhəmmədin dilindən söylənən "... padşah doğrudan da Allahın kölgəsidir və ona ağ olmaq günahdır. Amma bu padşahı padşah hesab eləmək özü günahdır, axı"[3]; "… təkcə Şəki camaatı ilə iş görmək olmaz. Axı təkcə Şəki

[1] Vaqif Yusifli. Azərbaycan romanı: dünən, bu gün (polemika) / "Azərbaycan", 1987, №12, s.177

[2] Mahmud İsmayılov. Sənin ulu baban. – Bakı: Azərnəşr, 1989, s.3-4

[3] Mahmud İsmayılov. Ağ yapıncı. – Bakı: Yazıçı, 1979, s.30

Azərbaycan deyil, Təbriz də, Ərdəbil də, Qarabağ da, Şirvan da Azərbaycandır"[1] kimi cümlələrlə M.İsmayılov yaratdığı qəhrəmanların nə qədər müdrik, gözüaçıq, uzaqgörən olduqlarını diqqətə çatdırmışdır.

Mahmud İsmayılov Azərbaycan romanının tarixi məsələlərindən bəhs etdiyi məqaləsində yazırdı: "... roman bədii əsərdir, bədiiyyat olan yerdə isə mütləq lirika olmalıdır. Lirika olmayan yerdə bədiiyyatdan danışmağa dəyməz".[2] Öz yazdıqlarına əməl edərək, demək olar ki, bütün əsərlərində lirik duyğulara geniş yer vermiş yazıçı bu romanda da prinsipinə sadiq qalmışdır. XVIII əsrdə Şəki xanı Hüseyn xan Müştaqın sarayında yaşamış, həm əruz, həm də heca vəznində şeirlər yazmış Şəkili Nəbi kimi tanınmış şairin[3] obrazını yaratmış, Polad–Münəvvər, Nəbi–Almaz surətləri arasındakı məhəbbətdən bəhs etmiş, şair Nəbinin yazdığı şeirləri romana daxil etməklə əsərin lirik təsirini daha da artırmışdır.

Alimin uğurlu əsərlərindən biri XII əsr dahi Azərbaycan şairi Xaqani Şirvaninin həyat və yaradıcılığından bəhs edən "Xaqani" tarixi romanıdır. Sovet İttifaqı Qəhrəmanı, akademik Ziya Bünyadova ithaf olunan bu əsər 1983-cü ildə çapdan çıxmışdır. XII əsrdə həm Yaxın və Orta Şərqdə, həm də Azərbaycanda gedən mühüm ictimai, siyasi və mədəni hadisələri dərindən araşdıran müəllif Xaqani ilə əlaqədar süjetləri bir tarixçi dəqiqliyi ilə təsvir edə bilmişdir. Azərbaycan Eldənizlər dövlətinin necə yaranması ilə başlayan əsər Şirvanşahlar – Eldənizlər münasibəti fonunda davam etmiş, Xaqaninin ölüm səhnəsi ilə yekunlaşmışdır. Xaqani Şirvaninin həyatının bütün mərhələlərinin əks olunduğu romanda bir çox tarixi şəxsiyyətlərin – Eldənizlərdən Şəmsəddinin (1136-1175), Şirvanşahlardan II Mənuçöhrün (1136-1160), bacısı İsmətəddinin, I Axsitanın (1160-1196), əmisi Kafiyəddinin, Əbul-Əla Gəncəvinin, Fələki Şirvaninin, Məsud bin Namdarın, Nizami Gəncəvinin və s. bədii obrazları ilə tanış olmaq mümkündür. Eləcə də şairin ailəsi – valideynlərinin adları, anasının kimliyi, atasının tünd xasiyyəti, əmisi və əmisi oğlunun himayəsi altında böyüməsi, saray həyatı, oradakı intriqalar, Xaqaninin həbs olunub Şabran qalasına salınması, Baqilan bəndinin tikintisi, Dəclə çayı ilə söhbəti və s. tarixə uyğun şəkildə əks olunmuşdur.

Əsərdə bəzi diqqətçəkən məqamlar var ki, onlardan biri şairin arvadının kimliyi ilə bağlıdır. Belə ki, orta əsrlərdən başlayaraq, bu günümüzə qədər əksər mənbələr Xaqaninin Əbul-Əla Gəncəvinin kürəkəni olduğunu göstərir.[4] Amma Həmid Araslı, Ahmed Ateş, Qafar Kəndli-Herisçi kimi tədqiqatçıların

[1] Mahmud İsmayılov. Ağ yapıncı. – Bakı: Yazıçı, 1979, s.31

[2] Mahmud İsmayılov. Daha çox səriştə, daha çox nəzakət lazımdır (Azərbaycan romanının tarixi məsələlərinə dair) / "Azərbaycan kommunisti", 1989, №5, s.100

[3] Azərbaycan klassik ədəbiyyatından seçmələr. Üç cilddə, III c. XVII-XVIII əsrlər Azərbaycan şeiri. Tərtib edəni: Cahangir Qəhrəmanov. – Bakı: Şərq-Qərb, 2005, s.433

[4] Elnarə Zeynalova. Xaqani Şirvaninin ərəbcə əsərlərinin izi ilə. – Bakı: Elm, 2024, s.40-41

mövqeyi fərqlidir. H.Araslının gəldiyi qənaət belədir: "...məktublar əsasında müəyyənləşdirmək olur ki, şairin birinci arvadı təzkirələrin yazdığı kimi, Əbül-Ülanın qızı deyil, bəlkə də kəndli qızı olmuşdur".[1] Türkiyəli alim Ahmed Ateşin Lala İsmail Efendi Kitabxanasında XIV əsrə aid əlyazma nüsxəsində aşkar etdiyi 27 məktubdan XIII olan və əlyazmanın 26 b – 29 a vərəqini əhatə edən Şihab əd-Dinə yazılan məktubun qısa məzmunundan belə məlum olur ki, Xaqani 25 il kəndli bir qadın olan zövcəsini qorumaq üçün əlindən gələni etmiş, sonralar qadın xəstələnəndə onun qulluğunda durmuşdur.[2] Sonralar Q.Kəndli-Herisçi bu məsələyə daha geniş şəkildə aydınlıq gətirmiş və şairin birinci arvadının, əksər mənbələrin iddia etdiyi kimi, Əbul-Üla Gəncəvinin qızı deyil, sadə kəndli qızı olduğunu göstərmiş və adını Xurşid (Günəş) kimi qeyd etmişdir.[3] Maraqlıdır ki, Mahmud İsmayılovun romanında da Xaqaninin həyat yoldaşı əksər mənbələrdə olduğu kimi yox, məhz Xurşud adlı kəndli qızı kimi təsvir olunmuşdur. Bu da müəllifin əsəri yazarkən, dahi şairimiz haqqında yazılan tədqiqat əsərlərini dərindən incələdiyini göstərir. Tədqiqat əsərləri ilə yanaşı, şairin öz yaradıcılığına da yaxşı bələd olan M.İsmayılov romanda, yeri gəldikcə, Xaqaninin əsərlərindən nümunələr gətirmişdir. Əsər Xaqani haqqında yazılmış ilk tarixi roman olmaqla yanaşı, həm tarixi mənbələrdən qaynaqlandığına görə, şairin həyatını daha real təsvir edən bədii əsər kimi qiymətləndirilməlidir.

Mahmud İsmayılovun elmi yaradıcılığının bir hissəsi XIX-XX əsrin əvvəllərində Azərbaycanın kənd təsərrüfatının inkişafı, bu sahədəki problemlərlə bağlı olmuşdur. O, əldə etdiyi nəticələri həm də bir yazıçı təxəyyülü ilə qələmə almışdır. Belə əsərlərdən biri 1986-cı ildə nəşr olunmuş "El üçün yan" romanıdır. XIX əsrin 90-cı illərində Azərbaycan kəndlərində hökm sürən vəziyyətdən bəhs edən əsərdə sovet ruhu hökm sürsə də, yerli feodalların, sələmçilərin, kəndxudaların, məmurların özbaşınalığı, xalqa verdikləri əziyyət və onlara qarşı mübarizəyə qalxan məzlumların arzuları çox inandırıcı şəkildə öz əksini tapmışdır.

Şirvanşahlar dövləti haqqında olan növbəti tarixi əsər "İki od arasında" romanıdır. Əsər ilk dəfə 1987-ci ildə, daha sonra 1993-cü ildə latın qrafikası ilə nəşr olunmuşdur. Əgər "Xaqani" romanında Şirvanşahlarla bağlı faktlara şairin həyat və yaradıcılığını daha yaxşı işıqlandırmaq üçün köməkçi vasitə kimi müraciət edilibsə, "İki od arasında" romanının aparıcı süjet xəttini Şirvanşahların tarixi təşkil edir. Burada XV əsrin 4-cü rübündə hakimiyyətdə

[1] Həmid Araslı. Azərbaycan ədəbiyyatı: Tarixi və problemləri (Seçilmiş əsərləri). – Bakı: Gənclik, 1998, s.99

[2] Ahmed Ateş. Hakaninin mektubları dergisi. – Ankara: Türk Tarih Kurumu. Belleten, 1961, XXV cilt, sayı 98, s.244

[3] Qafar Kəndli-Herisçi. Xaqani Şirvani (həyatı, dövrü, mühiti). – Bakı: Elm, 1988, s.154-161

olmuş Şəki hökmdarı Seyid Əli Orlatın (?-1399) Şəkiyə hücum edən Teymurilərə qarşı apardığı mübarizə, Şirvanşah İbrahimin (1382-1417) hakimiyyəti dövründə baş vermiş hadisələr, yadellilərə qarşı xalqın əzmkarlığı qələmə alınmışdır. Şirvanın eyni anda iki güclü ordunun – Əmir Teymurla, Qızıl Orda hökmdarı Toxtamış xan (1380-1396) arasında, yəni iki od arasında qalması və Şirvanşahın uzaqgörənliyi, müdrik siyasəti nəticəsində Şirvanı hər iki işğalçı ordunun soyğunçuluğundan, talanından xilas etməsindən bəhs olunan əsərdə Şeyx İbrahimin ağıllı siyasət yeritməsi Əmir Teymurun dilindən çox gözəl əks olunub. Belə ki, vəzirin "Yoxsa Şeyx İbrahim bir ağılsız hərəkətə yol verib?" sualına hökmdar təəssüflə belə cavab verir: "Kaş ki, ağılsız hərəkətlərə yol verəydi, bu bizim xeyrimizə olardı. Bəla burasındadır ki, o heç vaxt ağılsız hərəkətə yol vermir, düşünülməmiş bir iş tutmur. Yüz ölçüb bir biçir. Bu isə bildiyimiz kimi, bizim xeyrimizə deyildir".[1]

Teymurun yürüşü ərəfəsində Şirvanın ictimai-siyasi şəraiti həm də hürufiliklə bağlı olduğundan, əsərdə hürufiliyin banisi Fəzlullah Nəiminin və böyük şair İmadəddin Nəsiminin bədii obrazları da yaradılıb. Onların apardıqları mübarizə, Nəiminin ölümü, Şirvanşah İbrahim – hürufilər, Şirvanşah İbrahim – Əmir Teymur, Şirvanşah İbrahim – Miranşah arasındakı münasibətlər müəllif tərəfindən özünəməxsus şəkildə əks olunmuş, eləcə də Nəsiminin yaradıcılığına müraciət edilmişdir.

Əsərdə diqqəti cəlb edən cəhətlərdən biri də Əmir Teymurun xahişi ilə Şirvanşah İbrahimin dilindən söylənən Tomris – Keyxosrov hekayəsidir ki, bu hekayəyə alimin növbəti – 1989-cu ildə işıq üzü görmüş "Sənin ulu baban" əsərində də rast gəlinir. Burada "... qismən bədii, qismən publisist, qismən də tarixi tədqiqat əsərləri səpkisində Azərbaycanın ən qədim çağlarından başlamış xalqımızın təşəkkülünə qədərki tarixininin bir çox vacib məsələləri öz əksini tapmışdır".[2] Azərbaycanda aşkar edilən ən qədim insan məskənləri – Füzuli şəhəri yaxınlığındakı Quruçay vadisində yerləşən Azıx mağarası, Qazax rayonunun Damcılı, Daş Salahlı, Tağlar mağaraları, Qobustan qayaları, Naxçıvandakı Gəmiqaya və s. kimi qədim yaşayış məskənlərinin təsviri ilə başlayan kitabda müəllif müxtəlif tədqiqat əsərlərinə əsaslanmış, həm arxeoloji, həm tarixi məlumatları özünəməxsus şəkildə ümumiləşdirmiş, tarixin bütün dövrlərinə işıq salmağa çalışmışdır. Kitabı səhifələdikcə Paleoliti Neolitin, Neoliti Eneolitin və s. necə əvəzlədiyini, insanların məşğuliyyətinin, əmək alətlərinin necə dəyişdiyini, təkmilləşdiyini əvvəlcə tarixi məlumatdan öyrənən oxucu daha sonra həmin dövrə aid bədii hekayə ilə tanış olur və nəticədə, belə bir üslub sayəsində təsvir olunan dövrün ən

[1] Mahmud İsmayılov. İki od arasında. Roman. – Bakı: Gənclik, 1993, s.53
[2] Mahmud İsmayılov. Sənin ulu baban. – Bakı: Azərnəşr, 1989, s.2

xarakterik cəhətlərini daha yaxşı mənimsəmiş olur. Əsərdə Təbriz, Dərbənd, Şabran, Biləsuvar, Muğan, Salyan, Goranboy, Qarabağ, Sabunçu və s. kimi toponimlərin etimologiyası da açıqlanmışdır.

Kitab zəngin mənbələr əsasında ərsəyə gəlmişdir. Bu barədə müəllif yazır: "... bu kitabda gətirilmiş mülahizələrin müəllifi mən özüm deyiləm. Bu mülahizələr, haqqında söhbət gedən məsələləri tədqiq etməyə illər, bəlkə də ömür sərf etmiş mütəxəssislərindir. Lakin mən həmin mülahizələri cəmləşdirmiş, ümumiləşdirmiş və qələmə almışam".[1] Qeyd edək ki, tarixi oçerklərdə Herodot, Strabon, Plini kimi antik tarixçilərin əsərlərinə müraciət etmiş, İ.M.Dyakonov, Q.F.Debes, Q.B.Stratanovski, V.V.Bartold və s. kimi tanınmış alimlərin tədqiqat əsərlərinə əsaslanmış Mahmud İsmayılov ancaq mənbələrə istinad etməklə kifayətlənməmiş, təsvir olunan dövrə aid öz şəxsi fikirlərini, mülahizələrini də ortaya qoymuşdur.

Mahmud İsmayılovun bədii yaradıcılığında Azərbaycan tarixində mühüm rol oynamış Oğuz dövlətləri – Qaraqoyunlu (1375-1468) və Ağqoyunlu (1378-1501) dövlətləri də öz əksini tapmışdır. XIV-XV əsrin əvvəllərində müstəqil dövlət yaratmaq uğrunda mübarizə aparan Qara Yusifin (1355-1420) fəaliyyətindən bəhs edən "Qara Yusif" romanı Van gölü ətrafında toplaşmış Qaraqoyunlu tayfa birləşməsinin başçısı Bayram Xocanın Cəlayirlərə itaətdən boyun qaçırması, müstəqilliyə can atması ilə başlayır. Qaraqoyunlu dövlətinin getdikcə güclənməsi, Qara Yusifin apardığı siyasət nəticəsində böyük imperiyaya çevrilməsi, Teymurilərə, Cəlayirlərə qarşı apardığı gərgin mübarizə, Teymurilərin 3-cü hökmdarı, Miranşahın oğlu Şahrux Mirzənin Təbrizi tutmaq üçün göstərdiyi mücadilə ardıcıl şəkildə təsvir olunmuşdur. Əsər Şahrux Mirzənin şəhəri tutsa da, orada möhkəmlənə bilməməsi, məcburən Təbrizi tərk etməsi, Qara Yusifin oğlu Qara İskəndərin təntənəli şəkildə Təbrizə daxil olması ilə yekunlaşmışdır.

Qaraqoyunluların sonu, Ağqoyunluların hakimiyyətə gəlişi tarixdə böyük iz buraxmış bir şəxsiyyət – Ağqoyunlular dövlətinin banisi Uzun Həsənə (1453-1478) həsr olunmuş "Uzun Həsən" romanında təsvir olunmuşdur. Digər romanlar ayrıca kitab halında nəşr olunsa da, bu əsər 1990-1991-ci illərdə "Karvan" jurnalında nəşr edilmişdir.[2] Buna görə də romanın mövcudluğundan çoxları xəbərsizdir.

Romanda 1467-ci ildə Uzun Həsənlə Qaraqoyunlu Cahan şah arasındakı Muş döyüşü, 1473-cü ildə Uzun Həsənlə Osmanlı Sultanı II Mehmet arasındakı Otluqbeli döyüşü ətraflı şəkildə öz əksini tapmışdır. Müəllif eyni dinə ibadət edən, eyni dildə danışan dövlətlərin tarix boyu bir-birlərilə mübarizə aparmasına da münasibət bildirmiş və bunu Uzun Həsənin dilindən

[1] Mahmud İsmayılov. Sənin ulu baban. – Bakı: Azərnəşr, 1989, s.300
[2] Mahmud İsmayılov. Uzun Həsən // "Karvan", 1990, №8, s.2-65; 1991, №9, s.10-64

söyləmişdir: "... axı, niyə xaçpərəst, din ayrı, dil ayrı məmləkətlərlə dil tapırıq, dini də, dili də bizimkindən olan məmləkətlərlə dil tapmırıq... Mən Əbu Səidlə vuruşuram, sultan Mehmet mənimlə vuruşur, nə bilim, o qədər sadalamaq olar ki. Xaçpərəst məmləkətlər də bundan istifadə eləyir, bizi bir-birimizin üstünə salırlar".[1]

Əsərdəki hadisələr daha çox Təbrizdə – Sürxab, Dəvəli, Leyləva kimi məhəllələrdə cərəyan edir. Burada Uzun Həsənin apardığı daxili və xarici siyasətlə yanaşı, təbrizlilərin vətən sevgisinin, Uzun Həsən – Dəspinə xatun, Fatimə – Fərhad arasındakı saf duyğuların da şahidi oluruq. Müəllif Uzun Həsənin anası – ilk türk diplomat qadını Sara xatunun, Uzun Həsənin sevimli xatunu – Trabzon imperatoru IV İohanın qızı Teodoranın (sonradan adı dəyişərək Dəspinə xatun olmuşdur) da obrazlarını tarixə uyğun şəkildə yaratmışdır. Ağqoyunlu dövlətinin tarixində mühüm rol oynamış hər iki qadının fəaliyyətindən, onların hökmdara verdikləri dəyərli məsləhətlərdən bəhs olunsa da, Sara xatun obrazı sanki daha sönük təsvir olunmuş, onun diplomatik qabiliyyəti öz həqiqi dəyərini almamışdır. Əsərdə Osmanlı və Ağqoyunlu dövlətləri arasındakı yazışmalarda iştirak edən italyan diplomatları Katerino Zeno, İosofat Barbaro, admiral Pyetro Moçeniqo, Şərqin müxtəlif ölkələrinə, o cümlədən Azərbaycana səyahət edən rus taciri və səyyahı Afanasi Nikitinin də obrazlarını yaratmışdır.

Görkəmli alim, istedadlı yazıçı və müqtədir pedaqoq kimi yaddaşlarda yaşayan Mahmud İsmayılov tarixi şəxsiyyətlərimizin monumental obrazlarını əks etdirmiş, xalqımızın keçmişinə işıq salmış bədii əsərləri Azərbaycan ədəbiyyatında tarixi roman janrının inkişafında, mövzu cəhətdən zənginləşməsində mühüm rol oynamışdır.

[1] Mahmud İsmayılov. Uzun Həsən. "Karvan", 1991, №9, s.60

XALİDƏ HASİLOVA
(1920-1996)

XX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən olan Xalidə Hasilova istedadlı yazıçı, dramaturq və ictimai xadim kimi tanınmışdır. O, uzun illər müxtəlif nəşriyyatlarda və mətbuat orqanlarında rəhbər vəzifələrdə çalışmış, qadınların həyatından bəhs edən əsərləri ilə cəmiyyətdə nüfuz qazanmışdır.

Həyatı. Xalidə Məmməd qızı Hasilova 19 aprel 1920-ci ildə Azərbaycan Respublikasının Zaqatala rayonunda anadan olmuşdur. Orta məktəbi əla qiymətlərlə bitirən gənc qız Zaqatala Pedaqoji Texnikumunda təhsil almış, bir müddət Qımır kəndində ibtidai sinif müəllimi işləmişdir. Təhsilini davam etdirmək arzusu Xalidə Hasilovanı Sankt-Peterburq (keçmiş Leninqrad) Pedaqoji Universitetinin Filologiya fakültəsinə daxil olmağa sövq etmişdir. 1939-1941-ci illərdə Sankt-Peterburqda təhsilini davam etdirən Xalidə Hasilova İkinci Dünya müharibəsinin başlandığına görə Bakıya qayıtmışdır. O, təhsilini Bakı Dövlət Universitetinin (Azərbaycan Dövlət Universiteti) Filologiya fakültəsində davam etdirmişdir. Ali təhsilini başa vurandan sonra 1943-1944-cü illərdə Zaqatala şəhər orta məktəbində müəllim, 1944-1945-ci illərdə Moskvada xarici dillər kursunda türk şöbəsinin dinləyicisi, 1948-1952-ci illərdə "Uşaqgəncnəşr"də redaktor, 1966-1972-ci illərdə "Göyərçin" jurnalında baş redaktor, 1972-ci ildən "Azərbaycan qadını" jurnalının baş redaktoru vəzifəsində çalışmışdır.

Xalidə Hasilova 1938-ci ildə "Şərq qadını" jurnalında "Kəndimizin mədəni həyatda yüksəlməsinə çalışacağam" adlı məqalə ilə publisistik fəaliyyətə başlamışdır. Sonralar yazıçının məktəb yaşlı uşaqların həyatından bəhs edən "Kiçik hekayələr" (1950), "Lalənin kitabı" (1955), "Atlaz yarpaqlar" (1965) və s. kitabları nəşr olunmuşdur. Bu kitablarda toplanan hekayələrdə balaca məktəblilərin həyatı, arzuları, gündəlik həyatda qarşılaşdıqları müxtəlif hadisələr öz bədii əksini tapmışdır. Onun "İlk məktub" (1951), "İki yoldaş" (1956), "Onun taleyi" (1969), "Nəğməli könül" (1976), "Məhəbbət olmayanda" (1983), "Çətin yollar boyunca" (1986), "Xoruzlu dəsmal" (1994) kitablarındakı hekayə və povestlərində, "Həsrət", "Hamı doğmadır mənə" və s. pyeslərində müasir insanın mənəvi aləmi, qayğı və düşüncələri əks olunmuşdur. Yazıçının bir sıra əsərləri xarici dillərə tərcümə olunmuşdur.

Xalidə Hasilovanın "Bir sahilin adamları" pyesi mükafata layiq görülmüşdür.

Tərcüməçilik fəaliyyəti ilə də məşğul olan Xalidə Hasilova bir sıra xarici yazıçıların əsərlərini ana dilimizə tərcümə etmişdir. Bunların arasında N.Nosovun "Şən ailə", N.Tixonovun "İgid partizan", İlda Pereranın "Zənci

balası Atolo", Ə.Nesinin "İndiki uşaqlar möcüzədir", Melih Bayramın "Günəş gözlü Mustafa Kamal" və s. tərcümə ədəbiyyatının qiymətli nümunələrindəndir.

Xalidə Hasilova uşaq ədəbiyyatının müxtəlif problemlərinə həsr edilmiş məqalələr də qələmə almışdır. Onun "Uşaq ədəbiyyatında ədəbi tənqid haqqında", "Gözəl duyğular", "Uşaqlara yüksək keyfiyyətli əsərlər verək", "Ədəbiyyat və tərbiyə" və s. kimi ədəbi-publisistik məqalələrində azyaşlıların mənəvi-zehni inkişafı ilə bağlı mühüm məsələlərə toxunulmuşdur.

1972-ci ildən ömrünün sonuna qədər "Azərbaycan qadını" jurnalının baş redaktoru işləyən Xalidə Hasilovanın zəngin fəaliyyətinin böyük bir hissəsi Azərbaycan qadınının həyatı, qayğı və problemləri ilə bağlı olmuşdur. O, Azərbaycan Qadınlar Şurası Rəyasət heyətinin üzvü kimi, ictimai fəaliyyətində qadın hüquqlarının müdafiəsi uğrunda mübarizə aparmışdır. Bir sıra nümayəndə heyətlərinin tərkibində Macarıstan, Almaniya, İsveçrə, İran, Yaponiya və s. xarici ölkələrdə səfərlərdə iştirak etmişdir.

Xalidə Hasilova 1996-cı ilin 5 dekabrında Bakı şəhərində əbədiyyətə qovuşmuşdur.

Yaradıcılığı. Xalidə Hasilovanın keçdiyi həyat yolu heç də asan olmamışdır. Onun bütün uğurları ağır zəhmətin, uzun axtarışların və yuxusuz gecələrin hesabına başa gəlmişdir. Müxtəlif çətinliklərə sinə gərən yazıçının qələmə aldığı qəhrəmanları da özü kimi ağır həyat yaşamış adamlar idi. Bu qəhrəmanlar onun keçdiyi həyat yollarında rast gəldiyi, ünsiyyət saxladığı, qayğısına, kədərinə şərik olduğu, yaxından tanıdığı insanlar olmuşdur. Yazıçı həyat yollarında bələd olduğu bu insanları öz hekayələrinə, povestlərinə, dram əsərlərinə gətirərkən, bədii tipikləşdirməyə nail olmuş, müasir ictimai problemləri önə çəkən sənət əsərləri yarada bilmişdir.

Yazıçının müxtəlif illərdə nəşr etdirdiyi "İlk məktub", "Ləpələr", "Dəniz çıraqları", "Atlaz yarpaqlar", "Zəhra", "Unutmaram", "Xatirə", "Məhəbbət olanda", "Çilçıraq", "Xatirənin sorağı ilə", "Ləpəli sahilin xatirələri", "Onun taleyi" və s. kitabları həyat materiallarının zənginliyi və yüksək ideya-bədii xüsusiyyətlərinə görə geniş oxucu rəğbəti qazanmış, ədəbiyyatşünaslar tərəfindən yüksək qiymətləndirilmişdir.

Yazıçı xatirələrində yazırdı ki, o hələ uşaqlıqdan yaradıcılığa meyil göstərmişdir. Hətta əvvəllər şeirlər də yazmışdır. Nədənsə, sonralar bu fikrindən daşınaraq, nəsrlə məşğul olmağa üstünlük vermişdir.

Yazıçının 1994-cü ildə çapdan çıxmış "Xoruzlu dəsmal" kitabında müharibə mövzusunda yazdığı səkkiz hekayəsi toplanmışdır. Müəllif hər bir hekayədə müharibənin törətdiyi dəhşətləri, acı həqiqətləri, faciələri təsvir edərək oxucunu dərindən düşündürür, hiyləgər, nankor qonşularla münasibətdə ayıq-sayıq, diqqətli olmağa çağırırdı. Xalqımızın müstəqillik, azadlıq uğrunda mübarizəsində qanlı səhifə olan 20 Yanvar faciəsinə həsr edilmiş

“Yollara yağan qanlı qərənfillər” hekayəsində rus ordusunun Bakıda törətdiyi qanlı qırğınları çox təsirli lövhələrlə qələmə almışdır. Taleyin hökmü ilə qürbətdə yaşamağa məcbur olan Nadir kişi vətənini bir gün də olsun unutmamışdır. O, geri qayıtmaq, canından çox sevdiyi nəvəsi ilə görüşmək arzusu ilə yaşayır. Nəhayət, o, vətənə dönmək, onun havası ilə nəfəs almaq arzusuna çatır. Lakin Nadir kişi küçələrə səpələnmiş al qərənfilləri görəndə sarsılır, yanaqlarından axan göz yaşlarını saxlaya bilmir. Nəvəsi ilə Şəhidlər Xiyabanındakı görüşündə isə yenə də sarsılır, keçirdiyi iztirablar bir anda belini bükür, qəddini əyir. Qoca xeyli susur, birdən başını yuxarı qaldırıb inildəyir: “Kaşki gəlməyəydim...”. Yazıçı qocanın həyəcanlarını böyük sənətkarlıqla qələmə almışdır.

Xalidə Hasilovanın hekayələrində yalnız müharibənin faciəli səhnələri deyil, onun adi insanların həyatında yaşatdığı ağrılar, sarsıntılar da yer almış, xalqın nəcib, insani keyfiyyətləri də qabarıq şəkildə öz əksini tapmışdır.

“Yazıçı əsasən o həyat faktlarını qələmə alır ki, orada qeyri-adilik, gözlənilməzlik və ibrətamizlik daha çoxdur”.[1]

“Xoruzlu dəsmal” hekayəsində yazıçı cəbhə həyatından bəhs edən ayrı-ayrı epizodları qələmə almışdır. Əsərdə uzun illər azərbaycanlılarla qapıbir qonşu kimi yaşamış ermənilərin xəyanətləri, xəbis niyyətləri səciyyəvi faktlarla təsvir edilmişdir.

“Kaş sən olmayaydın” hekayəsində Azərbaycan qadınlarının mənəvi keyfiyyətlərindən bəhs olunur. Hekayənin qəhrəmanı Şahnaz xala qapısına atılmış körpə oğlan uşağını götürüb böyüdür, ona böyük qayğı göstərir, əzizləyir. Böyüyüb ərsəyə çatmış oğlan isə yuxusuz gecələr keçirmiş, əzab-əziyyət çəkmiş anaya övladlıq borcunu qaytarmaq əvəzinə, ona nankorluq edir, var-dövlətini ələ keçirmək barədə iyrənc yollar düşünür. Bu məsələ kəndə soxulan ermənilər tərəfindən huşu itənəcən döyülən Şahnaz ananın xəstəxanada oğlu ilə görüşü zamanı açıqlanır. Sən demə, qundaqda Şahnazın qapısına atılmış körpə erməni uşağı imiş. Erməni xisləti, bəd niyyəti yenə də özünü büruzə verir.

Bu kitabdakı hekayələrdə yazıçının qeyrətli Azərbaycan qızlarının döyüşlərdə iştirakından, qardaş və nişanlılarından geri qalmadıqlarından iftixar hissi ilə söz açılır, obrazların fədakarlığı, mübarizliyi qürur doğurur.

“Kəşfiyyat” hekayəsində tibb bacısı Leylanın çox çətin bir döyüş tapşırığını yerinə yetirməsindən söhbət açılır. Düşmən arxasına kəşfiyyata gedən Leyla kişilərin göstərə bilmədikləri cəsarəti göstərir, ölümün gözünə dik baxmaqdan çəkinmir.

[1] Əjdər Ağayev. Xalidə Hasilova. Salman Mümtaz adına Ədəbiyyat və İncəsənət arxivi, fond 253, siyahı 2, saxlanma vahidi 99-106

Xalidə Hasilova öz hekayələrində Qarabağ müharibəsinin xalqımıza yaşatdığı faciələri, ağrıları da ustalıqla əks etdirmişdir. Onun "İntiqam hissi güc gələndə", "Son nida", "Məhəbbətdən yoğrulan qısqanclıq", "Gözlənilməz zəng" hekayələrində bədnam ermənilərlə ölüm-dirim savaşına atılan vətən övladlarının şücaətindən, düşmənə sonsuz nifrətindən bəhs olunur. Döyüşlərdə əsl qəhrəmanlıq nümunələri göstərən nəcib təbiətli qadın qəhrəmanın fədakarlığı və əzmkarlığı oxucuda dərin rəğbət hissi oyadır. Xalidə Hasilovanın hekayələri gənclərimizin vətənpərvər ruhda tərbiyə olunması kimi vacib bir işdə də əvəzsiz töhfədir. Bu hekayələrlə tanış olan oxucuda belə bir qənaət, inam yaranır ki, haqq işimiz mütləq qalib gələcək, xalqımız müstəqillik yollarında inamla addımlayacaq, torpağının sahibi olacaqdır.

"Xalidə xanım nəsrimizin daim maraqlı olan hekayə janrına həmişə sadiqdir. Roman və povestlər yazmaq müntəzəm, gərgin əmək, vaxt tələb etsə də, o, hekayələr yazmağa da vaxt tapır".[1]

Yazıçı azyaşlılar üçün yazdığı əsərlərdə onların mənəvi dünyasının zənginləşməsinə, cəmiyyətdə layiqli vətəndaş olmalarına dair baxışlarının formalaşmasına diqqət yetirmişdir.

Məktəb həyatı, uşaq dünyası hələ gənc yaşlarından Xalidə xanımı uşaqlar üçün hekayələr yazmağa sövq etmişdir. O, "Uşaqgəncnəşr"də çalışmağa başlayanda uşaqların həyatından bəhs edən ilk hekayə və povestlərini yazmışdır. Yazıçının bir-birinin ardınca nəşr edilən "Kiçik hekayələr" (1950), "Lalənin kitabı" (1955), "İki yoldaş" (1956), "Ulduzlu papaq" (1960), "Atlaz yarpaqlar" (1965) və s. kitabları balaca oxucuların mənəvi-əxlaqi tərbiyəsində mühüm rol oynamışdır.

Yazıçının "Tısbağa və əqrəb" pyesi xüsusilə kiçikyaşlı məktəblilərin təxəyyülünün inkişafında, düşüncələrinin formalaşmasında təsiri olan bir əsərdir. Əsərdə o, azyaşlılarda dostluq, dürüstlük, vətənə və doğma təbiətə sevgi təlqin etmək ideyasını önə çəkmişdir.

Hər bir sənətkarın yaradıcılığının zirvəsi sayılan bir əsəri olur. Xalidə Hasilovanın "Çəhrayı rəng" povesti yazıçının incə müşahidə qabiliyyəti və insan psixologiyasını sənətkarlıqla əks etdirmək baxımından xüsusilə seçilir. Bu əsərdə qürbətdəki qəriblərimizin vətən həsrəti, oğul gözləməkdən gözlərinin nurunu itirmiş ananın nisgili, jurnalist qızın vətəndaşlıq borcu, fədakarlığı çox təbii və təsirli şəkildə qələmə alınmışdır. Povest nəşr olunandan sonra ədəbi ictimaiyyət tərəfindən maraqla qarşılanmışdır. Təsadüfi deyil ki, respublikanın bir çox dövlət və xalq teatrları bu əsəri səhnələşdirmiş və xeyli müddət repertuarlarda saxlamışlar.

[1] Hikmət Ziya. Xalidə Hasilova. Salman Mümtaz adına Ədəbiyyat və İncəsənət arxivi, fond 253, siyahı 1, saxlanma vahidi 16-22

Yazıçının “Nəğməli könül” povestinin də taleyi belə uğurlu olmuşdur. “Nəğməli könül” povestində gənc müğənni Könülün mənalı ömür tarixçəsi təsvir olunur. Əsərdəki hadisələr İkinci Dünya müharibəsindən əvvəlki və sonrakı illərə təsadüf edir. Povestdə gənc bir kəndçi qızının təsadüfən məşhur bir bəstəkarın diqqətini cəlb etməsi və onun köməyi ilə tanınmış bir müğənniyə çevrilməsi təsvir olunur. Əsərdə Könülün müharibədən sonrakı dinc quruculuq dövründəki fəaliyyəti də əks olunmuşdur. Povestdə bu ştrixlər bəstəkarın gənc nəslə qayğısı, onların düzgün inkişafına dəstəyi, xüsusi bir örnək kimi öz əksini tapmışdır. Adıçəkilən kitaba müəllifin dörd hekayəsi də daxil edilmişdir.

X.Hasilovanın “Çətin yollar boyunca” povestində isə gənc bir həkim qızın xatirə dəftərində onun keçdiyi acınacaqlı həyat hekayəsindən söhbət açılır. Onun həyatın yaşatdığı ağrı-acılara mətanətlə sinə gərib öz həyatını qurmasından danışılır.

Yazıçının “Niyə mənim babam yoxdur?” adlı hekayəsində hadisələr kiçik yaşlı Altayın anası tərəfindən nəql olunur. Anası Altaya bir şəkil verərək deyir: “Sənin baban bu idi”. Altay şəkli əlinə alıb diqqətlə baxır. Başında ulduzlu papaq olan ortayaşlı bir əsgər gülümsünərək Altaya baxırdı. Bu onun babası idi. Altayın qaşları çatılır, babasını əlindən almış müharibənin dünyanın ən pis hadisəsi olduğunu dərk edir və qəlbində müharibəyə qarşı nifrət hissi oyanır.

Ədəbiyyata xidmət müəllifin kimliyi ilə deyil, ədəbi əsərinin uğuru ilə qiymətləndirilir. İyirminci əsr Azərbaycan nəsrinin və publisistikasının inkişafında Xalidə Hasilovanın danılmaz xidmətləri və yeri vardır. Çünki o, ədəbi yaradıcılıqla yanaşı, Azərbaycan milli mətbuatının inkişafında da öz bacarığını və əməyini əsirgəməmişdir. Onun redaktorluğu ilə çıxan jurnalları vərəqləyərkən Azərbaycan qadınının həyatının, mübarizəsinin, müdrikliyinin, fədakarlığının bu jurnalların səhifələrində dolğun və bitkin şəkildə işıqlandırıldığının şahidi oluruq.

Xalidə Hasilovanın yüzilliyi ərəfəsində qardaş Türkiyədə çap olunan Avrasiya Yazarlar Birliyinin mətbu orqanı olan “Kardeş Kalemler” dərgisinin 2019-cu il dekabr sayında ədibin həyatı və yaradıcılığı haqqında məlumat və yazıçının “Xoruzlu dəsmal” adlı hekayəsi çap olunaraq bütün türk dünyasına ərmağan olunmuşdur. Müasir ədəbiyyatımızın müharibə mövzusunda yazılmış ən yaxşı nümunələrindən olan bu hekayədə XX əsrin sonlarında bədnam qonşuların – ermənilərin əsassız torpaq iddiaları ilə başladıqları Qarabağ hadisələrindən bəhs edilmişdir.

Xalidə Hasilova dramaturgiya sahəsində də qələmini sınamışdır. Onun “Həsrət”, “Həyat özü bir nəğmədir”, “Bir sahilin adamları”, “Hamı doğmadır mənə” və s. pyesləri müxtəlif teatr səhnələrində tamaşaya qoyulmuş, tamaşaçılar tərəfindən rəğbətlə qarşılanmışdır. “Xalidə Hasilovanın nəsr əsərlərinə xas olan konkretlik, fikrini mümkün qədər az sözlə ifadə etmək bacarığı onun

nə vaxtsa dramaturgiyaya müraciət edəcəyini əvvəlcədən müəyyənləşdirmişdir. Respublika teatrlarında müvəffəqiyyətlə tamaşaya qoyulmuş pyesləri bu fikri bir daha təsdiq etmişdir".[1] Yazıçının pyeslərində müasir insanın həyat yolu, mənəvi dünyası, qarşılaşdığı çətinliklər önə çəkilmişdir. Qəhrəmanlar ən çətin vəziyyətlərdə ruhdan düşmür, ümidlərini itirmirlər. Onlar dərəli-təpəli ömür yolunda yalnız iradəli, mübariz olduqları üçün qalib gəlirlər.

O, yaradıcılığa başladığı gündən öz istedadı sayəsində sevilən yazıçı, jurnalist və fəal ictimai xadim dərəcəsinə yüksəlmişdir. Onun əsərlərində müasir xalq həyatının canlı lövhələri, sadə əmək adamlarının əməyi, mənəvi əxlaqi sifətləri, arzu və düşüncələri ilə yanaşı, mövcud cəmiyyətdə baş verən mühüm hadisələr öz parlaq təcəssümünü tapmışdır. Əsərləri milyonlarla oxucuların ürəyinə yol tapmış, onların ideya-əxlaqi cəhətdən daha da zənginləşməsinə kömək etmiş, sevinc mənbəyinə çevrilmişdir.

Xalidə Hasilovanın maraq dairəsi geniş, çoxsahəli və zəngindir. Yazıçının bir neçə sahədə çalışmağı, əzmkarlığı, əməksevərliyi ictimaiyyət arasında nüfuzlu bir insan obrazını canlandırmışdır. Kənd mühitindəki çətinliklər, baş verən hadisələr həssas yazıçının yaradıcılığına təsirsiz qalmır, onu yeni mövzular, real bədii tiplərlə zənginləşdirir.

Yazıçı və ictimai xadim kimi fəaliyyətini bədii yaradıcılıqla əlaqələndirməsi onda müasirliyə, siyasi aktuallığa xas olan həssaslığı daha da gücləndirmişdir. O, uzun illər redaktoru olduğu "Azərbaycan qadını" jurnalında irihəcmli publisist məqalələrlə çıxış etmişdir. Xalqın mübarizə əzmini, azadlıq ideyasının ölməzliyini həyəcanlı real lövhələrlə, gənc qəhrəmanların canlı surətlərini təsirli verməklə, əməkçi insanların gələcəyə nikbin baxışını, inamını, istək-arzularını qeyd etmişdir. Onun yaradıcılığında müasirlik duyğuları, ideya-mövzu və sənətkarlıq axtarışları qabarıq nəzərə çarpır. Yazıçının əsərlərində təsvir olunan hadisələr və iştirakçı obrazlar yüksək bədii təsir qüvvəsinə malikdir, bu əsərlər oxucuya nəcib hisslər və fikirlər aşılayır. Yazıçının yaradıcılığı və ictimai-xadim kimi nailiyyətlərini onun bir sənətkar kimi xalq həyatına möhkəm tellərlə bağlı olmasında, müasir və aktual mövzuları yüksək ideya-bədii səviyyədə qələmə almasında görmək olar. O, həyat materiallarını hərtərəfli, dərindən öyrənmədən mövzunu işləmir.

X.Hasilova xatirə dəftərində yazırdı: "Mən qələmi əlimə alıb masamın arxasında o zaman rahat işləyə bilərəm ki, təsvir edəcəyim qəhrəmanlar, onların şəraiti açıq-aşkar gəlib gözümün önündə canlanır, onları nə zamansa, haradasa görmüşəm və xəyali təsəvvürlərə əsaslanmayacağıma arxayınam..."[2]

[1] Svetlana Nəcəfova. Xalidə Hasilova. Salman Mümtaz adına Ədəbiyyat və İncəsənət arxivi, fond 253, siyahı 2, saxlanma vahidi 99-106

[2] Flora Xəlilzadə. Xalidə Hasilova. Salman Mümtaz adına Ədəbiyyat və İncəsənət arxivi, fond 253, siyahı 2, saxlanma vahidi 99-106

Xalidə Hasilovanın həm jurnalistikaya, həm də ədəbiyyata verdiyi töhfələr dövlət tərəfindən yüksək qiymətləndirilmişdir. Ümummilli lider Heydər Əliyev tanınmış ictimai xadim Xalidə Hasilovanın fəaliyyətini yüksək qiymətləndirərək, onu Azərbaycan qadın yazıçılarının ən fəallarından biri kimi 1980-ci ildə 60 illik yubileyi ərəfəsində "Qırmızı Əmək Bayrağı" ordeninə layiq görmüşdür.

Xalidə Hasilova təsdiq etmişdir ki, şəxsi bacarığa, təcrübə və istedada sahib olmaqla yanaşı, həm də cəmiyyəti yaxından tanımadan keyfiyyətli əsərlər yazmaq olmaz. Müasirlik duyğusu, insanlara qarşı həssaslığı, zamanın nəbzini tutmağı, dövrün əhəmiyyətli hadisələrini düzgün təhlil edib dəyərləndirmək yazıçı üçün mühüm şərtdir. O, bədii yaradıcılığında əsaslandığı prinsipləri, yazıçı-alim kimi öz tədqiqatlarında müdafiə etmiş, böyük ədəbiyyatın inkişafı uğrunda mübarizə aparmışdır. Müasir ədəbiyyatın aktual problemlərinə vətəndaş-yazıçı mövqeyini aydın təcəssüm etdirmişdir. Yazıçının müasir dünya hadisələrinə həssas münasibətini, doğma xalqın mübarizə və qayğılarına sıx tellərlə bağlı olduğunu göstərmişdir. Həyatda baş verən hadisələri qələmə almaqla oxucularına çatdırmış, əsərləri ilə insanlarda yüksək əhval-ruhiyyə aşılamışdır.

Yaradıcılığı və ictimai fəaliyyəti, sülh, demokratiya, dostluq ideyalarını təbliğ etməsi, xalqlar arasında əməkdaşlıq tellərinin möhkəmlənməsinə çalışması Xalidə Hasilovanı görkəmli ictimai xadim kimi də səciyyələndirmişdir.

ƏLƏVİYYƏ BABAYEVA
(1921-2014)

Azərbaycan ədəbiyyatının ən tanınmış qadın yazıçılarından biri də nasir, publisist, ssenarist, tərcüməçi Ələviyyə Babayevadır. Onun yaradıcılığının məğzini, mahiyyətini insan probleminin araşdırılması təşkil edir və fəaliyyət yönümünü "insanşünaslıq" termini ilə dəyərləndirsək, yəqin ki, mübaliğəyə yol vermiş olmarıq.

Həyatı. Ələviyyə Hənifə qızı Babayeva 1921-ci il avqustun 12-də Bakı şəhərində anadan olmuşdur. Üç yaşında atasını faciəli şəkildə itirən Ələviyyə atalığı Hənifənin himayəsində böyümüşdür. Ə.Babayeva ziyalı ailəyə mənsub olmuş, yaxın qohumları Azərbaycanın tanınmış elm və sənət adamlarından sayılmışdılar. Onlardan Bakının baş memarı Hənifə Ələsgərovun, SSRİ Xalq artistləri Ələsgər Ələkbərov və Hökümə Qurbanovanın adlarını çəkmək olar... Orta məktəbi bitirdikdən sonra Tibb İnstitutuna qəbul olunur, lakin üçüncü kursdan institutu tərk edir, ədəbiyyata olan sevgisi onu ADU-nun Filologiya fakültəsinə gətirir. Beləliklə, 1936-cı ildən gənc Ələviyyənin böyük ədəbiyyatla "romanı" başlayır. İlk qələm təcrübələri şeir olsa da, mətbuatda debütü "Ədəbiyyat qəzeti"ndə dərc olunmuş "İki həyat" hekayəsi ilə başlamışdır. Ədəbi aləmdə ilk addımı uğurlu olmuş, oxucuların rəğbətini qazanaraq sonralar yazılacaq 64 kitaba cığır açmışdır.

Çingiz Fərəcov yazır: "Ələviyyə Babayevanın romanları milli səviyyəmizdir desəm, yanılmaram. Bu əsərlərdə Şərq mədəniyyəti ilə Qərb mədəniyyətinin sintezi açıq-aydın hiss olunur".[1] "Müasirliyin ahənginə düşən" yazıçı öz yaradıcılığında Şərqlə Qərbi birləşdirən qələm adamı kimi ədəbiyyatımızda "əzəmətlə dayanır". Ə.Babayeva yüksək erudisiyalı, dərin mütaliəli, Qərb ədəbiyyatını gözəl bilən, daim öz üzərində işləyən yazıçı idi. O, əsərləri dünya dillərinə ən çox tərcümə olunan qadın yazıçımızdır. Bu baxımdan, rəmzi olaraq "Azərbaycan ədəbiyyatının xaricdə səfiri" adını qazanmışdı. Ələviyyə Babayevanı intellektinə, rus dilini mükəmməl bildiyinə görə həmişə SSRİ-də daxili görüşlərdə, tədbirlərdə önə çəkirdilər. O da iştirak etdiyi hər yerdə öz mükəmməl çıxışları ilə Azərbaycan ədəbiyyatının üzünü ağardırdı. Həm belə uzun ömür yaşamasına, həm də payına düşən yaradıcılıq istedadına görə Ə.Babayevanı Tanrının seçilmişlərindən hesab etmək olar. Sənət də verib, sənətkar ömrü də.

"Xalq yazıçısı Süleyman Rəhimov Ə.Babayevanın evini "ziyalılar evi" adlandırırdı".[2] Zatən "ədəbiyyat insanın, cəmiyyətin hisslərini, arzu və istəklərini obrazlı şəkildə əks etdirən söz sənəti" olsa da, Ə.Babayevada

[1] Çingiz Fərəcov. Bəlkə sabah olmadı... "Azərbaycan" jurnalı, 23 sentyabr 2015, s.6
[2] Çingiz Fərəcov. "Azərbaycan" jurnalı, 23 sentyabr 2015, s.6

insani münasibətlər, insan qəlbinin dərinliyi özünü daha qabarıq büruzə verirdi.

Ələviyyə Babayeva 1951-1973-cü illər arası "Azərbaycan qadını" jurnalının məsul katibi işləmiş, 1973-1985-ci illərdə isə "Gənclik" nəşriyyatında çalışmış, baş redaktor vəzifəsinə qədər yüksəlmişdir.

Ələviyyə xanım Azərbaycan Yazıçılar Birliyinin ən stajlı üzvlərindən olmuş (62 il), Birliyin qəbul komissiyasının üzvü, Tərcümə şöbəsinin rəhbəri vəzifələrini icra etmişdir. 94 illik ömrünün 75 ilini ədəbiyyata, sənətə həsr edən Ələviyyə xanım çoxsaylı maraqlı əsərlərin müəllifi kimi bədii düşüncə tariximizdə silinməz iz salmışdır. O, Respublikanın Əməkdar Mədəniyyət İşçisi fəxri adına və Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünə layiq görülmüşdür.

Ələviyyə Babayeva 23 sentyabr 2014-cü ildə Bakı şəhərində dünyasını dəyişmiş, Yasamal qəbiristanlığında dəfn olunmuşdur.

Yaradıcılığı. Ələviyyə Babayevanın "Mənim müəlliməm" adlı ilk kitabı 1950-ci ildə "Uşaqgəncnəşr" tərəfindən çap edilmiş, sonra bir-birinin ardınca "Hekayələr" (1951), "Tək ağac" (1957), "Payızda" (1960), "Mən tək deyiləm" (1961), "Süsən-sünbül" (1968), "Hardasan dost, harda" (1977), "Anadil ağlayırdı" (1987), "Açar" (1991), "Darıxıram, a dağlar" (1994), "Son döngə" (2000) və s. onlarla kitabları işıq üzü görmüşdür.

Ələviyyə Babayeva 1964-cü ildə "Kölgə" povestini yazır. Daha sonra povest Bolqarıstanda çap olunur. Əsərlə elə Bolqarıstanda tanış olan türk yazıçısı Kamal Tahir "Kölgə"ni yüksək qiymətləndirərək, "Ələviyyə xanımın yazar əlini hörmətlə sıxıram...", – deyə yazarlıq bacarığını alqışladığını qeyd edir.

"Adamlar və talelər" (1970) əhatəli romanı Ə.Babayevanın ən məşhur əsərlərindən olub təkrar-təkrar nəşr edilmiş, dünyanın bir çox xalqlarının dillərinə çevrilmişdir. Ədəbi tənqid dərhal əsər haqqında maraqlı və fərqli resenziyalarla çıxış edir. Əsər mövzu, ideya, problem, bədii istiqaməti ilə oxucuların diqqətini cəlb edərək yazıçıya böyük şöhrət qazandırmışdır. Yazıçı şahidi olduğu hadisələri, müxtəlif taleləri, şəxsən tanıdığı adamların, ümumiyyətlə, Azərbaycan insanının daxili-psixoloji aləmini, məişətini qələmə aldığı üçün əsər belə uğurlu alınmışdır. Əlbəttə ki, yazı estetikası, sənətkarlıq xüsusiyyətləri də öz yerində. Roman haqqında fikir bildirən ədəbiyyatşünasların qənaəti yekdil idi: "Ələviyyə Babayeva heç bir əsər yazmasaydı belə, "Adamlar və talelər"lə ədəbiyyat tariximizdə qalacaqdı". Əsər adından təxmin edildiyi kimi insan taleləri haqqındadır. 1937-ci ilin qaranlığında əriyib yox olan, qəlbinin qaranlığında azan, "baharda qışı görən", "bir anda uşaqlığını itirən uşaqlar, cavanlığını itirən gəlinlər", müxtəlif, çətin insan taleləri haqqında... Romanı həyəcansız oxumaq olmur. "Gecə saat dördün yarısında qapının zəngi basıldı. Plaşlı adam "pasportları

göstərin", – dedi. Süleyman qatı açılmamış pasportları stolun üstünə düzdü. – Evi axtarmalıyıq".[1] Sonra tanış "prosedurlar" başlayır... Şkafların qapıları açılır, hər şey döşəməyə tullanır. Elə bu arada Püstəxanımdan gizlədilən məktub – oğlunun qara kağızı üzə çıxır. Faciə faciəyə qarışır. Paralel olaraq kitabın səhifələrindən döyüş meydanındakıların yaşadıqları "səpələnir"... "42-də Kerçdə vuruşurduq. Krımda bahardı. Görməsən də, eşitmiş olarsan Krımın baharını. Düz-dünya çiçək... İki həftə ərzində bahardan əsər-əlamət qalmadı. Elə bil dünyanın şah damarını kəsmişdilər. Qan su yerinə axırdı. Ağ döşəkağıların içərisində kəsilmiş əllər, qollar, ayaqlar... Bu dəhşətdi".[2]

Mənzərənin anidən və necə ustalıqla dəyişdiyinə çaş-baş qalmamaq mümkün deyil. Gül dənizi nə idi, qan dənizi nə? Oxuduğunu çatdırıb həzm edə bilmirsən. Yazıçı bir neçə sətirdə təsir yaratmağı bacarır. Əsərin ideyası bundan ibarətdir ki, insan insan adına layiq olmalıdır. "Əgər sən insan adına layiq deyilsənsə, heç bir şeysən".[3] Xalidin "insanın ağrılarını, acılarını yüngülləşdirməkdən gözəl nə var!" nidası elə yazıçının öz sözləridir, ömrü boyu axtardığı insaniyyətdir. Həkimlər haqqında yazılmış ədəbiyyat zatən peşələrindən dolayı həmişə maraq doğurur. "Adamlar və talelər" də istisna deyil. Bunun üstünə də, yazıçının üç illik tibbi bilik və təcrübəsini gəlsək, mövzunun yaxın və doğmalığını əlavə etsək, romanın həm də hansı səbəbdən uğurlu olduğu ortaya çıxır. İki hissəli romanda hər şey var... Xəstəxana, xəstələr, rəssam, emalatxana, teatr, truppa, redaksiya, jurnalistlər, repressiya, müharibə və sonrası... Nahaqdan əhatəli roman demirlər... Əslində, "Adamlar və talelər" içindəki hadisələrə, təsvir edilən dövrlərə görə başqa bir janra da iddialı ola bilər. Kərkükdən olan bir oxucu qız Ələviyyə xanıma yazmışdı: "Adamlar və talelər" kitabının oxucusu o qədər çoxdur ki, məcburiyyət qarşısında qalıb onu ikiyə bölmüşük. Bu kitabı bütün türkmənlər məhəlləsi oxuyur".[4]

"Adamlar və talelər"də həyat heç nəyə baxmayaraq, heyrətamiz və son dərəcə gözəldir. Amma bir şərtlə ki, heyrətamiz və gözəl baxa biləsən...

İki hissəli "Səni axtarıram" (1985) romanı nasirin sanballı əsərlərindən olub, bu gün demək olar hər peşədən daha üzdə görünən jurnalistlərin fəaliyyətinə həsr edilmişdir. Tənqidçi Qulu Xəlilov əsəri "böyük vüsətli roman" adlandırmışdır.

Bir qələm adamı kimi dövri mətbuatla sıx və müntəzəm əlaqədə olan yazıçı, toxunduğu mövzunu yaxşı bilirdi, necə deyərlər, "evin içinə" dərindən bələdçiliyi vardı. Bütün bunlara müəllifin roman üzərində işlədiyi beş ilin

[1] Ələviyyə Babayeva. Seçilmiş əsərləri, I cild. – Bakı: Yazıçı, 1991, s.67
[2] Yenə orada, s.355
[3] Çingiz Fərəcov. "Azərbaycan" jurnalı, 2015, 23 sentyabr, s.6
[4] Çingiz Fərəcov. Bəlkə sabah olmadı... "Azərbaycan" jurnalı, 23 sentyabr 2015, s.6

“fəhləliyini” də əlavə etsək, əsərin müvəffəqiyyətinin, qazandığı uğurun səbəbi aydın olur. Ə.Babayeva deyirdi: “Mənim bir köməkçim var ki, bu da zəhmətdir”. “Xəzər gəncləri” qəzetinin əsas komandası redaksiyada “üçüncü nəsil” adlandırılan gənclərdən ibarət olsa da (Elxan, Ziya), romanda hər yaş kateqoriyasında qələm adamı görürük. Arif baba jurnalistlik sənəti barədə deyir: “Yazıçı başqa məsələ. Kitabın ömrü uzundur. Sənin yazdıqların isə kəpənək kimi bircə gün yaşayır”[1] sonra “şey-şüy bükmək üçün sarğı kağızına çevrilir” Gənc istedadlı jurnalist Elxan Biləndərli iş prosesi, yazı əsnasında düşünür... Əslində, təəssüflənir... “İyirmi gündür əlləşirəm. İki-üç saata yazılacaq məsələyə iyirmi gün, bəlkə bir az da çox vaxt sərf etmişəm. Oxuyan isə məqaləni on beş dəqiqəyə oxuyacaq, sonra da məlum məsələdir, cırıb atacaq...”[2] Amma qəhrəman özünə təskinlik də verir: “Başqa cür də ola bilər, biri oxuyub o birinə verər, “oxu, maraqlı yazıdır”[3] – deyə bilər”. Ümidində də haqlı idi. Ümidinə ümidsizlik yükləməməkdə də. O illər, internetin olmadığı zamanlar məhz belə edərdilər. Kitablar bir tərəfə, qəzetlər də əldən-ələ ötürülərdi, oxunmaqdan cırılar, tökülərdi. Amma yazıçı nə biləydi ki, illər qanadlı at kimi keçib gedəcək, gəlib çatacaq 2020-ci ilə. Hansı ki, bu gün dövri mətbuat, publisistika daha aktualdır, daha gündəmdədir, daha əlçatandır, daha çox oxunur və başqa dahalar... Ömrü də internetin ömrü və yaddaşı qədərdir.

Romanda bədiiyyat gözlənilmiş, ara-sıra yerli-yerində üzə çıxmaqla əsəri gözəlləşdirməyə xidmət etmişdir. “Ancaq hava xeyli soyumuşdu... Payız axşamı il yuxusuna dalmış, yatmış gözəl kimi solğun və soyuqdu. Xüsusən qırmızı günəş dağüstü parkdan o tərəfə gözəgörünməz üfüqün ardına keçəndən sonra yatmış gözəl daha da soldu, murada yetməmiş arzu, vüsal görməmiş sevgili kimi büzüşüb üzüldü”.[4]

Roman zamanında mətbəə, mətbuat işçiləri tərəfindən çox yaxşı qarşılanmışdı, bu gün də jurnalistlərin şərəfli işini əks etdirmək baxımından maraqla oxunur. Burada söhbət əsl peşəkarlardan – Ələviyyə Babayevanın təbiri ilə desək, “qızılaxtaranlar”dan gedir. Peşəkarlığı imitasiya edənlər, dəbli submədəniyyət daşıyıcıları uzaq tutulur. İnsanın gərək peşəsi ilə xarakteri uzlaşsın... Müəllifin qənaəti belədir.

Ə.Babayevanın əsərlərində Bakının adı çox keçir. Məsələn: “Mənim doğma şəhərimdə xəzri qopanda onun vıyıltısına, fəryadına qulaq asın. Bu fəryadda mənim səbr etməkdən bezmiş səsimi eşidəcəksiniz”.[5]

---

[1] Ələviyyə Babayeva. Seçilmiş əsərləri, II cild. – Bakı: Yazıçı, 1991, s.13
[2] Yenə orada. s.37
[3] Yenə orada.s.37
[4] Yenə orada, s.93
[5] Ələviyyə Babayeva. Bəklə sabah olmadı. “Şur”, 1996, s.3

Ə.Babayeva yaradıcılığında elə nəsnələr var ki, onlara qarşı heyrətamiz instinktə sahibdir. Məsələn, onun "özünün" Bakısı kimi. 1983-cü ildə yazdığı "Küləyin tərkində" romanında Bakı bağları bütün koloriti – "Hövsan, Zirə bağlarına sərnişin daşıyan "Türkan" gəmisi, "gilavar küləyin gah xəzriyə, gah giləvara çevrilməsi", Abşeronun qorabişirən günlərində vedrələrdə quyuya sallanan qovun-qarpız, "talvardan sallanan sarıgilə, ağadayı salxımları", "yaxın getsən, quyunun anası səni özünə çəkər" xəbərdarlığı, hətta ancaq Bakı dialektinə xas "dayday" xitabı, müraciəti ilə boy verir, görünür. İki Azərbaycan milyonçusu – Şəmsi Əsədullayev və Musa Nağıyevin nəvəsi, XX əsr Azərbaycan mühacirət ədəbiyyatının nümayəndəsi Ümmülbanu (Banin) "Küləyin tərkində" romanından təsirlənərək Fransadan Ə.Babayevaya uzun bir məktub yazmışdı: "Mən kiril əlifbasında çox çətinliklə də olsa, "Küləyin tərkində" romanını oxudum. Əsər məni keçmişə apardı. Bakını küçəbəküçə gəzdirdi. Bakını çoxdan unutmuşdum. Sizin əsərinizi oxuyandan sonra Bakının küləkləri yadıma düşdü, xəzri və gilavar mənə həm hərarət, həm də sərinlik gətirdi. O küləklər mənə Bakıda keçən gəncliyimi xatırlatdı. Sizin nə gözəl adınız var: Ələviyyə. Bu ad Sizdə hardandır? Bu əsəri fransız dilinə tərcümə etmək fikrindəyəm".[1] Feminist yazıçılar "qadın ədəbiyyatı"nı ayrı-seçkilik kimi qələmə versələr də, bu terminin mahiyyəti ilk baxışda göründüyü kimi deyil. Yəni, "medalın" digər üzündə diskriminasiya, müqayisə, yuxarıdan aşağı baxmaq, ikinci dərəcəli ədəbiyyat deyil, hiss, duyğuya bürünmüş dərin məna düşünülür. Məsələn, Ə.Babayeva qadın olmasaydı, sözügedən əsər Banini o qədər də həyəcanlandırmayacaqdı. Çünki qadının hiss və həyəcanını heç kim onun özü kimi ifadə edə bilməz. Marina Svetayeva yazırdı: "Məni qınama, Tanrım, axı sən heç vaxt qadın olmamısan"... Ümmülbanu da öz sahəsində kiçik adam deyildi. Fransız ədəbiyyatında Azərbaycan əsilli yazıçı kimi yer tutmuş, qələmi ilə ölkəmizi Fransada və dünyada tanıtmış, ermənilərin ərazi iddiaları başlayanda Fransa qəzetlərində məqalələrlə çıxış etmiş, tanınan sima idi. Avropa standartları ilə təhsil almış, sentimentallıqdan uzaq Banini təəccübləndirmək və təsirləndirmək asan məsələ deyildi. Bu konteksdən çıxış etsək, "Küləyin tərkində"nin ona Bakı peyzajının "bir parçası" olduğunu xatırlatması Ə.Babayevanın ustalığının, əsərin dərin sənətkarlığının göstəricisidir.

Romanı oxuyandan sonra ömrünün böyük hissəsini xaricdə keçirmiş, Sovet hakimiyyətinin qələbəsindən sonra qəlbi Azərbaycandan, Bakıdan soyuyan, həmvətənləri ilə görüşməyə o qədər də meyilli olmayan Ümmülbanunun qəfil püskürən qəribçilik xiffətinin səbəbi anlaşılır. "Avqustun axırıncı həftəsi hava birdən-birə sındı. Göyün üzünə buludlar boz pərdə çəkdi. Şaraqqaşuruq səslər eşidildi. İldırım çaxdı və sonra həyət-bacaya qəribə sükut

[1] Çingiz Fərəcov. Bəlkə sabah olmadı... "Azərbaycan" jurnalı, 23 sentyabr 2015, s.6

çökdü. Sükut yarpaqların pıçıltısını, quşların nəğməsini boğmuşdu. Bircə dənizin həyəcanlı uğultusunu batıra bilmirdi. Dəniz gözəgörünməz, nəhəng dodaqlarını uzadıb sükutu üfürürdü".[1] Bu mənzərəni bir dəfə görən, səsləri eşidən, duyğuları yaşayan və bütün bunları emosional yaddaşında daşıyan, çətin ki, bir də unudar, unuda bilər...

Ə.Babayevanın "öz" fəsilləri var. "Özünün" peyzajı... Təbiət hadisələri. Qışı, yazı, yayı, bir də payızı... Payızı lap çox var, bir başqa, həzin, sevgi dolu. Hər gəlişində bir ayrı cür. Hər dəfə də ona elə gəlir ki, "ömründə belə gözəl payız görməyib". Onun əsərlərini oxuyanda təbiətin gücünü hiss edirsən... "İldırım gecənin qara məxmərini cırıb harasa vızıldadır… dağların başına kəlağayı dolayan buludlar kükrəyir... Leyla da gecənin qulağına "bir də, bir də..." deyə israr edir".[2]

Ə.Babayevanın əsərlərində fəlsəfə var. "Hər şey ötüb keçəcək... Bizə belə deyiblər, belə öyrədiblər. Ancaq köçməyən, əbədi qalan da olacaq. Daşlar, qayalar qalacaq. Xəzər qalacaq... Bir də... ümid qalacaq, həyatı çiyinlərində gəzdirən ümid".[3] Onun ümidi də rənglidir... "Yaşıl, qırmızı, sarı, narıncı ümidlər..."[4] "Adamlar..."da yazıçı deyir: "Ən çətin anlarda ümid təmiz hava olur, nəfəsi yüngülləşdirir. Çıraq olur, qaranlığı işıqlandırır".[5] "Təbiət nə böyük xəyalpərəstdir"...[6] Bu da Ə.Babayevanın kəşfidir...

Ə.Babayevanın əsərlərində məhəbbət var. Bu məhəbbət "şitillikdə becərilən gül deyil"… Əkib-becərməklə, qulluqla, bəsləməklə araya-ərsəyə gəlmir. Onun sevgisi "küləyin dəcəlləşərək bir tozcuğu o birinə qovuşdurmasından, gecənin rütubətindən, sübhün jaləsindən... doğan çöl çiçəyidir".[7]

Ə.Babayeva həm də gözəl hekayəçidir. Hekayə yazmağa "1936-37-ci dəhşətli illərdə" başlayıb. "Lalələr açanda" hekayəsi qeyri-adi süjet və fabulası, qaldırdığı problemləri ilə diqqət çəkir... Baltikyanı respublikalardan birində, daha dəqiqi, Tallində səfərdə olan bir azərbaycanlı axşam mehmanxanada darıxır və özünə telefon dəcəlliyi etməyə "icazə verir". Buna onu həvəsləndirən otel otağındakı telefon kitabçası, daha doğrusu, orada tapdığı azərbaycanlı familiyası olur. Beləliklə, iki azərbaycanlı – biri öz vətənində yaşayıb öz dilində danışan, digərinin isə ancaq ad-soyadı azərbaycanlı olduğunu məlum edən, əsli-nəsli Qarabağdan olsa da, Şuşanı "uca dağlar başında bir kənd" bilən digəri görüşüb tanış olurlar. Hekayə Qarabağ hadisələrindən əvvəl yazılıb, buna görə də diqqətin Şuşaya

[1] Ələviyyə Babayeva. Küləyin tərkində. – Bakı: Gənclik, 1983, s.47
[2] Ələviyyə Babayeva. Seçilmiş əsərləri, I cild. – Bakı: Yazıçı, 1991, s.341
[3] Ələviyyə Babayeva. Bəlkə sabah olmadı. – Bakı: Şur, 1996, s.3
[4] Ələviyyə Babayeva. Seçilmiş əsərləri, I cild. – Bakı: Yazıçı, 1991, s.182
[5] Yenə orada. s.68
[6] Yenə orada, s.183
[7] Yenə orada, s.354

yönəldilməsi məlum məqsədi daşımır. Lakin son 30 ildə yaşadıqlarımızdan dolayı, Şuşanın adı gələndə hər şey onun kölgəsinə keçir. Atasının yurdundan başqa, dünyada ayağı dəyməyən qitə qalmayan İmrana müəllif Azərbaycandan danışır: "Siz Tokiodan, Parisdən, Çikaqodan danışırsınız. Ancaq mənim üçün Azərbaycan o yerlərin hamısından gözəldir. Heç bilirsiniz Şuşa necə gözəldir? Burada lalə becərmirlər. Amma bir də görürsən ki, yamaclar, dağların döşü göz işlədikcə qızıl lalədir. Baxırsan, gözün qamaşır".[1] Lakin müəllif müsahibində vətən təşnəsi hiss etmir, bu 30 yaşlı cavanda Parisdə Bakı ab-havası ilə yaşayan Ümmülbanunun yurd həsrətindən əsər-əlamət yoxdur. Atasının Şuşa xatirələri də onun "əl-ayağına" dolaşmır. Atası ona Abasov İmran ad-soyadından başqa, milli heç nə verə bilməmişdi. Bütün bunlar çox ağrılı idi. "Estonlar onu azərbaycanlı bilirdilər, azərbaycanlılar eston..."[2] Əsərdə vətən məhəbbəti, torpağa bağlılıq, soy-kökə qayıdış, doğmalıq hissləri ön plandadır.

Epik növün imkanlarından gen-bol yararlanan yazıçı gənc oxucularını da unutmamışdır. İlk kitabı olan "Mənim müəlliməm"dən başlayaraq uşaqlar üçün "Qızıl buzov", "Tək ağac", "Kənd yollarında", "Tut ağacı", "Sehrli pillələr", "Arıxanada" və başqa kitabları nəşr olunmuşdur. "Cırtdan şəhərdən qaçıb" povesti bu gün də həvəslə oxunur. "Ə.Babayevanın mövzu dairəsi geniş, hərtərəflidir. Onun dolğun məzmunlu, maraqlı bədii əsərlərində uşaq təxəyyülünə uyğun şəkildə qələmə aldığı həyat hadisələri azyaşlı oxucunun dünyagörüşünə faydalı təsir göstərir, onlarda gözəl hisslər, vətənpərvərlik duyğuları aşılayır".[3] Şair Qəşəm Nəcəfzadə özünün uşaq yaradıcılığında Ə.Babayevanın mühüm rolunu xüsusi qeyd edərək bildirir ki, Ələviyyə xanım uşaqlara, onların ədəbiyyatına necə sevgi ilə, həssaslıqla yanaşırdı. Yazıçı əsərləri ilə istiqamətləndirir, tərbiyələndirir, yeri gəldikcə də islah edirdi. Lakin "müəllif nəsihətçilik yolunu tutmur, hadisələrin ümumi axarı isə uşağı özünü düşünməyə, yersiz hərəkətlərdən çəkindirməyə səsləyir".[4] İlk kitabından üzü bəri müəllim mövzusu Ə.Babayevanın sevimli mövzusu olub. "Bir müəllimə vardı" hekayəsində təsvir edilən müəllimənin koordinatları göstərilməsə də, yazıçının verdiyi ipucu, usta təqdimatı sayəsində onun 132 saylı məktəbin mərhum direktoru Bilqeyis Təhmasib olduğu təxmin edilir. Əslində, bu hekayə də deyil, etüddür. Heç etüd də deyil, şərəfli peşə nağılıdır. Olmuş nağıl. "Biri vardı, biri yoxdu, bir məktəbdə bir müəllimə vardı. O, çox-çox məktəblərdə dərs deyən, çox-çox müəllimlərin müəllimi idi. Siz məndən

[1] Ələviyyə Babayeva. Küləyin tərkində. – Bakı: Gənclik, 1983, s.265
[2] Yenə orada, s.265
[3] Mədəniyyət TV. Yadigarlar. 14.05.2002
[4] https://portal. Azertag.az>

nağıl gözləyirsiniz, eləmi? Bu nağıl deyil, nağılabənzər həqiqətdir".[1] Bilqeyis müəllimə ədəbiyyatşünas Məmmədhüseyn Təhmasibin həyat yoldaşı idi, Bakının əsas ziyalı zümrəsinin müəllimi olmuşdu. Səməd Vurğunun qızı Aybəniz Vəkilova, Xalq artisti Fuad Poladov və b. məşhurlar Bilqeyis xanımın sinif otağından çıxmışdılar ki, Ə.Babayeva da bunları gözəl bilirdi və hekayəsində də gözəl ifadə edirdi.

Ə.Babayeva tərcüməçilik fəaliyyəti ilə də məşhurdur. Rus yazıçıları A.Qaydardan, V.Biankidən, K.Paustovskidən, V.Korolenko və başqalarından etdiyi professional tərcümələr kütləvi tirajla çap olunmuşdur. Ümumilikdə, Ə.Babayeva 30-dan çox klassikin kitabını dilimizə tərcümə etmişdir.

Yazıçı əsərləri barədə deyirdi ki, kitablarımın ömrü mənim ömrümdən qısa olacaqsa, heç yaşamamış kimiyəm... Bu gün Ə.Babayevanın sözün poetik mənasında övladları olan əsərləri tərəfdən nigarançılığı üçün heç bir əsas yoxdur. Bir haşiyə: Yeni nəsil yazıçılarından Şərif Ağayar bəzi qadın yazıçılarımız haqqında "bəzən, bax, mən bunu yaza bilməzdim" etirafını edəndə Ə.Babayevanın da adını çəkmişdi. Bu bir kompliment, "ədəbiyyat avtobusunda nəzakət xatirinə"[2] yervermə deyildi, yazıçının halal haqqı idi. Bu gün də Ə.Babayevanın lirik qəhrəmanına vurulan gənc yazıçılar vardır. Müstəqillik qazanandan sonra bizdə sovet dövrü yazıçılarına zəmanədən dolayı ucdantutma böhtan, qarayaxma, qınama kompaniyası başlayıb ki, bu da yolverilməz və böyük haqsızlıqdır. Niyə belə dedi və ya demədi... İnsan valideynlərini seçmədiyi kimi, zəmanəsini də seçmir. Müstəqillikdə oturub qorxunc repressiya, qatı durğunluq dövrlərində yaşayanları günahkar çıxarmaq, lağa qoymaq çox asandır. Ə.Babayevaya gəldikdə isə, bu tendensiya nə onun yaradıcılığına, nə də şəxsiyyətinə aiddir. Əsərlərini yenidən sərf-nəzər etdikdə, bu gün utanacaq bir mövqe, zaman baxımından silinəcək parça görmürük. Qismətinə düşən uzun ömrü əminlik və ləyaqətlə yaşamış, öz dəst-xətinə sadiq qalmışdır. Hər növ konyukturadan uzaq dayanan, özgə kanonları rədd edən Ə.Babayeva yalnız böyük ədəbiyyata xidmət etmişdir. Bunu onun çox nüfuzlu qələm dostları, həmkarları da dəfələrlə qeyd etmişlər. Görkəmli ədəbiyyatşünas Əkrəm Cəfər Ələviyyə Babayevanın yaradıcılığını yüksək qiymətləndirərək yazırdı: "Elmi-bədii ədəbiyyat əsəri necə olar? Əgər məndən bunu soruşsaydılar, deyərdim: "Gedin, Ələviyyənin əsərlərini oxuyun".[3] Xalq şairlərindən Süleyman Rüstəm, Nəbi Xəzri, Bəxtiyar Vahabzadə onun yaradıcılığı ilə bərabər, xarakterindəki cəsarəti, əyilməzliyi yüksək qiymətləndirmişdilər. Əzizə Cəfərzadə təəssübkeşliyinə, həmkar-

[1] Ələviyyə Babayeva. Küləyin tərkində. – Bakı: Gənclik, 1983, s.333
[2] https://teleqraf.com>
[3] Savalan Fərəcov. "Mədəniyyət qəzeti", 23 sentyabr 2016, s.12

larına can yandırdığına, əziləni müdafiə etdiyinə görə onu "bizim xeyir-xahımız" adlandırırdı. Ə.Babayeva xaricdə də oxunur və bəyənilirdi. Onun "Allah düşünür" hekayəsi Almaniyada tərcümə edilərək yayılmışdı. Məşhur türk yazıçısı Suat Dərviş görüşlərinin birində onun haqqında demişdi: "Mən Ələviyyə Babayevanın hekayələrini oxumuşam, mənə çox maraqlı təsir bağışlayıb... O, gələcəyin böyük romançısı olacaq". Böyük romançının bu uzaqgörən proqnozu özünü doğrultdu. Ə.Babayeva özündən sonra 9 roman qoyub gedib. Yazıçı özü roman janrı, onun məqsəd və vəzifələri barədə belə deyirdi: "Romançı öz dövrünün sadəcə müşahidəçisidirsə – bu çox azdır. O, həyatın burulğanında keçən – yaşadığı zamanın tədqiqatçısı və güzgüsü olmalıdır".[1] Suat Dərvişin bioqrafiyasına nəzər salsaq, onun nədən Ə.Babayevaya diqqət yetirdiyini anlayarıq. Özü haqqında deyirdi ki, mən yazar Suat Dərvişəm, kimsənin karısı olaraq yad ediləməm... Nazim Hikmət də, onu "başını əyə bilmədiyim tək qadın" adlandırmışdı. Ə.Babayeva da "müstəqil düşüncə tərzi ilə" seçilən qadın yazıçılarımızdan idi. Onun əsərləri "xarakteri" ilə seçilir. Süleyman Rəhimov isə Ə.Babayevanın istedadı və yenilməzliyi barəsində "Allah səhv eləyib, kişi yaradacaqdı, çaşıb qadın yaradıb" demişdi. Yaradıcı insan həmişə öz ruh əkizini tapır, tanıyır. Amma... Suat Dərvişdən çox-çox əvvəl, Ələviyyənin 10-11 yaşı olanda təsadüfən onu görüb danışdıran Mikayıl Müşfiq "bu qız şair olacaq" demişdi. Sonralar həmin görüşü xatırlayan Ə.Babayeva deyəcəkdi: "Müşfiq bir balaca səhv edib, mən şair yox, yazıçı oldum..."

Ümummilli liderimiz Heydər Əliyevin Ə.Babayevanın yaradıcılığına, şəxsiyyətinə xüsusi münasibəti var idi. Yazıçı özü bu barədə belə yazmışdı: "Heydər Əliyev mənim yaradıcılığımı, mərdliyimi, cəsarətimi qiymətləndirirdi. Əsərlərimi oxuyurdu və bəyənirdi".[2]

Ələviyyə Babayeva qəliblərdən uzaq yaradıcılığı, real, canlı, təravətli surətləri, təsvir vasitələri, dil xüsusiyyətləri ilə nəsrimizi daha da zənginləşdirmişdir. O, əsərlərinə, istər böyük olsun, istər kiçik, lazımi intonasiyanı verə bilirdi. Nasirin vaxtilə bestseller olmuş kitabları yenə də oxunur, tədqiqata cəlb edilir.

[1] Ələviyyə Babayeva. Bəlkə sabah olmadı. – Bakı: Şur, 1996, s.1
[2] Savalan Fərəcov. "Mədəniyyət qəzeti", 23 sentyabr, 2016, s.12

SALAM QƏDİRZADƏ
(1923-1987)

Azərbaycan ədəbiyyatının, bədii nəsrin görkəmli nümayəndələrindən biri də Salam Qədirzadədir. O, mənalı ömür yolu, zəngin ədəbi yaradıcılığı və dəyərli əsərləri ilə ədəbiyyat tarixində özünəməxsus layiqli yer tutmuşdur.

Həyatı. Salam Dadaş oğlu Qədirzadə 10 aprel 1923-cü ildə Bakıda anadan olmuşdur. Gənc Salamın 150 saylı orta məktəbi bitirdiyi il müharibə başlayır və o, könüllü cəbhəyə yola düşür. 1942-1945-ci illərdə cəbhədə rabitəçi-döyüşçü kimi iştirak edən Salam Qədirzadə göstərdiyi şücaətə görə orden və medallarla təltif olunmuşdur. Yaşadığı cəbhə xatirələri, canlı müşahidələri 1963-cü ildə yazdığı "Burada insan yaşamışdır"[1] povestində öz əksini tapmışdır. Cəbhəçi Salamın döyüşə-döyüşə 4 ilə topladığı mövzu onu uzun zaman məşğul etmiş, illərlə içində daşıyaraq qələminin püxtələşdiyi dövrdə kağıza köçürmüşdür. Burada əsas "obraz" müharibədir. Başqa bir cəbhəçi-yazıçının dediyi kimi, "yanan insan bədəninin iyi, nə qədər uzun yaşasan da, heç vaxt burnundan tam gedə bilməz".

Bir çox qələm adamları kimi, yaradıcılığa şeirlə başlamış, Sadiq təxəllüsü ilə qəzəllər yazmışdı. Sonralar istiqamətini müəyyənləşdirən yazıçı ilk böyük əsəri olan "Gənclik" povestini Sumqayıtın salınmasında iştirak etdiyi illərə həsr etmişdi. Gənc Salam "Sumqayıtın daş-daş, küçə-küçə, bina-bina tikilməsini, genişlənməsini görüb".[2] "Azərbaycan" jurnalı yazırdı: "Gənclik" povestinin dili aydın və səmimidir. Müəllif qələmə aldığı səhnəni asanlıqla oxucunun gözləri qarşısında canlandıra bilir. Əlbəttə, bu, yazıçı üçün nailiyyətdir".[3] Yazıçının ikinci kitabı "Sarmaşıqlı aynabənd" adlanır və kitabları çoxaldıqca, populyarlığı da artırdı.

Salam Qədirzadə 1948-ci ildə Azərbaycan Dövlət Universitetinin Filologiya fakültəsinə daxil olsa da, 1949-cu ildə Azərbaycan Yazıçılar İttifaqı təhsilini davam etdirmək üçün onu Moskvaya – M.Qorki adına Ədəbiyyat İnstitutuna göndərir və gənc Salamın qaynar paytaxt həyatı başlayır. S.Qədirzadə öz şəxsi xoşbəxtliyini də bu macəra dolu şəhərdə tapır.

Bakıya qayıtdıqdan sonra "Azərbaycan" jurnalında ədəbi işçi, məsul katib (1952-1953), "Kirpi" jurnalında məsul katib, baş redaktor (1975-1980) vəzifələrində çalışmışdır. O, İtaliya, Fransa, Yunanıstan, Türkiyə, Belçika, Finlandiya və b. ölkələrdə səfərlərdə olmuşdur.

Salam Qədirzadə göstərdiyi xüsusi xidmətlərə görə "Şərəf" ordeni və çoxsaylı medallarla təltif olunmuş, 16 noyabr 1987-ci ildə vəfat etmişdir.

---

[1] Salam Qədirzadə. Burada insan yaşamışdır. – Bakı: Azərnəşr, 1963

[2] Ruslan Qədirzadə. Bir ay və... əbədi ayrılıq. "Ədəbiyyat qəzeti", 24.11.2020

[3] Salam Qədirzadə. Gənclik povesti. "Azərbaycan" jurnalı, № 27, 1953, s.5

Yaradıcılığı. Salam Qədirzadə 1948-ci ildə uşaqlar üçün nəşr olunan "Pioner" jurnalında çap etdirdiyi "Oqtay" adlı hekayəsi ilə yaradıcılığa başlamış, 1951-ci ildə "Uşaqgəncnəşr"in buraxdığı "İlk hekayələr" kitabı ilə ədəbiyyata gəlmişdir.

Salam Qədirzadənin 1950-1960-cı illərdə qazandığı uğuru 1970-1980-ci illər zirvəyə qaldırır. O, əsasən gənclərin yazıçısı sayılsa da, seçdiyi mövzular bəşəri dəyər kəsb etdiyinə görə, hamı tərəfindən oxunurdu. Onun qəhrəmanları və bundan dolayısı oxucu auditoriyası əsasən tələbələr, ziyalı gənclik idi. Onlar bir-birinə bənzəmirlər, bir-birindən daha yaxşıdırlar, həyat dolu olub arzularına doğru gedirlər, xəyallarından yan keçmirlər. Dünya ədəbiyyatında "universitet nəsri" deyilən istilah formalaşmışdır. Ədəbiyyat öz zəmanəsinin güzgüsüdür. Əgər Y.V.Çəmənzəminlinin "Studentlər" romanı əsrin əvvəllərinin mürəkkəb tələbə həyatını əks etdirirdisə, S.Qədirzadənin "Sevdasız aylar" povesti gənclərin qayğısız tələbəlik illərindən danışır. "Universitet nəsri" deyilən ədəbiyyat adından da göründüyü kimi, gənclərə ünvanlanır. Bundan başqa, "Qış gecəsi", "46 bənövşə", "Su pərisi Marianna" əsərlərinin qəhrəmanları da tələbələrdir. Dövrün həyəcanları, yeni nəslin mənəvi-əxlaqi keyfiyyətləri, gənclik duyğuları yazıçının özəl yanaşmasında təqdim edilir. Bu əsərlərin xüsusi bir aurası var. S.Qədirzadə oxucunu maraqlandıra, ardınca apara bilirdi. Romançı S.Qədirzadənin nəsri demək olar, məhəbbət mövzusu üzərində qurulmuşdu. Yazıçının qəhrəmanları səmimi, sadə, bütöv insanlardır. Şərti yanaşanda onun əsərlərində məkan fonu kimi əsasən şəhər, şəhər nəsri ədəbiyyatının tipik nümayəndəsi kimi Salam Qədirzadə görünür. Şəhər ədəbiyyatı məişət ədəbiyyatı deyil, mərkəzində insanın gündəlik həyatı, qayğıları dayanır. "Şəhərin küçələrini dolaşarkən o elə də cəzbedici təsir bağışlamır... Ancaq yüksəklikdən baxsan" orada sanki yaşamaq rahat, insan isə daha azaddır.

"Qış gecəsi" (1956) stalinizmin iflası, "buzların" ərimə dövründə yazılmışdır. Müharibədən sonra gənclərin şəxsi və sosial həyatı, çətinlikləri fonunda müəllifin nəql etdiyi nakam sevgi romanıdır. "Qış gecəsi" təravətli bahar ovqatı ilə başlayıb "soyuq adamın iliklərinə işləyən" çovğunlu qış axşamında başa çatır, adını doğruldur. "Qış gecəsi" – var-dövlət hərisi, hər şeyi pulla ölçən analığı Diləfruza görə utanıb natamamlıq kompleksləri keçirən, bu səbəbdən sevdiyi Ceyranı atıb bir günün içərisində yoxa çıxan, Moskvada təhsilini başa vurub prokuror kimi Bakıya dönən Adilin həyat hekayəsidir. Romanda daha bir "personaj" var: "Qırmızı kirəmidli ev"... Hadisələr onun divarları arasında başlayıb, orada da bitir. "Mən bu qırmızı kirəmidli evdə baş verən bütün əhvalatları, hətta indiyədək bir çoxlarından gizli olan bəzi şeyləri də sizə danışacağam".[1] Oxucu evin cah-calallı

[1] Salam Qədirzadə. Qış gecəsi. – Bakı: Xan, 2014, s.20-21

günlərinə də şahidlik edir, orada cərəyan edən hadisələrə də üzülür. Böhranını da görür, yenidən dirçəlişinə də sevinir. "Şəhərin əl-ayaqdan uzaq, sakit və xəlvət məhəlləsində "qırmızı kirəmidli ev" kimi tanınan bu ikimərtəbəli əlahiddə bina" özü bir obrazdır, hər şey gedib-gəlib ona dönür, onun ətrafında fırlanır, onunla uzlaşır, sakinlərinə görə evin şəkli də dəyişir. "O qarlı qış gecəsindən sonra qırmızı kirəmidli evdə həyat tamam başqa cür başlamışdı".[1] "Epiloq"da "tarçalan" oğlanın işləri yoluna düşmüş kimi görünsə də, ilk məhəbbətin nisgilli travması, yarımçıq qalmış şirin arzuları hələ də qəlbini yandırır. Adili bir şey düşündürürdü: "Görəsən sabah Ceyranı da çağırımmı?" Əlbət ki, Mənsurə istəməzdi. Adil bütün olub-keçənləri ona danışmışdı".[2]

Xalq yazıçımız İsmayıl Şıxlı haqlı olaraq, özünün "Ayrılan yollar" romanını sonradan yazılacaq bəzi əsərlərin yaxşı mənada örnəyi, sələfi hesab etsə də, bu romandakı İmran, ondan daha əvvəl yazılmış S.Qədirzadənin "Qış gecəsi" əsərinin Adili, S.Rəhimovun Mehmanı ilə də ideya-qəhrəman baxımından səsləşir. Hər 3 əsər gənc qəhrəmanların mənəvi aləmini açıb göstərməklə bərabər, onların həqiqət axtarışlarını da üzə çıxarır. Həqiqət isə hər zaman olduğu kimi mərkəzdədir: ədalət prinsipləri, məslək amalı, vətəndaşlıq borcu...

Yazıçının ən oxunan əsərlərindən biri də "Su pərisi Marianna"dır. Bu kədərli eşq hekayətini S.Qədirzadə 1958-ci ildə qələmə almışdır. 10 il sonra isə "Xəzan yarpaqları" povestini yazır. "Su pərisi..." birnəfəsə oxunur. S.Qədirzadə hadisələri Fransaya, Parisə aparır. Və gözlərimiz qarşısında hər şeyi pulun həll etdiyi iyrənc bir cəmiyyət açılır. Marianna ehtiyac üzündən, anasına dərman almağa pul tapmayanda aldadılıb pozğun mühitə düşür. Sorbonna Universitetinin keçmiş tələbəsi su attraksionunun "pəri"sinə çevrilir və beləliklə də "bu yuvanın quşu" olmayan gənc qızın faciəsi başlayır. Davamlı kədər, apatiya, ruhi gərginlik, ümidsizlik, taleyin ardıcıl zərbələri Mariannanı intihara sürükləyir. O, bununla çəkdiyi fiziki-psixoloji sitəmlərdən qurtulmaq, həm də çox sevdiyi Leandrı xilas etmək istəyir. Bunlardan başqa, nasirin "Mahnı dağları aşdı", "Ömrün təzə illəri", "Sevdasız aylar", "Ulduzlar sayrışanda", "Ülkər-Aytəkin" kimi sevilən povestləri də vardır ki, bu gün də öz aktuallığını qoruyub saxlayır. S.Qədirzadənin əsərlərinə verdiyi adlar da orijinal, janra görədir. Lirik əsərlərinə "Qar üstdə qızılgül", "Bir gecənin novellası" kimi romantik adlar seçdiyi kimi, satira nümunələrinə heç də geri qalmayan "Başabəla-Paşabala", "Lirika, yumor, Züleyxa", "Manqo, 33, Şekspir", "İki müavin, bir qadası" tək maraqlı, mündəricəsindən xəbər verən başlıqlar qoyur, elə sərlövhədən oxucu ilə söhbətə başlayırdı. "Xəzan yarpaqları"nda olduğu kimi... Povest ömrün ahıl

[1] Salam Qədirzadə. Qış gecəsi. – Bakı: Xan, 2014, s.285
[2] Yenə orada, s.286

çağında tənhalığa məhkum olmuş, gözləri arxalarında buraxdıqları keçmişdə qalan iki talesiz insan haqqındadır. Qocalıqdan, kimsəsizlikdən, diqqətdən uzaq düşməkdən özləri də ağacdan asılan son yarpaq kimi titrəyən, təsadüfən tanış olub bir-birinə sığınan, həyan olan qoca və qarı adamsız bağlarda ömürlərinin xəzanını sürdürürlər. "Payızın axırları idi. Bağlarda ins-cins qalmamışdı... Günlərin birində yenə qəsəbəni gəzirdim. 20 ildir ki, mən bu bağların, pioner düşərgələrinin qarovulunu çəkirəm... Deyəsən o məndən kibrit istədi, səsi də özü kimi qoca idi. Dili ağzında xəzəl kimi titrəyirdi".[1] Qocalıq da qar kimi qəfildən gəlirmiş... Xəbərdarlıq etmədən. Necə deyərlər, səhər durub görürsən ki, hər tərəf ağappaqdır. Əsəri oxuyanda burnuna gün düşməyən meşənin xəzəl qoxusu gəlir. Bir də... köhnə paltar dolabına hopmuş kəsif nəm, zəif naftalin iyi, nostalji hisslər oyadan ağırlaşmış ətirlərin qoxusu toxunur. Bu kimi əsərlər tək "müəllifin fərdi yaradıcılığını xarakterizə etmir, bütövlükdə Azərbaycan nəsri haqqında bədii-estetik təsəvvür yaradır". Bu povesti rejissor Eldar Quliyev "Biri vardı, biri yoxdu" adı ilə ekranlaşdırmışdır.

Hər dövr özünün "xüsusi əlamətləri", kanonları ilə seçilir... 1970-ci illərdə SSRİ adlanan məkanda siyasi iqlim yavaş-yavaş yumşalmağa başlayır, durğunluq deyilən şəraitdə inqilab, kollektivləşmə və s. kimi köhnəlmiş sovet mövzuları arxa plana keçir, ədəbiyyatın yeni üfüqləri açılır.

1970-ci illər Sovet dövrü ədəbiyyatının ən maraqlı onilliyi hesab olunur. Bu dövrün romançılığında iki əsas meyil özünü göstərirdi: insaniləşmə və milliləşmə. S.Qədirzadənin "Qış gecəsi", "46 bənövşə", "Su pərisi Marianna", "Kəndimizdə bir gözəl var" və b. əsərləri bu dalğada yarandı və 1960-1970-ci illərin bestsellerlərinə çevrildi. Bu romanlar "nəğmə olub oxucuların qəlbinə dolurdu", oxucu hər bir qəhrəmanın ağrı-acısını, sevinc-kədərini canında, qəlbində yaşayırdı.

Salam Qədirzadənin ən gözəl əsərlərindən olan "46 bənövşə" Azərbaycan ədəbiyyatında "ən yaxşı sevgi romanı" onluğuna daxil edilmişdir. Roman təsirli lirizmi ilə seçilir. 1969-cu ildə yazılsa da, həmişə təzə, adı kimi kövrəkdir. Bu əsərə mövzudan, süjetdən dolayı oxucunun emosional bağlılığı bir qədər artıqdır. Könül gözəl, saf, kitablara düşkün, rəngli xarakterə malik gənc qızdır. Dəryaya dəlicəsinə aşiqdir, nağılların şad-xürrəm sonluğuna inanır. Məhəbbəti gözlərini bağlayır, Dəryanın onu necə rahat manipulyasiya etdiyini görməzdən gəlir, xəyanətinə inanmaq istəmir. Axırda "dörd ay əvvəl sevinə-sevinə qapısından girdiyi evi" qəlbi qan və rəvan tərk etsə də, zəhərli sarmaşığından xilas olur. Adı Dəryа, özü "quru səhra" olan kəs cildini qorumaq üçün dondan-dona girir, söylədiyi yalanlarla iç üzünü daha da açır,

[1] https// mp3yeni.org/?m=Radio+Tama%C5%9Fa+Salam+Q%G9%99dirzad%C9%99+X%C9%99zan+Yarpaqlari

onu sevən qadının gözündə batdıqca batır... Onun lirik-romantik əsərlərini oxuyandan sonra, insan sanki təmizlənir, qəlbi hər cür naqislikdən arınır. Xalq yazıçısı Bayram Bayramov "46 bənövşə"nin S.Qədirzadənin yaradıcılığını rayihələndirdiyini, əlvanlaşdırdığını və xeyli zənginləşdirdiyini qeyd etmişdi.

Yazıçı "Kəndimizdə bir gözəl var" romanını 1967-ci ildə bitirib. Roman 15 novelladan ibarətdir. "46 bənövşə" Könülün gündəlikləri idisə, "Kəndimizdə bir gözəl var" novellalar məcmusudur. Əsərdə bütün zamanlar üçün qiymətli olan vəfa, sevgi, mərhəmət kimi insani keyfiyyətlər tərənnüm olunur. "Mərhəmət insani dəyərlərin şahıdır", – deyirlər, insana qəlbini saf saxlamağa kömək edir. Eybəcər əxlaqın yiyəsi Yeganə başqa duyğularla bərabər, mərhəmət hissindən də məhrumdur. Roman ilk səhifələrdən oxucunu alıb aparır. Burada primitiv nağılçılıq, əhvalatçılıq yoxdur. Əsərin mövzusu olmuş hadisəyə çox bənzəyir. Diqqətsizlik, ya bilərəkdən doğum evində səhv salınan körpələr haqqında xəbərlər indinin özündə də ara-sıra yayılır. "Doğum evində eyni gündə iki Soltanova azad olmuşdu – biri Günəş, biri Yeganə".[1] Günəş oğlunu necə böyütmək, yaşatmaq barədə düşünürsə, Yeganə evə gələr-gəlməz körpəsini balışla boğur. Amma tale onunla amansız oyun oynayır, öz qızı əvəzinə səhv düşən uşağı tələf edir. Yeganə verdiyi zərərin ağır bədəlini ödəyir, həbsxanadan sonra axsaq, kasıb, tənha bir həyat sürür. Günəş isə yaralı yerindən çiçəklənir... "Yeganənin körpəsi həmişəlik Günəşin, Fikrətin himayəsində" qalır.[2] Yeganə də Diləfruz kimi "zəhərli" personajdır. Onun insanlıqla yaxından-uzaqdan bir əlaqəsi yoxdur.

S.Qədirzadə həm də peyzaj ustası idi. Onun təbiətə öz münasibəti var idi, sadəcə baxmırdı, həm də görürdü. S.Qədirzadənin poetik lövhələri natural və psixolojidir, qəhrəmanın daxili aləmi, həyəcan və duyğuları ilə birbaşa səsləşir. "Dəniz uğuldayır. Sahilə qoşun-qoşun hücum çəkən dalğalar şahə qalxır, qağayılar qanadlarını sulara çırpır. Dənizin üfüqlərə qovuşduğu uzaqlarda yelkənli bir qayıq üzür. Dalğalı suların köksündə yırğalandıqca gah dikəlir, gah batır, görünməz olur".[3]

"Çarhovuza əncir ağacından beşbarmaqlı pəncəyə oxşar saralmış bir yarpaq düşdü, suyun toz basmış səthi ağır-ağır hərəkətə gəldi. Elə bil kiminsə əli idi, bu aynanı silib təmizləmək istəyirdi ki, əksimə baxım".[4]

S.Qədirzadə həzin, romantik ruhlu yazıçı olmaqla bərabər, həm də güclü satira və yumor ustası idi. Belə bir devizi var idi: "Heç nədən qorxmayan gülüşdən qorxur". Yazıçı gülüş obyekti olan ünsürlərdən gah lətif

[1] https://salamqadirzade.az/download/romans/kendimizde-bir-gozel-var.pdf, s.104
[2] Yenə orada, s.107
[3] Salam Qədirzadə. 46 bənövşə. – Bakı: Qanun, s.38
[4] Salam Qədirzadə. Sevdasız aylar. – Bakı: Xan, 2015, s.32

yumoru ilə danışır, gah da kəskin satirası ilə qamçılayırdı. Buna görə romanlarına məsafədən yaşıl işıq yandırılsa da, sosial sifarişdən uzaq satirik əsərləri kommunist ideologiyasının tələblərinə cavab vermədiyi üçün ciddi senzuraya məruz qalırdı. Burada belə bir kədərli ironiyanı xatırlamaq yerinə düşər: "Satira heç vaxt müsabiqədən keçmir, çünki onun hədəfləri münsiflərdə əyləşirlər". Yazıçılardan konfliktsiz əsər, "dişsiz" satira yazmaq tələb olunurdu ki, bu da əsl yazıçı üçün mümkünsüz bir şərt idi. S.Qədirzadə 1976-80-ci illərdə "Kirpi" satirik jurnalının baş redaktoru olmuşdur. "Mozalan" üçün yazdığı süjetlər bu gün də maraqla baxılır. Göründüyü kimi, yaradıcılığın elə bir sahəsi yoxdur ki, S.Qədirzadə ora baş vurmasın, qələmini sınamasın.

Onun hekayələri ədəbiyyatımızda ayrı bir mərhələdir. Yazıçı həm lirik-romantik, həm satirik-yumoristik, eyni zamanda "kiçik janrın böyük imkanları"ndan istifadə edərək" ikisi birində hekayələr yazmışdır. "Hekayəçi Salam Qədirzadə daha çox satirikdir... Sırf lirik üslubda yazılmış hekayələri isə monoloqu xatırladır, bir növ mənsur şeirə bənzəyir".[1] Onu ədəbiyyatımızın Zoşenkosu da adlandırırlar. S.Qədirzadə sonralar da bu janrdan ayrılmamış, "Mənim ceyranlarım", "Bir qız bir oğlanındır", "Təbəssümün mükafatımdır", "Ər-arvad təhlükəsizliyi ongünlüyü", "Şlyapalı Mauqli" və digər kiçikhəcmli əsərləri ilə hekayənin gözəl nümunələrini yaratmışdır. "Janrların özlərinin arasındakı tarixi mübarizədə hekayə öz spesifikasını, poetikasını, dəqiq qanunlarını qoruyub saxladığındandır ki, yerini başqa janrlara güzəşt etməmişdir".[2] S.Qədirzadənin hekayə kitabları bu kiçik janra yeni nəfəs verdi. O, satirik hekayələrində meşşan və obıvatellərə gülürdü, bürokratlıq, süründürməçilik, naqislik, tüfeylilik kimi sifətlərə lağ edirdi, bəzən isə bu gülüş tragikomik hal alırdı. "Zəncirbənd", "Bacıqızı", "Dublyonka", "Xalam mənim dayımdır" və onlarla bu qəbildən olan hekayələri güldürə-güldürə düşündürürdü. "Həyatın müqəddəslikdən saxtakarlığa yuvarlanmasını dəhşətli tənəzzül" hesab edirdi, öz əsərləri ilə mənəvi dəyərləri qorumağa çağırırdı.

Salam Qədirzadə dramaturq kimi də məşhur idi. Onun "Hardasan, ay subaylıq?", "Həmişəxanım", "Şirinbala bal yığır", "Gurultulu məhəbbət", "Gözəllik ondur" kimi sağlığında səhnədən düşməyən pyesləri bu gün də tamaşaya qoyulur, həvəslə baxılır. Səhnə və tamaşaçı dramaturqa stimul verib irəli aparan əsas amil hesab olunur. Bu baxımdan da S.Qədirzadə uğurlu sənətkardır, onun pyesləri teatrlarda müvəffəqiyyətlə oynanılmışdır. Komediya ən mürəkkəb janrdır. Komediyada gərək qızıl məxrəci elə gözləyəsən ki, həm gülməli olsun, əhvalı qaldırsın, həm də bayağı, şit gülüş

[1] Şövkət Hüseynova. Müasir nəsrdə janr və üslub axtarışları. – Bakı, 1995, s.10
[2] C.Məmmədov. Kiçik janrın böyük imkanları. "Ulduz" jurnalı, №5, 1983, s.50

zövqü korlamasın. S.Qədirzadənin komediyaları bu tendensiyanın bariz nümunəsidir. S.Qədirzadə tipaj ustası idi. Onun Həmişəxanımı, Gülyanağı ("Hardasan, ay subaylıq?") Nəsibə Zeynalovanın ifasında daha şöhrətlidir. "Hardasan ay subaylıq?" tamaşası Musiqili Komediya Teatrında 200 dəfədən çox oynanılmışdır. Həmişəxanım toxuculuq fabrikinin xadiməsidir. Lakin müvəqqəti vakant olan katibə vəzifəsini icra edir. Həmişəxanım özünü qaba müdirə əzdirmir, onu yerində tənqid etməkdən də çəkinmir. Fabrikin direktor əvəzi Cəbi Cüməzadə həyat yoldaşını aldadan, "fabrikdə çox sözlər verib arxasından qaçan" səriştəsiz karyeristdir. Pyes daha çox yumor tərəfə çəkir. Onun Həmişəxanımla dialoqları, sözləşmələri, nəhayət, süpürgəçi ilə bacarmayan müdirin ərizə verib işdən getməyi çox məzəli təsir bağışlayır.

Yaradıcılıq – Salam Qədirzadənin mahiyyəti idi, yazıçılığı ən yüksək vəzifə hesab edirdi. Onun rəssamlıq, musiqi kimi ciddi maraqları da var idi, lakin gənc Salam könlünü əbədilik sözə, ədəbiyyata verdi. Yazıçının əsərləri dövrünün güzgüsü idi. Burada əsas süjet xətti ilə bərabər sovet yaşayışının, onun prioritet problemlərinin, ailə-məişət tərzinin maraqlı xırdalıqları da öz əksini tapırdı.

Məhək daşı olan Zaman onun kitabları üzərində hökmranlıq edə bilmədi. Yeni informasiya vasitələrinin kitabı sıxışdırdığı bir zamanda belə, Salam Qədirzadə yarım əsr əvvəldə olduğu kimi yenə oxunur, sevilir, əsərləri ədəbi keyfiyyətini saxlayır. Salam Qədirzadə orijinaldır, heç kəsi təkrar etmir, öz yolu ilə gedib öz dəst-xəti ilə yazır. Onun əsərlərinin hər biri hazır kinossenaridir. Xalq yazıçısı Süleyman Rəhimov S.Qədirzadənin istedadını yüksək qiymətləndirir, dil ehtiyatımızdan ustalıqla bəhrələndiyini, əsərlərinin dadlı, duzlu, şirin dildə yazıldığını xüsusi qeyd edirdi. S.Qədirzadənin həyata, ədəbiyyata, insanlara öz münasibəti var idi. Yazıçının son kitabı "Hər gün ömürdən gedir" adlanırdı. Təəssüf ki, bu kitabını görmək ona nəsib olmadı. Sanki kitabına belə rəmzi adı verməklə, özü də bilmədən ömür möhlətinin sonuna varmış oldu, "epitafi"sini özü yazmış oldu. Salam Qədirzadə 64 illik ömrünə nə mümkündüsə, yerləşdirə bildi. Yazdı-yaratdı, oxudu-oxundu, sevdi-sevildi, özündən sonra qiymətli ədəbi miras, təmiz ad, xoş xatirə qoyub getdi. Mənası sülh, əmin-amanlıq olan Salam, müsəlmanlar arasında görüşəndə işlədilən kəlmədir. Qurani-Kərimdə buyurulur: "Sizə salam verildiyi zaman onu daha gözəl alın və ya eynilə sahibinə qaytarın". Öz adını xarakterində, şəxsiyyətində daşıyan, doğruldan Salam Qədirzadənin oxucuları onun salamını elə bu şəkildə – layiqincə alıb, rəhmətini üzərinə qaytardılar. Ən başlıcası, "hələ də yazıçı Salam Qədirzadənin əsərlərini sevən, onun kitabları ilə tərbiyə alıb böyüyən" və bu gün xatirəsini yaşadan qədirbilən bir nəsil var...

GÜLHÜSEYN HÜSEYNOĞLU
(1923-2013)

Azərbaycan bədii nəsrinin tanınmış simalarından biri də Gülhüseyn Hüseynoğludur. Əlli ildən çox yaradıcılıqla məşğul olan G.Hüseynoğlu hekayə, povest və mənsur şeirləri ilə oxucuların rəğbətini qazanmış, təkcə Azərbaycanda deyil, onun hüdudlarından kənarda da tanınmışdır. Qələmə aldığı əsərlərin əsas mövzusu müasir həyat, sadə əməyi ilə şöhrət qazanan insanların mənəvi aləmi, ailə-məişət problemləri və gənclərin sevgi münasibətləri üstündə qurulmuşdu. Onun ədəbiyyatımızda bir mühüm xidməti də mənsur şeir janrını populyarlaşdırmaq oldu. Şeirlə nəsrin vəhdətini əks etdirən bu janrda Gülhüseyn Hüseynoğluya qədər də bir sıra nümunələr yaranmışdı, lakin o, bu janrda elə gözəl örnəklər yaratdı ki, ədəbiyyatımızda bu sahədə müəyyən bir ənənənin əsası qoyuldu.

Gülhüseyn Hüseynoğlu təkcə bir nasir kimi deyil, həm də müşfiqşünas alim kimi də tanınır. Müşfiqə, onun yaradıcılığına olan hədsiz rəğbəti G.Hüseynoğlunun böyük şairə həsr etdiyi sanballı bir monoqrafiyasında və məqalələrində öz əksini tapmışdır.

Həyatı. Gülhüseyn Hüseyn oğlu Abdullayev 1923-cü ildə Masallı rayonunun Mollaoba kəndində doğulmuşdur. Ailəsi ilə birgə 3-4 yaşında ikən Bakıya köçmüş, 1942-ci ildə orta məktəbi bitirdikdən sonra ADU-nun Filologiya fakültəsinə qəbul olunur və həmin ildən "Kommunist" qəzetinin redaksiyasında, "Ədəbiyyat qəzeti"ndə ədəbi işçi vəzifəsində çalışmışdır. 1947-ci ildə ADU-nun Filologiya fakültəsini bitirmiş, həmin ildə də aspiranturaya qəbul olunmuşdur. Mütərəqqi fikirli üç gənclə birlikdə "İldırım" təşkilatı yaratmış, tezliklə bu təşkilatın üzvləri millətçilikdə günahlandırılaraq mövcud quruluşa qarşı sui-qəsd cəhdi maddələri ilə həbs olunmuşlar. Gülhüseyn Hüseynoğlu 25 il azadlıqdan məhrum edilmişdir. 1956-cı ildə ona tam bəraət verilmiş və aspiranturaya bərpa edilmişdir.

Gülhüseyn Hüseynoğlu uzun müddət ADU-nun Filologiya fakültəsində "Müasir ədəbiyyat" kursundan dərs demiş, burada namizədlik dissertasiyası müdafiə etmiş, professor elmi adını almışdır.

Gülhüseyn Hüseynoğlu 2005-ci ildə Azərbaycanın Xalq yazıçısı fəxri adına layiq görülmüş, 8 iyul 2013-cü ildə, 90 yaşının tamamına üç ay qalmış Bakı şəhərində vəfat etmiş, II Fəxri Xiyabanda dəfn olunmuşdur.

Yaradıcılığı. Gülhüseyn Hüseynoğlu ADU-nun tələbəsi ikən, 1944-cü ildə onun "Ana" adlı hekayəsi "Ədəbiyyat qəzeti"ndə dərc olunmuşdur. Analara məhəbbət, rəğbət ifadə edən bu hekayəni o zaman Səməd Vurğun oxuyub bəyənmişdi. 1946-cı ildə isə "Bənövşə əfsanəsi" adlı mənsur şeiri çap olunur və Gülhüseyn Hüseynoğlunun yaradıcılığında bu iki xətt – sırf nəsr və

mənsur şeir paralel şəkildə yazıçının ömrünün sonunadək davam etdirilmişdir.

Gülhüseyn Hüseynoğlu yaradıcılığından söz açarkən, ilk növbədə onu bir yazıçı kimi məşhurlaşdıran mənsur şeirləri üzərində dayanmaq lazımdır.

Tədqiqatçıların araşdırmalarına görə, "mənsur şeir" terminini dünya ədəbiyyatında ilk dəfə fransız yazıçısı Aloiziyus Bertran (1807-1841) gətirmişdir. Bertrandan sonra fransız şairlərindən Şarl Bodler (1821-1867) və Artur Rembo (1854-1891) da bu janrda əsərlər yazmışlar. Böyük rus yazıçısı İ.S.Turgenevin də (1818-1883) mənsur şeirləri məşhurdur. Daha sonra hind ədəbiyyatında R.Taqor, türk ədəbiyyatında Xalid Ziya da mənsur şeir ustası kimi tanınmışlar.

Azərbaycan ədəbiyyatında isə mənsur şeir janrına ilk dəfə müraciət edən XX əsr Azərbaycan romantizminin banilərindən olan Məhəmməd Hadi olmuşdur. Filologiya elmləri doktoru Hüseyn Həşimli "Azərbaycan mənsur şeirinin təşəkkülü" monoqrafiyasında[1] qeyd edir ki, Məhəmməd Hadinin 1908-ci ildə Bakıda, "Kaspi" mətbəəsində çap olunmuş "Firdovsi-ilhamat" kitabının 221-232-ci səhifələrində onun "Düşündüklərim" adı altında birləşən mənsur şeirləri verilmişdir". Məhəmməd Hadidən daha sonra Abdulla Surun, T.Ş.Simurğun, Seyid Hüseynin, N.Nərimanovun, Y.V.Çəmənzəminlinin, iyirminci-otuzuncu illərdə isə Ə.Tağızadənin, A.Böyükzadənin, Əkrəm Cəfərin, H.Nəzərlinin də mənsur şeirlərindən söz açır. Daha sonrakı illərdə Nigar Rəfibəyli, Səfər Bağırı, Qərib Mehdi və İslam Ağayev də bu janra müraciət etmişlər. Lakin etiraf olunmalıdır ki, Azərbaycan ədəbiyyatında mənsur şeirin populyarlaşmasında, oxucular arasında rəğbət qazanmasında Gülhüseyn Hüseynoğlunun böyük əməyi vardır.

Ədəbiyyatşünaslar arasında mənsur şeirin janr xüsusiyyətləri barədə müxtəlif fikirlər söylənilmişdir. Bəziləri onu nəsrin, bəziləri isə şeirin janrı hesab etmişlər. Ancaq ikincilər üstünlük təşkil edir və onların mənsur şeirlə bağlı fikirləri daha dəqiqdir. Professor Mir Cəlal Paşayev yazır: "Lirik və epik xüsusiyyətlərin müştərək, birgə halında iştirak etdiyi, həm də insanın daxili, hissi aləmini qələmə alan, vəzn, qafiyə, bölgü kimi nəzm şərtlərindən uzaq, təbii ritmik nəsr dili ilə yığcam yazılan əsərlərə *mənsur şeir* adı verirlər. Burada şeirə xas əlamət obyektə (insan, hadisə, təbiət) münasibətdə məhz həyəcanın, daxili fərdi təsirin ön plana çəkilməsidir. Müəllif sanki xarici obyektiv aləmdən ayrılıb, təcrid olunaraq bir an özünü cəlb edən, özünə hər şeyi unutduran bir mövzunun əsiri olur. Hiss-həyəcanlarını, yazı məharətini ifadə üçün təsvirin gözəlliyi, zərifliyi; söz, tərkib, ifadələrin diqqətlə seçilməsi gərəkdir".[2]

[1] Hüseyn Həşimli. Azərbaycan mənsur şeirinin təşəkkülü. – Bakı: Nurlan, 2006, s.37
[2] Ədəbiyyatşünaslığın əsasları. – Bakı: Maarif, 1988, s.101

Bu tərif sanki bütünlüklə Gülhüseyn Hüseynoğlunun mənsur şeirləri üçün deyilib.

Gülhüseyn Hüseynoğlunun mənsur şeirlərinin mövzu dairəsi genişdir. Əsasən insan qəlbinin lirik-romantik duyğularını ifadə edən mənsur şeirlərdə həyatın, gerçəkliyin mühüm problemləri öz əksini tapır. Hər bir mənsur şeirin öz mövzusu var və G.Hüseynoğlu lirik duyğu və düşüncələrini də hər hansı mövzunun tələbinə görə uyğunlaşdırır. Müəllif "Mənsur şeirlərim mənim" yazısında fikrini belə ümumiləşdirir: "*Ana torpaq, insaniyyət, halal çörək, fədakarlıq, əvəzini gözləməyən xeyirxahlıq, insan kimi düşünüb də insan kimi yaşamaq, bütöv olmaq – həmişəlik söhbətimiz, sözümüzdür. Yanılmalar, aldanmalar, çəkilməz hicran yanğısı, qəlb ağrısı-düşünsəniz, qayğınızdır, ağrınızdır, mövzunuzdur, mövzunuzdur. Sevincə, kədərə ortaqsınız. Yalandan, riyadan uzaqsınız. Nə yaxşı ki, varsınız!"*[1] Onun mənsur şeirlərini iki qismə bölmək olar. Birinci bölgüdə sırf lirik duyğular ifadə olunur və burada konkret olaraq heç bir hadisədən söhbət getmir. Sadəcə olaraq müəllif müəyyən bir məsələyə öz münasibətini bildirir. Məsələn: "Yol çəkən gözlər", "Hanı?", "Axar su", "İstəmirəm", "Qəsbkar", "Gözləyirik", "Ağlamayın!", "Məhəbbətdirmi bu?!", "İki damla göz yaşı", "İstək", "Payız", "Gecikdikcə geciksin", "Ağaclarım", "Ümid və həqiqət", "Ömrümüz boyu", "Əsrlərdən əsrlərə", "Humanizm" mənsur şeirlərində müəyyən bir fikir ifadə olunur. Burada mənsur şeirlərə xas olan ritm, müəyyən sözlərin tez-tez təkrar olunması, melodik ahəng diqqəti cəlb edir.

"Bülbül meşə istəyir. Gül qoxulu, bahar ədalı, xoş sədalı meşə. İstəyincə, ürəyincə cəh-cəh vurmaq üçün.

Qartal dağ istəyir. Dörd bir yanı sıldırım qayalı dağ. Qıy vurub ənginliklərə şığımaq, səma dərinliklərinə yol almaq üçün.

Qağayı dəniz istəyir. Balıq nəfəsli, sahilləri insan ləpirli dəniz. Doyunca, yorulunca süzmək, hey süzmək üçün.

Sənətkar sərbəstlik istəyir.. Ürəklərə girmək üçün, əsrlərə getmək üçün!".[2] "İstək" adlı bu mənsur şeirdə, dörd yığcam abzasda dörd fikir söylənilir və əvvəllinci üç abzas dördüncüsü üçün vəsilə olur. Bülbülün meşə, qartalın dağ, qağayının dəniz istəkləri sənətkarın sərbəstlik istəyi ilə paralel təqdim edilir. Hər bir istək onu arzulayanın xarakterindən doğur.

Gülhüseyn Hüseynoğlunun mənsur şeirlərində təkrirlər çox işlənir və bu da mətndə yeknəsəqlik yaratmır, əksinə, fikri qüvvətləndirən məcazi bir vasitəyə çevrilir. Məsələn, "Axar su" mənsur şeirinə diqqət yetirək:

---

[1] Gülhüseyn Hüseynoğlu. Qatar gedir (mənsur şeirlər və hekayələr). Mənsur şeirlərim mənim – Bakı: Gənclik, 1983, s.4

[2] Gülhüseyn Hüseynoğlu. Qatar gedir (mənsur şeirlər və hekayələr). İstək. – Bakı: Gənclik, 1983, s.60

Axır suya baxıram… Şeh damlası kimi şəffaf, şırıldaya-şırıldaya axan suya! Axır, axır. Baxıram, ürəyim axır.

Axar suya baxıram… Könlüm-ruhum, qolum-qanadım açılır.

Axar suya baxıram... Uzaq-uzaq yollar, məsafələr qısalır. Ümid çoxalır.

Axar suya baxıram… Ömür mənalanır, fikirlər qol-budaq atır, şaxələnir.

Axar suya baxıram… Axır, axır.

Axar su durğunluğu sevməz. Sevirəm axar suyu, sevirəm![1]

Mənsur şeirlərində G.Hüseynoğlunun dil və üslub gözəlliyi hiss olunur: fikir aydınlığı, sadə və lirik təsvir üsulu, sözə qənaət, bədii təsvir vasitələrinə müraciət bu mənsur şeirləri oxucuya sevdirən başlıca xüsusiyyətlərdir. "Azərbaycan dili" mənsur şeirinə diqqət yetirək: *"Anamın südündə, vətənimin havasında, çörəyimdə, suyumda səni duymuşam!*

Torpağımda, daşımda, çölümdə-çəmənimdə, Kürümdə-Arazımda, Xəzərimdə səni görmüşəm!

Elimdə-günümdə, dərsimdə-kitabımda səni sevmişəm! Sevmişəm, a mənim tarixin eniş-yoxuşlarında xalqımın göz bəbəyi kimi qoruduğu dilim! Azərbaycan dilim".[2]

Gülhüseyn Hüseynoğlunun mənsur şeir yaradıcılığında müəyyən hadisə üstündə qurulan süjetli nümunələr də az deyil. Əgər öncə misal gətirilən nümunələr ifadə tərzinə, ritm və ahənginə görə şeirə daha çox oxşayırsa, müəyyən süjetə malik olan mənsur şeirlər isə lirik hekayəyə bənzəyirlər. Məsələn, "Azərbaycan gözəli" mənsur şeirinə diqqət yetirək. Burada Sahil bağında gəzən qızlardan biri – Qıztamamın gözəlliyi təsvir olunur: "Gözəl ayaq saxlayır, uzun boynunu arxaya çevirir. Qaraşın gənci görçək göyçək çöhrəsinə təbəssüm, sevinc qonur. Yer üzündə ən şəffaf bulaqdan su içən, ən aydın səhərdən nurlanan, qidalanan, ən açıq səmadan rəng alan təbəssüm, sevinc.

Qaraşın qıza yaxın gəldikcə şəffaf bulağın suyu kimi, aydın səhərin nuru kimi, açıq səmanın rəngi kimi göz oxşayan təbəssüm, sevinc daha da artır, artır. Ortaboylu, mütənasib əndamlı, ürkək baxışlı qız xoş ədası, xəfif gülüşü, gözəl duruşu, bütün görünüşü ilə qaraşını gözləyir".[3] Bura qədər mənsur şeirdir. Amma müəllif o qaraşın gənclə Qıztamamı yaxınlaşdırır.

"Mücrü" mənsur şeiri bir ömrün həyat dastanını oxucunun gözləri qarşısında canlandırır. Rus yazıçısı Konstantin Fedin bu mənsur şeir haqqında ürək sözlərini belə ifadə etmişdi: "Öz vətənində çox yaxşı tanınan

[1] Gülhüseyn Hüseynoğlu. Qatar gedir. – Bakı: Gənclik, 1983, s.39

[2] Yenə orada, s.91

[3] Gülhüseyn Hüseynoğlu. Yana-yana. – Bakı: Yazıçı, 1986, s.309

Azərbaycan yazıçısı Gülhüseyn Hüseynoğlu ilə məni təsadüf tanış etdi. O, nasirdir və mənsur şeir yazır. Janr…o qədər də yeni deyildir. Ancaq əlyazmasını oxuyarkən mən bu qənaətə gəldim ki, bunlar, heç şübhəsiz, bizi sovet xalqlarının poeziyasında meydana çıxan diqqətəlayiq nümunələrlə tanış edən "Drujba narodov" jurnalında çap olunmağa layiqdir.

"Mücrü" şeiri barədə danışmaq istərdim... Bu əsər ona görə diqqətəlayiqdir ki, oxucunun hissini hökmlə, lakin çox incə bir tərzdə keçmiş günlərdən bu günə gətirib çıxarır və yeni dünyamızı onun əsl ideal mənasında açıb göstərir.

Əsərdəki məcaz, varlığın canlı obrazına çevrilir. Bu metamarfoza məni ovsunlamışdır".[1]

"Mücrü" G.Hüseynoğlunun mənsur şeirləri içərisində elə bir nümunədir ki, həm ideyası, aşıladığı məzmunu, həm də forma-sənətkarlıq məziyyətləri ilə xüsusilə seçilir, fərqlənir. Yəni "mənsur şeir necə olmalıdır?" sualını bütün parametrləri ilə müsbət cavablandıran bir nümunədir. Cəmi 23 kiçik abzasdan ibarət olan bu mətndə şeirlə nəsrin möhtəşəm vəhdəti yaradılır. Cümlələr, abzaslar, kiçicik mətn parçaları bir-birini əvəz etdikcə, bir ananın və bir ailənin həyat tarixçəsi gözlərimiz qarşısında canlanır. Bədii ahəngi, emosionallığı etibarilə şeirə oxşayan, amma vəznsiz, qafiyəsiz olan bu parçada bir hekayənin, yaxud povestin materialı ola biləcək həyat hadisələri ilə qarşılaşırıq. "O, gəlin köçəndə anası mücrü də qoydu cehizinin üstünə. "Gəlin mücrüsüz olmaz!" dedi" – "Mücrü" mənsur şeiri bu cümlə ilə başlayır və mətndəki mücrü rəmzi məna daşıyır: etibarın, ailə şərəfinin, vəfa və sədaqətin, övlada məhəbbətin, həyatda qazanılan uğurların daşıyıcısı – qoruyucusudur mücrü. "Açıldı mücrü, örtüldü mücrü, boşaldı mücrü" – bu sətirlər həyatın dialektikasını, şərəflə yaşamış bir ailənin çətin, məşəqqətli, amma həm də sevinclərlə, uğurlarla, xoş anlarla dolu olan ömür yolunu səciyyələndirir.

Gülhüseyn Hüseynoğlunun bu qəbildən olan mənsur şeirlərini həyat lövhələri də adlandırmaq olar. "İnsan", "İlk qədəm", "İşıq və zülmət", "Müjdəçi", "Gənc ananın etirafı", "Bənövşə əfsanəsi", "Gözəl", "Küsülülər", "Kişilik", "Ən sağalmaz yara" mənsur şeirləri ona görə maraqla oxunur ki, bu yazılarda real həyat hadisələri öz əksini tapır. Xeyir və şər, işıq və zülmət, sevgi və nifrət, vəfa və xəyanət mənsur şeirlərdə bədii təzadların silsiləsini təşkil edir. Yazıçının mənsur şeirləri içərisində ayrı-ayrı görkəmli sənətkarlara, onların ömür yoluna həsr olunan nümunələr də maraq doğurur. "Yox, sən gözsüz qalmadın" mənsur şeiri M.Ə.Sabirə, "Deyirsən" mənsur şeiri isə dahi Füzuliyə xalq məhəbbətinin ifadəsi kimi səslənir. "Abdulla Şaiqin xatirəsinə", "Sonası" (Cəfər Cabbarlının həyat yoldaşına həsr olunub),

[1] Konstantin Fedin. "Drujba narodov" jurnalı, 1970, № 6, s.125

“Bir mahnı var” (“Ü.Hacıbəyovun “Sənsiz” mahnısından söz açılır), “Tar çalınır” (M.Müşfiqin məşhur “Oxu tar” şeiri və Qurban Pirimovun tarda möcüzələr yaratması), “Tar Londonda çalınır” (Londonda Azərbaycan tarının ingilisləri heyrətə gətirməsi), “Aman” (Həqiqət Rzayevanın xatirəsinə) mənsur şeirləri sənətin qüdrətinə, sənətkarın hünərinə yazılan mətnlərdir. Bu mənsur şeirlərdə milli-mənəvi duyğular, Azərbaycan sevgisi başlıca motivə çevrilir. “Tar Londonda çalınır” mənsur şeirində böyük bəstəkar Fikrət Əmirovun londonlu həmkarlarının xahişi ilə İngiltərəyə özünün tarı ilə getməsi, Kembric Universitetinin dəbdəbəli salonunda “Şur” muğamını səsləndirməsindən söz açılır. “Heyrət edir London, heyrət edir İngiltərə, heyrət edir. Bəstəkar tar çalır. Gör kimlər fikrində canlanır… Üzeyir xəfifcə gülümsəyir, aram-aram bığını sığallayır. Bülbül qıratın belinə sıçrayır. Qurban bərk-bərk köksünə sıxır tarını, başını azacıq əyib də mizrabı sarı simə toxundurur. Zəngulə vurur Seyid. Zəngulə. O çalır. Əsərləri dünyanı dolaşan, ən böyük, möhtəşəm, müəzzəm salonları heyranlıq içində saxlayan, soruşanlara: “Məni bəstəkar edən də Azərbaycan tarıdır”, – deyən o, duya-duya çalır. Sözünü təsdiqə çalışır. Bəstəkar tar çalır”.[1]

Gülhüseyn Hüseynoğlunun nəsr yaradıcılığı da özünəməxsusluğu ilə seçilir. Onun novella, hekayə və povestləri yaşadığı dövrün sosial-mənəvi ab-havasını əks etdirir və bu nəsr əsərlərinin əsas mövzusu da müasir insanın həyatından, dünyaya, gerçəkliyə, yaşadığı mühitə, ailəyə, sevgiyə, təbiətə, işlədiyi kollektivə münasibətindən doğan hadisələr üzərində qurulmuşdur.

Novellaları içərisində “Nigarançılığın sonu” nəsrimizdə uğurlu bir hadisə kimi qeyd edilir.

İki gözəl insan – zərgərlik mağazasında satıcı işləyən Nazəninlə neftçıxarma briqadasında usta köməkçisi işləyən Mustafa arasında yaranan ünsiyyət get-gedə qarşılıqlı məhəbbətə çevrilir. Hər ikisi hiss edir ki, tale onları əbəs yerə bir-biri ilə qarşılaşdırmayıb, amma hisslərini büruzə verməkdə uzun müddət tərəddüd edirlər. Nazənin: “Onsuz yaşaya bilərəmmi, necə olsa, özümü ələ alacağam. Hisslərimi boğacağam”, – deyilsə də, özünü o yerə qoymur, Mustafanı sevir. Mustafa da kənddən qayıdandan sonra qərara alır ki, ürəyində gün-gündən ona rahatlıq verməyən “mənim sevdiyim qız sənsən, Nazənin, sən!” kəlmələrini sevdiyi qıza söyləsin. Beləliklə, əsl, saf bir sevgi iki ürəyi əbədi birləşdirir, nigarançılığa son qoyulur. Akademik Bəkir Nəbiyev “Nigarançılığın sonu” novellasını G.Hüseynoğlunun ədəbi uğuru hesab edir və yazır ki: “Bu əsəri kiçik povest də adlandırmaq olar. Onun əsas qəhrəmanlarının xarakteri əsərdə aydın cizgilərlə işlənmişdir”.[2]

[1] Gülhüseyn Hüseynoğlu. Yana-yana. – Bakı: Yazıçı, 1986, s.298
[2] Bəkir Nəbiyev. Səmimi hekayələr. “Ədəbiyyat və incəsənət” qəzeti, 10 avqust 1963

Gülhüseyn Hüseynoğlunun hekayələrini mövzular üzrə müəyyən bölgülərə ayırmaq istəməzdik. Lakin onları küllən həyat hekayələri adlandıra bilərik. Ailə münasibətləri, gənclərin sevgi duyğuları, vəzifəpərəstliyin, karyerizmin, səmimiyyətə zidd digər mənfi halların tənqidi, halal əməyin tərənnümü, analara, atalara sonsuz ehtiram, mənəvi saflığa çağırış…və başqa həyati məsələlər onun hekayələrinin əsas qayəsini təşkil edir. Onun təqdim etdiyi qəhrəmanlar adi insanlardır, lakin bu adi insanlar mənən saf və işıqlı, təmiz və xeyirxahdırlar.

"Vaxt keçirdi" hekayəsinin qəhrəmanı Türkan gözəl bir qızdır, həyatında bir çox bədbəxtliklərlə üzləşib, atası da, anası da çoxdan ölüb. Gözəldir, mənən safdır və həyatda kimin pis, kimin yaxşı olduğunun da fərqinə varır. Buna görə də Sərfi arvadın oğlu Əbülün evlənmək təklifini rədd edir. O, Neft daşlarında birgə işlədiyi Müqbilə könül verir. Adi bir əhvalatdır, ancaq G.Hüseynoğlu bu adi əhvalatı maraqlı hadisələrlə oxucuya çatdırır. "Geoloq qız" hekayəsində isə başlanğıc və sonluq təzad təşkil edir. Belə ki, iki gəncin – Neft daşlarında işləyən Yadigarla Xalisənin saf, təmiz məhəbbəti, bir-birinə könül verib toya hazırlaşmaları sonda faciə ilə bitir – "Xalisə zülüm-zülüm ağlayır, kamança inildəyirdi. Neft daşlarında müsibət olmuşdu. Palçıq təpəsində ayrıca özüllərdə iki qazma briqadasının adamları dəhşətli fırtınada həlak olmuşdular. İyirmi iki nəfəri qərq etmişdi müdhiş fırtına. Yadigar bu gün qayıdacaqdı. Xalisəylə Bakıya gedəcəkdi. Yadigarın elçiləri Xalisəgilə gələcəkdilər.."[1]

Bu iki hekayədə təsvir olunan əhvalatlar, əsasən ailədə və qəhrəmanların işlədiyi Neft daşlarında cərəyan edir. Ancaq müəllif istehsalatla bağlı məsələlərə toxunmur, diqqəti təqdim etdiyi obrazların əmək fəaliyyətinə deyil, mənəvi aləminə yönəldir. İstehsalat sadəcə, bir fon kimi diqqəti cəlb edir.

Gülhüseyn Hüseynoğlu bir sıra hekayələrində məktəb həyatından, müəllim-şagird münasibətlərindən, ailə tərbiyəsindən bəhs edir, ali məktəbdə dərs deyən müəllimləri də unutmur.[*] Müəllif bu hekayələrdə də əsas diqqətini təsvir etdiyi obrazların mənəvi aləminə yönəldir, xasiyyətcə, xaraktercə bir-birinə zidd insanların psixologiyasına, hiss-duyğular aləminə diqqət yetirir. "Ata düşüncələri" silsiləsindən olan hekayələrin heç birində bir ata digərinə oxşamır. Bu da onu göstərir ki, müəllif həyata, insanlara eyni prizmadan baxmır, diqqətlə müşahidə edir, fərqləri, ayrılıqları seçə bilir.

---

[1] Gülhüseyn Hüseynoğlu. Məhəbbətdirmi bu. – Bakı: Gənclik, 1996, s.179

[*] "Bərk ayaqda", "Məsələ aydındı", "Problem №", "Evdə uşaq böyüyürdü", "Öz gözündə", "Ata olandan sonra", "Bir həftəlik salamlaşma", "Bizi də özün kimi bil", "İmtahan", "Növbətçi təbəssüm" və s.

Gülhüseyn Hüseynoğlu "Yana-yana", "Adam istəsə", "Xəzərin qoynunda" adlı üç povestin də müəllifidir. Hekayələrindəki incə müşahidə qabiliyyəti, təqdim etdiyi obrazların səciyyəvi xüsusiyyətlərini açа bilmək səriştəsi, maraqlı, düşündürücü hadisələr əsasında süjeti inkişaf etdirməsi onun povestlərində daha aydın nəzərə çarpır.

"Yana-yana" povesti böyük el sənətkarı Aşıq Ələsgərin gənclik illərindən bəhs edir. Lirik hissləri, insan qəlbinin, insan sevgisinin ən zərif, kövrək məqamlarını əks etdirən bu povest ilk cümləsindən oxucunu öz ardınca çəkir, gənc Ələsgərin keçirdiyi hisslər, onun varlı evində nökərçilik etməsi, burada Səhnəbanuya aşiq olması, onun eşqiylə gözəl qoşmalar söyləməsi və nəhayət, bu eşqin qarşısına çıxan maneələr – bütün bunlar Aşıq Ələsgərin tərcümeyi-halı ilə uyğundur. Lakin təbii ki, tərcümeyi-halla bədii əsər arasında eynilik ola bilməz. Çünki bədii əsərdə qəhrəmanın keçirdiyi hisslər, onun sevgisi, əhatə olunduğu mühit və qarşılaşdığı çətinliklər müəllifin bədii təxəyyülünün məhsuludur və Gülhüseyn Hüseynoğlu professional bir yazıçı kimi bunları ustalıqla təsvir edə bilmişdir.

Povestdə gənc Ələsgərlə Səhnəbanunun sevgi macərası Azərbaycan sevgi dastanlarını xatırladır. Sevənlərin görüşləri, bir-birilə əhd-peyman bağlamaları, lakin ictimai haqsızlıq üzündən vüsala yetməmələri lirik səhnələrlə təqdim edilmişdir. Əvvəli sevgi dolu anlar, sonrası qəmli, kədərli günlər, ayrılıq. Səhnəbanu Ələsgərə yox, varlı bir adama qismət olur. Ələsgər bu dərddən xəstələnir. Müəllif bu eşqi sadəcə iki gəncin uğursuz taleyi kimi təsvir etmir. Ələsgər öz yuxusunda Məcnunu, Kərəmi, Qəribi görür, deməli, o nakam aşiqlərin sırasına Ələsgər də qoşulur: "– Deyəsən, tanımadın məni, Ələsgər. Mən Qeysəm də. El arasında mənə Məcnun deyirlər. Sənin çöllü-biyabanda nə işin var? Bilirəm ki, özündən söz deyirsən. Mən də deyirdim. Çöllərə düşməsəydim, əməlli-başlı şair idim. Sən söz de, Ələsgər, bizim hamımızın əvəzindən, biz cəfakeşlərin: Kərəmin də, Qəribin də, Şeyx Sənanın da… əvəzindən sən söz deginən, Ələsgər!

Məcnun xəyala döndü, Ələsgər tək qaldı".

Müəllifin digər iki povesti qəhrəmanların istehsalat-əmək fəaliyyəti ilə bağlıdır.

Gülhüseyn Hüseynoğludan, onun şəxsiyyəti və yaradıcılığından söz açanda müasir Azərbaycan poeziyasının klassiki Mikayıl Müşfiqi də xatırlamamaq olmur. Gülhüseyn Hüseynoğlu Sibir sürgünündən geri qayıdıb, 1956-cı ildə o, Universitetin aspiranturasında müəllim kimi də fəaliyyətini davam etdirir. Mikayıl Müşfiqin həyat və yaradıcılığı haqqında namizədlik dissertasiyasını müdafiə edir və ömrünün sonunacan Müşfiq yaradıcılığının bir nömrəli tədqiqatçısı kimi diqqəti cəlb edir. 1968-ci ildə onun "Müşfiq" (Həyat və yaradıcılığı), 1987-ci ildə "M.Müşfiqin yaradıcılıq yolu" (dərs vəsaiti), 1999-cu ildə "Mikayıl Müşfiq" (albom-kitab) nəşrləri çap edilir,

bundan başqa mətbuatda xeyli məqalələri də dərc olunur. 2004-cü ildə o, Mikayıl Müşfiqin əsərlərinin üçcildliyini hazırlayır. Birinci cildin ilk səhifəsindəcə oxuyuruq: "Təmənnasız tərtib edəni və redaktoru Gülhüseyn Hüseynoğlu".

Üçcildliyə yazdığı "Bədii sözün ecazı" adlı Ön sözündə G.Hüseynoğlu M.Müşfiqin bənzərsiz poeziyasından, onun şeirlərinin, poemalarının bədii məziyyətlərindən söz açır, eyni zamanda, Müşfiqin yaşadığı illərdə onun məruz qaldığı böhtanlardan, qarayaxmalardan danışır. "Müşfiqi 1937-ci ilin 4 iyun gecəsi gəlib aparmışdılar. "Ədəbiyyat qəzeti"nin 21 avqust 1937-ci il tarixli nömrəsində onun barəsində şair Məmməd Rahimin "Kontrrevolusioner, kontrabançı, oğru" adlı ölüm qoxuyan zəhərli məqaləsi çap olunmuşdu. Həmin məşum ilin məşum məqalələrindən sayılan bu böhtan kisəciyi – yazı belə başlayırdı: "Ədəbi sahə ideologiya cəbhəsində sinifli mübarizənin ən kəskin və mürəkkəb sahəsi olduğundan düşmən buraya soxulmağa və öz fikirlərini yürütməyə çalışır.

M.Müşfiq belələrindən idi. Zahirən "səmimi", "məzlum görünən", əsas mahiyyəti etibarilə isə hiyləgər olan Mikayıl Müşfiq çox zaman ifşa olunmaq ərəfəsində "sovet əsəri" yazaraq özünü gözdən yayındırmışdır. Onun zahirən sovet, lakin bütün daxili quruluşu etibarilə qəddar kontrrevolusion ruh ilə dolu olan bir sıra əsərləri vardır". G.Hüseynoğlu Müşfiqlə bağlı bütün bu cür böhtan və iftira dolu faktları ilk dəfə öz yazılarında nəzərə çarpdırır.

G.Hüseynoğlu Müşfiqi lirik bir şair kimi səciyyələndirir, onun müraciət etdiyi bütün mövzularda bu lirikanın zənginliyindən söz açır. O, Müşfiqi cəsarətli, sözünü açıq deməkdən çəkinməyən bir şair kimi də səciyyələndirir. İyirminci illərin axırlarında – otuzuncu illərin əvvəllərində Maarif komissarı Mustafa Quliyevin göstərişilə konservatoriyada tar musiqi alətinin tədris olunması qadağan edilmişdi. O zaman bir çox şairlər, o cümlədən Süleyman Rüstəm bu qərarı alqışlamışdı: "Kəs səsini, ötmə dedim. Ötmə dedim, ötmə tar! İstəməyir proletar, səndə çalınsın qatar".

Amma Mikayıl Müşfiq heç nədən və heç kimdən çəkinmədən "Oxu, tar" şeirini yazdı:

Oxu, tar, oxu, tar!
Səsindən ən lətif şeirlər dinləyim.
Oxu, tar, bir qadar...
Nəğməni su kimi alışan ruhuma çiləyim
Ey geniş kütlənin acısı, şərbəti-
Alovlu sənəti.

Bu faktı, tarla bağlı bu "konflikti" də ilk dəfə G.Hüseynoğlu öz yazılarında nəzərə çarpdırır.

G.Hüseynoğlu M.Müşfiqin yeni poetik formalar yaratmağa cəhd etməsindən də söz açır. "Şairin elə əsərləri var ki, ancaq onun özünəməxsus bir formada yazılmışdır. "Tərtərhes nəğmələri" və "Mingəçevir həsrəti" əsərlərində o, beş üçlükdən ibarət 15 misralıq bənd yaratmışdır ki, burada birinci üçlüyün iki misrası öz aralarında qafiyələnir, üçüncü misra isə o biri üçlüklərin üçüncü misraları ilə həmqafiyə olur". Daha sonra G.Hüseynoğlu Müşfiq poeziyasının vəzn cəhətdən də maraqlı olduğunu qeyd edir, buna aid misallar gətirir.

Ümumiyyətlə, Gülhüseyn Hüseynoğlunun – ilk müşfiqşünas alimin böyük şairimizlə bağlı tədqiqatları onu bir alim-tədqiqatçı kimi də tanıdır.

Gülhüseyn Hüseynoğlu Azərbaycan ədəbiyyatında mənsur şeir ustası və bir sıra maraqlı, orijinal nəsr əsərlərinin müəllifi kimi özünəməxsus yer tutur və bu əsərlər onu bir sənətkar kimi yaşadacaqdır…

CƏLAL BƏRGÜŞAD
(1924-1996)

XX əsr Azərbaycan nəsrinin tanınmış nümayəndələrindən biri, görkəmli yazıçı, istedadlı ssenarist Cəlal Bərgüşad tarixi romanları ilə bədii düşüncə tariximizdə mühüm yer tutur.

Həyatı. Cəlal Bərgüşad (Cəlal Novruz oğlu Cavadov) 1924-cü il iyunun 22-də Azərbaycanın Qubadlı rayonunun Qəzyan kəndində anadan olmuşdur. Onun uşaqlıq illəri Azərbaycanda sovet rejiminin ağalıq etdiyi ağır zamana təsadüf etmişdir. Orta təhsilini Qubadlı kəndindəki fəhlə-gənclər məktəbində almış, orta məktəbin sonuncu sinfində oxuduğu vaxt Vətən müharibəsi başlamışdır. O, hələ orta məktəb şagirdi olmasına baxmayaraq, hərbi səfərbərliyə alınaraq cəbhəyə göndərilmişdir. Onun xidməti yolu müxtəlif cəbhələrdən keçmiş, qanlı döyüşlərdə iştirak etmiş, müharibənin ən dəhşətli səhnələrinin şahidi olmuşdur. Döyüşlərdən birində ağır kontuziya alaraq 1943-cü ildə ordudan tərxis olunmuşdur. Cəbhədən qayıtdıqdan sonra 1943-1946-cı illərdə Qubadlı rayon Daxili İşlər İdarəsi VVAQ şöbəsinin müdiri vəzifəsində işləmişdir.

Cəlal Bərgüşad 1946-cı ildə Azərbaycan Dövlət Universitetinin (indiki BDU) Filologiya fakültəsinin jurnalistika şöbəsinə daxil olmuş, 1951-ci ildə ali təhsilini başa vuraraq "Azərbaycan pioneri" qəzetində ədəbi işçi vəzifəsində fəaliyyətə başlamışdır.

Cəlal Bərgüşad 1958-ci ildə Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Komitəsində böyük redaktor vəzifəsinə təyin olunaraq öz taleyini Azərbaycan televiziyası ilə bağlamışdır. Burada keçən illəri yazıçının yaradıcılığının ən məhsuldar dövrünə təsadüf etmişdir. Onun ssenarisi əsasında "Çoban Boran", "Göy göl", "Torpağın ətri", "Çinar yarpağı" televiziya filmləri çəkilmişdir. Bu televiziya filmlərinin mövzusunu və əsas süjet xəttini respublikada həyata keçirilən quruculuq işlərinin təbliği təşkil etsə də, yazıçının doğma yurduna, onun zəhmət adamlarının əməyinə və şəxsiyyətinə olan sevgisi də filmlərdə öz əksini tapmışdır.

Ötən əsrin 80-ci illərinin sonlarından ermənilərin Qarabağda rəvac verdikləri separatizm hərəkatı Cəlal Bərgüşadın da dincliyini ərşə çəkmişdir. Böyük yazıçı ana vətəninə qarşı Moskva – İrəvan cütlüyünün başlatdığı bu çirkin oyunu heç cür qəbul edə bilməmişdir. Doğulduğu Qubadlı rayonu da bu qaynar qazanın içinə düşdüyündən yazıçı tez-tez döyüş bölgələrinə yollanmış, yerlərdə əhali ilə, döyüşçülərlə görüşərək onlara ürək-dirək vermiş, tövsiyələrini əsirgəməmişdir.

Cəlal Bərgüşad xidmətlərinə görə birinci dərəcəli "İkinci Dünya müharibəsi" ordeni (1986) və medallarla təltif edilmişdir. O, 1996-cı il iyulun 9-da vəfat etmiş, Bakı şəhərində dəfn edilmişdir.

Yaradıcılığı. Cəlal Bərgüşad bədii yaradıcılığa şeirlə başlamışdır. Onun "Cənub taydan əsən meh" adlı ilk şeiri Qubadlıda nəşr olunan "Avanqard" qəzetində 1946-cı ildə dərc edilmişdir. Bu hadisə o illərə təsadüf edirdi ki, Azərbaycanın cənubunda Seyid Cəfər Pişəvərinin başçılığı ilə baş vermiş milli-azadlıq hərəkatı xarici işğalçı qüvvələr və şovinist fars-Pəhləvi rejimi tərəfindən qan gölündə boğulmuş, Azərbaycan xalqına qarşı amansız soyqırım həyata keçirilmişdir. Xalqımızın başına gətirilmiş bu böyük faciə Azərbaycanın şimalında da böyük xalq kədərinə səbəb olmuş, bu qanlı hadisələr Azərbaycan ədəbiyyatında uzun illər aparıcı mövzulardan birinə çevrilmişdir. Cəlal Bərgüşadın şeirində də bu əhval-ruhiyyə öz bədii inikasını tapmışdır.

Müharibə mövzusu ağır cəbhələrdən keçmiş yazıçının yaradıcılığında aparıcı yer tutur. Çoxsaylı hekayələrində yazıçı müharibənin insanlara yaşatdığı dəhşətli ağrıları, faciələri gözü ilə görüb, yaşadığı məhrumiyyətləri böyük ustalıqla qələmə almışdır. "Yarımçıq qalmış imtahan" (1968) hekayəsində yazıçı elə özünün və həmyaşıdlarının həyatını qələmə almışdır:

"Müharibə başlananda mənim on yeddi yaşım hələ tamam olmamışdı. Onuncu sinifdə oxuyurdum. O zaman döyüşlər çox uzaqlarda gedirdi. Lakin ağır topların gurultusu qulaqlarımızda səslənirdi. Səmadan barıt qoxusu duyulurdu. Gecələr işığa həsrət idik. Müharibə bizim kəndə çoxlu qara pərdələr gətirmişdi. Qaranlıq düşəndə həmin pərdələrlə pəncərələrimizi qapayırdıq. Müharibə bizə kədər gətirmişdi. Müharibə bizə yuxusuz gecələr gətirmişdi. Müharibə bizə əsəbilik gətirmişdi.

Sinifdəydik. Ədəbiyyatdan yazılı imtahan verirdik: "Nizami yaradıcılığında vətənpərvərlik".[1]

Yazıçının sadə və aydın bir dillə təsvir etdiyi real həyat hadisələri, o dövrün həyat səhnələri, müharibə mövzusu, onun insanların dinc həyatına gətirdiyi ağrılar və törətdiyi fəsadlar oxucuda bu dəhşətləri törədənlərə qarşı dərin nifrət hissi aşılayır. Çünki bu müharibə milyonlarla günahsız insanın dinc həyatını, gələcək arzularını alt-üst etmişdir. Avropada gurlayan ağır topların, qorxulu silahların səsi ondan min kilometrlərlə uzaqda yerləşən yazıçının doğma yurdu qədim Zəngəzur torpağında da eşidilməkdə idi. Qanlı döyüşlər bu kəndlərdən çox uzaqlarda getsə də, onun alovu bu yerləri də yandırıb-yaxmaqdaydı.

"Müəllimlərimizin çoxu əsgər getmişdi. Odur ki, ədəbiyyatdan imtahanı cəbhədə ağır yaralanıb qayıtmış idman müəllimi götürürdü. Sinəsindəki bir cüt Qızıl Ulduz ordeni müəllimimizin ağır döyüşlərdən çıxdığını göstərirdi".[2]

---

[1] Cəlal Bərgüşad. Dərilməmiş salxımlar. – Bakı: Gənclik, 1974, s.5

[2] Yenə orada, s.5

Cəbhədə əsgər çatışmazlığından orta məktəbin yuxarı siniflərində oxuyan oğlanları da orduya çağırırdılar. Yazıçı da belə bir tale yaşamış insanlardan biri idi. Həyat onu orta məktəb imtahanlarından daha çətin bir sınaqla üz-üzə qoymuşdu.

"Rəngim açıldı:

– Elədir, yoldaş komissar!..

– İndi bizə sənin kimi vətənpərvər oğlanlar lazımdır. Bu yazdıqlarınızı yaxşı olar ki cəbhədə həyata keçirəsiniz. Vətən sizin imtahanınızı cəbhədə götürəcək!

– Elədir, yoldaş komissar!

– Sən ki, lap əsl soldatsan".[1]

Bircə günün içində onun həyatı tamam dəyişir. Az sonra o, sakit məktəb həyatı ilə birdəfəlik vidalaşır.

"Komissar əlini çiynimə qoyub məni silkələdi, elə bil məni yoxlayırdı. Mən ayaqlarımı yerə dirəmişdim.

– Belə. Səni hərbi dəniz donanmasına göndərsəm, gedərsənmi?

– Gedərəm, yoldaş komissar!

– Elə isə get lövhənin qabağında dayan. Görürəm, qoçaq oğlana oxşayırsan".[2]

Bu imtahandan sonra gənc Cəlalın daha ciddi həyat imtahanı başlayır. Cəbhəyə göndərilən gənc ağır döyüşlərin sınağından keçir. Sonradan bu döyüş səhnələri onun bir çox hekayəsinin əsas mövzusuna çevrilir. Yazıçının 1973-cü ildə "Gənclik" nəşriyyatında nəşr olunmuş "Dərilməmiş salxımlar" kitabında toplanmış hekayələrdə müharibə mövzusu, onun müxtəlif problemlərini əks etdirən həyati lövhələr öz bədii əksini tapmışdır.

Müharibənin dəhşətlərini əks etdirən hekayələrində yazıçı böyük həyat sınağı ilə üz-üzə qalmış sovet əsgərinin sabahkı günə inamını, qəlbində yaşatdığı arzularını, onun uzaqlarda qalmış doğmaları ilə bağlı keçirdiyi həyəcanları ustalıqla qələmə almışdır.

"Qulağımız gecə-gündüz səsdə idi. Hər gün Moskvaya qulaq asırdıq. Stalinqradda gedən ölüm-dirim vuruşlarını həyəcanla izləyirdik, hamımız döyüşə atılmağa tələsirdik:

– Bəs nə vaxt hücuma keçəcəyik?

– Müdafiədə nə qədər qalmaq olar?

– İcazə versələr, birbaş Stalinqrada gedərik!

[1] Cəlal Bərgüşad. Dərilməmiş salxımlar. – Bakı: Gənclik, 1974, s.5

[2] Yenə orada, s.6

– Darıxmayın, mənim igidlərim, hələ çox vuruşmalı olacayıq; Berlinə qədər yol gedəcəyik”.[1]

Tarixən ədəbiyyatın ən çox müraciət etdiyi mövzulardan biri müharibə olmuşdur. Dünya xalqlarının ədəbiyyatında da bu mövzuyla bağlı saya gəlməz qədər bədii ədəbiyyat nümunələri yaradılmışdır. Müharibə qan-qada, ölüm-itim deməkdir. Bədii ədəbiyyatın insanlara aşıladığı əsas qayə müharibəyə nifrət, ona qarşı mübarizədir.

Yazıçı “Bir qış səhərində” hekayəsində müharibə dəhşətlərinin insanlarda yaratdığı mənəvi-psixoloji sarsıntıları, sağ qalmaq üçün sovet əsgərinin yaşadığı məhrumiyyətləri detallı şəkildə əks etdirmişdir:

“Hitlerçilər indi meşəni bombalayırdılar. Bilirdilər ki, ayağı yer tutan meşəyə qaçmışdı. Qara quzğunlar qanadlarını lap üstümüzə gərmişdi. Ətrafımıza pulemyot güllələri səpələnirdi. Xoşbəxtlikdən heç birimizə dəymirdi. Arxası üstə səngərdə uzanmışdıq. Bombaların hara düşəcəyini gözəyarı ölçürdük. Hər dəqiqə bizi ölüm gözləyirdi. Semyon Petroviç bir düşmən təyyarəsinin lap alçaqdan üstümüzə endiyini görüb, özünü saxlaya bilmədi, tapançası ilə “quzğuna” atəş açdı. Komandir özü də bilirdi ki, onun atdığı güllə əbəsdir”.[2]

“Dərilməmiş salxımlar” hekayəsində arxa cəbhədə yaşayan insanların çəkdikləri ağrılardan, yaşadıqları sarsıntılardan bəhs olunur. Yazıçı oğullarını cəbhəyə yola salmış anaların nisgillərini Gülcahan ananın timsalında kövrək notlarla öz oxucusuna çatdırır.

“Gülcahan qarının gözünün ağı-qarası bir oğlu vardı. Adı da Ümid idi. Ümid neçə il idi bağbanlıq edirdi.

Müharibə başlandı. Çoxlarının qapısından qıfıl asıldı, çoxlarının evinin işığı söndü. Soyuq payız gecələrinin birində Gülcahanın oğlu Ümidi əsgər çağırdılar. Ana balasını bağrına basdı. Xudahafizləşərkən Ümid anasına aynabəndin qabağında yenicə əkdiyi tənəyi tapşırdı:

– Ana, bu tənəkdən muğayat ol...

Gülcahan qarı özü də hiss etmədən tənəkdən yapışdı. Ananı hıçqırıq tutduğundan o, fikrini güclə tamamladı:

– Arxayın ol, oğlum...

Ümidin əkdiyi tənək böyüyüb aynabəndi tutdu. Tənək çoxlu üzüm gətirdi. Gülcahan qarı o vaxtdan öz Ümidinin təsəllisini bu tənəkdən aldı. Onu körpə kimi bəslədi. Susayanda su verdi, acanda torpaq”.[3]

---

[1] Cəlal Bərgüşad. “Ürək sevmək istəyir”. Dərilməmiş salxımlar (hekayələr). – Bakı: Gənclik, 1974, s.11

[2] Cəlal Bərgüşad. “Bir qış səhərində”. Dərilməmiş salxımlar (hekayələr). – Bakı: Gənclik, 1974, s.20

[3] Cəlal Bərgüşad. “Dərilməmiş salxımlar”. Dərilməmiş salxımlar (hekayələr). – Bakı: Gənclik, 1974, s.29

Bu hekayədə ana sevgisi, ana qəlbinin genişliyi, oğlunun yadigarı olan üzüm tənəklərini övladı kimi əzizləməsi hekayəni daha da oxunaqlı edir.

"Heykəl həkimi" hekayəsinin olduqca maraqlı bir mövzusu və süjet xətti vardır. Müəllifin yol yoldaşı ilə söhbətində hekayənin əsas mövzusu aydın olur.

"Maşınla Yaltadan Sevastopola gedirdim. Böyrümdə sarıtel bir oğlan oturmuşdu. Mən dənizə baxırdım, o isə yolun qırağındakı heykəllərə. Mavi gözlərini nədənsə o daş insanlardan çəkmirdi... Söhbətə ehtiyac duyurdum. Ancaq tanımadığım adamı birdən-birə necə sorğu-suala tutaydım?! Səbrim tükəndi:

– Bağışlayın, Siz də Sevastopola gedirsiniz?

– Bəli.

– Xeyir ola?

Müsahibimin gözləri qıyıldı. Heykəllərdən birinə işarə etdi:

– Qəhrəmanları müalicə etməyə gedirəm.

Təəccüblə xəbər aldım:

– Siz həkimsiniz?

– Bəli.

Susdum. Onu burnu ağarmış çəkməsindən tutmuş həsir şlyapasına qədər gözdən keçirdim. Əynindəki sətin kombinzona da baxdım. Böyründəki sumkasını ayağımla yoxladım, ayağıma çəkic toxundu, daş parçası dəydi. "Belə də həkim olar?! Bunun dərmanı çəkicdir, daşdır?!"[1]

Simvolik elementlərdən böyük ustalıqla istifadə edən yazıçı hekayəsinə maraqlı bir forma seçmişdir. Əslində onun yol yoldaşı müharibə zamanı heykəllərin sınıb-tökülmüş hissələrini bərpa etməklə məşğuldur.

"Heyf, səd heyf!... Naximovun qolu yaralanmışdı. Faşistlər onu çox incitmişdilər. Sinəsində güllə yarası vardı, qolunda qəlpə yarası, ayağında mərmi yarası. Lakin o, faşistlərin atəşindən qorxmamışdı, səngərə yatmamışdı, düz durmuşdu, şax dayanmışdı.

Mən gözlərimi yol yoldaşıma zillədim. O, əlində çəkic Naximovun heykəli qarşısında dayanmışdı. Sanki admiral Naximov ona baxıb gülümsəyirdi: "Həkimim gəlib!"[2]

"Zahidcana nə yazım?", "Yazıq torpaq", "Alma ağacı", "Yuva", "Gertudanın faciəsi", "Vəfalı dost", "Şərq çiçəyi", "Pullu qəbir", "Sevda xanımın sevdası" və s. hekayələrində yazıçı həyatın müxtəlif problemlərinə güzgü tutan məsələləri ön plana çəkmişdir.

Yaradıcılığının ilk illərində Cəlal Bərgüşad daha çox cəbhə ilə bağlı xatirələrini qələmə almışdır. Bu kiçik hekayələrdə müharibənin dəhşətli

[1] Cəlal Bərgüşad. Heykəl həkimi. – Bakı, s.37

[2] Cəlal Bərgüşad. Həkimim gəlib. – Bakı, s.37-38

səhnələri, onun insanların həyatına gətirdiyi ağrı-acılar, döyüşlərdə yazıçının öz başına gələn hadisələr və döyüş yoldaşlarının yaşadıqları olaylar öz bədii əksini tapmışdır.

Müharibədən dönəndən bir neçə il sonra yazıçının yaradıcılığında yeni bir dönəm başlamışdır. Cəlal Bərgüşad Azərbaycanın tarixi keçmişi ilə bağlı ciddi araşdırmalara başlamış, xalqımızın tarixində silinməz izlər qoymuş böyük şəxsiyyətlərin həyatlarını dərindən öyrənmiş, onların haqqında qiymətli tarixi romanlara imza atmışdır. Yazıçının bu mövzuda yazdığı ilk tarixi romanı "Bozatın belində"dir. O bu romanın üzərində on ildən artıq əmək sərf etmiş, bitkin bir əsər ortaya qoya bilmişdir.

"Bozatın belində" romanında yazıçı XIX əsrdə rus imperiyasının işğalı altında olan Azərbaycanda müstəmləkəçilərə və onların yerli əlaltılarına qarşı baş qaldırmış xalq hərəkatından bəhs etmişdir. Bunların içərisində XIX əsrin sonlarında Zəngəzur mahalında xalq qəhrəmanı Qaçaq Nəbinin başçılığı altında baş vermiş üsyan daha çox məşhur idi. Azərbaycanın şimalında baş vermiş və cənubunda da böyük əks-səsdaya səbəb olmuş bu üsyan o illərdə imperiyanın yuxusunu ərşə çəkmişdir.

Əsərin proloqu maraqlı bir təhkiyə ilə başlayır. Burada yazıçı böyük ustalıqla bədii epitetlərdən istifadə edərək qəhrəmanın əzəmətli obrazını oxucunun gözləri önündə canlandırır. "Dünyada mənə elə bir igid göstərin ki, iyirmi beş il el-obasından didərgin düşüb öz ömür-gün yoldaşı ilə qaranlıq mağaralarda, qalın meşələrdə, qarlı dağlarda məskən salmış olsun.

Dünyada mənə elə bir igid cəngavər göstərin ki, at belində yaşa dolub, at belində vuruşsun; at belində qocalıb, at belində həlak olsun.

Belə xalq qəhrəmanına və onun özündən qoçaq can sirdaşına bəstələnən el nəğmələri bir vaxt anamın laylasına qarışıb mənim də beşiyimə axmışdır. İndi bu nəğmələri mən öz səsimlə oxumaq istəyirəm. Bilmirəm məni axıracan dinləməyə səbriniz çatacaqmı?"[1]

Tarixi şəxsiyyət olan Qaçaq Nəbi məzlum sinfin hakim təbəqəyə qarşı apardığı silahlı mübarizənin ən parlaq nümayəndələrindən biri kimi milli mübarizə tariximizdə şərəfli yer tutur. İndiki Qubadlı rayonunun Mollu kəndində yoxsul kəndli Alının ailəsində dünyaya göz açmış Nəbi hələ uşaq yaşlarından çar məmurlarının, varlı təbəqənin – koxaların, hampaların məzlum sinfə, kasıb insanlara qarşı törətdikləri haqsızlıqların, təhqirlərin, vəhşiliklərin şahidi olmuşdur. Bu haqsızlıqlar zaman keçdikcə onun qəlbində nifrətə, qəzəbə çevrilmişdir. Atası Alı kişinin hampa tərəfindən vəhşicəsinə döyülməsi gənc Nəbinin qəzəbini püskürtmüş, atasının qisasını alaraq həmin kəsi ölümcül döymüş, daha kənddə yaşaya bilməyəcəyini görüb silaha sarılaraq qaçaqlığa başlamışdır. Az keçməmişdir ki, hakim sinfin zülmündən

[1] Cəlal Bərgüşad. Boz atın belində. – Bakı: Gənclik, 1988, s.3

boğaza yığılmış xalqın qeyrətli oğulları Nəbinin ətrafında birləşərək silahlı mübarizəyə başlamışlar.

Cəlal Bərgüşad Qaçaq Nəbinin həyatını dərindən öyrənmiş, onunla bağlı arxiv sənədləri ilə tanış olmuş, onu tanıyan insanlarla görüşmüş, bu xalq qəhrəmanının apardığı döyüşlərin tarixini tədqiq edərək milli qəhrəmanlıq tariximizin bu şanlı səhifəsini bədii ədəbiyyatın yaddaşına köçürmüşdür.

Sovet hakimiyyəti illərində aparılan təbliğatın kökündə o dayanırdı ki, guya qaçaqlıq hərəkatı daha çox yerli bəylərə, hampalara, varlı sinfə qarşı yönəlmişdir. Elə dərslik və kitablarda da Qaçaq Nəbi üsyanı əsasən bu prizmadan təqdim olunurdu. Lakin aparılan son tədqiqatlar əsas bir həqiqəti üzə çıxarmışdır ki, Qaçaq Nəbinin mübarizəsi daha çox rus çarizminin işğalçılıq və müstəmləkəçilik siyasətinə, eləcə də erməni millətçiliyinə qarşı yönəlmişdir.

Ağır vergilərdən və hakimiyyətin hədsiz zülmündən cana doymuş xalq imkan düşən kimi, yerli çar çinovniklərinə qarşı öz səsini qaldırır, bəzən isə bu etirazlar açıq üsyana çevrilirdi. Bu üsyanlar arasında kütləvilik və mütəşəkkillik baxımından ən möhtəşəmi Qaçaq Nəbinin başçılıq etdiyi xalq üsyanı idi. Yazıçı da romanda yaratdığı həyat səhnələrində məhz bu tarixi həqiqətləri önə çəkmiş, Qaçaq Nəbinin çarizmi necə sarsıtdığını diqqətə çatdırmışdır. Onun xalqın böyük sevgisini qazandığını da bədii ştrixlərlə əks etdirmişdir:

"Atlılar sanki kələfin bir ucundan tutub Yazıya tərəf qalxırdılar. Onların gur səsi aydın eşidilirdi. Arabir Həcərin adını çəkib, Nəbidən ağız dolusu danışırdılar.

– Zalım oğlu əsl igiddir!

– Deyirlər and içib ki, Səlim bəy göyün yeddi qatında olsa da, tutacağam!

– Əgər deyibsə, hökmən tutacaq. O ili gördünüzmü bəyləri Yazıdan necə qovdu.

– Deyirlər, Səlim bəyin də qoşunu çoxdur. Özü də yaman adamdır. Neçə gündür vuruşur.

– Nə qədər qoşun gəlirsə-gəlsin, Qaçaq Nəbiyə bata bilməz. O bu saat yaralı aslana dönüb. Kişinin halal nişanlısına Səlim bəy neçə gündür Molluda toy vurdurur. Buna kim dözər?!"[1]

Folklordan da öyrəndiyimiz kimi, yüz illər boyu xalq arasında belə bir deyim formalaşmışdır ki, qaçağı el saxlayar. Alı oğlu Nəbi də elin, obanın təəssübünü çəkən, məzlumun, fəqirin harayına yetən qəhrəman bir vətən oğlu olduğundan xalqın dəstəyini hər addımda hiss edir. Xalq Nəbinin

[1] Cəlal Bərgüşad. Boz atın belində. – Bakı: Gənclik, 1970, s.8

düşmənlərinə onun yeri barədə yanlış məlumatlar verir, hökumət qüvvələrinin hərəkəti barədə onu vaxtında xəbərdar edir, öz qəhrəmanını ərzaq və silah-sursatla təmin edirdi. Qaçaq Nəbi hər zaman xalqa arxalandığından ən ağır döyüşlərdən qalib çıxır: "Camaat qəsdən Qaçaq Nəbinin yerini düzgün demir, divanı aldadırdı. Pristavlar, bəylər dırnaqlarına qədər silahlanıb, Səlim bəyin tapşırığı ilə Topalın ardınca aləmi dolaşır, dağ keçilərinin keçə bilmədiyi sərt qayalara dırmaşırdılar. Neçə baş birdən qar basmış köhnə qoyun yatağına soxulurdu, neçə baş birdən sönmüş əhəng quyusuna sallanırdı, neçə baş birdən dibsiz ayı mağarasına uzanırdı. Lakin Nəbini tapa bilmirdilər. Nəhayət, Topdaşda gördükləri qan ləkəsi düşmənləri sevindirdi. "Ya Nəbini vurmuşuq, ya da Bozatını!" Bəylər yaxşı bilirdilər ki, Nəbi şilküt edilmiş atasını can üstündə qoyub uzaq səfərə getməz, o harada olursa-olsun xəstəyə baş çəkməyə gələcək".[1]

Qaçaq Nəbi xalq arasında o qədər məşhurlaşmışdı ki, onun şəninə mahnılar, nəğmələr qoşulmuş, adı dillərdə dastana çevrilmişdir. Haqqı pozulan, hüququ tapdanan hər kəs dövlət divanında haqq-ədalət görməyəndə şikayətlərini Nəbiyə edər, ondan kömək umardılar. Nəbi də ondan kömək istəyənləri heç vaxt ümidsiz qoymazdı. Təsadüfi deyildir ki, bu gün Kəlbəcər və Laçın rayonları ərazisində yerləşən "Ərizə qayası" adlı yerlər Qaçaq Nəbinin adı ilə bağlıdır. Yaşlı insanlar danışırdılar ki, Qaçaq Nəbi ilin müəyyən günlərində başının dəstəsi ilə buraya gələr, əvvəlcədən xəbərdar edilmiş yerli əhali də orada öz şikayətlərini ona çatdırarmışlar.

Öz qəhrəmanını az qala mifləşdirən xalq bununla düşməninə sanki göz dağı verirdi. Əsərdə bəylə qaraçı Lotu Kərimin dialoqunda bu həqiqətlər daha çox öz əksini tapır:

"– Bəy, mən quldurbaşı deyiləm. Çalıb-oxuyuram, bir də ki, sənətimiz camaata xəlbir, şadara qayırıb satmaqdır; ələk – sacaq satmaqdır. Bundan başqa bizim özgə bir peşəmiz yoxdur.

– De görüm bundan sonra da o qulduru tərifləyəcəksən?

– Bəy, mənim çörəyim ordan çıxır. Bir də Qaçaq Nəbinin mahnılarını təkcə mən oxumuram ha, bütün el-oba oxuyur. Aşıqlar oxuyur, xanəndələr oxuyur. Neyləsinlər, Qaçaq Nəbidən oxumayanda camaat adama bir qara qəpik də vermir. Heç bilirsən Qaçaq Nəbidən deyəndə el ona necə qulaq asır?! – Lotu Kərim qaraçılara məxsus inadkarlıqla qavalını qızarmış qulağına söykədi. – İstəyirsən oxuyum, siz də qulaq asın".[2]

Qaçaq Nəbi rus çarizminin kürkünə elə birə salmışdı ki, imperiya ona qarşı təpədən dırnağacan silahlanmış böyük bir ordu göndərmişdir. Çar qubernatorunun başçılıq etdiyi qoşun gecə-gündüz dinclik bilmədən dağda-

[1] Cəlal Bərgüşad. Boz atın belində. – Bakı: Gənclik, 1970, s.167
[2] Yenə orada, s.248

daşda Qaçaq Nəbini axtarırdı. Qaçaq Nəbinin başına toplaşmış xalqın igid oğlanları da tədbirli və sərvaxt olduqlarından düşmənə yaxa tutdurmur, məqam düşən kimi ona ağır zərbələr vururdular.

"Qubernatorlar əsas qərargahı Salvartıda salmışdılar. Qaçaq Nəbini təqib edən bütün silahlı qoşuna buradan əmr verilirdi. Çaparlar gecə-gündüz dağ yollarında atlarının nəfəsini kəsir, gah Qannıcadan, gah Üçtəpədən, gah da Şırşırdan ağzı "qıfıllı" zərflər gətirirdilər. Lakin Qaçaq Nəbinin dəstəsini gördüm deyən yox idi. Dəstə sanki bir yağlı tikə olub göyə çəkilmişdi. Qaçaq Nəbini daha tutmaqmı olardı?"[1]

Qaçaq Nəbinin apardığı mübarizəni Şeyx Şamil hərəkatı ilə müqayisə etmək olar. Onların arasında bir tale oxşarlığı da vardır. Hər ikisi rus çarizminə qarşı açıq silahlı mübarizə aparmışdılar. Hər ikisinin də mübarizəsi 25 il davam etmişdir. Sonda hər iki qəhrəman düşmən tərəfindən məğlub edilsələr də, onların şanlı mübarizə tarixini xalqın yaddaşından silə bilməmişdilər. Xalqların sonrakı milli azadlıq mübarizələrində bu qəhrəmanlar onların ilham mənbəyi olmuşdur.

"Qoca qalayçı Osman ömründə belə möcüzə görməmişdi. Yağış yenicə kəsib. Məcməyinin lap ortasında Çəmənyurd yaylağı görünür. Qızılqaya görünür. Günəş Daraqdiş qayanın başında sıxlaşan qara buludlara yanğın salır. Arabir buludların arasından qartalların odlanmış qanadları gözə dəyir. Dağın zirvəsində şimşək oynaşır. Qaçaq Nəbi şimşəkləri yarıb Bozatını qövsi-qüzehlə zirvəyə sarı, kainatın ürəyi Günəşə sarı çapır. Sanki Qaçaq Nəbinin oylaqları olan bu qartallı dağlarda gözə görünən nə varsa – mavi səma da, mavi dərələr də, minbir simli bulaqlar da, saçlarını qayalara səpələyən şəlalələr də, yüyənsiz küləklər də – hamısı Bozatını soraqlayırdı:

Burdan bir atlı getdi – görən olmadı?
Atın oynatdı getdi – görən olmadı?
Gün kimi işıq saçdı – görən olmadı?"[2]

Cəlal Bərgüşadın xalqımızın başqa bir qəhrəman oğlu – Babəkin ərəb işğalına qarşı apardığı şanlı mübarizədən bəhs edən "Sıyrılmış qılınc" romanı 1981-ci ildə "Gənclik" nəşriyyatı tərəfindən çap olunmuşdur. Akademik Ziya Bünyadov "Sıyrılmış qılınc"a yazdığı Ön sözdə bu romanı ədəbiyyatımızın ən qiymətli tarixi romanlarından biri hesab etmişdir:

"Hər bir sənət əsəri xalqın mənəvi sərvətidir və bu sərvətin qiyməti onun müasirliyi ilə ölçülür. Cəlal Bərgüşadın "Sıyrılmış qılınc" romanı müasirlik baxımdan, xüsusilə qiymətlidir. Yaxın və Orta Şərqdə, planetimizin bir sıra ölkəsində kapitalist ağalarının – qanlı müharibə qızışdırıcılarının

[1] Cəlal Bərgüşad. Boz atın belində. – Bakı: Gənclik, 1970, s.338
[2] Yenə orada, s.219

hazırkı işğalçılıq siyasətinə ümumbəşər nifrəti baxımından "Sıyrılmış qılınc" aktual romandır".[1]

Yazıçı romanı qələmə alarkən Azərbaycan tarixinin çox zəngin bir dövrünü – Xürrəmilər hərəkatını oxucunun gözləri önündə canlandırmağa çalışır. Azərbaycanın ərəb istilasına qarşı tarixən apardığı dirəniş hərəkatının Babək dövrü xüsusən möhtəşəmdir. Xürrəmilərin başçısı Cavidan həlak olandan sonra onun yerinə Babək keçir və üsyanın miqyası daha da genişlənir:

"Bəzzin göylərində yenə qartallar qıy vura-vura hərlənirdi. Dağlar, dərələr, çaylar və meşələr sükutdan ayılmışdı. Cavidan getmişdi dünyadan, onu Babək yaşadırdı bu cahanda. O kəs talesizdir ki, yurdu boş qalır".[2]

Tarixi mənbələrin verdiyi məlumata görə, Xürrəmilərin ərəblərə qarşı apardığı azadlıq mübarizəsi, xüsusilə Cavidanın başçılığı altında daha böyük vüsət almışdır. Lakin Cavidan ərəblərə qarşı vuruşan başqa bir üsyan başçısı olan Əbu İmranla dil tapa bilmədiyindən Xürrəmiləri bir bayraq altında birləşdirə bilməmişdir. Elə onunla növbəti döyüşlərin birində hər ikisi də aldıqları yaralardan həlak olmuşdular. Cavidanın ölümündən sonra Xürrəmilər Babəki özlərinə başçı seçdilər. Babək qısa bir müddətdə Xürrəmiləri birləşdirə bildi. Babəkin komandanlığı altında Xürrəmilər ərəblərin altı böyük ordusunu darmadağın etdilər.

Babək üsyanı bütün xilafəti lərzəyə salmışdı. Üsyanın xilafətin başqa bölgələrinə də yayıla biləcəyi qorxusu xəlifəni Babəkə qarşı daha böyük və mütəşəkkil ordu göndərməyə məcbur etmişdir.

Cəlal Bərgüşad Babəki əsl xalq qəhrəmanı, ağıllı sərkərdə və tədbirli başçı kimi təsvir edə bilmişdir. Nəzərə alsaq ki, roman yazılan illər sovet hakimiyyətinin siyasi və ideoloji baxımdan güclü dövrü idi və Babəkin də yalnız siyasi sistemin mövcud ideoloji istəkləri çərçivələrində təqdimatına icazə verilə bilərdi. Həm də sovet cəmiyyəti qapalı bir sistem olduğundan xarici ölkələrin arxivlərində işləyib əlavə məlumatlar toplamaq da olduqca çətin idi. Bütün bu məhdudiyyətlərə baxmayaraq, yazıçı Babəkin bitkin bir qəhrəman obrazını yaratmağa müvəffəq ola bilmişdir.

Azadlıq mübarizəsinin başına keçdikdən bir müddət sonra Babək vətən torpaqlarının böyük hissəsini ərəb zülmündən xilas edə bildi. Bu ərazilərdə daha ərəb məmurlarının hökmü işləmirdi və yeganə söz sahibi Babəkin başçılıq etdiyi Xürrəmilər hakimiyyəti idi. "Daha Odlar ölkəsində nə Xəlifə

[1] Ziya Bünyadov. Babəkə əbədi abidə. Cəlal Bərgüşad. Sıyrılmış qılınc. – Bakı: Gənclik, 1981, s.6

[2] Cəlal Bərgüşad. Sıyrılmış qılınc. – Bakı: Gənclik, 1981, s.231

Məmnun, nə də Zübeydə xatunun məmurları şallaq şaqqıldada bilmirdi. Babək qılıncının qorxusundan hamısı qaçıb gizlənmişdi".[1]

Yazıçı Babək üsyanını xalqın yadelli işğalçılara qarşı böyük qələbəsi hesab edirdi. Yeri gəlmişkən, o illərdə ərəb xilafəti deyiləndə onu İslam dinindən ayrı təqdim etmək mümkünsüz idi. Sovet ideologiyasının da istəyi o idi ki, Babəki İslama qarşı döyüşmüş bir lider kimi təqdim etsin. Lakin son tarixi araşdırmalar da sübut etmişdir ki, xürrəmilər İslama qarşı deyil, xilafətin məmurlarının zülmünə qarşı döyüşürdülər. Ağır vergilər, xalq sərvətinin talanması, haqq-ədalətin olmaması bu üsyanın əsas səbəbi olmuşdur.

Babək üsyanının məğlub olması vətən torpaqlarının yasa batmasına səbəb olmuşdur. Xalq bu məğlubiyyəti milli faciə kimi qarşılamışdır. Xürrəmilərin əsas qalası olan Bəzzin süqutu milli azadlıq hərəkatının məğlubiyyətindən xəbər verirdi.

"Bütün Azərbaycan yas içində idi. Bəzzin oxlanmış daşlarına, qayalarına baxanda gözlər dolurdu. Qala hələ də yanmaqda idi. Döyüş kəsilmişdi. Viran edilmiş Bəzz insansız qalmışdı, ətraf dağlar sükut içində idi".[2]

Yazıçı əsərin sonunda sahibsiz qalmış bir köhlənin Bəzzin ətəklərində hayqırtısını verməklə bir gün bu köhlənlərin belində yeni Babəklərin zühur edəcəyinə işarə verirdi. "Kəniseyi-Babək təpəsindən xeyli uzaqlarda, hələ də od-alovu sönməmiş Bəzzin ətəklərində, qaçarığına külək çatmayan sahibsiz bir köhlən hayqırırdı. Qaraqaşqanı bir cəsur xəlifə döyüşçüsünə vermişdilər. At, bu yad məxluqu yəhərdən sıldırım qayalara vurub parçalamışdı. At özbaşına dağları, daşları, çölləri dolaşırdı. Babəkin qızılquşu da onun üstü ilə şimşəkli səmada hərlənirdi".[3]

Roman hüznlü bir sonluqla bitsə də, oxucu sabahkı günə olan ümidini itirmir. Bu xalqın bütün zamanlarda Babək kimi yenilməz qəhrəmanlar yetirdiyinə inanır.

Azərbaycan Rusiya imperiyası tərəfindən işğal olunduqdan sonra müstəmləkəçi ölkə tərəfindən xalqımızın tarixinə, dilinə, ədəbiyyatına, milli mədəniyyətinə ağır basqılar başladılmışdır. İmperiyanın antitürk siyasəti xalqın tarixi yaddaşının silinməsi üçün hər cür iyrənc vasitələrdən istifadə edirdi. Xalqımızın min illik klassik ədəbi irsi də bizə yabançı mədəniyyət kimi təqdim olunur, millətin milli kimliyi və dili üzərində manipulyasiya edilirdi.

[1] Cəlal Bərgüşad. Sıyrılmış qılınc. – Bakı: Gənclik, 1981, s.232
[2] Yenə orada, s.339
[3] Yenə orada, s.357

İmperiyanın sıradan çıxarmaq istədiyi milli dəyərlərdən biri də xalqın inancı – İslam dini idi. Babəki də milli-azadlıq qəhrəmanından çox İslam düşməni kimi təqdim etməyə çalışırdı. Lakin Cəlal Bərgüşad romanda bu təhlükəli tendensiyalardan yayına bilmişdi.

Azərbaycan oxucusu Cəlal Bərgüşadı doğulduğu torpağa, yurda canı və qanı ilə bağlı olan vətənpərvər bir insan, sözünü birbaşa deməyi bacaran açıq-fikirli yazıçı-jurnalist kimi tanımışdır. Onun yaradıcılığında xarici səfərlərdən yol qeydləri, bir çox klassiklərimizlə bağlı xatirə yazıları xüsusi yer tutur. Yazıçının 1991-ci ildə "Yazıçı" nəşriyyatı tərəfindən çap olunmuş "Dünyada nələr gördüm" kitabı bu gün də maraqlı oxunur.

Uzun illər siyasi sistemin izolyasiyasında yaşamış sovet oxucusu yazıçının Fransa, İtaliya, Misir, Avstriya, Bolqarıstan, Macarıstan, Çexoslovakiya, Finlandiya, İsveç, Türkiyə, Polşa, Hindistan, Vatikan, Malta və digər ölkələrə səfərlərinin təsiri ilə qələmə aldığı təəssüratlarını böyük maraqla qarşılamışdır. Çünki bu yazılarda müəllif səyahət etdiyi ölkələr haqqında sxematik ideoloji təsvirlərlə qənaətlənməmiş, ziyarət etdiyi ölkələrin və şəhərlərin tarixi keçmişindən ətraflı söhbətlər açmışdır. Bu xalqların ədəbiyyatından, mədəniyyətindən misal gətirdiyi maraqlı faktlarla oxucu diqqətini cəlb edə bilmişdir: "1960-cı ilin aprelində bir qrup sovet alimi ilə mən də Fransaya səyahətə gəlmişdim. Bu mənim xarici ölkəyə ilk səyahətim idi. Fransada olarkən bu gözəl diyarda öz gözümlə gördüyüm, bələdçimizin dilindən eşitdiyim hadisələr və adət-ənənələr haqqında qısaca da olsa, oxucuya məlumat vermək istəyirəm. Lakin az bir müddətdə Fransa kimi böyük bir ölkənin mədəniyyətini, adət və ənənəsini, iqtisadiyyatını öyrənmək çətindir. Fransanın paytaxtı Parisi "Nurlu şəhər" adlandırırlar. Bu ad Parisə ona görə verilməmişdir ki, buranın küçələri, meydançaları nurludur. Ona görə verilmişdir ki, Paris dünya mədəniyyəti xəzinəsinə Deni Didro, Emil Zolya, Anatol Frans, Viktor Hüqo, Onore de Balzak, Gi de Mopassan, Aleksandr Düma (ata), Anri Barbüs kimi görkəmli şəxsiyyətlər bəxş etmişdir".[1]

Yazıçının xatirələri içərisində maraqlı yer tutan yazılar sırasında ədəbiyyatımızın və mədəniyyətimizin görkəmli korifeyləri haqqında olan yazılarını xüsusi qeyd etmək olar. Onun Səməd Vurğun, Süleyman Rüstəm, Süleyman Rəhimov, Mehdi Hüseyn, Əli Vəliyev, Ələsgər Ələkbərov, Niyazi, Qasım Qasımzadə kimi böyük söz və sənət adamları ilə bağlı xatirələri hər biri ayrılıqda bir hekayə mövzusudur. Müəllif özünün müasirləri olmuş bu böyük şəxsiyyətlərlə müxtəlif məclislərdə görüşərək həmsöhbət olmuş, onlardan eşitdiyi maraqlı əhvalatları qələmə almışdır.

Cəlal Bərgüşadın ziyarət etdiyi xarici ölkələrlə bağlı təəssüratlarının hər biri qiymətli bədii nümunələrdəndir. Xüsusilə, onun Hindistanda ulu

[1] Cəlal Bərgüşad. Dünyada nələr gördüm. – Bakı: Yazıçı, 1991, s.9

əcdadlarımızın yaratdıqları Tac Mahalla bağlı təsvirləri insanda kövrək duyğular oyadır.

"Qu quşu canlı qanadlılar arasında yeganə quşdur ki, ömrünün son faciəli anlarında, dünyasını dəyişərkən ürəkləri ehtizaza gətirən kədərli, qəmli-qüssəli, həzin bir vida mahnısı oxuyur. Hətta xalqımız arasında bu barədə belə bir kövrək tapmaca mövcuddur:

Anam xalı toxuyur,
Güllər ətir qoxuyur,
De görüm hansı quşdur
Ölən günü oxuyur?

Naməlum bir filosof Tac Mahalı qu quşunun son vida mahnısına bənzədib, özü də çox gözəl bənzədib! Məncə bu müqəddəs abidə – Tac Mahal orta əsr zəkasının təkrarolunmaz möcüzəsidir! Bu möcüzə gecələr ay və ulduzların işığında daha sehrli görünür!"[1]

Müəllifin türk ədəbiyyatının nəhəng simaları ilə bağlı görüş və xatirələri də yaxın keçmişimizi öyrənmək baxımından olduqca maraqlıdır. Xüsusilə, böyük türk şairi Nazim Hikmət və yazıçı Yaşar Kamalla görüşləri, söhbətləri həzin bir xatirə ilə qələmə alınmışdır. O, məşhur hind yazıçısı Maxtu, slovak yazıçısı Miloş Kron, əfqan şairi Abdulla Naibi ilə də görüşüb müsahib olmuşdur.

Dünyanın hansı ölkəsində, hansı gözəl şəhərində olsa da, hər an yazıçının ürəyi doğma vətənlə, yurdla döyünmüşdür: "Ayağım torpağa dəyəndə elə bil yenidən dünyaya gəldim. Vətən torpağından qüdrətli bir varlıq tanımıram. Payız olsa da, sahildəki ağaclarda quşlar oxuyurdu".[2]

Cəlal Bərgüşadın "Sıyrılmış qılınc", "Boz atın belində" romanları, çoxsaylı hekayə və povestləri gənc nəsilin milli vətənpərvərlik hissində tərbiyə olunmasında əvəzsiz ədəbi mənbələrimizdən biridir. İnanırıq ki, yazıçının ədəbi irsi bundan sonra da ədəbiyyatşünaslığımızın və ədəbi tənqidimizin diqqət mərkəzində olacaq, yeni-yeni tədqiqat əsərlərində geniş şəkildə istifadə ediləcək.

[1] Cəlal Bərgüşad. Dünyada nələr gördüm. – Bakı: Yazıçı, 1991, s.242
[2] Yenə orada

MƏMMƏDHÜSEYN ƏLİYEV
(1925-1994)

XX əsrin 50-80-ci illər Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən biri də istedadlı nasir, Azərbaycan Yazıçılar İttifaqının üzvü, Əməkdar incəsənət xadimi Məmmədhüseyn Əliyevdir. O, əsasən Lerik, Lənkəran şəhərində yaşasa da, əsərləri ilə ölkədə və MDB məkanında yaxşı tanınmış, romanları Moskvada "Sovetskiy pisatel" nəşriyyatında yüksək tirajla nəşr edilmişdir.

Həyatı. Məmmədhüseyn Rüstəm oğlu Əliyev 28 aprel 1925-ci ildə Lerik rayonunun Gürdəsər kəndində ruhani ailəsində anadan olmuşdur. Yeniyetməlik və gənclik illəri acı xatirələrlə dolu olan, ilk təhsilini doğulduğu kənddə və Lerik şəhər orta məktəbində alan Məmmədhüseyn Əliyev "1940-cı ildə Azərbaycan Müəllimlər İnstitutunun Lənkərandakı "Müəllimlik kursu"nu bitirmiş, 1942-ci ilin aprel ayına qədər kəndlərində müəllimlik etmişdir".[1]

M.Əliyev 1943-1944-cü illərdə Lənkəran şəhərindəki Pedaqoji məktəbdə orta ixtisas təhsili alaraq 1944-1950-ci illərdə Lerik rayonunun müxtəlif kəndlərində dərs demiş, bu illərdə onun yerli və mərkəzi mətbuat orqanlarında "Durnalar", "Səs verirəm", "Bu günümüz mübarək" və s. şeirləri dərc olunmuşdur.[2]

1950-1954-cü illərdə Azərbaycan Dövlət Universitetinin Filologiya-jurnalistika fakültəsinin əyani şöbəsində ali təhsil alan M.Əliyev "Azərbaycan gəncləri", "Ədəbiyyat və incəsənət", "Azərbaycan müəllimi", "Azərbaycan qadını", "Kirpi" və s. mətbaut orqanlarında silsilə şeirlərlə çıxış etmişdir. O, 1954-cü ildə universiteti bitirərək təyinatla doğma rayona – Lerikə qayıtmış, Gürdəsər, Şingədulan, Lerik qəsəbə orta məktəblərində müəllim, məktəb direktoru vəzifəsində çalışmış və universitetdə oxuyarkən yazmağa başladığı, bəzi fəsilləri mətbuatda dərc olunub rəğbətlə qarşılanan "Dağlar oğlu" romanını bitirərək, 1958-ci ildə "Uşaqgəncnəşr"də ayrıca kitab kimi çap etdirmiş və bu əsər kənd müəlliminə şöhrət qazandırmışdır.

1960-cı ildən SSRİ Yazıçılar İttifaqının üzvü olan, Lerikdə pedaqoji sahədə çalışan M.Əliyev 1962-ci ildən Lənkərana köçmüş, Digah kənd orta məktəbində, Lənkəran Pedaqoji və Tibb Məktəblərində dərs demiş, Lənkəran Radio Verilişləri redaksiyasında redaktor vəzifəsində çalışmışdır.

Bakıda 1960-1990-cı illərdə bir-birinin ardınca qəhrəmanlarının əksəriyyətinin prototipi real həyatdan əxz olunmuş "Dağlar oğlu" (1958), "Dağda bahar" (1966), "Lənkəran hekayələri" (1967), "Müstəntiq" (1973),

[1] Məsudi Dövran. Məmmədhüseyn Əliyevin yaradıcılıq yolu. – Bakı: Elnur-1, 2005
[2] İslam Qəribli. Sözün sehri. – Bakı: Elm və təhsil, 2014, s.115

“Torpağın ətri” (1978), “Qayaların səsi” (1983), “Döyüşən illər” – I və II kitab (1986, 1991) və s. hekayə, povest və romanlarından ibarət kitabları, Moskvada isə “Sın qor” (1977), “Vesna v qorax” (1982), “Aromat zemli”, “Qolos skal” (1987) romanları çap olunmuş, Lənkəran Dövlət Dram Teatrında pyesləri tamaşaya qoyulmuşdur.

Azərbaycan Yazıçılar İttifaqının 1977-ci ildə yaradılan Lənkəran zona şöbəsinə ömrünün sonunacan başçılıq edən, 1990-cı ildən Lənkəranda şöbənin ədəbi-bədii orqanı olan “Şəfəq” jurnalının nəşrinə nail olan M.Əliyev 69 yaşında, 6 iyun 1994-cü ildə Lənkəran şəhərində vəfat etmiş, şəhərin Böyük Bazar qəbiristanlığında dəfn olunmuşdur.

Yaradıcılığı. Məmmədhüseyn Əliyev 1942-ci ildə Lerik rayonunda çıxan “Kolxoz yolu” qəzetində dərc etdirdiyi “Düyü” adlı şeiri ilə ədəbiyyata gəlmişdir. O, müxtəlif mətbuat orqanlarında bir sıra poetik əsərlər çap etdirmiş, əllinci illərin ortalarından isə nəsrə keçmiş, hekayə, roman, povest və dram əsərlərinin müəllifi kimi tanınmışdır. Poetik əsərlərini, əsasən, “Qail” imzası ilə yazan M.Əliyevin yaradıcılığının ilk illərində yazdığı şeirlərə nikbin bir ruh hakimdir. Bu əsərlərin bir çoxunda, xüsusilə “Durnalar” və “Səs verirəm” şeirlərində vətən eşqi, hünər, gələcəyə inam motivləri güclüdür.

Müəllifin 1950-1990-cı illərdə yazdığı “Gözəldir”, “Sənsiz”, “Ana və körpə”, “Görmək istərəm”, “Gözlərin”, “Təndir çörəyi”, “Təəssüf”, “Sevmişəm”, “Gör məni”, “Vəzifə kölgəsində”, “Əvəz”, “Görərsən məni”, “Dostum”, “Şüştər”, “Ey ana Bağdad”, “Məndədir”, “Zübeyir Əliyevə cavab”, “Mənim” və b. şeirlərində, mövzusu əmək adamlarının həyatından alınmış “Həsən dayı” və iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanova həsr olunmuş “Vətən keşiyində” poemalarında daha çox ictimai mövzulara üstünlük verildiyinin şahidi oluruq.

Məmmədhüseyn Əliyev ədəbiyyat aləmində daha çox nasir kimi tanınmışdır. “Kənd müəllimi” adlı ilk mətbu hekayəsi 1957-ci ildə “Azərbaycan müəllimi” qəzetində çap olunan ədibin müxtəlif illərdə yazdığı hekayələri yaşadığı illərin ab-havasını yüksək sənətkarlıq, yazıçı-vətəndaş qeyrəti və səmimiyyəti ilə əks etdirmək baxımından maraq doğurur.

Məmmədhüseyn Əliyevin “Lənkəran hekayələri” adı ilə çap olunan kitabına[1] hekayələri daxil edilmişdir ki, “həcm etibarı ilə kiçik olmasına baxmayaraq, burada verilmiş hekayələr mövzu cəhətdən rəngarəngdir. Burada həm ulu xalqın qəhrəmanlıq səhifələri (“Narınc xanım”), həm qanlı müharibənin vurduğu yaralar (“Əvəz”), həm müəllim ömrünün mənalı illəri (“Sevinc”), həm də gənc yazıçıların rastlaşdığı çətinliklər (“Nə isə çatışmır”)

[1] Məmmədhüseyn Əliyev. Lənkəran hekayələri. – Bakı: Gənclik, 1967

və s. öz əksini tapmışdır. Mövzunun uğurlu bədii həlli isə bütün hekayələrin başlıca məziyyətidir".[1]

Məmmədhüseyn Əliyevin "Müəllim" hekayəsinin qəhrəmanı bir gözünü 1941-1945-ci illər müharibəsində itirmiş, lakin mənlik, ləyaqət və kişilik qürurunu itirməyən Şirzad müəllimdir. Müəllif onun şəxsində əsl insan, əsl müəllim, el qeyrəti çəkən bir ziyalı obrazı yaratmış, çətin günlərin kişisinə xas olan cəhətləri onun simasında ümumiləşdirmişdir.

"Saçaqlı şal" hekayəsinin mövzusu 1941-1945-ci illər Böyük Vətən müharibəsi kimi adı tarixə düşmüş və Azərbaycan əhalisinə sonsuz ağrı-acılar yaşadan əzablı illərin hadisələrindən alınmışdır. Nəvələri Sənubər və Rəhim acından ölməsin deyə, illərdən bəri üfürə-üfürə, səliqə ilə saxladığı saçaqlı şalı altı tas arpaya dəyişməyə məcbur olan nənənin iztirabları, Yunus və Əcəbnisə kimi kəmfürsətlərin mal-dövlət yığmaq ehtirasları, Qönçə kimi dürüst adamların nadürüstlərə qarşı mübarizəsi hekayədə real boyalarla əksini tapmışdır.

Yazıçının "Sərəncam" hekayəsinin də mövzusu ağır müharibə illərindən götürülmüşdür. Hekayənin qəhrəmanları ataları müharibədə itkin düşən, anaları vəfat edən Kamran, bacısı Səltənət, qonşu qızı, şəfqətli və mərhəmətli Zinyət yazıçının şəxsən müşahidə etdiyi adamlar olmaqla bərabər, həm də onun müasirləridir. Gəncliyi üzücü müharibə illərində keçən yazıçı onların simasında müharibə illərində dağ rayonlarında biçilmiş zəmilərdə küləşlərin arasına tökülmüş sünbülləri yığıb aclıq deyilən labüd ölümün əlindən qurtulmağa çalışan uşaqların ümumiləşdirilmiş obrazlarını yaratmaqla yanaşı, zəmanənin insanlığa şərəf gətirməyən Əziz kimi kəmfürsət adamlarının da portretini yaratmış, yaxşılıqla yamanlığı, xeyirlə şəri üz-üzə qoymuşdur.

M.Əliyevin nəsrinin müəyyən qismini onun satirik ruhlu hekayələri təşkil edir. Diqqət edilərsə, açıq şəkildə görünür ki, bu qəbildən olan əsərlərin əksəriyyəti müəllifin ədəbi təxəyyülünün məhsulu olmaqdan ziyadə, görüb şahidi olduqları hadisələrin bədii inikasıdır. "Hampa oğlu", "İmtahan", "Kötük", "Xəyanət", "Hesabdar Əlibaba" və s. hekayələrdə təsvir olunanlar keçən əsrin 60-cı illərində Respublikamızda, xüsusilə Cənub bölgəsində baş vermiş real həyat hadisələrini özündə əks etdirir.

"Hampa oğlu" hekayəsinin qəhrəmanı Fərman kişi ağır vəziyyətdə ola-ola, həkim Rəcəbin onu müayinə etməsini ona görə istəmir ki, o onların nəslindən deyil, yad tayfadandır. Bu kişinin zehniyyətində elə bir fikir formalaşıb ki, yad tayfalardan olanlar nə qədər yaxşı əməllər sahibi olsalar da, "hampa oğlu" olduqları üçün onlara bel bağlamaq olmaz.

[1] Bəxtiyar Əliyev. Məmmədhüseyn Əliyevin nəsri. "Şəfəq" jurnalı, 1998, № 1, s.4

Ədibin "Axırıncı imtahan" hekayəsində Azərbaycanda keçən əsrin 60-70-ci illərində ictimai bəlaya çevrilmiş bir problem – ali və orta ixtisas məktəblərinə qəbul zamanı rüşvətin ayaq tutub yeriməsi tənqid hədəfi kimi seçilmişdir.

"Kötük" hekayəsində tənqid obyekti "orta təhsili qiyabi, ali təhsili qiyabi, alimlik dərəcəsi qiyabi", işə istədiyi vaxt gələn, istədiyi vaxt gedən, nə qayda, nə də intizam gözləyən bir idarə müdiridir. Onun hansı əqidənin sahibi olduğunu bilən Fərman kimi həqiqi alim də, Surxay kimi vətənpərvər ziyalı da həqiqəti bilə-bilə susmağa üstünlük verirlər. Çünki onlara gün kimi aydındır ki, ictimai mənafeyi şəxsi istəklərinə qurban verən "yuxarılar" həqiqətin ağzına daş basacaq, onların doğru sözlərini yalana çıxarmağa çalışacaqlar.

"Xəyanət" hekayəsində təsvir olunan müdir "Kötük" hekayəsindəki müdirin oxşarı olsa da, ondan fərqli xüsusiyyətlərə malikdir və daha qorxulu adamdır. Özündən razı, tanımadığı, vəzifəcə özündən böyük bildiklərinin qarşısında kiçilən, tabeçiliyində olanları incitməkdən, onları get-gələ salmaqdan həzz alan Yavər elmi dərəcəsi olsa da, əslində alim yox, dissertasiyasını başqasına yazdırıb ad alan fırıldaqçının biridir.

Ona dissertasiya yazan, özünün dediyi kimi, "vicdanına xəyanət edən" Akimdir. O, Akim ki, müharibdən qayıdıb ali və aspirantura təhsili aldıqdan sonra ailələrindəki bədbəxtliklər və maddi sıxıntılar onu bu işə getməyə vadar etmiş, üç illik yuxusuz gecələrinin zəhmətini, fikrini, zəkasını, düşüncəsini "pula yox, ehtiyaca satmağa" məcbur olmuş və beləliklə, Yavər müdafiə edərək alim və idarə müdiri, Akim isə onun qəbuluna girməyə belə çətinlik çəkən yazığa çevrilmişdir.

Akim məcburi zərurət ucbatından etdiyi "günahın" alovları ilə qovrulsa da, xeyri yoxdur. O etdiyi günahın böyüklüyünü tələbə dostu Rəhimə belə iqrar edir: "– Mənim bu sağ qalmış əlimi də kəsmək lazımdır, kəsmək! Niyə? Çünki mənim bu əlim müqəddəs amalı olan bir xalqın böyük ailəsinə, nəcib alimlər sırasına bir fiqur qoşmuşdur. Gör indi o, onlar nə qədər fiqurlar qoşacaqlar".[1]

Məmmədhüseyn Əliyevin hekayələri haqqında fikirlərimizi ümumiləşdirərkən belə bir qənaətə gəlirik ki, o, digər janrlarda yazdığı nəsr əsərlərində olduğu kimi, hekayələrində də həyatın burulğanlarında formalaşan insan xarakterlərinin təsvirinə üstünlük vermiş, həyat həqiqətlərinə sadiq qalaraq nəticə etibarı ilə xeyirin şər üzərində qələbə çalmasını arzulamış, oxucularını həqiqət, işıqlı əməllər uğrunda mübarizəyə səsləmişdir.

[1] Məmmədhüseyn Əliyev. Xəyanət. "Leninçi" qəzeti, 22 dekabr 1972, s.4

“Qulplu qızıllar” povesti (1971) Məmmədhüseyn Əliyev nəsrinin maraqlı nümunələrindəndir[1]. Mövzusu hüquq işçilərinin həyatından alınmış, Rəcəbəli, İslam, Xoşqədəm, Nüsrət, Sərraf Ədiloğlu kimi obrazların yer aldığı əsərin əsas qəhrəmanı Sarı Məzahirdir. Müəllif onun simasında şəxsi mənafeyini güdən, istəyini həyata keçirmək üçün hər cür rəzilliyi özünə rəva görən bir obraz yaratmışdır. Qurduğu torlar qorxunc olan bu adam o qədər şərəfsizdir ki, insan ölümündən belə çəkinmir. Qardaşı oğlu Nüsrətin yerinə, bəlkə, gələcəkdə sədr keçecək, – deyə o, kütbeyin, maymaq Rəcəbəlidən istifadə edərək qızının nişanlısı, “Sevinc” kolxozunun baş aqronomu, həyat və gözəllik aşiqi, kəndlilərin sevimlisi və dostu İslamı qətlə yetirir.

Törətdiyi cinayəti ört-basdır etmək üçün müstəntiq Sərraf Ədiloğluya rüşvət təklif edib onu vermək istədiyi qızıllar vasitəsi ilə susdurmaq istəyən Sarı Məzahir təbii ki, istəyinə nail ola bilmir. Yazıçının təqdimatında bu mənəviyyatsız və rəzil şəxs öz alçaq hərəkətlərinə çatmaq üçün doğma övladını – Xoşqədəmi belə qurban verməyə hazırdır.

Əsərin finalında təcrübəli müstəntiq Sərraf Ədiloğlunun gərgin zəhməti sayəsində Sarı Məzahir və onun havadarı Rəcəbəlinin törətdiyi cinayətlərin üstü açılır və onlar layiqli cəzalarını alırlar ki, bu da yazıçının atalar sözü ilə ifadə olunmuş belə bir fikrinə haqq qazandırır ki, “Gen qaz, dərin qaz, axır özün düşərsən”.

Məmmədhüseyn Əliyev “Qayaların səsi” povestində[2] maarif və təhsil sahəsində həlli vacib olan məsələləri müzakirə obyektinə çevirmişdir. Mövzusu 1950-ci illərin ortaları Azərbaycanın ucqar, dağlıq rayonları üçün xas olan əhvalatlardan götürülmüş “Qayaların səsi” əsərində yazıçının problem kimi qaldırdığı və həllinə girişdiyi məsələlərin əsas məğzini qısaca olaraq belə şərh etmək olar: şəxsiyyətlə cəmiyyətin vəhdəti, cəmiyyətdə şəxsiyyətin yeri.

Müəllifə görə, ən böyük hakim xalqdır. Yaxşıya da, yamana da ən düzgün qiyməti o verir. Həqiqəti fitnə-fəsadla pərdələmək olar, lakin onu məhv etmək olmaz. Kəskin ixtilaflardan sonra qalib gələn haqqın təntənəsi isə yaz yağışından sonra doğan günəşin şəfəqləri kimi gözəl olur.

Bitkin süjetə, maraqlı kompozisiyaya malik olan əsərdəki hadisələr, əsasən bir nəfərin, müəllifin istər zahiri, istərsə də daxili portretini sevə-sevə yaratdığı və bəzi hallarda ideallaşdırdığı Gəray müəllimin dili ilə nəql edilir.

Yazıçı Gərayı müxtəlif vəziyyətlərdə, müxtəlif dünyagörüşlü adamlarla ünsiyyətdə təsvir edir və bu təsvirlərin hamısında biz “Gərayı qorxmaz,

[1] Məmmədhüseyn Əliyev. Qulplu qızıllar. “Azərbaycan” jurnalı, 1971, №3-4
[2] Məmmədhüseyn Əliyev. Qayaların səsi. – Bakı: Yazıçı, 1983

mübariz, öz səadətini kütlələrin səadətindən kənarda təsəvvür etməyi ağlına gətirməyən ziyalı kimi görürük.[1]

Müəllifin təsvirində Gəray vətənini, xalqını, anasını sevən məğrur bir insandır. Gəraydakı məğrurluq ağılla hissin vəhdətindən doğan məğrurluqdur.

Əsərdə ön plana çəkilmiş problemlərdən biri də kollektivin birliyi məsələsidir. Müəllif pedaqoji kollektivin ürəkaçan işini, zəhmətlə qazanılmış uğurlarını ustalıqla təsvir edir, bildirir ki, Qayalar məktəbinin pedaqoji kollektivi respublika miqyasında yalnız düzgün rəhbərliklə deyil, həm də əlbir əməklə tanınıb. Zərəfşanla bağlı əhvalatlara görə ciddi tənbeh olunan Gəray müəllimin ədalətli qanunlara arxalanaraq haqqını tələb etməsi və qalib gəlməsi işığın zülmət üzərində çaldığı təntənəni xatırladır.

Hadisələrin axarından çıxan məntiqi nəticə bir daha təsdiq edir ki, həqiqət incələr, nazilər, amma üzülməz. Bəhruz və İbiş kimilərin Gəray müəllim üçün qurduğu torun ilmələri, nəhayət, onların öz boğazına keçir. Müəllif bu dönüşü oxucunu inandıra-inandıra əsaslandıra bilir. Oxucu dövlətin sarsılmaz qanunlarına, insanların (xüsusilə maarif naziri) humanizminə və haqqın dönməz üzünə inanır.

M.Əliyevin "Vadidə görüş" povesti[2] İkinci Dünya müharibəsində İtaliya hərbi müqavimət hərakatında və Yuqoslaviyada misilsiz qəhrəmanlıqlar göstərmiş "Mikulin" ləqəbli bir həmyerlimizin döyüş yolundan bəhs edir.

Məmmədhüseyn Əliyevin nəsr yaradıcılığının əsas hissəsini onun mövzuları gerçək həyatdan alınmış romanları təşkil edir. Müəllifin ilk romanı olan "Dağlar oğlu"nun mövzusu planetimizin ən yaşlı sakinlərindən biri, Lerik rayonunun Pirasora kəndindən olan 150 ildən çox yaşamış Mahmud Eyvazovun enişli-yoxuşlu, keşməkeşli həyat yolundan götürülmüşdür. Bəzi parçaları 1957-ci ildə "Azərbaycan gəncləri" qəzetində çap olunan əsər bütöv halda 1958-ci ildə "Uşaqgəncnəşr" tərəfindən çap olunmuş[3] və müəllifinin nasir kimi tanınmasında müstəsna rol oynamışdır.

İkihissəli romandakı hadisələr Mahmud Eyvazovun uşaqlığından, yəni XIX əsrin əvvəllərindən başlayaraq 1934-cü illərə qədərki hadisələri əhatə edir.

Birinci kitabı otuz bir, ikinci kitabı iyirmi doqquz fəsildən ibarətdir və fəsillərin əksəriyyətinin başlığı atalar sözləri ilə verilən romanda yazıçının təsvir etdiyi hadisə və obrazlara münasibəti daha çox reallığı və təbiiliyi ilə diqqəti cəlb edir. Obrazlara münasibətdə nifrəti də, məhəbbəti də böyük olan

[1] İslam Qəribli. "Qayaların səsi" haqqın səsidir. "Bakı" qəzeti, 18 aprel 1984, s.3
[2] Məmmədhüseyn Əliyev. Vadidə görüş. "Şəfəq" jurnalı, 1993, № 1-2
[3] Məmmədhüseyn Əliyev. Dağlar oğlu. – Bakı: Uşaqgəncnəşr, 1958

yazıçı Mahmud, Yasəmən, Qurban, Məşədi Sərdar, Aləm xanım, Elxan, Xatəmbanu, Araz surətlərini sevə-sevə yaratdığı kimi, Mustafa xan, Qulam xan, Namaz bəy, Mirzə Qiyas kimi obrazları da yırtıcı təbiətə malik olan insanlar olaraq xarakterik cizgilərlə yaratmağa müvəffəq olmuşdur.

Məmmədhüseyn Əliyevin "Dağda bahar" romanı[1] "Dağlar oğlu" romanının davamı kimi düşünülmüş, əslində trilogiyanın üçüncü hissəsidir. Romanda Mahmud Eyvazovun 1934-1959-cu illərdəki həyat yolundan, kolxoz quruculuğundakı xidmətlərindən, ucqar dağ rayonunda, Muğan – yaylaq yollarında qaçaq-quldurlara qarşı apardığı mübarizədən, Birinci Dünya müharibəsi zamanı arxa cəbhədəki fəaliyyətindən bəhs olunur.

Müəllif əvvəlki hissələrdə olduğu kimi, burada da canlı xalq dilindən, zəngin Azərbaycan folklorundan məharətlə bəhrələnmiş, öz üslubuna sadiq qalaraq hadisələri təbii axarda vermiş, ritorik çağırışlardan qaçaraq əsərin ideyasını obrazların əməlləri, zamanın dəyişkən hadisələri fonunda göstərmişdir.

Romanın məzmun və ideya xüsusiyyətlərini, obrazlar silsiləsini nəzərdən keçirən ədəbiyyatşünas, dosent Əlirza Əliyev yazırdı: "Əsərin məziyyətləri ilə tanışlıq bir daha sübut edir ki, yazıçı müxtəlif fərdi həyat yolu keçən adamların mənəvi aləminə eyni səviyyədə nüfuz etmək bacarığına malikdir. Buna görə də onun obrazları daha təbii və inandırıcıdır".[2]

Məmmədhüseyn Əliyevin "Torpağın ətri" romanının[3] mövzusu zəhmət adamlarının həyatından götürülmüş və burada çayçılıq təsərrüfatında baş verən yeniliklər, elmi fəaliyyətlə əməli fəaliyyət vəhdətdə verilmişdir. Başqa əsərlərində olduğu kimi, bu əsərin də süjet xəttinin əsasında xeyirlə şərin, düzlüklə əyriliyin mübarizəsi dayanır.

Əsərdəki əsas hadisələr Həzrət kişi ilə Cəvahir ətrafında cərəyan edir. Müharibə iştirakçısı olmuş, hazırda çayçılıq təsərrüfatında fəhləlik edən Həzrət kişi dostunun qızı Cəvahiri pedaqoji məktəbə aparıb onun məktəbə daxil edilməsini texnikumun direktoru Xuduş müəllimdən xahiş edir. Xuduş müəllim açıb-ağartmasa da, Həzrət kişinin bu işə görə ona rüşvət təklif etməməsini görüb onu Mizanlının direktor olduğu tibb məktəbinə yönəldir. Mizanlı isə utanıb-qızarmadan onlardan rüşvət tələb edir və beləliklə, Cəvahirin oxumaq arzuları gerçəkləşmir.

Biz daha sonra Cəvahiri Həzrət kişinin məsləhəti ilə çay tarlasında işləyən görürük. Zəhmət və işgüzarlığı ilə diqqəti cəlb edən Cəvahir çox keçmir ki, manqabaşçısı seçilir və adı rayonun qabaqcıl çayçıları sırasında çəkilməyə başlayır.

---

[1] Məmmədhüseyn Əliyev. Dağda bahar. – Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1966

[2] Əlirza Əliyev. Həyatla möhkəm əlaqə. "Leninçi" qəzeti, 23 aprel 1985, s.3

[3] Məmmədhüseyn Əliyev. Torpağın ətri. – Bakı: Gənclik, 1979

Məmmədhüseyn Əliyevin "Döyüşən illər" adlı roman-dilogiyasındakı hadisələr XX əsrin 20-30-cu illərində Respublikamızın cənubunda, əsasən Lənkəranda baş verir.[1] Tarixi mövzuda yazılmış bu əsərdə müxtəlif siyasi qrupların və partiyaların mübarizəsi ön plana çəkilir. Romanda sosializm quruculuğu, zəhmətkeş kütlələrin inqilabi fəallığı, əksinqilabi silahlı dəstələrin qiyam və çıxışlarının darmadağın edilməsi, qızıl əsgərlərin və yerli əhalinin qəhrəmanlığı və s. zəngin bədii boyalarla, həyati və təbii təsvir edilir.

M.Əliyevin sonuncu irihəcmli nəsr əsərlərindən biri də bəzi hissələri "Şəfəq" jurnalında nəşr olunan "Siyasi məhbus" romanıdır.[2]

Romandakı hadisələr XX əsrin 30-50-ci illərində Bakıda və Azərbaycanın digər bölgələrində baş verir. Yaradılan hər bir bədii obrazın konkret prototipləri olan bu əsərdə SSRİ-nin rəhbəri İ.V.Stalinə inanan, onun və sosializm ideyalarının yolunda canlarından belə keçməyə hazır olan ziyalıların faciəsi əks olunmuşdur.

Romanın baş qəhrəmanı, əsas hərəkətverici qüvvəsi, konfliktin açılmasının birbaşa iştirakçısı olan Ağakərim İslamzadə tarixi şəxsiyyətdir. Əsərdə Ağakərim və qeyri obrazlar barədə deyilənlərin əksəriyyəti həqiqətlərdir. Bu əsərdə yazıçı təxəyyülünün məhsulu olan qondarma süjetlər yox dərəcəsindədir. Ona görə də "Siyasi məhbus" əsərini həyat həqiqətləri ilə səsləşən tarixi roman kimi səciyyələndirmək daha düzgün olardı. Ağakərim İslamzadə Lerik rayonunun Kələxan kəndindən olan, uzun illər rəhbər vəzifələrdə çalışan, bir neçə dəfə məhbusluq həyatı yaşayan Ağa Quliyevin bədiiləşdirilmiş obrazıdır. Ağakərim İslamzadə də zəmanəsinin övladıdır. Onun hərəkətlərinə qiymət verərkən, mühiti və yaşadığı tarixi şəraiti mütləq nəzərə almaq lazımdır. Əks təqdirdə Ağakərim İslamzadənin idealının nədən ibarət olduğunu anlamaq çətin olacaqdır.

Məmmədhüseyn Əliyevin çap edilməyən romanlarından biri də "Qovuşmaz yollar" əsəridir.[3] Romanda Sovet cəmiyyətində təcrübəli bir hüquqşünasın başına gələn əhvalatlardan bəhs olunur. Beş cinayət ətrafında cəmiyyət və əxlaq problemlərindən söhbət açılan bu romanda hüquq işçisinin dilindən cinayətlərin əmələgəlmə və açılma mexanizmində meydana çıxan əngəllər və çətinliklər göstərilir.

Məmmədhüseyn Əliyev qələmini dramaturgiya sahəsində də sınamış, "Prokuror" və "Ana fəryadı" dramlarını yazmışdır.

"Prokuror" dramının süjet xəttinin əsasını belə bir hadisə təşkil edir: Tikinti idarəsinin kassiri işdə qəflətən vəfat etmiş, kassadan əlli min manat pul yoxa çıxmış, idarənin gözətçisi Səlimxan Haqverdiyev müqəssir bilinərək

[1] Məmmədhüseyn Əliyev. Döyüşən illər. I və II kitab. – Bakı: Yazıçı, 1986; 1991
[2] Məmmədhüseyn Əliyev. Siyasi məhbus. "Şəfəq" jurnalı, 1992, № 3-4
[3] Məmmədhüseyn Əliyev. Qovuşmaz illər. "Şəfəq" jurnalı, 1993, №3-4

həbs edilmişdir. Günahsız olduğunu bildirib həbsxanadan ərizələr yazan Səlimxan dönə-dönə qeyd edir ki, onun bu işdən xəbəri yoxdur. İşi törədənlər, yəni kassadan oğurluq edənlər trestin rəisi Qəzənfər və onun dayısı Şirəhməddir. Səlimxanın prokurorun və digər orqanların adlarına göndərdiyi ərizələr bir qayda olaraq işi aparan və Səlimxanın həbs olunmasında marağı olan müstəntiq Əmənovun üstünə göndərilir. O da ərizələri yoxlamır, beləliklə, Səlimxanın işi qəsdən yubadılır.

Həbsxanada Səlimxanı inandırırlar ki, özünün müqəssir olmadığını sübuta yetirmək üçün o, mütləq prokurora rüşvət verməlidir. Ona görə də görüş zamanı o, arvadından xahiş edir ki, anasından yadigar qalan qızıl kulonu aparıb prokurora versin və əri üçün aman istəsin. Lakin iş elə gətirir ki, bu ərəfədə köhnə prokuror işdən çıxarılır, yerinə Şəfəq Poladov adlı gənc bir adam təyin olunur. Şəfəq Poladovun prokuror təyin edilməsi Səlimxanı bərk məyus edir. Çünki vaxtı ilə Səlimxanın atası Şəfəqin atasına pislik etmiş, onu nahaqdan güdaza vermişdi. Vicdan əzabı çəkən Səlimxan qorxur ki, cavan prokuror ondan atasının əməlinə görə qisas alacaq.

Səlimxanın arvadı Sənəm qızıl kulonu prokurorun yanına apararaq ona təqdim edir və ərinin günahsız olduğunu bildirib ondan kömək istəyir. Prokuror kulonu Sənəmə qaytarır və dərhal işi araşdırmağa başlayır. Müəyyənləşdirir ki, günahkar Səlimxan yox, trestin rəisi Qəzənfər və onun dayısı Şirəhməddir. Ona görə də onların həbs edilməsi haqqında sanksiya verərək Səlimxanı azad edir.

Göründüyü kimi, rüşvətə və rüşvətxorluğa qarşı mübarizə əsərin əsas ideyasını təşkil edir. Həm də əsərdə belə bir ideya təbliğ olunur ki, pisliyə pisliklə yox, yaxşılıqla cavab vermək lazımdır. Xeyrin şər üzərində qələbəsi isə şəksizdir.

Məmmədhüseyn Əliyevin "Ana fəryadı" pyesində 1941-1945-ci illər müharibəsi və ondan sonrakı illərin ağrı-acıları Bəyim ana və onun müharibənin şikəst etdiyi övladlarının simasında ümumiləşdirilmişdir. Müəllifin gəldiyi qənaət və tamaşaçıya təlqin etmək istədiyi əsas fikir bundan ibarətdir ki, xarakterindən asılı olmayaraq bütün müharibələr bəşəriyyətə fəlakətdən başqa heç nə bəxş edə bilməz. Bütün müharibələr lənətlənməli və onların qarşısı alınmalıdır ki, ana fəryadları eşidilməsin.

Məmmədhüseyn Əliyevin yaradıcılığı barədə fikirlərimizi ümumiləşdirərək, belə bir nəticəyə gəlirik ki, hansı janrda yazmasından asılı olmayaraq o, bir qayda olaraq haqq bildiyi problemləri təbliğ etmiş, xeyirin şər üzərində qələbəsinə inam ruhlu əsərləri ilə ədəbiyyatımıza ləyaqətlə xidmət etmişdir.

ƏLFİ QASIMOV
(1927-1985)

Yazıçı, publisist, tərcüməçi Əlfi Qasımov Azərbaycan romanının, sənədli hekayə, bədii oçerk janrlarının inkişafında mühüm xidmətlər göstərmiş ədiblərimizdəndir. Əsərlərində fədakarlığı, halal zəhməti, insan ləyaqətini tərənnüm edən yazıçı, dövrünün gerçəkliklərinə doğru münasibət bildirməyə, insan xarakterinin dərin qatlarına nüfuz etməyə, milli ənənələrdən irəli gələn xüsusiyyətləri müasirliyin işığında təhlil etməyə çalışmışdır. Əlfi Qasımov ictimai xadim kimi də xalqın xidmətində dayanmağı özünə borc bilmiş, perspektivli yazarların doğru istiqamətləndirilməsində, kitablarının nəşrə hazırlanmasında əhəmiyyətli işlər görmüş, ədəbi gəncliyin hamisi olmuşdur.

Həyatı. Əlfi Səhlik oğlu Qasımov 1927-ci il yanvar ayının 5-də Ağdam rayonunun Poladlı kəndində dünyaya göz açmışdır. Şelli-Qaradağlı yeddiillik məktəbində başladığı ilk təhsilini, Ağdam Pedaqoji Texnikumunda davam etdirmişdir. 1943-1944-cü illərdə Ağcabədi rayonunun Xocavənd və Boyat kəndlərində müəllim işləmişdir. 1944-cü ildə Ağdamdakı ikiillik Müəllimlər İnstitutuna daxil olmuş, 1946-cı ildə buranı bitirdikdən sonra Bakıya gəlmiş, həmin il Azərbaycan Dövlət Universitetinin Jurnalistika fakültəsinə qəbul olunmuş, 1951-ci ildə təhsilini tamamlayaraq jurnalist kimi fəaliyyətə başlamışdır. 1951-1958-ci illərdə "Azərbaycan müəllimi" qəzetində şöbə müdiri, redaktor müavini vəzifələrində çalışmış, 1958-1966-cı illərdə "Ədəbiyyat və incəsənət" qəzetinin məsul katibi olmuş, 1966-1983-cü illərdə Azərbaycan Dövlət Poliqrafiya, Nəşriyyat və Kitab Ticarəti İşləri Komitəsində nəşriyyatlar idarəsinin rəisi vəzifəsini icra etmişdir. 1983-cü ilin fevral ayından ömrünün sonuna qədər Azərbaycan Dövlət Nəşriyyatında ədəbiyyat şöbəsinin müdiri vəzifəsini ləyaqətlə həyata keçirmişdir.

"Altmışıncılar ədəbi nəslinin uğurları onu sevindirirdi. Onların meydana çıxmasında, kitablarının işıq üzü görməsində Əlfinin zəhməti vardı. Əlfi mənim kimi gənc, amma arxa-dayaqsız şairləri çağırır, əsərlərini nəşr planına saldırır, planda olanların kitablarının həcmini artırırdı. Bütün sonrakı müzakirələrdə cavanların müdafiəsinə qalxırdı".[1] Şair Fikrət Sadığın qeyd olunan fikirlərindən, eləcə də dövrünün digər yazıçı və şairlərinin Əlfi Qasımov haqqındakı xatirələrindən məlum olur ki, yazıçı yeni nəsil ədəbiyyat adamlarının qayğısını çəkmiş, istedadlı gənclərin inkişafına bacırdığı qədər şərait yaratmağa çalışmışdır.

Müəllimlər İnstitutunda təhsil aldığı dövrlərdən ədəbi fəaliyyətə başlamış yazıçı 1945-ci ildə ilk dəfə mətbuatda "Xalq arzusu" şeiri ilə

[1] Fikrət Sadıq. Xəzinə dərəsi. "Qazilər" informasiya portalı. 25.11.2016

Ağdamın "Lenin yolu" qəzetində çıxış etmişdir. "Əriməzin ətəklərində" adlanan ilk oçerklər kitabı isə 1954-cü ildə nəşr olunmuşdur. Bütün ömrünü sənətə həsr edən yazıçı yazıb-yaratmaqla yanaşı, ədəbiyyatımızın, dilimizin, mədəniyyətimizin təbliğatçısı olmuş, yenilənmə, maariflənmə işini yüksək qiymətləndirmiş, ədəbiyyatımızın təbliği, nailiyyəti üçün çalışmış, Azərbaycan Dövlət Televiziyasında "Kitablar aləmində" adlı verilişin aparıcı müəllifi kimi fəaliyyət göstərmiş, əsərləri bir sıra xalqların dillərinə tərcümə edilmişdir.

Əlfi Qasımov 1985-ci il mart ayının 12-da Bakı şəhərində vəfat etmişdir.

Yaradıcılığı. Ədəbi yaradıcılığa şeirlə başlamış Əlfi Qasımov Jurnalistika fakültəsində təhsilini başa vurduqdan sonra publisistikaya meyil göstərmiş, "Azərbaycan müəllimi" qəzetində işlədiyi dönəmdə bir müddət Vətənimizin tanınmış görkəmli şəxsiyyətləri, əmək və müharibə qəhrəmanları barədə sənədli hekayələr, oçerklər yazmışdır. 1950-ci illərin əvvəllərindən başlayaraq ardıcıl olaraq "Əriməzin ətəklərində" (1954), "Şagird briqadalar" (1960), "Odlu ürəklər" (1962), "Dostluq və qardaşlıq dünyası" (1963), "Adilənin taleyi" (1964), "Dnepr qəhrəmanı" (1964), "Ulduz karvanı" (1967), "Məni qınamayın" (1968), "Saçlar ağarsa da" (1969), "Qızburunda tək məzar" (1970), "Vətən çağıranda" (1975), "Könül sevən..." (1977), "Qağayı fəryadı" (1979), "İnsan qaranquş deyil" (1981), "Toy gecəsi" (1985), "Bəhyəddin Mirzəyev" (1985) və s. kitabları nəşr olunan ədibin rus və bolqar ədəbiyyatlarının prozaik nümunələrindən tərcümələri də vardır.

Yaradıcılığının ilk dövrlərindən milli ədəbiyyatşünaslığımızın nəzərini cəlb edən yazıçının yaradıcılığı haqqında Mir Cəlal, Bəkir Nəbiyev, Famil Mehdi, Hüseyn Abbaszadə və digər sənət adamları müsbət fikirlərini bildirmişlər. Ədəbiyyatşünas Safurə Quliyeva "Əlfi Qasımovun həyat və yaradıcılığı" adlı monoqrafiyasında yazıçının həyatı, yaradıcılığının müxtəlif dövrləri və nəsrinin inkişaf istiqamətləri haqqında araşdırmalar aparmışdır.[1]

Çoxşaxəli yaradıcılığına şeirlə başlayan Əlfi Qasımovun sonrakı illərdə "İnsan qaranquş deyil", "Necə qaytarım", "Ölmüş palıd haqqında ballada", "Torpaq və sən", "Özgəsinin işığı", "Xatirələrdə qalan gənclik", "Qar üstündə iz", "Aldanmış çiçəklər" və s. kimi uğurlu mənsur şeirləri də mətbuat səhifələrində dərc olunmuş, rəğbətlə qarşılanmışdır. Bu əsərlərdə yazıçı təbiət mənzərələrində, hadisələrində insanın mənəvi aləminə, həyata örnək ola biləcək, sadə təəssüratlarda böyük mətləblərə işıq salır: "Pəncərəmin önündə, yolumun üstündəydi palıd. Dünyaya gözümü açanda elə pəncərəm önündə görmüşdüm onu. Atamdan da, anamdan da qocaydı palıd. Kəndimizdə hər şeydən, hamıdan, bütün ucalardan ucaydı palıd... Bir az sonra gəlib apardılar

[1] Safurə Quliyeva. Əlfi Qasımovun yaradıcılığı. – Bakı: Elm və təhsil, 2015

palıdı. Heç oğulun, heç kişinin gücü çatmazdı palıda, nəhəng maşınlar olmasaydı.

Sürüyə-sürüyə apardılar palıdı. Qanadlarını qıra-qıra, qollarını bura-bura, yarpaqlarını yola-yola apardılar palıdı".[1] Yazıçı "Ölmüş palıd haqqında ballada" mənsur şeirində qaraj ərazisi üçün qurban verilən qoca palıdın simasında durumu zahirən dinc və rahat görüntülənən ictimai-sosial mühitin ədalətsiz simasını simvolik tərzdə açıb göstərir. Bu cür poetik nəsr nümunələrində bəzən çox sadə süjet xəttinin, situasiyanın içərisində insan mənəviyyatının, müasir dünyanın çox dərin qatları işıqlandırılır, oxucu düşüncəsi mərama doğru şəkildə istiqamətləndirilir.

Ədibin oğlu telejurnalist və tərcüməçi İlqar Əlfioğlunun da atasının yaradıcılığı barəsində söylədiyi fikirlər obyektivlik baxımından diqqəti cəlb edir: "Atamın yazdığı əsərlər kütləvidir, xalqın ədəbiyyatıdır. Onlar nə dövrün, nə də partiyanın sifarişi idi. Öz yaşadıqlarını qələmə alırdı. Salam Qədirzadə, Əlibala Hacızadə – bunlar kütlə üçün yazırdılar və o səbəbdən də sevilirdilər. Yəqin ki, yazdıqlarında əbədiyaşar dəyərlər, aktual mövzular var. Məsələn, "Adilənin taleyi" əsəri jurnalistikanın populyarlaşmasına səbəb oldu".[2]

Yazıçının 1950-ci illərdən başlayaraq qələmə aldığı "Adilənin taleyi", "Məni qınamayın", "Qızburunda tək məzar", "Qağayı fəryadı", "Toy gecəsi", "Aytəmizin dəftərləri" və digər roman, povestləri onu Azərbaycan ədəbiyyatında sözünün sanbalıyla seçilən nasir kimi tanıtdı. "Müəllif "Məni qınamayın", "Üç il sonra", "Sevil" povestlərində "Adilənin taleyi" romanında qələmə aldığı mövzunu bir növ yeni cəhətlərdən işıqlandırmış, müasirlərimiz olan gənc qadınların qəlbini, həyata və işə münasibətini bədii dillə canlandırmışdır".[3]

Əlfi Qasımovun ədəbiyyata gəlişi sosialist realizminin inkişafının bütün sahələrdə yüksəldilməsi, bütöv həyat tərzi şəklində kütlələrin ömür yoluna tətbiq olunması zamanına təsadüf etmişdir. "Sosialist realizminin insan konsepsiyası "qalib gəlmiş sovet adamı" prinsipi ilə formalaşırdı və "əmək və qəhrəman" mövzusu da həmin konsepsiyanın reallaşması üçün növbəti bir mərhələ idi".[4] Əlbəttə, bu mərhələnin şərtlərindən biri olaraq ədəbiyyatda "əmək və qəhrəman" mövzusu daxilində prisipial xarakterli, məhsuldar əməkçi, cəsarətli qadın tipajlarının iştirakı vacib buyurulmuşdu ki, artıq tarixi hadisələr fonunda məqsədəmüvafiq şəkildə dövrün yaradıcılıq

[1] Əlfi Qasımov. İnsan qaranquş deyil. – Bakı: Gənclik, 1981, s.238

[2] Faiq Balabəyli. İlqar Əlfioğlu ilə Əlfi Qasımov haqqında söhbət. – Bakı: "Ədəbiyyat qəzeti", 25.10.2017

[3] Safurə Quliyeva. "Məni qınamayın" povestində təlim-tərbiyə problemləri. – Bakı: Bakı Universitetinin xəbərləri, 2008, №2, s.106

[4] Nərgiz Paşayeva. Yeniləşən ədəbiyyatın yeni insanı. – Bakı: ATİ nəşriyyatı, 2004, s.33

təcrübələrində tədricən yer almağa başlamışdı. Keçən əsrin ortalarından həm poeziya, həm də nəsrdə müxtəlif xarakterli qadın obrazlarının əsərin birinci dərəcəli qəhrəmanları kimi təqdim olunması Azərbaycan ədəbiyyatında da intensiv müşahidə olunurdu. Fiziki güc, yüksək intellekt tələb edən sahələrdə kişilərə bərabər qüvvədə işləməyi bacaran, qarşısındakı maneələri dəf edərək həyatını öz arzularınca qura bilən, müstəqil qərar verməyə qabil iradəli qadın qəhrəmanlar sosializm quruculuğunun vacib personajları kimi təsvir olunurdu. Müharibə illərində arxa cəbhədə "ana", ön cəbhədə "bacı", "şəfqət bacısı" kimi təsvir olunan bu qəhrəmanlar sovet respublikalarının ədəbiyyatlarında, o cümlədən Azərbaycan ədəbiyyatında özünəməxsus statusu ilə seçilirdi. Azərbaycan yazıçıları belə qəhrəmanlarını həm də mentalitetimizin altrustik keyfiyyətləri, nəcabət zənginliyinə malik xarakterlərilə fərdiləşdirirdilər. Müharibə dövrünün qəhrəmanı dinc həyatın məişətindən uzaq, müdafiənin, vətən heysiyyatının şərəfinə, zəfərə köklənmiş və bütün şəxsi həyat düşüncələrinin fövqündə dayanan aliliyə köklənirdisə, müharibədən sonrakı quruculuq dövrünün bədii əsərlərində qadın ailəcanlı ana, şərəfli əmək xadimi, yeni sovet nəsillərinin layiqli tərbiyəçisi kimi yüksək keyfiyyətləri özündə toplamış tipik obrazlar kimi göstərilirdi. Qələbənin ilk illərindən S.Rəhimovun, S.Rüstəmin, İ.Əfəndiyevin, R.Rzanın, S.Vurğunun əsərlərində məsumluq, saflıq kimi xüsusiyyətləri şəxsiyyətində yaşadan Azərbaycan qadının, cəsurluq barışmazlıq kimi cəhətləri daha geniş planda təsvir olunurdu. Bu baxımdan 1951-ci ildə Səməd Vurğunun qələmə aldığı "Aygün" poemasının qəhrəmanı Aygün nəinki dövrün xanımlarına, milli ədəbiyyatımızın da örnəyinə çevrilmişdi ki, əlbəttə, burada əsər müəllifinin kütlə içərisindəki nüfuzunun da böyük rolu var idi. 1960-cı illərin əvvəllərinə qədər ailəsinə sadiq, ismətli, eyni zamanda cəmiyyətdə nüfuzu olan, çalışdığı sənət sahəsində öz sözünə, mövqeyinə malik qadınların taleyi hələ də ədəbiyyatımızın aktual mövzusu olaraq qalırdı.

Əlfi Qasımovun "Adilənin taleyi" adlı ilk romanının sürəkli şəkildə geniş oxucu kütləsi içərisində yayılaraq şöhrət qazanmasının əsas səbəbinin də əsərin qəhrəmanı gənc jurnalist Adilənin məhz bu cür yüksək insani xüsusiyyətlərilə bağlılığı şübhəsizdir. Roman 1964-cü ildə çap olunmuşdur. Əsərin qəhrəmanı Adilə yenifikirli, arzuları sinəsinə sığmayan, ictimai-mədəni tədbirlərin qurucuları və iştirakçıları olan gəncliyin nümayəndəsidir. Sovet dövrü ədəbiyyatında tələbə qruplarının, yaxud fərdlərinin kafelərdə, restoranlarda əyləncəli toplantılarda təsviri mənfi çalar ifadə edirdi. Gənclik yığıncaqları ancaq idman yarışları da daxil olmaqla, teatr tamaşaları, film seyrlərində, ad günlərində, bədii əsərlər haqqında diskussiyalarda təsvir olunurdusa, situasiyadan asılı olmayaraq oxucuda qəhrəmanın müsbət obrazı barəsində fikir yürütməyə əminlik yaranırdı ki, bunu da sosializm realizminin sınanmış bədii ənənəsi hesab etmək olar. Əlbəttə, zahiri həyat tərzinin ideal

qəhrəman surətinə uyarlığı dövrün, sosializmin "əxlaq kodeksi"nin diktəsiylə qurulur, bədii ədəbiyyat isə bu daşlaşmış kanonlara sadəcə fərdi rəng çalarları qata bilirdi. 1960-cı illərdən, daha doğrusu 1950-ci illərin ortalarından başlayaraq ədəbiyyatda, xüsusən də nəsrdə yeni, orijinal insan xarakterləri müşahidə olunmağa başlamışdı ki, bunların içərisində ən çox maraq doğuranları həyata bağlı, azadfikirli, gerçəkliyin bütün cəhətləri ilə üzləşməyə hazır qadın obrazları idi. S.Rəhimovun, İ.Əfəndiyevin, M.İbrahimovun, İ.Hüseynovun, S.Qədirzadənin, Ə.Hacızadənin və digər yazıçıların əsərlərində mürəkkəb xarakterli qadın qəhrəmanlar görünməyə başlamışdı və bu, doğrudan da Azərbaycan nəsrinin uğuru sayıla bilərdi. "Adilənin taleyi" romanının qəhrəmanı Adilə də öz zamanının yeni tipajı kimi oxucu diqqətini özünə cəlb etmişdi və önəmli olan da qəhrəmanın xarakterindəki mübarizlik, prinsipiallıq, əzmkarlıq monoliti içərisində, kövrək bir həssaslıq, etibarlılıq xüsusiyyəti idi ki, müasir dövrün modern təfəkkürlü gəncliyinin nümayəndəsi kimi Azərbaycan oxucusuna onu sevdirmişdi. Adilə öz şəxsi həyatının acılarını, yanılışını yenib özünü bir şəxsiyyət kimi təsdiq etməklə bərabər, həm də cəmiyyət içərisində işi ilə, sənəti ilə həyatını, gələcəyini etibar etdiyi həyat yoldaşının nail ola bilmədiyi nüfuzu, hörməti qazanır. Bununla bərabər ali əxlaqı onu ana ayağına aparır, ayrıldığı vəfasız ömür yoldaşının yarımçıq qoyduğu övladlıq borcuna sahib çıxır, qaynanasına oğul kimi övlad olmağı bacarır. Əlfi Qasımovun yazıçı sənətkarlığı bu obrazın yüksək səviyyəli, zəngin insani keyfiyyətli mənəviyyatını orijinal xüsusiyyətlərilə çox bacarıqla bir vəhdətdə toplamağı bacarmış və oxucunu səmimiyyətlə inandıra bilmişdir. Yazıçının sonrakı əsərlərində də, "Aytəmizin dəftərləri" povestində, tamamlanmamış "Toy gecəsi" romanında təqdim etdiyi belə mətin, cəsarətli, eyni zamanda kövrək, səmimi qadın obrazları böyük maraq doğurur.

"Aytəmizin dəftərləri" povestinin baş qəhrəmanı Aytəmiz dövr üçün aktual müsbət keyfiyyətlərinə rəğmən bəzən kobud, yöndəmsiz, bəzən hətta mədəniyyətsiz görünən rəftarıyla ilk baxışdan oxucuda xoş olmayan təəssürat oyadır. Qeyd etmək lazımdır ki, sovet ədəbiyyatında Boris Bednıyın 1960-cı illərdə bütün ölkədə çox geniş şöhrət qazanmış, az vaxtda 15 dilə tərcümə olunmuş və elə yazıldığı il motivləri əsasında bədii film çəkilmiş "Qızlar" povestinin (1961) qəhrəmanı Tosya kimi sadəlövh, gülməli, lakin ötkəm, məqsədyönlü, sosialist quruculuğuna can-başla xidmət edən, iradəli gənc qız obrazı az vaxtda populyarlıq qazanmışdı və müsbət qəhrəmanın cəlbediciliyi bir növ yeni düşüncə tərzinə, orijinal, sərbəst davranışa ilk addım kimi böyük maraq doğurmuşdu. Müxtəlif milli ədəbiyyatlarda olduğu kimi həmin dövrlərdə Azərbaycan ədəbiyyatında da əyalətdən müasir şəhər mühitinə öz havasıyla, ənənəvi sadə xalq baxışlarıyla qədəm qoymuş gənc qəhrəmanlara rast gəlinirdi və belə personajların mütləq olan müsbətlik dərəcəsi və

inandırıcılıq keyfiyyəti artıq yazıçının sənətkarlığından, situasiya yaratmaq imkanlarından asılı olurdu.

"Aytəmizin dəftərləri"ndə müəllif əsərin süjetini gənc qızın dayısına məktubları, şəxsi gündəlikləri kimi təqdim edir ki, onun zahiri davranışının bəzən təqdirolunmaz cəhətlərinə şahid olan oxucu, qəhrəmanın daxili təlatümlərini, kövrək hisslərinin yaşantılarını onun öz təsviri ilə oxusun və bu ziddiyyətlər kəsişməsində tanısın. "Boy, ay dayı, bir də ayılıb nə görsəm yaxşıdı, külbaş papirosu fısqırdıb üfürür tavana, gözünü də zilləyib mənə. Başa düşən kimi heç o tərəfə baxmadım. Axır gördüm mümkün deyil, hara gedirəm, çalağan cücəni hərləyən kimi hərləyir məni. Səhnədə artistin üzünə işıq salırlar ha, hara getsə, işıq da onunla gedir ha, bax elə. Bir istədim, abrını büküm ətəyinə, yenə dedim, lənət şeytana, qurban olasan dayıma, qurban olasan, onun evindəki adamlara".[1] Məhz belə bir ədəbi priyom – baş qəhrəmanın öz diliylə həyata münasibətini ifadə edən memuarvarilik, Əlfi Qasımov sənətkarlığının özəl xüsusiyyəti kimi özünü göstərir. "Üçüncü il" povestində kənardan çox ideal görünən səkkiz illik ailə həyatına son vermiş qadını bu ayrılığa aparan səbəblərin izahı onun sonrakı sərbəst həyatının təsviri ilə paralel olaraq ərinə yazdığı məktublarında əks etdirilir. Bu prinsip əsərin əsas ideyasının açılışına, qəhrəmanın xarakterinin tam şəkildə təqdimatına çox uğurlu şərait yaradır. Povestin qəhrəmanı Qəmərin həyatı bacarıqlı mühəndis, istedadlı və gözəl qadın olmasına rəğmən, özü də bilmədən ərinin hədsiz qayğıları, tərifləri içərisində zaman-zaman yaraşıqlı gəlinciklə şıltaq bir uşağın oyununa çevrilməkdədir. Bu dəfə yazıçı qadının həyatını mənasızlaşdıran, şəxsiyyətini donduran, fəaliyyətsizləşdirən münasibətləri düşüncə işığına çəkir və ilk baxışdan böyük məhəbbətin nişanəsi kimi görünən hisslərin bəzən əsl sevgiyə yad duyğu olmaq ehtimalını öz qəhrəmanının dili ilə təqdim edir və "kişi müəllifliyi"ndən irəli gələn fikirlərin müəyyən məqamlarda qadın psixologiyası üçün subyektiv səslənməsinə baxmayaraq, səmimiyyəti ilə diqqəti cəlb edir: "Heç bilirsənmi sənin bu yaxşılıqların, qayğıkeşliyin mənə necə baha başa gəldi? Sən bu hərəkətlərinlə məni ailə səadətindən, ev qarğaşasından, mətbəx ləzzətindən məhrum etdin. Sən mənim qadınlıq sevincimi əlimdən aldın, otaq təmizləməkdən, paltar yumaqdan, evdə öz əllərimlə səliqə-səhman yaratmaqdan duyduğum ləzzəti başa düşmədin. Başa düşmədin ki, axı mən qadınam! Axı mən öz əlimlə ərimə nə üçün dadlı-ləzzətli xörək bişirməyim?"[2]

Qəhrəmanın şəxsi təəssüratı ilə səciyyələndirmə ədəbi üsul kimi Əlfi Qasımovun yaradıcılığının önəmli qismində və professionallıq səviyyəsini təyin edən bədii oçerklərində də müşahidə olunur. Müəllifin müharibə

[1] Əlfi Qasımov. İnsan qaranquş deyil. – Bakı: Gənclik, 1981, s.37
[2] Yenə orada, s.178

veteranları haqqında yazdığı bədii oçerkləri Azərbaycan ədəbiyyatında demək olar ki, yeni bir çığır açmışdı. Müxtəlif bədii vasitələrlə bəhs etdiyi qəhrəmanın ümumi publisistik portretini yaratmaqla bərabər yazıçı, canlı, inandırıcı boyalarla qəhrəmanının şəxsiyyətinin tərənnümünə, ilk tanışlıqdan sezilməyən xarakterik xüsusiyyətlərinin təsvirinə nail olmağı bacarmışdır. İkinci Dünya müharibəsində qəhrəmanlıqlar göstərmiş yurddaşlarımız Ziba Qəniyeva, Aliyə Rüstəmbəyova, Dürrə Məmmədova, Kosmodemyanskaya, Tahirə Dadaşova, Minəxanım Hacıyeva, Rəşidə Qasımzadə, Səkinə Bayramova, Rexstaqın divarında azərbaycanlı imzası atan Rəhimə Babayeva və digər qəhrəmanlar haqqında qələmə aldığı oçerklərinə səciyyə baxımından sənədli povest də demək olar. Yazıçı özünəməxsus ustalıqla, maraqlı bədii tapıntılarla bu qəhrəman xanımların yaşanmış həyatını təsirli bədii əsər səviyyəsinə qaldıra bilmişdir. Hər birinin həyat hekayəsini fərdi üslubla qələmə alan yazıçı qəhrəmanını xarakterinə münasib ifadələrlə, süjet xətti, situasiya ilə təqdim edir. Burada, əlbəttə, Əlfi Qasımovun professional jurnalist yanaşmasının rolu da danılmazdır.

"Təsəvvür edirsinizmi, nəm, qaranlıq, vahiməli mağara. Xəstələrin, yaralıların ah-naləsi. Qayaların göz yaşı yaralıların, son dəqiqələrini yaşayanların göz yaşlarına qarışıb. Qayalar ağlayır. Vahiməli əks-səda ilə... Qayalar səngər, qayalar hayan, qayalar sığınacaq... Qayalar yaralıların bumbuz yatağı. Qayalar yastıq, qayalar döşək, qayalar məzar..."[1]

Əlfi Qasımovun bu silsilə yazılarında onun mənsur şeir yaradıcılığına meyilliliyi də özünü açıq şəkildə büruzə verir. Lakin bununla bərabər, mövzu romantik təəssürata tabe etdirilmir, gerçəklik doğru boyalarla, inandırıcılıqla təsvir olunur. Maraqlı cəhətlərdən biri də odur ki, ən kəskin müharibə şəraitində, ən acınacaqlı anlarda belə müəllifin qəhrəmanları qadınlıq məsumiyyətini, incəliyini saxlamış şəxsiyyətlər olaraq qalırlar.

"Gözünün ucu ilə uzandığı yerə baxdı. Bu saat, elə bu an nəm torpağın üstündə uzanıb elə yatardı ki...

Evlərində anası Zibeydənin əzizləyə-əzizləyə sırıdığı gəlinlik yorğan-döşəyində olduğu kimi. Anası yadına düşdü. Xəyalın qanadlarında, meşələr, dağlar arxasından onu qucaqladı, sinəsinə sığındı: "Evin içində ayaqyalın gəzəndə dünyanı dağıdırdın, "xəstələnərsən" deyirdin... Gecələr iki-üç dəfə durub üstümə baxırdın: "Pərtov yatırsan... Yorğana bir təpik vurub atırsan üstündən", – deyirdin...

Böyükxanım gözləri yumulu halda xəyal dünyasında gülümsədi. Sonra söyüd sivirimi ilə bağladığı altı qopmuş çəkməsinə baxdı... "Eh, yolçu yolda gərək" deyib yaralını çiyninə aldı.

Yaralı yenə zarıdı:

[1] Əlfi Qasımov. Vətən çağıranda. – Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1975, s.139

– Su, su, qurban olum, bacı, bir içim su...

– Çatmışıq, qardaş, cəmi onca metr...

Bu, dünəndən bəri Böyükxanımın dolu kimi yağan düşmən güllələri altından çıxardığı qırx beşinci yaralı idi".[1]

Yazıçı bədii oçerklərini hər bir qəhrəmanın öz həyat hekayəti ilə başlayır. Hər biri öz arzuları, məramları ilə gəncliyinə qədəm basmış bu qızların həyatının davamını müharibə öz qərarı ilə yazır; aktrisa olmaq arzusuyla yaşayan Ziba Qəniyeva snayper olur, iki ayağının ağır yarası ilə müharibədən sonra başqa bir sənətin ardınca gedir, Şəkidən nişanlısı Rəşid ilə bərabər müharibəyə yollanan Dürrə Məmmədova müharibə bitəndən neçə illər sonra ağlına da gətirmədiyi şəkildə – Dürrə Məmmədova Kosmedemyanskaya kimi dönür, rəssamlıq məktəbinin istedadlı, perspektivli tələbəsi Rəhimə Babayevanın sənət taleyinə Reyxstaqın divarına bir azərbaycanlı qızın adını yazmaq düşür, məşhur Mehmandarov və Rüstəmbəyovlar ailəsinin zadəgan qanını daşıyan alicənab xasiyyətli, ali təhsilli həkim Aliyə Rüstəmbəyova Smolensk ətrafında ümumi qardaşlıq məzarında dəfn olunur və s. Lakin onları birləşdirən bütün məqamlarda, ən ağır vəziyyətlərdə belə bir an da olsun, doğma yurdu, ana vətəni unutmadan öz vəzifəsini yerinə yetirmək məsuliyyəti və əzmidir. "Axşamdan bəri tənəffüs etmədən işləyən Aliyə dərman iyi verən, qan-çirk qoxuyan palatadan çıxıb həyətə endi. Ağcaqayın ağacının dibindəki kötüyün üstündə əyləşib səmaya baxdı. Yağışlı-çiskinli Droqobıç üçün xarakterik olmayan bu aylı-ulduzlu səma Aliyənin qəlbində qəribə romantik duyğular oyatdı. Bakı səmaları, Şuşa göyləri yadına düşdü. Ulduzları saydığı, sayıb qurtara bilmədiyi uşaqlıq çağlarını xatırladı. Anası gəlib gözləri önündə dayandı".[2] Ən böyük fədakarlıqlara, qəhrəmanlıqlara qadir bu insanlar Əlfi Qasımovun səmimi qələmi ilə canlı, təravətli şəxsi keyfiyyətlərə malik, qorxunc müharibə zillətlərinin yaşantılarından keçsələr də, kövrək hissiyyatlarını, nəvaziş duyğularını qoruyub saxlamış, həyat sevgisi ilə dolu qəhrəmanlar kimi təsvir olunur. Yazıçı bədii oçerklərində sənədliliyə sadiq qalaraq qəhrəmanının xarakterik cəhətlərini müvafiq situasiyalarda təqdim etməyə daha çox üstünlük verir və təhkiyəsində qəhrəmanının bu cəhətlərini cilalayan səciyyəvi mühiti, şəraiti ilk dövrlərdən izləməyə çalışır. Kabarda-Balkar torpağının faşizmdən müdafiəsində qəhrəmanlıq göstərmiş Kamil Zülfüqarova həsr etdiyi "Qızburunda tək məzar" və Sovet İttifaqı Qəhrəmanı Məlik Məhərrəmovdan bəhs edən "Dnepr qəhrəmanı" sənədli povestlərində də yazıçının bu cür sənətkarlıq xüsusiyyətləri özünü aydın şəkildə göstərir.

[1] Əlfi Qasımov. Vətən çağıranda... – Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1975, s.63-64

[2] Yenə orada, s.38-39

Əlfi Qasımovun nəsr dilinə xas olan zarafat məcazlı satirik novellaları da vardır ki, bu əsərlərində qəhrəman gülüş hədəfi olsa da, sarkastik obraz kimi təqdim olunmur, özünəməxsus həyat fəlsəfəsi, dünyagörüşünə malik fərd olaraq qələmə alınır. Əsasən "Əhlikefin əhvalatlarından" adı altında toplanan bu kiçik hekayələrin qəhrəmanı Əhlikef əslində oxucuda rəğbət oyada bilən ziyansız, həyatın bütün keşməkeşlərinə yumorla yanaşmağı bacaran maraqlı adamdır, yeganə çox böyük şakəri içki aludəsi olmağıdır: "O, dostlarına, tanışlarına dönə-dönə nəsihət edib deyərdi:

– Çalış ölmə! Elə yaşa ki, günlərin necə keçdiyini, həftələrin, ayların bir-birini necə arxada qoyduğunu hiss eləmə. O qədər vur ki, Əzrayıl canını almağa gələndə görsün dəmsən, çıxıb getsin. Əsl insan gərək insan ola, yəni içə! İçən adamdan heç kəsə bəla gəlməz. İçən adam nə demaqoq olar, nə mərdimazar; nə imzalı məktub yazar, nə imzasız...

O ki qaldı ər-arvad münasibətinə, Əhlikef burada məsələni daha da tünd qoyurdu:

– Nə hüquq bərabərliyi, canım? – deyirdi – Ər ərdir, arvad arvad! Heç arvadın familinə keçən kişi görmüsünüz? Görməmisiniz və görə də bilməzsiniz. Amma arvadağız kişilər var. Özü də ilbəil çoxalır".[1] Əslində yazıçı Əhlikefin simasında lətifəvari də olsa, qəfəs həyatının içində öz fikirlərinin azadlığını gəzdirən nə qədər ayıq adamların gününün, ayının gəlib keçməsini, ömrü məşəqqət kimi başa vurmasını gözləyən karikatur sərxoşlara çevirildiyini də göstərmək istəmişdir.

Əlfi Qasımov Sovetlər dönəmində Azərbaycan ədəbiyyatına müasir tipli və mental düşüncəli, həyatı bütün mənalarda sevməyi bacaran və yaşamaqdan qorxmayan, sadə, amma əzmkar qəhrəmanlar bəxş etmiş yazıçıdır. Yaradıcılığının əsas prinsipinin millilik, ümdə ideyasının ümumbəşərilik olduğu üçün yazıçının əsərləri bu gün də aktualdır və ədəbiyyatımızın dəyərli bədii nümunələrindən sayılır.

[1] Əlfi Qasımov. İnsan qaranquş deyil. – Bakı: Gənclik, 1981, s.259-260

İSİ MƏLİKZADƏ
(1934-1995)

Yaradıcılığında müasir həyatın ictimai-siyasi reallıqlarına cəsarətli yanaşma tərzi ilə seçilən İsi Məlikzadə 60-cılar ədəbi nəslinin istedadlı nümayəndələrindən biri kimi tanınmışdır. Milli-mənəvi dəyərlərə möhkəm bağlı olan, zəngin ədəbi-mədəni irsdən qaynaqlanan həssas duyumlu, incə zövqlü, bənzərsiz lakonik bədii üslublu sənətkar əlliyə yaxın hekayə, iyirmi povest, iki roman, bir çox tərcümə, ekran və səhnə əsərləri yazıb-yaratmışdır. Onun əsərləri zəngin milli koloriti, müasir ruhu, mənəvi-əxlaqi mahiyyəti ilə ürəklərə yol tapır, təsvirlərin obrazlılıq keyfiyyəti və yüksək dil mədəniyyəti ilə seçilirdi.

Həyatı. İsi Abbas oğlu Məlikzadə 1934-cü il mayın 1-də Azərbaycanın Ağcabədi rayonunda sənətkar-usta ailəsində anadan olmuşdur. Orta məktəbi bitirib, təhsilini 1952-1957-ci illərdə Azərbaycan Sənaye İnstitutunun neft-kimya fakültəsində davam etdirmişdir. Sonrakı illərdə Əzizbəyov neft mədənlər idarəsində operator, yerüstü avadanlıq ustası, Bakıqaz idarəsində böyük mühəndis, şöbə rəisinin müavini, "Ulduz" jurnalı redaksiyasında publisistika şöbəsinin müdiri, Azərbaycan Dövlət Nəşriyyatında redaktor, Cəfər Cabbarlı adına Azərbaycanfilm kinostudiyasında ssenari redaksiya heyətinin üzvü, "Azərbaycan" və "Ulduz" jurnalları redaksiyalarında nəsr şöbəsinin müdiri, "Mozalan" satirik kinojurnalı studiyasında böyük redaktor, C.Cabbarlı adına Azərbaycanfilm kinostudiyasında baş redaktor kimi müxtəlif vəzifələrdə çalışmışdır.

Məsuliyyətli, çətin, şərəfli həyat və fəaliyyət yolu keçən İsi Məlikzadə 1995-ci il dekabrın 4-də vəfat etmiş və doğulduğu torpaqda dəfn olunmuşdur.

Yaradıcılığı. İsi Məlikzadənin "Peşmançılıq" adlı ilk hekayəsi 1957-ci ildə "Ağcabədi pambıqçısı" (indiki "Aran") qəzetində çıxmış, görünür, bədii səviyyəsi müəllifi təmin etmədiyi üçün kitablarına salmamışdır. Özünün yazdığına görə, 1960-cı ildə "Azərbaycan gəncləri" qəzetində dərc olunmuş "Durdu getdi" əsəri onun ilk mətbu hekayəsi olmuşdur. Ancaq yazıçının həmin əsərinin adı mətbuatda "Durdu getdi", "Dayanmadı getdi", "Baxmadı getdi" kimi müxtəlif adlarla qeyd edilirdi. İstər bu hekayənin, istərsə də "Oxuma, Cəmil" və "Həsrətin sonu" hekayələrinin yazılma tarixi 1959-cu ildir. Süjeti keçmiş həyatdan götürülən son iki hekayə müəllifin uğurlu qələm təcrübəsi idi və təhkiyəsinin orijinallığı ilə ədəbiyyata istedadlı bir gəncin gəldiyini xəbər verirdi. O, başqa ixtisas sahibi – neft-qaz mühəndisi olsa da, fitri istedadı sayəsində ədəbiyyata güclü maraq göstərmiş, bədii yaradıcılığa başlarkən ilk yazılarından zəngin təəssüratlarla, özünəxas həyat müşahidələri, incə yumor hissi, zərif və kövrək duyğularla diqqəti cəlb etmişdir.

Yazıçı qələmə aldığı süjetdə əsas mətləbi gerçəkliyin ayrılmaz bir parçası, həyatın müəyyən bir həqiqəti, ictimai reallığın bir hissəsi kimi ibrətli lövhə-mənzərə səviyyəsində təqdim edirdi. İmkanı daxilində əsərlərində artıq yükə, yersiz ifadəyə, əlaqəsiz təsvirlərə yol vermir, mürəkkəblik və dolaşıqlıqdan qaçırdı. Onun 1991-ci ildə nəşr etdirdiyi "Şehli çəmənlərin işığı" toplusunda qırxadək hekayəsi toplanmışdır. Bu yığcam süjetli əsərlərdə xalq həyatından alınmış müəyyən bir əhvalat yazıçı tərəfindən ibrətli məna ilə dolğunlaşıb, canlı lövhə səviyyəsində təqdim olunurdu.

İsi Məlikzadə öz qəhrəmanını fəaliyyət sahəsi, şəxsi qayğıları, könül aləmi, ictimai mühiti, arzu və düşüncələri ilə ədəbiyyata gətirirdi. Mənəvi-əxlaqi amil, konkret motiv, milli ənənələrə bağlı tərbiyəvi məna onun yaradıcılığında aparıcı mövqedədir və demək olar ki, bütün əsərlərində müşahidə olunur. "Həsrətin sonu", "Bünövrə", "Kürsü", "Oğul" və s. hekayələrində insanın həyat eşqi, iş məsuliyyəti, vətəndaş borcu, ailəyə sədaqətli münasibəti belə bir işıqda aydın görünür. Məsələn, "Möhlət" hekayəsində öz işini və ailəsini sevən İmran kişi adi bir fəhlədir, qarlı-şaxtalı günlərdə qaz cihazlarını yoxlamaqla məşğuldur. Yazıçı 2-3 cümlə ilə bu sadə peşə adamının xarakterinin açılmasına nail olmuş, nəinki obrazı canlandırmış, həm də oxucuda ona qarşı rəğbət oyada bilmişdir. Əsərin bir yerində İmran kişi səliqə ilə düzülmüş qaz cihazları haqqında deyir: "Ürək qanı tənzimləyən kimi, bu şkaflar da qazı tənzimləyir, sonra da evlərə, cihazlara paylayır. Vay o gündən ki, bu ürək xarab olsun. Onda təzyiq artar, evlərdə xata törəyər, yanğın olar".[1] Hekayədə istifadə olunan bu məqamdan yazıçı çox ustalıqla istifadə edib, İmran kişinin mənəvi dünyası barədə də təsəvvür yaradır. Onun tez-tez sancan, ağrıyan ürəyi ilə söhbətində şəxsi qayğıları, düşüncələri, uşaqlarını böyüdüb xoşbəxt görmək arzuları hekayənin "Möhlət" adına aydınlıq gətirir.

Müraciət etdiyi mövzunun, mətləb və problemin əhatə dairəsindən asılı olmayaraq, İsi Məlikzadə öncə insanların münasibətləri, baxışları, qayğıları, duyğu-düşüncələri, arzu və təşəbbüslərini dərindən araşdırmağa can atır, cəmiyyət həyatından təsvir etdiyi adi bir əhvalatı insana xidmət idealına tabe tutur, onunla sıx əlaqələndirməyə çalışırdı. Ədib müxtəlif sahələrdə apardığı müşahidələrini, ictimai mühitdəki ağrılı, neqativ məsələləri, təbiət, mənəviyyat və ekologiya problemlərini məhz insanlıq mövqeyindən əks etdirməyə səy göstərirdi. Mövzu aktuallığı, bədii dil, ifadə, təsvir vasitələri ilə seçilən "Oğul", "Duz", "Görüş", "Yeddi ocaq", "Təbəssüm", "Mavi yuxu", "Şehli çəmənlərin işığı", "Ağlama, əmican", "Toy mövsümü", "Bu çayın suyu lilli", "Qatarda" kimi onlarca əsərləri sənətkarlıqla yazılmış nəsr nümunələridir.

[1] İsi Məlikzadə. Şehli çəmənlərin işığı. – Bakı: Yazıçı, 1991, s.11

Bədii axtarışlarının və sənətkarlıq qabiliyyətinin nəticəsi idi ki, ayrı-ayrı əsərlərində daş kürsü, köhnə şalvar, adi plastmas qutu, rəngli divar saatı, bir-iki ovuc duz, sönən-yanan ocaq kimi söz və ifadələr, habelə digər adi əşya, predmet və obyektlər funksiyalı obrazlaşma həddinə qaldırılmış, bununla süjetin inkişafına və ideyanın açıqlanmasına əlverişli şərait yaradılmış, real və münasib zəmin hazırlanmışdır.

İsi Məlikzadə mürəkkəb səciyyəli, müxtəlif aspektli insan münasibətlərinin süjetdaxili təsvirində onların mahiyyətinə, təcəssüm vasitələrinə həssaslıqla yanaşmış, mühitindəki bir səciyyəvi ziddiyyət və əlamətləri özündə ehtiva edən İnsan və Təbiət amili onu daim ciddi düşündürmüşdür. Yığcam hekayələrlə yanaşı, povest janrına da maraq göstərməsi, hər şeydən öncə, yazıçının təxəyyül stixiyası, daxili meyilləri dövrün və zamanın tələblərindən irəli gəlirdi. "Haram tikə", "Özgə anası", "Oyanmış xatirələr" povestləri müasir həyatdan alınmış mənalı məzmunu və insan taleləri ilə diqqəti cəlb etmişdir. Yazıçının "İki günün qonağı", "Qaranquş yuvası", "Quyu", "Yaşıl gecə", "Günəşli payız", "Dədə palıd", "Gümüşgöl əfsanəsi", "Qırmızı şeytan" və s. povestlərində mənəvi-əxlaqi saflığa çağırış ruhu güclü olub, məqsədli bədii lövhələr, insanın nəcib yaşantıları, cəmiyyətdəki neqativ problemlərə daha çox önəm verilir, obrazın indisi ilə keçmişi elə məzmun-forma daxilində canlandırılır ki, insan kamilləşmə yolunu axtara-axtara, maneə və çətinlikləri görə-görə bərkiyib möhkəmlənsin, düzü əyridən, doğrunu yalandan, həqiqəti saxtadan ayırmağı bacarsın, özünün şərəf və ləyaqətini uca tutmağa, milli kökə bağlı əxlaqi qənaət və mənəvi dəyərlərə sadiq qalmağa can atsın... Ədəbiyyatşünas alim Vaqif Yusifli İsi Məlikzadə əsərlərinin səciyyəvi xüsusiyyətlərindən bəhs edərkən "Evin kişisi" povestinin qəhrəmanını nümunə gətirir. Həqiqətən əsərdə adi bir insan – sadə milis işçisi Qaçay öz hərəkətləri, düşüncələri və davranışı ilə o zamankı sovet ədəbiyyatının "müsbət qəhrəman" tipi ilə heç cür uyuşa bilmir. Çünki o, mənfiliklərə qarşı mübarizə apara biləcək səviyyədə deyil. Hətta Qaçay "müsbət qəhrəman"a xas olmayan avam və sadəlövh düşüncə tərzi ilə gülüş də doğurur... Qaçay sadəcə olaraq təmiz və sadə mənəviyyatlı insanların bir nümunəsidir. Belə qəhrəmanların istisnasız olaraq hamısının qarşısında "işıqlı" sözünü bədii təyin kimi işlətmək mümkündür".[1]

Ədibin xüsusi seçilən dərin mənalı və geniş tutumlu əsərlərindən "Gümüşgöl əfsanəsi"ndə mühüm bir məsələ diqqət mərkəzinə çəkilərək "əfsanə" işığında, göl "hikməti" və "qüdrəti" aynasında Orxan-Bənövşə xəttini müəyyənləşdirmiş, vacib bir mətləbin ümumiləşmiş ifadəsini inikas etmişdir: "...Kaş doğrudan da elə bir göl olaydı, adamların günahlarını

[1] Vaqif Yusifli. Sözün ömrü qədər. İsi Məlikzadənin "Seçilmiş əsərləri" kitabından. – Bakı: Şərq-Qərb, 2005, s.8

ölçəydilər orada, təkcə xəyanəti yox, irili-xırdalı bütün günahları... Kaş elə bir göl olaydı... Oğrular, əyrilər, rüşvətxorlar gücsüzlərin başından basmazdılar, haqqı nahaqqın ayağına verməzdilər. Hamı ürəyinin xıltını təmizləyərdi, ürəklərdə ancaq işıq, məhəbbət olardi".[1]

İsi Məlikzadə yaradıcılığında açıq tendensiyalı siyasiliyə, demək olar ki, yer verməmişdir. Öz sənəti timsalında nəsri yalançı pafosdan, ritorikadan, yorucu təsvirçilik – hadisəçilik qüsurundan, süjeti süni genişləndirmə meylindən, lüzumsuz şaxəlilik, zahiri monumentallıq hallarından qorumağa ciddi səy etmiş, yüksək sənətkarlığa nail olmağa çalışmışdır.

İstedadlı yazıçı orijinal ideya-məzmunlar axtarıb-tapmağa meyilli, obyektinə həssas münasibət, onu diqqətlə müşahidə edib öyrənməklə heç kəsin görə bilmədiyi cəhətlərini aşkarlamağı bacaran sənətkarlığa malik olmuşdur. Buna görə də əsərlərində biri digərinə yaxın mövzu olsa da, onlar mətləbi, forması, ifadə və inikas tərzi ilə bir-birindən seçilirdi. Belə ki, "Özgə anası" ilə "Oyanmış xatirələr" povestlərinin müqayisəsindən görünür ki, hər iki əsərdə baş verən ayrılıq, bədbəxtlik, iztirab halları şəraiti, kökü və səbəbinə görə tamam fərqlidir. Belə psixoloji sosial məqamlar ya ana – oğul, ya da qaynana – gəlin və s. obrazları vasitəsilə əks etdirilirdi.

Yazıçının povestlərində diqqəti cəlb edən maraqlı xüsusiyyətlərdən biri qısa zaman çərçivəsində cərəyan edən süjetdə keçmişə qayıtmaq, olmuş hadisə, vəziyyət və məqamları yada salmaq, müəyyən epizod və səhnələri xəyalda canlandırıb təsvirə gətirməkdir. Bu, əsərdəki hadisələri hüdudca genişləndirməyə, tutumca zənginləşdirməyə, obrazları lazımi cizgi əlamətlərlə psixoloji aspektdə səciyyələndirməyə kömək edir. "İki günün qonağı" povesti maddi-mənəvi qayğılarla yüklənmiş əzabkeş obrazların oxşarlığına görə "Evin kişisi" povestinə yaxın olmaqla həm də süjet şaxələri ilə İsi Məlikzadə sənətkarlığına dəlalət etməkdədir. Ədəbiyyatşünas alim Akif Hüseynov yazırdı: "...hadisələrin sanki soyuqqanlılıqla, elə bil ki, etinasızlıqla nəqli arxasında müəllifin fəal mövqeyi, hisslərini incə, sərrast cizgilərlə bildirməsi nəzərə çarpır".[2]

XX əsrin əvvəllərində bir sıra görkəmli yazıçılar, xüsusilə C.Məmmədquluzadə, Ə.Haqverdiyev kimi böyük sənətkarlar ədəbiyyata yeni tipli həyati qəhrəmanlar, sadə, sıravi, "kiçik" insan obrazları gətirdilər. Əsrin ikinci yarısında sənət meydanına gələn "altmışıncılar"ın da əsas xidmətlərindən biri məhz ondan ibarət oldu ki, onlar əslində təzə olmayan, lakin bir növ arxa plana keçən, hətta az qala unudulan vacib bir mətləbi yenidən "diriltdilər", təzə həyat materialları əsasında, ayıq və ağıllı təfəkkür işığında sadə insanları canlandırıb yaşatmağa başladılar. Ədəbi gəncliyin İ.Muğanna,

[1] İsi Məlikzadə. Gümüşgöl əfsanəsi. – Bakı: Yazıçı, 1987, s.197-198
[2] Akif Hüseynov. Nəsr və zaman. – Bakı: Yazıçı, 1980, s.118

Ə.Əylisli, S.Əhmədli, İ.Məlikzadə, Maqsud və Rüstəm İbrahimbəyovlar, M.Süleymanlı, Anar, Elçin kimi istedadlı nümayəndələri, habelə yaşlı və orta nəslin yenilik hissləri ilə seçilən M.Hüseyn, M.İbrahimov, İ.Əfəndiyev, Ə.Məmmədxanlı, İ.Şıxlı kimi simaları səmərəli yaradıcılıq təcrübələri, sağlam ruhlu və təzə üslublu nümunələri ilə həmin mərhələnin formalaşmasında yaxından iştirak etdilər, ciddi və faydalı rol oynadılar.

Stereotip ideoloji münasibətin güclü olduğu total rejim şəraitində yaşamaq və yaratmaq çətinliklərinə baxmayaraq, İsi Məlikzadə cəsarətli yazıçı kimi hərəkət edir, istədiyini deməyə can atır, həyati mətləblərə, mənəvi dəyərlərə xüsusi diqqət yetirirdi. Aktual məsələlər qaldırdığı "Alovlu qış" və "Qırmızı yağış" romanlarında da bu xüsusiyyətə önəm vermişdir.

İsi Məlikzadə sənətində ədəbi tənqidin önəm verdiyi bir cəhət mətləbə maraqlı süjetlə başlayıb, diqqəti lazımi səmtə yönəltmək, obrazlar, hadisə və əhvalatlar aləminə nüfuz etmək bacarığıdır. Məsələn, "Çəhrayı dəftər" povestində göstərilir ki, təbiətən sakit qadın olan Zöhrəni əri Rəhimin evdə fit çalmağı tez-tez hövsələdən çıxarır. Xahişlər, tənə və danlaqlar vərdişi tərgitməyə kömək etmir. Ancaq Rəhim özü bir gün fit çalmağa son qoyur. Buna da səbəb təbiət gözəlliklərindən ürəyi vəcdə gələn, evə gümrah əhvalla qayıdan obrazın qəfil eşitdiyi ağır və kədərli xəbərdir. Onun istəkli Nəsir əmisini tutmuşdular. Belə bir məqamda obrazın halına və təsvirin davamına diqqət yetirək: "Rəhimin dodaqları büzüldü, ovurdları hava ilə doldu, ancaq o fit çala bilmədi, çünki hulqumuna elə bil iynə soxdular, içəridə hulqumunun darı boyda bir yeri gör-gör göynədi və bu ağrıdan dili quruyub damağına yapışdı".[1]

Uşaqlıqdan himayəsində qayğısı ilə böyüdüyü, xasiyyətinə bələd olduğu əmisinin əyri yola getməsinə, halala haram qatmasına, özgə malına göz dikməsinə Rəhim heç cürə inana bilmirdi. Çünki o, Nəsir əmisini vicdanlı, namuslu, qeyrətli bir adam kimi tanıyırdı. Yazıçı obrazın öz doğmasının taleyinə həssas münasibətini bildirmək, oxucuda həqiqətə inam hissini qüvvətləndirmək niyyəti ilə adi məzmunlu sözlərdən deyil, məcazlardan, mübaliğəli ifadə və bənzətmələrdən istifadə edirdi. Povestdə "cinayətsiz cəza" məsələsi Nəsir kişinin obrazını geniş, ətraflı təsvirlə yox, daha çox Rəhimin ruhi sarsıntısı, qayğıları, duyğu-düşüncələri və həyəcanları əsasında təqdim olunurdu.

İnsana, torpağa, kökə, yurda, el-obaya, haqqa, halallığa, mənəvi nemətlərə dərin bağlılıq hissi İsi Məlikzadənin əsərlərinin ideya-məzmun istiqamətini səciyyələndirirdi. Təsadüfi deyil ki, Kür boyundakı geniş ormanqoruq sahəsi də, növbənöv quşlar məkanı füsunkar Ağgöl də, meşə yaraşığı əzəmətli Dədə Palıd da ədibin bədii inikas obyektləri sırasında əhəmiyyətli

[1] Yaqub İsmayılov. İsi Məlikzadə – söz sərrafı, nəsr ustası. – Bakı: Elm, 2007, s.110

yer tutmuşdur. Bu, təkcə təbiətə sevgidən, onun əlvan mənzərələrinə, zənginlik və gözəlliklərinə məhəbbət, sərvət və nemətlərini mühafizə hissindən deyil, əhatəli məna-məqsəd daşıyan bir sıra amillərlə – mənəvi-əxlaqi, ictimai-sosial mətləblərlə vəhdətdə maraqlı məzmuna qovuşmuşdur. Əsərdə qabardılan hər problemə, hər şeydən əvvəl, insan mənəviyyatından, taleyindən, əlaqə və baxışlarından keçərək dəyər verilmişdir.

İsi Məlikzadə öz zamanında bədii nəsrin qarşısında duran yeni vacib vəzifələrin yerinə yetirilməsində yaxından iştirak etmiş, mövcud cəmiyyətdəki problemlərə münasibətini dərinləşdirə-dərinləşdirə, axtarış və müşahidələrini davam etdirə-etdirə ədəbiyyata gözəl nümunələr gətirmişdir.

Bədii nəsr sahəsində ardıcıl fəaliyyət göstərən ədib bir sıra səhnə əsərləri və ssenarilər də yazmışdır. Onun Akademik Milli Dram Teatrının səhnəsində "Gəl qohum olaq", "Sağlıq olsun", "Hərənin öz ulduzu", "Məndən nigaran qalmayın" pyesləri tamaşaya qoyulmuşdur.

Uzun illər "Azərbaycan" kinostudiyasında baş redaktor işləyən İsi Məlikzadə çox maraqlı ssenarilər müəllifi kimi tanınmış, "onun "Qatarda", "Gümüşgöl əfsanəsi", "Pəncərə", "Ağ atlı oğlan", "Kişi sözü", "Cehiz güzgüsü", "Güllələnmə təxirə salınır", "Hacı Qara", "Papaq", "Evin kişisi", "Evlənmək istəyirəm", "Qoca palıdın nağılı" kimi qısametrajlı bədii və sənədli filmləri böyük ekranda öz geniş təcəssümünü tapmış və tamaşaçılar tərəfindən böyük rəğbətlə qarşılanmışdır".[1]

İsi Məlikzadə öz əsərlərində xalq yaradıcılığına müraciət edərək mənəviyyat problemləri ilə bağlı folklordan məqsədinə uyğun mövzu-motiv, yaxud epizod götürüb işləyəndə də, həmçinin təbiəti inikas obyekti kimi alanda da onu insanla əlaqələndirir, insanın daxili dünyası, şəxsi və ictimai taleyi, xoşbəxtliyi və gələcəyini ön plana çəkib, orijinal bədii vasitələrlə işıqlandırırdı. Xeyirxahlıq, gözəllik, saflıq, millilik və bəşərilik təkcə ictimai-sosial atributlar kimi yox, mənəvi dəyər, ideya-estetik sənət kredosu kimi yaradıcılığının təkan və təkamül amilinə çevrilirdi. O, elə səviyyəli, səciyyə və səpkili sənətkarlardandır ki, təkcə milli hududlara qapanıb qalmamış, genişliyə meyil etmiş, milli olduğu qədər də bəşəri keyfiyyətlərlə şərtlənən potensiala malik olmuşdur. Bu da bütövlükdə sənətinin sağlam ruhu, mayası-nüvəsi, canı-cövhəri, yaşamaq iksiri və ləyaqət göstəricisi demək idi.

Zaman kateqoriyası baxımından uzun tarixi dövrün, yaxud dövrlərin məhsulu olmasa da, İsi Məlikzadə sənəti öz müasirlik məziyyətini, estetik-sosial ləyaqətini və əxlaqi-tərbiyəvi mahiyyətini hər zaman qoruyub saxlamaq qüdrətindədir – aktual, canlı və yaşarıdır.

[1] İsi Məlikzadə. AMEA Nizami Gəncəvi adına Azərbaycan Ədəbiyyatı Muzeyi. – Bakı, 2004, s.4 (Məlumat f.e.d., prof. Qəzənfər Paşayev və f.e.n. Gülzar İbrahim qızının yazısına əsaslanır)

ƏLİBALA HACIZADƏ
(1935-2009)

XX əsrin 60-cı illərindən ədəbi fəaliyyətə başlayan Əlibala Hacızadə Azərbaycan bədii nəsrində lirik-realist roman janrının tanınmış nümayəndələrindən biridir. Həm nasir, həm də şair kimi ədəbi ictimaiyyət tərəfindən yüksək dəyərləndirilmiş yazıçının həyat gerçəkliklərini əks etdirən realist və xüsusilə, lirik-psixoloji motivli əsərləri Azərbaycan gəncliyinin etik-mental keyfiyyətlərinin inkişafında önəmli rol oynamışdır. Onun milli düşüncə tərzimizə, estetik-mədəni təfəkkürümüzün təhlilinə istinad edən sosial-məişət mövzulu nəsr əsərləri Azərbaycan ədəbiyyatının xalq tərəfindən sevilən, kütləvi şəkildə oxunan uğurlu bədii nümunələrindəndir.

Həyatı. Əlibala Qüdrət oğlu Hacızadə 1935-ci il avqustun 28-də Biləsuvar rayonunun Ağalıkənd kəndində dünyaya göz açmış, ilk təhsilini Xırmandalı kənd orta məktəbində almış, məktəbi bitirdikdən sonra 1953-1958-ci illərdə BDU-nun (keçmiş ADU) Şərqşünaslıq fakültəsində fars dili və ədəbiyyatı üzrə təhsil almışdır. Universitet təhsilindən sonra Azərbaycan EA Şərqşünaslıq İnstitutunda elmi işçi kimi fəaliyyətə başlamış, bir müddət (1966-1970) Əfqanıstanda tərcüməçi işləmişdir. Vətənə geri döndükdən sonra Azərbaycan EA Şərqşünaslıq İnstitutunun İran filologiyası şöbəsində elmi yaradıcılığını davam etdirmişdir.

Yaradıcılığı. Bədii yaradıcılıqla yanaşı, elmi tədqiqatla məşğul olan Əlibala Hacızadə, XX əsr İran ədəbiyyatının tanınmış nümayəndələrindən "Fərruxi Yəzdinin poeziyası"[1] mövzusunda dissertasiya işini müdafiə edərək elmi dərəcə almış, 1976-cı ildə baş elmi işçi vəzifəsinə təyin olunmuşdur. Elmi fəaliyyətinin ilk uğurlarından hesab olunan Fərrux Yəzdinin yaradıcılığına həsr olunmuş monoqrafiyası dünya şərqşünaslığında bu şair haqqında ilk geniş elmi əsərdir. Əlibala Hacızadə İran ədəbiyyatında roman janrının tipologiyasına həsr olunmuş bir neçə sanballı elmi tədqiqat işinin müəllifi olmuşdur. O, 1994-1996-cı illərdə "Nizami" elmi-ədəbi jurnalının baş redaktoru kimi fəaliyyət göstərmişdir. Ədibin əsərləri 1992-ci ildə üçcildliyində, 2004-2005-ci illərdə isə oncildliyində nəşr edilmişdir. Yazıçı 1962-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü olmuş, 2006-cı ilin may ayında Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü[2] adına, İranın "Ölməz şəxsiyyətlər" mükafatına layiq görülmüş və AMEA RH-nin Fəxri fərmanı ilə təltif edilmişdir.

---

[1] Əlibala Hacızadə. Fərruxi Yəzdinin poeziyası. – Bakı: Elm, 1965

[2] Hacıyev Əlibala Qüdrət oğlu (Əlibala Hacızadə). Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdlərinin verilməsi haqqında. 15.05.2006, №1456. https://frameworks.e-qanun.az/11/f_11717.html

Şərqşünas alim Məsiağa Məhəmmədi yazır: "Əlbəttə, bütün bu ədəbi və elmi uğurların bünövrəsində Əlibala müəllimin bənzərsiz şəxsiyyəti dayanır... Onun bütün müsbət keyfiyyətlərinin kökündə bir amil dayanır – Məhəbbət. Əlibala müəllimin varlığı sanki məhəbbətdən yoğrulub – ata-anaya, övlada, dosta, xalqa, vətənə, insanlığa məhəbbətdən! Əslində hansı mövzuda olursa-olsun, onun əsərlərinin də mayasında məhəbbət dayanır. Həmin məhəbbət Əlibala Hacızadə yaradıcılığının əbədiyaşarlığını təmin edəcəkdir. Əlibala Hacızadə təkcə qüdrətli nasir və şair deyil, Füzulinin təbirincə desək, "iki aləmi" sənət və elm aləmini "müsəxxər eyləmiş" (tutmuş) bir şəxsiyyətdir".[1]

Əlibala Hacızadə 8 oktyabr 2009-cu ildə Bakı şəhərində vəfat etmişdir.

***

Əlibala Hacızadə ədəbi yaradıcılığa 1956-cı ildə "Uşaqgəncnəşr" nəşriyyatı tərəfindən buraxılmış "Gəncliyin səsi" almanaxında dərc olunan "Mənim müəllimim" adlı ilk hekayəsi ilə başlamışdı. Onun "Heykəl gülür" adlı hekayələr toplusu isə 1961-ci ildə nəşr olunmuşdur. Sonralar yazıçı hekayə janrı ilə yanaşı, qələmini roman janrında da sınamış və onun "Təyyarə kölgəsi", "Vəfalım mənim", "Möcüzə", "İtkin gəlin", "Əfsanəsiz illər", "Dünyanı tanı" və s. romanları ədəbi ictimaiyyət tərəfindən yüksək dəyərləndirilmişdir. Yazıçının yaratdığı bədii əsərlərində yaşadığı dövrün aktual problemləri ön planda dururdu. Bütün varlığı ilə bədii yaradıcılıqla məşğul olan və bununla qürurlanan yazıçı yazırdı: "Ədəbiyyat aləmi müqəddəs bir aləmdir və ədəbiyyat adlı bir dünyaya uzanan bir çox yolların ən gözəli, şirini və əzablısıdır. Mən ömrümün böyük bir hissəsini burada – müqəddəs saydığım bu dünyanın içində yaşamışam. Mən nə az, nə çox, düz 50 ildi ki, bu aləmdəyəm. Gəlişim səssiz-küysüz olub, burda yaşadığım o 50 il də səsdən-küydən, münaqişədən, çəkişmə-didişmələrdən uzaq olub..."[2]

Yaradıcılığında sosial həyatın bədii əksi yazıçının qələmindən çıxan bütün əsərlərində özünəməxsus şəkildə təzahür edir. Yazıçı müşahidə etdiyi müxtəlif həyat gerçəkliklərini düşüncələrindən keçirib obrazlı şəkildə qələmə alaraq oxucusuna çatdıra bilmişdir. Əlibala Hacızadə özündən əvvəlki ədəbi mühiti dərindən öyrənmiş, izləmiş və öz ədəbi qəhrəmanlarını zaman və məkan anlayışına uyğunlaşdıraraq cəmiyyətdəki nöqsan və çatışmazlıqları, haqsızlıqları, daxili-mənəvi zənginlikləri müxtəlif xarakterli obrazların simasında, hadisələrin təsvirində sənətkarcasına qələmə almış və yaratdığı əsərlərlə oxucu qəlbini fəth etməyi bacarmışdır. Əsərlərin əsas qayəsini təşkil edən qəhrəman obrazı öz mənəvi gücü ilə həmişə həyat çətinliklərinə qalib gəlir. Yazıçının şəxsi keyfiyyətlərinin əsərlərində yaratdığı qəhrəmanların

[1] Əlibala Hacızadə – 70. – Bakı: Bakınəşr, 2005, s.6
[2] Yenə orada, s.7

xarakterində təcəssümü bir çox məqamlarda özünü büruzə verir. Təbiətən gözəl, nəcib hisslər, əxlaqi xüsusiyyətlər əxz edə bilməyən insan gözəl sənət əsərini duya və yarada bilməz. Qəhrəmanları kamillik nümunəsi kimi vermək bacarığı, onlara münasibət, yanaşma və təsvir üsulu müəllifdən həssaslıq və ustalıq tələb edir.

1970-1980-ci illərin sevilən və oxunan nasirlərindən olan Əlibala Hacızadə öz romanlarında dövrünün ictimai-siyasi həyatında baş verən proseslərə biganə qalmamış, onları əsərlərində müxtəlif aspektdən əks etdirmişdir. Bu baxımdan 1980-ci illərin hadisələrini, ölkəmizdə baş verən ictimai-siyasi prosesləri reallıqla təsvir edən "Möcüzə" romanı böyük maraq kəsb edir. Əsərdə yarandığı dövrün sosial mühiti təsvir olunmaqla yanaşı, yazıçının digər bir sənətkarlıq xüsusiyyətini, qəhrəmanın daxili monoloqunun vasitəsilə ideyanın işıqlandırılmasını, konflikti quran vəziyyətin önə çəkilməsini, təminatını, mövzunu bu vasitəylə inkişaf etdirə bilməsini üzə çıxarmışdır.

Yazıçının ilk romanlarından olan "Təyyarə kölgəsi" və onun davamı kimi qələmə aldığı "Vəfalım mənim" romanlarının mövzusu onun yaradıcılığında yeni idi. Hər iki roman insanların həm ictimai-sosial, həm də məişət yaşantılarını obrazlı şəkildə bədiiləşdirmək istəyi idi ki, yazıçı buna yüksək səviyyədə nail olmuşdur. Bu əsərlərdə ziyalı təbəqənin, elm adamlarının yaradıcılıq axtarışlarından, elm aləmində tutduqları mövqedən, onlara verilən dəyərlərdən bəhs olunur. Bütün bunlarla yanaşı, digər qütbdə dayanan riyakar, nadan, öz xeyri naminə hər cür oyunlara əl atan insanların iç üzünü açıb göstərən məqamlar da diqqətdən kənarda qalmır.

Yazıçı yaratdığı obrazların cəmiyyətdəki mövqelərindən çıxış edərək onları belə ümumiləşdirir: "Elmi işçi olmaq, alim adı daşımaq çoxlarının gözünü qamaşdırsa da, az-çox elmin nə demək olduğunu bilən adamlar gərək bu yükün altına zorla girməsin, səbrin, savadın, enerjin varsa, gəl, yoxsa nahaq əziyyət çəkib ömrünü-gününü havayı yelə vermə. Elm sənin gözünün işığını istəyir, verəcəksənsə gəl. Elm sənin düz qamətini stolun arxasında oturmaqdan əyəcək, razısansa gəl! Ürəyin ağrıyacaq, dözəcəksənsə, gəl! Elm bəlkə səni əlində qələm elə lap stol başında öldürəcək, qorxmursansa, gəl!"[1] Salman Qurbanzadə, Aslanzadə, Gülmirə, Cəfər, Nadirə, Sakit və başqa elmə xidmət edən bu insanlar məhz elmə fədakarlıqla xidmət edən əsas obrazlardır. Eyni zamanda yazıçı baş verən hadisələr fonunda elmi müəssisənin aparıcı və kiçik vəzifələrini icra edən maraqlı obrazlar da yaratmışdır ki, bu, elmi mühitin mənzərəsinin əhatəli uğurlu təsvirinə imkan vermişdir.

Əlibala Hacızadənin Şərq klassik ədəbiyyatına dərindən bələd olması, bu sahədə apardığı ardıcıl elmi araşdırmalar yazıçının bədii yaradıcılığına öz təsirini göstərmişdir. Digər tərəfdən, 1966-1970-ci illərdə fars dili üzrə

[1] Əlibala Hacızadə. Təyyarə kölgəsi. – Bakı: Gənclik, 1974

mütəxəssis kimi, o, Əfqanıstanda tərcüməçi işləmişdir. Yazıçı Azərbaycan nəsri tarixində "Əfqanıstan trilogiyası" ilə trilogiyanın əsasını qoymuşdur. "İtkin gəlin", "Əfsanəsiz illər", "Ayrılığın sonu yoxmuş" romanları Ə.Hacızadənin yaradıcılığında realist nəsrin seçilən nümunələri kimi xüsusi əhəmiyyət daşıyır. Həmin əsərlərdə müəllif gündəlik həyatın reallıqlarını, sosial-mənəvi problemləri, fərdi yaşantıları dolğun əhatəli təsvir üsulu ilə canlandıraraq, cəmiyyətdəki ictimai münasibətləri və insan xarakterlərini bədii ümumiləşdirmə səviyyəsinə yüksəltmişdir. Bu romanlar Əlibala Hacızadənin realist bədii-estetik mövqeyini əsaslandırmaqla yanaşı, onun yaradıcılıq fəaliyyətini səciyyələndirən əsas cizgiləri üzə çıxarır və milli nəsrin inkişaf dinamikasında yazıçının orijinal bədii üslubunu formalaşdıran əsas mənbələr kimi nəzəri cəlb edir. Trilogiyanın mövzusunu Əfqanıstanda baş verən vətəndaş müharibəsi, ölkənin ictimai-siyasi həyat tərzini və mühitini əks etdirən hadisələr, ailə və məişət məsələləri, qadın azadlığı, cəmiyyətdə qadının tutduğu mövqe, keçmiş adət və ənənələrə sadiqlik, milli-mənəvi dəyərlərin qorunması təşkil edir.

Ailə dəyərlərinin ön plana çəkildiyi "İtkin gəlin" romanında iki gəncin məhəbbətindən, keşməkeşli ömür yolundan bəhs olunur. Əsərdə aparıcı obrazlar olan Gülzar və onun həyat yodaşı Şamilin həyat tərzi, onların qarşılıqlı münasibətləri, Gülzarın yoxa çıxması hadisələri əsas süjet xəttini təşkil edir. Yazıçı bədii konfliktin inkişafında obrazların daxili gərginliyini, ailədaxili münasibətlərdəki ziddiyyətləri və qadının mənəvi cizgilərini realist boyalar və dərin psixoloji təhlil üsulu ilə canlandırır.

Sadə insanların işi, güzəranı, düşüncələri vasitəsilə ölkədəki ictimai-siyasi vəziyyət barədə təsəvvür yaradır. Məsələn, aşağıdakı dialoqdakı kimi:

– "Deyirlər həqiqət qılıncdan iti olur, ustad?

– Həm də zəhər kimi acı olur, Elməddin.

Qırx ildən yuxarıdır ki, biz azadlıq əldə etmişik. Amma biz azadıqmı? Biz xariciləri qovduq məmləkətimizdən. Amma aclıq, səfaləti qova bilməmişik, rüşvətxorluğu, qohumbazlığı, özbaşınalığı qova bilməmişik..."[1] Bütün bunlar əsərin bədii-estetik dəyərini artırmaqla yanaşı, onu Azərbaycan nəsrində psixoloji təhlilə əsaslanan səciyyəvi nümunələrdən biri kimi təqdim edir. "Əfsanəsiz illər" romanı isə Elməddin, Zərintac, Nəcməddin, Dünya kimilərin keçici, düşünülməmiş atılan səhv addımları nəticəsində üzləşdikləri əzab və həsrət dolu həyatını təsvir edir. Yazıçı əfqan xalqının mövcud həyatına dərindən bələdliklə müxtəlif taleli insanları bir araya toplayıb, onları bir amal ətrafında birləşdirir. Əsərlərdə kəskin süjetlərlə yanaşı, həm də yüksək mənəvi-əxlaqi dəyərlərin önə çəkilməsi onların geniş yayılmasını təmin etmişdir.

[1] Əlibala Hacızadə – 70. "İtkin gəlin". – Bakı: Bakınəşr, 2005, s.24

Əlibala Hacızadənin sənətkar üslubuna xas olan ən ümdə cəhət səmimiyyət və həqiqətə doğmalıqdır. Bu səbəbdəndir ki, onun qəhrəmanlarının simasında hər kəs müəyyən dərəcədə özünü tapır və bu baxımdan əsərlər maraqla oxunur və yaddaşda müəyyən izlər buraxır. 1970-80-ci illərdə yaratdığı əsərlərlə oxucu sevgisi qazanan Əlibala Hacızadənin yaradıcılığı kinematoqrafçıların da diqqətindən kənarda qalmamışdır. Müəllifin "İtkin gəlin" romanı kino-rejissor Lütfi Məmmədbəyovun ssenarisi əsasında çəkilmiş ilk Azərbaycan seriallarından biridir. Əsər mövzu baxımından dövr üçün aktualdır.

Əlibala Hacızadənin yaradıcılığında ovqat, xarakter, forma və ifadə tərzi istər nəzm, istərsə də nəsr əsərlərində güclü şəkildə tərənnüm olunur. Öz mənfi və müsbət obrazları ilə hər bir oxucunun, tamaşaçının qəlbinə yol tapmağı bacaran yazıçının əsərləri bu gün də aktuallığını itirmir. Müəllifin "Həsrət", "İnam", "Meşədə", "Mərdlik" povestləri bu qəbildən olan əsərlərdir. Geniş həyat müşahidələri, həyat təcrübələri, reallığın, obrazlı təsviri baxımından Əlibala Hacızadənin povestləri də oxucuların marağına səbəb olmuşdur. "İnam" povestində Bəhruzun qarşılaşdığı çətinlikdən ümid, inam sayəsində qalib gəlməsi insanın gücünün yenilməzliyini göstərir. Yazıçı real həyatdan alınmış adi bir əhvalatı mənəvi-əxlaqi problem səviyyəsinə qaldırıb, məzmunu xeyli dolğunlaşdırır və təsirli edir. Digər povestlərin də mövzu dairəsi geniş və aktualdır. Ə.Hacızadənin qəhrəmanlarının xarakterinə xas olan həssaslıq, ali mənəvi dəyərlər, əxlaqi keyfiyyətlər onun əsərlərini çox sevdirir və oxunaqlı edir.

"Cehiz", "Pəhləvan" adlı hekayələr kitablarında isə müxtəlif mövzuları əhatə edən, Cümhuriyyətdən əvvəlki fəhlələrin ağır həyat güzəranı, cəmiyyətdə, mühitdə baş verən neqativ hadisələri əks etdirən mövzular öz əksini tapmışdır. Hekayələrində ana məhəbbətini, övlad sevgisini Afaq xalanın timsalında, saf, təmiz, ülvi sevgi ilə yaşamağı bacaran Zərifələrin timsalında, eşqinə sahib çıxmağı bacarmayan, riyakar, nadan, məhəbbəti oyuncağa çevirən, ona keçici hiss kimi baxan Təyyarların timsalında ümumiləşdirərək, onların daxili, mənəvi aləmlərini ustalıqla qələmə almışdır. Yazıçı uşaq hekayələrində "Yalanın sonu", "Qırmızı almalar", "Pay", "Qar bərəkətdir" və s. əsərlərində tərbiyəvi əhəmiyyətli mövzulara geniş yer verərək, hər bir obrazı öz dili ilə danışdıraraq, uşaq dünyasının səciyyəvi aləmini sənətkarlıqla qələmə almışdır. "Ağ saçlı qızın hekayəsi", "Bir dəstə nərgiz", "Ömrüm təzələndi", "Heykəl gülür", "Mənim ilk məhəbbətim" və s. bu sıradan olan hekayələri həyatın reallığını özündə əks etdirən bədii nəsr nümunələrindəndir.

Əlibala Hacızadənin nəsr əsərləri kimi, poeziyası da bədii-estetik dəyəri, lirizmi ilə seçilir. O, nəğməkar şair kimi poeziyasında könül yaşantılarını, məhəbbəti, həsrəti, mənəvi dəyərləri səmimi ifadə tərzi ilə təqdim edir:

Ömrümün bağında bir gül açılıb,
Xəzan ləçəyini yolsa, ölərəm.
Düşsə əgər qasırğaya, tufana,
Saralsa ölərəm, solsa ölərəm.
Göz yaşımdan su içibdir o çiçək,
Ona neynər dəli tufan, sərt külək.
Vüsalından sərxoş olub bu ürək,
Aralıqda hicran olsa, ölərəm.[1]

Yaradıcılığa məsuliyyətlə yanaşan Əlibala Hacızadə sözün mahiyyətini dərk edərək ona xüsusi həssaslıqla yanaşmış, fikir və düşüncələrini incə, kövrək duyğularla tərənnüm etmişdir. Bu xüsusiyyət onun lirik şeirlərində daha çox nəzərə çarpır. Sevən qəlbin səsini, sızıltısını, ah-naləsini bədii boyalarla qələmə alan müəllif məhəbbətin gücünü inam və ümidin işığında görür.

Əlibala Hacızadə poeziyasının qayəsini təşkil edən məhəbbət idrakın sirlərini, təbii gözəlliyini, füsunkar əzəmətin dərk edilməsində əsas amildir. O, şeir yaradıcılığında vətən məhəbbətini, vətən sevgisini, qürbət ellərin nisgilini, acı göz yaşlarını bədii boyalarla, poetik şəkildə təqdim etməyi bacarmışdır. "Ayrılıq" şeirində acı həsrətdən doğan, nisgil dolu hiss və duyğuları belə təsvir edir:

Ayrılığın çərxi niyə dönmədi?
Gedən qaldı, niyə geri dönmədi.
Sən ağladın, zaman lalmış dinmədi,
Qabağına çıxdı tikan, daş sənin.[2]

Yüksək mənəvi zənginliyə malik olan yazıçı-şair Əlibala Hacızadə şeirlərində həmfikir olan, onu duyan qələm dostlarını da unutmamış, onlara bir sıra ürəkdən, qəlbdən gələn şeirlər həsr etmişdir. Ustadı kimi tanıdığı professor Mübariz Əlizadəyə, Xalq şairi Bəxtiyar Vahabzadəyə, şairə Hökümə xanım Billuriyə, yazıçı dostu Fərman Kərimzadəyə, şair dostu Şahin Fazilə və neçə-neçə qələm dostlarına şeirlər ithaf etmişdir. Eləcə də qələm dostları onun yaradıcılığına biganə qalmamış, mətbuatda məqalə və çıxışlarla Ə.Hacızadənin bədii irsini dəyərləndirmişlər.

Müəllifin qələmə aldığı bütün əsərlərində şairin lirik dünyasının, ülvi hisslərin tərənnümü olduqca güclüdür. Məhəbbətdən aldığı ilhamla yazıb-yaradan yazıçı-şair lirik qəhrəmanını duyur, hiss edir, sanki onun diliylə bütün sevən qəlbləri sevgi dünyasında xoşbəxt olmağa səsləyir:

Nurdan yaranmısan nurdu baxışın,
Ulduzlar göylərə gözündən düşüb.

[1] Əlibala Hacızadə – 70. – Bakı: Bakınəşr, 2005, s.54
[2] Yenə orada, s.57

Sevən ürəyimə bu atəş, bu od
Sevən ürəyinin közündən düşüb.[1]

Nəzmlə yazdığı əsərlərində məcazlardan, bədii təsvir və ifadə vasitələrindən ustalıqla istifadə etməsi şeirlərin poetik gücünü daha da artırır. "Ulduzlar göylərə gözündən düşüb", "Eşqinlə çağlayan bir bülbül oldum",. "Sən məni yandırdın, yanıb kül oldum", "Gələm tufan kimi, gələm sel kimi" və s. ifadələr müəllifin hiss və duyğularının məcazlarla ifadəsinin bariz nümunəsidir.

Əlibala Hacızadə öz yaradıcılıq prinsiplərini, sənətə, şeirə münasibətini yaratdığı əsərlərlə geniş və əhatəli şəkildə ifadə edirdi. Onun əsərlərinin əsas mövzusunu insan və onun mənəvi aləmi təşkil edir. Əlibala Hacızadə insan mənəviyyatının mahiyyətinə vararaq, onu yaşadığı cəmiyyətdə qarşılaşdığı problemləri və qayğıları ilə tərənnüm etməyə və təqdim etməyə çalışmışdır. Gənc yaşlarından – ali təhsil aldığı illərdən fars dilinin incəliklərinə dərindən bələd olduğu üçün Əlibala Hacızadə fars dilində nəşr edilmiş bir sıra maraqlı əsərləri doğma dilimizə tərcümə etmişdir. Bunlardan "Şah İsmayıl Səfəvi dövründə İranın xarici əlaqələr tarixindən", "Əbdürrəhman Yusifpurun "Qurani-Kərim"in 30-cu cüzvinin təfsiri", Rəcəb Nejadın "Zamanın ayinəsi" kitablarını göstərmək olar.

Əlibala Hacızadə yaradıcılığında janr müxtəlifliyi və mövzu rəngarəngliyi onun sənətkar təxəyyülünün genişliyini və milli-mənəvi dəyərlərə bağlılığının təzahürüdür. Onun əsərlərində vətənə, torpağa, elə, obaya, insana olan sevgi yalnız bədii motiv kimi deyil, həm də əsas ideya-estetik xətt kimi çıxış edir. Azərbaycanın Xalq şairi Bəxtiyar Vahabzadə onun bədii yaradıcılığını ümumiləşdirərək yazırdı: "Əlibala Hacızadə ədəbiyyatımıza nə gətirmişdir? Mən onun romanlarını oxuyanda bu qənaətə gəldim ki, o, bizim ədəbiyyatımıza – nəsrimizə bir məişət psixologizmi gətirmişdir. Bədii əsərdə obrazlar gərək o qədər təbii olsun ki, onların hərəkətlərinə oxucu təəccüb etməsin, hər şey ona inandırıcı görünsün. Mən Ə.Hacızadənin romanlarında bu təbiiliyi görürəm. Yalnız öz millətini dərindən tanıyan, xalqının məişətinə, psixologiyasına, adət-ənənələrinə mükəmməl bələd olan yazıçı bu təbiiliyi qoruyub saxlaya bilər".[2]

Əlibala Hacızadə yaradıcılığı çoxəsrlik Azərbaycan ədəbiyyatının zəngin ənənələri əsasında formalaşaraq, ədəbi-mənəvi irsimizin dəyərli nümunələri içərisində özünəməxsus mövqe qazanmışdır.

[1] Əlibala Hacızadə – 70. – Bakı: Bakınəşr, 2005, s.65
[2] Yenə orada, s.42

ÇİNGİZ ƏLƏKBƏRZADƏ
(1936-1999)

XX əsr Azərbaycan nəsrinin tanınmış nümayəndələrindən biri də Çingiz Ələkbərzadədir. O, "Altmışıncılar"dan biri olmuş, yazıçı, jurnalist, publisist və ssenarist kimi fəaliyyət göstərmişdir. Çingiz Ələkbərzadə nəsrimizdə lirik-psixoloji, mənəvi-əxlaqi, şərti-metaforik üslubu davam etdirənlərdən biri olmuşdur.

Həyatı. Çingiz Əbülhəsən oğlu Ələkbərzadə 1936-cı il oktyabrın 17-də Bakı şəhərində anadan olmuşdur. O, 1955-ci ildə Tovuz şəhər orta məktəbini bitirmiş, 1955-1960-cı illərdə ADU-nun Filologiya fakültəsində təhsilini davam etdirmiş, 1960-cı ildə Şirvan rayonundakı 2 saylı orta məktəbdə müəllim kimi əmək fəaliyyətinə başlamışdır.

Nasirin tələbəlik illərində yazdığı "Kökəlməyin sirri" adlı hekayəsi 1958-ci ildə almanaxda çap olunmuşdur. O bundan sonra dövri mətbuatda müntəzəm çıxış etmişdir.

Ç.Ələkbərzadə 1961-1966-cı illərdə Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin son xəbərlər redaksiyasında müxbir, 1966-1968-ci illərdə İsmayıllı rayonundakı İvanovka kəndində müəllim, 1968-1971-ci illərdə Şirvan şəhərinin "İşıq" qəzeti redaksiyasında məktublar şöbəsinin müdiri, 1971-1972-ci illərdə İsmayıllı rayonunun "Zəhmətkeş" qəzeti redaksiyasında Məktublar şöbəsinin müdiri, 1972-1973-cü illərdə Azərbaycan Televiziya və Radio Verilişləri Komitəsinin "Günün səsi" xəbərlər baş redaksiyasında müxbir, 1973-1975-ci illərdə "Azərbaycanfilm" kinostudiyasında ssenarist, 1976-1979-cu illərdə "Kirpi" satirik jurnalında ədəbi işçi, 1979-1984-cü illərdə Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin "Günün ekranı" redaksiyasında ştatdankənar müxbir, 1984-1989-cu illərdə Şirvan bölgəsi üzrə xüsusi müxbir işləmişdir. O, 1980-ci ildə Özbəkistanda keçirilən Azərbaycan ədəbiyyatı və incəsənəti ongünlüyündə iştirak etmişdir.

Yazıçı-jurnalist durğunluq dövrünün ictimai qüsurlarını kəskin tənqid etdiyinə görə, 1986-cı ildən 1988-ci ilə qədər həbsdə olmuş, sonra bəraət almış, bədii yaradıcılığa yenidən qayıtmışdır. Çingiz Ələkbərzadə 7 yanvar 1999-cu ildə vəfat etmişdir.

Yaradıcılığı. Çingiz Ələkbərzadə bədii yaradıcılığa 1960-cı illərdə başlamışdır. Professor Yaşar Qarayev bu illəri "yeni epoxa" deyə qiymətləndirmişdir. Belə yenilik Ç.Ələkbərzadə üslubuna da aiddir. Yazıçı sağlığında "Yarpaqlar töküləndə" (1964), "Güllələr dənizdə sönür" (1973), "Qızıl yəhərli at" (1976), "Çılpaqlı" (1979), "Vulkan" (1983), "Dünyanın qopduğu yer /1986-1988/" (1990), "Öndən" (1992), "Qumarbaz" (1993),

“Türmə mənim ahımdı” (1993), “Zindan” (1995) adlı kitablarını nəşr etdirmişdir. Vəfatından sonra “Seçilmiş əsərləri” (2022) çapdan çıxmışdır.

Ədib bu kitablarında, əsasən, sovet həyat tərzinin insan mənəviyyatı və psixologiyasında doğurduğu çatları, sosial-mənəvi ziddiyyətləri, obyektiv gerçəkliklə insan subyekti arasında hökm sürən təzadları, cəmiyyətlə insan arasında mövcud sosial ədalətsizlikləri fərdi üslubun etnoqrafik, koloritli səciyyəvi məziyyətləri, təsvir-təhkiyə ustalığı, ideya-məzmun çalarlarının daha çox insan psixologiyası və mənəviyyatına köklənməsi prosesində, bədii-publisistik axarda canlandırmışdır.

Sənətkarın əsərlərindən aydın görünür ki, onun fərdi üslubu lirik-psixoloji, lirik-epik və lirik-romantik, habelə şərti-metaforik təsvir təhkiyəsinə əsaslanmışdır. Çingiz Ələkbərzadə 1960-cı illər bədii nəslinin tanınmış nümayəndəsi, başqa sözlə, “60-cılar”dan biridir.

Ç.Ələkbərzadə milli dövlət müstəqilliyi illərində, yəni 1993-cü ildə çap etdirdiyi “Qumarbaz” adlı kitabında[1] povest və hekayələrini toplamışdır. Müəllif “Qumarbaz” (1988) povestində həbsxanada cəza çəkmiş, inzibati-amirlik dövrünün qurbanları olmuş məhbusların çəkdikləri əziyyətləri, zülmləri göstərmişdir.

Ç.Ələkbərzadə “Zindan” romanını[2] Azərbaycan SSR zindanlarında haqq-nahaq əzab çəkmiş məhbuslara həsr etmişdir.

Yazıçının “Dünyanın qopduğu yer” romanı[3] atası Xalq yazıçısı Əbülhəsənə ithafdır. Lirik-psixoloji, əxlaqi-estetik əsərin adı atası Əbülhəsən Ələkbərzadənin “Dünya qopur” adlı romanından (1935) götürülmüşdür. Əsər sosializm quruculuğu hadisələrinin insan psixologiyası, əxlaq və mənəviyyatına vurduğu zərbələri əks etdirir. Dünya qopmuş, yəni quruluş dəyişmiş, Əbülhəsən də bu dəyişməni “Dünya qopur” adlı romanında təsvir etmişdir.

2022-ci ildə Çingiz Ələkbərzadənin “Seçilmiş əsərləri”[4] nəşr edilmişdir. Kitaba onun əsasən sovet dövründə, 1960-cı illərdən etibarən yazdığı hekayə, povest və romanları, habelə müstəqillik illərində yazdığı bədii, bədii-publisistik əsərləri daxil edilmişdir.

Ç.Ələkbərzadənin bədii nəsrinin mühüm mövzu və motivləri ailə-məişət həyatı, əmək, təbiət, şəxsi-ictimai münasibətlər, məhəbbət, doğruluq və təmizlik, vəzifə sahiblərinə, “böyüklərə” olan yaltaqlıq, bayağı təriflər, laqeydlik, vəzifəpərəstlik, işə-həyata aludəlik, türmə həyatı, dövrün özbaşınalıqları, xəyanətləri, mərdlik, səxavət, təsərrüfat qayğıları, iclasbazlıq,

[1] Çingiz Ələkbərzadə. Qumarbaz. – Bakı: Azərnəşr, 1993
[2] Çingiz Ələkbərzadə. Zindan. – Bakı: Yazıçı, 1995
[3] Çingiz Ələkbərzadə. Dünyanın qopduğu yer (1986-1988). “Azərbaycan”, №4, 1990, s.21-92; №5, 1990, s.68-139
[4] Çingiz Ələkbərzadə. Seçilmiş əsərləri. – Bakı: Aspoliqraf, 2022

gündəlik planlar, qadın, kişi və erməni xəyanətləri, müəllif bioqrafisi, mənəvi-əxlaqi simasızlıq, kommunist və partiya zabitəsi, neft axtarışları, zəhmətsevərlik, cəmiyyətə xidmət, neft uğrunda mübarizə, şəhər quruculuğu və s. ilə bağlıdır.

Mövzu və ideya-məzmunun təzahürü, habelə süjetin qurulması və təkamülü, bədii konfliktin yaranması və açılışı, dil-üslub, kompozisiya xüsusiyyətlərinin ifadəsi üçün sənətkar xeyli insan surəti yaratmışdır ki, onlar, əsasən, bədii cəhətdən yetkin olub məqsəd və ideyaya – sovet həyat tərzinin inikasına xidmət edir. Bu baxımdan, nasir bədii yaradıcılığında uşaq, gənc, qoca, geoloq, kommunist, qumarbaz, müstəntiq, müharibə veteranı, jurnalist, direktor, dərs hissə müdiri, traktorçu, pambıqçı, üzümçü, alverçi, inqilabçı, "raykom", "ispalkom", müəllim, həkim, yeni hökumətin böyüyü, polis nəfəri, qaçaq, məktəbli kimi insan surətləri yaratmışdır.

Çingiz Ələkbərzadə əxlaqi-psixoloji hekayələrin, povest və romanların müəllifidir. Onun "Qızıl yəhərli at" adlı kitabındakı[1] "Dəmirağac", "Büllur qayıq", "Kürdə işıq", "Qızıl yəhərli at", "Qismət olmadı", "Nina, Zina, şairə və Saday", "Altıncı sim" və "Yaşasın təzə il" adlı hekayələrinin mövzusu 1960-1970-ci illərin ailə-məişət həyatı və təbiətindən alınmış, onların məzmununda sosial cəmiyyətin şəxsi-ictimai münasibətləri, lirik ovqatı öz ifadəsini tapmışdır. Bu hekayələrdə süjet yığcam, mətləb aydın və mənəvi-psixoloji planda olub tipik şəraitdə tipik vəziyyəti ifadə edir.

"Dəmirağac" hekayəsində Təhməz meşəçilikdən dissertasiya yazdığından həyat yoldaşı Ədiləyə o qədər də diqqət etmir, fikri-zikri dəmirağacda qalır. Təbii ki, həyat yoldaşı bundan məmnun qalmır... Yazıçı ailə münasibətlərindəki bu həssas nüansa diqqət etməklə oxucusunu düşünməyə vadar etmişdir.

Yazıçının həkim dostu Şəmsi Behbudova həsr etdiyi "Büllur qayıq" hekayəsi doğruluq və təmizlik mövzusundadır. Mağaza müdiri, pulgir Ağasəlim hiss edir ki, qonşusu, dərs hissə müdiri, dürüst və xeyirxah Ədil ondan xoşbəxtdir...

Ağasəlimin qızı, 8-ci sinif şagirdi Həbibə atasının bahalı əşyalarından çox, dərslərinə, kitablarına meyillidir. Bu cəhətdən qonşuları Ədilin qızı Zivərə daha çox rəğbət bəsləyir. Çünki o, dərslərini yaxşı oxuyur. Atası Ədil isə adamlar içində hörmət sahibidir. Ağasəlimin servantında bahalı əşyalar içində "Büllur qayıq" var... Həbibə hər dəfə jurnal qoyulmuş stolun üstündəki bu büllur qayığa baxanda, sanki ona minib gözəllik və təmizlik aləminə doğru üzür... Hekayədə yazıçının niyyəti aydındır: insan mənəviyyatındakı bu istəyi, gözəllik və təmizlik duyğusunu yaşadıb təzahür etdirmək.

[1] Çingiz Ələkbərzadə. Qızıl yəhərli at. – Bakı: Gənclik, 1976

“Kürdə işıq” hekayəsində bir “işıq” obrazı mənalandırılmışdır. 27 yaşlı mühəndis Söhrab ana və bacısını itirib, onlar Kürdə boğulublar. İndi Kür ona qarğış kimi yox, işıq kimi görünür. Təbii ki, Söhrabın işıq olan arzuları, ömrü vardı. Fəqət, bu işıq oğurlanır, pul nəfsgirliyi onu kor edir. O, xəstəliyə düşür. Məhkəməsi olur. Məiş adlı rəqibi onu tutdurmaq istəyir. Söhrab isə ona üzrxahlıq etmək istəmir. Bununla belə, Məişin insanlığı özünə qalib gəlir. O, Söhrabı bağışlayır. Söhrab isə yenidən itirdiyi işığa doğru can atır... İşıq Kürün dibinə düşmüşdü. O, işıq olan arzularını, ömrünü yenidən tapmaq istəyirdi... Yazıçı bu romantik-psixoloji hissi üzə çıxarmaq və insan mənəviyyatını mənalandırmaq üçün işıq obrazından istifadə etmiş, onu lirik-psixoloji təhkiyədə canlandırmışdır.

“Qızıl yəhərli at”, “Qismət olmadı” adlı sadə, yığcam süjetli, ibrətamiz hekayələrdə yazıçı vəzifə başçılarına, “böyüklərə” olan yaltaqlığa lağ etmiş, reallıqla təsəvvür arasındakı psixoloji təzadı göstərmişdir.

Dilavəri rayon katibi Səməndərova iki vedrə benzin yaxınlaşdırmışdı. Yolda katibin maşınının benzini qurtarmış, yolda qalmışdı. Dilavər yaxınlaşıb ona kömək etmiş, əməlindən xeyli məmnun qalmışdı. Dilavər xəyal etmişdi ki, bu “yaxşılığı” ilə o, “göy rəngli, qızıl yəhərli, quş qanadlı ata minib” daha onu sağa-sola səyirdə bilər. Yanlış təsəvvür isə həyat reallıqlarının əksini diqtə edirdi...

“Qismət olmadı” hekayəsində isə idarələrdəki iclasbazlıq, adamlarda olan yaltaqlıq hissi tənqid edilmişdir. Zülfü müəllim mədəniyyət şöbəsinin müdiridir, rayonda kino, konsert təşkil edir. O, katib Sirdaşovu isə yeri olduolmadı, hər iclasda tərifləyirdi. Katib Sirdaşov əlini qaldırıb onu dayandırmaq istəyəndə ürəyi tutub yerə yıxılır... İclasbazlıq, yaltaqlıq, yuxarılara imzasız, anonim məktublar isə davam edirdi...Yazıçı sovet həyat tərzində hökm sürən belə naqis iş üsullarını pisləmişdir. “Nina, Zina, şairə və Saday”, “Altıncı sim” hekayələrində də bayağı təriflər tənqid atəşinə tutulur...

“Qızıl yəhərli at” hekayəsində yazıçı sovet quruluşundakı yaltaqlığı, mənəvi-əxlaqi simasızlığı ifadə etmişdir. Əşrəfin sədaqətlə qulluq göstərdiyi Səməndərovun qardaşı ölmüşdü. Səməndərov guya Əşrəfin böyüyü idi. Əşrəf ağlayırdı... “75 illik ömründə ata, ana, bacı, qardaş, övlad ölümü görən, bircə dəfə də olsa, gözü yaşarmayan, rayon adamlarının diliylə desək, daşqəlbli Əşrəf indi içini çəkə-çəkə hönkürürdü...”[1]

“Vulkan”[2] adlı hekayə və povestlər toplusuna daxil edilmiş komik səpkili “Alman şərabı” povesti maraqlı süjet və kompozisiyaya malik olub xalqımızın qonaqpərvərliyindən bəhs edir.

[1] Çingiz Ələkbərzadə. Qızıl yəhərli at. “Qumarbaz”. – Bakı: Azərnəşr, 1993; s.224-225
[2] Çingiz Ələkbərzadə. Vulkan. – Bakı: Yazıçı, 1983

“Oksigen balışı” (1963) hekayəsində Ç.Ələkbərzadə adamlar arasındakı laqeydliyi, rahat həyata aludəliliyi və xoşagəlməz psixoloji-əxlaqi vərdişləri pisləmişdir. Hikmət nə qədər ki, sağlamdır, ailəsinə, qadınına qarşı etinasızdır, hətta uşaqları ilə rəftarı pisdir, onları, qonşuları eşitmək istəmir. Elə ki xəstələnir, peşmandır. O, ailəsindən, qonşusundan üzrxahlıq, halallıq istəyir... Elə ki xəstəliyi ötüb keçir, yenidən əvvəlki halına qayıdır... Hətta qızının sevdiyi oğlanla evlənməsinə razılıq vermir. Yalnız ürəyi təngnəfəs olanda yumşalan Hikmətin həyat yoldaşı Zəhraya etirafları başlayır, bağışlanmasını diləyir. Yazıçı süjet boyu insan xislətindəki anlaşılmazlığı, köntöylüyü, həyat-məişət vərdişlərindəki qəlizliyi göstərmək istəmiş, insan təbiətindəki belə psixoloji təzadları təzahür etdirmişdir.

Çingiz Ələkbərzadənin həyatdan, ailə-məişətdən gələn yığcam süjetli hekayələri çoxdur. Bunlardakı təzadlar, əsasən, surətlərin öz təbiətindən, bəzən isə obyektlə subyekt arasındakı kontrastdan doğulur. “Xoşbəxt adamsan” (1960) hekayəsində yazıçı “xoşbəxt adamsan” cümləsini tez-tez işlətməklə insanlar arasındakı münasibətləri, zahiri effekti fərdiləşdirmiş, həm də ailə qayğıkeşliyi, iş-vəzifə şakərliyinin şirinliyini ümumiləşdirmək istəmişdir.

“Reportyor” (1963) hekayəsində reportyor yazıçılıqla maraqlanır, özü də yazıçı olmaq istəyir. Lakin fikri-zikri onu xəstəliyə salır, o, yaradıcılığa son qoyur. “Yaradıcılıq evində” (1958) hekayəsində isə bir kənd evindəki mal həkiminin sərgüzəşti təsvir-təhkiyə edilmişdir.

Ç.Ələkbərzadə həbsxana həyatından mövzu və surətlər almış, məhbəs şəraitinin dözülməzliyini, tipik şəraiti, tipik vəziyyətlərin insan mənəviyyatında açdığı yaraları, yaratdığı çatları göstərmiş, mühitlə insan arasındakı amansız təzadı, onların cəmiyyətdə yaratdığı təklənmək instinktini ürək ağrısı ilə qələmə almışdır. Bu baxımdan, “Alabəzək Şəmil” (1986-1988), “Qumarbaz” adlı əsərləri səciyyəvidir.

“Qumarbaz” kitabındakı[1] hekayələrdən olan “Alabəzək Şəmil”də (1986-1988) konflikt Şəmillə həbsxana arasında başlamış, bədniyyətlər ona zülm etmiş, həyatı faciə ilə başa çatmışdır. Şəmil Şuşa qalasında, islah əmək koloniyasında yatmış, qalanın rəisi erməni Balayandan zülm görmüş, əzablara qatlanmışdır. Şəmil Həmidin həyət qonşusu olmuş, onun bacısını qaçırmışdır. Həmid də onun anasını hörüklərindən tutub sürümüşdür. Şəmil dözməyib xançalla Həmidi öldürmüş, bu səbəbdən 15 il iş almışdır... Sonra da türmə rəislərinin üzünə kişi sözünü deyən Həmid özünü damın üstündən atmış, həqiqətlərin qurbanı olmuşdur.

[1] Çingiz Ələkbərzadə. Qumarbaz. – Bakı: Azərnəşr, 1993

"Qumarbaz"[1] kitabında Çingiz Ələkbərzadənin povest və hekayələri toplanmışdır. Müəllif "Qumarbaz" (1988) povestində həbsxanada cəza çəkmiş, inzibati amirlik metodunun qurbanları olmuş məhbusların çəkdikləri əziyyətləri, zülmləri göstərmişdir. Bu əsərlərdə yazıçı ideyası belədir ki, həbsxana həyatının axır-aqibəti yoxdur. Ən qiymətli varlıq vətən azadlığı və vətəndə azadlıqdır.

Ç.Ələkbərzadə "Türmə mənim ahımdır" silsiləsindən hekayələr yazmışdır. Onlardan biri "Qisas"dır (1992). İlyasa 7 il iş kəsilib... O, mərd, ürəyiaçıq, səxavətli adamdır. Zərifə onun yoldaşıdır. İlyas Zərifənin atası Bəşiri maşını ilə birlikdə xilas etmişdi. Jiqulisi aşanda ona kömək etmiş, onu maşından çıxarıb xəstəxanaya aparmışdı. Bəşir sağaldıqdan sonra İlyasın şərəfinə qonaqlıq vermişdi. İlyas Zərifəni bu zaman görmüşdü. Ağakərim adlı zərgər isə Zərifəni çoxdan tanıyırdı...

İlyas Zərifə ilə evlənir. Ağakərim də gəlini öz maşınında gətirir. Zərifə İlyasa yox, zərgər Ağakərimə öyrəşmişdi. İlyası üstü "mazutlu", özünü də "yaşlı" görürdü...

Ağakərim hiyləgərdir. Bir gün işi yoxlanılır. O, mücrünü saxlamağı İlyasa tapşırır. 20-25 gün sonra onu geri istəyir. Mücrü yox idi... Zərifə qızıl dolu mücrünü götürüb sahibi Ağakərimə çatdırmışdı. Ağakərimlə Zərifə hiylə qurmuşdular... 10 gün sonra İlyasa prokurorluqdan göndəriş gəldi. Ağakərim sirlər bilinməsin deyə İlyası tutdurmalı idi. Lakin onun özü arvadı ilə birgə qəza nəticəsində həlak olur...

Kanvoylar İlyası təqib edəndə o dənizə girmiş, yaralanmış, qan iyinə gələn suitilər onu parça-parça etmişdi. İlyası türmə yox, dəniz yox edir... O, günahını cəza ilə yox, su ilə yuyur...

"Qumarbaz" kitabında[2] çap olunmuş "Karapetin axırı" (1986-1988) hekayəsi xəyanət motivi üzərində qurulmuşdur: qadın, kişi və erməni xəyanətləri. Adamyan Karapet ermənidir, hamamda kisəçidir. Bacısı Ritaya ona görə nifrət edir ki, o, azərbaycanlı İdrislə eyş-işrətdədir. İdris ailəlidir, qadını məsələni biləndən sonra xəyanəti bağışlamır, ondan ayrılır. İdris Rita ilə evlənir. O, ermənilərin əli ilə işini dəyişir. Karapet İdrisi satsa da, xəyanətləri üzündən özü tutulsa da, bacısı onu buraxdırır. Vaxt ötür... Rita əri İdrisin göstərişi ilə doğma qardaşı Karapeti erməni tanışlarının əli ilə qəzaya uğradıb aradan götürür... Ç.Ələkbərzadə hələ sovetlər zamanında ermənilərin azərbaycanlılara, insan münasibətlərinə vurduqları ziyanları, xəyanətləri, ailələrə gətirdikləri faciələri göstərmişdir.

Çingiz Ələkbərzadə yaradıcılığında zəhmət mövzusu mühüm yer tutur. O bu mövzuda "Gecə quşları", "Çılpaqlı" əsərlərini yazmışdır. "Gecə quşları"

[1] Çingiz Ələkbərzadə. "Qumarbaz". – Bakı: Azərnəşr, 1993
[2] Yenə orada

hekayəsində kənddə gedən təsərrüfat işlərinin sürəti, qayğıları, taxıl, üzüm, pambıq, heyvandarlıq sahəsində plan işləri, gərgin əmək təsvir edilmişdir. Aramsız iclaslar, gündəlik plan və s.

Arif meliorasiya şöbəsində çalışır. O, diqqətcil, peşəkar təsərrüfat adamıdır, pambıq, üzüm, taxıl sahələri ilə nəfəs alır. Dostu jurnalistdir. Arif istəyir ki, dostu onun əməyini qəzetə çıxarıb tərifləsin. Onlar eyni kənddəndirlər. Xasiyyətləri tutub.

Onları Bakı dost edib. Ali məktəbdə eyni vaxtda oxuyublar. Arif Politexnik İnstitutunu, dostu isə universiteti qurtarıb.

Yazıçı məqsədi, ideyası bu dostluğu, təsərrüfat həyatını işıqlandırmaq yox, mahiyyəti göstərməkdir: insanla torpaq arasındakı oxşarlığı oxucu diqqətinə çatdırmaq istəmişdir.

Arif dostuna kabab qonaqlığından sonra məqalə yazmasını tapşırır, bildirir ki, hər şeyi ətraflı yazsın. Dostu da yazısına "Torpağın üzü" adını qoyur... Torpağın üzü, yəni onun eyni cür xasiyyəti, mehribanlığı, yumşaqlığı, çörəkverənliyi... Arif dostuna həqiqəti söyləyirdi. Deyirdi: "Elə üz qoymuşuq qala torpaqda? Biz onu sırtıq, qorxaq, yaltaq öyrədirik, yalançı öyrədirik. Özümüz kimi. Bizim üzümüz – torpağın üzü, eyni şeydi".[1]

Arif yazıqlaşmışdı, işlər onu yazıq etmişdi, nə qədər fasiləsiz çalışmaq olardı. Katib Aynuşovun qabağında ürəyindən keçirirdi: "Bir sədrin, direktorun nə qədər rəhbəri, komandiri olar, ay Allah? Özü də elə bil qəsdən hamısı yanıltmaq, çaşdırmaq üçündür. Siz elə bilirsiz mənim üzümümdə xəstəlik var? Yoxdu. ...Ancaq göy daş vurmalıyam. Boş yerə. Vallah hər dəfə göy daş vurmazlar nahaq yerə. O məhsulun çoxu torpağa tökülür, atasını yandırır... Torpaq insan kimidir, qardaş, nə qədər bizi incidirlər, biz də onu incidirik. Danlayırlar nahaq yerə, biz də onu danlayırıq..."[2]

Dostu bir gün də Arifin qonağı olur... Arifin babası da, atası da üzümçü olub. Onlar plantasiyalarla tanış olurlar... 2 gün sonra Arif rayon partiya komitəsinə büro üzvü seçilir...

Ç.Ələkbərzadənin əməkçi insanları saf, səmimi və zəhmətkeşdir. Gündəlik təsərrüfat planları, iclaslar sanki onları yorur, yazıqlaşdırır. Torpaq isə dürüstlüyü, halallığı sevir. Torpaq insan əməlinin naqis cəhətlərindən əziyyət çəkir, saxta davranış, torpaqla ünsiyyəti də saxtalaşdırır. Hekayədə yazıçı niyyəti belədir.

"Çılpaqlı" romanı[3] Şirvan (keçmiş Əli Bayramlı) şəhərinin zəhmətkeşlərinə həsr edilmişdir. Əsərdə zəhmətsevərlik, cəmiyyətə xidmət, neft

[1] Çingiz Ələkbərzadə. Gecə quşları. "Qumarbaz". – Bakı: Azərnəşr, 1993, s.122-123
[2] Yenə orada, s.123
[3] Çingiz Ələkbərzadə. Çılpaqlı. – Bakı: Gənclik, 1979

uğrunda mübarizə, təzə salınan şəhərin böyüdülməsi təsvir təhkiyəsinə gətirilmişdir.

Yazıçının obrazları Əhmədli, Fərzi, Tonya, Gülverdi, Habil və başqalarıdır. Əhmədli birinci katibdir. O, rayonu şəhərə çevirmək niyyətindədir. Fərzinin ləqəbi Gülləgəzdirəndir. O, Praqada döyüşmüş, qəlpə yarası almışdır. Rəisdir. Sözü ötkəmdir. Gülverdi rayonun baş həkimidir. Rayon əhalisinin sağlamlığına diqqət edir. Yeri gələndə Məmməd Arazdan şeirlər deyir. Habil baş mühəndisdir. Onun məqsədi zərər verməsin deyə 1 nömrəli quyunun işini dayandırmaqdır. Cəmil və Lalə gənclərdir. Zəhmət meydanında çalışırlar, sevirlər, sevilirlər. Miribrahim aktyordur, rayon mədəniyyət evində işləyir. Onlar özfəaliyyətlə məşğul olurlar, əmək sahələrində tamaşa göstərirlər. Xəlil qəzet redaktorudur. Rayonun təbliğat və təşviqatı ilə məşğuldur. Onlar sosial sahədə üzərlərinə düşən müəyyən missiyanı yerinə yetirirlər. Çingiz Ələkbərzadə romanda hər bir surətin ideya-məfkurə xəttini izləmiş, hər bir surəti şəxsi xarekteri və sosial vərdişlərinə görə fərdiləşdirmiş, ideoloji idarəetmənin iş üsulunu canlandırmış, xüsusilə mətbuatın təbliğat gücünü oxucu diqqətinə çatdırmışdır.

Rayon Küraxan adlanır, Çılpaqlı da kəndin, rayon qəbiristanlığının adıdır. Əsərdə bədii konflikt özünü tərəflər, sosial qruplar arasında yox, surətlərin mənəvi-psixoloji aləmində təzahür etdirir və sosial reallıqları göstərir.

Rəis Gülləgəzdirənin katib Əhmədlinin yanında siqaret tüstülətməsi katibə toxunur, veteranın böyük hörmətinə baxmayaraq, onu qınayır. Bu qınaqda isə mövcud olayların sanki xronikası verilir. Katib Əhmədli bildirir: "Hanı neft? 18 min ton nefti neynəmisən? Kürə axıtmısan. Plan doldurursunuz. Qızıl ulduz barədə şayiə yayırsan, camaatın gözündən pərdə asırsan, gör sənin hökumətə nə qədər zərərin dəyib. Mən hələ Kürün, dənizin çirklənməsini demirəm. Necəsən, indi götürüm telefonu, zəng vurum nazirə? Tökəm bütün Azərbaycanı bura, sildirəm sənin adını bircə dəqiqədə neft tarixindən?"[1] Gülləgəzdirən cavabında: "Allo, Aznefti verin. Məni nazirlə calaşdır. Salam, mənəm. Yaxşıdır, sağ ol. Belədi. Çənləri altdan deşiblər, birini 16, o birini 10 santi kəsiblər. Məlum deyil. 17 min tonunu tuta bilmişəm. Neftçala çox kömək elədi",[2] – deyə "yuxarı" ilə danışmaqla sanki katibə etinasızlıq ifadə edir. Ç.Ələkbərzadə Kürün, dənizin çirklənməsini, neftin talan edilməsini, haqsızlığın-ədalətsizliyin baş alıb getməsini belə dialoqlar vasitəsilə oxucu diqqətinə çatdırmaq istəmişdir.

[1] Çingiz Ələkbərzadə. Çılpaqlı. – Bakı: Gənclik, 1979, s.129
[2] Yenə orada, s.129

Gülləgəzdirənin beyninə qan sızır... Onu Çılpaqlı rayon qəbiristanlığında dəfn edirlər. Dəfn mərasiminə mitinq həsr edilir. Miribrahim şeir oxuyur...

Romanda sovet quruluşunun cəmiyyət və mədəniyyət həyatını əks etdirən faktlar və olaylar göstərilmiş, mənəvi-psixoloji aşınmalar nəzərə çatdırılmışdır.

"Türmə mənim ahımdır" əsəri avtobioqrafik, memuar xarakterli povestdir. Əsərdə müəllif atası Əbülhəsən Ələkbərzadə, böyük qardaşı Ramiz Ələkbərzadə haqqında məlumat vermişdir. Böyük qardaşı Ramiz Ələkbərzadə avtomobil qəzası nəticəsində dünyasını dəyişmişdir.

Əbülhəsən Ələkbərzadə sovet dövrü ədəbiyyatının yaranmasında fəal iştirak etmiş, "Dünya qopur" (1933), "Yoxuşlar" (1933), "Atalar və oğullar" (1944), "Müharibə" (1947), "Dostluq qalası" (1955-1970), "Tamaşa qarının nəvələri" (1957), "Sədaqət" (1979) adlı kitabları, habelə üç cilddə "Seçilmiş əsərləri"ni (1984) nəşr etdirmişdir.

Çingiz Ələkbərzadə "Türmə mənim ahımdır" əsərində quruluşun başına gətirdiyi acı olayları təfsilatı ilə əks etdirmişdir. Qətiyyətli mövqeyinə görə əhatəsi onunla barışmamış, bu da onun taleyində ağrılı nəticələrə yol açmışdır.

Bakıya gətirilən Çingiz Ələkbərzadə Şüvəlandakı istintaq təcrid-xanasına yerləşdirilib. Onu məhkəməyə qədər iki dəfə istintaq ediblər... Çingiz Ələkbərzadənin "müstəntiq"i Şamaxı rayonunun baş müstəntiqi Məmməd Allahverdiyev və Ağsu rayon prokuroru Zakir Şiriyev olub. Yazıçı bütün bunları təfsilatı ilə "Zindan" romanında yazıb. O, "Dünyanın qopduğu yer" romanını da kamerada: Şüvəlan, Bayıl və Gəncə, 10 nömrəli islah əmək düşərgəsində yazıb. 1986-1988-ci illərin həbsxana həyatı yazıçının "ahı" olub. Azadlığa buraxıldıqdan sonra hadisələri "Amin" qəzeti səhifələrində dərc etdirib. Yazıçı əsərdə türmə həyatının dəhşətlərini, müstəntiqlərin haqsızlığını, hüquq-mühafizə orqanlarındakı savadsızlıq və qanunsuzluqları təsvir etmiş, quruluşun yaramazlıqlarını göstərmişdir.

"Həzili günlərim, Həzisiz illərim" məqaləsi isə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun həyat yoldaşı Xavər xanımın yaddaş kitabından varaqlardır.

Ç.Ələkbərzadənin "Zindan" romanı Azərbaycan zindanlarında haqq-nahaq əzab çəkmiş məhbuslara həsr edilmişdir.

Əziz jurnalistdir. Adı "yalançı" jurnalistdir, çünki yazılarında bərbəzəyi çox olur. Ona zindanın həyətindəki qara rəngləri işıqlı boyalarla çəkməyi tapşırırlar. O, şəkil çəkməyi də bacarır... Türmədə havanın özü də dustaqlara pulla satılır...

Əsərdə Sahib, I katib Qədimov, Fuad, Vaqif, Əfqan, Seyid, Arzuman – xeyli adam adı çəkilmişdir. "Zindan" sərgüzəşt əsəridir. Romanlıq materialı

azdır. Əsərdə təhkiyə Əzizlə başlayıb onunla da davam etdirilmişdir. Hadisələr, dialoqlar, monoloqlar üçüncü şəxsin dilindən verilmişdir. Güman etmək olar ki, jurnalist Əziz müəllifin özüdür.

Çingiz Ələkbərzadə "Köhnə kommunistin ölümü" hekayəsində realist kommunist surəti yaratmış, onların vasitəsilə törədilən qanunsuzluqlara diqqət yetirmişdir. Təsəvvür üçün hekayədən verilən bir fakt kifayətdir. Müəllif yazmışdır: "Eh, köhnə kommunist elədiklərinin hamısını xatırlamağa dursaydı, xəyalında, vicdanında ucu-bucağı görünməyən bir qəbiristanlıq yaranardı. Buna baxmayaraq, o öz keçmişinə ağrısız, filansız qayıdırdı və hətta utanmaz-utanmaz arvadına deyirdi ki, imkanım olsaydı, indikilərin hamısını topa qoyub atardım. O qəzetlər ki, dərc edirlər, böyük bir tonqal qalayardım, yazıların hamısını tökərdim odun içinə, diri-diri külə döndərərdim. Neynim, – köksünü ötürdü, – pis yerdə yaxaladı məni qocalıq..."[1] Köhnə kommunist təntənə ilə "Fəxri xiyaban"da dəfn edilir... Bu da sovet kommunistinin obrazı. Beləliklə, yazıçı ideoloji sistemin yaramazlıqları, mətbuatın yalanları, saxta təbliğat maşınının işləri fonunda sovet adamının həyat-məişət mühitini canlandırmışdır.

"Mənim birinci sevgilim" (1987) povestində yazıçı gənc ailələrin istirahət zonalarında keçirdikləri yay günlərini, onların arzu və istəklərini qələmə almışdır. Belə ailələrdən biri Zaur, arvadı Zərifə və iki nəvəsidir. Onlar Şuşada, İvanovkada, Basqalda yay istirahətini keçirməyi planlayırlar... Əsər psixoloji ovqatın, psixoloji təzadların ifadəsidir. Surətlərin dili məişət səviyyəsində, dialoqlar dialektli, koloritli, təbiidir... "Hamilə dəniz" (1966) adlı lirik povestdə gənc ər-arvadın səmimi məhəbbəti, ailə-məişət münasibətləri ifadəsini tapmışdır. Müəllif hekayə həcmli mətni, əslində, povest adlandırmışdır.

Əsərdə ərlə arvadın – Adillə Aliyənin "Qızlar baharı" bayramında tanış olması, evlənməsi, məişət əhvalatları, onların gəzinti sərgüzəştləri, təbiət mənzərələri, insan surətlərinin təsvirləri verilmiş, sovet dövrünün adət-ənənə və etnoqrafiyasına münasibət bildirilmişdir.

Ər-arvad Tərtər, Yevlax gəzintisindən Bakıya, dənizə tələsirlər. Dəniz ikicanlı Aliyəni gözləyirdi. Gəlində körpə sarıdan sövti-təbii belə bir həyəcan vardı ki, birdən dəniz onun həyatını dəyişər. Adil isə xoşbəxtliyində, xətircəmliyində olub Aliyə ilə dəniz arasında oxşarlıq görürdü. Adil Aliyədəki qorxu hissini öldürmək istəyirdi...

Povestdə bəzi adət-ənənə və etnoqrafik reallıqlar, sosial-məişət realiləri də ifadəsini tapmışdır: klublarda keçirilən konsertlər, Yevlaxda "Qızlar baharı", habelə məhsul bayramlarının keçirilməsi, kəndlərə gələn pəhləvanların oyunları, ciyabaz oyunları və s. Çingiz Ələkbərzadə lirik povestdə insan

[1] Çingiz Ələkbərzadə. Köhnə kommunistin ölümü. "Qumarbaz". – Bakı: Azərnəşr, 1993, s.200

surətlərinin detallı təsvirlərini vermişdir. Onun "Seçilmiş əsərləri"ndəki[1] "Vulkan" povesti (1967) gənc geoloqların püskürən vulkanın təkində apardığı neft axtarışlarından, onların gündəlik işləri və şəxsi münasibətlərindən bəhs edir.

Şahzadənin atası Cəfər zavod direktorudur. Zavodun baş mühəndisi Zülfüqarovdur. Zülfüqarov Qara şəhərdə oğlu Yavər, arvadı və qızı ilə birotaqlı evdə yaşayır. Cəfər Zülfüqarovun işindən razılıq edir. Plan birə-beş doldurulur. Zülfüqarov bilikli, bacarıqlı işçidir. Övladları Yavərlə Şahzadə eyni yaşdadır, onların münasibətləri tutur... Vaxt keçmiş, Cəfərin mindiyi "M-1"ə indi Zülfüqarovun özü əyləşmiş, sabiq müdiri ilə arası dəymişdir. Buna görə də daha Şahzadə Zülfüqarovun oğlu Yavəri danışdırmaq istəmir...

Müəyyən vaxt keçmiş, zavod yoxlanmış, Cəfərin tutulmaq qorxusu yaransa da, onu düz işlədiyinə, düz yaşadığına görə tuta bilməmişlər, lakin direktorluqda da saxlamamışlar. Zavodda qalıb usta işləyən Cəfər oradan da müharibəyə yollanır. Yavərin atası, artıq zavod direktoru olmuş Zülfüqarov isə cəbhədən yayınır.

"Ayrantökən" deyilən yerdən vulkan püskürmüş, təzə quyunu sıradan çıxarmışdır. Vəziyyət pisləşmişdir... Buna baxmayaraq, gənc geoloqların püskürən vulkanın təkində apardığı neft axtarışları davam etdirilir.

Şahzadə isə Yavəri sevməyindədir... Əsərdə yazıçı mənalandırma, təşbeh və eyhamlar vasitəsi ilə olayları təsvir-təhkiyə etməklə, əxlaqi-psixoloji halları, situativ məqamları oxucuların ixtiyarına buraxmışdır...

Çingiz Ələkbərzadə "Dünyanın qopduğu yer" romanını[2] atası Əbülhəsənə ithaf etmişdir. Demək olar ki, lirik-psixoloji, mənəvi-əxlaqi əsərdir. Roman niyə dünyanın qopduğu yer adlandırılmışdır? Yazıçının atası Əbülhəsən Ələkbərzadənin "Dünya qopur" adlı romanı (1933) vardır. Sosializm quruculuğu hadisələrindən bəhs edir. Əbülhəsən onu doğma rayonu İsmayıllının demək olar ki, Niyal adlı kəndində yazmışdır. Dünya oradan qopmuş, yəni quruluş dəyişmiş, Əbülhəsən də bu dəyişməni "Dünya qopur" adı altında təsvir etmişdir.

Çingiz Ələkbərzadə də Niyalı olayların məkanı kimi seçmiş, onu təsvir-təhkiyə məkanı etmişdir. Yəni Dünyanın qopduğu yerə üz tutmuş, soy-kökündən tutmuş, onların əhatəsi olan sosial mühiti və adamlarını təsvir obyektinə gətirmişdir.

Biz romanda dövrün sosial reallıqlarını və ziddiyyətlərini, İsmayıllı bölgəsinin təbiətini, onun koloritini, etnoqrafiyasını, meşələr qoynundakı kəndləri, kəndlərin adamlarını, onların psixologiya və mənəviyyatını, həyat

[1] Çingiz Ələkbərzadə. Seçilmiş əsərləri. – Bakı: Aspoliqraf, 2022

[2] Çingiz Ələkbərzadə. Dünyanın qopduğu yer (1986-1988). "Azərbaycan", №4, 1990, s.21-92; №5, 1990, s.68-139

tərzini, vərdişlərini, arzu və istəklərini müşahidə edirik. Olaylar Niyal kəndi, dağlar-çaylar qoynunda, Niyaldağda, Niyalçay ətrafında baş verir. Niyalın başı üstündən günəş doğur, şəfəqlər Əmrəki dağın zirvəsindən ətrafa yayılır.

Romanda İsmayıllıdakı kustarlıq sənətindən, peşələrdən söz açılmışdır: "Traktoru söndürən kimi qulağına səs gəldi. Bu, yaşı bilinməyən kəndin səsi idi. Çağa dünya üzünə ağlaya-ağlaya gəldiyi kimi Niyal da bu səslə doğulmuşdu. İpəyin, cəhrənin, məkiyin, lülənin, kəlağıyının, qanovuzun səsiydi bu. Karvanlardan, əl dəzgahlarından çıxıb müasir toxucu sexlərində məskən salmışdı".[1]

Roman kəndin təsviri, İbrahim kişinin nəvəsi Fuadın traktorçu kimi fəaliyyəti ilə başlamış, onunla tamamlanmışdır.

Əsər vahid süjet xəttinə, mürəkkəb hadisə və xarakterlərin təsvirinə malik deyil, lirik-psixoloji təhkiyədə kənd adamlarının sosial mühitdəki həyat tərzi və danışıq nitqinin koloriti verilmişdir: "Günortadan sonra Meşə Məmmədlə nəvəsi Ağaismayıl bu həyətdən içəri girəndə İbrahimlə arvadı Şərafət tut ağacının altındakı taxtın üstə əyləşib çay içirdilər. Fuadla anası Gülşən evin arxasında qışa gülqənd hazırlamaq üçün qızılgül yığırdılar".[2]

Çingiz Ələkbərzadənin "Dünyanın qopduğu yer" romanı etnoqrafik koloritə, psixoloji təsvirlərə malikdir. Əsər yazıçının nəsil şəcərəsinin panoramı ilə əyaniləşmişdir.

Fuadın atası Eldənizdir. Eldənizin də atası İbrahim. Beləcə romanda xeyli insan surəti yaradılmışdır ki, onlar Niyal kəndinin reallıqları, psixologiyası və mənəviyyatını ifadə edirlər.

Yazıçı romanda sosialist həyat tərzinin gerçəklərini canlandırmışdır. Veteran İbrahimin nitqindən: "Bilirsən ölkə niyə bu gündədir qızım, böyük vəzifə etibar olunmuş adamlar o qədər yalanlara, əyriliklərə həqiqət donu geyindiriblər ki, onlar yuxarıdan halva deyə qışqırırlar, xalq da elə başa düşür ki, ağızları şirin olur. Heç kəsin ağlına da gəlmir ki, o adamlara şübhəylə yanaşmaq olar. Bu de götür məni. Məşhur inqilabçı, müharibə veteranı, deyilənlərə görə, rayonun çox hörmətli adamlarından biri. İndi kimin ağlına gələr ki, mən belə bir iş tutmuşam. Budey Şərafət elə baxır mənə, guya birinci dəfədir görür".[3]

Çingiz Ələkbərzadə romanda sovet quruluşunun doğurduğu eybəcərlikləri əks etdirmişdir. 13 yaşlı Əminə dədəsi Həcəlləzin əli ilə 36 yaşlı Əşrəf xozeyinə ərə verilmişdir. O da təzəcə qızıl alveri sevdasına düşmüşdür.

[1] Çingiz Ələkbərzadə. Dünyanın qopduğu yer (1986-1988). "Azərbaycan", №4, 1990, s.21-92; №5, 1990, s.68-139; s.21

[2] Yenə orada, s.22

[3] Yenə orada, s.22

Niyalda şərab zavodu tikilməliydi, kəndin üzüm məhsulu bol idi. Bunu məşhur inqilabçı, müharibə veteranı, hörmət sahibi İbrahim katib Seyfiyevdən xahiş edəcəkdi. Bu zahirən belə idi, əslində, İbrahim bunun əksini düşünmüşdü. Bir neçə gündən sonra sovxozun direktoru Yəhyayev raykomda məsələnin nə yerdə olduğunu bilmişdi. Sən demə, İbrahim katibə deyibmiş ki, "nəbadə Niyalda zavod saldırasan, camaat bir-birini qırıb qurtarar. Bizim adamlara içki haramdır, – vəssalam".[1]

Rayonda saxta "pensiya" sənədləri də hazırlatmaq olur. Çünki Səkinənin əri Camaldır, Bakıda institutda dərs deyir. Onların da oğlu "pensiya" kəsən Seyfəddindir. Bu səbəbdən rüşvət verib onun əli ilə saxta sənədlər almaq olur. Sosializm daim öz iş üsulu, öz vərdişləri ilə yaşayıb. Rayonda yığım kampaniyasının da öz qanunları olub: "Səhər o başdan saat 5-də mədəniyyət evinin qabağında zurnaçılar dəstəsi fəaliyyətə başlayırdı. Dan yeri zurna sədalarının altında sökülürdü".[2] Kənddə zəhmətkeşlər xüsusi üsulla oyadılırdı. "İspalkomun sədri Göyçək müəllimənin daxili göstərişinə əsasən orada adamlara yanğınsöndürən maşınlar "Sabahın xeyir" deyirdi. Üzüm bağları camaatı naqqa balığı kimi udur, bir də axşam buraxırdı".[3] Yığım gəldisə, hər şey statik və statistik durum alırdı. "Yığım zamanı rayon elə bil iflic olurdu. İdarələrin hamısı bağlanırdı. Dəlləkxanalar, dükanlar, mağazalar işləmirdi".[4]

İbrahim bilirdi ki, şərab zavodunda oğurluq, əyrilik olur. O da gəlib zavodun direktorunu bu səbəbdən biabır edirdi. Üzümü olmayanlar da pul verib plan yazdırırdı. "Adamlar vardı həyətdə bircə tənəyi yox idi, ancaq dövlətə (zavoda) guya on tonlarla üzüm satırdı".[5]

Quruculuq illərində üzüm dənli bitkilərin taleyini həll edirdi, onları sıxışdırıb, aradan çıxarırdı. Niyalda 80 hektar taxıl sahəsinə "əlvida" deyilməliydi. Buna isə müharibə veteranı İbrahim etiraz edirdi...

Lahıcda, Niyalda xalça toxunurdu. Eldənizin arvadı Gülşənin də qanı qaralanda, gözlərinə bulud gələndə kövrək hisslərini ilmələrə, naxışlara boşaldırdı.

Çingiz Ələkbərzadə bir neçə yerdə müəllif təhkiyəsinə atasının təsvir etdiyi nəsr parçalarından da əlavə etmiş, sanki Niyalın ağsaqqalının daim yaşayacağına özünü inandırmışdı. Əbülhəsəndən: "...XX ilin baharında adamlar çiçək, ot, meşə görəsi halda deyildi. Camaat bazara, tünlük küçə başına, ora-bura cumur, danışan ağızların içini belə görməyə can atırdılar.

[1] Çingiz Ələkbərzadə. Dünyanın qopduğu yer (1986-1988). "Azərbaycan", №4, 1990, s.21-92; №5, 1990, s.68-139, s.28
[2] Yenə orada, s.34
[3] Yenə orada, s.35
[4] Yenə orada, s.35
[5] Yenə orada, s.36

Bazar meydanında izdiham daha da çoxalırdı. Çarşablı qızlar, qadınlar qapıdan içəri girmir, nəyisə öyrənmək, bilmək istəyirdilər. Bəziləri isə yeniliyi eşitmək üçün taxtapuşlara, torpaq və qır damlara, daş hasarlara dırmaşırdılar. Belə söhbətlər gedirdi: Hökumət yıxılıb. Bolşevik, Müsavat və sairə".[1]

Niyallılar bilmirlər ki, bu müsavat adam deyil, hökumətdir. Köhnənin yerində Şura hökuməti qurulur. İndi də bu hökumət yıxılır. Dünya qopur, yerində də yeni quruluş doğulur. Dünyanın qopduğu yerlərdən biri də Niyaldır.

Yuxarıların böyüyü isə Kazımdır. Kazım Fərəcov yeni hökumətdir. Niyalda nə qədər varlılar, ona tabe olan ətraf kəndlər varsa, silahı təhvil verməlidir. Taxıl, qızıl, at, heyvan, xalça-palaz nə vardısa, yeni hökumətə təhvil verilirdi.

Kazım Fərəcov Səxavətin qardaşıdır. Atası Böyükağa təzə hökumətin ünvanına dünyanın ən qatı söyüşlərini yağdıranda Kazım atasına belə güzəştə getməmişdi. Kazım sosializm quruculuğunda fəal iştirakına görə quldurlar tərəfindən gecəykən tutulub tikə-tikə doğranmışdı.

İnqilabçı İbrahimin oğlu Eldəniz də tutulur. Çünki guya o toxuculuq sexini işlədəndə rüşvətxorluğa yol vermişdir. Amma səbəb bir qədər başqa idi. Guya İbrahimdən qəzetə tərif yazılanda oğlunu da tərifləmişdilər. Bu da yuxarıların xoşuna gəlməmişdi. Onunla maraqlanmışdılar. Sual da bu olmuşdu ki, necə olur, ömrü boyu həqiqət, düzlük, haqq, ədalət uğrunda mübarizə aparan bir adamın oğlu rüşvət üstündə tutulur? Eldəniz Şüvəlan qəsəbəsindəki 3 nömrəli istintaq izolyatoruna aparılmışdı...

Romandakı Cəfərqulu surəti də maraqlıdır. Kənddə birinin inəyi girir taxıllığa. Enkevede nümayəndəsinə xəbər verilir ki, bəs filankəsin inəyi hökumətin taxılına soxulub. O da özünü çatdırıb. İnəyi dama saldırmaq istəyir. İnəyin sahibi isə bir kasıb adam, bir bölük də uşaq yiyəsidir. Fəqət işdə olur. Arvadına xəbər çatır ki, bəs inəyi aparırlar. Arvad ayaqyalın özünü çatdırır milisionerə, yalvar-yaxar edir. Mümkün olmur. Onda gəlin inəyin boynunu qucaqlayır ki, vermərəm. Milis işçsisi boylu arvadı itələyib təpikləyir. Cəfərqulu ordan keçəndə bunu görüb milisi möhkəm əzişdirir. Cəfərqulu bilir ki, hökumət adamını döymək, ona asan başa gəlməyəcək, milis böyüyü Alxas ondan əl çəkməyəcək, qaçaq düşür. Lakin Cəfərqulunu inandırırlar ki, milis böyüyü Alxas onu barışığa dəvət edir. O, əlinin adamları ilə Cəfərqulunu tutdurub öldürməyə nail olur. Fəqət Alxasın özü də Cəfərqulunun adamları tərəfindən öldürülür...

[1] Çingiz Ələkbərzadə. Dünyanın qopduğu yer (1986-1988). "Azərbaycan", №4, 1990, s.21-92; №5, 1990, s.68-139; s.49-50

Romanın sonluğu da ibrətlidir. Təntənəli, həşəmətli qəbirdaşları içərisində bir qəbir də uyuyurdu. Fuad "bir sadə, nəzərəçarpmayan qəbrin yanından ötəndə ayaqları elə bil yerə mıxlandı: "Əbülhəsən". Gözümün qabağına güllü-çiçəkli may günü gəldi. "Hələ Niyalın qəbiristanlığı o qədər adam görməmişdi. Bakıdan, rayon mərkəzindən, Azərbaycanın çox yerindən tökülüşüb gəlmişdilər. Mikrofon quraşdırırdılar, mitinq keçirirdilər. Bakıdan gələn yoldaş danışdı. O qədər çiçək qoydular, qəbir görünməz oldu. Fuad ah çəkdi: "Bax ey, "Dünya qopur"u, "Müharibə"ni yazan kişinin qəbrinə bax. Tfu! Gör kişinin üstünü necə götürüblər. Neynəsinlər, pul odey raykomda, prokurorda, alverdə. Fikir eləmə kişi. Sənin adun var a, bax o bəsdi Niyala".[1]

Fuad meşələri qırmayacağına özünə söz verib. O meşələri ki, Kazımın atası Böyükağanın istəyi ilə bir neçə dövlətli ailələri "Ayı talası" meşəsində yeyib-içir, əylənib lər. Fuad taxıl yerlərini üzüm bağlarına verməyəcəyinə əmindir. Traktoru oralara sürməyəcəyinə qərarlıdır. Odur ki, Şıx babanı çağırıb, ondan kömək, məsləhət istəyir. Niyallılar pirə inanırlar. Gülşən də ərinə tapşırmışdı ki, onlar gedib Şıx Şirəki pirini ziyarət eləsinlər.

Çingiz Ələkbərzadə poetik lövhələr yaradanda bədii təsvir və ifadə vasitələrinə geniş yer vermiş, kənd-təbiət koloritini təbii, duyğusal əks etdirmişdir. "İbrahim atını məhmizləyib şəlalənin yanına gəldi. Şəlalə Sarıqayadan daranırdı. Dümağ suydu. Əlini uzadıb Şəlalənin hörüklərini oxşadı. Bir ovuc suyu üz-gözünə sürtdü".[2]

Romanın bədii dili mükəmməldir, dialoqlar, monoloqlar təbiidir. Bədii üslub aydın və yetkindir. Lakin kompozisiya lirik təsvir və təhkiyədə olduğundan dramatizmi az, konflikti zəifdir. Xeyli surət haqqında xaotik məlumat verilmişdir. Amma romanın məqsəd və ideyası çox aydındır: sosialist realizminin işdəkləri çox və ağılasığmaz, sənətə təsirləri də bu cür olub. Roman sərt realizm həqiqətlərinin təcəssümüdür.

Əsərdə Mirzə Cəlildən gəlmə xeyli ayamalar da işlədilib: Qəssab Fərmayıl, Yağ Həsənağa, qorodovoy Nuriyev, sexavşik Suliddin və s.

Çingiz Ələkbərzadənin "Dünyanın qopduğu yer" adlı romanı Əbülhəsənin "Dünya qopur" romanının qopduğu yerdir. Bu yer də 1988-1990-cı illər olaylarının qopduğu tarixin bir parça yaddaşıdır. Əbülhəsən və Çingiz Ələkbərzadə sözünün yaddaşı. Tənqidçi-ədəbiyyatşünas Yaşar Qarayev nəsrdə Sabir Əhmədlinin "Yanvar hekayələri" və Çingiz Ələkbərzadənin "Dünyanın qopduğu yer" adlı romanını xüsusi qiymətləndirmişdir. Alim yazmışdır ki, "Dünyanın qopduğu yer" romanı "bədii təxəyyülün yeni mərhələsini ifadə etməsi ilə, Azərbaycanda sovet hakimiyyəti qurulması

[1] Çingiz Ələkbərzadə. Dünyanın qopduğu yer (1986-1988). "Azərbaycan", №4, 1990, s.21-92; №5, 1990, s.68-139; s.138

[2] Yenə orada, s.50

faktına münasibətin təzəliyi ilə diqqəti cəlb edir. Maraqlıdır ki, təhkiyədə təkcə illər, zamanın, tarixin qatları yox, həm də nəsillərin özü qarşılaşmış olur. Çingiz doğma atası ilə, "Dünyanın qopduğu yer" romanı isə Əbülhəsənin, "Dünya qopur"u ilə tarixi ünsiyyət və polemika prosesində təhlilə cəlb olunur. Romanda həmçinin olduqca maraqlı psixoloji qat, fantasmoqorik səpki, uğurlu bədii-şərti üslub var".[1]

Çingiz Ələkbərzadənin bədii nəsr sənətkarlığının səciyyəvi xüsusiyyətləri haqqında demək olar ki, tənqid sözü yoxdur. O, təbii təsvir-təhkiyə, gözlənilməz situasiyalar ustasıdır. Onun fərdi üslubu lirik-psixoloji, lirik-epik və lirik-romantik, habelə, şərti-metaforik təhkiyə məziyyətləri ilə müşayiət olunmuşdur. Yazıçı bədii süjetlərində mif, folklor, yuxu, həsbi-hal, keçmiş, bu gün, gələcək, retrospeksiya və fantasmoqorik bədii vasitələrdən bacarıqla istifadə etmişdir. Ədib bədii süjet mətnini müxtəlif səmtlərdən: başdan, ortadan və sondan başlamağı, sonu əvvələ qaytarmağı, təbiət, insan, cəmiyyət və mədəniyyət vasitələri arasında bağlar yaratmağı bacarmış, təbiətdən fon kimi istifadə etmişdir. Ədib təbii dialoqlar və monoloqlar yaratmış, bunlar da müəllif ideyasının, psixoloji konfliktin açılışına təbii xidmət etmişdir. Çingiz Ələkbərzadənin mətn təhkiyəsi lirik-psixoloji ovqata, realist-romantik çalarlara, rənglərə malikdir. Ədibin dil-üslub fəzasında düşüncə sərbəstliyi, fikir azadlığı, təbiətdən psixoloji-mənəvi keçidlərə meyil, lirik ricətlərə maraq, süjetə münasibətli, müdaxiləli yanaşma, müəllif mövqeyi, kənd, şəhər koloriti, etnoqrafik cizgilər, hissi-psixoloji əlvanlıq birləşmişdir...

Anar, Elçin, İsi Məlikzadə, Sabir Əhmədli, Çingiz Hüseynov, Rüstəm və Maqsud İbrahimbəyovun yaradıcılığı üçün xarakterik olan lirik-psixoloji və etik-estetik üslub, mənəvi-əxlaqi axtarışlar, habelə mənəviyyat mövzusu Çingiz Ələkbərzadə nəsri üçün də səciyyəvidir. Çingiz Ələkbərzadənin Azərbaycan bədii nəsrinin tarixində özünəməxsus xidməti, ədəbiyyatımızın inkişafında özünəməxsus yeri vardır.

[1] Yaşar Qarayev. Müharibə və yaddaş ədəbiyyatı. Seçilmiş əsərləri. Beş cilddə, IV c. – Bakı: Elm, 2016, s.552

FƏRMAN KƏRİMZADƏ
(1937-1989)

Azərbaycan ədəbiyyatının 60-cı illər ədəbi nəslinə mənsub olan Fərman Kərimzadə realist hekayələri, dövrün sosial mənzərələrinin canlı təsvirini verən maraqlı povestləri və xalqımızın ictimai-siyasi hadisələrlə zəngin olan tarixi keçmişini geniş epik lövhələrlə əks etdirən, böyük tarixi və ədəbi şəxsiyyətlərin ölməz obrazlarını yaradan, fundamental və orijinal tarixi romanları ilə ədəbiyyatımızda özünəməxsus yer tutan istedadlı yazıçılarımızdandır.

Həyatı. Fərman İsmayıl oğlu Kərimzadə 1937-ci il mart ayının 3-də Ağrı dağının ətəklərində, bütün ömrü boyu ürəyində həsrətini yaşatdığı Vedibasarda, Ermənistanın Vedi rayonunun Böyük Vedi kəndində anadan olmuşdur. Uşaqlığını başlarına qayalardan təbii tac qoyulmuş qoşa əzəmətli Kərsən dağlarının arasında yerləşən Vedidə keçirən Fərman Kərimzadə zirvəsi qayalarla haşiyələnmiş Kafir qalasından, zümzüməli musiqi təsiri bağışlayan Vedi çayından zövq almış, təbiətin vurğunu olub ondan bəhrələnmişdir.

Uşaqlıq illərinin xatirələrində deyilir: "Bulaq sularının axdığı su yatağı dümdüz və hamar idi. Ətrafda yemişan, zirinc, həmərsin kolları çiçək açmışdı. Allah, necə də gözəl idi. O dərədə gördüyüm gözəllik mənim üçün bir növ etalona çevrildi. İndi başa düşürəm ki, həmin gözəlliyə çox baxmaq onu adiləşdirə bilərdi".[1]

Fərman Kərimzadə ibtidai təhsilini doğma kəndində almış (1944-1951), vətənə və xalqa məhəbbət ruhunda böyümüş, uşaq ədəbiyyatı nümunələrini həvəslə öyrənmişdir. Məktəb illərində görkəmli söz sənətkarları Abdulla Şaiq, Abbas Səhhət və Rəşid bəy Əfəndiyevin uşaq şeirlərini əzbərdən öyrənməsi, folklordan maraqlı nümunələr söyləməsi onu hamıya sevdirirdi.

Ailələrinin Beyləqan rayonuna köçürülməsi ilə əlaqədar olaraq yeddiillik təhsilini Qaraçala kəndində, orta təhsilini isə 1954-cü ildə Şahsevən kəndində almışdır. Məktəbdə oxuyarkən ədəbiyyatı sevir, mütaliə edir, rəsm çəkir, maraqlı tablolar yaradırdı. Onu Əzim Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq məktəbinə aparan da həmin yaradıcılıq həvəsi olmuşdur. F.Kərimzadə 1955-ci ildə rəssamlıq məktəbinə qəbul olunmuş, 1960-cı ildə oranı fərqlənmə diplomu ilə bitirmişdir. Təhsil illərində canlı tablolar yaratmış, nəinki Bakıda, həm də Moskva, Sankt-Peterburq, Kiyev, Minsk, Tbilisi, Kazan, Mahaçqala, Dərbənd və başqa şəhərlərdə təşkil olunmuş yaradıcı sərgi konfranslarında fəal iştirak etmiş, bədii tabloları, maraqlı

[1] Fərman Kərimzadə. Vedinin yanı dağlar (Etnoqrafik eskizlər). – Bakı: "Azərbaycan" jurnalı, 1988, №9, s.106

rəsmləri tamaşaçıların diqqətini cəlb etmiş, müxtəlif mükafatlara, diplomlara layiq görülmüşdür. Sabir Rüstəmxanlı yazır: "Şair-publisist, rəssam idi və dünyanın bütün rənglərini yaxşı seçirdi: sevincin və kədərin, yaxşı və pisin rənglərini gözəl bilirdi. Onun ruhunun, istedadının açılmamış, gizli və son dərəcə doğma cəhətlərini görmüşdüm".[1]

Fərman Kərimzadə İsmayıllı və Beyləqan rayonlarının orta məktəblərində (1960-1965) Azərbaycan dili və ədəbiyyatdan dərs deyir, şagirdlərinə elmin sirlərini öyrədirdi. Gənc müəllim şifahi xalq yaradıcılığını öyrənmək, toplamaq sahəsində fəaliyyət göstərir. Bu da tamamilə təbiidir, çünki xalqın tarixi qəhrəmanlıq keçmişi, adət-ənənələri onun mənəvi sərvəti olan zəngin folklorunda geniş bədii ifadəsini tapmışdır.

Kənd həyatından, əmək adamlarının fəaliyyətindən dövri mətbuatda maraqlı oçerklərlə çıxış edən F.Kərimzadə Beyləqan rayonunda çıxan "Yüksəliş" qəzetində ədəbi işçi, sonralar isə məsul katib kimi fəaliyyət göstərir. Səmərəli əməyi nəticəsində şöbə müdiri təyin olunur və çox keçmir ki, qəzetin məsul katibi vəzifəsinə irəli çəkilir. Qəzetdə çalışdığı illərdə yazıçı "Qızıl külçəsi" povestini, "Başlı başını saxlasın", "Çiyələk alverçiləri", "Oğru Məhərrəm və gizli quyu əhvalatı", "Yelovada qalmaqal" və s. felyetonlarını, "Anamın sandığı", "Dost dosta tən gərək", "Qartal uçanda", "Sənə oğlumdan danışacam" və başqa maraqlı, aktual mövzulu oçerklərini yazır.

Fərman Kərimzadənin dünyagörüşünün formalaşmasında Bakı mühiti xüsusi rol oynayır. Belə ki, dünya ədəbiyyatı klassiklərini, Avropa, Şərq və rus ədəbiyyatı nümayəndələrinin əsərlərini mütaliə edir, həvəslə öyrənir. Onun teatr tamaşalarına getməsi, yaradıcı dərnəklərdə iştirak etməsi, ədəbiyyat məsələlərini ciddi öyrənməsi sənətə, teatra olan marağını daha da artırır və yaradıcılıq hüdudlarını genişləndirir.

F.Kərimzadənin teatra, sənətə olan böyük marağı təhsilini davam etdirməyi ön plana çəkir. O, 1965-ci ildə Moskvada Ümumittifaq Kinematoqrafiya Dövlət İnstitutunun Ssenari fakültəsinə daxil olur. Moskva ədəbi mühiti onun yaradıcılıq imkanlarını genişləndirir, bilik dairəsini dərinləşdirir. Rus dilini öyrənir, rus klassiklərinin əsərlərini mütaliə edir, dövrün görkəmli səhnə ustalarının sənətinə hörmətlə yanaşır və onların yaradıcılığını dərindən mənimsəməyə çalışır. Ədibin istedadının kamilləşməsində Moskvanın yaradıcı dərnəklərində iştirakı mühüm rol oynayır. F.Kərimzadə institutun ikinci kursunu 1967-ci ildə bitirir. Ailə vəziyyətinə və səhhətinə görə Bakıya qayıdır. Cəfər Cabbarlı adına "Azərbaycanfilm"in direktoru, Xalq artisti Adil İsgəndərovun dəvətilə 1970-1977-ci illərdə Kinostudiyada kollegiya üzvü vəzifəsində çalışır.

[1] Sabir Rüstəmxanlı. Bu çay niyə qurudu. "Ədəbiyyat və incəsənət", 1989, 24 mart

Fərman Kərimzadənin ədəbi yaradıcılığının kamilləşməsində "Abşeron", xüsusilə də "Ədəbiyyat və incəsənət" qəzetinin çox böyük rolu olmuşdur. Belə ki, onun 1966-1970-ci illərdə "Ədəbiyyat və incəsənət" qəzetinin redaksiyasında ədəbi işçi və şöbə müdiri, 1977-1980-ci illərdə qəzetin xüsusi müxbiri kimi fəaliyyət göstərməsi ədəbiyyatın nəzəri məsələlərini və yaradıcılıq problemlərini ətraflı öyrənməsinə, xüsusilə nəsrin sənətkarlıq sirlərinə hərtərəfli yiyələnməsinə geniş imkanlar yaratmışdır. O, 1980-1981-ci illərdə Şüvəlan Yaradıcılıq Evinin direktoru vəzifəsində işləmişdir.

Fərman Kərimzadəni bir yazıçı kimi tarixi mövzular daha çox maraqlandırırdı. O, xalqımızın qəhrəmanlıqlarla dolu keçmişinə, görkəmli şəxsiyyətlərinə aid arxiv materialları, rəsmi sənədlər, bioqrafik əsərlər, memuarlar, səyahətnamələr, əlyazmalar və s. toplamış, müşahidələr aparmış, tarixi mövzuda sənət abidələri yaratmaq arzusunu həyata keçirməyə çalışmışdır.

Tanınmış nasir, Azərbaycan Yazıçılar Birliyinin üzvü Fərman Kərimzadə bütün ömrü boyu vətəninin bütövlüyü və azadlığı uğrunda mübarizə aparmış, Qərbi Azərbaycandan zorla köçürülən soydaşlarımızın yerləşdirilməsi zamanı keçirdiyi ağır sarsıntılar nəticəsində 1989-cu il mart ayının 17-də, 52 yaşında Tərtər rayonunun Bəyim Sarov kəndində vəfat etmiş və Bakı şəhərində dəfn olunmuşdur.

Yaradıcılığı. Fərman Kərimzadənin ilk əsərinin mövzusu kiçikyaşlı uşaqların həyatından bəhs edən "Qarpız" hekayəsidir. Bu kiçikhəcmli əsər o dövrdə şair Tofiq Mütəllibovun rəhbərliyi ilə Mərkəzi kitabxanada fəaliyyət göstərən ədəbi yaradıcılıq dərnəyində oxunub bəyənilmiş və 1958-ci ildə "Pioner" jurnalının 5-ci sayında[1] dərc edilmişdir. Hekayədə vətənpərvərlik, torpağa bağlılıq, doğruluq, təmizlik, əməyə və zəhmətə məhəbbət kimi ülvi hisslər təlqin edilir. Bundan sonra "Talada" (1959) adlı hekayəsi ədəbi ictimaiyyət tərəfindən yaxşı qarşılanır və "Azərbaycan" jurnalında çap olunur. Jurnalın redaktoru Əbülhəsən Ələkbərzadə hekayədəki təbiət lövhələrini və dil sadəliyini yüksək qiymətləndirir, müəllifə yaradıcılıq uğurları arzulayır. F.Kərimzadənin "Ana" (1960) hekayəsini isə Əhməd Cəmil bəyənir və jurnalda çap olunmasını lazım bilir. Redaktorların tövsiyəsi ilə jurnalın səhifələrində çap edilən bu hekayələri ədəbi tənqid də yüksək dəyərləndirir. Fərman Kərimzadə öz dəst-xəti, orijinal üslubu ilə ədəbi mühitin diqqətini cəlb edir.

Gənc nasirin "Mis qazan" (1969), "Toy toğlusu" (1972), "Xınalı" (1974) kimi maraqlı məzmuna və təlim-tərbiyəvi mahiyyətə malik olan

[1] Fərman Kərimzadə. Qarpız. – Bakı: "Pioner" jurnalı, 1958, № 5

hekayələrinin “Ədəbiyyat və incəsənət” qəzetində dərc edilməsi oxuculara gözəl təsir bağışlamışdır.

F.Kərimzadənin ədəbiyyat aləmində tanınmasında tarixi romanları ilə yanaşı, kiçik hekayələrinin də böyük əhəmiyyəti olmuşdur. Yazıçının hekayələrinin əsas leytmotivini müharibə – “Qırx bir nömrəli ayaqqabı” (1959), “Sonuncu eksponat” (1962), ana və vətən məhəbbəti – “Ana”(1960), “Bir ürək yanmalıdır” (1961), “Ümid” (1962), “Ömrümüz-günümüz”(1969), mənəvi saflıq – “Mən nə üçün məhkum olundum” (1964), “Mis qazan” (1969), “Ölülər yalan danışmır” (1974), ailə-məişət – “Yuxarı mərtəbə” (1963), “Toy toğlusu” (1972), “Xınalı” (1974), sevgi, məhəbbət – “Talada” (1959), “Mən gözəl axtarıram” (1967), “Oxşarlıq” (1968) və b. ənənəvi mövzular təşkil edir. Yazıçı qələmə aldığı mövzunu bədii cəhətdən ustalıqla həll etməyə, hadisələri və surətləri inandırıcı verməyə, təbiiliyə sadiq qalmağa çalışmışdır. F.Kərimzadənin hekayələri məzmun və ideya baxımından zəngindir. Bu da yazıçının əsərlərinin mövzu rəngarəngliyi, xarakterlərin orijinallığı və sənətkarlığı haqqında aydın təsəvvür yaradır.

Yazıçının “Tutdum orucu irəmazanda” və “Hop-hop” hekayələri böyük satirik şairimiz Mirzə Ələkbər Sabirə ithaf olunmuşdur. Bu hekayələr Sabiri uşaqlara yaxından tanıtmaq və onlarda satirik şairə rəğbət hissi oyatmaq baxımından əhəmiyyətli əsərlərdir.

F.Kərimzadənin hekayələri gənc şair və nasirlərin “Duyğular” (1960), “Uğur olsun” (1961), “Salam, Azərbaycan” (1970) adlı şeir və hekayə almanaxlarında da çap olunmuşdur. Yazıçının “Sonuncu eksponat” adlı ilk hekayələr kitabı[1] 1963-cü ildə nəşr edilmiş və oxucu auditoriyası tərəfindən maraqla qarşılanmışdır. Ədəbi tənqid gənc nasirin ilk kitabı haqqında xeyirxah mülahizələr söyləmiş, onun yaradıcılıq axtarışlarının orijinallığını göstərmişdir. Yaradıcılıq imkanlarını genişləndirən F.Kərimzadənin “Heykəl dilə gəlir” (1965), “Ömrümüz-günümüz” (1969) kitablarının çap olunması oxucuların diqqətini cəlb etmişdir.

Fərman Kərimzadə keçən əsrin 80-ci illərinin sonunda respublikaya Qərbi Azərbaycandan ilk qaçqın axını başlayanda, Qarabağ problemi ortaya atılanda fəal ictimai iş aparmış, imperiyanın və erməni daşnaklarının əli ilə öz yurdlarından didərgin salınmış soydaşlarımızın Azərbaycanın müxtəlif bölgələrində yerləşdirilməsində yaxından iştirak etmişdir. Professor Xudu Məmmədov Fərman Kərimzadənin el-oba təəssübünü, doğma yurda bağlılığını, milli ruhlu bir yazıçı kimi vətənpərvərliyini yüksək qiymətləndirərək yazırdı: “Fərmanla mən, ikimiz də arxeoloquq. O, qədim arxivlərdə, tarixi kitabələrdə axtarır xəzinəni, mən – ulu dağlarımızda. O – ruhdur,

[1] Fərman Kərimzadə. Sonuncu eksponat. – Bakı: Uşaqgəncnəşr, 1963

qovdur, mən çaxmağam. Bizim ikimizdən tamaşalı bir Azərbaycan tonqalı çatıla bilərdi!"[1]

Fərman Kərimzadənin mənsub olduğu 60-cı illər ədəbi nəsli özünəməxsus, spesifik xüsusiyyətləri ilə artıq 50-ci illərə qədər mövcud olan, formalaşan mərhələdən ciddi şəkildə fərqlənir. Tamamilə yeni məzmun və ideyaya əsaslanan ədəbiyyatda sözün həqiqi mənasında mühüm keyfiyyət dəyişmələri özünü göstərir. Köhnə stereotiplərdən uzaqlaşan Azərbaycan ədəbiyyatı əvvəlki dövrlərin ölçülüb-biçilmiş, hazır qəliblər əsasında yaradılan əsərlərindən uzaqlaşmağa başlayır. Ədəbiyyatda baş verən bu yeniləşmə hər şeydən əvvəl ölkənin həyatında gedən mühüm ictimai-siyasi və mədəni hadisələrlə əlaqədar idi. Bu dövrdə "şəxsiyyətə pərəstiş"in cəmiyyətə vurduğu zərbələr tamamilə açıqlandı. Ədalətsizliklər, haqsızlıqlar, minlərlə insanın cismani və mənəvi məhvi haqqında söhbətlər geniş miqyas alaraq böyük əks-səda yaratdı. Nəhayət, tarixi varisliyin bərpa olunması nəticəsində Hüseyn Cavid, Yusif Vəzir Çəmənzəminli, Əhməd Cavad, Mikayıl Müşfiq və başqa sənətkarlara bəraət verildi. Onların adı, ədəbi irsi yenidən xalqa qaytarılaraq, ədəbiyyatda ölməzlik zirvəsinə ucaldıldı.

1960-cı illərədək hələ də Azərbaycan nəsrində özünə möhkəm yer tutan sovet ideologiyasının sərt təsiri duyulmaqda idi. Cəmiyyətdə gedən ictimai-siyasi hadisələrlə əlaqədar yaranmış demokratik meyillər daha da güclənməyə başlayır. Əslində bu ədəbi nəsil şablon yolla yaranan ədəbiyyatdan və ədəbi qəhrəmanlardan uzaqlaşmağa çalışır, yeni dövrün ab-havasını əks etdirməyə, cəmiyyətdə gedən ictimai-siyasi prosesləri obyektiv işıqlandırmağa, mövcud quruluşun real, həyati obrazlarını qələmə almağa səy göstərirdilər. Ədəbiyyatımızda Fərman Kərimzadənin də daxil olduğu, "60-cılar" adı ilə tanınan bu ədəbi nəsil hələ də yaşamaqda olan sosializm realizmi metodu daxilində olsa da, cəmiyyətdə özünə yer tapmış mənfilikləri, ictimai-sosial ədalətsizlikləri, insan mənəviyyatına və psixologiyasına yabançı olan neqativ halları açıq-aşkar şəkildə bədii əsərlərdə canlandırırdılar. Bu dövrün ədəbiyyatı artıq öz qəhrəmanlarını, sxematiklikdən uzaq, bütün müsbət və mənfi keyfiyyətləri özündə cəmləşdirən real, həyati obrazlarını yaratdı.

Azərbaycan ədəbiyyatını keçmiş stereotiplərdən qurtaran, orijinal dəst-xəti, yazı üslubu, sənətkarlıq məharəti ilə tanınan Anar, Elçin, Yusif Səmədoğlu, İsi Məlikzadə ilə yanaşı, Fərman Kərimzadə də milli klassik irsə və Qərbi Avropa ədəbiyyatının mütərəqqi ənənələrinə söykənərək yeni ədəbiyyat cəbhəsində irəliləyirdi. 1960-cı illərdə onların ədəbiyyata gətirdikləri ideya-məzmun yenilikləri, insan həyatına, cəmiyyətə, mövcud quruluşa münasibət məsələləri ədəbiyyatımızın 1970-ci illərinə də öz müsbət təsirini göstərdi. Belə ki, "70-cilər" "60-cılar"ın yaratdığı yeni yaradıcılıq ənənələrini

[1] Xudu Məmmədov. Kərimzadə Fərman haqqında. "Dədəm Qorqud" qəzeti, 1991, № 6

şərəflə davam etdirir və ədəbiyyatın bu mərhələsində də millilik, xəlqilik, demokratizm meyilləri güclənməyə başlayır. Tənqidçi Vaqif Yusifli bu dövr ədəbiyyatının spesifik xüsusiyyətlərindən bəhs edərək yazır: "60-70-ci illər ədəbiyyatı heç də vakuumda yaranmış bir ədəbiyyat deyildi, o bütün kökü ilə özündən əvvəlki onilliklərin ədəbiyyatına bağlıdır. Bununla yanaşı, sovet ədəbiyyatında, o cümlədən Azərbaycan ədəbiyyatında bir sıra yeni meyil və tendensiyaların yaranması (reallıq hissinin artması, həyatın sərt həqiqətlərinə yaxınlaşmaq meylinin qüvvətlənməsi, sənətkarlıq, forma axtarışlarının yeni aspektləri, ayrı-ayrı janrların təkamülü və s.) məhz həmin illərdə diqqəti cəlb etdi".[1]

F.Kərimzadənin zəngin ədəbi irsi ədəbiyyatımızın maraqlı və orijinal səhifələrini təşkil edir. Yaradıcılığa kiçik hekayələrlə başlayan yazıçı etnoqrafik eskizləri, oçerkləri, povestləri və irihəcmli tarixi romanları ilə Azərbaycan ədəbiyyatında özünəməxsus yer tutur. Onun "İnsan və vəzifə", "Lovğalıq", "Duman", "Rəncidəlik" adlı maraqlı miniatürləri vardır. Bu miniatürlərdə əxlaqi fikir ön plana çəkilir, didaktik mahiyyətə daha çox üstünlük verilir.

F.Kərimzadə dövri mətbuatda maraqlı oçerklərlə də çıxış etmişdir. Onun "Beyləqan torpağında", "Dalğaqıran", "Dağların qoynunda", "İşıq", "Sərgi", "Leytenant Tahir İsayev", "Şahbulağın suyu, Qarabağın çörəyi", "Sözsüz nağıllar", "İsti kölgə" kimi oçerklərində vətənə və xalqa məhəbbət duyğularından ilhamla söhbət açılır.

F.Kərimzadə qələmini mənsur şeirlər yaratmaqda da sınamış, "Qalxan", "Yaşa səni, ürək!", "Qız və dəniz", "Külək, sən nə edirsən?" adlı təsirli sənət əsərləri yaratmışdır. Bu şeirlərdə vətən məhəbbətinin müqəddəsliyi, xeyirxahlıq, əməyə, sənətə və gözəlliyə vurğunluq tələqin edilir.

F.Kərimzadə yaradıcılığında poeziyaya da xüsusi yer verilir. Xatirələrində, etnoqrafik eskizlərində, romanlarında verilmiş maraqlı poeziya nümunələri onun şair təbiətli sənətkar olduğunu təsdiqləyir.

Onun "Görmədim", "Gəlmişəm görüşünə", "Bu çay niyə qurudu?", "Bura Qaraquzeydi", "Bilmədi", "Hanı qəbirlərin, Sarı dolama", "Getdi" kimi şeirləri diqqəti cəlb edir. "Qarlı aşırım" romanında Xəlilin meyidi üzərində Şirəlinin, Abbasqulu bəyin dəfn mərasimində Tağızadənin dediyi bayatılar da müəllifin özünə məxsusdur. "Xudafərin körpüsü", "Çaldıran döyüşü" və digər romanlardakı şeir nümunələri də sənətkar qəlbinin poetik ifadələri, həyəcanlarıdır.

F.Kərimzadənin "Qızıl külçəsi" (1964), "Heykəl dilə gəlir" (1965), "Xallı maral" (1969), "Yadigar mahnı"(1970) və "Toy dəvətnaməsi" (1979) povestlərində həyat həqiqətləri real şəkildə qələmə alınmış və bədii

[1] Vaqif Yusifli. Karvanbaşı, yolun hayanadır. – Bakı: Gənclik, 1998, s.37

ümumiləşdirmələr yolu ilə cilalanmışdır. Yazıçının povestlərində erməni daşnaklarının Naxçıvanda törətdiyi soyqırım və fəlakətlər, saxtakarlığa, ədalətsizliyə, əliəyriliyə, dələduzluğa qarşı barışmazlıq tənqid obyektinə çevrilmiş, cəmiyyətdə baş verən ictimai və sosial problemlər, ailə-məişət məsələləri, mənəvi-əxlaqi keyfiyyətlər yüksək sənətkarlıqla əks etdirilmişdir.

Fərman Kərimzadənin povestlərində gənc nəslin tarix və gələcək qarşısındakı mənəvi borcu düzgün bədii həllini tapmış, surətlərin formalaşmasında mühitin və şəraitin təsiri obyektiv qiymətləndirilmişdir. Ümumiyyətlə, dərin ictimai-psixoloji təhlil vermək, hadisə və əhvalatları inandırıcı şəkildə qələmə almaq baxımından yazıçının povestləri diqqəti cəlb edir. Onun povestlərində sözün həqiqi mənasında duyan, düşünən, sevən, eyni zamanda nifrət etməyi bacaran, zəif və güclü cəhətləri öz varlığında əks etdirən həqiqi, canlı insan obrazları vardı. Bu insanlar cəmiyyətin qurub-yaradan fəal vətəndaşı olmaqla yanaşı, həm də öz şəxsi həyatı, məişət qayğıları, ailə məsələləri ilə məşğul olan real obrazlardır.

F.Kərimzadənin həyat materialını, ədəbi prosesi və tarixi qaynaqları dərindən öyrənməsi, dövrün tipik səciyyəvi məsələlərini diqqətlə nəzərdən keçirməsi irihəcmli əsərlər yazmasını şərtləndirir. Yaradıcılığının ümdə xüsusiyyəti müasirlik olan yazıçının hekayə və povestləri ona roman janrı sahəsində qələmini sınamağa zəmin yaratmışdır.

"Qarlı aşırım" Fərman Kərimzadənin ilk romanıdır. Bu roman əslində müəllifin vaxtilə "Ulduz" jurnalında çap etdirdiyi "Qarlı aşırım" (1967, №4), "Oğuz qəbri" (1970, №8) və "Qırmızı zirvə" (1972, №9,10, 11) əsərləri əsasında yaranmışdı.

F.Kərimzadənin tarixi həqiqətin təsdiqini ifadə edən "Qarlı aşırım" romanı mürəkkəb tarixi şəraitin doğurduğu çətin ictimai-siyasi vəziyyətin bədii salnaməsidir. Zəngin xarakterlər qalereyası yaradılan bu roman sinfi mübarizənin kəskinləşdiyi 1930-cu illər kəndinin canlı mənzərəsidir. Romandakı hadisələr əsasən Vedibasardan başlayır. Əsərdə süjetin gərgin dramatik hadisələr əsasında qurulması, əlisilahlı adamların qarlı aşırımlardan keçməsi, sinfi düşmənlərə qarşı mübarizəsi təsirli verilir, əsərin orijinallığını əsaslandırır.

Tarixi hadisələr, rəsmi sənədlər, inkarolunmaz faktlar əsasında yazılmış bu sənət əsəri haqqında verilən qiymət, söylənilən inandırıcı mülahizələr tamamilə təbiidir. Romandakı obrazların əksəriyyətinin tarixi şəxsiyyətlər olması, onların fəaliyyətinin həyat həqiqətləri ilə uyğunluğu əsərin bədii dəyərini artırır. Romanda Abbasqulu bəy Şadlinski, Xəlil, Şıxəlioğlu, Şabanzadə, Talıbov, Kərbəlayı İsmayıl, Qəmlo kimi surətlərin iştirakı ilə qarşı-qarşıya duran iki cəbhənin mübarizəsi real səhnələrlə işıqlandırılır. Xalqın mənəvi-əxlaqi keyfiyyətlərini, təfəkkür tərzini, uğurlu və uğursuz cəhətlərini bu obrazların fəaliyyətində aydın görmək mümkündür.

Fərman Kərimzadənin tarixi romanlarının zirvəsində dayanan "Qarlı aşırım" həmişə ədəbi tənqidin diqqət mərkəzində olub. Tənqidçi Akif Hüseynov əsərin yüksək məziyyətlərindən bəhs edərək yazır: "Qarlı aşırım" romanını nə hadisələrin cərəyan etdiyi dövrə, nə də konkret materiala əsaslanıb kollektivləşmə hərəkatı barədə əsər kimi qiymətləndirmək mümkün deyildir. İndi yazıçılar bu və ya digər hadisə, problem barədə yox, ilk növbədə şəxsiyyət, insan barədə əsərlər yazmağa çalışırlar. Bu əsərlərdə ən gərəkli mətləblər də, zaman da, xalqın xarakteri də qəhrəmanın, şəxsiyyətin simasında təmərküzləşərək təqdim edilir".[1] Romanda Abbasqulu bəy Şadlinski məhz belə qəhrəmanlardandır. Hadisələr onun ətrafında cərəyan edir. Abbasqulu bəyin vətəni Vedinin başı bəlalı olub. Tarix boyu bu ərazi müharibə meydanına çevrilib. İndi Ararat vadisi deyilən bu yerin adı əvvəllər Çuxursəd, sonra isə İrəvan çuxuru adlandırılıb. Türk sultanları ilə İran şahları arasında gedən müharibələrdə bura sərhəd olub. Tarixin sonrakı mərhələsində Şah İsmayıl Xətainin vəziri Rəvanqulu xanın şərəfinə tikilən İrəvan şəhəri məhz azərbaycanlılara məxsus olan həmin ərazidə salınmışdır. XX əsrdə bir neçə dəfə orada yaşayan həmvətənlərimiz ermənilər tərəfindən deportasiyalara məruz qalıb. 1952-ci ildə xalqımızın öz ata-baba yurdundan köçürülməsində o yerin sakinləri deyirdilər ki, Abbasqulu bəy sağ olsaydı, bu köçürmə də olmazdı.

Romandakı hadisələrin inkişaf xətti Abbasqulu bəyin alicənab, xeyirxah, mərd, igid, müdrik, nəcib və ləyaqətli insan olduğunu aşkara çıxarır. Yazıçı təhkiyəsində və obrazların mükaliməsində Abbasqulu bəyin əsl xalq qəhrəmanı olduğunu, vətənin və xalqın qeyrət, namus mücəssəməsi kimi tanındığını görürük. Çətin yolların, qarlı aşırımların keçilməsində, uzaq, əlçatmaz kəndlərlə əlaqə saxlanılmasında onun ağıllı məsləhətləri və fədakarlığı hamını valeh edir. Abbasqulu bəy mənasız çaxnaşmaların, boş danışıqların, yersiz qırğın törətməyin, nahaq qan tökməyin tərəfdarı olmamış, dostluq və qardaşlıq carçısı kimi fəaliyyət göstərmişdir. Abbasqulu bəyə görə, "qan tökmək", "qırğın törətmək" cinayətdir, həqiqi insan mənəviyyatına ziddir. Yazıçı onu şura hökumətini qəbul etməyib qiyam qaldıran insanların başçısı Kərbəlayı İsmayıl və Qəmlo ilə qarşılaşdırır. Abbasqulu bəyin bir idealı var. Vətən və xalq azad olsun, nahaq qan tökülməsin.

Yazıçı əsərdə Abbasqulu bəylə Kərbəlayı İsmayılı görüşdürərək barışığa nail olmaq istəyir. Lakin Kərbəlayı İsmayıl yeni hökuməti, onun qoyduğu qayda-qanunları qəbul etmir. Əsərdə yazıçının Kərbəlayı İsmayıl haqqında verdiyi məlumat onun xarakterinin səciyyəvi cəhətlərini aşkara çıxarır: "Kərbəlayı İsmayıl yerəbaxan adam idi. Evdə həmişə buxarının

[1] Akif Hüseynov. Nəsr və zaman. – Bakı: Yazıçı, 1980, s.184

yanında oturardı. Gözləri yol çəkə-çəkə ocağın külünü qurdalar, tədbir tökərdi. Səhərisi gün ağır bir cinayət baş verərdi...”[1]

Torpaqlarının, mal-dövlətinin əlindən çıxması və kənddə nüfuzdan düşməsi Kərbəlayı İsmayıla çox ağır dərd olur. Bu da onu daha böyük cinayətlərə əl atmağa məcbur edir. Abbasqulu bəyin ölümündən sonra deyir: “Namərdlik elədim, bu ağsaqqal çağımda. Elə namərdlik elədim ki, heç tarixdə görünməyib”.[2]

Romanda real cizgilərlə verilən Kərbəlayı İsmayıl ziddiyyətli obraz kimi oxucuların diqqətini cəlb edir. İndiyə kimi ədəbi tənqid bu obrazı adətən birtərəfli xarakterizə etmiş, onun özünəməxsus fərdi keyfiyyətlərini açıb göstərməmişdir. Lakin Kərbəlayı İsmayılı tamamilə mənfi obraz kimi səciyyələndirmək düzgün olmazdı. Azərbaycan ədəbiyyatında ənənəvi olaraq bu tipli obrazlara rast gəlirik. Səməd Vurğunun “Komsomol” poemasında Gəray bəy, İsmayıl Şıxlının “Dəli Kür” romanında Cahandar ağa bu silsiləyə daxil olan xarakterlərdəndir. Lakin bununla belə Kərbəlayı İsmayılı həmin obrazlardan fərqləndirən cəhətlər də çoxdur.

“Qarlı aşırım” romanı, onun ekran həyatı Fərman Kərimzadəni istedadlı nasir kimi məşhurlaşdırdı və əsər milli ədəbiyyatımızın nadir incisinə çevrilərək gənc nəslin təlim-tərbiyəsində mühüm rol oynadı.

Romanda maraqlı, yaddaqalan obrazlar qalereyası yaradılmış, zəngin həyat hadisələri geniş şəkildə bədii həllini tapmışdır. Obrazların müdrikliyi, kənd zəhmətkeşlərini düşündürən əsas problemlər, çətin mübarizə yollarında qazanılmış həyat təcrübəsi, müxtəlif epizodlar canlı verilmiş, yüksək sənətkarlıqla ümumiləşdirilmişdir.

Yazıçının həyat həqiqətlərinə sadiq qalması, mövzunu dərindən öyrənməsi, surətləri parlaq və inandırıcı, canlı və təbii cizgilərlə verməsi romanı məzmun və ideya baxımından zənginləşdirmişdir. Əsərin üzərində müəllifin yenidən işləməsi onun dəyərini artırmışdır. 1971-ci ildə romanın ssenarisi əsasında “Axırıncı aşırım” filmi çəkilmişdir.

Fərman Kərimzadənin “Xudafərin körpüsü” (1982) romanında XV əsrin sonu, XVI əsrin əvvəllərində baş vermiş tarixi hadisələr, Azərbaycan ədəbiyyatı tarixində görkəmli şair və məşhur sərkərdə kimi tanınan Şah İsmayıl Xətai Şeyx Heydər oğlunun uşaqlıq və gənclik illəri, hakimiyyət uğrunda mürəkkəb mübarizələri əks olunmuşdur. Roman iki hissədən ibarətdir. Birinci hissə “Dəmirağacdan asılan beşik”, ikinci hissə isə “Uzun Həsən, Gödək Əhməd” adlanır. Əslində bu roman dilogiyadır, yəni iki kitabdan ibarətdir. Birinci kitab “Xudafərin körpüsü”, ikinci kitab isə “Çaldıran döyüşü” adı ilə məşhurdur.

[1] Fərman Kərimzadə. Qarlı aşırım. – Bakı: Gənclik, 1987, s.7
[2] Yenə orada, s.88

“Xudafərin körpüsü” romanı bitkin süjet, gərgin və dramatik konfliktlərlə zəngindir, tarixə orijinal münasibət güclüdür, milli təfəkkür tərzi əsas meyardır. Romanda əsas problemlər insan xarakterlərinin, psixologiyasının, mənəvi aləminin zəminində aşkarlanır. Romanın mövzusu aktualdır, problemlər əzəmətlidir, lakin əsas məsələ problemlərin yazıçı tərəfindən yüksək bədii sənətkarlıqla həlli və obrazların canlı yaradılmasıdır. Hadisə və xarakterlərin bitkinliyi, obrazlı və şirin təhkiyəsi “Xudafərin körpüsü” romanının həqiqi sənətkar qələminin məhsulu olduğunu sübut edir.

Əsərdə tipik xarakterlərin, maraqlı obrazların yaradılması, Sultan Yaqub, Bəysunqur, Rüstəm Mirzə, Gödək Əhməd, Fərrux Yasar, Əlvənd Mirzə kimi hakimlərin ictimai-siyasi mövqeyini əks etdirən tarixi-bədii icmalların verilməsi Şah İsmayılın bədii obrazının canlı çıxmasını şərtləndirən amillər kimi diqqəti cəlb edir. Səfəvilərin qalib yürüşlərinin bütün əsas səbəblərini əsərdə genişliyilə verməklə yazıçı Şah İsmayılın səciyyəvi xüsusiyyətlərini aşkara çıxarmağa müvəffəq olur. Şah İsmayıl ulu babalarının arzularını yerinə yetirmək üçün ağıllı tədbirlər görür, məqsədyönlü fəaliyyət göstərir.

Əsərdə Uzun Həsənin anası, Azərbaycanın ilk diplomat qadını Sara xatun, Dəspinə xatun, Aləmşahbəyim, Bəhruzə xatun, Səkinə kimi yaddaqalan qadın obrazları yaradılmışdır.

Romanda diqqəti cəlb edən əsas cəhətlərdən biri də hadisələrin cərəyan etdiyi yerləri, qədim abidə və qalaları yazıçının böyük inam və məhəbbətlə geniş şəkildə qələmə alması, gördüyü, tanıdığı, bildiyi, şahidi olduğu obyekt kimi oxucuya təqdim etməyi bacarmasıdır.

F.Kərimzadənin gərgin yaradıcılıq axtarışlarının, zəngin müşahidələrinin, səmərəli və məsuliyyətli əməyinin məhsulu olan “Xudafərin körpüsü” romanında tarix və bədii həqiqətin vəhdəti sənətkarlıqla həll olunmuşdur.

“Çaldıran döyüşü” (1986) romanı görkəmli dövlət xadimi, Səfəvi Azərbaycan dövlətinin yaradıcısı, yenilməz sərkərdə, istedadlı şair Şah İsmayıl Xətainin mənalı həyat yolundan, çoxcəhətli müdrik fəaliyyətindən bəhs edən “Xudafərin körpüsü” dilogiyasının ikinci kitabıdır. Romanda Şah İsmayıl Xətai ağıllı, cəsarətli və mübariz dövlət xadimi, sərkərdə və istedadlı şair kimi qələmə alınır. Şah İsmayılın məqsədi Azərbaycanı birləşdirmək, onun ərazi bütövlüyünü, torpaqlarını, dilini, mədəniyyətini, bütövlükdə taleyini və müqəddəratını qorumaqdır. Əsərdə Şah İsmayılın böyük mübarizə və mücadilələrdən keçərək öz əqidəsinə sonadək sadiq qaldığını görürük. “Çaldıran döyüşü”ndə hadisələrin dramatik inkişafı ağlın və qəhrəmanlığın bir-birini tamamladığını göstərir.

Romanda xronologiya verilmir, bədii sözün qüdrətilə dövrün ədəbi-tarixi salnaməsi yaradılır. Bu salnamədə Ağqoyunlu hökmdarı Uzun Həsənin hakimiyyətindən başlamış Şah İsmayılın hakimiyyətə gəlməsi və dünya

şöhrəti qazanmış hökmdar, sərkərdə, şair, "zamanın sahibi"nə kimi keçdiyi ömür yolu, ictimai-siyasi fəaliyyəti yüksək sənətkarlıqla təqdim edilir.

Əsərdə Şah İsmayıl Xətainin qüdrətli sərkərdə, görkəmli sənətkar kimi formalaşmasında mühüm rol oynayan tarixi şərait bədii ustalıqla qələmə alınmış, Uzun Həsən, Sara Xatun, Hüseyn Lələ bəy, Fərrux Yasar, Aləmşahbəyim, Sultan Yaqub, Süleyman Bicanoğlu, Əbih Sultan və başqa tarixi şəxsiyyətlərin yaddaqalan obrazları yaradılmışdır.

Vahid və qüdrətli dövlətçilik uğrunda siyasət meydanına atılan gənc İsmayılın apardığı gərgin mübarizələr, milli mədəniyyətin və sənətin yüksəlməsinə göstərdiyi misilsiz qayğı, xalqımızın orta əsr məişət tərzi romanda geniş epik lövhələrlə qələmə alınmışdır.

"Çaldıran döyüşü" mövzusu, məzmunu və ideyası baxımından tarixi roman janrının maraqlı nümunələrindəndir. Yazıçı əsərdə tarixi hadisələri müasirləşdirməyi, dövrün tələbləri baxımından ümumiləşdirməyi bacarmışdır. Romanda ideya-sənətkarlıq xüsusiyyətləri qabarıq, obrazlar onların psixologiyasına müvafiq işlənilmiş və mənəvi-əxlaqi məsələlərin bədii ifadəsinə xüsusi diqqət yetirilmişdir.

F.Kərimzadənin "Təbriz namusu" romanı 1989-cu ildə "Karvan" jurnalında çap olunmuşdur. Əsərin sonunda yazıçının "22 fevral-16 mart 1988-ci il. Dubultu yaradıcılıq evi" qeydi vardır. Roman zəngin həyat materialları əsasında qələmə alınmış, dövrün tarixi hadisələrinin orijinal bədii lövhəsi yaradılmışdır.

"Təbriz namusu" romanının mövzusu 1256-cı ildə Azərbaycan torpaqlarını zəbt edib qüdrətli İlxanilər, yaxud Hülakilər dövləti quraraq yetmiş doqquz il, yəni 1335-ci ilə qədər işğalçılıq siyasəti yürüdən monqolların törətdiyi ağır müsibətlərdən, dəhşətli faciələrdən və qəlbində intiqam hissi gəzdirən bir xalqın bu qanlı taxt-taca necə son qoymasından götürülmüşdür.

Romandakı hadisələr iki xətt üzrə inkişaf etdirilir. Birinci xətt monqol dövlətinin banisi, sərkərdə Çingiz xanla, ikinci xətt isə Əbu Səid xan və onun əmir-əl-ümərası vəzifəsini icra edən Əmir Çobanın apardığı siyasi, hərbi mübarizələrlə bağlıdır. Bu xətlər üzrə cərəyan edən hadisələr zaman etibarı ilə bir-birindən uzaq məsafədə olsa da, mahiyyətcə bir-birini tamamlayır. Çingiz xan dövründə baş verən hadisələrlə Əbu Səid xan dövründəki hadisələri eyni ideya birləşdirir. Yəni Hülakilər – İlxanilər dövlətinin qüdrətini, onun əhatə etdiyi əraziləri qan tökməklə də olsa, qoruyub saxlamaq fikri əsər boyu inkişaf etdirilir. Roman iyirmiyə qədər kiçik fəsillərdən ibarətdir. Bununla belə hadisələr vahid bir nöqtədə birləşərək bütövlük yaradır.

Əsərdə hadisələrin daha dramatik, gərgin və təsirli verilməsində bir sıra obrazların rolu mühüm əhəmiyyət kəsb edir. Çingiz xan, Əbu Səid xan və onun əmiri Əmir Çoban belə obrazlardandır.

Romanda iki xətt üzrə inkişaf edən hadisələrin birincisi Çingiz xanın siyasi və hərbi fəaliyyəti ilə əlaqədardır. O, ağıllı, uzaqgörən və müdrik siyasətçi, igid və yenilməz bir sərkərdə kimi təsvir olunmuşdur. Vahid monqol dövlətinin yaradıcısı olan bu tarixi şəxsiyyətin obrazı hərtərəfli və inandırıcı şəkildə qələmə alınmışdır. Yazıçı gələcəkdə Çingiz xan adı ilə tanınacaq Teymurçinin dünyaya gəlişini yüksək sənətkarlıqla mənalandırır. Şaman baba Yesugey bahadıra "Oğlun dünyaya ovcu dolu qanla gəlib. O, qanlı yolla da olsa, dünya hökmdarının taxt-tacına yetişəcək", – deməsilə onun sonrakı taleyi haqqında oxucuda müəyyən rəy yaratmış olur. Doğrudan da, Çingiz xan atası Yesugey bahadırın ölümündən sonra monqol torpaqlarını ömrünün sonuna qədər qılınc gücünə, qan tökməklə qoruyub saxlayır.

Yazıçı Çingiz xanın əzəmətini, böyüklüyünü göstərməklə yanaşı, obrazın xarakterindəki mənfi cəhətləri də verməyə çalışmışdır ki, bu da onun təbii, real və inandırıcı olmasına imkan yaratmışdır.

72 yaşlı Çingiz xan hakimiyyəti oğlu Uqedeyə vəsiyyət edib özünün ölüm xəbərini hələlik gizli saxlamağı tapşırdı. Oğlu carçı vasitəsilə bütün şəhər əhlini çağırıb meydana topladı və onları qılıncla doğradılar. Hər tərəf günahsız insanların al qanına boyandı. Ona görə ki, onlar Çingiz xanın ölümündən xəbər tutmamalıydılar. "Dünyaya ovcunda bir parça qanla gələn Çingiz xan dünyadan da qan gölünün içindən keçib gedirdi".[1]

Romanda Əbu Səid xanla bağlı hadisələrə daha geniş yer verilmişdi. Dinamik obraz kimi verilən Əbu Səid xan hadisələrin mərkəzində dayanır. O öz hakimiyyəti dövründə ulu babası Çingiz xanın, atası Xudabəndə Olcaytunun ələ keçirdikləri torpaqları qorumaq və hakimiyyəti möhkəmləndirmək üçün hər cür tədbirə əl atır, mümkün ola biləcək vasitələrdən istifadə etməyə çalışır. Əbu Səid xan azyaşlı (12 yaş) olduğuna görə düzgün mühakimələr yürütmək, uzaqgörən siyasət yeritmək bacarığına malik deyil. Məhz buna görə də ciddi səhvlərə yol verir. Onun ilk səhvi Əmir Çobana qarşı münasibətdə qabarıq şəkildə nəzərə çarpır.

Əsərdə Əbu Səid xan bacarıqsız, hərdəmxəyal və yüngül əxlaqlı bir hökmdar kimi təsvir edilir. Onun eyş-işrət həvəsliyi və xarakterindəki yüngüllük Əmir Çobanın qızı Bağda xatuna olan münasibətdə də üzə çıxır. Evli qadını zorla hərəmxanasına gətirməyə çalışan Əbu Səid bu yolda Əmir Çobanın nəslini tamamilə məhv edir, lakin istəyinə nail ola bilmir. Təmizlik və paklıq mücəssəməsi olan Bağda xatunun ağıllı tədbiri sayəsində Əbu Səid xan özü də məhvə məhkum olur. Bağda xatun əsərdə həm də Azərbaycan xalqını monqol əsarətindən qurtaran qəhrəman bir qadın səviyyəsinə yüksəlir. Onun uzaqgörənliyi və bacarığı sayəsində İlxanilərin hakimiyyətinə son qoyulur. Bu, tarixi bir qələbə idi. Saysız-hesabsız insan qanı üzərində qurulan

[1] Fərman Kərimzadə. Təbriz namusu. "Karvan", ikinci kitab, 1989, s.54

və möhkəmlənən İlxanilər dövləti Əbu Səid xanın şəhvani ehtiraslarının qurbanı olaraq süquta uğrayır.

Romanda əsas, aparıcı və yaddaqalan obrazlardan biri də Əmir Çobandır. O, hələ Arqun xan dövründə baş əmir vəzifəsinə yüksəlmiş, Əbu Səid zamanında isə onun azyaşlı olmasına görə əslində ölkəni özü idarə etmişdi. Əmir Çobanın ömrü boyu İlxanilərə sədaqətlə qulluq etməsi əsərdə səmimiyyətlə etiraf edilir.

Yazıçı bütün ömrünü yadelli işğalçılara, Əbu Səid xanədanına xidmətdə keçirib bunun müqabilində özünün və oğlanlarının ölümü ilə üzləşən Əmir Çobanın timsalında dəhşətli fəlakətlərlə üzləşən Azərbaycan xalqının tarixi faciəsinin əsas səbəblərini ustalıqla açа bilmişdir. Əsərdə özgəyə qulluq göstərməyin acınacaqlı nəticələri ürək ağrısı ilə, yanıqlı və təsirli bir dillə ifadə olunur.

Əbu Səid səltənətində baş əmir işləyən Əmir Çoban İlxanilər dövlətinə xidmət etsə də, azərbaycanlı olduğunu yaddan çıxarmır və axırda özünün və xalqının namusunu, şərəfini və ləyaqətini qorumaq yolunda ömrünü fəda edir. Yazıçı əsər boyu bu ideyanı əsas götürmüş, irəli sürdüyü məqsədinə müvəffəqiyyətlə nail ola bilmişdi.

Romanda maraqlı və yaddaqalan qadın surətləri də vardır. Çingiz xanın ulu nənəsi Alan Qoa, arvadı Borte-Fucin, Əmir Çobanın arvadı Düləndi xatun, qızları Bağda və Sara xatun, Əbu Səidin bacısı Sati bəyim, Teymurtaşın arvadı Dilşad xatun və başqa surətlər vasitəsilə yazıçı bir-birinə bənzəməyən, müxtəlif taleli və fərqli dünyagörüşə malik qadın obrazları silsiləsi yaratmışdır.

Fərman Kərimzadənin 1988-ci ildə, vəfatından azca əvvəl bitirdiyi və Qarabağın tarixinə həsr etdiyi "Qoca qartalın ölümü" romanının çap olunmasını "Karvan" jurnalının redaksiya heyəti vəd etmişdi. Həmin vədinə sadiq qalan redaksiyanın əməkdaşları romanı jurnalın 1991-ci il 22-23-cü sayında çap etmişlər.

Romanın proloqunda məzmun və ideyanın əsas qayəsi açıqlanır. Qoca qartal öz-özünə pıçıldayır: "Bu dağların arasında mən indiyə qədər bir-birinə düşmən olanları görməmişəm. Yəqin ki, elə onlar da qardaşdı"[1]. Romanda müxtəlif fəsillər yoxdur. Hadisələrin inkişafı bir qayda olaraq ardıcıl verilir, bir-birini tamamlayır. Hadisələr Qarabağda cərəyan edir. Əsərdə iştirak edənlərin əksəriyyəti tarixi şəxsiyyətlərdir.

"Qoca qartalın ölümü" romanının mövzusu XVIII əsrin 50-ci illərində ayrı-ayrı xanlıqlardan ibarət olan Azərbaycanın məhvinə çalışan İran, Rusiya və gürcü çarlığının işğalçılıq siyasətindən və xanlıqların çətin anda birləşərək ümumi düşmənə qarşı birgə mübarizəsindən götürülmüşdür.

[1] Kərimzadə Fərman. Qoca qartalın ölümü. "Karvan", 1991, №22-23, s.71

F.Kərimzadə əsərdə "Xudafərin körpüsü" və "Çaldıran döyüşü" dilogiyasında, eləcə də "Təbriz namusu" romanında da irəli sürdüyü və bütün yaradıcılığı boyu inkişaf etdirdiyi vahid, qüdrətli milli dövlətin yaradılması və qorunub saxlanması, bu ideyanın həyata keçirilməsi üçün xanlıqlar arasında birliyin, dostluğun bərqərar olması fikrini irəli sürmüşdü. Romanda əsası Şah İsmayıl Xətai tərəfindən qoyulan Azərbaycanın bölünməzliyi, güclü və yenilməz bir dövlətə çevrilməsi problemi tarixi faktlara istinad edilərək bədii şəkildə ümumiləşdirilmiş, canlı obrazlar vasitəsilə oxuculara çatdırılmışdır. Yazıçı "Qoca qartalın ölümü" romanında Azərbaycan xalqının həyatında mürəkkəb ictimai-siyasi hadisələrlə zəngin olan bir dövrü əks etdirir. Müəllif romana bu adı təsadüfən verməmişdir. Əsərdə "qartal" sözü həm həqiqi, həm də məcazi, rəmzi mənada işlənilmişdir. Romanda "qoca qartal" sözünün əsl mənasını əsərin mahiyyətinə vardıqca daha aydın dərk etmək mümkündür. Əsərdə ilk baxışdan qartal haqqında söhbət getsə də, əslində yazıçı burada üç yüz ilə qədər hökmranlıq etmiş Romanovlar sülaləsini, rus imperiyasını nəzərdə tutur. Azərbaycanın müstəqil bir dövlət kimi formalaşmasını istəməyən imperiyanın hökmranlığı və ayrı-ayrı xanların öz mənafelərini daha yüksək tutması bu dövlətin uzun müddət qurulmasına mane olmuşdur. Azərbaycan üzərində ağalıq iddiasında olan Rusiya "parçala və hökm sür" siyasətini həyata keçirərkən Azərbaycanın daxilindəki qüvvələrdən, xüsusilə bir neçə yerə parçalanmış xanların mənsəbpərəstliyindən məharətlə istifadə edirdi. Çünki vahid Azərbaycan dövlətinin yaranması Rusiya üçün sərfəli deyildi. Əsərdəki hadisələr əsasən Qarabağ xanlığı ilə bağlı olsa da, yazıçı daha geniş mənada Azərbaycanın gələcək taleyindən söhbət açır və bütün hadisələrin idarəedicisi olan imperiyanın törətdiyi oyunlardan açıq-aşkar bəhs etmir, çünki Rusiya "görünməz bir əl" kimi öz siyasətini gizli həyata keçirir. Lakin dərindən təhlil apardıqda belə yəqin etmək olur ki, "cavan qartal"ları, yəni beş Azərbaycan xanlığını bir-birinin üzərinə qaldıran da, onların öz əlləriylə özlərinin məhvinə çalışan da fitnə-fəsad yuvası olan "qoca qartal"dır. İstədiyi niyyəti baş tutmayan "qoca qartal" beş "cavan qartal"ın birləşməsi xəbərindən sonra məhz özü məhvə məhkum olur: "Qoca qartala xəbər gətirdilər ki, beş qoşun birləşdi. Bir qoşunsa aradan çıxdı... Qoca qartalın gözlərindəki parıltı itdi. Göz qapaqları endi, qanadları sallandı".[1]

Əsərin əsas qəhrəmanı Pənah xandır. Romanda cərəyan edən hadisələr onun fəaliyyəti ilə bağlıdır. Əsərdə Pənah xan savadlı, bilikli, təcrübəli, ağıllı və müdrik siyasətçi kimi təqdim olunur.

Yazıçı "Qoca qartalın ölümü" romanı üzərində işləyərkən "Qarabağ-namələr"i diqqətlə nəzərdən keçirmiş, tarixi hadisələri məntiqi ardıcıllıqla,

[1] Fərman Kərimzadə. Qoca qartalın ölümü. "Karvan", 1991, №22-23, s.111

inandırıcı və təsirli şəkildə qələmə almışdır. Azərbaycanın müstəqil bir dövlət kimi formalaşmasını istəməyən imperiyanın hökmranlığı və ayrı-ayrı xanların öz mənafelərini daha yüksək tutması bu dövlətin uzun müddət qurulmasına mane olmuşdur.

Romanda Qarabağ xanlığının əsasını qoyan Pənahəli xanın həyat yoluna tarixi hadisələrin əsasında diqqətlə nəzər salınır, müşahidələr, axtarışlar aparılır, ümumiləşdirmələr yaradıcılıq süzgəcindən keçirilir və belə bir qənaət əldə edilir ki, qəhrəmanlar ölmür, əbədiyyətə qovuşur, ölümsüzlük zirvəsinə yüksəlirlər.

"Qoca qartalın ölümü" romanındakı hadisələr Azərbaycan xalqının XX əsr boyunca üzləşdiyi problemlərlə yaxından səsləşir. Çünki rus imperiyasının, erməni vandalizminin əsrlər boyu davam edən işğalçılıq siyasəti və ölkədə hökm sürən daxili parçalanma xalqımız üçün fəlakətlər gətirmiş, torpaqlarımızın işğalına, günahsız insanların məhvinə və qaçqın düşməsinə səbəb olmuşdur. Əsərdə belə bir ideya təlqin edilir ki, vətənin və torpağın bölünməzliyini, bütövlüyünü o zaman qorumaq mümkündür ki, orada mənəvi birlik olsun.

Əsər insanı dərindən düşünməyə sövq edən bir sonluqla bitir: "Göydən fırlana-fırlana yerə doğru enən lələləri görəndə hər dəfə qoca qartalın ölümü yada düşür. Odur ki, heç kim indiyə qədər qartalın ölüsünü görməyib. Görməyəcək də".[1] Doğrudan da, Qarabağın, bütövlükdə Azərbaycanın başına gətirilən fəlakətlər, qırğınlar yazıçının qeyd etdiyi kimi, "qoca qartal"ın ölmədiyini göstərir.

F.Kərimzadənin romanları ideya-üslub axtarışları, fikir zənginliyi, dərin müşahidələri və inandırıcı qənaətləri ilə fərqlənir.

F.Kərimzadə nəsrində fikri dərinlik, tarixi hadisələrə obyektiv baxış, varlığı əhatəli inikas qüvvətlidir. Onun tarixi romanlarında xalq həyatının dərinlikləri, tarixi şəxsiyyətlərin ictimai-siyasi hadisələrin gedişində hərtərəfli aparıcı rolu inandırıcı ifadəsini tapmışdır.

Yazıçı tarixi romanlarında xalqın qəhrəmanlıqlarla dolu keçmişini, vətənin azadlığı uğrunda mübarizələrini, dövrün əsas ideallarının carçısı olan tarixi şəxsiyyətlərin kamil bədii obrazlarını real və inandırıcı şəkildə canlandırır.

Fərman Kərimzadə romanlarında tarixə sədaqət və yüksək bədiilik prinsipinə əsaslanaraq məzmun və ideyanı zənginləşdirir, onların tərbiyəvi təsir gücünü qüvvətləndirir. Onun uşaqlıq illərini keçirdiyi, böyüdüyü və işlədiyi coğrafi, ədəbi-bədii mühiti obyekt seçməsi, zəngin təbiət təsvirləri verməsi, xalq yaradıcılığı nümunələrinin nadir incilərindən səmərəli istifadə etməsi əsərlərinin ideya-tərbiyəvi təsirini daha da artırır.

[1] Fərman Kərimzadə. Qoca qartalın ölümü. "Karvan", 1991, №22-23, s.111

Fərman Kərimzadənin zəngin və çoxəsrlik Azərbaycan ədəbiyyatının 1960-cı illər mərhələsinin forma və məzmunca zənginləşməsində böyük xidmətləri vardır. Yazıçı orijinal nəsr əsərləri, dövrün nəbzini tutan maraqlı hekayə, povest və romanları ilə ədəbiyyatımıza yeni düşüncə tərzi, forma və məzmun əlvanlığı, sadə və anlaşıqlı təhkiyə üslubu, böyük tarixi şəxsiyyətlərin ölməz ədəbi obrazlarını gətirmişdir. Onun Azərbaycan ədəbiyyatının inkişafında böyük təkamülə səbəb olan, tarixilik və müasirliyin vəhdətindən yaranan beş tarixi romanı xalqımızın mübarizələrlə keçən böyük ictimai-siyasi və sosial həyatının maraqlı və əhəmiyyətli salnaməsidir.

SABİR AZƏRİ
(1938-2010)

Azərbaycan ədəbiyyatının tanınmış simalarından biri olan Sabir Azəri yazıçı, publisist, həm də tərcüməçi kimi fəaliyyət göstərib. Əsasən hekayə, povest və romanlar yazan Sabir Azərinin Azərbaycan nəsrində özünəməxsus yeri vardır.

Həyatı. Sabir Əli oğlu Azəri (Sabir Tatlıyev) 1938-ci il martın 22-də Ağstafa rayonunun Dağkəsəmənli kəndində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra ADU-nun (indiki BDU) Filologiya fakültəsinin jurnalistika şöbəsində təhsil almış (1956-1961), sonra "Azərbaycan gəncləri" qəzeti redaksiyasında ədəbi işçi, Dövlət Radio və Televiziya Verilişləri şirkətində redaktor, "Ədəbiyyat və incəsənət" qəzeti redaksiyasında şöbə müdiri, "Ulduz" jurnalında nəsr şöbəsinin müdiri, baş redaktor müavini vəzifələrində çalışmışdır (1961-1993). Ədəbi fəaliyyətə tələbəlik illərində başlamışdır. "Nişan üzüyü" (1969), "Kar qaya" (1972), "Gecə məşəl yanır" (1977), "Duman çəkilir" (1979), "Ovçunun xatirələri" (1981), "Dalanda" (1984), "Günəşə sarı gedəndə" (1988) və s. kitabları nəşr olunmuşdur. Əsərləri xarici dillərə tərcümə olunmuşdur.

Sabir Azəri 28 yanvar 2010-cu ildə Bakı şəhərində ürək xəstəliyindən vəfat etmişdir.

Yaradıcılığı. Altmışıncı illərdə ədəbiyyata gələn Sabir Azəri ədəbi nəsil etibarilə həmin onilliyin yetirməsidir. Yusif Səmədoğlu, Anar, Elçin, İsi Məlikzadə, Maqsud İbrahimbəyov, Fərman Kərimzadə, Əlibala Hacızadə, Əkrəm Əylisli ilə bir sırada Sabir Azərinin də həmin ədəbi nəsil içərisində öz yeri, öz mövqeyi var. S.Azəri özünəməxsus yazı manerası, fərdi dəst-xəti, orijinal deyim tərzi ilə seçilir. Bəs bu özünəməxsusluq nədən ibarətdir?

Biz yalnız bircə sözün üzərində dayana bilərik – təbiilik. Bəli, Sabir Azərinin bütün nəsr əsərləri belə bir qaynaqdan bəhrələnir, güc alır. Onun təsvir etdiyi qəhrəmanlar müsbət, ya mənfi səciyyəsindən asılı olmayaraq, təbii təsir bağışlayırlar. Hər bir obraz öz həyat tərzi, düşüncəsi, gerçəkliyə, insanlara məxsusi münasibəti ilə seçilir. Onlar adi adamlardır, amma bu adilikdə qeyri-adilikləri üzə çıxır. Təbiilik reallıqla bağlıdır və Sabir Azəri bütün əsərlərində həyat həqiqətlərinə maksimum dərəcədə sadiq qalmağa çalışır. Yazıçı heç vaxt təsvir etdiyi obrazlara süni cizgilər, boyalar artırmır, daha çox obrazların düşdüyü şəraiti, bu şəraitdən doğan situasiyaları ön plana çəkir.

İlk növbədə onu qeyd edək ki, Sabir Azəri professional nasirdir. Onun hekayə, povest və romanları müasir Azərbaycan nəsrində özünəməxsus yer tutur. Öncə qeyd etdik ki, Sabir Azərinin məxsusi yazı tərzi, üslubu var və o, heç kəsə bənzəmir. Ədəbiyyatda elə mövzular var ki, həmin mövzulara hamı müraciət edir, amma əsl məsələ məlum mövzuda təzə söz deməkdir. Bu

mənada Sabir Azəri həmişə özünə, öz fərdi yazı manerasına, həyata, gerçəkliyə münasibətində məxsusi yanaşma tərzinə sadiq qalmışdır. Diqqət yetirsək, görərik ki, onun qəhrəmanlarının düşüncə tərzi də, həyata münasibətləri də tamamilə fərdidir.

Sabir Azəri Azərbaycan nəsrini keçmiş SSRİ məkanında ləyaqətlə təmsil edən yazıçılardan olmuşdur. Elə bircə faktı göstərmək kifayətdir: Sabir Azərinin "Dalanda" romanı Moskvada "Sovetski pisatel" jurnalında və onun əlavəsi olan "Roman-qazeta"da (1990) kütləvi tirajla buraxılmışdı, bu romanın rus dilində 3 milyon 500 min nüsxə ayrıca kitab halında nəşri əlbəttə, onun yaradıcılığına böyük marağın ifadəsi idi. "Molodaya qvardiya" və "Sovetski pisatel" nəşriyyatları da yazıçının povest və hekayələrini bir neçə dəfə kütləvi tirajla nəşr etmişdir. XX əsrin bir çox ictimai-siyasi hadisələri, xüsusilə İkinci Dünya müharibəsindən sonra keçdiyimiz həyat yolu, bu yolun məhrumiyyət və acıları, insanın mənəvi dünyası və əlbəttə, bütün bu hadisələrə və olaylara həssas yazıçı münasibəti onun əsərlərində də öz əksini tapmışdır. Ancaq Sabir Azərinin fərdi yazıçı mövqeyini müəyyənləşdirərkən, bircə amili vurğulamaq yerinə düşərdi. O, əsərlərində həyatdan, gerçəklikdən gəlməyən hadisələrə və obrazlara üz tutmamışdır. Nümunə üçün öncə onun "Bozdağın nağılı" povestinə müraciət edək. Bu əsərdə adi bir insanın – qoruqçu İsa kişinin mənəvi aləmi, təmiz insani hissləri işıqlandırılmışdır. Bu adam qayğılar içində üzür, amma heç bir zaman həyata, insanlara inamını itirmir. O hər gün məktəbli Kamandara "Koroğlu" dastanından parçalar söyləyir, uşağın qəlbində qəhrəmanlığa, gözəlliyə məhəbbət hissləri oyadır. İsa təmiz adamdır və yazıçı sona qədər bu təmizliyi, saflığı ondan əksiltmir. İsanın tamam əksi isə "real həyat adamı" Kosadır. İsa da, Kosa da elə bil nağıl dünyasından qopub gəliblər. Belə ki, İsa nə qədər sadə, mərd, ürəyiaçıq bir insandırsa, Kosa onun əksinədir, onun zahiri yazıqlığı altında bic və hiyləgər, məqamı gələndə dişlərini qıcıdan bir canavar xisləti dayanıb. Kosa romantik xəyallarla yaşamır, Koroğlu dünyası ona yaddır. O, həyatın adilikləri içərisində batıb-qalan, yalnız gündəlik qayğılarla yaşayan bir adamdır, ən böyük arzusu sonuncu qızına yaxşı cehiz düzəldib yola salmaqdır. Belə məqamlarda biz onu bir ata kimi başa düşürük, ancaq elə ki, onun başqalarına münasibətində xəbisliyini hiss edirsən, onda əsl sifətini də görə bilirsən. İsanın məqsədi Kosanı mənən sındırmaq, əymək, qürurunu heçə endirməkdir, o istəyir ki, İsa da onun kimi olsun, nağıllar aləminə uymasın, buna görə də "Koroğlu" dastanı adlı kitabı oğurlatdırır. Amma bununla da ürəyi soyumur, Bozdağı kotan ağzına verdirir. Ancaq Kosa dərk eləmir ki, İsa kimi insanları bu vasitələrlə susdurmaq, onları əymək, sındırmaq, Koroğlu dünyasından ayırmaq mümkün deyil.

Sabir Azərinin povest və romanlarında kəskin münaqişə doğuran konfliktlər, dolğun xarakterlər və əvvəldən axıradək tədrici inkişaf xətti ilə şərtlənən süjet xətti diqqəti cəlb edir. Qeyd edək ki, bu povest və romanlarda

təsvir olunan məkan kənddir. Sabir Azəri bir nasir kimi kəndi yaxşı bilir desək, səhv etmərik, çünki təsvirlərdən də aydın görsənir ki, o, kənd adamının psixologiyasını incəliyinədək duyur, kənd təbiətini çox gözəl bilir, kənddə cərəyan edən hadisələrin mahiyyətinə vara bilir. Götürək "Duman çəkilir" povestini – burada iyirminci illərin mürəkkəb hadisələri canlandırılır. Kənddə Sovet hakimiyyəti qurulur, bəylərin torpaqları əllərindən alınır, onlar sinfi düşmən elan edilir, bəziləri başını götürüb İrana, Türkiyəyə qaçır, bəziləri isə dağlara çəkilir, təzə hökuməti qəbul etməyərək, mübarizəni davam etdirirlər. Cəlil bəy isə bir müddət abırına qısılıb kənddə qalır, torpaqları əlindən alınsa da, hər şeyə dözür, ancaq elə bir məqam yetişir ki, daha dözə bilmir, çünki gədə-güdələrə, bəylərə, varlılara qarşı içi nifrətdən aşıb-daşan adamlar onun insanlıq qürurunu tapdalayır, təhqir edirlər. Cəlil bəy də keçmiş nökərlərinin bu azğınlığına dözmür, kənddən qaçır, amma heç kimə ziyanlıq da yetirmir. Yeri gəlmişkən qeyd edim ki, "Duman çəkilir" povesti Azərbaycan nəsrində uzun müddət sinfi düşmən kimi təsvir edilən bəylərin üzərindən duman çəkildiyi, onların sinfi mənsubiyyətinə görə deyil, insan kimi canlandırılmasının ilk nümunələrindən biridir. İsmayıl Şıxlının "Dəli Kür", Fərman Kərimzadənin "Qarlı aşırım" və bir çox başqa əsərlərlə yanaşı, Sabir Azərinin "Duman çəkilir" povesti də obrazı ilk növbədə mürəkkəb daxili aləminin təsiri ilə göz önünə gətirir, onu bəy və ağa kimi ifşa etmək deyil, bir insan kimi kəşf etmək məqsədini güdürdü.

Cəlil bəy, heç şübhəsiz, o dövrün "təlimi"nə görə sinfi düşmən idi. O, heç cür torpaqlarının əldən getməsi, malikanələrində gədə-güdələrin at oynatması və hökmranlığı ilə barışmaq istəmir: "Cəlil bəy əllərini göyə qaldırdı: "Yarəbbi, ömrümdə sənə şəkk gətirməmişəm, indi gətirirəm, Əgər varsansa, niyə göstərmirsən gücünü? Niyə yerlə yeksan eləmirsən bu Ağqoyunlu kəndini? Niyə başlarına ildırım yağdırmırsan mənim çörəyimlə böyüyən, axırda da üzümə ağ olan bu nanəcib adamları? Karsan, eşitmirsən? Bəlkə, doğrudan da yoxsan".[1]

Müəllif Cəlil bəyi bu prosesdə bir bəy kimi yox, bir insan kimi izləyir, keçirdiyi hissləri, duyğuları bircə-bircə açıqlayır. Cəlil bəy hər gecə kəndin ətrafını gəzib-dolaşır, başına gətirilən müsibətləri xatırlayır, bir vaxt onun olan əkin sahələrinə baxıb qəmli xəyallara dalır. Biçənək düzündə keçmiş naxırçısı Sərxanı görür. Ömrü boyu torpaq həsrətində olan kəndçi Sərxan onu fikirləşir ki, bu torpaqda taxıl səpəcək, kartof əkəcək. Bu xəyallarda ikən Cəlil bəy mauzeri onun sinəsinə tuşlayır. Burada bir kiçik dialoqa nəzər salaq:

– "Sərxan isti, yumşaq torpaqdan bir ovuj götürdü. – Bax, bu torpaqla danışırdım. Məni qınama, a bəy, torpaqsız kəndli, ya susuz balıq, bir şeydi. Torpaq bizim tanrımızdı, qibləmizdi!

[1] Sabir Azəri. Duman çəkilir. – Bakı: Yazıçı, 1979, s.102

– Hmm. Belə de… Biçənəyim sənə halaldı, naxırçı oğlu. Çox adam müftə çörəyin qədrini bilmir, sən ki, torpağı belə istəyirsən, onu sənə halal eləyirəm, yoxsa and içmişdim ki, bu gecə qabağıma kim çıxsa it kimi gəbərdəcəm".[1]

Povest tragik sonluqla bitir. Cəlil bəy Sərxanın oğlu Səməndəri öldürəcəyinə and içmişdi. Səməndər də bunu bilirdi. Amma Səməndər yolu azıb Cəlil bəyin sığındığı komaya gələndə Cəlil bəy onu öldürmür, bunu namərdlik, el adətinə xəyanət kimi dərk edir. Amma üz-üzə gələndə hər ikisinin bir-birindən də qətiyyətli olduğu üzə çıxır. Cəlil bəy onu məcbur eləmək istəyir ki, bu sözləri desin: "mən gədə oğlu gədəyəm". Amma Səməndər bunu demir. Cəlil bəy bu inadın qarşısında sınır və düşmənini bağışlayır. Səməndər isə Cəlil bəydən bu sözləri eşitmək istəyir: "sən kişi Sərxanın oğlu kişi Səməndərsən". Cəlil bəy Səməndəri öldürür, sonra "Cəlil bəy mauzeri ağzına sıxıb tətiyi çəkdi. Və bircə andan sonra o da Səməndərin üst yanına, iki qayanın arasına düşdü, onun da gözləri açıq idi, amma Cəlil bəyin gözləri Səməndərin gözləri kimi gülüşlü deyildi, kədərliydi, böyümüşdü, qıpqırmızı olmuşdu-qanla dolmuşdu".[2]

Əlbəttə, povestin başlıca uğuru iyirminci illərin həqiqətini olduğu kimi təsvir eləməklə məhdudlaşmamalıdır, fikrimizcə, Sabir Azərinin başlıca uğurunu dolğun xarakter yaratmaqda axtarmaq lazımdır. Cahandar ağanı ("Dəli Kür"), Kərbəlayı İsmayılı ("Qarlı aşırım") hansı məziyyətlərinə görə qiymətləndiririksə, Cəlil bəyi də eyni məziyyətlərinə görə qiymətləndirməliyik. Sabir Azəri İNSAN OBRAZI yaratmışdır, bütün mürəkkəbliyi, daxili aləminin bütün ziddiyyətləri və əlbəttə, torpağa kökü bağlılığı ilə… Təfsilata varmadan və hər birinin üzərində ayrıca dayanmadan deyə bilərəm ki, yazıçının "Günəşə sarı gedəndə", "İlk təkan", "Ölə bilməyən adam", "Gecə məşəl yanır" povestlərinin, "Sonsuzluq" romanının da məhz dolğun, yaddaqalan obrazları ilə diqqəti çəkdiyini qeyd etmək istəyirik. Onu da qeyd edək ki, Sabir Azəri bütün əsərlərində həyat həqiqətlərinə maksimum dərəcədə sadiq qalmağa çalışır, həyat həqiqətini bədii həqiqətə çevirərkən uydurmaya, süni və qeyri-təbii təsvirlərə yol verməməyə çalışır, təsvir və təqdim etdiyi obrazlara fotoqraf kimi yanaşmır, onlara canlı, bizim gördüyümüz, müşahidə etdiyimiz şəkildə yanaşır. Təbii ki, burada bədii ümumiləşdirmə meyarı əsas rol oynayır. Sabir Azərinin müasir həyatdan, gerçəklikdən söz açan əsərlərində bir cəhəti də müşahidə etmişik – o da bundan ibarətdir ki, yazıçının rəğbətlə təsvir etdiyi obrazlar həmişə mənəvi işığa can atırlar, onlar yaşadıqları mühitin sıxıntılarına, boğucu havasına dözə bilmirlər. Bu nöqtədə Sabir Azəri öz ədəbi nəslinin – "altmışıncılar"ın bədii-estetik kredosunu qəbul etmiş olur.

[1] Sabir Azəri. Duman çəkilir. – Bakı: Yazıçı, 1979, s.109
[2] Yenə orada, s.111

“Sabir Azərinin ən yaxşı əsəri hansıdır?” sualı verilsə, bir çox başqaları kimi biz də “Dalanda” romanının adını çəkərik.

İnsan ömrü boyu arzulamadığı, qəlbinə, ruhuna, mənəviyyatına yad olan bir mühitdə yaşayar, lakin həmişə öz daxili təmizliyini, mənəvi saflığını saxlayar, ən çətin anlarda belə həmin saflığın, təmizliyin işığına boyanar.

Günlərin bir günü hər şeyi itirmək qorxusu altında İnsan həmin mühitdən birdəfəlik çıxıb gedir: işığa, təmizliyə, mənəvi saflığa qovuşmaq üçün.

Sabir Azərinin “Dalanda” romanının başlıca ideya-estetik qayəsi bundan ibarətdir, əsərdəki bütün hadisələr də bu qayə ilə bağlıdır. Romandakı hadisələr əsasən Bakıda – İçərişəhərdəki köhnə dalanların birində baş verir. Lakin hadisələrin cərəyan etdiyi məkan şərtidir, müəllif öz qəhrəmanlarını, onların duyğu və düşüncələrini köhnə dalanda baş verən hadisələrlə məhdudlaşdırmır. Dalanda baş verən hadisələr əslində, həyatımızda, mənəviyyatımızda cərəyan edən böyük hadisələrin əks-sədasıdır.

Müəllifin diqqət mərkəzində Qafar və onun ailəsi dursa da, əsas mətləb bu ailənin timsalında gerçəkliyin tipik və səciyyəvi cəhətləri ümumiləşdirməkdir.

Qafar kimdir? İstər həyatda, istərsə də ədəbiyyatda bu tipli insanlarla və obrazlarla çox qarşılaşmışıq. Onlar şəhərdə ömür sürsələr də, buranın mənəvi iqliminə alışa bilmirlər, çaşıb qalırlar, sonra da kor-peşman kəndə üz tuturlar. Qafar da belələrindəndir. Ancaq təbii ki, onu başqalarından fərqləndirən bir xüsusiyyəti qeyd etmək olar – o da bundan ibarətdir ki, Qafarın səhvlərini bilə-bilə, dərk edə-edə yaşamasıdır. Qafar çox dözümlü insandır. Bu dözüm və səbr isə onun başına nələr gətirmir. Qafar elə bu dözümlə arvadı Fəridənin dözülməz “fəlsəfəsinə”, davranış və rəftar tərzinə qarşı uzun müddət müqavimətsiz yaşayır, həmişə belə hesab edir ki, Fəridə bir gün ağıllanacaq, ailənin maddi imkanlarını nəzərə alıb böyük şeylərin davasını aparmayacaq.

Evdə, ailədə özünü təmkinli aparan, arvadının mənəvi zülmünə tab gətirən Qafar iş yerində – tikinti sahəsində tamamilə başqa adamdır; o, hər cür əliəyriliyə, bürokratizmə, yarıtmazlığa qarşı kəskin mövqedə dayanır. Romanda Qafarın mübariz keyfiyyətləri ilə bağlı səhnələr az deyil və bu da onu göstərir ki, Sabir Azəri öz qəhrəmanını birtərəfli, sxematik, eyni rəngli təsvirdən çəkinmiş, obrazı bütöv verməyə səy göstərmişdir.

Tikintidə işləməmişdən əvvəl Qafarın ən böyük arzusu elmi işçi olmaq, namizədlik dissertasiyası müdafiə etmək idi. Lakin Qafar bu arzusuna çata bilmir, elmi rəhbəri ona istiqamət verməkdənsə, evinin işlərini gördürür, bazarlığa yollayır, mənliyini təhqir edir. Qafar da buradan qaçmalı olur. Ümumiyyətlə, müəllif öz qəhrəmanını sona qədər belə təmiz və işıqlı göstərir. Qafar həm öz ailəsində – arvadının mənəvi zülmünə tab gətirə-gətirə, onun deyinmələrini eşidə-eşidə, həm də işlədiyi yerdə hər cür haqsızlığa sinə gərə-gərə mənliyini, ləyaqətini, mənəvi saflığını qoruyur. Qəza hadisəsindən sonra

həkim ona deyir: “Emosiyadan özünüzü qoruyun. Hər halda iki şeydən birini seçməlisiz: ya emosional olub az yaşamağı, ya da emosiyadan əl çəkib uzun ömür sürməyi”.

Lakin Qafar kimilər emosiyasız yaşaya bilməzlər. Baş verən qəza hadisəsi Qafarın gözlərini açır, onda arvadı Fəridəyə qarşı münasibətlərində tam aydınlıq yaranır. Əslində, qəza Qafarın içində baş verir, o, qəti qərara gəlir ki, bu tragik vəziyyətə son qoysun. Vaxtilə, o, gənclik hisslərini ayaqlayaraq tanımadığı, xasiyyətinə bələd olmadığı, yalnız gözəlliyinə vurulduğu Fəridə ilə evlənmişdi, elə bu səbəbdən kəndindən, yaxın adamlarından, doğmalarından, ilk sevgisindən ayrı düşmüşdü. Qəza hadisəsindən sonra …sağaldıqda … Qafar bir daha bu evə ayaq basmır, kəndə, ata-baba yurduna üz tutur. Əlbəttə, Qafarın evdən çıxıb getməsinin çox incə, psixoloji cəhətdən tutarlı bir səbəbi də var: Fəridənin birinci əri üçün qara geyib yas saxlaması, hətta qəbiristanlıqda onun məzarı yanında özünə yer hazırlatması Qafara məlum olduqda o artıq bu ailə ilə bağlı son ümidlərini də dəfn edir.

Fəridə də bir obraz kimi təbii və inandırıcı verilmişdir. Onun da özünə görə faciəsi və günahı var. Faciəsi odur ki, işıqsız, idealsız yaşayır. Bu cür yaşamaq, başqaları ilə istədiyi kimi rəftar eləmək, heç kimlə hesablaşmamaq, mümkün qədər çox qoparmaq onun həyat məqsədini də müəyyənləşdirir. Günahı da odur ki, təmiz bir insanın həyatını heçə sürükləmək istəyir. Amma oxucu bu qadına mənfi münasibət bəsləmir, çünki Fəridənin təbiəti əzəldən belə yoğrulub. Romanda Qafar və onun mühiti nisbətən zəif nəzərə çarpırsa, əksinə, Fəridənin mühiti daha dolğun və əhatəli təsir bağışlayır. Qəza hadisəsi ilə əlaqədar romana Mürşüdovlar xətti də əlavə olunur. Mürşüdovlar varlı-karlı insanlardır, istədikləri kimi yaşayırlar, onlar hər tərəfə qol-budaq atmışlar, zəngin və dəbdəbəli həyat tərzi keçirirlər, qarşılarına xoşagəlməz bir hadisə çıxanda vəziyyətdən qurtulmağı da ustalıqla bacarırlar. Ancaq bu adamlar mənəvi işıqdan məhrumdurlar.

Sabir Azərinin “Günəşə sarı gedəndə” povestində sonda belə bir səhnə var: əsərin qəhrəmanı Mustafa qamışlıqda yolunu azır, ölümünün yaxınlaşdığını hiss edib adamları köməyə çağırır.

“Qamışlıq seyrəlirdi. Mustafa bir ovçu gördü. Ovçu əllərini iki tərəfdən ağzının yanlarına tutub qışqırırdı:

– Ayə, Günəşə sarı gəl! Günəşə sarı! Günəşə sarı!

– Gəlirəm, qardaş, Günəşə sarı gəlirəm”

Sabir Azərinin günəşə doğru can atan qəhrəmanları həmişə bu məramla yaşamışlar ki, insan heç bir zaman işıqsız, nursuz yaşaya bilməz. Günəşə sarı getmək insanlığını, təmizliyini, mənəvi saflığını, işıqlı həyat idealını qorumaq deməkdir. Sabir Azərinin bir yazıçı kimi uğurları da bu mənəvi işığı əsərlərində yaşatmaq və qorumaqdır…

РЕЗЮМЕ

Со второй половины XX века, в советском обществе формируется новая социально-политическая система, характеризовавшаяся осуждением преступлений репрессивного сталинского режима, развенчанием культа личности Сталина, относительным смягчением жёсткого идеологического климата в стране. Изменение идеологической атмосферы, получившее название «оттепель», естественно, отразилось на развитии многих сфер общественного сознания, прежде всего литературы и искусства, в истории которой особый этап становления приходится на 1960-1980-е годы.

Как и в других литературах советской страны, в азербайджанском литературном процессе появление известной волны литературного поколения «шестидесятников» по сути явилось началом возвращения движения к национальным корням, от «идеологической эстетики» к ценностям художественного сознания.

Понятно, что от литературы, в том числе поэзии, освободившейся от прокрустова ложа идеологического диктата, требовались новые художественные критерии для отображения изменившейся действительности, плодотворные поиски в создании образов героев в плане их участия в построении общества, отрешившегося от античеловеческого режима.

Поэзия 1956-1980-х годов создавалась новым поколением, среди форвардов которого значились такие имена, как Бахтияр Вагабзаде, Халил Рза, Наби Хазри, Мамед Араз, Габиль, Джабир Новруз, Нариман Гасымзаде, Фикрет Годжа, Вагиф Самедоглу, Фикрет Садых, Муса Ягуб, Алекбер Саламзаде, Мастан Гюнер, Али Керим, Ариф Абдуллазаде, Мамед Аслан.

В поэтическом процессе рассматриваемого периода выделялись два условных направления в стихотворчестве:

– поиски синтеза традиции и новых качественных изменений в поэзии;

– поиски формальных новаций, введения в поэтический обиход нетрадиционных выразительных форм.

Ещё в 60-е годы обращают на себя внимание такие выразительные новшества, как: а) стилевой лаконизм (как в традиционной хеджа, так и свободном стихе), что отчасти связано с влиянием современной турецкой поэзии; б) трансформация лирического «я» в плане конкретной содержательно-поэтической выразительности.

В целом новизна в движении поэзии рассматриваемого периода связана как с идейно-тематическим содержанием, так и формально-

выразительными аспектами: стилевыми, ритмико-интонационными особенностями.

Одной из важнейших заслуг литературного поколения шестидесятников, по справедливому мнению одного из их известных представителей – поэта Евгения Евтушенко, следует считать трансформацию поэтического «мы» в лирическое «я». Речь идёт о разрушении культа поэтического «мы» с выступлением на арену поэзии лирического «я». В образцах лирики Мамед Араза, Халил Рза, Али Керима, Фикрета Годжа и других поэтов-новаторов звучало также желание их авторов выразить и индивидуальные стремления, глубинные желания лирического «я». Юный лирический герой впервые имел возможность обратиться к своему читателю, десятилетиями мечтавшему о духовной свободе, возможности открыто услышать выражение своего отношения к действительности, своих интимных чувств.

В поэзии 60-х годов как начала нового периода, особого внимания заслуживают новаторские открытия таких мастеров слова, как Расул Рза, Иса Исмаилзаде, Фикрет Годжа и др. Наиболее ярко новая философская поэтическая концепция в эволюции национальной поэзии выражена в творчестве Расула Рзы. Причём новаторство поэта выражалось не только в виртуозном использовании свободного стиха, но и внедрении данного способа интонационно-ритмического выражения поэтической мысли на уровне плодотворной традиции, которая была успешно использована в творчестве многих молодых поэтов (Вагиф Самедоглу, Алекбер Саламзаде, Иса Исмаилзаде, Вилаят Рустамзаде, Фикрет Годжа и др.). Весьма определённую роль в этих новаторских исканиях играла и турецкая поэзия (Назым Хикмет и др.).

В 1970-80-е годы, наряду с продолжением определённого влияния турецкой поэзии с её глубоким проникновением в человеческую душу, обращает на себя внимание и стремление некоторых поэтов (В.Бахманлы и др.) дистанцироваться от этого воздействия в поиске выбора индивидуального отношения к действительности: так называемого «внезапного озарения», рождающего соответствующие текстовые структуры, систему рифм, фольклорно-дастанные интонации. В фольклорных стилизациях выделялись две тенденции: 1) глубинная поэзия эпического контекста; 2) непосредственная поэтическая «презентация» эпического текста. В то же время в целом ряде поэтических поисков наблюдается тенденция мировой поэзии.

Нусрет Касеменли, Сабир Рустамханлы и Зелимхан Ягуб относятся к литературному поколению «семидесятых», а Рамиз Ровшан – к литературному поколению «восьмидесятых».

Наряду с общими тенденциями в движении поэзии, каждого автора отличает индивидуальный стиль – в отношении характера лирического героя, доминирующего мотива, нравственных оппозиций, модернистских тенденций (Р.Ровшан, В.Баятлы, В.Самедоглу, А.Мирсеид и др.), Разумеется, в этих поисках особое место принадлежит индивидуальному подходу к возможностям языка, творческому использованию его метафорического, ритмического потенциала.

Новое звучание обретает тема Южного Азербайджана, берущая начало с 1940-х годов («Тоска моста» С.Вургуна, «Тебриз мой» С.Рустама). Начиная с 1960-х годов художественное воплощение этой темы, с новой силой зазвучавшей в свободном стихе таких поэтов как Р.Рза, М.Араз, Н.Гасанзаде, Халил Рза, С.Тахир, Б.Азероглу, М.Гюльгюн, А.Тудэ, точнее, оказало определённое воздействие на форму стихов, созданных на Юге (интонационно-стилевые параллели). Наиболее яркое воплощение получила эта тенденция в творчестве Мамедгусейна Шахрияра, Габиба Сахира, Саханда. Так, поэма Мухаммед Хусейна Шахрияра «Приветствие Гейдар-бабе» открыла новые горизонты для воспевания народной жизни и национального духовного наследия в азербайджанской поэзии. В стихах Габиба Сахира, созданных в размере свободного стиха, в особенности в «Песне Отчизны», можно наблюдать следы верлибра Р.Рзы. В стихах поэта доминируют тематические мотивы: Азербайджан, Родина-мать, родная природа. В отличие от Сахира, в свободном стихе Саханда особенно впечатляет выражение социальных и политических мотивов. Причем главным приоритетом творчества Саханда является приоритетное звучание национального духа – как в содержании, так и форме стиха.

Социально-политическая тематика в поэзии 1960–80-х годов, дистанцировавшейся от идеологических стереотипов предшествующей эпохи, выражена лирико-романтической (Н.Хазри, Дж.Новруз, Г.Ариф, Габиль и др.), а также философско-романтической (Б.Вагабзаде, Г.Гасымзаде, А.Кюрчайлы, Т.Байрам и др.) стилевой тональности, в ряде случаев с патетическим накалом (Х.Рза). В содержании этой лирики в индивидуальной акцентировке звучит извечный мотив смысла человеческой жизни в преломлении с такими неотделимыми экзистенциями, как время, природа, родина, общество, с их проекциями на более частные ценностные ориентиры.

Одна из отличительных особенностей поэзии рассматриваемого периода связана с проблемой «стихотворное произведение и текст», решаемой в плоскости многосложности, объёмной интерпретации текста. Речь идёт о видимом (тексте) и вероятных потенциальных подтекстах, возможностях семантико-поэтических интерпретаций. В

том числе о потенциальных условиях для профессионального прочтения, выявления художественно-символических портретов.

Стихотворение Расула Рзы «Если б я имел право» можно считать эстетическим манифестом национальной поэзии 1960-1980-х годов. В целом ряде образцов этой лирики с социальными мотивами и внешней публицистичностью был явственно слышен отзвук душевного мира поэтов. Наряду с этим типом лирических стихов пробивалась достаточно сильная поэтическая тенденция с ярко выраженным активным романтическим отношением лирического героя к новой действительности. Причём в этих стихах мир лирического «я» был носителем и общих романтических настроений, оптимистического духовного настроя. Целый ряд подобных образцов, ввиду конкретного, обстоятельного описания широты чувств лирического героя, в критике даже квалифицировался как жанр миниатюрной лирической поэмы.

Большинство стихотворений шестидесятников отличалось своеобразием новой поэзии, характеризующейся элементами народного стиха, оригинальной образно-метафорической системой, интонационно-акцентным строем. Даже в ряде образцов свободного стиха ясно просматривались элементы национальной системы стихосложения (например, попытки поисков новых возможностей традиционного хеджа).

Главной новаторской особенностью поэзии было расширение масштабности лирического «я» как органической части внешнего мира, что обусловливало значительное усиление интеллектуально-философского начала. Разумеется, ряд отмеченных новаторских тенденций был созвучен процессам в общесоюзном поэтическом пространстве рассматриваемого периода.

Возвращаясь к принципиальной новаторской особенности поэзии «оттепели», следует ещё раз акцентировать проблему трансформации лирического «мы» в лирическое «я» как отражение «потепления» идеологической ориентации творчества, рождения и формирования новой эстетической ценности, нового поэтического критерия. Обращение к жанру азербайджанской поэмы требует акцентировки на богатом опыте 1920-1950-х годов, связанном с творчеством Г.Джавида, Дж.Джаббарлы, С.Вургуна, Р.Рзы, Б.Вагабзаде, А.Керима, А.Кюрчайлы, М.Араза, Х.Рзы, Ф.Годжа и других мастеров слова.

Дистанцируясь от вопроса о неоднозначной внутрижанровой классификации поэм, следует подчеркнуть, что, если в отношении поэм предшествующего периода можно говорить о превалировании эпического стиля, то с 1960-х годов наблюдается усиление авторского голоса, лирического начала. В лирических поэмах Р.Рзы 1960-х годов

(«И один день является человеческой жизнью», «Если б не было роз») автор образно-философски, в драматическом звучании совмещает сегодняшний день с ретроспективой прошлого, в поэмах Б.Вагабзаде того же периода широкий спектр затрагиваемых тем проецируется в одном фокусе: философия жизни и смерти. В поэмах последующих периодов, посвящённых исторической, любовной, военной, международной тематике, лейтмотивом звучит философское, экзистенциальное осмысление общечеловеческих ценностей, доминантная проблема национального самосознания.

В «поэмном» творчестве талантливых поэтов, наряду с индивидуальным почерком, можно выделить такую общую проблему, как личность в истории («Насими» Габиля). Возвращаясь к внутрижанровым дефинициям поэмы, можно, разумеется, условно, выделить такие виды, как поэма-песня, эпико-драматическая поэма, поэма-легенда, поэма-аллегория и др. Общая оценка поэм 1960-1980-х годов даёт основание для заключения, что созданные известными поэтами плодотворные тенденции в развитии жанра имеют продолжение в азербайджанской литературе периода Независимости.

В контексте новаторских тенденций в движении азербайджанского литературного процесса 1960-1980-х годов особенно заметная роль связана с зарождением и прорывом «новой прозы», дистанцировавшейся от жёстких принципов социалистического реализма и взявшей курс на возрождение и развитие классических национальных традиций (отметим, кстати, неслучайность сатирических циклов Анара «Молла Насреддин – 66», «Юбилей Данте», одного из форвардов шестидесятников). Именно с началом указанного периода (как во многих советских литературах) связано рождение термина «шестидесятники» как название нового литературного поколения с его новаторскими творческими принципами.

Знаменательно, что вначале отзвук значительных позитивных изменений в общественной жизни проявился в произведениях шестидесятников с их мотивами гуманизма, относительно свободного волеизъявления, внимания к жизни простых людей.

Понятно, что отмеченные изменения были характерны не для всей прозы, многие образцы которой отличались традиционным шаблонным художественным сознанием, делением на «положительных» и «отрицательных» героев, «новаторов» и «консерваторов», трафаретными конфликтами, превалированием «производственных» жанров и т.п.

Как правило, новаторские поиски в образцах «новой прозы» относились не только к их идейному содержанию, но и художественному уровню. Иначе говоря, речь идёт о масштабности отражения

жизненного материала в контексте новых горизонтов эстетического идеала.

В «новой прозе» обращают на себя внимание и некоторые изменения относительно жанровых предпочтений. Так, если проза 1930-50-х годов отличалась превалированием тенденции к эпическому отображению действительности, то произведения рассматриваемого периода тяготели, особенно в 1960-е годы, к более камерным жанровым формам: повестям, небольшим романам. Таким образом, обновляемая проза в начале своего пути дистанцировалась от внешней монументальности, её стереотипной поэтики.

Художественное сознание в своём постижении реальной действительности, естественно, пробовало себя на относительно малых пространствах этой реальности, что давало возможность для большей глубины лирико-психологического погружения в действительность её героев, концентрации событий вокруг индивидуальной судьбы персонажа, проникновения в его внутренний мир как проекцию окружающей социальной действительности. В результате подобного нового писательского подхода в эпицентре широкого читательского интереса оказались такие повести, как «Ивы над арыком» И.Эфендиева (1958), «Красавицей я не была» Б.Байрамова (1959), «Телефонистка» Г.Сеидбейли (1960), «Телеграмма» И.Гусейнова (1963), в которых на примере судеб простых людей особенно мощно звучит гуманистическая идея произведения.

Естественным было и параллельное инерционное течение прозы в русле принципов соцреализма с её тенденциозным отображением «глобальных» проблем общества, тогда как новая проза довольствовалась обращением к повседневным, естественным потребностям обычных людей на основе индивидуальных писательских наблюдений без навязанных идеалистических табу. Таким образом, авторские жизненные наблюдения, творческое проникновение в психологию героев постепенно вытесняли стереотипные идеологически ангажированные подходы. В данном контексте такие первые творческие удачи, как повести И.Гусейнова «Звук свирели», «Сад», «Коллу Коха», его нашумевший роман «Горящее сердце», роман «Кура неукротимая» И.Шихлы (1964), «Аршин мира» С.Ахмедова (1969), «Снежный перевал» Ф.Керимзаде (1971), повесть «Белая гавань» Анара (1970) и др., своим оригинальным содержанием и нетрадиционными образами вписали новые страницы в историю азербайджанской прозы XX века.

Указанные произведения ознаменовали собой необратимое движение национальной прозы на пути к художественному воплощению духовного мира личности. Такие собирательные понятия, как народ,

общество, масса, классовая позиция и т.п. выражали идеологические акценты, критерии, эстетический идеал советской литературы, которой были чужды внимание к индивидууму, личности, её внутреннему миру, потребностям – как духовным, так и бытовым. То есть речь шла не о реальной жизни как объекте художественного творчества, а о советском социуме.

Новая проза изменила объектив внимания, направив его не на схематичных «положительных – отрицательных» персонажей, а на реальных людей с их достоинствами и недостатками, мечтами, заботами. Извечная конфронтационная идеологема «общественное – единичное» трансформируется в прозе новой волны диалектической бинарностью «общее – единичное», в контексте которой общественная жизнь постигается через судьбу личности.

Тенденции дистанцирования от эстетики соцреализма встречали жёсткое сопротивление критики, выступающей с позиций советской идеологии («странные», «субъективные», «односторонние», «нетипичные» подходы). В результате такие, например, ценные новаторские, реалистические повести, как «Звук свирели» И.Гусейнова, «Белая гавань» Анара, «Мужчина в доме» И.Меликзаде с их исповедальными рассказами о грустных жизненных приключениях главных героев были встречены с непониманием ввиду «отхода от советской действительности».

В творчестве Анара, Эльчина, Ю.Самедоглу, М. и Р.Ибрагимбековых, Ф.Керимзаде, И.Меликзаде и других талантливых прозаиков с ещё первых опытов пера, наряду с новым творческим дыханием, ощущалось и влияние контрастной атмосферы, царившей в литературно-общественной мысли в стране.

Главным фактором, обусловливающим новизну успешных произведений, явилось усиление в художественной мысли идеи личностного начала. Как, например, исключение возможности оценки романа Ф.Керимзаде «Снежный перевал» (1967) с точки зрения темы коллективизации, поскольку эта тема в романе отходит на задний план в сравнении с образом главного героя, с его яркой индивидуальностью. То есть имеет место смещение ценностей: тема ⇆ герой.

Безусловно, наиболее остро, художественно убедительно данный акцент со всей своей художественностью обращает на себя внимание в романе И.Шихлы «Кура неукротимая» (1964) в колоритном образе Джахандар-ага – с его драматичным состоянием – в срезе переходного периода от патриархальных национальных устоев к новым порядкам в лице представителей царского правительства. Главное в романе – национально-психологическая коллизия в неприятии чужого.

Определённые особенности эволюции в прозе новой эпохи просматриваются и в творчестве некоторых представителей старшего поколения. Правда, в основном следует говорить о приверженности к «лекалам» революционно-исторической темы в романах таких писателей, как С.Рагимов, М.Ибрагимов, А.Велиев, Абульгасан, Г.Илкин. Однако в ряде случаев имеет место и усиление внимания к некоторым индивидуальным особенностям образов. В целом приверженность старшего поколения к приоритетам историко-революционной темы, как показывает опыт, особых изменений не претерпела. Даже в романе М.Гусейна «Подземные реки текут в море» (1965) на тему репрессий проводится популярная для того времени идея о виновности не государственной политики, а отдельных руководителей, во что, возможно, верил и сам автор. С точки зрения исторической эволюции можно утверждать о значительной дистанцированности прозы от эстетической платформы

Заслуженный интерес, вызванный романом И.Эфендиева «Не оглядывайся, старик» (1980), вызван безусловными достоинствами этого непривычно оригинального произведения, оставшегося в ряду достижений национальной литературы бессмертным поэтическим дастаном Эти мемуары о незабываемых детских годах особенно ценны воспоминаниями о карабахской земле, городе Шуша, мусаватском периоде. На фоне колоритного повествования о мире детских впечатлений оживают впечатляющие картины богатой природы, несгибаемых людей в истории родной земли. Впервые в этом романе дано объективное описание мусаватского периода.

Непосредственно исторические персонажи и события представлены и в романе «Кочевье» М.Сулейманлы (1980). На примере судьбы одного рода ведётся увлекательное повествование об участи целого народа, его духовно-материальном проживании и пережитом. Во всей психологической полноте создан обобщённый образ рода Гаракялля, вокруг которого выстроена сюжетная линия романа. Связь с корнями обусловливает единство духа, сознания и жизненной силы, сохранение первозданности, целостности – такова идея романа, воспринимающаяся во многом в условно-символическом, метафорическом контексте, приближающем повествование к фольклорной стилизации, колориту.

В рассматриваемый период создан целый ряд романов на историческую тематику, где история тем или иным способом связана с современностью. Особое место в этом ряду занимают такие произведения, как цикл «Мой голос во вселенной» (1973), «Вернись на родину (1977)», «Вспомни обо мне» (1980) А.Джафарзаде, «Хагани»

М.Исмаилова, «Фатальный Фатали» (1988) Ч.Гусейнова, «Одна десятая века» Г.Ибрагимова, «Памятник без скульптуры» (1982) Н.Хазри, «События в Борчалы» (1972) Ф.Гусейнова. В романах «Орёл Кавказа» (1972) С.Рагимова, «На спине Бозата» (1958) и «Обнажённый меч» (1981) Дж.Баргушата, «Потайная темница», «Хиябани» (1979), «Гейдар Алиоглу» (1985) П.Макулу отображена тема национально-освободительной борьбы азербайджанского народа.

Среди исторических романов особого внимания заслуживают произведения, посвящённые личностям, сыгравшим выдающуюся роль в создании национальной государственности и связанных с ней приоритетных атрибутов. Исключительные заслуги в истории Азербайджана принадлежат Шаху Исмаилу Хатаи, о котором создано немало произведений. В романах «Баку – 1501» А.Джафарзаде (1981), «Мост Худаферин» (1982), «Чалдыранская битва» (1987) Ф.Керимзаде (1982), «Кызылбаши» А.Ниджата (1983) освещён наиболее важный и сложный период нашей истории, связанный с именем и деятельностью Хатаи. Указанный период характеризуется напряжённой борьбой за создание централизованного государства, возрождение национального самосознания; описанные события содержат ценный материал с точки зрения изучения истории нашей территории и становления национального самосознания.

Эльчин в романе «Махмуд и Марьям» (1982) приводит читателя в эпоху Шаха Исмаила. Сюжетный материал взят из любовного дастана «Асли и Керем»: в поисках Марьям Махмуд покидает дворец и начинает бродить по стране, сталкиваясь с бедственным положением народа. И таким образом, мучимый поисками возлюбленной, Махмуд осознаёт, что есть страдания гораздо страшнее: трагическая судьба народа. Герой как бы пробуждается, и образ обретает более глубокое содержание. То есть писатель, используя фольклорную канву, обращается к актуальной социальной проблеме. Созданные после этого романы «Смертный приговор» (1984-1988) и «Белый верблюд» (1989) благодаря своему социальному звучанию, критическому отображению серьёзных недостатков советской системы, художественному уровню пользовались широким читательским интересом.

Опыт исторической прозы показывает, что в целом ряде случаев её главными героями являются известные классики, причём многие из этих произведений характеризует беллетристический стиль. В этом опыте выгодно выделяются «Судный день» (1979) И.Гусейнова, «Фатальный Фатали» (1980) Ч.Гусейнова, «Караванный путь» Б.Байрамова, в которых в историко-биографический сюжет органично

вплетены философско-гуманистические суждения авторов о наследии прототипов образов, оцениваемом в широком ценностном контексте.

В эволюции прозы рассматриваемого периода определённый резонанс имели и такие романы, как «Круговерть» (1979) Г.Аббасзаде, «Гачаг Керем» Ф.Эйвазлы (1986-1990), «Прощай, прекрасный мир» (1988) А.Мамедова и др., в которых авторы возвращаются к историко-революционной теме, пытаясь как-то обновить старые подходы, однако полностью отрешиться от аксиального фокуса классовой борьбы не удаётся. Вечно актуальная в советской литературе тема рабочего класса продолжена в таких произведениях, как «Мостостроители» (1960) И.Эфендиева, «Брат рабочий» (1975) Б.Байрамова, «Судоверфь» Г.Сеидбейли, «Жбан» (1979) Эльчина и др. Вместе с тем срабатывает инерция в создании образа рабочего как лидера общественного прогресса.

О Сабире Ахмедове очень скоро заговорили как об оригинальном мастере слова, глубоко отслеживающем «болевые точки» в процессах современной жизни. В таких его произведениях, как «Зелёный театр», «Тогана» (1981), «В Ясамальском озере плывут лодки» (1984), «Станция переливания крови» (1988), «На пути к Азыху» (1983) и др. читатель встречается с весьма рассудительными, но беспокойными героями, пытающимися понять смысл человеческой жизни. Особенный интерес вызывают образы интеллигентов со специфической психологией. Здесь авторская идея обусловливает и поэтику произведений, в частности, специфику сюжетного развития, где обычно размышления героев превалируют над событийным рядом. Безусловного внимания заслуживают и метафорические названия романов писателя, переносно-иронический смысл которых раскрывается в идейном содержании произведения.

Растущий интерес писательского внимания к художественному воплощению народной жизни, судьбы простого человека на фоне серьёзных социальных проблем обнаруживается в таких романах, повестях, рассказах, как «Ищу себя» (1969) Дж.Алибекова, «Люди и судьбы» (1978) А.Бабаевой, «Враг моего врага» (1978) А.Юсифоглу, «Не судите меня» (1965) Ш.Арифа, «Старина дуб» (1984) И.Меликзаде, «Туман рассеивается» (1979) С.Азери, «Возвращение Омароглу» В.Насиба и многих других произведениях.

Среди произведений рассматриваемого периода особое место занимают сравнительно небольшие жанровые формы с мотивом неутомимой нравственной жажды, откровенными поисками истины. Особый резонанс в данном контексте был вызван произведениями Анара («Грузинская фамилия», «Возможность»), М.Ибрагимбекова («И

не было лучше брата», «Единорог»), И.Меликзаде («В поезде», «Легенда Гюмюшгёля»), особая ценность которых состоит в экзистенциальных размышлениях их героев о судьбе индивидуума в круговороте жизненных противоречий.

В целом рассмотренный опыт позволяет заключить о естественном параллельном развитии традиционной и новой прозы. То есть речь идёт ещё о советском периоде (1960-1980): оттепель – шестидесятники – провальная «перестройка». В этот сложный период зарождение в литературе «новой прозы» с её более широким взглядом на общественные процессы, доминированием нравственного начала, гуманистических идей было неизбежно и требовало усиления эпической масштабности в отображении жизненных процессов на социально-историческом фоне. Особенно характерными в этом плане можно считать романы «Идеал» И.Гусейнова (1985), «День казни» Ю.Самедоглу (1987), «Ореховый червь» (1984), в которых аналитический взгляд на жизнь совершенно отличен от традиционной прозы. Так, в романе И.Гусейнова событийный ряд соотносится прежде всего с масштабной последовательностью новых ситуативных переходов к изображаемому.

Для романа Ю.Самедоглу характерна напряжённая драматическая тональность, интенсивный ритм повествования о сменяющих друг друга коллизиях. Повествование о далёком и близком прошлом, а также современности сопрягается с трагическими истинами исторических событий, а также острыми проблемами сегодняшнего дня, складываясь в метафорически-аллегорическую картину нашей жизни.

В романе М.Сулейманлы повествуется о страшной растерянности в сознании и образе жизни общества в годы установления большевистского режима, созданы впечатляющие картины смятения людей в атмосфере глобального страха. Вместе с тем идея произведения зиждется на известной оптимистической ноте – метафоре о несгибаемости, продолжении жизни (девиз 9 симфонии Бетховена: от страданий к радости).

Подобного типа достижения новой прозы свидетельствуют о расширении горизонтов художественного сознания. Рассмотренный художественный опыт позволяет сделать вывод о в целом успешном творческом завершении азербайджанской прозой важнейшего этапа (1960-1980) её истории на пути к истинной литературе.

Как видно, литература 60-80-х годов XX века в основном охватывает творчество представителей литературных поколений «пятидесятников» и «шестидесятников». Следует отметить, что большинство представителей поколения «шестидесятников» продолжили свою активную литературную деятельность и в период независимости,

следовательно, их жизнь и творчество будут представлены в портретно-очерковых материалах следующих томов «Истории азербайджанской литературы» и в связи с этим ведущими фигурами данного исторического периода являются представители литературного поколения «пятидесятников». Основные представители литературного поколения «пятидесятников», ставшие творцами послесталинской эпохи после устранения культа личности Сталина, сыграли важную роль в установлении связи между литературой 20-40-х годов и последующим поколением «шестидесятников». Таким образом, «пятидесятники» вошли в азербайджанскую литературу XX века как «переходное литературное поколение». Выдающиеся представители этого поколения начали разрушать идеологические взгляды социалистического реализма, создали более новый подход в изображении и воспевании жизненных реалий и человеческой духовности. Литературное поколение «шестидесятников», пришедшее после них создавали новый исторический этап в азербайджанской литературе.

Таким образом, в азербайджанской литературе социалистический реализм был заменен жестким реализмом-модернизмом. Окончательно освободившись от идеологических оков, шестидесятники сформировали в азербайджанской литературе новое творческое течение – жесткий реализм-модернизм. Этот литературный поток, укрепленный творчеством последующих поколений «семидесятников» и «восьмидесятников», стал основой литературы независимого Азербайджана.

SUMMARY

Since the second half of the 20th century, a new socio-political system began to take shape in Soviet society. This system was characterized by the denunciation of the repressive Stalinist regime's crimes, the discrediting of Stalin's personality cult, and a relative easing of the rigid ideological climate in the country. The change in the ideological atmosphere, which became known as the "Thaw", naturally influenced the development of many spheres of social consciousness, foremost among them literature and art. A distinct phase in the history of literature corresponds to the period from the 1960s to the 1980s.

As in other literatures of the Soviet Union, the emergence of a prominent wave of the literary generation known as the "Sixtiers" in Azerbaijan essentially marked the beginning of a return to national roots, shifting from an "ideological aesthetics" towards the values of artistic consciousness.

It is evident that literature, including poetry, liberated from the Procrustean bed of ideological dictate, required new artistic criteria to reflect the changed reality. This necessitated fruitful exploration in the creation of heroic images, particularly regarding their participation in the construction of a society that had distanced itself from the inhumane regime.

The poetry of the 1956s-1980s was created by a new generation of poets, among the forefront of whom were notable names such as Bakhtiyar Vahabzade, Khalil Rza, Nabi Khazri, Mammad Araz, Gabil, Jabir Novruz, Nariman Gasimzade, Fikret Goja, Vagif Samadoglu, Fikret Sadig, Musa Yagub, Alekber Salamzade, Mastan Guner, Ali Kerim, Arif Abdulazade, Mammad Aslan.

Two principal directions in poetry can be distinguished during this period:

– The search for a synthesis of tradition with new qualitative changes in poetry;

– The pursuit of formal innovations, introducing unconventional expressive forms into poetic practice.

Already in the 1960s, certain expressive innovations attracted attention, including: (a) stylistic conciseness (both in traditional hedda and free verse), partly influenced by contemporary Turkish poetry; (b) the transformation of the lyrical "I" in terms of specific semantic and poetic expressiveness.

Overall, the novelty in the poetic movement of this period is connected both to the ideological-thematic content and to formal-expressive aspects such as stylistic and rhythmic-intonational features.

One of the most significant achievements of the Sixtiers' literary generation, as noted by a prominent representative of the movement, the poet Yevgeny Yevtushenko, was the transformation of the poetic "we" into the lyrical "I." This refers to the dismantling of the cult of the poetic "we" and the emergence of the lyrical "I" on the poetic stage. In the lyrical works of Mammad Araz, Khalil Rza, Ali Kerim, Fikret Goja and other innovative poets, there was a pronounced desire to express individual aspirations and the deep desires of the lyrical "I." For the first time, the young lyrical hero had the opportunity to address their reader – who for decades had dreamed of spiritual freedom and the possibility of openly hearing the expression of their attitude toward reality and their intimate feelings.

In the poetry of the 1960s, marking the beginning of a new period, particular attention is deserved by the innovative contributions of such masters of the word as Rasul Rza, Isa Ismailzade, Fikret Goja and others. The most vivid expression of the new philosophical poetic concept in the evolution of national poetry is found in the work of Rasul Rza. The poet's innovation was manifested not only in his virtuoso use of free verse but also in the introduction of this intonational-rhythmic mode of poetic thought as a fruitful tradition, which was successfully adopted by many young poets such as Vagif Samadoglu, Alekber Salamzade, Isa Ismailzade, Vilayat Rustamzade, Fikret Goja, and others. Turkish poetry (notably Nazim Hikmet and others) also played a significant role in these innovative explorations.

During the 1970s and 1980s, alongside the continued influence of Turkish poetry with its profound penetration into the human soul, there was a noticeable tendency among some poets (including V.Bahmanly and others) to distance themselves from this influence in search of an individual response to reality. This led to what is termed the "sudden revelation," which gave rise to corresponding textual structures, rhyme schemes, and folkloric-dastan intonations. Two tendencies stood out in folklore stylizations: (1) deep poetry of epic context; (2) the immediate poetic "presentation" of the epic text. At the same time, in a number of poetic searches, a tendency towards world poetry is observed. Alongside these general poetic trends, each author maintained an individual style characterized by the nature of the lyrical persona, dominant motifs, moral oppositions, and modernist tendencies. Naturally, these explorations gave special emphasis to an individual approach to linguistic possibilities and the creative use of its metaphorical and rhythmic potential.

A renewed voice was given to the theme of Southern Azerbaijan, which originated in the 1940s ("The Bridge's Longing" by S. Vurgun, "My Tabriz" by S.Rustam). From the 1960s onward, the artistic embodiment of this theme, newly invigorated in the free verse of poets such as R.Rza, M.Araz,

N.Hasanzade, Khalil Rza, B.Azeroglu, S.Tahir, M.Gulgun, and A.Tude, exerted a noticeable influence on the poetic form produced in the South (intonational-stylistic parallels). This tendency found its most vivid expression in the works of Mahammad Huseyn Shahriar, Habib Sahir, and Bulud Garachorlu Sahand. Mammadhuseyn Shahriyar's poem "Greetings, Heydarbaba" opened up broad horizons for the glorification of folk life and the national spiritual environment in Azerbaijani poetry. In the free verse poems of Habib Sahir, especially in "Song of the Homeland," traces of R. Rza's vers libre can be observed. The poet's work is dominated by thematic motifs such as Azerbaijan, Motherland, and native nature. In contrast to Sahir, the free verse of Sahand is particularly striking in its expression of social and political motifs, with the primary priority in Sahand's oeuvre being the dominant resonance of the national spirit – both in the content and the form of the poem.

The socio-political themes of the 1960s-1980s poetry, distancing itself from the ideological stereotypes of the preceding era, are expressed in both lyrical-romantic tones (Nabi Khazri, Jabir Novruz, H.Arif, Habib, and others) and philosophical-romantic styles (Bakhtiyar Vahabzade, G.Gasimzade, A. Kurchayli, T.Bayram, and others), sometimes with a pathos-laden intensity (Khalil Rza). The content of this lyricism, through individual emphasis, resounds with the eternal motif of the meaning of human life as refracted through inseparable existential themes such as time, nature, homeland, and society, with their projections onto more particular value orientations.

One of the distinctive features of the poetry of the period under consideration is connected with the problem of the "poetic work and text," which is addressed in the dimension of complexity and expansive interpretation of the text. This pertains to the visible text and its probable potential subtexts, as well as the possibilities for semantic-poetic interpretations. It also concerns the potential conditions for professional reading and the identification of artistic-symbolic portraits.

Rasul Rza's poem "If I Had the Right" can be regarded as an aesthetic manifesto of the national poetry of the 1960s-1980s. In numerous examples of this lyric poetry, which combined social motifs with an external publicistic tone, the resonances of the poets' inner emotional worlds were distinctly audible. Alongside this type of lyrical poem, a strong poetic trend emerged that demonstrated a vividly active romantic attitude of the lyrical subject toward the new reality. In these poems, the world of the lyrical "I" embodied general romantic moods and an optimistic spiritual outlook. Due to the detailed and extensive depiction of the lyrical hero's emotional range, a number of such works were even classified in criticism as a genre of miniature lyrical poems.

Most poems of the "Sixtiers" were characterized by the uniqueness of a new poetry that incorporated elements of folk verse, an original system of imagery and metaphor, and an intonational-accentual structure. Even in some free verse examples, elements of the national system of versification were clearly visible (for example, attempts to explore new possibilities within the traditional hedda form).

A primary innovative feature of the poetry was the expansion of the lyrical "I" as an organic part of the external world, which entailed a significant strengthening of the intellectual and philosophical dimension. Naturally, many of the noted innovative trends resonated with developments in the all-Union poetic space of the period.

Returning to the fundamental innovative feature of the "Thaw" poetry, it is important once again to emphasize the issue of the transformation of the lyrical "we" into the lyrical "I" as a reflection of the "thawing" of ideological orientation in creative work, the birth and formation of a new aesthetic value, and a new poetic criterion. The turn toward the Azerbaijani poetic epic genre requires attention to the rich experience of the 1920s-1950s associated with the works of H.Javid, J. Jabbarly, S.Vurgun, R.Rza, B.Vahabzade, A.Kerim, A.Kurchayly, M.Araz, Kh. Rza, F.Goja, and other masters of the word.

Distancing from the issue of ambiguous intra-genre classification of epics, it should be emphasized that while the epical style predominated in the previous period's poetry, from the 1960s onward there was a strengthening of the authorial voice and the lyrical principle. In R.Rza's lyrical epics of the 1960s ("Even One Day Is a Human Life," "If There Were No Roses"), the author combines the present day with a retrospective of the past through figurative and philosophical means, using a dramatic tone. In B.Vahabzade's epics of the same period, a wide spectrum of themes is projected within a single focus: the philosophy of life and death. In subsequent epics devoted to historical, love, war, and international themes, the leitmotif is a philosophical, existential reflection on universal human values and the dominant problem of national self-consciousness.

In the "epic" works of talented poets, alongside their individual stylistic signatures, one can identify a shared thematic concern with the role of personality in history (as exemplified by Habil's *Nasimi*). Returning to the intragenre definitions of the poem, it is possible, albeit conditionally, to distinguish various types such as the poem-song, the epic-dramatic poem, the poem-legend, the poem-allegory, and others. An overall assessment of the poems produced in the 1960s-1980s justifies the conclusion that the fruitful tendencies established by these prominent poets in the development of the genre have persisted and continued in Azerbaijani literature during the Independence period.

Within the context of innovative trends in the Azerbaijani literary movement of the 1960s-1980s, a particularly notable role is attributed to the emergence and breakthrough of the "new prose," which distanced itself from the rigid principles of Socialist Realism and pursued the revival and development of classical national traditions. It is noteworthy, for example, to mention the satirical cycles of Anar, such as *Molla Nasreddin – 66* and *Dante's Jubilee*, who was among the forerunners of the Sixtiers. The emergence of this period (as in many Soviet literatures) is closely linked with the coining of the term "Sixtiers" to designate the new literary generation characterized by its innovative creative principles.

Significantly, the early reflections of considerable positive changes in social life were manifested in the works of the Sixtiers, through their themes of humanism, relative freedom of expression, and attention to the lives of ordinary people. It is clear that these changes were not characteristic of all prose works, many of which adhered to traditional, formulaic artistic consciousness, with binary divisions into "positive" and "negative" characters, "innovators" and "conservatives," stereotypical conflicts, and a predominance of "production" genres, among other features.

Typically, the innovative searches in examples of the "new prose" pertained not only to their ideological content but also to their artistic quality. In other words, this concerns the scope and depth of representing life material within the framework of new aesthetic horizons.

In the "new prose," some changes in genre preferences are also noteworthy. While prose of the 1930s-1950s was marked by a tendency toward epic representation of reality, the works of the period under discussion, particularly in the 1960s, leaned more toward intimate genre forms such as novellas and short novels. Consequently, the renewing prose at the beginning of its trajectory distanced itself from external monumentality and stereotypical poetics.

The artistic consciousness, in its attempt to comprehend real reality, naturally experimented with relatively smaller segments of this reality, allowing for greater depth of lyrical-psychological immersion into the reality of its characters, focusing events around the individual fate of the protagonist and penetrating their inner world as a reflection of the surrounding social reality. As a result of this new literary approach, works such as *Willows over the Canal* by I. Efendiyev (1958), *I Was Not Beautiful* by B.Bayramov (1959), *The Telephone Operator* by H.Seyidbeyli (1960), and *Telegram* by I.Huseynov (1963) became focal points of broad reader interest. These narratives, depicting the fates of ordinary people, powerfully convey the humanistic message of the works.

It was natural that, alongside the new prose movement, there existed a parallel inertial current of prose adhering to the principles of Socialist Realism, characterized by a tendentious depiction of the "global" problems of society. In contrast, the new prose contented itself with addressing every day, natural needs of ordinary people, based on individual writerly observations without imposed idealistic taboos. Thus, authorial life observations and creative penetration into the psychology of characters gradually displaced stereotypical, ideologically engaged approaches.

In this context, early creative successes such as I.Huseynov's novellas *The Sound of the Pipe*, *The Garden*, *Kollu Kokha*, his widely discussed novel *The Burning Heart*, I. Shikhli's novel *Turbulent Kura* (1964), S. Ahmedov's *Arshin of World* (1969), F.Kerimzade's *Snowy Pass* (1971), Anar's novella *White Harbor* (1970), among others, with their original content and unconventional imagery, inscribed new pages in the history of Azerbaijani prose of the twentieth century.

These works marked an irreversible movement of national prose towards the artistic embodiment of the spiritual world of the individual. Collective notions such as the people, society, the masses, class position, etc., expressed ideological accents, criteria, and aesthetic ideals of Soviet literature, which was alien to attention toward the individual, the personality, and their inner world and needs – both spiritual and everyday. In other words, this literature did not represent real life as an object of artistic creation but rather the Soviet social system.

The new prose shifted the object of attention away from schematic "positive-negative" characters to real people with their virtues and flaws, dreams, and concerns. The eternal ideological confrontation of "social vs. individual" was transformed in the new wave prose into a dialectical binary of "general vs. particular," where social life is comprehended through the fate of the individual.

Tendencies to distance from the aesthetics of Socialist Realism met with harsh criticism grounded in Soviet ideology, dismissing such approaches as "strange," "subjective," "one-sided," or "atypical." Consequently, valuable innovative and realistic novellas like Huseynov's *The Sound of the Pipe*, Anar's *White Harbor*, and I.Melikzade's *The Man in the House*, with their confessional narratives about the sorrowful life experiences of their protagonists, were met with misunderstanding due to their "departure from Soviet reality."

In the works of Anar, Elchin, Y.Samedoglu, M. and R.Ibrahimbeyovs, F.Kerimzade, I.Melikzade, and other talented prose writers, alongside a fresh creative breath, one could also sense the influence of the contrasting atmosphere prevailing in the literary and social thought of the country.

The main factor underpinning the novelty of these successful works was the intensification of the idea of the personal principle in artistic thought. For example, it is impossible to evaluate F.Kerimzade's novel *Snowy Pass* (1967) solely through the theme of collectivization, since this theme recedes into the background compared to the portrayal of the protagonist with his vivid individuality. In other words, there is a shift in values: theme ⇆ hero.

Undoubtedly, this artistic emphasis is most sharply and convincingly articulated in I.Shikhli's novel *Turbulent Kura* (1964) through the colorful image of Jahandar-aga – whose dramatic state reflects the transitional period from patriarchal national traditions to new orders embodied by representatives of the Tsarist government. The central focus of the novel is the national-psychological collision expressed in the rejection of the foreign.

Certain features of the evolution of prose in the new era can also be traced in the works of some representatives of the older generation. However, it is primarily necessary to speak of their adherence to the "templates" of the revolutionary-historical theme in the novels of writers such as S.Rahimov, M.Ibrahimov, A. Veliyev, Abulhasan, and G.Ilkin. In some cases, there is an increased attention to certain individual characteristics of characters. Overall, the older generation's commitment to the priorities of the historical-revolutionary theme, as experience shows, did not undergo significant changes. Even in M.Huseyn's novel *Underground Rivers Flow into the Sea* (1965), on the theme of repression, the popular idea of that time is promoted – that the guilt lies not with state policy, but with certain leaders, a notion possibly shared by the author himself. From the perspective of historical evolution, one can assert a significant distancing of prose from the aesthetic platform.

The well-deserved interest aroused by I. Efendiyev's novel *Don't Look Back, Old Man* (1980) is due to the undeniable merits of this unusually original work, which remains an immortal poetic dastan in the achievements of national literature. These memoirs of unforgettable childhood years are particularly valuable for their recollections of the Karabakh land, the city of Shusha, and the Musavat period. Against the backdrop of a colorful narrative about the world of childhood impressions, vivid pictures of the rich nature and resilient people in the history of the native land come to life. For the first time, this novel offers an objective description of the Musavat period.

Direct historical characters and events are also presented in M.Suleymanli's novel *The Nomad* (1980). Using the fate of a single clan as an example, it offers a captivating narrative about the destiny of an entire people and their spiritual-material existence and experiences. The generalized image of the Garakelle clan is created in all its psychological fullness, around which the plotline of the novel is constructed. The connection with roots

determines the unity of spirit, consciousness, and life force, preserving originality and integrity – such is the idea of the novel, perceived largely in a conventionally symbolic and metaphorical context, bringing the narrative closer to folklore stylization and color.

During this period, a number of historical novels were created in which history is in one way or another connected with contemporaneity. Special attention in this series is given to works such as A.Jafarzade's cycle *My Voice in the Universe* (1973), *Return to the Homeland* (1977), *Remember Me* (1980), M.Ismayilov's *Khaghani*, Ch.Huseynov's *Fatali Fathi* (1988), H.Ibrahimov's *One Tenth of the Century*, N.Khazri's *Monument without Sculpture* (1982), and F.Guseinov's *Events in Borchaly* (1972). The novels *The Eagle of the Caucasus* (1972) by S.Rahimov, *On Bozat's Back* (1958) and *The Naked Sword* (1981) by J.Bargushat, *The Secret Dungeon*, *Khiyabani* (1979), and *Heydar Amioglu* (1985) by P.Makulu reflect the theme of the national liberation struggle of the Azerbaijani people.

Among historical novels, special attention is deserved by works dedicated to individuals who played an outstanding role in the creation of national statehood and its key attributes. Exceptional merits in the history of Azerbaijan belong to Shah Ismail Khatai, about whom many works have been created. The novels *Baku – 1501* by A.Jafarzade (1981), *Khudafarin Bridge* (1982), *Battle of Chaldiran* (1987) by F.Kerimzade, and *Gizilbash* by A.Nijat (1983) highlight the most important and complex period in our history, associated with the name and activities of Khatai. This period is characterized by intense struggles for the creation of a centralized state and the revival of national consciousness; the events described contain valuable material for studying the history of our territory and the formation of national self-awareness.

Elchin, in his novel *Mahmud and Maryam* (1982), transports the reader to the era of Shah Ismail. The plot draws upon the love dastan *Asli and Kerem*: in search of Maryam, Mahmud leaves the palace and begins wandering through the country, encountering the dire conditions of the people. Thus, tormented by the search for his beloved, Mahmud realizes that there are sufferings far worse: the tragic fate of the nation. The hero seems to awaken, and the character acquires a deeper meaning. That is, the writer, using a folkloric framework, addresses an urgent social problem. Subsequent novels such as *Death Sentence* (1984-1988) and *White Camel* (1989), due to their social resonance and critical portrayal of serious flaws within the Soviet system, enjoyed wide readership because of their artistic level.

The experience of historical prose shows that in many cases its main protagonists are well-known classical figures, and many of these works are distinguished by a belletristic style. Among them notably stand out *Judgment*

Day (1979) by I.Huseynov, *Fatali Fathi* (1980) by Ch.Huseynov, and *Caravan Route* by B.Bayramov, where philosophical and humanistic reflections on the legacy of the prototypes of characters are organically interwoven into the historical-biographical plot, evaluated within a broad value context.

During the evolution of prose in this period, certain novels such as *Whirlwind* (1979) by H.Abbaszade, *Gachag Kerem* by F.Eyvazli (1986-1990), and *Farewell, Beautiful World* (1988) by A.Mammedov caused some resonance. In these works, authors return to the historical-revolutionary theme, attempting to refresh old approaches, yet they cannot fully detach from the axial focus on class struggle. The eternally relevant theme of the working class in Soviet literature continued in works like *Bridge Builders* (1960) by I.Efendiyev, *Worker Brother* (1975) by B.Bayramov, *Shipyard* by H.Seyidbeyli, *The Jug* (1979) by Elchin, among others. At the same time, inertia is evident in the depiction of the worker as the leader of social progress.

Sabir Ahmedov soon gained recognition as an original master of words who deeply tracks the "pain points" in contemporary life processes. In works such as *Green Theater*, *Togana* (1981), *Boats Float on Yasamal Lake* (1984), *Blood Transfusion Station* (1988), *On the Way to Azikh* (1983), and others, readers encounter thoughtful yet restless characters trying to comprehend the meaning of human existence. Of particular interest are the portraits of intellectuals with specific psychological traits. The author's idea shapes the poetics of these works, especially the nature of their plot development, where the characters' reflections typically prevail over the sequence of events. The metaphorical titles of Ahmedov's novels, carrying ironic and figurative meanings, also deserve special attention as they unfold within the ideological content of the works.

The growing interest of writers in artistically portraying the life of the people and the fate of ordinary individuals against the backdrop of serious social problems is evident in novels, narratives, and stories such as *Searching for Myself* (1969) by J.Alibeyov, *People and Fates* (1978) by A.Babaeva, *The Enemy of My Enemy* (1978) by A.Yusifoglu, *Do Not Judge Me* (1965) by Sh.Arif, *The Old Oak* (1984) by I.Melikzade, *The Mist Disperses* (1979) by S.Azeri, *Return of Omaroglu* by V.Nasib, and many other works.

Particular prominence in this period is occupied by relatively small genre forms that revolve around the theme of tireless moral thirst and frank quests for truth. Works that caused particular resonance in this context include those by Anar (*The Georgian Surname*, *Opportunity*), M.Ibrahimbeyov (*There Was No Better Brother*, *Unicorn*), I.Melikzade (*On the Train*, *The Legend of Gumushgol*). Their special value lies in the existential reflections

of their heroes on the fate of the individual in the whirlpool of life's contradictions.

Overall, the reviewed experience allows concluding that there was a natural parallel development of traditional and new prose. That is, it is still the Soviet period (1960-1980): the thaw, the sixtiers, the failed "reformation". During this complex period, the emergence of "new prose" with its broader perspective on social processes and dominance of moral principles and humanistic ideas was inevitable and demanded an expansion of epic scope in depicting life processes against the socio-historical backdrop. Particularly characteristic in this respect are the novels *Ideal* by I.Huseynov (1985), *Day of Execution* by Y.Samedoglu (1987), and *Nut Worm* (1984), where the analytical outlook on life is fundamentally different from traditional prose.Huseynov's novel relates the sequence of events primarily to a large-scale succession of new situational transitions to the depicted reality.

Y.Samedoglu's novel is distinguished by a tense dramatic tone and an intense narrative rhythm about a succession of conflicts. The narration of distant and recent past, as well as the present, is intertwined with tragic historical truths and pressing contemporary problems, composing a metaphorical-allegorical picture of our life.

M.Suleymanli's novel depicts the terrifying confusion in the consciousness and lifestyle of society during the establishment of Bolshevik rule, creating vivid images of people's turmoil amid an atmosphere of global fear. At the same time, the idea of the work is based on a known optimistic motif – the metaphor of resilience and continuation of life (the motto of Beethoven's Ninth Symphony: from suffering to joy).

As seen, the literature of the 1960s and 1980s primarily encompasses the creative work of the literary generations known as the "Fifties" and the "Sixtiers". It should be noted that since many representatives of the "Fifties" continued their active literary work during the period of independence, their lives and creations will be covered in biographical essays in the later volumes of the "*History of Azerbaijani Literature"*. Therefore, the prominent figures of this historical period are represented by the members of the "Fifties" literary generation.

The "Fifties", who were the main creative force after the removal of Stalin's cult of personality, acted as a bridge between the literature of the 1920s-40s and the subsequent "Sixtiers". As a result, the "Fifties" have entered Azerbaijani literature of the 20th century as an "intermediate literary generation". Prominent representatives of this generation began to shatter the ideological views of socialist realism, creating a new approach to depicting and celebrating the realities of life and human spirituality. The literary

generation of the “sixties” that followed them created a new historical stage in Azerbaijani literature.

The “Sixtiers”, who followed them, deepened and further developed this process. Thus, in Azerbaijani literature, socialist realism was replaced by a harsh realism-modernism. Freed entirely from ideological constraints, the “Sixtiers” formed a distinct creative trend in Azerbaijani literature, characterized by harsh realism and modernism. This literary trend was further solidified by the works of the “Seventies” and “Eighties” generations, establishing the foundation of Azerbaijani literature in the period of independence.

Xülasəni ingilis dilinə tərcümə etdi:
İradə Orucova

ƏDƏBİYYAT

Azərbaycan dilində

1. Abbas Hacıyev. Seçilmiş əsərləri. I cild. Bakı: “Borçalı NPM”, 2021, 375 s.
2. Abbas Zamanov. Bu dünyadan Rəsul Rza gəlib keçdi. Bakı: “MBM”, 2008, 72 s.
3. Abbas Zamanov. Cənubdan səslər. Bakı: “Min bir mahnı”, 2010, 364 s.
4. Adil Babayev. Anamın üzüyü. Bakı: “Azərnəşr”, 1963, 38 s.
5. Adil Babayev. Ümid sərvləri. Bakı: “Azərnəşr”, 1977, 189 s.
6. Adil Babayev: taleyi və sənəti. Tərtib edəni Ədülfəz Quliyev. Bakı: “Mütərcim”, 2025, 200 s.
7. Ağa Laçınlı. Sakitlik. Bakı: “Azərnəşr”, 1970, 60 s.
8. Ağa Laçınlı. Aşırımlar qarşısında. Bakı: “Yazıçı”, 1978, 132 s.
9. Ağa Laçınlı. Sevgimizlə sevindirək. Bakı: “Yazıçı”, 1981, 152s.
10. Ağa Laçınlı. Alın yazımız. Bakı: “Yazıçı”, 1992, 120 s.
11. Aida Mirzəyeva. Azərbaycan istiqlal poeziyası (Bəxtiyar Vahabzadənin yaradıcılığı fonunda). Monqrafiya. Bakı: “Nurlan”, 2020, 167 s.
12. Akif Həmişəçallı. Elə arxalanıram (şeirlər və məqalələr). Bakı: “Azərnəşr”, 2005, 164 s.
13. Akif Hüseynov. Nəsr və zaman. Bakı: “Yazıçı”, 1980, 185 s.
14. Akif Hüseynov. Müxtəlifliyin birliyi. Bakı: “Yazıçı”, 1983, 216 s.
15. Akif Hüseynov. Sənət meyarı. Bakı: “Yazıçı”, 1986, 315 s.
16. Akif Hüseynov. Həyat və sənət həqiqəti. Bakı: “TS” Nəşriyyat-Poliqrafiya Mərkəzi”, 2000, 204 s.
17. Anar. Molla Nəsrəddin – 66. Bakı: “Gənclik”, 1970, 248 s.
18. Anar. Əsərləri. I cild. Bakı: “Nurlan”, 2003, 504 s.
19. Anar. Əsərləri. II cild. Bakı: “Nurlan”, 2003, 512 s.
20. Anar. Əsərləri. III cild. Bakı: “Nurlan”, 2004, 686 s.
21. Anar. Əsərləri. IV cild. Bakı: “Nurlan”, 2004, 689 s.
22. Anar. Əsərləri. V cild. Bakı: “Nurlan”, 2005, 509 s.
23. Anar. Əsərləri. VI cild. Bakı: “Nurlan”, 2005, 625 s.
24. Anar. Söz dünyası. 5 cilddə, I cild. Bakı: “Şərq-Qərb”, 2018, 516 s.
25. Anar. Söz dünyası. 5 cilddə, II cild. Bakı: “Şərq-Qərb”, 2020, 921 s.
26. Anar. Söz dünyası. 5 cilddə, III cild. Bakı: “Şərq-Qərb”, 2022, 727 s.
27. Arif Abdullazadə. Bir ovuc torpaq. Bakı: “Gənclik”, 1982, 288 s.
28. Arif Abdullazadə. Şairlər və yollar. Azərbaycan sovet poeziyasında yaradıcılıq üslubları. Bakı: “Elm”, 1984, 221 s.
29. Arif Abdullazadə. Sınaq kürrəsi. Bakı: “Optimist MMC”, 2024, 338 s.

30. Arif Səfiyev. Mənəvi mövqeyin fəallığı / İmran Qasımov. Seçilmiş əsərləri. I cild. Bakı: "Azərbaycan Dövlət Nəşriyyatı", 1988, 208 s.
31. Arif Səfiyev. Dramaturgiyamız komizm işığında. Bakı: "Elm", 2024, 528 s.
32. Asif Əfəndiyev. Müqəddəsliyin vəsfi / Cabir Novruz. İnsan himnləri. Şeirlər və poemalar. Bakı: "Yazıçı", 1978, 202 s.
33. Asif Rüstəmli. Ədəbi istiqlalımız. Bakı: "Elm", 2004, 384 s.
34. Asif Rüstəmli. Cəfər Cabbarlı: həyatı və mühiti. Bakı: "Elm", 2009, 416 s.
35. Asif Rüstəmli. Cəfər Cabbarlı və milli istiqlal hərəkatı. Bakı: "Gənclik", 2018, 168 s.
36. Asif Rüstəmli. Cümhuriyyət məfkurəsi. Bakı: "Elm və təhsil", 2024, 672 s.
37. Aslan Kənan. XX əsrdə repressiyaya məruz qalanlar. Bakı: "Azərnəşr", 2011, 296 s.
38. Atif Zeynallı. Əbədilik. Bakı: "Gənclik", 1979, 141 s.
39. Atif Zeynallı. Nur körpüsü. Bakı: "Yazıçı", 1985, 277 s.
40. Azərbaycan 1941-1945-ci illər Böyük Vətən müharibəsində: biblioqrafiya (Tərt. ed.: Vəliyeva M., Manafova H., Abbasova X.; elmi red. Tahirov K.; red. M. Cəfərova / "Kitab 1: Azərbaycan dilində"). Bakı: 2020, 640 s.
41. Azərbaycan ədəbiyyatı tarixi. 10 cilddə, IX c. Bakı: "Elm", 2021, 1220 s.
42. Azərbaycan ədəbiyyatı tarixi. 10 cilddə, VI c. Bakı: "Elm", 2022, 1168 s.
43. Azərbaycan ədəbiyyatı tarixi. 3 cilddə, I c. Bakı: Az.SSR EA, 1960, 589 s.
44. Azərbaycan ədəbiyyatı tarixi. 3 cilddə, II c. Bakı: Az.SSR EA, 1960, 905 s.
45. Azərbaycan ədəbiyyatı tarixi. 3 cilddə, III c. Bakı: Az.SSR EA, 1957, 559 s.
46. Azərbaycan Sovet Ensiklopediyası. VII cild. Bakı: 1983, 623 s.
47. Azərbaycan sovet ədəbiyyatı (müəlliflər kollektivi). Bakı: "Maarif", 1988, 544 s.
48. Azərbaycan sovet ədəbiyyatı tarixi. İki cilddə, I c. Bakı: Az. EA nəşriyyatı, 1967, 636 s.
49. Azərbaycan sovet ədəbiyyatı tarixi. İki cilddə, II c. Bakı: Az. EA nəşriyyatı, 1967, 499 s.
50. Azərbaycan nəsri antologiyası. IV c. Bakı: "Şərq-Qərb", 2006, 312 s.
51. Azərbaycan dramaturgiyası antologiyası (tərtib edəni: D.Məmmədova). Bakı: "Şərq-Qərb", 2007, 301 s.
52. Baba Babayev. Həsən Seyidbəyli: həyatı və nəsr yaradıcılığı. Bakı: "Elm və təhsil", 2022, 220 s.
53. Cənubi Azərbaycan ədəbiyyatı tarixi. XIX-XX əsrlər. Bakı: "Nurlan", 2009, 480 s.
54. Bayram Bayramov. Seçilmiş əsərləri. Üç cilddə. Bakı: "Yazıçı", 1984; 1984; 1985.

55. Bədirxan Əhmədli. XX əsr Azərbaycan ədəbiyyatı tarixi. Üç cilddə. I c. Bakı: "Qanun", 2024, 544 s.
56. Bədirxan Əhmədli. XX əsr Azərbaycan ədəbiyyatı tarixi. Üç cilddə, II c. Bakı: "Qanun", 2024, 584 s.
57. Bədirxan Əhmədli. XX əsr Azərbaycan ədəbiyyatı tarixi. Üç cilddə, III c. Bakı: "Qanun", 2025, 664 s.
58. Bəxtiyar Vahabzadə. Əsərləri (1949-1959). On iki cilddə, I cild. Bakı: "Elm", 2008, 612 s.
59. Bəxtiyar Vahabzadə. Əsərləri (1960-1969). On iki cilddə, II cild. Bakı: "Elm", 2008, 616 s.
60. Bəxtiyar Vahabzadə. Əsərləri (1960-1969). On iki cilddə, III cild. Bakı: "Elm", 2008, 577 s.
61. Bəxtiyar Vahabzadə. Əsərləri (1970-1979). On iki cilddə, IV cild. Bakı: "Elm", 2008, 662 s.
62. Bəxtiyar Vahabzadə. Əsərləri (1980-1989). On iki cilddə, V cild. Bakı: "Elm", 2008, 584 s.
63. Bəxtiyar Vahabzadə. Əsərləri (1990-1999). On iki cilddə, VI cild. Bakı: "Elm", 2008, 738 s.
64. Bəxtiyar Vahabzadə. Əsərləri (2000-2024). On iki cilddə, VII cild. Bakı: "Elm", 2008, 463 s.
65. Bəxtiyar Vahabzadə. Əsərləri. Son illərdə yazılmış, müvafıq cildlərə düşməyən və yenidən işlənən şeirlər. On iki cilddə, VIII cild. Bakı: "Elm", 2009, 518 s.
66. Bəxtiyar Vahabzadə. Əsərləri. Mərsiyə-Rekviyem, hekayələr, pyeslər, tele-radio pyeslər. On iki cilddə, IX cild. Bakı: "Elm", 2009, 814 s.
67. Bəxtiyar Vahabzadə. Əsərləri. Məqalələr. Ədəbiyyat və sənət. On iki cilddə, X cild. Bakı: "Elm", 2009, 831 s.
68. Bəxtiyar Vahabzadə. Əsərləri. Publisistika. On iki cilddə, XI cild. Bakı: "Elm", 2009, 826 s.
69. Bəxtiyar Vahabzadə. Əsərləri. Publisistika. On iki cilddə, XII cild. Bakı: "Elm", 2009, 838 s.
70. Bəkir Nəbiyev. İstiqlal şairi: Xəlil Rza Ulutürkün həyatı, mübarizəsi və yaradıcılıq irsi. Bakı: "Elm", 2001, 348 s.
71. Bəkir Nəbiyev. Sətirlərdə döyünən ürək / Ənvər Əlibəyli. Seçilmiş əsərləri. Ön söz. Bakı: "Şərq-Qərb", 2005, 224 s.
72. Bəkir Nəbiyev. Seçilmiş əsərləri. Beş cilddə, I c. Bakı: "Çinar-çap", 2009, 491 s.
73. Bəkir Nəbiyev. Seçilmiş əsərləri. Beş cilddə, II c. Bakı: "Çinar-çap", 2009, 557 s.
74. Bəkir Nəbiyev. Seçilmiş əsərləri. Beş cilddə, III c. Bakı: "Çinar-çap", 2009, 616 s.

75. Bəkir Nəbiyev. Seçilmiş əsərləri. Beş cilddə, IV c. Bakı: "Çinar-çap", 2009, 554 s.
76. Bəkir Nəbiyev. Seçilmiş əsərləri. Beş cilddə, V c. Bakı: "Çinar-çap", 2009, 610 s.
77. Bəkir Nəbiyev. Seçilmiş əsərləri. Sahilsiz dəniz. Bakı: "Çinar-Çap", 2009, 556 s.
78. Cabir Novruz. Seçilmiş əsərləri. İki cilddə, I cild. Bakı: "Yazıçı", 1982, 340 s.
79. Cabir Novruz. Seçilmiş əsərləri. İki cilddə, II cild. Bakı: "Yazıçı", 1983, 244 s.
80. Cahangir Qəhrəmanov. Azərbaycan klassik ədəbiyyatından seçmələr. I cild: VII-XII əsrlər Azərbaycan şeiri. Bakı: "Şərq-Qərb", 2005, 424 s.
81. Cahangir Qəhrəmanov. Azərbaycan klassik ədəbiyyatından seçmələr. II cild: XIII-XVI əsrlər Azərbaycan şeiri. Bakı: "Şərq-Qərb", 2005, 408 s.
82. Cahangir Qəhrəmanov. Azərbaycan klassik ədəbiyyatından seçmələr. III cild: XVII-XVIII əsrlər Azərbaycan şeiri. Bakı: "Şərq-Qərb", 2005, 456 s.
83. Camal Əhmədov. Müəllim haqqında nəğmələr / Cavad Cavadlı. Sabahın sorağında (müqəddimə). – Bakı: Sabah, 1996, 272 s.
84. Cavanşir Yusifli. Azərbaycan poeziyasında Əli Kərim mərhələsi. Bakı, "Adiloğlu", 2005, 169 s.
85. Cəlal Bərgüşad. Dərilməmiş salxımlar (hekayələr). Bakı: "Gənclik", 1974, 131 s.
86. Cəlal Bərgüşad. Sıyrılmış qılınc. Bakı: "Gənclik", 1981, 375 s.
87. Cəlal Bərgüşad. Bozatın belində. Bakı: "Gənclik", 1988, 430 s.
88. Cəlal Bərgüşad. Dünyada nələr gördüm. Bakı: "Yazıçı", 1991, 368 s.
89. Cəlal Qasımov. Repressiyadan deportasiyaya doğru. Bakı: "Mütərcim", 1998, 292 s.
90. Cəmşid Əmirov. Brilyant məsələsi. Bakı: "Azərnəşr", 1963, 327 s.
91. Cəmşid Əmirov. Vətəndən uzaqlarda. Bakı: "Azərnəşr", 2009, 361 s.
92. Çingiz Ələkbərzadə. Qızıl yəhərli at. Bakı: "Gənclik", 1976, 134 s.
93. Çingiz Ələkbərzadə. Vulkan (hekayələr və povestlər). Bakı: "Yazıçı", 1983, 181 s.
94. Çingiz Ələkbərzadə. Zindan. Bakı: "Yazıçı", 1992, 416 s.
95. Çingiz Ələkbərzadə. Seçilmiş əsərləri. Bakı: "Aspoliqraf", 2022, 358 s.
96. Davud Dəmirli. Ata məhəbbəti. Bakı: 2007, 192 s.
97. Davud Nəsib. Dünya bir körpüdür. Bakı: "Yazıçı", 1987, 183 s.
98. Davud Nəsib. Ata laylası. Bakı: "Sabah", 2013, 611 s.
99. Davud Nəsib. Cavanşir. Bakı: "Zərdabi", 2019, 539 s.
100. Davud Ordubadlı. Qanadlı illər. Şeirlər. Bakı: "Yazıçı", 1980, 208 s.
101. Davud Ordubadlı. Şair ömrü. Şeirlər. Bakı: "Yazıçı", 1983, 262 s.

102. Davud Ordubadlı. Ləyaqət. Bakı: “Yazıçı”, 1989, 238 s.
103. Dilsuz Mustafayev. Ağ atlı oğlanın nağılı. Bakı: “Yazıçı”, 1981, 67 s.
104. Elbrus Əhməd. İnsan əfsanəsi. Bakı: “Gənclik”, 1973, 56 s.
105. Elbrus Əhməd. Ömür yolu. Bakı: “Yazıçı”, 1979, 121 s.
106. Elbrus Əhməd. Tale ulduzu. Bakı: “Gənclik”, 1998, 288 s.
107. Elbrus Əhməd. İnam və idrak poetikası. Bakı: “Bəstəkar”, 2006, 970 s.
108. Elçin. Tənqid və ədəbiyyatımızın problemləri. Bakı: “Yazıçı”, 1981, 359 s.
109. Elçin. Fikrin karvanı (Görkəmli Azərbaycan tənqidçi və ədəbiyyatşünasları). Bakı: “Yazıçı”, 1984, 346 s.
110. Elçin. Sosrealizm bizə nə verdi? Bakı: “Mütərcim”, 2010, 76 s.
111. Elçin. Romanlar. Bakı: “Aspoliqraf”, 2013, 735 s.
112. Elçin. Daha dərin qatlara. Bakı: “Təhsil”, 2019, 895 s.
113. Elçin. Biblioqrafiya. Bakı: Azərbaycan Milli Kitabxanası, 2023, 670 s.
114. Eldar Baxış. İydə çiçəyi. Bakı: “Gənclik”, 1977, 35 s.
115. Eldar Baxış. Üçtəpə bayatıları. Bakı: “Gənclik”, 1979, 74 s.
116. Elmira Babayeva. Mövlud Süleymanlı: həyatı və yaradıcılığı. Sənətkarın elmi pasportu -13. Bakı: “Elm və təhsil”, 2020, 195 s.
117. Elnarə Akimova. Çağdaş poeziya və ədəbi təmayüllər. Bakı: “Elm və təhsil”, 2016, 312 s.
118. Elnarə Akimova. Azərbaycan uşaq ədəbiyyatı: tarixi təcrübəsi və müasir istiqamətləri. Bakı: “Elm və təhsil”, 2024, 396 s.
119. Elnarə Qaragözova. Yusif Səmədoğlunun həyatı və yaradıcılığı. Sənətkarın elmi pasportu – 48. Bakı: “Xan”, 2024, 132 s.
120. Elnarə Zeynalova. Xaqani Şirvaninin ərəbcə əsərlərinin izi ilə. Bakı: “Elm”, 2024, 312 s.
121. Esmira Fuad. Bəkirnamə. Bakı: “Elm”, 2017, 240 s.
122. Esmira Fuad. Turanın əbədiyaşar şairi – Bəxtiyar Vahabzadə. Bakı: “Elm və təhsil”, 2019, 211 s.
123. Ədəbi proses – 76. Bakı: “Elm”, 1977, 158 s.
124. Ədəbi proses – 77. Bakı: “Elm”, 1978, 160 s.
125. Ədəbi proses – 81-82. Bakı: “Elm”, 1987, 304 s.
126. Ədəbi proses – 83-84. Bakı: “Elm”, 1994, 312 s.
127. Ədəbiyyat nəzəriyyəsi inkişaf mərhələləri və problemləri. İki cilddə, I c. Bakı: Elmin İnkişaf Fondu, 2018, 358 s.
128. Ədəbiyyat nəzəriyyəsi inkişaf mərhələləri və problemləri. İki cilddə, II c. Bakı: Elmin İnkişaf Fondu, 2018, 400 s.
129. Əflatun Baxşəliyev. Nəbi Xəzrinin yaradıcılıq yolu. Bakı: “Sabah”, 2014, 243 s.
130. Əkbər Ağayev. Əsrin tərənnümü. Bakı: “Yazıçı”, 1980, 232 s.

131. Ələkbər Salahzadə. Gözlər baxır dünyaya (şeirlər və poemalar). Bakı: "Yazıçı", 1979, 136 s.
132. Ələkbər Salahzadə. Yerimiz bir, göyümüz bir. Bakı: "Yazıçı", 1986, 192 s.
133. Ələkbər Salahzadə. Od odası (şeirlər və poemalar). Bakı: "Yazıçı", 1989, 182 s.
134. Ələkbər Salahzadə. Xocalı xəcilləri (poema). Bakı: "Şirvannəşr", 2006, 46 s.
135. Ələviyyə Babayeva. Küləyin tərkində. Bakı: "Gənclik", 1983, 355 s.
136. Ələviyyə Babayeva. Seçilmiş əsərləri. I cild. Bakı: "Yazıçı", 1991, 384 s.
137. Ələviyyə Babayeva. Seçilmiş əsərləri. II cild. Bakı: "Yazıçı", 1991, 335 s.
138. Əlfi Qasımov. Vətən çağıranda. Bakı: "Azərnəşr", 1975, 225 s.
139. Əlfi Qasımov. İnsan qaranquş deyil. Bakı: "Gənclik", 1981, 262 s.
140. Əli Kərim. Seçilmiş əsərləri. İki cilddə, I cild. Bakı: "Azərnəşr", 1974, 406 s.
141. Əli Kərim. Seçilmiş əsərləri. Bakı: "Lider", 2004, 336 s.
142. Əliağa Kürçaylı. Dünya ovcumdadır. Bakı: "Gənclik", 1976, 242 s.
143. Əliağa Kürçaylı. Bütövlük. Bakı: "Yazıçı", 1978, 597 s.
144. Əliağa Kürçaylı. Ülkər. Bakı: "Yazıçı", 1980, 235 s.
145. Əliağa Kürçaylı. Seçilmiş əsərləri. Bakı: "Azərnəşr", 1989, 344 s.
146. Əlibala Hacızadə. Fərruxi Yəzdinin poeziyası. Bakı: "AzSSR EA", 1965, 193 s.
147. Əlibala Hacızadə – 70. Azərbaycan Milli Elmlər Akademiyası. Bakı: "Bakınəşr", 2005, 72 s.
148. Əlibala Hacızadə. Təyyarə kölgəsi. Bakı: "Gənclik", 1974, 287 s.
149. Əlizadə Əsgərli. Ədəbiyyatımız xalqımızın milli sərvətidir. Bakı: "Nurlan", 2003, 295 s.
150. Əlizadə Əsgərli. Milli ideal mücahidi. Bakı: "Elm", 2005, 419 s.
151. Əlizadə Əsgərli. Xəlil Rza Ulutürkün poetikası. Bakı: "Təhsil", 2012, 496 s.
152. Əlizadə Əsgərli. Xəlil Rza Ulutürk: həyatı, fəaliyyəti, sənəti. Bakı: "Elm və təhsil", 2015, 620 s.
153. Əlizadə Əsgərli. Bəxtiyar Vahabzadə: həyatı, mühiti və yaradıcılığı. Sənətkarın elmi pasportu – 32 Bakı: "Elm və təhsil", 2022, 554 s.
154. Ənvər Əlibəyli. Seçilmiş əsərləri. Bakı: "Şərq-Qərb", 2005, 326 s.
155. Ənvər Rza. Bəxtəvər dustaq. Bakı: "Qanun", 1994, 172 s.
156. Ənvər Rza. Kəlbəcərə gedən yollar. Bakı: "Azərnəşr", 2010, 410 s.
157. Əsgər Əhməd. XII-XIV əsrlərdə Azərbaycanın mənəvi mədəniyyəti (tarixi etnoqrafik araşdırma). Bakı: "Elm", 2012, 372 s.

158. Əziz Mirəhmədov. Ədəbiyyatşünaslıq. Ensiklopedik lüğət. Bakı: "Azərbaycan ensiklopediyası", 1998, 240 s.
159. Əzizə Cəfərzadə. Gülüstandan öncə. Bakı: "Şur", 1996, 251 s.
160. Əzizə Cəfərzadə. Zərrintac-Tahirə. Bakı: "Göytürk", 1996, 203 s.
161. Famil Mehdi. Qarabağ şikəstəsi. Bakı: "Azərnəşr", 1970, 94 s.
162. Famil Mehdi. Sənətkarın qüdrəti / Süleyman Vəliyev. Seçilmiş əsərləri. İki cilddə, I cild, Poemalar. Bakı: "Yazıçı", 1983, 518 s.
163. Famil Mehdi. Seçilmiş əsərləri. Bakı: "Azərnəşr", 1989, 227 s.
164. Famil Mehdi. Əllidən sonra. Bakı: "Yazıçı", 1993, 132 s.
165. Fərhad Mədətov. Sabir Əhmədlinin romanları. Bakı: "Bakı Universiteti Nəşriyyatı", 1998, 90 s.
166. Fərman Kərimzadə. Sonuncu eksponat. Bakı: "Uşaqgəncnəşr", 1963, 23 s.
167. Fərman Kərimzadə. Qarlı aşırım. Bakı: "Gənclik", 1987, 328 s.
168. Fərman Kərimzadə. Qoca qartalın ölümü. Bakı: "Karvan" jurnalı, 1991, №22-23, 430 s.
169. Fikrət Sadıq. Göydə nə var? Bakı: "Gənclik", 1978, 78 s.
170. Fikrət Sadıq. Taleyin acığına. Bakı: "Çinar-Çap", 2003, 528 s.
171. Fikrət Sadıq. Bugünnamə – 3. Bakı: "Elm və təhsil", 2010, 230 s.
172. Fikrət Sadıq. Mən ot basmış bir cığıram. Bakı: "Mütərcim", 2020, 199 s.
173. Fikrət Süleymanoğlu. Səhənd mühiti, həyatı və yaradıcılığı. Sənətkarın elmi pasportu – Bakı: "Nurlar", 2017, 175 s.
174. Gülhüseyn Hüseynoğlu. Qatar gedir. Bakı: "Gənclik", 1983, 265 s.
175. Gülhüseyn Hüseynoğlu. Yana-yana. Bakı: "Yazıçı", 1986, 420 s.
176. Gülhüseyn Hüseynoğlu. Məhəbbətdirmi bu? Bakı: "Gənclik", 1996, 352 s.
177. Gülşən Əliyeva Kəngərli. Xəyal və idrakın vəhdəti. Bakı: "Qanun", 2021, 267 s.
178. Günay Qarayeva. Müasir peyzaj lirikası. Bakı: "Elm", 2013, 220 s.
179. Hacı Həsənov. Elmi, pedaqoji və ictimai fəaliyyətinin qısa oçerki // M.Ə.İsmayılov. Biblioqrafiya. Bakı: "Elm",1993, 83 s.
180. Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı (tərtib. V.Quliyev. red. Asif Rüstəmli). Bakı: "Ozan", 1999, 496 s.
181. Heydər Əliyev sülhün carçısıdır: Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev və Beynəlxalq Atatürk Sülh Mükafatının təqdim olunması: materiallar, təbriklər. Bakı: "Qorqud", 1999, 336 s.
182. Heydər Əliyev – nəcib mənəvi idealların tərənnümü (topl. və tərtib edəni A.Rüstəmli, elmi red. V.Quliyev). Bakı: "Ozan", 2000, 468 s.
183. Heydər Əliyev. Müdriklik mücəssəməsi. Bakı: "Elm", 2023, 512 s.
184. Heydər Əliyev. Prezidentlik xronikası (1993-2003). Tərtibçi: Aynur Bəşirli. Bakı: "Azərbaycan Tarixçiləri İB". 2023, 287 s.

185. Həbib Sahir. Seçilmiş əsərləri. Bakı: “Lider”, 2005, 192 s.
186. Həmid Araslı. Azərbaycan ədəbiyyatı: Tarixi və problemləri (Seçilmiş əsərləri). Bakı: “Gənclik”, 1998, 732 s.
187. Həsən Seyidbəyli. Kənd həkimi. Bakı: “Uşaqgəncnəşr”, 1950, 169 s.
188. Həsən Seyidbəyli. On beş gün Yaponiyada. Bakı: “Azərnəşr”, 1966, 128 s.
189. Həsən Seyidbəyli. Tərsanə. Bakı: “Azərbaycan Dövlət Nəşriyyatı”, 1975, 231 s.
190. Həsən Seyidbəyli. Cəbhədən-cəbhəyə. Bakı: “Yazıçı”, 1979, 555 s.
191. Həyatı yazan, yazdığını ekranlaşdıran yazıçı – Həsən Seyidbəyli (Metodik vəsait). F.Köçərli adına Respublika Uşaq Kitabxanası. Bakı: 2020, 68 s.
192. Hicran Nəsibova. Müasir Azərbaycan poeziyasında milli-azadlıq hərəkatı (1985-1995). Bakı: “Şuşa”, 2011, 100 s.
193. Hicran Nəsibova. Azərbaycan lirikasında insan konsepsiyası (1960-1980-ci illər). Bakı: “Elm”, 2013, 132 s.
194. Hikmət Mehdiyev. Çağdaş poema və gerçəklik. Bakı: “Elm”, 2000, 197 s.
195. Hüseyn Abbaszadə. Əlibalanın ağır səfəri. Bakı: “Gənclik”, 1985, 355 s.
196. Hüseyn Abbaszadə. Dünyadan gör necə insanlar gedib (Xatirələr). Bakı: “Gənclik”, 1988, 365 s.
197. Hüseyn Abbaszadə. Burulğanlar (roman). Bakı: “Yazıçı”, 1991, 350 s.
198. Hüseyn Abbaszadə. Seçilmiş əsərləri. İki cilddə, I cild. Bakı: “Şərq-Qərb”, 2006, 317 s.
199. Hüseyn Abbaszadə. Nurdan yoğrulmuşlar. Bakı: “Avrasiya Press”, 2008, 549 s.
200. Hüseyn Arif. Seçilmiş əsərləri. İki cilddə, I cild. Bakı: “Yazıçı”, 1985, 407 s.
201. Hüseyn Arif. “Seçilmiş əsərləri. İki cilddə, II cild. Bakı: “Yazıçı”, 1985, 249 s.
202. Hüseyn Arif. Seçilmiş əsərləri. Bakı: “Şərq-Qərb”, 2004, 224 s.
203. Hüseyn Arif. Məqalələr, xatirələr, məktublar. VI cild. Bakı: “MBM”, 2014, 491 s.
204. Hüseyn Arif. Seçilmiş əsərləri. VI cild. Bakı: “Təhsil”, 2014, 397 s.
205. Hüseyn Həşimli. Azərbaycan mənsur şeirinin təşəkkülü. Bakı: “Nurlan”, 2006, 144 s.
206. Hüseyn İbrahimov. Böhtan. Bakı: “Şərq-Qərb”, 1998, 287 s.
207. Hüseyn Kürdoğlu. Tovuzum mənim, Oğuzum mənim. Bakı: “Elm”, 1998, 108 s.
208. Hüseyn Kürdoğlu. Seçilmiş əsərləri. I cild. Bakı: “Sabah”, 2011, 450 s.
209. Hüseyn Kürdoğlu. Seçilmiş əsərləri. II cild. Bakı: “Sabah”, 2011, 504 s.

210. Hüseyn Razi. Biblioqrafiya (tərtib edəni Xəlilov Fərman). Naxçıvan: "Əcəmi", 2015, 303 s.
211. Xəlil Rza Ulutürk. Davam edir 37. Bakı: "Gənclik", 1992, 525 s.
212. Xəlil Rza Ulutürk. Rəfiq Zəka Xəndan haqqında (topl. və tərt. ed. F.Ulutürk). Bakı: "Mütərcim", 1999, 210 s.
213. Xəlil Rza Ulutürk. Mən onsuz da əbədiyəm. Bakı: "Gənclik", 2003, 340 s.
214. Xəlil Rza Ulutürk. Seçilmiş əsərləri. İki cilddə, I cild. Bakı: "Şərq-Qərb", 2005, 296 s.
215. Xəlil Rza Ulutürk. Seçilmiş əsərləri. İki cilddə, II cild. Bakı: "Şərq-Qərb", 2005, 248 s.
216. Xəlil Rza Ulutürk. Lefertovo zindanında. Bakı: "Çinar-Çap", 2006, 482 s.
217. Xəlil Rza Ulutürk. Dünyanın ədəbi xəritəsi. Bakı: "Çinar- Çap", 2008, 694 s.
218. Xəlil Rza Ulutürk. Hara gedir bu dünya. Bakı: "Apostrof", 2013, 335 s.
219. Xəlil Rza Ulutürk. Dramaturgiyada ədəbi əlaqələr. Bakı: "Elm", 2014, 233 s.
220. Xəlil Rza Ulutürk. Məndən başlanır Vətən. Bakı: "Apostroff", 2014, 447 s.
221. XX əsr Azərbaycan ədəbiyyatı məsələləri. I kitab (redaktoru Şirindil Alışanlı). Bakı: "Elm", 2006, 428 s.
222. XX əsr Azərbaycan ədəbiyyatı məsələləri. II kitab (redaktoru Şirindil Alışanlı). Bakı: "Elm" 2008, 340 s.
223. XX əsr Azərbaycan ədəbiyyatı məsələləri. III kitab (redaktoru Şirindil Alışanlı). Bakı: "Elm", 2010, 324 s.
224. XX əsr Azərbaycan ədəbiyyatı məsələləri. IV kitab (redaktoru Şirindil Alışanlı). Bakı: "Elm", 2017, 234 s.
225. XX əsr Azərbaycan ədəbiyyatı məsələləri. V kitab (redaktoru Şirindil Alışanlı). Bakı: "Elm və təhsil", 2021, 372 s.
226. XX əsr Azərbaycan poeziyası antalogiyası (IV kitab, 1950-ci illərin poeziyası. Redaktor: Ş.Alışanlı). Bakı: "Elm", 2013, 516 s.
227. İbrahim Kəbirli. Açıq ürək. Bakı: "Azərnəşr", 1970, 295 s.
228. İbrahim Kəbirli. İnsan sevinir. Şeirlər və poemalar. Bakı: "Azərnəşr", 1977, 176 s.
229. İbrahim Kəbirli. Mənim qismətim. Bakı: "Gənclik", 1979, 138 s.
230. İlham Əliyev. İnkişaf – məqsədimizdir (130-cu kitab). Bakı: "Azərnəşr", 2023, 392 s.
231. İmran Qasımov, Həsən Seyidbəyli. İllər keçir. Bakı: "Gənclik", 1968, 212 s.

232. İmran Qasımov, Həsən Seyidbəyli. Uzaq sahillərdə. Bakı: "Gənclik", 1974, 310 s.
233. İmran Qasımov. Seçilmiş əsərləri. I cild. Bakı: "Azərnəşr", 1988, 205 s.
234. İmran Qasımov. Ölkələr və insanlar. Bakı: "Azərnəşr", 2009, 215 s.
235. İntiqam Qasımzadə. Oxunan və sevilən yazıçı / İsmayıl Şıxlı. Seçilmiş əsərləri. Ön söz / Bakı: "Şərq-Qərb", 2005, 310 s.
236. İsa Həbibbəyli. Ədəbiyyat nəzəriyyəsi. Dərs vəsaiti. Bakı: AR Təhsil Nazirliyi Tədris Metodiki Kabinetinin nəşri, 1985, 60 s.
237. İsa Həbibbəyli. Ədəbiyyat və mətbuat cəbhəsində (C.Cavadlı haqqında). Bakı: "Nurlan", 2006, 52 s.
238. İsa Həbibbəyli. Ədəbi-tarixi yaddaş və müasirlik. Bakı: "Nurlan", 2007, 696 s.
239. İsa Həbibbəyli. Xalq şairi Məmməd Araz. Bakı: "Azərbaycan", 1999, 160 s.
240. İsa Həbibbəyli. Böyük ədəbiyyat nəhəngi Məmməd Səid Ordubadi. Bakı: "Elm və Təhsil", 2012, 92 s.
241. İsa Həbibbəyli. Heydər Əliyev dövlətçilik təlimi və müasir dövr. Naxçıvan: "Əcəmi", 2013, 272 s.
242. İsa Həbibbəyli. Ədəbi şəxsiyyət və zaman. Bakı: "Elm və Təhsil", 2017, 1068 s.
243. İsa Həbibbəyli. Azərbaycan ədəbiyyatı: dövrləşdirmə konsepsiyası və inkişaf mərhələləri. Bakı: "Elm", 2019, 450 s.
244. İsa Həbibbəyli. Azərbaycan ədəbiyyatında keçid ədəbi cərəyanı – modernizm // Ədəbiyyat qəzeti. 2025. 25 iyul (№26)
245. İsa İsmayılzadə. Ulduzların ad günü. Bakı: "Gənclik", 1968, 98 s.
246. İsa İsmayılzadə. Torpaq nəğməsi. Bakı: "Gənclik", 1977, 96 s.
247. İsa İsmayılzadə. Ömrümdən keçən qatar. Bakı: "Yazıçı", 1980, 128 s.
248. İsa İsmayılzadə. Salam, yer kürəsi. Bakı: "Gənclik", 1982, 230 s.
249. İsa İsmayılzadə. Seçilmiş əsərləri. Bakı: "Azərnəşr", 1991, 350 s.
250. İsa Muğanna. Məhşər. Bakı: "Gənclik", 1982, 296 s.
251. İsa Muğanna. GurÜn. Bakı: "Hədəf nəşrləri", 2013, 162 s.
252. İsa Muğanna. Türfə. Bakı: "Hədəf nəşrləri", 2015, 247 s.
253. İsi Məlikzadə. Gümüşgöl əfsanəsi. Bakı: "Yazıçı", 1987, 294 s.
254. İslam Qəribli. Sözün sehri. Bakı: "Elm və təhsil", 2014, 384 s.
255. İslam Qəribli. Azərbaycan ədəbiyyatı: dünən və bu gün. Bakı: "Apastrof-A", 2022, 634 s.
256. İsmayıl Şıxlı. Məni itirməyin. Bakı: "Yazıçı", 1984, 362 s.
257. İsmayıl Şıxlı. Seçilmiş əsərləri. İki cilddə, I cild. Bakı: "Şərq-Qərb", 2005, 408 s.

258. İsmayıl Şıxlı. Seçilmiş əsərləri. İki cilddə, II cild. Bakı: "Şərq-Qərb", 2005, 400 s.
259. Kamal Abdulla. Seçilmiş əsərləri. Yeddi cilddə, I cild. Bakı: "Mütərcim", 2020, 694 s.
260. Kamal Abdulla. Seçilmiş əsərləri. Yeddi cilddə, II cild. Bakı: "Mütərcim", 2020, 702 s.
261. Kamal Abdulla. Seçilmiş əsərləri. Yeddi cilddə, III cild. Bakı: "Mütərcim", 2020, 819 s.
262. Kamal Abdulla. Seçilmiş əsərləri. Yeddi cilddə, IV cild. Bakı: "Mütərcim", 2020, 777 s.
263. Kamal Talıbzadə. Ədəbi irs və varislər. Bakı: "Azərnəşr", 1974, 316 s.
264. Kamal Talıbzadə. Sənətkarın şəxsiyyəti. Bakı: "Yazıçı", 1978, 378 s.
265. Kamal Talıbzadə. Seçilmiş əsərləri. İki cilddə, II cild. Bakı: "Azərnəşr", 1994, 432 s.
266. Kamran Əliyev. Ədəbiyyat tarixinə bir baxış. Bakı: "Elm və təhsil", 2013, 301 s.
267. Kamran Əliyev. Ədəbiyyatşünaslıq və ədəbiyyatşünaslar. Bakı: "Elm və təhsil", 2013, 273 s.
268. Kamran Məmmədov. Yusif Vəzir Çəmənzəminli. Həyatı və yaradıcılıq yolu. Bakı: "Elm", 1981, 262 s.
269. Kələntər Kələntərli. Dəniz nəğmələri. Bakı: "Azərnəşr", 1963, 50 s.
270. Kələntər Kələntərli. Güllələsin dağlar məni... (şeirlər, poemalar). Bakı, "Təhsil EİM", 2000, 384 s.
271. Kələntər Kələntərli. Seçilmiş əsərləri. Səkkiz cilddə, I cild. Bakı, "Azərbaycan" nəşriyyatı, 2010, 372 s.
272. Kələntər Kələntərli. Seçilmiş əsərləri. Səkkiz cilddə, II cild. Bakı, "Azərbaycan" nəşriyyatı, 2010, 496 s.
273. Klassik Azərbaycan ədəbiyyatında işlənən ərəb-fars sözləri lüğəti. İki cilddə, II cild. Bakı: "Şərq-Qərb", 2005, 472 s.
274. Qabil. Nəsimi. Bakı: "Yazıçı", 1980, 407 s.
275. Qabil. Təmizlik. Bakı: "Yazıçı", 1983, 222 s.
276. Qabil. İlahi qisməti. Bakı: "Gənclik", 2001, 272 s.
277. Qabil. Seçilmiş əsərləri. Bakı: "Şərq-Qərb", 2004, 248 s.
278. Qasım Qasımzadə. Azərbaycan ədəbiyyatında xalqlar dostluğu. Bakı: "Azərbaycan EA", 1956, 267 s.
279. Qasım Qasımzadə. Getdim, gördüm, düşündüm. Bakı: "Azərnəşr", 1971, 98 s.
280. Qasım Qasımzadə. Ədəbiyyatda millilik və beynəlmiləllik. Bakı: "Elm", 1982, 273 s.
281. Qasım Qasımzadə. Seçilmiş əsərləri. Bakı: "Azərnəşr", 1988, 336 s.
282. Qasım Qasımzadə. Zamansızlığa. Bakı: "Savad", 2025, 496 s.

283. Qəzənfər Paşayev. Hüseyn Kürdoğlunun poeziya dünyası. Bakı, “Sabah”, 2017, 288 s.
284. Qılman İlkin. Köhnə Bakını tanıyırsanmı? Bakı: “Şirvannəşr”, 2004, 116 s.
285. Qılman İlkin. Bakı və bakılılar. Bakı: “Nurlar”, 2006, 384 s.
286. Qılman İlkin. Seçilmiş əsərləri. İki cilddə, I c. Bakı: “Avrasiya Press”, 2006, 231 s.
287. Qorxmaz Quliyev. Ədəbi proses. Bakı: “Mütərcim”, 2020, 311 s.
288. Qulu Xəlilov. Azərbaycan romanının inkişaf tarixindən. Bakı: “Elm”, 1973, 350 s.
289. Qulu Xəlilov. Həyat nəfəsli şair / Ağa Laçınlı. Sevgimizlə sevindirək. Bakı: “Yazıçı”, 1981, 152 s.
290. Qurban Bayramov, Jalə Qurbanqızı. Yaşar Qarayev: milli yaddaş təlimi – Azərbaycançılıq. Bakı: “BDU”, 2001, 138 s.
291. Qurban Bayramov. Xalq yazıçısı İlyas Əfəndiyevin yaradıcılığı ədəbi tənqiddə. Bakı: “Yazıçı”, 2014, 271 s.
292. Mahmud İsmayılov. Ağ yapıncı. Bakı: “Yazıçı”, 1979, 276 s.
293. Mahmud İsmayılov. Sənin ulu baban. Bakı: “Azərnəşr”, 1989, 301 s.
294. Mahmud İsmayılov. İki od arasında (Roman). Bakı: “Gənclik”, 1993, 434 s.
295. Mail Dəmirli. Xəlil Rza Ulutürkün poeziyası. Bakı: “Sabah”, 1996, 136 s.
296. Manaf Süleymanov. Eşitdiklərim, oxuduqlarım, gördüklərim. Bakı: “Azərnəşr”, 1987, 319 s.
297. Manaf Süleymanov. Seçilmiş əsərləri. I cild. Bakı: “Azərnəşr”, 1993, 452 s.
298. Mehdi Hüseyn. Ədəbiyyat və sənət məsələləri. Bakı: “Azərnəşr”, 1958, 610 s.
299. Mehman Həsənli. Çingiz Aytmatov fenomeni və Azərbaycan. Bakı: “Elm və təhsil”, 2020, 406 s.
300. Məhəmməd Nərimanoğlu. 60 il ‘Uzaq sahillər’də. “Azərbaycan” jurnalı, 3 avqust 2018.
301. Məmməd Adilov. Həyatı yazan, yazdığını ekranlaşdıran yazıçı – Həsən Seyidbəyli. Metodik vəsait. F.Köçərli adına Respublika Uşaq Kitabxanası. Bakı: 2020, 30 s.
302. Məmməd Araz. Ürəkdən başlanan cığırlar... / Sənətdə son mənzil olmur. I kitab. Publisistika. Bakı: “Adiloğlu”, 2001, 438 s.
303. Məmməd Araz. Seçilmiş əsərləri. Dörd cilddə, I cild. Bakı: “Ozan”, 2003, 347s.
304. Məmməd Araz. Seçilmiş əsərləri. Dörd cilddə, II cild. Bakı: “Ozan”, 2003, 346 s.

305. Məmməd Araz. Seçilmiş əsərləri. Dörd cilddə, III cild. Bakı: “Ozan”, 2003, 368 s.
306. Məmməd Araz. Seçilmiş əsərləri. Dörd cilddə, III cild. Bakı: “Ozan”, 2003, 354 s.
307. Məmməd Araz: taleyi və sənəti (məqalələr). Naxçıvan: “Əcəmi”, 2014, 175 s.
308. Məmməd Araz. Qarabağ simfoniyası. Bakı: “Elm və təhsil”, 2016, 510 s.
309. Məmməd Arif. Seçilmiş əsərləri. 3 cilddə, I c. Bakı: “Az SSR EA Nəşriyyatı”, 1967, 619 s.
310. Məmməd Arif. Seçilmiş əsərləri. 3 cilddə, II c. Bakı: “Az SSR EA Nəşriyyatı”, 1968, 514 s.
311. Məmməd Arif. Seçilmiş əsərləri. 3 cilddə, III c. Bakı: “Az SSR EA Nəşriyyatı”, 1970, 428 s.
312. Məmməd Arif. Müasirlik, novatorluq, kamillik / Sənətkar qocalmır. Bakı: “Yazıçı”, 1980, 368 s.
313. Məmməd Cəfər Cəfərov. Seçilmiş əsərləri. 2 cilddə, II c. Bakı: “Azərnəşr”, 1974, 340 s.
314. Məmməd Cəfər Cəfərov. Sənət yollarında. Bakı: “Gənclik”, 1975, 366 s.
315. Məmməd Cəfər. Həmişə bizimlə. Bakı: “Yazıçı”, 1980, 359 s.
316. Məmməd Cəfər. Şairin səsi – xalqın səsi. Bakı: “Ədəbiyyat və incəsənət”, 1984, 208 s.
317. Məmməd Cəfər Cəfərov. Bədii əsərləri (tərtib edəni və ön sözün müəllifi İ.Həbibbəyli). Bakı: “Elm və təhsil”, 2022, 917 s.
318. Məmməd Əliyev. Ədəbiyyat nəzəriyyəsinin əsasları. Bakı: “Elm və təhsil”, 2009, 468 s.
319. Məmməd Əliyev. Ədəbiyyat nəzəriyyəsi. Bakı: “Elm və təhsil”, 2012, 480 s.
320. Məmməd Əliyev. Bədii təfəkkürdə erkən azərbaycançılıq düşüncəsi. Bakı: “Elm və təhsil”, 2018, 165 s.
321. Məmmədhüseyn Əliyev. Dağlar oğlu. Bakı: “Uşaqgəncnəşr”, 1958, 275 s.
322. Məmmədhüseyn Əliyev. Dağda bahar. Bakı: “Azərnəşr”, 1966, 254 s.
323. Məmmədhüseyn Əliyev. Torpağın ətri. Bakı: “Gənclik”, 1979, 204 s.
324. Məmmədhüseyn Əliyev. Qayaların səsi. Bakı: “Yazıçı”, 1983, 185 s.
325. Məstan Günər. Bir könüldən min könülə. Bakı: “Yazıçı”, 1981, 226 s.
326. Məstan Günər. Seçilmiş əsərləri. I cild. Bakı: “Şərq-Qərb”, 2016, 439 s.
327. Məstan Günər. Seçilmiş əsərləri. II cild. Bakı: “Şərq-Qərb”, 2016, 430 s.

328. Məsud Əlioğlu. Şair ləyaqəti, şair sevgisi. Bakı: "Ədəbiyyat və incəsənət", 1972, 208 s.
329. Məsud Əlioğlu. Darıxan adamlar. Bakı: "Təhsil", 2018, 784 s.
330. Məsudi Dövran. Məmmədhüseyn Əliyevin yaradıcılıq yolu. Bakı: "Elnur-P", 2005, 300 s.
331. Mir Cəlal, Pənah Xəlilov. Ədəbiyyatşünaslığın əsasları. Bakı: "Maarif", 1988, 279 s.
332. Mir Cəlal Paşayev. Azərbaycanda ədəbi məktəblər. Bakı: "Ziya-Nurlan", 2004, 392 s.
333. Mir Cəlal Paşayev: Görkəmli yazıçı və elm xadimi (Tərtib edəni: Aygün Bağırlı). Sənətkarın elmi pasportu – 61. Bakı: "Elm və təhsil", 2025, 312 s.
334. Mirzə İbrahimov. Xəlqilik və realizm cəbhəsindən. Bakı: "Azərnəşr", 1961, 522 s.
335. Mirzə İbrahimov. Ədəbi qeydlər. Bakı: "Azərnəşr", 1970, 297 s.
336. Mirzə İbrahimov. Uca fikirlər, coşğun ehtiraslar poeziyası / Azərbaycanın Bəxtiyarı: B.Vahabzadənin həyatı, yaradıcılığı və ictimai fəaliyyəti haqqında məqalələr toplusu. Bakı: "Azərbaycan", 1995, 300 s.
337. Mustafa Çəmənli. Ürəyimdən kimlər keçdi. Bakı: "Xan nəşriyyatı", 2017, 280 s.
338. Müasirləri Xəlil Rza Ulutürk haqqında. Bakı: "Çinar-Çap", 2004, 625 s.
339. Müzəffər Nəsirli. Arazın işıqları. Bakı: "Gənclik", 1974, 38 s.
340. Müzəffər Nəsirli. İki ürək (şeirlər və poemalar). Bakı: "Azərnəşr", 1974, 183 s.
341. Müzəffər Nəsirli: taleyi və sənəti. Naxçıvan: "Əcəmi" 2022, 45 s.
342. Natavan Mustafayeva. Rəfiq Zəka yaradıcılığında türkçülük və Türkiyə. Bakı: "Avropa" nəşriyyatı, 2009, 180 s.
343. Hikmət Ziya. Qərib cinlər diyarında. – Bakı: "Gənclik", 1980, 133 s.
344. Hikmət Ziya. Seçilmiş əsərləri. – Bakı: "Azərnəşr", 1992, s.234
345. Hikmət Ziya. Seçilmiş əsərləri. Üç cilddə, I cild. Bakı: "Aspoliqraf", 2014, 461 s.
346. Hikmət Ziya. Seçilmiş əsərləri. Üç cilddə, II cild. Bakı: "Aspoliqraf", 2014, 477 s.
347. Hikmət Ziya. Seçilmiş əsərləri. Üç cilddə, III cild. Bakı: "Təhsil", 2014, 437 s.
348. Nazif Qəhrəmanlı. Ədəbiyyat və əbədiyyat (ədəbi-tənqidi məqalələr). Bakı: "Nurlan", 2009, 382 s.
349. Nəbi Xəzri. Seçilmiş əsərləri. İki cilddə, I cild. Bakı: "Lider nəşriyyatı", 2004, 248 s.
350. Nəbi Xəzri. Seçilmiş əsərləri. İki cilddə, II cild. Bakı: "Lider nəşriyyatı", 264 s.

351. Nərgiz Paşayeva. İnsan bədii tədqiq obyekti kimi (Xalq yazıçısı Elçinin yaradıcılığı əsasında) Monoqrafiya. Bakı: "XXI — Yeni Nəşrlər Evi", 2003, 256 s.
352. Nərgiz Paşayeva. Yeniləşən ədəbiyyatın yeni insanı. Bakı: "ATİ", 2004, 224 s.
353. Nəriman Həsənzadə. Ön söz / Cabir Novruz. Seçilmiş əsərləri. İki cilddə. I cild. Bakı: "Yazıçı", 1982, 340 s.
354. Nikpur Cabbarlı. Mühacirət və klassik ədəbi irs. Bakı: "Elm", 2003,172 s.
355. Nikpur Cabbarlı. Elçin və Azərbaycan mühacirətşünaslığının problemləri. Bakı: "Təhsil", 2014, 96 s.
356. Nizami Cəfərov. Bəxtiyar Vahabzadə. Bakı: "Azərnəşr", 1996, 80 s.
357. Nizami Cəfərov. Azərbaycan: dil, ədəbiyyat və mədəniyyət. Bakı: 2001, "Bakı Universiteti nəşriyyatı", 78 s.
358. Nizami Cəfərov. Dolan, kəfkirim, dolan. Bakı: "Elm və təhsil", 2018, 192 s.
359. Nizami Muradoğlu. Sözün Məmməd Araz zirvəsi. Bakı: "Elm və təhsil", 2013, 272 s.
360. Nüsrət Kəsəmənli. Hamısı sevgidəndir. Bakı: "Gənclik", 1991, 296 s.
361. Nüsrət Kəsəmənli. Seçilmiş əsərləri. Bakı: "Şərq-Qərb", 2004, 256 s.
362. Onun böyük... qələmi. İmran Qasımovun 100 illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsai / "F.Köçərli adına Respublika Uşaq Kitabxanası", 2018, 20 s.
363. Osman Sarıvəlli. O daha da yüksələcəkdir / Kələntərli K. Öz qitəmi axtarıram. Bakı: "Azərnəşr", 1965, 158 s.
364. Pərvanə Məmmədli. Cənubi Azərbaycan mətbuatı tarixi: XIX-XX əsrlər. Bakı: "Elm", 2009, 230 s.
365. Rahid Ulusel. Rəsul Rza poeziyası. Bakı: "Yazıçı", 1987, 216 s.
366. Rahid Ulusel. Bir qalanın bürcləri: Bəxtiyar Vahabzadə, Sabir Rüstəmxanlı, Nizami Cəfərov. Bakı: "Elm və təhsil", 2017, 148 s.
367. Rafael Hüseynov. Böyük yolun həqiqəti. Bakı: "Elm və təhsil", 2020, 359 s.
368. Rafael Hüseynov. İkinci olmayacaq. Bakı: "Elm və təhsil", 2023, 1006 s.
369. Rəfiq Zəka Xəndan. Heydər Baba. Bakı: "Qorqud", 1993, 128 s.
370. Rəfiq Zəka Xəndan. Dünyanın yarısı türkdür: şeirlər və poemalar. Bakı: "Qorqud" 1996, 359 s.
371. Rəhim Əliyev. Poeziyanın təbiiliyi. Bakı: "Yazıçı", 1982, 89 s.
372. Rəhim Əliyev. Taleyin yazıları / Ədəbiyyatımız, tariximiz, dilimiz: son iki onilimiz. Bakı: "Elm", 1997, 308 s.

373. Rəhim Əliyev. Taleyin sözü (ədəbi-tənqidi məqalələr). Bakı: “MBM”, 2008, 485 s.
374. Rüfət Əhmədzadə. Məhəbbətlə, gülüşlə. Bakı: “Yazıçı”, 1981, 125 s.
375. Rüfət Zəbioğlu. Duman yolumu kəsdi. Bakı: “Gənclik”, 1970, 88 s.
376. Rüstəm Kamal. Nüsrət Kəsəmənlinin nağılları / Güzgü günü: filoloji esselər. Bakı: “Çaşıoğlu”, 2017, 276 s.
377. Sabir Azəri. Duman çəkilir. Bakı: “Yazıçı”, 1979, 252 s.
378. Sabir Əhmədov. Yamacda nişanə. Bakı: “Gənclik”, 1973, 173 s.
379. Sabir Əhmədov. Toğana. Bakı: “Yazıçı”, 1981, 316 s.
380. Sabir Əhmədov. Yasamal gölündə qayıqlar üzürdü (Romanlar). Bakı: “Yazıçı”, 1984, 310 s.
381. Sabir Əhmədov. Yanvar hekayələri. Bakı: “Azərnəşr”, 1992, 126 s.
382. Sabir Əhmədli. Seçilmiş əsərləri. İki cilddə, I cild. Bakı: “Azərnəşr”, 1989, 458 s.
383. Sabir Əhmədli. Seçilmiş əsərləri. İki cilddə, II cild. Bakı: “Azərnəşr”, 1990, 352 s.
384. Sabir Əhmədov. Yasaq edilmiş oyun. Gülmalı kişinin axırı (Romanlar). Bakı: “Yazıçı”, 1988, 356 s.
385. Sabir Rüstəmxanlı. Qan yaddaşı. Bakı: “Yazıçı”, 1986, 263 s.
386. Sabir Rüstəmxanlı. Ömür. Bakı: “Gənclik”, 1989, 364 s.
387. Sadıq Şükürov. Nəriman Həsənzadənin yaradıcılığında estetika məsələləri. Bakı: “CBS”, 2009, 119 s.
388. Safurə Quliyeva. Poeziyamız XX yüzillikdə. Bakı: “Elm”, 2023, 386 s.
389. Safurə Quliyeva. Qasım Qasımzadənin yaradıcılıq yolu. Sənətkarın elmi pasportu – 46. Bakı: “Elm”, 2024, 244 s.
390. Safurə Quliyeva. Ədəbi yaddaş – Əbədi yaddaşımız. Bakı: “Elm və təhsil”, 2025, 382 s.
391. Salam Qədirzadə. Gənclik. “Azərbaycan” jur., № 27, 1953, 5 s.
392. Salam Qədirzadə. Burada insan yaşamışdır. Bakı: “Azərnəşr”, 1963, 182 s.
393. Salam Qədirzadə. Sevdasız aylar. Bakı: “Xan”, 2021, 82 s.
394. Salam Qədirzadə. Qış gecəsi. Bakı: “Xan”, 2024, 317 s.
395. Salidə Şərifova. Müasir Azərbaycan romanlarında ictimai-siyasi mühitin təsviri problemləri. – Bakı: “Bakı Qızlar Universitetinin nəşriyyatı”, 2007, 78 s.
396. Samirə Quliyeva. Əlfi Qasımovun yaradıcılığı. Bakı: “Elm və təhsil”, 2015, 184 s.
397. Sara Osmanlı. Düşündüklərim, yazdıqlarım... Bakı: “Sabah”, 2023, 320 s.
398. Sevinc Kazımova. Ömrün iki yolu. Bakı: “Elm və təhsil”, 2010, 188 s.

399. Səfiyeva Fəridə. Nəbi Xəzrinin sənətkarlığı. Bakı: "Elm və təhsil", 2009, 343 s.
400. Səməd Vurğun. Əsərləri. Altı cilddə, VI cild. Bakı: "Elm", 1972, 460 s.
401. Səyavuş Sərxanlı. Dünya sevənlərindir. Bakı: "Gənclik", 1971, 78 s.
402. Səyavuş Sərxanlı. Anamın səsi gəlir. Bakı: "Gənclik", 1978, 117 s.
403. Səyavuş Sərxanlı. Duz-çörək. Bakı: "Yazıçı", 1986, 156 s.
404. Sona Xəyal. Zeynal Xəlil (yaradıcılığı əsasında). Bakı: "MBM", 2010, 91 s.
405. Südabə Ağabalayeva. Karvan yolu, tənha yolçu. Bakı: "Səda", 2005, 197 s.
406. Süleyman Rəhimov. Bir neçə söz / Ağa Laçınlı. Sevgimizlə sevindirək. Bakı: "Yazıçı", 1981, 152 s.
407. Süleyman Vəliyev. Bığlı ağa. Bakı: "Azərnəşr", 1937, 93 s.
408. Süleyman Vəliyev. Düyünlər. Bakı: "Azərnəşr", 1970, 258 s.
409. Süleyman Vəliyev. Qanadı sınmış quş da uçarmış (Sənədli roman). Bakı: "Xan", 2017, 104 s.
410. Şahmar Əkbərzadə. Xarıbülbül nəğmələri. Bakı: "Azərnəşr", 2018, 295 s.
411. Şamil Vəliyev. Söz rəncbəri / Kələntərli K. Seçilmiş əsərləri. Səkkiz cilddə. I cild. Bakı, "Azərbaycan" nəşriyyatı, 2010, 372 s.
412. Şəkər Aslanov. Bahar yağışı. Bakı: "Azərbaycan Dövlət Nəşriyyatı", 1964, 56 s.
413. Şəkər Aslanov. Məhəbbət fəsli. Bakı: "Azərbaycan Dövlət Nəşriyyatı", 1973, 82 s.
414. Şəmil Sadiq. İsa Muğanna yaradıcılığı "İdeal" işığında. Bakı: "Hədəf Nəşrləri", 2017, 318 s.
415. Şirindil Alışanlı. Sözün estetik yaddaşı. Bakı, "Elm", 1994, 228 s.
416. Şirindil Alışanlı. Ədəbi-bədii düşüncənin sərhədləri. Bakı, "Sabah", 2010, 358 s.
417. Şirindil Alışanlı. Müasir humanitar təfəkkür və Azərbaycan ədəbiyyatşünaslığı. Bakı: "Elm", 2011, 373 s.
418. Şirindil Alışanov. Ədəbi-nəzəri fikrin tarixiliyi və müasirliyi. Bakı: "Elm", 2013, 400 s.
419. Tahirə Məmməd. XX əsr Azərbaycan dramaturgiyasının poetikası. Bakı: "Elm", 1999, 208 s.
420. Tehran Əlişanoğlu. Azərbaycan nəsri sosializm realizmi çevrəsində. Bakı: "Elm", 1999, 100 s.
421. Tehran Əlişanoğlu. Azərbaycan yeni nəsri. Bakı: "Elm", 1999, 128 s.
422. Tehran Əlişanoğlu. Əsrdən doğan nəsr (XX əsr Azərbaycan nəsrinin təşəkkül poetikası). Bakı: "Elm", 1999, 115 s.

423. Tehran Əlişanoğlu. XX əsr Azərbaycan nəsrinin poetikası. Bakı: "Elm", 2006, 312 s.
424. Tehran Əlişanoğlu. Milli nəsrdə Azərbaycan obrazı. Tarix və müasirlik kontekstində. Bakı: "Elm və təhsil", 2017, 611 s.
425. Teymur Əhmədov. Xəlil Rza Ulutürk (kitab-albom). Bakı: "Azərbaycan Mill Ensiklopediyası", 2002, 204 s.
426. Teymur Əhmədov. Azərbaycan yazıçıları XX-XXI yüzillikdə. Bakı: "Nurlar", 2011, 1056 s.
427. Təyyar Salamoğlu. Müasir Azərbaycan romanının poetikası. Bakı: "Elm", 2005, 280 s.
428. Tofiq Bayram. Seçilmiş əsərləri. Bakı: "Lider", 2005, 328 s.
429. Tofiq Bayram. Azərbaycanım. Bakı: "Azərbaycan", 2015, 638 s.
430. Tofiq Hacıyev. Yenilikçi poeziya (ön söz) / Əli Kərim. Qayıt (şeirlər). Bakı: "Yazıçı", 1983, 285 s.
431. Tofiq Hüseynoğlu. Söz – tarixin yuvası. Bakı: "Azərnəşr", 2000, 166 s.
432. Tofiq Mütəllibov. Görüş yerimiz. Bakı: "Yazıçı", 1985, 226 s.
433. Tofiq Mütəllibov. Mənim əzizlərim. Bakı: "Yazıçı", 1979, 237 s.
434. Tofiq Mütəllibov. Sevənlərin ürəyi. Bakı: "Yazıçı", 1991, 208 s.
435. Vaqif Cəbrayılzadə. Ölənəcən sevmək azdır. Bakı: "Yazıçı", 1990, 128 s.
436. Vaqif Səmədoğlu. Uzaq yaşıl ada. Bakı: "Şərq-Qərb", 2004, 264 s.
437. Vaqif Yusifli. Karvanbaşı, yolun hayanadır? Bakı: "Gənclik", 1998, 128 s.
438. Vaqif Yusifli. Sındır qəfəsi. Bakı: "Mütərcim", 2008, 118 s.
439. Vaqif Yusifli. Poeziyanın yolları və illəri. Bakı: "Mütərcim", 2009, 403 s.
440. Vaqif Yusifli. Rəsul Rza və müasir Azərbaycan poeziyası. Bakı: "Letterpress", 2010, 159 s.
441. Vaqif Yusifli. Məmməd Araz dünyası (həyat və yaradıcılığı). Sənətkarın elmi pasportu – 55. Bakı: "Elm və təhsil", 2024, 218 s.
442. Vüqar Əhməd. Ədəbiyyatşünaslıq. Dərslik. Bakı: "Müəllim", 2007, 167 s.
443. Yaqub İsmayılov. İsmayıl Şıxlı: həyatı, mühiti, sənəti. Bakı: "Ayna mətbuat evi", 1999, 222 s.
444. Yaqub İsmayılov. İsi Məlikzadə – söz sərrafı, nəsr ustası. Bakı: "Elm", 2007, 204 s.
445. Yaşar Qarayev. Səhnəmiz və müasirlərimiz. Bakı: "Azərnəşr", 1972, 251 s.
446. Yaşar Qarayev. Tənqid: problemlər, portretlər. Bakı: "Azərnəşr", 1976, 210 s.
447. Yaşar Qarayev. Poeziya və nəsr. Bakı: "Yazıçı", 1979, 196 s.

448. Yaşar Qarayev, Şamil Salmanov. Poeziyanın kamilliyi. Bakı: “Yazıçı”, 1985, 192 s.
449. Yaşar Qarayev. Ədəbi üfüqlər. Bakı: “Gənclik”, 1985, 286 s.
450. Yaşar Qarayev. İlyas Əfəndiyev. – Bakı: “Qızıl Şərq” mətbəəsi, 1987, 50 s.
451. Yaşar Qarayev. Tarix: yaxından və uzaqdan. Bakı: “Sabah”, 1996, 712 s.
452. Yaşar Qarayev. Seçilmiş əsərləri. Beş cilddə, I c. Bakı: “Elm”, 2015, 664 s.
453. Yaşar Qarayev. Seçilmiş əsərləri. Beş cilddə, II c. Bakı: “Elm”, 2015, 629 s.
454. Yaşar Qarayev. Seçilmiş əsərləri. Beş cilddə, III c. Bakı: “Elm”, 2015, 907 s.
455. Yaşar Qarayev. Seçilmiş əsərləri. Beş cilddə, IV c. Bakı: “Elm”, 2016, 772 s.
456. Yaşar Qarayev. Seçilmiş əsərləri. Beş cilddə, V c. Bakı: “Elm”, 2016, 727 s.
457. Yavuz Axundlu. İstiqlal şairləri. Bakı: “Elm”, 1998, 126 s.
458. Yavuz Axundlu. Azərbaycan tarixi romanı: mərhələlər, problemlər. Bakı: “Adiloğlu”, 2005, 550 s.
459. Yavuz Axundlu. Ədəbi portretlər. Bakı: “Elm”, 2009, 411 s.
460. Yeqor İsayev. Böyük məhəbbət poeziyası / N.Xəzri. Seçilmiş əsərləri. Dörd cilddə, IV cild. Bakı: “Yazıçı”, 1984, 262 s.
461. Yusif Səmədoğlu. Qətl günü. Bakı: “Yazıçı”, 1987, 182 s.
462. Yusif Səmədoğlu. Deyilənlər gəldi başa. Bakı: “XXI Yeni Nəşrlər Evi”, 1999, 340 s.
463. Yusif Səmədoğlu. Sonsuz ömrün yolçusu. Bakı: “Qanun”, 2018, 343 s.
464. Zeynal Cabbarzadə. Dostum, gəl, sözə bax! (Şeirlər, poemalar, nağıllar). Bakı: “Azərbaycan Dövlət Nəşriyyatı”, 1966, 381 s.
465. Zeynal Cabbarzadə. Uca dağlar başında. Bakı: “Gənclik”, 1980, 221 s.
466. Zeynal Cabbarzadə. Seçilmiş əsərləri. Bakı: “Avrasiya Press”, 2005, 224 s.
467. Zeynal Xəlil. Qılınc. Bakı: “Uşaqgəncnəşr”, 1940, 41 s.
468. Zeynal Xəlil. Dünya, ey gözəl dünya. Bakı: “Gənclik”, 1975, 203 s.
469. Zeynal Xəlil. Seçilmiş əsərləri. Bakı: “Öndər”, 2004, 264 s.
470. Zəkiyyə Qiyasbəyli. İmran Qasımov. Bakı: “Yazıçı”, 1983, 186 s.
471. Ziya Bünyadov. Babəkə əbədi abidə / Cəlal Bərgüşad. Sıyrılmış qılınc. Bakı: “Gənclik”, 1981, 321 s.

Rus dilində

1. Алексей Лаптев. Дети. Баку: «Юность», 1972, 200 с.
2. Илья Сельвинский. «Бабек» в переводе Улутюрка Халила Рзы. Баку: «Гянджлик», 1975, 250 с.
3. Иса Габиббейли. Литература, время, современность. Москва: «Художественная литература», 2020, 463 с.
4. Иса Габиббейли, Абузар Багиров. Азербайджан – Жемчужина Турана (монография – антология). Москва: «Художественная литература», 2020, 635 с.
5. Константин Федин. Журнал «Дружба народов», 1970, № 6, 125 с.
6. Ольга Буланова. Гасан Сеидбейли: Азербайджанский кино-революционер. https:azerhistory.com
7. Павел Рудяков. Роман «Сны, боли». Журнал «Звезда», 1987, № 11, 29 с.
8. Роберт Рождественский. Письмо в тридцатый век (в переводе Халила Рзы Улутюрка). Баку: «Гянджлик», 1984, 220 с.
9. Салида Шарифова. Жанровое смешение в романе: коммуникативно-социокогнитивный подход – Москва: Независимое литературное агентство «Московский парнас», 2011, 400 с.
10. Сергей Есенин. Стихи и поэмы. Баку: «Азернашр», 1975, 123 с.
11. Щеблыкин И.П. История русской литературы XI – XIX вв. Москва: “Высшая школа”, 1985, 511 с.
12. Юрия Николаевич Тынянов. Поэтика. Историческая литература. Кино. Баку: 1970, 300 с.

Türk dilində

1. Ahmed Ateş. Hakaninin mektubları dergisi. Ankara: Türk Tarih Kurumu. Belleten, 1961. XXV cilt, sayı 98.
2. Dilek Erenoğlu. “Azerbaycan şairi Halil Rıza ve Men Şerqem” adlı eseri. Eserdeki şiirler üzerinde dil incelemesi. İzmir: 2005, 260 s.
3. Ünver Nasrattinoğlu İrfan. Gerçeğe Açılan Bir Pencere. Ankara: 2000, 300 s.
4. İsa Habibbeyli. Azerbaycan edebiyatı: merhaleler ve simalar. Türkiye, Ankara: “Bengü”, 2024, 451 s.

BƏLƏDÇİ

Azərbaycan ədəbiyyatında "Aralıq ədəbi nəsil" və "Altmışıncılar" mərhələsi, yaxud sərt realizm – modernizm dövrü (1960-1980-ci illər) **– *İsa Həbibbəyli***..... 5

POEZİYA (1960-1980-ci illər) – ***Bədirxan Əhmədli, Əlizadə Əsgərli***..... 29

Bəxtiyar Vahabzadə (1925-2009) – ***Əlizadə Əsgərli***..... 60

Hüseyn Arif (1924-1992) – ***Şirindil Alışanlı***..... 90

Nəbi Xəzri (1924-2007) – ***Şirindil Alışanlı***..... 104

Qabil (1926-2007) – ***Bahar Bərdəli***..... 113

Xəlil Rza Ulutürk (1932-1994) – ***Əlizadə Əsgərli***..... 128

Məmməd Araz (1933-2004) – ***İsa Həbibbəyli***..... 142

Cabir Novruz (1933-2002) – ***Əlizadə Əsgərli***..... 172

Müzəffər Nəsirli (1911-1980) – ***İsa Həbibbəyli***..... 184

Zeynal Xəlil (1914-1973) – ***Asif Rüstəmli***..... 190

Ənvər Əlibəyli (1916-1968) – ***Safurə Quliyeva***..... 198

İbrahim Kəbirli (1918-2001) – ***Elmira Babayeva***..... 211

Zeynal Cabbarzadə (1920-1977) **– *Asif Rüstəmli***..... 221

Qasım Qasımzadə (1923-1993) – ***Safurə Quliyeva***..... 229

Hüseyn Razi (1924-1998) – ***İsa Həbibbəyli***..... 248

Adil Babayev (1925-1977) – ***Təranə Aslanova*** 258

Gəray Fəzli (1925-1995) – ***Lütviyyə Əsgərzadə***..... 265

Cavad Cavadlı (1926-2015) – ***İsa Həbibbəyli***..... 274

Atif Zeynallı (1927-1991) – ***Təranə Aslanova***..... 299

Əliağa Kürçaylı (1928-1980) – ***Vaqif Yusifli***..... 305

Hikmət Ziya (1929-1995) – ***Aygün Bağırlı***..... 313

Tofiq Mütəllibov (1929-1992) – ***Tahir Məsimov***..... 319

Fikrət Sadıq (1930-2016) – ***Eşqanə Babayeva***..... 327

Davud Ordubadlı (1930-2011) – ***Töhfə Talıbova***..... 338

Əli Kərim (1931-1969) – ***Cavanşir Yusifli*** 345

Bəhmən Vətənoğlu (1932-2004) – ***İlham Məmmədli***..... 360

Rüfət Zəbioğlu (1932-1983) – ***Elmira Babayeva***..... 370

Rüfət Əhmədzadə (1933-1988) – ***Güldəniz Qocayeva***..... 378

Kələntər Kələntərli (1933-2012) **– *Nizami Tağısoy***..... 385

Hüseyn Kürdoğlu (1934-2003) – ***Qəzənfər Paşayev***..... 397

Tofiq Bayram (1934-1991) – ***Dilarə Adilova***..... 407

Famil Mehdi (1934-2003) – ***İlham Məmmədli***..... 416

Məstan Günər (1935-2010) – ***Vaqif Yusifli***..... 425
Kəmalə Ağayeva (1936-2019) – ***İsa Həbibbəyli***..... 432
Şəkər Aslan (1937-1995) – ***İslam Qəribli***..... 441
Rəfiq Zəka Xəndan (1939-1999) – ***Güldəniz Qocayeva***..... 448
Ənvər Rza (1939-1987) – ***İlham Məmmədli***..... 455
Arif Abdullazadə (1940-2002) – ***Hicran Nəsibova***..... 464
Ağa Laçınlı (1940-2007) – ***İlham Məmmədli***..... 479
Ələkbər Salahzadə (1941-2013) – ***Nizami Tağısoy***..... 489
İsa İsmayılzadə (1941-1997) – ***Hicran Nəsibova***..... 501
Şahmar Əkbərzadə (1941-2000) – ***Fidan Əbdürəhmanova***..... 510
Əhməd Elbrus (1941-2006) – ***Asif Rüstəmli***..... 520
Səyavuş Sərxanlı (1942-2005) – ***Tahir Məsimov***..... 529
Davud Nəsib (1942-2003) – ***Dilarə Adilova***..... 536
Nüsrət Kəsəmənli (1946-2003) – ***Günay Qarayeva***..... 547
Eldar Baxış (1947-1996) – ***İlham Məmmədli*** 559
NƏSR (1960-1980-ci illər) **–** ***Akif Hüseynov*** 569
İsmayıl Şıxlı (1919-1995) – ***Bəkir Nəbiyev***..... 591
Qılman İlkin (1914-2009) **–** ***Dilarə Adilova***..... 608
İmran Qasımov (1918-1981) – ***Dilarə Adilova***..... 615
Hüseyn İbrahimov (1919-2008) – ***İsa Həbibbəyli***..... 629
Bayram Bayramov (1918-1994) – ***Asif Rüstəmli***..... 648
Əzizə Cəfərzadə (1921-2003) – ***Vaqif Yusifli***..... 657
Hüseyn Abbaszadə (1922-2007) – ***Qurban Bayramov***..... 666
İsa Muğanna (1928-2014) – ***Akif Hüseynov, Şəmil Sadıq***..... 679
Sabir Əhmədli (1930-2009) – ***Elnarə Akimova***..... 703
Yusif Səmədoğlu (1935-1998) – ***Aygün Bağırlı***..... 724
Manaf Süleymanov (1912-2001) – ***Dilarə Adilova***..... 739
Süleyman Vəliyev (1916-1996) – ***Aslan Salmanov***..... 746
Cəmşid Əmirov (1918-1982) – ***Seyidnisə Lətifli***..... 757
Həsən Seyidbəyli (1920-1980) – ***Dilarə Adilova***..... 766
Mahmud İsmayılov (1920-2001) **–** ***Elnarə Zeynalova*** 781
Xalidə Hasilova (1920-1996) – ***Ədalət Rəsulova***..... 789
Ələviyyə Babayeva (1921-2014) – ***Dilarə Adilova***..... 796
Salam Qədirzadə (1923-1987) – ***Dilarə Adilova***..... 805
Gülhüseyn Hüseynoğlu (1923-2013) – ***Vaqif Yusifli***..... 812
Cəlal Bərgüşad (1924-1996) – ***İlham Məmmədli*** 822
Məmmədhüseyn Əliyev (1925-1994) – ***İslam Qəribli***..... 835

Əlfi Qasımov (1927-1985) – ***Güldəniz Qocayeva*** 844
İsi Məlikzadə (1934-1995) – ***Yaqub İsmayılov***..... 853
Əlibala Hacızadə (1935-2009) – ***Təranə Aslanova***..... 859
Çingiz Ələkbərzadə (1936-1999) – ***Əlizadə Əsgərli***..... 866
Fərman Kərimzadə (1937-1989) – ***Gülbəniz Babayeva***..... 882
Sabir Azəri (1938-2010) – ***Vaqif Yusifli***..... 898
Резюме – ***Сара Османлы***..... 904
Summary – 916
Ədəbiyyat – ***Günay Oruczadə***, ***Rasta Fətiyeva***..... 927

Kitab antiplagiat proqramından keçirilmişdir

Nəşriyyatın direktoru: fil.f.d. **Səbuhi Qəhrəmanov**

Nəşriyyatın redaktorları: fil.f.d., dos. **Töhfə Talıbova**
Ülkər Hüseynova
Maral Poladova

Texniki redaktor: **Rəşid Kərimli**

Korrektorlar: **Aynur Xubanova**
Mətanət Abdunova
Zərin Vəliyeva

Operator: **Fərqanə Əhmədova**

Formatı: 70x100 1/16
Tirajı: 300. Həcmi: 60.
Çapa imzalanma tarixi: 24.12.2025

==========

"Elm" nəşriyyatının mətbəəsində çap olunmuşdur.
Ünvan: Bakı şəhəri, İstiqlaliyyət küçəsi, 28